Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu

ELÇİN QARAYEV

# QƏRBİ AZƏRBAYCAN XIX YÜZİLLİYİN İKİNCİ YARISI- XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ

*(İRƏVAN QUBERNİYASININ MATERİALLARI ƏSASINDA)*

Bakı - 2024

AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun
Elmi Şurasının qərarı ilə çapa məsləhət görülmüşdür

Elmi redaktor: Cəbi Bəhramov
tarix üzrə fəlsəfə doktoru, dosent

Rəyçilər: Ramil Niftəliyev
tarix üzrə fəlsəfə doktoru, dosent,

Ziyad Əmrahov
tarix üzrə fəlsəfə doktoru, dosent

Qarayev Elçin. Qərbi Azərbaycan XIX yüzilliyin ikinci yarısı - XX yüzilliyin əvvəllərində *(İrəvan quberniyasının materialları əsasında)*, Bakı, "Nəşriyyat" şöbəsi, 2024, 806 s.

Monoqrafiyada ilkin mənbələr və arxiv materialları əsasında İrəvan quberniyasının siyasi, sosial-iqtisadi və mədəni həyatı tədqiq edilir. Burada İrəvan quberniyasının yaranması, onun ərazisi və inzibati-ərazi bölgüsü, idarəçilik sistemi, iqtisadi həyatının ayrı-ayrı istiqamətləri, əhalinin etnik və say tərkibi, bölgənin mədəni həyatının müxtəlif sahələri araşdırılır.

© AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, 2024

# GİRİŞ

Son dövrlərdə Qərbi Azərbaycan tarixinin hərtərəfli öyrənilməsi Azərbaycan tarixşünaslığının qarşısında duran vacib məsələlərdən biridir. Böyük bir ərazini əhatə edən bu bölgəyə Azərbaycanın şimal-qərb hissəsində İrəvan, Naxçıvan, Zəngəzur, Borçalı və s. daxildir. Qərbi Azərbaycan torpaqlarının böyük bir ərazisinin "itirilmiş torpaqlar" olduğunu nəzərə alaraq, bu regionun tarixinin öyrənilməsi aktual bir problemdir. Bu torpaqlardan hazırda ermənilərin dövlət yaratdığı Azərbaycanın əzəli torpaqları olan İrəvan bölgəsinin həqiqi tarixinin öyrənilməsi xüsusilə vacibdir. Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olarkən Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşərək onlarla söhbət etmişdir. O, öz nitqində Qərbi Azərbaycanla bağlı bir çox məqamlara toxunmuş və tarixçilərimizin qarşısında xeyli məsələlər qoymuşdur. Xüsusilə, 2020-ci il sentyabrın 27-dən başlayan 44 günlük Vətən müharibəsi zamanı Ali Baş Komandan, prezident İlham Əliyevin başçılığı ilə ordumuzun apardığı hərbi əməliyyatlar zamanı 30 ilə yaxın işğal altında qalmış Qarabağın geri qaytarılması yeni reallıqlar yaratdı. Tarixi torpaqlarımız olan Qərbi Azərbaycandan məcburən qovulmuş, didərgin düşmüş həmyerlilərimizin öz tarixi torpaqlarına qayıtmaq məsələsi haqlı olaraq ortaya atıldı. Prezident İ.H.Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan icmasının binasına baxış keçirdiyi zaman söylədiyi nitqində bu məsələni qəti qoymuşdur. O, tarixi nitqində bəyan etmişdi ki, "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlı-

ların tarixi irsini silmək istəyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bisin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, icma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır".

Ermənilər Qərbi Azərbaycan torpaqlarının bir hissəsində iri dövlətlərinköməyi ilə dövlət yaratmaqla bərabər, onun tarixini və çəkdikləri xəritələrdə reallıqdan uzaq bölgənin sərhədlərini saxtalaşdırmış, reallıqdan uzaq özlərinə tarix yaratmışdılar. Arxiv materiallarına və tarixi mənbələrə söykənərək Qərbi Azərbaycanın həqiqi tarixini öyrənməklə erməni saxtakarlığını ifşa etmək, onların bu torpaqlara gəlmə olduqlarını sübut etmək mümkündür.

Qeyd etmək lazımdır ki, İrəvan quberniyası Azərbaycanın qədim torpaqları olan İrəvan və Naxçıvan xanlıqlarının ərazisində yaranmışdır. Bu xanlıqları işğal etdikdən sonra çar Rusiyası bu bölgəni Azərbaycandan ayırmaq, Osmanlı Türkiyəsi və Qacar dövləti sərhədlərində bufer zona yaratmaq, bölgənin etnik tərkibini dəyişərək xristianlaşdırmaq, bölgənin iqtisadiyyatını, idarəçiliyini mərkəzi Rusiya qayda-qanunlarına tabe etmək üçün müxtəlif islahatlar keçirmişdir. Çar Rusiyasının ilk siyasəti erməniləri qonşu dövlətlərdən Azərbaycanın İrəvan, Naxçıvan, Ordubad, Qarabağ və digər bölgələrinə köçürmək olmuşdur. Bu köçürmələr XIX yüzilliyin 20-ci illərinin sonlarından başlayaraq XX yüzilliyin əvvəllərinə qədər davam etmişdir. Digər tərəfdən, çar hakimiyyət orqanlarının apardığı inzibati-ərazi bölgüsü islahatı ilə İrəvan bölgəsində "Erməni vilayəti", Tiflis quberniyasına daxil olan İrəvan və Naxçıvan qəzaları və nəhayət İrəvan quberniyası yaradılmışdır.

“Qərbi Azərbaycan XIX yüzilliyin ikinci yarısı-XX yüzilliyin əvvəllərində (İrəvan quberniyasının materialları əsasında)” adlı monoqrafiya Azərbaycanın ayrılmaz tərkib hissəsi olan İrəvan quberniyasının bəhs etdiyimiz dövr ərzində tarixinə həsr edilmişdir. İrəvan quberniyası yarandıqdan sonra çar Rusiyasının köməyi ilə burada məskunlaşan ermənilər əllərinə düşən imkandan istifadə edərək zaman-zaman bölgədə möhkəmlənmiş, Azərbaycan türklərini sıxışdıraraq bölgənin tarixini saxtalaşdırmış, bu ərazinin onların əcdadlarının olması haqqında saxta faktlara əl atmağa başlamış, öz məkrli niyyətlərinə dünya miqyasında haqq qazandırmağa çalışmışdılar. Ermənilər “Böyük Ermənistan” yaratmaq xülyası ilə Azərbaycan türklərinə qarşı bəhs etdiyimiz dövr ərzində çar hakimiyyət orqanlarının köməyi ilə bir neçə dəfə təcavüzkar siyasəti yeritməklə, soyqırım həyata keçirməklə XX yüzilliyin əvvəllərində dövlət yaratmağa nail olmuşdular. Azərbaycanın İrəvan bölgəsinin kiçik hissəsində iri dövlətlərin köməyi ilə dövlət yaratmağa nail olan ermənilər sovet hakimiyyəti illərində bölşeviklərin apardığı siyasət nəticəsində ərazilərini daha da genişləndirmişdilər. Bu ərazi genişliyi Azərbaycanın əzəli torpaqları olan Zəngəzur və İrəvan bölgəsinin əraziləri hesabına olmuşdur. Əllərinə düşən bu fürsətdən istifadə edən ermənilər nəinki İrəvan bölgəsinin tarixini saxtalaşdırmış, eyni zamanda bu bölgədə Azərbaycan türklərinə məxsus tarixi maddi-mədəniyyət abidələrini zaman-zaman məhv etmiş, yer, çay və göl adlarını “erməniləşdirmişdilər”. Ermənilərin bu fəaliyyəti Cənubi Qafqazı müstəmləkəyə çevirmək, burada xristian çoxluğuna nail olmaqla “bufer dövlət” yaratmaq istəyən Rusiyanın siyasətinə uyğun olduğundan uydurma nəzəriyyələr yaradılmış, istər rus tarixçilərinin əsərlərində, istərsə də sovet tarix elmində hökm sürən konsepsiyaya görə, İrəvan bölgəsi ermənilərin uydurduqları “Böyük Ermənistan”ın tərkib hissəsi kimi göstərilmişdir.

Lakin XX yüzilliyin 90-cı illərinin əvvəllərində Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra tariximizin obyektiv şəkildə öyrənilməsi üçün böyük imkanlar yarandı. Tarixi faktlara yenidən müraciət edən Azərbaycan tarixçiləri xalqımızın keçdiyi tarixi yolu nəzərdən keçirərkən məlum olmuşdir ki, Rusiyanın məkrli siyasəti nəticəsində ermənilər qonşu dövlətlərdən İrəvan bölgəsinə köçürülmə nəticəsində çoxluğa nail olmuş, bundan yararlanaraq yerli Azərbaycan türklərinə qarşı soyqırımı həyata keçirməklə, bölgəni özününküləşdırməyə çalışmışdılar. Sovet hakimiyyəti illərində isə ikiüzlü siyasət yürütməklə bu bölgədən Azərbaycan türklərini dədə-baba yurdlarından tədricən qovaraq, 1988-ci ildən açıq şəkildə təmizləmə siyasəti həyata keçirmişdilər. Yüz minlərlə Azərbaycan türkü tarixən yaşadığı doğma yurdlarından qovulmuşdur. Lakin ermənilərin yazdıqları saxta tarixə baxmayaraq, son illərdə Azərbaycan tədqiqatçılarının apardıqları tədqiqatlar əsl həqiqətlərin üzə çıxmasına, Rusiyanın və ermənilərin yeritdikləri siyasətin mahiyyətini açmağa kömək etmişdir. Əgər müxtəlif mənbələri nəzərdən keçirsək görmək olar ki, İrəvan quberniyasına məxsus şəhərlərin, kəndlərin, çayların, göllərin, otlaqların, dağların və maddi-mədəniyyət abidələrinin adları əsasən Azərbaycan türkcəsində olmuş, bu dildə öz adlarını qoruyub saxlamışdır. Hətta bölgəyə erməni və digər xristianların köçürülməsinə baxmayaraq, Azərbaycan türk əhalisi quberniyanın əksər qəzalarında çoxluq təşkil etmişdilər. Çar hakimiyyət orqanlarının və onlara kömək edən ermənilərin bütün cəhdlərinə baxmayaraq, bunu ayrı-ayrı illərdə aparılan siyahıyaalınmaların nəticələrindən görmək mümkündür. Azərbaycan türkləri nəinki əhalinin sayında üstünlüyə nail olmuş, həmçinin bu xalqın nümayəndələri İrəvan quberniyasının iqtisadi-siyasi və mədəni həyatında böyük rol oynamışdılar.

Köçürmələrlə öz istəyinə çatmayan ermənilər çar Rusiyasının yeritdiyi siyasətə arxalanaraq XIX yüzilliyin sonu XX yüzilliyin əvvəllərində Azərbaycan türklərinə qarşı soyqırımı həyata

keçirməklə, onları öz dədə-baba yurdundan məcburi didərgin salmaqla istəklərinə nail olmağa çalışmışdılar. Bu hadisələr zamanı Azərbaycan türklərinə məxsus kəndlər, yaşayış məntəqələri dağıdılmış, minlərlə insan ölmüş, yaralanmış və yurdlarından didərgin düşmüşdülər. Ermənilər bu istəklərinə çar hakimiyyət orqanlarının köməyi ilə bərabər, yaratdıqları "Hnçaq" və "Daşnaksütyun" terror təşkilatlarının fəaliyyəti ilə çatmışdılar.

İrəvan quberniyasının iqtisadi-siyasi və mədəni həyatı ilə bağlı son dövrlərdə xeyli monoqrafiyalar və məqalələr yazılmışdır. Bunlardan "İbrahim Kazımbəylinin Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri)", Ziyad Əmrahovun "İrəvan quberniyası" əsərlərini qeyd etmək olar. Bu əsərlərdə İrəvan quberniyasının yaranmasından başlayaraq, onun təbii-coğrafi şəraiti, ərazisi, sərhədləri, idarəçilik orqanları, inzibati-ərazi bölgüsü, sosial-iqtisadi və siyasi tarixi haqqında xeyli faktlar öz əksini tapmışdır. Müəlliflər real mənbələrə söykənərək İrəvan quberniyasının Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasını sübut etmiş və erməni saxtakarlıqlarına tutarlı cavab verməyə çalışmışdılar.

Oxuculara təqdim olunmuş bu monoqrafiya yuxarıda adı çəkilən əsərlərin sırasına daxildir. Monoqrafiya yuxarıda adı çəkilmiş müəlliflərin əsərlərində bəzi boşluqları doldurmaq məqsədi güdməklə bərabər, Qərbi Azərbaycan torpaqlarının bir parçası olan İrəvan quberniyasının tarixini ətraflı tədqiq etmək, bu bölgənin Azərbaycanın qədim və ayrılmaz tərkib hissəsi olmasını dünya ictimaiyyətinə çatdırmaqdır. Monoqrafiyada İrəvan quberniyasının bütün sahələri-təbii-coğrafi şəraiti, təbii sərvətləri, flora və faunası, quberniyanın yaranması, sərhədləri, inzibati-ərazi bölgüsü, əhalinin etnik və say tərkibi, onun idarəçilik sistemi, iqtisadi-siyasi və mədəni həyatı, XX yüzilliyin əvvəllərində (1905-1906-cı illər) ermənilərin Azərbaycan türklərinə qarşı soyqırım siyasəti öz əksini tapmışdır.

Monoqrafiyanın tədqiqinə xeyli arxiv materialları, çap olunmuş mənbələr, qəzet materialları və tədqiqat əsərləri cəlb edilmişdir. Əsərdə Gürcüstan Mərkəzi Tarix Arxivindən, Azərbaycan Respublikasının Dövlət Arxivindən, Azərbaycan Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivindən, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivindən çıxarılmış sənədlərdən, "İrəvan quberniyasının icmalları"ndan, "Qafqaz təqvim"lərindən, çar Rusiyası dövründə nəşr edilmiş "Qafqaz" qəzetinin müxtəlif nömrələrindən, həmin dövrdə və sonrakı dövrlərdə çap olunmuş mənbələrdən və tarixi ədəbiyyatdan istifadə edilmişdir.

# I FƏSİL

# İRƏVAN QUBERNİYASININ TƏBİİ-COĞRAFİ ŞƏRAİTİ VƏ TƏBİİ SƏRVƏTLƏRİ

**İrəvan quberniyasının təbii-coğrafi şəraiti.** İrəvan quberniyası $41^0$ $7'$ və $38^0$ $52'$ şimal en dairəsi və $60^0$ $56'$ və $63^0$ $54'$ şərq uzunluğu arasında yerləşmişdi. Quberniyanın sərhədləri cənub və qərb tərəfdən böyük hissəsi Osmanlı Türkiyəsi və Qacar dövlətləri ilə, şimaldan və şərqdən isə Tiflis və Yelizavetpol quberniyalarına bitişik idi. O, şimaldan 256 verst uzunluqda Tiflis quberniyasının Axalsıx və Borçalı qəzaları, həmçinin Yelizavetpol quberniyasının Qazax və Yelizavetpol qəzaları ilə, şərqdən 238 verst uzunluqda Cavanşir və Zəngəzur qəzaları ilə, qərbdən 182 verst uzunluqda Qars vilayətinin Qars və Kağızman dairələri ilə, cənubdan 376,5 verst uzunluğunda Türkiyənin Bəyazid sancağı və Qacar dövlətinin Azərbaycan vilayəti ilə (Maku, Qaradağ və Mərənd) həmsərhəd olmuşdur[1].

İrəvan quberniyası Kiçik Qafqazın cənub hissəsini, Ağrıdağ yüksəkliyinin şərq hissəsini tutmuşdu. Quberniya səthinə görə dağlıq, dağətəyi və düzənlik zonalarına bölünmüşdü. O, vulkanik dağlar, yaylaqlar, geniş çöllərlə əhatələnmiş dağlıq bir ərazi idi. Məlumata görə, bəhs etdiyimiz dövrdə alçaq sıra dağlarda çoxlu vulkan qalıqlarının nümunələrini görmək olardı. Burada vulkandan əmələ gəlmiş qara bazalta (tünd rəngli çox bərk və sıx

[1] Обзор Эриванской губернии за 1883 год, Эриван, Типография-печатия Р.К.Эдельсона,1884, с.1; Обзор Эриванской губернии за 1883 год, Эриван, 1892, с.1; Памятная книжка Эриванской губернии на 1906, Эриван, Типография Губернского правления, 1905, отдел IV, с.1; Первая всеобщая перепись населения Российской империи 1897, LXXI. Эриванская губерния, СПб, 1905, 1вв. л. XXIII, с.3; Əmrahov Z. İrəvan quberniyasının tarixi (1850-1917-ci illər), Bakı, “Nurlar” Nəşriyyat -Poliqrafiya Mərkəzi, 2022, s.16.

vulkanik süxur-E.Q.), müxtəlif rəngli mineral tuf daşına (tikinti materialı-E.Q.), traxitə (inşaat işlərində işlədilən dənəvər suxur-E.Q.), obsidiana (tutqun şüşəyə oxşayan vulkanik meneral-E.Q.) və bir çox yerlərdə vaxtilə Ağrıdağ, Alagöz və Ağmanqan dağlarından axan lava qalıqlarına rast gəlmək mümkün idi[2].

İrəvan quberniyasında torpaq keyfiyyətinə görə müxtəlif olmuşdur. Quberniya torpaqları gilli-qumlu, qaratorpaq və şoran olmaqla üç yerə bölünmüşdü. Gil torpaqlar təmiz gil, gilli daşlı və gilli qumlu olmaqla bir-birindən fərqlənirdi. Təmiz gil torpaqlar Araz çayının sağ sahilində, xüsusən Qulp kəndinə yaxın yerlərdə olurdu. Bu torpaqlar yaxşı suvarıldıqda bol məhsul verirdi və torpağı dincə qoymaq lazım gəlmirdi. Lakin gil torpaqları şumlamaq çətinliklə başa gəlirdi. Bunun üçün bəzi yerlərdə kotanı çəkmək üçün 15 cüt öküz və camış tələb olunurdu. Gilli daşlı torpaqlar əsasən Ağrıdağın, Alagözün ətəklərində, Çobanqıran düzənliyində daha çox idi. Gil torpaq o qədər daşlı idi ki, torpaq suyu özünə hopdurmurdu[3].

Qaratorpaq əsasən quberniyanın düzənlik ərazilərində, yüksək dağlıq ərazilərdə daha çox olurdu. O, Arazətrafı, Abaran, Ellidərə düzənliklərində, Şörəyeldə, Sınağ dağının bir hissəsində və Göyçə gölü çökəkliyində rast gəlinirdi. Bu qaratorpaq bəzən gil və vulkanik suxurlarla qarışıq olurdu. Lakin düzənliyə nisbətən dağlıq ərazilərdə torpağı bir o qədər də şumlamağa güc tələb olunmurdu[4].

Quberniyanın bəzi torpaqları şoran idi. Bu şoran torpaqların tərkibində üç cür duz olurdu ki, torpağı şuvardıqda müxtəlif məqsədlər üçün istifadə edilirdi. Xüsusən düzənlik ərazilərdə tər-

---

[2] Энциклопедический словарь Брокгауз и Ефрона, СПб, Типография Акп. Общ. Брокгауз и Ефрон, т.XLI (81), с.11; Сагателов М. Экономические очерки Эриванской губернии и озеро Гокча, Тифлис, Типография Главного Управления Наместника Кавказского, 1879, с.2.

[3] Памятная книжка Эриванской губернии на 1906, отдель IV, с.41.

[4] Памятная книжка Эриванской губернии на 1906, отдель IV, с.41-42; Памятная книжка Эриванской губернии на 1902, Эриван, Типография Губернского правления 1901, отдел IV, с.40-41.

kibi üç növ duzla zəngin olan torpaqlar mövcud idi. Belə torpaqlara Arazətrafı düzənlikdə, Sürməli qəzasında, Naxçıvan qəzasında Xok kəndi ilə Naxçıvan şəhəri arasında tranzit yolunun və Ordubad yolunun hər iki tərəfində rast gəlmək olardı. Bu torpaqlar əkin üçün yararlı deyildi və susuz çöllər idi. Şoran torpaqlarda yalnız xüsusi şoran otlar bitirdi ki, bununla dəvələri və mal-qaranı yemləyirdilər. Sürməli qəzasında su bol olduğuna görə şoran torpaqlarının yuyulması nəticəsində duz və şora hasil edilirdi və şoran bitkilərindən potaş (ağ qələvi maddə) hazırlanırdı. Duz və potaş Aleksandropol və Qarsda olan sabunbişirmə zavodlarına satılırdı, emal edildikdən sonra sabunbişirmədə, şoradan isə barıt hazırlanmasında istifadə olunurdu. Yerli əhali bəzi şoran torpaqları yumaqla onu əkin sahəsinə çevirə bilirdilər. Bu işə bir neçə il vaxt sərf olunurdu. Məsələn, birinci il məlum şoran torpağa su buraxılırdı, ikinci il onu kvadrat cərgəyə bölürdülər ki, su ətrafa axsın. Beləliklə, iki il ərzində torpağın yuxarı hissəsi yuyulurdu. Üçüncü ili onu şumlayaraq yuxarı hissəsini çevirir və yenidən su buraxılırdı. Dördüncü ili yenidən cərgəyə bölünürdü. Beşinci il isə artıq buğda əkilirdilər. Həmçinin belə torpaqlarda bağ salınır və bostan əkilirdi. Məsələn, İğdır kəndinin ətrafında şoran torpaqlar yuyulduqdan sonra üzüm bağları salınmış və bostan bitkilərindən qarpız əkilmişdir[5].

**İqlimi.** İrəvan quberniyasının iqlimi yer səthinin relyefindən asılı olaraq müxtəlif cür idi. Məsələn, Böyük Ağrıdağın yüksək yerlərində həmişə qış hökm sürürdü, dağ ətəklərində və düzənlik yerlərdə qış bir o qədər uzun olmurdu. Dəniz səviyyəsindən 3019 fut (1 fut=30,479 sm-ə bərabər rus və ingilis uzunluq ölçüsü) yüksəklikdə yerləşən Araz düzənliyi yayda isti iqliminə görə fərqlənirdi. Yaz burada fevralın axırı başlayır, iyul-avqust aylarında isə istilər yüksək səviyyəyə çatırdı. Onun illik orta tem-

[5] Сборник сведений о Кавказе, под редакцией главного редактора Н.Зейдлица, Тифлис, В типографии главного управления наместника Кавказского, 1880. Т.7, с.214; Памятная книжка Эриванской губернии на 1906, отдель IV, с.42-43.

peraturu yanvarda -6,4$^0$, iyulda isə +26,1$^0$-ə çatırdı. Bəzi vaxtlarda İrəvan şəhərində istilər yayda +40$^0$-yə, Naxçıvan və Ordubadda +45$^0$-50$^0$- yə qalxır, qışda isə -26,5$^0$-yə düşürdü. İrəvan quberniyasında dağlıq ərazi özünün çox soyuq iqlimi ilə seçilirdi. Dağlarda qar noyabrda yağırdı və qış 6-7 ay davam edirdi və soyuq – 30$^0$-yə (Yenibəyaziddə -32,3$^0$-yə) düşürdü. Bu zonada soyuq o qədər sərt olurdu ki, dənli bitkilər yetişmirdi. Hətta iqlimin sərtliyindən Göyçə gölü də donurdu. Yay isə burada çox qısa, sərin, yağışlı və dumanlı olurdu[6].

**Dağlar.** İrəvan quberniyası başdan-başa müxtəlif dağ sistemləri ilə əhatə olunmuş və həmin dağ sistemləri özlüyündə bir neçə dağ silsiləsini birləşdirmişdi. Qeyd etmək lazımdır ki, İrəvan quberniyasının yer səthi Araz çayına doğru enir, 43$^0$/$_0$-i dəniz səviyyəsindən yuxarı idi. Mənbələrdə bu haqda xeyli məlumatlara rast gəlmək mümkündür. Quberniyada dağ sistemləri və onlara daxil olan dağ silsilələri bunlar idi:

1. **Pəmbək dağ sistemi.** İrəvan quberniyasının ərazisindən keçən dağ sistemlərdən biri Pəmbək dağ sistemi idi, bu dağ sisteminə iki paralel istiqamətdə uzanan dağ silsiləsi-şimalda Bozabdal, cənubda isə Pəmbək silsilələri daxil idi. Hər iki dağ silsiləsi Voskresenski kəndi ilə Ağbulaq və Cacur kəndləri arasında iki dəfə bir-biri ilə əlaqəyə girərək, ayrılan qolları ilə Aleksandropol qəzasını Yenibəyazid qəzasından və Tiflis quberniyasının Axalsıx qəzasından ayırırdı[7]. Bozabdal dağ silsiləsinin ümumi uzunluğu 105 verst, eni 55 verst, dəniz səviyyəsindən orta yüksəkliyi isə 8500 və yaxud 8800 fut idi. Bəzi məlumatda bu dağ silsiləsinin uzunluğu 63 verst olduğu göstərilmişdir. Belə ki, Bozabdal dağ silsiləsi Pəmbək dərəsində iki hissəyə ayrılaraq, onun 63 verst olan qərb hissəsi Bozabdal adlanmış, şərq hissəsinin adı

---

[6] Первая всеобщая перепись населения Российской империи 1897, с.4; Энциклопедический словар Брокгауз и Ефрона, с.11-12; Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис: Типография канцелярии Главноначальствующаго гражданскою частью на Кавказе, 1892, выпуск 2, с.122; Сборник сведений о Кавказе, т.7, с.212-213.

[7] Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.2.

çəkilməmişdir. O, əsasən İrəvan quberniyasını Tiflis quberniyasından ayırırdı. Bu dağ silsiləsi Loru düzənliyinin cənub hissəsi boyu uzanırdı və həmin düzənliyi Pəmbək vadisi ilə birləşdirən əsas yol da buradan keçirdi. Bozabdal silsiləsi örüş üçün əlverişli yaylaq yeri idi və yay vaxtı (mayın 1-dən oktyabrın 1-ə qədər) Qazaxdan, Şəmşəddildən və Borçalıdan gəlmiş mal-qara burada otarılırdı. Dağın cənub yamaclarında meşə çox az, şimal yamacları isə başdan-başa meşə ilə sıx örtülü idi. Bozabdal dağından bir neçə əlverişli cığır və yol keçirdi. Onun aşırımının hündürlüyü 6680 futa bərabər idi. Bundan əlavə, Bozabdal dağından şimal istiqamətinə Loru düzənliyinə və cənubda Pəmbək vadisinə çoxlu və kiçik qollar ayrılırdı. Dağın həm şimal yamacında, həm də cənub yamacında dərin yarğanlar vardı. Bozabdal dağ silsiləsi bir neçə hündür zirvəyə malik olmuş və əsas zirvələri Sıp (8038 fut), Ağlağan (9833 fut), Bozabdal (9184 fut), Bozabdal-Kirsəng (7328 fut), Xarab (9918 fut), Əyribaş (9108 fut), Dəlidağ (Ahqaya) (8344 fut), aşırımları isə Qaraxaç (8500 fut) və Dəvəli (6680 fut) idi[8].

Bozabdal dağ silsiləsinə paralel, Ağbulaq və Cacur kəndləri arasında çox da böyük olmayan Yasaul və yaxud Ellidağ silsiləsi uzanırdı. Onun uzunluğu 30, eni isə 9 verst idi. Yasaul dağının zirvələri bunlar idi: Kəmxuda (6913 fut), Şiştəpə (7505 fut) və Buğatenez (8408 fut).

Pəmbək dağ sisteminə daxil olan ikinci dağ silsiləsi olan Pəmbək dağı İrəvan quberniyasının şimal-şərq hissəsini tutmuşdu. Pəmbək dağ silsiləsi cənub-şərq və cənuba doğru uzanaraq, Araz və Kür hövzələri arasında 650 verstlik su hövzəsinin bir hissəsini tuturdu, uzunluğu 85, eni isə 11-17 verstə bərabər idi. Pəmbək dağ silsiləsinin əsas zirvələri Qalınqaya (8200 fut), Kəmərli (9019), Maymax (10147), Tez Əhməd (10200), Arxaşan

---

[8]Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.2; Военно-статистическое обозрение Российской империи, Эриванская губерния, СПб: Типография Департамента Генерального Штаба, 1853, с.24-25; Памятная книжка Эриванской губернии на 1906, отдель IV, с.2-3.

(10033), Kömürlü (9486 fut), Maralcadağ (8550 fut), Meydan (7881 fut), Pirdağ (7913 fut) və Şəhriz (Çiçəkli) (7846 fut), aşırımları isə Ağbulaq yaxud Cacur (7355 fut), Pəmbək (7838 fut), Spitak (8126), Dilican yaxud Eşşəkmeydan (7125 fut) olmuşdur. Onun dağətəyi hissəsi şimaldan Bəykənd, Pəmbək və Həmzəçimən çaylarına, cənubdan Abaran düzündə Pəmbək kəndindən çıxan Cacur və Abaran çaylarına, şərqdə Misxana və Zəngi, Şamlıqçay, Balıqçay çaylarına və Göyçə gölünə, qərbdən isə Cacur, Hacı Nəzərqulu və Dirəklər kəndlərinin birləşdiyi xətlərə qədər uzanırdı[9].

Pəmbək dağ silsiləsinin aşırımları da olmuşdu. Həmin aşırımlar bunlar idi: Ağbulaq və yaxud Cacur (7355 fut hündürlükdə yerləşirdi), Pəmbək (7837 fut), Spitak (8126 fut), Semyonov, yaxud Dilican və yaxud Eşşəkmeydan (7124 fut)[10].

2. **Alagöz dağ sistemi.** Bu sistemə Alagöz dağının özü daxil idi. İrəvan quberniyasının ikinci ən böyük dağı Alagöz dağ silsiləsi olmuşdur. O, dəniz səviyyəsindən 13500 fut yüksəkdə yerləşmişdi[11]. Alagöz dağ silsiləsi cənubdan Abaranın təpəli düzənliyi vasitəsilə Pəmbək silsiləsinə doğru, onun ətəkləri isə qərbdən və şərqdən Qərbi Arpaçay və Abaran çaylarına, cənubdan Araz çayına və şimaldan Abaran və Arpaçay çaylarının qollarına qədər uzanırdı. İrəvan qəzasının qərb və şimal-qərb hissəsini Alagöz dağının yamacları təşkil edirdi. Alagöz dağı əsasən meşəsiz olsa da, örüş üçün əlverişli idi. Yay aylarında Azərbaycan türkləri burada mal-qara otarardı. O, müxtəlif hündür zirvələrə malik idi. Alagöz dağının zirvələri bunlar idi: Baş zirvə (13436 fut), Zarat (1090 fut), Qızılburun (10873 fut), Qızılalan (10884 fut), Qaraköynək (9918 fut), Adıyaman (7575 fut), Kiçik

---

[9] Памятная книжка Эриванской губернии на 1906, отдель IV, с.2-3; Военно-статистическое обозрение Российской империи, 1853, с.18-20.
[10]Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.3.
[11] Yenə orada.

Buğurt (7317fut), Qızıllıyar (Koroğlu) (4251 fut), Böyük Buğurt (5689 fut)[12].

**3. Zincirli və Qarnıyaraq dağ sistemi.** Alagöz dağından cənub-şərqə Zicirli və Qarnıyarıq dağ silsilələri uzanırdı. Onlar əsasən Yenibəyazid və Üçmüəzzin qəzalarınıda yerləşirdi. Zincirli dağ silsiləsi və yaxud Misxana dağı cənub-şərqdən Pəmbək silsiləsinin Dava-daş zirvəsindən ayrılırdı. Onun uzunluğu 35 verst, eni 25 verst, dəniz səviyyəsindən orta hündürlüyü 8500 fut idi. Zincirli dağ silsiləsinin ətəkləri şərqdən Misxana və Zəngi çaylarına, qərbdən Abaran çayına qədər, cənubdan Qarnıyarıq vulkanik massivinə dönərək uzanırdı. Onun zirvələri Quru Boğaz (9194 fut), Şaxyel (8299 fut), Əlibəy (9382 fut), Qarnıyarıq (8575 fut), Zincirli (Misxana) (9291 fut), aşırımı isə Bozyoxuş idi[13].

**4. Gəncə və yaxud Göyçə dağ sistemi.** İrəvan quberniyasına aid olan dağlardan biri də Göyçə dağ silsiləsi və yaxud Gəncə dağları idi. Bu dağ Pəmbək dağ silsiləsinin davamı hesab olunurdu və Şahdağ və Konqur-Alagöz adlanan iki qola ayrılırdı. Şahdağ silsiləsi Semyanovka çökəkliyindən başlayaraq Yenibəyazid və Naxçıvan qəzalarının və Yelizavetpol quberniyasının sərhədləri böyunca uzanırdı. Onun uzunluğu 90, eni isə 70 verstə qədər idi. Şahdağın cənub-qərb ətəkləri Göyçə gölü, Şişqaya, Kəsəmən, Oğruca və Sultanəli qışlağı xətləri boyunca uzanırdı, şimal-şərq yamacları isə Yelizavetpol quberniyasına meyillənirdi. Şahdağ başqa cür Güney və yaxud Şimal-şərqi Göyçə dağları da adlanırdı. Bu dağ silsiləsi, xüsusən onun şimal-şərq hissəsi mis mədənləri ilə, qırmızı dəmir filizlə, qurğuşunla və kobaltla zəngin idi. Məhz Gədəbəy və Qayakənd mis mədənləri bu dağın ətəklətində yerləşmişdi. Şahdağın Maralcadağ (8550 fut), Soyuq-

---

[12] Военно-статистическое обозрение Российской империи, 1853, с.27; Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.3-4; Памятная книжка Эриванской губернии на 1906, отдель IV, с.4.

[13] Памятная книжка Эриванской губернии на 1906, отдель IV, с.4; Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.4.

bulaq (8806 fut), Qırğıtdağ yaxud Oyuq Almaz (9020 fut), Ayrıca (8727 fut), Şahdağ (9556 fut), Ala-gələr (9789 fut), Qara Arxaç (10081 fut), Ginaldağ (11057 fut) zirvələri və Semyanovka (7124 fut), Ağ Yoxuş (9500 fut), Şeytanağac (9000 fut) və Kirkitdağ və Ayrıca zirvələri arasında yerləşən aşırım var idi[14].

Konqur-Alagöz dağ silsiləsi Ginaldağdan cənuba Yenibəyazid, Şərur-Dərələyəz, Naxçıvan qəzaları və Yelizavetpol quberniyası boyunca uzanırdı. Onun uzunluğu 200 verst, eni isə 65 verst idi. Konqur-Alagöz dağının 30 zirvəsi və bir aşırımı olmuşdur. Həmin zirvə və aşırım bunlar idi: Konqurdağ və yaxud Qınal dağ (11057 fut), Cənubi Konqurdağ (10927 fut), Uçrum basar (8828 fut), Qız qalası və yaxud Qızıl qaya (9910 fut), Xumur dağ yaxud Kəlbəcər (10000 fut), 1№li uca Kötü dağ (11288 fut), 2 №li Kötü dağ (11195 fut), 1 №li Sarı el Sarçalı (11304 fut), 2 №li Sarı el Sarçalı (11197 fut), Qısır dağ (9834 fut), Adsız (10143 fut), 1 №li Ax davan (10195), Salavartı (10425 fut), Karta torpaq (9527 fut), Arazin (10125 fut), Dəmirli dağ (11090 fut), Göy su Gözəl (11304 fut), Nobat dağ (11121 fut), Dəvə boynu (11725 fut), Qazan Göl (12649 fut), Qapıcı (12855 fut), Yağlı Sara (12600 fut), Aycanqala (12803 fut), Şıx Yurdu (11738 fut), Soyuq (10366 fut), Xaşlı dağ (8869 fut), Güney dağ (8973 fut), İlanlı dağ (7976 fut), Daqrı dağ (6363 fut), Kyürzinor (4228 fut), Yosun Güləsi (5670 fut) və bir Biçənək aşırımı (7955 fut)[15].

Konqur Alagöz dağ silsiləsinə daxil olan dağlardan əlavə bir neçə kiçik dağ ayrılırdı. Məsələn, Adsız dağından qərbə Cənubi Dərələyəz dağ silsiləsi ayrılırdı. Bu dağ Naxçıvan çayı Qərbi Arpaçayın hövzəsindən ayırırdı. Cənubi Dərələyəz dağ silsiləsinin uzunluğu 100 verst, eni isə 1 verstdən 20 verstə qədər idi. Onun da bir neçə zirvəsi və aşırımı vardı. Həmin zirvələr bunlar idi: Adsız (10143 fut), Keçəldağ yaxud Qanlı göl (10279 fut), Kyuk dağ (10282 fut), Səfər xan sanqyarı (10101 fut), Şereşt

---

[14] Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.4-5; Памятная книжка Эриванской губернии на 1906, отдель IV, с.4-5.
[15] Yenə orada, c.5.

(8414 fut), Qamesur dağ (8167 fut), Gəlin qaya (9147 fut), Keçəl təpə (9053 fut), Qaraquş (8585 fut), Ağ Qaya (5858 fut), Duz dağ (3830 fut); aşırımlar- Martiros (6650 fut, Ağ Xaç (6700 fut) və Şereştski (6559 fut)[16].

Bundan əlavə Keçidağ və Sarı el Sarçalı zirvələrindən qərbə, Konqur Alagöz dağ silsiləsinə doğru Cənubi Göyçə, yaxud Gözəldərə və yaxud Alagöl dağ silsiləsi ayrılırdı. Bu dağ silsiləsi Səlimxan aşırımından iki paralel hissəyə bölünür, onun şərq hissəsi iki paralel vulkan cərgəsindən ibarət idi. Cənubi Göyçə silsiləsinin uzunluğu 65 verst, eni isə 60-70 verst idi. Onun şimal ətəkləri Göyçə gölünə, cənub ətəkləri isə Şərqi Arpaçayın orta axarına qədər uzanırdı. Cənubi Göyçə dağ silsiləsinin 33 zirvəsi və 3 aşırımı vardı. Həmin zirvələr bunlardır: 2№-li uca Keçi dağ (11195 fut), Ala Gələrsən başı (10031 fut), Çilli göl (9800 fut), Dik Pilləkən və yaxcud Daş Pilləkən (11376 fut), Yartəpə (11145 fut), Gözəldərə başı (11606 fut), Sağan (11606 fut), 3 №li Qaranlıq (10836fut), 2 №li Qaranlıq (11437 fut), 1 №li Qaranlıq (11304 fut), Yanıq (Şah bulaq) (11178 fut), Cənubi Canqurtaran (9114 fut), Siçanlı (9730 fut), Dağ Vəng (9324 fut), Top dağ (9546 fut), Murad təpə (10587 fut), Təkə dolduran (9551 fut), Gün dağ (8716 fut), Dəlik təpə (8537 fut), Qara Qaya (91 84 fut), Ulqur dağ (8804 fut), Qara Qaya (91 84 fut), Ballı qaya (5460 fut), Çal dağ (7357 fut), Kömürlü dağ (6860 fut), Bağırsaq (6587 fut), Vəli dağ (4121 fut), Yağar Gədik (6772 fut), Ərtıç (6755 fut), Dağna (8369 fut), 1 №li Saray Bulaq (8071 fut), 2 №li Saray Bulaq (7681 fut), aşırımlar-Səlim xan (7800 fut), Axar bahar (9000 fut), Topdağ (8680 fut)[17].

Top dağ zirvəzindən Cənubi Göyçə dağ silsiləsinə Ağmanqan silsiləsi bitişmişdi. Bu dağ silsiləsinin ətəkləri şimal tərəfdən Zəngi çayının Göyçə gölündən başladığı mənbəyə, qərb tərəfdən Adıyaman çayına və Göyçə gölünün qərb sahillərinə, cənubdan

---

[16]Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.6.

[17] Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.7; Памятная книжка Эриванской губернии на 1906, отдель IV, с.6-7.

isə onun lavası Vedi və Gərni çayları arasında olan əraziyə doğru uzanırdı. Bu dağ silsiləsinin uzunluğu 80 verst, eni isə 50 verst idi. Qız zirvəsindən bu silsilə Zəngi və Gərni çayları arasında olan əraziyə bitişmişdi. Ağmanqan dağ silsiləsinin də bir neçə zirvəsi var idi. Həmin zirvələr bunlar idi; Top dağ (9546 fut), Əkizlər (8886 fut), Arxaşan (10139 fut), Dəvə gözü (11344 fut), Ağdağ (11711 fut), Qız (11849 fut), Üçtəpələr (1717 fut), Üçtəpə (10733 fut), Ağmanqan (Qızılca dağ) (10173 fut), Buğda təpə (7894 fut), Keçi qayası (10485 fut), Kiçik Ağmanqan (9332 fut), Başkənd (8043 fut), Kiçik Üçtəpələr (8291 fut), Gədik (Qırxbulaq dağ) (8327 fut)[18].

**5. Ağrıdağ dağ sistemi.** İrəvan quberniyasının ən məşhur dağ silsiləsi Ağrıdağ silsiləsi idi. Ağrıdağ silsiləsi Təndir dağlarından başlayaraq İrəvan quberniyasının Sürməli qəzası və Türkiyəyə məxsus Bəyazid sancağı boyunca şərqə doğru uzanaraq Sığnaq aşırımında iki hissəyə - Kiçik Ağrıdağ və Sığnaq hissələrinə bölünürdü. Böyük Ağrıdağ dəniz səviyyəsindən 16953 fut, Kiçik Ağrıdağ isə 12839 fut hündürlükdə yerləşirdi[19]. Bu dağ silsilələrinin 23 zirvəsi və 11 aşırımı olmuşdur. Həmin zirvələr bunlar idi: Təndirək (8463 fut), Pərli dağ (10650 fut), Sınıq başı (9198 fut), Sulaqdağ (9660 fut), Siçanlı (Aslanlı) (9241 fut), Siçanlı (9520 fut), Dübur (9233 fut), Xama (10668 fut), Çınqıl (10645 fut), Seyr Göl (7497 fut), Pambıq (8720 fut), 2 №-li Dübur (8351 fut), Şiştəpə (Çiçəkli) (9345 fut), Xalxalı (8274 fut), Gərməşov (8106 fut), 2 №li Siçanlı (8351 fut), Karantin təpə (9268 fut), Qoçbaşı (8646 fut), Ağbulaq (7929 fut), Qulp (4203 fut), Təkaltı (8409), Çinçavat (4092 fut), Şiştəpə (3623 fut); **aşırımlar**-Xaraba bazar (5572 fut), Xaç Gədik (9944 fut), Çınqıl (6881 fut), Zor və yaxud Ağbulaq (8344 fut), Karvansaray və yaxud Qucaq (7245 fut), Aslanlı (8000 fut), Abbas göl (8400 fut),

[18] Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.7-8; Памятная книжка Эриванской губернии на 1906, отдель IV, с.7.

[19] Памятная книжка Эриванской губернии на 1892, с.107; Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.4; Памятная книжка Эриванской губернии на 1906, отдель IV, с.4.

Daşlıcan (7700 fut), Sınaq (8000 fut), Axtı və Yaxud Təndirək (7392 fut), Muçin (10000 fut)[20].

**Düzənliklər.** İrəvan quberniyasının ərazisi qərbdən şərqə, şimaldan cənuba uzanan nisbətən geniş və təpəli düzənliklərlə müşahidə olunmuşdu. Onun əsas düzənlikləri Araz, Göyçə və Şörəyel idi. Bunlardan ən böyüyü Araz düzənliyi idi. Araz düzənliyi Araz çayının hər iki sahili boyunca Qərbi Arpaçayın ona töküldüyü yerdən Ordubad şəhərinə qədər uzanaraq, bir qədər şərqə doğru meyllənirdi. Düzənliyin eni bəzi yerlərdə daralaraq 6 verstə, bəzi yerlərdə genişlənərək 12-25 verstə çatırdı. Araz düzənliyi təxminən 60 min desyatin bir əraziyə malik idi. O, dəniz səviyyəsindən 2732 fut yüksəklikdə yerləşmişdi[21].

Araz düzənliyinin özü bir neçə düzənliyə bölünürdü. Düzənliklər bunlar idi: 1. İrəvan düzənliyi Araz çayının sol sahili boyu Qərbi Arpaçayın mənsəbindən Zəngi çayının mənsəbinə qədər uzunluğu 60, Araz çayının sağ sahilində düzənliyin uzunluğu isə 80, eni 35 verst, ümumi sahəsi isə 2500 kv. verst idi. Düzənliyin şərq hissəsindən başqa ətrafı hündür vulkanik dağlarla əhatələnmişdi. İrəvan düzənliyinin qərb hissəsi su çatışmazlığından münbitsiz, şərq hissəsi isə əksinə əkin sahələri ilə bol idi. Araz çayı boyunca İrəvan düzənliyi Sərdarabad və Sürməli düzənliyinə bölünürdü. Sərdərabad düzənliyinin şərqə doğru Qarpi çay və Qarasudan başlayan hissəsi Zəngibasar adlanır və o qərbdən Qərbi Arpaçay çayı, şimaldan Alagöz dağının ətəkləri və Üçtəpələr yaylası, şərqdən Kiçik Qafqazın axırıncı qolu, cənubdan isə Araz çayı ilə həmsərhəd idi. O, 2700 fut dəniz səviyyəsindən yüksəklikdə yerləşirdi. Sürməli yaxud Çuxur düzənliyi isə cənubdan Ağrıdağ dağının ətəkləri, şimaldan Araz çayı, şərqdən

---

[20] Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.8; Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.8.

[21] Дубровин Н.Ф., История войны и владычества русских на Кавказе, СПб, 1871, т.1, с.57; Сагателов М., Экономические очерки Эриванской губернии и озеро Гокча, с.8; Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.10; Памятная книжка Эриванской губернии на 1906, отдель IV, с.10.

Aşağı Cənubi Qarasu çayı ilə həmsərhəd idi; 2. Araz düzənliyinin bölündüyü ikinci hissə Gərnibasar düzənliyi idi. O, Gərniçay çayının aşağı axar hissəsini əhatə edirdi. Gərniçay düzənliyinin uzunluğu 15, eni isə 10 verstə bərabər idi. Düzənlik başdan-başa əkin sahələri ilə bol və əhalisi isə sıx idi; 3. Vedibasar düzənliyi Araz düzənliyinin bir hissəsi idi. O, Vedi çayının aşağı axar hissəsini təşkil edirdi. Düzənliyin uzunluğu 14, eni isə 12 verst idi; 4. Sədərək düzənliyi Araz çayı ilə Saray Bulaq dağ silsiləsi arasında yerləşirdi. Onun uzunluğu 20, eni isə 12 verst və tamamilə münbitsiz çöllər idi. Yalnız Araz çayı boyunca bəzi yerlərdə qamış və nadir kollarla örtülmüş çəmənliklər uzanırdı. Əhali isə yalnız Sədərək və Asni kəndlərində və bir neçə qışlaqda cəmləşmişdi. Son dövrlərdə düzənliyin bir hissəsi Arazdəyən kanalı vasitəsilə suvarılırdı və bu suvarılan yerlərdə əkin əkilirdi; 5. Şərur düzənliyi Araz çayının sol sahilində, Şərqi Arpaçayın aşağı axarı boyunca yerləşirdi və Naxçıvana qədər uzanırdı. O, üçbucaqlı sahə formasında idi və Araz çayı boyunca uzunluğu 35 verstə, Arpaçayın başlanğıcından Həmzəli-diza kəndindən Araza qədər uzunluğu isə 13 verstə bərabər idi. Düzənlik çox münbit idi, əkin sahələri yaxşı suvarılırdı və burada əhali sıx məskunlaşmışdı. Kəndlər bir-birinin yaxınlığında yerləşmişdi; 6. Araz çayının sağ sahilində, onunla Aşağı Qarasu çayı arasında Boloran düzənliyi yerləşirdi. Onun uzunluğu 23, eni 7 verst idi. Burada çoxlu qamışla örtülmüş bataqlıqlara və çəmənliyə rast gəlmək olardı; 7. Böyük-dizin düzənliyi Şəruru Qıvraq yüksəkliyindən ayırırdı. Onun uzunluğu 20, eni isə 10 verst idi. Su olmadığına görə, düzənlik başdan başa boş çöllər idi; 8. Naxçıvan düzənliyi Naxçıvan və Çağrı çaylarının aşağı axarı ilə uzanaraq Böyük-dizində Cənubi Dərələyəz dağ silsiləsinin sonunu təşkil edən bir neçə təpəliklərə ayrılırdı. Onun uzunluğu 30 verst, eni Çağrının şimal qurtaracağında 6, cənubda Qaraçuq və Aryazin kəndləri arasında 30 verst idi. Naxçıvan düzənliyi cənubdan Araz çayı, şimaldan isə Tanrıdağ silsiləsinin enişi ilə həmsərhəd idi. Düzənliyin yuxarı hissəsində az da olsa təpəliklər, kurqanlar və daşlı yarğanlar gözə dəyirdi. Bu düzənlikdə kəndlər Naxçıvan çayının hər iki sa-

hilində yerləşmişdi; 9. Gülüstan düzənliyi Naxçıvan düzənliyini Tanrıdağ silsiləsindən ayırırdı. Əvvəllər düzənlik süni-suvarmaya görə münbit bir ərazi hesab olunmuşdusa, hal-hazırda münbitsiz bir düzənlik idi. Culfa bu düzənlikdə yerləşən yeganə kənd hesab olunurdu[22].

10. Araz düzənliyindən başqa İrəvan quberniyasının şimal hissəsində bir neçə düzənlik də vardı. Bunlardan biri Ellidərə düzənliyi hesab olunurdu. Onun orta hündürlüyü 6000 fut idi. Bu düzənlik Qərbi Arpaçayın sol sahilində və üç tərəfdən-Mədəttəpə və Yesaul dağları arasında yerləşmişdi. Burada hava sərt, lakin bol otlaqları və biçənək yerləri var idi. Əsasən, yayda Borçalı və Qazaxdan gələn Azərbaycan türkləri öz mal-qarasını burada otarırdı[23].

11. Pəmbək düzənliyi Cacur dağından başlayaraq Bozabdal və Pəmbək silsilələri arasında Həmzəçimən aşırımına qədər uzanırdı. Bu düzənliyin uzunluğu 65, eni isə 11-26 verst arasında olmuşdur. O, dəniz səviyyəsindən 4545 fut yüksəklikdə yerləşirdi[24].

12. Abaran düzənliyi şimaldan Pəmbək silsiləsinin ətəklərinə, cənubdan Alagöz dağının aşağısına, qərbdən Şörəyel düzənliyinə, şərqdən isə Abaran çayının vadisinə qədər uzanırdı. Onun orta hündürlüyü dəniz səviyyəsindən 7000 fut idi. Abaran düzənliyinin uzunluğu 20, eni isə 10 verst idi. Buranın iqlimi qışda sərt, yayda isə su və otluqla bol olurdu. Suvarma əsasən düzənliyin şərq hissəsində həyata keçirilirdi. Buna görə də, düzənliyin

---

[22] Дубровин Н.Ф., История войны и владычества русских на Кавказе, т.1, с.56-58; Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.10-11; Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.10-11; Первая всеобщая перепись населения Российской империи 1897, LXXI. Эриванская губерния, с.3-4.

[23] Военно-статистическое обозрение Российской империи, 1853, с. 49; Дубровин Н.Ф., История войны и владычества русских на Кавказе, т.1, с.57; Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.12; Памятная книжка Эриванской губернии на 1906, отдель IV, с.12.

[24] Военно-статистическое обозрение Российской империи, 1853, с. 50; Дубровин Н.Ф., История войны и владычества русских на Кавказе, т.1, с.57; Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.12; Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.12.

bu hissəsində əhali daha sıx məskunlaşmışdı. Onun mərkəzində yalnız bir kənd-Ağqul kəndi yerləşmişdi[25].

13. Şörəyel düzənliyi Araz çayının sol tərəfində, Alagöz dağının ətəkləri və Yasul və Pəmbək silsilə dağları arasında, Naxçıvana qədər uzanan bir ərazini əhatə edirdi. O, yarıdairə formasında olub, uzunluğu 35, eni isə 8 verstə qədər idi. Bu düzənliyin torpağı gilli olsa da, əsasən münbit idi. Şörəyel düzənliyi əhali ilə sıx məskunlaşmış və torpağı hərtərəfli becərilirdi[26].

14. Üçtəpələr düzənliyi Qarnıyarıq dağından başlayaraq cənubda Vaqarşapat-İrəvan sərhədlərinə qədər uzanaraq, Abaran və Zəngi çayları arasında yerləşirdi. Burada suvarma zəif idi. Əhali onun şimal hissəsində, əsasən yüksək ərazilərində məskunlaşmışdı. Düzənliyin cənub-şərq hissəsi İrəvan şəhərinə yaxın idi[27].

15. Göyçə gölünün çökəkliyi də düzənlik hesab olunurdu. Bu çökəklik şimaldan Pəmbək silsiləsinin sonu və Şahdağ, qərbdən Eşşəkmeydan və Ağmanqan, cənubdan Cənub Göyçə dağ silsilələrinin və şərqdən Konqur-Alagöz dağ silsiləsinin şimal hissəsi ilə həmsərhəd idi. Çökəkliyin uzunluğu 112 verst, ümumi sahəsi 4200 kv. verst idi və bunun da 1204,2 kv.versti gölün payına düşürdü. Göyçə çökəkliyi bir neçə düzənliyə ayrılırdı. Gölün cənub-şərq hissəsi Gil və yaxud Məzrə düzənliyi adlanırdı. Bu düzənlik şimaldan Şahdağ, şərqdən Konqur-Alagöz, cənubdan Alagöz dağ silsilələri ilə həmsərhəd idi. Digər tərəfdən Göyçə çökəkliyindən Dərəçiçək vadisi ayrılırdı və burada dövlət

---

[25] Дубровин Н.Ф., История войны и владычества русских на Кавказе, т.1, с.57; Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.12; Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.12.

[26] Военно-статистическое обозрение Российской империи, 1853, с. 50; Дубровин Н.Ф., История войны и владычества русских на Кавказе, т.1, с.58; Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.13; Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.12.

[27] Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.13; Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.12.

adamlarının, məmurların və s. yayda dincəldiyi Dərəçiçək yaşayış məntəqəsi yerləşmişdi[28].

**Meşələr.** İrəvan quberniyası meşə sahəsi cəhətdən bir o qədər də zəngin deyildi. Meşələrin böyük qismi əsasən dağ yamaclarında yerləşmişdi. Azərbaycanın bütün quberniyalarda olduğu kimi, İrəvan quberniyasında da meşələr həm xəzinənin, həm də xüsusi şəxslərin mülkiyyətində idi. Meşələr bir neçə dərəcəyə bölünmüşdü. Birinci dərəcəyə xəzinənin mülkiyyətində olan meşələr daxil idi. Bütün sahələrdə olduğu kimi, çar idarə orqanları XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində İrəvan quberniyasında da meşələrin idarə olunması üçün dövlət nəzarəti yaratmışdı. Quberniyada xəzinə meşələri sahələrə bölünmüş, sahələr isə ayrı-ayrı meşəbəyliyinə tabe olmuşdur. Meşələr qəzalar üzrə bir məlumata görə 25, digər məlumata görə isə 24 ayrı-ayrı sahədən və sahələrin tabe olduğu 4 meşəbəyliyindən ibarət idi. Həmin meşəbəyliyi bunlar idi: İrəvan, Naxçıvan, Dərəçiçək və Aleksandropol[29]. Birinci İrəvan meşəbəyliyinə İrəvan qəzasının meşə sahələrindən başqa, Üçmüəzzin və Sürməli qəzalarının meşə sahələri də daxil idi. Bu meşəbəyliyi ərazisinə görə ən böyük meşəbəyliyi olmuşdu. Aşağıdakı cədvəldə İrəvan meşəbəyliyinə tabe olan sahələr və müxtəlif illərdə onların ümumi ərazi ölçüsü belə göstərilmişdir[30]:

---

[28] Дубровин Н.Ф., История войны и владычества русских на Кавказе, т.1, с.40; Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.13; Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.13.

[29] Свод материалов по изученно экономического быта государственных крестьян Закавказского края, Тифлис, Типография Я.И.Либермана, 1888, т.3, часть 1, с.43; Памятная книжка Эриванской губернии на 1902, отдел II, с.32; Памятная книжка Эриванской губернии на 1906, отдел II, с.32; Памятная книжка Эриванской губернии на 1914, отдел II, с.32.

[30] Памятная книжка Эриванской губернии на 1902, отдел II, с.12; Памятная книжка Эриванской губернии на 1906, отдел II, с.32; Памятная книжка Эриванской губернии на 1914, отдел II, с.32.

| İrəvan meşəbəyliyinə daxil olan meşə sahələri | Ümumi sahəsi (desyatinlə) (1902-ci il) | Əlverişli meşə torpağı (desyatinlə) | Ümumi sahəsi (desyatinlə) (1906-cı il) | Əlverişli meşə torpağı (desyatinlə) | Ümumi sahəsi (desyatinlə) (1914-cü il) | Əlverişli meşə torpağı (desyatinlə) |
|---|---|---|---|---|---|---|
| İrəvan qəzasında Millin | 10000 | 5000 | 10000 | 5000 | 10000 | 5000 |
| İrəvan qəzasında Ciqin | 22000 | 6000 | 22000 | 6000 | 21563 | 5631,5 |
| İrəvan qəzasında Bağırsaq | 600 | 50 | 600 | 50 | 600 | 50 |
| Üçmüəzzin qəzasında Evcilər | 4000 | 2500 | 4000 | 2500 | 4000 | 2500 |
| Üçmüəzzin qəzasında Alagöz | 520 | 200 | 520 | 200 | 520 | 200 |
| Sürməli qəzasında Axurlı | 16000 | 6000 | 16000 | 6000 | 16000 | 6000 |
| Sürməli qəzasında Aralıq | 7000 | 5800 | 7000 | 5800 | 7000 | 5800 |
| Sürməli qəzasında Dərəkənd-Parçenis | 4500 | 2000 | 4500 | 2000 | 4500 | 2000 |
| Ümumilikdə | 64620 | 27550 | 64620 | 27550 | 641830 | 27181,5 |

İrəvan quberniyasında ikinci meşəbəyliyi Naxçıvan meşəbəyliyidir. Bu meşəbəyliyinə Naxçıvan və Şərur-Dərələyəz qəzalarının 8 meşə sahəsi daxil olmuşdu. Aşağıdakı cədvəldə sahələrin sayı və ümumi ərazi ölçüsü belə idi[31]:

[31] Памятная книжка Эриванской губернии на 1902, отдел II, с.12; Памятная книжка Эриванской губернии на 1906, отдел II, с.32; Памятная книжка Эриванской губернии на 1914, отдел II, с.32.

| Naxçıvan meşəbəyliyinə daxil olan meşə sahələri | Ümumi sahəsi (desyatinlə) 1902-ci il) | Əlverişli meşə torpağı (desyatinlə) | Ümumi sahəsi (desyatinlə) (1906-cı il) | Əlverişli meşə torpağı (desyatinlə) | Ümumi sahəsi (desyatinlə) (1914-cü il) | Əlverişli meşə torpağı (desyatinlə) |
|---|---|---|---|---|---|---|
| Naxçıvan qəzasında Biçənək | 1500 | 1050 | 1500 | 1050 | 1500 | 1050 |
| Naxçıvan qəzasında Ərəbçin | | | | | 231,3 | 231,3 |
| Şərur-Dərələyəz qəzasında Gər-Gər | 1500 | 1200 | 1500 | 1200 | 1500 | 1200 |
| Şərur-Dərələyəz qəzasında Martiros | 1000 | 800 | 1000 | 800 | 1000 | 800 |
| Şərur-Dərələyəz qəzasında Yuxarı Arpaçay | 1800 | 1500 | 1800 | 1500 | 1800 | 1500 |
| Şərur-Dərələyəz qəzasında Qorsk | 1500 | 3200 | 3500 | 3200 | 3500 | 3200 |
| Şərur-Dərələyəz qəzasında Hacı Şamlı | 2250 | 2100 | 2250 | 2100 | 2250 | 2100 |
| Şərur-Dərələyəz qəzasında 2-ci Bağırsaq | 600 | 600 | 600 | 600 | 600 | 600 |
| Şərur-Dərələyəz qəzasında Araz | 1500 | 1000 | 1500 | 1000 | 1500 | 1000 |
| Ümumilikdə | 13650 | 11450 | 13650 | 11450 | 13881,3 | 11681,3 |

Dərəçiçək meşəbəyliyi quberniyada üçüncü meşəbəyliyidir. Bu meşəbəyliyin tərkibinə bütün Yenibəyazid qəzasının və Üçmüəzzin qəzasından Abaran meşə sahəsi daxil idi. Aşağıdakı cədvəldə əyani olaraq bu meşəbəyliyinin tərkibi və ümumi ərazi ölçüsü belə göstərilmişdir[32]:

| Dərəçiçək meşəbəyliyinə daxil olan meşə sahələri | Ümumi sahəsi (desyatinlə) (1902-ci il) | Əlverişli meşə torpağı (desyatinlə) | Ümumi sahəsi (desyatinlə) (1906-cı il) | Əlverişli meşə torpağı (desyatinlə) | Ümumi sahəsi (desyatinlə) (1914-cü il) | Əlverişli meşə torpağı (desyatinlə) |
|---|---|---|---|---|---|---|
| Üçmüəzzin qəzasında Abaran | 4000 | 2700 | 4000 | 2700 | 3742 | 3742 |
| Yenibəyazid qəzasında Dərəçiçək | 2540,1 | 2366,5 | 2540,1 | 2366,5 | 2827,27 | 2827,27 |
| Yenibəyazid qəzasında Misxana | 15663,9 | 4000 | 15663,9 | 4000 | 6520 | 6394,20 |
| Yenibəyazid qəzasında Güney | 7150 | 4000 | 7150 | 4000 | 7150 | 4000 |
| Ümumilikdə | 29354 | 13066,5 | 29354 | 13066,5 | 20239,27 | 16963,47 |

İrəvan quberniyasında dördüncü meşəbəyliyi Aleksandropol meşəbəyliyi idi. Bu meşəbəyliyinə Aleksandropol qəzasının bütün meşə sahələri daxil olmuşdur. Aşağıdakı cədvəldə ona daxil olan sahələr və onların ümumi ərazi ölçüləri belə əks olunmuşdur[33]:

---

32 Памятная книжка Эриванской губернии на 1902, отдел II, с.12; Памятная книжка Эриванской губернии на 1906, отдел II, с.32; Памятная книжка Эриванской губернии на 1914, отдел II, с.32.

33 Yenə orada.

| Aleksandropol meşəbəyliyinə daxil olan meşə sahələri | Ümumi sahəsi (desyatinlə) (1902-ci il) | Əlverişli meşə torpağı (desyatinlə) | Ümumi sahəsi (desyatinlə) (1906-cı il) | Əlverişli meşə torpağı (desyatinlə) | Ümumi sahəsi (desyatinlə) (1914-cü il) | Əlverişli meşə torpağı (desyatinlə) |
|---|---|---|---|---|---|---|
| Xalab | 8443,8 | 760,6 | 8443,8 | 760,6 | | |
| Həmzəçimən | 10503,8 | 4025,3 | 10503,8 | 4025,3 | | |
| Qarakilsə | 6710,8 | 3621,4 | 6710,8 | 3621,4 | 9771,00 | 8651,00 |
| Güllüdağan | 14353,6 | 6787,3 | 14353,6 | 6787,3 | 6580,20 | 6401,10 |
| Çalxalıçay | 5360 | 500 | 5360 | 500 | 5360 | 500 |
| Ümumilikdə | 45372 | 15694,6 | 45372 | 15694,6 | 21711,20 | 15552,10 |

Cədvəllərdə 1902, 1906 və 1914-cü illərin statistikası göstərilsə də, 1914-cü ilin rəqəmləri son olaraq götürülmüşdür. Sonuncu statistikaya görə, İrəvan quberniyasında xəzinənin mülkiyyətində ümumilikdə 120014,77 desyatin meşə sahəsi, əlverişli meşə torpağı isə 71378,37 desyatin olmuşdur[34].

Qeyd etmək lazımdır ki, 1902-ci və 1904-1906-cı illərin məlumatına görə, İrəvan quberniyasında xəzinənin ixtiyarında 152996 (bütün quberniyada meşə sahəsinin $^{1}/_{16}$-i), əlverişli meşə torpağı isə 67761,1 (bütün quberniya torpağının $^{1}/_{35}$-i) desyatin qeydə alınmışdır[35]. Əgər bu rəqəmləri 1914-cü il məlumatı ilə müqayisə etsək, görmək olar ki, xəzinənin sərəncamında olan meşə sahələri bu illər ərzində 32981,23 desyatin azalmışdır. Bu azalmanın səbəbi xəzinə meşələrinin istifadə etmək üçün xüsusi şəxslər tərəfindən alınması və yaxud bağışlanması idi. Məsələn, 1902-ci ildə istifadə edilən meşələrdən (satış qiyməti 7433 rubl olan 805 kub.sajen), istifadəsiz meşələrdən (satış qiyməti 5117 rubl 69 qəpik olan 1656 kub.sajen), bundan əlavə, mal-qaranın otarılması, biçin, ov və s. üçün 2759 rubl əlavə satış həyata keçirilmiş, ümumilikdə həmin il müxtəlif satışdan xəzinəyə 20428

---

[34] Памятная книжка Эриванской губернии на 1914, отдел II, с.32.

[35] Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.46; Памятная книжка Эриванской губернии на 1904, отдел IV, с.46; Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.32.

rubl 27 qəpik gəlir əldə edilmişdir. Bundan əlavə, 8 kəndli cəmiyyətinə, 328 ayrı-ayrı sahibkara ümumi məbləği 1860 rub olan 331 kub.sajen meşə sahəsi satılmışdır[36].

1903-cü ildə də xəzinə meşələrinin satışından xəzinəyə müxtəlif gəlir daxil olmuşdur. Həmin ildə pulla bağışlanma nəticəsində istifadə edilən meşələrdən (satış qiyməti 12471 rubl olan 1696 kub.sajen), istifadəsiz meşələrdən (satış qiyməti 5568 rubl olan 1474 kub.sajen odun), bundan əlavə, mal-qaranın otarılması, biçin, ov və s.  üçün 3000 rubl əlavə satış həyata keçirilmiş, ümumilikdə həmin il müxtəlif satışdan 21039 rubl gəlir əldə edilmişdir. Bundan əlavə, hərracsız 507 ayrı-ayrı sahibkara ümumi məbləği 1963 rubl olan 365 kub. sajen odun, ümumi məbləği 1963 rubl olan 8 kub. sajen çırpı satılmışdır[37].

Xəzinə meşələri nəzarət edilsə də, gizli və qeyri-qanuni yolla qırıldığından ziyan çəkirdi. Bu məqsədlə 1903-cü ildə ümumi lək sahəsi 282 kv. sajen olan iki şitil əkən müəssisə yaradılmışdı. Yaradılan bu ilk iki müəssisə nəinki meşələri qoruyur, eyni zamanda onu inkişaf etdirirdi. Hətta bu qurum şəxsi meşələrin inkişafı üçün sahibkarlara ağac şitilləri satır və bağışlayırdı. Məsələn, 1902-ci ildə 46 rubl məbləğində 772 şitil satılmış, 20 rubl məbləğində 2000 ədəd bağışlanmış, 1903-cü ildə isə 57 rubl məbləğində 515 ədəd şitil satılmış, 40 rubl məbləğində 400 ədəd bağışlanmışdır[38].

İrəvan quberniyasında xüsusi sahibkarlara məxsus meşələr də var idi. XX əsrin əvvəllərində olan məlumata görə, İrəvan quberniyasında şəxsi mülkiyyətdə olan meşə sahəsi 5000 desyatinə bərabər olmuşdur. Bunlardan ən dəyərliləri 4000 desyatin sahəsi olan Dəlyar və Arzakənd meşə sahələri və Yenibəyaziddə Misxana dağının çökəkliyində idi[39].

---

[36] Памятная книжка Эриванской губернии на 1904, отдел IV, с.50.
[37] Yenə orada.
[38]Yenə orada.
[39] Yenə orada, c.51.

Meşələrdə əsasən, palıd, fıstıq, ağcaqayın, qara ağac, vələs, tozağacı, alma, armud, ağcaqovaq, itburnu, zoğal, qovaq, qızılağac, cökə, söyüd və s. ağaclar bitirdi[40].

İrəvan quberniyasında meşə materialları əhalinin əsasən odun, kömür ehtiyaclarına sərf olunurdu. Tikinti üçün şalban və taxta isə kənardan-Dilicandan, Yelizavetpol quberniyasından, Tiflisdən və Rusiyadan Volqa-Xəzər dənizi yolu ilə Bakıya gətirilir və buradan da quberniyaya çatdırılırdı. Ona görə də, İrəvan quberniyasında tikinti materialları baha idi[41].

**Otlaqlar-örüş yerləri**. İrəvan quberniyasında otlaqlar yaylaq və qışlaq olmaqla iki qismə bölünmüşdü. Aşağıda "Maldarlıq" bölməsində İrəvan quberniyasında olan yaylaq və qışlaqların bir çoxunun adları, sahələri və örüş yerlərindən istifadəyə görə verilən vergi haqqında ətraflı bəhs edildiyindən, burada bu məsələyə ümumi toxunmaq istərdik.

Yaylaqlar əsasən 7000-8300 fut yüksəklikdən başlayaraq dağların başına qədər, qışlaqlar isə 3000 futdan yüksək olmayan, yağışların az olduğu, əhalinin əkinçiliklə məşğul olmadığı düzənlik ərazilərdə yerləşmişdi. Bəzi istisnalar olmaqla İrəvan quberniyasında otlaqlar əsasən xəzinəyə məxsus olmuş, xəzinə isə həmin otlaqları vergi müqabilində əhalinin istifadəsinə vermişdi. 1902-ci il məlumatına görə, xəzinəyə məxsus otlaqların ümumi sahəsi 596987 desyatin (bütün quberniya torpaqlarının ¼-i) olmuş, bundan 1075 ayrı-ayrı örüş sahəsinin daxil olduğu 325051 desyatin yaylaqların, 202 sahənin daxil olduğu 271936 desyatin qışlaqların payına düşmüşdü[42].

Sonrakı illərdə hər iki örüş sahələri daha da artmışdır. 1904-cü il məlumatına görə, İrəvan quberniyasında xəzinəyə məxsus otlaqların ümumi sahəsi 607152 desyatin (bütün quberni-

---

[40] Первая всеобщая перепись населения Российской империи 1897, с.4; Энциклопедический словар Брокгауз и Ефрона, с.12; Памятная книжка Эриванской губернии на 1904, отдел IV, с.48-49.

[41] Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.50.

[42] Yenə orada, c.52.

ya torpaqlarının ¼-i) olmuş, bundan 1090 ayrı-ayrı sahənin daxil olduğu ümumi ölçüsü 353755 desyatin yaylaqların, 192 sahənin daxil olduğu ümumi ölçüsü 253397 desyatin qışlaqların payına düşmüşdü[43].

Yaylaqlar müxtəlif dağ silsilələrinin vəziyyəti ilə bağlı olaraq rayonlar üzrə qruplaşdırılmış, onların sayı 21 olmuşdur. Rayonlardan ən böyüyü ümumi ərazisi 45001 desyatin olan 168 sahəni birləşdirən (bunlardan ümumi ərazisi 34501 desyatin olan 121 sahə Yenibəyazid qəzasının, ərazisi 10500 desyatin olan 47 sahə İrəvan qəzasının payına düşmüşdü) Ağdağ-Ağmanqan rayonu idi. Sonrakı rayonların ümumi sahəsi belə idi: 1. Ərazisi 41873 desyatin olan 87 sahəni özündə birləşdirən Dərələyəz rayonu (Şərur-Dərələyəz qəzasında); 2. Ərazisi 38137 desyatin olan 267 sahəni özündə birləşdirən Alagöz rayonu (ərazisi 13779 desyatin olan 91 sahə Aleksandropol, ərazisi 24358 desyatin olan 176 sahə isə Üçmüəzzin qəzasının payına düşmüşdü); 3. Ərazisi 36027 desyatin olan Yenibəyazid qəzasında yerləşən 33 sahədən ibarət Məzrə-Güney rayonu; 4. Ərazisi 34177 desyatin olan 139 sahədən ibarət Ayrıcıq rayonu (ərazisi 29396 desyatin olan 118 sahə Yenibəyazid, ərazisi 4761 desyatin olan 21 sahə isə İrəvan qəzasının payına düşmüşdü); 5. Ərazisi 31216 desyatin olan Yenibəyazid qəzasında 57 sahəni özündə birləşdirən Keyti-Yanıx rayonu; 6. Ərazisi 23288 desyatin olan 77 sahədən ibarət Misxana rayonu (ərazisi 15989 desyatin olan 52 sahə Yenibəyazid, ərazisi 4421 desyatin olan 8 sahə Aleksandropol və ərazisi 2878 desyatin olan 17 sahə isə Üçmüəzzin qəzalarının payına düşmüşdü); 7. Aleksandrapol qəzasında ərazisi 15899 desyatin olan 46 sahədən ibarət Güney-Qaraxaç rayonu; 8. Ərazisi 11534 desyatin olan 42 sahədən ibarət Cənub-Dərələyəz rayonu (ərazisi 9023 desyatin olan 28 sahə Şərur-Dərələyəz, ərazisi 9621 desyatin olan 38 sahə isə Naxçıvan qəzasının payına düşmüşdü); 9. Sürməli qəzasında ərazisi 8851 desyatin olan 32 sahədən ibarət Sınak rayonu; 10. Ərazisi 4014 desyatin olan 8 sahədən ibarət Gü-

[43] Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.53.

ney-Dəmirli və ərazisi 3902 desyatin olan 20 sahədən ibarət Gündağ rayonları (hər ikisi Naxçıvan quberniyasında); 11. Ərazisi 3780 desyatin olan 12 sahədən ibarət Dxol və ərazisi 3088 desyatin olan 10 sahədən ibarət Çınqıl rayonları (hər ikisi Sürməli quberniyasında); 12. Ərazisi 2057 desyatin olan 7 sahədən ibarət Gəlinqaya rayonu (Aleksandropol qəzasında); 13. Ərazisi 808 desyatin olan 3 sahədən ibarət Qazax-yaylaq, ərazisi 650 desyatin olan 3 sahədən ibarət Göykilsə, ərazisi 490 desyatin olan 3 sahədən ibarət Dalaqnigar və ərazisi 440 desyatin olan 2 sahədən ibarət Dibəkli rayonları (dördü də Naxçıvan qəzasında). Ümumilikdə isə İrəvan quberniyasında ümumi ərazisi 325051 desyatin olan 1075 sahə qeydə alınmış, bu sahələrdən axırıncı dörd rayon və əlavə Gendağ rayonu (ərazisi 6362 desyatin olan 31 sahə) tədqiq olunmamış, qalan rayonlar (ərazisi 1044 desyatin olan 1044 sahə) isə tədqiq edilmişdir[44].

İrəvan quberniyasında hər bir qəzanın payına müxtəlif ölçüdə otlaq yerləri də düşmüşdü. Qəzalar üzrə düşən otlaqların ərazisi, sahələrin sayı və ərazinin ölçüləri belə idi: 1. İrəvan qəzasında 121 sahə, ümumi ərazisi 48346 desyatin (ərazisi 15267 desyatin olan 68 sahə yaylaqların, ərazisi 33085 desyatin olan 53 sahə qışlaqların payına düşürdü); 2. Naxçıvan qəzasında 119 sahə, ümumi ərazisi 45127 desyatin (ərazisi 22508 desyatin olan 91 sahə yaylaqların, ərazisi 22619 desyatin olan 28 sahə qışlaqların payına düşürdü); 3. Sürməli qəzasında 124 sahə, ümumi ərazisi 107211 desyatin (bunlardan ərazisi 25865 desyatin olan 75 sahə yaylaqların, ərazisi 81346 desyatin olan 49 sahə qışlaqların payına düşürdü); 4. Şərur-Dərələyəz qəzasında 124 sahə, ümumi ərazisi 55932 desyatin (bunlardan ərazisi 50896 desyatin olan 115 sahə yaylaqların, ərazisi 5036 desyatin olan 9 sahə qışlaqların payına düşürdü); 5. Yenibəyazid qəzasında 381 sahə, ümumi ərazisi 147129 desyatin (bu qəzada qışlaq yoxdur); 6. Üçmüəzzin qəzasında ümumi ərazisi 157086 desyatin 255 sahə (bunlardan

---

[44] Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.52; Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.53-54.

ərazisi 27236 desyatin olan 193 sahə yaylaqların, ərazisi 129850 desyatin olan 63 sahə qışlaqların payına düşürdü); 7. Aleksandropol qəzasında 152 sahə, ümumi ərazisi 36156 desyatin (bu qəzada qışlaq yoxdur)[45].

Qeyd etmək lazımdır ki, İrəvan quberniyasında ümumi ərazisi 53579 desyatin olan, 33 sahəni özündə birləşdirən Ağrıdağ qışlağı, Sürməli qəzasında ərazisi 16320 desyatin olan, 9 sahəni özündə birləşdirən Söyüdlü qışlağı, ümumilikdə isə 42 sahəni özündə birləşdirən 69899 desyatin qışlaq tədqiq olunmuşdur[46].

Quberniyada yaylaqlar xarakterinə görə müxtəlif cür idi. Dağların cənub yamaclarında yerləşən yaylaqlar şimal yamaclarında yerləşən yaylaqlardan daha keyfiyyətli və yaxşı idi. Şimala nisbətən cənub yamaclarında ot daha bol və yeməli, ot tədarükü isə lazımi səviyyədə olmuşdur. İrəvan quberniyasına məxsus qəzaların yaylaqlarından yalnız həmin qəzanın əhalisi deyil, eyni zamanda başqa qəzalardan və quberniyalardan mal-qarasını örüş üçün gətirmiş əhali də istifadə edirdi. Məsələn, **Yenibəyazid qəzasının yaylaqlarından** yenibəyazidlilərin özü Misxana rayonundan başqa qəzanın bütün örüş rayonlarından, İrəvan qəzasının əhalisi Məzrə-Güney və Misxana rayonlarından başqa bütün örüş rayonlarından, Sürməli qəzasının əhalisi Ağdağ-Ağmanqan və Ayrıc rayonlarından, Şərur-Dərələyəz qəzasının əhalisi Ayrıc və Keyti-Yanıq rayonlarından, Tiflis quberniyasından sığnaqlılar Məzrə-Güney rayonundan, Yelizavetpol quberniyasından şuşalılar və cavanşirlər Keyti-Yanıx rayonundan, qazaxlılar Misxana rayonundan, **Şərur-Dərələyəz qəzasının yaylaqlarından** yerli əhali hər iki rayonun örüş yerlərindən, naxçıvanlılar Cənubi Dərələyəz rayonundan, irəvanlılar Dərələyəz rayonundan, Yelizavetpol quberniyasından cəbrayıllılar Cənubi Dərələyəz rayonundan, həmin quberniyadan cavanşirlər, zəngəzurlular, şuşalılar, Bakı quberniyasından cavadlılar Dərələyəz rayonundan, **Naxçı-**

---

[45] Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.53; Памятная книжка Эриванской губернии на 1904, отдел IV, с.54.

[46] Yenə orada.

**van qəzasının yaylaqlarından** yerli əhali bütün rayonlardan, cəbrayıllılar və şuşalılar Biçənək rayonundan, **İrəvan qəzasının yaylaqlarından** yalnız irəvanlıların özləri, **Sürməli qəzasının yaylaqlarından** yalnız sürməlilər, **Aleksandropol qəzasının yaylaqlarında** yerli əhali bütün rayonlardan, Sürməli və Üçmüəzzin elatları Alagöz rayonundan, qazaxlılar Misxana rayonundan, Tiflis quberniyasından borçalılar, tiflislilər və tionestlər Güney-Qaraxaç rayonlarından, Üçmüəzzin qəzasının yaylaqlarından yerli əhali, sürməlilər və irəvanlılar Alagöz rayonundan istifadə etmişdilər. Məlumata görə, hər il İrəvan quberniyasında qonşu quberniyalardan yay aylarında yaylaqlarda müvəqqəti məskən salan hər iki cinsdən 15000-ə qədər əhali yaşamışdır[47].

İrəvan quberniyasına daxil olan qışlaqlardan yalnız bu örüş yerlərinin olduğu qəzanın sakinləri istifadə etmişdilər. Ümumiyyətlə, Tiflis quberniyasına daxil olan Borçalı qəzasının bir neçə desyatin yaylağından başqa, İrəvan quberniyasının əhalisi öz yaylaq və qışlaqlarından istifadə etmişdilər.

**Çayları.** İrəvan bol sulu çaylara malik quberniyalardan biri idi. Bu çayların hər birinin quberniyanın iqtisadi həyatında böyük rolu olmuş, çayların suyu ilə müxtəlif kəndlərin əkin sahələri və əhalisi təmin olunmuşdur. Araz çayından başqa bütün çaylar dağ sellərindən əmələ gəlmişdi. Mənsəbinə görə isə çaylar Kür və Araz sistemlərinə daxil olan çaylara ayrılmışdı. Kür çayı sisteminə daxil olan çaylardan biri başlanğıcını Ağbulaq kəndi yaxınlığında yerləşən Ağlağan dağı ilə Yasavul silsiləsinin birləşdiyi yerdən götürən və Aleksandropol qəzasında yerləşən böyük Pəmbək çayı idi. Bu çay başlanğıcdan əvvəlcə Çiçixana, Bəykənd çayı ilə birləşdikdən sonra Pəmbək Cənubi Qarasu, ayı adlanmışdı. Pəmbək çayı quberniyanın sərhədlərindən kənarda Kamenko çayı ilə birləşdikdən sonra əvvəl Debed, sonra isə Borçalı adlandı və Kürün qolu olan Xram çayına tökülürdü. Quberniya daxilində çayın uzunluğu 60 verst, eni isə 15 sajen, dərinliyi isə

---

[47] Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.58; Памятная книжка Эриванской губернии на 1904, отдел IV, с.59.

2,5 futa bərabər idi. Onun üzərində iki-Qışlaq kəndində dəmir dirəklər üzərində quraşdırılmış ağac, aşağıda Bəykənd kəndində daş körpü vardı. Qışlaq kənd körpüsü 1842-ci ildə salınmışdı[48].

Pəmbək dağ silsiləsinin axınlarından əmələ gələn bir neçə kiçik çaylar da vardı. Aleksandropol qəzasında yerləşən çaylardan birincisi Bəykənd çayıdır. Çay öz mənbəyini Topanlı kəndinin yanında olan Pəmbək dağ silsiləsindən götürmüşdü. Onun uzunluğu 16 verst, eni 5-7 sajen (1 sajen - 2,134 metr), dərinliyi isə 2 fut idi. Topanlı kəndində möhkəm daş körpüyə malik idi. Tanaut-Cur çayı da Aleksandropol qəzasında yerləşirdi və mənbəyini Pəmbək dağ silsiləsindən götürmüşdü. Onun uzunluğu 18 verst idi. Vartanlı kəndində üstündə daş körpü yerləşmişdi. Bundan əlavə, Aleksandropol qəzasında Pəmbək dağ silsiləsinin axınlarından əmələ gələn kiçik Daşbulaq, Qalavar və Bozabdal-su çayları da olmuşdu; 2. Kür sisteminə daxil olan nisbətən ikinci böyük çay Həmzəçimən-cur çayı idi. Bu çay da öz mənbəyini Pəmbək dağ silsiləsindən götürmüşdü. Həmzəçimən-cur Dilican dərəsindən keçdikdən sonra Ağstafa çayı adlanırdı. O, Poylu kəndində Kür çayına tökülürdü. Eni 2-3 sajen, dərinliyi isə 1,5-2 fut, uzunluğu isə 20, 5 verst idi[49].

İrəvan quberniyasının iqtisadi həyatında ən böyük rol oynayan çay Araz çayı idi. Bu çay öz başlanğıcını Türkiyənin Ərzurum vilayətində Mingöl dağından götürmüş, Qars əyalətindən başlayaraq Naxçıvan qəzasından keçərək, Bakı quberniyasının Cavad qəzasında Kür çayına tökülürdü. Araz çayının Kürə töküldüyü yerə qədər uzunluğu 880 verst, eni 15-60, bəzi yerlərdə 100 sajen, dərinliyi isə 3-15 fut, çayın İrəvan quberniyasından keçən hissəsi isə 150 verstə qədər idi. Onun suyu bulanıq olsa da, keyfiyyətli hesab olunurdu. Araz çayının Naxçıvan və İrəvan qəzalarında bərə-keçid yerləri çox idi və sayı 32-ə çatırdı. Çayın İrəvan qəzasında əsas keçid yerləri bunlar idi: 1. Arpaçay çayının mənsəbinin əks tərəfində yerləşən keçid; 2. Hacıbayramlı kəndindən

---

[48] Военно-статистическое обозрение Российской империи, 1853, с.90-91.
[49] Памятная книжка Эриванской губернии на 1904, отдел IV, с.14-15.

Qulp kəndinə gedən yola yaxın yerdə yerləşən keçid; 3. Şavarud kəndində yerləşən keçid; 4. Kələkarxı kəndinin yaxınlığında yerləşən Doqquzlar keçidi; 5. İqdali kəndində yerləşən keçid; 6. Mərkərya kəndi yaxınlığında yerləşən keçid; 7. Musaqala keçidi; 8. Saracalar kəndinin əks tərəfində yerləşən keçid; 9. Şıxlar kəndində olan keçid. Bundan əlavə, Ramazan kəndinin aşağısında, Şaxtaxtı kəndində, Culfada və Ordubadda xeyli bərə-keçid vardı, Markar və Qaraqala kəndlərində isə dəmir körpülər yerləşmişdi[50].

Araz çayından quberniyanın müxtəlif kəndlərini suvarmaq üçün çəkilmiş xeyli arx vardı. Bunların çoxu qədim arxlar idi və orta əsrlərdə, xanlıq dövründə çəkilmişdi. Arazdan çəkilmiş çaylara Sərdarabad, Kələk, Molla Bəyazid, Şitli, Kərim, Canvida, Kürdüklü, İqdalı, Cəfərabad, Uzunoba arxları daxil idi[51].

İrəvan quberniyasında Araz çayı sisteminə daxil olan çoxlu çaylar var idi. Bunlardan biri Araz çayının sol qolu olan Qərbi Arpaçay çayı idi. Qərbi Arpaçay çayı İrəvan quberniyasının əsas çaylarından biri hesab olunurdu. O, mənbəyini Qars əyalətində Çıldır dağının şərq qurtaracağından götürmüş, Arpagöl gölünə tökülən çoxlu kiçik çaylardan əmələ gəlmişdi. Çayın uzunluğu 142 verst (20 verst Qars əyaləti, 122 verst Aleksandropol və Üçmüəzzin qəzaları böyunca), eni 10-30 sajen, dərinliyi 3-4 fut, ən yaxşı keçidi Aleksandropol şəhərində və Bayandur kəndində, ən əlverişli körpü isə Aleksandropol şəhərində idi. Qərbi Arpaçayın bir neçə qolu-Qaranqa, Örtlu, Ellidərə, Gümrüçay və Şiştəpə adlı qolları vardı.

Şimali Qarasu çayı da İrəvan quberniyasının əsas çaylarından biri hesab olunurdu. O, çoxlu bulaqlardan əmələ gəlmiş, öz mənbəyini Yuxarı Qulubəyli kəndi yaxınlığında Alagöz dağından götürmüşdü. Suyu bol və rəngi qara idi. Şimali Qarasu çayı-

---

[50] Военно-статистическое обозрение Российской империи, 1853, с.68-69.

[51] Военно-статистическое обозрение Российской империи, 1853, с.70; Памятная книжка Эриванской губернии на 1904, отдел IV, с.15-17; Обозрение российских владений за Кавказом в статическом, этнографическом, топографическом, финансовом отношениях [в 4 частях], СПб, Типографий департамента внешней политика, 1836, ч.4, с.256.

nın uzunluğu 33 verst, eni 3-5 sajen, dərinliyi 102 sajen idi. Onun Abaran və yaxud Körpü adlı qolları vardı. Şimali Qarasu çayının sağ sahilindən Sərdarabad dairəsinin əkin sahələrini suvarmaq üçün 5, sol sahilindən isə Zəngibasar dairəsinin əkin sahələrini suvarmaq üçün 4 arx çəkilmişdi[52].

İrəvan quberniyasında üçüncü ən əhəmiyyətli çaylardan biri Zəngi çayı idi. Zəngi çayı öz başlanğıcını Göyçə gölündən götürərək Saracalar kəndində Araz çayına tökülürdü. Bu çay əsasən Yenibəyazid qəzası ərazisindən axaraq, İrəvan şəhərindən keçirdi. Şəhərin iqtisadi həyatında böyük rol oynayırdı. Onun uzunluğu 97 verstə (40 verst Yenibəyazid, 8 verst Üçmüəzzin qəzalarının ərazilərinə, 16,5 verst Üşmüəzzin qəzası ilə İrəvan qəzasının sərhədi boyunca və 32,5 verst İrəvan qəzasının ərazisinə düşürdü) bərabər, dərinliyi 1 arşın və bir qədər çox, eni isə 10 sajen idi. Zəngi çayının üzərində bir neçə körpü tikilmişdi. Birinci çayın mənbəyində İrəvandan Dilicana gedən yolun üzərində, ikinci, Dərəçiçək yolunun üzərində Randamal və Axtı kəndlərində, üçüncü Bicni, Arzakənd kəndlərində taxtadan, dördüncü Ketran kəndindən 3 verst aralı qədimi Xeyrat daş körpü, beşinci isə İğdır yolu üzərində İrəvan şəhərində daş körpü idi. Bundan əlavə, Zəngi çayı bir neçə qola ayrılırdı. Bunlardan Misxanı yaxud Misxançayı, Soyuqbulağı (mənbəyi Zincirli dağı Pəmbək silsiləsindən ayrıldığı yer), Qırxbulağı (mənbəyi Başkənd və Ağazor kəndlərinin yanında Gədiz dağının ətəkləri idi və üzərində İrəvan şəhərinin çıxışında Naxçıvan yolu üzərində daş körpü vardı) qeyd etmək olardı. Qırxbulaq çayı 40 bulağın birləşməsindən əmələ gəlmişdi. Qırxbulaq çayından 8 arx çəkilmişdi. Bu arxlar İrəvan şəhərini və bağlarını suvarırdı[53].

Araz çayı sisteminə daxil olan çaylardan biri də Naxçıvan çayı idi. Naxçıvan çayı (başqa cür Biçənək çay və Qarababa çay)

---

[52] Военно-статистическое обозрение Российской империи, 1853, с.77-78; Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.17.

[53] Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.17-55; Военно-статистическое обозрение Российской империи, 1853, с.78-80.

öz başlanğıcını Şuşa qəzası ilə sərhədə yerləşən Arıqlı dağdan götürürdü. Dağ gölü olan Qanlı göl də çayı öz suyu ilə təmin edirdi. Naxçıvan çayı dərin dərələrdən axaraq cənub-şərq istiqamətində hərəkət edərək Xılxılı kəndi yaxınlığında cənub istiqamətində dönərək, Naxçıvan düzənliyi boyu axaraq, Naxçıvan şəhərindən 1 verst aralı şərq tərəfdən Araz çayına tökülürdü. Onun uzunluğu 71 verst idi. Bütün axını Naxçıvan qəzasına düşürdü. Yay aylarında onun suyu az olurdu. Naxçıvandan Görusa və Yelizavetpol quberniyasına gedən yolda üzərində bir neçə körpü tikilmişdi. Çayın Qyuk, Cağrı kimi kiçik qolları vardı. Naxçıvan çayından müxtəlif istiqamətlərə bir neçə arx çəkilmişdi. Həmin arxlar bunlar idi: 1. Naxçıvan şəhərinin Böyük arxı (uzunluğu 25 verst); 2. Dəlmə (uzunluğu 12 verst); 3. Yamxana (uzunluğu 5 verst); 4. Vayxır (uzunluğu 14 verst); 5. Tulqan (uzunluğu 20 verst); 6. Köpran (uzunluğu 18 verst); 7. Qalqa (uzunluğu 20 verst); 8. Nehrəm (uzunluğu 12 verst); 9. Tumbul (uzunluğu 6 verst); 10. Təzəhəyat (uzunluğu 8 verst); 11. Pircuvar (arx Köpran, Tulqan və Qalqa arxlarının birləşməsindən əmələ gəlmişdi), arx Pircuvar çöllərini suvarırdı.

Araz çayına tökülən çaylardan biri Gərniçay çayı idi. O, mənbəyini Ağmanqan dağının Qızıldağ və Arxaşan zirvələrindən götürürdü. Lakin yayda Araz çayına gedib çatmırdı. Onun eni bəzi yerlərdə 3 sajen, dərinliyi 1 arşın idi. Çayın uzunluğu 50 verstdən çox idi. Gərniçaydan 8 arx çəkilmişdi. Çayın üzərində yeganə körpü Naxçıvan poçt yolunun üzərində tikilmişdi[54].

İrəvan quberniyasında böyük çaylardan əlavə kiçik çaylar da vardı. Bunlardan Qarasu çayını (mənbəyi Gərni və Vedi çayları arasında yerləşirdi), Nazlı xan çayı (mənbəyi Şeyxzadə çayı olan yerdən başlayırdı), Vedi çayı (ərəbcə vadi, dərə deməkdir) mənbəyini Ağmanqan dağının Arxaşan və Topdağ zirvələrindən

---

[54] Военно-статистическое обозрение Российской империи, 1853, с.80-81; Озаревский И., Опыт военного обозрения Закавказья. Шестая дистанция Ванской кордонной линии, СПб: В военной типографии, 1883, с.29-30; Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.17.

götürmüş və uzunluğu 47 verst idi. Yayda quruduğundan Araz çayına gedib çatmırdı. Onun Naxçıvan yolu üzərində körpüsü vardı), Daşbulaq çayı (öz mənbəyini Saraybulaq silsiləsindən götürmüş və yalnız yazda Araz çayına gedib çatırdı), Çanaxçı çayı və yaxud Çoban arx çayı (mənbəyini həmin yerdən götürmüş), o da yazda Araz çayına çatırdı, Şərur Qarasu çayı (Yenicə, Kürdkənd və Şəhriyar kəndlərinin suvarma sularından yaranmışdı), Şərqi Arpaçay çayı (mənbəyi Konqur-Alagöz və Şimali Dərələyəz silsilələri arasında Alagöz dağının cənub sahəsində yerləşirdi. Onun ilk başlanğıcda adı Daşkörpü çay adlanırdı. Uzunluğu 106, eni 5 verst idi və bütün çay yalnız Şərur-Dərələyəzdən keçirdi. İstisu kəndində üzərində ağac körpü, Dədəli körpü adlanan möhkəm daş körpü Keşişkənddən 2 verst cənubda və poçt yolu üzərində, Həmzəli-diza kəndində dəmir körpü yerləşirdi), Şərqi Arpaçay çayı (Alagöz, Gəlgəl, Çul, Ceyranlı yaxud Muradtəpəsu, Zirək, Axta, Martiros və Qınışıq kimi qolları olmuşdu), Naxçıvanın Duzlu çayı, Əlincəçay çayı (mənbəyini Konqur-Alagöz silsiləsinin Aracin və Dəmirdağ zirvələrindən götürmüş, Culfa şəhərinin yaxınlığında Araz çayına tökülürdü. Uzunluğu 54 verst idi. Dayaz olduğu üçün çaydan keçmək əlverişli idi. Onun üzərində Qazançı və Lakataq kəndlərində qədim daş körpü vardı. Əlincə çayın sağ sahilindən 10 kanal (bunlardan ən görkəmlisi Küznüt arxı idi), sol sahilindən isə 7 arx (bunlardan ən görkəmlisi Culfa arxı idi) çəkilmişdi. Caracur çayı (uzunluğu 36 verst, çayın mənsəbi Yaycı kəndi idi), Gilyan çayı və yaxud Belev çayı (mənbəyini Ağrı dağın ətəklərindən götürmüş, uzunluğu 47 verst idi. Gilançayın sağ sahilindən 7, sol sahilindən isə 8 arx çəkilmişdi. Üzərində 3 daş və bir ağac körpü salınmışdı. Çayın keçdiyi bütün kəndlərdə üzərində dəyirman quraşdırılmışdı), Urumis çay və yaxud Çananab çayı ( mənbəyini Qapıcıq dağının ətəklərindən götürmüş, Gilançaydan 5 verst aşağıda Araz çayına tökülürdü. Uzunluğu 28 verst, üzərində çoxlu dəyirman və Çinanab kəndində daş körpü tikilmişdi. Çaydan 12 kiçik arx çəkilmişdi), Vənənd çayı (mənbəyini Ayçapqala dağının ətəklərindən götürmüşdü. Uzunluğu 26 verst idi, Urumis çaydan 3 verst aşağı Araz

çayına tökülürdü. Üzərində Dostı kəndində daş dirəklər üzərində ağac körpü, Diksar kəndində daş körpü salınmışdı. Çayın sağ sahilindən 11, sol sahilindən isə 7 arx çəkilmişdi), Əylis çayı yaxud Nüvədi çayı (mənbəyini Nüvədi dağının bulaqlarından götürmüşdü. Uzunluğu 19 verst idi, Vənənd çaydan 4 verst aşağıda Araz çayına tökülürdü. Yayda Araz çayına gedib çatmırdı. Onun suyu yalnız yağışlı və qarlı havalarda kifayət qədər olurdu. Çayın üzərində Yuxarı Əylis kəndində körpü salınmışdı), Ordubad çayı (mənbəyini Alagöz dağının bulaqlarından götürərək, Ordubad dərəsindən axıb, Ordubad şəhərdən keçərək Araz çayına tökülürdü. Onun uzunluğu 22 verst olsa da, eni az idi. Suyu bol olardı. Hətta yağışlı və qarlı havalarda o, daşaraq Ordubad şəhərinə və kəndlərə böyük ziyan vururdu. Ordubad çayının sağ sahilindən 6, sol sahilindən isə 8 arx çəkilmişdi ki, həmin arxlar Ordubad şəhər bağlarını və əkinlərini suvarırdı. Çayın üzərində daş körpü tikilmişdi), Qanza çayı, Dəmirbulaq çayı, Kilit bulaqları, Qarçevan çayı qeyd etmək lazımdır[55].

Yuxarıda qeyd edilən İrəvan quberniyasına aid çaylar Araz çayının sol qolunu təşkil edirdi. Araz çayının sağ qolunu təşkil edən çaylar isə bunlar idi: 1. Təzəkçi çayı, uzunluğu 15 verst; 2. Qazıqoparan çayı yaxud Tənduran çayı, uzunluğu 25 verst; 3. Acı çay, uzunluğu 46 verst; 4. Yuxarı Bulaq başı yaxud Böyük Cənubi Qarasu çayı, uzunluğu 26 verst; 5. Orta Cənubi Qarasu çayı (mənbəyini Böyük Ağrıdağ dağının ətəklərində Bulaqbaşı bulağından götürmüş, Vediçayın mənsəbindən 3 verst aşağıda Araz çayına tökülürdü. Uzunluğu 22 verst idi. Üzərində bir neçə ağac körpü salınmış, Həsən xan, Aralıq, Aratan və Axurlı arxları çəkilmişdi. Axırıncı arx işğaldan sonra 1844-cü ildə qazılmışdı); 6. Aşağı Cənubi Qarasu çayı, uzunluğu 24 verst[56].

Göyçə gölünə hər tərəfdən böyük-kiçik həcmdə 36-ya qə-

---

[55] Военно-статистическое обозрение Российской империи, 1853, с.87-88; Озаревский И., Опыт военного обозрения Закавказья, с.30; Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.17.

[56] Военно-статистическое обозрение Российской империи, 1853, с.82-83; Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.17-22.

dər çay tökülürdü. Bunlardan İrəvan quberniyası daxilində nisbətən əsas çaylar bunlar idi: 1. Balıq çay (mənbəyini Ayrıqar dağının ətəklərindən götürmüş, Çubuxlu yaxınlığında Göyçə gö-lünə tökülürdü. Uzunluğu 18 verst idi və Çubuxlu poçt yolunun üzərində ağac körpü salınmışdı); 2. Kəvər çay (mənbəyini Qızıl dağından götürərək, şimal-şərq istiqamətində Yenibəyazid şəhərinin yaxınlığından keçib Naraduz kəndindən aşağı Göyçə gölünə tökülürdü. Çayın uzunluğu 33 verst idi. Üzərində Yenibəyazid şəhərində və Qışlaq kəndində iki daş körpü və 30-a qədər dəyirman tikilmişdi); 3. Adıyaman çay (mənbəyini Adıyaman dağının şimal ətəklərindən götürərək, şimal istiqamətində axaraq, Göyçə gölünə cənub-qərb istiqamətində tökülürdü. Çayın uzunluğu 33 verst, dərinliyi isə dayaz idi. Aşağı Adıyaman kəndinin yaxınlığında üzərində körpü salınmış, üzərində çoxlu dəyirman fəaliyyət göstərirdi); 4. Məzrə çay (mənbəyini Kəndçi dağdan axan çoxlu kiçik çaylardan götürmüş, Göyçə gölünün cənub-şərq hissəsində yerləşən Gil düzənliyi boyu axırdı. Məzrə kəndində çayın üzərində daş körpü, digər yerlərində isə kiçik ağac körpülər salınmışdı[57].

**Göllər.** İrəvan quberniyasında irili-xırdalı xeyli göllər də mövcud olmuşdu. Quberniyanın əsas gölü Göyçə idi. Göyçə gölü Yenibəyazid qəzasında $40^{0}$ $9^{/}$ və $40^{0}$ $38^{/}$şimal enliyində, $62^{0}$ $41^{/}$ $68^{0}$ $22^{/}$ şərq uzunluğunda, dəniz səviyyəsindən 6340 fut yüksəklikdə yerləşmişdi. Hər tərəfdən Pəmbək, Eşşəkmeydan, Şahdağ, Cənub Göyçə və Ağmanqan hündür dağ silsilələri ilə əhatələnmişdi. Onun uzunluğu 70 verst, şərq hissəsi 31 verst, Adatəpə yarımadası və Şorqəl burnu arasında olan məsafəsi 8 verst, tutduğu sahə 1213, 44 kv. verst, 126400 desyatin və yaxud 1380,90 kv. km. idi. Gölün suyu göy və şəffaf idi. Göyçə gölü İrəvan quberniyasının iqtisadi həyatında böyük rol oynamışdı. Burada müxtəlif növ balıqlar, xüsusən alabalıq növü çoxluq təşkil edirdi. Alabalığın beş növü tutulurdu. Göyçədə balıq ovu icarəyə verilirdi[58].

---

[57] Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.17-23.

[58] Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.23-25; Кавказский календарь на 1910 год, Тифлис, 1909, с.460-461; Сергей

Göyçə gölündən başqa İrəvan quberniyasında xeyli kiçik göllər də olmuşdur. Quberniyanın gölləri bunlar idi: 1. Ayğır gölü (Üçmüəzzindən 8,5 vert qərbdə yerləşirdi. Sahəsi 1,5 kv.verst, dərinliyi 3 sajen idi. O, Alagöz dağının ətəklərində yerləşən böyük bulaq vasitəsilə təmin olunurdu); 2. Qaragöl gölü (Alagöz dağının zirvəsində vulkan dairəsində, əsas zirvədən 2,5 verst aralı, dəniz səviyyəsindən 9778 fut yüksəklikdə yerləşirdi. Sahəsi 3 kv.verst idi); 3. Gilli yaxud Məzrə və Zod gölü (Göyçə gölünün cənub-şərq küncündə yerləşmiş, sahəsi 7 kv. verst idi); 4. Qanlı göl (Cənub Dərələyəz silsiləsinin cənub yamacında, Keçəldağ və Oyuqdağ zirvələri arasında 7000 fut yüksəklikdə yerləşirdi. Uzunluğu 200 sajen idi); 5. Batabat gölü (Naxçıvan çayının yuxarısında, Biçənək aşırımından 2 verst qərbdə, 7000 fut yüksəklikdə yerləşmişdi); 6. Şor göl (Böyük Ağrıdağın ətəklərində, Daşburun kəndindən 2,5 verst cənub-şərqdə yerləşirdi); 7. Balıq göl (Sürməli qəzasının cənub-qərb hissəsində Osmanlı Türkiyəsinin Bəyazid paşalığı ilə sərhəddə yerləşirdi. Balıq göl Göyçə gölündən 1557 f. yüksəklikdə yerləşmişdi. Onun da suyu şəffaf və təmiz, balıqla bol idi)[59].

Qeyd olunan göllərdən əlavə, İrəvan quberniyasında Dərələyəzdə, Ağrıdağ dağında, Vedi çayının yuxarılarında, Cənub Göyçə və Ağmanqan dağlarında xeyli xırda göllər mövcud olmuşdur.

**Qazıntı mədənləri.** İrəvan quberniyası cürbəcür yeraltı qazıntı materialları ilə zəngin olan bölgə idi. Burada mis, dəmir, qızıl, qurğuşun, gümüş, sink kimi dəmir filizlərinə, duz və tikinti materiallarına rast gəlmək olardı. Dağlarda mis və dəmir filizi bol idi, qızıl isə 1868-ci ildə kəşfiyyat qrupu tərəfindən Naxçıvan qəzasında Araz çayının sol qolu olan Əlincə çayının hövzəsində tapımışdı. Lakin İrəvan quberniyasının misdən başqa, digər zən-

---

Анисимов, Кавказ, Петроград, 1916, с.101-103.

[59] Военно-статистическое обозрение Российской империи, 1853, с.92-94; Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.24-26.

gin mədən yataqları XX əsrin əvvəllərinədək demək olar ki, öyrənilməmişdir. Çar Rusiyası İrəvan misinin emalına daha çox diqqət yetirmişdi. İrəvan quberniyasının ayrı-ayrı bölgələrində mis yataqlarına rast gəlmək olardı. Məsələn, mis yataqlarına Pəmbək dağının şimalına paralel hissəsində rast gəmək mümkün idi. Əvvəllər burada mis emal edilmişdisə, sonradan burada iş dayandırılmışdı. Digər zəngin mis yatağı Yenibəyazid qəzasının Misxana dağında yerləşirdi. Əvvəllər burada mədən fəaliyyət göstərmiş və zəngin mis emal olunmuşdu. Lakin XX əsrin əvvəllərində hökumət tərəfindən həmin mis mədəni ləğv edilmişdi. Mis yataqlarına Araz çayının sağ sahilində Sürməli qəzasının Parnaut kəndi yaxınlığında, Naxçıvan qəzasında Kaçil kəndi yaxınlığında və Ordubad dairəsində Çınqıldərə və Aydərə adlı yerlərdə rast gəlmək olardı. Lakin İrəvan quberniyasında fəaliyyət göstərən əsas mis emal zavodu Aleksandropol qəzasının Şişmədən kəndində yerləşirdi və kəndin adı ilə Şişmədən zavodu adlanmışdı. Məlumata görə, burada mis yalnız qışda emal edilirdi. Çünki isti fəsillərdə burada çoxlu su olurdu. Sahibkarlar isə bütün il boyu işi təmin etmək üçün mədəndə lağım atdırırdılar ki, suyu təmizləmək və daha dərinlərə getmək mümkün olsun. 1895-ci ildə Şişmədən şaxtasından 3000 pud mis hasil edilmiş, emal üçün Odessa şəhərinə göndərilmişdir. Ondan ümumi məbləği 7070 rub olan 560 pud təmiz qırmızı mis əldə edilmiş, 210 min pudu qara, təmizlənməmiş emal edilmişdir[60].

İrəvan quberniyasının müxtəlif yerlərində gümüş yataqlarına da rast gəlmək olardı. Belə yataqlar Cənubi Dərələyəz dağ silsiləsində, Yaycı, Yenicə və Gümüşxana kəndlərinin yaxınlığında, Yenibəyazid qəzasında köhnə zavodun qalıqlarının qaldığı Ağayeri adlı yerdə, Naxçıvan qəzasında Pazmari kəndinin yaxınlığında, Arazın sol qolu olan Dernis çayının yuxarı axarlarında vardı[61].

---

[60] Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.27-28; Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.27; Военно-статистическое обозрение Российской империи, 1853, с.135; Сборник материалов для описания местностей и племен Кавказа, выпуск 2, с.137.

[61] Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.28;

Quberniya qurğuşun yataqları, dəmir, maqnit, kobalt, sink, kükürd və zəy ilə də zəngin idi. Qurğuşun yataqlarına Bozabdal və Şimal-Şərqi Göyçə dağ silsilələrində, Dərələyəz dağlarında, qırmızı dəmirə, maqnitə və kobalta Şimal-Şərqi Göyçə dağ silsiləsində, sinkə Yenibəyazid qəzasında Zəngi çayının qolu olan Soyuqbulaq çayı sahilində Misxana zavodunun yaxınlığında rast gəlmək olardı. Zəy Culfa yaxınlığında hasil olunurdu. Naxçıvan qəzasında Biçənək kəndinin yaxınlığında kükürd zavodu fəaliyyət göstərirdi[62].

Dəmir yataqlarına Aleksandropol qəzasında Pəmbək çayının sağ sahilində Böyük Qarakilsə və Yaqublu kəndlərinin yaxınlığında, qırmızı dəmir filizinə Ağrıyurd yaylağında və Xalac yaşayış məntəqəsində, İrəvan qəzasında Yelqovan kəndində, Naxçıvan qəzasının müxtəlif yerlərində, xüsusən də Gencə kəndinin yaxınlığında rast gəlmək olardı[63].

İrəvan quberniyasında dəyirman daşı da hasil olunurdu. Bu daş kristallaşdırılmış kvarsit (bir-birinə sıx bitişmiş kvars dənələrindən ibarət suxur) formasında idi. O, Bozabdal dağ silsiləsinin Dəyirman daşı adlanan şərq hissəsində, Konqur Alagöz dağ silsiləsində Doğru dağdan, Naxçıvan qəzasında Qızılca kəndindən 5 verst aralıda, Culfa yaxınlığında hasil və emal olunurdu[64].

İrəvan quberniyası tikinti materialları ilə zəngin bölgələrdən biri hesab olunurdu. Bu materiallardan ən məşhuru tuf daşı idi. Azərbaycan türkləri ona həvəng daşı deyirdilər. Tuf daşı daş kömürə oxşar müxtəlif rəngdə - sarı-qırmızı, qaraxallı, qırmızı, göyə

---

Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.28; Сборник материалов для описания местностей и племен Кавказа, выпуск 2, с.137.

[62] Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.28; Сборник материалов для описания местностей и племен Кавказа, выпуск 2, с.136-137.

[63] Yenə orada, c.137.

[64] Сборник материалов для описания местностей и племен Кавказа, выпуск 2, с.136; Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.30.

çalan rəngdə idi. Tufdan nəinki tikinti materialı kimi, eyni zamanda divarların bəzədilməsində, şərab zirzəmiləri qazılan zaman tavanı dayanıqlı olmaq üçün və suyun təmizlənməsində də istifadə edilirdi. Bundan əlavə, İrəvan, Yenibəyazid, Naxçıvan və Üçmüəzzin qəzalarında əhəng daşı, Naxçıvan qəzasında Biləv çayının sağ sahilində Nəsirabad kəndindən yuxarıda dağlıq ərazidə sement daşı, Naxçıvan yaxınlığında gips, Culfa yaxınlığında qırmızı qum hasil olunurdu. Quberniyada mərmərə Misxana vadisində, Noraşen kəndi yaxınlığında, Şərur-Dərələyəzdə, Dərəçiçəkdə, Uluxanlı kəndinin yaxınlığında, Qulp kəndinin ətraf yerlərində, Sürməli qəzasında Sinaq dağında, Aznabyurd kəndi yaxınlığında, Naxçıvan şəhərində Konqur Alagöz silsiləsində, İrəvan qəzasında Ağamzalı kəndində rast gəlmək olardı. Quberniyanın ayrı-ayrı yerlərində olan mərmərlər müxtəlif rəngdə idi və ustalar mərmərdən müxtəlif şey hazırlayırdılar. Lay mərmərin qalınlığı 8 düyüm, uzunluğu isə müxtəlif cür idi. Ustalar lay mərmərin uzunluğunu 7,5, enini isə 4 fut ölçüsündə yonurdular[65].

İrəvan quberniyası öz duzu ilə daha məşhur idi. Qədimdən Araz çayının sağ sahilində, Sürməli qəzasının Qulp kəndində, Naxçıvan qəzasında Duzdağda, Sust kəndindən 4 verst şərqdə Sust duz mədəni yerləşirdi. Hər üç mədən öz duz hasilatı ilə nəinki İrəvan quberniyasında, eyni zamanda Cənubi Qafqazda və qonşu dövlətlərdə məşhur idi[66]. Duz mədənləri və onlardan hasil edilən duz haqqında aşağıda bəhs ediləcəkdir.

---

[65] Военно-статистическое обозрение Российской империи, 1853, с.135; Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.30-31; Сборник материалов для описания местностей и племен Кавказа, выпуск 2, с.136-137; Кавказский календарь на 1851 г., Тифлис, 1850, с.17.

[66] Сборник материалов для описания местностей и племен Кавказа, выпуск 2, с.135; Кавказский календарь на 1851 г., Тифлис, 1850, с.29-30; Сборник сведений о Кавказе //под редакцией главного редактора Н.Зейдлица, Тифлис, В типографии главного управления наместника Кавказского, 1880, t.7, с.214-216; Сборник материалов для описания местностей и племен Кавказа, выпуск 2, с.137-139.

**Mineral sular.** İrəvan quberniyası müxtəlif mineral su ilə zəngin olan bulaqlarla bol olmuşdur. Belə mineral bulaqlar demək olar ki, İrəvan quberniyasının hər qəzasında vardı. Bu bulaqlar müalicə əhəmiyyətli suya malik idi. İrəvan qəzasında əsas üç məşhur mineral bulaqlar bunlar idi: 1. İrəvan şəhərindən 20 verst aralı Dağyun kəndi yaxınlığında daş plitədən üç yerdə bulaq qaynayırdı. Onun suyu duzlu və bir qədər ağzı büzüşdürən və neft tamlı idi. Yerli əhali bu sudan yel xəstəliklərində, dəri yanmalarında istifadə edirdilər; 2. İrəvan şəhərindən 46 verst cənuba, Dəvəli kəndindən 4,5 verst cənub-şərq istiqamətində dağın ətəyində bulaq qaynaması nəticəsində kiçik çay şəklində axır və o, sahəsi 10 sajen olan göl əmələ gətirmişdi. Suyu isti və duzludur. Burada dəri xəstəsi olanlar çimirdi; 3. İrəvan şəhərindən 20 verst şimalda, Zəngi çayının sağ sahilində Arzni kəndinin yaxınlığında qayanın yarığından axan mineral bulağın suyu da müalicəvi əhəmiyyətə malik idi[67].

Üçmüəzzin qəzasında dəmir səviyyəsindən 6000 fut yüksəklikdə Misxana dağının vadilərindən birində, İmirli kəndindən 2 verst aralı özünün soyuqluğu ilə seçilən mineral bulaq vardı. Su qayadan axırdı və yerli əhali onu Qotur bulağı adlandırırdılar. İyun ayında bütöv ailə bu bulağa gəlir, onun həm suyundan içir və həm də çimirdilər. Müalicə bir seans davam edirdi və bununla da qotur xəstəliyi gedirdi[68].

Sürməli qəzasında mineral su bulaqlarına İğdırdan 75 verst aralı Sinak dağının qayaları tərəfindən əhatəyə alınmış, elat qışlağına yaxın çökəklikdə rast gəlmək olardı. Burada çoxlu bulaqlar vardı, lakin onlardan ikisi daha məşhur idi. Birinin suyunun tərkibi dəmir-qələvi, digəri isə kükürdlü idi. Sürməli qəzasında üçüncü bulaq İğdırdan 80 verst aralı Təndürək çayının sağ sahilində Qazıqoparan sərhəd məntəqəsinə yaxın Cürətli dağının dibində dərədən axırdı. Onun suyu kükürdlü idi və gün ərzində 500

---

[67] Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.35-36.
[68] Yenə orada, c.36.

vedrə su verirdi. Qalaça qışlağının yaxınlığında dərədə suyu sarı kükürdlü, dadı turş olan dördüncü bulaq da müalicəvi əhəmiyyətə malik idi. Günə 400 vedrə su verirdi. Sürməli qəzasında İğdırdan 18 verst aralı, Zor qışlağına yaxın dərədə suyu dəmir-qələvi olan beşinci, Qaragoran kəndi yaxınlığında altıncı və Qulp kəndindən 3 verst şimal-qərbə, Təkaltı dağının ətəklərində yeddinci mineral bulaq da vardı. Bu bulaqlardan dəri xəstəliklərinin müalicəsində istifadə edilirdi[69].

Yenibəyazid qəzasının ayrı-ayrı yerlərində bir neçə mineral su bulaqları vardı. Qəzada olan bulaqlar bunlar idi: 1. Yenibəyazid şəhərindən 15 verst aralı Ağmanqan silsiləsinə daxil olan Keçiqaya dağının ətəklərində tərkibi dəmir-qələvi olan bulaq. Onun suyunun dadı ağızbüzən idi; 2. Yenibəyazid şəhərindən 40 verst aralı Ayrıca yaylasında yerləşən mineral bulaqlar; 3. Yenibəyazid şəhərindən 50 verst aralıda Dərəçiçəkdə 3 mineral bulaq vardı: Dərəçiçəkdən 1 verst cənubda yerləşən bulaqlardan birinin suyu əhəngli, iki verst qərbdə yerləşən bulağın suyu turş, Randamal kəndinin yaxınlığında yerləşən üçüncü bulağın suyu isə dəmirli idi; 4. Zəngi çayının sahilində, qaya altında Uzundərə kəndinin yaxınlığında yerləşən mineral bulağın suyu qazlı idi; 5. Zəngi çayının sol sahilində Gümüş kəndindən bir qədər aşağıda yerləşən Qotur bulağı; 6. Yelenovka kəndindən 2,5 verst aralı Göyçə gölünün sahilində, Zəngi çayının başlanğıcında tərkibi kükürdlü bulaq; 7. Misxana çayının sahilində yerləşən çoxlu mineral bulaqlar[70].

Naxçıvan qəzası da xeyli müalicəvi su bulaqlarına malik idi. Məsələn, Naxçıvan şəhərindən 7 verst aralı dağ çayının yatağında, təpəlikdə Naxşı Nərgiz adlı tərkibi karbonatla zəngin olan

---

[69] Военно-статистическое обозрение Российской империи, 1853, с.136; Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.36-37.

[70] Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.37-38; Сагателов М., Экономические очерки Эриванской губернии и озеро Гокча, с.3.

mineral bulaq qaynayırdı. Qumür kəndindən 1,5 verst, Surab kəndindən 3 verst aralıda tərkibi karbonatla zəngin olan Badamlı və Gəl Caracur, Gilançayın sol sahilində yerləşən Biləv kəndində tərkibi dəmir və karbonat olan bulaqlar və daha sonra Əlincəçayın yuxarılarında Aravsı və Qarababa kəndlərinin yaxınlığında tərkibi karbonat olan mineral bulaqlar qaynayırdı[71].

Şərur-Dərələyəz də öz bulaqları ilə məşhur olmuşdu. Onun ən tanınmış bulaqları Şərqi Arpaçayın hər iki sahilində qaynayan "İsti su" bulaqları idi. Bu bulaqlardan tərkibi karbonat-dəmir olan Soylan, tərkibi karbonat-dəmir, karbonat qələvili olan Yenicə (Qozludərə dərəsindən 3 verst şərqdə), Gərgər (Qaladərəsi kəndindən bir qədər aralı dərədə tərkibi karbonat-dəmir olan 2 bulaq və 2 verst şimalda yerləşən tərkibi karbonat-qələvi olan bulaqlar), Keşişkənd (Şordərəsi dərəsindən 2 verst şimalda tərkibi karbonat-dəmir olan bulaq), Arpa (burada Şərqi Arpaçay çayının hər iki sahilində 3 verst aşağı axarlarında bir neçə bulaq qaynayırdı), Bulaqlar, Ərdəpin (kənddən 2 verst şimalda kiçik Gümüşbulaq çayının hər iki sahilində bir neçə bulaq), Yuxarı Danzik (kənddən 1 verst şərqə Şərqi Arpaçayın hər iki sahilində bir neçə bulaq), Aşağı Danzik (kənddən 0,5 verst cənuba Şərqi Arpaçayın sahilində) və Mališka (kənddən 0,5 verst aralı dərədə) kəndlərində rast gəlmək olardı. Onların suyunun tempraturu 29,5-33$^0$ dərəcəyə çatırdı. Bundan əlavə, qəzada Arpaçay çayının sağ sahilinin yuxarı axarlarında Kuşi kəndindən 1,5 verst aralıda tərkibi karbonat olan, kiçik dağ çayı olan Qarabulaq çayının sahilində, Gümüşxanadan 15 verst aralı, temperaturu 32$^0$ və tərkibi karbonatla zəngin olan üç və Arpaçay çayına tökülən çayın sağ sahilində, Ayar kəndindən 3 verst cənubda mineral bulaqlar var idi[72].

[71] Сборник материалов для описания местностей и племен Кавказа, выпуск 2, с.137; Сборник сведений о Кавказе, т. IV, с.216; Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.39-40.
[72] Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.40; Сагателов М., Экономические очерки Эриванской губернии и озеро Гокча, с.3.

Aleksandropol qəzasında mineral su bulaqları 4 qrupa bölünmüşdü. Qəzada olan bulaqlar bunlar idi: 1. Dəniz səviyyəsindən 5000 fut yüksəklikdə Həmzəçimən yaşayış yerinə yaxın Dilicandan 14 verst, Nikitino kəndindən 1,5 verst aralı, tərkibi karbonat-dəmir və dəmir qələvi ilə zəngin olan iki Həmzəçimən bulağı qaynayırdı. 1878-ci ildə burada hərbi sanitar stansiyası yaradılmışdı. Qan azlığından əziyyət çəkənlər, sınqa xəstəliyinə tutulan hərbiçilər müalicə üçün bura göndərilirdi. Burada ağac tavanın altında xususi vanna quraşdırılmışdı; 2. Böyük Qarakilsə kəndindən 9 verst aralı Bozabdal kəndinin yaxınlığında, Bozabdal-su çayının sağ sahilində, Qışlaq kəndindən 4 verst yuxarı dağın ətəyində tərkibi karbonat-qələvi olan çox soyuq bulaq qaynayırdı. Burada da çimmək üçün ağac vanna düzəldilmişdi; 3. Aleksandropol şəhərindən 14 verst aralı, Bayandur kəndindən 1 verst cənubda Qərbi Arpaçay çayının iki qolu arasında, bir-birindən 6-7 sajen aralı tərkibi karbonat-qələvi ilə zəngin olan iki bulaq vardı. Hər iki bulağın suyu +13-14$^0$ idi. Hər iki bulağın yanında hovuz tikilmişdi; 4. Aleksandropol şəhərindən 38 verst şimala, Şiştəpə kəndindən 1,5 verst aralı Axalkələk yolunun üzərində, Mıxlıdərə çayının sol sahilində 5000 funt yüksəklikdə tərkibi karbonat-qələvi olan bulaq qaynayırdı. Suyunun temperaturu +17,5$^0$ dərəcə idi. Onun da yanında xüsusi hovuz tikilmişdi[73].

İrəvan quberniyası müxtəlif növ quş və heyvan növləri ilə zəngin olan bir bölgə idi. Onun bataqlıq yerləri, gölməçələri, qamışlıq və sıx otluq yerləri müxtəlif cinsli quşlarla - xüsusən, qu quşları, qazla, cüllütlə, qarabatdağla, müxtəlif rəngli ördəklə, durnalarla, vağla, dağlıq yerlərdə kəkliklə, dağ fərəsi ilə, qırqovulla və s. quşlarla, dağ və meşələrdə vəhşi qoyunla, keçi və qabanla, maralla, dovşanla, tülkü ilə, canavarla, ayı və digər heyvanllarla zəngin idi. Ayıya əsasən, bütün dağlıq ərazilərdə, canavara bütün quberniyada, xüsusən də Bozabdal dağında, kaftara

---

[73] Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.38-39.

Araz düzənliyində, qabana Qarasu sahilində olan qamışlı yerlərdə, maral və ceyrana Göyçədə, Dərəçiçəkdə və Dərələyəzdə, vəhşi keçiyə və qoyuna Ağrı dağında, bütün qəzalarda tülkiyə, dovşana və digər vəhşi heyvanlara rast gəlmək olardı[74].

**Rabitə yolları**. İrəvan quberniyasında Azərbaycanın müxtəlif bölgələrinə və qonşu dövlətlərə istiqamətlənən xeyli rabitə-poçt və ticarət yolları olmuşdur. Qeyd etmək lazımdır ki, işğaldan sonra çar icra orqanları uzun illər Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan İrəvan quberniyasında nəqliyyat yollarının bərpa və yaxşılaşdırılmasına diqqət yetirməmişdi. Lakin XIX yüzilliyin 60-cı illərindən başlayaraq hakimiyyət orqanları quberniyanın iqtisadi həyatında böyük rol oynayan yolların bərpasına diqqət yetirməyə məcbur olmuşdular. Belə ki, 1868-ci ildə Qafqaz Canişinliyinin baş idarəsinin rəisi Cənubi Qafqazda İrəvan, Bakı, Yelizavetpol, Tiflisi və Kutaisi quberniyalarının qubernatorlarına onların ərazilərində olan inzibati, ticarət və rabitə yollarının vəziyyəti haqqında məlumat vermələrini əmr etmişdi[75].

Həmin göstərişə əsasən, İrəvan qubernatoru quberniyada müxtəlif yolların vəziyyəti, təmirə ehtiyacların olması haqqında ətraflı məlumat vermişdir. İrəvan quberniyasında rabitə yollarından bəhs edərkən əsas yollardan biri Tiflisdən İrəvana istiqamətlənən poçt yolu hesab olunurdu. Tiflisdən İrəvana istiqamətlənən bu yolunun uzunluğu 258,25 verstdir. Bu yol Göyçə gölünün şimalından başlayaraq Eşşəkmeydan-Yelenovka-Axtı-Quru-fontan-Eyli-yardan keçərək İrəvan şəhərinə doğru uzanmışdı. Bu yolun Axtıya qədər olan hissəsi nisbətən istifadə üçün yararlı, İrəvana uzanan 44 verst yolun isə qaydaya salınmasına ehtiyacı vardır[76].

---

[74] Военно-статистическое обозрение Российской империи, 1853, с.134; Сагателов М., Экономические очерки Эриванской губернии и озеро Гокча, с.3.

[75] Сборник сведений о Кавказе // под редакцией главного редактора Н.Зейдлица, Тифлис: В типографии главного управления наместника Кавказского, 1871.-т.1, с.1.

[76] Сборник сведений о Кавказе, т.1, с.10; Военно-статистическое обозрение Российской империи, 1853, с.98-99.

Quberniyanın ikinci poçt yollarından biri İrəvan şəhərindən Naxçıvan şəhərinə istiqamətlənən yol idi. Bu yol Kəmərli stansiyasına qədər düz, İrəvan şəhərindən 2 verst aralı daşlı, sonra isə torpaq idi. Bu hissədə yol hər tərəfdən bağlarla əhatə olunmuş, sonra isə Gərni çayından çəkilmiş çoxlu suvarma arxlarının üzərində körpüdən keçərək Dəvəli stansiyasına yönəlmişdi. Burada yol çox rahat idi, Sədərəyə qədər düzənliklə uzanırdı. Sonra yol Baş-Noraşen-Qıvraq stansiyalarından keçərək Naxçıvan şəhərinə istiqamətlənmişdi[77].

İrəvan quberniyasında rabitə yollarından biri Naxçıvan şəhərindən Ordubad şəhərinə uzanan yol idi. Naxçıvan şəhərindən başlayan yolun ilk üç versti yüngül sulu olmuşdu. Sonra yol Naxçıvan çayının dayaz yerindən, daha sonra bir neçə arxın üstündə tikilmiş körpüdən keçərək, Əlincəçay stansiyasına yönəlmiş, buradan Əlincəçay çayının sol sahili də dərə boyu uzanaraq, Culfa karantin yolundan 3 verst aralıda sola dönərək Dardağ boyu istiqamətlənərək Ordubad şəhərinə çatmışdı. Ordubada qədər yol Belev və Vənənd çayları üzərində quraşdırılmış körpü və Urumıs çayının dayaz keçidi boyu istiqamətlənmişdi[78].

Tiflis şəhərindən Aleksandropol şəhərinə uzanan yol da İrəvan quberniyasında əsas yollardan biri hesab olunurdu. Bu yol Dilican stansiyasında Tiflis-İrəvan yolundan ayrılaraq Həmzəçimən və Qışlaq stansiyalarının arasından keçərək, Pəmbək çayının sol sahili ilə, sonra isə Hamamlı-Bəykənd stansiyalardan keçərək Aleksandropol şəhərinə gəlib çatmışdır[79].

Yenibəyazid yolu da Tiflis-İrəvan poçt yolundan ayrılaraq Çubuxlu (ondan 13,5 verst aralı) və Axtı (15,5 verst aralı) stansiyalarının arasından keçərək Yenibəyazid şəhərinə istiqamətlənmişdi. Bu yol Göyçə gölünün sahili boyu paralel düzənlik ərazi ilə uzanmışdı. Yenibəyazid yolu 1851-ci ildə malakanlar üçün

---

[77] Военно-статистическое обозрение Российской империи, 1853, с.99-101.
[78] Yenə orada, c.101.
[79] Yenə orada, c.102-103.

yaradılmış Yelenovka kəndində, stansiya təşkil etmək üçün poçt yolu kimi istifadə edilməyə başlamışdı[80].

Digər yol İrəvan şəhərindən Üçmüəzzinə istiqamətlənən rabitə yolu idi. Düz və daşlı olan bu yolun uzunluğu 18 verstdir. Bu yol ilin bütün fəsillərində əlverişli idi. Hər il yerli əhali bu yolu təmir etdiyindən, onun təmirinə ehtiyac tələb olunmurdu[81].

Əsas yollardan biri 180 verst uzunluğunda, Türkiyə sərhədi tərəfdən Alagöz dağından dolanaraq uzanan, Üçmüəzzindən başlayan "Çar yolu"dur. 1837-ci ildə çar I Nikolay bu yoldan keçdiyindən, onun şərəfinə belə adlandırılmışdır. Çar yolu 11 kənddən (Vaqrşapat, Sərdarabad, Talın, Məstərə, Perçikal, Boğazkəsən, Qarum, Kiçik Qarakilsə, Bendivan, Şiştəpə, Qazançı və Novotroiskoe) və 1 şəhərdən (Aleksandropol) keçib İrəvan şəhərinə istiqamətlənirdi. Bu yolun müəyyən hissəsi yalnız kəndlər arasında rabitə yaratmağa yarayırdı. İrəvan və Aleksandropol şəhərlərinin əhalisi ondan istifadə etmirdilər, yalnız Əştərək, Qarabulaq və Başabarandan keçməklə ticarət malları daşıyırdılar. Lakin "Çar yolu"nun Aleksandropol şəhərindən başlayaraq Axalkələki keçməklə Tiflisə istiqamətlənən hissəsindən ticarət yolu kimi əlverişli istifadə edilirdi. Tiflis şəhərindən və Kutaisi quberniyasından minlərlə ticarət karvanları sərhəd xəttinin yanından (Bayandur, Qaçaq, Qızılkilsə, Kambin, Karvansaray, Hacıbayramlı) keçərək, Qulp duz mədəninə gedirdilər. Eyni zamanda bu yoldan - Tiflisdən Aleksandropola ticarət malları daşınırdı. Hər gün bu yoldan 20 furqonla yük, yazda və payızda isə Qulp mədənindən duz daşınırdı. Lakin bu yolun çatışmayan cəhəti də vardı. Qışda Aleksandropol şəhəri ilə əlaqə kəsilirdi. Belə ki, Şiştəpə kəndi yaxınlığında Eldar çayının dayaz yerindən keçərkən nazik buz qatları arabaların ağırlığına davam gətirmirdi. İrəvan qubernatoru burada körpü salınmasını məsləhət bilmişdi. Bundan əlavə, Qulp duz mədəni ilə Aleksandropolu birləşdirən yolu yaxşılaşdırmaq üçün yerli əhali

---

[80] Военно-статистическое обозрение Российской империи, 1853, с.103.
[81] Сборник сведений о Кавказе, т.1, с.10; Военно-статистическое обозрение Российской империи, 1853, с.108.

Hacıbayramlı enişini düzəltmək və Xeyirbəyli gözətçi məntəqəsi yanında Araz çayını keçmək üçün körpü və ya bərə düzəldilməsini məsləhət görürdülər[82].

Naxçıvan şəhərindən Biçənək kəndinə, oradan Şuşaya uzanan yol nəqliyyat və ticarət üçün ildən-ilə daha əhəmiyyətli olurdu. Yelizavetpol, Bakı quberniyalarını təmin edən, Qacar dövlətindən gətirilən ticarət malları və Naxçıvan duzu bu yolla daşınırdı. Bu yol İrəvan şəhərindən, Ağstafadan, Yelizavetpoldan keçən yollardan iki dəfə qısa idi. Lakin qışda qarda, yazda dağ çaylarının daşqını zamanı bu yoldan istifadə etmək baha başa gəlirdi. Naxçıvan yolunun təmirə böyük ehtiyacı vardı. İrəvan qubernatoru yolu yaxşılaşdırmaq üçün çayların üzərində körpü düzəldilməsini məsləhət bilmişdi. Qubernatorun yazdığına görə 1871-1873-cü illər zemstvo xərcləri üçün nəzərdə tutulmuş 10 min rublun böyük hissəsini bu yolun təmirinə ayırmaq olardı[83].

XIX yüzilliyin 60-cı illərində Qafqaz canişinliyi Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan İrəvan quberniyasında yeni yollar çəkmək üçün real addımlar atmağa başladı. 1865-1866-cı illərdə Qafqaz canişinliyi Tiflis-İrəvan-Culfanı birləşdirən yeni yolun planını tərtib etdi. Bu yol Tiflisdən başlayaraq cənub-şərq istiqamətində 50 verst uzunluğunda Qırmızı körpüyə, buradan Ağstafa çayının sol sahili ilə Dilican dərəsinə qədər 60 verst uzunluğunda uzanmalı, Dilican dərəsindən yol dönərək Göyçə aşırımından, sonra Çubuxludan, Yelenovkadan, Axtı və Elyar yaşayış məntəqələrindən keçərək İrəvana, buradan isə Qacar dövləti ilə sərhəd məntəqəsi olan Culfaya istiqamətlənməli idi[84].

Tiflis-İrəvan-Culfa tranzit yolunun tikintisi 1965-ci ildə başlamışdı. Bu yolun tikintisi üçün Qafqaz canişinliyi hər il 300 min rubl pul ayırmışdı. 5-6 il çəkən bu yolun maliyyə dəyəri

---

[82] Сборник сведений о Кавказе, т.1, с.10-11.
[83] Yenə orada, c.11-12.
[84] Yenə orada, c.12; Акопян Т.Х., Очерк истории  Эривана, Ереван, Изд-во Ереванского Универстета, 1977, с.159.

1800000 rubla başa gəlmişdi. Uzunluğu 250 verst olan bu yolun tikintisi XIX yüzilliyin 70-ci illərin əvvəllərində başa çatmışdı[85].

Səyyah H.F.B.Linc XIX yüzilliyin 90-cı illərində İrəvana gələrkən Tiflisdən İrəvan quberniyasına uzanan iki yol haqqında çox maraqlı məlumat vermişdir. Səyahətnaməsində Gürcüstandan İrəvan quberniyasına uzanan iki mühüm yol haqqında məlumat verən səyyah onları ətraflı təsvir etmişdir. O, qeyd edirdi ki, "Gürcüstan tərəfdən İrəvana iki mühüm yol uzanırdı... Qərb tərəfdəki yol Kür çayının vadisindən başlayaraq mənzərəli Barjomi dərəsindən keçərək Axalsıx yaxınlığında dağətəyi boyu uzanırdı. Digər şərqi yol Tiflisdən 75 verst aşağıda Ağstafada Zaqafqaziya (Cənubi Qafqaz-E.Q.) dəmir yolundan başlayaraq Kür çayının vadisindən Ağstafa istiqamətində Dilican poçt stansiyasının yaxınlığında Göyçənin qərbində düzənliyə çıxırdı. Bu məntəqədə yol iki qola ayrılırdı: birinci yol Aleksandropol, ikinci yol isə İrəvan istiqamətində uzanırdı"[86].

Qeyd edilən yollardan başqa, İrəvan quberniyasının daxilində müxtəlif yaşayış məntəqələrinə uzanan yollar da mövcud olmuşdur. Bunlardan Üçmüəzzin-Baş-Abaran, Üçmüəzzin-Sərdarabad, Sərdarabad-Aleksandropol, Sərdarabad-Qulp, Dərəçiçək-Pəmbək, İrəvan-Yenibəyazid, Yenibəyazid-Şuşa, Kəmərli-Maku, Şərur-Dərələyəz, Naxçıvan-Dərələyəz, Naxçıvan-Şuşa, Ordubad-Mehri, Mehri-Zeyvə ticarət və yük yollarını qeyd etmək olardı[87].

XX yüzilliyin əvvəllərinə qədər İrəvan quberniyasında rabitə yolları əsasən daş və torpaq yolları idi. Əsrin əvvəllərində Rusiya idarə orqanları İrəvan quberniyasında da dəmir yolu çəkmək qərarına gəldi. İrəvan quberniyasında ilk dəmir yolu 1902-ci ildə

---

[85] Очерк истории Эривана, Ереван: Изд-во Ереванского Универстета, 1977, с.159.

[86] Линч Х.Ф.Б., Армения. Путевые очерки этюды, В 2-х томах, Тифлис, 1910, т.1. с.52.

[87] Военно-статистическое обозрение Российской империи, 1853, с.108-118;

açılmış Uluxanlı-Culfa dəmir yolu olmuşdur[88]. Sonrakı illərdə İrəvan quberniyası ərazisində və qonşu dövlətlərə istiqamətlənən dəmir yolları açılmışdır. Məsələn, 1908-ci ildən İrəvan-Culfa, 1916-cı ildə Culfa-Təbriz dəmir yolları fəaliyyət göstərmişdir.

Beləliklə, İrəvan quberniyası öz təbii şəraitinə görə, dağlıq, düzənlik və dağatəyi zonalara bölünmüşdü. Quberniya Azərbaycanın şimal-qərbində Tiflis, Yelizavetpol quberniyaları, Osmanlı və Qacar dövlərləri ilə həmsərhəd idi. O, müxtəlif növ torpaqlara, zəngin təbii sərvətlərə, bol sulu çaylara, bulaqlara, örüş yerlərinə, zəngin flora və faunaya malik olmuşdur.

---

[88] Гугушвили П.В., Развитие сельского хозяства в Грузии, Тбилиси, 1968, с.145.

# II FƏSİL

# İRƏVAN QUBERNİYASININ YARANMASI: ƏRAZİSİ, SƏRHƏDLƏRİ, İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜ, İDARƏ SİSTEMİ

## 2.1. İrəvan quberniyasının ərazisi, sərhədləri və inzibati-ərazi bölgüsü

İrəvan quberniyası Azərbaycanın əzəli və ayrılmaz tərkib hissələri olan İrəvan və Naxçıvan xanlıqları ərazisində yaranmışdır. Quberniya yaranana qədər bölgədə bir neçə dəfə inzibati-ərazi bölgüsü islahatı keçirilmiş, bu islahatlar çar Rusiyasını qane edənə qədər davam etdirilmişdir. Belə ki, İrəvan və Naxçıvan xanlıqları işğal olunduqdan sonra çar Rusiyası bu əraziləri öz idarəçilik sisteminə, mərkəzi quberniyalara birləşdirmək, köhnə inzibati-ərazi bölgüsünü ləğv etmək, özünə uyğun qanun-qayda yaratmaq və ən əsası bölgəni Azərbaycandan ayırmaq üçün inzibati-ərazi islahatları keçirməyə başladı. Qeyd etmək lazımdır ki, bu xanlıqlar Osmanlı və Qacar dövlətləri ilə həmsərhəd olduğuna görə, çar Rusiyası bu regiona strateji baxımdan daha çox diqqət yetirmiş, apardığı müxtəlif inzibati-ərazi islahatları ilə bölgəni Azərbaycandan ayırmağa, onun tarixi keçmişini, etnik mənzərəsini, coğrafi ərazisini dəyişməyə çalışmışdır.

İşğaldan sonra quberniya yaranana qədər İrəvan və Naxçıvan xanlıqlarının inzibati-ərazi bölgüsünə və idarəçilik sisteminə qısaca toxunmaq istərdik. İrəvan və Naxçıvan xanlıqlarının inzibati-ərazi quruluşu birdən-birə dəyişdirilmədi. Hər iki xanlıq işğaldan sonra Rusiya hakimiyyət orqanlarının təyin etdiyi hərbiçilər tərəfindən idarə olunmağa başladı. İşğalın ilk dövründən İrəvanda Müvəqqəti hakimiyyət orqanları yaradıldı. Belə ki, 1827-ci il oktyabrın 6-da baş komandan Paskeviçin əmri ilə keçmiş İrəvan xanlığını idarə etmək üçün Müvəqqəti İdarəçilik hökuməti fəaliyyətə başladı. Müvəqqəti İdarəçiliyin sədri general Krasovs-

ki, İrəvan qalasının komendantı podpolkovnik Borodon təyin edildi. Erməni katolikosu Nerses hökumətin üzvü seçilmişdi. Bu hökumətin fəaliyyəti kollegial xarakter daşıyırdı. General Paskeviç tərəfindən verilən 19 maddədən ibarət olan sərəncam Müvəqqəti İdarəçiliyin fəaliyyət istiqaməti olmuşdur[89]. Lakin Naxçıvan xanlığında və Ordubad dairəsində işğaldan sonra əvvəlki xan idarəçiliyi saxlandı. Hər iki xanlıq mahallara, mahallar isə kəndlərə bölünmüşdü. Mahalları rus hakim dairələrinə yaxın olan yerli bəylər, xanlar və məliklər tərəfindən idarə edilirdi.

Tezliklə, Rusiya hakim dairələri Azərbaycanın bu bölgəsində yeni inzibati-ərazi bölgüsü həyata keçirdi. Belə ki, 1827-ci ilin dekabrında çar tərəfindən İrəvan bölgəsini idarə etmək üçün yeni layihə hazırlandı[90]. Bunun ardınca, 1828-ci il martın 21-də çarın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" adlı inzibati qurum yaradıldı. Yaradılan yeni inzibati quruma İrəvan və Naxçıvan xanlıqları və Ordubad dairəsi daxil edildi. "Erməni vilayəti"nin mərkəzi İrəvan şəhəri olmuşdu[91].

"Erməni vilayəti"nə uyğun olaraq idarə orqanları təsis edildi. Qraf Paskeviçin 1828-ci il aprelin 2-də baş ştab rəisinə ünvanladığı rəsmi məktubda yaradılan idarə orqanları haqqında məlumat vermişdi. Belə ki, "Erməni vilayəti"nin idarəçiliyi hərbiçi olan rəisdən, onun yanında 2 rus zabitindən, məşvərətçi səsə malik 1 Azərbaycan türkündən və 1 ermənidən ibarət köməkçi heyətdən ibarət olmuşdur. İrəvan, Naxçıvan və Ordubad şəhərlərin-

---

[89] Общие правила, начертанные ген. Паскевичем для управления Эриванской областью, от 6-го октября 1827 года, Тифлис, 1878, т.7, с.480-481.

[90] Отношение гр. Дибича к ген.Паскевичу, от 15-го декабря 1827 года, Тифлис, 1878, т.7, с.482-484.

[91] Собрание актов, относящихся к обозрению истории армянского народа, в 2 томах, Москва, В типографии Лазаревых, 1833, т.1, с.178-179; Высочайший указ Правительствующему Сенату, от 21-го марта 1828 года, Тифлис, 1878., т. 7, д. 437, с, 487; Отношение гр. Паскевича к начальнику Главного Штаба Е.И.В., от 2-го апреля 1828 года, Тифлис, 1878. т.7, д.438, с.487-491.

də polis və məhkəmədən ibarət idarə strukturları yaradıldı. Bundan əlavə, vergiləri vaxtında yığmaq üçün şəhər xəzinədarlığı da təsis edildi. Vergilərin yığılması, xəzinə mülklərinin qeydiyyata alınması üçün bir qərargah - zabitdən və iki yerli məmurdan ibarət xüsusi komissiya yaradıldı[92].

Yeni qaydaya görə, mahallarda və kəndlərdə idarə strukturu xanlıq dövründə olduğu kimi saxlandı. Rusiya hakimiyyət orqanlarına sədaqətlə qulluq edən yerli bəylər və məliklər mahalları, kənd ağsaqqalları isə kəndləri idarə edirdi[93]. Mənbənin verdiyi məlumata görə, "Erməni vilayəti"nin sərhədləri Arpaçay çayı yaxınlığında yerləşən Qızılkilsə kəndindən başlayaraq şərqə doğru Bazarcıq kəndinə və Alagöz dağına doğru istiqamətlənərək, buradan Şörəyel vilayətini Talın mahalından ayıran Arpaçay çayını sol tərəfdən keçərək şimal-şərq istiqamətində Cəngi və Karvansaray kəndlərinə doğru dönmüş, Cəngidən isə sərhəd Pəmbək dağ silsiləsi istiqamətində çıxaraq düz gözəçarpmaz meyilliliklə şimal istiqamətində Qazax distansiyasına qədər, buradan cənub istiqamətində İrəvan vilayətinin Abaran, Dərəçiçək və Göyçə mahallarını sol tərəfdən ayıran Yelizavetpol dairəsinə, Qarabağı, Pəmbəyi, Qazağı və Şəmşəddili ayıran Konqur dağına qədər istiqamətlənmişdir. Konqur dağından sərhəd bir qədər qərbə meyl etməklə Gümüşxana və Dərələyəz mahalı istiqamətində cənuba dönmüş, buradan şərqə doğru meyillənərək Araz çayında qurtarmışdı. Onun Osmanlı Türkiyəsi ilə sərhədinin uzunluğu 230, Qacar səltənəti ilə 250 verst, dairəvi uzunluğu 900 verst, "Erməni vilayəti"nin özünün ümumi sahəsi isə 24.000 kv. verstə bərabər olmuşdur[94].

---

[92] Отношение гр. Паскевича к начальнику Главного Штаба Е.И.В., от 2-го апреля 1828 года, Тифлис, 1878. т.7, д.438, с.487-491.

[93] Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, с.489.

[94] Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.352-353; Кавказский календарь на 1851 г., в 72 томах, Тифлис, Издани от канцелярии Кавказского. Наместника, 1850. т.7, с.7; Qarayev E., Erməni vilayəti: ərazisi,

Lakin yaradılan yeni inzibati quruluş da çar hökumətini qane etmədi. Belə ki, idarəetmədə müəyyən dəyişiklik həyata keçirilsə də, köhnə inzibati-ərazi quruluşu qalmaqda davam edirdi. Yerli bəylər, xanlar yenə də xalq arasında böyük nüfuza malik idi. Digər tərəfdən, yeni qanun-qaydalar yerli xalqa yad idi. Yaradılan yeni idarə strukturları yerli əhali arasında narazılıq yaradırdı.

Cənubi Qafqazda, o cümlədən İrəvan bölgəsində keçirdiyi inzibati-ərazi dəyişikliklərlə xanlıq dövrü qanunlarından heç cür yaxa qurtara bilməyən car hakimiyyət orqanları vəziyyətdən çıxmaq üçün yeni-yeni yollar axtarır, layihələr irəli sürülürdü. Cənubi Qafqazda dəyişikliyin zəruriliyi haqqında qraf Paskeviç 1830-cu ilin aprelində yazdığı layihədə bildirmişdi. Bunun ardınca 1831-ci il aprelin 28-də qraf Paskeviç, senatorlar qraf Kutaysov və qraf Meçnikovla birlikdə çara yazdıqları hesabatda konkret təkliflərini irəli sürmüşdülər. Onların irəli sürdüyü təkliflərə 1833-cü il mayın 11 və 13-də Dövlət Şurasında baxılmış, həmin təkliflər yenidən işləmək üçün qaytarılmışdır[95] .

Nəhayət, uzun sürən müzakirələrdən sonra 1833-cü il iyunun 23-də verilmiş qanun əsasında, "Erməni vilayəti"ndə yeni inzibati-ərazi dəyişikliyi keçirildi. Bu qanuna əsasən, onun adı olduğu kimi saxlanılmış, İrəvan şəhərində vilayət rəisinin başçılığı ilə vilayət idarəçiliyi yaradılmış, vilayətin kollegial idarə sistemi ləğv edilmiş və onun başçısına böyük səlahiyyətlər verilmişdir. "Erməni vilayəti"nə İrəvan, Naxçıvan əyalətləri və Ordubad dairəsi daxil idi. İyunun 23-də verilmiş qanuna əsasən, İrəvan əyaləti 4 - İrəvan, Şərur, Sürməli və Sərdarabad dairələrinə bölündü. Hər bir dairəni hərbiçi zabit və yaxud mülki məmur idarə etməli, onların köməkçiləri Rusiya hakimiyyət orqanlarına sədaqətlə qulluq edən 4 Azərbaycan türkü və 4 erməni olmalı idi. Ye-

---

sərhədləri və inzibati-ərazi bölgüsü, Bakı, Dövlət və din (ictimai fikir toplusu), 2021, №1 (68), s.59.

[95] Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в. [в 2 томах], Москва-Ленинград, Изд-во Академии наук СССР, 1936, т.1, с.260.

ni qanuna əsasən, mahallar olduğu kimi qalır, onlar da öz növbəsində kəndlərə bölünürdü. Hər bir dairəyə bir neçə mahal düşürdü. İrəvan dairəsi Göyçə, Dərəçiçək və Qırxbulaq mahallarını, Şərur dairəsi Şərur, Vedibasar, Gərnibasar və Zəngibasar mahallarını, Sürməli dairəsi Sürməli mahalını, Dərəkənd-Parçenis dərəsini və Araz çayının sağ tərəfində yerləşən Gərnibasar və Vedibasar mahallarının bir hissəsini, Sərdarabad dairəsi isə Səədli, Talın, Seyidli-Ağsaqqallı, Abaran, Gərni və Sərdarabad mahallarını əhatə etmişdi[96].

Qeyd etmək lazımdır ki, bu islahat nəticəsində İrəvan əyalətinin 10 mahalı qalmışdı. Rusiya hakim dairələrin səyi nəticəsində bəzi mahallar birləşdirilmiş, onların sayı azaldılmışdı. Mahallar bunlardır: Qırxbulaq, Dərəçiçək, Göyçə, Şərur, Dərəkənd-Parçenis, Sərdarabad (Talın mahalının bir hissəsi ona birləşdirilmişdi), Sürməli, Zəngibasar, Vedibasar (Gərnibasar mahalı ona birləşdirilmişdi), Abaran (Körpübasar mahalı ona birləşdirilmişdi)[97].

Yeni qanuna əsasən, Naxçıvan əyalətində "Erməni vilayəti"nin rəisinə tabe olan polis idarəçiliyi yaradılmış və əyaləti Ehsan xan Kəngərli idarə etmişdi. Naxçıvan əyaləti birbaşa aparılan inzibati-ərazi islahatı nəticəsində əvvəlki mahallarında qalmışdı[98].

---

[96] Полное собрание законов Российской империи, СПб, Печатано в Типографии II отделения собственной его императорского величества Канцелярии, 1834, т.8, с.138; Обозрение российских владений за Кавказом в статическом, этнографическом, топографическом, финансовом отношениях, ч.4, с.270; Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.448; Qarayev E., Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında), Bakı, Mütərcim, 2016, c.313-314.

[97]Обозрение российских владений за Кавказом в статическом, этнографическом, топографическом, финансовом отношениях, ч.4, с.270; Рапорт д.с.с. Палавандова барону Розену, от 3-го февраля 1833 года, [АКАК в 13 томах], Тифлис, 1881, т.8, № 6, с.508.

[98] Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.448; Военно-статистическое обозрение Российской империи, 1853, с.9.

Naxçıvan əyalətinin mahalları bunlardır: Naxçıvan, Əlincəçay, Məvazixatun və Dərələyəz. Naxçıvan mahalı şimal tərəfdən Araz çayının sahili boyunca yerləşərək, Qarabağ vilayəti və Dərələyəz mahalına qədər uzanırdı. Şərq tərəfdən Əlincəçay, qərb tərəfdən isə Xok mahalları ilə həmsərhəd idi. Bu mahala Naxçıvan çayının mənbəyindən başalayaraq suvarılan bütün torpaq sahələri daxil idi[99].

Əlincəçay mahalı Qarabağ vilayətinin yüksək dağlarından Araz çayına və Naxçıvan mahalına qədər olan bütün Naxçıvan əyalətinin şərq hissəsini əhatə edirdi. Mahal şərq tərəfdən Ordubad dairəsi ilə həmsərhəd idi.

Məvazixatun mahalı Naxçıvan əyalətinin mərkəzi hissəsini əhatə edirdi. Bu mahal isə Dərələyəz, Xok və Naxçıvan mahalları ilə həmsərhəd idi. Onun bəzi kəndləri olan İtqıran, Diqin, Buzqay, Kürdist, Oqbun və Sultanbəy kəndləri Dərələyəz mahalına verilmişdi.

Xok mahalı Naxçıvan vilayətinin qərb hissəsində yerləşirdi. O, Araz çayı ilə, qərb tərəfdən Şərur mahalı, şərq tərəfdən isə Naxçıvan mahalı ilə həmsərhəd idi.

Dərələyəz mahalı isə Naxçıvan əyalətinin şimal hissəsini əhatə edirdi. Mahala Şərqi Arpaçay çayı ilə suvarılan bütün torpaq sahələri daxil idi. Dərələyəz mahalı şimaldan Qarabağ vilayətilə, cənubdan Şərur, qərbdən Göyçə və Vedibasar və şərqdən isə Naxçıvan mahalları ilə həmsərhəd idi[100].

Ordubad "Erməni vilayəti"nin tərkibinə inzibati-ərazi forması olan dairə formasında daxil olmuş, bu dairənin də müstəqil polis idarəçiliyi yaradılmış, lakin məhkəmə münasibətlərində Naxçıvan şəhər məhkəməsinə tabe olmuşdu. Dairə rəisi Şıxəli xan idi[101]. Ordubad dairəsinə beş mahal daxil idi. Birinci Ordubad mahalıdır. Bu mahal Araz çayı və mahalı Qarabağ əyalətin-

---

[99] Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.446; Qarayev E., Erməni vilayəti: ərazisi, sərhədləri və inzibati-ərazi bölgüsü, c.61-62.

[100] Yenə orada.

[101] Военно-статистическое обозрение Российской империи, 1853, с.9.

dən ayıran Qapıcaq dağları ilə əhatə olunmuş Ordubad dairəsinin cənub-şərq hissəsini tutmuşdu. Qərb tərəfdən Əylis və Dastin mahalları ilə həmsərhəd idi[102].

Əylis Nüvədi çayı tərəfindən yaranan dərəni əhatə edirdi. Bu mahal şimaldan, qərbdən və cənub tərəfdən Dastin mahalı ilə, şərqdən isə Ordubad mahalı ilə həmsərhəd idi[103].

Dastin mahalı isə cənub, şərq və şimal tərəfdən Əylis mahalı ilə əhatə olunmuşdu. Onun cənub tərəfdən bir hissəsi Araz çayı ilə, qərbdən isə Çinanap mahalı ilə həmsərhəd idi. Mahal Araz çayına qədər Vənənd çayı tərəfindən yaranan dərədə yerləşmişdi[104].

Belev mahalı Qarabağ dağlarına və cənubda Araz çayına qədər uzanaraq, şərqdən Dastin, qərbdən isə Əlincəçay mahalları ilə həmsərhəd idi[105].

Çinanap mahalı Urmis çayı tərəfindən yaranan dərə ilə uzanaraq, Qarabağ dağlarından başlayaraq, Araz çayına qədər qərb tərəfdən Belev mahalı, şərqdən isə Dastin mahalı ilə həmsərhəd olmuşdur[106].

Bu islahatla əlaqədar olaraq əyalətin idarə orqanlarında da köklü dəyişikliklər aparıldı. Belə ki, vilayətin idarəçiliyi icraedici və məhkəmə orqanları olmaqla iki hissəyə bölündü. Vilayəti hərbi general idarə etməli idi. Onun yanında üç nəfərdən ibarət Şura yaradıldı. Bundan əlavə, vilayət rəisinin yanında dəftərxana fəaliyyət göstərirdi. Hər bir dairəni hərbi zabit və mülki məmur idarə edirdi, onlara sədaqətlə qulluq edən 4 Azərbaycan türk və 4 erməni məmurlarından ibarət köməkçi təyin edilmişdi. Onlara kömək üçün dəftərxana fəaliyyət göstərirdi. Bu dəftərxananın tərkibində 4

---

[102] Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.447.
[103] Yenə orada.
[104] Yenə orada.
[105] Yenə orada.
[106] Yenə orada, s.447-448.

şəxsdən ibarət mirzə, əlavə Azərbaycan türkcəsində məktub yazmaq üçün 4 mirzə və 16 atlıdan ibarət kuryer var idi[107].

Verilmiş yeni qanuna əsasən, şəhər məhkəmələri əvəzinə İrəvanda “Mülki vətəndaşlar və mübahisəli işlər üçün əyalət məhkəməsi” yaradıldı. Məhkəmə mülki, hərbi və şəriət olmaqla üç hissəyə bölünürdü. Məhkəmədə sədr, bir rus və iki yerli məmurdan ibarət iclasçılar iştirak edirdi[108].

Yerli əhalinin adət-ənənələrinə qarşı çıxmaq istəməyən və eyni zamanda din xadimlərinin xalq arasında böyük nüfuza malik olduğunu görən Rusiya icra orqanları şəriət məhkəmələrini saxlamaq məcburiyyətində qaldı. Bu məhkəmələr əsasən dairə və kəndlərdə fəaliyyət göstərmişdi. Məhkəmə hakimi hesab edilən qazilər mübahisəli məsələləri hər iki tərəfin razılığı ilə həll edirdilər. Şəriət məhkəmələrinin üzvlərinə hökumət məvacib verirdi. Onların məvacibi ildə 704 gümüş rubl, məhsulla 72 xalvar buğda, 5 xalvar çəltik və 4 xalvar arpa təşkil edirdi[109].

Şəhər idarəçiliyi də yenidən quruldu. Şəhərlərdə ayrıca polis idarəsi yaradıldı. Onun tərkibi polis rəisindən, xüsusi pristavdan, şəhər məhəllələrini idarə edən 4 yüzbaşıdan və 10 nəfər onbaşıdan, 1 katibdən, Azərbaycan türkcəsində yazan 1 mirzə və 1 tərcüməçidən ibarət idi[110].

Vilayətin maliyyə bölməsi əvvəllər birbaşa vilayət xəzinə idarəsinə tabe idi. Lakin sonradan bu bölmə gəlir və xəzinə əmlakına nəzarət idarəsi kimi ayrıca fəaliyyət göstərməyə başladı. Onun tərkibi idarə rəisindən, məsləhətçidən, vilayət xəzinədarından və məhsulun əkilməsinə və gəlirinə nəzarət edən 10 komissardan, onları müşayət edən atlı yasauldan və tərcüməçilərdən ibarət idi[111].

---

[107] Полное собрание законов Российской империи, Собр. Второе (1825-1881), СПб, 1834, т. VIII, с.137-138.

[108] Yenə orada, c.137.

[109] Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.461.

[110] Полное собрание законов Российской империи, Собр. Второе, с.138.

[111] Полное собрание законов Российской империи, Собр. Второе, с.137.

Lakin Cənubi Qafqazın inzibati-ərazi bölgüsü Rusiya hakim dairələrini heç də qane etmirdi. Bu sahədə keçirilən islahatlar işğaldan əvvəlki qayda-qanunlara zərbə vursa da, tamamilə sıxışdırıb aradan çıxara bilmədi. Rusiya hakim dairələri birmənalı olaraq bölgəni öz qayda-qanunları ilə idarə etmək istəyirdi. Buna görə də, keçirilən inzibati-ərazi dəyişiklikləri onları qane etmirdi. Cənubi Qafqazda yeni inzibati-ərazi dəyişikliyi keçirmək üçün 1837-ci il martın 17-də çarın fərmanı ilə baron Qanın sədrliyi ilə xüsusi komissiya yaradıldı. Komissiya həmin il iyulun axırlarında Tiflisə gələrək fəaliyyətə başlamışdı. Tezliklə, baron Qan Cənubi Qafqazda yeni inzibati-ərazi islahatı keçirmək üçün layihə hazırlayır. Onun bu layihəsi Qafqazın baş komandanı baron Rozenin kəskin etirazına səbəb oldu. Lakin 1837-ci ilin payızında Cənubi Qafqazda səyahətdə olan çar I Nikolayın dəstəyi ilə Dövlət Şurası Cənubi Qafqazda islahat işini 1838-ci il fevralın əvvəllərində baron P.D.Qana tapşırdı. Tezliklə, onun başçılığı ilə yeni inzibati-ərazi dəyişikliyi haqqında qanun layihəsi komissiyaya təqdim edildi. Komissiya müzakirədən sonra çarın fərmanı ilə qanun layihəsini yenidən işlənmək üçün baron Rozeni əvəz etmiş, Qafqazın baş komandanı general Qolovinə təqdim etdi. Uzun müzakirələrdən və bəzi dəyişikliklərdən sonra baron qanın layihəsi 1840-cı il aprelin 10-da çar tərəfindən təsdiq olundu[112].

Yeni qanun layihəsi təsdiq olunduqdan sonra onun icrası üçün 1840-cı il aprelin 24-də general Qolovinə çar tərəfindən məktub göndərildi[113]. Layihəyə görə, Cənubi Qafqazın əvvəlki

---

[112] Историческая записка об управлении Кавказом [в 2 томах], Сос.С.Эсадзе, Тифлис, Типография Гуттенберг, 1907, т.1, с.69-73; Гасанов И.М., Частновладельческие крестьяне в Азербайджане в первой половине XIX века, И.М.Гасанов, Баку, Академии наук Азербайджанской ССР, 1957, с.62-65; Qarayev E., Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında, s.314-315.

[113] Высочайший рескрипт на имя ген. Головина, от 24-го апреля 1840 года, [АКАК в 13 томах], Под. ред. А.Берже, Тифлис, 1884, т.9, с.24-25; Qarayev E., Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında, s.315.

inzibati-ərazi bölgüsü ləğv edildi. Bölgə iki quberniyaya- mərkəzi Tiflis şəhəri olan Gürcüstan-İmeretiya quberniyasına və mərkəzi Şamaxı şəhəri olan Xəzər vilayətinə bölündü. Bu islahata əsasən, "Erməni vilayəti"nin idarə sistemi ləğv edildi, bütün vilayət İrəvan və Naxçıvan qəzaları formasında Gürcüstan-İmeretiya quberniyasın daxil oldu. Ordubad dairəsinin torpaqları Naxçıvan qəzasına birləşdirildi, Ordubad şəhərinin özü isə dairə mərkəzindən çıxaraq, xüsusi statuslu şəhərə çevrildi. Bundan əlavə, vaxtilə İrəvan xanlığına daxil olan Şörəyel-Pəmbək bölgəsi Aleksandropol qəzası adlanaraq ayrıca qəza kimi Gürcüstan-İmeretiya quberniyasına daxil edildi[114]. Beləliklə, İrəvan və Naxçıvan şəhərləri qəza mərkəzinə çevrildilər.

Tezliklə, çar Rusiyası bütün Qafqazda öz mövqeyini ciddiləşdirmək üçün daha sərt rejim yaratdı. Çar I Nikolay 1843-cü ildə canişinlik sisteminin yaradılması haqqında fərman verdi. 1844-cü ildə M.S.Vorontsov bu diyara canişin təyin olundu. Onun dövründə yenidən inzibati-ərazi bölgüsü keçirildi. 1846-cı il dekabrın 14-də keçirilən islahata görə, Cənubi Qafqazda dörd -Tiflis, Kutaisi, Şamaxı və Dərbənd quberniyaları yaradıldı. İrəvan və Naxçıvan qəzaları Tiflis quberniyasının tərkibində qaldı[115].

Lakin bu bölgü də Cənubi Qafqazda sonuncu inzibati-ərazi bölgüsü olmadı. 1849-cu il iyunun 9-da İrəvan quberniyasının yaradılması haqqında qanun verildi. İrəvan quberniya kimi fəaliyyətə 1950-ci il yanvarın 1-dən başladı. Həmin gün İrəvan şəhərində təmtəraqlı açılış olmuşdu. Mərasimdə Qafqaz Canişinliyinin Mülkü Müşaviri Desimon, quberniya başçıları, həbçilər, əyanlar, din xadimləri və şəhər əhalisi iştirak etmişdilər. Tədbir əvvəl İrəvan qalasının əks tərəfində yerləşən meydandan başlamışdı. Burada hərbi parad olmuş, yaylım atəşi açılmış, din xadimlərinin duaları dinlənilmişdir. Bundan sonra ordunun və artil-

---

[114] Полное собрание законов Российской империи, Собр. Второе (1825-1881), СПб, 1840, Т.XV, д.13368, с.237.

[115] Полное собрание законов Российской империи, Собр. Второе (1825-1881), СПб, 1850, Т.XXIV, с.312; Qarayev E., Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında, s.315.

leriyanın müşayətilə məmurlar İrəvan qubernatorluğu üçün nəzərdə tutulmuş iqamətgaha yollanmışdılar. Burada quberniya idarə nümayəndələri and içmiş və onların şərəfinə dualar oxunmuşdur. Sonra Mülki Müşavir Desimon nitq söyləyərək quberniyanın açılışı üçün yerli xalqı təbrik etmiş, idarə orqanlarını öz işlərində ədalətli, vəzifələrindən sui-istifadə etməməyə, xalqla ədalətli rəftar etməyə və s. olmağa çağırmışdır. Günorta saat 2-də nahar və sonra musiqili mərasim olmuşdur. Küçələrdə isə yerli xalq müsiqi sədaları altında bu açılışı bayram etmişdilər. Mərasim gecəyə qədər davam etmişdir[116].

Verilən qanuna görə, İrəvan, Naxçıvan və Aleksandropol (Gümrü-E.Q.) qəzaları Tiflis quberniyasından ayrılaraq İrəvan quberniyasına birləşdilər. Qeyd etmək lazımdır ki, XIX əsrin əvvəllərində rus qoşunları tərəfindən işğal olunan Şörəyel və Pəmbək sultanlıqları Kartli-Kaxetiya çarlığına birləşdirilmişdi. Çar Rusiyasının Cənubi Qafqazda İrəvan quberniyası yaradılana qədər keçirdiyi inzibati-ərazi islahatlarında bu ərazilər Aleksandropol adı ilə (əvvəllər adı Gümrü olan bu kənd 1837-ci ildə gələcək Rusiya imperatoru olan çar II Aleksandrın şərəfinə belə adlandırılmışdır-E.Q.) Tiflis quberniyasının tərkibində qalmışdı. İrəvan quberniyasının yaradılması ilə həmin ərazilər öz tarixi torpaqlarına qaytarıldı. Yeni quberniyanın mərkəzi İrəvan şəhəri oldu. Quberniya inzibati-ərazi bölgüsü cəhətdən qəzalara, sahələrə, mahallara və kəndlərə bölünmüşdü[117].

Yarandığı ilk dövrdə İrəvan quberniyası inzibati-ərazi cəhətdən beş - İrəvan, Yenibəyazid, Naxçıvan, Ordubad, Aleksandropol (Gümrü-E.Q.) qəzalarına, qəzalar sahələrə, mahallara və kəndlərə bölünmüşdü. Hər bir qəza və sahələrin idarə heyəti şəhər və kəndlərdə yerləşmişdi. Quberniya yaranarkən **İrəvan qəzasına** (mərkəzi İrəvan şəhəri) 4 sahə - Zəngibasar, Sürməli, Şərur və Sərdarabad sahələri daxil olmuşdu. **Zəngibasar sahəsinin**

---

[116] Газ. Кавказ, 1850, №3, с.11.

[117] Полное собрание законов Российской империи, т.XXIV, с.312; Qarayev E., Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında, s.315-316.

idarə heyəti Kəmərli kəndində, **Sürməli sahəsinın** idarə heyəti Qazıqışlaq kəndində, **Şərur sahəsinin** idarə heyəti Başnoraşendə, **Sərdarabad sahəsinin** idarə heyəti isə Zeyvə kəndində yerləşmişdi. **Naxçıvan qəzası (mərkəzi Naxçıvan şəhəri)** iki sahəyə - Naxçıvan və Dərələyəz sahələrinə bölünmüş, birinci sahənin idarə heyəti Naxçıvan şəhərində, ikincisinin isə Keşişkənd kəndində, **Aleksandropol qəzasına** Şörəyel və Pəmbək sahələri daxil olmuş, birincinin idarə heyəti Aleksandropol şəhərində, ikincinin isə Böyük Qarakilsə kəndində yerləşmişdi. **Yenibəyazid (mərkəzi Kəvər kəndinin adı dəyişdirilmiş Yenibəyazid şəhəri adlandırılmışdır) və Ordubad qəzaları** heç bir sahəyə bölünməmişdi. Yenibəyazid qəzasına keçmiş Göyçə mahalı və Göyçə gölü ətrafında olan ərazilər, Ordubad qəzasına isə Mehri və Qapan əraziləri daxil olmuşdur[118].

İrəvan quberniyasında qəzalara tabe olan sahələr bəzi istisnalar olmaqla mahallara və kəndlərə bölünmüşdü. İrəvan qəzasına daxil olan mahallar bunlar idi: Zəngibasar (İrəvan şəhərinin aşağısından Zəngi çayının axarı boyunca Araz çayına qədər), Gərnibasar (Gərniçay çayının axarı boyu), Şərur (Araz çayının sol sahilində düzənliyi özündə birləşdirən Deqiy (?) dağ silsiləsindən Naxçıvan qəzasına qədər), Sürməli (Böyük Ağrı dağın ətəklərində, Araz çayının sağ sahili boyu uzanan düzənlik ərazi), Dərəkənd-Parçenis (Araz çayının tərəfində Sınax sıldırım dağının şimal qolundan yaranmış dağlıq ərazi), Səədli (Araz çayının sol sahili, Qərbi Arpaçayın aşağı əraziləri), Seyidli-Ağsaqqallı (Qərbi Arpaçayın yuxarı axarı boyu), Talın (Aleksandropol qəzasının sərədlərində yerləşən təpəli meydançanı və Alagöz dağının cənub-qərb qolunu özündə birləşdirən ərazi), Abaran (Abaran çayının axarı boyu ərazilər), Körpübasar (Körpü və Şimali Qarasu

[118] Кавказский календарь на 1855 год, Тифлис, 1854, отдель 3, с.280-428; Полное собрание законов Российской империи, т.XXIV, с.311-312; Гараев Э., Иреванская губерния: Территория, границы, административно-территориальное деление и система управления, Bakı, Dövlət və din (ictimai fikir toplusu), 2022, №1 (72), s.86-87.

çaylarının axarı boyu ərazilər), Sərdarabad (cənub tərəfdən Araz çayının axarı ilə məhdudlaşdırılmış düzənlik ərazi).

Naxçıvan qəzasına 6 mahal daxil olmuşdur. Mahallar bunlardır: Xok (Şərur mahalı ilə həmsərhəd idi), Naxçıvan (Naxçıvan çayın axarı boyu ərazilər), Əlincəçay (Əlincəçayın axarı boyu ərazilər), Yaycı, Dərələyəz, Məvazexatun. Sonuncu hər üç mahal Dərələyəz məntəqəsini təşkil etmiş, Arpaçay çayının mənbəyindən başlayaraq, bir-birinin ardınca çayın yuxarı axarı boyunca yerləşmişdilər.

Ordubad qəzası 5 kiçik mahaldan ibarət idi və əksəriyyəti əsas kəndlərin adı ilə adlandırılmışdılar. Bu qəza Ordubad, Əylis, Dastin, Çinanab və Belev mahallarından ibarət olmuşdur.

Yenibəyazid qəzası isə dörd mahaldan ibarət olmuşdur. Qəzaya daxil idi: Dərəçiçək (qəzanın şimal-qərbində Çubuxludan Ozanlara, Quru-Fantana və Saraşlıya qədər ərazi), Qırxbulaq (Zəngi çayı ilə Gərniçaydan Qırxbulağa, Göyçə gölünün qərbində yerləşən çökəkliyi bir-birindən ayıran dağ qolu arasında yerləşən ərazi), Göyçə (Saraşlıdan Qidabulağın cənub-qərbinə və cənubuna uzanan ərazi) və Məzrə (Göyçə gölünün cənub-şərq və şərq hissəsində yerləşən çökəklik, Qidabulaxdan Çubuxliya qədər ərazi).

Aleksandropol qəzasında yalnız Pəmbək sahəsi mahallara bölünmüşdü. O, 2-Pəmbək və Lori mahallarından ibarət idi[119].

İrəvan quberniyasında qəzalar üzrə sahələr bəzi istisnalar olmaqla mahallara bölünməklə bərabər kəndlərə də bölünmüşdü. **İrəvan qəzasına** daxil olan Şərur sahəsində 69, Sürməlidə 89, Sərdarabadda 143, Zəngibasarda 91, **Naxçıvan qəzasının** Naxçıvan sahəsində 100, Dərələyəz sahəsində 91, **Qrdubad qəzasında** 150 (bu kəndlərdən 106-sı Azərbaycan türklərinin yaşadığı kənd, 44-ü isə erməni kəndi), **Aleksandropol qəzasının** Şörəyel sahəsində 77, Pəmbək sahəsində 50, **Yenibəyazid qəzasının** Qırxbulaq mahalında 32 (bunlardan 15-i isə Azərbaycan türklərinə məxsus kənd, 14 erməni kəndi, 3-ü qarışıq), Dərəçiçək mahalında 40,

[119] Военно-статистическое обозрение Российской империи, 1853, с.12.

Göyçə mahalında 35, Məzrə mahalında 27, Güney mahallarında 5 kənd var idi[120]. Ümumilikdə, yeni yarandığı dövrdə İrəvan quberniyasında 999 kənd qeydə alınmışdır.

İrəvan quberniyası yeni yarandığı vaxtdan XIX əsrin 60-cı illərin əvvəllərinə qədər ümumi sahəsi 26450 kv.verst olmuşdur. Ayrı-ayrılıqda qəzaların ərazisi isə belə idi: İrəvan qəzası-9,460 kv. verst; Naxçıvan qəzası-4,680 kv. verst; Ordubad qəzası-2,890 kv. verst; Yenibəyazid qəzası-5,300 kv. verst; Aleksandropol-4,120 kv. verst[121]. Həmin dövrdə İrəvan quberniyası şimaldan və şərqdən Kutaisi, Tiflis və Şamaxı quberniyaları ilə, cənubdan Qacar dövləti tərəfdən Qaradağ, Mərənd və Maku xanlıqları ilə, qərbdən və cənubi qərbdən isə Osmanlı Türkiyəsi tərəfdən Bəyazid, Qars və Axalsıx paşalıqları ilə həmsərhəd idi. Axalsıx paşalığı və Kutaisi quberniyası ilə sərhədlənən quberniyanın şimal-qərb qurtaracağından başlayaraq, Cənubi Qafqaz tərəfdən-Tiflis və Şamaxı quberniyaları ilə İrəvan quberniyasının təbii və süni sərhəd xətti aşağıdakı kimi olmuşdur:

Sərhəd Kutaisi quberniyasının Axalsıx qəzasının Axalsıx sahəsi ilə 16,5 verst uzunluğunda sərhədlənən Aleksandropol qəzasının Şörəyel sahəsi boyu uzanaraq Alagöz silsiləsinə doğru istiqamət götürmüş, buradan Leh dağdan başlayaraq sərhəd Tiflis quberniyasının Tiflis qəzasına məxsus Borçalı sahəsi sərhədi boyunca istiqamətlənmiş, 19,5 verst məsafədə həmin dağ boyu Pəmbək sahəsinə qədər uzanmışdır. Pəmbəyin Borçalı sahəsi ilə əvvəlcə süni 23 verstlik məsafədə uzanan sərhədi Lori düzənliyini qərb tərəfindən bağlayan dağların son qayaları ilə bitişmişdi: sonra 44 verst uzunluğunda Maşaver çayının axınını Daşlı (Kamenka) çayının axınından ayıran Ağzıböyük dağ silsiləsi boyu sərhəd uzanmışdır. Buradan həmin dağ silsiləsindən şərqə doğru ayrılan Allahverdi dağı boyu sərhəd 13 verst uzunluğunda dağlıq

---

[120] Кавказский календарь на 1855 год, с.280-428.

[121] Военно-статистическое обозрение Российской империи, 1853, с.14; Kazımbəyli İ., Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri), Bakı, "Turxan" NPB, 2017, s.106-107.

və meşəlikdən keçərək cənuba doğru istiqamətlənmiş və sərhəd buradan Pəmbək çayına qədər 14 verst uzunluğunda Daşlı çayı boyunca uzanmış, sonra Pəmbək, Borçalı və Qazax sahələri ilə sərhəd 2,5 verst uzunluğunda Pəmbək çayı, 12,5 verst uzunluğunda isə Çinaxçı çayının qolu boyunca uzanmışdı.

Qazax sahəsi Tiflis quberniyasının Yelizavetpol qəzasının bir hissəsi idi: Pəmbək sahəsi ilə onun sərhədi 23 verst uzunluğunda təbii sərhəddən keçir, digər hissəsi Xılxana dağından şimal-şərqə uzanırdı. Xılxana dağı Aleksandropol və Yelizavetpol qəzalarını Yenibəyazid qəzası ilə hüdudlanan xətt boyu uzanmışdı. Yelizavetpol qəzası ilə Yenibəyazid qəzası sərhədi boyunca uzanan Alagöz dağ silsiləsi Göyçə gölünün şimal və şimal-şərq hissəsindən dolanıb keçirdi. Yenibəyazid qəzası Qaraarxaç dağına qədər Qazax sahəsi ilə 51 verst, Şəmşəddillə 45 verst, Konqur dağına qədər 31 verst Ayrumla həmsərhəd olmuşdur. Burada İrəvan quberniyasının sərhədləri Tiflis və Şamaxı quberniyaları ilə həmsərhəd idi. Yenibəyazid qəzası buradan 44 verst uzunluğunda Şuşa qəzasının Zəngəzur sahəsi ilə sərhədlənərək, Konqur dağdan başlayaraq cənub-qərbə Sarıyar-Sarçalı dağına doğru istiqamətlənmişdi. Sarıyar-Sarçalı dağından Naxçıvan qəzası başlayır, buradan dağ silsiləsi Şamaxı quberniyasının sərhədi ilə cənub istiqamətində uzanaraq Naxçıvan qəzasını Zəngəzur sahəsindən ayıraraq, 38,5 verst uzunluqda Dərələyəzlə və 46 verst uzunluqda Naxçıvan sahəsi ilə sərhədlənmişdi. Buradan dağ silsiləsi 5 verst uzunluğunda Ordubad qəzasını Şuşa qəzasınadn ayırmışdı. Buradan Ordubad qəzasına birləşdirilən Mehri sahəsinin bir hissəsi başlayır. Sərhəd xətti 86 verst məsafədə uzanaraq Derjav və Şarafin gözətçi məntəqələri arasından Araz çayına gəlib çatırdı. Beləliklə, Cənubi Qafqazda İrəvan quberniyasının sərhədlərinin uzunluğu 515,5 verst olmuş, bu sərhədin 16,5 versti Kutaisi quberniyası ilə, 278,5 versti Tiflis quberniyası ilə, 220,5 versti isə Şamaxı quberniyası ilə sərhədin payına düşürdü[122].

---

[122] Военно-статистическое обозрение Российской империи, 1853, с.4-5;

İrəvan quberniyasının Osmanlı Türkiyəsi ilə sərhədi şimal-qərb qurtaracağından başlayır və onun bu dövlətlə sərhəd xətti belə idi: sərhəd Axalsıx və Aleksandropol qəzalarının sərhəd xəttində yerləşən Mədədtəpə gözətçi məntəqəsindən başlayaraq, 8 verst uzunluğunda Arpaçay çayının qolu olan Qazançı çayına qədər, buradan Arpaçay çayı Qars paşalığı ilə sərhəddən keçərək, 68 verst uzunluğunda Aleksandropol qəzasının Şörəyel sahəsi və 44 verst İrəvan qəzasının Sərdarabad sahəsi boyu istiqamətlənmişdi. Mirzə Xan gözətçi məntəqəsindən 1,75 verst aşağıda sərhəd Arpaçay çayının axarından sola dönərək, 25 verst uzunluğunda Qaradağ dağ silsiləsi boyu ilə uzanmışdır. Buradan sərhəd 3 verst kəskin şəkildə cənub-qərbə dönür və Zagoran çayının mənsəbi ilə üzbəüz Araza söykənmişdi. Sonra Sürməli sahəsi başlayır. Sürməli sahəsinin Qars paşalığı ilə sərhədi Arazın sağ sahili istiqamətində Zagoran çayı boyunca Diban dağından qaynaqlanan mənbəyinə qədər 20 verst uzunluğunda istiqamətlənmişdi. Buradan Qars paşalığının sonu, Bəyazid paşalığının əvvəli başlayır. Bu nöqtədən sərhəd cənub-şərqə demək olar ki, yarım düz bucaq istiqamətində dönərək, ümumi istiqaməti tez-tez saxlamaqla Kiçik Ağrı dağın zirvəsinə qədər uzanmışdı. Burada sərhəd xəttini Araz çayının hövzəsini Fərat çayının cənub hövzəsindən ayıran Sıqnak dağ silsiləsi təşkil edirdi. Diban, Koroğlu, Qızıl Ziyarət dağlarının yüksəkliyi ilə sərhəd xətti 44 verst uzunluğunda Balıqgöl gölünə qədər, buradan sərhəd 4 verst uzunluğunda Balıqgöl gölünün kənarını kəsərək, 46 verst uzunluğunda Aslanlı, Qurdçağ, Zor, Dumannı, Pambıq və yaxud Xaçqədik zirvələrindən keçərək dağ silsiləsi boyunca uzanmışdı. Pambıq dağından sərhəd 7,5 verst cənub-qərbə, Böyük Ağrıdağın qərb ətəklərindən keçərək, düz istiqamətdə bu dağın yamacı ilə 10 verst məsafədə qalxaraq, onun ən yüksək zirvəsinə qədər uzanmışdır. Sonra sərhəd xətti 10,5 verst məsafədə Böyük və Kiçik Ağrıdağ

---

Kazımbəyli İ., Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri), s.101-102.

zirvələrindən keçərək Kiçik Ağrıdağın zirvəsində Rusiya, Türkiyə və Qacar dövlətlərinin sərhədləri birləşmişdi.

Beləliklə, İrəvan quberniyasının Osmanlı Türkiyəsi ilə sərhədlərinin ümumi uzunluğu 287 verst, bu sərhədin Axalsıx paşalığı ilə uzunluğu 8 verst, Qars paşalığı ilə 160 verst, Bəyazid paşalığı ilə isə 119 verst olmuşdur[123].

Qacar dövləti ilə İrəvan quberniyasının sərhəd xətti isə əvvəl Sürməli sahəsi ilə Maku xanlığının sərhədindən keçmişdi. Sürməli sahəsinin Maku xanlığı ilə sərhədi Kiçik Ağrıdağın zirvəsindən Burulan kurqanına qədər düz xətt üzrə 24 verst məsafədə uzanmışdı, buradan isə Şərur sahəsi başlayırdı. Sonra sərhəd 26 verst uzunluğunda uzanaraq Aşağı Qarasu çayının Araz çayına töküldüyü yerə qədər gəlib çatmışdı. Buradan sərhəd Araz çayı ilə birləşənə qədər Aşağı Qarasu çayı boyunca 26 verst məsafədə, Qarasu çayının mənbəyindən aşağıda, İrəvan quberniyasının Qacar dövləti ilə sərhədi Araz çayı boyunca 232 verst uzunluqda Şamaxı quberniyasına qədər uzanmışdı. Araz çayının sağ sahilində, dağıdılmış Abbasabad qalası ilə üzbəüz Rusiyaya məxsus kiçik bir torpaq sahəsi istisna təşkil edir. Araz çayının aşağı axınında Qacar dövlətinin sərhədi Şərur sahəsi ilə 39, Naxçıvanla 88, Ordubadla 49 və Mehri ilə isə 56 verst məsafədə bitişik olmuşdur. Beləliklə, Qacar dövləti ilə İrəvan quberniyasının sərhədinin uzunluğu 282 verst, bu sərhədin Maku xanlığı ilə uzunluğu 158, Mərəndlə 34, Qaradağla isə 90 verst uzunluğunda həmsərhəd olmuşdur[124].

XIX əsrin 60-cı illərində İrəvan quberniyasının həm ərazi, həm də inzibati-ərazi bölgüsündə bir neçə dəyişiklik baş vermişdi. Birincisi, 1859-cu il iyunun 19-da çar II Aleksandrın verdiyi fərmana görə, İrəvan qəzası hesabına yeni bir qəza-Üçmüəzzin qəzası yaradıldı. Nəticədə İrəvan quberniyası inzibati-ərazi bölgüsünə görə 6 qəzadan ibarət olmuşdu. İkincisi isə 1862-ci ildə Pəmbək dairəsinin şimal hissəsində yerləşən Lori düzənliyi

---

[123] Военно-статистическое обозрение Российской империи, 1853, с.4-8.
[124] Yenə orada, c.5-7.

Aleksandropol qəzasından ayrılaraq Tiflis quberniyasına birləşdirilmişdi. Bu ərazi itkisindən sonra 1865-ci il məlumatına görə, İrəvan quberniyasının ərazisi 25607,6 kv. verst və yaxud 529,25 kv. mil olmuşdur. Ayrı-ayrı qəzaların sahəsi isə belə idi: İrəvan qəzası 2364,6, Aleksandropol qəzası 3193,2, Naxçıvan qəzası 4982,1, Ordubad qəzası 2874,3, Yenibəyazid qəzası 3440,7, Üçmüəzzin qəzası isə 6552,7 kvadrat verst[125].

Lakin İrəvan quberniyasının ərazi itkisi bununla qurtarmadı. Belə ki, 1867-ci il dekabrın 9-da çar II Aleksandr "Qafqaz və Zaqafqaziya diyarının idarəçiliyinin dəyişdirilməsi" haqqında yeni fərman imzaladı. Fərman 1868-ci ildən icra olunmağa başlayır. Bu fərmana görə, Cənubi Qafqazda daha bir Yelizavetpol quberniyası yaradılır və İrəvan quberniyasının qəzası olan Ordubad qəzası ləğv olunmuş, onun tərkibinə daxil olan Mehri mahalı yeni yaradılmış Yelizavetpol quberniyasına verilmişdı. Beləliklə, İrəvan quberniyası 5 qəzaya - İrəvan, Naxçıvan, Yenibəyazid, Aleksandropol və Üçmüəzzin qəzalarına bölünmüş, keçmiş Ordubad qəzasının qalan torpaqları Naxçıvan qəzasına birləşdirilmişdir[126].

Eyni zamanda həmin qanuna görə, İrəvan quberniyası da daxil olmaqla bəzi quberniyalarda qəzaların sahələrə ayrılması ləğv edildi, əvəzində Qafqaz canişininin göstərişi ilə ayrıca Polis Pristavlığı yaradılmışdı. Pristavlıq qəza rəislərinə tabe olmalı və onların rəhbərliyi altında fəaliyyət göstərməli idi[127]. Hələ bundan əvvəl kənd cəmiyyətləri yaradılmışdı. 1865-ci ildə çar Rusiyası tərəfindən verilən "Kənd Cəmiyyətlərinin təsis edilməsi, onların ictimai idarəsi, dövlət və ictimai mükəlləfiyyətləri haqqında" əsasnamə ilə bəylər, ağalar və məliklər kəndlərin inzibati məhkəmə işlərindən

---

[125] Кавказский календарь на 1867 год, Тифлис, 1866, с.312-313; Памятная книжка Эриванской губернии на 1892, с.105; Полное собрание законов Российской империи. второе собрание, СПб, 1834. Т.VIII, д.1861, .561; Əmrahov Z. İrəvan quberniyasının tarixi (1850-1917-ci illər), Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2022, s.31-32.

[126] Полное собрание законов Российской империи, Собр. Второе (1825-1881). Т. 42 (XLII), част 1, 1867, СПб, 1871, д. 45259, с.382-883.

[127] Yenə orada.

kənarlaşdırıldılar. Əvəzində kəndlərdə idarəçiliyi həyata keçirmək və burada qayda-qanun yaratmaq üçün kənd kollegial idarə orqanları-kənd cəmiyyətləri yaradıldı[128]. Bu əsasnamə İrəvan quberniyasında 1867-ci il dekabrın 6-da tətbiq edilmişdi[129].

Bunun ardınca İrəvan quberniyasında Polis dairələri yaradıldı. 1870-ci il sentyabrın 18-də çarın fərmanı ilə "Qafqazda Jandarm dairələrinin yaradılması haqqında" fərman verildi[130]. Həmin fərmana görə, Qafqazda ümumi Jandarm Dairə İdarəsi ləğv edilir, əvəzində Qafqazda ayrı-ayrı quberniyalar üzrə jandarm dairələri yaradıldı. Həmin quberniyalar üzrə yaradılmış jandarm dairələri mərkəzi Rusiya quberniyalarında yaradılmış jandarm idarələri ilə eyni səviyyədə hesab edilirdi. Lakin həmin dairələr dərəcələrə - Tiflis jandarm dairəsi birinci, İrəvan və Bakı quberniyalarının jandarm dairələri isə ikinci dərəcəyə bölünmüşdü. Qafqazda quberniyalar üzrə yaradılan hər bir jandarm dairəsinin öz heyəti yaradılmışdı. Xüsusi qərargahla təmin olunan Jandarm idarəsinin başçısı baş zabit olmalı, onun yanında isə dəftərxana, nəzarətçi heyəti və katiblik fəaliyyət göstərməli idi.

1888-ci il mayın 10-da Dövlət Şurasının qərarına əsasən çar tərəfindən "Zaqafqaziya quberniyalarında qəza polisinin yaradılması haqqında" qanun təsdiq edildi. Həmin qanuna görə, Cənubi Qafqazın digər quberniyalarında olduğu kimi, İrəvan quberniyasının qəzalarında 1888-ci il iyulun 1-dən qəza və Polis sahələri yaradılmışdı. Beləliklə, hər bir qəza Polis sahələrinə, hər bir sahə kənd cəmiyyətlərinə və bu cəmiyyətlər isə kəndlərə bölünmüşdü.

Lakin İrəvan quberniyasında qəzalar arasında sərhədlərin dəyişdirilməsi və yeni qəzaların yaradılması sonralar da davam etdirilmişdir. 1870-ci ilin əvvəllərində Sürməli dairəsi və Üçmüəz-

---

[128] Положение о сельском и волостном общественном управлении в губерниях Елизаветпольском, Бакинской и Эриванской. Аз. ЦГИА, ф. 12/31, д.29, л.л. об 22.

[129] Полное собрание законов Российской империи. Собр. Второе. СПб: 1867, т.42, собрание второе, с.360.

[130] Полное собрание законов Российской империи. Собр. Второе. СПб: 1874, т.XLV, 1870, с.159-160.

zin qəzasının bir hissəsi İrəvan qəzasına, Şərur dairəsi isə İrəvan qəzasından ayrılaraq Naxçıvan qəzasına birləşdirildi. Daha sonra Dövlət Şurasının təqdim etdiyi rəyə əsasən, 1872-ci ildə Şərur-Dərələyəz və Sürməli qəzaları yaradıldı. Keçirilən bu inzibati-ərazi dəyişikliyi nəticəsində 1872-ci ildən İrəvan quberniyası 7-İrəvan, Naxçıvan, Sürməli, Şərur-Dərələyəz, Aleksandropol, Üçmüəzzin və Yenibəyazid qəzalarından ibarət olmuş, bu inzibati-ərazi bölgüsü XX əsrin əvvəllərinə qədər davam etmişdir[131].

Qeyd etmək lazımdır ki, Ordubad qəzası ləğv edilsə də, bu qərar uzun müddət həm ordubadlıların, həm də mehrililərin narazılığına səbəb olmuşdur. 1875-ci ildən başlayaraq XX əsrin əvvəllərinə qədər müxtəlif vaxtlarda Ordubad şəhər əhalisindən, sonra isə Ordubad sahəsinə daxil olan kəndlərdən və Mehri mahalının əhalisindən qubernatora və hətta əvvəl Qafqaz Canişinliyinə, sonra isə Qafqazın Baş Rəisliyinə Ordubad qəzasının yenidən bərpa edilməsi haqqında xeyli xahiş və şikayət ərizələri daxil olmağa başladı. Hətta bu illər ərzində Ordubad qəzasının bərpası üçün layihələr də təqdim olunmuşdu. Hər iki tərəf qəzanın yenidən bərpası üçün səbəblər gətirmiş və Ordubad qəzasının yenidən bərpa edilməsini xahiş etmişdilər. 1900-cü ildə Qafqaz Mülki hissəsinin Baş Rəisliyinin və 1907-ci ildə Qafqaz Canişinliyinin dəftərxanalarının ayrı-ayrı illərdə İrəvan quberniyası nəzdində Ordubad qəzasının yaranması ilə bağlı hesabatlarında Mehri əhalisinin mahalın Ordubad sahəsinə birləşdirmək istəmələrinin əsas səbəblərini belə əsaslandırmışdılar: “O, Zəngəzur qəzasının qalan hissəsindən yüksək qarlı dağlar – Dibəklı, Gayalı və Qumyaran dağları ilə ayrılır. Mehri mahalı qəza mərkəzi Gorusdan 200 verst aralıda yerləşirdi. Zəngəzur qəzasının digər hissələri ilə əlaqə saxlamaq üçün yayda mahal sakinləri yükdaşıyan cığırlardan, qışda isə qarla örtülmüş Araz çayının sahilindən keçən sər-

---

[131] Памятная книжка Эриванской губернии на 1892, с.106; Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində, Bakı, Elm, 2008, s.58; Kazımbəyli İ. Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri), s.108-109.

həd yollarından istifadə edirdilər. Bu yollar qışda qar yağışına məruz qalır və yırtıcı heyvanlara görə təhlükəli idi. Sakinlər yayda yola Mehri mahalı ilə Görus arasında 8 günə, qışda isə 16 günə qədər vaxt sərf edirdilər. Bundan əlavə, ictimai həyatın inzibati, məhkəmə və təsərrüfat xarakterli məsələləri kənd sakinləri ilə mərkəz arasında daimi ünsiyyət tələb edirdi. Quberniya rəhbərliyinin ifadələrinə görə, xüsusilə yay iş saatlarında belə qeyri-məhsuldar vaxt itkisi sakinlərin maddi rifahını kökündən korlayırdı. Bundan əlavə, 1868-ci ilə qədər qəza, indi isə xüsusi statuslu şəhər olan Ordubad şəhəri ilə Mehri mahalı arasında məsafə 30 verstdir. Məsafənin belə yaxınlığına görə bu məntəqələrin əhalisinin ticarət və iqtisadi maraqları qarşılıqlı olaraq bir-birini cəlb edirdi, Gorus isə göstərilən çətinliyə görə mehriliIəri maraqlandırmırdı”[132].

Eyni zamanda qarşılıqlı olaraq Ordubad sahəsinin əhalisi də qəzanın yenidən bərpa olunmasında maraqlı idi. Qrdubadlılar öz xahiş və şikayətlərində bunu belə izah etmişdilər: “Ordubad sahəsinin əhalisi əsasən, bağçılıq və ticarətlə məşğul olur, taxıl isə Qacar dövlətindən alınırdı. Xaricə sənəd almaq üçün mütləq Naxçıvan şəhərinə getmək lazımdır, bunun üçün bir neçə gün və hər dəfə 20 rubla qədər pul xərcləmək tələb olunurdu. Əgər Ordubad sahəsində oğurluq hadisəsi baş verərsə, o zaman oğurlanmış mallar Qacar dövlətinə aparılırdı. Lakin zərərçəkənlər bu vaxtı Naxçıvanda sənəd aldıqlarından, malları orada gizlədilirdi, nəticədə onlar zərərə düşürdülər. Əvvəllər ordubadlılar Mehri mahalının sakinləri ilə ticarət aparırdılar, lakin sonuncunun ayrılması ilə ticarət xeyli aşağı düşdü, çünki dava və mübahisə zamanı 200 verst uzaqlıqda yerləşən Gorus kəndinə getmək lazım idi,

---

[132] В учереждении в Эриванской губернии нового Ордубатского уезда, с соединение в состав его из Елизаветпольской губернии Мигринского магала, 10 мая 1900 года, Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f.1, siyahı 1, iş 1319, v.10 arx; Об образовании в соствве Эриванской губернии нового, Ордубатскаго уезда, 10 мая 1900-ноября 1907, Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f.1, siyahı 1, iş 1319, v.1, 1 arx.

halbuki bundan əvvəl dava və mübahisələr Ordubadda həll olunurdu. Bütün bu hallar birlikdə Ordubad sahəsinin əhalisinin yoxsullaşmasına səbəb olmuşdur. Mehri və Ordubad sahələrinin iqtisadi cəhətdən bir-birinə meylliyini bir fakt da təsdiqləyir ki, Ordubad sahəsinin Rusiyaya birləşdirilməsi ilə sonuncunun əhalisinin maddi həyatı ilk vaxtlarda xeyli pisləşsə də, Mehri mahalının Ordubad sahəsi ilə (keçmiş Ordubad qəzası) birləşən kimi bu vəziyyət tezliklə nəzərəçarpacaq dərəcədə yaxşılaşdı. Mehri mahalı yenidən ayrılan kimi Ordubad sahəsinin əhalisi yoxsullaşmağa başladı"[133].

Həm ordubadlıların, həm də mehrililərin ərizə və şikayətlərini İrəvan və Yelizavetpol qubernatorları dəstəkləmişdilər. Həm Karmalin, həm də Freze Ordubad qəzasının yenidən təsis edilməsini qəbul edərək, bu işin hakimiyyətin və əhalinin marağında olduqlarını bildirmiş, hətta Ordubad qəzasının inzibati strukturlarının yaradılması haqqında layihəsini Qafqaz Baş Rəisliyinə təqdim etmişdilər. Eyni zamanda bu fikir keçmiş Qafqaz Baş Rəisliyinin Şurası tərəfindən prinsipial olaraq təsdiqlənmişdi.

Ordubad qəzasının yaradılması üçün layihə bir neçə dəfə İrəvan quberniya idarəsi tərəfindən təqdim edilmişdi. Məsələn, 1891-ci ildə İrəvan qubernatoru general-mayor Freze tərəfindən Ordubad qəzasının yaradılması üçün layihə təqdim edilmişdi. Layihədə Ordubad qəzası polis idarəsi işçilərinin heyəti, onların illik saxlanması üçün 4810 rubl maliyyə vəsaitinin lazım olduğu göstərilmişdir. Digər layihə İrəvan quberniya idarəsi tərəfindən 1897-ci ildə təqdim edilmişdir. Burda qəza polis idarə heyətinin tərkibi bir qədər genişləndirilmiş və onların illik maliyyə vəsaitinin 12700 rubla başa gəlməsi bildirilmişdir. İrəvan qubernatoru tərəfindən təqdim olunan sonuncu layihə 1898-ci ildə olunmuşdur. Burada əsasən Ordubad qəza xəzinəsi heyətin tərkibini və

[133] Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f.1, siyahı 1, iş 1319, v.10 arx; Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f.1, siyahı 1, iş 1319, v.1 arx, v.2.

onun illik saxlanmasının məbləğini göstərilmişdir. Həmin məbləğ 5245 rubldan ibarət idi[134].

Nəticədə, Şura 1900-cü ildə İrəvan və Yelizavetpol qubernatorlarının təqdim etdiyi Ordubad qəzasının inzibati qurumlarının yaradılması və həmin qurumların maliyyəsi haqqında layihəni nəzərdən keçirmişdir. Layihədə Ordubad qəzasının qəza və polis sahələrinin inzibati qurumlarının, tibbi sahənin, dövlət əmlak idarəsinin və məhkəmə sahəsinin yaradılması nəzərdə tutulmuşdur. Nəticədə, Ordubad qəzasının yaradılması üçün ayrılan maliyyə vəsaiti belə olmalı idi: 1. Qəza strukturları və polis sahəsinin saxlanması üçün-14.000 rubl; 2. Tibb işçilərinin saxlanması üçün-1655 rubl, ümumilikdə, 15655 rubl. Həmin məbləğdən şəhər pristavının saxlanması üçün Ordubad şəhər idarəçiliyi xərcindən 650 rubl, zemstvo xərcindən 1300 rubl və polis mühafizəsi zabitinin saxlanması və heyvanların yeminin ödənilməsi üçün 13805 rubl Dövlət Xəzinəsindən ödənilməli idi[135].

Lakin Mehri mahalının Ordubad sahəsinə birləşdirilməsi və bunun əvəzində yeni Ordubad qəzasının yaradılması məsələsi layihə olaraq qaldı. Arxiv sənədində bu, Qafqazda polis heyətinin tərkibinin yenidən nəzərdən keçirilməsi və XX əsrin əvvəllərində müharibə ilə əlaqədar olaraq zəifləmiş Dövlət Xəzinəsinin yükləmək istəməməsindən irəli gəldiyi bildirilmişdir[136].

İrəvan quberniyasının keçirilən islahatlar nəticəsində tam sərhədləri və inzibati-ərazi bölgüsü müəyyən olunduqdan sonra 1878-ci il məlumatına görə onun ərazisi 24447,7 kv. verst və yaxud 27822,6 kv. km olmuşdur. Ayrı-ayrı qəzaların sahəsi belə idi:

---

[134] В учереждении в Эриванской губернии нового Ордубатского уезда, с соединение в состав его из Елизаветпольской губернии Мигринского магала, 10 мая 1900 года, Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f.1, siyahı 1, iş 1319, v.13 arx.

[135] Об образовании в соствве Эриванской губернии нового, Ордубатскаго уезда, 10 мая 1900-ноября 1907, Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f.1, siyahı 1, iş 1319, v.5.

[136] Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f.1, siyahı 1, iş 1319, v.2 arx, v.3.

İrəvan qəzası 2738,6 kv. verst və yaxud 3116,6 kv. km; Naxçıvan qəzası 3908,4 kv. verst və yaxud 4447,8 kv. km.; Sürməli qəzası 3151,1 kv. verst və yaxud 3586,0 kv. km; Şərur-Dərələyəz qəzası 2635,6 kv. verst və yaxud 2999,4 kv. km.; Yenibəyazid qəzası 5410,4 kv. verst və yaxud 6157,1 kv. km.; Üçmüəzzin qəzası 3221,8 kv. verst və yaxud 3666,5 kv. km.; Aleksandropol qəzası 3381,8 kv. verst və yaxud 3848,6 kv. km. Lakin bu sahəyə xüsusi statuslu Ordubad şəhəri daxil edilməmişdi[137].

Sonrakı illərdə aparılan inzibati-ərazi dəyişikliyi nəticəsində İrəvan quberniyasının ərazisinin azalmasının və çoxalmasının şahidi oluruq. Mənbələrdə quberniyanın ərazisi müxtəlif rəqəmlərlə göstərilmişdir. Bir mənbəyə görə, İrəvan quberniyasının ərazisi Göyçə gölü də daxil olmaqla 26450 kv. verstə, digər mənbəyə görə 24758,3 kv. verst, gölsüz 23518 kv. vertə, başqa bir mənbəyə görə 24454,4 kv. verstə (1 verst-1,05 km), yaxud 27830 kv.km., bəzi məlumata görə 23194,79 verstə, bir məlumata görə isə 24758 kv. verstə (2578959 desyatin) bərabər olmuşdur. Quberniyanın Qacar dövləti ilə sərhədinin uzunluğu 246,5, Osmanlı dövləti ilə 130, ümumi sərhədlərinin uzunluğu isə 1052,5 verst idi[138].

İrəvan quberniyasında qəzalar inzibati-ərazi bölgüsünə görə polis sahəsinə, sahələr isə kənd cəmiyyətlərinə və onlar da kəndlərə bölünmüşdü. İrəvan quberniyasına daxil olan qəzalar, polis sahələri, kənd cəmiyyətləri və kəndlərin sayı və ərazisi belə idi: **İrəvan qəzası** İrəvan quberniyasının cənubunda, $39^0$ $38'$ və $40^0$ $22'$ şimal en dairəsi və $62^0$ $0'$ və $62^0$ və $46'$ şərq uzunluğu ara-

---

[137]Кавказский календарь на 1878 год, отдел 2, с.326.

[138] Обзор Эриванской губернии за 1884 год, Эриван, 1885, с.1; Памятная книжка Эриванской губернии на 1892, с.107; Обзор Эриванской губернии за 1883 год, Эриван, 1894, с.1; Первая всеобщая перепись населения Российской империи 1897, Эриванская губерния, с.3; Энциклопедический словар Брокгауз и Ефрона, т.81, с.10; Кавказский календарь на 1910 год, с.460-461; Памятная книжка Эриванской губернии на 1906, отдел IV, с.1; Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.1; Кавказский календарь на 1917 год, с.46.

sında yerləşmişdi. Qəza şimal, şimal-şərq və şərq tərəfdən Yenibəyazid, cənubdan və cənub-şərqdən Şərur-Dərələyəz qəzaları ilə, cənub-qərbdən aşağı Qarasu çayı boyunca Qacar dövləti ilə, Sürməli və Üçmüəzzin qəzaları ilə, şimal-qərbdən isə Üçmüəzzin qəzası ilə həmsərhəd idi[139]. İrəvan qəzasının ümumi sahəsi 288854 desyatin, yaxud 2724,30 kv. verst, 3100,27 kv. km. olmuşdur[140]. Qəzanın mərkəzi İrəvan şəhəri idi.

**İrəvan qəzası** inibati-ərazi bölgüsünə görə Tacirabad (sahəsi 718, 98 kv. verst (74894 desyatin) yaxud 818, 20 kv. km.), Hacı İlyas (sahəsi 259,30 kv. verst (27010 desyatin) yaxud 295,09 kv.km), Kəmərli (sahəsi 632,92 kv.verst (65929 desyatin) yaxud 720,26 kv.km) və Dəvəli (sahəsi 1113 kv. verst (115945 desyatin) yaxud 1266,72 kv.km) polis sahələrindən ibarət olmuşdur[141].

Polis sahələri inzibati-ərazi bölgüsünə görə kənd cəmiyyətlərinə bölünmüş, kənd cəmiyyətləri isə ayrı-ayrı kəndləri özündə birləşdirmişdi. Müxtəlif illərdə aparılan stastistik məlumatlarda kənd cəmiyyətlərində və onlara daxil olan kəndlərin sayında dəyişikliyi görmək mümkündür. 1886-cı il kameral təsvirə görə, **Tacirabad polis sahəsinə** (sahənin başçısı pristav İrəvan şəhərində yerləşmişdi) Aramus (10 kənd), Ərinc (11 kənd), Başgərni (17 kənd), Göl Aysor (11 kənd), Gəmriz (10 kənd) kənd cəmiyyətləri, **Hacı İlyas polis sahəsinə** İmanşalin (8 kənd), Norakovit (9 kənd), Sarvanlar (8 kənd), Şirabad (8 kənd), Şorlu-Dəmirçi (7 kənd) kənd cəmiyyətləri, **Kəmərli polis sahəsinə** Əliməmməd (7 kənd), Dvin Aysor (16 kənd), Kəmərli (7 kənd), Qalahisar (12 kənd), Çikdamlı (6 kənd) kənd cəmiyyətləri, **Dəvəli polis sahəsinə** isə Armik (16 kənd), Böyük Vedi (10 kənd), Qaqurin (4 kənd), Gecimqanlı

---

[139] Материалы для изучения экономического быта государственных крестьян Закавказскаго края [в 7 томах], Тифлис, Типография А.А.Михельсона, 1886. т.III, с.1; Карта на 1903.

[140] Памятная книжка Эриванской губернии на 1892, с.108; Кавказский календарь на 1904 год, Тифлис, 1903, отдел III, с.36-37; Кавказский календарь на 1908 год, Тифлис, 1907, стастисеские отдел, с.7; Кавказский календарь на 1910 год, Тифлис, 1909, отдел IV, с.458-459.

[141] Кавказский календарь на 1910 год, Тифлис, 1909, отдел IV, с.458-459.

(4 kənd), Dəvəli (5 kənd), Qaraxaç (12 kənd), Qırmızıqanlı (4 kənd), Sədərək (3 kənd) kənd cəmiyyətləri daxil idi[142].

Lakin XX əsrin əvvəllərində istər polis sahələrinin, istərsə də kənd cəmiyyətlərinin sayında fərqli rəqəmlər göstərilmişdir. Əsrin əvvəllərində İrəvan qəzasına daxil olan **I polis sahəsində** 3 kənd cəmiyyətində (Kənəkir 16 kənd, Aramus 16 kənd, Başgərni 24 kənd, əlavə yeni salınmış kəndlər 5) yeni salınmış kəndlərlə birlikdə 61 və yaxud 63 kənd, 1917-ci il məlumatında 4 kənd cəmiyyətində 52 kənd, **II polis sahəsində** 3 kənd cəmiyyətində 43 kənd (İmamşalin 16 kənd, Şirabad 15 kənd, Noravit 12 kənd), 1917-ci il məlumatında 6 kənd cəmiyyətində 43 kənd, **III polis sahəsində** 4 kənd cəmiyyətində (Qalahisar 12 kənd, Uğurbəyli 6 kənd, Dvin-Aysor 22 kənd, Kəmərli 10 kənd) 50 kənd, 1917-ci ilin məlumatında 7 kənd cəmiyyətində 52 kənd, **IV polis sahəsində** isə 6 kənd cəmiyyətində (Sədərək 3 kənd, Vediçay 10 kənd, Qaraxaç 12 kənd, Aramik 14 kənd, Dəvəli 12 kənd, Burukin 14 kənd) 66 kənd, 1917-ci ilin məlumatında 7 kənd cəmiyyətində 62 kənd qeydə alınmışdır. Ümumilikdə, 1917-ci ilin məlumatına görə, İrəvan qəzasında 4 polis sahəsində 24 kənd cəmiyyəti və onlara 209 kənd daxil olmuşdur[143].

**Naxçıvan qəzası** əsasən dağlıq ərazi idi və Araz çayının sol sahilində yerləşmişdi. O, cənubdan Qacar dövləti ilə onu ayıran Araz çayı, şimaldan Şərur-Dərələyəz qəzası, şimal-qərbdən Şərur düzənliyinin cənub hissəsi, şərqdən onu Yelizavetpol quberniyasının Zəngəzur qəzasından ayıran Kiçik Qafqaz dağları (Qarabağ dağı) ilə həmsərhəd, paraleloqramma formasında olub, uzanan aşağı hissəsi 60 verst, yan tərəfi isə 70 verstə yaxın idi. Mərkəzi Naxçıvan şəhəri, qəzanın ərazisi isə 412292 desyatin,

---

[142]Свод статических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г., Тифлис, Типография И.Мартиросианца, 1893, с.334-347.

[143] Памятная книжка Эриванской губернии на 1902, отдел 3, с. 2-19; Памятная книжка Эриванской губернии на 1906, отдел 3, с.2-19; Кавказский календарь на 1910 год, отдел IV, с.453-459; Кавказский календарь на 1917 год, отдел IV, с.129-131.

yaxud 3939,04 kv. verst, 4482,70 kv.km. olmuşdur[144].

Naxçıvan qəzası Əliabad (sahəsi 660,62 kv. verst, 68815 desyatin, yaxud 751, 80 kv.km), Çağrı (sahəsi 1253,92 kv. verst, 130617 desyatin, yaxud 1426,98 kv.km), Abrakunis (sahəsi 1327,35 kv. verst, 138263 desyatin, yaxud 1510,56 kv.km), Yuxarı Əylis (sahəsi 697,15 kv. verst, 72620 desyatin, yaxud 793,38 kv.km) polis sahələrindən ibarət olmuşdur[145].

1886-cı il kameral təsvirdə **Əliabad polis sahəsinə** (sahənin pristavı Naxçıvan şəhərində yerləşirdi) Aznabyurd (1 kənd), Təzəkənd (2 kənd), Tumbul (7 kənd), Xok (8 kənd), Şıxmahmud (7 kənd), Yarımcin (9 kənd), **Çağrı polis sahəsinə** (sahənin pristavı qış aylarında Çağrı kəndində, yayda isə Naxçıvan şəhərindən 52,5 verst aralıda yerləşən Karmalinovka kəndində yerləşirdi) Çağrı (3 kənd), Düyün Almalı (10 kənd), Qarababa (28 kənd), Karmalin (1 kənd), **Abrakunis polis sahəsinə** (sahənin pristavı Naxçıvan şəhərindən 24 verst aralıda yerləşən Abrakunis kəndində yerləşirdi) Abrakunis (9 kənd), Qazançı (17 kənd), Nehrəm (1 kənd), Surab (11 kənd), **Yuxarı Əylis polis sahəsinə** (sahənin pristavı Ordubad şəhərində yerləşirdi) Azin (3 kənd), Yuxarı Əylis (5 kənd), Aşağı Əylis (3 kənd), Yuxarı Andamiç (4 kənd), Biləv (3 kənd), Bist (9 kənd), Vənənd (2 kənd), Dernis (7 kənd), Dostin (1 kənd), Kilit (3 kənd), Sumbatan-dizin (5 kənd), Xanağa (4 kənd), Çananab (5 kənd) və Yaycı (1 kənd) kənd cəmiyyətləri daxil idi[146].

Naxçıvan qəzasında da kənd cəmiyyətləri və kəndlərin sayı haqqında XX əsrin əvvəllərində müxtəlif məlumatlara rast gəl-

---

[144] Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, Типография канцелярии Главноначальствующаго гражданскою частью на Кавказе. 1882, выпуск 2, с.128; Памятная книжка Эриванской губернии на 1892, отдел IV, с. 108; Кавказский календарь на 1904 год, отдел III, с.36-37; Кавказский календарь на 1908 год, отдел стастический, с.7; Кавказский календарь на 1910 год, отдел IV, с.460-461.

[145] Кавказский календарь на 1910 год, с.460-461.

[146] Свод статических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г., с.360-371.

mək mümkündür. Həmin stastik məlumatlarda **I polis sahəsində** - 3 kənd cəmiyyətində (Qıvraq 8 kənd, Tumbul 9 kənd, Şıxmahmud 14 kənd) 31 kənd, 1917-ci ilin məlumatında 5 kənd cəmiyyətində 33 kənd, **II polis sahəsində** - 4 kənd cəmiyyətində (Qarababa 28, Diqin-Almalı 10 kənd, Karmalinovka 1 kənd, Çağrı 6) 45 kənd, 1917-ci ilin məlumatında 4 kənd cəmiyyətində 45 kənd, **III polis sahəsində** - 3 kənd cəmiyyətində (Qazançı 20 kənd, Abrakunis 13 kənd, Nehrəm 3 kənd) 36 kənd, 1917-ci il məlumatında 6 kənd cəmiyyətində 38 kənd, **IV polis sahəsində** - 4 kənd cəmiyyətində (Yuxarı Əylis 15 kənd, Yuxarı Əzin 12 kənd, Vənənd 14 kənd, Çinanab 14 kənd) 55 kənd, 1917-ci ilin məlumatında isə 7 kənd cəmiyyətində 46 kənd qeydə alınmışdır. Ümumilikdə, Naxçıvan qəzasında 1917-ci ilin məlumatında 22 kənd cəmiyyətinə 162 kənd daxil olmuşdur[147].

**Şərur-Dərələyəz qəzası** Şərqi Arpaçayın bütün vadisini, Araz çayının sağ sahilini tutmuşdu. O, şimaldan Yenibəyazid qəzası, cənubdan Naxçıvan qəzası, cənub-qərbdən Araz çayı sərhəd olmaqla Qacar dövləti, şərqdən isə Yelizavetpol quberniyasının Cavanşir qəzası ilə həmsərhəd olmuşdu. Qəza mərkəzi Başnoraşen kəndi, ümumi sahəsi isə 277917 desyatin, yaxud 2637, 50 kv. verst, 3001, 54 kv. km idi[148]. Qeyd etmək lazımdır ki, Şərur-Dərələyəz qəzasının mərkəzi olan Başnoraşen kəndi uzun müddət mərkəz kimi mübahisə obyekti olmuşdur. Belə ki, çarın 1867-ci il dekabrın 9-da verilmiş fərmanına əsasən, Qafqazda yeni quberniyanın yaradılması ilə əlaqədar olaraq idarəçilik ştatlarının da çoxaldılması nəzərdə tutulmuşdu. Həmin qanuna əsasən, 1870-ci ilin sonlarında İrəvan qubernatoru Karmalinə quberniya idarəçilik ştatlarının artırılması tapşırılmışdı. Nəticədə Naxçıvan qəzası-

---

[147] Памятная книжка Эриванской губернии на 1902, отдел 3, с.60-73; Памятная книжка Эриванской губернии на 1906, отдел 3, с.72-89; Кавказский календарь на 1910 год, отдел IV, с.460-461; Кавказский календарь на 1917 год, с.122-123.

[148] Кавказский календарь на 1908 год, стастический отдел, с.6; Кавказский календарь на 1910 год, отдел IV, с.458-459.

nın geniş əraziyə malik olduğunu nəzərə alaraq, onun şimal-qərb hissəsində Şərur-Dərələyəz qəzasının yaradılması layihəsi hazırlandı. Layihədə qəza mərkəzi kimi Daşarxı kəndi nəzərdə tutulmuşdu. Lakin qubernator Karmalinə bu layihəni həyata keçirmək qismət olmadı. 1875-ci il aprelin 4-də Şərur-Dərələyəz qəzası yaradılarkən onun mərkəzi həmin vaxt İrəvan quberniyasını idarə edən general-mayor Roslavlev (1867-1880) tərəfindən Daşarxı kəndindən 10 verst aralıda yerləşən Başnoraşen kəndi seçildi. Eyni zamanda Daşarxı kəndi gələcəkdə qəza mərkəzi kimi nəzərdə tutulmuşdu. Lakin mərkəzin Daşarxına yaxın yerə köçürülməsinin nəzərdə tutulması müxtəlif kəndlər arasında narazılığa səbəb olmuşdu. Hələ bu haqda müxtəlif səviyyələrdə yazışmalar aparılarkən Başnoraşen kəndinin sahibkarları Səfiyevlər mərkəzin burada saxlanmasını xahiş etmişdilər. Onlar Başnoraşen kəndinin sağlam iqlimə, təmiz suya malik olduğunu bildirərək, qəza inzibati idarə orqanları üçün binaların tikilməsinə yerli əhali ilə birlikdə lazımı qədər torpaq ayırmağa razı olduqlarını ərizə ilə qeyd etmişdilər[149].

Şərur-Dərələyəz qəzasının inzibati mərkəzinin qeyri-müəyyən qalması 1893-cü il oktyabr ayına qədər davam etmişdir. Həmin vaxt İrəvan qubernatoru general-leytenant Freze şəxsən həmin əraziyə baş çəkdikdən sonra Qafqaz Baş Rəisliyi idarəsinə məlumatında bildirmişdi ki, Başnoraşen kəndində əlverişli binaların, içməli suyun və lazımi torpaq sahəsinin olmaması üzündən qəza mərkəzi kimi fəaliyyəti mümkün deyil. Hətta qubernator digər kəndlərin də bu məsələdə əlverişli olmadığını qeyd edərək, mərkəzin məhz Daşarxı Azərbaycan türk kəndinin yaxınlığına köçürməsinin əlverişli olduğunu xüsusi vurğulamışdı. İrəvan qubernatorunun bu məlumatı Qafqaz Baş Rəisliyi təhlükəsizlik Şu-

---

[149] Директор канцелиария наместника его императорского величества на Кавказе. 10 декабря 1912 г. №27217. Гор. Тифлис. По вопросу об установлении административнаго центра Шаруро-Даралагезского уезд Эриванской губернии, Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f.1, siyahı 1, iş 1324, v.18, v.18 arx.

rasında 1895-ci il fevralın 9-da müzakirə edilmiş, bu məlumatın lazımi səviyyədə olmadığı bildirilmişdir[150].

1895-ci il fevralın 9-u və 1900-cü il fevralın 10-u Qafqaz Baş Rəisliyi Mülki hissəsinin dəftərxanasının tərtib etdiyi jurnalda Şərur-Dərələyəz qəzasının mərkəzinin Başnoraşen kəndindən Daşarxı Azərbaycan türk kəndinə köçürülməsi haqqında maraqlı məlumatlar verilmişdir. Sonrakı illərdə, 1907-ci və 1910-cu illərdə də tədqiqat davam etdirilmişdir. Göstərildiyi kimi, İrəvan qubernatorları Karmalin və Freze əsasən qəza mərkəzinin Daşarxına keçirilməsinin tərəfdarı olmuşdular. Başnoraşenin mərkəz kimi yaramadığını qəbul edən İrəvan qubernatorları Daşarxını, onun yerləşdiyi ərazini, su təchizatını və hava şəraitini öyrənmək üçün dəfələrlə bu kəndə xüsusi komissiya göndərmişdilər. Daşarxı kəndi iki hissədən ibarət idi. Daşarxı Azərbaycan türk kəndi və Daşarxı erməni kəndi. Qəza mərkəzini məhz Azərbaycan türklərinin yaşadığı kəndə salmaq istəyirdilər. O, Araz çayından 1,5 verst aralıda yerləşmiş, onun Azərbaycan türkləri yaşayan hissəsi 30 ev və 118 desyatin torpaq sahəsinə malik olmuşdur. Yerli əhali burada idarə müəssissələrinin yaradılması üçün 60 desyatin torpaq sahəsindən keçməyə hazır idilər. Hətta Daşarxı kəndində idarə müəssisələrinin tikilməsi üçün xüsusi hərrac da elan etmişdi. Lakin qəza rəisinin bildirdiyinə görə hərracda heç kim iştirak etməmişdir. Qəza rəisi hərracın baş tutması və əhalini bu işə cəlb etmək üçün bura hər hansı hərbi hissənin köçürülməsini, onlar üçün kazarmaların tikilməsini təklif etmişdi[151].

---

[150] Директор канцелиария наместника его императорского величества на Кавказе. 10 декабря 1912 г. №27217. Гор. Тифлис. По вопросу об установлении административнаго центра Шаруро-Даралагезского уезд Эриванской губернии, Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f.1, siyahı 1, iş 1324, v.18, v.18 arx..

[151] Переписка с Эриванским губернатором и другими о перенесении админнистративного центра Шаруро-Даралагезского уезда из селения Башнорашен в селение Даш-арх мусулманскими, 1910, 20 марта, Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f.1, siyahı 1, iş 1323, v.1, v.1 arx, v.2, v.4.

Mərkəzin Daşarxına köçürlməsinə yaxın kəndlərin əhalisi də razı deyildi. Belə ki, İrəvan qubernatoru general-leytenant Freze Daşarxına baxış keçirdiyi ikinci gün yaxın Əngeci kəndinin əhalisi ona müraciət edərək mərkəzin onların kəndində salınmasını xahiş etmişdilər. Onlar kəndin Culfa dəmir yolunun Noraşen stansiyasına yaxın yerdə yerləşdiyini, əksinə Daşarxının Naxçıvan qəzasının sərhədlərinə yaxın olduğunu və dəmir yolundan uzaqda yerləşdiyini bildirmişdilər. Kənd əhalisi bunun üçün Əngeci kəndinə məxsus 500 desyatin torpaqdan onlara məxsus 85 desyatin, əlavə olaraq 50 desyatin xəzinə torpağından ehtiyat torpaq ayıracaqlarını birdilmişdilər. Başnoraşenlilər də qəza idarə orqanları üçün inzibati idarələrin tikintisi üçün 50 desyatin torpaq sahəsindən keçməyə hazır idilər[152]. Hətta Daşarxı Azərbaycan türk kəndinin, Daşarxı erməni kəndinin və Xanlıqlar kəndinin əhalisi qəza mərkəzi üçün əkin sahələrindən və örüş yerlərindən torpaq ayıracaqlarına söz vermişdilər[153]. Lakin qubernator su mühəndisi ilə birlikdə vitse-qubernatoru Daşarxına göndərərək buranın su təminatının imkanlarını öyrənməyi bildirmiş, eyni zamanda Əngeci və Başnoraşen kəndlərinə gələcək mərkəz üçün torpaq ayrılması fikirlərinin dayandırılması tapşırılmışdı[154].

Uzun illər aparılan tədqiqatlara baxmayaraq, Başnoraşen kəndi Şərur-Dərələyəz qəzasının mərkəzi olaraq qalmışdı. İrəvan

---

[152] Переписка с Эриванским губернатором и другими о перенесении админнистративного центра Шаруро-Даралагезского уезда из селения Башнорашен в селение Даш-арх мусулманскими, 1910, 20 марта, Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f.1, siyahı 1, iş 1323, v.1, v.1 arx, v.2, v.4, v.4 arx..

[153] Директор канцелиария наместника его императорского величества на Кавказе. 10 декабря 1912 г. №27217. Гор. Тифлис. По вопросу об установлении административнаго центра Шаруро-Даралагезского уезд Эриванской губернии, Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f.1, siyahı 1, iş 1324, v.19, v.19 arx..

[154] Переписка с Эриванским губернатором и другими о перенесении админнистративного центра Шаруро-Даралагезского уезда из селения Башнорашен в селение Даш-арх мусулманскими, 1910, 20 марта, Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f.1, siyahı 1, iş 1323, v.5 arx..

vitse-qubernatoru Qriqoryevin qubernatora yazdığı məlumatında Daşarxının mərkəz kimi əlverişli olmadığını bildirmişdi. O, bunu Arpaçay çayından ayrılan arxın Daşarxı kəndinin su təminatı üçün zəif olması və dəmir yolundan uzaqlığı ilə əlaqələndirmişdir[155]. Eyni fikir İrəvan-Qars idarəçiliyi nəzdində Dövlət əmlakının III rayon baş nəzarətçisinin 1911-ci il avqustun 17-də yazdığı məlumatda bildirilmişdir. O, məlumatda yazırdı ki, mərkəzin Daşarxına köçürülməsi fikrindən imtina etmək lazımdır, Başnoraşen dəmir yoluna və Noraşen dəmir yol stansiyasına yaxın olduğu üçün bura daha əlverişlidir[156]. Beləliklə, 40 ilə yaxın tədqiqata və mübahisələrə baxmayaraq, Başnoraşen kəndi 1917-ci ilə qədər Şərur-Dərələyəz qəzasının inzibati mərkəzi olaraq qalmışdı.

Şərur-Dərələyəz qəzasına Şərur (sahəsi 747,26 kv. verst, 77839 desyatin, yaxud 850, 41 kv.km) və Dərələyəz (sahəsi 1890,24 kv. verst, 196890 desyatin, yaxud 2151,13 kv.km) polis sahələri daxil idi. Hər polis sahəsinin ayrı-ayrılıqda özünün kənd cəmiyyətləri və onlara daxil olan kəndləri vardı. 1886-cı il kameral təsvirində **Şərur polis sahəsində** (sahənin pristavı İrəvandan 87,3 verst aralıda yerləşən Başnoraşen kəndində yerləşirdi) Alaqlı (9 kənd), Yenicə (8 kənd), Zeyvə (5 kənd), Qarabürc (8 kənd), Noraşen-uli (3 kənd), Pusian (8 kənd), Çamaxtur (8 kənd), Yaycı (10 kənd) kənd cəmiyyətləri, **Dərələyəz polis sahəsində** (sahənin pristavı Başnoraşen kəndindən 55 verst aralı Keşiş kənddə yerləşirdi) Alagöz (20 kənd), Hindivaz (22 kənd), Çul (8 kənd), Keşikkənd (16 kənd), Qinişik (8 kənd), Qozlu Yaycı (15 kənd), Martiros (10 kənd) kənd cəmiyyətləri qeydə alınmışdı[157].

---

155 Его сиятельству господину Эриванскому Губернатору, Эриванского Вице-губернатора Григорева, Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f.1, siyahı 1, iş 1323, v.12 arx..

156 Старший надзирател III района при Эриванско-Карском управлении государственными имуществами 17 августа 1911 г., № 369, Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f.1, siyahı 1, iş 1323, v. 51, v.51 arx..

157 Свод статических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г., с.392-398.

1886-cı il kameral təsvirində olduğu kimi, 1902, 1906-cı illər İrəvan quberniyasına aid yaddaş kitabçasında və 1910-cu il “Qafqaz təqvimi”ndə Şərur-Dərələyəz qəzasının həm kənd cəmiyyətlərinin, həm də onlara daxil olan kəndlərin sayı eyni idi. Ümumilikdə, Şərur-Dərələyəz qəzasında 12 kənd cəmiyyətinə tabe olan 163 kənd olmuşdur[158]. Lakin 1917-ci il məlumatında hər iki polis sahəsində fərqli rəqəmlər göstərilmişdir. Qəzaya daxil olan I polis sahəsində 12 kənd cəmiyyətində 62 kənd, II polis sahəsində 7 kənd cəmiyyətində 97 kənd olmuşdur. Həmin ilin məlumatında ümumilikdə, Şərur-Dərələyəz qəzasının 19 kənd cəmiyyətində 159 kənd qeydə alınmışdır[159].

**Sürməli qəzası** şimaldan Üçmüəzzin, şərqdən İrəvan qəzaları ilə, cənubdan Osmanlı Türkiyəsinin Bəyazid sancağı, cənubşərqdən isə Qacar dövləti ilə həmsərhəd idi. Qəzanın mərkəzi İğdır kəndi, ərazisi isə 332604 desyatin, yaxud 3147,09 kv. verst, 3581,48 kv. km olmuşdur[160].

**Sürməli qəzası** 3 polis sahəsindən ibarət idi. Birinci **İğdır polis sahəsində** (sahəsi 725,65 kv. verst, 75589 desyatin yaxud 825,82 kv.km, sahənin pristavı İrəvan şəhərindən 56 verst aralıda yerləşən İğdır kəndində yerləşirdi) Zor (26 kənd), İğdır (19 kənd), Qızılqışlaq (16 kənd), **Daşburun polis sahəsində** (sahəsi 1214,24 kv. verst, 126481 desyatin yaxud 1381,83 kv. km, məntəqənin başçısı İğdırdan 25 verst aralıda yerləşən Daşburun kəndində yerləşirdi) Aralıq (12 kənd), Daşburun (15 kənd), Radik (35 kənd), **Qulp polis sahəsində** (sahəsi 1207,20 kv. verst, 125750 desyatin yaxud 1373,83 kv.km, sahənin pristavı İğdır kəndindən 43 verst

---

158 Памятная книжка Эриванской губернии на 1902, отдел 3, с.50-61; Памятная книжка Эриванской губернии на 1906, отдел 3, с.58-73; Кавказский календарь на 1910 год, отдел IV, с.458-459.

159 Кавказский календарь на 1917 год, отдел IV, с.127-129.

160 Памятная книжка Эриванской губернии на 1892, с.332-334; Кавказский календарь на 1908 год, отдел стастический, с.7; Кавказский календарь на 1910 год, отдел IV, с.458-459.

aralıda Oulpda yerləşirdi) Qulp (14 kənd), Güllücə (43 kənd), Oğrucin (48 kənd) kənd cəmiyyətləri var idi[161].

1886-cı il kameral təsvirinə nisbətən XX əsrin əvvəllərinə aid statistik məlumatlarda Sürməli qəzasında kənd cəmiyyətlərinin və kəndlərin sayında azalma qeydə alınmışdır. Sürməli qəzasına daxil olan **I polis sahəsinə** 4 kənd cəmiyyətində (İğdır 9 kənd, Evcilər 12 kənd, Yaycı 15 kənd, Əliqoçaq 25 kənd) 61 kənd, **II polis sahəsinə** 3 kənd cəmiyyətində (Aralıq Başkənd 12 kənd, Daşburun 14 kənd, Radik 35 kənd) 61 kənd, **III polis sahəsinə** 6 kənd cəmiyyətində (Qulp 11 kənd, Güllicə 23 kənd, Yezidi-Həsənli 19 kənd, Cəlali-Sakaklı 7 kənd, Oğrucin 24 kənd, Radiki-Sinak 23 kənd) 107 kənd olduğu göstərilmişdir. Ümumilikdə, hər üç polis məntəqəsində 13 kənd cəmiyyəti, 229 kənd olmuşdur[162]. 1917-ci ilin statistik məlumatında qəzada bu sahədə fərqli nəticə qeydə alınmışdır. Məsələn, Sürməli qəzasının I polis sahəsində 4 kənd cəmiyyətinə 42 kənd, II polis sahəsində 3 kənd cəmiyyətinə 59 kənd, III polis sahəsində 6 kənd cəmiyyətinə 107, ümumilikdə isə 13 kənd cəmiyyətinə 208 kənd daxil olmuşdur[163].

**Yenibəyazid qəzası** Göyçə gölünün çökəkliklərini, Zəngi çayının yuxarı axarlarını əhatə etmişdi. O, qərbdən Üçmüəzzin, şimaldan Aleksandropol və Qazax, qərbdən İrəvan, cənubdan Şərur-Dərələyəz və şimal-şərqdən isə Cavanşir qəzaları ilə həmsərhəd idi. Mərkəzi Yenibəyazid şəhəri, ərazisi Göyçə gölü ilə birlikdə 441562 desyatin, yaxud 5336,20 kv. verst, 6072, 67 kv. km olmuşdur[164].

---

[161] Свод статических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г., с.382-390.

[162] Кавказский календарь на 1910 год, отдел IV, с.458-459; Памятная книжка Эриванской губернии на 1902, отдел 3, с.34-49; Памятная книжка Эриванской губернии на 1906, отдел 3, с.40-59.

[163] Кавказский календарь на 1917 год, с.127-129.

[164] Памятная книжка Эриванской губернии на 1892, с.108; Кавказский календарь на 1908 год, отдел стастический, с.7; Кавказский календарь на 1910 год, отдел IV, с.460-461.

Yenibəyazid qəzası Dərəçiçək (sahəsi 1071,35 kv. verst, 67755 desyatin yaxud 740,22 kv.km), Göyçə (sahəsi 650,45 kv. verst, 111599 desyatin yaxud 1219,22 kv.km), Gözəldərə (983,99 kv. verst, 102499 desyatin yaxud 1119,79 kv.km), Məzrə (1416,97 kv. verst, 147601 desyatin yaxud 1612,54 kv.km) polis sahələrinə bölünmüşdü[165]. 1886-cı il məlumatına görə, **Dərəçiçək polis sahəsində** (sahənin pristavı Yenibəyazid şəhərindən 50,5 verst aralıda yerləşən Karvansaray kəndində yerləşmişdi) Arzakənd (6 kənd), erməni kəndi Aşağı Axtı (5 kənd), rus kəndi Yuxarı Axtı (4 kənd), Yelenovka (3 kənd), Kankan (8 kənd), Pandamal (7 kənd), Tayçarıx (11 kənd), Çırçır (7 kənd), **Göyçə polis sahəsində** (sahənin pristavı Yenibəyazid şəhərindən 15 verst aralıda Əranos kəndində yerləşmişdi) Ağzıbir (10 kənd), Gölkənd (8 kənd), Dəliqardaş (6 kənd), **Gözəldərə polis sahəsində** (sahənin pristavı Yenibəyazid şəhərindən 46 verst aralıda Kolanı-Qırılan kəndində yerləşmişdi) Basarkeçər (15 kənd), Gözəldərə (9 kənd), Yuxarı Qaranlıq (11 kənd), **Məzrə polis sahəsində** (sahənin pristavı Məzrə kəndində yerləşmişdi) Cil (8 kənd), Böyük Məzrə (11 kənd) kənd cəmiyyətləri qeydə alınmışdı[166].

XX əsrin əvvəllərinə aid olan məlumatlarda isə Yenibəyazid qəzasına daxil olan kənd cəmiyyətləri və kəndlər haqqında fərqli rəqəmlər göstərilmişdir. Belə ki, **I polis sahəsində** - 6 kənd cəmiyyətində (rus cəmiyyəti-Aşağı Axtı 3 kənd, erməni cəmiyyəti-Aşağı Axtı 6 kənd, Randamal 5 kənd, Tayçarıx 11 kənd, Arzakənd 7 kənd, Kankan 9 kənd) 41 kənd, **II polis sahəsində** - 3 kənd cəmiyyətində (Yelenovka 3 kənd, Cırcır 8 kənd, Ağzıbir 10 kənd) 21 kənd, **III polis sahəsində** - 3 kənd cəmiyyətində (Dəliqardaş 5 kənd, Göl 8 kənd, Qaranlıq 11 kənd) 24 kənd, **IV polis sahəsində** - 4 kənd cəmiyyətində (Gözəldərə 12 kənd, Basarkeçər 18 kənd, Məzrin 11 kənd, Cil 8 kənd) 49 kənd, ümumilikdə,

---

[165] Кавказский календарь на 1910 год, отдел IV, с.460-461.
[166] Свод статических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г., с.372-381.

Yenibəyazid qəzasında 16 kənd cəmiyyətinə 135 kənd daxil olmuşdur[167].

**Üçmüəzzin qəzası** cənub tərəfdən Alagöz dağının cənub ətəklərini, qərbdən Arpaçay çayını, cənubdan Araz çayını, şərqdən isə Abaran və Zəngi çaylarının ayrıldığı əraziləri əhatə etmişdir. O, cənubdan Sürməli, şimaldan Aleksandropol, şimal-şərqdən Yenibəyazid, şərqdən İrəvan qəzaları, qərbdən isə Osmanlı ərazisi olan Kağızman dairəsi ilə həmsərhəd idi. Qəzanın mərkəzi Vaqarşapat kəndi, ərazisi 339792 desyatin, yaxud 3237,40 kv. verst, 337229 kv. km olmuşdur[168].

Üçmüəzzin qəzası (qəza rəisi İrəvan şəhərindən 18,5 verst aralıda yerləşən Vaqarşapat kəndində yerləşmişdi) **Sərdarabad** (820,62 kv. verst, 85482 desyatin yaxud 933,88 kv.km), **Vaqarşapat** (431,09 kv. verst, 44905 desyatin yaxud 490,59 kv.km), **Əştərək (**982,43 kv. verst, 102336 desyatin yaxud 1118,02 kv.km) və **Baş Abaran** (1003,99 kv. verst, 104506 desyatin yaxud 1141,73 kv.km) polis sahələrindən ibarət olmuşdur. 1886-cı il kameral təsvirində **Sərdarabad polis sahəsinə** (sahənin pristavı Sərdarabad kəndində yerləşmişdi) Keçərli (4 kənd), Camadinli (12 kənd), Dilxeyranlı (12 kənd), Kürdqulu (4 kənd), Mehriban (15 kənd), Milanlı (19 kənd), Kiçik Radikin (9 kənd), Sərdarabad (3 kənd), Talın (9 kənd), Xeyirbəyli (4 kənd), Şəhriyar (6 kənd), **Vaqarşapat polis sahəsinə** (pristav Vaqarşapatda yerləşmişdi) Ağavnatun (7 kənd), Vaqarşapat (1 kənd), Zeyvə (4 kənd), Qarxun (5 kənd), Körpəli (3 kənd), Tos (7 kənd), Xatunarx (5 kənd), Çobanqara (1 kənd), Evcilər (7 kənd), **Əştərək polis sahəsinə** (sahə pristavı Vaqarşapatdan 20 verst aralıda yerləşən Əştərək kəndində yerləşmişdi) Əştərək (1 kənd), Yeqvard (11 kənd),

---

[167] Памятная книжка Эриванской губернии на 1902, отдел III, с.74-85; Кавказский календарь на 1906 год, отдел стастический, с.88-103; Кавказский календарь на 1910 год, отдел IV, с.460-461; Кавказский календарь на 1917 год, с.124-125.

[168] Памятная книжка Эриванской губернии на 1892, с.108; Кавказский календарь на 1908 год, отдел стастический, с.6; Кавказский календарь на 1910 год, отдел IV, с.458-459.

Körpü (5 kənd), Qızıl Teymur (4 kənd), Qoş (12 kənd), Pirağan (11 kənd), **Baş Abaran polis sahəsinə** (sahə pristavı Vaqarşapatdan 70 verst aralıda yerləşən Əliqoçaq kəndində yerləşmişdi) Əliqoçaq (6 kənd), Baş Abaran (8 kənd), Qarakilsə (10 kənd), Sağmusa-vəng (10 kənd) kənd cəmiyyətləri daxil idi[169].

1886-cı il məlumatına nisbətən 1902-ci, 1906-cı və 1910-cu illər məlumatlarında qəzaya daxil olan kənd cəmiyyətlərinin və onlara daxil olan kəndlərin sayında bir qədər fərqliliyi görmək mümkündür. Məsələn, **I polis sahəsində** 5 kənd cəmiyyətində (Aytaq 10 kənd, Vaqarşapat 6 kənd, Xatun Arx 6 kənd, Qızıl Teymur 9 kənd, Çobanqara 1 kənd) 32 kənd, **II polis sahəsində** 5 kənd cəmiyyətində (Əştərək 9 kənd, Yevqard 17 kənd, Başabaran 11 kənd, Qarakilsə 14 kənd, Parpi 10 kənd) 61 kənd, **III polis sahəsində** 4 kənd cəmiyyətində (Qurduqlu 8 kənd, Sərdarabad 8 kənd, Şəhriyar 10 kənd, Karxun 18 kənd) 44 kənd, **IV polis sahəsində** 4 kənd cəmiyyətində (Talın 13 kənd, Aşağı Ağcaqala 14 kənd, Qoş 14 kənd, Buğurtlu 41 kənd) 82 kənd olduğu göstərilmişdir. Ümumilikdə Üçmüəzzin qəzasında 18 kənd cəmiyyətində 219 kənd qeydə alınmışdır[170]. Lakin 1917-ci il məlumatında kənd cəmiyyətlərinin sayında çoxalma, kəndlərin sayında isə azalma müşahidə olunmuşdur. Məsələn, I polis sahəsində 7 kənd cəmiyyətinə 31 kənd, II polis sahəsində 9 kənd cəmiyyətinə 62 kənd, III polis sahəsində 4 kənd cəmiyyətinə 44 kənd, IV polis sahəsində 4 kənd cəmiyyətinə 76 kənd, ümumilikdə 24 kənd cəmiyyətinə 213 kənd daxil idi[171].

**Aleksandropol qəzası** bütün Şörəyel dairəsinin və Pəmbəyin cənub hissəsini əhatə etmişdi. Qəza qərbdən Osmanlı dövlətinə məxsus Qars dairəsi ilə, şərqdən Yelizavetpol quberniyasının Qazax qəzası ilə, cənub-şərqdən Yenibəyazid qəzası ilə, şimal-

---

[169] Свод статических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г., с.400-413.

[170] Памятная книжка Эриванской губернии на 1902, отдел III, с.18-33; Памятная книжка Эриванской губернии на 1906, отдел III, с.20-41; Кавказский календарь на 1910 год, отдел IV, с.458-459.

[171] Кавказский календарь на 1917 год, отдел IV, с.132-134.

dan Tifilis quberniyasının Axalsıx və Borçalı qəzaları ilə həmsərhəd olmuş, ərazisi 356771 desyatin, 3386,70 kv. verst, 3854,07 kv. km, qəzanın mərkəzi isə Aleksandropol (keçmiş Gümrü-E.Q.) şəhəri idi[172].

Aleksandropol qəzası da inzibati-ərazi bölgüsünə görə polis sahəsinə, onlar da kənd cəmiyyətllərinə və kəndlərə bölünmüşdü. **Aleksandropol qəzasına** (qəza rəisi Aleksandropol şəhərində yerləşmişdi) **Ağbulaq** (840,89 kv. verst, 87593 desyatin yaxud 956,94 kv.km), **Çızıxlar** (832,79 kv. verst, 86746 desyatin yaxud 947,69 kv.km), **Xorom** (815,50 kv. verst, 84948 desyatin yaxud 928,05 kv.km), **Böyük Qarakilsə** (897,52 kv. verst, 93491 desyatin yaxud 1021,39 kv.km) polis sahələri daxil idi[173]. 1886-cı il kameral təsvirində **Ağbulaq polis sahəsi** (sahə rəisi pristav Aleksandropol şəhərindən 22 verst aralıda yerləşən Ağbulaq kəndində yerləşmişdi) Cacur (7 kənd), Kaftarlı (9 kənd), Qaltaxçı (5 kənd), Böyük Kəpənək (5 kənd), Mirək (9 kənd), Hacı Xəlil (14 kənd), **Çızıxlar polis sahəsi** (sahə pristavı Aleksandropol şəhərində yerləşmişdi) Əlixan (6 kənd), Yasaul (9 kənd), Elli-Qarakilsə (9 kənd), Qızıl Qoç (12 kənd), Kiçik Qarakilsə (7 kənd), **Xorom polis sahəsi** (sahənin pristavı Aleksandropol şəhərindən 14 verst aralıda yerləşən Xorom kəndində yerləşmişdi) Qıpçaq (6 kənd), Molla Göyçə (6 kənd), Söyütlü (5 kənd), Dovşan Qışlaq (13 kənd), Xorom (8 kənd), **Böyük Qarakilsə polis sahəsi** (sahənin pristavı Böyük Qarakilsə kəndində yerləşmişdi) Hamamlı (3 kənd), Böyük Bəykənd (5 kənd), Bozkənd (1 kənd), Vartanav (3 kənd), Voskresenka (1 kənd), Böyük Qarakilsə (1 kənd), Qışlaq (1 kənd), Saral (10 kənd), Şişmədən (1 kənd), Yaqublu (3 kənd) kənd cəmiyyətlərindən ibarət olmuşdur[174].

---

[172] Памятная книжка Эриванской губернии на 1892, с.108; Кавказский календарь на 1904 год, отдел III, с.36-37; Кавказский календарь на 1908 год, стастический отдел, с.6; Кавказский календарь на 1910 год, отдел IV, с.460-461.

[173] Кавказский календарь на 1910 год, отдел IV, с.460-461.

[174] Свод статических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г., с.348-359.

1902-ci və 1906-cı illər məlumatında Aleksandropol qəzasına daxil olan **I polis sahəsinə** 7 kənd cəmiyyətində (Voskresenov 1, Bozkənd 1, Nikitin 1, Saralı 10, Böyük Qarakilsə 7 kənd, Hamamlı 6 kənd, Nalbənd 11 kənd) 37 kənd, **II polis sahəsində** 5 kənd cəmiyyətində (Cacur 7 kənd, Böyük Kəpənək 5 kənd, Kaftarlı 10 kənd, Hacı Xəlil 12 kənd, Mirək 11 kənd) 45 kənd, **III polis sahəsində** 5 kənd cəmiyyətində (Qızılqoç 12 kənd, Əlixan 6 kənd, Ortakilsə 8 kənd, Elli Qarakilsə 9 kənd, Kiçik Qarakilsə 8 kənd) 43 kənd, **IV polis sahəsində** 5 kənd cəmiyyətində (Dovşanqışlaq 16 kənd, Xorom 8 kənd, Artik 4 kənd, Söyüdlü 5 kənd, Mollagöyçəli 6 kənd) 39 kənd olduğu göstərilmişdir[175].

Lakin 1910-cu və 1917-ci illər məlumatında bir qədər fərqli rəqəmləri görmək olar. Hər iki statistik məlumatda kənd cəmiyyətlərinin və onlara daxil olan kəndlərin sayı belə idi: I polis sahəsində 5 kənd cəmiyyətində 37 kənd, 1917-ci il məlumatında 7 kənd cəmiyyətində 37 kənd, II polis sahəsində 5 kənd cəmiyyətində 46 kənd, III polis sahəsində 5 kənd cəmiyyətində 45 kənd, IV polis sahəsində 5 kənd cəmiyyətində 38 kənd olmuşdur. Ümumilikdə, XX əsrin əvvəllərinə olan məlumata görə, Aleksandropol qəzasında 22 kənd cəmiyyəti və onlara daxil olan 166 kənd qeydə alınmışdır[176].

Beləliklə, 1917-ci il məlumatına görə İrəvan quberniyasında 140 kənd cəmiyyəti və bu cəmiyyətlərə daxil olan 1252 kənd olmuşdur. Ayrı-ayrı illərdə qeydə alınmış göstərilən stastistik məlumatdan görmək olar ki, İrəvan qəzasına daxil olan kənd cəmiyyətlərinin və onlara daxil olan kəndlərin sayında gah azalma, gah da artım müşahidə olmuşdur. Məsələn, 1914-cü ilin məlumatında 111 kənd cəmiyyəti və 1287 kənd qeydə alınmışdır.

---

[175] Памятная книжка Эриванской губернии на 1902 г., с.84-99; Памятная книжка Эриванской губернии на 1906 г., с.102-119.

[176] Кавказский календарь на 1910 год, отдел IV, с.460-461; Кавказский календарь на 1917 год, с.125-126.

## 2.2. İrəvan quberniyasının idarəçilik sistemi

**İnzibati idarə orqanları**. İrəvan quberniyası yarandıqdan sonra hər birinin öz vəzifəsi və aparatı olan müxtəlif idarə orqanları təşkil olunmuşdur. İlk dövrlərdə quberniyada idarəçilik sistemi sadə idi. Quberniyaya həm hərbi, həm də mülki işlərə baxan qubernator başçılıq etmiş, onun yanında xüsusi tapşırıqları yerinə yetirən 2 böyük və 2 kiçik məmur dəstəsi fəaliyyət göstərmişdir. Qubernatorun başçılıq etdiyi quberniya idarəsinə vitse-qubernator, 2 məsləhətçi, 1 katib, 4 şöbə müdiri, 4 şöbə müdirinin köməkçisi, 1 qeyidiyyatçi, 1 tərcüməçi, 1 arxiv müdiri, 1 quberniya memarı və 1 quberniya yerölçəni və dəftərxana daxil idi. Qəza jandarm müfəttişi və İrəvan şəhər polis idarəsi də birbaça qubernatora tabe idi[177].

Hər bir qəzada qəza idarə heyəti fəaliyyət göstərmişdi. Qəzaları qəza rəisləri idarə edirdi. Onların hər birinin yanında 1 köməkçi, 1 katib, 2 katib köməkçisi, 1 tərcüməçi və dəftərxana vardı. Aleksandropol və Naxçıvan qəzalarında qəza idarə heyətinə əlavə olaraq qalaya baxan nəzarətçi, Yenibəyazid və Ordubad qəzalarında isə qəza rəisinə iki köməkçi əlavə edilmişdi. Qəza rəisləri qəzalarda polis rolunu oynamaqla bərabər, dövlət əmlakının qoruyucuları, eyni zamanda kənd əhalisinə nəzarət emək, onların müxtəlif problemlərini həll etmək qəza rəislərinin səlahiyyətində idi[178].

---

[177] Полное собрание законов Российской империи, т. XXIV, с.140; Военно-статическое обозрение Эриванской губернии на 1853 г., с.10; Кавказский календарь на 1852 г., с.567; Кавказский календарь на 1853 г., с.519-520; Qarayev E., İrəvan quberniyası: ərazisi, sərhədləri, inzibati-ərazi bölgüsü və idarəçilik sistemi, Bakı, Dövlət və din (ictimai fikir toplusu), 2022. №1 (72), s.90.

[178] Полное собрание законов Российской империи, т. XXIV, с.140; Военно-статическое обозрение Эриванской губернии на 1853 г., с.10; Кавказский календарь на 1852 г., с.568; Кавказский календарь на 1853 г., с.520.

Hər bir qəzaya daxil olan sahələri sahə rəisləri idarə edirdi. Köməkçi və tərcüməçidən ibarət sahə rəisləri də yerlərdə həm məhkəmə, həm də polis rolunu oynayırdılar. Kəndləri isə əvvəlki kimi, Azərbaycan türk kəndlərinin başçısı kəndxuda, kovxa, yüzbaşı, erməni kəndlərinin başçısı isə məlik idarə edirdi. Kənd başçıları 3 illiyə seçilməli idi. Lakin buna həmişə əməl edilmirdi. Hətta böyük kəndlərdə kənd böyüklərinə köməkçilər də təyin edilir, onları çavuş adlandırırdılar. Kəndin başçıları olan kəndxuda, kovxa və məliklər hər cür vergi və mükəlləfiyyətlərdən azad idilər və dövlət tərəfindən maliyyələşdirilirdilər. Onların köməkçisi çavuş isə yerli əhalinin hesabına dolanırdı. Elatlara varislik hüququna malik olan elat başçıları başçılıq edirdi. Onlarda bütün qanunları adət-ənənələr əvəz edirdi[179]. Bu idarə orqanları bir-biri ilə sıx bağlı idi.

İrəvan quberniyasına daxil olan şəhərləri idarə etmək üçün ayrıca idarə orqanları təşkil olunmuşdu. Quberniyada olan beş- İrəvan, Aleksandropol, Naxçıvan, Ordubad və Yenibəyazid şəhərlərini idarə etmək polis idarəsinə tapşırılmışdı. Lakin İrəvan qalasının işlərinə baxmaq üçün əlavə bir nəzarətçi də təyin olunmuşdu[180].

İrəvan quberniyasında vergilərə nəzarət etmək üçün qəza xəzinədarlığı yaradılmışdı. Xəzinədarlıq əsasən, İrəvan, Naxçıvan və Aleksandropol şəhərlərində yerləşmişdi. İrəvan şəhər xəzinədarlığı öz qəzasının vergilərindən və gəlirlərindən başqa Yenibəyazid, Ordubad qəzalarına da baxırdı[181].

İrəvan quberniyasında ayrıca tibbi sahə də yaradılmışdı. Quberniyada bir katibi olan bir baş həkim və ona biri İrəvan şəhərində və beşi qəzalarda fəaliyyət göstərən altı həkim dəstəsi tabe idi. Bu sahədə bir baytar həkimi də fəaliyyət göstərmişdi[182].

---

179 Полное собрание законов Российской империи, т. XXIV, с.140-141; Военно-статическое обозрение Эриванской губернии на 1853 г., с.11.
180 Полное собрание законов Российской империи, т. XXIV, с.141.
181 Военно-статическое обозрение Эриванской губернии на 1853 г., с.10.
182 Полное собрание законов Российской империи, т. XXIV, с.141.

İrəvan quberniyasının inzibati-ərazi bölgüsü formalaşdıqca onun idarəçilk sistemi də təkmilləşmişdi. XIX əsrin 70-ci illərinin ortalarından başlayaraq idarəçilik sistemi daha da mürəkkəbləşmiş, bir çox yeni idarə orqanları yaradılmışdı. Quberniyada idarəçilik sistemi 5 - quberniya idarəçiliyi, hüquq-mühafizə və məhkəmə, maliyyə, tibb və hərbi bölmədən ibarət olmuşdur. İlk dövrlərdə olduğu kimi, İrəvan quberniyasında inzibati idarənin başında həm hərbi, həm də mülki işlərə rəhbərlik edən qubernator durmuşdur. Onun yanında 1 müdir, 1 böyük və 1 kiçik köməkçisi olan dəftərxana, 1 tərcüməçi və xüsusi tapşırıqları yerinə yetirən 5 və bəzən də 6 məmur dəstəsi fəliyyət göstərmişdir[183].

İdarəçilkdə ikinci yerdə **quberniya idarəsi** dururdu. Bu idarəyə qubernatordan sonra ikinci şəxs olan vitse-qubernator başçılıq edirdi. Onun yanında 2 məsləhətçi, 1 ümumi idarənin katibi, 1 kargüzar, kargüzarın 2 köməkçisi, 1 mühasib, 2 arxiv işçisi, 1 tərcüməçi, 1 yerölçən, 1 tipoqrafiya nəzarətçisi, 1 quberniya tipoqrafiyasının korrektoru və 3 təsərrüfat müdiri fəaliyyət göstərirdi. Bundan əlavə, quberniya idarəçiliyinə bir neçə bölmə - 1 müdiri, 2 köməkçisi və 1 mühasibi olan **zemstvo bölməsi**, ümumi idarə dəftərxanası, 1 quberniya mühəndisindən, 1 quberniya arxitektorundan, 2 iş icraçısından və 2 ştatdankənar texnikdən ibarət **tikinti bölməsi**, 1 quberniya həkimindən, 2 onun köməkçisindən, 1 kargüzardan, 1 İrəvan şəhər həkimindən, 1 mamaçadan və hər bir qəzada fəaliyyət göstərən həkim və mamaça dəstələrindən ibarət **tibbi bölmə**, 1 quberniya baytar müfəttişindən, 1 onun köməkçisindən, qəzalarda, şəhər və kəndlərdə fəaliyyət göstərən **baytarlıq bölməsi**, qubernatorun sədrlik etdiyi, 11

---

[183] Кавказский календарь на 1871 г., отдел II, с.42-43; Кавказский календарь на 1879 г., отдел III, с.39; Кавказский календарь на 1885 г., отдел IV, с.55; Кавказский календарь на 1890 г., отдел II, с.138; Памятная книжка Эриванской губернии на 1892 г., с.131; Кавказский календарь на 1900 г., отдел III, с.198; Памятная книжка Эриванской губернии на 1902 г., с.49; Памятная книжка Эриванской губернии на 1914 г., с.17; Кавказский календарь на 1917 г., отдел V, с.291.

daimi və 14 həqiqi üzvündən ibarət 1864-cü ildən fəaliyyət göstərən **Statistik komitə** və mətbəə daxil idi[184].

**İnzibati-məhkəmə və hüquq mühafizə orqanları.** İrəvan quberniyasında idarəçilikdə üçüncü sahə **məhkəmə orqanları** idi. Bu sahəyə məhkəmə və prokrorluq daxil olmuş, onlar da şəhər, qəza və polis sahələrində fəaliyyət göstərmiş, hər bir sahə və müxtəlif kənd cəmiyyətləri ayrı-ayrı məhkəmə idarələrinə daxil olmuşdur. Qeyd etmək lazımdır ki, İrəvan bölgəsi çar Rusiyası tərəfindən işğal edildikdən sonra burada inzibati-ərazi və idarə orqanlarında köklü dəyişiklik aparılmaqla bərabər məhkəmə sistemində də dəyişiklik aparmışdır. 1833-cü il iyunun 23-də verilmiş qanuna əsasən şəhər məhkəmələri əvəzinə İrəvanda "Mülki vətəndaşlar və mübahisəli işlər üçün əyalət məhkəməsi" yaradıldı. Məhkəmə mülki, hərbi və şəriət olmaqla üç hissəyə bölünürdü. Mülki işlərə İrəvan şəhərində yaradılmış əyalət məhkəməsində baxılırdı. Məhkəmədə sədr, bir rus və iki yerli məmurdan ibarət iclasçılar iştirak edirdi. Məhkəmə üç mərhələdə keçirdi. Birinci mərhələdə mübahisəli məsələlər nəzərdən keçirilirdı, ikinci mərhələdə iddia əyalət rəisinin 500 rubldan yuxarı olmayan cərimməsi ilə əvəzlənirdi, üçüncü apellasiya mərhələsində Qafqazdakı rus qoşunlarının baş komandanına müraciət edilirdi. Hərbi məhkəmə (və yaxud səhra məhkəməsi) isə İrəvan komendantının sədrliyi ilə keçirilirdi[185].

---

[184] Кавказский календарь на 1879 г., отдел IV, с.39-40; Кавказский календарь на 1879 г., отдел III, с.39; Кавказский календарь на 1890 г., отдел II, с.138-140; Памятная книжка Эриванской губернии на 1892 г., с.132-133; Кавказский календарь на 1900 г., отдел III, с. 193-195; Памятная книжка Эриванской губернии на 1902 г., с.50-53; Памятная книжка Эриванской губернии на 1912 г., с.27-32; Памятная книжка Эриванской губернии на 1914 г., с.17-21; Кавказский календарь на 1910 год, отдел IV, с.192; Кавказский календарь на 1917 год, отдел IV, с.292-295.

[185] Полное собрание законов Российской империи, СПб, Печатано в Типографии II отделения собственной его императорского величества Канцелярии, 1834, т.8, с.137-138; Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.460; Qarayev E., Azərbaycanın İrəvan bölgəsinin tarixindən

1849-cu il iyunun 9-da çarın fərmanı ilə İrəvan quberniyası yaradıldıqdan sonra məhkəmə sistemində də dəyişiklik baş verdi. Əvvəllər məhkəməyə tabe olan polis ondan ayrıldı. Həm mülki, həm də cinayət işinə baxan məhkəmənin əsas tərkibi müəyyənləşdirildi. Bu 1 sədr, 2 məsləhətçi, 2 katib, zadəgan təbəqəsindən və yaxud tacirlərdən biri olmaqla 4 nəfər iclasçıdan, onların köməkçiləri olan 6 nəfərdən ibarət idi. Bundan əlavə, məhkəmə işlərində 1 protokolçu, 1 qeydçi, 1 tərcüməçi və 12 mirzə çalışmışdı[186].

XIX yüzilliyin 60-cı illərinin ortalarında Rusiya imperiyasında bir çox sahələrdə olduğu kimi məhkəmə islahatları da keçirilməyə başladı. 1864-cü il noyabrın 20-də çar II Aleksandrın fərmanı ilə Rusiyanın mərkəzi quberniyalarını əhatə edən məhkəmə islahatı keçirildi. Bu islahat Azərbaycana və onun tərkib hissəsi olan İrəvan quberniyasına şamil edilmədi. Lakin Rusiya hakimiyyət orqanları çox keçmədən Cənubi Qafqazda, o cümlədən Azərbaycanda da məhkəmə islahatı həyata keçirmək məcburiyyətində qaldı. Belə ki, canişin M.Vorontsov tərəfindən 1865-ci ildə yaradılmış xüsusi komissiyanın 1864-cü il 20 noyabr məhkəmə nizamnaməsinin qərarları əsasında hazırladığı və 1866-cı il noyabrın 22-də çar tərəfindən təsdiq olunmuş təklifləri əsasında "1864-cü il noyabrın 20-si tarixli məhkəmə nizamnamələrinin Zaqafqaziya diyarında tətbiqi haqqında" 1867-ci il 9 dekabr tarixli qanun verildi[187]. Həmin qanuna görə, Tiflis Məhkəmə palatası yaradılırdı, onun ümumi heyəti əsasında Kutaisi, İrəvan, Yelizavetpol və Bakı quberniyalarında dairə məhkəmələri, dairə məhkəmələrinə tabe olan barışdırıcı idarə və onun heyəti əsasında isə barışdırıcı şöbə yaradılmalı idi. Quberniyalarda yaradılacaq məh-

---

(XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında), s.282.

186 Полное собрание законов Российской империи, СПб, Печатано в Типографии II отделения собственной его императорского величества Канцелярии, 1850, т.24, с.140; Qarayev E., Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında), s.283-284.

187 Полное собрание законов Российской империи, СПб, Печатано в Типографии II отделения собственной его императорского величества Канцелярии, 1871, т.XLII, отделение 2-е, №45260, с.386-387, с.795-797.

kəmədə andlılar məhkəməsi tətbiq edilmədi, istintaq və barışıq sahələrinin əvəzinə barışıq hakimi, onun köməkçiləri və digər məmurları olan barışıq şöbələri yaradılırdı[188].

Yeni məhkəmə idarələri İrəvan quberniyasında 1868-ci il yanvarın 1-dən fəaliyyət göstərməyə başladı[189]. Quberniyada cinayət və mülki işlərə baxan məhkəmə İrəvan dairə məhkəməsindən və barışdırıcı şöbədən ibarət iki sahəyə bölünmüşdü. Birinci sahə olan **İrəvan dairə məhkəməsi** özü də mülki və cinayət işlərinə baxan iki bölmədən ibarət olmuş, məhkəmənin tərkibi sədrdən, 10 yoldaşlıq üzvündən (bu üzvlərdən 4-ü mülki vətəndaş, 6-ı isə cinayət axtarışından) ibarət idi. Məhkəmənin sədri cinayət bölməsinə, mülki məhkəmənin sədri isə mülki bölməyə baxırdı. Bundan əlavə, məhkəməyə 2 katib, 9 katib köməkçisi, 2 məhkəmə pristavı, 1 arxiv müdiri, 4 tərcüməçi, xüsusi əhəmiyyətli işlər üzrə 2 müstəntiq, baş notarius və hüquqi vəzifəsi olan 3 baş namizəd daxil olmuşdur[190].

İrəvan dairə məhkəməsi ayrı-ayrı istintaq şöbələrinə bölünmüşdü. Hər istintaq şöbəsi müəyyən olunmuş şəhər və kənd cəmiyyətlərinin şikayətlərinə baxırdı. Aşağıdakı cədvəldə əyani olaraq İrəvan dairə məhkəməsinə tabe olan istintaq şöbələri və hər bir istintaq şöbəsinə tabe olan rayonlar belə göstərilmişdir[191]:

---

[188] Полное собрание законов Российской империи, 1871, т.XLII, отделение 2-е, с.386.

[189] Полное собрание законов Российской империи, 1871, т.XLII, отделение 2-е, с.386; Мильман А., Политический строй Азербайджана в XIX-начале XX вв, Баку, Азернешр, 1966, с.183-186; Azərbaycan tarixi, c.IV, s.188-189.

[190] Памятная книжка Эриванской губернии на 1892 г., с.150-151; Памятная книжка Эриванской губернии на 1902 г., отдел II, с.9-10; Памятная книжка Эриванской губернии на 1906 г., отдел II, с.25; Памятная книжка Эриванской губернии на 1914 г., отдел II, с.20.

[191] Памятная книжка Эриванской губернии на 1906 г., отдел II, с.27-29.

| İstintaq şöbələrinin adı | İstintaq şöbələrinə daxil olan rayonlar |
|---|---|
| 1. İrəvan şəhərində xüsusi işlər üzrə məhkəmə müstəntiqliyi | {İrəvan istintaq dairəsi<br>{İrəvan istintaq dairəsi |
| 2. İrəvan şəhərində xüsusi işlər üzrə məhkəmə müstəntiqliyi | İrəvan şəhəri |
| İrəvan şəhər istintaq şöbəsi | Başgərni, İmanşalin, Qoylasar, Uğurbəyli və Divin-Aysor kənd cəmiyyətləri |
| | Kənəkir, Aramus, Şirabad və Norakovit kənd cəmiyyətləri |
| İrəvan qəzasının I istintaq şöbəsi | İrəvan qəzasının IV polis sahəsi (6 kənd cəmiyyəti daxildir)<br>Kəmərli kənd cəmiyyəti |
| İrəvan qəzasının II istintaq şöbəsi | Üçmüəzzin qəzasının bütün I polis sahəsi (5 kənd cəmiyyəti), III polis sahəsindən Karxun, IV polis sahəsindən Qoş kənd cəmiyyətləri |
| İrəvan qəzasının III istintaq şöbəsi<br>Kəmərli istintaq (istintaq-barışdırıcı) şöbəsi | Üçmüəzzin qəzasının III polis sahəsindən olan Karxun və IV sahəsinə daxil olan Qoş kənd cəmiyyətlərindən və Alagöz elatlarından başqa III və IV polis sahələri |
| Üçmüəzzin qəzasının I istintaq şöbəsi | Üçmüəzzin qəzasının 2-ci polis sahəsi (5 kənd cəmiyyəti və IV polis sahəsinə tabe olan Alagöz elatları |
| Üçmüəzzin qəzasının II istintaq şöbəsi | Sürməli qəzasının bütün 2-ci polis sahəsi, I polis sahəsinin İğdır, Evcilər və Əliqoçaq kənd cəmiyyətləri |
| Üçmüəzzin qəzasının III istintaq şöbəsi | Sürməli qəzasının 3-cü polis sahəsinə tabe olan kənd cə- |

| | |
|---|---|
| Sürməli istintaq şöbəsi | miyyətləri, I polis sahəsindən Yaycı kənd cəmiyyəti Zeyvə kənd cəmiyyəti |
| Qulp istintaq şöbəsi | Şərur-Dərələyəz qəzasının 2-ci polis sahəsi |
| Başnoraşen istintaq şöbəsi | Zeyvə kənd cəmiyyətindən başqa Şərur-Dərələyəz qəzası-nın bütün I polis sahəsi |
| Dərələyəz istintaq (istintaq-barışdırıcı) şöbəsi | |
| Şərur istintaq şöbəsi | Naxçıvan şəhəri və Naxçıvan qəzasının I, II, III polis sahələri |
| Naxçıvan istintaq şöbəsi | Ordubad şəhəri Və Naxçıvan qəzasının IV polis sahəsi |
| Ordubad istintaq (istintaq-barışdırıcı) şöbəsi | Yenibəyazid şəhəri, Yenibəyazid qəzasının II və III polis sahələri |
| Yenibəyazid istintaq şöbəsi | Yenibəyazid qəzasının 1-ci polis sahəsi |
| Dərəçiçək istintaq (istintaq-barışdırıcı) şöbəsi | Yenibəyazid qəzasının IV polis sahəsi |
| Basarkeçər istintaq (istintaq-barışdırıcı) şöbəsi | Aleksandropol qəzasının IV polis sahəsi, II polis sahəsindən Mirək, III polis sahəsindən Kiçik Qarakilsə kənd cə-miyyətlləri |
| Aleksandropol qəzasının I istintaq şöbəsi | |
| Aleksandropol qəzasının II istintaq şöbəsi | Mirək (2-ci p.m.) və Kiçik Qarakilsə (3-cü p.m.) kənd cəmiyyətlərindən başqa Aleksandropol qəzasının II və III polis sahələri |
| Pəmbək istintaq (istintaq-barışdırıcı) şöbəsi | Aleksandropol qəzasının bütün I polis sahəsi |

Qəzaları əhatə edən barışdırıcı şöbələrin tərkibində barışdı-rıcı hakim başda olmaqla, xüsusi məhkəmə sahiblərinin yaradıl-masına icazə verilmişdi. Barışdırıcı hakimlər və onların kömək-

çiləri məhkəmə müstəntiqlərinin də vəzifəsini yerinə yetirirdilər. İrəvan quberniyasında məhkəmənin barışdırıcı idarəsi 1 barışdırıcı hakimdən, 2 köməkçidən, 1 katibdən və 2 məhkəmə pristavından ibarət idi. Onun şöbələri isə hər şəhər, qəza və kəndlərdə fəaliyyət göstərmiş, onun tərkibi nisbətən sadə-bir neçə şəxsdən ibarət olmuşdur. Qanuna görə, barışdırıcı şöbələr yaradılarkən İrəvan quberniyasında İrəvan, Naxçıvan, Yenibəyazid, Aleksandropol və Üçmüəzzin qəzalarında fəaliyyət göstərmişdir. Bundan əlavə, qanunla İrəvan şəhərinin özündə 1 barışdırıcı hakimdən, 1 köməkçidən, 1 katibdən, 1 məhkəmə pristavından və 1 tərcüməçidən ibarət barışdırıcı şöbənin fəaliyyətinə icazə verilmişdi[192].

Sonralar barışdırıcı idarənin tərkibi daha da genişlənmişdir. XIX əsrin 90-cı illərin əvvəllərindən başlayaraq barışdırıcı idarənin və ona tabe olan barışdırıcı şöbələrin tərkibi, onların yerləşdiyi yerlər mənbələrdə belə göstərilmişdir: 1) İrəvan şəhər barışdırıcı şöbəsi, tərkibi barışdırıcı məhkəmədən, köməkçidən, katibdən və iki məhkəmə pristavından ibarət idi. Şöbə İrəvan şəhərində yerləşmişdi; 2) İrəvan qəza barışdırıcı şöbəsi, tərkibi barışdırıcı məhkəmədən, 3 köməkçidən, katib və məhkəmə pristavından ibarət idi. Bu şöbə də İrəvan şəhərində yerləşmişdi; 3) Kəmərli istintaq-barışdırıcı şöbə, tərkibi barışdırıcı məhkəmədən və məhkəmə pristavından ibarət idi. Şöbə Kəmərli kəndində yerləşmişdi; 4) Naxçıvan barışdırıcı şöbəsi, tərkibi barışdırıcı məhkəmədən, köməkçidən, katib və məhkəmə pristavından ibarət idi. Şöbə Naxçıvan şəhərində yerləşmişdi; 5) Sürməli barışdırıcı şöbəsi, tərkibi barışdırıcı məhkəmədən, köməkçidən və məhkəmə pristavından ibarət idi. Şöbə İğdır kəndində yerləşmişdi; 6) Ordubad istintaq-barişdırıcı şöbəsi, tərkibi məntəqənin müdirindən (bu barışdırıcı məhkəmənin köməkçisi idi) və məhkəmə pristavından ibarət idi. Bu Ordubad şəhərində yerləşmişdi; 7) Şərur barışdırıcı şöbəsi, tərkibi barışdırıcı məhkəmədən, köməkçidən və məhkəmə pristavından ibarət idi. Şöbə Başnoraşen

---

[192] Полное собрание законов Российской империи, СПб, 1871. т.XLII, отделение 2-е, №45260, с.795-797.

kəndində yerləşmişdi; 8) Dərələyəz məhkəmə-barışdırıcı şöbəsi, tərkibi məntəqənin müdirindən və məhkəmə pristavından ibarət idi. Şöbə Keşişkənd kəndində yerləşmişdi; 9) Basarkeçər məhkəmə-barışdırıcı şöbəsi, tərkibi məntəqənin müdirindən və məhkəmə pristavından ibarət idi. Şöbə Keşişkənd kəndində yerləşmişdi; 10) Dərəçiçək məhkəmə-barışdırıcı şöbəsi, tərkibi məntəqənin müdirindən (barışdırıcı məhkəmənin köməkçisi) və məhkəmə pristavından ibarət idi. Şöbə Aşağı Axtı kəndində yerləşmişdi; 11) Yenibəyazid barışdırıcı şöbəsi, tərkibi barışdırıcı məhkəmədən, köməkçidən, katib və məhkəmə pristavından ibarət idi. Şöbə Yenibəyazid şəhərində yerləşmişdi; 12) Üçmüəzzin barışdırıcı şöbəsi, tərkibi barışdırıcı məhkəmədən, üç köməkçidən, katib və məhkəmə pristavından ibarət idi. Şöbə Vaqarşapat kəndində yerləşmişdi; 13) Aleksandropol barışdırıcı şöbəsi, tərkibi barışdırıcı məhkəmədən, iki köməkçidən, katib və məhkəmə pristavından ibarət idi. Şöbə Aleksandropol şəhərində yerləşmişdi; 14) Pəmbək məhkəmə-barışdırıcı şöbəsi, tərkibi şöbə müdirindən (barışdırıcı məhkəmənin köməkçisi) və məhkəmə pristavından ibarət idi. Şöbə Böyük Qarakilsə kəndində yerləşmişdi[193].

Məhkəmə işləri təkbaşına barışıq hakimi tərəfindən həll edilirdi. Məhkəmədə çıxarılan hökmlərə münasibət müxtəlif idi. Belə ki, üç günə qədər həbs cəzası və 100 manatadək cərimələr haqqındakı hökmlər istisna olmaqla, qalan hökm və qərarlardan dairə məhkəmələrinə yenidən şikayət etmək olardı.

İrəvan quberniyasında məhkəmə sistemində olduğu kimi prokurorluq da şəhər, qəza və polis sahələrində fəaliyyət göstərmiş, hər bir polis sahəsinə qəzalar üzrə yoldaşlıq prokurorluğu daxil olmuşdur. Prokurorluq şöbələrinin adları qəza adları ilə eyni idi. Aşağıdakı cədvəldə bunu əyani görmək mümkündür[194]:

---

[193] Памятная книжка Эриванской губернии на 1892 г., с.150-151; Памятная книжка Эриванской губернии на 1902 г., отдел II, с.9-10; Памятная книжка Эриванской губернии на 1906 г., отдел II, с.25-26; Памятная книжка Эриванской губернии на 1914 г., отдел II, с.20-21.

[194] Памятная книжка Эриванской губернии на 1906 г., отдел II, с.30; Памятная книжка Эриванской губернии на 1914 г., отдел II, с.25.

| Prokurorluq məntəqəsinin adı | Yoldaşlıq prokurorluğunun tərkibinə daxil olan istintaq məntəqəsi |
|---|---|
| İrəvan | İrəvan şəhəri, İrəvan qəzasının I, II və III sahələri |
| Naxçıvan-Şərur-Dərələyəz | Şərur-Dərələyəz qəzasında Şərur, Baçnoraşen, Dərələyəz, Naxçıvan qəzasında Naxşıvan və Ordubad şəhərləri |
| Sürməli | Sürməli qəzasında Sürməli və Qulp əraziləri |
| Yenibəyazid | Yenibəyazid qəzasında Yenibəyazid, Basarkeçər və Dərəçiçək əraziləri |
| Aleksandropol | Aleksandropol qəzasının I və II polis sahələri və Pəmbək sahəsi |
| Üçmüəzzin | Üçmüəzzin qəzasının I, II və III polis sahəsi |

İrəvan quberniyasında hüquqi orqanlardan biri olan kəndli məsələləri üzrə idarə 1870-ci il mayın 14-də Cənubi Qafqazda keçirilən kəndli islahatından sonra kəndlilərlə mülkədarlar və ayrı-ayrı kəndlər arasında torpaq mübahisələrini qaydaya salmaq üçün fəaliyyətə başlamış və bu orqanın baş idarəsi olmaqla bərabər, qəzalarda barışdırıcı münsif şöbələri yaradılmışdır. Quberniya üzrə kəndli məsələləri üzrə baş idarənin tərkibi belə idi: Sədr qubernator, 4, 5 və yaxud 8 üzv (əhalinin sayına görə tərkib dəyişirdi-E.Q), 1 katib, 1 tərcüməçi, 2 polis və 1 notarius[195].

[195] Кавказский календарь на 1879 г., отдел III, с.42; Кавказский календарь на 1885 г., отдел IV, с.56; Памятная книжка Эриванской губернии на 1902 г., с.53-54; Памятная книжка Эриванской губернии на 1912 г., с.33; Памятная книжка Эриванской губернии на 1914 г., с.23; Кавказский календарь на 1917 год, отдел IV, с.293.

İrəvan quberniyasında kəndli məsələləri üzrə idarənin tərkibində fəaliyyət göstərən barışdırıcı münsif şöbələri hər qəzada üç və yaxud dörd bölmədən ibarət olmuş və hər bölməyə müxtəlif kənd cəmiyyətləri daxil olmuşdur. Hər bölmə isə 1 sədr və 1 tərcüməçidən ibarət idi. Qəzalar üzrə barışdırıcı münsif şöbəsinə daxil olan bölmələr bunlar idi: 1. **İrəvan qəzasında barışdırıcı münsif şöbəsinə** daxil olan bölmə və kənd cəmiyyətləri bunlardır: 1. Birinci bölmənin inzibati mərkəzi İrəvan şəhərində yerləşirdi və bu bölmə Kənəkir, Aramuz və Başgərni kənd cəmiyyətlərinin şikayətlərinə baxırdı; 2. İkinci bölmənin inzibati mərkəzi Kəmərli kəndində yerləşirdi. Bu bölmə Şirabat, Norakovit, İmanşalin, Qoylasar, Uğurbəyli, Divin Aysor və Kəmərli kənd cəmiyyətlərinin şikayətlərinə baxırdı; 3. Üçüncü bölmənin inzibati mərkəzi Dəvəli kəndində yerləşirdi və bu bölmə Sədərək, Vediçay, Qaraxaç, Ərmik, Dəvəli və Burukin kənd cəmiyyətlərinin şikayətlərinə baxırdı; 2. **Naxçıvan qəzasında barışdırıcı münsif şöbəsinə** daxil olan bölmə və kənd cəmiyyətləri bunlardır: 1. Birinci bölmənin inzibati mərkəzi Naxçıvan şəhərində yerləşirdi, bu bölmə Tunbul, Şıxmahmud və Qıvraq kənd cəmiyyətlərinin şikayətlərinə baxırdı; 2. İkinci bölmənin də inzibati mərkəzi Naxçıvan şəhərində yerləşirdi və həmin bölmə Qarababa, Düyün Almalı, Çağrı, Karmalinovka, Abrakunis, Qazançı və Nehrəm kənd cəmiyyətlərinin şikayətlərinə baxırdı; 3. Üçüncü bölmənin inzibati idarəsi isə Yuxarı Əylis kəndində yerləşirdi, bölmə Vənənd, Çinanab, Yuxarı Əylis və Yuxarı Əzin kənd cəmiyyətlərinin şikayətinə baxırdı. 1914-cü il və 1917-ci illər məlumatında Naxçıvan qəzasında barışdırıcı münsif şöbəsi 4 bölmədən ibarət olmuşdur; 3. **Şərur-Dərələyəz qəzasında barışdırıcı münsif şöbəsinə** daxil olan bölmə və kənd cəmiyyətləri aşağıdakılardır: 1. Birinci bölmənin inzibati mərkəzi Başnoraşen kəndində yerləşirdi, bölmə Zeyvə, Yenicin, Ələkli və Pusian kənd cəmiyyətlərinin şikayətinə baxırdı; 2. İkinci bölmənin inzibati mərkəzi də Başnoraşen kəndində yerləşirdi, bölmə Qarabürc, Qozlucin və Yaycı kənd cəmiyyətlərinin şikayətinə baxırdı; 3. Üçüncü bölmənin inzibati mərkəzi Keşişkənd kəndində yerləşirdi, bölmə Martiros,

Keşişkənd, Gündöyməz və Alagöz kənd cəmiyyətlərinin şikayətinə baxırdı; 4. **Sürməli qəzasında barışdırıcı münsif şöbəsinə** daxil olan bölmə və kənd cəmiyyətləri aşağıdakılardır: 1. Birinci bölmənin inzibati mərkəzi İğdır kəndində yerləşirdi, bölmə İğdır, Yaycı, Evcilər və Əliqoçaq kənd cəmiyyətlərinin şikayətlərinə baxırdı; 2. İkinci bölmənin inzibati mərkəzi Daşburun kəndində yerləşirdi, bölmə Aralıq Başkənd, Daşburun və Radikin kənd cəmiyyətlərinin şikayətlərinə baxırdı; 3. Üçüncü bölmənin inzibati mərkəzi Qulp kəndində yerləşirdi, bölmə Qulp, Güllicə, Oğrucin, Radiki Sinak, Çallı-Sağğallı və Yezidi Qasanlı kənd cəmiyyətlərinin şikayətlərinə baxırdı; 5. **Yenibəyazid qəzasında barışdırıcı münsif şöbəsinə** daxil olan bölmə və kənd cəmiyyətləri aşağıdakılardır: 1. Birinci bölmənin inzibati mərkəzi Aşağı Axtı kəndində yerləşirdi, bölmə ruslardan ibarət Aşağı Axtı, ermənilərdən ibarət Aşağı Axtı, Randamal, Tayçarıx, Arzakənd və Kankan kənd cəmiyyətlərinin şikayətinə baxırdı; 2. İkinci bölmənin inzibati mərkəzi Yenibəyazid şəhərində yerləşirdi, bölmə Yelanovka, Çırçır, Ağzıbir, Göl, Dəliqardaş və Qaranlıq kənd cəmiyyətlərinin şikayətlərinə baxırdı; 3. Üçüncü bölmənin inzibati mərkəzi Basarkeçər kəndində yerləşirdi, bölmə Gözəldərə, Basarkeçər, Məzrin və Cil kənd cəmiyyətlərinin şikayətlərinə baxırdı. 1917-ci il məlumatında Yenibəyazid qəzasında barışdırıcı münsif şöbəsinin 2 bölməsi fəaliyyət göstərmişdir; 6. **Aleksandropol qəzasında barışdırıcı münsif şöbəsinə** daxil olan bölmə və kənd cəmiyyətləri aşağıdakılardır: 1. Birinci bölmənin inzibati mərkəzi Böyük Qarakilsə kəndində yerləşirdi, şöbə Voskresenovka, Bozkənd, Nikitin, Saral, Böyük Qarakilsə, Hamamlı və Nalbəndi kənd cəmiyyətlərinin şikayətlərinə baxırdı; 2. İkinci bölmənin inzibati mərkəzi Aleksandropol şəhərində yerləşirdi, bölmə Cacur, Böyük Qarakilsə, Kaftarlı, Hacı Xəlil, Mirək, Qızılqoç, Əlixan, Orta kilsə, Elli Qarakilsə və Kiçik Qarakilsə kənd cəmiyyətlərinin şikayətlərinə baxırdı. 1917-ci il məlumatında qəzada həmin şöbə 2 bölmədən ibarət olmuşdur; 3. Üçüncü bölmənin inzibati mərkəzi Yəqin (Aqin) kəndində yerləşirdi, bölmə Dovşanqışlaq, Xorom, Artik, Söyütlü və Mollagöyçə kənd cəmiyyətlərinin şika-

yətlərinə baxırdı; 7. **Üçmüəzzin qəzasında barışdırıcı münsif şöbələrinə** daxil olan bölmə və kənd cəmiyyətləri aşağıdakılardır: 1. Birinci bölmənin inzibati mərkəzi Vaqarşapat kəndində yerləşirdi, bölmə Vaqarşapat, Aytağ, Qızıl Teymur, Çobanqıran, Xatunarx, Sərdarabad, Qurduqlu, Şəhriyar və Qarxun kənd cəmiyyətlərinin şikayətlərinə baxırdı; 2. İkinci bölmənin inzibati mərkəzi Əştərək kəndində yerləşirdi, bölmə Əştərək, Yevqard, Qarakilsə, Başabaran və Parpi kənd cəmiyyətlərinin şikayətlərinə baxırdı; 3. Üçüncü bölmənin inzibati mərkəzi Talın kəndində yerləşirdi, bölmə Talın, Buğurtlu, Aşağı Ağcaqışlaq və Qoş kənd cəmiyyətlərinin şikayətlərinə baxırdı. 1917-ci ilin məlumatında Üçmüəzzin qəzasında barışdırıcı münsif şöbəsinin 4 bölməsi olmuşdur[196].

**Şəhər idarəçiliyi.** İlk dövrlərdən fərqli olaraq şəhər idarəçiliyi daha da təkmilləşmiş, idarəçilkdə mürəkkəb bir qayda-qanun mövcud olmuşdur. Mərkəzi şəhərləri idarə etmək üçün polis, şəhər ictimai idarəsi və şəhər duması fəaliyyət göstərmişdir. **Polis idarəsi** polismeysterdən, 3 pristavdan, 4 köməkçidən, 1 həbsxana nəzarətçisindən, 1 bazar nəzarətçisindən, 1 kargüzardan, 1 kargüzar köməkçisindən, 1 tərcüməçidən, 1 qeydçidən, 1 şəhər həkimindən, 1 mamaçadan və 1 baytardan ibarət idi[197].

XIX yüzilliyin 70-ci illərinin sonlarından İrəvan şəhərinin idarə olunmasında duma fəsliyyətə başladı. İrəvan şəhərində duma 1879-cu ildə, 1886-cı ildə isə onun icraedici orqanı olan "İrəvan şəhər cəmiyyəti idarəsi" fəaliyyətə başlamışdı. Bu idarə orqanları haqqında "İrəvan şəhəri" bölməsində ətraflı bəhs ediləcəkdir.

---

196 Кавказский календарь на 1890 г., отдел II, с.140; Памятная книжка Эриванской губернии на 1892 г., с.131; Кавказский календарь на 1900 г., отдел III, с.196; Памятная книжка Эриванской губернии на 1902 г., с.4-6; Памятная книжка Эриванской губернии на 1906 г., с.4-6; Памятная книжка Эриванской губернии на 1912 г., с.33-35; Памятная книжка Эриванской губернии на 1914 г., с.4-6; Кавказский календарь на 1917 г., отдел V, с.293-295.

197 Кавказский календарь на 1871 г., отдел II, с.43; Кавказский календарь на 1879 г., отдел III, с.40; Кавказский календарь на 1885 г., отдел IV, с.58.

İrəvan quberniyasında idarəçilk sistemində **şəhər məsələləri üzrə idarə** də mühüm yeri tutmuşdu. Bu idarənin sədri qubernator, 5 və 6 üzvdən və 1 kargüzardan ibarət olmuşdur[198].

İrəvan şəhəri üzrə **polis idarəsi** də idarəçiliyə daxil olan bölmələrdən biri hesab olunurdu. İrəvan şəhər Polis idarəsi iki pristavlığa bölünmüş, onun tərkibi belə olmuşdur: 1 polismeyster, 1 onun köməkçisi, 1 kargüzar, 3 kargüzar köməkçisi, 1 qeydiyyatçı (o həm də arxivə baxan idi), 1 tərcüməçi, 1 həbsxana nəzarətçisi, 1 və yaxud 2 onun köməkçisi, 1 şəhərin birinci hissəsinin şəhər polis pristavlığı, 1 şəhərin ikinci hissəsinin şəhər polis pristavlığı, 4 şəhər pristavlarının köməkçiləri, 1 axtarış bölməsinin rəisi[199].

İrəvan quberniyasında şəhərlərin idarəçiliyində **şəhər cəmiyyətləri idarəsi** də mühüm yeri tuturdu. Bu şəhər cəmiyyətləri quberniyanın 5 – İrəvan, Naxçıvan, Ordubad, Yenibəyazid və Aleksandropol şəhərlərində təşkil olunmuşdu. **"İrəvan şəhər cəmiyyəti"** bunların içərisində ən tez yaranmış idarə orqanı idi. Bu cəmiyyət haqqında aşağıda bəhs edildiyindən, yalnız onun tərkibinə nəzər yetirək. İrəvan şəhər cəmiyyəti idarəsi 1 şəhər başçısından, 2 və ya 3 idarənin üzvündən, 1 katibdən, 1 şəhər texnikindən, 1 kassirdən, 1 kassir köməkçisindən, 3 kargüzardan, 2 icraedici məmurdan, 1 bazar nəzarətçisindən, 1 şəhər sanitariyasının müdirindən, 1 tərcüməçidən, şəhər dumasının 52 üzvündən (qlasnılardan) ibarət idi[200]. Digər şəhərlərdə yaranan şəhər cə-

---

[198] Памятная книжка Эриванской губернии на 1902 г., с.53; Памятная книжка Эриванской губернии на 1912 г., с.32; Памятная книжка Эриванской губернии на 1914 г., с.23; Кавказский календарь на 1917 г., отдел IV, с.295.

[199] Кавказский календарь на 1890 г., отдел II, с.142; Памятная книжка Эриванской губернии на 1902 г., с.58; Памятная книжка Эриванской губернии на 1914 г., с.33-34; Кавказский календарь на 1917 г., отдел IV, с.295.

[200] Кавказский календарь на 1890 г., отдел II, с.142-143; Памятная книжка Эриванской губернии на 1892 г., с.143; Памятная книжка Эриванской губернии на 1902 г., с.58-59; Памятная книжка Эриванской губернии на 1914 г., с.34-35; Кавказский календарь на 1917 г., отдел IV, с.303-306.

miyyətlərinin tərkibi nisbətən sadə idi. Məsələn, Naxçıvan şəhər cəmiyyəti idarəsinin tərkibinə 1 şəhər ağsaqqalı, 10 vəkil, Ordubad şəhər cəmiyyətinə 1 ağsaqqal, 12 vəkil, Yenibəyazid şəhər cəmiyyətinə 2 ağsaqqal, 8 vəkil, Aleksandropol şəhər cəmiyyətinə 1 şəhər başçısı, 2 idarənin üzvü, 1 katib, 1 buxalter, 1 kassir, 4 kargüzar, 1 arxiv işçisi (o həm də qeydiyyatçı idi), 1 şəhər hüquq məsləhətçisi, 1 icraedici məmur, 1 onun köməkçisi, 1 bazar nəzarətçisi, 1 şəhər arxitektoru, 2 komissar, 1 şəhər evləri üzrə müdir və şəhər dumasının 42 üzvü daxil idi[201].

İrəvan quberniyasında inzibati idarəçilikdə üçüncü sahə **Torpaq və Dövlət Əmlakı idarəsi** idi. Bu idarəyə sonradan Qars vilayəti də daxil olmuşdu. İdarə dövlət əmlakının, xəzinə torpaqlarının, töycü işlərinin və hətta meşələrin qorunmasına cavabdeh idi. Dövlət Əmlakı idarəsinin tərkibi belə idi: 1 idarə müdiri, 1 xəzinənin maraqları ilə bağlı məhkəmə işi üzrə 1 böyük və 1 kiçik müvəkkil, 1 torpaqölçən, 1 onun köməkçisi, 1 katib, 1 katib köməkçisi (o həm də mühasib idi), 1 kargüzar, 1 İrəvan quberniyasında meşə üzrə baş müfəttiş, 1 meşə müfəttişinə namizəd, 1 Qars vilayəti üzrə müfəttiş; İrəvan quberniyası üzrə meşəbəyi: 1 Aleksandropol qəzası üzrə 1-ci dərəcəli meşəbəyi (Böyük Qarakilsə kəndində yerləşirdi), 1 Dərəçiçək üzrə meşəbəyi (Yenibəyazid qəzasının Axtı kəndində yerləşirdi), 1 İrəvan qəzası üzrə 2 dərəcəli meşəbəyi (İrəvan şəhərində yerləşirdi), 1 Naxçıvan qəzası üzrə 3-cü dərəcəli meşəbəyi (Naxçıvan şəhərində yerləşirdi). Xəzinə torpaqları və töycü məsələləri üzrə nəzarətçilər böyük və kiçik nəzarətçilərə bölünmüşdü. Həmin nəzarətçilər bunlar idi: 1 III rayon üzrə (Naxçıvan şəhərində yerləşirdi), 1 IV rayon üzrə vakansiya (İrəvan şəhərində yerləşirdi) böyük nəzarətçilər; 1 birinci rayon üzrə kiçik nəzarətçi (İrəvan şəhərində yerləşirdi), 1 ikinci rayon üzrə kiçik nəzarətçi (Yenibəyazid şəhərində yerlə-

[201]Памятная книжка Эриванской губернии на 1892 г., с.144-145; Памятная книжка Эриванской губернии на 1902 г., с.58-61; Памятная книжка Эриванской губернии на 1914 г., с.34-37; Кавказский календарь на 1917 г., отдел IV, с.305-306.

şirdi), 1 beşinci rayon üzrə kiçik nəzarətçi (Sürməli qəzasının İğdır kəndində yerləşirdi), 1 altıncı rayon üzrə kiçik nəzarətçi (Aleksandropol şəhərində yerləşirdi); Qars vilayəti üzrə meşəbəyi: 1 Göl meşəbəyi (Ərdahanda yerləşirdi), 1 Soğanlıq meşəbəyi (Sarıqamışda yerləşirdi), 1 Sarıqamış meşə müfəttişliyinin müdiri (Sarıqamışda yerləşirdi), 1 Ərdəqan üzrə meşəbəyi (Ərdəqanda yerləşirdi), Oltin üzrə meşəbəyi (Oltində yerləşirdi), 1 Posxov üzrə meşəbəyi (Diqur kəndində yerləşirdi), Arsenyanko-Boyalinski üzrə meşəbəyi (Sarıqamışda yerləşirdi), 1 Xorovano-Panjuret üzrə meşəbəyi (Oltıda yerləşirdi)[202].

**Maliyyə idarəçiliyi**. İrəvan quberniyasında idarəçilik sistemində dördüncü mühüm bölmələrdən biri də **maliyyə** bölməsi idi. Bu bölməyə xəzinədarlıq, aksiz vergisi və bank sistemi daxil idi. Yuxarıda göstərildiyi kimi, İrəvan quberniyasında vergilərə nəzarət etmək üçün qəza xəzinədarlığı yaradılmış, xəzinədarlıq əsasən, İrəvan, Naxçıvan və Aleksandropol şəhərlərində yerləşmişdi. Lakin kapitalist münasibətləri daha da inkişaf etdikdən sonra vergi sistemində də böyük dəyişikliklər baş verdi. İrəvan quberniyasında maliyyə bölməsi **İrəvan Xəzinə Palatasının** sərəncamına keçmişdi. 1898-ci il mayın 1-də İrəvan Dövlət Palatası açıldıqdan sonra İrəvan Xəzinə Palatasının özü üç şöbəyə bölünmüş, palata 1 sədrdən və hər şöbəyə başçılıq edən 3 rəisdən, 1 katibdən, 2 xüsusi tapşırıqları yerinə yetirən məmurdan, 1 baş mühasibdən, 1 baş şöbə müdirindən, 7 müdirdən, 4 və yaxud 6 mühasib köməkçisindən, 9 aşağı maaşlı mühasib köməkçisindən, 1 arxiv işçisindən, 1 jurnal işçisindən, 1 yüksək maaşlı şöbə müdiri köməkçisindən, 2 aşağı maaşlı şöbə müdiri köməkçisindən, 7

---

[202] Кавказский календарь на 1871 г., отдел II, с.43; Кавказский календарь на 1879 г., отдел III, с.40; Кавказский календарь на 1885 г., отдел IV, с.56; Кавказский календарь на 1890 г., отдел II, с.141-142; Памятная книжка Эриванской губернии на 1892 г., с.160-161; Памятная книжка Эриванской губернии на 1902 г., с.74-75; Памятная книжка Эриванской губернии на 1906 г., с.32-33; Памятная книжка Эриванской губернии на 1914 г., с.49-51.

hesablayıcı məmurdan və 1 xüsusi tapşırıqlar üzrə ştatdankənar rəisdən ibarət olmuşdur[203].

Eyni zamanda İrəvan Dövlət Palatası açıldıqdan sonra **xəzinədarlıq bölməsi** ona tabe olmuş, İrəvan, Yelizavetpol quberniyalarının və Qars vilayətinin xəzinədarlığı İrəvan Xəzinə Palatasının sərəncamına verilmişdi. Hər bir xəzinədarlıq bölməsinə 1 mülki müşavir, 1 baş mühasib, 1 birinci dərəcəli kassir, 2 birinci dərəcəli mühasib, 2 ikinci dərəcəli mühasib, 1 kargüzar və 1 hesablayıcı məmur daxil idi. İrəvan quberniyası üzrə xəzinədarlıq bölmələri İrəvan, Naxçıvan, Aleksandropol, Yenibəyazid şəhərlərində və İğdır kəndində, Yelizavetpol qəzasının Yelizavetpol, Şuşa, Nuxa şəhərlərində və Gorus, Qazax, Ağdaş kəndlərində, Qars vilayətinin Qars şəhərində, Kağızman və Ardaqan kəndlərində fəaliyyət göstərmişdir[204].

Qeyd etmək lazımdır ki, xəzinələrə bank əməliyyatları aparmağa icazə verilmişdi. Bank əməliyyatları aparılarkən onlara pul dəyişmək, dövlət xəzinə biletləri almaq və satmaq, kuponlar və kapital, faizli kağızlar və vaxtı ötmüş dövlət xəzinə biletləri üzrə faizlərin ödənilməsi, əmanət kassalarının əməliyyatları, dövlət bankları müəssisələrinin orderləri üzrə vəsait qəbulu və verilməsi və pul göndərilməsi vəzifəsi qoyulmuşdur[205].

İrəvan Xəzinə Palatasına **vergi müfəttişləri dəstəsi** də daxil idi. İrəvan şəhəri və qəzası istisna olmaqla müfəttişlər və onların köməkçiləri sahələr üzrə bölünmüşdü. Vergi müfəttişləri və onların köməkçiləri İrəvan quberniyasının mərkəzi İrəvan şəhə-

---

[203] Памятная книжка Эриванской губернии на 1902 г., с.67-68; Памятная книжка Эриванской губернии на 1912 г., с.54; Памятная книжка Эриванской губернии на 1914 г., с.42; Кавказский календарь на 1917 г., отдел IV, с.491-493.

[204]Памятная книжка Эриванской губернии на 1892 г., с.155-156; Памятная книжка Эриванской губернии на 1902 г., с.68-70; Памятная книжка Эриванской губернии на 1906 г., с.31; Памятная книжка Эриванской губернии на 1912 г., с.55-56; Памятная книжка Эриванской губернии на 1914 г., с.43-44; Кавказский календарь на 1917 г., отдел IV, с.494-498.

[205] Azərbaycan tarixi, c.4, s.254.

rində (müfəttiş İrəvan şəhərində yerləşmişdir), İrəvan qəzasında (müfəttiş İrəvan şəhərində yerləşmişdi), Naxçıvan (müfəttiş Naxçıvan şəhərində yerləşmişdi), Şərur-Dərələyəz (müfəttiş Başnoraşen kəndində yerləşmişdi), Sürməli (müfəttiş İğdır kəndində yerləşmişdi), Yenibəyazid (müfəttiş Yenibəyazid şəhərində yerləşmişdi), Aleksandropol (müfəttiş Aleksandropol şəhərində yerləşmişdi) və Üçmüəzzin (müfəttiş İrəvan şəhərində yerləşmişdi) sahələrində, Yelizavetpol quberniyasının Yelizavetpol şəhərində (şəhər iki sahəyə bölünmüş və hər bir sahəyə 1 vergi müfəttişi başçılıq etmişdir), Yelizavetpol (müfəttiş Yelizavetpol şəhərində yerləşmişdi), Zəngəzur (müfəttiş Gorus kəndində yerləşmişdi), Nuxa (müfəttiş Nuxa şəhərində yerləşmişdi), Cavanşir (müfəttiş Tərtər kəndində yerləşmişdi), Ərəş (müfəttiş Ağdaş kəndində yerləşmişdi), Şuşa (müfəttiş Şuşa şəhərində yerləşmişdi), Cəbrayıl (müfəttiş Cəbrayıl kəndində yerləşmişdi), Qazax sahələrində (müfəttiş Qazaxda yerləşmişdi), Qars vilayətinin Qars (müfəttiş Qars şəhərində yerləşmişdi), Ərdoğan (müfəttiş Ərdoğan kəndində yerləşmişdi), Oltu (müfəttiş Oltu qəsəbəsində yerləşmişdi) və Kağızman (müfəttiş Kağızmanda yerləşmişdi) dairələrində vergi müfəttişliyi yerləşmiş, vergi müfəttişlərinin yanında İrəvan qəzası üzrə 1 (İrəvan şəhərində yerləşmişdi), Yelizavetpol qəzası üzrə 1 (Yelizavetpol şəhərində yerləşmişdi), Qars dairəsi üzrə 1 (Qars şəhərində yerləşmişdi) vergi müfəttişliyi köməkçiləri, İrəvan quberniyası üzrə 7, Yelizavetpol quberniyası üzrə 8, Qars vilayəti üzrə isə 1 kargüzarlar dəstəsi fəaliyyət göstərmişdir. Beləliklə, İrəvan quberniyası üzrə 8, Yelizavetpol quberniyası üzrə 11 və Qars vilayəti üzrə isə 4 vergi müfəttişi dəstəsi olmuşdur[206].

İrəvan quberniyası Cənubi Qafqaz **aksiz (satış malları üzərinə qoyulan əlavə vergi-E.Q.) vergi idarəsinin IV dairəsinə**

---

[206] Памятная книжка Эриванской губернии на 1902 г., с.66-67; Памятная книжка Эриванской губернии на 1912 г., с.55; Памятная книжка Эриванской губернии на 1914 г., с.41-43; Кавказский календарь на 1917 г., отдел IV, с.493-494.

daxil idi və quberniya dörd aksiz şöbəsinə bölünmüşdü. İrəvan quberniyasının daxil olduğu IV aksiz dairəsinin bir baş nəzarətçisi və hər bir aksiz şöbəsini idarə edən dörd köməkçisi və bir mühasibi var idi. Bundan əlavə, IV aksiz dairəsinə 10 böyük və bəzən 7 və 11 və bəzən 17 kiçik nəzarətçilər dəstəsi daxil idi. Hər bir aksiz şöbəsi müəyyən qəza və polis sahələrinə daxil olan kənd cəmiyyətlərinə nəzarət edirdi. **Birinci aksiz şöbəsinə** (mərkəz İrəvan şəhərində yerləşirdi) İrəvan şəhəri, İrəvan qəzasında I polis sahəsinə daxil olan Aramus və Kənəkir kənd cəmiyyətləri, II polis sahəsinə tabe olan Şirabad və Noroqovit kənd cəmiyyətləri və Yenibəyazid qəzası, **ikinci aksiz şöbəsinə** (mərkəz İrəvan şəhərində, sonradan Qars şəhərində yerləşmişdi) Üçmüəzzin və Aleksandropol qəzaları, **üçüncü aksiz şöbəsinə** (mərkəz Kəmərli kəndində yerləşirdi) Aramus, Kənəkir, Şirabad və Norokovit kənd cəmiyyətlərindən başqa İrəvan qəzası və Sürməli qəzası, **dördüncü aksiz şöbəsinə isə** (mərkəz Naxçıvan şəhərin-də yerləşmişdi) Naxçıvan və Şərur-Dərələyəz qəzaları daxil idi[207].

İrəvan quberniyasının maliyyə bölməsində banklar da fəaliyyət göstərmişdi. Qeyd etmək lazımdır ki, Rusiya işğalı altında olan Azərbaycanın şimal hissəsində açılan kredit-bank sistemi Ümumrusiya kredit-bank sistemi əsasında yaranmış və inkişaf etmişdir. Şimali Azərbaycanda ilk dəfə kredit-bank sistemi 1874-cü il fevralın 28-də Bakı şəhərində açılmışdı. Həmin il iyunun 1-dən Bakıda Dövlət bankının şöbəsi, 1881-ci ildə Bakı ictimai şəhər bankı, 1886-cı ildə Tiflis kommersiya bankının şöbəsi, 1890-cı ildə Volqa-Kama kommersiya bankının şöbəsi, 1897-ci ildə Kiyev və yaxud Cənubi Rus sənaye bankının şöbəsi, Rus ticarət-sənaye bankının şöbəsi, 1899-cu ildə Don torpaq bankı, 1900-cü ildə Bakı şəhər kredit cəmiyyəti, İranın Uçor-borc bankının şöbə-

---

[207] Памятная книжка Эриванской губернии на 1892 г., с.156-158; Памятная книжка Эриванской губернии на 1902 г., с.68-70; Памятная книжка Эриванской губернии на 1906 г., с.31; Памятная книжка Эриванской губернии на 1912 г., с.57-58; Памятная книжка Эриванской губернии на 1914 г., с.44-45; Кавказский календарь на 1917 г., отдел IV, s.501-502.

si təsis edildi, 1896-cı il iyulun 1-dən isə Gəncə şəhərində Azov-Don səhmdar kommersiya bankı öz şöbəsini açmışdı[208].

1897-ci il iyulun 1-dən Rusiyanın bütün xəzinələrinin üzərinə bank əməliyyatlarını yerinə yetirmək vəzifəsi qoyulduqdan sonra Şimali Azərbaycanın bank müəssisələri şəbəkəsi daha da inkişaf etdi. Bunun ardınca 1898-ci il mayın 1-dən İrəvan Dövlət Palatası açıldıqdan sonra bəzi xəzinələr onun sərəncamına verildi. Bundan sonra İrəvan şəhərində də Mərkəzi Rusiyanın banklarının şöbələri fəaliyyət göstərməyə başladı. 1893-cü ildə İrəvan şəhərində Dövlət Bankının İrəvan şöbəsi açıldı. Bundan əvvəl İrəvanda kredit əməliyyatlarını, cari hesablara pul qəbulu və xəzinədarlığın və fiziki şəxslərin adından pul köçürmələrini həyata keçirən bank ofisi fəaliyyət göstərmişdi. Bunun ardınca quberniyada, 1903-cü ildə Azov-Don Kommersiya Bankının İrəvan şöbəsi, 1904-cü ildə Tiflis Kommersiya Bankının İrəvan şöbəsi, 1908-ci ildə Volqa-Kamski Kommersiya Bankının İrəvan agentliyi, Aleksandropol şəhər İctimai Bankı və İrəvan Cəmiyyəti Qarşılıqlı Kredit Təşkilatı fəaliyyətə başlamışdı. Hər bir bankın özünün idarə heyəti vardı. Rusiya dövlət bankının **İrəvan şöbəsi** 1 sədrdən, 1 nəzarətçidən, 1 nəzarətçi köməkçisindən, 1 mühasibdən, birinci dərəcəli mühasibin 3 və ya 4 köməkçisindən, ikinci dərəcəli mühasibin əvvəl 1, sonra 7 və ya 9 köməkçisindən, üçüncü dərəcəli mühasibin 3 köməkçisindən, 1 kassirdən, birinci dərəcəli kassirin 2 köməkçisindən, ikinci dərəcəli kassirin 1 köməkçisindən və xırda kreditlərə baxan 3 və ya 4 müfəttişdən ibarət olmuşdur[209].

İrəvanda açılan ikinci bank **Tiflis Kommersiya Bankının şöbəsi** idi. Bu bankın 1 müdirdən, 1 baş mühasibdən, 1 mühasib

---

[208] Azərbaycan tarixi, c.4, s.253-254.

[209] Памятная книжка Эриванской губернии на 1902 г., с.71; Памятная книжка Эриванской губернии на 1906 г., с.31; Памятная книжка Эриванской губернии на 1912 г., с.58; Памятная книжка Эриванской губернии на 1914 г., с.45-46; Кавказский календарь на 1917 г., отдел IV, с.530-531.

köməkçisindən, 1 ssuda bölməsinin müdirindən, 1 kommisyon müdirindən, 1 yazışma bölməsinin müdirindən, 1 köçürmə və əmanət bölməsinin müdirindən, 1 mühasib köməkçisindən, 1 xarici dil üzrə yazışmanın müdirindən, 1 kassirdən və 1 onun köməkçisindən ibarət idarə heyəti vardı[210].

İrəvanda açılan üçüncü bank **Azov-Don Kommersiya Bankının İrəvan şöbəsi** idi. Bankın 1 sədrdən, 1 mühasibdən, 1 artel kassirdən, 1 kommisyon müdirindən, 1 hesablayıcı müdirdən, 1 köçürmə və əmanət bölməsinin müdirindən, 1 xüsusi hesablayıcı müdirdən, 1 köçürmə müdirindən, 1 borc sənədləri üzrə hesablayıcı müdirdən, 11 ikinci dərəcəli artelşikdən ibarət işçi qrupu var idi[211].

İrəvan şəhərində **Volqa-Kama Kommersiya bankının İrəvan Agentliyi şöbəsi də** fəaliyyət göstərmişdi. İrəvan Agentliyi şöbəsi 1 müvəkkildən, 1 mühasibdən və 1 ehtibarlı şəxsdən ibarət olmuşdur[212].

Aleksandropol şəhərində də **Aleksandropol şəhər İctimai Bankı** açılmışdı. Bu bankın 1 direktordan, 2 müavindən və 1 bank mühaibindən ibarət kiçik heyəti olmuşdur[213].

İrəvan Xəzinə Palatasına **İrəvan Cəmiyyəti Qarşılıqlı Kredit** bölməsi də daxil olmuşdur. Bu bölmə 1 şura sədrindən, 4 şura üzvündən və idarənin 1 sədrindən və idarənin 2 üzvündən ibarət idi[214].

**İrəvan quberniyasında İrəvan Xəzinə palatasının nəzdində kiçik kredit** cəmiyyətləri də fəaliyyət göstərmişdi. Bu kiçik kredit cəmiyyətləri XIX əsrin sonu-XX əsrin əvvəllərində fəaliyyətə başlamış, həmin cəmiyyətlər şərikli idi və qəzalar üzrə

---

[210] Памятная книжка Эриванской губернии на 1902 г., с.71; Памятная книжка Эриванской губернии на 1912 г., с.58-59; Памятная книжка Эриванской губернии на 1914 г., с.46.

[211] Yenə orada.

[212] Yenə orada, c.47.

[213] Yenə orada, c.46.

[214] Памятная книжка Эриванской губернии на 1912 г., с.58-59; Памятная книжка Эриванской губернии на 1914 г., с.60.

bölünmüşdü. Lakin kiçik kredit cəmiyyətlərinə nəzarət etmək üçün nüfuzlu şəxslərdən ibarət xüsusi idarə orqanı yaradılmışdı. Belə orqan **İrəvan quberniya komitəsi** idi. Bu komitənin sədri qubernator və 11 üzvü var idi[215].

Hər kiçik kredit cəmiyyəti isə 1 sədrdən, 4 şura üzvündən, 1 idarə sədrindən, 2 idarə üzvündən və 1 mühasibdən ibarət idi. 1912-ci ilin əvvəllərində İrəvan quberniyasında İrəvan şəhərində açılan qarşılıqlı kredit və kiçik kredit cəmiyyətlərindən əlavə, 24 kredit, 12 ssuda-əmanət cəmiyyətləri fəaliyyət göstərmişdir. Kredit cəmiyyətlərinin əksəriyyəti 1910-cu ildən fəaliyyət göstərməyə başlamışdı. 1912-ci ildə İrəvan quberniyası üzrə "Yaddaş kitabçası"nda həmin cəmiyyətlərin bölgüsü, idarə heyəti şəhər və kəndlər üzrə belə göstərilmişdir:

1. **İrəvan qarşılıqlı kredit cəmiyyəti**. Bu cəmiyyət 1 sədrdən, 3 şura üzvündən, 1 idarə sədrindən, 3 idarə üzvündən ibarət olmuşdu;
2. **İrəvan kiçik kredit əmanət cəmiyyəti.** Bu cəmiyyət də 1 şura sədrindən, 4 şura üzvündən, 1 idarə sədrindən, 1 idarə üzvündən (o həm də mühasib idi) ibarət olmuşdur;
3. Yenibəyazid qəzasının Yelenovka kəndində 1900-cü ildən fəaliyyət göstərən **Yelonovka kredit cəmiyyəti.** Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir və biri hesabdar), 1 şura sədrindən, 2 şura üzvündən ibarət olmuşdur;
4. 1909-cu ildə Üçmüəzzin qəzasının Uşaqan kəndində açılan **Uşaqan-Camqaryan cəmiyyəti.** Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 3 şura tərkibindən (biri sədr, ikisi isə şura üzvü) ibarət olmuşdur;
5. 1910-cu ildə Sürməli qəzasının Qulp kəndində açılan **Qulp kredit cəmiyyəti**. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 3 şura tərkibindən (biri sədr, ikisi isə şura üzvü) ibarət olmuşdur;
6. 1910-cu ildə Yenibəyazid qəzasının Aşağı Axtı kəndində açılan **Aşağı Axtı kredit cəmiyyəti.** Cəmiyyət 3 idarə

[215] Памятная книжка Эриванской губернии на 1912 г., с.38.

üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 4 şura üzvündən ibarət olmuşdur;

7. **Dəliqardaş kredit cəmiyyəti**. Bu kredit cəmiyyəti 1910-cu ildə Yenibəyazid qəzasının Dəliqardaş kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 5 şura üzvündən ibarət olmuşdur;
8. **Aşağı Qaranlıq kredit cəmiyyəti**. Bu kredit cəmiyyəti 1910-cu ildə Yenibəyazid qəzasının Aşağı Qaranlıq kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 5 şura üzvündən ibarət olmuşdur;
9. **Böyük Qarakilsə kredit cəmiyyəti**. Bu kredit cəmiyyəti 1910-cu ildə Aleksandropol qəzasının Böyük Qarakilsə kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 4 şura üzvündən ibarət olmuşdur;
10. **Hamamlı kredit cəmiyyəti**. Bu kredit cəmiyyəti 1910-cu ildə Aleksandropol qəzasının Hamamlı kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 4 şura üzvündən ibarət olmuşdur;
11. **Cacur kredit cəmiyyəti**. Bu kredit cəmiyyəti 1910-cu ildə Aleksandropol qəzasının Cacur kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 3 şura üzvündən ibarət olmuşdur;
12. **Düzkənd kənd kredit cəmiyyəti.** Bu kredit cəmiyyəti 1910-cu ildə Aleksandropol qəzasının Düzkənd kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 4 şura üzvündən ibarət olmuşdur;
13. **Ulya Noraşen kredit cəmiyyəti.** Bu kredit cəmiyyəti 1910-cu ildə Şərur-Dərələyəz qəzasının Ulya Noraşen kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 2 şura üzvündən ibarət olmuşdur;

14. **Aynazur kredit cəmiyyəti.** Bu kredit cəmiyyəti 1910-cu ildə Şərur-Dərələyəz qəzasının Aynazur kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 2 şura üzvündən ibarət olmuşdur;
15. **Keşişkənd kredit cəmiyyəti.** Bu kredit cəmiyyəti 1910-cu ildə Şərur-Dərələyəz qəzasının Keşişkənd kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 2 şura üzvündən ibarət olmuşdur;
16. **Paşalı kredit cəmiyyəti.** Bu kredit cəmiyyəti 1910-cu ildə Şərur-Dərələyəz qəzasının Paşalı kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 2 şura üzvündən ibarət olmuşdur;
17. **Talın kredit cəmiyyəti.** Bu kredit cəmiyyəti 1910-cu ildə Şərur-Dərələyəz qəzasının Talın kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 4 şura üzvündən ibarət olmuşdur;
18. **Yevqard-Camqaryan kredit cəmiyyəti.** Bu kredit cəmiyyəti 1910-cu ildə Üçmüəzzin qəzasının Yevqard kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 3 şura üzvündən ibarət olmuşdur;
19. **Evcilər kredit cəmiyyəti.** Bu kredit cəmiyyəti 1910-cu ildə Sürməli qəzasının Evcilər kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 4 şura üzvündən ibarət olmuşdur;
20. **Təzəkənd kredit cəmiyyəti.** Bu kredit cəmiyyəti 1910-cu ildə Naxçıvan qəzasının Təzəkənd kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 2 şura üzvündən ibarət olmuşdur;
21. **Çağrı kredit cəmiyyəti.** Bu kredit cəmiyyəti 1910-cu ildə Naxçıvan qəzasının Çağrı kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 2 şura üzvündən ibarət olmuşdur;

22. **Çinanab kredit cəmiyyəti.** Bu kredit cəmiyyəti 1911-ci ildə Naxçıvan qəzasının Çinanab kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 3 şura üzvündən ibarət olmuşdur;
23. **Parpi kredit cəmiyyəti.** Bu kredit cəmiyyəti 1911-ci ildə Üçmüəzzin qəzasının Parpi kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 2 şura üzvündən ibarət olmuşdur;
24. **Sərdarabad kredit cəmiyyəti.** Bu kredit cəmiyyəti 1911-cu ildə Üçmüəzzin qəzasının Sərdarabad kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 2 şura üzvündən ibarət olmuşdur;
25. **Uluxanlı kredit cəmiyyəti.** Bu kredit cəmiyyəti 1911-ci ildə İrəvan qəzasının Uluxanlı kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 2 şura üzvündən ibarət olmuşdur;
26. **Çıxdamlı kredit cəmiyyəti.** Bu kredit cəmiyyəti 1911-ci ildə İrəvan qəzasının Çıxdamlı kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 4 şura üzvündən ibarət olmuşdur[216].

İrəvan quberniyasının ayrı-ayrı şəhər və kəndlərində açılan kredit cəmiyyətlərindən əlavə, Ssuda-əmanət cəmiyyətləri də yaradılmış və onlar əhalinin pula olan tələbatında böyük rol oynamışdılar. Bu Ssuda-əmanət cəmiyyətləri XX əsrin əvvəllərindən fəaliyyət göstərməyə başlamışdır. 1912-ci il məlumatında Ssuda-əmanət cəmiyyətlərinin sayı 12-ə çatmış və həmin cəmiyyətlər bunlar idi:

1. **Əştərək ssuda-əmanət cəmiyyəti.** Bu cəmiyyət 1903-cü ildə Üçmüəzzin qəzasının Əştərək kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 3 şura üzvündən ibarət olmuşdur;

---

[216] Памятная книжка Эриванской губернии на 1912 г., с.60-67.

2. **Kəmərli ssuda-əmanət cəmiyyəti.** Bu cəmiyyət 1904-cü ildə Üçmüəzzin qəzasının Kəmərli kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 2 şura üzvündən ibarət olmuşdur;
3. **Sürməli ssuda-əmanət cəmiyyəti.** Bu cəmiyyət 1906-cı ildə Üçmüəzzin qəzasının İğdır kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 3 şura üzvündən ibarət olmuşdur;
4. **Aleksandropol ssuda-əmanət cəmiyyəti.** Bu cəmiyyət 1906-cı ildə Aleksandropol şəhərində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 6 şura üzvündən ibarət olmuşdur;
5. **Vaqarşapat ssuda-əmanət cəmiyyəti.** Bu cəmiyyət 1908-ci ildə Üçmüəzzin qəzasının Vaqarşapat kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 2 şura üzvündən ibarət olmuşdur;
6. **Kiçik Qarakilsə ssuda-əmanət cəmiyyəti.** Bu cəmiyyət 1908-ci ildə Aleksandropol qəzasının Təpədolaq kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 2 şura üzvündən ibarət olmuşdur;
7. **Xanlıqlar ssuda-əmanət cəmiyyəti.** Bu cəmiyyət 1908-ci ildə Şərur-Dərələyəz qəzasının Xanlıqlar kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 2 şura üzvündən ibarət olmuşdur;
8. **Həmzəçimən ssuda-əmanət cəmiyyəti.** Bu cəmiyyət 1909-cu ildə Aleksandropol qəzasının Bozkənd kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 2 şura üzvündən ibarət olmuşdur;
9. **Yenibəyazid ssuda-əmanət cəmiyyəti.** Bu cəmiyyət 1910-cu ildə Yenibəyazid şəhərində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 2 şura üzvündən ibarət olmuşdur;

10. **Gərniçay ssuda-əmanət cəmiyyəti.** Bu cəmiyyət 1911-ci ildə İrəvan qəzasının Aşağı Ağbaş kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 2 şura üzvündən ibarət olmuşdur;
11. **Daşburun ssuda-əmanət cəmiyyəti.** Bu cəmiyyət 1911-ci ildə Sürməli qəzasının Daşburun kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 2 şura üzvündən ibarət olmuşdur;
12. **Kənəkir ssuda-əmanət cəmiyyəti.** Bu cəmiyyət 1911-ci ildə İrəvan qəzasının Əştərək kəndində açılmışdı. Cəmiyyət 3 idarə üzvündən (biri sədr, biri kassir, biri isə hesabdar), 1 sədr olmaqla 2 şura üzvündən ibarət olmuşdur[217].

Lakin bir ildən sonra istər kredit, istərsə də ssuda-əmanət cəmiyyətlərinin sayı xeyli artmışdır. 1913-cü ilin əvvəllərindən İrəvan quberniyasında 32 kredit və 18 ssuda-əmanət cəmiyyətləri fəaliyyət göstərmişdir və həmin cəmiyyətlər qəzalar üzrə belə bölünmüşdür[218]:

| | | | |
|---|---|---|---|
| 1. | İrəvan | 3 kredit cəmiyyəti | 8 ssuda-əmanət cəmiyyəti |
| 2. | Naxçıvan | 5 kredit cəmiyyəti | |
| 3. | Sürməli | 2 kredit cəmiyyəti | 2 ssuda-əmanət cəmiyyəti |
| 4. | Şərur-Dərələyəz | 5 kredit cəmiyyəti | 1 ssuda-əmanət cəmiyyəti |
| 5. | Yenibəyazid | 6 kredit cəmiyyəti | 1 ssuda-əmanət cəmiyyəti |
| 6. | Aleksandropol | 4 kredit cəmiyyəti | 3 ssuda-əmanət cəmiyyəti |
| 7. | Üçmüəzzin | 4 kredit cəmiyyəti | 3 ssuda-əmanət cəmiyyəti |
| | Cəmi: | 32 kredit cəmiyyət | 18 ssuda-əmanət cəmiyyəti |

---

[217] Памятная книжка Эриванской губернии на 1912 г., с.67-71.

[218] Памятная книжка Эриванской губернии на 1914 г., отдел III, с.46, с.77.

İrəvan quberniyasının maliyyə bölməsinə **gömrükxana idarəsi** də daxil idi. XX əsrin əvvəllərində bu idarəyə **Bakı karantin-gömrük dairəsi** də daxil olmuşdur. Bakı karantin-gömrük dairəsi Bakı şəhərində yerləşmişdi. Onun idarə heyəti 1 sədrdən, 1 dairə müfəttişindən ibarət idi[219].

Lakin sonrakı məlumatlarda Qafqaz gömrük dairəsi İrəvan quberniyasında gömrük idarəsinə nəzarət etmiş və İrəvan quberniyasında yerləşən gömrükxanalar bunlar idi:

1. **Qafqaz gömrük dairəsi (İdarə Tiflis şəhərində yerləşirdi).** Bu idarə 1 dairə rəisindən, 1 dairə müfəttişindən, 3 tapşırıq üçün məmurdan, 1 katibdən və 1 dairə memarından ibarət olmuşdur;
2. **Culfa gömrükxanası.** Onun idarə heyəti 1 sədrdən, 1 və ya 2 idarə üzvündən, 1 katibdən, 1 anbar nəzarətçisindən, 1 quberniya xəzinədarından, 5 anbar nəzarətçisinin köməkçisindən, 1 mühasibdən, 1 tərcüməçidən ibarət idi;
3. **Şərur gömrükxanası.** Onun idarə heyəti 1 sədrdən, 1 idarə üzvündən, 1 tərcüməçidən ibarət idi;
4. **Ordubad sərhəd gömrükxanası.** Onun idarə heyəti 1 sədrdən, 1 köməkçidən ibarət idi;
5. **Orqov sərhəd gömrükxanası.** Onun idarə heyyəti 1 sədrdən, 1 köməkçidən ibarət idi;
6. **Bulqan sərhəd gömrükxanası.** Onun idarə heyəti 1 sədrdən, 1 köməkçidən ibarət idi;
7. **Əlişar sərhəd gömrükxanası.** Onun idarə heyəti 1 sədrdən, 1 köməkçidən ibarət idi;
8. **Şaxtaxtı gömrükxanası.** Onun idarə heyəti 1 sədrdən, 1 idarə heyətinin üzvündən, 1 anbar nəzarətçisindən və onun 1 köməkçisindən ibarət idi[220].

İrəvan gömrükxanasının qorunmasına **27-ci İrəvan briqa-**

---

[219] Памятная книжка Эриванской губернии на 1902 г., с.71-72.

[220] Памятная книжка Эриванской губернии на 1902 г., с.71-72; Памятная книжка Эриванской губернии на 1912 г., с.71-73; Памятная книжка Эриванской губернии на 1914 г., с.47-49.

**dası** cavabdeh idi. Onun tərkibi bütün tələblərə cavab verən heyətdən ibarət olmuşdur. Bu briqadaya 1 briqada komandiri, 1 komandir köməkçisi, 1 birinci bölüm komandiri, 1 ikinci bölüm komandiri, 1 üçüncü bölüm komandiri, 1 dördüncü bölüm komandiri, 1 xüsusi tapşırıqlar üzrə baş zabit, 1 briqada adyutantı, 1 xüsusi tapşırıqlar üzrə baş zabit, 5 bölmə komandiri, 1 tədris bölmə komandiri, 1 tədris bölmə komandirinin baş köməkçisi, 1 tədris bölmə komandirinin kiçik köməkçisi, 1 silah müdiri, 6 bölmə komandiri, 4 kiçik zabit, 3 musiqiçi, 1 baş həkim, 1 baytar həkimi, 3 kiçik həkim, 1 silah ustası, 1 katib və 1 briqada keşişi daxil idi[221].

İrəvan quberniyasının idarəçilik sisteminə **dini işlər üzrə idarə** də daxil olmuşdur. Qeyd etmək lazımdır ki, bəhs etdiyimiz dövrdə quberniyada hakim din islam dini və xristianlıq idi. Xristianlıqda pravoslav və erməni-qriqoryan məzhəbi daha geniş yayılmışdı. İşğaldan sonra çar Rusiyası xalq arasında böyük nüfuza malik olan islam din xadimlərinə ehtiyatla yanaşmağa başladı. İrəvan quberniyasında əhali arasında xüsusi sosial təbəqə təşkil edən din xadimləri böyük nüfuza malik olmuşdular. Müsəlman ruhaniləri yerli əhali arasında böyük nüfuza malik olduğundan çar hakimiyyət orqanları işğalın ilk günlərindən bu təbəqənin nümayəndələrini nəzarətdə saxlamış, onlara ehtiyatla yanaşmışdır. Din xadimləri tarix boyu Azərbaycanda və onun tərkib hissəsi olan İrəvan bölgəsində daimi xüsusi statusa malik, yerli xalqın mənəviyyatında, dini inanclarında və maariflənməsində böyük rol oynamışdılar. Din xadimləri islam dininin şiə və sünnü məzhəblərinə qulluq edən ruhanilərdən ibarət olmuşdur.

Qeyd etmək lazımdır ki, Rusiya işğalından sonra din xadimləri yerlərdə təhqirlərə məruz qalmış, sıxışdırılmış və hüquqları tez-tez tapdalanmışdı. Çar hakimiyyət orqanlarının yerli adət-ənənələri nəzərə almadan keçirdikləri islahatlar yerli xalqla bərabər ruhanilərin də narazılığına səbəb olmuşdu. Din xadimləri

---

[221] Памятная книжка Эриванской губернии на 1912 г., с.73-74; Памятная книжка Эриванской губернии на 1914 г., с.48-49.

öz nüfuzlarından istifadə edərək müsəlmanların yeni hakimiyyətdən narazılıqlarını dəstəkləmiş, silahlı çıxışlarda iştirak etmişdilər. Bu baxımdan XIX yüzilliyin 30-40-cı illərində Şimali Azərbaycanda-Şuşada, Nuxada, Qubada və digər ərazilərdə baş vermiş üsyanlarda müsəlman din xadimləri böyük rol oynamışdılar. Məhz buna görə, xalq arasında din xadimlərinin xüsusi statusa və nüfuza malik olması, çar hakimiyyət orqanlarını müsəlman din xadimlərinin tərkibini, quruluşunu öyrənməklə islahatlar keçirməyə məcbur etmişdir[222].

Azərbaycanda baş vermiş bu üsyanlar, din xadimlərinin üsyanlarda iştirakı çar hakimiyyət orqanlarını narahat etməyə bilməzdi. Bu sosial təbəqəni sakitləşdirmək, onları nəzarətdə saxlamaq üçün yeni hakimiyyətə tabe edən bir qurum yaradılması yolları axtarılmağa başlanmışdı. Buna görə, çar hakimiyyət orqanları tərəfindən ayrı-ayrı illərdə bir neçə dəfə komissiya yaradılmış, bu komissiyaların məqsədi müsəlman din xadimlərinin quruluş formasını, vəziyyətini və mövqeyini öyrənmək olmuşdur. Qafqazda rus qoşunlarının baş komandanı qraf Paskeviç hələ ilk illərdə din xadimlərinin nüfuzunu rus hakimiyyəti üçün təhlükəli olduğunu anlayaraq, 1829-cu ildə Zavileyskinin başçılığı ilə tərkibi 3 nəfərdən-Palavadanov, Çelyayev və İlinskidən ibarət xüsusi komissiya təşkil edilmiş, onlara müsəlman əyalətlərində din xadimlərinin vəziyyəti haqqında layihə hazırlamaq tapşırılmışdı. Bu komissiya 4 il fəaliyyət göstərmişdi. Layihə hazır olsa da, Qafqazın yeni baş komandanı baron Rozen (1833-1837) tərəfindən bəyənilmədi. Çünki burada müsəlman din xadimləri bir idarəyə tabe olan, heç bir təriqət nəzərə alınmadan göstərilmiş, din xadimlərinin məvacibi indiyə qədər məlum olmayan məscidin gəliri hesabına saxlanılması, şəriət məhkəmələrinin heç bir xeyri olmadan yeni hakimiyyətin münsiflər məhkəməsinə tabe olması təklif edilirdi. Hətta layihədə şəriət məhkəmələrinin formasının münsiflər məhkəməsinin formasına uyğunlaşdırılması təklif olunmuşdu[223].

---

[222] Hüseynli R., Azərbaycan ruhaniliyi, Bakı, "Kür", 2002, s.72-78.

[223] Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в, т.2, с.364-365.

Qafqazın baş komandanı baron Rozen yeni layihə hazırlamaq üçün yenidən komissiya yaratdı və bu işi Kazaçenkoya tapşırdı. Lakin o da birinci layihədən fərqli layihə tərtib edə bilmədi, yalnız birinci layihəni nisbətən qısaltdı. 1838-ci il avqustun 10-da bu iş Çiçakova, 1842-ci ildə isə Leqkobıtova tapşırıldı. Lakin hər iki komissiyanın sədrləri bu işin öhdəsindən gələ bilmədilər. Çiçakov layihəni tərtib edərkən Krım müsəlman din xadimlərinin mövqeyini əsas götürmüş, Leqkobıtovun layihəsi isə hökumətin tələbini təmin etməmişdi[224].

Həhayət, bu iş 1848-ci ilin aprelində Daxili İşlər Nazirliyinin tapşırığı ilə N.V.Xanıkova tapşırıldı. Ona böyük səlahiyyətlər verildi. N.V.Xanıkov canişin M.Vorontsovun tapşırığı ilə Cənubi Qafqazda müsəlmanlar yaşayan ərazilərə, Osmanlı Türkiyəsinə və Qacar dövlətinə ezamiyyətə göndərildi. Nəticədə, 1849-cu ildə N.V.Xanıkov öz layihəsini başa çatdıraraq, canişinə təqdim etdi. Layihə müzakirə edilmək üçün canişin M.Vorontsovun göstərişi ilə Baş İdarənin Şurasına təqdim edildi. Layihə Qafqaz komissiyası üzvləri tərəfindən müzakirə edilərək bəyənilmişdi. N.V.Xanıkov öz layihəsində Cənubi Qafqazda müsəlman din xadimlərinin tərkibi və xüsusiyyətlərini, vəziyyətlərini ətraflı təsvir etmişdi. Burada müsəlmançılığın tarixinə qısaca toxunulmuş, xanlıq dövründə istər müsəlman, istərsə də din xadimlərinin vəziyyəti, mövqeyi və sayı göstərilmişdir. Lakin 1853-1856-cı illər Krım müharibəsi başladığından bu iş müvəqqəti olaraq dayandırılır. N.V.Xanıkovun layihəsi müsəlman din xadimləri haqqında irəliyə doğru addım olsa da, onun əsas müddəaları 1856-cı ildə Qafqaz canişini təyin olunmuş knyaz Baryatinski tərəfindən bəyənilmədi[225].

---

[224] Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в, т.2, s.365-368; Hüseynli R., Azərbaycan ruhaniliyi, s.64-65.

[225] Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в, т.2, с.368-388; Историческая записка об управлении Кавказом [в 2 томах], Сос.С.Эсадзе, Тифлис, Типография Гуттенберг, 1907. т.II, 134-135; Hüseynli R., Azərbaycan ruhaniliyi, s.69-72.

Dini qurumların yaradılması yolunda din xadimlərinin vəziyyətini, tərkibi öyrənilməklə bərabər, hakimiyyət müvəqqəti də olsa bu sahədə müəyyən işlər görməyə çalışırdı. 1860-cı ildə müfti Məmmədzadə sünni müsəlmanların vəziyyətini yaxşılaşdırmaq, vəsait axtarmaq üçün Cənubi Qafqaza ezam olunmuşdu. Bundan əlavə, 1862-ci ildə Əhməd Hüseynzadə şiə müsəlmanlarına nəzarət etmək üçün Cənubi Qafqazın şeyx-ül-islamı təyin edilmiş, qurumun idarəçiliyinin qısa təlimatını yazmağı ona tapşırılmışdı. Həmin ilin dekabrında hazır olan təlimat bəzi düzəlişlərlə canişin M.Vorontsov və general-adyutant knyaz Orbeliani tərəfindən təsdiq edilmişdi. Həmin təlimata görə, şeyx-ül-islamın dini vəzifələrinə öz vəzifəsini yerinə yetirməklə bərabər, qəza və mahalların qazilərinə ətraflı göstərişləri verməsi daxil idi. Belə təlimat sünni təriqətinin başçısı Cənubi Qafqaz müftüsünə də verilmişdi[226].

Lakin din sahəsində islahatlar bir qədər gec davam etdirildi. Xüsusilə çar II Aleksandrın qardaşı Mixail Nikolayeviçin canişinliyi dövründə (1862-1882) müsəlman ruhaniliyi dini qurumların təşkil edilməsi istiqamətində işlər bir qədər sürətləndi. N.V.Xanıkovun layihəsi yenidən müzakirəyə çıxarıldı. Müzakirələrə baron Tornau və Mirzə Kazım bəy də cəlb olunmuşdular. Nəhayət, uzun çəkən müzakirələrdən sonra 1872-ci il aprelin 5-də çar II Aleksandrın fərmanı ilə “Zaqafqaziya Şiə və Sünni Məzhəbləri Müsəlman Ruhani idarəsi haqqında” əsasnamə təsdiq edildi[227]. Beləliklə, çar hakimiyyət orqanlarını qane edən Şiə və Sünni ruhani idarəsi təsis edildi. Şiələrin dini rəhbəri Şeyx-ül-islam, sünni təriqətinin dini rəhbəri isə Müfti adlandırıldı. Cənubi

---

[226] Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в, т.2, с.135-136.

[227] Полное собрание законов Российской империи, СПб, Печатано в Типографии II отделения собственной его императорского величества Канцелярии, 1872, т.47, отдел 1, с.379-397; Историческая записка об управлении Кавказом, т.II, с.167; Hüseynli R., Azərbaycan ruhaniliyi, s.1; Əmrahov Z., İrəvan quberniyasının tarixi (1850-1917-ci illər), Bakı, “Nurlar”, 2022, s.304.

Qafqazda müsəlmanların baş dini idarəsi Tiflis şəhərində yerləşmişdi.

Əsasnaməyə görə, bu idarələrin üzvləri Qafqaz Çanişinliyinin Baş mülki idarəsi tərəfindən seçilirdi. Dini İdarənin konkret öz vəzifəsi var idi. Vəzifələr bunlar idi; Ruhani Şuralarında Qafqazın ali orqanları tərəfindən verilmiş işlərlə bağlı məsələlərə baxılırdı; quberniya dini məclislərinin qərarları əsasında din xadimlərinin şikayətlərinə baxılırdı; ümumi illik siyahı və məlumatlar tərtib edilərək Qafqaz üzrə Ali baş komandana təqdim edilirdi; ilahiyyat məktəbləri üçün proqramların hazırlanması və ruhani dərəcələrin təsdiqi məsələsinə baxılırdı; axund və əfəndilərin dərəcələrinin təsdiqi üçün sınaqlar keçirilirdi. Dini idarələrdə məsələlər səs çoxluğu ilə qəbul edilirdi[228].

Əsasnaməyə görə, din xadimləri ali və aşağı olmaqla iki kateqoriyaya bölünmüşdü. Ali kateqoriyaya Şeyx-ül-islam, Dini idarənin üzvləri, quberniya məclislərinin üzvləri və qazilər, aşağı kateqoriyaya məscid mollaları daxil idi. Başda Şeyx-ül-islam və Müfti olmaqla din xadimlərinin hər birinin öz vəzifəsi vardı. Müsəlman din xadimlərinin dəstəsinə daxil olan Şeyx-ül-islam şiə dini rəhbər, qazilər dini hakimlər, Müfti "şünni" məzhəbinin qanunlarının nəzarətçisi, pişnamaz həyatını Allaha ibadətə həsr edən və xalqla birlikdə ibadət edənlər, vaizlər mərasimlərdə təbliğatçı, üləmalar ilahiyyat alimləri, müdərrislər dini elmlərin və ərəb dilinin müəllimləri, əfəndilər "sünni" məzhəbinin alimləri, axundlar "şiə" məzhəbinin alimləri, müəzzinlər azan verənlər, imamlar kənd cəmiyyətində dini rəhbərlər, müştəhidlər "şiə" məzhəbində din xadimi, heç bir dini vəzifə daşımayan, xalq arasında xüsusi hörmətə malik peyğəmbər və imam nəslindən hesab olunan seyidlər və dərvişlər idi[229]. Müsəlman din xadimləri hacı, məşhədi və kərbəlayi adı daşımışdılar.

---

[228] Полное собрание законов Российской империи, СПб, 1872. т.47, отдел 1, с.379.

[229] Полное собрание законов Российской империи, СПб, 1872. т.47, отдел 1, с.379; Потто В., Утверждение русского владычества на Кавказе, Тифлис, 1901, т.1, с.385-388.

Rusiya hakimiyyət orqanlarının nəzarəti altında Qafqazda baş müsəlman dini idarələri yarandıqdan sonra quberniyalarda fəaliyyət göstərən ruhaniləri də nəzarətdə saxlamaq lazım gəlirdi. Çar tərəfindən təsdiq edilmiş əsasnamədə bütün Cənubi Qafqazda müsəlman dini qurumlara nəzarət canişinə tapşırılmışdı. Hər bir quberniyalarda isə din xadimlərini nəzarətdə saxlamaq məsədilə dini idarələr - "quberniya şiə və sünni dini məclis"ləri və qəzalarda "qazilik" yaradıldı. Quberniya dini məclislərinin sədri Şeyx-ül-islam olmaqla qazilərdən ibarət üzvlərdən, qəzalarda isə dinə nəzarət qazilərdən təşkil olunmuşdu. Məscid ruhaniləri mollalardan ibarət idi. Quberniya məclisləri qubernatorun şəxsən nəzarəti altında idi. Axund və əfəndilərdən təşkil edilmiş məclisin üzvləri qubernator tərəfindən təyin edilirdi. Məclisin öz kargüzarları var idi. Kargüzar rus və Azərbaycan türkcəsini yaxşı bilən ruhanilərdən təyin edilirdi. Məclisdə müəyyən məsələlərin həlli yerli polisin nəzarəti altında keçirilirdi. Hətta məclisə nəzarət etmək üçün qubernator tərəfindən xüsusi məmur da təyin edilmişdi. Burada qərarlar səs çoxluğu ilə qəbul olunurdu. Bundan əlavə, məclisin özünün möhürü də var idi. Quberniya məclislərində dini ibadətlərin və adət-ənənələrin qaydası ilə bağlı bir çox məsələlərə baxılırdı. Quberniya Dini məclislərinin funksiyasına ibadətlərin icrası, adət-ənənələrin və dini tələblərin qaydası ilə bağlı məsələlər, məscid ruhanilərinin dini vəzifələrini pozaraq etiqadla bağlı əməlləri və cinayətləri haqqında işlərə baxılması, evlilik və boşanma işlərində qazilərin qərarlarından şikayətlər və qazilər arasında bu işlərdə səlahiyyət haqqında mübahisələr, qanuna görə şiə məzhəbinə mənsub müsəlmanların cinayət və pis əməlləri ilə bağlı işlərin məhkəməyə göndərilməsi, qubernator tərəfindən müzakirəyə çıxarılan işlərə və məsələlərə baxılması, məclis üzvlərinin biri vasitəsilə mədrəsə və məktəblərə nəzarət etmək, ruhani adını almaq üçün imtahanların hazırlanması, hökumət tərəfin-

dən icazə verilən məscid və digər əmlakların idarə edilməsinə dair işlər daxil idi[230].

Qəzalarda "qazilik" idarəsinin funksiyasına yerlərdə məscid mollalarına nəzarət etmək, nigah, xalq arasında olmuş mübahisəli məsələlərə baxmaq, qubernatora və quberniya "dini məclisi"nə bir tərəfdən məscid mollaları, digər tərəfdən ruhanilikdən xaric edilmiş, işdən çıxarılmış mollalar, məscidlərin, onların nəzdində olan məktəblər, dövlət tərəfindən icazə verilmiş vəqf mülkiyyəti, zəkat, nəzir və digər dini ianələr, əhali arasında doğum və ölüm aktlarının uçotunun aparılması üçün müəyyən edilmiş qaydalara uyğun doğulanların və ölənlərin, evlilik və pozulmuş nigahların sayını bildirən şəhadətnamələrin verilməsi haqqında məlumatlar daxil idi. Bütün bu məsələlər Qafqaz Canişininin təlimatına uyğun yerinə yetirilməli idi[231].

Hər bir məscidə bir molla düşürdü. Lakin iri məscidlərdə-"Cümə məscidləri"ndə isə bir baş molla olmaqla bir neçə molla fəaliyyət göstərə bilərdi. Burada 150-200 evə bir molla düşürdü. Məscid mollalarının məvacibi məscid gəlirləri hesabına ödənilirdı. Hər bir mollanın məvacibi xüsusi miqdarda müəyyənləşdirilmişdi[232].

İrəvanda da Şeyx-ül-islamın rəhbərliyi ilə İrəvan quberniya məclisi fəaliyyətə başladı. Qeyd etmək lazımdır ki, quberniya məclisi təşkil edilməmişdən əvvəl burada "Müsəlman dini şəriət" idarəsi fəaliyyət göstərmişdi. Bu idarəçilik bir qədər sadə idi. Bu idarəyə sədr kimi Şeyx-ül-islam Əkbər ağa Axund Molla Məhəmməd oğlu başçılıq etmiş, onun köməkçisi qazi Hacı molla Mehdi Mustafa oğlu, idarənin üzvləri isə Axund molla Sadıq, Axund molla Kərim Qazi oğlu, Hacı molla Məmməd Hacı molla Zaman oğlu və Hacı molla Nəsrulla Kazın bəy oğlu idi. Qəzalarda fəaliyyət göstərən ruhanilər birbaşa bu idarəyə tabe olmuşdur[233].

---

230 Полное собрание законов Российской империи, СПб, 1872. т.47, отдел 1, с.385-386.

231 Yenə orada, c.383-384.

232 Yenə orada, c.389.

233 Кавказский календарь на 1854, с.601.

Məlum, 1872-ci ilin 5 aprel əsasnaməsinə əsasən İrəvan quberniyasında “şiə və sünni quberniya məclisi” təşkil olundu və qəzalarda isə “qəza qaziliyi” yaradıldı. 1880-ci il məlumatına baxdıqda görmək olar ki, “İrəvan quberniya şiə məclisi” təşkil edilərkən yuxarıda göstərilən tərkib dəyişilmişdir. Həmin il məclisin sədri Qazi molla Xəlil Qazizadə, üzvləri Axund molla Məhəmmədbağır Axunda Hacı molla Mehdi oğlu, Axund molla Abbasqulu Axund Hacı molla Əli Nağı oğlu və kargüzar isə Lütvəli bəy Qazıyev olmuşdur. Qəzalarda qəzalar üzrə təşkil edilən “Qəza qaziliyi” isə belə idi: Naxçıvan qəzasında-Hacı molla Saleh; Üçmüəzzin qəzasında-Axund Şeyx Mehdi Qazizadə; Yenibəyazid qəzasında-Axund molla Qurban Cənnətzadə; Şərur-Dərələyəz qəzasında-Axund Hacı molla İsmail Nadirzadə; Ordubad dairəsində-Axund Mehdi Məhəmmədzadə[234].

İrəvan quberniyasında şiələrə nisbətən sünni məzhəbinə itaət edənlər az olduğundan, burada sünni məzhəbi üzrə yalnız qazilik yaradılmış, bir neçə qəzaya bir qazi başçılıq etmişdir. 1881-ci il məlumatına görə, quberniya üzrə sünni məzhəbi qaziliyinin sədri Xəlil Əfəndi Qasım Əfəndi oğlu olmuşdur[235].

XX yüzilliyin əvvəllərində quberniya dini məclisinin üzvlərinin tərkibində dəyişiklik baş vermişdir. 1900-cü ildə “İrəvan quberniyası şiə məclisi”nin sədri Axund Məmmədbağır Qazizadə, məclisin üzvləri Axund Mirzə Abdulla Qaziyev və Axund Həsən Qazizadə, kargüzar Ağabəy Qaziyev, Naxçıvan qəzası üzrə qazi Axund Hacı Molla Əli Axundzadə, Sürməli qəzası üzrə vakant, Şərur-Dərələyəz qəzası üzrə Axund Hacı İsmayıl Nadirxanzadə, Ordubad dairəsi üzrə Molla Mirhaşım Ağamir Qasımzadə, Yeni Bəyazid qəzası üzrə Axund Qurban Cənnətzadə, Üçmüəzzin qəzası üzrə Axund Məhəmmədəli Qazızadə, quberniya sünni məclisi üzrə İrəvan, Naxçıvan, Şərur-Dərələyəz və Yeni Bəyazid qəzaları üzrə qazi Mustafa Əfəndi Şərif Əfəndizadə

---

[234] Кавказский календарь на 1881, с.81-82.
[235] Yenə orada, s.82.

(Yeni Bəyazid şəhərində yerləşmişdi), Sürməli, Üçmüəzzin və Aleksandropol qəzaları üzrə vakant yer olmuşdur[236].

1902-ci il məlumatına görə, "İrəvan quberniya şiə məclisi" nin sədri Axund Məmmədbağır Qazizadə, üzvləri Axund Həsən Qazizadə, kargüzar isə Əlibəy Qaziyev olmuşdur. Qəzalar üzrə qazilik məclisinə rəhbərlik edənlər bunlar idi: Naxçıvan qəzasında-Axund Hacı molla Əli Axundzadə; Ordubadda-Molla Mirhaşım Ağa Mirqasımzadə; Sürməli qəzasında Molla Qəmbər Axundzadə; Şərur-Dərələyəz qəzasında-Hacı molla Əli Axundzadə; Yeni Bəyazid qəzasında-Axund Qurban Cənnətzadə; Üçmüəzzin qəzasında-Axund Məmmədəli Qazizadə[237].

İrəvan quberniyası üzrə sünni qaziliyi isə belə idi: İrəvan, Naxçıvan, Şərur-Dərələyəz və Yeni Bəyazid qəzalarının qazisi Mustafa Əfəndi Şərif Əfəndizadə; Sürməli, Üçmüəzzin və Aleksandropol qəzalarında qazilik yeri vakant[238].

1908-ci ilin məlumatında İrəvan quberniya məclisinin sədri və üzvləri olduğu kimi qalmış, lakin quberniya məclisinin qəzalar üzrə qaziləri dəyişmişdir. Məsələn, Naxçıvan qəzasında Axund Şeyx Kərim Axundzadə, Qrdubadda Axund Əbdülhəsən Qazizadə, Sürməli qəzasında Molla Axundzadə, Şərur-Dərələyəz qəzasında Şeyx Həmid Axundzadə, Yeni Bəyazid qəzasında Axund Qurban Cənnətzadə, Üçmüəzzin qəzasında Axund Məmmədəli Qazizadə olmuşdur[239].

İrəvan quberniyası sünni məclisində də dəyişiklik baş vermişdir. İrəvan quberniyası sünni məslisinin İrəvan, Naxçıvan, Şərur-Dərələyəz və Yeni Bəyazid qəzaları üzrə qazisi Osman Əfəndi Hacızadə olmuş, Sürməli, Üçmüəzzin və Aleksandropol qəzaları üzrə qazi vəzifəsi isə vakant olaraq qalırdı[240].

---

236 Кавказский календарь на 1900, с.454.
237 Памятная книжка Эриванской губернии на 1902, с.92.
238 Yenə orada, c.93.
239 Памятная книжка Эриванской губернии на 1908, с.64-65; Əmrahov Z., İrəvan quberniyasının tarixi (1850-1917-ci illər), s.306.
240 Yenə orada.

1914-cü ildə həm İrəvan quberniyası şiə məclisinin tərkibində, həm də sünni məclisinin tərkibində dəyişiklik baş vermişdir. İrəvan quberniyası şiə məclisinin sədri Axund Abdulla Axund Xəlil oğlu Qaziyev, Naxçıvan qəzası üzrə qazi Şeyx Əbdülkərim Axundzadə, Sürməli qəzası üzrə qazi Molla Baxşəli Mustafa oğlu, Qrdubad dairəsi üzrə qazi Hacı Mirzə Lütfullah Axundzadə, Şərur-Dərələyəz qəzası üzrə qazi Axund Mir İsmayıl Hacı Seyid İbrahimzadə, Yeni Bəyazid qəzası üzrə qazi Axund Zülfüqar İbrahimzadə, Üçmüəzzin-Aleksandropol qəzaları üzrə qazi Axund Məmmədəli Qazizadə olmuşdur[241].

Həmin il İrəvan quberniyası sünni məclisində böyük struktur dəyişikliyi baş vermiş, kəndlər üzrə bu məzhəbin nümayəndələri təyin olunmuşdur. İrəvan quberniyası üzrə qazi Osman Əfəndi Hacızadə Hacıyev idi. Qəza və kəndlər üzrə təyin olunmuş sünni mollalar belə idi: Yeni Bəyazid qəzasında Rəhman kənd mollası Hacı Molla Abdulla Hacı Əbdülqədir oğlu; Zod kənd mollası Molla Mustafa Hacı Hacalı oğlu, Hüseynqulu Ağalı Molla Əhməd Sadıq oğlu; Aleksadropol qəzasında Saralar kəndinin mollası Məhəmməd Əfəndi Molla Yusif oğlu, Ərduç kənd mollası Molla Abdulla Nəbi Əfəndi; Sürməli qəzasında Saraclı kəndinin mollası Molla Əlibəyli Əli oğlu; Göydəkli kənd mollası Molla Əbdül Əziz Hacı Rəsul oğlu[242].

1917-ci ildə İrəvan quberniyası üzrə şiə və sünni məzhəblərinin ali ruhaniləri haqqında az məlumat verilmişdir. Həmin il məlumatında quberniya şiə məclisinin sədri Axund Abdulla Qaziyev, məclisin üzvü Hacı Mirzə Məmmədəli İdriszadə, kargüzar isə Aslan bəy Məmmədbəy oğlu Nabatəlibəyov, sünni məzhəbinin qazisi molla Məhəmməd Molla Ömər oğlu göstərimişdir[243].

İrəvan quberniyasında yüzlərlə məscid var idi. 1888-ci ilin məlumatına görə, İrəvan quberniyasında 210 məscid, 1902-ci il

---

[241] Памятная книжка Эриванской губернии на 1914, с.75.
[242] Yenə orada, c.75-76.
[243] Кавказский календарь на 1917, отдел стастические, с. 777-778.

məlumatına görə isə 310 məscid olmuşdur[244]. İrəvan quberniyasında ən iri məscidlərin nəzdində dini təhsil ocaqları olan məktəb və mədrəsələrin fəaliyyətinə icazə verilmişdi. “Mədəniyyət” bölməsində bu haqda ətraflı danışılmışdır.

Məscidlər özlərini vəqf mükiyyətindən gələn gəlir hesabına saxlayırdı. Əksəriyyət məscidlərin torpaq sahələri var idi. Bu müxtəlif torpaq sahələrindən məscidlərin xeyrinə gəlir daxil olurdu. Bu haqda mənbələrdə xeyli məlumatlara rast gəlmək olar. Məsələn, 1885-ci ildə Yuva kəndinin Came məscidinin 1720 rubl, Caharbağ və Xarabasarvanlar kəndində məscidin icarəyə götürülmüş 6 dank torpaq sahəsindən isə 1335 rubl gəliri olmuşdur. Bu gəlirin $^{1}/_{4}$ –i məscidin nəzdində fəaliyyət göstərən mədrəsədə təhsil alan tələbələrin oxumağına gedirdi. 1889-cu ildə İrəvan şəhər Came məscidinin və Caharbağ, Xarabasarvanlar və Azad kəndlərinin məscidləri ilə birlikdə gəliri 1100 rubl, 1891-ci ildə İrəvan Came məscidinin və Yuva, Axund, Bozavənd, Baxcevazlı, Qarahəmzəli kəndlərində olan məscidlərin gəliri birlikdə 1860 rubl, 1894-cü ildə isə İrəvan şəhər məscidlərinin gəliri isə ümumilikdə 3998 rubl olmuşdur[245]. Ümumilikdə 1892-1895-ci illər İrəvan quberniyasında şiə məscidlərinin ümumi gəliri 30185 rubl, xərci isə 22763 rubl idi. Bu gəlirin bir hissəsi mədrəsə və məktəblərin maliyyəsinə, məscidlərin təmirinə, yoxsullara köməyə və digər xeyriyyə işlərinə xərclənmişdir[246].

XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəllərində olan mənbələrdə İrəvan quberniyasının məscidlərinin gəlirləri haqqında da məlumatlara rast gəlmək mümkündür. 1899-cu ildə İrəvan şəhərində olan baş məscidin gəliri 4098 rubl, Şəhər məhəlləsində olan məscidin gəliri 487 rubl, Hacı Novruzəli bəy məscidinin gəliri 150 rubl, Hacı Mirzə Səfi bəy məscidinin gəliri 24 rubl, İrəvan

---

[244] Кавказский календарь на 1917, с.42; Памятная книжка Эриванской губернии на 1902, с.119-120.
[245] Кулиева В., Роль и позиция мусульманского духовенства в социально-политической и культурной жизни Нахичевани, Эриванской губернии и Зангезура в XIX – начале XX вв, Баку, Элм, 1999, с.50-51.
[246] Yenə orada, s.48.

qəzasına məxsus Hacı İlyas kəndinin məscidinin gəliri 264 rubl, Sədərək kəndinin məscidinin gəliri 15 rubl, Naxçıvan şəhərində olan məscidin gəliri 569 rubl 50 qəpik, Ordubad dairəsində Yayçı kəndinin məscidinin gəliri 68 rubl, Pikmond kəndinin məscidinin gəliri 13 rubl, Vənənd kənd məscidinin gəliri 230 rubl, Vənənd kəndində olan digər məscid-Takiyə məscidinin gəliri 30 rubl, Pirçinli kəndinin məscidinin gəliri 83 rubl, Əylis Ulya kəndinin məscidinin gəliri 6 rubl, Velaverq kəndinin məscidinin gəliri 48 rubl, Çexletanq kəndinin məscidinin gəliri 45 rubl, Ordubad şəhərində olan Sarşarx məscidinin gəliri 9 rubl, Naxışlı kəndinin məscidinin gəliri 10 rubl, mədrəsənin gəliri 305 rubl, Kürdatal kəndinin məscidinin gəliri 28 rubl, Qadı kəndinin məscidinin gəliri 55 rubl, Fəxri kəndinin məscidinin gəliri 5 rubl, Molla Kazım kəndinin məscidinin gəliri 59 rubl, Cami məscidinin gəliri 45 rubl, Kiçik Kürdatal kəndinin gəliri 8 rubl, "Qoç Meydan" qəbristanlığının gəliri 8 rubl, Naxırbaşı məscidinin gəliri 22 rubl olmuşdur[247].

İrəvan şəhər Came məscidinin müxtəlif kəndlərdə vəqf mülkiyyəti olan torpaq sahələri də olmuşdur. Məsələn, Yuva kəndində 3 dənk, Bəyçedazlı kəndində 2 dənk, Buzavənd Axund kəndində 2 dənk, Qarahəmzəli kəndində 1,5 dənk, Caharbağ kəndində 6 dənk, Sarvanlar kəndində 6 dənk (90 desyatin 600 sajen) idi[248].

1910-cu ildə Hacı İlyas məscidinin gəliri 1034 rubl, Qəmərli kənd məscidinin gəliri 29 rubl, Üçmüəzzin qəzasında Əkərək kəndindəki məscidin gəliri 12 rubl, Kolanı kənd məscidinin gəliri 126 rubl, Naxçıvan şəhər Came məscidinin gəliri 699 rubl, Ordubad şəhər məscidinin nəzdində olan məsdrəsənin gəliri 1455 rubl, Ordubad şəhər Came məscidinin gəliri 103 rubl, Molla Kazım kənd məscidinin gəliri 72 rubl, Kiçik Kürdatal kənd məscidi-

---

[247] Кулиева В., Роль и позиция мусульманского духовенства в социально-политической и культурной жизни Нахичевани, Эриванской губернии и Зангезура в XIX – начале XX вв, Баку, Элм, 1999, s.48.
[248] Yenə orada, c.50.

nin gəliri 8 rubl, Hüseyniyyə Kürdatal kənd məscidinin gəliri 35 rubl, Təzə Kürdatal kənd məscidinin gəliri 6 rubl, Susanabad qəbristanlığının gəliri 3 rubl, “Qoç Meydan” qəbristanlığının gəliri 6 rubl, Fəxri kəndinin məscidinin gəliri 5 rubl, Hadi kənd məscidinin gəliri 80 rubl, Minkis kənd məscidinin gəliri 17 rubl, Sarşəhər kəndinin məscidinin gəliri 32 rubl, Naxır Başlı kənd məscidinin gəliri 11 rubl, Ordubad sahəsinin Nus-Nus kənd məscidinin gəliri 58 rubl, Uklis-ulya kənd məscidinin gəliri 6 rubl, Valaver kənd məscidinin gəliri 44 rubl, Vənənd kənd Came məscidinin gəliri 165 rubl, Ağrı kənd məscidinin gəliri 14 rubl, Xanagah kənd məscidinin gəliri 37 rubl, Dostak kənd məscidinin gəliri 12 rubl, Diklun kənd məscidinin gəliri 14 rubl, Şərur-Dərələyəz qəzasında Tanrı Ocaq kənd məscidinin gəliri 5 rubl olmuşdur[249].

1915-ci ildə İrəvan quberniyasında olan məscidlərin gəliri daha da artmışdır. Həmin ildə İrəvan şəhərdə olan Came məscidinin gəliri 5421 rubl, Tatar (Azərbaycan türk) məscidinin gəliri 1120 rubl, Hacı Novruzəli bəy məscidinin gəliri 183 rubl, Hacı İmamverdibəy məscidinin gəliri 234 rubl, Hacı Mirzə Səfibəy məscidinin gəliri 812 rubl, Ərəblər qəbristanlığının gəliri isə 54 rubl olmuşdu. Qəzalar üzrə də məscidlərin gəliri haqqında məlumatlar vardır. İrəvan qəzasında Hacı İlyas kənd məscidinin gəliri 643 rubl, Sədərək kənd məscidinin gəliri 12 rubl, Qəmərli kənd məscidinin gəliri 6 rubl, Torpaqqala kənd məscidinin gəliri 3 rubl, Arbat kənd məscidinin gəliri 86 rubl, Şərur-Dərələyəz qəzasında Tərki Ocaq kənd məscidinin gəliri 28 rubl, Parçi Ocaq kənd məscidinin gəliri 108 rubl, Üçmüəzzin qəzasında Əkərək kənd məscidinin gəliri 20 rubl, Tərki kənd məscidinin 54 rubl, Sürməli qəzasında Güllücə kənd məscidinin gəliri 10 rubl, Ordubad şəhər Zöhriyyə məscidinin gəliri 2589 rubl, Came məscidinin gəliri 155 rubl, Molla Kazım məscidinin gəliri 132 rubl, Yah-

---

[249] Кулиева В., Роль и позиция мусульманского духовенства в социально-политической и культурной жизни Нахичевани, Эриванской губернии и Зангезура в XIX – начале XX вв, Баку, Элм, 1999, s.50.

yabəy məscidinin gəliri 10 rubl, Təzə Kürdatal kənd məscidinin gəliri 3 rubl, Hüseyn Kürdatal kənd məscidinin gəliri 33 rubl, Hadi kənd məscidinin gəliri 136 rubl, Minkis kənd məscidinin gəliri 30 rubl, Naxışlı kənd məscidinin gəliri 35 rubl, Ordubad sahəsində Nus-Nus kənd məscidinin gəliri 52 rubl, Vənənd kənd Came məscidinin gəliri 168 rubl, həmin kəndin Pirçinli məscidinin gəliri 53 rubl, Ağrı kənd məscidinin gəliri 14 rubl, Xanikax kənd məscidinin gəliri 36 rubl, Diklul kənd məscidinin gəliri 24 rubl, Yaycı kənd məscidinin gəliri 44 rubl idi[250]. Göstərilmiş statistik məlumatlardan görünür ki, iri məscidlərin gəlirləri ildən-ilə artmışdı.

Qeyd edildiyi kimi, müsəlman din xadimləri yerli əhalinin həyatında böyük rol oynadığına görə, din xadimlərinə böyük güzəştlər verilmişdir. İstər ali ruhanilər, istərsə də məscid mollaları bu vəzifədə işlədikləri müddətdə xəzinəyə vergi və mükəlləfiyyətlərdən, cismani cəzalardan ömürlük azad edilmişdilər. Bundan əlavə, şəxsi evlərə malik olan ruhanilər şəhər küçələrinin işıqlandırılması, abadlaşdırılması və saxlanmasına görə vergilər istisna olmaqla, mənzil, torpaq vergisindən və digər şəhər rüsumlarından azad idilər[251].

**Poçt-teleqraf.** İrəvan quberniyasının idarəçiliyində **poçt-teleqraf idarəsi** də fəaliyyət göstərmişdi. İrəvan poçt-teleqraf idarəsi Tiflis poçt-teleqraf dairəsi idarəsinə tabe idi. Bu idarə poçt kontorundan və poçt şöbəsindən ibarət olmaqla iki bölməyə ayrılmışdı. Poçt-teleqraf idarəsi bölmələrinin hər birinin öz idarə orqanları vardı. Quberniya yaranarkən **poçt kontorları** İrəvan, Naxçıvan və Aleksandropol şəhərlərində fəaliyyət göstərmişdi. 1850-ci ilin məlumatına görə, İrəvan və Naxçıvan poçt kontorları 1 poçt müdirindən və onun köməkçisindən, Aleksandropol poçt

---

250 Кулиева В., Роль и позиция мусульманского духовенства в социально-политической и культурной жизни Нахичевани, Эриванской губернии и Зангезура в XIX – начале XX вв., с.49.

251 Полное собрание законов Российской империи, СПб, 1872. т.47, отдел 1, с.381-382.

kontoru isə 1 müdirdən ibarət olmuşdur[252]. Poçt şöbələri isə ilk dövrlərdə Ordubad və Yenibəyazid şəhərlərində açılmışdı. Bu şöbələri mirzələr idarə etmişdir[253].

XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəllərində İrəvan quberniyasında poçt-teleqraf idarələrinin sayı daha da çoxaldı. Məsələn, 1900-1906-cı və 1914-cü illər məlumatına görə, İrəvan quberniyasında İrəvan, Aleksandropol, Naxçıvan, Yenibəyazid və Ordubad şəhərlərinin, Üçmüəzzin, İğdır, Culfa və Qarakilsə kəndlərinin hər birində bir **poçt-teleqraf kontoru,** Başnoraşen, Əştərək, Dəvəli, Aşağı Axtı, Şaxtaxtı, Şinanabad, Qulp, Yuxarı Əylis, Dərəçiçək, Yelenovka və Kəmərli kəndlərinin hər birində isə **poçt-teleqraf şöbələri** fəaliyyət göstərmişdir. Qeyd etmək lazımdır ki, Dərəçiçəkdə poçt-teleqraf şöbəsi yayda iyunun 8-də açılmış, sentyabrın 8-ə qədər fəaliyyətini davam etdirmişdir. Bütün poçt-teleqraf kontorlarının idarə heyəti müdirdən və onun köməkçisindən, poçt-teleqraf şöbələrinin idarə heyəti 1 müdirdən ibarət olmuşdur[254].

İrəvan quberniyasında telefon şəbəkəsi yalnız İrəvan şəhərində mövcud olmuşdur. Şəbəkənin müdiri İrəvan poçt-kontorunun müdiri idi[255].

1862-ci ildən İrəvan quberniyası idarəçiliyinə daha bir quberniya idarəsi əlavə olunmuşdu. Bu **zemstvo mühafizə dəstələri** idi. Bu dəstələr 1862-ci il martın 17-də “Zaqafqaziyada (Cənubi Qafqazda) yerli (zemstvo) mühafizə dəstələri haqqında Əsasnamə”yə əsasən yaradılmışdı. “Əsasnamə”yə görə, yaradılan xüsusi zemstvo mühafizə dəstələri ticarət yolları üzərində gözətçi xidmətini və qarovul məntəqələrinin saxlanmasını təmin etməli idilər. Bundan əlavə, bu dəstələr poçt və mühafizə işlərini də görə bilərdilər. Zemstvo mühafizə dəstələri əsasən rus millətindən,

---

[252] Кавказский календарь на 1850 г., отдел V, с.613-614.
[253] Yenə orada, s.614.
[254]Памятная книжка Эриванской губернии на 1902 г., отдел II, с.18; Памятная книжка Эриванской губернии на 1906 г., отдел II, с.38; Памятная книжка Эриванской губернии на 1914 г., отдел I, с.38.
[255] Памятная книжка Эриванской губернии на 1814 г., отдел I, с.38.

bəzən də könüllü bu birliyə daxil olan yerlilərdən təşkil olunmalı idi. Zemstvo mühafizə dəstəsinin başında müfəttiş dururdu və hər bir qəzada distansiya rəisləri fəaliyyət göstərirdi. Yarandığı dövrdə İrəvan quberniyasında zemstvo mühafizə dəstələrinin sayı 405 nəfərdən ibarət olmuşdur[256].

XIX əsrin 60-cı illərin əvvəllərində yaradılmış zemstvo mühafizə dəstələrinin fəaliyyəti 1899-cu ilə qədər davam etmiş, həmin il mayın 24-də çarın verdiyi fərmana görə, Cənubi Qafqazda zemstvo mühafizə dəstələri polis mühafizə dəstələri ilə əvəz edilmişdi. 1899-cu il mayın 24-də verilmiş "Zaqafqaziya Polis Mühafizəsinin Müvəqqəti Əsasnaməsinin ən yüksək təsdiqi" adlı fərman Cənubi Qafqazda, o cümlədən İrəvan quberniyasında iyunun 1-dən fəaliyyət göstərməli idi[257]. Həmin fərmana əsasən, Tiflis, İrəvan, Bakı və Kutaisi quberniyalarında, Qars əyalətində və Zaqatala dairəsində xüsusi polis mühafizə dəstələri yaradılmalı idi. Yeni yaradılacaq Polis mühafizə dəstələri quberniyalar üzrə Qafqazda Mülki hissənin Baş Rəisliyi, qəza və sahələr üzrə isə qubernator tərəfindən müəyyən edilirdi. Polis mühafizə dəstələri müəyyən edilmiş sayda çavuş (kiçik zabit və yaxud uryadnik) və mühafizə dəstələrindən formalaşmalı və mühafizə dəstələri çavuşa tabe olmalı idi[258].

Hər bir quberniyada polis mühafizə dəstələri birbaşa qubernatora tabe idi. Mühafizə dəstələrində xidmət edən heyət qubernatorlar tərəfindən mülki şəxslərdən və əsasən ehtiyata buraxılmış istefada olan aşağı hərbi rütbələrdən cəlb edilirdi. Hər bir qubernatorun yanında, onun göstərişlərini yerinə yetirmək üçün polis mühafizə dəstəsinin müfəttişi var idi. Polis mühafizə dəstəsi-

---

[256] Кавказский календарь на 1871 г., отдел II, с.44; Кавказский календарь на 1879 г., отдел III, с.42; Кавказский календарь на 1885 г., отдел IV, с.58; Кавказский календарь на 1890 г., отдел II, с.146-147; Кавказский календарь на 1900 г., отдел III, с.195.

[257] Полное собрание законов Российской империи, СПб, Печатано в Типографии II отделения собственной его императорского величества Канцелярии, 1899. т.XIX, отделение 1, №16956, с.510-513.

[258] Yenə orada, s.511.

nin inspektorları və zabitləri həm xidmət müddətində, həm də təqaüdə çıxdıqdan sonra hərbi qaydalara uyğun olaraq bütün hüquq və güzəştlərdən istifadə edirlər[259].

Qəzalarda polis mühafizə dəstəsi birbaşa qəza rəislərinin, sahələrdə isə polis pristavlarının sərəncamında idi. Qəzalarda və sahələrdə başda kiçik zabit (çavuş) olmaqla polis mühafizə dəstələri yerlərdə asayişi və təhlükəsizliyi qorumaq, cinayətlərin qarşısını almaq və qanunu pozanları cəzalandırmaq üçün qəza rəislərinin göstərişlərini yerinə yetirirdilər. Polis mühafizəsinin başçısı olan zabitlər sahələrdə fəaliyyət göstərən mühafizə dəstələrinə cinayətkarları məsuliyyətə cəlb etmək üçün hüquq və vəzifələr həvalə etmişdilər. Cinayətkarları təqib edərkən bir sahənin mühafizəçiləri qonşu sahənin mühafizəçiləri ilə əvəz olunana qədər dayanmadan digər sahəyə də daxil ola bilərdilər[260].

Fərmanda eyni zamanda inspektor başda olmaqla polis mühafizə dəstələrinin hər bir üzvünün vəzifəsi, qanunu pozarkən cəzalandırma yolları, təqaüdə çıxarkən alacağı məbləğin miqdarı göstərilmişdir[261].

Hökumət polis mühafizə dəstələrinə böyük əhəmiyyət vermişdi və XX əsrin əvvəllərində İrəvan quberniyasının ayrı-ayrı qəzalarında daimi belə polis mühafizə dəstələri fəaliyyət göstərmişdir. İrəvan quberniyasında polis mühafizə dəstələri həm poçt yolu üzərində, həm də poçt yolundan kənarda mövqe tutmuş, həmin mühafizə dəstələri daimi və müvəqqəti olmuşdu. İrəvan qəzasında poçt yolu üzərində mövqe tutan polis mühafizə dəstələri bunlar idi:

1. Poçt yolu üzərində həmişəlik yerləşdirilmiş İrəvan şəhəri Polis idarəsi nəzdində ehtiyat polis dəstəsi;

---

[259] Полное собрание законов Российской империи, СПб, Печатано в Типографии II отделения собственной его императорского величества Канцелярии, 1899. т.XIX, отделение 1, №16956, с.511

[260] Полное собрание законов Российской империи, 1899. т.XIX, отделение 1, №16956, с.511.

[261] Yenə orada, s.512.

2. Yenibəyazid şəhərində yerləşən daimi İrəvan yarım polis mühafizə dəstəsi;
3. Kənəkir kəndində həmişəlik yerləşdirilmiş Kənəkir polis mühafizə dəstəsi;
4. Eyliyar yolu üzərində Eyliyar kəndinin əks tərəfində həmişəlik yerləşdirilmiş polis mühafizə dəstəsi;
5. Yeni Nikolayevka kəndində həmişəlik yerləşdirilmiş Zaqabaşı polis mühafizə dəstəsi;
6. Vaqarşapat kəndində yerləşmiş Cəfərabad kəndindən bir verst aralıda mövqe tutmuş Üçtəpə polis mühafizə dəstəsi;

   İrəvan qəzasında poçt yolundan kənarda mövqe tutmuş polis mühafizə dəstələri isə polis sahələri üzrə yerləşmiş və I polis sahəsinə aid olan mühafizə dəstələri bunlar idi:

1. Kamal kəndində həmişəlik mövqe tutmuş Kamal polis mühafizə dəstəsi;
2. Başgərni kəndində mövqe tutmuş Başgərni polis mühafizə dəstəsi. Bu mühafizə dəstəsi ildə iki dəfə- yanvarın 1-dən mayın 1-ə, oktyabrın 1-dən dekabrın 31-ə qədər fəaliyyət göstərirdi;
3. Göl-Aysor kəndində həmişəlik mövqe tutmuş Dərbənd dərə polis mühafizə dəstəsi;
4. Harun-burun kəndində yalnız yayda mövqe tutmuş Dərbənd dərə polis mühafizə dəstəsi;

II Polis sahəsinə aid həmişəlik polis mühafizə dəstələri bunlar idi:

1. Ağamzalı kəndində yerləşən Ağamzalı polis mühafizə dəstəsi;
2. Kyalalaey kəndində yerləşən Kyalaley polis mühafizə dəstəsi;

III Polis sahəsinə aid Kəmərli kəndində həmişəlik yerləşən Kəmərli mühafizə dəstəsi;

IV Polis sahəsinə aid polis mühafizə dəstələri isə bunlar idi:

1. Dəvəli kəndində yerləşən Dəvəli polis mühafizə dəstəsi;

2. Sədərək kəndində yerləşən Sədərək polis mühafizə dəstəsi;
3. Çimənkənd kəndində yerləşən Çimənkənd polis mühafizə dəstəsi;
4. Çanaxçı kəndində yerləşən Qaraxaç polis mühafizə dəstəsi;
5. Sarıxanlı kəndində yerləşən Borolan polis mühafizə dəstəsi. Bu mühafizə dəstəsi ildə iki dəfə - yanvarın 1-dən mayın 1-ə, noyabrın 1-dən dekabrın 31-ə qədər fəaliyyət göstərmişdi;
5. Gültəpə kəndində yerləşən Əzizəli polis mühafizə dəstəsi;
6. İsfahan kəndində yerləşən Boralan polis mühafizə dəstəsi[262].

**Naxçıvan qəzasında** poçt yolu üzərində həmişəlik mövqe tutmuş polis mühafizə dəstələri bunlar idi:

1. Ordubad şəhərində poçt yolu üzərində həmişəlik yerləşdirilmiş Polis idarəsi nəzdində ehtiyat polis dəstəsi;
2. Naxçıvan şəhərində həmişəlik yerləşən Naxçıvan polis mühafizə dəstəsi;
3. Çeşməbasar kəndində həmişəlik yerləşən Küznüt polis mühafizə dəstəsi;
4. Culfada həmişəlik yerləşən Culfa polis mühafizə dəstəsi;
5. Yaycı kəndindən 4 verst aralıda həmişəlik yerləşən Bağasərdar polis mühafizə dəstəsi;
6. Aza kəndində həmişəlik yerləşən Əzin polis mühafizə dəstəsi;
7. Ordubad şəhərində yerləşən Ordubad polis dəstəsi;
8. Dostu kəndindən iki verst aralıda həmişəlik yerləşən Dostu polis mühafizə dəstəsi;
9. Yuxarı Əylis kəndində həmişəlik yerləşən Yuxarı Əylis polis mühafizə dəstəsi;

Çinanabad kəndində həmişəlik yerləşən Çinanabad polis mühafizə dəstəsi;

Naxçıvan qəzasında poçt yolundan kənarda yerləşən polis mühafizə dəstələri də polis sahələri üzrə mövqe tutmuşdu. I polis sahəsində mövqe tutmuş mühafizə dəstələri bunlar idi:

---

[262] Памятная книжка Эриванской губернии на 1912 г., отдел IV, с.1-2.

1. Əliabad kəndindən 7,5 verst aralıda həmişəlik yerləşmiş Taxtakörpü mühafizə dəstəsi;
2. Şahtaxtı kəndində həmişəlik yerləşən Şaxtaxtı polis mühafizə dəstəsi;

II polis sahəsində mövqe tutmuş mühafizə dəstələri bunlar idi;

1. Çağrı kəndində daimi yerləşən 2-ci dairənin ehtiyat pristav qüvvələri;
2. Karmalinovka kəndində həmişəlik yerləşən Biçənək polis mühafizə dəstəsi;

III polis sahəsində mövqe tutmuş mühafizə dəstələri bunlar idi;

3. Abrakunis kəndində daimi yerləşən 3-ci dairənin ehtiyat pristav qüvvələri;
4. Cəmaləddin kəndindən 4 verst aralıda həmişəlik yerləşən Əlincəçay polis mühafizə dəstəsi[263];

**Sürməli qəzasında İğdır** poçt yolu üzərində həmişəlik mövqe tutmuş polis mühafizə dəstələri isə bunlar idi:

1. Əlican kəndindən 2 verst aralıda poçt yolu üzərində həmişəlik yerləşən Əlican polis mühafizə dəstəsi;
2. Qaraqoyunlu kəndində həmişəlik yerləşən Dəliqardaş polis mühafizə dəstəsi;
3. İğdır kəndində həmişəlik yerləşən İğdır polis mühafizə dəstəsi;

Qulp-Kağızman poçt yolu üzərində yerləşən polis mühafizə dəstəsi:

4. Güllük kəndində həmişəlik yerləşən Güllük polis mühafizə dəstəsi;
5. Qaraqala kəndindən 2 verst aralı poçt yolu üzərində həmişəlik yerləşən Qaraqala polis mühafizə dəstəsi;
6. Qulp kəndində həmişəlik yerləşən Qulp polis mühafizə dəstəsi;
7. Alxanlı kəndindən 6 verst aralı poçt yolu üzərində həmişəlik yerləşən Qızılqaya polis mühafizə dəstəsi;

---

[263] Памятная книжка Эриванской губернии на 1912 г., отдел IV, с.6-7.

8. Ağabəy kəndindən 2 verst aralı poçt yolu üzərində həmişəlik yerləşən Ağabəy polis mühafizə dəstəsi;

**Sürməli qəzasında poçt yolundan kənarda** yerləşən polis mühafizə dəstələri də polis sahələri üzrə mövqe tutmuşdu. I polis sahəsində mövqe tutmuş mühafizə dəstələri bunlar idi:

9. Orqov kəndində həmişəlik yerləşən Orqov polis mühafizə dəstəsi;
10. Əliqoçaq kəndində həmişəlik yerləşən Əliqoçaq polis mühafizə dəstəsi;
11. Nəcəfəli kəndində həmişəlik yerləşən Nəcəfəli polis mühafizə dəstəsi;

    II polis dairəsində mövqe tutmuş mühafizə dəstələri bunlar idi;

12. Daşburun kəndində daimi yerləşən Daşburun polis mühafizə dəstəsi;
13. Eminc kəndində həmişəlik yerləşən Eminc polis mühafizə dəstəsi;
14. Qaracbağ kəndində həmişəlik yerləşən Taraş polis mühafizə dəstəsi;

III polis dairəsində mövqe tutmuş mühafizə dəstələri isə bunlar idi;

15. Söyüdlü kəndindən 4 verst aralıda poçt yolundan aralıda həmişəlik yerləşən Söyüdlü polis mühafizə dəstəsi;
16. Cüllücə kəndində həmişəlik yerləşən Güllücə polis mühafizə dəstəsi;
17. Baş Sığnaq kəndində yalnız yay aylarında yerləşdirilmiş Baş Sığnaq polis mühafizə dəstəsi[264];

**Şərur-Dərələyəz qəzasında** I polis sahəsində həmişəlik mövqe tutmuş (burada poçt yolu yox idi) polis mühafizə dəstələri bunlar idi:

1. Başnoraşen kəndində həmişəlik yerləşən polis idarəsinin ehtiyat qüvvəsi olan Başnoraşen polis mühafizə dəstəsi;
2. Noraşen dəmir yolu stansiyasında həmişəlik yerləşən Noraşen polis mühafizə dəstəsi;

---

[264] Памятная книжка Эриванской губернии на 1912 г., отдел IV, с.4-5.

3. Xanlıqlar kəndində həmişəlik yerləşən Xanlıqlar polis mühafizə dəstəsi;
4. Vəlidağ dəmir yolu ayrıcında və Quşi-Dəmirçi kəndindən 4 verst aralıda həmişəlik yerləşən Qurd qapısı polis mühafizə dəstəsi;
5. Püsian kəndində daimi yerləşən Püsian polis mühafizə dəstəsi;
6. Xəlifə-Ağı kəndindən 4 verst aralıda həmişəlik yerləşən Basarkeçər polis mühafizə dəstəsi

   II polis sahəsində mövqe tutmuş mühafizə dəstələri bunlar idi;
7. Danziq kəndində həmişəlik yerləşən Danziq polis mühafizə dəstəsi;
8. Keşişkənd kəndində həmişəlik yerləşən Keşişkənd polis mühafizə dəstəsi;
9. Ağkənd kəndində həmişəlik yerləşən Ağkənd polis mühafizə dəstəsi;
10. Yelpin kəndində həmişəlik yerləşən Yelpin polis mühafizə dəstəsi;
11. Ger-Ger kəndində həmişəlik yerləşən Ger-Ger polis mühafizə dəstəsi;
12. Cil kəndində həmişəlik yerləşən Cil polis mühafizə dəstəsi;
13. İstisu kəndində yalnız yay aylarında mövqe tutan İstisu polis mühafizə dəstəsi[265];

**Yenibəyazid qəzasında** poçt yolu üzərində həmişəlik mövqe tutmuş polis mühafizə dəstələri bunlar idi:

1. Yenibəyazid şəhərində poçt yolu üzərində həmişəlik yerləşdirilmiş Yenibəyazid polis mühafizə dəstəsi;

İrəvan şəhər poçt yolu üzərində yerləşən Yenibəyazid polis mühafizə dəstəsi:

2. Hacımuğan kəndində həmişəlik yerləşən Hacımuğan polis mühafizə dəstəsi;
3. Yelenovka kəndində həmişəlik yerləşən Yelenovka polis mühafizə dəstəsi;

---

[265] Памятная книжка Эриванской губернии на 1912 г., отдел IV, с.5-6.

4. Aşağı Axtı kəndində həmişəlik yerləşən Aşağı Axtı polis mühafizə dəstəsi;
5. Quru-Fantan kəndində həmişəlik yerləşən Quru-Fantan polis mühafizə dəstəsi;

   Dilican poçt yolu üzərində yerləşən mühafizə dəstələri:

6. Çubuxlu kəndindən 4 verst aralı Yelenovka Semyonovka yolu üzərində həmişəlik yerləşən Qalaminarə polis mühafizə dəstəsi;
7. Semyonovka kəndində yerləşən Semyonovka polis mühafizə dəstəsi[266];

**Yenibəyazid qəzasında poçt yolundan kənarda** yerləşən polis mühafizə dəstələri də polis sahələri üzrə mövqe tutmuşdu. I polis sahəsində mövqe tutmuş mühafizə dəstələri bunlar idi:

8. Tayçarıx kəndində həmişəlik yerləşən Tayçarıx polis mühafizə dəstəsi;
9. Kankan kəndində həmişəlik yerləşən Kankan polis mühafizə dəstəsi;
10. Dərəçiçək kəndində yalnız yay aylarında yerləşən Dərəçiçək polis mühafizə dəstəsi;

II polis sahəsində mövqe tutmuş mühafizə dəstələri bunlar idi:

11. Ördəkli kəndindən 7 verst aralıda yalnız yayda yerləşən Qızılziyarət polis mühafizə dəstəsi;

   III polis sahəsində mövqe tutmuş mühafizə dəstələri bunlar idi:

12. Əhali yaşamayan Ərənos yolu üzərində Yenibəyazid-Basarkeçərdən 3 verst aralı həmişəlik yerləşən Ərənos polis mühafizə dəstəsi;
13. Qaranlıq kəndində həmişəlik yerləşən Qaranlıq polis mühafizə dəstəsi;
14. Qızılxaraba kəndindən 4 verst aralı Ayrıca qışlağında yalnız yayda yerləşən Ayrıca polis mühafizə dəstəsi;

IV polis sahəsində mövqe tutmuş mühafizə dəstələri isə bunlar idi;

---

[266] Памятная книжка Эриванской губернии на 1912 г., отдел IV, с.3-4.

15. Kolanıkorlan kəndində daimi yerləşən Kolanıkorlan polis mühafizə dəstəsi;
16. Basarkeçər kəndində həmişəlik yerləşən Basarkeçər polis mühafizə dəstəsi;
17. Zod kəndində yalnız yayda yerləşən Məzrə Güney polis mühafizə dəstəsi;
18. Şeytanağac kəndində həmişəlik yerləşən Şeytanağac polis mühafizə dəstəsi[267];

**Aleksandropol qəzasında** da poçt yolu üzərində polis mühafizə dəstələri mövqe tutmuşdu. Gər-Gər poçt yolu üzərində yerləşmiş mühafizə dəstələri bunlar idi:

1. Böyük Qarakilsə kəndində həmişəlik yerləşən Böyük Qarakilsə polis mühafizə dəstəsi;
2. Bozabdal kəndində həmişəlik yerləşən Bozabdal polis mühafizə dəstəsi;
3. Dilican poçt yolu üzərində yerləşən Həmzəçimən kəndində həmişəlik mövqe tutmuş Həmzəçimən polis mühafizə dəstəsi;
4. Axalsıx poçt yolu üzərində yerləşən Aleksandropol şəhərində həmişəlik mövqe tutmuş Aleksandropol polis mühafizə dəstəsi;
5. Axalsıx poçt yolu üzərində yerləşən Gürcel kəndində həmişəlik mövqe tutmuş Gürcel polis mühafizə dəstəsi;
6. Axalsıx poçt yolu üzərində yerləşən Qızılqoç kəndində həmişəlik mövqe tutmuş Qızılqoç polis mühafizə dəstəsi;

Aleksandropol qəzasında poçt yolundan kənarda yerləşən mühafizə dəstələri də polis sahələri üzrə mövqe tutmuşdu. I polis sahəsində yerləşən mühafizə dəstələri bunlar idi:

7. Kürsalı kəndində müvəqqəti yerləşən Kürsalı polis mühafizə dəstəsi;
8. Nalbənd kəndində həmişəlik yerləşən Nalbənd polis mühafizə dəstəsi;

II polis dairəsində yerləşən polis mühafizə dəstəsi bunlar idi:

---

[267] Памятная книжка Эриванской губернии на 1912 г., отдел IV, с.3-4.

9. Kaftarlı kəndində həmişəlik yerləşən Kaftarlı polis mühafizə dəstəsi;
10. Hacıxəlil kəndində həmişəlik yerləşən Hacıxəlil polis mühafizə dəstəsi;
11. Mirək kəndində yalnız yayda yerləşən Axırzaman polis mühafizə dəstəsi;

III polis sahəsində yerləşən polis mühafizə dəstəsi bunlar idi:

12. 3-cü Qarakilsə kəndində yalnız yayda yerləşən Əlixan polis mühafizə dəstəsi;
13. Dərəköy kəndində yalnız yayda yerləşən Şiştəpə polis mühafizə dəstəsi;
14. Bozyoxuş kəndindən 8 verst aralıda köçəri İlxıabi kəndində yalnız yayda yerləşən Qaraxaç polis mühafizə dəstəsi;

IV polis sahəsində yerləşən polis mühafizə dəstələri isə bunlar idi:

15. Dəmir yolundan 0,75 verst aralıda Yəqin stansiyasında həmişəlik yerləşən Yəqin polis mühafizə dəstəsi;
16. Buğdaşen kəndində həmişəlik yerləşən Buğdaşen polis mühafizə dəstəsi;
17. Söyüdlü kəndində həmişəlik yerləşən Söyüdlü polis mühafizə dəstəsi[268];

Üçmüəzzin qəzasında Üçmüəzzin-İğdır poçt yolu üzərində yerləşən polis mühafizə dəstələri bunlar idi:

1. Vaqarşapat kəndində həmişəlik yerləşən polis idarəsinin ehtiyat polis mühafizə dəstəsi;
2. Qarxun kəndində həmişəlik yerləşən Qarxun polis mühafizə dəstəsi:
3. İrəvan-Əştərək kəndindən 10 verst aralıda əhalinin məskunlaşmadığı yerdə həmişəlik yerləşmiş Əştərək polis mühafizə dəstəsi;

**Üçmüəzzin qəzasında** poçt yolundan kənarda yerləşən mühafizə dəstələri də polis sahələri üzrə mövqe tutmuşdu. II polis sahəsində yerləşən mühafizə dəstələri bunlar idi:

---

[268] Памятная книжка Эриванской губернии на 1912 г., отдел IV, с.7-8.

4. Əştərək kəndində həmişəlik yerləşmiş 2-ci dairə pristavlığının ehtiyat qüvvələri;
5. Baş Abaran kəndində həmişəlik yerləşən Baş Abaran polis mühafizə dəstəsi:
6. Alagöz dağında bu dairənin köçəri payonlarında yalnız yay aylarında mövqe tutmuş polis mühafizə dəstəsi;

   III polis sahəsində yerləşən mühafizə dəstələri bunlar idi:
7. Sərdarabad kəndində həmişəlik yerləşən Kürdqulu polis mühafizə dəstəsi;
8. Hacı Bayramlı kəndindən 5 verst aralıda əhalinin məskunlaşmadığı yerdə həmişəlik mövqe tutmuş Hacı Bayramlı polis mühafizə dəstəsi;
9. Sərdarabad kəndindən 5 verst, Araz stansiyasından 3 vert aralıda əhalinin məskunlaşmadığı yerdə həmişəlik mövqe tutmuş Sərdarabad polis mühafizə dəstəsi;
10. Şahvarud kəndindən 5 verst aralıda əhalinin məskunlaşmadığı yerdə həmişəlik mövqe tutmuş Şahvarud polis mühafizə dəstəsi;

    IV polis sahəsində yerləşən mühafizə dəstələri isə bunlar idi:
11. Talın kəndində həmişəlik yerləşmiş 4-cü sahə Pristavının ehtiyat polis mühafizə dəstəsi;
12. Qaraburun qışlağından 6 verst aralı Qaraburun dəmiryolu stansiyasında yerləşən Qaraburun polis mühafizə dəstəsi;
13. Karvansaray kəndində həmişəlik yerləşən Karvansaray polis mühafizə dəstəsi:
14. Qızılqulu kəndindən 1 verst aralı dəmiryolu suçıxaran stansiyasında həmişəlik yerləşən Qızılqulu polis mühafizə dəstəsi;
15. Uzunkənd qışlağından 4 verst aralı Alagöz dəmiryolu stansiyasında yerləşən Alagöz polis mühafizə dəstəsi;
16. Bu dairənin köçəri rayonlarını nəzarət edən, yalnız Alagöz dağında yayda mövqe tutmuş polis mühafizə dəstəsi;
17. Aleksandropol qəzasında yalnız yayda yerləşmiş Üçmüəzzin qəzasının köçəri maldar dəstəsinə nəzarət edən polis mühafizə dəstəsi[269].

---

[269] Памятная книжка Эриванской губернии на 1912 г., отдел IV, с.3-4.

Beləliklə, İrəvan quberniyasında 119 polis mühafizə dəstəsi fəaliyyət göstərmiş, bunlardan 40-ı poçt yolu üzərində, 79-u isə poçt yolundan kənarda mövqe tutmuşdur.

İrəvan quberniya idarəçiliyinə XIX əsrin 90-cı illərində **quberniya həbsxana komitəsinə Qəyyumluq idarəsi** də daxil olmuşdu. Bu komitə iki-əsas və Aleksandropol bölməsindən ibarət idi. Əsas komitəni başda İrəvan qubernatoru olmaqla direktorlar idarə etmişdi. İrəvan qubernatoru Qəyyumluq idarəsinin vitse-prezidenti hesab olunurdu. Komitənin direktorları isə bunlar idi: 1 vitse-qubernator (o həm də həbsxana komitəsinin kargüzarlar dəstəsinə nəzarət edirdi), 1 İrəvan xəzinə palatasının sədri, 1 İrəvan şəhər başçısı, 1 İrəvan gimnaziyasının direktoru, 1 quberniya mühəndisi, 1 İrəvan dairə məhkəməsinin sədri, 1 İrəvan dairə məhkəməsinin prokuroru, 1 İrəvan quberniya həkimi, 1 İrəvan kəndli məsələləri üzrə idarənin üzvü, 1 İrəvan polismeysteri, 1 ikinci dərəcəli 1 və yaxud 4 tacir[270].

Aleksandropol bölməsinin həbsxana qəyyumluq cəmiyyətinin direktorları isə bunlar idi: 1 Aleksadropol qəza rəisi, 1 Aleksandropol dini dairəsinin keşişi, 1 Aleksandropol şəhər başçısı, 1 birinci dərəcəli tacir, 2 ikinci dərəcəli tacir, 1 artilleriya generai-leytenantı, 1 milis praporşiki, 1 İrəvan dairə məhkəməsinin yoldaşlıq prokuroru[271].

İrəvan quberniya idarəçiliyinə quberniya **hərbi mükəlləfiyyətlər idarəsi** də daxil idi. Bu hərbi idarə iki-piyada və hərbi suvari mükəlləfiyyətlər idarəsindən ibarət idi. Hər iki idarənin qəzalar üzrə şöbələri də fəaliyyət göstərmişdi. Hərbi mükəlləfiyyətlər idarəsinin sədri İrəvan qubernatoru idi. İdarənin üzvləri isə

---

[270] Кавказский календарь на 1890 г., отдел II, с.141; Памятная книжка Эриванской губернии на 1892 г., с.134-135; Кавказский календарь на 1900 г., отдел III, с.197; Памятная книжка Эриванской губернии на 1902 г., с.54; Памятная книжка Эриванской губернии на 1914 г., с.21-22.

[271] Кавказский календарь на 1890 г., отдел II, с.141; Кавказский календарь на 1900 г., отдел III, с.197; Памятная книжка Эриванской губернии на 1902 г., с.55; Памятная книжка Эриванской губернии на 1914 г., с.22.

bunlar idi: 1 vitse-qubernator, 1 İrəvan dairə məhkəməsinin prokuroru, 1 ehtiyat 263 nömrəli Yenibəyazid piyada alayının komandiri, 1 kəndli məsələləri üzrə idarənin üzvü, 1 ikinci Qafqaz diviziyasının həkimi, 1 quberniya həkimi və 1 katib[272].

İrəvan quberniyasının **hərbi mükəlləfiyyətlər idarəsi** qəzalar üzrə hərbi idarələrə bölünmüşdü. 1906-cı ilin məlumatına görə, İrəvan quberniyasında hərbi idarələr İrəvan və Aleksandropol qəzalarında yerləşmişdi. İrəvan qəzasının hərbi idarəsinə İrəvan, Naxçıvan, Şərur-Dərələyəz və Yenibəyazid qəzaları, Aleksandropol qəzasına isə Aleksandropol, Üçmüəzzin və Sürməli qəzaları daxil idi[273]. Lakin 1914-cü il məlumatında hərbi mükəlləfiyyətlər idarəsinin qəzalar üzrə hərbi piyada idarələri belə göstərilmiş və həmin idarələr aşağıdakılardır:

1. **İrəvan hərbi idarəsi**. İdarənin sədri İrəvan qəza rəisi idi. Üzvləri: 1 İrəvan qəzasının hərbi rəisi, 1 İrəvan qarnizonu rəisinin təyin etdiyi qərargah rəisi, 1-ci bölmənin barışdırıcı münsifi, 1 üçüncü bölmənin barışdırıcı münsifi, İrəvan şəhər dumasının üzvü, 1 birinci çağırış sahəsindən Norokovit kənd sakini, 2 ikinci çağırış sahəsindən Dəvəli kənd sakinləri, 1 kargüzar;
2. **Naxçıvan hərbi idarəsi**. Bu idarəyə Naxçıvan və Şərur-Dərələyəz qəzaları daxil olmuş, idarənin sədri Naxçıvan qəza rəisi idi. Üzvləri: 1 Naxçıvan qəzasının 1-ci bölməsinin barışdırıcı münsifi, 1 Naxçıvan yerli komandasının rəisi, 1 kənd sakini, 1 şəhər sakini, 1 ikinci çağırış sahəsindən Naxçıvan qəzasının III bölməsinin barışdırıcı münsifi, 1 Ordubad yerli komandasının rəisi, 1 Ordubad şəhər sakini, 1 kənd sakini, 1 üçüncü çağırış sahəsindən Şərur-Dərələyəz qəzasının I bölməsinin barışdırıcı münsifi, 1 Naxçıvan yerli komandasının rəisi, 1 kənd sakini və 1 kargüzar;

---

[272] Кавказский календарь на 1890 г., отдел II, с.141; Памятная книжка Эриванской губернии на 1892 г., с.133; Памятная книжка Эриванской губернии на 1902 г., с.53; Памятная книжка Эриванской губернии на 1914 г., с.25-26; Кавказский календарь на 1917 г., отдел III, с.295-296.

[273] Памятная книжка Эриванской губернии на 1906 г., отдел II, с.39.

3. **Yenibəyazid hərbi idarəsi**. İdarənin sədri Yenibəyazid qəzasının rəisi idi. Üzvləri: 2 barışdırıcı münsif, 1-ci sahədən 1 sakin, 2-ci sahədən 1 sakin, 3-cü sahədən 1 sakin və 1 kargüzar;
4. **Aleksandropol hərbi idarəsi**. İdarənin sədri Aleksandropol qəzasının rəisi idi. Üzvləri: 1 Aleksandropol qəzasının hərbi rəisi, 1 İrəvan qarnizonu rəisinin təyin etdiyi qərargah rəisi, 1-ci bölmənin barışdırıcı münsifi, 1 ikinci sahənin rəisi, kənd sakinlərindən - 1-ci sahənin Hamamlı kənd sakini, 1 ikinci sahənin Kaftarlı kənd sakini, 1 üçüncü sahənin Ciftalı kənd sakini, 1 dördüncü sahənin Zərinc kənd sakini, 1 kargüzar;
5. **Üçmüəzzin hərbi idarəsi**. İdarənin sədri Üçmüəzzin qəzasının rəisi idi. Üzvləri: 1 dördüncü bölmənin podpolkovniki, 1 birinci bölmənin kapitanı, kənd sakinlərindən - 1 birinci çağırış sahəsinin Vaqarşapat kənd sakini, 1 ikinci çağırış sahəsinin Əştərək kənd sakini, 1 üçüncü çağırış sahəsinin İğdır kənd sakini və 1 kargüzar[274].

İrəvan quberniyasında **hərbi-süvari mükəlləfiyyətlər idarəsi** Sürməli və Şərur-Dərələyəz qəzalarında yerləşmişdi. Sürməli qəzasının hərbi-süvari mükəlləfiyyətlər idarəsinin sədri Sürməli qəzasının rəisi idi. Üzvləri isə bunlar idi: 1 Sürməli qəzasının 1-ci bölməsinin barışdırıcı münsifi, 1 Sürməli qəzasının rəisinin köməkçisi, 2 biri Azərbaycan türki və biri də erməni olan yerli əhali.

Şərur-Dərələyəz qəzasının hərbi-süvari mükəlləfiyyətlər idarəsinin də sədri Şərur-Dərələyəz qəzasının rəisi idi. Üzvləri isə bunlar idi: 1 Şərur-Dərələyəz qəzasının 1-ci bölməsinin barışdırıcı münsifi, 1 Sürməli qəzasının rəisinin köməkçisi[275].

İrəvan quberniyasında qoşun dəstələrinin hərbi qərargahları İrəvan, Aleksandropol şəhərlərində və İğdır kəndində yerləşmişdi. İrəvan şəhərində yerləşən qoşun dəstələrinin qərargahları bun-

---

[274] Памятная книжка Эриванской губернии на 1914 г., отдел I, с.26-28.
[275] Yenə orada, c.28.

lar idi: 1. 2-ci Qafqaz kazak diviziyasının qərargahı; 2. Kuban kazak qoşununun 1-ci Poltaviya alayı; 3. 5-ci süvari-artilleriya batareyası; 4. 2-ci Qafqaz atıcı briqadasının 5-ci, 7-ci və 8-ci batalyonu; 5. İrəvan briqadası idarəsinin ayrı-ayrı sərhəd mühafizə korpuslarının qərargahı;

Aleksandropol şəhərində yerləşən qoşun dəstələrinin qərargahları bunlar idi: 1. Aleksandropol mühəndis məntəqəsi; 2. Rəislərin 2-ci Qafqaz artilleriyasının hərbi təlim meydanı idarəsi; 3. 39-cu piyada diviziyasının qərargahı; 4. 80-ci piyada Kabardin alayı; 5. 153-cü piyada Bakı alayı; 6. 39-cu artilleriya briqadası; 7. 2-ci artilleriya səyyar anbarı; 8. 45-ci draqun Şimal alayı;

Sürməli qəzasının mərkəzi olan İğdır kəndində isə 2-ci Kuban piyada kazak alayı yerləşmişdi[276].

Beləliklə, İrəvan quberniyası inzibati-ərazi bölgüsünə görə qəzalara, polis sahələrinə, kənd cəmiyyətlərinə və kəndlərə bölünməklə bərabər, idarəçilkdə quberniya idarəsindən, hüquqi cəhətdən məhkəmə və prokurorluqdan, maliyyə bölməsindən, hərbidən, mühafizə dəstələrindən səhiyyə, baytarlıq və s. idarə orqanlarından ibarət olmuşdu. Bu bölmələrin hər birinin özünün icra orqanları və konkret fəaliyyət istiqamətləri vardı.

**Şəhərlər.** İrəvan quberniyasının inzibati-ərazi bölgüsünə qəza mərkəzləri olan şəhərlər də daxil idi. Bu şəhərlərdən İrəvan həm qəza mərkəzi kimi, həm də quberniya mərkəzi, digər şəhərlər isə qəza mərkəzi kimi fəaliyyət göstərmişdilər. Quberniyanın mərkəzi Azərbaycanın qədim mədəniyyət və ticarət mərkəzlərindən biri olan İrəvan şəhəri olmuşdur. İrəvan şəhəri işğaldan sonra yaradılmış inzibati-ərazi bölgüsü olan "Erməni vilayəti"nin (1828-1840-ci illər), Tiflis quberniyasına daxil olan İrəvan qəzasının (1840-1849) və İrəvan quberniyasının (1850-ci ildən) mərkəzi kimi fəaliyyət göstərmişdir.

---

[276] Памятная книжка Эриванской губернии на 1902 г., отдел II, с.19; Памятная книжка Эриванской губернии на 1906 г., отдел II, с.39; Памятная книжка Эриванской губернии на 1912 г., отдел II, с.33-34; Памятная книжка Эриванской губернии на 1914 г., отдел II, с.40.

İrəvan şəhəri bir məlumata görə, $40^{0}10^{/}$ şimal en, $62^{0}$ $19^{/}$ şərq uzunluğunda, bir məlumata görə $40^{0}10^{/}$ şimal en, $44^{0}30^{/}$ $38^{0}$ $51^{/}$ şərq uzunluğunda, digər məlumata görə isə $40^{0}$ $9^{/}$ $41^{//}9^{///}$ şimal en, $62^{0}24^{/}25^{//}$ uzunluq, başqa bir məlumata görə isə $40^{0}$ $10^{/}$ şimal en, $44^{0}$ $30^{/}$ uzunluq dairəsində körpü salınmış Zəngi çayının sol tərəfində, təpəliklərlə müşayət olunan, hər tərəfdən dağlarla əhatə edilmiş düzənlikdə yerləşmişdi. O, şimaldan və şərqdan Kənəkir, Avan, Crvez kəndləri, Kalar çöllüyü ilə, qərbdən Norokovit, Yuxarı Şinkovit, Aşağı Şinkovit, Sarvanlar, Cəfərabad, Şirabad və Yevqard kəndləri, cənubdan isə Kalar çöllüyü ilə həmsərhəd olmuşdur. İrəvan quberniya mərkəzi olduqdan sonra onun ərazisi daha da genişlənmiş, məhəllələrinin sayı artmışdır. Mənbələrdə ayrı-ayrı illər üzrə İrəvan şəhərinin böyüməsi və sahəsi haqqında məlumatlara rast gəlmək mümkündür. Məsələn, XIX əsrin ortalarına yaxın İrəvan şəhəri yenidən qurularkən ayrıca kənd olan Çölməkçinin ona birləşməsi nəticəsində əvvəl sahəsi 30 kv.verst, XIX əsrin 80-ci illərinin əvvəllərində şəhərətrafı olan Yenikənd, Çomakçı, Köhnə qalanın, Şiləçi mahalının, şəhərətrafı Şahmahdud gölün, Köhnəbəyazid, Malakan slabodalarının və Üçmüəzzin yolunda olan tikilinin ona birləşdirilməsi nəticəsində sahəsi 43 kv. verst, torpaqlarının ümümi həcmi şəhərətrafı və bağlarla birlikdə 4641 desyatin, 1137 kv. sajen, 1912-ci il məlumatına görə isə şəhərin ümumi sahəsi 90 kv.verst və yaxud 9450 desyatin olmuşdur[277].

İşğalın ilk dövrlərində İrəvan şəhəri üç - "Şəhər", "Təpəbaşı" və "Dəmirbulaq" məhəllələrindən ibarət olmuşdur. Şəhər məhəlləsi İrəvanın şimal-şərqində, Təpəbaşı məhəlləsi qərbdə, Də-

---

[277] Военно-статистическое обозрение Российской империи, 1853, с.253-254; Кавказский календарь на 1852 г., с.436; Первая всеобщая перепись населения Российской империи 1897, Эриванская губерния, с.1; Сборник материалов для описания местностей и племен Кавказа, 1881, выпуск 1, с.9; Энциклопедический словар Брокгауз и Ефрона, т.XLI (81), с.14; Памятная книжка Эриванской губернии на 1912 г., отдел II, с.2.

mirbulaq məhəlləsi isə cənub-şərq hissəsində yerləşmişdi[278]. Lakin quberniya mərkəzi olduqdan sonra İrəvan şəhəri iki hissəyə "Şəhər" və "Dəmirbulaq" polis idarələrinə bölünmüş, bu polis idarələri isə Təpəbaşı, Şəhər, Dəmirbulaq və Çölməkçi məhəllələrini özündə birləşdirmişdi. Şəhərin şərq və cənub-şərq hissəsində yerləşən Şəhər və Dəmirbulaq məhəllələri düzənlikdə, Təpəbaşı və Çölməkçi məhəllələri isə təpəlikdə yerləşmişdi. Şəhər məhəlləsi başdan-başa bağlarla əhatə olunmuş, hətta bağların bolluğundan evlər görünməz olmuşdur. Dəmirbulaq məhəlləsinin bir hissəsi yeraltı bulaqların çoxluğundan bataqlığa çevrilmişdi[279].

İrəvan quberniya mərkəzi olduqdan sonra günü-gündən böyümüş və məhəllələrinin sayı artmışdır. XIX yüzilliyin 80-ci illərinin əvvəllərində İrəvan şəhərinin məhəllələrinin sayı artaraq 7-Təpəbaşı, Şəhər, Xanlıqbağı, Dərəkənd, Çölməkçi, Malakan, Dəmirbulaqdan ibarət olmuşdur[280].

İrəvan şəhəri böyüdükcə və məhəllələrinin sayı artdıqca küçə və dalanların sayı da artmışdır. 1908-ci il iyunun 23-də İrəvan şəhər başçısının şəhər texniki Q.Mehrabova yazdığı rəsmi məktubda küçə və dalanların adlarını bildirən xüsusi lövhəciklərin vurulmasının vacib olduğunu bildirmiş, məktubda adları bildirilməklə 44 küçə və 456 ədəd dalan göstərilmişdir. Məktubda qeyd edilən küçə və onların malik olduğu dalanlar bunlar idi: 1. Çar küçəsi və 20 dalan; 2. Bebutov küçəsi və 18 dalan; 3. Tiflis küçəsi və 4 dalan; 4. Nəzərov küçəsi və 22 dalan; Hamam küçəsi və 6 dalan; 6 Tarxanov küçəsi və 26 dalan; 7. Həkim küçəsi və 14 dalan; 8. Kilsə küçəsi və 4 dalan; 9. Qala küçəsi və 10 dalan; 10. Astafyev küçəsi və 28 dalan; 11. Ter-Quqasov küçəsi və 24

---

[278] Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.464-65; Qarayev E., Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında, s.310.

[279] Кавказский календарь на 1852 г., с.442; Военно-статистическое обозрение Российской империи, 1853, с.254.

[280] Сборник материалов для описания местностей и племен Кавказа, 1881, выпуск 1, с.10.

dalan; 12. Quberniya küçəsi və 20 dalan; 13. Poçt küçəsi və 10 dalan; 14. I Adsız küçə və 4 dalan; 15. Çölməkçi küçəsi və 2 dalan; 16 Küçə adlı küçə və 8 dalan; 17. Naxçıvan küçəsi və 6 dalan; 18. Bazar küçəsi və 16 dalan; 19. Şəriət küçəsi və 8 dalan; 20. Aptek küçəsi və 14 dalan; 21. Rəngsaz küçəsi və 14 dalan; 22. Karvansaray küçəsi və 30 dalan; 23. Erməni küçəsi və 20 dalan; 24. Sultan küçəsi və 4 dalan; 25. Marukov küçəsi və 6 dalan; 26. Daşlıküçə küçəsi və 6 dalan; 27. Köhnəqazma küşəsi və 10 dalan; 28. Yenikilsə küçəsi və 4 dalan; 29. Paşaxan küçəsi və 6 dalan; 30. Qəriblərocağı küçəsi və 6 dalan; 31. Dəyirmanlı küçə və 6 dalan; 32. Məscid dalanı küçəsi və 6 dalan; 33. Fəhlə bazarı küçəsi və 4 dalan; 34. Təpəbaşı küçəsi və 8 dalan; 35. Surbarkilsə küçəsi və 8 dalan; 36. Qəbirsanlıq küçəsi və 8 dalan; 37.Naqib küçə və 2 dalan; 38. Mircəfər küçəsi və 8 dalan; 39. Rüstəmxan küçəsi və 4 dalan; 40. Qaxtaxan küçəsi və 4 dalan; 41. Xocameydan küçəsi və 4 dalan; 42. II Adsız küçə və 8 dalan; 43. III Adsız küçə və 8 dalan; 44. IV Adsız küçə və  8 dalan[281].

İrəvan şəhərinin küçələrinin sayı haqqında verilən bu məlumat yarımçıq idi. Şəhər texnikinin sonrakı məlumatından görmək olar ki, İrəvan şəhərində yuxarıda adı çəkilənlərdən əlavə küçələr də olmuşdur. Həmin küçələr bunlar idi: 1. Mamırlı küçəsi və 6 dalanı; 2. Keçi küçəsi və 4 dalan; 3. Yenibulaq küçəsi və 6 dalan; 4. Bəy küçəsi və 4 dalan; 5. Köhnə kilsə və 5 dalan; 6. Kətan dalanı küçəsi və 4 dalan; 7. Məhkəmə küçəsi və 4 dalan; 8. Milyoner küçəsi və 4 dalan; 9. Əyridalan küçəsi və 4  dalan; 10. Dəyirmançı küçəsi və 4 dalan; 11. Malakan küçəsi və 7 dalan; 12. Arxitektur küçəsi və 2 dalan; 13. Dükanlı küçə küçə və 6 dalan; 14. Bağ küçə və 2 dalan; 15. Astavaçatzin küçəsi və 4 dalan; 16. Qəribanoş küçəsi və 4 dalan; 17. Xəlvət dalanlı küçəsi və 3 dalan; 18. Vəkilov küçəsi və 4 dalan; 19. Salahlar küçəsi və 4 dalan; 20. Adsız küçə və 4 dalan.

---

[281] Развитие Еревана после присоединения Восточной Армении к России, Сборник документов 1801-1917, под ред. Ц.П.Агаян. Ереван: Изд-во Ерев унв-та, 1978, с.356.

Beləliklə, hər iki məlumatdan belə çıxır ki, XX əsrin əvvəllərində İrəvan şəhərində 64 küçə və bu küçələrin 551 dalanı olmuşdur[282].

Küçə və dalanlardan əlavə, İrəvan şəhərində meydanlar da vardı. İşğaldan qabaq irəvanlılar bu meydanlarda müxtəlif idman oyunları-güləş, at yarışmaları keçirir, gəzişir və bir yerə yığışıb söhbət edirdilər. Hətta əhalinin bu meydanlarda yığışmasından istifadə edərək tacirlər ticarət aparırdılar. 1829-1832-ci illərdə keçirilmiş kameral təsvirdə İrəvan şəhərində 5-Xanbağı, Bazarla qala arasında meydan, Zalı xan, İşçi bazarı, Hüseynəli xan meydanları göstərilmişdir (Şopen, s.469). Lakin işğaldan sonra çar icra orqanları meydanların adlarını dəyişmişdilər. XX yüzilliyin əvvəllərində küçə və dalanlara ad verildiyi kimi, meydanlara da ad verilmişdir. Meydanların adları tamamilə dəyişdirilmiş və həmin meydanlar bunlardır: 1. Məktəb; 2. Yeni Pənahxan; 3. Anbar-Dəmirbulaq; 4. Ticarət; 5. Çörəkçi; Yelməkçi[283].

İrəvan şəhəri başdan-başa bağlarla və üzümlüklərlə örtülü olmuşdu. İqlim cəhətdən İrəvan şəhəri yayda isti və qışda çox soyuq olurdu. Yayda kölgədə temppratur +40$^0$ dərəcəyə, qışda isə -20$^0$, bəzi hallarda -26,7$^0$-yə çatırdı. Yay ayında şəhərdə yaşamaq çətin olduğundan qubernator başda olmaqla bütün xidmət adamları İrəvandan 50 verst aralı olan Dərəçiçəyə dincəlməyə gedirdilər. Yerli əhali də hər il iyunun 1-dən sürüləri ilə dağlara çəkilirdilər[284].

İrəvan şəhəri su təchizatı cəhətdən bol bir şəhər idi. İrəvan şəhərinin su təchizatı Zəngi və Qırxbulaq çaylarından çəkilmiş arxlarla təmin olunurdu. Bu arxlar sonuncu İrəvan hakimi Hüseynqulu xan (1806-1827) tərəfindən çəkdirilmişdi. Arxlar çox

---

[282] Развитие Еревана после присоединения Восточной Армении к России, Сборник документов 1801-1917, с.356-357.

[283] Yenə orada.

[284] Кавказский календарь на 1852 г., с.437; Кавказский сборник [в 32 томах], Под. ред. В.А.Потто, Тифлис, Издатель Вел. Кн. Михаил Николаевич, 1908. т.XXVIII, с.446-447; Линч Х.Ф.Б., Армения. Путевые очерки этюды, 1910, т.1, с.187; Сборник материалов для описания местностей и племен Кавказа, выпуск 21, с.172.

yüksək planlı şəkildə çəkilmiş, möhkəmləndirilmiş və su itkisiz, əla səviyyədə axırdı. Zəngi çayından şəhərə çayın sol tərəfindən Abuhəyat, 9,5 verst uzunluğunda uzanan Mamırlı, dağın içindən yarılan və uzunluğu 8 verst olan Dəlmə və Yeniköy arxları çəkilmişdi. Abuhəyat və Mamırlı arxları ilə Təpəbaşı məhəlləsinin bağları və Şəhər məhəlləsinin bir hissəsi, Yeniköy və Dəlmə arxları isə yalnız Zəngi çayının sağ sahilində yerləşən bağlar suvarılırdı. Qırxbulaqdan isə Paşalıq arxı, Haça-Kəvər və Çölməkçi arxları çəkilmiş, birinci iki arx Şəhər və Dəmirbulaq məhəllələrinin bağlarını, axırıncı arx isə Çölməkçinin bağ və əkin sahələrini suvarırdı. Bundan əlavə, İrəvan şəhərinin yaxınlığında daha iki arx var idi. Bu arxlar öz suyu ilə sayı 19-a çatmış dəyirmanları təmin edirdi[285].

Çəkilmiş arxlardan əlavə, İrəvan şəhərində əhalinin su təminatını təmin edən 196 və yaxud 200-ə qədər su quyusu qeydə alınmışdı[286]. XIX yüzilliyin 80-ci illərinin əvvəllərinə olan məlumatında İrəvan şəhərində 30 bulaq göstərilmişdir[287].

İrəvan şəhəri tarix boyu fasiləsiz paytaxt şəhər olduğundan burada həmişə kübar ailələr, nüfuzlu şəxslər cəmləşmiş, qala və məscidlərlə əhatə olunmuşdu. İrəvan sırf Azərbaycan şəhəri idi. XX yüzilliyin əvvəllərində İrəvan şəhərində olan rus müəlliflərindən biri onu “görünüşünə görə tatar (Azərbaycan türkləri-E.Q.) şəhəri” adlandırmışdı[288]. Hətta küçələr öz xarakterinə görə Asiya tipini saxlamışdı. Quberniya mərkəzi olduqdan sonra İrəvan şəhərində evlərin sayı da ildən-ilə artmışdı. Məsələn 1851-ci ildə İrəvan şəhərində 3 min, 1865-ci ildə 4502 ev qeydə alınmış-

---

[285] Кавказский календарь на 1852 г., с.436; Военно-статическое обозрение Эриванской губернии на 1853 г., с.255; Гакстгаузен А., Закавказский край [в 2 томах], СПб, т.1, 1857, с.167-168; Сборник материалов для описания местностей и племен Кавказа, 1881. выпуск 1, с.22-23.

[286] Кавказский календарь на 1852 г., с.439; Военно-статическое обозрение Эриванской губернии на 1853 г., с.255.

[287] Сборник материалов для описания местностей и племен Кавказа, 1881. выпуск 1, с.38.

[288] Желиховская В., Кавказ и Закавказье, В.Желиховская, Москва, Книга издательство К.И.Тихомирова, 1913, с.42.

dı[289]. 1868-ci il məlumatında isə 4603 bina var idi ki, bunlardan 2996-ı yaşayış evi, (76 ev xəzinə, 6 ev kilsə və monastra məxsus), 35-i ticarət malları üçün bina, 1560-ı şəxsi dükan (5-i kilsə və monastra məxsus) və 7-si şəxsi hamam idi[290]. XX yüzilliyin əvvəllərində isə 3131 ev qeydə alınmışdır[291].

Evlərin əksəriyyəti gilli torpaqla tikilmişdi. Hətta, imperator I Nikolay 1837-ci ildə İrəvan şəhərində olarkən onu "gilli çala" adlandırmışdı[292]. Lakin zaman keçdikcə nəinki evlərin görkəmi dəyişmiş, eyni zamanda küçələr də genişlənmişdi. XIX yüzilliyin 70-ci illərində İrəvan şəhərində olan rus hərbçisi evlərin əksəriyyətinin Asiya tipli olmasından yazmış və qeyd etmişdir ki, şəhərin əsas küçələrində Avropa tipli evlər də gözə dəyirdi[293]. XIX yüzilliyin 80-ci illərinin məlumatına görə isə, küçələr genişlənmiş, bir qədər düz istiqamət almış, artıq iki mərtəbəli evlər tikilməyə başlamışdı[294]. Hətta 1892-ci ildə Azərbaycan türklərinin yaşadığı Dəmirbulaq və Şəhər məhəllələrində küçələrin genişləndirilməsi və düzləşdirilməsi üçün İrəvan şəhər polismeysterinin başçılığı ilə Xüsusi komissiya (komissiyanın tərkibinə kiçik məmur Kələntərov, İrəvan quberniya idarəsinin torpaq ölçəni Dolqaner və Hacı Mirabbas Hacı Seyidhəsən oğlu, Kərbalayı Məhəmməd Əliyev daxil idi) yaradılmışdı. Komissiya uzun müzakirələrdən sonra 1894-cü il mayın 10-da küçələrin planlı yenidənqurulması üçün qərar qəbul etmişdi[295].

---

289 Кавказский календарь на 1852 г., с.442; Развитие Еревана после присоединения Восточной Армении к России, Сборник документов 1801-1917, с.446; Энциклопедический словар Брокгауз и Ефрона, т.XLI (81), с.14.

290 AMEA, TİEA, iş.153, inv.1668.

291 Энциклопедический словар Брокгауз и Ефрона, т.XLI (81), с.14.

292 Сборник материалов для описания местностей и племен Кавказа, 1881, выпуск 1, с.8.

293 Кавказский сборник, 1908. т.XVIII, с.446.

294 Сборник материалов для описания местностей и племен Кавказа, 1881, выпуск 1, с.8-9.

295 Развитие Еревана после присоединения Восточной Армении к России, с.292-293.

İrəvan şəhəri memarlıq baxımından zəngin bir şəhər olmuşdur. Şəhərin məşhur qədimi abidələrindən biri İrəvan qalası idi. İrəvan qalası şəhərin çənub hissəsində, Zəngi çayının sahilində yerləşmiş, qalada sərdar sarayı, məsçid və qədimi came var idi. Şəhərlə qala arasında "İngilis bağı", Zəngi çayının sağ sahilində, qalanın əks tərəfində xəzinəyə məxsus "Sərdar bağı" yerləşirdi. Hətta XIX yüzilliyin 50-ci illərinin əvvəllərində qalanın şimal hissəsində bulvar salınmağa başlamışdı[296]. İşğaldan sonra İrəvan qalası baxımsız vəziyyətdə qaldığından yavaş-yavaş dağılmağa başlamışdı. Ə.Ələkbərli əsərində İrəvan qalasının 1864-cü ildə tamamilə uçurulduğunu yazmışdı[297]. Lakin qalanın dağılması uzun çəkmişdir. XIX əsrin 70-ci illərinin ortalarında İrəvan şəhərində olmuş rus hərbiçisi "qədim qalanın bir hissəsinin dağıldığını, bir hissəsinin isə salamat qaldığının" şahidi olmuşdu. Həmin vaxt qalanın geniş meydanında yeni binalar tikilmiş, həbsxana, qarnizon üçün kazarma və ərzaq dükanları var idi[298]. XIX yüzilliyin 90-cı illərinin əvvəllərində İrəvan qalasında olan səyyah F.B.Linç də gildən və çınqıldan tikilmiş qalanın hələ qaldığını və tezliklə dağılmaq təhlükəsində olduğunu yazırdı[299]. İrəvan qalasının divarları baxımsızlıq ucbatından tamamilə XX yüzilliyin əvvəllərində dağıdılmışdır.

İrəvanın işğalından sonra qala da İrəvan şəhərinə qarışmışdı. Mənbələrin məlumatına görə, 1851-ci ildə İrəvan şəhərində 2 provoslav kilsəsi, 7 erməni-qriqoryan kilsəsi və 7 məscid, 1865-ci il ildə 1 rus provaslav kilsəsi, 6 erməni-qriqoryan kilsəsi, 7 məscid, XX yüzilliyin əvvəllərində isə 2 rus provaslav kilsəsi, 6 erməni-qriqoryan kilsəsi, 7 məscid olmuşdur. Məscidlərdən 1-i Şəhər, 2-si Təpəbaşı, 4-dü isə Dəmirbulaq məhəllələrində yerləşmişdi[300]. Qeyd etmək lazımdır ki, erməni-qriqoryan kilsələri iş-

---

296 Военно-статическое обозрение Эриванской губернии на 1853 г., с.254.

297 Ələkbərli Ə., Qərbi Azərbaycan abidələri, Bakı, Ağrıdağ, 2006, s.176.

298 Кавказский сборник, 1908. т.XXVIII, с.447.

299 Линч Х.Ф.Б., Армения. Путевые очерки этюды, 1910, т.1, с.281.

300 Кавказский календарь на 1852 г., с.443; Развитие Еревана после присоединения Восточной Армении к России, с.447; Энциклопедический словар Брокгауз и Ефрона, т.XLI (81), с.15.

ğaldan sonra tikilmişdi. Provaslav kilsəsi isə qalada olan, 1725-ci ildə Osmanlı hakimi Rəcəb paşa tərəfindən tikdirilmiş məscid hesabına yaradılmışdı. Hüseynqulu xanın dövründə tikilmiş Abbas Mirzə məscidi isə ruslar tərəfindən silah anbarına çevrilmişdi[301]. Şah Abbas məscidi sonralar öz fəaliyyətini bərpa etmişdi. Bu məscid 1606-cı ildə Şah I Abbas (1587-1629) tərəfindən tikdirilmiş, Sərdar sarayının şərqində yerləşmişdi. Məscidin böyük həyəti, həyətdə hovuzu, ətrafında mədrəsə, kitabxana, karvansara olmuşdur. 1918-1920-ci illərdə məscid erməni daşnakları tərəfindən dağıdılmışdır. Şah Abbas məscidi 1940-cı ildə tamamilə yer üzündən silinmişdir[302].

Azərbaycan türklərinə məxsus məscidlərdən ən möhtəşəmi Hüseynəli xan məscidi və yaxud Göy məscid idi. Günbəzi göy rəngli kaşı ilə bəzədildiyi üçün Göy məscid adlanan bu məscid İrəvan şəhərinin qərb hissəsində, hər tərəfdən Azərbaycan türklərinin yaşadığı evlərin əhatəsində yerləşmişdi. Səyyah F.B.Linç Göy məscidin uzunluğunun 87 metr, eninin isə 58 metr olduğunu, dördkünclü sahədə yerləşdiyini qeyd etmişdi. Onun böyük minarəsi və geniş həyəti olmuşdu. Həyətin ortasında çarhovuz var idi[303]. Ümumiyyətlə məscid ibadət və din xadimləri üçün ibadət otaqlarından, qış və yay salonlarından, mədrəsədən və kitabxanadan ibarət olmuşdur[304]. Məscid 1918-ci il və 1955-ci illərdə ermənilər tərəfindən yandırılmış, son zamanlar məscidin binası muzeyə çevrilmişdir. Hazırda ermənilər əsassız olaraq bu məscidi "fars məscidi" kimi dünyaya təqdim edirlər[305].

Böyüklüyünə görə Göy məsciddən geri qalan, lakin memarlıq baxımından əla formada olan məscidlərdən biri də Novruzəli bəy məscidi (X.Linçdə Nəsrulla bəy məscidi-E.Q.) idi. Məs-

---

[301] Сборник материалов для описания местностей и племен Кавказа, 1884, выпуск 4, с.8; Всеподданнейший рапорт кн. Воронцова, от 29-го октября 1852 года , АКАК, т. 10. Тифлис, 1885, с.875-892.

[302] Ələkbərli Ə., Qərbi Azərbaycan abidələri, s.196.

[303] Линч Х.Ф.Б., Армения. Путевые очерки этюды, 1910, т.1, с.277-279.

[304] Ələkbərli Ə., Qərbi Azərbaycan abidələri, s.202.

[305] Yenə orada.

cid 1687-ci idə inşa edilmişdi. O da Göy məscid kimi hasarla dövrələnmiş, həyətində hovuz və çiçək cərgələri var idi[306]. Bu məscidin də taleyi acınacaqlı olmuşdur. XX yüzilliyin əvvəllərində Novruzəli bəy məscidi erməni millətçiləri tərəfindən yandırılaraq yer üzündən silinmişdir[307].

İşğaldan sonra da "Xan sarayı" İrəvan şəhərində uzun illər memarlıq cəhətdən öz möhtəşəmliyini qoruyub saxlamışdı. Bu saray və onun taleyi haqqında Nefedeyev, A.Haksqauzen, rus hərbiçisi knyaz Amilaxvari və H.F.B.Linç ətraflı məlumat vermişdilər. "Xan sarayı" İrəvan qalasının şimal-qərb hissəsində, Zəngi çayına yaxın yerdə tikilmişdi. Onun pəncərələri bu çayın daşlı pillələrinə açılırdı. Saray dördkünclü və çoxlu otaqları olan bina idi. O, üç ayrı-ayrı hissədən ibarət olmuşdu. Burada hakimin arvadları üçün hərəm otaqları, qəbul otağı, qulluqçular üçün yerlər və qarnizon anbarları yerləşmişdi. Üçüncü hissə hakimin yaşayış yeri idi[308]. İrəvan qalası işğal edilərkən güclü bombardman edildiyindən evlərin çoxu dağıdılmış və rus idarəçiliyi altında tamamilə yararsız hala düşmüşdü. Lakin xan sarayı uzun müddət öz əhəmiyyətini saxlamışdı. İşğaldan sonra xanın yaşadığı otaqlarda vilayət hakimləri məskən salmış, hərəmxana otaqları isə hərbi xəstəxanaya çevrilmişdi[309]. Onun möhtəşəmliyi çar I Nikolayı da maraqlandırmışdı. O, 1837-ci ildə Cənubi Qafqazda olarkən bu sarayla tanış olmuş, hətta bir neçə gün sərdarın otaqlarından birində qalmışdı. 1850-ci ildə isə onun varisi bir müddət bu sarayda məskunlaşmışdı[310].

---

306 Линч Х.Ф.Б., Армения. Путевые очерки этюды, 1910, т.1, с.280.

307 Ələkbərli Ə., Qərbi Azərbaycan abidələri, s.204.

308 Линч Х.Ф.Б., Армения. Путевые очерки этюды, 1910, т.1, с.280; Кавказский календарь на 1852 г., с.444; Гакстгаузен А., Закавказский край, т.1, с.230; Нефедьев Н., Взгляд на Армянскую область. Из путевых записок, СПб, В Типографии Н.Греча, 1839, с.27-28.

309 Нефедьев Н., Взгляд на Армянскую область. Из путевых записок, с.27; Гакстгаузен А., Закавказский край, т.1, с.230.

310 Кавказский календарь на 1852 г., с.444.

Lakin Rusiya hakim orqanları İrəvan bölgəsini Azərbaycandan ayırmaq siyasəti yeritməklə bərabər, xalqımıza məxsus memarlıq abidələrini də məhv etməyə çalışırdılar. Rusiya işğalından bir müddət sonra İrəvanda olan səyyah A.Haksqauzen yazırdı ki, "... mən xan sarayının yerləşdiyi qalaya baş çəkdim. Qala güclü tənəzzülə uğramışdı. Xan sarayı dağılmış halda idi... Rus məmurlarının toxunulmaz tarixi binalara və abidələrə nadir hallarda canı yanırdı"[311]. Rus məmurlarının bu cür abidələrə düşmən münasibətini bir hərbiçi də etiraf edird: "Bizim hakimlər heç nəyə baxmadan belə abidələri köhnəlmiş və yararsız hesab edərək yer üzündən silməyə çalışırdılar[312]. Səyyah H.F.B.Linç isə burada olarkən xan sarayının hərəmxanasının, anbarların və qulluqçulara məxsus otaqların dağıldığını, yalnız xanın dincəldiyi pavilyonun (bağ və parklarda yüngül tikili-E.Q.) salamat qaldığını qeyd etmişdi[313].

İşğaldan sonra uzun müddət baxımsız qalan "Xan sarayı" 1918-ci ildə erməni vəhşiləri tərəfindən tamamilə dağıdılmışdı. Sarayın şəkilləri isə 1913-cü idə Tiflisə aparılmış və onlardan bir neçəsi hal-hazırda Gürcüstan Dövlət İncəsənət Muzeyində saxlanılır[314].

İrəvan şəhər əhalisi əsasən sənətkarlıq, ticarət və bağçılıqla məşğul olmuşdular. Burada fabrik və zavod müəssisələri zəif inkişaf etmişdi. Zavodlar əsasən kərpic istehsal edən, dulusçuluq, boyaqxana, şərabçılıq, pivə çəkən, spirt təmizləyən, dəri emal edən və s. tipində idi. 1851-ci ildə İrəvan şəhərində zavod tipində 12 dəri emal edən, 15 kərpiç hazırlayan, 68 boyaqxana, 1865-ci ildə 4 yağəritmə, 2 sabun bişirən, 25 dəri emal edən, 14 şam istehsal edən, 2 araqçəkmə, 6 kərpic, 6 dulus qablar istehsal edən, 1880-ci ildə müxtəlif növ 2408 sənaye müəssisəsi (bunlardan 1378 Azərbaycan türklərinə, 1027-i ermənilərə, 31 ruslara, 3-ü

---

[311] Гакстгаузен А., Закавказский край, т.1, с.230-231.
[312] Кавказский сборник, 1908, т.XXVIII, с.447-448.
[313] Линч Х.Ф.Б., Армения. Путевые очерки этюды, 1910, т.1, с.281.
[314] Ələkbərli Ə., Qərbi Azərbaycan abidələri, s.180.

isə yəhudilərə məxsus), həmin müəssisələrdə işləyən 555 usta (bunlardan 293 nəfər Azərbaycan türkü, 262-i erməni), bundan əlavə, həmin ildə 3 duz anbarı, 1 buğda anbarı, 3 dəri anbarı, 6 pambıq parça anbarı, 1 tütün fabriki, 75 spirt zavodu (66-ı bağ sahiblərinin, 9-u sənaye), 2 mineral su zavodu, 23 buzxana, meydanda 47 müxtəlif budka, 4 ticarət kontoru, rəsmi olmayan 5 bankir kontoru, 3 aptek, 14 unüyüdən dəyirmanı, 6 düyü dəyirmanı, 3 mehmanxana və klub, 8 hamam, 1 bilyardxana, 3 mətbəə, 5 kərpic zavodu, 19 daşkəsən, 1912-ci ildə isə 10 pivəçəkən, 12 araqçəkən, 6 konyakçəkən, 20 dəri emal edən, süni mineral su istehsal edən, 2 çilingər, 1 küncüt yağı istehsal edən, 11 çəltik təmizləyən, 8 dəyirman, 3 gübrə istehsal edən kiçik zavodlar qeydə alınmışdı[315].

İrəvan quberniya mərkəzi olduqdan sonra burada nəinki hakimlərin qərargahı, eyni zamanda həm hərbi, ticarət şəbəkələri, həm maarif, həm də səhiyyə mərkəzləri yerləşmişdi. 1912-ci il məlumatına görə, İrəvan şəhərində 5-ci Qafqaz atıcı alayı (I və II batalyon), 6-cı Qafqaz atıcı alayı (2-ci batalyon), 7-ci Qafqaz atıcı alayı (I və II batalyon), Qafqaz artilleriya diviziyasının 2-ci batareyası, 1-ci Kuban kazak batalyonu, üç - "Dövlət Bankı"nın, "Tiflis Kommersiya Bankı"nın, "Azov-Don Bankı"nın, Volqa-Kamsski Komissioner Bankı"nın filialları, bir İrəvan qarşılıqlı ictimai kredit və bir İrəvan qardaşlıq borc-əmanət kiçik kredit kassası, kişi və qadın gimnaziyası, qadın progimnaziyası, müəllimlər seminariyası, 5 ümumtəhsil orta məktəbi, 27 ibtidai məktəb, 5 çap mərkəzi, 1 teatr binası, 9 mehmanxana yerləşmişdi[316].

Quberniya mərkəzi olduqdan sonra İrəvan şəhərinin idarə olunması polis idarəsinə tapşırılmışdı. İdarənin tərkibinə polis

---

[315] Кавказский календарь на 1852 г., с.447; Сборник материалов для описания местностей и племен Кавказа, 1881, выпуск 1, с.38; Развитие Еревана после присоединения Восточной Армении к России, с.448, с.458.
[316] Развитие Еревана после присоединения Восточной Армении к России, с.459.

rəisi, məhəllələrin idarəsinə isə iki köməkçisi olan məhəllə rəisləri daxil idi. Polis rəisləri qubernator, məhəllə rəisləri isə polis rəisləri tərəfindən təyin olunurdu[317].

İrəvan şəhərinin idarəçiliyi heç bir dəyişiklik olmadan 1879-cu ilə qədər davam etmişdir. Qeyd etmək lazımdır ki, təhkimçilik hüququnun ləğvindən sonra Rusiyada kapitalist münasibətlərinin inkişafı nəticəsində şəhərlərin sürətlə böyüməsi, şəhər həyatının mürəkkəbləşməsi nəticəsində 1870-ci il iyunun 16-da çar II Aleksandr şəhərlərin idarə olunması haqqında əsasnamə imzalamışdı. Bu fərmanla şəhərin idarə olunması haqqında əsasnamələr hazırlanmağa başladı və şəhər əsasnaməsi 1872-ci il iyunun 16-da təsdiq olundu. Əvvəlcə o, Rusiyanın daxili quberniyalarında tətbiq olundu[318].

Lakin Qafqaz canişininin şəhər islahatının Qafqazda da tətbiq edilməsi xahişi 1874-cü il oktyabrın 28-də çar tərəfindən müsbət qarşılandı. Bundan sonra Qafqaz şəhərlərinin idarə olunması üçün şəhər əsasnamələri tətbiq olunmağa başladı. 1877-ci il martın 23-də İrəvan şəhərinin idarəsinin təşkili üçün qubernatorun rəhbərliyi altında (bu tərkibə vitse-qubernator, quberniyada dövlət əmlakı müdiri, prokuror və komissiyanı hazırlayan sədr) 7 nəfər Azərbaycan türkündən (Əhməd xan Süleyman xan oğlu, Mirzə Dokabar Qazıyev, Ağa bəy Hacı Abasqulu bəy oğlu, Abbasqulu xan Moqbaon xan oğlu, Hacı Əbdüləli Hacı Məhəmməd oğlu, Ağamir Hacı Seyid Həsən oğlu, sənəddə bir nəfərin adı yoxdur) və 5 nəfər ermənidən ibarət komissiya yaradıldı[319].

Nəhayət, 1879-cu il oktyabrın 1-də təntənəli surətdə İrəvan şəhər duması açıldı. Dumanın açılışı münasibətilə böyük knyaz Mi-

---

[317] Полное собрание законов Российской империи, 1850. т.XXIV, с141.

[318] Мильман А., Политический строй Азербайджана в XIX-начале XX вв., Баку, Азернешр, 1966, с.206-207; Azərbaycan tarixi [7 cilddə], Bakı, Elm, c.4, 2000, s.190.

[319] Развитие Еревана после присоединения Восточной Армении к России, с.81-82.

xail Romanov və Qafqaz canişini İrəvan qubernatoruna təbrik teleqramı göndərmişdilər (Razvitie İrəvana, s.84). "Qlasnı" adlanan Duma üzvləri dörd ildən bir seçilməli idi. 1870-ci il "Əsasnaməsi"nə görə qlasnıların sayı 50-60 nəfər arasında olmalı idi. Lakin 1892-ci il əsanaməsinə görə qlasnıların sayı xeyli azalmışdı[320].

Dumanın şəhər həyatının idarə olunmasında müxtəlif vəzifələri vardı. Dumanın vəzifələrinə, şəhər idarəsinin vəzifəli şəxslərini seçmək, şəhər özünü idarəsi üzvlərinin məvaciblərini, vergi və mükəlləfiyyətləri təyin etmək, gəlir və xərclərin siyahısını təsdiq etmək, şəhərin abadlaşdırılmasının qaydasının tərtib edilməsi və şəhər üçün lazım olan məsələləri yüksək hökumət orqanlarına müraciəti daxil idi. Şəhər dumasının sərəncamında ticarət-təsərrüfat polisi və icraedici kommisiya var idi. Onların hər ikisi duma tərəfindən təsdiq edilmiş təlimat əsasında fəaliyyət göstərirdilər. Ticarət-təsərrüfat polisi ticarət-təsərrüfat nəzarətçilərinin başçısı idi. Ticarət polisinin vəzifəsi iki hissəyə-vergilərin yığılması və ticarətin nəzarətinə bölünürdü. İcraedici komissiya isə həm daimi, həm də müvəqqəti ola bilərdi. İrəvanda sanitar, daşınmaz əmlakın alqı-satqısı, suvarma arxlarının təmiri, tikinti və s. məsələlərlə bağlı komissiya təşkil edilmişdi[321]. Şəhər dumasının icraedici orqanları şəhər qlavası və onun başçılıq etdiyi bələdiyyə idarəsindən ibarət idi. Şəhər qlavası seçici məclisinin başçısı kimi, bütün məsələlərdə sərəncam vermək hüququna malik idi. Duma üzvləri adlanan qlasnılar bütün təbəqələrdən ola bilərdi. Lakin qlasnıların əksəriyyəti yüksək təbəqələrdən seçilirdi. Bunun da öz səbəbi vardı. Belə ki, bütün seçicilər üç dərəcəyə bölünürdü. Bu dərəcələrdən hər birinin payına şəhər vergilərinin üçdə bir hissəsi düşürdü. 1879-cu il martın 30-da İrəvan qubernatorunun

---

[320] Развитие Еревана после присоединения Восточной Армении к России, с.83-84; Очерк истории Еревана, сос. Т.Х.Акопян, Ереван, Изд-во Ереванского Универ-та, 1977, с.208.

[321] Развитие Еревана после присоединения Восточной Армении к России, с.88-94, с.101-133; Очерк истории Еревана, с.208-210.

verdiyi məlumatda təşkil olunmuş komissiyanın siyahısına görə, 1-i dərəcəyə mənsub seçicilər 4204 rubl 46 qəpik, 2-ci dərəcəyə mənsub seçicilər 4349 rubl 51 qəpik, 3-cü dərəcəyə mənsub seçicilər isə 4094 rubl 84 qəpik vergi ödəməli idi[322].

Hər bir dərəcə xüsusi seçki məclisi təşkil edir və bu məclisdə qlasnıların üçdə bir hissəsini seçirdilər. Bu məclislərin özünün çağrılma vaxtı var idi. Hər dörd ildən bir çağırılan şəhər Dumasına seçkilərdə tez-tez yeniliklər olurdu. Məsələn, 1889-1893-cü illər İrəvan şəhər dumasına seçkilərin vaxtı dərəcələr üzrə belə təyin edilmişdi; I dərəcə mayın 21-də, II dərəcə mayın 23-də, III dərəcə mayın 28-də. Seçki məclisi səhər saat 8-də açılmalı idi. I və II dərəcəyə aid seçki məclisi Şəhər Dumasının binasında, III dərəcəyə aid seçki məclisi isə Petra və Pavla adına erməni kilsəsində olmalı idi. Seçkilərdə bir sıra məhdudiyyətlər var idi. Seçkilərdə qadınlar və 21 yaşına çatmamış cavanlar iştirak edə bilməzdi. Xırda qulluqçular, sənətkarlar şəhərin xeyrinə yığılan vergilər qoyulan binalara malik deyildilərsə, şəhər əsasnaməsi onlara seçki hüququ vermirdi[323].

1894-1898-ci illər seçilmiş İrəvan Şəhər Dumasının tərkibində iki Azərbaycan türkü də vardı. Bunların hər ikisi tacir idi. Kərbəlayı Məhəmməd Hacı Əbdüləli oğlunun 26300 rubl məbləğndə qiymətləndirilən həyəti olan 2 evi, 3 bağı, 16 dükan və hamamı, Mirabbas Hacı Səid Həsən oğlu 41208 rubl məbləğində qiymətləndirilən 4 evi, 20 dükanı və 4 bağı var idi (razvitie İrəvan, s.94). Bu seçkidə Şəhər idarəsinin şəxsi tərkibinin alacağı illik məvacibinə də aydınlıq gətirilmişdi. Duma başçısı illik 2400 rubl, qlasnıların hər biri 1000 rubl, katib isə 900 rubl almalı idi[324].

1898-1902-ci illər seçkisi 1898-ci il martın 16-dan başla-

[322] Развитие Еревана после присоединения Восточной Армении к России, с.83-85.
[323] Yenə orada, c.87-88.
[324] Yenə orada, c.94-95.

malı idi. Bu seçkidə hər məclisdə seçicilərin sayı 72 nəfərdən, namizədlərin sayı 12 nəfərdən aşağı olmamalı, qlasnıların ümumi sayı 60 nəfər olmalı idi. Nəticədə seçki kampaniyasında 57 namizəddən 50 namizəd qlasnı hüququ almış, qalan 7 nəfər siyahıdan müəyyən səbəblərə görə çıxarılmışdır[325].

İrəvan Dumasına seçkilər sonrakı illərdə də davam etmiş, 1902-1906, 1907-1911 və 1911-1915-ci illərdə fəaliyyətini davam etdirmişdir[326].

**Naxçıvan şəhəri.** İrəvan quberniyasında ikinci ən böyük şəhər Naxçıvan idi. O, qəza mərkəzi kimi fəaliyyət göstərmişdi. Naxçıvan şəhəri $39^0\ 12^/\ 5^{//}$ şimal en, $62^0\ 59^/\ 25^{//}$ şərq uzunluq dairəsində, dəniz səviyyəsindən 2875 fut yüksəklikdə, Araz çayından 8 verst aralıda yerləşmişdi. Onun sahəsi əvvəl 10, sonralar isə ona məxsus şəhərətrafı Təzəkənd və Hacıbar torpaqlarının birləşdirilməsi nəticəsində 35 verst olmuşdur. Naxçıvan şəhəri şimaldan Şeyxmahmud, şərqdən Naxçıvançayla, cənubdan Qaraxanbəyli, Tumbul və Yamxana, qərbdən isə Əliabad kəndləri və dağ çayı Şordərə ilə həmsərhəd idi. Bu şəhər şimal-şərqdən Dərələyəzlə, çənub-şərqdən İlan dağının əhatəsində yerləşmiş, şimal-qərbdən isə Böyük və Kiçik Ağrıdağı görünürdü[327].

İşğaldan qabaq Naxçıvan şəhəri dörd məhəllədən ibarət olmuş və həmin məhəllələr bunlar idi: 1. Sarbanlar; 2. Şahab; 3. Əlixan; 4. Qurdlar. Lakin işğaldan sonra Naxçıvan şəhərində bəzi dəyişiklik nəticəsində onun məhəllələrinin sayı 13-ə çatmışdı. Onun məhəllələri bunlar idi: 1. Sarbanlar; 2. Erməni; 3. Orucməhləsi; 4. Köhnəqala; 5. Xoşulu; 6. Əlixan; 7. Çaparxan; 8. Ziqilyar; 9. Bil-

---

[325] Развитие Еревана после присоединения Восточной Армении к России, s.94-99.

[326] Yenə orada, s.98-163.

[327] Сборник сведений о Кавказе, т.VII, с.257; Военно-статическое обозрение Эриванской губернии на 1853 г., с.260-261; Сборник материалов для описания местностей и племен Кавказа, 1881, выпуск 1, с.118; Первая всеобщая перепись населения Российской империи 1897, LXXI. Эриванская губерния, с.4.

lic; 10. Şahab; 11. Xoyski; 12. Qala; 13. Təzəkənd və yaxud Uzundivar[328]. Lakin XIX əsrin 80-ci illərinin əvvəllərində Naxçıvan şəhərində 10 məhəllənin olduğu bildirilmişdi. Bunlardan Xoşlu, Sarvanlar, Əlixan, Cqataylı, Qaibqulu, Nadir xan sultan, Şahab, Xoylu, Qala və Çuxur məhəllələrinin olduğu göstərilmişdir. Bundan əlavə, şəhərin şimaldan və şimal-şərqdən Təzəkənd və Hacıvar şəhərətrafı qəsəbəsi vardı[329].

Arıqlı dağ silsiləsinə daxil olan Salvartı dağından axan Qarababa çayı Naxçıvan düzənliyindən axaraq şəhərin 1,5 verstliyindən keçərək dağıntıları qalmış Abbasabad qalasının yaxınlığında Araz çayına tökülürdü. Çay Naxçıvan ərazisində Naxçıvançay adlanmış, ondan çəkilmiş arx Naxçıvan şəhərini iki hissəyə bölmüşdü. Bu arxın suyundan şəhərin əkin sahələrini, bağları və bostanları suvarmaq üçün istifadə edilirdi. Nəinki bu arxdan şəhər əhalisi, eyni zamanda Şeyxmahmud, Əliabad, Qaraxanbəyli, Bulqan və Qaraçuq kəndlərinin əhalisi də istifadə edirdi. Lakin bu arxın suyu şəhər əhalisi üçün kifayət etmirdi. Çünki yayda isti havalarda çayın suyu quruduğundan, qışda isə yanvar-fevral aylarında donduğundan istifadəyə yaramırdı. Şəhər əhalisi bulaqlardan istifadə edirdilər. Bulaqlardan ən təmizi şəhərin qərb və cənub hissəsində yerləşmişdi. Naxçıvan şəhərində 10 bulaq - Sarvanlar, Qalarçeşməsi, Ağamalı, Daba xan çeşməsi, Erməniçeşməsi, Qoylababa, Qələndar xan çeşməsi, Qaraçeşmə, İsmayıl xan çeşməsi və Kəlbəli xan çeşməsi qeydə alınmışdı. Lakin bu bulaqların əksəriyyəti içməli su kimi içməyə yaramırdı. Şəhər əhalisi içməli su kimi iki bulaqdan və bir quyu suyundan istifadə etmişdi. Belə ki, bunlardan yalnız Qoylababa və Qalar çeşmə bulaqları təmiz və faydalı idi. Onlardan biri şəhərin qərbində, digəri isə cənubunda yerləşmişdi[330].

---

[328] Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.477.

[329] Сборник сведений о Кавказе, т.VII, с.257.

[330] Сборник сведений о Кавказе, т.VII, с.258; Сборник материалов для

Naxçıvanın iqlimi İrəvanın iqliminə oxşar idi. Araz vadisində yerləşən bu şəhər kontinental iqlimə malik idi. Yayda çox isti, qışda isə sərt şaxtalar olurdu. Yayda isti hava iyulun axırları - avqustun əvvəllərində olurdu. Bu vaxtlar isti hətta +50$^0$-ə çatırdı. Qışda isə soyuqların təsirindən dekabrın 20-dən çaylar və sular donurdu[331].

Naxçıvan şəhəri qədimdən ticarət yollarının kəsişdiyi bir yerdə yerləşmişdi. O, görünüşünə görə bəhs etdiyimiz dövrdə təmiz şərq stilində idi. Küçələr əyri və dar idi. Evlər bir mərtəbəli, yastı damlı olmaqla gil palçıqdan tikilmiş və hər ev hündür palçıq divarlarla əhatələnmişdi. Hər evin ətrafında bağça vardı. XIX əsrin 80-ci illərində şəhərdə 3-4 Avropa tipində tikilmiş evlərə rast gəlmək olardı. Naxçıvan şəhərində işğaldan sonra yaşayış evlərinin sayı müxtəlif rəqəmlə göstərilmişdir. Məsələn, XIX yüzilliyin 30-cu illərində Naxçıvan şəhərində 873 ev (bunlardan şəxsi 712 Azərbaycan türklərinə məxsus ev, 122 erməni və 39 xəzinəyə məxsus), XIX yüzilliyin 50-ci illərində 1114 ev (1 rus, 711 Azərbaycan türk, 402 erməni evi, şəhərin sərhədi daxilində torpağın sahəsi 614, tikintilərlə bir yerdə 937 desyatin), 1868-ci ildə 1624 şəxsi ev, 18 xəzinəyə məxsus ev, 1 kilsəyə məxsus ev, XIX yüzilliyin 80-ci illərin əvvəllərində isə 1263 ev (bunlardan 913-ü Azərbaycan türklərinə, 350-i ermənilərə məxsus), 1886-cı il kameral təsvirdə isə 1496 ev  qeydə alınmışdı[332].

Naxçıvan şəhər əhalisi sənətkarlıq, ticarət, bağçılıq və bostançılıqla məşğul olmuşdu. Şəhərdə fabrik-zavod tipli müəssisələr çox zəif idi. Əsasən 5-17 fəhləsi olan dəri emal edən müəssisələr

---

описания местностей и племен Кавказа, 1882, выпуск 2, с.118-120; Военно-статическое обозрение Эриванской губернии на 1853 г., 261.

[331] Yenə orada, c.121; Yenə orada.

[332] Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.479; Кавказский календарь на 1852 г., с.352-353; AMEA TİEA, iş.153, inv.1668; Сборник сведений о Кавказе, т.VII, с.260; Свод статических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г., с.330-331.

nisbətən inkişaf etmişdi. Naxçıvan şəhərində 4 güllü parça istehsal edən fabrik, 3 dabbaqxana, 1 dulusxana, 1 sabunbişirən müəssisə vardı. Pambıqçılığın inkişafı ilə əlaqədar olaraq 1882-ci ildə Naxçıvanda ilk pambıqtəmizləmə zavodu tikilmişdi[333].

Naxçıvan şəhərində müxtəlif əkin sahələri, bağlar, müəssisələrə məxsus tikililər gözə dəyirdi. XIX yüzilliyin 30-cu illərin əvvəllərində Naxçıvan şəhərində 2 məscid, 1 erməni kilsəsi, 279 dükan (bunlardan bazarda 25-i, karvansarayda 31-i istifadəsiz idi), 1 bazar, üç karvansaray (1-i yarımdağılmış halda), 3 hamam (Şeyx Əlibəy, Fərzəli bəy və Mirzə Əli bəy), 2 körpü (1-i məscidin yanında, digəri ondan yuxarı yarım dağılmış halda), XIX yüzilliyin 50-ci illərinin əvvəllərində 3 xəzinəyə məxsus ev, 2 karvansara, 1 bazar, 3 hamam, 6 meydan, 1 körpü, 112 küçə, 84 bağ, 4 məscid, 3 erməni qriqoryan kilsəsi, 1 pravoslav kilsə, 1868-ci ildə 1624 şəxsi ev, 18 xəzinəyə məxsus ev, kilsəyə məxsus 1 ev, 1 dükan üçün anbar, 2 kilsə, 305 şəxsi dükan, 5 hamam, XIX yüzilliyin 80-ci illərinin əvvəllərində 1849-cu ildən fəaliyyətə başlamış 1 rus pravoslav, 3 erməni kilsəsi, 5 məscid, 1263 bağ (913-ü Azərbaycan türklərinə, 350-i ermənilərə məxsus), 105 üzüm bağı (50 Azərbaycan türklərinə, 55 ermənilərə məxsus), Azərbaycan türklərinə məxsus 5 tut bağı, 269 ayrıca torpaq sahəsi (250-i Azərbaycan türklərinə, 19-u isə ermənilərə məxsus), 7 dəyirman (5-i Azərbaycan türklərinə, 2-i isə ermənilərə), 1 yağ zavodu, 1 buzxana və Azərbaycan türklərinə məxsus hamam qeydə alınmışdı. Bundan əlavə, Naxçıvan şəhərində 425 dükanı olan (332-i Azərbaycan türklərinə məxsus, 93-i ermənilərə məxsus) bazar və ətrafında 48 dükanı olan 2 karvansaray, 14 kirayəşin ev fəaliyyət göstərmişdi. Bazarın 5 meydanı və meydanların ətrafında dükanlar yerləşmişdi[334].

---

[333] Сборник сведений о Кавказе, т.VII, с.234-235, с.260; Naxçıvan Ensiklopediyası, AMEA, Bakı: 2002, s.341-342.

[334] Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.479; Кавказский кален-

XIX yüzilliyin 80-ci illərində Naxçıvan şəhərində müxtəlif peşə ilə məşğul olan 396 sənətkar yaşamışdı. Bu sənətkarlardan 219-u Azərbaycan türk sənətkarları idi. Bazarda isə ticarət edən 358 ticarətçi, bundan 236-sı Azərbaycan türkləri olmuşdu[335].

Naxçıvan şəhəri Azərbaycanın mədəni inkişafında mühüm rol oynayan şəhərlərdən biri idi. XIX yüzilliyin 80-90-cı illərində bu şəhərdə təhsil ocaqlarının yaradılmasında və mədəni maarif ocaqlarının təşkil olunmasında mühüm addımlar atıldı. Naxçıvan şəhərində 1894-cü ildə ilk rus-tatar, 1896-cı ildə dünyəvi qız məktəbi açıldı, XIX yüzilliyin 80-ci illərinin əvvəllərində isə burada "Müsəlman şiə incəsənəti və dram cəmiyyəti", "Ziyalı məclisi" kimi mədəni maarif ocaqları təşkil olundu. 1886-cı ildə isə M.F.Axundovun "Müsyo Jordan və dərviş Məstəli şah" pyesinin tamaşası ilə Naxçıvan teatrının əsası qoyulmuşdu[336].

**Ordubad şəhəri.** Ordubad şəhəri $38^{0}$ $49^{/}$ $20^{//}$ şimal en, $63^{0}$ $13^{/}$ $20^{0}$ şərq uzunluq dairəsində, dəniz səviyyəsindən 3119 funt yüksəklikdə yerləşmişdi. O, Araz çayı sahilində dərələrlə birləşən daşlıq ərazini tuturdu. Şəhər şimaldan aşağı Andameç kəndlə, cənubdan Araz çayı, şərqdən Qapıcıq dağı və Kotan kəndinin torpaqları ilə, qərbdən isə Dastı kəndinin torpaqları ilə həmsərhəd idi. Onun ərazisi 12 verst idi. Sonralar şəhərətrafı olan Aşağı Andamiç və yaxud Qalaaman ərazisi ona birləşdirilmişdi[337]. Ordubad şəhəri işğaldan sonra 1862-ci ilə qədər dairə və qəza mərkəzi, 1862-ci ildən sonra isə Naxçıvan qəzası tərkibində xüsusi statusa malik şəhər kimi fəaliyyət göstərmişdir.

---

дарь на 1852 г., с.352-353; AMEA TİEA, iş.153, inv.1668; Сборник сведений о Кавказе, т.VII, с.260.

[335] Yenə orada, s.236-238.

[336] Naxçıvan Ensiklopediyası, s.342.

[337] Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.480-481; Сборник сведений о Кавказе, т.VII, с.260-261; Первая всеобщая перепись населения Российской империи 1897, LXXI. Эриванская губерния, с.4.

Ordubad şəhəri 5 məhəllədən ibarət olmuşdur. Məhəllələr bunlar idi: Sar-şəhər, Üçdyunqan, Minqiz, Ambaras və Kürdutal. Onun torpağı müxtəlif keyfiyyətdə idi. Bir hissəsi qara torpaq, digər hissəsi isə tərkibində əhəng olan daşlı-qumlu idi. Lakin buna baxmayaraq, Ordubad quberniyada ən məhsuldar torpağı olan yer hesab olunurdu. Ətrafında dağların olması, bir tərəfdən Araz sahilində yerləşməsi Ordubad şəhərinin havasının təmiz olmasında böyük rol oynamışdı. İrəvan və Naxçıvan şəhərlərinə nisbətən Ordubad şəhərində havanın təmiz olması səbəbindən xəstəliyə tutulan çox az idi[338].

Ordubad şəhəri əsasən Ordubadçayı və bulaqlarla suvarılırdı. Çay əsasən dağ sellərində əmələ gəlmiş, onun üstündə xalq tərəfindən salınmış 6 körpü (3-ü ağacdan, 3-ü isə daşdan) var idi. Bundan əlavə, şəhər əhalisi 70 irili-xırdalı bulaqla təmin olunmuşdu. Bu bulaqlardan 33-ü iri hesab olunurdu[339].

Ordubad sırf Azərbaycan türklərinin yaşadığı şəhər idi. Burada evlər İrəvanda və Naxçıvanda olduğu kimi şərq qaydasında gil palçıqdan tikilmişdi. Lakin onlara nisbətən evlər daha səliqəli, arxitektura cəhətdən nisbətən dəbdəbəli idi. İ.Şopenin verdiyi məlumata görə, XIX yüzilliyin 30-cu illərində Ordubad şəhərində 635 ev (bunlardan 611-i Azərbaycan türklərinə, 1-i erməniyə, 23-ü isə xəzinəyə məxsus), 25 məscid (bunlardan 6-sı böyük hesab olunurdu, baş məscidin tərkibində məktəb vardı), şəhərin mərkəzində ətrafında 197 dükanı olan (bunlardan 22-si istifadəsiz idi) bazar, 6 karvansaray (2-si bazara yaxın, digər 4-ü dağılmış, 1-i isə dulusçuluq müəssisəsinə çevrilmiş), 1 hamam, 3 meydan, 1855-ci ildə 828 şəxsi ev (bunlardan 792 nəfər Azərbaycan türkünə, 36-sı ermənilərə məxsus), 2 xəzinəyə məxsus bina, 3 karvansaray, 1 bazar, 2 hamam, 63 məscid, 1 erməni-qriqoryan kilsəsi, 7 meydan, 5 körpü,

---

[338] Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.481; Сборник сведений о Кавказе, т.VII, с.261.
[339] Yenə orada.

25 küçə, 8 Azərbaycan türklərinə, 1 xəzinəyə, 1 şəxsi ermənlərə məxsus peşə məktəbi, XIX yüzilliyin 80-ci illərin əvvəllərində 41 məscid (onlardan 5-i əsas sayılırdı), 2 kilsə (1-i rus pravoslav, digəri erməni-qriqoryan kilsəsi), 2 hamam, 5 dəyirman, dörd fəhləsi olan 1 şüşə, doqquz fəhləsi olan 4 sabunbişirən, on iki fəhləsi olan piyəridən, iyirmi fəhləsi olan 2 kərpic, iyirmi fəhləsi olan 17 dəri emal edən zavod var idi[340].

Ordubad özünün bağçılıq və bostançılığı ilə məşhur olan bir şəhər idi. İ.Şopenin verdiyi məlumata görə, şəhərdə 160 xalvar məhsul verən 423 meyvə, 300 xalvar məhsul verən 50 üzüm bağı, 1855-ci ildə 335 meyvə bağı, XIX əsrin 80-ci illərində 204 üzüm və meyvə bağı qeydə alınmışdı[341].

Ordubad şəhəri iqtisadi və ticarət mərkəzi kimi də tanınmışdı. Burada müxtəlif sahələrlə məşğul olan müəssisələr cəmləşmişdi. Məsələn, XIX yüzilliyin 80-ci illərinin əvvəllərində olan məlumata görə, Ordubad şəhərində 77 çarxı yaxud dəzgahı olan 17 baramaaçan, 1 dulusçuluq, 1 sabunbişirən, 5 dabbaqxana, 2 güllü parça istehsal edən müəssisələr fəaliyyət göstərmişdir. Bundan əlavə, şəhərdə şüşə emal edən müəssisə də vardı. Əhali şüşə emal edərkən xammal kimi adi çay zəyindən və sodadan istifadə edirdilər. Ordubad şəhərində müxtəlif peşə ilə məşğul olan 541 sənətkar yaşamışdı. Bunlardan 426-sı Azərbaycan türk sənətkarları idi. Bundan əlavə, şəhərdə xırda dükanlarla əhatə olunmuş ticarət bazarı fəaliyyət göstərmişdi. Bazarda müxtəlif mallarla ticarət edən 148 ticarətçi vardı. Onlardan 137-si Azərbaycan türk ticarətçiləri idi[342].

1886-cı ildə Ordubad şəhərində ildə 300 pud ipək istehsal edən 4 iri, habelə xırda əmtəə istehsalıtipli onlarla ipəksarıma

---

[340] Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.481; Сборник сведений о Кавказе, т.VII, с.261

[341] Yenə orada, c.483; Yenə orada, c.397.

[342] Сборник сведений о Кавказе, т.VII, с.234.

müəssisəsi fəaliyyət göstərmişdi. Nəticədə XIX yüzilliyin ikinci yarısı-XX yüzilliyin əvvəllərində Ordubad Rusiya bazarını yüksək keyfiyyətli xam ipək, ipək parça, habelə quru meyvə və s. ilə təchiz edən mühüm mərkəzlərdən birinə çevrilmişdi. Ordubad ipəyi dünya və Ümumrusiya sərgilərində yüksək qiymətləndirilmişdi. Ordubad ipəyi XX yüzilliyin əvvəllərində keçirilən sərgilərdə 13 dəfə qızıl medala layiq görülmüşdür[343].

Beləliklə, Rusiya tərəfindən işğal olunduqdan sonra aparılan inzibati-ərazi islahatı zamanı İrəvan bölgəsi Naxçıvanla bir inzibati vahiddə birləşmiş, gah əyalət, gah qəza kimi fəaliyyət göstərmiş və nəhayət quberniyaya çevrilmişdir. Quberniya qəzalara, polis məntəqəsinə, kənd cəmiyyətlərinə və kəndlərə bölünmüşdü. Bu inzibati-islahatlar nəticəsində bölgədə hər bir qurumun fəaliyyət dairəsi olan müxtəlif idarə sistemləri yardılmış və bu idarə sistemləri bir-biri ilə sıx bağlı olmuşdular.

---

[343] Naxçıvan Ensiklopediyası, s.459.

# III FƏSİL

# İRƏVAN QUBERNİYASI ƏHALİSİNİN SAY VƏ ETNİK TƏRKİBİ

## 3.1. Əhalinin say və etnik tərkibi

İrəvan quberniyasının əhalisinin etnik tərkibi əsasən Azərbaycan türklərindən, ermənilərdən, ruslardan, kürdlərdən, aysorlardan və digər xalqlardan ibarət olmuşdur. Qeyd etmək lazımdır ki, Rusiya işğalına qədər İrəvan bölgəsinin əhalisinin etnik tərkibinin böyük əksəriyyətini (80 %-dən çoxu) yerli Azərbaycan türkləri təşkil etmiş və dövlət idarələrində həmin xalqın nümayəndələri təmsil olunmuşdular. Lakin Rusiya işğalından sonra qonşu dövlətlərdən bölgəyə erməni və digər xalqların nümayəndələrinin köçürülməsi ilə onun etnik mənzərəsini tamamilə dəyişməyə cəhd göstərilmişdir. Bu, Rusiya imperiyasının müstəmləkəçilik siyasətinin bir hissəsi idi. Mənbələrdə bölgənin etnik mənzərəsinin dəyişməsi, onun səbəbləri və siyahıyaalınmalar nəticəsində qəsdən yol verilmiş saxtakarlıqlar mərhələ-mərhələ işıqlandırılmışdır.

1828-ci il fevralın 10-da bağlanmış Türkmənçay müqaviləsindən sonra İrəvan və Naxçıvan xanlıqlarını özünə ilhaq edən çar Rusiyası, bölgəni Azərbaycandan ayırmaq, Osmanlı Türkiyəsi və Qacar dövləti ilə sərhəddə bufer zona yaratmaq, buranı xristianlaşdırmaq və yerli Azərbaycan türklərini öz ata-baba yurdundan sıxışdırmaq siyasəti yeritməyə başladı. Çar hakimiyyət orqanları işğalın ilk dövrlərindən qonşu dövlətlərdən müxtəlif xalqların nümayəndələrini - erməniləri, kürdləri, rusları, aysorları və s. xalqları köçürməklə bölgənin etnik mənzərəsini dəyişdirmək və xristian çoxluğuna nail olmağa cəhd etmişdilər. Bu köçürmələr əski İrəvan və Naxçıvan xanlıqlarının ərazilərini özündə birləşdirən İrəvan quberniyasında bəhs etdiyimiz dövr ərzində daima davam etdirilmişdir. Qeyd etmək lazımdır ki, köçürülən yad əhali Azərbaycan türklərinin yaşadığı kəndlərdə və torpaqlarda

yerləşdirilir, yerli əhali isə öz torpaqlarından sıxışdırılır və didərgin salınırdı. Lakin yeni hakimiyyətin bütün cəhdlərinə baxmayaraq, İrəvan quberniyasının əksər qəzalarında əhalinin etnik tərkibində Azərbaycan türkləri həmişə üstünlüyə malik olmuş, bunu statistik məlumatlar da sübut edir. Bundan əlavə, ayrı-ayrı illərdə aparılmış əhali ilə bağlı statistik məlumatlarda saxtakarlıqlara, qeyri-dəqiqliyə yol verilmiş, Azərbaycan türklərinin artımını göstərən doğum və ölüm halları obyektiv hesablanmamışdır.

Ermənilərin Şimali Azərbaycana köçürülməsinin təşkilatçılarından biri olmuş A.Qriboyedov köçürmə ilə bağlı qeydlərində göstərirdi ki: "ermənilərin mülkədar torpaqlarında yerləşdirilməsi, onların müsəlmanların yerini dar etməsi bir yana, hələ üstəlik onlara güzəştlər də verilmişdi. Halbuki ziyan çəkən tərəf müsəlmanlar idi. Əslində, erməniləri deyil, buranın müsəlmanlarını köçkün hesab etmək lazımdır. Ermənilər köçürülən zaman müsəlman ailələrinin əksəriyyəti yaylaqda idi və gəlmə ermənilərin onların evlərində yerləşdirilməsindən xəbərləri yox idi"[344]. N.N.Şavrov isə qeyd edirdi ki: "Köçürülənləri... erməni əhalisinin azlıq təşkil etdiyi Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı xəzinə torpaqlarında... yerləşdirmişik. Bu məqsədlə onlara 200000 desyatindən çox xəzinə torpaqları ayrılmış, müsəlmanlardan 2000000 rubldan çox xüsusi sahibkar torpağı satın alınmışdır. Yelizavetpol quberniyasının dağlıq hissəsi (Qarabağın dağlıq hissəsi və Zəngəzur-E.Q.) və Göyçə gölünün sahilində həmin ermənilər məskunlaşdırıldı"[345]. Digər rus müəllifi qeyd edirdi ki, "Türkmənçay" müqaviləsi imzalanandan sonra ayrı-ayrı

---

[344] Записка о переселении армян из Персии в наши области [АКАК в 13 томах], Под. ред. А. Берже, Тифлис, Типография Главного Управления Наместника Кавказского, 1878, т.7, №618, с.642-644; İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s.389.

[345] Шавров Н.Н., Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам, Баку, Элм, 1990, с.63-64; Qarayev E., Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında, s.396.

qrupların köçürülməsi eybəcər formada həyata keçirilməyə başladı: xüsusi torpaq fondu ayrılmadığından yeni əhalinin (ermənilərin-E.Q.) əksəriyyəti yaylaqda olan kəndlilərin (Azərbaycan türklərinin-E.Q.) evlərində yerləşdirildi[346].

Hərbi əməliyyatlar da əhalinin say tərkibinə ciddi təsir göstərmişdir. İşğal dövründə hərbi əməliyyatların gedişi zamanı kəndlər dağıdılmış, Azərbaycan türklərinin çoxu İrəvan bölgəsindən didərgin düşmüş, onlar Qacar və Osmanlı dövlətinə köçmək məcburiyyətində qalmışdılar. İ.Şopen tərəfindən 1829-1832-ci illərdə tərtib edilmiş siyahıyaalınmanı nəzərdən keçirsək görmək olar ki, İrəvan bölgəsində vaxtilə Azərbaycan türklərinin yaşadığı hərbi əməliyyatlar zamanı tamamilə dağıdılmış 310 kənd və 142 boş kənd siyahıya alınmışdır. Nəticədə, İrəvan xanlığına məxsus 831 kənddən vaxtilə Azərbaycan türklərinin yaşadığı 452 kəndin türk əhalisi qeydə alınmamışdır. Bundan əlavə, siyahıyaalınmada diqqəti cəlb edən məsələlərdən biri də, əhalisi olan kəndlərin böyük əksəriyyətində 1, 2, 3 və s. ailənin yaşadığı göstərilməsidir. Bir kənddə bu qədər ailənin yaşaması inandırıcı görünmür. Bu kəndlərin əhalisinin çoxu hərbi əməliyyatlar nəticəsində öz yurdlarından didərgin düşməyə məcbur olmuşdular. Əgər boş, əhalisiz qalmış kəndlərdə orta hesabla təxmini 20 ailənin və yaxud 100 nəfərin yaşadığını nəzərə alsaq, bu 45200 nəfər oturaq əhali edir (bunlar, ən aşağı, ən az rəqəmlər hesab olunmalıdır-E.Q.). Bundan əlavə, maldarlıqla məşğul olaraq yaylaq-qışlaq həyatı keçirən 2132 elat ailəsi və yaxud 10685 nəfər işğal ərəfəsində İrəvan xanlığını tərk etmişdir. Kameral siyahıyaalınmada göstərilən bu itkiləri nəzərə alsaq, müharibələrdə ölən və qonşu dövlətlərə emiqrasiya edən İrəvan bölgəsinin Azərbaycan türk əhalisinin sayı təxminən 57 min nəfər olmuşdur[347]. Təbii ki,

---

[346] Ениколопов И., Грибоедов и Восток, Ереван, 1954, с.135; İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s.389.

[347] Qarayev E., Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında, s.399-400.

bu, 1829-1833-cü illərdə keçirilən siyahıyaalınmanın nəticəsinə mənfi təsir göstərmişdir.

Yerli Azərbaycan türklərinin İrəvan və Naxçıvan bölgələrini tərk erməsi sonralar da davam etmişdi. 1840-cı ildə yerlərdə verginin vəziyyəti ilə tanış olmaq üçün İrəvan və Naxçıvan qəzalarına ezam olunmuş general-mayor Skalon dekabrın 29-da general Qolovinə ünvanladığı məktubda yazırdı: "Keçən ilin yazından, xüsusən bu il təbii fəlakət nəticəsində İrəvan və Naxçıvan qəzalarında mal-qaranın qırılması, məhsulsuzluq, Arazın daşması, iyunun 20-dən başlayaraq davam edən zəlzələ xalqı yoxsulluq həddinə çatdırmışdı. Vəziyyətlərinin ağırlığına baxmayaraq sıxışdırılan, zorakarlıqla üzləşən, ciddi cəzalara məruz qalan onlarla ailə Rusiya hakimiyyətindən üz çevirmək, yaxşı həyatı İran (Qacar dövləti-E.Q.) hakimiyyəti altında tapmaq istəyirdi. Axırıncı üç il 600 ailə bizim ərazimizi tərk etmişdi"[348]. Rus məmurunun məktubundan görünür ki, vəziyyətin ağırlığna tab gətirməyən, daima sıxışdırılan ən azı 5-6 min Azərbaycan türkü bölgəni tərk etmişdir.

Bundan əlavə, Azərbaycan türklərinin sayı siyahıyaalınmalarda bilə-bilə azaldılmış, saxtakarlığa yol verilmişdir. İstər mənbələrdə, istərsə də tarixi ədəbiyyatda bunu sübut edən faktlara rast gəlmək mümkündür. Məsələn, 1834-cü ildə İrəvan şəhərində 1807 Azərbaycan türk, 898 erməni, 40 qaraçı, ümumilikdə isə 2750 ailənin (11463 nəfər, 5897 kişi, 5566 qadın) yaşadığı göstərilmişdir. 1851-ci ildə isə 2606 ailə və yaxud 12603 nəfər qeydə alınmışdır. Etnik tərkibinə görə İrəvan şəhərində yaşayan əhalinin 6488-i Azərbaycan türklərinə, 6115-i isə ermənilərə məxsus olmuşdur[349]. Əgər bu rəqəmləri müqayisə etdikdə görmək olar ki, 16 ilə yaxın bir müddətdə İrəvan əhalisinin sayı cəmi 1140

---

[348] Записка ген.-м. Скалона, представленная ген. Головину, от 29-го декабря 1840 года, №155 / АКАКА, т.9, с.152.

[349] Обозрение российских владений за Кавказом в статическом, этнографическом, топографическом, финансовом отношениях, 1836. ч.4, с.291, с.365; Кавказский календарь на 1852 г., с.439-441.

nəfər artmışdır. Digər tərəfdən, ermənilər artım sayına görə demək olar ki, Azərbaycan türklərinə çatmışdılar. Həmin dövrü nəzərdən keçirdikdə bu artım inandırıcı görünmür. Bu səbəblərdən biri çar hakimiyyət orqanlarının Azərbaycan türklərinin siyahıyaalınmasında obyektivliyin qorunmaması, ölüm və doğum saylarının gizlədilməsi və XIX yüzilliyin ortalarında İrəvan şəhərində tez-tez baş verən kütləvi xəstəliklərdən ölənlərin sayının xeyli artmasıdır. Bu xəstəliklərlə əlaqədar mənbədə göstərilir ki: "İrəvanda ölüm halları həddən çox idi, şiddətli vəba və ya digər kütləvi xəstəliklər (qızdırma, sarılıq) ilə əlaqədar ölüm hallarının daha yüksək nisbətdə artmasından asılı olmayaraq ildə ölənlərin sayı 800 nəfərə qədər yüksəlmişdir. Ölənlərin sayına dair sənədli sübutlar ola bilər ki, adi ölüm qaydasında mərhumun dəfini polisin və həkimin icazəsi ilə keçirilirdi, lakin vəba xəstəliyi zamanı müsəlmanlar ölülərini gizlədirdilər (Azərbaycan türkləri ölülərinin geri qaytarılmayacağından ehtiyat edirdilər-E.Q.). Doğulanların sayına gəldikdə isə, bu baxımdan heç bir hesablama ədalətli ola bilməz. Çünki yalnız ermənilərdə doğulanların sayının göstəricisi ola biləcək doğum şəhadətnamələri vardı, tatarların (Azərbaycan türkləri-E.Q.) isə heç yerdə doğulanları qeydə alınmırdı"[350].

Çar hakimiyyət orqanları tərəfindən Azərbaycan türklərinə qarşı ögey münasibətin göstərilməsi Məmmədhəsən Vəlilinin əsərində ətraflı şərh edilmişdir. O, əsərində Azərbaycan türklərinə məxsus istər oturaq əhalinin, istərsə də köçmə maldarlıqla məşğul olanların sayının çar hakimiyyət orqanları tərəfindən keçirilən siyahıyaalınmalarda saxtakarlığa yol verildiyini göstərmişdir. Məhəmmədhəsən Vəlili yazırdı ki, "1897-ci ilin siyahıyaalınması ətraflı deyildi, zəif idi. Çünki islam əhalisi mədəniyyət cəhətcə (savad-E.Q.) ən geridə qaldıqları və həmçinin əsgər alınacaqlarından (aparılacaqlarından), torpaq mülkiyyətlərindən və vergi artırılacaqlarından ehtiyat etdikləri üçün siyahı tutulan zaman yazılmaqdan imtina edirdilər. Köçəri əhalinin (elatların-E.Q.) miqdarı da düz deyildi. Çünki siyahı tutulan vaxt bunların

[350] Кавказский календарь на 1852 г., с.439.

çoxu oturaq məhəllələrdən uzaq qışlaqlarda bulunurdular, o səbəbə siyahıya düşməmişdilər, ...bu siyahıda ... göstərilən rəqəmlərə ehtiyatla yanaşılmalıdır. Bu xataları çar çinovnik və polisləri bilərəkdən buraxırdılar. Onlar qəsdən siyasi nöqteyi-nəzərdən müsəlman millətlərinin qədərini azaldırdılar və gizlindən buna bais olurdular. Məsələn, siyahı tutulan zaman belə şayiə buraxırdılar ki, bu siyahı qoşun yığmağa, vergiləri və "zemski" vergiləri artırmağa görədir"[351]. Bəzi hallarda isə siyahıyaalınmada Azərbaycan türklərinin adı belə çəkilmirdi. Məsələn, XX yüzilliyin əvvəllərinə aid əhali ilə bağlı məlumatlarda İrəvan quberniyasında yaşayan ayrı-ayrı etnik qrupların adı və sayı göstərilsə də, Azərbaycan türkləri "müxtəlif Asiya xalqları" adı altında bilə-bilə gizlədilmişdir[352]. Bu da çar icra orqanlarının müstəmləkəçilik siyasətindən və Azərbaycan türklərinə ögey münasibətindən irəli gəlirdi.

İrəvan quberniyası yaranmamışdan əvvəl bölgənin etnik mənzərəsinin necə dəfə dəyişməsini izləmək üçün müxtəlif illərdə əldə olunmuş kameral təsvirləri, siyahıyaalınmaları mərhələ-mərhələ nəzərdən keçirmək lazımdır. Çarizm 1828-ci il fevralın 10-da "Türkmənçay" müqaviləsindən sonra İrəvan və Naxçıvan xanlıqlarını rəsmən öz tərkibinə ilhaq etdikdən sonra Osmanlı imperiyası və Qacar səltənəti ilə sərhəd ərazilərində bufer zona yaratmaq, xristianlaşdırmaq üçün ilk addımı bölgə əhalisinin etnik mənzərəsini dəyişmək olmuşdur. 1828-1832-ci illər kameral siyahıyaalınmaya görə, keçmiş İrəvan xanlığının ərazisinə Qacar səltənətindən 4559 ailə (23568 nəfər, tərkibi 12498 kişi, 11070 qadın), Naxçıvan xanlığına 2137 ailə (10 652 nəfər, tərkibi 5641 kişi, 5011 qadın), Ordubad dairəsinə isə 250 ailə (1340 nəfər, tərkibi 698 kişi, 642 qadın), Osmanlı imperiyasından isə İrəvan xanlığına 3674 ailə (21639 nəfər, tərkibi 11400 kişi, 10239 qadın), Naxçıvan xanlığına 8 ailə (27 nəfər, tərkibi 17 kişi, 10 qadın), ümumilikdə isə 10633 ailə, 57226 nəfər erməni köçürül-

---

[351] Vəlili M., Azərbaycan, coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat, s.17.
[352] Кавказский календарь на 1907 г., с.328.

müşdür[353]. Qacar dövlətindən və Osmanlı imperiyasından köçürülən ermənilər şəhər və mahallar üzrə belə yerləşdirilmişdir 1: İrəvan şəhərinə 1726, Gərnibasar mahalına 5359, Dərəçiçək mahalına 6798, Vedibasar mahalına 1069, Körpübasar mahalına 3073, Zəngibasar mahalına 2360, Abaran mahalına 8875, Sərdarabad mahalına 377, Qırxbulaq mahalına 1151, Şərur mahalına 1757, Sürməli mahalına 2801, Naxçıvan şəhərinə 265, Əlincəçay mahalına 208, Naxçıvan mahalına 941, Mavazixatun mahalına 216, Dərələyəz mahalına 515, Ordubad şəhərinə 36, Ordubad mahalına 14, Əylis mahalına 29, Belev mahalına 171 nəfər[354].

Bu köçürmələr bölgənin etnik mənzərəsinə böyük təsir göstərmişdir. Lakin bu köçürmələrdə yalnız erməni əhalisi deyil, kürdlər və ruslar da vardı. İrəvan əyalətində 1834-cü ildə keçirilən siyahıyaalınmasına görə, bütün bölgədə 22336 həyət və 65.300 nəfər kişi qeydə alınmış, bunlardan etnik tərkibinə görə, 29.690 nəfərini Azərbaycan türkləri, 10.350 nəfər yerli, 24.255 nəfər köçürülmə erməni, 1000 nəfərdən ibarət Bəyazid paşalığından köçürülmüş kürdlər və çox cüzi qaraçı (boş), Naxçıvan əyalətində 6538 ailə (16095 kişi), bunlardan 3859 Azərbaycan türk ailəsi, 533-ü yerli, 2145-i isə köçürülmə erməni ailəsi, Ordubad dairəsində isə 1320 ailə, 3160 kişi, bunlardan 2157 nəfəri Azərbaycan türkü, 1003 nəfəri erməni idi[355]. 1849-cu il məlumatına görə isə yalnız İrəvan qəzasında 11594 ailə və ya 57970 nəfər Azərbaycan türkləri yaşamışdır[356].

---

[353] Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.635-638.

[354] Yenə orada, s.635-638.

[355]Обозрение российских владений за Кавказом в статическом, этнографическом, топографическом, финансовом отношениях, т.IV, с.270-271, с.316-317, с.353-354; Qarayev E., Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında), s.408.

[356] Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в. [в 2 томах], Москва-Ленинград, Изд-во Академии наук СССР, 1937, т.2, с.375; Qarayev E., Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında), s.401.

1834-cü ildən başlayaraq mərkəzi Rusiyadan dini təfriqəçilər olan müxtəlif paskol təriqətinin üzvləri Azərbaycana, o cümlədən İrəvan bölgəsinə köçürülməyə başlandı. Köçürülən rus ailələri quberniyanın çox münbit, havası təmiz, əlverişli poçt yollarına yaxın yerdə məskunlaşdırılırdı. İlk belə rus köçkünlərindən - 1835-ci ildə 86 ailə Cənubi Qafqaza gətirilərək Göyçə yaxınlığında Bazarçay məntəqəsində yerləşdirilmişdi. Beş ilə yaxın burada yaşadıqdan sonra onlar Gülüstan kəndinə və nəhayət, 1846-cı ildə Göyçə kənarında yerləşən, çox münbit torpağı olan, dağıdılmış Yurdah kəndinə köçürürdülər. Kənd sonradan Yelenovka adlandırıldı. Göyçə kənarında yerləşmək onlara balıqçılıqla və əkinçiliklə məşğul olmağa imkan vermişdi[357].

1844-cü ildə 56 rus ailəsi Pəmbək məntəqəsində Ağstafa çayı üzərində Aleksandropol yolunun üzərində məskunlaşdırılmışdı. Bu kənd Nikitin adlandırıldı. Kəndin əla əkin sahəsi, geniş otlaq yerləri və təmiz havası vardı. Nikitin kəndindən 7 verst aralı 54 ailəsi olan Voskrisenskoe kəndi yerləşirdi. Bu kəndin sakinləri də Nikitin kəndinin sakinləri ilə eyni vaxta məskunlaşdırılmışdı. Onlar əkinçiliklə və tikinti işləri ilə məşğul olurdular[358].

1846-cı ildə İrəvan bölgəsinin ən səfalı yerlərindən biri olan Dərəçiçəyə 12 rus ailəsi köçürülmüşdü. Dərəçiçəyin havası çox səfalı, İrəvanın zadəgan əhalisinin yay istirahət yeri idi[359]. Sonrakı illərdə İrəvan quberniyasında məskunlaşan ruslara məxsus kəndlərin sayı daha da artmışdı. Nəticədə Yeni Bəyazid qəzasında Nadejdino, Semyanovka, Yelenovka, Aleksandrovka, Aşağı Axtı, Konstantinovka (Dərəçiçək), Quru Fantan, Qaryaginski və Şubinski kəndləri, Naxçıvan qəzasında Karmalinovka kəndi, Aleksandropol qəzasında Voskresenovka və Nikitino kəndləri, İrəvan qəzasında Yeni Nikoloyevka kəndi və İrəvan şəhərində "Molokon slobodka"sı yaranmışdı. Bu rus əhalisinin hamısı Rusiyadan-Samara, Saratov, Penza, Tambov və Voronejdən köçü-

---

357 Кавказ, 1850, 15 апрель, №30, с.128.
358 Yenə orada.
359 Yenə orada.

rülmüş dini təriqətin nümayəndələri idi. 1886-cı il siyahıyaalınmaya görə, İrəvan quberniyasında rus təriqətçilərinin yaşadığı kəndlərdə 620 ev olmuş, həmin evlərdə hər iki cinsdən 3700 insan yaşamışdır. 1900-cü ildə isə rus təriqətçilərinin sayı 5125-ə çatmışdır[360].

XIX yüzilliyin 40-cı illərində Urmiya bölgəsindən 100 aysor ailəsi köçürülərək İrəvan bölgəsinin vaxtilə Azərbaycan türklərinin yaşadığı Qalahisar kəndində məskunlaşdırılmışdı[361]. Məlumata görə, 1832-ci ildən 1873-cü ilə qədər keçmiş İrəvan xanlığının ərazisinə ermənilərdən əlavə, 6710 nəfər yad əhali (bunlardan 4339 nəfəri rus (bu siyahıda rus təriqətçilərindən başqa digər ruslar da nəzərdə tutulmuşdu), 1250 nəfəri aysor, 1090 nəfər yunan və 39 nəfər digər xalqların nümayəndələri) köçürülmüşdür[362].

İrəvan quberniyası yarandıqdan sonra əhalinin sayı daha da artmışdır. Belə ki, əgər 1829-1832-ci illər kameral təsvirinə görə, "Erməni əyaləti"ndə 164500 nəfər əhali yaşamışdırsa, 1859-cu ildə bu rəqəm 453597 nəfərə çatmışdı. Belə yüksək artımın bir neçə səbəbi vardır. Birincisi, Rusiya-Qacar, Rusiya-Osmanlı müharibələri başa çatdıqdan, sülh şəraitinin yaranmasından sonra qaçqınların bir hissəsinin geri qayıtması, ikincisi, 1849-cu ildə İrəvan quberniyası yaranarkən vaxtilə onun tərkib hissəsi olan Şörəyel və Pəmbək ərazilərinin Tifilis quberniyasından ayrılaraq ona birləşdirilməsi, üçüncü səbəb isə köçürmələrin daha da intensivləşməsi idi.

İrəvan quberniyasına köçürülənlər arasında ermənilər çoxluq təşkil etmişdilər. Onların İrəvan quberniyasına köçürülməsi bəhs etdiyimiz dövr ərzində daimi davam etdirilmişdir. N.Şavrovun yazdığına görə, 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsi zamanı Türkiyədən 35000 araba erməni ailəsi Sürməli qəzasına, 1893-1894-cü illərdə Türkiyənin şərqində baş vermiş hadi-

---

[360] Памятная книжка Эриванской губернии на 1902 г., с.144, с.153.

[361] Qarayev E., Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında, s.401.

[362] Известия Кавказского отдела Императорского Русского Географического Общества, Тифлис, 1881, т.7, с.93-94.

sələrlə əlaqədar olaraq əvvəl 10000, 1897-ci ildə isə 90000 nəfərə qədər erməni İrəvan quberniyası ərazisinə köçürülmüşdü. Lakin bəzi məlumata görə köçürülənlərin sayı 50-60 min arasında olmuşdur. Başqa bir məlumata görə isə 1878-ci il martın 3-də bağlanmış "Yassıçəmən" müqaviləsindən sonra Osmanlı ərazisindən 20.000 erməni İrəvan bölgəsinə köçürülmüşdür. Bu hadisə 1879-cu ilin payızında baş vermişdir[363]. Bu köçürülən erməni əhalisi yalnız İrəvan quberniyasında deyil, Azərbaycanın digər quberniyalarında da yerləşdirilmişdi. Belə ki, bir arxiv materialında 1877-1878-ci illərdə olmuş Rusiya-Türkiyə müharibəsindən sonra İrəvan quberniyasında erməni və yezidi kürdlərdən ibarət 8613 nəfərin yerləşdirilməsi, hətta bu ailələrin tərkibi və neçə ailədən ibarət olmaları haqqında məlumat verilmişdir. Bunlardan Üçmüəzzin qəzasında hər iki cinsdən 287 ailədən ibarət 2419 nəfər erməni, 16 ailədən ibarət 146 nəfər kürd, Sürməli qəzasında 54 ailədən ibarət 385 nəfər erməni, 24 ailədən ibarət 213 nəfər kürd, Yenibəyazid qəzasında 293 ailədən ibarət 2299 nəfər erməni, 27 ailədən ibarət 177 kürd, İrəvan qəzasında 122 evdən ibarət 1126 erməni, Aleksandropol qəzasında isə 32 evdən ibarət 263 nəfər məskunlaşdırılmışdı[364]. Köçürülənlərin 7063 nəfərinə büdcədən yardım göstərilmişdir. Qafqaz Canişinliyi Baş İdarəsi Rəisinin  verdiyi bu yardımın miqdarı 20000 rubla qədər olmuşdur[365].

Ermənilərin, rusların, kürdlərin və digər xalqların daima qonşu dövlətlərdən İrəvan quberniyasına köçürülməsi və siyahıyaalınmalarda qəsdən yol verilən saxtakarlıq istər-istəməz bölgənin etnik mənzərəsinə və əhalinin ümumi sayına böyük təsir göstərmişdir. Lakin bütün bu köçürmələrə baxmayaraq, İrəvan quberniyasının ək-

---

[363] Seyit Sertçelik, Rus və erməni mənbələri işığında erməni problemi, meydana çıxma prosesi. 1678-1914, İstanbul, 2017, s.138; Шавров Н.Н., Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам, с.63-64; Грузино-армянские претензии и Закавказская революция, Типография С.В.Кульженко, Киев, 1906, с.31.

[364] ГИА, ф.5, оп.1, д..5077, л.л. 1-1$^{об}$.

[365] ГИА, ф.5, оп.1, д..5077, л.2.

sər şəhər və qəzalarında Azərbaycan türkləri həmişə üstünlük təşkil etmişdilər. Bunu aşağıdakı stastistik məlumatlarda müşahidə etmək mümkündür. Qeyd etmək lazımdır ki, İrəvan quberniyasının əhalisinin sayını göstərən mənbələri iki qrupa bölmək olar; 1. Əhalinin ümumi sayını-ölüm və doğum rəqəmlərini göstərən mənbələr; 2. Əhalinin etnik tərkibini göstərən statistik mənbələr.

Məsələn, 1855-ci il məlumatında İrəvan quberniyasında əhalinin ümumi sayı ilə bərabər, istər şəhərdə və istərsə də qəzalarda əhalinin etnik tərkibinin konkret sayı da göstərilmişdir. Həmin ilin məlumatına görə, İrəvan şəhərində 13567 nəfər yaşamışdır. Bunlardan etnik tərkibinə görə 6510 nəfəri (3163 kişi, 3347 qadın) Azərbaycan türkləri, 6169 nəfəri (3278 kişi, 2881 qadın) ermənilər, 3 rus (2 kişi, 1 qadın), 11-i isə yunan (6 kişi, 5 qadın) olmuşdur[366].

1855-ci ildə İrəvan qəzasının inzibati-ərazi bölgüsü olan Şərur məntəqəsində 17194 nəfər Azərbaycan türkləri, 2812 nəfər erməni, 2685 nəfər kürd, Sürməli məntəqəsində 7391 nəfər Azərbaycan türkləri, 3886 nəfəri erməni, 1208 nəfər isə köçəri həyat sürən kürdlər, Sərdarabad məntəqəsində 11891 nəfər Azərbaycan türkləri, 18844 nəfər erməni, 1720 nəfəri isə köçəri həyat keçirən kürd, Zəngibasar məntəqəsində isə 18185 nəfər Azərbaycan türkləri, 9142 nəfər erməni, 11 nəfər rus, ümumilikdə isə İrəvan qəzasında 94970 nəfər qeydə alınmışdır. Ümumilikdə, İrəvan qəzasında 54661 nəfərini Azərbaycan türkləri, 34684 nəfərini isə ermənilər təkil etmişdilər[367].

Həmin ildə Naxçıvan qəzası üzrə də əhalinin statistik sayı qeydə alınmışdı. Naxçıvan şəhərində 5157 nəfər yaşamışdır. Bunlardan 3651 nəfəri Azərbaycan türkləri, 1459 nəfəri erməni, 47 nəfəri isə rus olmuşdur. Naxçıvan qəzasında ümumilikdə 12680 nəfər, bunlardan 7154-i Azərbaycan türkləri, 5090-ı erməni, 336-ı köçəri həyat sürən kürd qeydə alınmışdır[368].

---

[366] Кавказский календарь на 1855 г., с.280-281.
[367] Yenə orada., c.284-331.
[368] Yenə orada, s.350-351, s.354-355.

1855-ci il stastistik məlumata görə, Ordubad şəhərində 4302 nəfər yaşamışdır. Bunlardan 4019 nəfəri Azərbaycan türkləri, 35 nəfəri rus məmuru, 194 nəfəri isə erməni olmuşdur. Ordubad qəzasında isə 21696 nəfər Azərbaycan türkü, 8632 erməni, 35 rus məmuru, ümumilikdə 30363 nəfər yaşamışdır[369].

Yenibəyazid qəzası üzrə eyniadlı şəhərdə 2622 nəfər erməni, 15 rus məmuru, 2 yəhudi, ümumilikdə 2639 nəfər, qəzada isə 8244 Azərbaycanlı türkü, 1293 rus, 327 erməni, ümumilikdə 9864 nəfər qeydə alınmışdır. Bu qəzada da Azərbaycan türkləri çoxluq təşkil etmişdilər[370].

Aleksandropol şəhərində 11358 nəfər yaşamışdır. Etnik tərkibinə görə, 10909 nəfəri erməni, 413 nəfəri Azərbaycan türkləri, 28 nəfəri rus, 8-i isə yunan idi[371]. Aleksandropol qəzasına daxil olan Şörəyel sahəsində 23979 nəfər erməni, 238 nəfər Azərbaycan türkü, 3 nəfər rus keşişi, Pəmbək sahəsində 14030 nəfər erməni, 1206 Azərbaycan türkləri, 1574 nəfər rus qeydə alınmışdır[372].

XIX yüzilliyin 50-60-cı illəri ərzində İrəvan quberniyasında həm şəhər, həm də qəzalar üzrə tez-tez əhalinin siyahıyaalınması keçirilmiş, həmin məlumatlarda yalnız əhalinin ümumi sayı, ölən və anadan olanların fərqi göstərilmişdir. Məsələn, 1857-ci il stastistik məlumata əsasən, quberniya üzrə vəziyyət belə idi[373]:

| Şəhərlər üzrə | Əhalinin ümumi sayı | | Anadan olanların sayı | | Ölənlərin sayı | | Anadan olanlarla ölənlər arasında fərq | | Nigaha girənlərin sayı |
|---|---|---|---|---|---|---|---|---|---|
| | kişi | qadın | Kişi | qadın | kişi | qadın | kişi | qadın | |
| İrəvan | 5220 | 4151 | 268 | 293 | 695 | 596 | 427 | 303 | 168 |
| Naxçıvan | 2515 | 2235 | 95 | 85 | 92 | 83 | 3 | 2 | 47 |
| Ordubad | 2139 | 1959 | 87 | 62 | 72 | 42 | 15 | 20 | 12 |

369 Кавказский календарь на 1855 г., 394-395, s.398-399.
370 Yenə orada, 416-417, s.418.
371 Yenə orada, s.332-333.
372 Yenə orada, s.341-343, s.347-349.
373 Гугушвили П. Сельское хозяство и аграрные отношение, с.662.

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Aleksandropol | 6317 | 5695 | 269 | 290 | 203 | 448 | 65 | 158 | 137 |
| Yenibəyazid | 1856 | 1664 | 96 | 88 | 63 | 72 | 33 | 16 | 51 |
| Yekun | 18047 | 15704 | 815 | 818 | 1125 | 1241 | 310 | 423 | 415 |

Cədvəldən göründüyü kimi, İrəvan quberniyasının şəhərlərində 33751 nəfər yaşamışdır. Lakin əhali arasında ölənlərin sayı doğulanların sayından çox olmuşdur. Əgər həmin il şəhərlərdə hər iki cinsdən 1633 nəfər anadan olmuşdursa, 2366 nəfər ölənlərin sayı göstərilmişdir.

Quberniyanın qəzalarında isə vəziyyət belə idi[374]:

| Qəzalar üzrə | Əhalinin ümumi sayı | | Anadan olanların sayı | | Ölənlərin sayı | | Anadan olanlarla ölənlər arasında fərq | | Nigaha girənlərin sayı |
|---|---|---|---|---|---|---|---|---|---|
| | kişi | qadın | kişi | qadın | kişi | qadın | kişi | qadın | |
| İrəvan | 46051 | 37826 | 2422 | 2169 | 2062 | 1897 | 359 | 272 | 1361 |
| Naxçıvan | 17866 | 14322 | 637 | *523* | 548 | 364 | 89 | 159 | 194 |
| Ordubad | 15340 | 13118 | 474 | 408 | 431 | 344 | 43 | 64 | 138 |
| Aleksandropol | 21966 | 20667 | 224 | 841 | 344 | 717 | 120 | 124 | 508 |
| Yenibəyazid | 19505 | 15926 | 1126 | 877 | 554 | 536 | 572 | 341 | 446 |
| Yekun | 120728 | 101859 | 4882 | 4818 | 3939 | 3858 | 943 | 960 | 2647 |
| Ümumi quberniya üzrə | 138775 | 117563 | 5697 | 5636 | 5064 | 5099 | 633 | 537 | 3062 |

Cədvəldən göründüyü kimi, 1857-ci ildə İrəvan quberniyasında hər iki cinsdən 265338 nəfər yaşamış, 11333 nəfər anadan olan, 10163 nəfər isə ölən olmuşdur. Ümumiyyətlə, rəqəmlərə baxsaq görmək olar ki, anadan olanlarla ölənlər arasında çox az fərq olmuşdur.

1862-ci il statistik məlumatında anadan olanlarla ölənlər arasında nisbətən fərqin olduğunu görmək mümkündür. Həmin ildə şəhərlər və qəzalar üzrə əhalinin sayı belə idi[375]:

---

374 Гугушвили П. Сельское хозяство и аграрные отношение, с.662.
375 Гугушвили П. Сельское хозяство и аграрные отношение, с.664.

| Şəhərlər üzrə | Əhalinin ümumi sayı | | Anadan olanların sayı | | Ölənlərin sayı | | Anadan olanlarla ölənlər arasında fərq | | Nigaha girən-lərin sayı |
|---|---|---|---|---|---|---|---|---|---|
| | kişi | qadın | Kişi | qadın | kişi | qadın | kişi | qadın | |
| İrəvan | 6420 | 5750 | 333 | 375 | 302 | 255 | 31 | 123 | 245 |
| Naxçıvan | 3357 | 2832 | 70 | 55 | 25 | 15 | 45 | 40 | 43 |
| Ordubad | 2201 | 1800 | 95 | 79 | 58 | 46 | 37 | 33 | 19 |
| Aleksandropol | 8060 | 6875 | 384 | 350 | 250 | 266 | 134 | 84 | 165 |
| Yenibəyazid | 2093 | 2067 | 107 | 123 | 101 | 112 | 6 | 11 | 49 |
| Yekun | 22231 | 19324 | 989 | 985 | 736 | 694 | 253 | 291 | 521 |
| Qəzalar üzrə | Əhalinin ümumi sayı | | Anadan olanların sayı | | Ölənlərin sayı | | Anadan olanlarla ölənlər arasında fərq | | Nigaha girən-lərin sayı |
| | kişi | qadın | kişi | qadın | kişi | qadın | kişi | qadın | |
| İrəvan | 41698 | 30591 | 1950 | 1450 | 1224 | 500 | 550 | 556 | 1040 |
| Naxçıvan | 24861 | 20913 | 465 | *388* | 130 | 100 | 335 | 288 | 270 |
| Ordubad | 16255 | 12852 | 635 | 605 | 591 | 570 | 44 | 35 | 345 |
| Aleksandropol | 31649 | 29325 | 1274 | 1206 | 703 | 752 | 571 | 454 | 563 |
| Yenibəyazid | 39797 | 26927 | 1482 | 1409 | 1128 | 972 | 354 | 437 | 528 |
| Üçmüəzzin | 52547 | 46417 | 1294 | 1211 | 1002 | 1019 | 292 | 192 | 1211 |
| Yekun | 206805 | 173025 | 7100 | 6599 | 5004 | 4637 | 1986 | 1962 | 3957 |
| Hərbi təbəqə | 5532 | 649 | - | - | - | - | - | - | - |
| Ümumi quberniya üzrə | 234463 | 192998 | 8089 | 7594 | 5740 | 5331 | 2349 | 2233 | 4478 |

1862-ci il statistik məlumata görə, hərbiçiləri çıxsaq, İrəvan quberniyasında 421280 nəfər əhali qeydə alınmışdır. Əgər 1857-ci il statistik məlumatla müqayisə etsək, görmək olar ki, 5 il ərzində İrəvan quberniyasında 155942 nəfər artmışdır.

1865-ci il statistik məlumatda İrəvan quberniyasında hər iki cinsdən 462859 nəfər qeydə alınmışdır. Həmin məlumatda şəhər əhalisinin ümumi sayı belə təsvir edilmişdir[376]:

[376]Гугушвили П. Сельское хозяство и аграрные отношение, с.66.

| Şəhərlər üzrə | Əhalinin ümumi sayı | | Anadan olanların sayı | | Ölənlərin sayı | | Anadan olanlarla ölənlər arasında fərq | | Nigaha girən-lərin sayı |
|---|---|---|---|---|---|---|---|---|---|
| | kişi | qadın | kişi | qadın | kişi | qadın | kişi | qadın | |
| İrəvan | 8249 | 5821 | 555 | 739 | 468 | 360 | 87 | 379 | 408 |
| Naxçıvan | 3253 | 2713 | 65 | 50 | 175 | 179 | -110 | -129 | 63 |
| Ordubad | 2405 | 1955 | 102 | 81 | 208 | 169 | -106 | -88 | 28 |
| Aleksandropol | 8920 | 7894 | 422 | 370 | 264 | 263 | 158 | 107 | 164 |
| Yenibəyazid | 2313 | 2205 | 85 | 63 | 94 | 114 | -9 | -51 | 39 |
| Yekun | 25140 | 20588 | 1229 | 1303 | 1209 | 1085 | +20 | +218 | 697 |

Bu statistik məlumatda İrəvan quberniyasının şəhərlərində hər iki cinsdən 45728 nəfər qeydə alınmışdır. Lakin Azərbaycan türklərinin sıx yaşadığı Naxçıvan, Ordubad şəhərlərində və Yenibəyazid qəzasının mərkəzi olan Yenibəyazid şəhərində ölənlərin sayı anadan olanların sayından çox olmuşdur.

Həmin ildə qəzalarda vəziyyət belə idi[377]:

| Qəzalar üzrə | Əhalinin ümumi sayı | | Anadan olanların sayı | | Ölənlərin sayı | | Anadan olanlarla ölənlər arasında fərq | | Nigaha girən-lərin sayı |
|---|---|---|---|---|---|---|---|---|---|
| | kişi | qadın | kişi | qadın | kişi | qadın | kişi | qadın | |
| İrəvan | 42427 | 37234 | 1850 | 1800 | 1470 | 1450 | 550 | 556 | 1040 |
| Naxçıvan | 25424 | 21320 | 968 | *832* | 642 | 275 | 335 | 288 | 270 |
| Ordubad | 16051 | 12579 | 635 | 646 | 907 | 696 | -272 | -50 | 334 |
| Aleksandropol | 33315 | 30810 | 1300 | 1193 | 652 | 700 | 648 | 493 | 528 |
| Yenibəyazid | 41360 | 29355 | 1611 | 1398 | 1014 | 880 | 597 | 518 | 1217 |
| Üçmüəzzin | 53951 | 47965 | 975 | 844 | 320 | 337 | 655 | 507 | 1253 |
| Yekun | 237868 | 179263 | 7339 | 6713 | 5054 | 4705 | 2283 | 2008 | 5211 |
| Ümumi quberniya üzrə | 263008 | 199851 | 8568 | 8016 | 6263 | 5790 | 2303 | 2226 | 5928 |

1867-1868-ci illərdə Qafqaz Canişininin çara göndərdiyi xüsusi raportunda İrəvan quberniyasında əhalinin sayı və artım dərəcəsi haqqında da mühüm məlumat toplanmışdır. 1867-ci il

377 Гугушвили П. Сельское хозяство и аграрные отношение, с.668.

məlumatında İrəvan quberniyasının şəhərlərində əhalinin sayı belə idi[378]:

| Şəhərlər üzrə | Əhalinin ümumi sayı | | Anadan olanların sayı | | Ölənlərin sayı | | Anadan olanlarla ölənlər arasında fərq | | Nigaha girən-lərin sayı |
|---|---|---|---|---|---|---|---|---|---|
| | kişi | qadın | Kişi | qadın | Kişi | qadın | kişi | qadın | |
| İrəvan | 8420 | 5922 | 243 | 189 | 157 | 89 | 86 | 100 | 293 |
| Naxçıvan | 3003 | 2353 | 154 | 108 | 125 | 85 | 29 | 23 | 188 |
| Ordubad | 5281 | 2116 | 76 | 74 | 50 | 51 | 16 | 23 | 70 |
| Aleksandropol | 9125 | 8147 | 392 | 328 | 273 | 245 | 119 | 83 | 191 |
| Yenibəyazid | 2420 | 2256 | 117 | 95 | 79 | 82 | 38 | 13 | 24 |
| Yekun | 25549 | 20734 | 982 | 794 | 694 | 552 | 288 | 242 | 766 |

Qəzalar üzrə əhalinin xüsusi çəkisi belə idi[379]:

| Qəzalar üzrə | Əhalinin ümumi sayı | | Anadan olanların sayı | | Ölənlərin sayı | | Anadan olanlarla ölənlər arasında fərq | | Nigaha girən-lərin sayı |
|---|---|---|---|---|---|---|---|---|---|
| | kişi | qadın | kişi | qadın | kişi | qadın | kişi | qadın | |
| İrəvan | 42577 | 37375 | 1548 | 1488 | 1359 | 1320 | 195 | 168 | 1271 |
| Naxçıvan | 25434 | 21267 | 760 | *643* | 603 | 540 | 157 | 108 | 267 |
| Ordubad | 15951 | 12727 | 341 | 281 | 220 | 178 | 121 | 103 | 302 |
| Aleksandropol | 34889 | 31703 | 1242 | 1280 | 894 | 974 | 348 | 808 | 591 |
| Yenibəyazid | 42343 | 30004 | 1032 | 805 | 574 | 519 | 458 | 286 | 919 |
| Üçmüəzzin | 55772 | 49131 | 1946 | 1518 | 1106 | 959 | 842 | 554 | 1298 |
| Yekun | 216466 | 182207 | 6871 | 6015 | 4750 | 4490 | 2121 | 1525 | 4648 |
| Ümumi quberniya üzrə | 242015 | 203001 | 7853 | 6809 | 5444 | 5042 | 2409 | 1767 | 5414 |

Əgər 1867-ci ilin statistik məlumatını 1865-ci ilin məlumatı ilə müqayisə etsək görmək olar ki, həm şəhər əhalisinin, həm də qəzalarda əhalinin sayında azalma qeydə alınmışdır.

1868-ci ilin statistik məlumatında da eyni mənzərəni görmək olar. Həmin ildə İrəvan quberniyasında şəhərlər üzrə əhali-

---

[378]Гугушвили П. Сельское хозяство и аграрные отношение, с.671.
[379] Гугушвили П. Сельское хозяство и аграрные отношение, с.671.

nin sayı belə idi[380]:

| Şəhərlər üzrə | Əhalinin ümumi sayı | | Anadan olanların sayı | | Ölənlərin sayı | | Anadan olanlarla ölənlər arasında fərq | | Nigaha girən-lərin sayı |
|---|---|---|---|---|---|---|---|---|---|
| | kişi | qadın | Kişi | qadın | kişi | qadın | kişi | qadın | |
| İrəvan | 8249 | 5989 | 235 | 236 | 404 | 169 | 171 | 67 | 188 |
| Naxçıvan | 3202 | 2383 | 317 | 68 | 118 | 68 | 199 | 30 | 185 |
| Ordubad | 2657 | 2136 | 232 | 81 | 156 | 61 | 76 | 20 | 73 |
| Aleksandropol | 9342 | 82317 | 469 | 375 | 252 | 241 | 217 | 84 | 173 |
| Yenibəyazid | 2442 | 2273 | 52 | 45 | 30 | 28 | 22 | 17 | 73 |
| Yekun | 25892 | 21012 | 1303 | 785 | 960 | 567 | 514 | 218 | 646 |

Qəzalar üzrə əhalinin xüsusi çəkisi belə idi[381]:

| Qəzalar üzrə | Əhalinin ümumi sayı | | Anadan olanların sayı | | Ölənlərin sayı | | Anadan olanlarla ölənlər arasında fərq | | Nigaha girən-lərin sayı |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Kişi | qadın | kişi | qadın | kişi | qadın | kişi | qadın | |
| İrəvan | 42867 | 37655 | 1661 | 1614 | 1371 | 1334 | 290 | 280 | 1295 |
| Naxçıvan | 34103 | 27259 | 1255 | 995 | 799 | 744 | 251 | 108 | 267 |
| Ordubad | - | - | - | - | - | - | - | - | - |
| Aleksandropol | 35133 | 321192 | 1525 | 1224 | 781 | 735 | 744 | 489 | 788 |
| Yenibəyazid | 42977 | 30597 | 1561 | 1479 | 947 | 886 | 634 | 593 | 913 |
| Üçmüəzzin | 56772 | 49557 | 2341 | 1552 | 1704 | 1126 | 637 | 426 | 1342 |
| Yekun | 211494 | 177260 | 8363 | 6864 | 5602 | 4825 | 2761 | 2039 | 4777 |
| Ümumi quberniya üzrə | 237386 | 198272 | 8496 | 7649 | 6562 | 5392 | 3275 | 2257 | 5423 |

Cədvəldən göründüyü kimi, 1867-ci il statistik məlumatı ilə müqayisədə İrəvan quberniyası əhalisinin sayında 9358 nəfər azalma müşahidə olunmuşdur. Bu azalma həm şəhər, həm də qəzalar üzrə idi.

Yuxarıda göstərilən statistik məlumatı əks etdirən cədvəllərdə əhalinin yalnız ölüm, doğum və evlənmək halları göstəril-

[380] Гугушвили П. Сельское хозяство и аграрные отношение, с.674.
[381] Гугушвили П. Сельское хозяство и аграрные отношение, с.674.

mişdir. 1873-cü il statistik məlumatında isə İrəvan quberniyasının həm şəhər, həm kənd əhalisinin ümumi sayı, həm də etnik tərkibi öz əksini tapmışdır. Məlumatda etnik cəhətdən 211263 nəfərini Azərbaycan türkləri, 4339 nəfərini ruslar, 299978 nəfərini ermənilər, 1250 nəfərini aysorlar, 1090 nəfərini yunanlar, 27779 nəfərini kürdlər, 24 nəfərini yəhudilər təşkil etmiş, ümumilikdə quberniyada 538730 nəfərin yaşadığı qeyd olunmuşdur. Bundan əlavə, quberniyada siyahıya daxil olmayan 8963 nəfər vergi ödəməyənlər də vardı. Bunları da əlavə etsək kameral təsvirə görə, ümumilikdə quberniyada 548693 nəfər yaşamışdır. Bunlardan İrəvan şəhəri üzrə 11938 nəfər (6400 kişi, 5538 qadın), Naxçıvan şəhəri üzrə 10414 nəfər (5738 kişi, 4583 qadın, Aleksandropol şəhəri üzrə 19976 nəfər (10414 kişi, 9562 qadın), Yenibəyazid şəhəri üzrə isə 5363 nəfər (2686 kişi, 2677 qadın), ümumilikdə, 47643 nəfər **şəhərlərin payına** düşmüşdür. Quberniyanın İrəvan qəzasının kəndlərində 77518 nəfər (41838 kişi, 35680 qadın), Naxçıvan qəzasında 58758 nəfər (33547 kişi, 25211 qadın), Sürməli qəzasında 49791 nəfər (26584 kişi, 23207), Şərur-Dərələyəz qəzasında 51791 nəfər (27897 kişi, 23894 qadın), Aleksandropol qəzasında 86814 nəfər (45625 kişi, 41189 qadın), Yenibəyazid qəzasında 67779 nəfər (35702 kişi, 32077 qadın), Üçmüəzzin qəzasında 78176 nəfər (41589 nəfər, 36587 qadın), ümumilikdə, qəzalar üzrə 470627 nəfər, **elatlara gəldikdə** İrəvan qəzası üzrə yaylaqlarda 515 nəfər (303 kişi, 212 qadın), təzə köçürülmüş adamlar tərəfindən salınmış kənddə 51 nəfər (27 kişi, 24 qadın), İrəvan qəzasında qışlaqlarda 6135 nəfər (3366 kişi, 2769 qadın), Sürməli qəzasında 8696 nəfər (4949 kişi, 3747 qadın), Üçmüəzzin qəzasında 4308 nəfər (2371 kişi, 1937 qadın), ümumilikdə qışlaq üzrə 19139 nəfər (10686 kişi, 8453 qadın), Aleksandropolda mis zavodunda 225 nəfər (112 kişi, 113 qadın), **monastrlarda** İrəvan qəzası üzrə 6 kişi, Yenibəyazid qəzası üzrə 20 kişi qeydə alınmışdır[382]. Həmin il 26 ailə

[382] Списки населенных мест по сведениям 1873 года, Тифлис, 1879 г., с.106-108; Кавказский календарь на 1884 год, отдел III, с.291.

torpaq azlığından Aleksandropol qəzasından Qarsa köçürülmüşdür[383].

1873-cü ildə əhalinin etnik tərkibinə görə qəzalar üzrə faizi belə idi[384]:

| İrəvan | 0,34% rus | 54,35% Azərb.türk. | 37,19% Erməni | 7,07% kürd | 0,02% Yəhudi | 1,02% aysor | yunan |
|---|---|---|---|---|---|---|---|
| Naxçıvan | 0,38% | 74,87% | 41,90% | 0,93% | - | 0,06% | |
| Sürməli | - | 50,95 % | 30,94 % | 18,11% | - | - | - |
| Şərur-Dərələyəz | - | 74,87 % | 24,20 % | 0,52 % | - | 0,41 % | - |
| Aleksandropol | 1,40% | 4,04 % | 90,81 % | 2,79 % | - | - | 0,93% |
| Yenibəyazid | 3,08% | 28,81 % | 67,58 % | 0,39 % | - | - | 0,14% |
| Üçmüəzzin | - | 31,02 % | 61,45 % | 7,47 % | | 0,06 % | 0,14% |

Cədvəldən görmək olar ki, İrəvan, Naxçıvan, Sürməli və Şərur-Dərələyəz qəzalarında Azərbaycan türkləri böyük üstünlük təşkil etmişdilər.

1879-cu ilin məlumatına görə, İrəvan quberniyasında ümumilikdə 547693 nəfər qeydə alınmışdır. Etnik cəhətdən 231270 nəfəri Azərbaycan türklərinə, 298762 nəfəri ermənilərə, 4425 nəfəri ruslara, 24 nəfəri yəhudilərə və 7772 nəfəri isə kürdlərə məxsus olmuşdur[385]. Bu statistik məlumata diqqətlə fikir etsək görmək olar ki, ermənilərlə Azərbaycan türkləri arasında fərq çox azdır. Yuxarıda göstərildiyi kimi ermənilər siyasi vəziyyətlə əlaqədar olaraq İrəvan quberniyasına köçürülsə də, doğum faizinə görə Azərbaycan türkləri çoxluq təşkil etmişdilər.

"Qafqaz təqvimi"ndə 1879-cu il kameral təsvirlə bərabər, eyni zamanda 1882-ci ilin statistik məlumatı da göstərilmişdir. Həmin ildə polis araşdırılmasına görə, İrəvan quberniyasında hər iki cinsdən 569870 nəfər qeydə alınmışdır. Bu statistik məlumata Osmanlı Türkiyəsindən 40 erməni ailəsinin (ən azı 200 nəfərin-

---

383 Кавказский календарь на 1884 год, отдел III, с.291.
384 Yenə orada.
385 Yenə orada.

E.Q.) Aleksandropol qəzasına köçürülməsi də daxil edilmişdir[386]. Digər tərəfdən, 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsi İrəvan quberniyasının etnik mənzərəsinə böyük təsir göstərmişdir.

Əhali haqqında 1873-1882-ci illər statistik rəqəmləri müqayisə etdikdə görmək olar ki, 9 il ərzində İrəvan quberniyasında 31140 nəfər əhali artımı olmuşdur.

Çar Rusiyası İrəvanın işğalından 59 il sonra Cənubi Qafqazda ilk dəfə olaraq mükəmməl siyahıyaalınma keçirmişdir. 1886-cı il fevralın 24-də çarın fərmanı ilə Dövlət Şurası Cənubi Qafqazda siyahıyaalınma keçirməyə başladı. Bu kameral təsvirdə İrəvan quberniyasının 7 qəzası, qəzalara daxil olan 25 polis məntəqəsi və 5 şəhəri də daxil edilmiş, əhalisinin sayı, milli tərkibi də öz əksini tapmışdır. Əvvəlcə şəhərlər üzrə qeydə alınmış əhalini nəzərdən keçirək. Bu kameral təsvirdən görünür ki, İrəvan şəhərində 2968 evdən ibarət olan 14738 nəfər yaşamışdır. Bu ailələrin tərkibi 7823 kişidən, 6915 qadından ibarət olmuş, etnik tərkibinə görə isə bu ailələrdən 1385-ni Azərbaycan türkləri (3797 kişi, 3431 qadın), 1481-ni erməni (3827 kişi, 3315 qadın), 88-i rus (171 kişi, 142 qadın) və 14-ü isə digər xalqların nümayəndələri -gürcülər (5 ailə, 7 kişi, 11 qadın), polyaklar (5 ailə, 11 kişi, 3 qadın), almanlar (1 ailə, 2 kişi, 2 qadın), yəhudilər (3 ailə, 8 kişi, 8 qadın) təşkil etmişdirlər[387].

Naxçıvan qəzasının mərkəzi olan Naxçıvan şəhərində 1494 ev, 6939 ailə (3753 kişi, 3136 qadın) qeydə alınmışdır. Etnik tərkibinə görə, 992-i (2531 kişi, 2305 qadın) Azərbaycan türklərinə, 483-ü (1185 kişi, 856 qadın) ermənilərə, 9-u (16 kişi, 8 qadın) rus, 10-u (21 kişi, 17 qadın) qaraçılara məxsus olmuşdur[388].

Naxçıvan qəzasının Ordubad şəhərində 854 ailə yaşamışdır. Siyahıyaalınmaya görə, bu ailələrin 769-u (2100 kişi, 1687 qadın) Azərbaycan türklərinə, 84-ü (230 kişi, 181 qadın) erməni-

---

386 Кавказский календарь на 1884 год, отдел III, с.291.

387 Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г., с.330-331.

388 Yenə orada.

lərə, 1-i isə ruslara məxsus olmuşdur[389].

Erməni əhalisinin sıx yaşadığı qəzalarından biri Aleksandropol qəzasıdır. Şörəyel və Pəmbəyin tarixi ərazilərini təşkil edən və Azərbaycan türklərinin sıx yaşadığı bu ərazi hərbi əməliyyatlar nəticəsində yerli əhalinin ölməsi, məcburi öz yerlərindən didərgin salınması, 1828-1829-cu illərdə və ondan sonrakı illərdə ermənilərin kütləvi köçürülməsi nəticəsində etnik mənzərəsi dəyişdirilmişdir. Siyahıyaalınmaya görə, bu şəhərdə 3825 ev, 24230 nəfər (12391 kişi, 11839 qadın) qeydə alınmışdır. Bunlardan 89 ailə (433 kişi, 448 qadın) Azərbaycan türklərindən, 3651 ailə (11740 kişi, 11181 qadın) ermənilərdən, 14 ailə (34 kişi, 31 qadın) ruslardan, 61 ailə yunanlardan (164 kişi, 157 qadın), 10 ailə (20 kişi, 22 qadın) isə digər xalqlardan- 4-ü (10 kişi, 12 qadın) polyaklardan, 2-i (3 kişi, 1 qadın) yəhudilərdən, 3-ü (5 kişi, 6 qadın) gürcülərdən, 1-i (2 kişi, 6 qadın) isə imeretlərdən ibarət olmuşdur[390].

Yenibəyazid şəhərində isə 1128 ev, 7488 nəfər (3954 kişi, 3534 qadın) siyahıya alınmışdır. Bu şəhərdə Azərbaycan türkləri qeydə alınmamışdı. Qeydə alınan ailələrdən 1117-i (3913 kişi, 3513 qadın) ermənilərə, 6-ı (26 kişi, 12 qadın) kürdlərə, 5-i (15 kişi, 9 qadın) isə yəhudilərə məxsus olmuşdur[391].

Ümumiyyətlə, 1886-cı il kameral təsvirinə görə İrəvan quberniyasının şəhərlərində 10269 ailə, 57594 nəfər (30552 kişi, 27342 qadın) qeydə alınmışdır. Bu ailələrdən 3225-i (8861 kişi, 7871 qadın) Azərbaycan türkü, 6816-ı (20895 kişi, 19046 qadın) erməni, 112-i (222 kişi, 181 qadın) rus, 61-i (164 kişi, 157 qadın) yunan, 6-ı (26 kişi, 12 qadın) kürd, 39-u (84 kişi, 75 qadın) isə digər xalqların nümayəndələri olmuşdur[392].

---

[389] Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г., с.330-331.
[390] Yenə orada.
[391] Yenə orada.
[392] Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г., с.330-331.

1886-cı il siyahıyaalınmaya görə, İrəvan quberniyasında 7 qəza üzrə kameral təsvir keçirilmişdir. **İrəvan qəzasında** 14004 ailə, 98876 nəfər (54608 kişi, 44268 qadın), bunlardan 7383 ailə (29719 kişi, 23161 qadın) Azərbaycan türklərinə, 5216 ailə (19712 kişi, 16714 qadın) ermənilərə, 12 ailə ruslara (34 kişi, 26 qadın), 262 ailə (761 kişi, 620 qadın) digər xalqlara (kürd, aysor), **Naxçıvan qəzasında** 9918 ailə, 72882 nəfər (41353 kişi, 31529 qadın), bunlardan 5653 ailə (22761 kişi, 16461 qadın) Azərbaycan türklərinə, 4173 ailə (18216 kişi, 14802 qadın) ermənilərə, 28 ailə (82 kişi, 83 qadın) ruslara, 64 ailə (294 kişi, 179 qadın) kürdlərə, **Sürməli qəzasında** 9748 ailə (38354 kişi, 32712 qadın), bunlardan 5189 ailə (18639 kişi, 15712 qadın) Azərbaycan türklərinə, 2853 ailə (11830 kişi, 10266 qadın) ermənilərə, 1706 ailə (7835 kişi, 6734 qadın) kürdlərə, **Şərur-Dərələyəz qəzasında** 8425 ailə (23852 kişi, 17920 qadın), bunlardan 6073 ailə (33852 kişi, 27920 qadın, ümumilikdə 61772 nəfər) Azərbaycan türklərinə, 2182 ailə (9324 kişi, 7770 qadın, 17094 nəfər) ermənilərə, **Yenibəyazid qəzasında** 11976 ailə (50630 kişi, 45493 qadın, hər iki cinsdən 96123 nəfər), bunlardan 4392 ailə (15847 kişi, 13876 qadın) Azərbaycan türklərinə, 6751 ailə (32077 kişi, 29290 qadın) ermənilərə, 436 ailə (1288 kişi, 1279 qadın) ruslara, 347 ailə (1267 kişi, 1138 qadın) kürdlərə, 50 ailə (151 kişi, 110 qadın) digər xalqlara, **Aleksandropol qəzasında** 13080 ailə (58783 kişi, 52718 qadın, hər iki cinsdən 111501 nəfər), bunlardan 591 ailə (2487 kişi, 2093 qadın) Azərbaycan türklərinə, 11804 ailə (53420 kişi, 48214 qadın) ermənilərə, 144 ailə (483 kişi, 474 qadın) ruslara, 449 ailə (2077 kişi, 1662 qadın) kürdlərə, 91 ailə (312 kişi, 275 qadın) yunanlara, 4 kişi polşalılara, **Üçmüəzzin qəzasında** 13488 ailə (53795 kişi, 46796 qadın, hər iki cinsdən 100591 nəfər), bunlardan 4208 ailə (16371 kişi, 13832 qadın) Azərbaycan türklərinə, 8488 ailə (34052 kişi, 30072 qadın) ermənilərə, 781 ailə (3345 kişi, 2850 qadın) kürdlərə, 11 ailə (27 kişi, 42 qadın) aysorlara məxsus olmuşdur. Kameral təsvirə görə, ümumilikdə, İrəvan quberniyasında 36724 ailə (138579 kişi, 112478 qadın) Azərbaycan türklərindən, 196343

kişi, 173305 qadın erməni-qriqorynlardan (ermənilər buraya dini təriqətə görə - erməni-qriqoryan, erməni-katolik və erməni pravoslov daxil idi-E.Q.), 19411 kişi, 176059 qadın digər ermənilərdən, 323 ailə (921 kişi, 761 qadın) aysorlardan, 8 ailə (12 kişi, 21 qadın) gürcülərdən, 1 ailə (2 kişi, 3 qadın) imeretlərdən, 26 ailə (80 kişi, 63 qadın) isə mordvalılardan ibarət idi[393].

Bu siyahıyaalınmadan görünür ki, İrəvan quberniyasına daxil olan İrəvan, Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzalarında Azərbaycan türkləri böyük üstünlüyə malik olmuşdur. Bu qəzalarda üstünlük təşkil edən Azərbaycan türklərini və erməniləri müqayisə etdikdə görmək olar ki, **İrəvan şəhərində** Azərbaycan türkləri əhalinin 49,05 $^0/_0$-ni, qəza üzrə kişilərin 53,49 $^0/_0$-ni, qadınların 52,91 $^0/_0$-ni, ermənilər İrəvan şəhərində əhalinin 48,47 $^0/_0$-ni, qəza üzrə kişilərin 36,84 $^0/_0$-ni, qadınların 38,34 $^0/_0$-ni, **Naxçıvan şəhərində** Azərbaycan türkləri əhalinin 69,69 $^0/_0$-ni, **Ordubad şəhərində** əhalinin 90,19 $^0/_0$-ni, Naxçıvan qəzası üzrə 53,82 $^0/_0$-ni kişilər, 56,95 $^0/_0$-ni qadınlar, ermənilər **Naxçıvan şəhərində** əhalinin 29,41$^0/_0$-ni, **Ordubad şəhərində** 9,79 $^0/_0$-ni, Naxçıvan qəzası üzrə kişilərin 45,30 $^0/_0$-ni, qadınların 42,21 $^0/_0$-ni, **Sürməli qəzasında** Azərbaycan türkləri əhalinin 48,34 $^0/_0$-i, ermənilər 31,09 $^0/_0$-i, **Şərur-Dərələyəz qəzasında** Azərbaycan türkləri əhalinin 70,53 $^0/_0$-ni, ermənilər isə 27,67 $^0/_0$-i təşkil etmişdir. Yalnız Aleksandropol, Üçmüəzzin və Yenibəyazid qəzalarında ermənilər üstünlüyə malik olmuşdur[394].

Əgər nəzərə alsaq ki, işğaldan sonra ermənilərin zaman-zaman İrəvan quberniyasına kütləvi surətdə köçürülmələr nəticəsində süni surətdə sayı çoxaldılsa da, yerli Azərbaycan türklərinin bu illər ərzində təbii say artımı daha çox olmuşdur. S.Zavarov əsərində maraqlı bir məqama toxunaraq qeyd edir ki, "...Aleksandropol qəzasından başqa İrəvan quberniyasında Azərbaycan türkləri artım surətinə görə zaman-zaman ermənilərdən yüksəkdə durmuşdular.

---

[393] Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г., с.334-423.

[394] Yenə orada, c.414-416.

Göstərmək lazımdır ki, əgər 30-cu illərdə ermənilər əhalinin 50,1 $^{0}/_{0}$-ni təşkil edirdilərsə, 1886-cı ildə yalnız 47 $^{0}/_{0}$-ə düşmüşdülər, Azərbaycan türkləri əksinə 49,5 $^{0}/_{0}$-ni təşkil edirdilərsə, 55 il ərzində 52,1 $^{0}/_{0}$-ə qalxmışdılar[395].

1886-cı il siyahıyaalınmasında digər xalqların sayı da göstərilmişdir. Həmin xalqların quberniya üzrə sayı belə idi: ruslar 732 ailə, 4142 nəfər (2100 kişi, 2043 qadın, 0,62$^{0}/_{0}$); kürdlər 4614 ailə, 36478 nəfər (19777 kişi, 16701 qadın, 5,44$^{0}/_{0}$); polşalılar 10 ailə, 40 nəfər (25 kişi, 15 qadın, 0,01$^{0}/_{0}$); almanlar 1 ailə (2 kişi, 5 qadın); yunanlar 176 ailə, 1026 nəfər (547 kişi, 479 qadın, 0,15$^{0}/_{0}$); qaraçı 10 ailə, 38 nəfər (21 kişi, 17 qadın, 0,01$^{0}/_{0}$) və nəhayət, yəhudilər 10 ailə, 44 nəfər (26 kişi, 18 qadın,0,01$^{0}/_{0}$); aysorlar 323 ailə, 1682 nəfər (921 kişi, 761 qadın, 0,25$^{0}/_{0}$); gürcü 8 ailə, 33 nəfər (12 kişi, 21 qadın, 0,01$^{0}/_{0}$); mordvalılar 26 ailə, 143 nəfər (80 kişi, 63 qadın, 0,02$^{0}/_{0}$), imeretiyalı 1 ailə, 5 nəfər (2 kişi, 3 qadın)[396].

1886-cı il siyahıyaalınmasında İrəvan quberniyasının **İrəvan qəzasında** 4 polis məntəqəsi, 24 kənd cəmiyyəti üzrə 205 kənd, həmin kəndlərdə 14004 ailə, 98876 nəfər, **Naxçıvan qəzasında** 4 polis məntəqəsi, 28 kənd cəmiyyəti üzrə 169 kənd, həmin kəndlərdə 9918 ailə, 72880 nəfər, **Aleksandropol qəzasında** 4 polis məntəqəsi, 27 kənd cəmiyyəti üzrə 165 kənd, həmin kəndlərdə 13080 ailə, 111501 nəfər, **Yenibəyazid qəzasında** 4 polis məntəqəsi, 16 cəmiyyət üzrə 128 kənd, həmin kəndlərdə 11593 ailə, 94003 nəfər, **Sürməli qəzasında** 3 polis məntəqəsi, 9 cəmiyyət üzrə 228 kənd, həmin kəndlərdə 9748 ailə, 71066 nəfər, **Şərur-Dərələyəz qəzasında** 2 polis məntəqəsi, 15 kənd cəmiyyəti üzrə 161 kənd, həmin kəndlərdə 8435 ailə, 61772 nəfər, **Üçmüəzzin qəzasında** isə 4 polis məntəqəsi, 30 kənd cəmiyyəti üzrə 215 kənd, həmin kəndlərdə 13488 ailə, 100566 nəfər, ümu-

---

395 Заваров С., Опыт исследования сельского хозяйства хлебородного района Эриванской и Карсской области, с.246.

396 Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г., с.414-416.

milikdə isə quberniya üzrə 25 polis məntəqəsində 149 kənd cəmiyyəti, 1274 kənd və 670405 nəfər əhali qeydə alınmışdır[397].

1897-ci il yanvarın 28-də çarın fərmanı ilə bütün Rusiya imperiyasında, eləcə də Cənubi Qafqazda ətraflı siyahıyaalınma keçirilməyə başladı. Baş siyahıyaalınma komissiyası əhali haqqında əldə olunan məlumatı aprel ayında çap etməyə başladı. Bu siyahıyaalmaya görə, İrəvan quberniyasında şəhər əhalisinin etnik və say tərkibində belə idi: İrəvan şəhərində 17328 kişi, 11678 qadın olmaqla 29006 nəfər (bunlardan 2122 nəfər xarici vətəndaş, 858 nəfər müvəqqəti gələnlər, 25926 nəfəri yerli əhali), Naxçıvan şəhərində 4666 kişi, 4124 qadın olmaqla 8790 nəfər (bunlardan 511 nəfəri xarici vətəndaş, 116 nəfəri müvəqqəti gələnlər, 8163 nəfəri yerli əhali), Ordubad şəhərində 2458 kişi, 2153 qadın olmaqla 4611 nəfər (bunlardan 147 nəfəri xarici vətəndaş, 16 nəfəri müvəqqəti gələnlər, 4448 nəfəri yerli əhali), Yenibəyazid şəhərində 4370 kişi, 4116 olmaqla 8486 nəfər (bunlardan 15 nəfəri xarici vətəndaş, 18 nəfəri müvəqqəti gələnlər, 8430 nəfəri yerli əhali), Aleksandropol şəhərində 19049 kişi, 11567 qadın olmaqla 30616 nəfər (bunlardan 462 nəfəri xarici vətəndaş, 880 nəfəri müvəqqəti gələnlər, 29274 nəfəri yerli əhali), Sürməli qəzasının mərkəzi İğdır kəndində 2689 kişi, 1991 qadın olmaqla 4680 nəfər (bunlardan 399 nəfəri xarici vətəndaş, 38 nəfəri müvəqqəti gələnlər, 4243 nəfəri yerli əhali), Şərur-Dərələyəz qəzasının mərkəzi Başnoraşen kəndində 504 kişi, 363 qadın olmaqla 867 nəfər (bunlardan 86 nəfəri xarici vətəndaş, 75 nəfəri müvəqqəti gələnlər, 706 nəfəri yerli əhali), Üçmüəzzin qəzasının mərkəzi Vaqarşapat kəndində 3077 kişi, 2190 qadın olmaqla 5267 nəfər (bunlardan 779 nəfəri xarici vətəndaş, 80 nəfəri müvəqqəti gələnlər, 4408 nəfəri yerli əhali). Ümumilikdə 1897-ci il siyahıyaalınmaya görə, İrəvan quberniyasının şəhərlərində 54141 kişi və 38182 qadın olmaqla 92323 nəfər (bunlardan 4521 nəfəri xarici vətəndaş, 2081 nəfəri müvəqqəti gələnlər, 85721 nə-

---

[397] Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г., с.334-413.

fəri yerli əhali) yaşamışdır[398].

Qəza üzrə əhalinin say tərkibi belə idi: İrəvan qəzasında 82899 kişi, 67980 qadın olmaqla 150879 nəfər ((bunlardan 4154 nəfəri xarici vətəndaş, 1694 nəfəri müvəqqəti gələnlər, 145031 nəfəri yerli əhali); Naxçıvan qəzasında 52984 kişi, 47787 qadın olmaqla 100771 nəfər (bunlardan 2074 nəfəri xarici vətəndaş, 954 nəfəri müvəqqəti gələnlər, 998143 nəfəri yerli əhali), Sürməli qəzasında 47269 kişi, 41786 qadın olmaqla 89055 nəfər (bunlardan 2626 nəfəri xarici vətəndaş, 195 nəfəri müvəqqəti gələnlər, 86234 nəfəri yerli əhali); Şərur-Dərələyəz qəzasında 4155 kişi, 36483 qadın olmaqla 76538 nəfər (bunlardan 1624 nəfəri xarici vətəndaş, 641 nəfəri müvəqqəti gələnlər, 74273 nəfəri yerli əhali); Yenibəyazid qəzasında 63128 kişi, 59445 qadın olmaqla 122573 nəfər (bunlardan 123 nəfəri xarici vətəndaş, 318 nəfəri müvəqqəti gələnlər, 122132 nəfəri yerli əhali); Üçmüəzzin qəzasında 65072 kişi, 59165 qadın olmaqla 124237 nəfər (bunlardan 2591 nəfəri xarici vətəndaş, 1150 nəfəri müvəqqəti gələnlər, 120496 nəfəri yerli əhali); Aleksandropol qəzasında 89482 kişi, 70021 qadın olmaqla 165503 nəfər (bunlardan 2296 nəfəri xarici vətəndaş, 3336 nəfəri müvəqqəti gələnlər, 156543 nəfəri yerli əhali). Beləliklə, İrəvan quberniyasının qəzalarında 441889 kişi, 387667 qadın olmaqla 829556 nəfər yaşamış, bunlardan 805780 nəfəri yerli əhali, 15488 nəfəri xarici vətəndaş, 8288 nəfəri isə müvəqqəti gəlmə idi[399].

İrəvan quberniyasında əhalinin sıxlığı böyük deyildi. Məsələn, İrəvan qəzasında hər 1 kv.verstə 56,63, Naxçıvan qəzası üzrə 26,11, Sürməli qəzası üzrə 27,47, Şərur-Dərələyəz üzrə 29,30, Yenibəyazid qəzası üzrə 29,43, Aleksandropol qəzası üzrə 50,09, Üçmüəzzin qəzası üzrə isə 36,64 nəfər, quberniya üzrə isə hər 1 kv. verstə 35,71 nəfər düşürdü[400].

---

398 Первая всеобщая перепись населения Российской империи, 1897 г. LXXI. Эриванская губерния, с.1.

399 Yenə orada.

400 Первая всеобщая перепись населения Российской империи, 1897 г. LXXI. Эриванская губерния, с.1.

Beləliklə, 1897-ci ilin siyahıyaalınmasına görə, İrəvan quberniyasının şəhər və qəzalarında 891501 nəfər yerli əhali, digərləri gəlmə olmaqla 921879 nəfər qeydə alınmışdır.

1897-ci il siyahıyaalınmada əhalinin say tərkibi göstərilməklə bərabər, onun etnik tərkibi də qeydə alınmışdır. Bu siyahıyaalınmaya görə, **İrəvan şəhərində** 12359 nəfər Azərbaycan türkünün, 12523 nəfər erməninin, 64 nəfər kürdün, 204 nəfər yəhudinin, 81 nəfər aysorun, 604 nəfər digər xalqların nümayəndələrinin, **Naxçıvan şəhərində** 6161 nəfər Azərbaycan türkünün, 2263 nəfər erməninin, 2 nəfər kürdün, 4 nəfər aysorun, 128 nəfər digər xalqların, **Ordubad şəhərində** 4088 nəfər Azərbaycan türkünün, 284 nəfər erməninin, 60 nəfər digər xalqların, **Aleksandropol şəhərində** 1090 Azərbaycan türkünün, 21771 nəfər erməninin, 101 nəfər kürdün, 415 nəfər yəhudinin, 2082 nəfər digər xalqların, **Yenibəyazid şəhərində** 40 nəfər AZərbaycan türkünün, 8094 nəfər erməninin, 241 nəfər kürdün, 15 nəfər yəhudinin, 39 nəfər digər xalqların, **İğdır kəndində** 82 nəfər Azərbaycan türkünün, 3934 nəfər erməninin, 72 nəfər kürdün, 4 nəfər yəhudinin, 29 nəfər digər xalqların, **Başnoraşen kəndində** 597 nəfər Azərbaycan türkünün, 132 nəfər erməninin, 90 nəfər kürdün, 17 nəfər digər xalqların, **Vaqarşapat kəndində** isə 71 nəfər Azərbaycan türkünün, 4996 nəfər erməninin, 21 nəfər kürdün, 6 nəfər yəhudinin, 5 nəfər aysorun və 27 nəfər isə digər xalqların nümayəndələrinin yaşadığı göstərilmişdir. Ümumilikdə İrəvan quberniyasında qəza mərkəzləri olan şəhər və kəndlərdə 24488 nəfər Azərbaycan türkləri yaşamışdır[401].

Sonrakı illərdə də İrəvan quberniyasının əhalisi haqqında statistik məlumatlar qeydə alınmışdır. Məsələn, 1907-ci il "Qafqaz təqvimi"ndə İrəvan quberniyası üzrə əhalinin say və etnik tərkibi təsvir edilmişdir. Burada göstərilmişdir ki, 1905-ci il məlumatına görə, İrəvan şəhərində 14600 kişi, 12933 qadın olmaqla 27533 nəfər əhali yaşamışdır. Etnik tərkibinə görə yaşayanların 12393 nəfərini (6582 kişi, 5811 qadın) Azərbaycan türkləri, 12912 nəfərini

[401] Yenə orada, c.3.

(6886 kişi, 6026 qadın) ermənilər, 1576 nəfərini (776 kişi, 800 qadın) ruslar, 139 nəfərini (79 kişi, 60 qadın) digər Avropa xalqları, 261 nəfərini (136 kişi, 125 qadın) yəhudilər, 32 nəfərini (14 kişi, 18 qadın) kürdlər, 201 nəfərini (108 kişi, 93 qadın) gürcülər və 19 nəfərini dağlı xalqları təşkil etmişdilər[402].

Naxçıvan qəzasının mərkəzi olan **Naxçıvan şəhərində** həmin ildə 8802 nəfər (4698 kişi, 4104 qadın) yaşamışdır. Bunlardan 6185 nəfəri (3286 kişi, 2899 qadın) Azərbaycan türkləri, 2354 nəfəri (1270 kişi, 1084 qadın) ermənilər, 240 nəfəri (124 kişi, 116 qadın) ruslar, 20 nəfəri (15 kişi, 5 qadın) gürcülər və 3 nəfəri (3 kişi) digər Avropa xalqları idi. Həmin qəzanın xüsusi statuslu şəhəri olan **Ordubad şəhərində** isə 4941 nəfər (2597 kişi, 2344 qadın) qeydə alınmışdır. Etnik tərkibinə görə yaşayanların 4447 nəfərini (2342 kişi, 2105 qadın) Azərbaycan türkləri, 399 nəfərini (209 kişi, 190 qadın) ermənilər, 94 nəfərini (45 kişi, 49 qadın) ruslar, 1 nəfərini isə (1 kişi) digər Avropa xalqlarının nümayəndəsi təşkil etmişdilər[403].

**Yenibəyazid şəhərində** 9624 nəfər (5107 kişi, 4517 qadın) qeydə alınmışdır. Bunun 9 nəfəri (9 kişi) Azərbaycan türkləri, 9319 nəfəri (4931 kişi, 4388 qadın) ermənilər, 120 nəfəri (71 kişi, 49 qadın) ruslar, 9 nəfəri (8 kişi, 1 qadın) digər Avropa xalqlarının nümayəndələri, 15 nəfəri isə (7 kişi, 8 qadın) gürcülər, 152 nəfəri (81 kişi, 71 qadın) kürdlər idilər[404].

**Aleksandropol şəhərində** isə 39371 nəfər (20178 kişi, 19193 qadın) olduğu göstərilmişdir. Əhalinin etnik tərkibinə görə 1572 nəfərini (799 kişi, 773 qadın) Azərbaycan türkləri, 34715 nəfərini (17821 kişi, 16894 qadın) ermənilər, 1872 nəfərini (923 kişi, 949 qadın) ruslar, 164 nəfərini (94 kişi, 70 qadın) digər Avropa xalqlarının nümayəndələri, 434 nəfərini (200 kişi, 234 qadın) gürcülər, 102 nəfərini (65 kişi, 37 qadın) yəhudilər, 205 nəfərini (106 kişi, 99 qadın) kürdlər, 274 nəfərini (152 kişi, 122 qa-

---

[402] Кавказский календарь на 1907 г., отдел 1, с.328.
[403] Yenə orada.
[404] Yenə orada.

dın) qaraçılar, 33 nəfərini isə (18 kişi, 15 qadın) Qafqaz dağlıları təşkil etmişdilər[405].

Ümumilikdə, 1905-ci ilin statistik məlumatına görə, İrəvan quberniyasının adı çəkilən şəhərlərində 47180 kişi, 43091 qadın olmaqla hər iki cinsdən 90271 nəfər yaşamışdır. Etnik tərkibinə görə şəhər əhalisinin 24606 nəfərini Azərbaycan türkləri təşkil etmişdilər. Əgər 1897-ci il siyahıyaalınması ilə müqayisə etsək görmək olar ki, 8 ildə İrəvan quberniyasının adı çəkilən şəhərlərində əhalinin artımı 8762 nəfər olmuşdur.

1905-ci il statistik məlumatda **İrəvan qəzasında** 62777 kişi, 55076 qadın olmaqla 117853 nəfər, bunlardan əhalinin 65158 nəfərini Azərbaycan türkləri (34715 kişi, 30443 qadın), 45110 nəfərini ermənilər (24035 kişi, 21075 qadın), 75 nəfərini ruslar (43 kişi, 32 qadın), 5578 nəfərini kürdlər (2957 kişi, 2621 qadın), 7 nəfərini yunanlar (2 kişi, 5 qadın), 1925 nəfərini aysorlar (1025 kişi, 900 qadın), **Aleksandropol qəzasında** 79173 nəfəri kişi, 73718 nəfəri qadın olmaqla 152891 nəfər, bunlardan 6265 nəfərini Azərbaycan türkləri (3330 kişi, 2935 qadın), 32339 nəfərini ermənilər (16560 kişi, 15779 qadın), 1527 nəfərini ruslar (762 kişi, 765 qadın), 5586 nəfərini kürdlər (2867 kişi, 2719 qadın), 858 nəfərini yunanlar (432 kişi, 406 qadın), **Naxçıvan qəzasında** 55836 kişi, 48505 qadın olmaqla 104341 nəfər, bunlardan 58866 nəfərini Azərbaycan türkləri (31951 kişi, 26915 qadın), 44515 nəfərini ermənilər (23400 kişi, 21175 qadın), 280 nəfərini ruslar (138 kişi, 142 qadın və 347 kişi), 620 nəfərini kürdlər (347 kişi, 273 qadın), **Yenibəyazid qəzasında** 70752 kişi, 65358 qadın olmaqla 136110 nəfər, bunlardan 41820 nəfərini Azərbaycan türkləri (21676 kişi, 20144 qadın), 88276 nəfərini ermənilər (46081 kişi, 42195 qadın), 4089 nəfərini ruslar (2045 kişi, 2044 qadın), 1712 nəfərini kürdlər (845 kişi, 867 qadın), 218 nəfərini yunanlar (105 kişi, 213 qadın), **Sürməli qəzasında** 47920 kişi, 41441 qadın olmaqla 89361 nəfər, bunlardan 40993 nəfərini Azərbaycan türkləri (22242 kişi, 18751 qadın), 29027 nəfərini ermənilər

---

[405] Кавказский календарь на 1907 г., отдел 1, с.328.

(15558 kişi, 13669 qadın), 19341 nəfərini kürdlər (10320 kişi, 9021 qadın), **Şərur-Dərələyəz qəzasında** 41896 kişi, 36829 qadın olmaqla 78325 nəfər, bunlardan 54296 nəfərini Azərbaycan türkləri (28910 kişi, 25386 qadın), 22693 nəfərini ermənilər (12272 kişi, 10421 qadın), 789 nəfərini kürdlər (430 kişi, 359 qadın), 547 nəfərini aysorlar (284 kişi, 263 qadın), **Üçmüəzzin qəzasında** 67549 kişi, 60673 qadın olmaqla 128222 nəfər, bunlardan 35429 nəfərini Azərbaycan türkləri (18808 kişi, 16621 qadın), 86038 nəfərini ermənilər (45181 kişi, 40857 qadın), 6632 nəfərini kürdlər (3500 kişi, 3132 qadın), 123 nəfərini aysorlar (60 kişi, 63 qadın), ümumilikdə isə İrəvan quberniyasında 425903 kişi, 381200 qadın olmaqla 807103 nəfər təşkil etmişdir. Etnik tərkibinə görə quberniyada 302827 nəfər (161632 kişi, 141195 qadın) Azərbaycan türkləri, 454374 nəfər (238189 kişi, 216285 qadın) erməni, 5971 nəfər (2988 kişi, 2983 qadın) rus, 40258 nəfər (21266 kişi, 18992 qadın) kürd, 2595 nəfər (1369 kişi, 1226 qadın) aysor, 1078 nəfər (559 kişi, 519 qadın) yunan yaşamışdır[406].

İrəvan quberniyasında 1915-cı il yanvarın 1-ə olan statistik məlumatına görə, İrəvan quberniyasında əhalinin sayı 1065914 nəfərə (563824 kişi, 502090 qadın) çatmışdır. Etnik tərkibinə nəzər yetirdikdə, əhalinin 382043 nəfərini (199759 kişi, 172575 qadın) Azərbaycan türkləri, 613559 nəfərini (332276 kişi, 291283 qadın) ermənilər, 16171 nəfərini (8707 kişi, 3507 qadın) ruslar, 47828 nəfərini (24160 kişi, 23668 qadın) kürdlər, 3590 nəfərini (1908 kişi, 1682 qadın) aysorlar, 1287 nəfərini (312 kişi, 975 qadın) gürcülər, 993 nəfərini (561 kişi, 432 qadın) polşalı, alman və digər Avropa xalqları, 900 nəfərini (469 kişi, 431 qadın) qaraçılar, 352 nəfərini isə (207 kişi, 145 qadın) yəhudilər təşkil etmişdilər. Həmin ildə quberniyada hər 1 kv. verstə 46,0 nəfər düşmüşdür[407].

1916-cı il yanvarın 1-ə olan statistik məlumatında quberni-

---

[406] Кавказский календарь на 1907 г., отдел 1, с.150-155.
[407] Кавказский календарь на 1916 г., с.46-49.

yanın şəhərlərində 132559 nəfər (69454 kişi, 63105 qadın, bunlardan 92480 nəfəri daimi, 40079 nəfəri isə müvəqqəti yaşayanlar) qeydə alınmışdır. **İrəvan şəhərində** 51286 nəfər (25548 kişi, 25738 qadın, bunlardan 22001 nəfəri daimi yaşayanlar, 29285 nəfəri isə müvəqqəti yaşayanlar), etnik tərkibinə görə, 12566 nəfər (6697 kişi, 5869 qadın, bunlardan 9566 yerli əhali, 3003 müvəqqəti yaşayanlar) Azərbaycan türkləri, 37223 nəfər (18096 kişi, 19127 qadın, bunlardan 12284 nəfəri yerli, 24939 nəfəri müvəqqəti yaşayanlar) erməni, 1059 nəfər (517 kişi, 542 qadın, bunlardan 132 nəfəri daim yaşayanlar, 927 nəfəri müvəqqəti yaşayanlar) rus, 203 nəfər (111 kişi, 92 qadın, hamısı müvəqqəti yaşayanlar) gürcü, 29 nəfər (17 kişi, 22 qadın, hamısı müvəqqəti yaşayanlar) kürdlər, 196 nəfər (110 kişi, 86 qadın, hamısı müvəqqəti yaşayanlar) yəhudi, **Naxçıvan şəhərində** 8934 nəfər (4541 kişi, 4393 qadın, bunlardan 8477 nəfəri daimi, 457 nəfəri isə müvəqqəti yaşayanlar), etnik tərkibinə görə 6026 nəfər (2928 kişi, 3012 qadın, bunlardan 86 nəfəri müvəqqəti yaşayanlar) Azərbaycan türkləri, 2665 nəfər (1399 kişi, 1203 qadın, bunlardan 2520 nəfəri daimi yaşayan, 145 nəfəri isə müvəqqəti yaşayanlar) erməni, 147 nəfər rus (84 kişi, 63 qadın, bunlardan 17 nəfəri daimi, 110 nəfəri müvəqqəti yaşayanlar), 11 nəfər (7 kişi, 4 qadın, hamısı müvəqqəti yaşayanlar) digər Avropa xalqlarının nümayəndələri, 72 nəfər (49 kişi, 23 qadın, hamısı müvəqqəti yaşayanlar) gürcü, 6 nəfər (6 kişi, hamısı müvəqqəti yaşayanlar) Qafqaz dağlıları, 7 nəfər (5 kişi, 2 qadın, hamısı müvəqqəti yaşayanlar) aysor, **Ordubad şəhərində** 5717 nəfər (3423 kişi, 2294 qadın, bunlardan 5594 nəfəri daimi, 123 nəfəri müvəqqəti yaşayanlar), etnik tərkibinə görə 5449 nəfər (3289 kişi, 2160 qadın, bunlardan 5431 nəfəri daimi, 18 nəfəri müvəqqəti yaşayanlar) Azərbaycan türkləri, 179 nəfər (82 kişi, 97 qadın, bunlardan 163 nəfəri daimi, 16 nəfəri müvəqqəti yaşayanlar) erməni, 86 nəfər (51 kişi, 35 qadın, bunlardan hamısı müvəqqəti yaşayanlar) rus, 3 nəfər (1 kişi, 2 qadın, hamısı müvəqqəti yaşayanlar) digər Avropa xalqlarının nümayəndələri, **Yenibəyazid şəhərində** 14748 nəfər (7480 kişi, 7268 qadın, bunlardan 12944 nəfəri daimi, 1804

nəfəri isə müvəqqəti yaşayanlar), etnik tərkibinə görə 14350 nəfər (7250 kişi, 7100 qadın, bunlardan 12860 nəfəri daimi, 1490 nəfəri isə müvəqqəti yaşayanlar) erməni, 83 nəfər (62 kişi, 21 qadın, hamısı müvəqqəti yaşayanlar) rus, 11 nəfər (6 kişi, 5 qadın, hamısı müvəqqəti yaşayanlar) digər Avropa xalqlarının nümayəndələri, 238 nəfər (125 kişi, 113 qadın, bunlardan 84 nəfəri daimi, 164 müvəqqəti yaşayanlar) kürd, 64 nəfər (36 kişi, 28 qadın, hamısı müvəqqəti yaşayanlar) aysor, 2 nəfər (1 kişi, 1 qadın, hər ikisi müvəqqəti yaşayanlar) yəhudi, **Aleksandropol şəhərində** 51874 nəfər (24022 kişi, 19442 qadın, bunlardan 43464 nəfəri daimi, 8410 nəfəri müvəqqəti yaşayanlar), etnik tərkibinə görə 1003 nəfər (521 kişi, 482 qadın, bunlardan 910 nəfəri daimi, 93 nəfəri müvəqqəti yaşayanlar) Azərbaycan türkləri, 45646 nəfər (25225 kişi, 20421 qadın, bunlardan 42071 nəfəri daimi, 3575 nəfəri müvəqqəti yaşayanlar) erməni, 4082 nəfər (2086 kişi, 1994 nəfər qadın, bunlardan 288 nəfəri daimi, 3794 nəfəri müvəqqəti yaşayanlar) rus, 269 nəfər (139 kişi, 130 qadın, bunlardan 22 nəfəri daimi, 147 nəfəri müvəqqəti yaşayanlar) digər Avropa xalqlarının nümayəndələri, 300 nəfər (167 kişi, 133 qadın, bunlardan 149 nəfəri daimi, 151 nəfəri müvəqqəti yaşayanlar) kürd, 421 nəfər (218 kişi, 203 qadın, hamısı müvəqqəti yaşayanlar) aysor, 24 nəfər (13 kişi, 11 qadın, hamısı daimi yaşayanlar) dağlı, 129 nəfər (91 kişi, 38 qadın, hamısı müvəqqəti yaşayanlar) yəhudi yaşamışdır. Şəhər əhalisinin 25044 nəfəri (13494 kişi, 11541 qadın, bunlardan 11847 nəfəri daimi, 3188 nəfəri müvəqqəti yaşayanlar) Azərbaycan türkləri idi[408].

1915-1916-cı illər statistik məlumatları müqayisə etsək görmək olar ki, bir il ərzində Azərbaycan türklərinin sayında xeyli azalma, əksinə ermənilərin sayında isə həddindən artıq çoxalma müşahidə olunmuşdur. Məsələn, həmin ildə İrəvan quberniyasında 1120242 nəfər (589125 kişi, 521117 qadın) qeydə alınmış, bunlardan 1014868 nəfəri (535483 kişi, 479385 qadın) daimi, 105374 nəfəri (53642 kişi, 51732 qadın) isə müvəqqəti yaşa-

---

[408] Кавказский календарь на 1917 г., отдел стастик., с.214-221.

yanlar idi. Etnik tərkibinə görə isə 373592 nəfərini (198484 kişi, 174998 qadın, bunlardan 363659 nəfəri daimi, 9923 müvəqqəti yaşayanlar) Azərbaycan türkləri, 669871 nəfərini (350274 kişi, 319597 qadın, bunlardan 590994 nəfəri daimi, 78877 nəfəri müvəqqəti yaşayanlar) ermənilər, 16103 nəfərini (8309 kişi, 7794 qadın, bunlardan 8943 nəfəri daimi, 7160 müvəqqəti yaşayanlar) ruslar, 865 nəfərini (469 kişi, 396 qadın, bunlardan 400 nəfəri daimi, 465 nəfəri isə müvəqqəti yaşayanlar) digər Avropa xalqlarının nümayəndələri, 374 nəfərini (240 kişi, 134 qadın, hamısı müvəqqəti yaşayanlar) gürcülər, 59 nəfərini (39 kişi, 20 qadın, hamısı müvəqqəti yaşayanlar) Qafqaz dağlıları, 49132 nəfərini (25546 kişi, 23586 qadın, bunlardan 43189 nəfəri daimi, 5943 nəfəri müvəqqəti yaşayanlar) kürdlər, 3249 nəfərini (1626 kişi, 1623 qadın, bunlardan 2029 nəfəri daimi, 1217 müvəqqəti yaşayanlar) aysorlar, 693 nəfərini (354 kişi, 329 qadın, bunlardan 261 nəfəri daimi, 432 nəfəri müvəqqəti yaşayanlar) qaraçılar, 540 nəfərini yəhudilər (327 kişi, 243 qadın, bunlardan 4 nəfəri daimi, 536 nəfəri müvəqqəti yaşayanlar) təşkil etmişdilər. Sıxlığına görə quberniyada hər 1 kv. verstə 48,8 nəfər düşmüşdür[409].

I Dünya müharibəsinin sonuncu illərində Qafqaz cəbhəsində hərbi əməliyyatların qızışması nəticəsində ermənilərin İrəvan quberniyasında yerləşdirilməsi adi hal almış, onlar kütləvi surətdə bu diyarda məskunlaşdırılır, əksinə yerli Azərbaycan türkləri ənənəvi olaraq sıxışdırılırdılar. Məsələn, 1917-ci ilin statistik məlumatına görə, İrəvan şəhərində qonşu dövlətlərdən 17505 erməni qaçqını toplaşmış, hətta onlara yaşamaq üçün pul da ayrılmışdır[410]. İrəvan şəhər Dumasının rəsmi məlumatına görə, 1918-ci il sentyabrın 3-dən həmin ayın 23-ə qədər İrəvan quberniyasında 45.000-ə qədər erməni qaçqını qeydə alınmışdır[411]. Bu köçürmələr göstərir ki, işğaldan sonra XX yüzilliyin əvvəllərinə qə-

[409] Кавказский календарь на 1917 г., отдел стастик., с.218-221.
[410] Развитие Еревана после присоединения Восточной Армении к России, Сборник документов 1801-1917, с.216.
[411] Акопян Т.Х., Очерк истории Еревана, с.321.

dər İrəvan bölgəsində erməni əhalisinin sayı süni surətdə çoxaldılmışdır. Digər tərəfdən, Azərbaycan türkləri birmənalı olaraq hərbi əməliyyatlar nəticəsində öz yerlərindən kütləvi surətdə qovulurdu. Ona görə də, siyahıyaalmaları dəqiq qəbul etmək olmaz.

Lakin bu köçürmələrə baxmayaraq, İrəvan quberniyasının əksər qəzalarında Azərbaycan türkləri həmişə üstünlük təşkil etmişdilər. Bu haqda yuxarıda statistik məlumatlarda əyani göstərilmişdir. Digər tərəfdən, Azərbaycan nümayəndə heyətinin 1919-cu il avqustun 16-19-da Paris sülh konfransının sədrinə ünvanladığı məktubda İrəvan quberniyasının dörd qəzasında əhalinin böyük əksəriyyətinin Azərbaycan türklərinin təşkil etməsi haqqında əyani məlumat verilmişdir. Arxiv materialı olan bu sənəddə əhalinin etnik tərkibi belə göstərilmişdir[412]:

| Etnik tərkib | Naxçıvan qəzası | Şərur-Dərələyəz qəzası | Sürməli qəzası | İrəvan qəzası |
|---|---|---|---|---|
| Müsəlman-Azərbaycan | 62,5% | 72,3% | 68,0% | 60,2% |
| Erməni | 36,7 | 27,1 | 30,4 | 37,4 |
| başqaları | 0,8 | 0,4 | 1,6 | 2,4 |

Beləliklə, İrəvan quberniyası əhalisinin say və etnik tərkibi yekcins olmayıb, burada müxtəlif xalqların nümayəndələri-Azərbaycan türkləri, ermənilər, ruslar, kürdlər, aysorlar və s. xalqlar yaşamışdılar. Rusiya işğalına qədər İrəvan və Naxçıvan bölgələrində əhalinin böyük əksəriyyətini Azərbaycan türkləri təşkil etmiş, işğaldan sonra isə yerli xalq qəsdən sıxışdırılmış, burada xristian çoxluğuna nail olmaq, bölgəni Azərbaycandan ayırmaq üçün ermənilər, ruslar, aysorlar və digər xalqlar köçürülmüşdür. İrəvan quberniyasında keçirilən siyahıyaalınmalarda əhalinin say və etnik tərkibinə nəzər yetirsək görmək olar ki, ermənilər bu tər-

---

[412] История Азербайджана по документам и публикациям, Баку, Элм, 1990, с.190.

kibdə cüzi üstünlük təşkil etsələr də, tarixən yerli əhali olan Azərbaycan türkləri onlardan heç də geri qalmamışdılar. Çar Rusiyası bu bölgədə ermənilərin say üstünlüyünü daima saxlamaq üçün XX yüzilliyin ilk onilliklərinə qədər beynəlxalq vəziyyətin gərginliyi ilə əlaqədar olaraq müxtəlif illərdə quberniyaya ermənilərin köçürülməsini təşkil etmiş, digər tərəfdən siyahıyaalınma keçirilərkən Azərbaycan türklərinin sayı bilə-bilə saxtalaşdırılmış və bəzən onlar digər Asiya xalqlarının nümayəndələri adı altında qeyd edilmişdilər.

## 3.2. Əhalinin sosial-silki tərkibi-Ali imtiyazlı təbəqə

Bəhs etdiyimiz dövrdə İrəvan quberniyasında əhali sosial tərkibinə görə üç qrupa bölünürdü: imtiyazlı-ali təbəqə, din xadimləri və vergiödəyənlər. İmtiyazlı təbəqəyə əsasən əski xan, bəy, ağalar, məliklər və yeni hakimiyyət dövründə formalaşan əyanlar daxil idi. Qeyd etmək lazımdır ki, Rusiya işğalından sonra Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan bölgəsində də bu təbəqə əvvəlki hüquqlarını saxlayırdılar. Onlar nəinki öz rütbələrini daşıyırdı, eyni zamanda vergi yığır, mülk və kəndlərinin sahibləri olaraq qalırdılar. Lakin çar hakimiyyət orqanlarının xanlara, bəylərə münasibəti birmənalı olmamışdı. Xüsusilə Rusiya-Qacar müharibəsində itkilərə baxmayaraq Azərbaycan türkləri olan bəylərin çoxluq təşkil etməsi yeni hakimiyyətə sərf etmirdi. Məhz bu səbəbdən yeni hakimiyyət ali Azərbaycan silkinin hüquqlarını hər vasitə ilə ləğv etməyə çalışırdı. Məhz ilk belə qanun da bu ali silkin nümayəndələrinin hüquqlarının ləğv edilməsi ilə başladı. 1841-ci il aprelin 25-də verilən fərmana görə, Qazax, Şəmşəddil və Borçalı ağaları, bəyləri kəndləri idarə etməkdən və tiyul torpaqlarından məhrum edildilər. Bu qanun 1843-cü ildə Tiflis Dövlət Əmlakı Palatası rəisinin tələbinə əsasən İrəvan qəza rəisinin sərəncamı ilə Göyçə mahalının Zod, Çaxırlı (Qızılbulaq) və Böyük Məzrə kəndlərinin ağalarına da şamil edilmişdi. Bu kəndlərin bəylərinin kəndlilər üzərində hüquqları müvəqqəti ləğv edildi və onlar vergi yığmaqdan kənar-

laşdırıldılar. Lakin 1845-ci ildə Qafqaz Canişininin əmri ilə Göyçə ağalarının hüquqları yenidən bərpa olundu. Səbəb kimi, bu qanunun İrəvan qəzasına aid olmadığı göstərilmişdir[413].

Tezliklə çar Rusiyası yerlərdə özünə etibarlı dayaq yaratmaq üçün bəylərin hüquqlarını özünə qaytarmağa məcbur oldu. 1846-cı il dekabrın 6-da verilən reskript ilə bəylərin bütün hüquqları özlərinə qaytarıldı[414].

İrəvan quberniyası yaradıldıqdan sonra bölgədə olan ali silkin nümayəndələrinin sayı haqqında mənbələrdə xeyli məlumatlara rast gəlmək mümkündür. 1851-ci ilin siyahıyaalınmasına görə, İrəvan şəhərində 3 xan (6 kişi, 7 qadın), 48 bəy (60 kişi, 54 qadın) ailəsi və 2 nəfər məlik yaşamışdır[415]. 1855-ci il statistik məlumatında isə **İrəvan qəzası** üzrə İrəvan şəhərində 14 (6 kişi, 8 qadın) xan, 112 bəy (62 kişi, 50 qadın), Şərur dairəsində 87 bəy (49 kişi, 33 qadın), 5 məlik (3 kişi, 2 qadın), Sürməli dairəsində 197 xan (72 kişi, 65 qadın), 223 nəfər bəy (76 kişi, 73 qadın), 74 nəfər məlik (39 kişi, 35 qadın), Sərdarabad dairəsində 7 nəfər xan (3 kişi, 4 qadın), 320 bəy (150 kişi, 170 qadın), **Naxçıvan qəzası** üzrə Naxçıvan şəhərində 30 nəfər xan (14 kişi, 16 qadın), 69 nəfər bəy (33 kişi, 36 qadın), Naxçıvan dairəsində 5 nəfər xan (3 kişi, 2 qadın), 72 nəfər bəy (40 kişi, 32 qadın), Dərələyəz dairəsində 238 nəfər bəy (117 kişi, 121 qadın), **Ordubad qəzası** üzrə Ordubad şəhərində 52 nəfər bəy (29 kişi, 23 qadın), qəza üzrə 946 nəfər bəy (516 kişi, 430 qadın), **Aleksandropol qəzası** üzrə Pəmbək dairəsində 4 nəfər qadının xan adı daşıyanlar qeydə alınmışdır[416].

Sonrakı illərdə ali silkin nümayəndələrinin sayı haqqında quberniya üzrə ümumi məlumat verilmişdir. 1857-ci ilin stastis-

---

[413] Рштуни В., Крестьянская реформа в Армении в 1870 г., с.98-99; Qarayev E., Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında, s.411.

[414] Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в, т.2, с.105-107.

[415] Кавказский календарь на 1852 г., с.441.

[416] Кавказский календарь на 1855 г., с.280-281.

tik məlumatında, İrəvan quberniyasında 349 nəfər xan, 1818 nəfər bəy, 206 nəfər məlik, 57 nəfər ağa, 1862-ci ildə 147 nəfər xan, 3458 nəfər bəy, 64 nəfər ağa, 212 nəfər məlik adı daşıyanlar qeydə alınmışdır[417]. 1865-ci il məlumatında isə yalnız İrəvan şəhərində 25 xan (12 kişi, 13 qadın), 215 bəy (120 kişi, 95 qadın), 24 məlik (11 kişi, 13 qadın) yaşamışdır[418].

Əgər bu statistik məlumatlara diqqət yetirsək görmək olar ki, Azərbaycan türklərinə məxsus ali silkin nümayəndələri sayına görə həmişə üstünlük təşkil etmişdilər. Müharibənin gedişində və işğaldan sonra xan, bəy və ağalar böyük itkilərə məruz qalmış, bir çoxları ölmüş, bir çoxları bölgəni tərk etmiş, ermənilər isə əksinə kütləvi surətdə köçürmələr nəticəsində sayları qat-qat artırılsa da, onlara məxsus ali silkin nümayəndələri sayca Azərbaycan türklərindən geri qalmışdılar.

Qeyd etmək lazımdır ki, Rusiya işğalından sonra Azərbaycanda ali silkə məxsus xanların, bəylərin, ağaların və məliklərin şəxsi hüquqları uzun müddət qanunla tənzimlənməmişdi. Bundan istifadə edən mülk sahibləri olan ağa, bəy və məliklər mövqelərindən sui-istifadə edərək kəndlilərin torpaqlarını zəbt edir, qeyri-qanuni vergi alır, bəzi şəxslər isə qeyri-qanuni yollarla bəy və məlik hüququ alırdılar. Məsələn, 1851-ci il fevralın 21-də Böyük Vedi kəndinin 50 nəfər sakininin imzası ilə İrəvan qubernatoruna yazdıqları məktubda göstərilirdi ki, vaxtilə bu kəndin vergi verən təbəqəsinə məxsus 19 ailə (adları göstərilmişdir-E.Q.) Şərur dairəsinin rəisinə rüşvət verərək qeyri-qanuni yolla bəy adı almış, hal-hazırda onlar kənd sakinlərini sıxışdırırlar[419]. Belə hallara quberniyanın ayrı-ayrı yerlərində rast gəlmək olardı.

Yerlərdə olan narazılıqlar çar Rusiyasını bu sahədə müəyyən addımlar atmağa məcbur etdi. Ali silkin nümayəndələri haqqında məlumat almaq üçün Qafqaz Canişinliyi ayrı-ayrı qubernı-

---

[417] Сельское хозяйства и аграрное отношения, с. 663-666.

[418] Развитие Еревана после присоединения Восточной Армении к России, Сборник документов 1801-1917, с.78.

[419] Крестьянское движение в Армении в XIX веке, с.78.

yaların rəislərinə xüsusi məktublar göndərmişdi. Zaqafqaziya diyarının mülki idarəsinin rəisi V.O.Bebutovun 1949-cu il noyabrın 26-da, dekabrın 24-də və 1850-ci il yanvarın 20-də İrəvan qubernatoruna ünvanladığı məktubda ali silkin nümayəndələri, onların mənşəyi, hüquqları haqqında tam məlumat istəmişdi. İrəvan qubernatoru general-mayor İ.İ.Nazarovun 1850-ci il martın 21-də yazdığı təqdimatda quberniyada ali silkin nümayəndələrinin mənşəyini təsvir edərkən bəylərin və məliklərin arasında yalançı şəxslərin olduğunu bildirmişdi[420]. Müsəlman ali silki və məliklər haqqında məlumat toplamaq üçün xüsusi tapşırıqla müşavir Çilyayev 1851-ci ildə İrəvan quberniyasına göndərildi. Nəticədə yerli rəislərin köməyi ilə, general-mayor İ.İ.Nazarovun xüsusi rəyi əsasında ali silkin nümayəndələrinin mənşəyi və sayı haqqında məlumat toplanmışdı[421]. Lakin görülən işlər ali müsəlman silkinin və məliklərin hüquqlarına tam aydınlıq gətirmədi. Bu məsələ uzun müddət həll olunmamış qaldı. Nəhayət, çar hakimiyyət orqanları XIX yüzilliyin 60-cı illərinin ortalarında bəylərin və məliklərin hüquqlarını təftiş etmək üçün xüsusi komissiya yaratmaq qərarına gəldi. 1864-cü ilin mayında keçirilən şurada Dövlət Əmlak departamentinin direktoru Vitteyə bəylərin şəxsi və torpağa olan münasibətləri haqqında yığılmış sənədlərə baxılması üçün xüsusi komissiya yaradılması haqqında qətnamə qəbul olunması haqqında göstəriş verildi. Yaradılan komissiya bəyləri üç kateqoriyaya bölmüşdü: 1. 1846-cı il 6 dekabr reskriptinin birinci maddəsinə görə hüquqları olanlar; 2. İşğaldan əvvəl malikanələri olmuş, lakin sənədləri olmayan bəylər; 3. Yeni hökumətdən ömürlük mülklər almış bəylər[422]. Bu qətnamə 1864-cü il iyunun 23-də böyük knyaz Nikolay tərəfindən təsdiq olundu[423].

Bu komissiyaların biri İrəvan quberniyasında 1865-ci il

---

[420] ARMTA, f.4, siy. 1, iş.1, v. 1-7.
[421] Yenə orada, f.4, siy. 1, iş.28, v. 11-12.
[422] AMEA, TİEA, iş.1936, v.158.
[423] Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в, т.2, с.229; Историческая записка об управлении Кавказом, т.II, с.608-609.

sentyabrın 1-də açıldı. Bəy komissiyalarının yaradılması "bəylərin" hüquqlarını müəyyən etməklə bərabər, bir növ Azərbaycanda islahatların keçirilməsinə hazırlıq idi. Bunun üçün ilk növbədə ali silkin qeyri-müəyyən olan torpaq münasibətlərinin təyin olunması çox vacib idi. Bu haqda knyaz Orbeliani yazırdı: "torpaq hüquqlarına baxılarkən ilk növbədə şəxsi hüquqlar müəyyən olunmalıdır"[424].

İrəvan quberniyasında bəy komissiyasının ilk iclası 1866-cı il mayın 23-də keçirildi. İrəvan quberniyasında yaradılan bəy komissiyaları İrəvan, Naxçıvan, Ordubad, Üçmüəzzin və Yenibəyazid qəzalarında fəaliyyətlərini davam etdirmişdilər[425]. Bu komissiyaların tərkibinə hökumət məmurlarının başçılığı ilə yerli bəylər və məliklər də daxil edilmişdi. Yalnız bu komissiyanın fəaliyyəti Aleksandropol qəzasına şamil edilmədi. Burada işğaldan sonra köçkünlər yaşadığından köklü bəy nəsli yox idi. Qəzada "ali silkə" mənsib olanların hüququnu xüsusi ölçülərlə təsdiq etmək lazım idi"[426]. İrəvan quberniyasında bəy silkinə xidmətə görə ad almış xanlar, tiyul sahibləri, köklü bəylər və məliklər, ağalar daxil idi[427].

Bəy komissiyalarının fəaliyyəti heç də lazımı səviyyədə olmamışdı. Qeyd etmək lazımdır ki, bəy komissiyalarında rüşvətxorluq və "tanışlıq" əsas rol oynamışdı. Hətta qanuni sənəd təqdim edən bəylərdən belə rüşvət istəmişdilər. Bunu ayrı-ayrı bəylərin şikayətlərində görmək mümkündür. Məsələn, Qurdek kəndinin bəyi Səfixan bəy Hətəmağa oğlu canişinə yazırdı: "Mən bəy nəslindənəm və kameral siyahıyaalmada bəy nəslindən olduğum göstərilmişdir. Nəslim haqqında bəy komissiyasına altı fərman təqdim etmişəm. Lakin komissiya üzviləri məndən rüşvət tələb edirlər. Kasıb olduğumdan onların tələblərini yerinə yetirə bilmirəm. Ona görə də, komissiya üzviləri məni bəy kimi qəbul

---

[424] Историческая записка об управлении Кавказом, т.II, с.608-609.
[425] Рштуни В., Крестьянская реформа в Армении в 1870 г., с.223.
[426] Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в, т.2, с.225.
[427] Yenə orada.

etmədilər və məni məlum olmayan şəxs kimi elan etdilər...”[428].

Komissiyanın işi nəinki kəndlilər arasında, hətta kiçik bəylər arasında da, böyük narazılıq yaratmışdı. Kiçik bəylər narazılıq edən kəndlilərlə birləşərək bəy komissiyalarının qanunsuz fəaliyyəti haqqında canişinə şikayət etmişdilər. Hətta onlar “bəy komissiyalarının bağlanmasını və bütün komissiya üzvlərinin istintaq edilməsini” tələb etmişdilər[429].

Ordubad qəzasının kəndliləri də bəy komissiyalarından narazı idilər. Ordubad qəzasının İndliadar kəndinin sakinləri Zal bəy, Qaraman bəy Rüstəm bəy oğlu, İsmayıl bəy və İsa bəy Musa bəy oğlu öz şikayətlərində bəy komissiya üzvlərinin onlardan rüşvət tələb etmələri haqqında həyəcanla xəbər vermişdilər. Onlar yazırdılar: “... bəy adımızı təsdiq etmək üçün komissiya sədri Kiryakova 1500 rubl rüşvət verməyimizi bizdən tələb etdilər. Kasıb olduğumuzdan yalnız 150 rubl Andruyasova verdik. Bir neçə gündən sonra o, pulun az olduğunu bildirərək geri qaytardı... lakin biz kasıb olduğumuzdan onun tələbini yerinə yetirə bilmədik və düşmənçiliklə bizim bəy nəslimizi təsdiq etmədi”[430]. Hətta Andriyasov bəylərə açıqca bildirmidi ki, “mən bilirəm siz bəy nəslindənsiniz, lakin mənə, sədrə və komissiyanın digər üzvlərinə heç nə vermədiyinzə görə, məcburam sizin bəy nəslinizi təsdiq etməyim. Sizin əvəzinizdə hansısa varlı kəndlini təsdiq edərəm”[431].

Komissiya üzvünin dedikləri sonradan həyata keçmişdi. Belə ki, Ordubad qəzası üzrə təşkil olunmuş bəy komissiyasının sədri Kiryakov 100 nəfərə qədər bəyi vergi ödəyənlər siyahısına, 15 nəfər varlı kəndlini isə bəy siyahısına daxil etmişdi[432]. Hətta komissiya üzvi Andriyasov özü belə Kiryakova 1000 rubl rüşvət vermişdi. O, öz ifadəsində bunu belə izah etmişdi: “1832-ci il kameral

---

[428] Агаян Ц.П., Крестьянская реформа в Азербайджане в 1870 году, Баку, Изд-во Акад.Наук Азерб. ССР, 1956, с.202.
[429] Yenə orada, с.202-203.
[430] Yenə orada, s.203.
[431] Агаян Ц.П., Крестьянская реформа в Азербайджане в 1870 году, с.203.
[432] Yenə orada.

siahıyaalmaya görə mənim atam maaf siyahısında göstərilmişdi. Lakin Kiryakov məni və əmim uşaqları Harunu və Martirosu bəy siyahısına yazdı və protokol tərtib etdikdə mənim maaf mənşəyimə göz yumdu. Həmçinin Evux kəndinin kəndlilərindən 1000 rubl rüşvət alaraq Kiryakova verdim, onların hamısı bəy siyahısına yazıldılar. Beləliklə, Kiryakov bu yolla varlandı”[433].

Beləliklə, bəy komissiya üzvləri rüşvət almaq hesabına xeyli varlandılar. Onlar təkcə Ordubad və Naxçıvan qəzalarından 35000 rubl məbləğində rüşvət almışdılar. Bu rüşvət komissiya üzvləri arasında bölünmüşdü[434].

İrəvan quberniyasında bəylərin mənşəyi, onların vəziyyəti haqqında xüsusi siyahı 1867-ci ildə tərtib edilərək müzakirə üçün Qafqaz Baş İdarəsi Şurasına təqdim edildi. Burada bəylərin bəzilərinin hüquqları saxlandı, bəzilərinin hüquqları ləğv olundu. İrəvan quberniyasında qəzalar üzrə bəy nəsli belə təsdiq olunmuşdu: İrəvan, Üçmüəzzin, Yenibəyazid qəzalarında 142 bəy təsdiq olunmuş, 188 nəfərin istəyi təmin olunmamış, Naxçıvan və Ordubad qəzalarında isə 140 nəfər bəy təbəqəsi kimi təsdiq olunmuş, 116 nəfərin istəyi təmin olunmamışdı. Beləliklə Quberniya üzrə bəy təbəqəsinə malik 586 nəfərin işinə baxılmış, bunlardan yalnız 282-si “ali silkə mənsub” hesab edilmişdi[435].

XIX yüzilliyin 60-cı illərin sonlarına olan arxiv məlumatına görə, İrəvan quberniyasında 156 xan, 2397 bəy və 40 ağa qeydə alınmışdı[436].

İrəvan quberniyasının ali silkin nümayəndələrinin sayına 1886-cı il kameral təsvirində daha ətraflı təsvir edilmişdir. Bu

---

433 Yenə orada, s.203-204.
434 Yenə orada, s.204.
435 Всеподданнеший отчеть наместника Кавказского по гражданскому управлению Кавказским и Закавказским краем. 1863-1873, с.8; Рштуни В., Крестьянская реформа в Армении в 1870 г., с.223; Историческая записка об управлении Кавказом, т.II, с.609; Агаян Ц.П., Крестьянская реформа в Азербайджане в 1870 году, с.200; Azərbaycan tarixi, c.4, s.182.
436 Кавказский комитет, 1869 / AMEA TİEA, f.1658, iş.153, v.91.

kameral təsvirə görə, **İrəvan şəhərində** 665 nəfər əyan (383 kişi, 282 qadın), 523 bəy (290 kişi, 232 qadın), 277 ağa (163 kişi, 114 qadın), **İrəvan qəzasında** 83 əyan (44 kişi, 39 qadın), 773 bəy (399 kişi, 374 qadın), 1572 ağa (852 kişi, 720 qadın), 2 məlik (1 kişi, 1 qadın), **Naxçıvan şəhərində** 423 bəy (231 kişi, 192 qadın), 110 ağa (59 kişi, 51 qadın), **Ordubad şəhərində** 54 əyan (26 kişi, 28 qadın), 575 bəy (346 kişi, 229 qadın), **Naxçıvan qəzasında** 54 əyan (26 kişi, 29 qadın) 1108 bəy (636 kişi, 472 qadın), **Sürməli qəzasında** 658 əyan (328 kişi, 340 qadın), **Şərur-Dərələyəz qəzasında** 21 əyan (13 kişi, 8 qadın), 206 bəy (113 kişi, 93 qadın), **Yenibəyazid şəhərində** 19 əyan (8 kişi, 11 qadın), 111 ağa **(**58 kişi, 53 qadın), 4 məlik (3 kişi, 1 qadın), **Yenibəyazid qəzasında** 3 əyan (2 kişi, 1 qadın), 111 bəy (58 kişi, 53 qadın), 4 məlik (3 kişi, 1 qadın), **Aleksandropol şəhərində** 310 əyan (147 kişi, 163 qadın), 20 bəy (7 kişi, 13 qadın), **Aleksandropol qəzasında** 68 əyan (217 kişi, 229 qadın), 20 bəy (7 kişi, 13 qadın), **Üçmüəzzin qəzasında** 87 əyan (45 kişi, 42 qadın), 900 bəy (467 kişi, 433 qadın) yaşamışdır. Bu kameral təsvirə görə İrəvan quberniyasında ümumilikdə 1978 əyan (1031 kişi, 947 qadın), 3917 bəy və ağa (2133 kişi, 1784 qadın), 6 məlik (4 kişi, 2 qadın) qeydə alınmışdır[437].

1897-ci il siyahıyaalınmasında ali silkin nümayəndələri ümumi ad altında-nəsli və şəxsi əyanlar adı altında qeyd olunmuşdular. Burada hər şəhər və qəzanın əyanları göstərilməklə bərabər, etnik tərkibinin faizi də göstərilmişdir. Həmin siyahıyaalınmada əyanların sayı belə idi:

| | | |
|---|---|---|
| 1. | İrəvan qəzası | 3712 nəfər |
| | İrəvan şəhəri | 2170 nəfər |
| 2. | Naxçıvan qəzası | 1769 |
| | Naxçıvan şəhəri | 626 |
| | Ordubad şəhəri | 165 |

[437] Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г., с.418-419.

| | | |
|---|---|---|
| 3. | Sürməli qəzası | 1005 |
| | İğdır kəndi | 142 |
| 4. | Şərur-Dərələyəz qəzası | 1389 |
| | Başnoraşen kəndi | 140 |
| 5. | Yenibəyazid qəzası | 291 |
| | Yenibəyazid şəhəri | 65 |
| 6. | Aleksandropol qəzası | 1394 |
| | Aleksandropol şəhəri | 1111 |
| 7. | Üçmüəzzin qəzası | 1263 |
| | Vaqarşapat kəndi | 196 |
| | Yekunda quberniya üzrə | 10823 |
| | Şəhərlərdə | 4615[438] |

1897-ci il siyahıyaalınmaya görə, İrəvan quberniyasının şəhər və qəzaları üzrə ali silkin nümayəndələrinin əhali üzrə faizi belə idi:

1. İrəvan qəzası üzrə əyanlar 0,09 $^0/_0$, bəy və ağalar 1,06 $^0/_0$
2. İrəvan şəhəri üzrə əyanlar 4,51 $^0/_0$, bəy və ağalar 3,54 $^0/_0$
3. Naxçıvan qəzası üzrə əyanlar 0,07 $^0/_0$, bəy və ağalar 0,79 $^0/_0$
4. Sürməli qəzası üzrə əyanlar 0,94 $^0/_0$,
5. Şərur-Dərələyəz qəzası üzrə əyanlar 0,03 $^0/_0$, bəy və ağalar 0,33 $^0/_0$
6. Yenibəyazid qəzası üzrə bəy və ağalar 0,12 $^0/_0$
7. Yenibəyazid şəhəri üzrə əyanlar 0,26 $^0/_0$
8. Aleksandropol qəzası üzrə əyanlar 0,06 $^0/_0$, ağalar 0,02 $^0/_0$
9. Aleksandropol şəhəri üzrə əyanlar 1,28 $^0/_0$, bəylər 0,08 $^0/_0$
10. Üçmüəzzin qəzası üzrə əyanlar 0,09 $^0/_0$, bəy və ağalar 0,89 $^0/_0$

Yekunda İrəvan quberniyası üzrə əyanlar 0,30 $^0/_0$, bəy və ağalar isə 0,60 $^0/_0$ təşkil etmişdir[439]

1897-ci il siyahıyaalınmaya görə, nəsli əyanlar arasında Azərbaycan türk nümayəndələri daha çox üstünlük təşkil etmiş-

---

[438] Первая всеобщая перепись населения Российской империи, 1897 г., с.2.

[439] Первая всеобщая перепись населения Российской империи, 1897 г. LXXI. Эриванская губерния, с.424-425.

dilər. Onlar əsasən şəhərlərdə daha çox idi. Nəsli əyanların 44,13 $^0/_0$-ni Azərbaycan türkləri, 31,22 $^0/_0$-ni ruslar, 15,17 $^0/_0$-ni ermənilər, 4,54 $^0/_0$-ni gürcülər və 44,94 $^0/_0$-ni isə digər xalqların əyanları təşkil etmişdilər[440].

Lakin sonrakı illərdə ali silkin nümayəndələrinin sayı haqqında mənbələrdə ətraflı məlumat əldə etmək mümkün olmadı. Buna baxmayaraq, yuxarıdaki məlumatlardan belə nəticəyə gəlmək olar ki, ali silkin nümayəndələri arasında Azərbaycan türkləri böyük üstünlük təşkil etmişdilər.

[440] Первая всеобщая перепись населения Российской империи, 1897 г. LXXI. Эриванская губерния, с.424-425.

# IV FƏSİL

# İRƏVAN QUBERNİYASINDA HƏYATA KEÇİRİLƏN AQRAR İSLAHATLAR VƏ ONLARIN NƏTİCƏSİ

**Aqrar islahatlar**. XIX yüzilliyin 50-60-cı illərində Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan İrəvan quberniyasında feodal sosial-iqtisadi münasibətlərinin tənəzzülünə, kapitalist münasibətlərinin inkişafına səbəb oldu. Bunun bir neçə səbəbi vardı. Belə ki, əvvəllər çar Rusiyası işğal etdiyi Azərbaycanda cüzi dəyişiklik etməklə iqtisadiyyatın müxtəlif sahələrində köhnə qayda-qanunları saxlayır, buradan yalnız daha çox xammal əldə etməyə çalışırdı. Lakin XIX yüzilliyin ikinci yarısında Rusiyanın öz iqtisadiyyatda baş verən dəyişikliklər istər-istəməz onun müstəmləkələrinə də təsir göstərdi. Belə ki, 1861-ci il fevralın 19-da Rusiyanın özündə təhkimçilik hüququnu ləğv edən “Əsasnamə” verildi[441]. “Əsasnamə”yə görə kəndlilər feodallardan şəxsən azad oldular, mülkədarlar onları artıq alıb-sata, dəyişə bilməzdilər, lakin torpağın mülkiyyətçisi isə əvvəlki kimi mülkədarlar qalırdı. Mülkədarlar daimi istifadə üçün kəndlilərə həyətyanı və həmçinin pay torpaqları verməli idilər. Əvəzində kəndli pay torpağını satın alana qədər mülkədara töycü ödəməyə borclu idi. Kəndlilər hökumətin verdiyi borc pulla öz pay torpaqlarını satın almaq, nəticədə öz torpaqlarının sahibi olmaq hüququ aldılar.

Beləliklə, bu islahat Rusiyada sənayenin inkişafına böyük şərait yaratdı. Tezliklə, Rusiyanın özündə sənayenin müxtəlif sahələri-toxuculuq, yeyinti və s. sahələr inkişaf etməyə başladı. Sənayenin inkişafı üçün daha çox xammal tələb olunurdu. Nəticədə çar hökuməti işğal etdiyi torpaqlara, o cümlədən Azərbaycana ciddi diqqət yetirməyə başladı. Daha çox xammal əldə etmək,

---

[441] Полное собрание законов Российской империи, собрание второе, т. XXXVI, отделение первое, 1861, СПб, В Типографии II отделения собственной Е.И. В. Канцеларии, 1863, с.128-134.

xammalla zəngin olan Azərbaycan iqtisadiyyatını ümumrusiya iqtisadiyyatına bağlamaq üçün çarizm islahatlar keçirmək məcburiyyətində qaldı.

Lakin Azərbaycanda ümumi kəndli islahatları birdən-birə həyata keçirilmədi. Çarizm burada siyasi-iqtisadi vəziyyətin gərgin olması ilə əlaqədar olaraq özünə etibarlı ictimai baza və dayaq yaratmaq üçün bir sıra mühüm addımlar atmalı oldu. İlk növbədə çar Rusiyası XIX yüzilliyin 40-cı illərinin ortalarında Cənubi Qafqazda yerli zadəganları öz tərəfinə çəkmək üçün qanunlar verdi. Çar I Nikolay bu məqsədlə 1846-cı il dekabrın 6-da canişin M.S.Vorontsovun adına reskript verdi[442]. Reskriptdə Azərbaycanda və o cümlədən onun tərkib hissəsi olan İrəvanda ali müsəlman silkini xan, bəy, ağa və erməni məliklərinin torpaq üzərində sahiblik hüququnun əsas cəhətləri müəyyən edilirdi. Qanunla xüsusi xidmət və rəşadətinə görə xanların, bəylərin və məliklərin ixtiyarında olan bütün torpaqlar onların irsi mülkiyyəti kimi təsdiq olunurdu. Bəylərin və ağaların imtiyazlarını təsdiq edən bu reskript imkan verirdi ki, kəndlilər torpaqları ilə birlikdə feodalların hakimiyyəti altında qalsın. Hətta qanunla 1840-cı ildə onlardan alınmış torpaqlar da ali silkin varislərinə qaytarılırdı. Rəiyyət, rəncbər, xalisə, nökər və s. kimi müxtəlif adların yerinə ümumi bir ad-mülkədar tabesi adı verildi. Kəndlilər torpaq sahibinə onun torpağından istifadə etdikləri üçün əvəz olaraq müxtəlif mükəlləfiyyətlər yerinə yetirməli idilər. Bundan başqa yerli ali silk nümayəndələrinə kəndlilər arasında qayda-qanun yaratmaq və sakitliyə nəzarət etmək üçün polis nəzarəti hüququ verilmişdi[443].

Çox keçmədi ki, bu reskriptin əsasında sahibkar-kəndli münasibətlərini müəyyən etmək üçün 1847-ci il aprelin 20-si və

---

[442] Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в [в 2 томах], Москва-Ленинград, Изд-во Академии наук СССР, 1937, т.2, с.105-107.

[443] Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в, т.2, с.105-107; Azərbaycan tarixi üzrə qaynaqlar, Seminar və təcrübə məşğələləri üçün müntəxəbat. Dərs vəsaiti, Tərtibçilər, S.S.Əliyarlı, Y.M.Mahmudov, Bakı, Azərbaycan Universiteti, 1989, s.31-312.

dekabrın 28-də "Kəndli əsasnamə"ləri verildi. Bu qanunlar Tiflis quberniyasına daxil olan İrəvan qəzasından başqa Azərbaycan türklərinin yaşadıqları bəy və ağa kəndlərinə şamil edilmişdi. Bu əsasnamələrin birincisi Şamaxı və Dərbənd quberniyalarının Şamaxı, Şuşa, Lənkəran, Bakı və Quba qəzalarının bəy kəndlilərinə, ikincisi isə Tiflis quberniyasının Qazax, Borçalı və Şəmşəddil məntəqələrinin azərbaycanlı ağaların torpaqlarında yaşayan kəndlilərə aid idi[444].

İrəvan quberniyasında və Axalsıx qəzasının torpaq sahibkarları ilə kəndlilər arasında münasibətləri tənzimləmək üçün əsasnamə bir qədər gec verilmişdi. Belə ki, 1850-ci ildə İrəvan bölgəsində və Kutayisi quberniyasının Axalkələki qəzasında sahibkar-kəndli münasibətlərinə aydınlıq gətirmək üçün Qafqaz canişini Qafqaz komitəsinə layihə hazırlamaq üçün göstəriş verdi. Bu komitənin təqdim etdiyi layihə əsasında İrəvan quberniyasında və Axalkələki qəzasında torpaq sahibkarları ilə kəndlilər arasında qarşılıqlı münasibətlər haqqında "Əsasnamə" 1851-ci il iyunun 8-də elan edildi[445]. Əsasən İrəvan quberniyasına aid edilən bu əsasnamənin müddəaları bəzi istisnalar olmaqla 1847-ci il "Əsasnamə"sinin müddəaları ilə eyni idi. "Əsasnamə" üç fəsildən ibarətdir. Birinci fəsildə (1-2) adlandırılan torpaq sahibi haqqında, ikincidə (3-7) sahibkarın ümumi hüquqi vəziyyəti, üçüncüdə (8-20) isə kəndlilərin və elatların sahibkara ödəyəcəkləri vergi və mükəlləfiyyətləri göstərilmişdi.

1851-ci il 8 iyun "Əsasnamə"sinə görə, İrəvan quberniyasında torpaq sahibi hesab edilirdi: 1) mülkədar, mülk sahibi; 2) irsi hüquqa malik tiyul sahibi; 3) ömürlük hüquqa malik tiyul sa-

---

[444] Полное собрание законов Российской империи, собрание 2-е, СПб, Печатано в Типографии II отделения собственной его императорского величества Канцелярии, 1847, т.XXI, №20672, с.617-619.

[445] Доклад правителя дел Закавказского Комитета по устройству помещичьих крестьян в оный Комитет, от 5-го июня 1862 года, АКАК, т.XII, с.200-204; Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края [в 7 томах], Тифлис, 1887, т.1, часть1, с.80-83.

hibi; 4) Tiflis quberniyasının Azərbaycan türklərinin yaşadığı distansiyanın ağaları ilə eyni hüquqa malik Yenibəyazid qəzasının ağaları.

"Əsasnamə"nin əsas məsələlərindən biri tiyul haqqında idi. Bu dövrdə İrəvan quberniyasında irsi və ömürlük hüquqa malik tiyul sahibliyi fəaliyyət göstərirdi. İrsi tiyul varislik hüququna malik idi, ömürlük tiyul isə tiyul sahibinin ölümünə qədər fəaliyyət göstərirdi[446]. İşğaldan sonra tiyul sahibliyi haqqında məsələ çar hakimiyyət orqanları tərəfindən uzun müddət həll olunmamış qalırdı. 1851-ci il 8 iyun "Əsasnaməsi" də bu məsələyə aydınlıq gətirmək üçün yeni cəhd idi. "Əsasnamə"də tiyul sahibliyinə belə aydınlıq gətirilmişdi: irsi hüquqa malik tiyul sahibinin hüququ mülk sahibinin hüququ ilə bərabər hesab olunur, ömürlük hüquqa malik tiyul sahibi isə ölənə qədər bu hüququ daşıyırdı. Ömürlük hüquqa malik tiyul sahibi ona çatacaq vergini birbaşa deyil, yerli xəzinədən almalı idi. Lakin tiyul sahibi öldükdən sonra onun ailəsi ömürlük təqaüd almalı, ona məxsus tiyul kəndliləri isə azad olunurdu və onlar vergini xəzinəyə ödəməli idilər[447].

"Əsasnamə"yə görə, sahibkar 15 yaşından yuxarı olan hər bir kişiyə 5 desyatin torpaq sahəsi ayırmalı idi. Əvəzində İrəvan quberniyasının kəndliləri mülkədarların xeyrinə aşağıdakı mükəlləfiyyətləri yerinə yetirməli idilər: 1. İstehsal olunan kənd təsərrüfatı məhsullarının $^{4}/_{30}$ hissəsini mülkədarın xeyrinə vergi verməli. Əgər sahibkar kəndliyə qoşqu heyvanı, kənd təsərrüfatı aləti və əkin üçün toxum verirdisə, verginin təyin olunması hər iki tərəfin razılığı ilə olmalı, lakin sahibkarın xeyrinə verilən haqqın ümumi dəyəri məhsulun $^{1}/_{5}$-dən artıq olmamalı idi; 2. Əgər sahibkarın yaşadığı yer 10 verst məsafəyə qədər olardısa, qanunla kəndli vergini sahibkarın evinə və yaxud anbarına daşımalı və bu iş 3 gün ərzində yerinə yetirməli, yox əgər bu məsafə

---

[446] Материалы по крестьянскому делу в Закавказском крае, Тифлис, 1876, отдель 4, с.4.

[447] Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.1, с.81.

10 verstdən çox idisə, sahibkar özü məhsulunu daşımalı idi; 3. Kəndli sahibkarın xeyrinə bağ, dirrik və bostanlardan bir ildə 80 qəpik, bağlardan 1 rubl 20 qəpik, hər dirrik və bostanların sahəsinə görə isə 10 batman və yaxud 3 pud buğda vergisi ödəməli, tiyulu icra edən hər ev isə ömürlük hüquqa malik olan tiyul sahiblərinin hesabına 2 rubl 50 qəpik vergi ödəməli idi. Lakin tiyul sahibi öldükdən sonra bu vergi xəzinəyə çatırdı. Elat ağaları da hər ailədən 4 rubl pul vergisi alırdı. Lakin pul vergisi hər iki tərəfin razılığı ilə mal-qara və ərzaqla əvəz edilə bilərdi[448].

Vergilərdən əlavə, kəndlilər müxtəlif mükəlləfiyyətlər də yerinə yetirmişdilər. Biyar və əvrəz əvvəlki kimi saxlanılırdı. Biyara görə hər bir kəndli ailəsi ildə sahibkara 8 gün (Axalsıx qəzasında 6 gün) işləməyə məcbur idi. Kəndli qeyd edilən biyarın üç gününü əkmək, becərmək, qulluq etmək və məhsul yığmaq, iki gün odun, ot-ələfi daşımaq, iki gün sahibkarın əmlakını bir yerdən başqa yerə aparmaq, bir gün ev tikmək və digər təsərrüfat işlərinə sərf etməli idi. Biyar sahibkarın istəyi əsasında yerinə yetirilməli idi.

Kəndlilər sahibkar üçün ildə iki gün əvrəz adlanan mükəlləfiyyət də yerinə yetirməli, onlar arxların çəkilməsi, körpü və yolların təmir edilməsi işləri ilə məşğul olmalı idilər[449].

Qeyd edilən mükəlləfiyyətlərdən əlavə digərləri də mövcud idi. Qanuna görə, hər ailə ildə 18 gün öz heyvanları ilə bərabər işləmək üçün bir işçi verməyə məcbur idi. Kəndli yeri şumlayıb əkməli, odun, məhsul və mülkədarın köçünü daşımalı, ev tikməli, biçin biçməli və s. işləri yerinə yetirməli idi. Mülkədar biyarı

---

[448] Доклад правителя дел Закавказского Комитета по устройству помещичьих крестьян в оный Комитет, от 5-го июня 1862 года, АКАК, т.XII, с.202; Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1887, т.1, часть1, с.80-83.

[449] Доклад правителя дел Закавказского Комитета по устройству помещичьих крестьян в оный Комитет, от 5-го июня 1862 года, АКАК, т.XII, с.202.

pulla da əvəz edə bilərdi. Onun ixtiyarı vardı ki, hər işçi qüvvəsi yerinə hər iş günündən ötrü 20 qəpik alsın[450].

Bundan əlavə, hər 10 ailə sahibkara bir kişi, hər 15 ailə bir qadın xidmətçi verməli idi. Bu qanunun mənfi cəhəti ondan ibarət idi ki, əvvəllər kəndlilər heç vaxt qadın xidmətçilər vermirdilər. Çar hökumətinin yerli adət-ənənəni nəzərə almadan verdiyi bu qanun Azərbaycan türklərinin hiddətinə səbəb olmuşdu. Ona görə də tezliklə, bu qayda ləğv olundu. İrəvan quberniyası üçün verilmiş bu qanunun qalan maddələri 1847-ci il "Əsasnamə"sinin müddəaları ilə eyni idi[451].

Lakin Krım müharibəsinin (1853-1856) başlaması ilə əlaqədar olaraq 1851-ci il 8 iyun "Əsasnamə"si icra olunmadı. 1859-cu ildə canişin knyaz Baryatinskinin göstərişi ilə İrəvan quberniyası ilə bağlı "Əsasnamə"yə yenidən baxılsa da, sonradan qeyri-müəyyən müddətə təxirə salındı. Lakin çox keçmədən bu qanuna yenidən baxıldı. Belə ki, İrəvan mülkədarlarının və tiyul sahiblərinin şikayəti əsasında böyük knyaz Nikolay 1865-ci ildə İrəvan qubernatoruna mülkədar və tiyul sahiblərinin hüquqlarını ətraflı müzakirə etmək üçün təklif verdi və qeyd edilən "Əsasnamə" yenidən nəzərdən keçirildi. Azərbycanın digər quberniya-larının qubernatorlarına da eyni göstəriş verildi. Lazım olan faktlar əldə edilsə də, ümumi kəndli qanunu verilənə qədər bu məsələ yenidən təxirə salındı[452].

Qeyd etmək lazımdır ki, göstərilən "Əsasnamə" İrəvan quberniyasında yalnız bəy kəndlərinə aid idi. Həmin illərdə İrəvan

---

[450] Vəlili M., Azərbaycan, coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat, Bakı, Azərnəşr, 1993, s.72.

[451] Vəlili M., Azərbaycan, coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat, s.202; Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1887, т.1, часть1, с.72-76; Барон Николай, Воспоминания из моей жизни, Русский архив, 1892, №28, 454; Vəlili M., Azərbaycan, coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat, c.72.

[452] Историческая записка об управлении Кавказом [в 2 томах], Сос.С.Эсадзе, Тифлис,Типография Гуттенберг, 1907, т.II, с.551-552.

quberniyasında cəmi 101 bəy kəndi vardı[453]. Digər tərəfdən, "Əsasnamə"də göstərilirdi ki, sahibkar 15 yaşından yuxarı olan hər bir kişiyə 5 desyatin torpaq sahəsi ayırmalı idi. Lakin İrəvan quberniyasının bəzi qəzalarında kəndlilərin torpaqları göstərilən rəqəmdən az və ya çox olmuşdu. İrəvan quberniyasının mülkədar kəndlilərinin torpaq sahəsi belə idi: İrəvan qəzasında hər evin pay torpağı 1,5 xalvar və yaxud 2 desyatin 600 kv.sayen, Naxçıvan qəzasının çoxtorpaqlı mülklərində 1,5 desyatindən 2,5 desyatin, aztorpaqlılarda bu rəqəmin yarısı, Üçmüəzzin qəzasında 13,5 desyatin, Yenibəyazid qəzasında isə 10,5 desyatin[454].

Beləliklə, 1851-ci il 8 iyun qanunu əsaslı olmasa da, İrəvan quberniyasında sahibkar-kəndli münasibətlərində qanuni qayda müəyyən etdi. Bu qanuna görə çar hökuməti kəndlilər üzərində məhkəmə-inzibati hüquqları ağalara, bəylərə və məliklərə vermişdi.

Azərbaycanda və eyni zamanda onun tərkib hissəsi olan İrəvan quberniyasında kənd təsərrüfatının inkişafında tarixən süni suvarma sistemi əsas rol oynayan amillərdən biri idi. Məhz bu baxımdan daha çox gəlir əldə etmək üçün çar hakimiyyət orqanları bu sahəyə də diqqət yetirmək məcburiyyətində qalmışdı. Digər tərəfdən, çar icra orqanları işğaldan sonra bu sahəyə ciddi fikir vermədiklərindən həm suvarma arxlarının vəziyyəti bərbad hala düşmüş, həm də su bölüşdürülməsi zamanı (Bu haqda suvarma bölməsində ətraflı bəhs edilcəkdir-E.Q.) özbaşınalıq və narazılıq baş alıb gedirdi. Məhz bu baxımdan 1847-ci ildə suvarma idarə sistemini "yaxşılaşdırmaq" məqsədi ilə "mirablar haqqında" qanun layihəsi tərtib edilmişdi. Qanun layihəsi 1847-ci il 12 apreldə Qafqaz canişini Vorontsov tərəfindən bəyənildikdən sonra qüvvəyə minmişdi. Bu layihə İrəvan quberniyasına da şamil edilmişdi. Qanuna görə Tiflis quberniyasına daxil olan İrəvan və

---

[453] Авелиани С.Л., Крестянский вопрос в Закавказье, Одесса, Типография «Техник», 1914, т.3, с.45.

[454] Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1887, т.1, часть 2, с.54-55; Авелиани С.Л., Крестянский вопрос в Закавказье, с.48.

Naxçıvan qəzalarında hakimiyyət orqanlarının müdaxiləsi olmadan yerli camaat su işinə baxan mirabları özləri seçməli və məvaciblə təmin etməli idilər. Yalnız mirablar üçün yığılan məvacib məsələsində şikayət olduqda rəislər işə qarışa bilərdilər[455].

Lakin suvarma haqqında qanun bununla bitmədi. Yerlərdə sudan istifadə qaydalarında ənənəvi nəzarət mövcud olsa da, Qafqaz Canişini möhkəm nizam-intizam yaratmaq üçün əlavə ştat da yaratmışdı. 1848-ci ildə Qafqazda suvarma təsərrüfatına rəhbərlik etmək üçün yeni inzibati orqan-su mühəndisliyi yaradıldı. Bu orqan canişinliyin mərkəzi Tiflisdə təsis edilmiş, 1874-cü ilə qədər onun tərkibi cəmi üç nəfərdən ibarət olmuşdi. İlk dövrlərdə su mühəndisləri heç bir quruma tabe olmamışdı. Bu tərkibdə yaradılmış su mühəndisliyi ona tapşırılmış vəzifənin öhdəsindən gələ bilmirdi. Belə ki, onlar daima Qafqazın müxtəlif bölgələrində ezamiyyətdə olur, əhalinin su üstündə şikayətlərinə qulaq asırdı. Lakin onlar suvarma qurğularının yaxşılaşdırılmasında heç bir iş görə bilmirdilər. Bunun üçün nə vəsait, nə də texniki ləvazimat vardı[456].

Quberniyalarda su üstündə narazılığın artması qubernatorları narahat etdiyindən, onlar dəfələrlə quberniyalara ayrı-ayrılıqda su mühəndislərinin təyin olunması məsələsini qaldırmışdılar. Nəticədə 1882-ci ildə xüsusi zemstvo mükəlləfiyyətlərinə görə təyin olunmuş iclasda bu məsələyə baxılmış, belə qərara alınmışdı ki, Cənubi Qafqazda İrəvan, Yelizavetpol və Bakı quberniyalarının hər birinə ayrı-ayrılıqda su mühəndisi təyin olunsun. Su mühəndisləri qubernatora tabe olmalı idi. Su mühəndislərinin ən önəmli vəzifələrindən biri də su üstündə olan mübahisəli vəziyyət haqqında yüksək distansiyalara məlumatlar vermək idi. İrəvan quberniyasında ilk su mühəndisi Frolov olmuşdur[457].

---

455 Полное собрание законов Российской империи, собрание 2-е, 1847, т.XXI, №21104, с.314-315.

456 Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1885, т.V, s.20.

457 Yenə orada, s.20-21; Дингильштедт В.А., Водовладение и ирригация, т. II, Тифлис, 1883, с.71.

Lakin Cənubi Qafqazda süni suvarmanın inzibati idarə sistemində baş verən bu dəyişiklik sonuncu olmadı. Azərbaycanda sənayenin və kənd təsərrüfatının inkişafı çar hakimiyyət orqanlarını suyun istifadəsində yeganə sistem yaratmağı məcbur etdi. Bu məqsədlə Dövlət Şurası tərəfindən 3 dekabr 1890-cı ildə "Zaqafqaziyada torpağın suvarılması üçün sudan istifadə qaydası haqqında" əsasnamə[458] qəbul olundu. Bu qanunun əhəmiyyəti onda idi ki, su sistemində yaradılan ayrı-ayrı orqanların vəzifələri, fəaliyyət dairələri açıq göstərilmişdir. "Əsasnamə"yə görə Cənubi Qafqazda su müfəttişi vəzifəsi təsis edildi. Onun iqamətgahı Tiflisdə yerləşirdi. Su müfəttişi bütün Qafqazı Tiflisdən idarə edirdi və yerlərdə fəaliyyət göstərən su mühəndisləri ilə vasitəsiz əlaqə saxlayırdı. Onun yanında hüquq məsləhətçisi və dəftərxana fəaliyyət göstərmişdi. Su müfəttişinin əsas vəzifəsinə aid idi: yerlərdə su mühəndisinin işinə nəzarət etmək; qüvvədə olan qanunlarda boşluqlar olduqda, su məsələsində sual yarandıqda həqiqəti aydınlaşdırmaq; su dairəsini hissələrə bölmək; suvarma sistemindən istifadə hüququ haqqında vəsiqə vermək. Su müfəttisi eyni zamanda ona aid olan məsələlərin müzakirəsində Qafqaz Baş Rəisliyin yanında Mülki hissə Şurasının üzvi idi[459].

Cənubi Qafqazda su dairəsinə və yaxud mahallara bölünmüş bütün su sahəsi su mühəndisinin nəzarətində idi. Hər bir mahalın isə öz inzibati şöbəsi var idi. Bu şöbənin başında mirab, ona tabe olanlar cuvar və su nümayəndəsi durmuşdu. Yerlərdə süni suvarmanın əsas başçısı su mühəndisi idı. Hər bir su mühəndisinin yanında konduktor fəaliyyət göstərirdi. Su mühəndislərinin vəzifəsinə aid idi: a) hər hansı dairədə sudan istifadə etmək hüququ idarənin sədri; b)  dairə su idarəsində iştirak edən edən şəxslərə nəzarət etmək; v) çaydan çəkilmiş kanalların planını tərtib etmək; q) çayda, kanalda və suvarılan sahədə suyun miqdarını təyin etmək; d) suvarma qurğularının layihəsini tərtib etmək; e)

[458] Полное собрание законов Российской империи, собрание 1-е, 1890, т.X, №7255, с.762.
[459] Yenə orada.

sərbəst qalmış suyun miqdarı həmçinin xüsusi yerlərin qurudulması, daşqından qorunmaq haqqında xəbər toplamaq; j) belə işlərin görülməsinin layihəsini, xərcini tərtib etmək; z) təsdiq edilmiş layihələrin icrasını yerinə yetirmək[460].

Su mühəndisinə yerlərdə mirab, cuvar və su nümayəndəsi tabe idi. Bu qanunda onların hər birinin özünəməxsus vəzifələri təsvir edilmişdi. Dairə mirabı əhali tərəfindən üç illiyə seçilirdi. Onun vəzifəsinə daxil idi: a) əsas mənbədən çəkilmiş suyun kanallar üzrə bölüşdürülməsi; b) cuvarlara nəzarət etmək; v) su nümayəndəsinin nəzarət etdiyi kənd və şəhərlərin daxilində su bölüşdürülməsində qaydaların pozulması istisna olmaqla su bölgüsündə pozulmuş qaydanı bərpa etmək; q) iştirakçıların cuvarların tələblərinə uyğun sudan istifadə qaydasına məcbur etmək; d) sudan istifadə qaydasının gözlənməsinə ciddi nəzarət etmək[461].

Cuvar əhali tərəfindən bir illiyə seçilirdi. Onun vəzifəsinə daxil idi; a) kanalların işlək qaydada olması, suyun miqdarı, kanallar vasitəsilə kəndlərə və xüsusi mülklərə suyun bölüşdürülməsi ; b) suyu oğurlanmaqdan qorumaq[462].

Su sistemində sonuncu cavabdeh şəxs su nümayəndəsi idi. Nümayəndənin vəzifəsinə daxil idi: a) sahibkarlar arasında suyun bölüşdürülməsinə, kənd və şəhərləri təmin edən kanalların işlək qaydada olmasına nəzarət etmək; b) suyu oğurlamaqdan qorumaq; v) sudan istifadə qaydalarını pozulmasını xəbərdar etmək; q) qayda pozuntusunu bərpa etmək[463]

Su dairə sistemində çalışan hər bir nümayəndə öz vəzifəsinə və hərəkətinə cavabdeh idi. Onlar vəzifələrindən sui-istifadə etdikdə və qaydaları pozduqda pulla cərimələnirdilər. Bu cərimənin miqdarı su mühəndisinin qərarı ilə 1 rubldan 50 rubla qədər idi. Şikayət birbaşa su müfəttişinə göndərilirdi[464].

---

[460] Полное собрание законов Российской империи, собрание 1-е, 1890, т.X, №7255, с.762.

[461] Yenə orada, s.763.

[462] Yenə orada.

[463] Yenə orada.

[464] Yenə orada.

3 dekabr 1890-cı il qanunu 1891-ci il aprelin 1-dən qüvvəyə mindi. Qanun qüvvəyə mindikdən sonra Cənubi Qafqazda su idarələri-su sahələri və onlara tabe olan su məntəqələri yaradıldı. Nəticədə 1891-ci ildə Cənubi Qafqazda 6, 1893-cü ildə daha 2 su sahəsi və 1904-cü ildə isə yeni 1 su sahəsi yaradıldı. Beləliklə, Cənubi Qafqazda 9 su sahəsi yaradıldı. Qeyd edilən su nəzarət sistemi 1918-ci ilə kimi fəaliyyət göstərmişdir[465]. İrəvanda fəaliyyət göstərən su sahələri və su məntəqələri haqqında aşağıda ətraflı bəhs ediləcəkdir.

Çar hökuməti Cənubi Qafqazda kənd yerlərində icma torpaqlarının, mülk və malikanələrin dəqiq sərhədlərinin müəyyənləşdirilməməsi üzündən yaranan tez-tez mübahisələrin, münaqişələrin qarşısını almaq üçün daha bir qanun verdi. XIX yüzilliyin birinci yarısında bu problem ciddi şəkildə qoyulmuşdu. Bu məsələni həll etmək üçün ilk addım 1849-cu il dekabrın 21-də çar tərəfindən "Cənubi Qafqaz vilayətində Dövlət Əmlakının idarə olunması haqqında əsasnamə" idi[466]. "Əsasnamə"nin qəbul olunmasında əsas məqsəd Cənubi Qafqazda dövlət əmlakının idarə olunmasını daha da təkmilləşdirmək idi. Bu qanuna görə indiyədək fəaliyyət göstərən Tiflis və Şamaxı Əmlk Palataları onların tabeliyindəki qəza idarələri ilə birlikdə ləğv ounurdu və Cənubi Qafqazda fəaliyyət göstərən Baş idarə yanında dövlət əmlakı ekspedisiyası təsis edilirdi. Ekspedisiya yanında dəftərxana işini bilən dəftərxanaçı, yerli dilləri bilən tərcüməçi, xüsusi işləri bilən məmurlar, su mühəndisləri və yerölçənlər fəaliyyət göstərirdi. Baş idarədən əlavə, Tiflis və Şamaxıda quberniyaları yanında xüsusi şöbələr təsis edilməli, İrəvan və Kutaisi quberniyalarında dəyirmi masalar fəaliyyət göstərməli, Dərbənddə isə hərbi qubernator dəftərxanasında əlavə köməkçi ştatı açılmalı idi.

---

[465] ARTA, f.429, siyahı 1, iş 579, v.7; Talıblı İ.A., XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə, Bakı, "Elm", 1980, s.88.

[466] Полное собрание законов Российской империи, собрание 2-е, 1849, т.XXIV, с.329-335.

Azərbaycanda, o cümlədən İrəvan quberniyasında ən böyük bəlalardan biri  ayrı-ayrı kəndlərə məxsus torpaq sahələri arasında dəqiq sərhədlərin olmaması idi. Dəqiq mərzləmənin yoxluğu qonşu kəndlər arasında böyük narazılıqlar yaradırdı. Hətta bundan istifadə edən bir çox bəylər qanunları pozaraq, suiistifadə hallarına yol verərək xəzinə və icma torpaqlarını zəbt edirdilər. Bu da, mərzləşmə işini ləngidir və yerlərdə qanlı toqquşmalara gətirib çıxarırdı. Cənubi Qafqazın işğalını başa çatdıran rus qoşunlarının baş komandanı İ.F.Paskeviçin diqqət mərkəzində saxladığı məsələlərdən biri də bu bölgənin mərzlənməsi məsələsi idi. Onun 1829-cu il yanvarın 17-də Ədliyyə Nazirliyinə ünvanladığı məktubunda bildirirdi ki, "üçillik mərzləmə təcrübəsi belə onun işini sürətləndirə bilmədi". Onun xahişi ilə ilk əvvəl Cənubi Qafqaza 3 böyük və 2 kiçik olmaqla 5 nəfər yerölçən təyin edilmişdi[467].

Lakin mərzləmə işi uzun müddət müzakirə obyekti oldu. Azərbaycanda mərzləmənin aparılmasının vacibliyini qeyd edən çar məmurları bu haqda öz təkiliflərini yazıb hazırlamışdılar[468]. Həmin təkliflərdən birində mərzləmənin Cənubi Qafqazın idarə olunması üçün xüsusi komitə və müvəqqəti şöbənin təsis edilməsi haqqında qanuna heç bir əngəlin olmadığı, ikincidə mərzləmənin yaxın gələcəkdə aparılmasının nəzərdə tutulduğu göstərilmişdi. Bu məqsəd üçün bir sıra tədbirlər həyata keçirilməyə başlandı. Belə ki, 1846-cı ildə mərzləmə işini aparmaq üçün mütəxəssis yetişdirən məktəb açıldı[469]. Bu məktəbin məzunları yerölçən köməkçisi vəzifəsinə yiyələnə bilərdilər[470].

XIX yüzilliyin ortalarında Cənubi Qafqazda torpaqların mərzlənməsi üçün xüsusi idarə olmadığına görə bu iş ləng həyata keçirilmişdi. Məsələn, 1950-ci ildə İrəvan quberniyasında 16588

---

[467] Полное собрание законов Российской империи, собрание 2-е, 1830, т.IV, №3000,  с.500-501.
[468] АКАК, т.IX, Тифлис, 1884, с.596.
[469] АКАК, т.XII, Тифлис, 1904, с.69.
[470] Полное собрание законов Российской империи, собрание 2-е, 1850, т.XXV, №24581,  с.39.

desyatin, 1951-ci ildə 11.114 desyatin, 1852-ci ildə 13092 desyatin, 1953-ci ildə isə 16000 desyatin torpaq sahəsi mərzlənmişdi[471].

Bu, çox ciddi məsələni həll etmək üçün hökümət 1861-ci il iyunun 29-da "Cənubi Qafqaz diyarının mərzləşdirilməsi haqqında əsasnamə"ni təsdiq etdi. Bu "Əsasnamə"yə görə, 1862-ci il yanvarın 1-dən fəaliyyətə başlayan Cənubi Qafqaz Mərz Palatası yaradıldı. Palatanın tərkibi sədr və 4 üzvdən ibarət idi. Əsasnamədə mərz idarəsinin yaradılması, mərz işinin aparılması, mərz işi üzrə məhkəmə icrası, mərz ölçüləri və nişanların qoyulması, mərz sənədlərinin tərtib edilməsi, mərz xərclərinin ödənilməsi, mərz idarələri məmurlarının vəzifələri nəzərdə tutulurdu. Palata hər bir kənd icmasının torpaqlarının sərhədlərini müəyyənləşdirməli, bütün mülk və malikanələrin sərhədlərini dəqiqləşdirməli idi[472]. Belə bir palatanın yaradılması vaxtında atılmış addım oldu. Belə ki, istər xəzinəyə, istər xüsusi sahibkarlara, istərsə də vəqfə məxsus olan torpaqların uzun illər idi ki, dəqiq sahələri təyin edilməmişdi. Buna görə də tez-tez narazılıqlar olurdu.

Mərzləməni sürətləndirmək, bu işi daha da təkmilləşdirmək üçün çarizm müxtəlif illərdə yeni-yeni qanunlar verməyə başladı. Görülən tədbirlər mərzləmə işinə baxan palatanın hüquqi cəhətdən nüfuzunu, üzvlərinin sayını artırmaq və texniki cəhətdən onları gücləndirmək üçün atılmış addımlar idi. 1867-ci il dekabrın 9-da verilən qanunda mərzləmə palatasının fəaliyyətində böyük dəyişiklik oldu. Qanuna əsasən mərzləmə palatasının vəzifəsi Tiflis məhkəmə palatasına, mərzləmə komissiyasının vəzifəsi isə dairə məhkəməsinə tapşırıldı. Buna görə də, mərzləmə işini qaydaya salmaq üçün Tiflis məhkəmə palatasında və dairə məhkəməsində xüsusi mərzləmə üzvləri seçilmiş, palatanın daxilində mərzləmə planlarını təsdiq etmək, sərəncamçının işlərinə qiymət vermək,

---

[471] Отчеть экспедиции государственных имушеств при Главном Управлении Закавказского края за 1854 г., АКАК, т.X, Тифлис, 1885, №82, с.105.

[472] Полное собрание законов Российской империи, собрание 2-е, т.41, 1861, с.1017-1052.

mərzləməni texniki tərəfdən gücləndirmək, yerlərdə yerölçənlərə səlahiyyətlər vermək üçün Xüsusi İdarə yaradıldı[473].

Mərzləmə ilə əlaqədar verilən bu qanunlar tezliklə öz bəhrəsini verdi. Mənbələrdə 1862-1889-cu illər arasında Cənubi Qafqaz üzrə quberniyalarda mərzlənmiş torpaq sahələrinin miqdarı göstərilmişdir. İrəvan quberniyasında qəzalar üzrə mərzlənmiş torpaq sahələrinin ümumi miqdarı cədvəldə belə gösrərilmişdir[474]:

| Qəzalar | Ümumi torpaq sahəsi (desyatinlə) | Bütünlüklə | Mübahisəsiz | Mübahi-səli | Cəmi | Mərzlən məmiş qalıb |
|---|---|---|---|---|---|---|
| İrəvan qəzası | 285280 | 108551 | 63671 | 32697 | 204919 | 80361 |
| Naxçıvan | 407138 | - | 851 | 2500 | 3351 | 403787 |
| Sürməli | 327250 | 2333 | 247754 | 91270 | 337367 | -10107 |
| Şərur-Dərələyəz | 274550 | 49046 | 94247 | 9625 | 152918 | 121632 |
| Üçmüəzzin | 335614 | 76025 | 236563 | 24654 | 337242 | -1628 |
| Aleksandropol | 352292 | 52773 | 227411 | 14935 | 295119 | 57173 |
| Yekun | 2545726 (100 %) | 522644 (20,6 %) | 1151523 (45,6 %) | 197524 (7,8 %) | 1871691 (74,0 %) | 674035 (26,0 %) |

İrəvan quberniyasında 1885-ci ilə qədər 94836 desyatin (4,1 %), 1885-1888-ci ilər arasında isə 55096 (2,2 %) torpaq mərzlənmişdir.

Lakin Cənubi Qafqazda mərzləməyə aid qanunlar bununla tamamlanmadı. Bu işi tezləşdirmək üçün mərzləmə palatasının üzvlərinin sayını artırmaq, onların işində nizam-intizam yaratmaq və texniki tərəfdən gücləndirmək məqsədilə 1889-cu il aprelin 3-də, 1892-ci il mayın 3-də və 1897-ci il mayın 26-da bir-birinin ardınca çarın fərmanları verildi. 1889-cu il aprelin 3-də "Cənubi Qafqaz diyarında mərzləmə işlərində işçi yerlərinin və yer-

---

[473]Материалы по вопросу о распространении действий крестьян-ского поземелного Банка на Закавказский край, СПб, Типография В.Киршбаума, 1904, с.64.

[474]Кавказский календарь на 1890 г. Тифлис: 1889, с.35.

lərdən mərzləməyə cəlb olunanların sayının artırılması haqqında“ verilən qanunda işçilərinin sayının artırılması ilə əlaqədar olaraq əlavə dəyişikliklər edildi. Qanuna görə, Cənubi Qafqazda mərzləmə idarələrində əlavə ştatlar açıldı. Bu ştatlara mərzləmə müfəttişi, iki kiçik yerölçən, altı böyük yerölçən və dairə məhkəmələrində iki mərzləmə üzvü işçi yerləri daxil edildi. Bundan əlavə, aparıcı mərzləmə işçi vəzifəsi bərpa olundu. Mərzləmənin texniki hissəsinə nəzarət Dairə məhkəməsinə, iki mərzləmə üzvünə və mərzləmə rəhbərinə verildi[475].

1890-cı il noyabrın 12-də İrəvan quberniyasında mərzəmə işini daha da təkmilləşdirmək, İrəvan mərzləmə dairəsinin xəritəsinin tərtib olunması məqsədilə ildə 900 rubl icarə haqqı verilməklə xüsusi yay binasının icarə götürülməsi haqqında fərman verildi. Bu məbləğ 1891-ci ildən Ədliyyə Nazirliyinin xərc cədvəlinə daxil edilirdi[476].

Lakin XIX yüzilliyin 90-cı illərində mərzənmə ilə bağlı daha iki qanun verildi. Belə ki, 1892-ci il mayın 5-də “Qafqazda mərzləmə işində dəyişiklik haqqında” yeni qanun verildi. Qanuna əsasən mərzləmə işində Qafqaz mərzləmə idarəsi müdiri və Tiflis Məhkəmə Palatasının mərz üzvləri vəzifəsi təsis edildi. Cənubi Qafqaz diyarında işlərin təşkili və texniki əlaqələri Qafqaz diyarının mərzləmə idarəsinin mərzləmə işləri müdirinin rəhbərliyi altında idarə olunmalı idi. Tiflis Məhkəmə palatasının xüsusi Mərz İdarəsinin tərkibi xəritə tərtib edən müdirdən və müfəttişindən ibarət olmuşdu. Qanunda yeni yaranmış vəzifələrin məvacibləri haqqında da məlumat vardır.

Cənubi Qafqaz diyarında mərzləməni sürətləndirmək üçün 1897-ci il mayın 26-da “Cənubi Qafqaz diyarında torpağın mərzlənməsinin sürətləndirilməsi haqqında” adlı daha bir yeni qanun verildi[477].

---

[475] Полное собрание законов Российской империи, собрание 3-е, т IX., 1889, №5801, с.128-129.

[476] Полное собрание законов Российской империи, собрание 3-е, т.X, 1890, №7192, с.736-737.

[477] Полное собрание законов Российской империи, собрание 3-е, т.XVII, 1897, №14150, с.315-319.

Atılan bu addımlar artıq XX yüzilliyin əvvəllərində öz bəhrəsini verdi. Belə ki, 1901-ci il yanvarın 1-ə olan statistikaya görə, Cənubi Qafqaz quberniyaları arasında yeganə mərzləmə işi İrəvan quberniyasında başa çatdırılmışdı. Göstərilən ilə qədər İrəvan quberniyasında 2546088 desyatin torpaq sahəsi mərzlənmiş, bunlardan 1655945 desyatin xəzinə, 890143 desyatin isə sahibkar torpaqlarına aid idi[478].

Rusiyanın Azərbaycanda və eyni zamanda onun tərkib hissəsi olan İrəvan quberniyasında həyata keçirdiyi müxtəlif səpkili qanunlar kənd təsərrüfatında torpaq, sahibkar-kəndli məsələlərini həll etmədi. Buna görə də, daha köklü aqrar qanunların hazırlanmasına ehtiyac var idi. Xüsusilə, Rusiyanın mərkəzi quberniyalarında verilmiş 1861-ci il 19 fevral islahatından sonra onun iqtisadiyyatında baş verən kapitalist sənayesinin inkişafı bunu tələb edirdi.

Beləliklə, 1870-ci il mayın 14-də "Zaqafqaziya quberniyaları: Yelizavetpol, Bakı, İrəvan və qismən Tiflis quberniyaları ali müsəlman silkindən olan şəxslərin, habelə erməni məliklərinin torpaqlarında sakin olan dövlət kəndlilərinin torpaq quruluşu haqqında əsasnamə" verildi[479]. Lakin "Əsasnamə" 1870-ci il noyabrın 8-də qüvvəyə minmişdi. "Əsasnamədə" üç məsələyə-kəndlilərin şəxsi asılılığının ləğv edilməsi, torpaq və vergi məsələlərinə toxunulurdu Bu kəndli islahatı 1847 və 1851-ci illər "Əsasnamələri"nin əsasında hazırlanmışdı. Bu "Əsasnamə" haqqında tarixi ədəbiyyatda kifayət qədər məlumat verildiyindən[480]

---

478 Материалы по вопросу о распространении действий крестьянского поземелного Банка на Закавказский край, с.70-73.

479 Полное собрание законов Российской империи, собрание 2-е, т.45, 1870, №48357, с.630-646; Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в [в 2 томах], Москва-Ленинград, Из-во Академии наук СССР, 1937, т.2, с.401-423; Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı, Azərbaycan Dövlət Üniversitetinin nəşriyyatı, 1989, s.313-322.

480 Məhəmmədhəsən Vəlili (Baharlı), Azərbaycan (coğrafi-təbii etnoqrafik və iqtisadi mülahizat), s.72-73; Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək), Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1994, s.595-597; Azərbaycan tarixi, Bakı, Elm, c.4, s.177-187.

onun İrəvan quberniyası ilə bağlı bəzi nəticələrinə toxunmaq istərdik. Qeyd etmək lazımdır ki, islahat İrəvan quberniyasının Azərbaycan türklərinin "ali silki"nin və erməni məliklərinin torpaqlarında sakin olan kəndlilərinə şamil edilmişdi. 1870-ci il 14 may qanunu əsasən iki əsas bölmədən ibarətdir: 1) Sahibkar kəndlilərin torpaq sahibliyinin ümumi vəziyyəti haqqında; 2) Quberniya və qəzalarda kəndli məsələsinə baxan şöbələrin hüquqları haqqında. Kəndli islahatına görə sahibkar kəndliləri hər cür şəxsi azadlıq və əmlaklarından sərbəst istifadə etmək hüququ alırdılar, lakin torpaq mülkiyyətçisi isə əvvəlki kimi mülkədarlar qalırdı. Mülkədarlar kəndliyə daimi istifadə üçün həyətyanı sahə və torpaq payı verməli idi. Bunun müqabilində kəndli onun xeyrinə bütün əkilən məhsuldan malcəhət və ya bəhrə adlı vergi, məcburi iş günləri əvəzinə isə pul vergisi verməli idi. İrəvan quberniyası üzrə mülkədara veriləcək bəhrə vergisinin miqdarı $^{4}/_{30}$ idi. Lakin bəzi sahələr üzrə dövlət mülkədarlara çatacaq vergini pulla müəyyən etmişdi. Verginin miqdarı belə təyin edilmişdi: bostan və dirrikdən 80 qəpik, bağlardan 1 rubl 20 qəpik və hər sahəyə görə (360 kvadrat sajen) 10 batman və yaxud 3 pud buğda[481].

İslahatın əsas məsələlərindən biri kəndli üçün pay torpaqlarının ayrılması idi. Belə ki, mülkədar islahata qədər kəndlilərin istifadəsində olan pay torpağı saxlanılmaqla, 15 yaşından yuxarı hər kişiyə 5 desyatin torpaq payı verməli idi. Əgər kəndli icmasının pay torpağı hər bir kəndli kişi üçün 5 desyatindən az olarsa, onda kəndlinin sahibkardan torpağın çatışmayan hissəsini tələb etmək hüququ vardı və sahibkar çatışmayan torpağı kəsib verməyə borclu idi. Kəndlilərin daimi istifadəsində olacaq əkin sahələri və başqa torpaq sahələri kəndlinin pay torpağı adlanırdı. Meşələr kəndli pay torpağının tərkibinə daxil deyildi. Meşəsi olan malikanələrdə kəndlilər meşələrdən yalnız sahibkarın könüllü razılığı ilə istifadə edə bilərdilər. Bundan əlavə, mal-qaranı suvarmaq üçün kəndlilərin istifadəsində olan naxır bulaqları onların istifadəsində saxlanı-

---

[481] Полное собрание законов Российской империи, собрание 2-е, т.45, 1870, ст.№48357, с.639.

lırdı. Əgər naxır bulaqları sahibkarla kəndlilərin birgə istifadəsində idisə, onda bulaq ümumi istifadədə qalırdı. Sahibkar istəyərsə, kəndlilərlə qarşılıqlı razılaşma əsasında ümumi suvat yerində onlara ayrıca suvat ayıra bilər, yox əgər razılaşma baş tutmazsa, onda məsələ barışıq münsifinin qərarı ilə həll olunmalı idi[482].

Lakin pay torpağı kəndliyə verilsə də, onun şəxsi mülkiyyəti hesab olunmurdu. "Əsasnamə"yə görə kəndli yalnız pay torpağını satın aldıqdan sonra onu öz xüsusi mülkiyyətinə keçirə bilərdi. Kəndli öz pay topağını ya bütövlükdə, ya da onun bir hissəsini, sahibkarla qarşılıqlı razılıq əsasında barışıq münsifinin müəyyən etdiyi qaydada heç bir məhdudiyyət qoyulmadan ala bilərdi. Lakin bu qaydada da bir məhdudiyyət vardı. "Əsasnamə"yə görə hər hansı bir ailənin 15 desyatindən artıq torpaq almağa hüququ yox idi. Bundan əlavə, kəndlilər 7,5 desyatindən az pay torpağına malikdirlərsə, onda hər bir ev bundan az torpaq satın almaq ixtiyarına malik deyildi. "Əsasnamə"də pay torpaqlarının satın alınması haqqında da bir qayda qoyulmuşdu. Belə ki, kəndli pay torpağını satın almaq haqqında barışıq münsifinə yazılı surətdə müraciət edir, əvəzində o, ödənc məbləğini kəndlilərin satın almaq istədikləri pay torpaqları üçün həm pul, həm də məhsulla ödədikləri mükəlləfiyyətlərin pulla qiymətinin 6 faiz kapitallaşması (yəni 16 $^{2}/_{3}$-yə vurulması) yolu ilə hesablayır, həm də müəyyən edilmiş ödənc məbləğinin kəndlilər tərəfindən ödənilmə məbləğinin vaxtını müəyyən edir və bundan sonra tərəflərə öz qərarını bildirirdi. Müəyyən edilmiş müddətdə narazılıq yaranardısa barışıq münsifi hər iki tərəfə kəndli işləri üzrə Quberniya idarəsinə şikayət etmək hüququ verildiyini elan edir, işə baxılmaq üçün həmin idarəyə keçirirdi[483].

1870-ci il 14 may islahatının əsas məsələlərindən biri kəndlilərin pay torpaqlarını satın alması məsələsi idi. Qeyd etmək lazımdır ki, çarizm Rusiyanın mərkəzi quberniyalarında is-

---

[482] Полное собрание законов Российской империи, собрание 2-е, т.45, 1870, №48357, с.632-633; Azərbaycan tarixi üzrə qaynaqlar, с.316.
[483] Yenə orada, с.646; Yenə orada, с.321.

lahat keçirərkən kəndlilərin öz pay torpaqlarını satın almaları üçün xüsusi yardım göstərmiş, kredit almaq üçün banklar açmışdı. Lakin Azərbaycanda çar hakimiyyət orqanları kəndlilərin öz pay torpaqlarını sahibkarla könüllü saziş əsasında və ya öz tələbləri ilə mülkiyyətə keçirmələri hökumət tərəfindən hər cür yardım edilmədən həyata keçirilirdi. Lakin bu halda 1861-ci il 19 fevralda çar tərəfindən təsdiq edilmiş ödənc haqqında "Əsasnamə"nin 6-cı maddəsində nəzərdə tutulmuş imtiyazlardan istifadə oluna bilərdi[484].

Quberniya idarələrinin 1873-1876-cı illərdə bu sahədə apardığı araşdırmalar nəticəsində Azərbaycanda quberniyalar üzrə bir desyatin pay torpağının satınalma qiyməti belə müəyyən olunmuşdu: İrəvan quberniyasında bir desyatin torpaq sahəsi 122, Bakı qubernuyasında 69, Yelizavetpol quberniyasında isə 202 rubl[485]. Pay torpağını satın almaq baha başa gəldiyinə görə bu məsələ yerlərdə böyük səs-küyə səbəb olmuş, sahibkar-kəndli arasında narazılıq yaratmışdı. Məsələn, İrəvan qubernatoru 1877-ci il avqustun 19-da olan məlumatında yazırdı: "İrəvan quberniyasında kəndlilərin öz pay torpaqlarını satın alması üçün ciddi cəhd etmələrinə baxmayaraq heç bir irəliləyiş olmamışdır. Çünki torpaq sahibləri satın alınma qiymətlərinin baş idarə tərəfindən təsdiqini gözlədiklərinə görə kəndlilərlə bu haqda razılığa gəlməkdən yayınırdılar. Kəndlilər isə idarə tərəfindən təyin edilmiş bu qiyməti özləri üçün əlverişsiz hesab edirdi"[486].

"Əsasnamə" kəndlinin pay torpağını satın almağa qanunla icazə versə də, bu kəndlinin imkanı xaricində idi. Hadisələrin sonrakı gedişi göstərir ki, kəndlilər qiymət baha olduğuna görə pay torpağını satın almaq marağında olmamışdı. Arxiv materialına görə, islahatdan keçən 38 il ərzində İrəvan quberniyasında

---

[484] Полное собрание законов Российской империи, собрание 2-е, т.45, 1870, №48357, с.646; Azərbaycan tarixi üzrə qaynaqlar, с.321.

[485] Авелиани С.Л., Крестянский вопрос в Закавказье, Тифлис, Иддание Тифлисского Государственного Университеты, 1920, т.4, с.21.

[486] Агаян Ц.П., Крестьянская реформа в Азербайджане в 1870 году, Баку, Издательство Академии Наук Азербайджанской ССР, 1956, с.249.

yalnız ödənc vermək əsasında 20-30 kəndli öz pay torpağını satın ala bilmişdi. Qalan kəndlilər isə borc götürüb sələmə girməkdənsə, mülkədara verilən vergi müqabilində öz pay torpağını əldə saxlamağı üstün tutmuşdular[487]. Kəndli məsələlərini araşdıran Aveliani isə qeyd edirdi ki, İrəvan quberniyasında islahat keçiriləndən 30 il ərzində mülkədarlara məxsus 79896 desyatin torpaq sahəsindən kəndlilər yalnız 41 desyatin torpaq sahəsi satın almışdı[488]. Məlumata görə, XX yüzilliyin ilk onilliyində İrəvan quberniyasında kəndlilərin sərəncamında 98264, mülkədarların əlində isə 60126 desyatin torpaq sahəsi olmuşdur[489].

Beləliklə, islahatın nəticəsinə görə kəndlilər nəinki torpaq payı almadılar, əksinə torpaqsız qaldılar. XX yüzilliyin əvvəllərində İrəvan quberniyasında xəzinə torpağında sakin olan hər evin cəmi 15,3 desyatin, hər bir kişiyə isə 4,0 desyatin, sahibkar torpaqlarında sakin olan hər evə isə 8,3, hər kişiyə isə 2,3 desyatin torpaq payı düşmüşdü[490]. Müqayisədə görmək olar ki, torpaq sahəsinə görə sahibkar kəndlinin vəziyyəti daha acınacaqlı olmuşdur. Qiymət məsələsi uzun illər mübahisə obyekti olmuşdur. Dövlət başa düşürdü ki, pay torpağı üçün təyin olunmuş belə qiymət kəndlilərin imkanları xaricindədir. Bu haqda xüsusi layihə hazırlandı. Belə ki, bu işi həll etmək üçün 1885-ci ildə Daxili İşlər Naziriyinə xüsusi layihə təqdim edildi. Layihənin müzakirəsi uzun çəkdi. Nəhayət, 1897-ci ildə nazirliyin maliyyə və dövlət əmlakı bölməsinin xüsusi rəyi ilə yenidən işləmək üçün geri qaytarıldı. Nəticədə, XX yüzilliyin əvvəllərində əldə edilmiş razılığa əsasən torpağın keyfiyyətinə görə belə qiymət təyin olundu: birinci dərəcəli keyfiyyətli torpağa görə İrəvan quberniyasında 53 rubl,

---

[487] Крестьянское движение в Армении в XIX веке, Составил В.Рштуни при участии К.Степаняна, Ереван, Изд-во Академии наук Армянской, 1948, с.55.

[488] Авелиани С.Л., Крестянский вопрос в Закавказье, т.4, с.15.

[489] Материалы по вопросу о распространении действий крестьянского поземелного Банка на Закавказский край, с. 118-119; Авелиани С.Л., Крестянский вопрос в Закавказье, т.4, с.4.

[490] Авелиани С.Л., Крестянский вопрос в Закавказье, т.4, с.4.

Bakı quberniyasında 43 rubl, Yelizavetpol quberniyasında 42 rubl; orta dərəcəli torpağa görə isə İrəvan quberniyasında 26 rubl 66 qəpik, Yelizavetpol və Bakı quberniyalarında isə 25 rubl[491].

Lakin torpağın satış qiyməti bu qərarla da tam həll olunmadı. Cənubi Qafqazda hakimiyyət orqanları ilə torpaq sahibləri bu məsələdə razılığa gələ bilmədilər. Bunun üçün XX yüzilliyin əvvəllərində ayrı-ayrı quberniyalar üzrə xüsusi komissiyalar yaradıldı. 1904-cü ilin iyun ayında Qafqaz Baş rəisliyinin mülki hissəsinin şurasında komissiyaların bu işlə əlaqədar məsələsinə baxıldı. Komissiyaların başçıları olan qubernatorlar qiymət məsələsində müxtəlif mövqeyə malik idilər. İclasda İrəvan qubernatoru Tizenqauzen sahibkarların tərəfində duraraq, onların istəyinin yerinə yetirilməsinin tərəfində olduğunu bildirmişdi. Hətta onun İrəvan quberniyası üçün verdiyi layihədə torpağın keyfiyyətinə görə satış qiymətinə hər desyatinə görə belə qiymət qoyulmuşdu: birinci dərəcəli torpağa görə-242 rubl, ikinci dərəcəyə görə-133 rubl, üçüncü dərəcəyə görə-124 rubl, dördüncü dərəcəyə görə-61 rubl və beşinci dərəcəyə görə-43 rubl[492].

Keçirilən bu iclasda da qiymət məsələsində heç bir razılıq əldə olunmadı. 1909-cu ilin aprel-may aylarında Qafqaz canişinliyinin iclasında bu məsələyə yenidən baxıldı. İrəvan qubernatoru bu dəfə də mülkədarların mövqeyini müdafiə etdi. O, çıxışında mülkədarları narazı salmamaq üçün satış qiymətinin indiki qiymətlə dəyəndirilməsini təklif etmişdi[493]. Beləliklə, pay torpağının satınalma qiyməti əvvəlki qiymət məbləğində saxlanıldı. Bu məsələ yalnız 1912-1913-cü illər islahatlarından sonra öz həllini tapdı.

14 may 1870-ci il islahatı qeyd edildiyi kimi xüsusi torpaq sahəsi olmayan sahibkar kəndlilərinə şamil edilmişdi. XIX yüzilliyin 70-ci illərinin ortalarına aid olan məlumata görə, bəzi qəza-

---

491 Авелиани С.Л., Крестянский вопрос в Закавказье, т.4, с.21-22.

492 Аграрная политика и крестьянское движение в Армении в начале XX века, Составил В.Рштуни. Ереван, Изд-во Академии наук Армянской, 1951, с.68.

493 Yenə orada, s.68-69.

larda sahibkar kəndlilərinin malik olduğu torpaq payı orta hesabla belə göstərilmişdi: İrəvan qəzasında hər bir ailənin orta hesabla malik olduğu torpaq sahəsi 1,5 xalvar və yaxud 2 desyatin 600 kvadrat sajen; Naxçıvan qəzasında çox torpaqlı yerlərdə 1,5 desyatindən 2 $^4/_4$ desyatinə qədər, az torpaqlı yerlərdə isə bunun yarısı; Üçmüəzzin qəzasında 13,5 desyatin; Yenibəyazid qəzasında 10,5 desyatin[494].

Lakin İrəvan quberniyasında sayı az da olsa ali silkə mənsub olmayan, xüsusi torpaq sahələri olan kəndlilər də var idi. Bu torpaq sahələri vaxtilə qanunla bölgü əsasında onlara verilmişdi. Xüsusi mülkiyyətçi kəndlilərin vəziyyətinə aydınlıq gətirmək üçün "İrəvan quberniyasında və Tiflis quberniyasının Axalsıx qəzasında dövlət kəndlərində sakin olan, ali müsəlman silkinə mənsub olmayan xüsusi torpaqlarda sakin olan şəxslər" haqqında 1877-ci il sentyabrın 3-də yeni "Əsasnamə" verildi[495]. Bu qanunla qeyd edilən şəxs 1870-ci il 14 may "Əsasnamə"sinin 20-ci bəndinə əsasən öz mülkünün sahibi hesab edilir, lakin əlavə malikanə əldə etməsi qadağan olunurdu. Mülkiyyətçi kəndli xüsusi qaydalarla-şəriət kağızı və qanuni kağız əsasında mülkə sahib ola bilərdi. Mülk sahibləri olsa da, onların sadə kəndlilərdən vergi almaq ixtiyarları yox idi. Bundan əlavə, mülkiyyətçi kəndlinin razılığı olmadan heç kim ona məxsus pay torpağını dəyişə bilməzdi. Əgər ona məxsus pay torpağı qanunda göstəriləndən az olarsa, onun haqqı vardı ki, 5 desyatinini tələb etsin. Bundan əlavə, hər hansı bir ev öz pay torpağından imtina edərdisə, onun torpaqlarına yaxın olduğuna görə bu pay torpağını da mülkiyyət sahibi olan kəndlinin özünün mülkünə qatmağa səlahiyyəti çatırdı. Hər bir xüsusi mükiyyətçi kəndli qanuna əsasən 15 desyatindən çox pay torpağı ala bilərdi[496].

Lakin İrəvan quberniyasında ali silkə məxsus tiyul sahibləri

---

[494] Материалы по крестьянскому делу в Закавказском крае, часть 3, с.11.

[495] Полное собрание законов Российской империи, собрание 2-е, т.52, отделение 2, 1877 г., №57691, с.114-115.

[496] Yenə orada.

də vardı. 1872-ci il məlumatına görə, İrəvan quberniyasında 30 ailə tiyul hüququndan istifadə edirdi. Tiyul mükəlləfiyyətini yerinə yetirən 1546 kəndli evi vardı. Bu evlər isə İrəvan, Naxçıvan, Yenibəyazid və Üçmüəzzin qəzalarının 25 kəndində yerləşmişdi[497]. Lakin 1883-cü ilin sonuna olan məlumata görə, Üçmüəzzin monastırına məxsus tuyuldan başqa İrəvan quberniyasında 16 tiyul kəndi qeydə alınmışdı[498]. 1897-ci il məlumatına görə isə İrəvan quberniyasında ömürlük tiyul hüququna malik 40-a qədər ailə qalmışdır ki, onlar da 1000 qədər evi idarə edirdilər[499].

İslahatdan sonra da tiyul məsələsinə aydınlıq gətirilmədi və tiyul sahibləri yuxarıda göstərilən qaydada öz hüquqlarından istifadə edirdilər. Onların vəziyyətinə və gəlirlərinə aydınlıq gətirmək üçün 1875-ci il mayın 14-də yeni qanun verildi. Qanun mayın 30-da elan edildi. Bu qanuna əsasən İrəvan quberniyasında tiyul gəliri olan hər cür məhsuldan alınan $^{3}/_{30}$ bəhrə vergisi və tiyul sahibinin xeyrinə hər evdən alınan 2 rubl 50 qəpik pul vergisi ləğv edildi. Əvəzində tiyul sahibinə kəndlilərdən alınan vergi əvəzinə xəzinədən ömürlük məvacib kəsildi[500].

Tiyul sahibinə çatan bəhrə vergisinin pul dəyərində qiymətləndirilməsi canişinə həvalə olunmuşdu. Bu iş çətin olduğundan məvacib axırıncı 10 il ərzində tiyul sahibinin aldığı məbləğ əsasında hesablanmalı idi. Nə qədər ki, hökumət qanunda nəzərdə tutulan ömürlük məvacibi verməmişdi, tiyul sahibi köhnə qaydada öz vergisini alırdı. Tiyul sahibi pul məvacibi aldıqdan sonra tuyul kəndliləri hər cür mükəlləfiyyətlərdən azad edilməli və əvəzində onların tiyul sahibinə ödədiyi vergi xəzinəyə ödənilməli idi[501].

Lakin bu qanun da yerinə yetirilmədi. Natural verginin pulla əvəz edilməsi çox çətin olduğundan qanunun icrası dayandırıl-

---

[497] Материалы по крестьянскому делу в Закавказском крае, Тифлис, 1876 г, ч.2, с.3.

[498] Yenə orada, c.82.

[499] Кавказский календарь на 1897 г, отдел IV, с.18.

[500] Полное собрание законов Российской империи, т.50, отделение 1, 1875 г., СПб, 1877, №5701, с.503.

[501] Yenə orada.

dı. Nəhayət, tiyul sahibliyində boşluğu doldurmaq üçün 1884-cü ildə knyaz Dondukov-Korsakov qanunda nəzərdə tutulmuş natural verginin pul ilə əvəz edilməsi məsələsini həll etmək üçün Daxili İşlər Nazirliyinə layihə təqdim etdi. Bu layihəyə müzakirə üçün 1885-ci il iyulun 30-da Daxili İşlər Nazirliyinə göndərildi. Nazirlik 12 il bu məsələni yubatdıqdan sonra 1897-ci ildə Qafqaz Baş rəisinə bu işi yenidən araşdırmaq üçün müraciət etdi. Lakin bu da öz dəqiq həllini tapmadı. Belə qərara gəlindi ki, tiyul sahibləri qocalmış, tezliklə bu torpaq sahibliyi onların ölümündən sonra xəzinənin ixiyarına keçəcəkdir. Artıq XX yüzilliyin əvvəllərində İrəvan quberniyasında cəmi 11-12 tiyul kəndi qalmışdı[502].

İldən-ilə vergilərin lazımi səviyyədə yığılmaması, vergi qalıqlarının qalması çar hakimiyyət orqanlarını yeni-yeni vergi islahatları keçirməyə məcbur edirdi. Uzun müzakirələrdən sonra 1900-cü il iyunun 12-də II Nikolay "Zaqafqaziya diyarında əhalidən yığılan torpaq vergisinin güzəştləri haqqında" qanunu təsdiq etdi. Bu qanun 1901-ci il yanvarın 1-dən qüvvəyə mindi. Qanuna görə, dövlət kəndlilərindən alınan tüstü pulu və müxtəlif növ torpaq vergisi töycü vergisi ilə əvəz olundu. Bundan başqa qanuna əsasən dövlət kəndliləri üzərinə zemski vergisi də əlavə olunmuş, hətta kəndlilərin xəzinəyə olan əvvəlki borcları ləğv edilmişdir[503].

Qeyd etmək lazımdır ki, İrəvan quberniyasında həm xəzinə, həm də xüsusi sahibkarlara, mülkədarlara məxsus kəndli evləri də qeydə alınmışdı. 1876-cı il məlumatında İrəvan quberniyasında 12310 xəzinəyə məxsus ev olduğu göstərilmişdir[504]. XIX yüzilliyin 70-ci illərinin əvvəllərində isə mülkədar kəndlərində 7.065 kəndli evi (27335 kişi), tiyul kəndlərində 509 ev (2320 kişi), məscidlərə məxsus kəndlərdə 44 ev (94 kişi), kilsəyə məxsus kəndlər-

---

[502] Материалы по вопросу о распространении действий крестьянского поземелного Банка на Закавказский край, с. 29-30; Авелиани С.Л., Крестянский вопрос в Закавказье, т.4, с.23.

[503] Полное собрание законов Российской империи, отделение 1, 1900 г., №18840, с.758.

[504] Материалы по крестьянскому делу в Закавказском крае, Тифлис, 1876 г, ч.2, с.38.

də 1206 ev (4037 kişi) qeydə alınmışdı. Bunlardan milliyyətinə görə 4924 ev (19451 kişi) Azərbaycan türklərinə, 3900 ev (14335 kişi) ermənilərə məxsus olmuşdur[505].

Ümumiyyətlə, İrəvan quberniyasında bütün mülkədar kəndlərinin sayı 143, onlardan 89-u Azərbaycan türklərinə, 47-si ermənilərə məxsus olmuş və 7 kənddə isə həm Azərbaycan türkləri, həm də ermənilər yaşamışdır[506].

Çar Rusiyası tərəfindən verilən bu qanunlar kənd təsərrüfatında müəyyən boşluqları doldursa da, kəndlilərin asılılığı aradan qalxmadı. Nə qədər ki, kəndli pay torpağını satın almamışdı, bu asılılıq davam edirdi. Azərbaycanda, o cümlədən İrəvan quberniyasında bu müvəqqəti asılılıq XX yüzilliyin ilk onilliyinə qədər davam etmişdi. Uzun müddət yerlərdə torpaq uğrunda mübarizə, çəkişmələr çarizmi məcbur etdi ki, bu müvəqqəti asılılığı da ləğv etsin. Lakin bu asılılığın ləğv edilməsi çox uzun çəkdi və böyük mübahisələrə səbəb oldu. Qeyd edildiyi kimi, XIX yüzilliyin 80-ci illərinin ortalarında mülkədar kəndlilərinin müvəqqəti mükəlləfiyyəti və asılılıq münasibətləri məsələləri ilə bağlı müzakirələr aparılmağa başlandı. Lakin bu istiqamətdə real addımlar XX yüzilliyin əvvəllərində başladı. Belə ki, 1905-ci ildə Qafqazda canişinlik üsul-idarəsi yenidən yaradıldı. Canişin təyin edilən qraf İ.İ.Vorontsov-Daşkov öz vəzifəsinə başlayarkən Cənubi Qafqazı kəndli həyəcanları bürümüşdü. Kəndli çıxışları o qədər ciddi idi ki, canişin əsas diqqətini aqrar məsələlərin həllinə yönltmişdi. O, kəndlilərin vəziyyətini araşdırarkən bu həyəcanların əsas səbəbini tapmışdı. Qraf İ.İ.Vorontsov-Daşkov 1907-ci ildə çara ünvanladığı məktubda kəndlilərin vəziyyətinə qiymət verərək yazırdı ki, "mülkədarların xeyrinə olan mükəlləfiyyətlər qeyri-müəyyən ölçüdədir. Müxtəlif növ məhsuldan natura ilə ödənilən pay mülkədarlarla kəndlilər arasında daimi münaqişənin səbəbi idi. Mülkədarlar məhsuldan gələn gəliri artırmaq, kəndlilər isə bu miqda-

---

[505] Сборник сведений о Кавказе, т.5, с.1-100.

[506] Рштуни В., Крестьянская реформа в Армении в 1870 г., Ереван, Академии наук Армянской ССР, 1947, с.268.

rı azaltmaq istəyirdilər”[507]. Qraf Vorontsov-Daşkov hesab edirdi ki, 1904-cü il dekabrın 12-də verilən fərman, 1905-ci il noyabrın 12-də elan edilən manifest, 1906-cı il noyabrın 5-də verilən fərman bir-biri ilə ziddiyyət təşkil edir və canişin “müvəqqəti asılılıq mükəlləfiyyət münasibətlərinin yol verilməz olduğunu, tez bir zamanda bu münasibətlərin ləğv edilməsi ilə yerlərdə kəndli həyəcanlarının sakitləşməsinə səbəb olacağını..” bildirmişdi[508].

Cənubi Qafqazda kəndli məsələləri ilə bağlı islahatlara qiymət verən canişin tez bir zamanda yeni islahatın keçirilməsinin zəruriliyini öz məktublarında bildirmişdi. Cənibi Qafqazda kədlilər arasında bütün narazılıqların səbəbini müvəqqəti asılılıqda görən Vorontsov-Daşkov bu asılılığı ləğv etmək üçün 1905-ci il noyabrın 22-də “Qafqazda kəndli məsələsinin nizamlanması haqqında” qanun layihəsini Nazirlər Şurasına təqdim etdi. Bu qanun layihəsinə görə Cənubi Qafqaz quberniyalarında, o cümlədən İrəvan quberniyasında müvəqqəti mükəlləfiyyətli kəndlilərə istifadəsində oluğu torpaq sahələrinin sahibi olmaq hüququ verilirdi. Əvəzində mülkədarlar və torpaq sahibləri 1906-cı il yanvarın 1-də açılacaq Cənubi Qaqaz Dövlət Kəndli bankından 5 faiz məbləğində avans almaq hüququ alırdı. Canişin bu məqsədlə 27 milyon 400 min rubl təyin etmişdi[509].

Layihə baxılmaq üçün torpaq quruluşu və əkinçilik rəisi N.Kutlerə və Maliyyə Naziri İ.Şipova göndərildi. Hər iki şəxs canişinin müvəqqəti asılılığın ləğv edilməsi fikri ilə razılaşsa da, canişin tərəfindən 1906-cı il yanvarın 1-dən mülkədarlar üçün planlaşdırdığı dövlət xəzinəsi hesabına avansın verilməsi təklifini qəbul etmədilər[510].

Onların layıhə haqqında rəyi canişinə göndərildi. Lakin canişin bu rəyin əleyhinə çıxdı. O, bəylərin, torpaq sahiblərinin pulla mükafatlandırma ilə bağlı prinsipial məsələnin müsbət həll

---

507 Авелиани С.Л., Крестянский вопрос в Закавказье, т.4, с.16-17.
508 Yenə orada, s.17.
509 Yenə orada, s.26.
510 Yenə orada, s.27-28.

edilməsininə çalışırdı. İ.Vorontsov-Daşkov hesab edirdi ki, bu məsələnin təxirə salınması sahibkarların vəziyyətini çətinləşdirir və mükəlləfiyyət hüquqlarını itirmiş mülkədarların yeganə təsəllisi pul mükafatı ola bilərdi[511].

Göstərilən idarələrin mənfi rəyini alan canişin İ.Vorontsov-Daşkov 1906-cı il iyulun 17-də çar II Nikolaya müraciət edir. O, müraciətdə əsas üç məsələni əsaslandırmışdı. Birincisi, kəndlilər artıq pay torpaqlarının dəyərini ödəmişlər, ikincisi, yuxarıda yeniləşdirilmiş layihəyə görə təhkimçilik və asılılıq münasibətləri artıq yolverilməzdir, üçüncüsü, siyasi vəziyyətə görə zadəganların haqqı ödənilmədən müvəqqəti-asılılıq münasibətlərini ləğv etmək mümkün deyil[512].

1906-cı il avqustun 15-də Nazirlər Şurası qraf Vorontsov-Daşkovun layihəsini yenidən müzakirə edir. Şura canişinin natural verginin pul vergisi ilə əvəz etməsini qəbul etsə də, layihənin bir sıra maddələri qəbul edilməmiş, yenidən işlənmək üçün canişinə qaytarılmışdır. Canişinin layıhəsinin qəbul edilməməsinin əsas səbəbi kəndlilərin pay torpaq sahələrinin satın alınması üçün mülkədarlara ödəniləcək məbləğin dövlət bankı tərəfindən ödənilməsinin yolverilməz hesab edilməsi idi[513]. Lakin canişinin layihəsi Dövlət Dumasına qədər çatmadı. O, layihə olaraq qaldı.

Nəhayət, kəndlilərin mülkədarlardan, torpaq sahiblərindən müvəqqəti asılılığını ləğv etmək üçün çar hökuməti 1912-ci il dekabrın 20-də yeni qanun verdi. Bu qanun bütün Cənubi Qafqaz quberniyalarına, o cümlədən İrəvan quberniyasına da şamil edilmişdi. Bu qanuna görə, Tiflis, Kutaisi, İrəvan, Yelizavetpol və Bakı quberniyalarında mülkədar torpaqlarında yaşayan pay torpaqlarına malik olan müvəqqəti-mükəlləfiyyətli kəndlilər onlara məxsus bu torpaqların satın alınması qaydaları müəyyən edilmişdi[514].

---

[511] Авелиани С.Л., Крестянский вопрос в Закавказье, т.4, s.29-30.

[512] Yenə orada, s.31.

[513] Yenə orada, s.32-33.

[514] Полное собрание законов Российской империи, Собрание 3-е., т.32, 1912 г. Отделение 1, Петроград: 1915, №38539, с.1687-1692; Vəlili M., Azərbaycan, coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat, s.73.

1912-ci il dekabrın 20-də verilmiş bu qanun 1913-cü il yanvarın 1-dən həyata keçirildi. Qanunun I maddəsində Tiflis, İrəvan, Kutaisi, Yelizavetpol və Bakı quberniyalarında mülkədar torpaqlarında yaşayan, pay torpaqlarına malik olan müvəqqəti-mükəlləfiyyətli kəndlilərin bu torpaqları məcburi şəkildə satın alınması haqqında qaydaları göstərilmişdir. II maddə Üçmüəzzin monastırı kəndlərinə, III maddə isə tiyul sahiblərinə ödənilən verginin ləğv edilməsinə şamil edilmişdi. Belə ki, tiyul sahibinin xeyrinə verilən verginin ləğv edilməsi əvəzində xəzinədən ömürlük illik tiyul məbləği ödənilməli idi. Bundan əlavə, hər bir kəndli ailəsindən illik 2,5 rubl məbləğində vergi yığılmalı, kəndlilərin mülkiyyətinə keçmiş torpaq sahəsinin satınalınma məbləğindən 4,5 % tutulmalı idi. İrəvan quberniyasına aid olan Üçmüəzzin kilsəsinə kəndlilərin mükəlləfiyyət daşımaqdan azad olunması əvəzində isə dövlət xəzinəsindən on il müddətinə illik 21 min rubl ödənilməsi nəzərdə tutulmuşdu.

Beləliklə, Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan İrəvan quberniyasında kəndlilərin şəxsi torpaqlara sahib olması, asılılıqdan çıxması məsələsi uzun illər ləngimişdi. Çarizmin ali silkin nümayəndələrinə-mülkədarlara, bəylərə, məliklərə daimi dəstək olması kənd təsərrüfatının bu əsas məsələnin uzanmasına səbəb olmuşdu. Yalnız uzun mübarizədən sonra kəndlilərin bu əzmkar iradəsinin qarşısında aciz qalan çar hakimiyyət orqanları XX yüzilliyin əvvəllərində kəndlilərin asılılığını ləğv etmək üçün qanun verməyə məcbur olmuşdu.

# V FƏSİL

# İRƏVAN QUBERNİYASININ İQTİSADİ HƏYATI (XIX YÜZİLLİYİN ORTALARI-XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ)

## 5.1. İrəvan quberniyasının kənd təsərrüfatı (XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəllərində)

**Əkinçilik.** İrəvan quberniyasının iqtisadiyyatında kənd təsərrüfatı əsas yerlərdən birini tutmuşdu. Qeyd etmək lazımdır ki, Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan bölgəsinin iqtisadiyyatında da XIX yüzilliyin 70-ci illərindən başlayaraq kapitalist münasibətləri meydana gəlməyə başlamış, işğaldan sonra İrəvanın Ümumrusiya bazarına daxil olması bu işi sürətləndirmişdir. İstər kənd təsərrüfatında, istərsə də iqtisadiyyatın digər sahələrində bazar üçün əmtəəlik məhsul istehsalı daha da güclənmişdi. Artıq əldə edilmiş məhsullar nəinki yerli bazarlara çıxarılır, eyni zamanda xarici bazarlara ixrac edilirdi.

Müxtəlif iqlimin, rəngarəng məhsuldar torpaqların və bol sulu çayların olması İrəvan quberniyasında iqtisadiyyatın əsasını təşkil edən kənd təsərrüfatının inkişafına böyük təsir göstərmişdi. Yuxarıda göstərildiyi kimi, İrəvan quberniyası təbii-coğrafi sahəsinə görə başdan-başa dağlıq, dağətəyi və düzənlik ərazilərdən ibarət olduğundan, bu ərazilərdə ayrı-ayrı kənd təsərrüfatı məhsullarının əkilməsində tarixən bir qanunauyğunluq mövcud olmuş, hər bir əraziyə uyğun kənd təsərrüfatı məhsulları yetişdirilmişdir. Dağlıq ərazilərdə havanın temperaturu aşağı olduğundan burada elə məhsullar yetişdirilirdi ki, həmin məhsullar mülayim və sərt iqlimə, düzənlik zonada isə isti iqlimə davam gətirirdi. Məsələn, dağlıq və dağətəyi ərazilərdə əkinçilik və maldarlıq kənd təsərrüfatının əsasını təşkil etmişdi və məhsuldarlığına görə düzənlik ərazilərdə əkilən məhsuldan daha çox məhsul əldə etmək olurdu. Bu ərazilərdə kətan əkinçiliyi və arıçılıq da inkişaf

etmişdi. Tərəvəz yalnız hər evin tələbatını ödəyəcək qədər əkilirdi. Meyvə isə yalnız iqlimə uyğun yetişdirilirdi. Lakin dağ və dağətəyi ərazilərin hamısını buna şamil etmək olmaz. Sərt iqlimi olan dağlıq və dağətəyi yerlərdə taxıl məhsulları əkilmirdi, geniş otlaq sahələrinə, biçənək yerlərinə malik olduğundan burada maldarlıq daha geniş inkişaf etmişdi. Düzənlik ərazilərdə də vəziyyət eyni cür idi. Arazın aşağı vadilərində, İrəvan, Naxçıvan və Üçmüəzzin qəzalarında yay isti olduğundan və uzun keçdiyindən bu ərazilərdə taxıl məhsullarından buğda, arpa, cəltik, texniki bitkilərdən pambıq, küncüd, gənəgərçək, çox məhdud yerlərdə tütün və digər texniki bitkilər daha müvəffəqiyyətlə əkilirdi. Eyni zamanda düzənlik ərazilərdə bostançılıq, ipəkçilik və şərab istehsalı əsas yerlərdən birini tutmuşdu. Düzənlik ərazilərdə maldarlıq yalnız ev şəraitində daha çox inkişaf etmişdi. Bu da hər bir evi süd məhsulları ilə və əkinçiliyi isə iş heyvanları ilə təmin etmək məqsədi güdürdü[515].

İrəvan quberniyasının kənd təsərrüfatında taxıl əkinçiliyi daha geniş yayılmışdı. Quberniyada əkinçilik həm yazda, həm də payızda həyata keçirilirdi. Payızlıq əkin əsasən düzənlik ərazilərdə olurdu. Payızlıq əkində torpaq yayın axırı-avqust və sentyabr aylarında şumlanırdı. Səpin isə oktyabr ayında həyata keçirilirdi. Səpindən sonra dırmıxla örtülmüş məhsul bir-neçə dəfə suvarılırdı. Yazlıq əkin üçün torpaq isə yazın əvvəllərindən hazırlanırdı. Ümumiyyətlə torpağın şumlanması və məhsulun səpilməsi dağlıq zonalarda qarın əriməsindən başlayaraq, iyunun əvvəllərində, düzənlik zonada isə martın əvvəllərindən başlayaraq mayın axırlarında qurtarırdı. Səpin əllə yerinə yetirilirdi[516].

İrəvan quberniyasında əkinçilikdə dənli bitkilərdən buğda, arpa, çəltik, darı, pərinc (buğda növü), qarabaşaq, texniki bitkilərdən pambıq, tütün, küncüt, gənəgərçək, kətan və yağçiçəyi

---

[515] Спасский Н., Сельскохозяйственно-статистическая сведения об Эриванской губернии за 1870 год, Сборник сведений о Кавказе //под редакцией главного редактора Н.Зейдлица, Тифлис, В типографии главного управления наместника Кавказского, 1872, т.II, с.167.
[516] Yenə orada, s.170.

əsas yerlərdən birini tutmuşdu. İrəvan quberniyası taxıl məhsulları ilə bol olan quberniyalardan biri hesab olunurdu. Taxıl məhsullarından buğda kifayət qədər çox əkilirdi. Əlverişli iqlimindən və torpağın məhsuldarlığından asılı olaraq dağətəyi ərazilərdə məhsuldarlıq 7-8, hətta 10, 12 və 15 dəfə artıq olurdu. Buğdanın becərilməsi ilə dağlıq ərazinin əhalisi daha çox məşğul olurdu[517].

Bəhs etdiyimiz dövrdə İrəvan quberniyasında müxtəlif növ buğda əkilirdi. Bunlardan qırmızımtıl və yaxud qarabağ, sarı və ağ buğda daha məşhur idi. Bundan əlavə, quberniyada topbaşı, gərmə buğda növlərinə də rast gəlmək olurdu. Qırmızımtıl buğda növü qədim, yerli növ olmaqla bərabər, rəngi qırmızı-sarı rəngdə, bir qədər xallı, gövdəsinin hündürlüyü 0,75-1 arşın (1 arşın-96,4 sm) arasında, kiçik sünbüllü dənli bitki idi. Buğda kiçik olmasına baxmayaraq, quberniyada ən keyfiyyətli buğda hesab olunurdu. İrəvan quberniyasının dağlıq ərazilərinin 90 $^{0}/_{0}$-də qırmızı buğda əkilirdi. Xüsusilə, Göyçə, Abaran və Aleksandropolda bu buğda növü daha məşhur olmuşdur. İrəvan bazarlarında qırmızı buğda digər növlərə nisbətən $^{1}/_{4}$ və $^{1}/_{5}$ nisbətdə baha satılırdı. Onun çörəyi ağ və ləzzətli olurdu[518].

İrəvan buğdasının ikinci növü tərkibində çoxlu nişasta olan "ağ buğda" növü hesab olunurdu. Ağ buğda əsasən payızda isti, düzənlik və dağətəyi ərazilərdə əkilirdi. Bu buğda növü də yerli idi[519].

İrəvan quberniyasında bəzi buğda növü də vardı ki, onlar sonradan kənardan gətirilmişdi. Bunlardan biri Borçalı və Qazax

---

517 Спасский Н., Сельскохозяйственно-статистическая сведения об Эриванской губернии за 1870 год, Сборник сведений о Кавказе //под редакцией главного редактора Н.Зейдлица, Тифлис, В типографии главного управления наместника Кавказского, 1872, т.II, с.168.

518 Сборник свидений о Кавказе, Тифлис, Типография главнаго Управления Наместника Кавказского, т.VII, с.219; Заваров С., Опыт исследования сельского хозяйства хлебородного района Эриванской и Карсской области, Тифлис, 1899, с.162-163; Vəlili M., Azərbaycan, coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat, s.92.

519 Yenə orada.

qəzalarından gətirilmiş "Güldənə" adlanan buğda növü idi. O, payızda xüsusilə Yenibəyazid, Aleksandropol qəzalarında və Dərələyəzin dağlıq yerlərində əkilirdi. Güldənə iri, ağ, dairəvi və tərkibində zülalı çox olan buğda növü idi[520].

Buğdanın gərmian növü Qacar dövlətindən gətirilmişdi. Bu buğda növü uzun və qalın sünbüllü olması ilə seçilirdi. Hər sünbüldə 70-80 iri ağ buğda olurdu[521].

İrəvan quberniyasında əkilən buğdanın bir növü də Rusiyanın mərkəzi quberniyalarından gətirilmiş "kamçatka" adlanan buğda növü hesab olunurdu. Azərbaycan türkləri ona "topbaşı" deyirdilər. Bu buğda qısa, yoğun və dairəvi olmaqla bərabər, məhsuldalığı yüksək idi. "Topbaşı" sünbülünün hər bir tərəfində 35-45 buğda olurdu. XIX əsrin sonlarına yaxın bu növ buğda quberniyada daha çox yayılmağa başlamışdı. 1894-cü ildə onun bir xalvarı (1 xalvar-450 kq) 40-60 rubl arasında satılmışdı[522].

Digər buğda növü quberniyada "başısünbüllü" buğda hesab olunurdu. Bu buğda uzun müddətə yetişirdi[523].

XIX yüzilliyin 70-ci illərində İrəvan quberniyasına yeni buğda növü olan "hind buğda"sı da gətirilmişdi. Bu növün qollu-budaqlı sünbülü vardı və məhsuldarlığı 20-30 dəfə çox olurdu. Təcrübə üçün "hind buğdası"nı Yarımca kəndində əkmişdilər[524].

İrəvan quberniyasında buğda ilə bərabər arpa da əkilirdi. Lakin buğdaya nisbətən arpa az əkilirdi. Quberniyada arpanın ikicərgəli (kilic), dördcərgəli və altıcərgəli növləri daha məşhur olmuşdur. Sonuncu iki arpa növünü yerli əhali topbaşı adlandır-

---

520 Сборник свидений о Кавказе, т.VII, с.219; Заваров С., Опыт исследования сельского хозяйства хлебородного района Эриванской и Карсской области, с.162-163.

521 Сборник свидений о Кавказе, т. VII, с.219.

522 Сборник свидений о Кавказе, т.VII, с.219; Заваров С., Опыт исследования сельского хозяйства хлебородного района Эриванской и Карсской области, с.164.

523 Заваров С., Опыт исследования сельского хозяйства хлебородного района Эриванской и Карсской области, с.164.

524 Сборник свидений о Кавказе, т. VII, с.219.

mışdı[525]. V.Vəlili Azərbaycanda arpa əkinçiliyinə toxunaraq yazırdı: "Pis və sürülmüş yerdə əkilən arpa isə bir neçə növdür, bu növlər əkin vaxtlarıyla və sünbüllərinin şəkli ilə fərqlənirlər. Düzəngahlarda ağ, altıcərgəli qış arpası əkilir, dağ ətəklərində isə altıcərgəli yaz arpası əkilir ki, toxmaq adlı ağ dənələri vardır. 4-6,5 min fut (1 fut 30,479 sm-ya bərabər uzunluq ölçüsü) dəniz səviyyəsindən yüksəkdə olan məhəllələrdə dördcərgəli yaz arpası, ən yuxarı səviyyədə isə (6,5-8 min futluq) ikicərgəli yaz arpası hasil edilirdi. Adı çəkilən yüksək səviyyədə arpa ən yeganə göyərtidir. Qara arpa hasilatına və ləzzətinə görə ağdan yuxarı və bahadır"[526].

İkicərgəli arpa növünün məhsuldarlığı çox aşağı idi. Ümumiyyətlə, İrəvan quberniyasında arpa az əkilirdi və heyvanların yedizdirməsinə sərf olunurdu. Yalnız qıtlıq illərində əhali arpa çörəyi yeməyə məcbur idilər[527].

Mənbələrin təhlili göstərir ki, dənli bitkilərin yetişdirilməsi XIX yüzilliyin 50-60-cı illərində də İrəvan quberniyasının kənd təsərrüfatının başlıca sahəsi olaraq qalmaqda idi. Hətta burada ayrı-ayrı qəzalar üzrə yazlıq və payızlıq əkilən taxıl məhsullarının miqdarı haqqında statistik məlumatlara rast gəlmək olar. Qeyd etmək lazımdır ki, göstərilən bu stastistik məlumatlarda əkin sahələri və məhsulun miqdarı göstərilmişdir. Bu statistik məlumatlar bunlardır:

1858-ci ilin məlumatına görə, İrəvan quberniyasında 147026 çetvert payızlıq əkin sahəsindən 818761 çetvert (1 çertvert-dörddə bir çəki və ölçü vahidi), 86767 çetvert yazlıq əkin sahəsindən isə 493299 çetvert, ümumilikdə isə 1312060 çetvert taxıl yığılmışdır. Ayrı-ayrı qəzalar və həmin qəzaların mərkəzi şəhərləri üzrə əkilən və yığılan məhsulun miqdarını aşağıdakı

---

[525] Сборник свидений о Кавказе, т. VII, с.219.
[526] Vəlili M., Azərbaycan, coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat, s.92-93.
[527] Сборник свидений о Кавказе, т. VII, с.219.

cədvəldə əyani görmək mümkündür[528]:

| Qəzalar | Payızlıq əkin sahəsi (çetvert) | Yazlıq əkin sahəsi (çetvert) | Payızda yığılıb (çetvert) | Yazda yığılıb (çetvert) | Payızlıq məhsulun faizlə miqdarı | Yazlıq məhsulun faizlə miqdarı | Hər adama düşən məhsulun miqdarı |
|---|---|---|---|---|---|---|---|
| İrəvan qəzası İrəvan şəhəri ilə birlikdə | 67707 | 41215 | 342507 | 224519 | əkiləndən 5 dəfə artıq | əkiləndən 5 dəfə artıq | 6 çetvertə qədər |
| Naxçıvan qəzası Naxçıvan şəhəri ilə birlikdə | 23043 | 12605 | 147023 | 83175 | əkiləndən 6 dəfə artıq | əkiləndən 6 dəfə artıq | 6 çetvertə qədər |
| Ordubad qəzası Ordubad şəhəri ilə birlikdə | 10076 | 8697 | 50371 | 45065 | əkiləndən 5 dəfə artıq | əkiləndən 5 dəfə artıq | 3 çetvertə qədər |
| Yenibəyazid qəzası Yenibəyazid şəhəri ilə birlikdə | 14400 | 6000 | 139000 | 65000 | əkiləndən 10 dəfə artıq | əkiləndən 11 dəfə artıq | 5 çetvertə qədər |
| Aleksandropol qəzası Aleksandropol şəhəri ilə birlikdə | 31800 | 18250 | 139860 | 75540 | əkiləndən 4 dəfə artıq | əkiləndən 4 dəfə artıq | 4 çetvertə qədər |
| Yekun | 147026 | 86767 | 818761 | 493299 | əkiləndən 5,5 dəfə artıq | əkiləndən 5,75 dəfə artıq | 5 çetvertdən artıq |

Cədvəldən göründüyü kimi, payızlıq əkin sahəsi və yığılan məhsul yazda əkilən sahədən və yığılan məhsuldan daha çox olmuşdur.

Mənbələrdə XIX əsrin 60-cı illərində də İrəvan quberniyasının şəhər və kəndlərində əkilən və biçilən buğda və arpanın miqdarı haqqında statistik məlumatlar ətraflı öz əksini tapmışdır. 1863-ci ilin məlumatına görə, İrəvan quberniysında əkilən

---

[528] Гугушвили, Сельское хозяство и аграрные. Составил П.В.Гугушвили / Тифлис, 1950, с.663.

sahələrin və biçilən məhsulun miqdarı belə idi[529]:

| Qəzalar | Payızlıq əkin sahəsi (çetvert) | Yazlıq əkin sahəsi (çetvert) | Payızda yığılıb (çetvert) | Yazda yığılıb (çetvert) | Payızlıq məhsulun faizlə miqdarı | Yazlıq məhsulun faizlə miqdarı | Hər adama düşən məhsulun miqdarı |
|---|---|---|---|---|---|---|---|
| İrəvan qəzası, İrəvan şəhəri | 18700 | 18695 | 100000 | 80420 | əkiləndən 6 dəfə artıq | əkiləndən 6 dəfə artıq | 2,5 çetvertə qədər |
| Naxçıvan qəzası, Naxçıvan şəhəri | 23180 | 17509 | 139080 | 105072 | əkiləndən 6 dəfə artıq | əkiləndən 6 dəfə artıq | 3 çetvert, 2 çetvert |
| Ordubad qəzası, Ordubad şəhəri | 14000 | 40 | 56000 | 160 | əkiləndən 4 dəfə artıq | əkiləndən 4 dəfə artıq | 2,3 çetver |
| Yenibəyazid qəzası Yeni-bəyazid şəhəri ilə birlikdə | 1100 | 27000 | 7700 | 189000 | əkiləndən 7 dəfə artıq | əkiləndən 7 dəfə artıq | 5,75 çetvert |
| Aleksand-ropol qəzası Ale-ksandropol şəhəri ilə birlikdə | - | 50840 | - | 305040 | - | əkiləndən 3,1 dəfə artıq | 1 çetvert |
| Üçmüəzzin qəzası | 12000 | 10450 | 60000 | 52250 | əkiləndən 5 dəfə artıq | əkiləndən 5 dəfə artıq | 3 çetvert artıq, 7,25 çetvert |
| Yekun | 68980 | 124538 | 362780 | 731948 | əkiləndən 6 dəfə artıq | əkiləndən 6 dəfə artıq | Orta hesabla 4 çetvert |

1863-cü mövsüm ilində 865486 çetvert (1853-cü illə

[529]Гугушвили, Сельское хозяство и аграрные. Составил П.В.Гугушвили, Тифлис, 1950, с.667.

müqayisədə 455574 çetvert az) taxıl yığılmışdır. Bundan əlavə, Ordubad qəzasında payızlıq əkin sahələri çox az, Aleksandropol qəzasında isə heç olmamışdır.

1866-cı ilin stastistik məlumatında quberniya üzrə əkilən və yığılan taxılın miqdarı aşağıdakı cədvəldə belə izləmək mümkündür[530]:

| Qəzalar | Payızlıq əkin sahəsi (çetvert) | Yazlıq əkin sahəsi (çetvert) | Payızda yığılıb (çetvert) | Yazda yığılıb (çetvert) | Payızlıq məhsulun faizlə miqdarı | Yazlıq məhsulun faizlə miqdarı | Hər adama düşən məhsulun miqdarı |
|---|---|---|---|---|---|---|---|
| İrəvan qəzası, İrəvan şəhəri | 18682 | 39285 | 144690 | 175945 | əkiləndən 0,75 dəfə artıq | əkiləndən 5 dəfə artıq | 3,5 çetvert |
| Naxçıvan qəzası, Naxçıvan şəhəri | 14098 | 22220 | 84608 | 111100 | əkiləndən 6 dəfə artıq | əkiləndən 5 dəfə artıq | 2,5 çetvert |
| Ordubad qəzası, Ordubad şəhəri | 12111 | 5000 | 48444 | 21400 | əkiləndən 4 dəfə artıq | əkiləndən 4 dəfə artıq | 2 çetver |
| Yenibəyazid qəzası Yenibə-yazid şəhəri ilə birlikdə | 3000 | 46500 | 28377 | 479667 | əkiləndən 9,5 dəfə artıq | əkiləndən 9,5 dəfə artıq | 8 çetvet |
| Aleksan-dropol qəzası Aleksan-dropol şəhəri ilə birlikdə | - | 23946 | - | 215514 | - | əkiləndən 9 dəfə artıq | 5 çetvert |
| Üçmüəz-zin qəzası | 12500 | 15094 | 75000 | 90584 | əkiləndən 5 dəfə artıq | əkiləndən 5 dəfə artıq | 2 çetvert qədər |
| Yekun | 60391 | 151995 | 381119 | 1094210 | əkiləndən | əkiləndən | 4 |

[530] Гугушвили, Сельское хозяство и аграрные. Составил П.В.Гугушвили / Тифлис: 1950, с.669.

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | 4 dəfə artıq | 4 dəfə artıq | çetvertə qədər |

Cədvəldən göründüyü kimi, 1866-cı ildə ümumilikdə 1475329 çetvert taxıl yığılmış, bu rəqəm əvvəlki ilə nisbətən (1865-ci ildə 821747 çetvert yığılıb) 653582 çetvert çox olmuşdur.

1868-ci il məlumatında illik taxıl əkini və biçini belə olmuşdur[531]:

| Qəzalar | Payızlıq əkin sahəsi (çetvert) | Yazlıq əkin sahəsi (çetvert) | Payızda yığılıb (çetvert) | Yazda yığılıb (çetvert) | Payızlıq məhsulun faizlə miqdarı | Yazlıq məhsulun faizlə miqdarı | Hər adama düşən məhsulun miqdarı |
|---|---|---|---|---|---|---|---|
| İrəvan qəzası, İrəvan şəhəri | 18380 | 80856 | 128660 | 565992 | əkilǝndən 7 dəfə artıq | əkilǝndən 5 dəfə artıq qəzada, 5 dəfə artıq şəhərdə | 7 çetvertdən artıq |
| Naxçıvan qəzası, Naxçıvan şəhəri | 16540 | 25788 | 115780 | 181516 | əkilǝndən 7 dəfə artıq | əkilǝndən 7 dəfə artıq | 3 çetvert |
| Ordubad qəzası, Ordubad şəhəri | 14800 | 2710 | 74000 | 18970 | əkilǝndən 5 dəfə artıq | əkilǝndən 7 dəfə artıq | 3 çetvert |
| Yenibəy azid qəzası Yeni-bəyazid şəhəri ilə birlikdə | 31000 | 48000 | 279000 | 432000 | əkilǝndən 9 dəfə artıq | əkilǝndən 9 dəfə artıq | 9 çetvetdən çox |
| Aleksan dropol qəzası Aleksan-dropol şəhəri ilə birlikdə | 240 | 35191 | 1920 | 278078 | əkilǝndən 8 çetvert artıq | əkilǝndən 8 dəfə artıq | 3 çetvert |
| Üçmüəz- | 13700 | 16650 | 109600 | 133200 | əkilǝndən | əkilǝndən | 2 çetvert |

531 Гугушвили, Сельское хозяство и аграрные. Составил П.В.Гугушвили, Тифлис, 1950, с.672.

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| zin qəzası | | | | | 8 dəfə artıq | 8 dəfə artıq | |
| Yekun | 94660 | 209195 | 708960 | 1609756 | əkiləndən 5,5 dəfə artıq | əkiləndən 5,5 dəfə artıq | 5,5 çetvertə qədər |

Cədvəldən göründüyü kimi, 1868-ci ildə 30350 çetvert əkin sahəsindən 2318716 çetvert taxıl yığılmışdır. Bu keçən ilin taxıl tədarükündən 273431 çetvert çox olmuşdur.

1869-cu il məlumatında İrəvan quberniyasının şəhər və qəzalarında əkilən və yığılan taxılın miqdarını aşağıdakı cədvəldən əyani görmək mümkündür[532]:

| Qəzalar | Payızlıq əkin sahəsi (çetvert) | Yazlıq əkin sahəsi (çetvert) | Payızda yığılıb (çetvert) | Yazda yığılıb (çetvert) | Payızlıq məhsulun faizlə miqdarı | Yazlıq məhsulun faizlə miqdarı | Hər adama düşən məhsulun miqdarı |
|---|---|---|---|---|---|---|---|
| İrəvan qəzası, İrəvan şəhəri | 18386 | 79906 | 128702 | 559342 | əkiləndən 7 dəfə artıq | əkiləndən 7 dəfə artıq | 7 çetvertdən artıq |
| Naxçıvan qəzası, Naxçıvan şəhəri | 25690 | 26701 | 725520 | 213608 | əkiləndən 8 dəfə artıq | əkiləndən 8 dəfə artıq | 6 çetvert |
| Ordubad qəzası, Ordubad şəhəri | 60 | 70 | 480 | 560 | əkiləndən 8 dəfə artıq | əkiləndən 8 dəfə artıq | 3 çetvert |
| Yenibəyazid qəzası Yenibəyazid şəhəri ilə birlikdə | 32000 | 49000 | 22400 | 343000 | əkiləndən 7 dəfə artıq | əkiləndən 7 dəfə artıq | 7 çetvertdən artıq |
| Aleksandropol qəzası Aleksandropol şəhəri ilə birlikdə | 228 | 35310 | 912 | 211860 | əkiləndən 8 çetvert artıq | əkiləndən 8 dəfə artıq | 3 çetvert |

532 Гугушвили, Сельское хозяство и аграрные. Составил П.В.Гугушвили, Тифлис, 1950, c, s.675.

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Üçmüəzzin qəzası | 14600 | 17360 | 116800 | 138800 | əkilləndən 8 dəfə artıq | əkiləndən 8 dəfə artıq | 2 çetvert dən çox |
| Yekun | 90964 | 208337 | 676414 | 146170 | əkiləndən 5 dəfə artıq | əkiləndən 5 dəfə artıq | 5 çetvert ə qədər |

Cədvəldən əyani görmək olar ki, 1869-cu ildə 299001 çetvert əkilən sahədən 2143584 çetvert taxıl tədarük edilmişdir. Bu 1868-ci ilə nisbətən 175132 çetvert az taxıl yığılmışdır. Arxiv məlumatında bunun səbəbi kimi, Azərbaycanda keçirilən inzibati-ərazi islahatı nəticəsində İrəvan quberniyasının Mehri dairəsinin yeni yaranmış Yelizavetpol quberniyasına verilməsi və Aleksndropol və Yenibəyazid qəzalarında taxılın az əkilməsi və məhsulun az tədarük edilməsi göstərilmişdir[533].

İrəvan quberniyasının əkinçilik məhsulları haqqında 1870-ci il statistik məlumatı özünün genişliyi ilə bir qədər fərqlənmişdir. Burada hər bir taxıl və texniki məhsullar - buğda, arpa, çəltik, pambıq, tütün və s. haqqında məlumatlar nəinki ayrı-ayrılıqda göstərilmiş, eyni zamanda zonalar üzrə təsvir edilmişdir. Bu məlumatlar aqronom N.Spaskiyə məxsus olmuşdur. Eyni zamanda bu məlumatlarda əkin sahəsi desyatinlə (1 desyatin 1,092 hektara bərabər yer ölçüsü) göstərilmişdir. Məlumatda ixrac edilən kənd təsərrüfatı məhsulların miqdarı da göstərilmişdir. Onun məlumat verdiyi statistik məlumatlar aşağıdakılardır: **İrəvan qəzasının** dağlıq zonasında əkilən 4502 desyatin buğda sahəsindən 8644 çetvert məhsul, düzənlik zonada əkilən 4579 desyatin buğda sahəsindən isə 8792 çetvert məhsul əldə edilmişdir. Məhsuldarlıq dağlıq zonada 6 dəfə, düzənlik zonada isə 8 dəfə artıq olmuşdur; **Naxçıvan qəzasının** dağlıq zonasında əkilən 11348 desyatin buğda sahəsindən 21788 çetvert, düzənlik zonada əkilən 1718 desyatin buğda sahəsindən isə 3300 çetvert məhsul əldə edilmiş, məhsuldarlıq dağlıq zonada 6 dəfə, düzənlik zonada isə 8 dəfə artıq olmuşdur; **Üçmüəzzin qəzasının** dağlıq zonasında

533 Гугушвили, Сельское хозяство и аграрные, Составил П.В.Гугушвили, Тифлис, 1950, с.675.

əkilən 16285 desyatin buğda sahəsindən 31268 çetvert, düzənlik zonada əkilən 6277 desyatin buğda sahəsindən isə 12052 çetvert məhsul əldə edilmişdir. Məhsuldarlıq dağlıq zonada 6 dəfə, düzənlik zonada isə 8 dəfə artıq idi; **Aleksandropol qəzasının** dağlıq zonasında əkilən 16204 desyatin buğda sahəsindən 31112 çetvert məhsul əldə edilmişdir. Məhsuldarlıq dağlıq zonada 7 dəfə artıq olmuşdur; **Yenibəyazid qəzasının** bütün ərazisində əkilən 24191 desyatin buğda sahəsindən 46448 çetvert məhsul əldə edilmişdir. Məhsuldarlıq 7 dəfə artıq idi. Ümumiyyətlə, 1870-ci ildə İrəvan quberniyasında 1180000 çetvert buğda əldə edilmişdir. Yerli əhalinin tələbatından əlavə 172620 çetvert artıq buğda yığılmışdır ki, bunun da 55012 çetverti ixrac edilmişdir. Yerli bazarda isə bir xalvar buğda 20-22 rubl dəyərində satılmışdır[534].

İrəvan quberniyasında buğdaya nisbətən arpa az əkilmişdi. 1870-ci il statistikasında belə göstərilmişdir: **İrəvan qəzasının** dağlıq zonasında əkilən 2250 desyatin arpa sahəsindən 3462 çetvert, düzənlik zonada əkilən 456 desyatin arpa sahəsindən isə 702 çetvert məhsul əldə edilmişdir; **Naxçıvan qəzasının** dağlıq zonasında əkilən 5632 desyatin arpa sahəsindən 8666 çetvert, düzənlik zonada əkilən 171 desyatin arpa sahəsindən isə 263 çetvert məhsul yığılmışdır; **Üçmüəzzin qəzasının** dağlıq zonasında əkilən 8142 desyatin arpa sahəsindən 12525 çetvert, düzənlik zonada əkilən 783 desyatin arpa sahəsindən isə 1805 çetvert məhsul götürülmüşdür; **Aleksandropol qəzasının** dağlıq zonasında əkilən 10800 desyatin arpa sahəsindən 15615 çetvert, düzənlik zonada isə 1600 desyatin arpa sahəsindən 2461 çetvert məhsul əldə edilmişdir; **Yenibəyazid qəzasının** bütün ərazisində əkilən 14110 desyatin arpa sahəsindən 21708 çetvert məhsul əldə edilmişdir. Bütün quberniya üzrə arpa sahələrində məhsuldarlıq dağlıq zonada 7 dəfə, düzənlik zonada isə 8 dəfə artıq olmuşdur. Ümumiyyətlə, 1870-ci ildə İrəvan quberniyasında 481880 çetvert arpa əldə edilmişdir. Yerli tələbatdan əlavə 68207 çetvert artıq arpa yığılmışdır ki, bunun da 10000 çetverti ixrac edilmişdir.

---

[534] Сборник сведений о Кавказе, 1872, т.II, с.172-173.

Yerlərdə isə arpanın bir xalvarı 11-13 rubla satılmışdır[535].

XIX əsrin 80-ci illərində İrəvan quberniyasında dənli bitkilərin əkinçiliyində artım baş vermişdir. Məsələn, 1882-ci ildə İrəvan quberniyasında 266008 çetvert sahəyə payızlıq və yazlıq buğda əkilmiş, həmin sahələrdən 1327497 çetvert buğda, 67571 çetvert sahəyə arpa əkilmiş və həmin sahələrdən isə 326652 çetvert arpa yığılmışdır[536].

Sonrakı iki ildə əkilən və yığılan buğda və arpanın miqdarını aşağıdakı cədvəldə əyani izləmək mümkündür[537]:

| | 1883-cü ildə | | | 1884-cü ildə | | |
|---|---|---|---|---|---|---|
| taxıl | əkilib | Yığılıb | məhsul-darlıq | əkilib | yığılıb | məhsul-darlıq |
| Payızlıq buğda | 184053 | 104980 | 5,8 | 189190 | 1042684 | 5,5 |
| Yazlıq buğda | 113675 | 587470 | 5 | 129003 | 745535 | 5,6 |
| Arpa | 69825 | 356885 | 5,1 | 78506 | 441762 | 5,6 |

Cədvəldə həm buğda, həm də arpa yığımının quberniya üzrə məhsuldarlığı göstərilmişdir. Lakin qəzalar üzrə buğdanın ən çox məhsuldarlığı İrəvan, Yenibəyazid və Üçmüəzzin qəzalarında (6 dəfə çox), arpa yığımının ən çox məhsuldarlığı isə İrəvan (7 dəfə çox), Şərur-Dərələyəz və Üçmüəzzin qəzalarında (6 dəfə çox) əldə edilmişdir[538].

1888-ci ildə İrəvan quberniyasında taxıl tədarükündə kəskin azalma baş vermişdir. Həmin il 158083 çetvert sahəyə payızlıq buğda əkilmiş, həmin sahələrdən 552309 çetvert buğda, 113828 çetvert sahəyə yazlıq buğda əkilmiş, həmin sahələrdən 391906 çetvert buğda, 98271 çetvert əkilmiş arpa sahəsindən isə 328020 çetvert məhsul əldə edilmişdir. Ümumilikdə, İrəvan quberniyasında əkilən 271911 çetvert buğda sahəsindən

---

[535] Yenə orada, c.173-174.
[536] Обзор Эриванской губернии за 1884 год, Эриван, 1885, с.2.
[537] Обзор Эриванской губернии за 1884 г, с.3.
[538] Yenə orada, c.4.

944215 çetvert buğda yığılmışdır[539]. Əvvəlki illərlə müqayisə etdikdə İrəvan quberniyasında taxıl tədarükündə xeyli geriləmə baş vermişdir. Mənbənin verdiyi məlumata görə, bunun səbəbi yaz və yay aylarında havanın həddindən artıq yağışlı və buludlu olması idi[540].

Lakin XIX əsrin 90-cı illərində taxıl əkinçiliyində xeyli irəliləyiş baş vermişdir. 1890-cı ildə İrəvan quberniyasında 185212 çetvert payızda əkilən buğda sahəsindən 871081 çetvert buğda, yazda əkilən 172576 desyatin buğda sahəsindən 754160 çetvert buğda, 136840 desyatin əkilən arpa sahəsindən isə 648288 çetvert arpa tədarük olunmuşdur. Ümumilikdə, həmin ildə İrəvan quberniyasında 494628 desyatin buğda və arpa sahələrindən 1625241 çetvert buğda, 648288 çetvert arpa yığılmışdır[541].

1891-ci ildə İrəvan quberniyasında 181873 desyatin payızda əkilən buğda sahəsindən 926451 çetvert buğda, yazda əkilən 168652 desyatin buğda sahəsindən 804792 çetvert buğda, 139045 desyatin əkilən arpa sahəsindən isə 649913 çetvert arpa tədarük olunmuşdur. Ümumilikdə, həmin ildə İrəvan quberniyasında 489574 desyatin buğda və arpa sahələrindən 1731243 çetvert buğda, 649913 çetvert arpa yığılmışdır[542]. 1890-cı ilə nisbətən 1891-ci ildə 3339 desyatin payızlıq, 3924 desyatin az yazlıq buğda sahəsi, 2209 desyatin isə çox arpa sahəsi əkilmişdir. Lakin məhsuldarlıq keçən ilə nisbətən çox olmuşdur. Statistik məlumata görə, həmin il 55370 çetvert çox payızlıq buğda, 50632 çetvert çox yazlıq buğda, 1625 çetvert çox arpa yığılmışdır[543].

1892-ci ildə keçən ilkinə nisbətən buğda və arpa az əkilmişdir. Həmin il 151240 çetvert payızlıq buğda sahəsindən 661284 çetvert, yazlıq 213297 çetvert buğda sahəsindən 648206 çetvert, 119899 çetvert arpa sahəsindən isə 381965 çetvert arpa yığılmışdır. Ümumilikdə, həmin ildə 484436 çetvert buğda və ar-

---

[539] Обзор Эриванской губернии за 1888 г., с.11.
[540] Обзор Эриванской губернии за 1888 г., s.13-14.
[541] Памятная книжка Эриванской губернии на 1892, с.110.
[542] Обзор Эриванской губернии за 1891 г., с.1.
[543] Yenə orada, s.2.

pa sahələrindən 1429389 çetvert məhsul əldə edilmişdir[544]. Əgər statistikaya fikir versək, görmək olar ki, əvvəlki illərdə payızlıq buğda əkin sahələri daha çox olmuşdur. Bu il yazlıq buğda əkin sahəsi payızlıq əkin sahəsindən bir qədər çox, lakin məhsul payızlıq buğda tədarükündən az olmuşdur. Hesabat ilində İrəvan quberniyasında yığılan 1284806 çetvert taxıl məhsullarının (buraya buğda və arpadan əlavə, qarğıdalı və s. daxil idi), yəni 69,9 %-i xəzinə torpaqlarının, 615570 çetvert, yəni 31,1 %-i sahibkar torpaqlarının, digər 4 %-i isə xəzinə-sahibkar, xüsusi mülkiyyətçi kəndlilərinin, şəhər əhalisinin və icrədarların payına düşmüşdür. Əldə olunan məhsuldarlıq isə belə idi: xəzinə -sahibkar - 7,5 dəfə artıq; xüsusi mülkiyyətçi kəndlilər - 6,7 dəfə artıq; sahibkarlar - 5,3 dəfə artıq (mülkədar - 5,4, monastrlar - 4,7); xəzinə - 3,3 dəfə çox; icarədarlar - 2,7 dəfə çox[545].

1893-cü ilin hesabatına nəzər saldıqda görmək olar ki, həmin il buğda və arpa əkinçiliyində geriləmə davam etmişdir. Məsələn, 1893-cü ildə 137573 çetvert payızlıq əkin sahəsindən 552905 çetvert buğda, 170197 çetvert yazlıq əkin sahəsindən 390658 çetvert buğda, 86621 çetvert arpa sahəsindən isə 291406 çetvert arpa yığılmışdır. Ümumilikdə, əkilən 394381 çetvert buğda və arpa sahələrindən 1234969 çetvert məhsul tədarük edilmişdir. Bu il də, yazlıq əkin sahəsi çox olmasına baxmayaraq, məhsuldarlıq payızlıq əkilən sahələrindən yığılan məhsuldan az olmuşdur[546]. 1893-cü ildə məhsulun az yığılmasının səbəbu hava şəraitinin qeyri-sabit olması idi. Mənbənin verdiyi məlumata görə, qeyd edilən ildə yazda bol yağışlar yağdığına görə ilk dövrdə məhsul bol olmuş, lakin iyunda havaların quraqlıq keçməsi məhsulun normal yetişməsinin qarşısını almış, məhsul yetişəndə isə güclü cənub küləkləri onu qurudaraq zəiflətmişdir. Təbiət hadisəsindən ən çox əziyyət çəkən Aleksandropol, Yenibəyazid qəzalarının dağlıq əraziləri, Şərur-Dərələyəz qəzasında Dərələyəz sahə-

[544] Обзор Эриванской губернии за 1892 г., таблица 1.
[545] Обзор Эриванской губернии за 1892 г., s.3.
[546] Обзор Эриванской губернии за 1893 г., таблица 1.

si və Üçmüəzzin qəzasında isə Abaran sahəsi olmuşdur[547].

İrəvan quberniyası üzrə 1894-cü ilin hesabatında da buğda və arpa əkinçiliyində və yığımında bir qədər çoxalmanın şahidi oluruq. Həmin il əkilən 122545 çetvet payızlıq əkin sahələrindən 611506 çetvert buğda, yazda əkilən 138602 çetvert sahədən 529382 çetvert buğda, 102551 çetvert arpa sahəsindən isə 485482 çetvert arpa yığılmışdır. Ümumilikdə, İrəvan quberniyasında 1894-cü ildə 363698 çetvert əkin sahələrindən 1626370 çetvert buğda və arpa tədarük edilmişdir[548].

1895-ci ilin hesabatına görə, 126047 çetvert payızıq əkin sahələrindən 775621 çetvert buğda (1894-cü il məhsulundan 3502 çetvert çox buğda), 111413 çetvert yazlıq əkin sahələrindən 560191 çetvert buğda (1894-cü il məhsulundan 27180 çetvert az buğda), 104769 çetvert arpa sahələrindən (1894-cü ilin hesabatından 2218 çetvert çox) isə 613492 çetvert (1894-cü il hesabatından 128010 çetvert çox) arpa tədarük edilmişdir. Ümumilikdə, həmin il İrəvan quberniyasında 342229 çetvert buğda və arpa əkin sahələrindən 1949304 çetvert məhsul yığılmışdır. Məhsuldarlıq payızlıq buğda əkinində 6,2 dəfə, yazlıq buğda əkinində 5 dəfə, arpa əkinçiliyində isə 5,2 dəfə çox olmuşdur[549].

1896-ci ilin hesabatına görə, 137916 çetvert payızlıq əkin sahələrindən (1895-ci ildən 11869 çetvert çox) 765242 çetvert buğda (1895-ci il məhsulundan 10380 çetvert az buğda), 162148 çetvert yazlıq əkin sahələrindən (1895-ci ildən 50735 çetvert çox) 606313 çetvert buğda (1895-ci il məhsulundan 46122 çetvert çox buğda), 133957 çetvert arpa sahələrindən (1895-ci ilin hesabatından 29188 çetvert çox) isə 676550 çetvert (1895-ci il hesabatından 63058 çetvert çox) arpa tədarük edilmişdir. Ümumilikdə, həmin il İrəvan quberniyasında 434071 çetvert buğda və arpa əkin sahələrindən 2048104 çetvert məhsul yığılmışdır[550].

---

547 Yenə orada, c.2.

548 Обзор Эриванской губернии за 1894 г., таблица 1.

549 Обзор Эриванской губернии за 1895 г., s.1.

550 Обзор Эриванской губернии за 1896 г., c.1.

1897-ci ildə taxıl yığımında yenidən azalma müşahidə olunmuşdur. Həmin ilin hesabatına görə, 141035 çetvert payızlıq əkin sahələrindən (1896-cı ildən 3119 çetvert çox) 536940 çetvert buğda (1896-cı il məhsulundan 228292 çetvert az buğda), 116872 çetvert yazlıq əkin sahələrindən (1896-cı il məhsulundan 45276 çetvert az) 360999 çetvert buğda (1896-cı il məhsulundan 245314 çetvert az  buğda), 91175 çetvert arpa sahələrindən (1896-cı ilin hesabatından 42782 çetvert az) isə 328547 çetvert (1896-cı il hesabatından 348003 çetvert az) arpa tədarük edilmişdir. Ümumilikdə, həmin il İrəvan quberniyasında 349082 çetvert buğda və arpa əkin sahələrindən 1226495 çetvert məhsul yığılmışdır. Payızlıq buğda yığımında məhsuldarlıq 3,8 dəfə, yazlıq buğda yığımında 3,1 dəfə, arpa yığımında isə məhsuldarlıq 3,6 dəfə çox olmuşdur. 1897-ci ildə taxıl məhsullarının keçən ilə nisbətən az olmasının səbəbi dağlıq ərazilərdə sərt qışın, yazda isə havaların həddindən artıq yağışlı olmasında idi. Bundan əlavə, İrəvan quberniyasında qeyd edilən ildə 40,6 % payızlıq az buğda, 51,4 % isə az arpa tədarük edilmişdir[551].

1898-ci ildə də taxıl əkin sahələrində azalma olsa da, məhsuldarlıq çox olmuşdur. Həmin ilin hesabatına görə, 136781 çetvert payızlıq əkin sahələrindən  677706 çetvert buğda, 122109 çetvert yazlıq əkin sahələrindən 538506 çetvert buğda, 83734 çetvert arpa sahələrindən isə 670614 çetvert arpa tədarük edilmişdir. Ümumilikdə, həmin il İrəvan quberniyasında 342624 çetvert buğda və arpa əkin sahələrindən 1886826 çetvert məhsul yığılmışdır. Payızlıq buğda yığımında məhsuldarlıq əkiləndən 4,9 dəfə, yaz buğda yığımında 5,2 dəfə, arpa yığmında isə məhsuldarlıq 8,0 dəfə çox olmuşdur[552].

1899-cu ilin hesabatında arpa və yazlıq buğda tədarükündə azalma müşahidə olunmuşdur. Bu ildə əkilən 138799 çetvert payızlıq sahələrdən 672085 çetvert buğda, 130547 çetvert yazlıq

---

[551] Обзор Эриванской губернии за 1897 г., с.1; Сборник стастический данных в 5-и губерниях, с.94.

[552] Обзор Эриванской губернии за 1898 г., таблица 1.

əkin sahələrindən 423296 çetvert buğda, 83803 çetvert əkilən arpa sahələrindən isə 268021 çetvert arpa yığılmışdır. Ümumilikdə, həmin il İrəvan quberniyasında 353149 çetvert əkilən buğda və arpa sahələrindən 1363402 çetvert məhsul yığılmışdır. Məhsuldarlıq payızlıq buğda yığımında 4,4 dəfə, yazlıq buğda yığımında 3,3 dəfə, arpa yığımında isə 3,2 dəfə çox olmuşdur[553].

İrəvan quberniyasında dənli bitkilərlə bağlı statistik məlumatlar XX yüzilliyin əvvəllərində də qeydə alınmışdır. Aşağıdakı cədvəldə 1900-cü ildə İrəvan quberniyasında əyani olaraq ayrı-ayrılıqda qəzalar üzrə buğda əkini, biçini və əldə edilən məhsulun ümumi məbləği haqqında rəqəmləri aydın görmək mümkündür[554]:

| Qəzalar | Əkilib (desyatinlə) | Məhsul (çetvertlə) | Ümumi məbləğ | %-lə nisbət |
|---|---|---|---|---|
| İrəvan | 14880 | 191880 | 1535000 | 13,3 |
| Naxçıvan | 24500 | 257000 | 1645000 | 13,2 |
| Sürməli | 13756 | 154611 | 1237000 | 9,8 |
| Şərur-Dərələyəz | 21223 | 269195 | 1507000 | 12 |
| Yenibəyazid | 35450 | 283800 | 2270000 | 18,6 |
| Aleksandropol | 21183 | 150560 | 1204000 | 9,6 |
| Üçmüəzzin | 35162 | 478678 | 3064000 | 24,5 |
| Yekun | 166154 | 1785724 | 12462000 | 100 % |

Həmin il arpa yığımı isə belə olmuşdur[555]:

| Qəzalar | Əkilib (desyatinlə) | Məhsul (çetvertlə) | Ümumi məbləğ | %-lə nisbət |
|---|---|---|---|---|
| İrəvan | 2128 | 24875 | 80000 | 4,6 |
| Naxçıvan | 4000 | 40000 | 192000 | 11 |
| Sürməli | 4620 | 40661 | 195000 | 11,2 |
| Şərur-Dərələyəz | 3785 | 25995 | 83000 | 4,7 |
| Yenibəyazid | 22750 | 182000 | 582000 | 33,3 |
| Aleksandropol | 15455 | 128941 | 413000 | 23,6 |
| Üçmüəzzin | 5848 | 63362 | 203000 | 11,6 |
| Yekun | 58586 | 505834 | 1748000 | 100 % |

[553] Обзор Эриванской губернии за 1899 г., таблица 1.
[554]Памятная книжка Эриванской губернии на 1902, отдел III, с.100.
[555] Yenə orada.

Cədvəldən göründüyü kimi, 1900-cü ildə İrəvan quberniyasında 224740 desyatin əkilən buğda və arpa sahələrindən ümumi məbləği 14210000 rubl olan 2291558 çetvert məhsul yığılmışdır. Məhsuldarlıq payızlıq buğda yığımında məhsuldarlıq 6,4 dəfə, yazlıq buğda yığımında 4,2 dəfə, arpa yığımında isə 4,4 dəfə çox olmuşdur[556].

1901-ci ilin illik hesabatında İrəvan quberniyasında əkilən 168027 çetvert payızlıq buğda sahələrindən 797090 çetvert, 178306 çetvert əkilən yazlıq buğda sahələrindən 785959 çetvert buğda, 110937 çetvert əkilən arpa sahələrindən isə 513349 çetvert arpa yığılmışdır. Ümumilikdə, həmin il İrəvan quberniyasında 457270 çetvert əkilən buğda və arpa sahələrindən 2096398 çetvert məhsul yığılmışdır. Həmin il 1900-cü ilə nisbətən məhsul az olmuşdur. Məhsuldarlıq isə payızlıq buğda yığımında 4,7 dəfə, yazlıq buğda yığımında 4,4 dəfə, arpa yığımında isə 4,6 dəfə çox olmuşdur[557].

1902-ci ilin illik hesabatına görə, əkilən 156213 çetvert payızlıq buğda sahələrindən 866530 çetvert, 177086 çetvert əkilən yazlıq buğda sahələrindən 819168 çetvert buğda, 118450 çetvert əkilən arpa sahələrindən isə 618110 çetvert arpa yığılmışdır. Ümumilikdə, həmin il İrəvan quberniyasında 451749 çetvert əkilən buğda və arpa sahələrindən 2303808 çetvert məhsul yığılmışdır[558].

1903-cü il illik hesabatda taxıl əkinçiliyində məhsuldarlıq müşahidə olunmuşdur. Həmin il əkilən 1317023 pud payızlıq buğda sahələrindən 6324735 pud, 988333 pud əkilən yazlıq buğda sahələrindən 4827460 pud buğda, 803137 pud əkilən arpa sahələrindən isə 3063240 desyatin arpa yığılmışdır. Ümumilikdə, 1903-cü ildə İrəvan quberniyasında 1923193 pud əkilən buğda və arpa sahələrindən 14215436 pud məhsul yığılmışdır[559].

---

[556] Обзор Эриванской губернии за 1900 г., таблица 1.
[557] Обзор Эриванской губернии за 1901 г., таблица 1.
[558] Обзор Эриванской губернии за 1902 г., таблица 1.
[559] Обзор Эриванской губернии за 1903 г., таблица 1.

1904-cü ildə ümumilikdə 301029 desyatin sahəyə taxıl bitkiləri əkilmişdir. Bu da 1903-cü ildə əkilən sahələrdən 0,3 $^0/_0$ az idi. Əsasən, İrəvan, Sürməli, Şərur-Dərələyəz, Naxçıvan və Yenibəyazid qəzalarında əkilən taxıl məhsullarının sahəsi azalmışdı. Buna səbəb yaxşı gəlir gətirdiyinə görə, yerli əhalinin pambıq əkininə daha çox diqqət verməsi idi. Pambıq əkin sahələri taxıl sahələri hesabına artırılmışdı. Digər tərəfdən, yazın soyuq, yayın isə isti və quraqlıq keçməsi də taxıl yığımına təsir göstərmişdi[560]. Aşağıdakı cədvəldə bunu əyani görmək olar[561]:

| Qəzalar | Əkilib | Biçilib | 1904-cü ildə məhsuldarlıq % | 1903-cü ildə məhsuldarlıq % |
|---|---|---|---|---|
| İrəvan | 477044 | 1600336 | 3,3 | 4,6 |
| Sürməli | 260613 | 1439193 | 5,5 | 5,0 |
| Naxçıvan | 400085 | 1600435 | 4,0 | 3,8 |
| Şərur-Dərələyəz | 249608 | 1073736 | 4,3 | 5,2 |
| Yenibəyazid | 648020 | 2492080 | 3,9 | 4,0 |
| Aleksandropol | 652168 | 3485520 | 5,3 | 5,9 |
| Üçmüəzzin | 467555 | 1528540 | 3,3 | 6,5 |
| Yekun | 3150093 | 13169840 | 4,2 | 5,0 |

Cədvəldən göründüyü kimi, İrəvan, Şərur-Dərələyəz, Üçmüəzzin və Aleksandropol qəzalarında məhsul az, Naxçıvan, Yenibəyazid və Sürməli qəzalarında isə nisbətən məhsul bol olmuşdur.

1906-cı ildə İrəvan quberniyasında buğda və arpa tədarükündə artımın olduğunu görürük. Hesabat ilində əkilən 1376638 pud payızlıq buğda sahələrindən 5145113 pud, 1005221 pud əkilən yazlıq buğda sahələrindən 2856647 pud buğda, 835288 pud əkilən arpa sahələrindən isə 2773226 desyatin arpa yığılmışdır. Ümumilikdə, 1906-cı ildə İrəvan quberniyasında 3217147 pud

---

560 Обзор Эриванской губернии за 1904 г., с.3.
561 Yenı orada, s.3-4.

əkilən buğda və arpa sahələrindən 10774986 pud məhsul yığılmışdır[562].

1907-ci ildə İrəvan quberniyasında əvvəlki ilə nisbətən buğda və arpa əkini zəif olmuşdur. Bunun bir neçə səbəbi vardır. Bu səbəblərdən biri erməni-Azərbaycan türkləri arasında baş vermiş qarşıdurma, digər səbəbi isə təbii fəlakət idi. İrəvan, Yenibəyazid, Şərur-Dərələyəz, Naxçıvan və Üçmüəzzin qəzalarının dağlıq ərazilərinin bir hissəsi quraqlıqdan, bir hissəsi siçanlardan, yaxud gəmiricilərdən, digər hissəsi isə yağış və şaxtalardan əziyyət çəkmişdir. Yalnız Sürməli qəzasında dənli bitkilər nisbətən çox əldə edilmişdir. 1907-ci ildə əkilən 1137604 pud payızlıq buğda sahələrindən 4157616 pud, 991709 pud əkilən yazlıq buğda sahələrindən 2666148 pud buğda, 685685 pud əkilən arpa sahələrindən isə 2004181 desyatin arpa yığılmışdır. Ümumilikdə, 1907-ci ildə İrəvan quberniyasında 2814998 pud əkilən buğda və arpa sahələrindən 8827945 pud məhsul yığılmışdır[563].

1907-ci ilə nisbətən 1908-ci ildə də taxıl əkilən sahələr xeyli ixtisar olunmuşdur. 1908-ci ildə əkilən 1020454 pud payızlıq buğda sahələrindən 3921133 pud, 1034388 pud əkilən yazlıq buğda sahələrindən 2934842 pud buğda, 631938 pud əkilən arpa sahələrindən isə 2118902 desyatin arpa yığılmışdır. Ümumilikdə, 1908-ci ildə İrəvan quberniyasında 268680 pud əkilən buğda və arpa sahələrindən 8974877 pud məhsul yığılmışdır. Rəqəmlərdən görmək olar ki, əkin sahələrində ixtisar olsa da, məhsuldarlıq keçənilkinə nisbətən bir qədər çox olmuşdur[564].

1909-cu ildə isə İrəvan quberniyasında taxıl əkilən sahələr əhəmiyyətli dərəcədə artmış, nəticədə 1908-ci ilə nisbətən çox məhsul əldə edilmişdir. Həmin il əkilən 1151550 pud payızlıq buğda sahələrindən 5252459 pud, 956616 pud əkilən yazlıq buğda sahələrindən 3384465 pud buğda, 905487 pud əkilən arpa sa-

---

[562] Обзор Эриванской губернии за 1907 г., таблица 1.
[563] Обзор Эриванской губернии за 1907 г., таблица 1.
[564] Обзор Эриванской губернии за 1908 г., с.20-21.

hələrindən isə 4022807 pud arpa yığılmışdır. Ümumilikdə, 1909-cu ildə İrəvan quberniyasında 3013653 pud əkilən buğda və arpa sahələrindən 12659701 pud məhsul yığılmışdır[565].

1910-cu ilin ilk hesabatında İrəvan quberniyasında əkilən 773630 pud payızlıq buğda sahələrindən 4090910 pud, 1087474 pud əkilən yazlıq buğda sahələrindən 3581386 pud buğda, 902282 pud əkilən arpa sahələrindən isə 4175043 pud arpa yığılmışdır. Ümumilikdə, 1910-cu ildə İrəvan quberniyasında əkilən 2753386 pud buğda və arpa sahələrindən 11847339 pud məhsul yığılmışdır[566].

1913-cü ildə əkin sahələrində artım olsa da, məhsuldarlıq aşağı olmuşdur. 1913-cü ilin ilk hesabatında İrəvan quberniyasında əkilən 890987 pud payızlıq buğda sahələrindən 3975171 pud, 1602384 pud əkilən yazlıq buğda sahələrindən 3383956 pud buğda, 1052073 pud əkilən arpa sahələrindən isə 2757833 pud arpa yığılmışdır. Ümumilikdə, 1910-cu ildə İrəvan quberniyasında əkilən 3545444 pud buğda və arpa sahələrindən 10116960 pud məhsul yığılmışdır[567].

1913-cü ilin hesabatında qeyd edilir ki, məhsul tədarükü az olduğundan Aleksandropol, Yenibəyazid qəzalarının, İrəvan və Üçmüəzzin qəzalarının dağlıq zonasının əhalisi kömək üçün quberniya inzibati idarələrinə xahişlə müraciət etmişdilər. 1914-cü ilin əvvəllərində onlara yardım olunmuşdur[568].

1914-cü ildə əkin sahələri 1913-cü ilə nisbətən cəmi 1,6 $^0/_0$ artmasına baxmayaraq, məhsuldarlıq çox olmuşdur. Bu artım pambıq sahələrinin ixtisarı nəticəsində olmuş, əhali keçən ilki itkinin yerini doldura bilmişdilər. Bunu aşağıdakı cədvəldə əyani izləmək mümkündür[569]:

---

565 Обзор Эриванской губернии за 1909 г., с.20-21.
566 Обзор Эриванской губернии за 1910 г., с.20-21.
567 Обзор Эриванской губернии за 1913 г., с.28-29.
568 Обзор Эриванской губернии за 1913 г., с.3.
569Обзор Эриванской губернии за 1914 г, с.3.

| Qəzalar | Əkilib (pudla) | Biçilib | 1914-cü il | 1913-cü il |
|---|---|---|---|---|
| İrəvan, şəhərlə birlikdə | 481787 | 2869640 | 5,9 | 3,3 |
| Sürməli | 213747 | 1678075 | 7,8 | 3,6 |
| Naxçıvan, iki şəhərlə birlikdə | 362248 | 2601815 | 7,2 | 5,2 |
| Şərur-Dərələyəz | 216726 | 1566524 | 7,2 | 4,3 |
| Yenibəyazid, şəhərlə birlikdə | 926876 | 3113892 | 3,4 | 2,1 |
| Aleksandropol, şəhərlə bilikdə | 714675 | 3072068 | 4,3 | 1,9 |
| Üçmüəzzin | 496580 | 2260576 | 4,5 | 2,8 |
| Yekun | 3412639 | 17172590 | 5,1 | 2,8 |

1914-cü il statistik məlumatına görə, 1913-cü ildə (2,8 dəfə) müqayisədə məhsuldarlıq 5,1 dəfə, əkin sahəsi isə 4814 desyatin, yəni 1,6 $^{0}/_{0}$ artıq olmuşdur[570].

Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan quberniyasında da torpaq ibtidai alətlərlə şumlanır və biçilirdi. İrəvanlıların şumlama zamanı istifadə etdikləri ən qədim kənd təsərrüfatı alətlərdən biri kotan idi. Həm ağacdan, həm də dəmirdən ibarət olan kotanlar çox ağır idi (20-30 pud) və onu hərəkətə gətirmək üçün 6-8 cüt öküz və 3-4 adam lazım olurdu. Bu kotanla əsasən, payızda bərk və gil torpağı şumlayırdılar. O, 6-8 verşok (1 verşok 4,4 cm-ə bərabər) dərinliyində şum açırdı. Bütün gün ərzində kotanla əhali bir neçə yarım desyatin sahəni şumlayırdılar. Qeyd etmək lazımdır ki, çox az təsərrüfatçının kifayət qədər öküzü olurdu. Bu da ona imkan verirdi ki, öz sahəsini ağır kotanla şumlaya bilsin. Əksəriyyət torpaqlar qonşuların şərikli köməyi ilə şumlanırdı[571].

Digər əkin aləti cüt olmuşdu. Cüt kotana nisbətən yüngül

---

570 Обзор Эриванской губернии за 1914 г., с.3.
571 Сборник сведений о Кавказе, 1872, т.II, с.170-171; Обзор Эриванской губернии за 1903 г., с.3-4.

idi. Onu hərəkətə gətirmək üçün bir və ya iki öküz lazım gəlirdi. Cütlə adətən yaz əkinində istifadə edilirdi. O, torpaqda 2-3 verşok dərinliyində şırım açırdı. Bu alətlə gündə bir neçə desyatin sahə şumlanırdı. Qeyd etmək lazımdır ki, torpağı şumlamaq üçün muzdlu işçi götürülürdü. Əvvəllər muzdlu işçinin əmək haqqı kotanla bir desyatin şumlanmış sahə üçün 4-5 rubla, cütlə şumlanmış bir desyatin isə 2-2 rubl 50 qəpiyə başa gəlirdi[572].

XIX yüzilliyin 80-ci illərindən Cənubi Qafqazın kənd təsərrüfatına Avropadan gətirilmiş təkmilləşdirilmiş kotanlar daxil olmağa başladı. Xüsusilə alman istehsalı olan belə təkmilləşdirilmiş kotanlar ilk əvvəllər Cənubi Qafqazın müxtəlif bölgələrində təcrübə kimi nümayiş etdirilməyə başlamışdı. Bu iş "Qafqaz kənd təsərrüfatı cəmiyyəti"nin Cənubi Qafqazın müxtəlif yerlərində təşkil etdiyi xüsusi komissiya tərəfindən həyata keçirilirdi[573]. Avropdan gətirilmiş belə kotanların üstünlüyü ondan ibarət idi ki, bu kotanlar yüngül idi, onları idarə etmək üçün az qoşqu heyvanı tələb olunurdu və torpağı daha keyfiyyətli şumlayırdı. Məsələn, əgər yerli kotanları idarə etmək üçün 8-9 cüt və ya daha çox heyvan lazım olurdusa, Almaniyadan gətirilmiş "Sakka" tipli kotanları idarə etmək üçün isə 3-4 cüt heyvan tələb olunurdu. Bundan əlavə, təkmilləşdirilmiş kotanlarla yeri şumlamaq tez başa gəlirdi[574]. Lakin yerli kotanların üstünlüyü ondan ibarət idi ki, əgər Avropa tipli kotanlar torpağı 7-8 verşok (4,4 sm-ya bərabər uzunluq ölçüsü) dərininə şumlayırdısa, yerli kotanlarda bu 10-12 verşok olurdu[575].

1884-cü ildə İrəvan şəhəri ətrafında Avropa istehsalı olan kotanlar sınaqdan keçirilmişdi. Bu kotanlar kəndlilərin o qədər xoşuna gəlmişdi ki, onlar belə kotanları almaq arzusunda olduqlarını bildirmişdilər. Lakin komissiya belə kotanların az olduğu-

---

572 Сборник сведений о Кавказе, 1872, т.II, с.170-171.

573 Гугушвили П., Развитие сельского хозяйства в Грузии и Закавказье в XIX-XX вв., Тблиси изд-во «Мецниереба», с.110-111.

574 Заваров С., Опыт исследования сельского хозяйства хлебородного района Эриванской и Карсской области, с.352.

575 Yenə orada, s.189.

nu bildirmişdi[576].

Lakin "Qafqaz kənd təsərrüfatı cəmiyyəti" yerlərdə maşın istehsalı üçün kənd təsərrüfatı alətləri istehsal edən xüsusi emalatxanalar təşkil edirdi. 1900-cü ildə İrəvan quberniyasında İrəvan, Yenibəyazid və Aleksandropol qəzalarında belə kiçik emalatxanalar fəaliyyət göstərmişdir. Xüsusilə, 1906-cı ildə Uluxanlı-Culfa dəmiryolunun açılması, təkmilləşdirilmiş kənd təsərrüfatı alətlərinin idxalına səbəb olmuşdu[577].

1901-1908-ci illər məlumatına görə, İrəvan quberniyasına aşağıdakı sayda kənd təsərrüfatı alətləri gətirilmişdir: 1901-ci ildə - 4333 ədəd; 1902-ci ildə - 7086 ədəd; 1903-cü ildə - 14961 ədəd; 1906-cü ildə - 5433 ədəd; 1907-cü ildə - 6351 ədəd; 1908-ci ildə - 10022 ədəd [578].

İrəvan quberniyasına gətirilən kənd təsərrüfatı alətləri baha olduğu üçün yerli kəndlilərin əsas hissəsi onu ala bilmirdi. Satılan alətlər baha idi. Torpaq və Dövlət Əmlakı idarəsinin rəisi 1912-ci ildə məlumat vermişdi ki, gətirilən kənd təsərrüfatı alətləri kəndlilərə dəyərindən 35-40 faiz, bəzi hallarda 50 faiz baha başa gəlirdi[579]. Digər tərəfdən, yeni olduğundan yerli əhali ilk dövrlərdə mükəmməl alətləri işlədə bilmirdilər. Buna görə də, Avropa tipli kotanlar İrəvan quberniyasının kənd təsərrüfatında bir o qədər rol oynamadı. Mükəmməl alətlər yalnız rus təriqətçiləri arasında geniş yayılmışdı[580]. Əsərində bu məsələyə geniş toxunan M.Vəlili yazırdı ki, "mükəmməl kənd təsərrüfatı alətlərini rus, ukrayna və alman kolonistlərində görmək olur. Rus, Ukrayna kolonistləri haqqında Çar Rusiyası daim düşünürdü. Çar hökuməti bu kolonistləri bu kimi alətlər tərəfindən ya təmin edirdi və ya faizsiz, çox zaman geri almadan maddi müavinət də bulur-

---

569 Гугушвили П., Развитие сельского хозяйства в Грузии и Закавказье в XIX-XX вв., с.112-113.

[577] Yenə orada, s.145.

[578] Гугушвили П., Развитие сельского хозяйства в Грузии и Закавказье в XIX-XX вв., с.160.

[579]Yene orada, с.146.

[580] Обзор Эриванской губернии за 1893 г., с.4.

du ki, belə alətləri əldə etsinlər. Almanların bu qisim alətlərdən istifadə etmələri sırf mədəni tərəqqiləri, istedadları və ciddi zəhmətlərinin nəticəsidir... Təkmil edilmiş kənd təsərrüfatı alətlərinin faydası və təsərrüfatda onlardan istifadə etmək təşəbbüsləri Azərbaycan türk kəndliləri tərəfindən də təqdir edilməkdə idi. Fəqət onlar maddi cəhətdən təmin olunmadıqları üçün və eyni zamanda mədəniyyətcə (savadca-E.Q) aşağıda olduqlarından öz arzularını əmələ gətirə bilmədilər. Rusiyanın çar hökuməti nəinki türk kəndlilərini maddi cəhətdən təmin etmək və maariflərinə çalışmaq istəyirdi, bəlkə bilərəkdən siyasi-nöqteyi nəzərdən onları boğub, cəhalətdə və iqtisadi əsarət altında bulundurmaq istəyirdi. Ancaq varlı əkinçilər, xüsusən mülkədarlar bu kimi alətlər əldə edə bilmişdilər, o da məhdud bir miqdarda olurdu”[581].

Məhsul əkiləndən sonra dırmıqdan istifadə olunurdu. Dırmıq 0,5 arşın uzunluğunda ağac dişləri olan ağacdan və yaxud 3 və daha çox arşın uzunluğunda 12 uzun dişləri olan qalın lövhədən ibarət idi. O, bir cüt kəllə hərəkətə gətirilirdi. Cütü idarə edən adam bu lövhənin üzərində dayanırdı. Bundan əlavə, dik vəziyyətdə tir bərkidilmiş daha yüngül ağac budaqlarından və yaxud çubuqlardan ibarət dırmıqlara, özü ağacdan, dişləri isə dəmirdən olan dırmıqlara da rast gəlmək olardı. Bir desyatin torpağı dırmıqlamaq üçün hər bir işçiyə 50 qəpikdən 1 rubla qədər haqq verilirdi. Əkin zamanı digər işlərdə isə işçinin əmək haqqı 30-50 qəpiyə qiymətləndirilirdi[582].

1914-cü il məlumtında isə bir desyatin torpağı şumlaması, dırmıqlanması, səpilməsi və suvarılması üçün muzdlu işçinin aldığı əmək haqqı qəzalar üzrə ətraflı göstərilmişdir. Aşağıdakı cədvəldə bunu əyani görmək olar[583]:

---

[581] Vəlili M., Azərbaycan, coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat, s.79-80.

[582] Сборник свидений о Кавказе, 1872, т. II, с.170-171; Обзор Эриванской губернии за 1893 г., с.4; Памятная книжка Эриванской губернии на 1914, отдел III, с.183.

[583] Памятная книжка Эриванской губернии на 1914, отдел III, с.30-31.

| Qəzalar | əhsulun adı | Müxtəlif məhsullar əkilmiş bir desyatin torpağın becərilməsi (rublla) | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Şumlama | | Dırmıqlama | Ləklərin suvarılması üçün qurğu | Kəllə torpağın tapdalanması | Səpin | Səpinin hamarlanması | Suvarma |
| | | Cütlə | Kotanla | | | | | | |
| İrəvan | Payızlıq buğda | 10 | 15 | 2 | 1 | - | 1 | - | 2 |
| | Yazlıq buğda | 10 | - | 2 | 1 | - | 1 | - | 1 |
| | Arpa | 10 | - | 2 | 1 | - | 1 | - | 1 |
| Naxçıvan | Payızlıq buğda | 6 | - | 2 | 0,8 | - | 0,5 | 1,2 | 3 |
| | Yazlıq buğda | 6 | - | 2 | 0,8 | - | 0,5 | 1,2 | 3 |
| | Arpa | 6 | - | 2 | 0,8 | - | 0,5 | 1,2 | 3 |
| Sürməli | Payızlıq buğda | - | 8,9 | 0,5 | 1,6 | - | 0,4 | 2 | |
| | Yazlıq buğda | 4,4 | - | 0,5 | 1,2 | - | 0,3 | 2 | |
| | Arpa | 4,4 | - | 0,5 | 1,2 | - | 0,3 | 2 | |
| Ş.Dərələyəz | Payızlıq buğda | 14 | - | 4 | - | - | 1 | - | 4 |
| | Yazlıq buğda | 12 | - | 3 | - | - | 1 | - | 3 |
| | Arpa | - | - | - | - | - | - | - | - |
| Yenibəyazid | Payızlıq buğda | 3,5 | 9 | 1 | - | - | 0,3 | - | 2 |
| | Yazlıq buğda | 4 | 9,5 | 1 | - | - | 0,3 | - | 2 |
| | Arpa | 4 | 9,5 | 1 | - | - | 0,3 | - | 2 |
| Aleksandropol | Payızlıq buğda | - | - | - | - | - | - | - | - |
| | Yazlıq buğda | - | 0,9 | 1 | 1 | - | 0,25 | - | - |
| | Arpa | - | 0,9 | 1 | 1 | - | 0,25 | - | - |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Üçmüəzzin | Payızlıq buğda<br>Yazlıq buğda<br>Arpa | 9<br>9<br>9 | 15<br>15<br>15 | 2<br>2<br>2 | 2<br>2<br>2 | -<br>-<br>- | 0,9<br>0,9<br>0,9 | -<br>-<br>- | 3<br>3<br>3 |

İrəvan quberniyasında əsasən düzənlik zonalarda məhsul əkiləndən sonra sahibkarın əsas işi məhsulu sulamaq və onu alaq otundan təmizləmək idi. Bu yorucu iş əllə və yaxud alağın çox olduğu yerlərdə ağac bellə yerinə yetirilirdi.

İrəvanlılar məhsul yığımında da müxtəlif alətlərdən istifadə edirdilər. Taxıl məhsulları oraqla, yonca, ot dəryazla biçilir, pambıq isə əllə yığılırdı. Taxıl yığıldıqdan sonra müxtəlif üsulla təmizlənirdi. Taxılı döymək üçün iki alət mövcud idi. Birinci alət "kam" adlanırdı. Bu qalın lövhə və yaxud eni 1,5 arşın (1 arşın-96,4 sm), uzunu 2,5 arşın olan bir yerə quraşdırılmış iki lövhədən ibarət idi. Bu lövhənin bir qurtaracağı daima yığılır, sonra itilənmiş halda yuxarı dartılırdı. Onun yuxarı hissəsində əks tərəfində çaxmaqdaşından daş olurdu. Onun üstündə adam oturaraq daşla aşağı yönəldilmiş lövhəni bir neçə cüt kəllə hərəkətə gətirilərək taxıldöyən vəzifəsini yerinə yetirirdi. Belə döymə zamanı məhsul samana çevrilir, dən isə ondan ayrılaraq torpağa düşürdü. Digər taxıldöyən "car-car" adlanırdı. O, diametri 3 verşok olan, yuxarı hissəsinə dəmir bel quraşdırılmış ağacdan ibarət idi. Onun ucu balta formasında olurdu[584].

1912-cü il məlumatında İrəvan quberniyasında qəzalarda kənd təsərrüfatında istifadə olunan müxtəlif alətlərin adları və miqdarı haqqında ətraflı məlumat verilmişdir. Aşağıdakı cədvəldə bunu əyani izləmək olar[585]:

---

[584] Сборник свидений о Кавказе, 1872, т. II, с.170-171; Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1896, выпуск 21, с.120; Обзор Эриванской губернии за 1893 г., с.4.

[585]Памятная книжка Эриванской губернии на 1914, отдел III, с.183-184.

| Qəza və kənd, şöbələr | cüt | Ağac kotanlar | Dəmir kotanlar | Ağac sipər | Dəmir dişli ağac sipərlər | Dənsovuran maşın | Atla işləyən dırmıq | Otçalan | Biçin maşnları | Alaqvuran | Toxumsəpən maşın |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **İrəvan** | | | | | | | | | | | |
| Birinci şöbə | 4230 | 187 | 1155 | 2159 | 233 | 536 | - | - | - | - | - |
| İkinci şöbə | 704 | 98 | 119 | 420 | 6 | 193 | 1 | 44 | - | 6 | 4 |
| Üçüncü şöbə | 3506 | 95 | 56 | 571 | - | 350 | - | - | - | - | - |
| Yekun | 8440 | 380 | 1327 | 3150 | 239 | 1079 | 1 | 44 | - | 6 | 4 |
| **Naxçıvan** | | | | | | | | | | | |
| Birinci şöbə | 664 | - | 201 | 640 | - | 47 | - | - | - | - | - |
| İkinci şöbə | 1348 | - | 100 | 365 | - | 18 | - | - | - | - | - |
| Üçüncü şöbə | 761 | - | 2 | 454 | 3 | 802 | - | - | - | - | - |
| Dördüncü şöbə | 1708 | 59 | 262 | 1077 | 5 | 24 | - | - | 1 | - | - |
| Yekun | 4471 | 59 | 565 | 2536 | 8 | 891 | - | - | 1 | - | - |
| **Sürməli** | | | | | | | | | | | |
| Birinci şöbə | 617 | 2 | 142 | 432 | 1 | 123 | 185 | - | - | - | - |
| İkinci şöbə | 1079 | 60 | 169 | 498 | 1 | 223 | - | - | - | 8 | - |
| Üçüncü şöbə | 1888 | - | 13 | 489 | - | 692 | - | - | - | - | - |
| Yekun | 3584 | 62 | 324 | 1419 | 2 | 1038 | 185 | - | - | 8 | - |
| **Şərur-Dərələyəz** | | | | | | | | | | | |
| Birinci şöbə | 1097 | - | 54 | 527 | - | 122 | - | - | - | - | - |
| İkinci şöbə | 1621 | 26 | 32 | 1083 | - | 35 | - | - | - | - | - |
| Üçüncü şöbə | 2010 | 60 | 515 | 730 | 15 | 20 | - | - | - | - | - |
| Yekun | 4728 | 86 | 601 | 2340 | 15 | 177 | - | - | - | - | - |
| **Yenibəyazid** | | | | | | | | | | | |
| Birinci şöbə | 3908 | 121 | 1725 | 1551 | 2021 | 259 | 28 | 24 | 5 | - | 1 |
| İkinci şöbə | 8465 | 576 | 694 | 3552 | 116 | 78 | - | - | - | - | - |
| Yekun | 12373 | 697 | 2419 | 5103 | 2137 | 337 | 28 | 24 | 5 | - | 1 |
| **Aleksandropol** | | | | | | | | | | | |
| Birinci şöbə | 8487 | 3322 | 449 | 1976 | 509 | 571 | - | - | - | - | - |
| İkinci şöbə | 11764 | 369 | 277 | 1583 | 185 | 828 | - | - | - | - | - |
| Yekun | 20251 | 4290 | 726 | 3559 | 694 | 1399 | - | - | - | - | - |
| **Üçmüəzzin** | | | | | | | | | | | |
| Birinci şöbə | 1323 | 15 | 291 | 984 | - | 303 | - | - | - | - | - |
| İkinci şöbə | 3714 | 68 | 224 | 1907 | - | 187 | 31 | - | - | 52 | - |
| Üçüncü şöbə | 3762 | 15 | 16 | 1383 | 5 | 368 | - | - | - | - | - |
| Dördüncü şöbə | 154 | - | 39 | 106 | - | 73 | - | - | - | - | - |
| Yekun | 8953 | 98 | 570 | 4380 | 5 | 931 | 31 | - | - | 52 | - |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Bütün Quberniyada** | 62800 | 5672 | 6532 | 22487 | 3100 | 5852 | 245 | 68 | 6 | 66 | 10 |

İrəvan quberniyasında torpaqdan istifadə qaydalarında da bir qanunauyğunluq mövcud olmuşdur. Belə ki, əkin sahələrinin müəyyən hissəsi hər il dincə qoyulurdu. Bu həm dağlıq, həm də düzənlik ərazilərdə olan əkin sahələrinə aid idi. Torpaq bir və yaxud iki dəfə səpildikdən sonra gücdən düşürdü. Bunun qarşısını almaq üçün əkin sahələri dincə qoyulurdu. Qəzalar üzrə dincə qoyulan əkin sahələri müxtəlif idi. Üçmüəzzin və Naxçıvan qəzalarının dağlıq zonasında hər il əkin sahəsinin $^1/_2$-i, digər qəzalarda isə $^1/_3$ hissəsi, düzənlik zonada isə əhalinin sıx, xüsusən çay kənarında yaşadığı yerlərdə hər il torpaq dincə qoyulurdu. Qəzalar üzrə dincə qoyulan torpaqların faizi də müxtəlif idi. Məsələn, İrəvan qəzasında torpağın yalnız $^1/_{10}$ hissəsi, Naxçıvan qəzasında $^1/_8$ hissəsi, Üçmüəzzin qəzasında isə $^1/_6$ hissəsi dincə qoyulurdu[586].

İrəvan quberniyasının kənd təsərrüfatında düyü əkinçiliyi də əsas yerlərdən birini tuturdu. Yeməklərində düyüdən geniş istifadə etdiklərinə görə bu bitkiyə yerli əhali böyük üstünlük vermişdi. Düyü quberniyanın düzənlik ərazisində yetişdirilirdi və düyünün əkilməsində bol su tələb olunurdu. Buna görə də, düyü quberniyanın bol su olan yerlərində əkilirdi. Düyü tarlalarının suvarılmasında əsasən bol suyu olan Araz, Zəngi, Şərqi Arpaçay, Qarasu çayları böyük rol oynamışdı[587]. Bu kənd təsərrüfatı bitkisi əsasən, İrəvan qəzasının qərb hissəsində, İrəvan şəhərini əhatə edən dağların ətəyində, Zəngi çayı ilə Gərniçay çayı arasında, Qarasu çayının hövzəsini əhatə edən Üçmüəzzin qəzasının şərq hissəsinin düzənlik ərazisində yetişdirilirdi[588]. 1902-ci ilin məlumatında İrəvan quberniyasının nəinki düyü əkilən qəzaların, eyni zamanda həmin qəzaların kəndlərinin adları da qeyd olunmuşdu. Bu məlumatda göstərilirdi ki, İrəvan, Üçmüəzzin, Şərur-Dərələ-

[586] Сборник свидений о Кавказе, т. II, с.169-174; Обзор Эриванской губернии за 1893 г., с.4.
[587] Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.114.
[588] Сборник свидений о Кавказе, 1872, т. II, с.174.

yəz, Sürməli qəzlarında və Naxçıvan qəzasının bir hissəsində bu kənd təsərrüfatı məhsulunun becərilməsi daha geniş yayılmışdı. İrəvan qəzasında 49 kənd-Yuxarı və Aşağı Şinkovit, Norakovit, Təzəkənd, Yenicə, Uluxanlı, Ağcaqışlaq, Hacı İlyaz, Aşağı və Yuxarı Nücili, Qalalı, Xaraba Sarvanlar, Şirabad, Nəsirabad, Cəfərabad, Varmazar, Göy Kümbə, Arbat, Xaçaparax, Qaraqışlaq, Şorlu Mehmandar, İsgəndərabad, Rəhimabad, Şorlu Dəmirçi, Donquzan, Reyhanlı, Seyidkənd, Tamamlı, Sabunçu, Yuxarı Qalahasar, Ardaşar, Meharablı, Ağcaqışlaq, Torpaqqala, Yuxarı və Aşağı Ağbaş, Canatlı, Ağamzalı, Qaratəpə, Alpava, Qaradağlı, Cabaçala, Xarratlı, Muğanlı, Doqquz, Axund Buzovand, Çikdamlı, Yamancalı və İpəkli kəndləri düyü əkinçiliyində məşhur idi[589].

Şərur-Dərələyəz qəzasında düyü əsasən Şərurda, Şərqi Arpaçay çayı hövzəsinin düzənlik hissəsində yetişdirilirdi. Şərurun suvarmanın zəif olduğu Azərbaycan türklərinin yaşadığı Daşarx, ermənilərin yaşadığı Daşarx, Xanlıqlar, Püsyan, Təzəkənd-Sərdarabad, həmçinin maldarlıqla məşğul olan Kərimbəyli və Saraçlı kəndlərindən başqa bütün kəndlərində düyü becərilirdi. Dərələyəzin 89 kəndindən 10 kəndində düyü tədarük olunurdu. Burada çəltik tarlalarına Arpaçayın yuxarı hissəsində, Keşişkəndinə qədər olan dərələrdə rast gəlmək mümkündür. Dərələyəzdə bütün çəltik sahəsi bəzi məlumata görə 2716, digər məlumat görə isə 2280 desyatin idi[590].

Naxçıvan qəzasında çəltik əsasən, Dostu su dairəsinə məxsus 10 kənddə becərilirdi. Həmin kəndlər bunlar idi: Yaycı, Yuxarı və Aşağı Aza, Der, Kələntər-diza, Sumçat-diza, Hüseyn Əlibəy, Mirzəhəsən diza, Xudaverdibəy diza və Biləv. Su çatışmazlığından Naxçıvan qəzasında çəltik tarlalarının ümumi sahəsi 59 desyatinə bərabər olmuşdur[591].

Sürməli qəzasında əkilən çəltik tarlalarının ümumi sahəsi

---

589 Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.116.
590 Yenə orada, c.116-117.
591 Памятная книжка Эриванской губернии на 1902, отдел IV, s.116-117.

bəzi məlumata görə 190, digər məlumata görə isə 232 desyatindən 314 desyatinə bərabər olmuşdur. Bu qəzada çəltiyin əkildiyi kəndlər bunlar idi: Sirboğan, Cütlük, Saraçlı Hacıağa, Ahməmməd, Sarıçoban və Ağaverdi[592].

Üçmüəzzin qəzasında isə çəltik əsasən Abaran və Sərdarabad su dairələrinə məxsus kəndlərdə əkilirdi. Abaran su dairəsinə məxsus kəndlərdə əkilən düyü tarlalarının sahəsi 1389, Sərdarabad su dairəsinə məxsus kəndlərdə isə 216 desyatinə bərabər idi. Üçmüəzzin qəzasının çəltik əkilən Abaran su dairəsinə məxsus kəndlər bunlar idi: Türkmənli, Zeyvə erməni kəndi, Aşağı Aylanlı, Kolanı Aralıq, Yuxarı, Aşağı Xatunarx və Qarğabazar; Sərdarabad su dairəsinə məxsus kəndlər isə bunlar idi: Xocayarlı, Sərdarabad, Kərimarx, Molla Bəyazid, Keçərli, Topadibi, Quzuudan, Ağcaarx, Xeyirbəyli, Hacı Bayram, Hasar və Şahvaruş[593].

Bu bitkini yetişdirmək üçün 4 ay ərzində həddən çox su və qayğı tələb olunurdu. Çəlityin əkilməsi belə başlayırdı: çəltik üçün ayrılmış sahədə ilk əvvəl kiçik ensiz arx qazılırdı. Sonra sahə kiçik və böyük olmaqla-3, 4, 6 sayen topa dişi olan dördbucağa bölünürdü. Bu iş başa çatdırıldıqdan sonra bölünmüş sahələr su ilə doldurulurdu. Hər bir kvadratdan keçən su yavaş-yavaş axaraq arxa tökülürdü və bu qayda ilə axan su yenisi ilə əvəz olunurdu. Beləliklə, çəltik sahəsi bataqlığa çevrilirdi. Su buraxılandan, kvadratlar kifayət qədər yumşaldıqdan sonra oraya bir neçə baş iribuynuzlu heyvan buraxılırdı. Bu heyvanlar düzəldilmiş hər bir kvadratları o baş bu baş gəzərək torpağı daha da qarışdıraraq palçığa çevrirdi. Sonra yenidən sahəyə su buraxılırdı. Bu iş başa çatdıqdan sonra hazır sahəyə toxum səpilirdi[594].

Mənbələrdə İrəvan quberniyasında əldə edilən çəltiyin miqdarı haqqında məlumatlar da öz əksini topmışdır. 1870-ci il statistik məlumatına görə, İrəvan qəzasında 8003 desyatin, Üçmüəzzin qəzasında isə 11769 desyatin sahədə çəltik əkilmiş və

---

[592] Памятная книжка Эриванской губернии на 1902, отдел IV, s.117.

[593] Yenə orada.

[594] Сборник свидений о Кавказе, 1872, т. II, с.170-171.

həmin sahələrə 20039 çetvert toxum sərf edilmişdir. Nəticədə 400780 çetvert təmizlənməmiş məhsul əldə edilmişdir. Çəltik təmizləndikdən sonra əldə edilən məhsulun yarısı qalmış, məhsuldarlıq 20 dəfə artıq olmuşdur[595].

İrəvan quberniyasının icmallarında XIX əsrin 80-ci illərin əvvəllərindən XX əsrin əvvəllərinə qədər çəltik əkini və biçini haqqında rəqəmlər öz əksini tapmışdır. Aşağıdakı cədvəldə bu haqda konkret rəqəmləri izləmək olar[596]:

| İllər | Əkilib (çetvert, 1903-cü ildən pud) | Yığılıb (çetvert, 1903-cü ildən pud) |
|---|---|---|
| 1880 | 2250 | 33415 |
| 1881 | 7185 | 95100 |
| 1882 | 4770 | 7870 |
| 1883 | 4025 | 59590 |
| 1884 | 5841 | 91421 |
| 1891 | 19211 | 258777 |
| 1892 | 21607 | 234150 |
| 1893 | 13555 | 280420 |
| 1894 | 17319 | 351587 |
| 1895 | 16594 | 327596 |
| 1896 | 18450 | 360670 |
| 1897 | 17687 | 359510 |
| 1898 | 17714 | 595454 |
| 1899 | 15715 | 352813 |
| 1900 | 15252 | 288509 |
| 1901 | 7274 | 142566 |
| 1902 | 12439 | 264014 |
| 1903 | 58045 | 815245 |
| 1907 | 29182 | 490130 |
| 1908 | 53413 | 620650 |
| 1909 | 49484 | 536875 |
| 1910 | 32569 | 608297 |
| 1912 | 28295 | |

595 Сборник свидений о Кавказе, 1872, т. II, s.174-175.
596Обзор Эриванской губернии за 1883-1913 гг.

| | | |
|---|---|---|
| 1913 | 27639 | 372385 |

İrəvan quberniyasında tədarük edilən çəltik nəinki yerli əhalinin tələbatını ödəyirdi, eyni zamanda ixrac edilirdi. Çəltik dəyirmanlarda təmizlənirdi. 1909-cu il məlumatına görə, İrəvan quberniyasında çəltik təmizləyən 19, 1910-cu il məlumatına görə isə 22 çəltiktəmizləyən dəyirman fəaliyyət göstərmişdi[597]. Çəltik dəyirmana gətirilərək iki yüngül dəyirman daşına və yaxud xüsusi ötrücü ilə işləyən dişcikli həvəngə tökülürdü. Təmizlənmiş məhsul düyü adlanırdı. Çəltiyin xalvarı 18-20 rubla, təmizlənmiş düyü isə ikiqat qiymətinə satılırdı. İrəvan düyüsü Osmanlı Türkiyəsinə, Qacar dövlətinə, Tiflisə və s. yerlərə ixrac edilirdi[598].

İrəvan quberniyasının kənd təsərrüfatında texniki bitkilərin əkilməsinə də xüsusi diqqət yetirilmişdi. Belə bitkilərdən ən əsası pambıq əkinçiliyi idi. Pambıq əkinçiliyi tarixən İrəvan bölgəsinin kənd təsərrüfatında buğda və arpa əkinçiliyindən sonra əsas yerlərdən birini tutmuşdu. Lakin Rusiya işğalından sonra bu bitkiyə maraq xeyli azalmışdı. Buna səbəb Rusiya pambıq parça sənayesinin xam pambığa olan tələbatını Avropa bazarlarına ixrac olunan yüksək keyfiyyətli Amerika pambığı ilə ödəməsi idi. Rusiya firmalarının Azərbaycan, o cümlədən onun tərkib hissəsi olan İrəvan pambığına az əhəmiyyət verməlvalərinin digər səbəbi də, yerli pambığın keyfiyyətcə aşağı, pambıq kolunun qısa, əldə olunan məhsulun çirkli olması, çiyidtəmizləyən yerli alətin pambığı çiyitdən pis təmizləməsi idi[599]. Düzdür, sabiq Qafqaz canişini knyaz Vorontsov Cənubi Qafqazda, o cümlədən Azərbaycanda Amerikan və Misir pambıq növlərini yaymaq üçün cəhd göstərmişdi. İrəvan quberniyasının Ordubad qəzasında bir çox sahibkar qeyd edilən pambıq növlərinin əkilməsinə başlamışdılar. Lakin

---

[597] Обзор Эриванской губернии за 1910 г., с.7.

[598] Сборник свидений о Кавказе, 1872, т. II, с.175; Линч Х.Ф.Б., Армения. Путевые очерки этюды [в 2 томах], Тифлис, 1910. т.1, с.295.

[599] Сборник свидений о Кавказе, 1872, т.II, с.175-176; Кавказский календарь за 1888, с.85.

ilk əvvəllər bu cəhd müvəffəqiyyətsizliyə uğramışdı[600]. Məhz bu baxımdan, XIX yüzilliyin 60-cı illərinin əvvəllərinə qədər çar Rusiyası İrəvan bölgəsinin pambıq əkinçiliyinə o qədər də fikir verməmişdi.

İrəvan quberniyasında tarixən əkilən pambıq növü "Qara qoza" adlanmışdır. Pambıq qayğı və qulluq tələb edən bitkilərdən hesab olunurdu. İrəvan quberniyasında pambıq əsasən aprel ayının 20-dən sonra əkilir, hər desyatin pambıq tarlasına 8 və yaxud 10 pud toxum səpilirdi. Bir həftədən sonra pambıq artıq göyərməyə, üç həftədən sonra isə kifayət qədər inkişaf etməyə balayırdı. Pambıq inkişaf etdikdən sonra əhali ona fasiləsiz qulluq edirdi. İlk növbədə pambıq kollarının inkişafına mane olan alaq otları təmizlənir, sonra isə sıx inkişaf etmiş kollar seyrəkləşdirilirdi. Bundan sonra güclü boy atması və qozaların sayının çoxalması üçün iyul ayında pambıq kollarının başları vurulurdu. Pambığın qozları sentyabrın əvvəllərində yetişməyə başlayır, artıq oktyabr və bəzən də noyabr aylarında pambıq yığımı başlayırdı. Pambıq yığıldıqdan sonra tam qurudulmağa qoyulurdu və sonra "cin" adlanan maşınla onu çiyiddən ayırmağa başlayırdılar. Belə maşınlara pambıq əkilən kəndlərdə çox rast gəlmək olardı [601].

Digər kənd təsərrüfatı bitkilərində olduğu kimi, bir desyatin pambıq sahəsinin becərilməsi və pambıq yığımının muzdlu işçi üçün neçəyə başa gəlməsi haqqında mənbələrdə müxtəlif məlumatlar vardır. Bu məlumatlarda ildən-ilə gah azalma, gah da çoxalma olduğunu görmək mümkündür. Məsələn, 1888-ci ilin məlumatına görə, İrəvan quberniyasında bir desyatin pambıq sahəsinin becərilməsi bir muzdlu işçiyə 50-60 rubl arasında, 1891-ci ildə 45 rubla, 1892-ci ildə 37 rubla, 1893-cü ildə 35 rubla, 1895-ci ildə 48 rubla, 1897-ci ildə 35 rubla, 1898-ci ildə 45 rubla, 1899-cu ildə 55 rubla, 1900-cü ildə 52 rubla, 1901-ci ildə 45 rubl 45 qəpiyə,

---

600 Yenə orada, s.123.

601 Обзор Эриванской губернии за 1902 г., отдел IV, с.125-127.

1913-cü ildə və 1914-cü ildə 50 rubla başa gəlmişdir[602].

Pambıq əsasən, İrəvan quberniyasının Sürməli, İrəvan, Üçmüəzzin, Naxçıvan və Şərur-Dərələyəz qəzalarında becərilirdi[603]. Əvvəllər pambıq yalnız yerli əhalinin tələbatını ödəyirdi, bu bitki çox az ixrac olunurdu. Lakin 1861-1865-ci illərdə Amerikada baş vermiş vətəndaş müharibəsi ilə əlaqədar olaraq Avropa bazarlarına Amerika pambığının ixracının azalması, Azərbaycan pambığına olan marağı artırdı. Əgər əvvəllər İrəvan pambığının 1 pudu yerli bazarda 3 rubl və ya 3 rubl 50 qəpiyə satılırdısa, onun qiyməti 1862-ci ilin axırı-1863-cü ildə 17 rubl 50 qəpiyə və yaxud 18 rubla qalxmışdı. Cənubi Qafqaz pambığı Avropa bazarlarına-Avstriyaya, Marselə və Liverpula ixrac olunmağa başladı[604].

İrəvan pambığının ixrac olunması və qiymətin artması pambıq əkinçiliyinin genişlənməsinə səbəb oldu. Məlumata görə, XIX əsrin 50-ci illərinin axırları 60-cı illərin əvvəllərinə qədər yalnız Cənubi Qafqazda əldə olunan pambığın miqdarı 36-40 min puddan artıq olmurdu və bunun 30 min pudu İrəvan quberniyasının payına düşürdü. Lakin pambığın inkişafı ilə əlaqədar olaraq İrəvan quberniyasında 1862-ci ildə pambıq 60 min puda, 1863-cü ildə 150 min puda, 1864-cü ildə isə 300000 puda çatmışdı. Beləliklə, 1861-1864-cü illərdə İrəvan pambığının tədarükü bir neçə dəfə artmışdı. Əvvəllər pambığın bir pudu 3 gümüş rubla satılırdı və bundan 100 min rubl gəlir əldə edilirdi. Lakin

---

[602] Обзор Эриванской губернии за 1888 г., с.27-28; Обзор Эриванской губернии за 1891 г., с.9; Обзор Эриванской губернии за 1892 г., с.7; Обзор Эриванской губернии за 1893 г., с.5; Обзор Эриванской губернии за 1895 г., с.5; Обзор Эриванской губернии за 1897 г., с.5; Обзор Эриванской губернии за 1898 г., с.3; Обзор Эриванской губернии за 1899 г., с.2; Обзор Эриванской губернии за 1900 г., с.3; Обзор Эриванской губернии за 1901 г., с.3; Обзор Эриванской губернии за 1913 г., с.35-35.

[603] Обзор Эриванской губернии за 1888 г., с.18; Обзор Эриванской губернии за 1902 г., с.124.

[604] Мочалов В.Д., Крестьянское хозяйство в Закавказье к концу XIX в., Москва, Изд-во Академии Наук СССР, 1958, с.383.

rus firmalarının Azərbaycan pambığına maraqlarının artmasından sonra satış qiyməti 15 rubla yüksəlmişdi. Nəticədə, 1863-cü il statistikasına görə, İrəvan pambıqçıları onun satışından 2 milyon rubl gəlir əldə etmişdilər[605]. Hətta məlumata görə, XIX əsrin 60-cı illərinin axırlarında yerli pambığın bir pudu 22 publa satılmışdı[606].

Lakin İrəvan pambığının inkişafı çox davam etməmişdi. Belə ki, 1866-cı ildən başlayaraq yenidən Amerika pambığının Avropa bazarlarına ixrac edilməsi, İrəvan pambığının qiymətinin birdən-birə aşağı düşməsinə səbəb oldu. Belə olduqda, Cənubi Qafqaz, o cümlədən İrəvan pambığının istehsalı XIX yüzilliyin 70-80-ci illərin əvvəllərində tamamilə azalmışdı. Məsələn, 1870-ci ildə İrəvan qəzasında 8012, Naxçıvan qəzasında 7216, Üçmüəzzin qəzasında 7845 desyatin, ümumilikdə isə İrəvan quberniyasında 23073 desyatin sahəyə pambıq əkilmiş və bu sahələrdən 276876 desyatin təmiz xam pambıq yığılmışdır. Məlumata görə, 1870-ci ilin payızında təmizlənmiş pambığın bir pudu 5-6 rubla, ilin sonunda isə aşağı düşərək 4-4,5 rubla satılmışdır[607]. Sonrakı illərdə pambıq əkinçiliyi tədricən daha da aşağı düşmüşdü. İrəvan quberniyasında 1876-cı ildə 132810, 1877-ci ildə isə 149084 pud pambıq yığılmışdır[608].

1879-cu ildə Avropa bazarlarından Rusiyaya idxal olunan pambığın 1 puduna 40 qızıl qəpik gömrük haqqının tərbiq edilməsi yenidən XIX yüzülliyin 80-ci illərinin əvvəllərində Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan İrəvan quberniya-

---

[605] Обзор производителный сил Наместничества за 1879 г., с.486-487.

[606] Кавказский календарь на 1869, с.40.

[607] Сборник свидений о Кавказе, 1872, т.II, с.177; Кавказский календарь на 1888, с.85

[608] Обзор производителный сил Наместничества за 1879 г, с.488; Обзор фабрик и заводов Закавказского края// Составиь Гулишамбаров С., Тифлис, Типография канцеларии Главноначальствующаго гражданского частью на Кавказе, 1894, с.273; Мочалов В.Д., Крестьянское хозяйство в Закавказье к концу XIX в., с.384.

sında pambıqçılığın inkişafına təkan verdi. Sonradan gömrük haqqı daha da artırılmışdı. Məsələn, 1891-ci ildə dəniz yolu ilə gətirilmiş pambığın hər puduna 1 rubl 20 qəpik, quru yolla gətirilmiş pambığın hər puduna isə 1 rubl 30 qəpik gömrük haqqı tətbiq edilmişdi[609].

Belə olduqda rus firmaları Cənubi Qafqaz pambığına diqqət yetirməyə başladılar. İlk əvvəl 1884-cü ildə iri manufaktura firmalarından "S.Morozov və K$^0$ adına Nikolski manufaktura şirkəti", 1886-cı ildən "Andrey Korzinkinin Böyük Yaraslavl manufakturası", 1887-ci ildən isə daha üç şirkət- Moskavadan "Vladimir Alekseyevin ticarət-sənaye şirkəti, Poznandan Lodz firması və Tiflisdən Çitaxovun firması pambıq istehsalı üçün öz nümayəndələrini Cənubi Qafqaza göndərdilər. Rus firmalarının ilk nümayəndələri birinci olaraq İrəvan və Naxçıvan qəzalarına gəldilər. 1886-cı ildə A.Korzinkinin firması pambıq almaq üçün İrəvanda kontorunu, Şərur-Dərələyəz qəzasının Yenicə kəndində şöbəsini açmışdı[610]. Onlar bu bölgədə pambığın inkişafına sərmayə qoymağa başladılar və əhaliyə pulsuz olaraq Amerika növlü pambığın toxumunu paylamağa başladılar. İlk dəfə İrəvan quberniyasında "S.Morozov və K$^0$ adına Nikolski manufaktura şirkəti" pulsuz olaraq Amerikan pambıq növünün toxumunu yerli əhaliyə paylamağa başladı. 1887-ci isə "Vladimir Alekseyevin ticarət-sənaye şirkəti və "Andrey Korzinkinin Böyük Yaraslavl manufakturası" Amerikadan 1200 pud əla növ Amerikan pambıq növünün toxumunu sifariş edərək İrəvan quberniyasında yerli əhaliyə pulsuz payladılar[611]. Bundan əlavə, Dövlət Əmlak Nazir-

---

[609] İsmayılov M., XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı, Bakı, Elm, 1960, s.121; Мочалов В.Д., Крестьянское хозяйство в Закавказье к концу XIX в., с.386.

[610]Обзор Эриванской губернии за 1888 г., с.16; Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.123; Мочалов В.Д., Крестьянское хозяйство в Закавказье к концу XIX в., с.386-387.

[611] Обзор Эриванской губернии за 1888 г., с.16; Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.124; Мочалов В.Д.,

liyi 1887-ci ildə İrəvan quberniyasında Amerikada təcrübə keçmiş aqranomların nəzarəti ilə nümunəvi pambıq sahələri təşkil edilməyə cəhd göstərdi. 1888-ci ildə xəzinənin nəzarətində olan Sərdar bağında müxtəlif növ pambıq əkilməyə başladı. Lakin birinci il təcrübə gözlənilən nəticəni vermədi. Buna səbəb toxumun gec səpilməsi və lazımi isti havanın olmaması idi[612].

Pambığın əmtəə xarakteri alması, hökumətin, pambıq-parça firmalarının pambığa diqqət yetirdiyini görən yerli əhali əkin sahələrini genişləndirməyə başladılar. Yerli əhali taxıl və digər kənd təsərrüfatı bitkilərinin əkildiyi sahələrin hesabına pambıq sahələrini artırırdılar. Bu da tezliklə öz bəhrəsini vermişdi.

İrəvan quberniyasının yerli pambıq növü olan "Qaraqoza"nın hündürlüyü 1 futdan 2 futa (1 fut=30,479 sm) bərabər idi. O, keyfiyyət baxımından aşağı olmaqla bərabər, ticarət baxımından da ən aşağı növ hesab olunurdu[613]. Yuxarıda deyildiyi kimi, yerli pambıq növünün keyfiyyətcə aşağı olduğunu görən rus firmaları Cənubi Qafqaza yüksək keyfiyyətli "Amerikan" pambıq növünü gətirməsi, digər tərəfdən, ingilis "Cotton supple association" şirkətinin yüksək keyfiyyətli Amerikan pambıq toxumu ilə təmin etməsi İrəvan quberniyasında pambıq əkinçiliyinin inkişafında xeyli irəliləyişlərə səbəb olmuşdur[614]. Bu pambıq növü İrəvanda tətbiq edildikdən sonra XIX əsrin 80-ci illərindən başlayaraq quberniyada bol pambıq tədarük edilməyə başladı. Aşağıdakı cədvəldə 1880-ci ildən başlayaraq XX əsrin əvvəllərinə qədər İrəvan quberniyasında əldə edilmiş xam pambığın miqdarını və

---

Крестьянское хозяйство в Закавказье к концу XIX в., с.387; İsmayılov M., XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı, s.121.

612 Обзор Эриванской губернии за 1888 г., с.17.

613 Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.124.

614 Обзор производителный сил Наместничества за 1879 г., с.487; Кавказский календарь на 1888, отдел III, с.84; Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.123.

ondan əldə edilən gəliri əyani izləmək mümkündür[615]:

| İllər | Əkilib (pud, desyatin) | Yığılıb (pud) | Məbləğ (rublla) |
|---|---|---|---|
| 1880-ci il | - | 81084 | - |
| 1881-ci il | - | 42828 | - |
| 1882-ci i | 27151 | 74183 | - |
| 1883-ci il | 16249 | 73262 | - |
| 1884-ci il | - | 98920 | - |
| 1885- ci il | - | 147960 | - |
| 1886-cı il | - | 157024 | - |
| 1887-ci il | - | 326084 | - |
| 1888-ci il | - | 338370 | 1937598 |
| 1889-ci il | - | 508764 | - |
| 1890-cı il | - | 504550 | - |
| 1891-ci il | 27605 | 464400 | 2472975 |
| 1892-ci il | 29091 | 557100 | 3456030 |
| 1893-cü il | 32291 | 552957 | 2878753 |
| 1894-cü il | 32142 | 396912 | 2381772 |
| 1895-ci il | 18583 | 364177 | 2731328 |
| 1896-cı il | 14572 | 200131 | 1500000 |
| 1897-ci il | 14646 | 386256 | 2725000 |
| 1898-ci il | 21794 | 383000 | 2489500 |
| 1899-cu il | 21054 | 406106 | 3045795 |
| 1900-cu il | 15257 | 382035 | 3606000 |
| 1901-ci il | 15788 | 319747 | 2596206 rubl.90 qəpik |
| 1902-ci il | 18763 | 405122 | 3853025 |
| 1903-cü il | 19964 des. 145 kv.saj | 426249 | 5027524,2 |

Cədvəldən görünür ki, bəzi illərdə pambıq əkilən sahələrin

---

[615] Обзор Эриванской губернии за 1884 г, с.4; Обзор Эриванской губернии за 1888 г, с.20; Обзор Эриванской губернии за 1889 г, с.2; Обзор Эриванской губернии за 1891 г, с.7; Обзор Эриванской губернии за 1892 г, с.7; Обзор Эриванской губернии за 1893 г, с.5-6; Обзор Эриванской губернии за 1898 г, с.3; Обзор Эриванской губернии за 1903 г, с.1-2; Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.124; Кавказский календарь на 1869, с.291; Петрович П. Хлопководства в Закавказье / Тифлис, 1912, с.20; Мочалов В.Д. Крестьянское хозяйство в Закавказье к концу XIX в., с.389.

həcmində  və tədarükündə enmələr olmuşdur. Bu pambıq kollarına dəyən xəstəlikdən, havanın sərt şaxta olmasından, quraqlıqdan və s. asılı idi. İrəvan quberniyasında tədarük edilən pambıqdan orta hesabla 2, bəzən də 3-4 milyon gəlir əldə edilmişdir. Bu, XIX yüzilliyin 90-cı illərinin əvvəllərində İrəvanda olmuş səyyah X.B.Linçin nəzərindən qaçmamışdır. İrəvanda olan səyyah qeyd edirdi ki, quberniyada pambığa nəzarət edən, onu təmizləyən və presləyən Rusiyanın üç iri firması fəaliyyət göstərmişdi. Hər il 4 milyon rubl miqdarında İrəvan pambığı karvanlarla Ağstafa yolu ilə Tiflisə aparılmış və oradan Batum-Bakı limanları vasitəsilə Qara dəniz və Xəzər dənizləri ilə və yaxud dəmiryolla Rusiyanın sənaye mərkəzlərinə çatdırılmışdı[616].

Mənbələrdə sonrakı illərdə də İrəvan pambığı haqqında ətraflı məlumat verilmişdir. 1904-cü ildə İrəvan quberniyasında 22534 desyatin sahəyə pambıq əkilmiş, bu sahələrdən 327686 pud Amerikan növü, 86093 pud isə yerli qaraqoza növü yığılmışdır. Ümumilikdə isə quberniya üzrə 413779 pud xam pambıq əldə edilmişdir. Aşağıdakı cədvəl əyani olaraq qəzalar üzrə əkilən və yığılan pambığın miqdarı haqqında belə təsəvvür yaradır[617]:

| Qəzalar | Əkilib (desyatinlə | Yığılıb (Amerikan növü) pudla | Yığılıb (yerli Qaraqoza növü) pudla |
|---|---|---|---|
| İrəvan | 2988 | 44903 | 14891 |
| Sürməli | 7126 | 111993 | 35300 |
| Üçmüəzzin | 3419 | 28985 | 11263 |
| Şərur-Dərələyəz | 6747 | 101200 | 20264 |
| Naxçıvan | 2304 | 40605 | 4375 |
| Yekun | 22534 | 327686 | 86023 |

1904-cü il məlumatına görə “Amerikan” pambıq növü

[616] Кавказский календарь на 1888, с.85; Линч Х.Ф.Б., Армения. Путевые очерки этюды, т.1, с.295.
[617] Обзор Эриванской губернии за 1904 г, с.4.

bazarlarda 7,1 rubla, yerli "Qaraqoza" növü isə 5,3 rubla satılmışdır. Maraqlıdır ki, 1903-cü ildə Amerikan növü yerli bazarlarda 12,3 rubla, yerli qaraqoza növü isə 10,35 rubla satılmışdır[618]. Çox güman ki, bu fərq 1900-1903-cü illər böhranı ilə əlaqədar olmuşdur.

1907-ci ildə İrəvan quberniyasında 24131 desyatin əkilən pambıq sahəsindən 317975 pud Amerikan növü, 51597 pud isə yerli növ, ümumilikdə isə 369572 pud pambıq yığılmışdır. Aşağıdakı cədvəldə həmin ilin stastistik məlumatını belə izləmək mümkündür[619]:

| Qəzalar | Əkilib (desyatinlə) | Yığılıb (Amerikan növü) pudla | Yığılıb (yerli Qaraqoza növü) pudla |
|---|---|---|---|
| İrəvan | 5169 | 86174 | 10570 |
| Sürməli | 6980 | 72450 | 30100 |
| Üçmüəzzin | 3987 | 60144 | 2427 |
| Şərur-Dərələyəz | 6050 | 62240 | 8500 |
| Naxçıvan | 1945 | 39962 | - |
| Yekun | 24131 | 317975 | 51597 |

1907-ci ildə bazarlarda pambığın satış qiyməti mövsümlə əlaqədar olaraq dəyişmişdir. Təmizlənmiş Amerikan pambıq növü ilk vaxtlarda bazarlarda qiyməti 10 rublla 12 rubl 50 qəpik, yerli növ adlanan "qaraqoza" 7 rublla 11 rubl arasında satılsa da, ilin sonuna yaxın qiymətləri xeyli aşağı düşmüşdür[620]. Məlumata görə, 1907-ci ildə yığılan İrəvan pambığından 401,344 pud xam pambıq ixrac olunmuşdur[621].

Statistik məlumata görə, 1908-ci ildə İrəvan quberniyasında pambıq sahələrinin ümumi miqdarında azalma baş vermişdir. Əgər 1907-ci ildə 24131 desyatin sahəyə pambıq əkilmişdirsə, bu rəqəm 1908-ci ildə 18050 desyatinə düşmüş, bu sahələrdən

618 Обзор Эриванской губернии за 1904 г, с.4.
619 Обзор Эриванской губернии за 1907 г, с.4.
620 Обзор Эриванской губернии за 1907 г., с.5.
621 Кавказский календарь на 1910, с.581.

380985 pud pambıq yığılmışdır. Buna səbəb, Şərur-Dərələyəz qəzasında 3750 desyatin pambıq əkin sahəsinin çəltik əkin sahələrinə çevrilməsi idi. Buna baxmayaraq, əvvəlki illə müqayisədə pambıq tədarükündə nisbətən çoxalma olmuşdur. Aşağıdakı cədvəl ayrı-ayrı qəzalar üzrə əkilən və yığılan pambıq haqqında əyani təsəvvür yaradır[622]:

| Qəzalar | əkilən sahə (desyatinlə) | yığılan Amerikan növü (pudla) | Yerli növ “Qaraqoza” (pudla) |
|---|---|---|---|
| İrəvan | 4877 | 105120 | 23240 |
| Üçmüəzzin | 3950 | 54980 | 320 |
| Sürməli | 4990 | 81975 | 25350 |
| Şərur-Dərələyəz | 2300 | 55200 | - |
| Naxçıvan | 1933 | 34800 | - |
| Yekun | 1850 | 332075 | 48910 |

1908-ci ildə 1239,845 pud xam pambıq ixrac olunmuş, 1 pud Amerikan növü 9-10 rubla, yerli “qaraqoza” növü isə 7-7 rubl 50 qəpiyə satılmışdır[623].

1909-cu ildə İrəvan quberniyasında əkilən pambıq sahələri 1908-ci ildə əkilən pambıq sahəsindən 1420,5 desyatin çox olmuşdur. 1909-cu ilin statistik məlumatına görə, İrəvan quberniyasında 19470,5 desyatin sahəyə pambıq əkilmiş, bu sahələrdən 305037 pud Amerika pambıq növü, 39286 pud yerli növ, ümumilikdə isə 344323 pud pambıq əldə edilmişdir. Keçən ilə nisbətən pambıq az yığılmış, məhsuldarlıq bir desyatin sahədə 17,6 pud olmuşdur[624]. Aşağıdakı cədvəldə əkilən və tədarük edilən pambıq haqqında aydın təsəvvür əldə etmək mümkündür[625]:

| Qəzalar | əkilən sahə (desyatinlə) | yığılan Amerikan növü | Yerli növ “Qaraqoza” |
|---|---|---|---|

[622] Обзор Эриванской губернии за 1908 г., с.5.
[623] Обзор Эриванской губернии за 1908 г., с.4.
[624] Обзор Эриванской губернии за 1909 г., с.4.
[625] Обзор Эриванской губернии за 1909 г., с.4-5.

| | | (pudla) | (pudla) |
|---|---|---|---|
| İrəvan | 5080 | 107738 | 24038 |
| Üçmüəzzin | 3096,5 | 34306 | 48 |
| Sürməli | 6990 | 84160 | 15200 |
| Şərur-Dərələyəz | 2370 | 47400 | - |
| Naxçıvan | 1934 | 309933 | - |
| Yekun | 19470,5 | 305037 | 39286 |

1909-cu ildə pambıq az yığılmasına baxmayaraq, onun qiymətində əhəmiyyətli dərəcədə artım olmuşdur. Belə ki, bir pud Amerikan növü 14-16, yerli "qaraqoza" növü isə 10-12,5 rubla satılmışdır. Buna görə də, yerli əhali pambıqdan əhəmiyyətli dərəcədə gəlir götürmüş və bu da onlara həm xəzinə vergilərini ödəməyə, həm də ictimai mükəlləfiyyəti müvəffəqiyyətlə yerinə yetirmələrinə səbəb olmuşdur[626].

1910-cu ildə İrəvan quberniyasında pambıq əkilən sahələr 16 $^0/_0$-dən də çox artdı. Lakin əkin sahələrinin həcminə nisbətdə daha az məhsul alınmışdı. Buna səbəb həmin il pambıq sahələrinin suvarılmasının pis təşkil edilməsi idi. Digər tərəfdən, Sürməli və Şərur-Dərələyəz qəzalarında pambığa xəstəlik dəydiyindən həmin qəzalarda pambıq yığımı aşağı düşmüşdür. Ümumiyyətlə, 1910-cu ildə 22620,5 desyatin sahəyə pambıq əkilmiş, bu sahələrdən 361594 pud pambıq tədarük olunmuşdur. Ayrı-ayrı qəzalar üzrə əldə edilən pambığın miqdarı isə belə idi[627]:

| Qəzalar | əkilən sahə (desyatinlə) | yığılan Amerikan növü (pudla) | Yerli növ "Qaraqoza" (pudla) |
|---|---|---|---|
| İrəvan | 5631 | 115590 | 21100 |
| Üçmüəzzin | 3334,5 | 41975 | 660 |
| Sürməli | 6990 | 79450 | 139980 |

[626] Обзор Эриванской губернии за 1909 г., с.6.
[627] Обзор Эриванской губернии за 1910 г., с.4.

| | | | |
|---|---|---|---|
| Şərur-Dərələyəz | 4280 | 51360 | - |
| Naxçıvan | 2385 | 37478 | - |
| Yekun | 22620,5 | 325854 | 35740 |

Quberniya üzrə hər desyatından 16 pud (1909-cu ildə 17,6 pud) pambıq əldə edilmişdir. Həmin ildə bazarlarda Amerikan pambıq növü 14 rubla, yerli pambıq növü isə 10-12 rubl arasında satılmışdır[628].

1911-ci ilin statistik məlumatına görə, əkilən pambıq tarlalarında həm ərazi cəhətdən, həm də yığılan pambığın miqdarında iki dəfə artım olmuşdur. Belə ki, həmin il 40400 desyatin tarladan 670000 pud pambıq əldə edilmişdir[629].

İldən-ilə İrəvan quberniyasında pambıq əkinçiliyi daha da genişlənmişdi. Pambığın yerli əhaliyə gəlir gətirməsi bu sahənin daha da inkişafına səbəb olmuşdu. Bəzi qəzalarda hətta pambıq sahələrini genişləndirmək üçün kreditlə ssuda götürülür və mütəxəssislər dəvət olunurdu. Sürməli qəzasının əhalisi bu sahədə xüsusilə seçilmişdi[630].

1912-ci ildə illik hesabatda, həmin il İrəvan quberniyasında 1911-ci ilə nisbətən əkin sahələri 11 faiz azalmış, məhsul yenicə cücərəndə şaxta vurmuş, göbələk xəstəliyi yayılmış və sahələr su çatışmazlığından əziyyət çəkmişdir. Lakin məhsuldarlıq (1911-ci ildə bir desyatin sahədən 18,2 pud, 1912-ci ildə isə 20,2 pud pambıq əldə edilmişdir) keçən ilə nisbətən daha da çox olmuşdur. Həmin il 23145 desyatin sahəyə pambıq əkilmiş, bu sahələrdən 467652 pud məhsul tədarük edilmişdir. Ayrı-ayrı qəzalar üzrə əkilən və yığılan pambığın miqdarı belə idi[631]:

| Qəzalar | əkilən sahə (desyatinlə) | yığılan Amerikan növü (pudla) | Yerli növ “Qaraqoza” (pudla) |
|---|---|---|---|

[628] Обзор Эриванской губернии за 1910, с.4.
[629] AMEA TİEA, iş. 3840.
[630] Кавказский календарь на 1913, с.5.
[631] Обзор Эриванской губернии за 1912, с.6.

| | | | |
|---|---|---|---|
| İrəvan | 6092 | 71205 | 23800 |
| Üçmüəzzin | 4193 | 65490 | 50 |
| Sürməli | 6427 | 210325 | 16048 |
| Şərur-Dərələyəz | 5045 | 58874 | 305 |
| Naxçıvan | 1388 | 20355 | 1200 |
| Yekun | 23145 | 426249 | 41403 |

1912-ci ildə irəvanlılar bir pud Amerikan pambıq növünü 10-13,5 rubla, yerli pambıq növünü isə 9-11,3 rubla satmışdılar. Həmin il quberniyada pambığı presləyən 20 qurğu fəaliyyət göstərmişdi[632].

1913-cü ildə İrəvan quberniyasında 1912-ci ilə nisbətən əkin sahələrinin həcmi 2 $^0/_0$ aşağı düşmüşdür. Həmin il 22682 desyatin pambıq sahəsindən 58356 pud pambıq yığılmışdır. Məhsuldarlıq xeyli aşağı düşmüş, bir desyatin sahədən 15,8 pud pambıq tədarük edilmişdir. Ayrı-ayrı qəzalar üzrə vəziyyət belə idi[633]:

| Qəzalar | əkilən sahə (desyatinlə) | yığılan Amerikan növü (pudla) | Yerli növ "Qaraqoza" (pudla) |
|---|---|---|---|
| İrəvan qəzası (İrəvan şəhəri ilə birlikdə) | 5347 | 79111 | 11794 |
| Üçmüəzzin | 2915 | 39287 | 120 |
| Sürməli | 7379 | 100960 | 3880 |
| Şərur-Dərələyəz | 5345 | 95212 | 144 |
| Naxçıvan qəzası 2 şəhərlə birlikdə (Naxçıvan, Ordubad) | 1696 | 26748 | 1200 |
| Yekun | 22682 | 341218 | 17138 |

Qeyd etmək lazımdır ki, 1913-cü ildə bir pud Amerikan pambıq növü 13,5 rubla, yerli "qaraqoza" növü isə 10-11 rubl arasında satılmış, 500 min pud çiyid əldə edilmişdir[634].

---

632 Кавказский календарь на 1913, с.6.
633 Обзор Эриванской губернии за 1913 г., с.6.
634 Обзор Эриванской губернии за 1913 г., с.6.

1914-cü ildə İrəvan quberniyasında əkin sahələrinin həcmi 1589 desyatin (7 $^0/_0$) artmışdır. Havaların tez-tez dəyişməsi, pambıq əkilərkən və yığım vaxtı dayanmadan yağışların yağması, pambıq qurdlarının məhsula ziyan verməsi, bunun qarşısını almaqda yerli əhalinin aciz qalması yaxşı məhsulun əldə edilməsinə mane olmuşdur. Lakin məhsuldarlıq keçən ilə nisbətən çox olmuş, bir desyatin sahədən 20,5 pud məhsul əldə edilmişdir. Bu ildə İrəvan quberniyasında qəzalar üzrə əldə edilmiş pambıq haqqında məlumat belə idi[635]:

| Qəzalar | əkilən sahə (desyatinlə) | yığılan Amerikan növü (pudla) | Yerli növ "Qaraqoza" (pudla) |
|---|---|---|---|
| İrəvan qəzası (İrəvan şəhəri ilə birlikdə) | 6668 | 156850 | 10657 |
| Üçmüəzzin | 3930 | 68480 | 2550 |
| Sürməli | 7356 | 129266 | 4467 |
| Şərur-Dərələyəz | 4798 | 68687 | 240 |
| Naxçıvan qəzası 2 şəhərlə birlikdə (Naxçıvan, Ordubad) | 1519 | 49580 | 5720 |
| Yekun | 24271 | 472863 | 23634 |

Məlumatda göstərilir ki, qeyd edilən rəqəmlər heç də tam həqiqəti əks etdirmirdi. Belə ki, pambıq yığımı vaxtı-oktyabrın 15-dən başlayaraq güclü yağışların yağması, noyabrın 11-dən fasiləsiz yağan yağışların qarlı hava şəraitinə keçməsi pambıq yığımına tam mane olmuş, pambığın müəyyən hissəsi sahələrdə qalmışdır. Bu, pambığın bir hissəsi 1915-ci ilin yazında yığılmış, digər hissəsi isə tələf olmuşdur[636]. Qafqaz təqvimində 1914-cü ildə İrəvan quberniyasında yığılan pambığın ümumi miqdarı 700000 pud göstərilmişdir[637]. Ola bilsin ki, bu sonradan yığılmış pambığın bura əlavə edilməsi ilə bağlı olmuşdur.

---

[635] Обзор Эриванской губернии за 1914, с.6.
[636] Обзор Эриванский губернии за 1914, с.6.
[637] Кавказский календарь на 1916, с.99.

İrəvan quberniyasında xaricdən gətirilmiş pambıq növləri təcrübə sahələrində sınaqdan keçirilirdi. Təşkil edilmiş təcrübə sahələri pambıqçılığın inkişafında az rol oynamamışdı. Türküstandan doqquz növdə xüsusi pambıq növü gətirilərək təcrübə sahələrində sınaqdan keçirilmiş, bu toxumlar Üçmüəzzin və Şərur-Dərələyəz qəzalarında təcrübə sahələrində müsbət nəticələr vermişdir. 1913-cü ildə İrəvan, Şərur-Dərələyəz, Üçmüəzzin və Sürməli qəzalarında ümumi həcmi 90 desyatin olan 100 belə sahə mövcud olmuşdur. 1914-cü ilin məlumatında isə təcrübə sahələrindən əldə edilmiş pambığın miqdarı haqqında konkret rəqəmlər göstərilmişdir. Həmin il Üçmüəzzin qəzasında Türküstandan gətirilmiş Kuvin pambıq növündən hər desyatindən 81 pud, Yerlikənd və Alenkənd növləri isə hər desyatindən 58-61 pud, Şərur-Dərələyəz qəzasının Noraşen təcrübə sahəsindən isə hər desyatindən orta hesabla 90 pud məhsul əldə edilmişdir[638].

1914-cü ildə pambıqdan 250 min pud çiyid əldə edilmiş, bir pud pambıq əvvəl 10-11 rubla, sonra isə 15-16 rubla satılmışdır[639].

1915-ci ildə İrəvan quberniyasında 35200 desyatin sahəyə pambıq əkilmiş, bu sahələrdən 382000 pud, 1916-cı ildə əkilən 30300 desyatin tarladan 450000 pud, 1917-ci ildə isə 18000 desyatin sahədən 270000 pud pambıq əldə edilmişdir[640].

İrəvan quberniyasında pambıqçılığın inkişafında pambıqtəmizləmə zavodlarının fəaliyyəti də böyük rol oynamışdır. Əvvəllər pambıq təmizlənməsi kustar xarakter daşımış, bu işlər əllə görülmüşdür. Lakin sonradan pambıq təmizlənməsi də texniki cəhətdən gücləndirilmişdir. Belə ki, xam pambığı təmizləmək üçün xüsusi qurğular İrəvana gətirilmişdi. 1856-cı ilin məlumatına görə, qraf Kiselyov Nyu-Yorkdan əla növ pambıqtəmizləyən maşın sifariş etmiş, təcrübədən keçirmək üçün Tiflisə gətirilmiş və oradan da İrəvana göndərilmişdir. 1868-ci ildə İrəvan şəhəri

---

[638] Обзор Эриванский губернии за 1914, с.5-6.
[639] Обзор Эриванский губернии за 1914, с.6-7.
[640] AMEA TİEA, iş.2929, s.70.

yaxınlığında olan müəssisədə 30-a qədər pambığı çiyiddən təmizləyən su ötrücüsü ilə işləyən xüsusi qurğular fəaliyyət göstərmişdir[641]. İrəvan quberniyasında fəaliyyətə başlayan A.Korzinkinin firması isə bir çox yerlərdə Amerikadan sifariş edilmiş pambıqtəmizləyən maşın quraşdırmış, sonradan onun firması İrəvan şəhərində anbarlar və presləmə yerləri də açmışdır[642].

XIX yüzilliyin 80-90-cı illərində pambığın təmizlənməsi sənaye xarakteri daşımış, xüsusi zavodlar fəaliyyət göstərmişdir. Pambıqtəmizləmə zavodları pambıq alıcılığı ilə məşğul olan şirkətlər tərəfindən yaradılırdı. Rus firmaları İrəvanda fəaliyyət göstərdikdən sonra ABŞ-dan daha keyfiyyətli pambıqtəmizləmə maşınları sifariş etmiş və onlar İrəvan quberniyasının müəyyən şəhər və kəndlərində quraşdırılmışdır. XIX yüzilliyin 80-ci illərin ikinci yarısında rus şirkətləri ABŞ-dan 16 pambıqtəmizləyən maşın sifariş etmiş, həmin maşınlar Başnoraşendə, Naxçıvanda, İğdırda, Yenicədə, Üçmüəzzində, Qulpda, Arazdəyəndə, Tanziyanda quraşdırılmışdı. Əvvəllər bu maşınlar iri firmaların kontorlarında quraşdırılırdı. Sonradan bu maşınlar varlı pambıq sahiblərinə və xırda pambıq ticarətçilərinə güzəşt edilmişdi. Bu maşınlar pambıq sahiblərinə mövcud qiymətlər müqavilində həmin işbazlara pambıq satmaq şərtilə pulsuz verilmişdi. Məhz İrəvan quberniyasında pambıqçılığın inkişafı ilə əlaqədar olaraq ildənilə pambıqtəmizləyən zavodların sayı çoxalmışdır. Məsələn, 1893-cü ilin məlumatına görə, İrəvan quberniyasında istehsal gücü 89320 rubl olan 346, 1900-cü ildə istehsal gücü 35330 rubl olan 354, 1908-ci ildə istehsal gücü 176825 rubl olan 361, 1909-cu ildə istehsal gücü 151997 rubl olan 354, 1912-ci ildə istehsal gücü 293580 rubl olan 330, 1913-cü ildə istehsal gücü 30015 rubl olan 143, 1914-cü ildə isə istehsal gücü 1060456 rubl olan 316 pambıqtəmizləyən zavod fəaliyyət göstərmişdir[643].

---

641 АКАК, т.XI, д.832, с.176-177, с.867.

642 Обзор Эриванский губернии за 1888, с.16.

643 Обзор Эриванской губернии за 1888 г., с.27; Обзор Эриванской губернии за 1893 г., с.5, с.35; Памятная книжка Эриванской губер-нии на 1902, отдел III, с.106; Обзор Эриванской губернии за 1908 г., с.29-32;

Qeyd edilən pambıqtəmizləyən zavodlarda maşınların bəzisi neftlə, bəzisi su, buxarla, bəzisi isə atların köməyi ilə hərəkətə gətirilmişdir. XX əsrin əvvəllərinə aid arxiv məlumatında bu haqda ətraflı məlumat verilmişdir. Məlumatda göstərilir ki, İrəvan qəzasında 73 zavod olmuş, bunlardan 10-u neftlə, 12 buxarla və 51 isə su ilə, Naxçıvan qəzasında 44 zavod olmuş, 6-ı neftlə, 11-i buxarla, 26-ı su ilə, 1-i isə atla, Şərur-Dərələyəzdə 49 zavod olmuş, 14-ü neftlə, 35-i su ilə, Sürməli qəzasında 84 zavod olmuş, 57-i neftlə, 14-ü su ilə, 13-ü isə atla, Üçmüəzzin qəzasında isə 78 zavod olmuş, 21-i neftlə, 20-i buxarla, 27-i su ilə, 10-u isə atların köməyi ilə işlədilmişdir[644].

İrəvan quberniyası pambıq yığımına görə, Cənubi Qafqazda 1910-cu ilə qədər birinci yerdə olmuşdur. Yalnız bu ildən sonra birincilik Bakı və Yelizavetpol qəzalarına keçmişdir[645]. Qeyd etmək lazımdır ki, İrəvan pambığının miqdarının aşağı düşməsinə suyun çatışmaması, havanın şaxtalı keçməsi və müxtəlif xəstəliklər səbəb olmuşdur. Bu səbəblər pambıq yığımının azalmasına gətirib çıxarmışdır[646].

İrəvan quberniyasının kənd təsərrüfatında texniki bitkilərdən tütün əkinçiliyi də əsas yerlərdən birini tutmuşdu. Bu sahə yerli əhaliyə orta əsrlərdən məlum idi. XIX yüzilliyin 70-ci illərinə qədər tütün istehsalı ilə Üçmüəzzin qəzasına daxil olan Arhacı kəndinin əhalisi daha çox məşğul olmuşdur. 1870-ci il məlumatına görə, bu kəndin əhalisi tütün səpilmiş 5 desyatin əkin sahəsindən 250 pud məhsul əldə etmişdir. Tütün toxumu Osmanlı Türkiyəsindən gətirilmiş və keyfiyyəti aşağı idi[647].

XIX yüzilliyin ikinci yarısında tütün əkinçiliyinə də maraq artdı. Xüsusilə, əsrin son rübündə Rusiyaya xaricdən gətirilən tü-

---

Обзор Эриванской губернии за 1909 г., с.29-32; Памятная книжка Эриванской губернии на 1914, с.42-47; Мочалов В.Д., Крестьянское хозяйство в Закавказье к концу XIX в., с.387, с.391-392.

644 AMEA TİEA, iş. 2929, v.74.

645 İsmayılov M., XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı, s.126.

646 Обзор Эриванской губернии за 1913 г., с.6.

647 Сборник сведений о Кавказе, 1872, т.II, с.178-179.

tünə yüksək gömrük haqqının qoyulması Azərbaycanda, həmçinin onun tərkib hissəsi olan İrəvan quberniyasında tütünçülüyün inkişafına təkan vermiş və digər tərəfdən, xəzinəyə bu kənd təsərrüfatı bitkisindən xeyli gəlir daxil olmuşdur. XIX yüzilliyin 80-ci illərinin əvvəllərinə aid statistik məlumatdan görünür ki, İrəvan quberniyasının ayrı-ayrı qəzalarında yerli əhali də tütün əkinçiliyinə diqqət yetirməyə başlamışdı. Məsələn, 1881-ci ildə İrəvan quberniyasında ümumi sahəsi 78 desyatin 1075 kvadrat sajen olan 218 tütün tarlası olmuşdur. Bu tarlaların 88-i mülkədarlara, 130-u isə kəndlilərə məxsus idi. Qəzalar üzrə isə vəziyyət belə idi: İrəvan qəzasında sahəsi 70 desyatin olan 152 tarla (bunlardan 82-si bəylərə, 70-i isə kəndlilərə məxsus idi); Naxçıvan qəzasında 3 desyatin 580 kvadrat sajen olan 22 tarla (6-sı mülkədar, 16-ı kəndli); Şərur-Dərələyəzdə 3 desyatin 495 kvadrat sajen olan 43 tarla (hamısı kəndli); Üçmüəzzində 2 desyatin sahəsi olan 1 tarla ( hamısı kəndli)[648].

Qeyd etmək lazımdır ki, tütün tarlalarının müəyyən hissəsi xəzinənin ixtiyarında idi. Məhz bu səbəbdən, tütün istehsalına aksiz vergisi tətbiq olunmuş və tütün tədarükündən xəzinəyə xeyli gəlir daxil olmuşdur. 1883-cü ildə aksiz vergisi tətbiq edildiyinə görə, İrəvan tütünündən xəzinəyə 10047 rubl 37,5 qəpik vergi daxil olmuşdur. Bu da əvvəlki ilə nisbətən 2459 rubl 53,5 qəpik az idi[649].

İrəvan quberniyasının "icmallarında" XIX əsrin 90-cı illərində tütün əkinçiliyi və tədarükü haqqında ətraflı məlumatlar verilmişdir. Aşağıdakı cədvəldə 1891-1901-ci illərdə İrəvan quberniyasının ayrı-ayrı qəzalarında əkilən və yığılan tütün haqqında məlumatları əyani izləmək mümkündür[650]:

---

[648] Кавказский календарь на 1881, с.82.

[649] Кавказский календарь на 1884, с.292.

[650] Обзор Эриванской губернии за 1891 г, с.9; Обзор Эриванской губернии за 1892 г, с.6-7; Обзор Эриванской губернии за 1893 г, с.7; Обзор Эриванской губернии за 1894 г, с.3-4; Обзор Эриванской губернии за 1895 г, с.3; Обзор Эриванской губернии за 1896 г, с.4; Обзор Эриванской губернии за 1897 г, с.6-7; Обзор Эриванской губернии за

| Qəzalar | İllər | Tarla-ların sayı | Torpağın sahəsi (desyatin, kvadrat sajen | Yığılıb (pud, funt) |
|---|---|---|---|---|
| İrəvan | 1891 | 675 | 21 des. 2332 kv. sajen | 528 pud 2 funt |
| | 1892 | 547 | 20 des. 1338 kv. sajen | 415 pud 10 funt |
| | 1893 | 733 | 47 des. 946,5 kv. sajen | 850 pud 31 funt |
| | 1894 | 517 | 38 des. 1621 kv. sajen | 585 pud 39 funt |
| | 1895 | 613 | 33 des. 402 kv. sajen | 799 pud 34 funt |
| | 1896 | 572 | 43 des. 2251 kv. sajen | 527 pud 1 funt |
| | 1997 | 1145 | 86 des. 2141kv. sajen | 1348 pud 11 funt |
| | 1898 | 1207 | 76 des.448 kv. sajen | 1191 pud 31 funt |
| | 1899 | - | 68 des. | 480 pud |
| | 1900 | - | 95 des. | 1773 pud |
| | 1901 | - | 77 des. | 1228 pud |
| Naxçıvan | 1891 | 51 | 1776 kv. sajen | 33 pud 12 funt |
| | 1892 | 66 | 5 des.308 kv. sajen | 298 pud 2 funt |
| | 1893 | 57 | 2 des. 527 kv. sajen | 186 pud 38 funt |
| | 1894 | 77 | 2 des. 58 kv. sajen | 313 pud 15 funt |
| | 1895 | 203 | 7 des. 402 kv. sajen | 886 pud 28 funt |
| | 1896 | 191 | 6 des. 539 kv. sajen | 422 pud 32 funt |
| | 1997 | 132 | 1 des.1478 kv. sajen | 188 pud 16 funt |
| | 1898 | 173 | 5 des.2322 kv. sajen | 225 pud 8 funt |
| | 1899 | - | 3 des. | 203 pud |
| | 1900 | - | 2 des. | 150 pud |
| | 1901 | | 5 des. | 155pud |
| Sürməli | 1891 | 343 | 47 des. 602 kv. sajen | 1450 pud 30 funt |
| | 1892 | 341 | 71 des. 2379 kv. sajen | 2769 pud 10 funt |
| | 1893 | 381 | 71 des.1671 kv. sajen | 4615 pud 6 funt |
| | 1894 | 376 | 66 des. 488 kv. sajen | 3973 pud 7 funt |
| | 1895 | 350 | 99 des. 2225 kv. sajen | 5925 pud 37 funt |
| | 1896 | 419 | 83 des. 1786 kv. sajen | 6111 pud 33 funt |
| | 1997 | 342 | 90 des. 1887 kv. sajen | 3632 pud 28 funt |
| | 1898 | 285 | 87 des.1058 kv. sajen | 4122 pud 10 funt |
| | 1899 | - | 93 des. | 5040 pud |
| | 1900 | - | 84 des | 4350 pud |
| | 1901 | - | 70 des. | 4180 pud |

---

1898 г, с.5; Обзор Эриванской губернии за 1899 г, с.5; Обзор Эриванской губернии за 1900 г, с.4-5; Обзор Эриванской губернии за 1901 г, с.7.

| | | | | |
|---|---|---|---|---|
| Şərur-Dərələyəz | 1891<br>1892<br>1893<br>1894<br>1895<br>1896<br>1997<br>1898<br>1899<br>1900<br>1901 | 312<br>267<br>517<br>57<br>365<br>289<br>678<br>413<br>-<br>-<br>- | 3 des.1602 kv.sajen<br>5 des. 1191 kv. sajen<br>6 des. 305 kv. sajen<br>4 des. 315 kv. sajen<br>15 des. 1377 kv. sajen<br>8 des.448 kv. sajen<br>11 des.558 kv. sajen<br>13 des.904 kv. sajen<br>10 des.<br>7 des.<br>18 des. | 296 pud 17 funt<br>430 pud 29 funt<br>4615 pud 6 funt<br>669 pud 5 funt<br>1223 pud 26 funt<br>91 pud 9 funt<br>344 pud 26 funt<br>394 pud 33 funt<br>196 pud<br>231 pud<br>630 pud |
| Yenibəyazid | 1891<br>1892<br>1893<br>1894<br>1895<br>1896<br>1997<br>1898<br>1899<br>1900<br>1901 | 35<br>1<br>54<br>60<br>16<br>47<br>62<br>40<br>-<br>-<br>- | 1 des.160 kv.sajen<br>21 kv. sajen<br>745 kv. sajen<br>575 kv. sajen<br>310 kv. sajen<br>1087 kv. sajen<br>1998 kv. sajen<br>812 kv. sajen<br>-<br>-<br>- | -<br>14 funt<br>24 pud 20 funt<br>22 pud 6 funt<br>7 pud 34 funt<br>14 pud 1 funt<br>42 pud 16 funt<br>16 pud 14 funt<br>-<br>-<br>- |
| Aleksandropol | 1891<br>1892<br>1893<br>1894<br>1895<br>1896<br>1997<br>1898<br>1899<br>1900<br>1901 | 50<br>-<br>13<br>13<br>-<br>-<br>-<br>-<br>-<br>-<br>- | 1 des.1550 kv. sajen<br>-<br>1 des. 1782 kv. sajen<br>1 des 1723 kv. sajen<br>-<br>-<br>-<br>-<br>-<br>-<br>- | 103 pud 20 funt<br>-<br>72 pud 8 funt<br>45 pud<br>-<br>-<br>-<br>-<br>-<br>-<br>- |
| Üçmüəzzin | 1891<br>1892<br>1893<br>1894<br>1895<br>1896<br>1997<br>1898<br>1899 | 72<br>43<br>28<br>34<br>35<br>53<br>76<br>43<br>- | 4 des.2091 kv.sajen<br>1147 kv. sajen<br>668 kv. sajen<br>1 des.691 kv. sajen<br>2380 kv. sajen<br>1 des. 1000 kv. sajen<br>4 des.879 kv. sajen<br>2 des.2043 kv. sajen<br>2 des. | 105 pud 6 funt<br>21 pud 33 funt<br>15 pud 9 funt<br>52 pud 16 funt<br>36 pud 10 funt<br>63 pud 20 funt<br>188 pud 29 funt<br>165 pud 30 funt<br>135 pud |

| | | | | |
|---|---|---|---|---|
| | 1900<br>1901 | - | 4 des.<br>3 des. | 81 pud<br>40 pud |
| Yekun: İrəvan quberniyası üzrə: | 1891<br>1892<br>1893<br>1894<br>1895<br>1896<br>1897<br>1898<br>1899<br>1900<br>1901 | 1538<br>1265<br>1783<br>1521<br>1582<br>1571<br>2435<br>2161<br>-<br>-<br>- | 81 des.513 kv. sajen<br>103 des.1584 kv.sajen<br>129 des.1844,5 kv. sajen<br>114 des.1193 kv.sajen<br>157 des.1094 kv. sajen<br>143 des.2311 kv.sajen<br>195 des.1741 kv.sajen<br>186 des.387 kv. sajen<br>176 des.<br>192 des.<br>173 des. | 2517 pud 7 funt<br>3935 pud 18 funt<br>6244 pud 34 funt<br>6916 pud 34 funt<br>8880 pud 9 funt<br>7231 pud 6 funt<br>5745 pud 6 funt<br>6116 pud 6 funt<br>6054 pud<br>6585 pud<br>6233 pud |

Cədvəldən görünür ki, İrəvan quberniyasında tütün yığımında gah azalma, gah da çoxalma müşahidə olunmuşdur. Buna səbəb, 1894-cü ildən sonra Aleksandropol, 1899-cu ildən sonra Yenibəyazid qəzalarında tütün əkinçiliyinin tamamilə sıradan çıxması, havaların bəzi illərdə sərt keçməsi idi. Tütün yığımında ən çox nəticə Sürməli, İrəvan və Şərur-Dərələyəz qəzalarında əldə edilmişdir. Digər tərəfdən, mənbələrdə İrəvan quberniyası üzrə tütün əkinçiliyi ilə məşğul olan kəndlərin sayı haqqında da məlumatlar öz əksini tapmış, bu kəndlərin sayında ildən-ilə çoxalma müşahidə olunmuşdur. Məsələn, 1894-cü ildə tütün əkinçiliyi ilə 137 kənd, 1895-ci ildə 144 kənd, 1896-cı ildə 147 kənd, 1897-ci ildə 164 kənd məşğul olmuşdur[651].

[651] Обзор Эриванской губернии за 1894 г., с.4; Обзор Эриванской губернии за 1895 г., с.3; Обзор Эриванской губернии за 1896 г., с.4; Обзор Эриванской губернии за 1897 г., с.6; Сборник статистических данных о зеьлевладений и способах хозяйства в пяти губерниях Кавказского края, Тифлис, Типография Шарядзе и К$^0$, 1899, с.95.

İrəvan quberniyasında tədarük edilən tütünün keyfiyyəti aşağı olmuşdur. Yerli əhali tütünün “maxorka” növünü əkirdilər. Bu növ tütün ixrac olunmur, yalnız yerli tələbatı ödəyirdi. Yuxarıda tütün istehsalı üçün göstərilən cədvəldə, yalnız 1897-ci ildə Naxçıvan qəzasında 60 pud yüksək keyfiyyətli tütün yığılması göstərilmişdir[652]. Yerli bazarlarda tütünün bir pudu əvvəllər 5-6 rubl, XIX yüzilliyin 90-cı illərindən sonra isə 3-4 rubl arasında satılmışdır[653].

XX yüzilliyin əvvəllərinə aid tütün haqqında illik hesabatlarda quberniya üzrə yalnız İrəvan, Sürməli, Şərur-Dərələyəz, Naxçıvan və Üçmüəzzin qəzalarında tütün yığımından əldə edilmiş məlumatlara rast gəlinmişdir. Aksiz vergi nəzarətinin məlumtlarına görə, İrəvan quberniyasında 1902-ci ildə ümumi sahəsi 199 des. 1814 kv. sajen olan 2308 tarladan 10575 pud 5 funt, 1903-cü ildə ümumi sahəsi 218 des. 149 kv. sajen olan 2794 tarladan 9649 pud 16,3 funt (həmin ildə quberniya üzrə tütünlə məşğul olan kəndlərin sayı 178, tütün tarlalarından 1296-sı xəzinəyə, 1498-i isə şəxsi adamlara məxsus olmuşdur), 1904-cü ildə ümumi sahəsi 198 des. 944 kv. sajen olan  tarladan 9635 pud 7 funt (həmin il tütün əkinçiliyi ilə 171 kənd məşğul olmuşdur) tütün əldə edilmişdir[654]. Bu məlumatlardan görmək olar ki, 1903-cü və 1904-cü illərdə İrəvan quberniyasında tütün əkinçiliyi ilə məşğul olan kəndlərin sayında artım qeydə alınmışdır.

Lakin sonrakı illərdə tütün əkinçiliyi ilə məşğul olan kəndlərin sayında azalma müşahidə olunmuşdur. Məsələn, 1907-ci ildə İrəvan quberniyasında 140 kənddə ümumi sahəsi 204 desyatin

---

652 Обзор Эриванской губернии за 1897 г., с.6.

653 Обзор Эриванской губернии за 1893 г., с.7; Обзор Эриванской губернии за 1898 г., с.5; Обзор Эриванской губернии за 1900 г., с.4; AMEA TİEA, iş. 2929, v.206.

654 Обзор Эриванской губернии за 1902 г., с.2; Обзор Эриванской губернии за 1903 г., с.3; Кавказский календарь на 1905 г., с.69; Обзор Эриванской губернии за 1904 г., с.6; Сборник статистических данных о зеьлевладений и способах хозяйства в пяти губерниях Кавказского края, с.95.

1125 kvadrat sajen olan 1605 tarla qeydə alınmış, bu tarlalardan yerli əhalinin tələbatını ödəyən 11905 pud 14 funt tütün yığılmışdır[655].

1909-cu ilin məlumatına görə, İrəvan quberniyasının 121 kəndində xüsusi aksiz idarəsinin nəzarətində olan ümumi sahəsi 167 desyatin 1303 kv. sajen olan 1203 tütün sahəsi qeydə alınmış, bu sahələrdən 8241 pud məhsul əldə edilmişdir[656]. Hər iki məlumatı müqayisə etdikdə görmək olar ki, 1909-cu ildə tütün əkilməsində həm kəndlərin sayında, həm tarlaların və həm də əldə olunan tütünün miqdarında xeyli azalma olmuşdur.

Bu azalma sonrakı illərdə də baş vermişdir. Xüsusən, aksiz sisteminin yayılması tütün istehsalını xeyli ləngitmişdi. 1910-cu il məlumatında İrəvan quberniyasında 111 kənddə sahəsi 174 desyatin 1517 kvadrat sajen olan 1260 tütün tarlası qeydə alınmış, bu tarlalardan 9116 pud 19 funt tütün əldə edilmişdir. Qəzalar üzrə vəziyyət belə idi: İrəvan qəzasında 43 kənddə sahəsi 83 desyatin 1418 kvadrat sajen olan 524 tarla (yığılmışdır 3585 pud 03 funt); Sürməli qəzasında 11 kənddə sahəsi 84 desyatin 286 kvadrat sajen olan 266 tarla (yığılmışdır 4961 pud 21 funt); Naxçıvan qəzasında 11 kənddə sahəsi 3 desyatin 1268 kvadrat sajen olan 192 tarla (yığılmışdır 302 pud 16 funt); Şərur-Dərələyəz qəzasında 46 kənddə sahəsi 3 desyatin 1268 kvadrat sajen olan 278 tarla (yığılmışdır 9116 pud 19 funt)[657].

1912-ci il məlumatına görə, İrəvan quberniyasının 137 kəndində ümumi sahəsi 98 desyatin 1904 kv. sajen olan 958 tütün sahəsindən 4386 pud 37,5 funt məhsul əldə edilmişdir. İrəvan qəzasının 59 kəndində ümumi sahəsi 59 desyatin 2339 kv.sajen olan 442 tütün sahəsindən 3350 pud 19 funt məhsul, Sürməli qəzasının 13 kəndində ümumi sahəsi 34 desyatin 1895 kv.sajen olan 148 tütün sahəsindən 633 pud 15 funt məhsul, Şərur-Dərələyəz qəzasının 43 kəndində sahəsi 2 desyatin 379 kv.sajen olan

---

655 Обзор Эриванской губернии за 1907 г., с.7.
656 Обзор Эриванской губернии за 1910 г., с.7.
657 Yenə orada, s.7.

259 sahədən 273 pud 4,5 funt məhsul, Naxçıvan qəzasında isə 22 kəndin ümumi sahəsi 1 desyatin 2091 kv.sajen olan 109 sahədən 124 pud 39 funt məhsul götürülmüşdür[658].

1914-cü ilin məlumatında isə tütün sahələrinin sayında artım müşahidə olunmuşdur. Əvvəlki illərdə olduğu kimi eyni qəzalarda tütün əkilmişdi. İrəvan qəzasında 55 kəndin ümumi sahəsi 102 desyatin 1500 kv.sajen olan 612 sahədən 3043 sajen 12 funt, Sürməli qəzasının 12 kəndində sahəsi 61 desyatin 1095 kv.sajen olan 149 sahədən 2473 pud 36 funt, Şərur-Dərələyəz qəzasının 37 kəndində ümumi sahəsi 2229 kv.sajen olan 228 sahədən 109 pud 1 funt, Naxçıvan qəzasının 13 kəndində sahəsi 4 desyatin 1231 kv.sajen olan sahədən 541 pud 31 funt tütün yığılmışdır. Ümumiyyətlə, 1914-cü illərdə İrəvan quberniyası üzrə 117 kənddə ümumi sahəsi 169 desyatin 1255 kv.sajen olan 1147 tütün sahəsindən 6172 pud 31 funt məhsul əldə edilmişdir[659].

İrəvan quberniyasında əhali tütünçülüklə məşqul olsa da, onu emal edən heç bir müəssisə-zavod, fabrik yox idi. 1893-cü ilin məlumatına görə, tütün tədarükündə aksiz vergi sisteminin tətbiqinə qədər Aleksandropol şəhərində tütün emal edən fabriklər fəaliyyət göstərmiş və bu fabriklərdə "trabzon" adlanan yüksək keyfiyyətli türk tütün növü emal edilmişdir. Lakin aksiz vergisinin tətbiqindən (1 pud tütündən 3 rubl 20 qəpik vergi alınırdı) sonra fabriklərin fəaliyyəti dayanmış, əhali yalnız tütünün aşağı keyfiyyətli növü olan "maxorka" əkməyə başlamışdılar[660]. İrəvan tütünü keyfiyyətcə aşağı səviyyədə olduğundan yalnız yerli əhalinin tələbatını təmin etmişdi. Bundan əlavə, əkilən ayrı-ayrı tütün sahələri 0,5 desyatindən artıq olmurdu. Buna baxmayaraq, İrəvan quberniyasında tütün əkinçiliyi ilə məşğul olan əhali xəzinəyə tütün vergisi verməк məcburiyyətində qalmışdı. Çünki tütün sahələri vergi idarəsinin nəzarətində idi[661].

---

658 Обзор Эриванской губернии за 1913 г., с.9.
659 Обзор Эриванской губернии за 1914 г., с.10.
660 Обзор Эриванской губернии за 1893 г., с.7.
661 Сборник статистических данных о зеьлевладений и способах хозяйства в пяти губерниях Кавказского края, с.94; Обзор Эриванской

İpəkçilk də İrəvan quberniyasının kənd təsəttüfatının məşğulluq sahələrindən biri idi. Rusiyada təhkimçilik hüququ ləğv edildikdən sonra kənd təsərrüfatının başqa sahələri ilə yanaşı ipəkçilik də inkişaf etməyə başladı. İpəkçilik İrəvan quberniyasının bütün ərazisini əhatə etməsə də, yerli əhalinin gəlirli sahələrindən biri hesab olunmuşdu. Hətta 1860-1861-ci illərdə Qərbi Avropada barama qurdlarına xəstəlik dəyəndə, İrəvan baramaçıları onun satışından həmin illərdə xeyli qazanc əldə etmişdilər. 1862-ci ilə qədər quberniya üzrə ipəkçiliklə əsasən Ordubadda, Naxçıvan qəzasının qərb hissəsində-Əlincə çaydan başlayaraq Kivras kəndinə qədər ərazidə, İrəvan qəzasında Şərur dairəsinin düzənlik kəndlərində, İrəvan şəhərinin özündə, Üçmüəzzin qəzasının bir neçə kəndində məşğul olurdular. 1862-ci ildə İrəvan quberniyasında 20000 pud xam barama yığılmışdır[662]. Lakin 1862-ci ildən sonra İrəvanda baramaçılıqda xeyli geriləmə baş vermiş, həmin il barama qurdlarına xəstəlik dəymişdi. Geriləmə o qədər aşağı düşmüşdü ki, 1867-ci ildə Ordubad qəzasında əldə edilən barama 1861-ci ildə yığılan baramanın $^{1}/_{7}$-i təşkil etmişdi. Bu da həmin ildə əldə edilən baramanın 15 $^{0}/_{0}$-dən az olması demək idi[663].

1868-ci ildə yerli qurdlara xəstəlik dəydiyindən İrəvana yapon, buxara, xorasan, rəşt və squrd qurd növləri gətirilməyə başlandı. 1870-ci ildə Ordubad pristavlığında əsasən Rəşt və Xorasandan gətirilmiş qurd növləri istehsal olunurdu. Həmin il bütün quberniyadan 7075 pud barama yığılmışdır ki, bundan da 937 pud təmiz xammal alınmışdı. İrəvan baramasının yarısı emal şəkilində ixrac olunurdu. Məsələn, İrəvanda emal edilmiş yüksək keyfiyyətli baramanın bir pudu Moskvada 350-500 rubl arasında, aşağı keyfiyyətli barama isə 250-350 rubl arasında satılmışdı[664]. 1883-cü ildə Ordubad ipək zavodunda emal edilmiş 60 pud ipək

губернии за 1910 г., с.7; Обзор Эриванской губернии за 1913 г, с.8; Обзор Эриванской губернии за 1914 г., с.10.

662 Сборник сведений о Кавказе, 1872, т.II, с.186.

663 Yenə orada.

664 Сборник сведений о Кавказе, 1872, т.II, с.187.

Moskvaya ixrac olunmuşdu[665].

İrəvan quberniyasında ipəkçiliyin inkişafı XIX əsrin 90-cı illərindən başlayaraq gözə çarpmağa başladı. İpəkçiliyin inkişafında Tiflisdə təşkil edilmiş "Qafqaz ipəkçilik stansiyası"nın Azərbaycanın müxtəlif rayonlarında açılmış filialları böyük rol oynamışdır. Qafqaz ipəkçilik stansiyası və onun şöbələri ipəkçilik sahəsini inkişaf etdirmək üçün yerlərə təlimatçılar göndərir, xaricdən barama qurdu gətirir və s. işlər görürdü. Bu da ipəkçiliyin inkişafına yardım edirdi. 1895-ci ildə Əylisli kəndinin müxbiri xəbər vermişdi ki, "indiki dövrdə əsas gəlir kənd təsərrüfatında ipəkçilik birinci məşğuliyyət sahəsidir və əhali digər sahələrə nisbətən bu sahənin inkişafına daha çox fikir verirdilər. İldən-ilə ipəkçilik daha böyük inkişaf edir"[666].

1890-cı ildə İrəvan quberniyasında hasilat gücü 50000 rubl olan 14 baramaaçan zavod fəaliyyət göstərmiş, lakin sonrakı ildə zavodların sayında artım müşahidə olunmuşdur. Belə ki, 1891-ci ildə Naxçıvan qəzasının Ordubad dairəsində və Şərur-Dərələyəz qəzasının bəzi kəndlərində 1500 pud barama əldə edilmiş, bir pud baramanın dəyəri isə 9-14 rubl arasında olmuşdur. İrəvan quberniyasında ipək 22 zavodda hasil edilmiş və həmin zavodların illik gəliri isə 72000 rubl idi. Hasil edilmiş ipək Moskvaya və xaricə ixrac olunurdu[667].

XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəllərində İrəvan quberniyasında baramaçılığın inkişafı ildən-ilə daha da sürətləndi. Baramaçılıq əsasən, əvvəlki illərdə olduğu kimi, Naxçıvan qəzasının Ordubad dairəsində toplanmışdı. 1899-cu ilin məlumatına görə, İrəvan quberniyasında 3600 pud barama əldə edilmiş, bir pud barama 15 rubla satılmışdır. Həmin il əhali baramadan 54000 rubl gəlir götrmüşdür. Xam barama 343 işçisi olan 19 ba-

---

[665] Обзор Эриванской губернии за 1883 г., с.17.

[666] Гугушвили П.В., Шелководство в Грузии и Закавказье в XIX-XX вв., Тблиси, Изд-во Акад. Наук Груз. ССР, 1960, с.44.

[667] Памятная книжка Эриванской губернии на 1902, с.115; Обзор Эриванской губернии за 1891 г., с.13.

ramaaçan zavodda əldə edilmişdir[668].

1900-cü ildə İrəvan quberniyasında həm baramaaçan zavodların sayında, həm də əldə olunmuş baramanın miqdarında artım müşahidə olunmuşdur. Həmin il yerli əhali 5400 pud (əvvəlki ildən 1800 pud çox barama) barama əldə etmiş, bir pud barama 17 rubla satılmışdır. Baramadan götürülmüş təmiz gəlir isə 91800 rubl (əvvəlki ildən 37800 rubl və yaxud 70% çox barama) olmuşdur. Barama 439 işçisi olan 21 zavodda hasil edilmişdir[669].

1901-ci ildə İrəvan quberniyasında 5500 pud barama əldə edilmiş, həmin baramanın 600 pudu barama toxumunun hazırlanmasına, 4900 pudu isə satılmışdır. 600 pud xam baramadan 35 pud toxum hazırlanmış, həmin toxumdan 40320 rubl, satılmış 4900 pud baramadan isə 42794 rubl təmiz gəlir, ümumilikdə isə həmin il tək Naxçıvan qəzasından ipəkçilikdən 85814 rubl ümumi gəlir əldə edilmişdir. Naxçıvan qəzasından başqa Şərur-Dərələyəz qəzasında həmin il 14 pud barama hasil olunmuş, bir pud barama 14 rubla satılmışdır[670].

1902-ci ildə İrəvan quberniyasında nisbətən az barama əldə edilmişdir. Hesabat ilində Naxçıvan qəzasında 4300 pud, Şərur-Dərələyəz qəzasında isə 15 pud barama hasil edilmişdir. Naxçıvan qəzasında bir pud barama 14 rubla, açılmış ipək 200 rubla, Şərur-Dərələyəz qəzasında isə bir pud barama 14 rubla satılmışdır[671].

1903-cü ildə Naxçıvan qəzasında 5610 pud (əvvəlki ilə nisbətən 1310 pud, yəni 30,5 % çox barama), Şərur-Dərələyəz qəzasında isə 16 pud barama hasil olunmuşdur. Bir pud barama 15 rubl 50 qəpiyə, açılmış ipək 200 rubla, ipək parçası isə 35 rubla satılmışdır[672].

1904-cü ildə əvvəlki ilə nisbətən 15,8 % çox barama əldə edilmişdir. Həmin il Naxçıvan qəzasında 6500 pud, Şərur-Dərələyəz qəzasında isə 18 pud barama hasil edilmiş, ilin birinci döv-

---

668 Обзор Эриванской губернии за 1899 г., с.7.
669 Обзор Эриванской губернии за 1900 г., с.7.
670 Обзор Эриванской губернии за 1901 г., с.10.
671 Обзор Эриванской губернии за 1902 г., с.3.
672 Обзор Эриванской губернии за 1903 г., с.5.

ründə bir pud barama 15-14,5 rubla, ikinci dövründə isə 11 rubla, açılmış ipək əvvəlcə 200 rubla, sonra 190-180 rubla, ipək parça isə 30 rubla satılmışdır. Hətta baramanın bir hissəsi Moskvaya ixrac olunmuşdur. Şərur-Dərələyəz qəzasında bir pud barama 14 rubla satılmışdır[673].

1907-ci il məlumatına görə, Naxçıvan qəzasında 6361 pud (1906-cı ilə nisbətən 269 pud çox), Şərur-Dərələyəz qəzasında isə 27 pud xam barama tədarük edilmişdir. Naxçıvan qəzasında tədarük edilən xam baramanın bir pudu 18-20 rubl arasında, açılmış baramanın bir pudu 220 rubla, ipək parça isə 30 rubla, Şərur-Dərələzyəz xam ipəyinin bir pudu isə 14 rubla satılmışdır[674].

1908-ci il məlumatında İrəvan quberniyası üzrə yalnız Naxçıvan qəzasında tədarük edilən xam ipək haqqında məlumat verilmişdir. Quberniyanın İrəvan, Üçmüəzzin, Sürməli və Şərur-Dərələyəz qəzalarının düzənlik ərazilərində həddən az xam ipək tədarük edildiyindən statistikaya daxil edilməmişdir. Həmin ilin məlumatına görə, Naxçıvan qəzasında 4860 pud (1907-ci ilə nisbətən 501 pud az) xam ipək əldə edilmişdir. Xam ipəyin bir pudu 15, açılmış baramanın bir pudu 200, ipək parça isə 30 rubla satılmışdır[675].

1909-cu ildə Naxçıvan qəzasında 4990 pud barama əldə edilmiş, bu isə 1908-ci ilə nisbətən 130 pud çox idi. Baramanın hazır şəkildə pudu orta hesabla 15 rubla, açılmış şəkildə 250 rubla, parça şəklində isə 30 rubla satılmışdır. Həmin ilin statistikasında Naxçıvan qəzasında ipəyi emal etmək üçün illik dövriyyəsi 126240 rubl olan, 375 işçinin çalışdığı 16 müəssisə fəaliyyət göstərildiyi qeyd olunmuşdur[676].

1910-cu il statistikasına görə, Naxçıvan qəzasında 4380 pud (1909-cu ilə nisbətən 610 pud az barama) barama tədarük edilmiş, bir pud barama 18 rubla, açılmış ipək 200 rubla, ipək

---

[673] Обзор Эриванской губернии за 1904 г., с.8-9.
[674] Обзор Эриванской губернии за 1907 г., с.9.
[675] Обзор Эриванской губернии за 1908 г., с.10.
[676] Обзор Эриванской губернии за 1909 г., с.9.

parça isə 30 rubla satılmışdır. Quberniya üzrə illik gəliri 136200 rubl, 430 işçisi olan 16-dan 32-ə qədər ipək istehsal edən zavod fəaliyyət göstərmişdir[677].

Lakin sonrakı illərdə İrəvan quberniyası üzrə ipək tədarükündə bir qədər irəliləyişin olduğunu görmək mümkündür. Buna səbəb səlahiyyətli orqanların ipəkçiliyin inkişafına ildən-ilə daha geniş diqqət yetirməyə başlamaları idi. Belə ki, Cənubi Qafqazda ipəkçiliyi inkişaf etdirmək üçün 1910-cu ildə Türkiyədən, Fransadan, İtaliyadan, Bağdaddan 1200 pud dəyərində 8350 yeşik və yaxud 770000 qutu barama toxumu gətirilmişdir. Bundan 15000 qutu İrəvan quberniyasına (Naxçıvan, Ordubad və Əylisə) göndərilmişdir[678]. 1912-ci ildə İrəvan quberniyasında ipəkçilklə məşğul olan 2795 təsərrüfat qeydə alınmış, bunlardan 2795-i Naxçıvan qəzasının, 1285-i Ordubad dairəsinin, 136-ı Üçmiəzzinin, 21-i isə Şərur-Dərələyəz qəzasının payına düşmüşdü. Həmin təsərrüfatlardan Naxçıvan qəzasında 4378 pud (barama şəklində bir pud 11 rub 50 qəpiyə, emal formasında isə 190-200 rubla, ipək parça isə 40 rubla satılmışdi), Üçmüəzzin qəzasında 292 pud 20 funt (barama şəklində bir pud 12-18 rubla satılmışdi), Şərur-Dərələyəz qəzasında isə 45 pud (barama şəklində bir pud 11-16 rubla satılmışdi), ümumilikdə 4715 pud 20 funt barama əldə edilmişdir[679].

1913-cü ilin məlumatına görə, Naxçıvan və Ordubad şəhərləri də daxil olmaqla Naxçıvan qəzasında ipəkçiliklə məşğul olan 2861, Üçmüəzzin qəzasında 143, Şərur-Dərələyəzdə isə 11 təsərrüfat qeydə alınmışdır. 1913-cü ildə Naxçıvan qəzasında 5524 pud xam ipək (1912-ci ildən 26 $^{0}/_{0}$ çox), Üçmüəzzin qəzasında 287 pud, Şərur-Dərələyəz qəzasında 41 pud xam ipək tədarük edilmişdir. Xam ipəyin bir pudu 12-16 rubl arasında, açılmış ipəyin bir pudu 200 rubla, ipək parça isə 40 rubla satılmışdır[680].

---

677 Обзор Эриванской губернии за 1910 г, с.10.
678 Кавказский календарь за 1912, с.270-273.
679 Обзор Эриванской губернии за 1912 г., с.12.
680 Обзор Эриванской губернии за 1913 г., с.14.

İrəvan quberniyası üzrə barama hasilatında ən yüksək göstərici 1914-cü ildə qeydə alınmışdır. Həmin il İrəvan quberniyasında 16000 pud barama əldə edilmişdir. Əldə edilmiş bu baramadan Naxçıvan qəzasının payına 11000, İrəvan qəzasının payına 5901, Şərur-Dərələyəz qəzasının payına isə cəmi 44 pud barama düşmüşdür. Həmin il bir pud xam barama 14-17 publa, emal edilmiş barama 200 rubla, ipək parça isə 40 rubla satılmışdır[681].

1915-ci ildə Azərbaycanın müxtəlif yerlərində xam barama satılan bazarlar fəaliyyət göstərmişdir. İrəvan quberniyasında əsasən Naxçıvan, Ordubad və Culfada belə bazarlar var idi. Bu bazarlarda 1910-1914-cü illər arasında xam baramanın bir pudu orta bazar qiyməti 12-16 rubla, emal edilmiş quru baramanın bir pudu isə 40-60 rubla satılmışdır[682].

Cənubi Qafqazdan Rusiyaya və digər xarici ölkələrə xam barama ixrac edilirdi. İxraca İrəvan quberniyasında istehsal olunan barama da daxil idi. Məsələn, 1909-1913-cü illərdə Cənubi Qafqazdan xarici ölkələrə hər il orta hesabla 105000 pud emal olunmuş barama ixrac olunmuşdu. Cənubi Qafqaz baramasının ixrac olunduğu əsas dövlətlər Fransa, İtaliya, Almaniya, Avstriya-Macarıstan, İsveçrə və Kanada idi. Rusiya da bu siyahıya daxil idi. Təkcə həmin illərdə Rusiyaya orta hesabla 22000 pud xam barama, 87100 pud emal edilmiş xam ipək ixrac olunmuşdur[683].

İpək ixracının müəyyən hissəsi dəmir yolları ilə aparılırdı. Məlumata görə, 1908-ci ildə İrəvan dəmir yolu stansiyasından 14, 1912-ci ildə 118, 1914-cü ildə 39 pud, Naxçıvan dəmir yolu stansiyasından 117, 1912-ci ildə 610, 1914-cü ildə 380 pud, Culfa stansiyasından isə 527, 1912-ci ildə 552, 1914-cü ildə 64 pud ipək məhsulları ixrac olunmuşdur[684].

İpək istehsalında barama tədarük edən zavodların böyük

---

681 AMEA TİEA, iş.2929, v.83; Обзор Эриванской губернии за 1914 г., с.14-16.
682 AMEA TİEA, iş.2929, v.83.
683 AMEA TİEA, iş.2929, v.83.
684 Гугушвили П.В., Шелководство в Грузии и Закавказье в XIX-XX вв., с.103.

rolu olmuşdu. İrəvan quberniyasının “icmal”larında İrəvan quberniyasında 14-16-ya qədər belə zavodlar fəaliyyət göstərmişdi. V.Ququşvili isə əsərində göstərir ki, Cənubi Qafqazda I Dünya müharibəsindən qabaq (1908-1914) fəaliyyət göstərən 128 baramaaçan fabrikdən İrəvan quberniyasında yalnız 5-i fəaliyyət göstərmişdi[685]. Bunun da 3-ü Naxçıvanda idi[686].

Beləliklə, Azərbaycanın digər quberniyalarında olduğu kimi İrəvan quberniyasının kənd təsərrüfatında ipəkçiliyin də müəyyən rolu olmuş, lakin digər kənd təsərrüfatı məhsullarına nisbətən ipəkçilik zəif inkişaf etmişdir. Buna baxmayaraq, İrəvan quberniyasında tədarük edilən xam ipək Rusiyaya və Avropa ölkələrinə ixrac edilmişdi. İpəkçilik əsasən, Naxçıvan qəzasının Ordubad dairəsində daha çox ixtisaslaşmışdı.

İrəvan quberniyasının kənd təsərrüfatında gənəgərçək, küncüt, çətənə və kətan əkinçiliyi də əsas yerlərdən birini tutmuşdu. Hər üç bitki quberniyanın düzənlik ərazilərində, xüsusilə Araz çayının sahillərində yetişdirilirdi. Hər üç bitkidən yağ əldə edilirdi və bu yağlardan yemək bişirilməsində (əsasən ermənilərdə - E.Q.), çıraqların yandırılmasında istifadə olunurdu. Bu yağlar yalnız yerli əhalinin tələbatını ödəyir, ixrac olunmurdu. 1870-ci il məlumatına görə, İrəvan quberniyasında ümumi sahəsi 576 desyatin olan sahəyə ayrı-ayrı qəzalarda - İrəvan qəzasında 701 pud, Naxçıvan qəzasında 630 pud, Üçmüəzzin qəzasında 686 pud, bütünlüklə 2017 pud gənəgərçək toxumu səpilmiş, hər üç qəzadan 40340 pud məhsul əldə edilmişdi. Məhsuldarlıq 20 dəfə artıq idi. Əldə olunmuş ümumi məhsuldan 8068 pud yağ hasil olunmuş, həmin il gənəgərçəyin bir pudu 3-4 publa satılmışdır[687].

Küncüt haqqında 1870-ci il məlumatında isə yalnız İrəvan və Üçmüəzzin qəzalarında əldə edilmiş məhsulun miqdarı göstərilmişdir. İrəvan qəzasında 202 desyatin, Üçmüəzzin qəzasında isə 685 desyatin sahəyə ümumi çəkisi 1485 pud olan toxum sə-

---

685 Yenə orada, s.104.

686 Кавказский календарь за 1914, с.275.

687 Сборник сведений о Кавказе, 1872, т.II, с.177.

pilmişdi. Bu sahələrdən 111375 pud məhsul yığılmış və yığılan məhsuldan 37127 pud yağ əldə edilmişdir. Məhsuldarlıq isə 75 dəfə artıq idi. Qeyd edilən ilin əvvəllərində küncütün bir pudu 6-8, ilin axırlarında isə 13 rubla satılmışdı[688]. 1901-ci ildə isə 15000 pud küncüt, 1904-cü ildə isə 2600 pud əldə edilmişdi[689].

Kətan dağlıq ərazilərdə əkilirdi. Ondan yerli əhali yağ, quberniyanın Aleksandropol, Yenibəyazid qəzalarında yaşayan molokanlar isə ip və kisə hazırlayırdılar. 1870-ci ilin məlumatına görə, İrəvan qəzasında 156 desyatin, Naxçıvanda 281 desyatin, Aleksandripol qəzasnda 2656 desyatin və Yenibəyazid qəzasında isə 1920 desyatin sahəyə kətan əkilmişdi. Ümumilikdə 5313 desyatin olan sahəyə 31878 pud kətan toxumu səpilmiş, bu sahələrdən 191323 pud məhsul əldə edilmişdir. Aleksandropol qəzasından başqa adı çəkilən bütün qəzalarda məhsuldarlıq 6 dəfə artıq, yalnız Aleksandropal qəzasında məhsuldarlıq 5 dəfə artıq olmuşdur. Əldə olunmuş məhsuldan 31887 pud yağ hasil olunmuşdur ki, onun da hər pudu 4 rubla satılmışdı. Hasil olunmuş yağın bir hissəsi yerli əhali istifadə etsə də, bir hissəsi satılmaq üçün Tiflisə ixrac olunmuşdu[690].

İrəvan quberniyasının "icmallarında" illik hesabatlarda kətan, çətənə, küncüt və gənəgərçək yağlarının istehsalı və məbləği haqqında rəqəmlər öz əksini tapmışdır. 1891-ci ildə 200 yağ zavodunda ümumi dəyəri 35550 rubl, 1893-cü ildə 28630 rubl (26000 pud yağ bitkisi), 1894-cü ildə 29960 rubl, 1897-ci ildə 39204 rubl (14923 pud küncüt, 22088 pud gənəgərçək toxumu), 1898-ci ildə 20000 rubl (küncüt 14338 pud, gənəgərçək 8157 pud, çətənə 495 pud, kətan 8062 pud), 1899-cu ildə 134484 rubl (küncüt 11794 pud, gənəgərçək 2924, çətənə 280 pud, kətan 134484 pud), 1900-cü ildə 57522 rubl 10 qəpik (kətan 77452 pud, küncüt 8227 pud, gənəgərçək 8113 pud, çətənə 250 pud),

---

688 Сборник сведений о Кавказе, 1872, т.II, с.178.

689 Энциклопедический словар Брокгауз и Ефрона, т.XLI (81), с.12-13; Обзор Эриванской губернии за 1904 г., с.6.

690 Сборник сведений о Кавказе, 1872, т.II, с.178.

1901-ci ildə 50000 rubl (küncüt 6563 pud, gənəgərçək 85573 pud, kətan 13445 pud, çətənə 325 pud) yağ istehsal edilmişdir[691].

1904-cü il məlumatında İrəvan quberniyasında 92780 pud kətan, 280 pud çətənə, 1907-ci ildə 5330 pud gənəgərçək, 84000 kətan, 2235 pud küncüt pud, 116 pud çətənə, 190 pud, 1908-ci ildə 67000 pud kətan, 5000 pud gənəgərçək, 1000 pud küncüt, 100 pud çətənə yığılmışdır[692].

1909-1910-cu illərdə olan statistik məlumatlarda gənəgərçək, küncüt və çətənə yağlarının az miqdarda yerlərdə istifadə olunduğu bildirilmişdi. Yalnız Aleksandropol qəzasında 1910-cu ildə 24283 pud kətan yığılmış, onun 15 min pudu satılmaq üçün Tiflisə ixrac olunmuşdur[693].

Sonralar bu yağlardan yalnız kətan yağına böyük üstünlük verilmişdir. Belə ki, 1913-cü ilin məlumatına görə, Aleksandropol qəzasında 2808, Yenibəyazid qəzasında 711, Naxçıvan qəzasında 4, İrəvan qzasında 3, Sürməli qəzasında 3 və Üçmüəzzin qəzasında 3 desyatin sahəyə, ümumilikdə 3532 desyatin kətan əkilmişdir. Həmin il 41535 kətan, 90 pud çətənə, 500 pud küncüt toxumu yiğılmışdır[694].

1914-cü il məlumatıma görə, kətan əkinçilində geriləmə baş vermişdir. Əgər 1913-cü ildə 3532 desyatin sahəyə kətan əkilmişdirsə, 1914-cü ildə bu rəqəm 1860 desyatin olmuşdur. Bunlardan 927 desyatin Aleksandropol, 922 desyatin Yenibəyazid, 5 desyatin Naxçıvan, 3 desyatin İrəvan, 3 desyatin isə Şərur-Dərələyəz qəzalarının payına düşmüşdür. Ümumilikdə, həmin il

---

691 Обзор Эриванской губернии за 1891 г., с.8-9; Обзор Эриванской губернии за 1893 г., с.6, с.8; Обзор Эриванской губернии за 1894 г., с.7; Обзор Эриванской губернии за 1897 г., с.6, с.9; Обзор Эриванской губернии за 1898 г., с.4; Обзор Эриванской губернии за 1899 г., с.4; Обзор Эриванской губернии за 1900 г., с.4; Обзор Эриванской губернии за 1901 г., с.6.

692 Обзор Эриванской губернии за 1904 г., с.6; Обзор Эриванской губернии за 1907 г., с.6; Обзор Эриванской губернии за 1908 г., с.6-7.

693 Обзор Эриванской губернии за 1909 г., с.6; Обзор Эриванской губернии за 1910 г., с.6.

694 Обзор Эриванской губернии за 1913 г., с.8.

35379 pud kətan əldə edilmişdir. Bundan əlavə, həmin il Sürməli qəzasında 3 desyatin çətənə sahəsindən 90 pud, Yenibəyazid qəzasında 31 desyatin sahədən 222 pud çətənə, Sürməli qəzasında 5 desyatin küncüt sahəsindən 150 pud, Üçmüəzzin qəzasında isə 2 desyatin sahədən 60 pud küncüt, Sürməli qəzasında 4 desyatin gənəgərçək sahəsindən 100 pud məhsul əldə edilmişdir [695].

İrəvan quberniyasının kənd təsərrüfatında yonca, ot tədarükü də böyük rol oynamışdır. Mal-qaranın, atın, ulağın və digər kənd təsərrüfatı heyvanlarının qışda yemə olan tələbatını ödəmək üçün yonca, ot tədarükü yerli əhalinin məşğuliyyət işlərindən biri olmuşdur. Bu məşğuliyyət sahəsi elə böyük əhəmiyyət kəsb etmişdi ki, hökumət nümayəndələri illik hesabatlarda yem tədarükü haqqında da geniş məlumatlar vermişdilər. Ot tədarükündə yonca əsas rol oynamışdır. Yonca əsasən düzənlik ərazilərdə əkilirdi. Onun əkildiyi sahələr 5-7 ildən bir dincə qoyulurdu. Torpaq dincəldikdən sonra daha bol məhsul verirdi. Dincəlmiş torpağa yonca toxumu əkilirdi. Qeyd etmək lazımdır ki, yoncanın toxumu İrəvanda 4-7 rubla satılmışdı[696].

1870-ci il məlumatına görə, İrəvan quberniyasında qəzalar üzrə əkilmiş yonca sahəsi İrəvan qəzasında 2107, Naxçıvan qəzasında 1012, Üçmüəzzin qəzasında 2121, Aleksandropol qəzasında 400, Yenibəyazid qəzasında 526 desyatin, ümumi sahəsi isə 6166 desyatin olmuşdur. Bu sahələrdən iki milyon puddan çox yonca yığılmış, vaxtından və yerindən asılı olaraq yığılan məhsulun bir pudu 10-25 qəpiyə satılmışdır[697].

XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəllərinə olan illik hesabatlarda İrəvan quberniyası üzrə yonca, ot və digər yem növlərinin tədarükü haqqında daha ətraflı məlumat verilmişdir. 1898-ci ildə quberniya üzrə 11617155 pud, 1899-cu ildə 5300000 pud, 1900-cu ildə 11620575 pud (əvvəlki ildən 6320576 pud çox, 2887074 rubl dəyərində) müxtəlif növ ot təda-

---

[695] Обзор Эриванской губернии за 1914 г., с.9-10.
[696] Сборник сведений о Кавказе, 1872, т.II, с.169.
[697] Сборник сведений о Кавказе, 1872, т.II, с.180.

rük edilmişdir[698].

1901-ci ildən başlayaraq illik hesabatlarda İrəvan quberniyasında qəzalar üzrə yığılan müxtəlif ot növləri və satışı haqqında geniş məlumat verilmişdir. Aşağıdakı cədvəldə 1901-ci ildə qəzalar üzrə yığılan otun miqdarı və satış qiyməti haqqında məlumatı əyani izləmək mümkündür[699]:

| Qəzalar | Yığılıb pudla | | | | 1 pud otun qiyməti | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | ot | yonca | Şambalı və korinq | Digər ot növləri | ot | yonca | Şambalı və korinq | Digər ot növləri |
| | | | | | Qəpiklə | | | |
| İrəvan | 240600 | 112300 | - | - | 25 | 30 | - | - |
| Naxçıvan | 35000 | 100000 | 13400 | 34000 | 25 | 30 | 25 | 10 |
| Sürməli | 2261900 | 985000 | 0 | 0 | 25 | 40 | - | - |
| Şərur- | 360000 | 28700 | - | - | 40 | 60 | 25 | - |
| Dərələyəz | 4000000 | 160000 | 10000 | - | 25 | 30 | - | - |
| Yenibəyazid | 250000 | - | - | - | 25 | 30 | - | - |
| Aleksandropol | 159500 | 112000 | - | - | 25 | 30 | - | - |
| Üçmüəzzin | | | - | - | | | | |
| Yekun | 7307000 | 1498000 | 144000 | 340000 | 25 | 35 | 25 | 10 |

Cədvəldən göründüyü kimi, İrəvan quberniyasında həmin il qəzalardan 2421050 rubl dəyərində 9289000 pud (keçən ilkindən 2231000 pud az) müxtəlif növdə ot tədarük olunmuşdur.

1902-ci ildə İrəvan quberniyasında daha çox ot tədarük edilmişdir. Bol yağışlar yağdığına görə, həmin il quberniya üzrə 12602000 pud (keçən ilkindən 3313000 pud çox) müxtəlif ot növü yığılmış, bunlardan 7034000 pud ot, 1601000 pud isə yonca olmuşdur. İrəvan quberniyasında otun 1 pudu 30 qəpiyə, yonca 40 qəpikdən 50 qəpik arasında, digər ot növləri isə 10 qəpikdən 30 qəpik arasında satılmışdır[700].

---

[698] Обзор Эриванской губернии за 1898 г., с.5; Обзор Эриванской губернии за 1899 г., с.5; Обзор Эриванской губернии за 1900 г., с.5.
[699]Обзор Эриванской губернии за 1901 г, с.7.
[700] Обзор Эриванской губернии за 1902 г., с.2.

1903-cü ildə İrəvan quberniyasında az ot yığılmışdır. Həmin il 8672500 pud müxtəlif ot növü tədarük edilmiş, bu ot növlərindən 1642000 pud yoncanın, 6545000 pud otun, 485000 pud digər ot növlərinin payına düşmüşdür. Ot az tədarük edildiyinə görə, keçənilkinə nisbətən qiymətlər bahalaşmış, 1 pud yonca 35 qəpikdən 80 qəpik arasında, ot 25 qəpkdən 50 qəpik arasında, digər ot növləri isə 45 qəpiyə satılmışdır[701].

1904-cü ildə İrəvan quberniyasında 9757690 pud ot tədarük edilmişdir. Aşağıdakı cədvəldə ayrı-ayrı qəzalar üzrə yığılan və satılan ot məhsulları haqqında məlumat belədir[702]:

| Qəzalar | yığılan ot (pudla) | yonca (pudla) | şambalı (pudla) | digər yem otları (pudla) | 1 pud ot | 1 pud yonca | 1 pud şambalı | 1 pud digər otlar |
|---|---|---|---|---|---|---|---|---|
| İrəvan | 295500 | 84320 | 15050 | - | 0,4 qəp. | 0,65 qəp. | 0,6 qəp. | - |
| Sürməli | 2545373 | 1245950 | - | 37000 | 0,25 qəp. | 0,4 qəp. | - | 0,1 |
| Yenibəyazid | 4000000 | 125000 | - | - | 0,35 qəp. | 0,6 qəp. | - | - |
| Aleksandropol | 356000 | - | - | - | 0,35 qəp. | - | - | - |
| Şərur-Dərələyəz | 345500 | 98300 | 67000 | 4700 | 0,4 qəp. | 0,7 qəp. | 0,5 qəp. | 0,2 |
| Naxçıvan | 36000 | 12000 | 80000 | 300000 | 0,45 qəp. | 0,6 qəp. | 0,4 qəp. | 0,15 |
| Yekun | 7580370 | 1673570 | 162050 | 341700 | | | | |

1907-ci ildə İrəvan quberniyası üzrə 12408995 pud ot tədarük edilmişdir. Ayrı-ayrı qəzalar üzrə vəziyyət belə idi[703]:

| Qəzalar | yığılan ot (pudla) | yonca (pudla) | şambalı (pudla) | digər yem otları (pudla) | 1 pud ot | 1 pud yonca | 1 pud şambalı | 1 pud digər otlar |
|---|---|---|---|---|---|---|---|---|
| İrəvan | 215000 | 95600 | 24860 | - | 0,4 qəp. | 0,5 qəp. | 0,7 qəp. | - |
| Sürməli | 2480600 | 1320400 | - | 39600 | 0,4 qəp. | 0,5 qəp. | 0,2 | - |
| Üçmüəzzin | 304735 | 540200 | - | - | 0,4 qəp. | 0,5 qəp. | - | - |
| Yenibəyazid | 6500000 | 45000 | - | - | 0,7 qəp. | - | - | - |
| Aleksandropol | 190000 | - | - | - | 0,4 qəp. | 0,5 qəp. | - | - |

[701] Обзор Эриванской губернии за 1903 г., с.3.
[702] Обзор Эриванской губернии за 1904 г, с.6.
[703] Обзор Эриванской губернии за 1907 г, с.7.

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Ş.-Dərələyəz<br>Naxçıvan<br>Yekun | 340500<br>28000<br>10058835 | 65000<br>100000<br>1966200 | 453000<br>70000<br>140160 | 4200<br>200000<br>243800 | 0,5 qəp.<br>- | 0,6 qəp.<br>0,8 | 0,4 qəp.<br>0,55 | 0,2<br>0,20 |

Cədvəldən göründüyü kimi, İrəvan quberniyasında həmin il 12408995 pud ot yemi yığılmışdır. Yığılan ot 1906-cı ilə nisbətən zəif olmuşdur.

1908-1910-cu illərdə İrəvan quberniyasında ot tədarükündə daha çox artım olmuşdur. Məsələn, 1908-ci ildə quberniya üzrə 13501100 pud ot yemi yığılmışdır. Ayrı-ayrı qəzalar üzrə yığılan və satış qiymətləri haqqında müxtəlif ot növlərinin miqdarı belə idi[704]:

| Qəzalar | yığılan ot (pudla) | yonca (pudla) | şambalı (pudla) | digər yem otları (pudla) | 1 pud ot | 1 pud yonca | 1 pud şam-balı | 1 pud digər otlar |
|---|---|---|---|---|---|---|---|---|
| İrəvan<br>Sürməli<br>Üçmüəzzin<br>Yenibəyazid<br>Aleksandropol<br>Şərur-Dərələyə<br>Naxçıvan<br>Yekun | 264700<br>2510600<br>308800<br>7000000<br>200000<br><br>728000<br>30000<br>11042100 | 127900<br>1350700<br>432100<br>21300<br>-<br><br>72000<br>120000<br>2124000 | 32800<br>-<br>-<br>-<br>-<br><br>15200<br>80000<br>128000 | -<br>-<br>-<br>-<br>-<br><br>7000<br>200000<br>207000 | 0,65 qəp.<br>0,4 qəp.<br>0,4 qəp.<br>0,4 qəp.<br>0,5 qəp.<br><br>0,3 qəp.<br>0,6 | 0,75 qəp.<br>0,6 qəp.<br>0,55 qəp.<br>0,5<br>-<br><br>0,5 qəp.<br>0,7 qəp. | -<br>-<br>-<br>-<br>-<br><br>-<br>- | -<br>-<br>-<br>-<br>-<br><br>0,15<br>0,30 |

1909-cu il ilin hesabatında quberniya üzrə 14526356 pud ot tədarük edilmişdir. Kənd təsərrüfatının bu sahəsində ayrı-ayrı qəzalarda vəziyyət belə idi[705]:

| Qəzalar | yığılan ot (pudla) | yonca (pudla) | şambalı (pudla) | digər yem otları (pudla) | 1 pud ot | 1 pud yonca | 1 pud şam balı | 1 pud digər otlar |
|---|---|---|---|---|---|---|---|---|
| İrəvan<br>Sürməli<br>Üçmüəzzin<br>Yenibəyazid | 290000<br>2512500<br>367000<br>7000000 | 173000<br>1380350<br>283780<br>21400 | 22000<br>-<br>-<br>- | -<br>-<br>-<br>- | 0,6 qəp.<br>0,35 qəp.<br>0,35 qəp.<br>0,4 qəp. | 0,7 qəp.<br>0,5 qəp.<br>0,5 qəp.<br>0,5 | 0,7<br>-<br>-<br>- | -<br>-<br>-<br>- |

[704] Обзор Эриванской губернии за 1908 г, с.7.
[705] Обзор Эриванской губернии за 1909 г, с.7.

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Aleksandropol | 255000 | 326 | - | - | 0,3 qəp. | 0,3 | - | - |
| Şərur-Dərələyəz | 735000 | 90000 | 17400 | 3600 | 0,2 qəp. | 0,4 qəp. | 0,4 | 0,1 |
| Naxçıvan | 30000 | 125000 | 75000 | 210000 | 0,6 | 0,7 qəp. | 0,5 | 0,3 |
| Yekun | 11099500 | 3198856 | 114400 | 213600 | | | | |

1910-cu ildə İrəvan quberniyasında ot tədarükündə əla nəticə alınmışdı. Həmin il 27274590 pud ot tədarük edilmiş və ayrı-ayrı qəzalar üzrə vəziyyət belə idi[706]:

| Qəzalar | yığılan ot (pudla) | yonca (pudla) | şambalı (pudla) | digər yem otları (pudla) | 1 pud ot | 1 pud yonca | 1 pud şam-balı | 1 pud digər otlar |
|---|---|---|---|---|---|---|---|---|
| İrəvan | 305500 | 175000 | 25000 | - | 0,5 qəp. | 0,6 qəp. | 0,6 | - |
| Sürməli | 2515400 | 1382200 | - | - | 0,5 qəp. | 0,7 qəp. | - | - |
| Üçmüəzzin | 339550 | 389650 | - | - | 0,4 qəp. | 0,5 qəp. | - | - |
| Yenibəyazid | 20000000 | 23300 | - | - | 0,4 qəp. | 0,5 | - | - |
| Aleksandropol | 300000 | 420 | - | - | 0,4 qəp. | 0,4 | - | - |
| Şərur-Dərələyəz | 678500 | 82000 | 15300 | 3500 | 0,25 qəp | 0,45 qəp. | 0,4 | 0,1 |
| Naxçıvan | 25750 | 824820 | 69500 | 119190 | 0,6 | 0,76qəp. | 0,6 | 0,4 |
| Yekun | 24164710 | 2877390 | 109800 | 122690 | | | | |

1909-cu ilin illik hesabatında göstərilir ki, Qafqazın Baş rəisliyinin məsləhəti ilə İrəvanın Torpaq İdarəsi 1908-ci ildə təcrübə üçün Yenibəyazid və Şərur-Dərələyəz qəzalarının dağlıq ərazisində - paxlalılar fəsilindən yemlik bitki olan xaşa əkilməyə başlanıldı[707]. Bu özünü 1912-ci hesabatında göstərmişdi. Həmin il ümumilikdə 21823025 pud ot tədarük edilmiş, bunun 11470 pudu xaşa olmuşdur. Aşağıdakı cədvəldə ayrı-ayrı qəzalar üzrə ot tədarükündə vəziyyət belə idi[708]:

---

[706] Обзор Эриванской губернии за 1910 г, с.7
[707] Обзор Эриванской губернии за 1909 г., с.7.
[708] Обзор Эриванской губернии за 1912 г, с.9.

| Qəzalar | yığılan ot (pudla) | yonca (pudla) | Xaşa (pudla) | Şambalı (pudla) | digər yem otları (pudla) | 1 pud ot | 1 pud yonca | 1 pud xaşa | 1 pud şanbalı |
|---|---|---|---|---|---|---|---|---|---|
| İrəvan | 3450000 | 532000 | | 35000 | - | 0,4-, 0,45 | 0,5-0,65 | - | - |
| Sürməli | 1122000 | 1014000 | | - | 225 | 0,3-0,5 | 0,35-0,7 | - | 0,3 |
| Üçmüəzzin | 936000 | 379000 | | - | - | 0,3-0,4 | 0,4-0,55 | - | - |
| Yenibəyazid | 10800000 | 23000 | 22000 | - | - | 0,15-0,6 | 0,25-0,4 | 0,4 | - |
| Aleksandropol | 901000 | 1100 | 700 | - | 14000 | 0,3-0,35 | 0,35 | 0,35 | 0,25 |
| Şərur-Dərələyəz | | | | | | | | | - |
| Naxçıvan | 1675000 | 340000 | 92000 | - | - | 0,35-0,4 | 0,4-0,6 | 0,4 | 0,4 |
| Yekun | 207000 | 134000 | - | 143000 | 2000 | 0,3-0,55 | 0,55-0,8 | - | |
| | 19091000 | 2423100 | 114700 | 178000 | 16225 | | | | |

1913-cü ildə yağışların olmaması və quraqlığın keçməsi üzündən İrəvan quberniyasında 1912-ci ilə nisbətən 56 $^{0}/_{0}$ az ot yığılmışdı. Aşağıdakı cədvəldə ayrı-ayrı qəzalar üzrə yığılan otun miqdarı belə göstərilmişdi[709]:

| Qəzalar | yığılan ot (pudla) | yonca (pudla) | Xaşa (pudla) | şambalı (pudla) | digər yem otları (pudla) | 1 pud ot | 1 pud yonca | 1 pud xaşa | 1 pud şanbalı |
|---|---|---|---|---|---|---|---|---|---|
| İrəvan | 2494200 | 238350 | - | 4000 | - | 0,4-, 0,5 | 0,5-0,8 | - | 0,35 |
| Sürməli | 715450 | 674120 | - | - | - | 0,5-0,6 | 0,4-0,7 | - | - |
| Üçmüəzzin | 704530 | 356240 | - | - | 10000 | 0,4-0,5 | 0,6 | - | - |
| Yenibəyazid | 1692200 | 23150 | 42000 | 570 | - | 0,5 | 0,5-0,6 | 0,45-0,6 | 0,45 |
| Aleksandropol | 1074810 | 865 | 3380 | - | | 0,5-0,6 | 0,6-0,7 | - | - |
| Şərur-Dərələyəz | 1056190 | 113880 | 65000 | 175 | 80 | 0,3-0,4 | 0,4-0,6 | 0,3-0,4 | 0,3-0,4 |
| Naxçıvan | 24260 | 145900 | 3000 | 163720 | 20300 | 0,4 | 0,55-0,8 | 0,7 | 0,4 |
| Yekun | 7821640 | 1552505 | 113380 | 168465 | 168465 | | | | |

Cədvəldən göründüyü kimi, həmin ildə İrəvan quberniyasında ümumilikdə 9686370 pud ot yemi yığılmışdır.

1914-cü il hesabatında isə İrəvan quberniyasında ot yığımında xeyli çoxalma olmuşdur. Həmin il quberniya üzrə 11298485 pud ot tədarük olunmuşdur. Ayrı-ayrı qəzalar üzrə ot tədarükü belə idi[710]:

| Qəzalar | yığılan ot (pudla) | yonca (pudla) | Xaşa (pudla) | şambalı (pudla) | digər yem otları (pudla) | 1 pud ot | 1 pud yonca | 1 pud xaşa | 1 pud şanbalı |
|---|---|---|---|---|---|---|---|---|---|
| İrəvan | 1981065 | 217380 | - | 26375 | - | 0,2-, 0,8 | 0,3-0,8 | - | 0,3-0,4 |
| Sürməli | 910110 | 727950 | - | - | - | 0,5 | 0,5-0,8 | - | - |
| Üçmüəzzin | 742679 | 376200 | - | - | - | 0,3-0,6 | 0,4-0,7 | - | - |
| Yenibəyazid | 3609570 | 44140 | 37720 | 1110 | - | 0,3-0,4 | 0,4-0,6 | 0,3-0,6 | 0,5-0,6 |
| Aleksandropol | 1611409 | 112 | 4136 | 255 | - | 0,2-0,4 | 0,4 | 0,3 | 0,5 |
| Şərur-Dərələyəz | 476880 | 57454 | 940 | 13610 | 90 | 0,3 | 0,4-0,7 | 0,3-0,4 | 0,3-0,4 |
| Naxçıvan | 155780 | 112770 | 31670 | 138080 | 21000 | 0,2-0,5 | 0,3-1,2 | 0,3-0,8 | 0,4-0,8 |
| Yekun | 9487493 | 1536006 | 74466 | 179430 | 21090 | | | | |

709 Обзор Эриванской губернии за 1913 г, с.9.
710Обзор Эриванской губернии за 1914 г, с.9.

Yuxarıda göstərilən cədvəllərdən görünür ki, İrəvan quberniyasının kənd təsərrüfatında ot tədarükü ildən-ilə böyük rol oynamışdır.

**Bağçılıq və bostançılıq.** İrəvan quberniyasının iqtisadiyyatında bağçılıq və bostançılıq da xüsusi rol oynamışdır. Əlverişli iqlim şəraiti burada meyvəçiliyin inkişafına səbəb olmuşdur. İrəvan quberniyasının aran, suvarma üçün əlverişli yerlərində meyvəçilik kənd təsərrüfatının əsas sahəsi idi. Quberniya başdan-başa müxtəlif meyvə bağları ilə əhatə olunmuşdu. XIX yüzilliyin 90-cı illərinin əvvəllərində İrəvanda olan səyyah H.F.B.Linç bölgənin meyvə bağlarına valeh olaraq yazırdı ki, "Meyvə bağları ideal formada və cürbəcür rəngli meyvələrlə örtülmüşdür. Biz böyük və şəffaf rəngdə budaqlarda sallanan şəftalilərdən, yanında budaqlarda ağırlıqdan əyilmiş alma və armuddan, bol qozdan və tut ağaclarından ləzzət alırdıq. Qısa üzüm tənəklərindən bol üzümlər sallanırdı"[711]. Daha sonra meyvə növlərini tərifləyən səyyah qeyd edirdi ki, "İrəvan meyvələrinin dünyada demək olar ki, rəqabəti yox idi..."[712]. İrəvan müəllimlər seminariyasının müəllimi Devitski 1894-cü ilin yayında İrəvan quberniyasına səyahət edərkən öz gündəliyində qeyd etmişdi ki, "yolların sağ və solunda palçıq hasarlarla bölünmüş böyük meyvə bağları, üzümlüklər, bostanlar uzanırdı..."[713]. Hətta yaxşı gəlir gətirdiyinə görə vəzifəsindən asılı olmayaraq-tacir, dövlət qulluqçuları, sənərkarlar və digərləri bağçılıqla məşğul olurdular[714]. Bağlar əsasən Araz çayının vadisində, dağların ətəklərində və iri çaylardan çəkilmiş arxların, kanalların kənarında xüsusilə bol idi. Ümumiyyətlə, İrəvan quberniyasında meyvəçilik güclü inkişaf etmişdi. Məlumata görə, quberniyada ən çox meyvəçiliyin inkişaf etdiyi

---

[711] Линч Х.Ф.Б., Армения. Путевые очерки этюды, т.1, с.186.

[712] Yenə orada, c.295.

[713] Сборник материалов для описания местностей и племен Кавказа, выпуск 21, с.80.

[714] Сборник материалов для описания местностей и племен Кавказа, выпуск 1, с.23.

yer Ordubad şəhəri və onun ətraf kəndləri idi[715].

İrəvan quberniyasında bağlar üç qrupa bölünmüşdü. Birinci qrup həyətyanı bağ, yaxud bağça adlanırdı. Adətən sahəsi az olan, meyvə bağları adlandırılan bu sahələr hər bir evin ətrafında yerləşirdi. İkinci qrupa şəhərətrafı iri bağlar daxil idi ki, əhalinin məskunlaşmadığı yerlərdə salınmışdı. Üçüncü qrupa üzüm bağları daxil idi[716].

Meyvə bağlarında müxtəlif meyvələrin cürbəcür növlərinə rast gəlmək olardı. Bu meyvə bağlarında alma, şaftalı, ərik, gavalı, alça, gilas, xurma, heyva, əncir, qoz, nar, tut, albalı, iydə, zoğal, zirinc, ceviz və digər yerli meyvələr yetişdirilirdi. Bəzi meyvələr müxtəlif növləri ilə məşhur idi. Məsələn, şaftalının 4-şafran, yarma, kərdi, şirəli; alçanın 7-isfahan, təbriz, qırmızı, sulatan, xarci, çəyirdəkdən çıxma, göyçə; gavalının 6-vəziri, xatun barmağı, sarı yaxud albuxara, daş və yaxud qara, göy, cancur; əriyin 10-badamı, tez yetişən, ağca nabat, göyçə nabat, xosrof şah, təbərzə, ağ, Ordubad, xarci, acı; almanın 14-cənnət, girdə-şirin, hacı Hüseynəli, vahab, uzun sap, akska, kərbalayı cəfər, qara, kalata, kalamfir, halal, söyüt, eşşək, uzunnuz; gilasın 4-sarı, tezyetişən, qara, qırmızı; armudun 5-malaça, bildirçin budu, hacımehdi, quş, rus; heyvanın 3-ordubad, çuvaklı, turş; tutun 5-badana, çardaqlı, şahtut, xartut, cır tut; cevizin 3-kətanköynək, sucuq cövüz, girgit; iydənin isə innabi, təbriz və yaxud barmaq iydə növləri vardı[717].

İrəvan quberniyasının bəzi meyvələri növünə, çeşidinə, böyüklüyünə, dadına, rənginə və ətrinə görə bütün Cənubi Qafqaz-

---

[715] Сборник сведений о Кавказе, 1872, т.II, с.181; Сборник сведений о Кавказе, т.III, с.259.

[716] Сборник материалов для описания местностей и племен Кавказа, выпуск 1, с.24; Сборник материалов для описания местностей и племен Кавказа, выпуск 22, отдел II, с.55-118; Сборник сведений о Кавказе, 1872, т.II, с.181; Сборник сведений о Кавказе, т.III, с.258.

[717] Сборник материалов для описания местностей и племен Кавказа, выпуск 22, отдел II, с.79-118; Сборник материалов для описания местностей и племен Кавказа, выпуск 1, с.26-28.

da məşhur olmuşdur. Bunlardan Ordubad əriyini və İrəvan şaftalısını xüsusi qeyd etmək lazımdır. Bu meyvələr Tiflisə ixrac olunurdu[718].

İrəvan üzümü keyfiyyət və kəmiyyətinə görə digər meyvələri geridə qoymuşdu. İrəvan quberniyası öz üzümü ilə daha çox məşhur olmuşdur. Burada 40 növdə üzüm yetişdirilirdi. Bunlardan ağagörməz, xəlilli (tez yetişən, ağ və uzunömürlü), dayı yeyən, rişi-baba (uzun ömürlü, ağ və böyük), təbərzə (göyümtül, yumuru), kərim (nabat) xarci, ət xərci, əsgəri (ağ və kiçik), kişmişi, kişmişi-badana (ağ və kiik), qırmızı kişmişi, çəyirdəkli kişmişi, balaca kişmişi, misqalı (çox böyük, yumuru və ağ, xanım göbəyi, keçiməməsi, hüseyni, haçabaşı (üzünğmürlü, solğun göyümtül), əlvan-qara, anbarı, şirşirə, uzundərə və digər növlərini xüsusi qeyd etmək lazımdır[719].

Üzüm tənəklərinin hazırlanması və suvarılması haqqında da mənbələrdə məlumatlara rast gəlmək mümkündür. Tənəklər ildə bir dəfə mart ayında budanır, bir, iki və yaxud üç dəfə dəmir bellə dibi bellənirdi. Oktyabrın axırında, üzüm yığıldıqdan sonra üzüm tənəkləri şaxtadan qorunmaq üçün torpağa basdırılırdı. Martın əvvəlində isə tənəklər torpaqdan çıxarılır və ondan sonra budama başlayırdı. İrəvanda üzüm bağları yayda 4-5 dəfə suvarılırdı[720].

Mənbələrdə İrəvan quberniyası üzrə həm üzüm, həm də meyvə bağlarının sayı haqqında məlumatlara rast gəlmək mümkündür. Lakin verilən məlumatların böyük əksəriyyəti yığılmış üzümün miqdarı və ondan müxtəlif cür şərab hazırlanması haqqında olmuşdur. 1870-ci ilin sonlarında İrəvan quberniyasında 24481 bağ qeydə alınmışdır ki, onların da ümumi sahəsi 8458 desyatinə bərabər idi. Ayrı-ayrı qəzalar üzrə meyvə bağlarının

---

[718] Сборник сведений о Кавказе, 1872, т.II, с.181.

[719] Сборник материалов для описания местностей и племен Кавказа, выпуск 22, отдел II, с. 55-79; Сборник сведений о Кавказе, т.III, с.261.

[720] Сборник сведений о Кавказе, т.III, с.261-262.

sayı və sahəsi belə olmuşdur[721]:

| Qəzalar | Meyvə bağlarının ümumi sayı | Üzüm bağlarının ümumi sahəsi (desyatinlə) | Meyvə bağlarının ümumi sahəsi (desyatinlə) | Üzüm yığılıb (pudla) | Yığılıb 1 desyatin üzüm sahəsindən (pudla) |
|---|---|---|---|---|---|
| İrəvan | 10462 | 2890 | 1444 | 566440 | 196 |
| Naxçıvan | 6607 | 1454 | 726 | 244272 | 168 |
| Üçmüəzzin | 6972 | 1239 | 620 | 173460 | 140 |
| Aleksandropol | 440 | - | 85 | - | - |
| Yekun | 24481 | 5583 | 2875 | 984172 | - |

Cədvəldən göründüyü kimi, İrəvan quberniyasının meyvə bağları bütünlüklə təmsil olunmamışdır. Burada Yenibəyazid və Aleksandropol qəzalarında üzüm bağları göstərilməmişdir[722].

Qeyd etmək lazımdır ki, 1870-ci ildə İrəvan quberniyasının meyvə və üzüm bağlarından birlikdə 1 milyon pud təzə meyvə yığılmışdır. Yığılan meyvənin 984172 pudu üzümün, 15828 pudu isə digər meyvələrin payına düşmüşdür[723]. Quberniya üzrə bu meyvələrin $^{1}/_{5}$ və yaxud $^{1}/_{4}$ hissəsi xammal şəklində yerli əhalinin tələbatına və eyni zamanda şərab hazırlanmasına sərf edilmişdir. Meyvələrin $^{2}/_{5}$ hissəsi tər şəklində Yenibəyazid, Aleksandropol qəzalarının dağ kəndlərində satılmış və Tiflisə ixrac olunmuşdur. Meyvənin qalan $^{2}/_{5}$ hissəsi isə qurudulurdu. Həmin il yerlərdə tər şəftəli və almanın 1 pudu 70 qəpiyə, armud və heyva 1 rubla, vişnə və gilas 60 qəpiyə, alça və gavalı 40 qəpiyə, qurudulmuş halda əriyin 1 pudu 1 rubl 20 qəpiyə, şəftəli, vişnə və qara gavalı 2 rubla, alça 1 rubla, qoz 1 rubl 50 qəpiyə, tut isə 80 qəpiyə satılmışdı. Beləliklə yığılan meyvənin $^{2}/_{5}$ hissəsi əhalinin öz xeyrinə

---

721 Сборник сведений о Кавказе, т.III, с.259, с.345-346; Сборник сведений о Кавказе, 1872, т.II, с.181.

722 Сборник сведений о Кавказе, т.III, s.258.

723 Сборник сведений о Кавказе, 1872, т.II, с.181-183; Сборник сведений о Кавказе, т.III, с.345-346; Словар Российский империи, Составил П.Семенов, СПБ, 1885, т.V, с.866.

sərf olunmuş, $^{3}/_{5}$ hissəsi isə satılır və digər kənd təsərrüfatı məhsullarına dəyişdirilirdi[724].

Mənbənin verdiyi məlumata görə, İrəvanda 1 desyatin üzüm sahəsindən 360-450 pud arasında üzüm əldə olunmuşdu[725]. Üzümün $^{2}/_{3}$-i hissəsi şərab hazırlanmasına, $^{1}/_{3}$ hissəsi isə xalqın tələbatına sərf olunmuşdu. 1870-ci ildə orta qiymətlə şərab üçün əhəmiyyətli olan üzümün 1 xalvarı (30 pud) 8-10 rubl, şirniyyat üçün isə 15-25 rubl arasında satılmışdı. Qeyd etmək lazımdır ki, 10 pud üzümdən 3 pud şərab hazırlanırdı. 1870-ci il 656114 pud üzümdən 479585 vedrə şərab hazırlanmışdır. Həmin ildə əldə olunan şərabdan 23979 vedrə itkiyə getmiş, qalan 455606 vedrə isə quberniya daxilində istifadə olunmuşdur[726].

1870-ci ildə əldə olunan üzümdən hazırlanan şərabın miqdarı digər illərə nisbətən az hesab olunurdu. Mənbənin verdiyi məlumata görə, 10 il əvvəl üzümdən o qədər çox şərab hazırlanmışdı ki, həmin şərabın müəyyən qədəri Tiflisə və digər qonşu dövlətlərə ixrac olunmuş, şərabın 1 batmanı 25-50 qəpik arasında satılmışdı. 1870-ci ildə isə şərabın topdan satış qiyməti 40 qəpiklə 1 rubl arasında olmuşdur[727]. Quberniyada İrəvan şəhərində Dəlmə, İrəvan qəzasında Dyüqlin, Naxçıvan qəzasında Əylisli, Üçmüəzzin qəzasında isə Əştərək şərabı ən keyfiyyətli şərab hesab olunmuşdu[728].

İrəvan quberniyasında digər meyvələrdən və taxıl məhsullarından da şərab hazırlanırdı. Quberniyanın meyvəçiliklə bol olan İrəvan, Naxçıvan və Üçmüəzzin qəzalarının aran yerlərində əhali əsasən meyvədən şərab istehsal edirdilər. Məsələn, 1870-ci

---

[724] Сборник сведений о Кавказе, 1872, т.II, с.182; Словар Российский империи, с.866.
[725] Сборник сведений о Кавказе, т.III, с.262.
[726] Сборник сведений о Кавказе, т.III, с.262; Сборник сведений о Кавказе, 1872, т.II, с.183.
[727] Сборник сведений о Кавказе, 1872, т.II, с.183; Словар Российский империи, 1885, т.V, с.866.
[728] Сборник сведений о Кавказе, 1872, т.II, с.183; Словар Российский империи, 1885, т.V, с.866.

ildə həmin qəzalarda meyvələrdən 50000, taxıldan isə 10000 vedrə şərab hazırlanmışdı. Meyvədən hazırlanan şərabın 30000 vedrəsi Yenibəyazid və Aleksandropol qəzalarında satılmışdı. Qeyd etmək lazımdır ki, taxıldan hazırlanan şərab həmin il 3 rubl 60 qəpiklə 4 rubl arasında, meyvə şərabı isə ondan bir qədər çox qiymətə satılmışdı[729].

1882-ci ildə İrəvan quberniyasında 1557950 pud üzüm yığılmışdır ki, onun da bir hissəsi yerli əhalinin tələbatını təmin edən araq və çaxır hazırlanmasına getmişdir[730].

1886-cı ildə quberniya üzrə 1 milyon 100 min pud, 1887-ci ildə isə 1 milyon 690 min üzüm yığılmışdır. 1887-ci ildə yığılan üzümdən 262000 vedrə çaxır, 70000 vedrə araq hasil edilmişdir. Hasil edilmiş şərabın satışından 300 min rubl mənfəət götürülmüşdür[731].

XIX yüzilliyin 90-cı illəri-XX yüzilliyin əvvəllərində İrəvan quberniyasında yığılan həm üzüm, həm də digər meyvələr haqqında daha ətraflı məlumat verilmişdir. 1890-cı ildə İrəvan quberniyasında üzüm sahələrinin də daxil olduğu meyvə bağları 3600 desyatin ərazini əhatə etmişdir. Həmin il 1116640 pud üzüm, 183360 pud digər meyvələr (ərik, şaftalı, gavalı, qoz, alma, armud, gilas, albalı və s.) yığılmışdır[732].

Qeyd etmək lazımdır ki, İrəvan quberniyasında üzüm və digər meyvələr haqqında məlumatlara Yenibəyazid və Aleksandropol qəzaları üzrə məlumatlar daxil deyildı. 1891-ci ildə İrəvan quberniyasında 7226 desyatin sahəsi olan meyvə bağlarından (üzüm bura daxil deyildi) 330000 pud tər meyvə yığılmışdır. Bu meyvələrdən bir pud alma 1,7, armud 2, şaftalı 3, ərik 1,1, gavalı 2,7, albalı 1,3 rubla satılmışdır[733]. Həmin il 1329846 pud üzüm

---

[729] Сборник сведений о Кавказе, 1872, т.II, с.184; Словар Российский империи, 1885, т.V, с.866.

[730] Кавказский календарь на 1884, отдел III, с.291.

[731] Кавказский календарь на 1888, с.92; Кавказский календарь на 1890, с.38.

[732] Памятная книжка Эриванской губернии на 1902, с.112.

[733] Обзор Эриванской губернии за 1891, с.7.

yığılmışdır. Bu ilin illik hesabatına görə, quberniya üzrə göstərilən meyvə tədarükünün zəif olduğu bildirilmişdir.

1892-ci ildə İrəvan quberniyasında üzüm və digər meyvələrin tədarükündə daha çox geriləmə baş vermişdir. Üzüm istisna olmaqla 137350 pud tər meyvə yığılmış, bu da keçən ilə nisbətən 192650 pud az idi. Həmin il bazarlarda 1 pud şaftalı 2, 1 pud ərik 1 rubla, 1 pud alma 1 rubl 50 qəpiyə, armud 1 rubl 70 qəpiyə, gavalı 2 rubla, albalı 2 rubla, ərik qurusu isə 40 qəpiyə satılmışdır[734].

1892-ci il hesabatlarına görə, İrəvan quberniyasında da üzüm yığımında yaxşı nəticə əldə edilməmişdir. Aşağıdakı cədvəldə ayrı-ayrı qəzalar üzrə bunu əyani izləmək olar[735]:

| Qəzalar | Üzüm sahələri (desyatinlə) | Yığılmış üzüm (pudla) |
|---|---|---|
| İrəvan | 2103 | 292250 |
| Naxçıvan | 580 | 32000 |
| Sürməli | 200 | 5600 |
| Şərur-Dərələyəz | 315 | 38234 |
| Üçmüəzzin | 3005 | 751250 |
| Yekun | 6203 | 1119334 |

Cədvəldən göründüyü kimi, keçən ilə nisbətən 1892-ci ildə 210512 pud az üzüm tədarük edilmişdir.

1893-cü ildə üzüm istisna olmaqla İrəvan quberniyasında cəmi 80000 pud müxtəlif meyvə növü yığılmışdır. Lakin üzüm yığımında daha yaxşı nəticə əldə edilmişdir. Həmin il 1986597 pud üzüm yığılmışdır. Bu da keçən ilkinə nisbətən 867263 pud çox idi. Aşağıdakı cədvəl üzrə ayrı-ayrı qəzalarda üzüm bağlarının sahələri və yığılan üzümün miqdarı haqqında əyani məlumatı izləmək olar[736]:

---

[734] Обзор Эриванской губернии за 1892, с.5.
[735] Обзор Эриванской губернии за 1892, с.5.
[736] Обзор Эриванской губернии за 1893, с.6.

| Qəzalar | Üzüm sahələri (desyatinlə) | Yığılmış üzüm (pudla) |
|---|---|---|
| İrəvan | 3385 | 436725 |
| Naxçıvan | 1250 | 50100 |
| Sürməli | 409 | 140416 |
| Şərur-Dərələyəz | 454 | 56856 |
| Üçmüəzzin | 3405 | 1302500 |
| Yekun | 8903 | 1986597 |

İrəvan quberniyasında 1894-cü ilin sentyabr ayında havaların şaxtalı keçməsi meyvə tədarükünə, əsasən də üzüm yığımına mənfi təsir göstərmiş, həmin il keçən ilə nisbətən az məhsul yığılmışdır. Bu il 85000 pud müxtəlif növ meyvə, 1507256 pud üzüm tədarük edilmişdir. Aşağıdakı cədvəldə ayrı-ayrı qəzalar üzrə illik üzüm haqqında əyani məlumatı izləmək mümkündür[737]:

| Qəzalar | Üzüm sahələri (desyatinlə) | Yığılmış üzüm (pudla) |
|---|---|---|
| İrəvan | 3410 | 599200 |
| Naxçıvan | 1250 | 58100 |
| Sürməli | 410 | 122700 |
| Şərur-Dərələyəz | 456 | 58156 |
| Üçmüəzzin | 3405 | 669100 |
| Yekun | 8931 | 1507256 |

Cədvəldən göründüyü kimi, İrəvan quberniyasında keçən ilə nisbətən 479341 pud (24,1 %) az üzüm yığılmışdır.

1895-ci il illik hesabatda İrəvan quberniyası üzrə meyvə, əsasən də üzüm yığımı haqqında məlumtlar öz əksini tapsa da, nəticə çox zəif olmuşdur. Həmin il 80000 pud müxtəlif meyvə, 1053373 pud üzüm (keçən ilə nisbətən 453883 pud az) yığılmışdır. Ayrı-ayrı quberniyalar üzrə vəziyyət belə idi[738]:

[737] Обзор Эриванской губернии за 1894, с.3.
[738] Обзор Эриванской губернии за 1895, с.3.

| Qəzalar | Üzüm sahələri (desyatinlə) | Yığılmış üzüm (pudla) |
|---|---|---|
| İrəvan | 3560 | 399175 |
| Naxçıvan | 1566 | 55000 |
| Sürməli | 483 | 151381 |
| Şərur-Dərələyəz | 454 | 53277 |
| Üçmüəzzin | 3520 | 151381 |
| Yekun | 9583 | 1053373 |

1896-cı ildə üzüm tədarükündə çox az, lakin digər meyvələrin yığımında isə keçən ilə nisbətən yaxşı nəticəədə edilmişdir. Həmin il üzüm istisna olmaqla 120000 pud meyvə yığılmışdır. Aşağıdakı cədvəldə İrəvan quberniyasında 1906-cı ildə yalnız yığılan üzümün miqdarı haqqında məlumatları əyani izləmək mümkündür[739]:

| Qəzalar | Üzüm sahələri (desyatinlə) | Yığılmış üzüm (pudla) |
|---|---|---|
| İrəvan (İrəvan şəhəri ilə birlikdə) | 4086 (bunun 1450 desyatini İrəvan şəhərinin payına düşür) | 584975 |
| Naxçıvan | 1600 | 30000 |
| Sürməli | 604 | 2595 |
| Şərur-Dərələyəz | 349 | 50812 |
| Üçmüəzzin | 3422 | 172310 |
| Yekun | 10061 | 840692 |

Cədvəldən görmək olar ki, əkin sahələrinin keçən ilə nisbətən çox olmasına baxmayaraq az üzüm yığılmışdır. Bunun bir neçə səbəbi olmuşdur. 1906-cı ildə üzüm tənəklərinə xəstəliyin düşməsi, avqustun 30-da, əlverişli vaxt zamanı Üçmüəzzin qəzasında dolunun yağması üzümə böyük ziyan vurmuşdur.

Bu özünü şərab istehsalında da göstərmişdi. Yeni aksiz vergisinə görə, bir çox sahibkarlar xarab olmuş üzümləri şərab istehsalında istifadə etməyi lazım bilmədilər. Buna görə də, həmin il quberniya üzrə həm üzümdən, həm də tutdan 4975194,3

[739] Обзор Эриванской губернии за 1896, с.3.

dərəcə (keçən ilə nisbətən 1465449 dərəcə az) şərab hazırlanmışdı. 1906-cı ildə 1 pud üzüm 40-85 qəpik arasında, 1 vedrə çaxır 1 rubl-1 rubl 50 qəpik arasında, 1 vedrə araq isə 4-6 rubl arasında satılmışdır[740].

1897-ci ildə İrəvan quberniyasında bağların ümumi sahəsi 10083 desyatin olmuşdur. Bu bağ sahələrinin əksəriyyəti, 8657,33 desyatini üzüm bağlarının, 1586 desyatini isə digər meyvə bağlarının payına düşmüşdü. Həmin il İrəvan quberniyasında 51200 pud müxtəlif meyvə, 1260534 pud isə üzüm yığılmışdır. Aşağıdakı cədvəldə İrəvan quberniyasında üzüm sahələrinin və yığılan üzümün miqdarını əyani izləmək mümkündür[741]:

| Qəzalar | Üzüm sahələri (desyatinlə) | Yığılmış üzüm (pudla) |
|---|---|---|
| İrəvan (İrəvan şəhəri ilə birlikdə) | 4040 | 677880 |
| Naxçıvan | 1680 | 60000 |
| Sürməli | 598 | 222130 |
| Şərur-Dərələyəz | 345 | 53324 |
| Üçmüəzzin | 3422 | 247200 |
| Yekun | 10083 | 1053373 |

Cədvəldən göründüyü kimi, 1897-ci ildə keçən ilə nisbətən 419842 pud (49,9 %) çox üzüm yığılmışdır.

1898-ci il hesabatına görə, İrəvan quberniyasında həm üzüm, həm də digər meyvələrin tədarükündə yaxşı nəticə əldə edilmişdir. Həmin il üzüm istisna olmaqla 104764 pud (keçən ilə nisbətən 536564 pud və yaxud 104,6% çox meyvə) müxtəlif cür tər meyvə yığılmışdır. Bu meyvələr bazarlarda 1 rubl 50 qəpik-3 rubl 80 qəpik arasında satılmışdır. Meyvələrdən əldə edilən ümumi gəlir 104337, təmiz gəlir isə 60468 rubl (keçən ilə

---

[740] Обзор Эриванской губернии за 1896, с.3.

[741] Обзор Эриванской губернии за 1897, с.5; Сборник статистических данных о зеьлевладений и способах хозяйства в пяти губерниях Кавказского края, с.94-95.

nisbətən 38000 rubl çox) olmuşdur[742].

Həmin il üzüm yığımında daha çox nəticə əldə edilmişdir. 1898-ci ildə İrəvan quberniyasında üzümün əkin sahələrinin ümumi həcmi 20389 desyatin, bunun da 8430,5 desyatini aksiz nəzarətinin hesabında olmuşdur. Bütünlüklə, İrəvan quberniyasında 2015227 pud (keçən ilə nisbətən 754693 pud yaxud 59,8 % çox) üzüm yığılmışdır. Aşağıdakı cədvəldə üzüm haqqında əyani nəticələri izləmək mümkündür[743]:

| Qəzalar | Üzüm sahələri (desyatinlə) | Yığılmış üzüm (pudla) |
|---|---|---|
| İrəvan (İrəvan şəhəri ilə birlikdə) | 12972 | 1041352 |
| Naxçıvan | 2530 | 81020 |
| Sürməli | 901 | 224390 |
| Şərur-Dərələyəz | 490 | 29247 |
| Üçmüəzzin | 3496 | 639218 |
| Yekun | 20389 | 2015227 |

1898-ci ildə keçən ilə nisbətən çox üzüm əldə edilsə də, bu üzümlərdən $6017993^0$ spirt (keçən ilə nisbətən $112650^0$, 1,8% az) çəkilmiş, 745280 vedrə çaxır hasil edilmişdir. Bir vedrə çaxır 1 rubl 20-3 rubl arasında, spirt isə 3-7 rubl arasında satılmışdır.

İrəvan quberniyasında 1899-cu ildə 114631 pud (keçən ilə nisbətən 10000 pud çox) müxtəlif cür tər meyvə, 1765792 pud üzüm (keçən ilə nisbətən 249435 pud və yaxud 12,3% az) yığılmışdır. Aşağıdakı cədvəldə quberniya üzrə üzümün vəziyyəti haqqında əyani izləmək mümkündür[744]:

| Qəzalar | Üzüm sahələri (desyatinlə) | Yığılmış üzüm (pudla) |
|---|---|---|
| İrəvan (İrəvan şəhəri ilə birlikdə) | 6275 | 1010997 |

[742] Обзор Эриванской губернии за 1898, с.4.
[743] Обзор Эриванской губернии за 1898, с.3.
[744] Обзор Эриванской губернии за 1899, с.3.

| | | |
|---|---|---|
| Naxçıvan | 1599 | 142965 |
| Sürməli | 605 | 210100 |
| Şərur-Dərələyəz | 420 | 16895 |
| Üçmüəzzin | 3477 | 384835 |
| Yekun | 12376 | 1765792 |

Cədvəldən görmək olar ki, 1899-cu ildə üzüm sahələrinin həcmində və yığımında xeyli azalma baş vermişdir. Həmin il üzümdən 8685878 % spirt (keçən ilə nisbətən 2667885 % çox) çəkilmiş, 750513 vedrə (keçən ilə nisbətən 5000 vedrə çox) çaxır hasil edilmişdir. Çaxırın bir vedrəsi 1 rubl 30 qəpik arasında satılmış, ümumi gəliri 975667 rubl, hasil olunmuş 217147 vedrə arağın 1 vedrəsi 4 rubl 50 qəpik arasında satılmış, gəliri 977161 rubl olunmudur. Digər meyvələrin bir pudu 1 rubl 80 qəpik arasında satılmış, həmin meyvələrdən 206135 rubl gəlir əldə edilmişdir. Ümumilikdə, həm üzümdən, həm də digər meyvələrdən gələn ümumi gəlir 2158963 rubl, təmiz gəlir isə 1948588 rubl (keçən ilə nisbətən 1008120 rubl çox yaxud 107 %) olmuşdur[745].

1900-cü ildə İrəvan quberniyasında ümumilikdə 13165 desyatin (keçən ilə nisbətən 789 desyatin çox) üzüm və digər meyvə bağları qeydə alınmışdı. Həmin il üzüm istisna olmaqla 104707 pud (keçən ilə nisbətən 9924 pud, yaxud 8,6 % az) meyvə yığılmışdır. Aşağıdakı cədvəldə üzüm və digər meyvələrin ümumi sahələrini və yığılan üzümün miqdarını əyani izləmək olar[746]:

| Qəzalar | Üzüm və digər meyvə bağlarının sahələri (desyatinlə) | Yığılmış üzüm (pudla) |
|---|---|---|
| İrəvan (İrəvan şəhəri ilə birlikdə) | 6768 | 1118380 |
| Naxçıvan | 1650 | 158350 |
| Sürməli | 626 | 199554 |
| Şərur-Dərələyəz | 639 | 21580 |

745 Обзор Эриванской губернии за 1899, с.3.
746 Обзор Эриванской губернии за 1900, с.3.

| | | |
|---|---|---|
| Üçmüəzzin | 3482 | 549347 |
| Yekun | 13165 | 2047211 |

1900-cü ildə 1 pud üzüm 50 qəpiyə satılmış, üzümdən gələn ümumi gəlir 1023605 rubl, 2 rubldan satılan 104707 pud digər meyvələrdən gələn ümumi gəlir 209414 rubl, ümumilikdə isə həm üzümdən, həm də digər meyvələrdən əldə edilən ümumi gəlir 1233019 rubl 50 qəpik, təmiz gəlir isə 974108 rubl olmuşdur. Həmin il yığılmış üzümün 50 $^0/_0$ çaxır, 20 $^0/_0$ spirt hazırlanmasına, 30 $^0/_0$-i isə əhalinin yeməyinə sərf olunmuşdur[747].

Lakin 1901-ci ildə həm üzüm, həm də digər meyvələrin yığımında daha çox nəticə əldə edilmişdir. Həmin il üzüm istisna olmaqla 128229 pud (keçən ilə nisbətən 23522 pud və yaxud 22,4 % çox) meyvə yığılmışdır. Aşağıdakı cədvəldə İrəvan quberniyasında ayrı-ayrı qəzalar üzrə üzüm və digər meyvə bağlarının sahəsi və yığılan üzümün miqdarı haqqında ətraflı məlumatı görmək mümükündür[748]:

| Qəzalar | Üzüm və digər meyvələrin əkin sahələri (desyatinlə) | Yığılmış üzüm (pudla) |
|---|---|---|
| İrəvan | 7675 | 2211400 |
| Naxçıvan | 1680 | 148000 |
| Sürməli | 626 | 201279 |
| Şərur-Dərələyəz | 643 | 37920 |
| Üçmüəzzin | 2478 | 247000 |
| Yekun | 13102 | 2845599 |

Qeyd etmək lazımdır ki, 1900-cü ilə nisbətən 1901-ci ildə üzüm bağlarının sahəsi az olmasına baxmayaraq, həmin il 798388 pud və yaxud 39 % çox üzüm əldə edilmişdir. 1901-ci ildə yığılan üzümün bir hissəsi tər şəklində orta hesabla 80 qəpiyə satılmış, ümumi gəlir 2276479 rubl 20 qəpik, digər meyvələr isə

[747] Энциклопедический словар Брокгауз и Ефрона, т.81, с.13.
[748] Обзор Эриванской губернии за 1901, с.5.

1 rubl 35 qəpiyə satılmış, həm üzüm, həm də digər meyvələrin gəlirindən 2449588 rubl ümumi gəlir, təmiz gəlir isə 1460387 rubl 35 qəpik (keçən ilə nisbətən 486278 rubl 85 qəpik və yaxud 49,9 % çox) olmuşdur[749].

1902-ci il hesabatına görə, yazda şaxtaların düşməsi nəticəsində İrəvan quberniyasıda həm üzüm, həm də digər meyvələrin tədarükündə zəif nəticə əldə edilmişdir. Həmin il 13219 desyatin 129 kvadrat sajen meyvə bağlarından (bura üzüm bağları da daxil idi-E.Q.) 1596970 pud (keçən ilə nisbətən 1248629 pud və yaxud 43,9 % az) üzüm, 110460 pud (17769 pud və yaxud 13,8 % az) digər meyvələr yığılmışdır. Üzümün 1 pudu bazarlarda 80 qəpiklə 1 rubl arasında satılmışdır[750].

İrəvan quberniyası üzrə 1903-cü il illik hesabatına görə, üzüm də daxil olmaqla meyvə bağlarının ümumi sahəsində azalma olmasına baxmayaraq, həmin il daha çox üzüm tədarük edilmişdir. Ümumilikdə, bu hesabat ilində 3212604 pud (101,2 %) üzüm, 75045 pud (keçən ilə nisbətən 35595 pud az) digər meyvə yığılmışdır. Bazarlarda üzümün 1 pudu 50-90 qəpik arasında satılmışdır[751].

Qeyd etmək lazımdır ki, Cənubi Qafqaz dəmir yolunun Rusiyanın mərkəzi dəmir yolları ilə birləşməsi nəticəsində Azərbaycan meyvələrinin xarici bazarlara çıxışını sürətləndirmişdi. İrəvan quberniyasının şaftalısı və əriyi meyvələr içində daha məşhur idi. İrəvanın bu meyvələri konservləşdirilmiş halda Rusiyanın mərkəzi quberniyalarına ixrac edilirdi[752].

1904-cü ilin qışı çox soyuq və quru keçdiyindən həmin il İrəvan quberniyasında üzüm, meyvə bağlarına, xüsusən də şaftalı və ərik ağaclarına böyük ziyan dəymişdi. Ona görə də, bu vəziyyət meyvə tədarükünə təsir göstərmişdir. Aşağıdakı cədvəldə 1904-cü ildə İrəvan quberniyasında qəzalar üzrə meyvə və üzüm

[749] Обзор Эриванской губернии за 1901, с.5.
[750] Обзор Эриванской губернии за 1902, с.2.
[751] Обзор Эриванской губернии за 1903, с.2.
[752] Обзор Эриванской губернии за 1903, с.2.

bağlarının sahələri, yığılan meyvələrin miqdarı haqqında stastistik məlumatları əyani izləmək olar[753]:

| Qəzalar | Meyvə və üzüm bağlarının sahəsi (desyatinlə) | Yığılan üzüm (pudla) | Yığılan digər meyvə (pudla) |
|---|---|---|---|
| İrəvan | 7143 desyatin 1113 kv. sajen | 1543200 | 8010 |
| Sürməli | 701 | 205930 | 3290 |
| Üçmüəzzin | 3790 | 701680 | 7650 |
| Şərur-Dərələyəz | 635 | 80000 | 4510 |
| Naxçıvan | 1773 | 250240 | 30000 |
| Yekun | 14042 desyatin 1113 sajen | 2781050 | 53460 |

Həmin il 1 pud üzüm 70 qəpiyə satılmışdır[754].

Sonrakı iki ildə İrəvan quberniyasında meyvə və üzüm haqqında məlumat əldə edə bilməsək də, 1907-ci ildə İrəvan quberniyasında üzüm və meyvə bağlarının sahələri və yığılan meyvələrin miqdarı haqqında vəziyyət belə olmuşdur[755]:

| Qəzalar | Meyvə və üzüm bağlarının sahəsi (desyatinlə) | Yığılan üzüm (pudla) | Yığılan digər meyvə (pudla) |
|---|---|---|---|
| İrəvan | 7180 desyatin 1113 kv. sajen | 3155982 | 10750 |
| Sürməli | 749 | 144205 | 4814 |
| Üçmüəzzin | 2567 | 975460 | 10200 |
| Şərur-Dərələyəz | 585 | 98508 | 13290 |
| Naxçıvan | 1783 | 191733 | 29540 |
| Yekun | 12865 desyatin 549 sajen | 4565888 | 68594 |

Cədvəldən göründüyü kimi, 1907-ci ildə İrəvan quberniyasında kifayət qədər meyvə əldə edilmişdir. Həmin il qar tez yağ-

[753] Обзор Эриванской губернии за 1904, с.5.
[754] Обзор Эриванской губернии за 1904, с.5.
[755] Обзор Эреванской губернии за 1907, с.5-6.

masına, meyvələrin tam yığılmasına mane olmasına baxmayaraq, tədarük edilən meyvə 1906-cı ildə yığılan meyvədən çox olmuşdur.

İrəvan quberniyasında 1908-ci ildə keçən ilə nisbətən həm üzüm, həm də digər meyvə sahələrində cüzi azalma baş versə də, üzüm tədarükündə azalma, digər meyvələrin yığımında isə çoxalma baş vermişdir. Aşağıdakı cədvəldən bunu əyani görmək mümkündür[756]:

| Qəzalar | Meyvə və üzüm bağlarının sahəsi (desyatinlə) | Yığılan üzüm (pudla) | Yığılan digər meyvə (pudla) |
|---|---|---|---|
| İrəvan | 6096 desyatin 1300 kv. sajen | 2138170 | 16620 |
| Sürməli | 749 desyatin 1836 kv. sayen | 155525 | 23567 |
| Üçmüəzzin | 3439 | 519680 | 10000 |
| Şərur-Dərələyəz | 622 | 163905 | 14556 |
| Naxçıvan | 1783 | 198290 | 24930 |
| Yekun | 12690 desyatin 736 kv. sajen | 3175570 | 89673 |

Qeyd etmək lazımdır ki, ümumi meyvə bağlarından 9765 desyatin 80 kvadrat sajen üzüm, 2926 desyatin isə digər meyvə bağlarının payına düşmüşdür. Həmin il üzümün 1 pudu 60-80 qəpik arasında satılmışdır[757].

Aksiz idarəsinin verdiyi məlumata görə, 1909-cu ildə üzüm sahələri 127 desyatin 1747 kv. sajen çox əkilmiş, bağ sahiblərinin sayı isə 17497 nəfər olmuşdur. Lakin həmin il 1908-ci ilə nisbətən İrəvan quberniyasında yığılan üzümün miqdarı az, digər meyvələrin miqdarı isə çox olmuşdur. Buna səbəb yaz ayında havaların şaxtalı keçməsi idi. Aşağıdakı cədvəldə bunu əyani izləmək mümkündür[758]:

| Qəzalar | Meyvə və üzüm bağlarının sahəsi (desyatinlə) | Yığılan üzüm (pudla) | Yığılan digər meyvə (pudla) |
|---|---|---|---|

[756] Обзор Эриванской губернии за 1908, с.5-6.
[757] Обзор Эриванской губернии за 1908, с.5.
[758] Обзор Эриванской губернии за 1909, с.5-6.

| | | | |
|---|---|---|---|
| İrəvan | 6434 | 1815270 | 22400 |
| Sürməli | 770 desyatin 2148 kv. sayen | 412720 | 7790 |
| Üçmüəzzin | 2602 | 324000 | 12966 |
| Şərur-Dərələyəz | 611 | 154440 | 26900 |
| Naxçıvan | 1783 | 198290 | 24100 |
| Yekun | 12290 desyatin 2148 kv. sajen | 2904720 | 94156 |

1909-cu ildə də bazarlarda 1 pud üzüm 50-80 qəpik arasında satılmışdır[759].

1910-cu il məlumatında həm üzüm bağları, həm də digər meyvə bağları haqqında ayrı-ayrılıqda geniş məlumat verilmişdir. Həmin il üzüm tədarükündə əla nəticə əldə edilmişdir. Aşağıdakı cədvəldə quberniya üzrə üzüm tədarükünü izləyək[760]:

| Qəzalar | Üzüm bağ sahibkarlarının sayı | Üzüm bağlarının sahəsi (desyatinlə) | Yığılan üzümün miqdarı (pudla) |
|---|---|---|---|
| İrəvan | 6832 | 5132 desyatin 2036 kv. sajen | 2479070 |
| Sürməli | 2191 | 655 desyatin 2160 kv. sajen | 271679 |
| Üçmüəzzin | 3970 | 2513 desyatin 1007 kv. sajen | 1735110 |
| Şərur-Dərələyəz | 1699 | 445 desyatin 2112 kv. sajen | 92232 |
| Naxçıvan | 2876 | 993 desyatin 2328 kv. sajen | 181880 |
| Yekun | 17568 | 9742 desyatin 43 kv. sajen | 4759971 |

1910-cu ildə də bazarlarda 1 pud üzüm 50-80 qəpik arasında satılmışdır[761].

1910-cu ildə digər meyvə tədarükündə vəziyyət belə idi[762]:

| Qəzalar | Meyvə bağlarının sahəsi (desyatinlə) | Yığılan meyvənin miqdarı (pudla) |
|---|---|---|
| İrəvan | 1330 | 23300 |
| Sürməli | 62 | 7105 |

---

[759] Обзор Эриванской губернии за 1909, с.5-6.
[760] Обзор Эриванской губернии за 1910, с.5.
[761] Обзор Эриванской губернии за 1910, с.5-6.
[762] Yenə orada, s.6.

| | | |
|---|---|---|
| Üçmüəzzin | 1457 | 21500 |
| Şərur-Dərələyəz | 180 | 25040 |
| Naxçıvan | 790 | 5850 |
| Yekun | 3819 | 82795 |

Əgər cədvələ baxsaq görmək olar ki, 1909-cu ilə nisbətən hesabat ilində az meyvə yığılmışdır. Buna səbəb, Naxçıvan qəzasının Ordubad məntəqəsində yazda havaların şaxtalı keçməsi, yayda isə dolu düşməsi idi[763].

1912-ci il məlumatında keçən ilə nisbətən üzüm tədarükündə yaxşı nəticə əldə edilməsi göstərilmişdir. İrəvan quberniyasında üzümçülükdə vəziyyət ayrı-ayrı qəzalar üzrə belə olmuşdur[764]:

| Qəzalar | Üzüm bağ sahibkarlarının sayı | Üzüm bağlarının sahəsi (desyatinlə) | Yığılan üzümün miqdarı (pudla) |
|---|---|---|---|
| İrəvan | 7247 | 5262 desyatin 1843 kv. sajen | 2379190 |
| Sürməli | 2179 | 650 desyatin 155 kv. sajen | 141711 |
| Üçmüəzzin | 4147 | 2699 desyatin 57 kv. sajen | 1010700 |
| Şərur-Dərələyəz | 1708 | 440 desyatin 19 kv. sajen | 26400 |
| Naxçıvan | 3023 | 1014 desyatin 73 kv. sajen | 81176 |
| Yekun | 18304 | 10065 desyatin 2147 kv. sajen | 3639177 |

1912-ci ildə aksiz idarəsinin verdiyi məlumata görə, 1911-ci ilə nisbətən 1127055 pud (46 $^{0}/_{0}$) çox üzüm yığılmışdır. Həmin il bazarlarda üzümün 1 pudu 60 qəpiklə (Sürməli qəzasında) 2 publ 40 qəpik (Şərur-Dərələyəz qəzasında) arasında satılmışdır[765].

1912-ci ildə digər meyvə tədarükündə isə azalma müşahidə olunmuşdur. Həmin il 70 min puda qədər müxtəlif növ meyvə yığılmışdır. Buna səbəb yazda havaların şaxtalı və dolu keçməsi olmuşdur. Meyvələrin hamısı yerli tələbata sərf olunmuşdur.

[763] Yenə orada, s.6.
[764] Обзор Эриванской губернии за 1912, с.6.
[765] Обзор Эриванской губернии за 1912, с.6.

Kustar üsulla konservləşdirilmiş ərik və şəftəli yerli bazarlarda satılmışdır[766].

1913-cü il məlumatında üzüm bağ sahibkarlarının sayında bir qədər azalma, lakin bağların sahəsində (keçən ilə nisbətən 1,6 % çox) və tədarükündə isə çoxalma (keçən ilə nisbətən 1697537 pud və yaxud 46,6 % çox) müşahidə olunmuşdur. Bunu aşağıdakı cədvəldə izləmək mümkündür[767]:

| Qəzalar | Üzüm bağ sahibkarlarının sayı | Üzüm bağlarının sahəsi (desyatinlə) | Yığılan üzümün miqdarı (pudla) |
|---|---|---|---|
| İrəvan | 6998 | 5345 desyatin 661 kv. sajen | 3818260 |
| Sürməli | 2175 | 621 desyatin 951 kv. sajen | 71395 |
| Üçmüəzzin | 4268 | 2815 desyatin 16 kv. sajen | 909110 |
| Şərur-Dərələyəz | 1708 | 440 desyatin 19 kv. sajen | 132057 |
| Naxçıvan | 3023 | 1014 desyatin 73 kv. sajen | 405892 |
| Yekun | 18172 | 10235 desyatin 1720 kv. sajen | 5336714 |

Həmin il bazarlarda üzümün 1 pudu 40 qəpiklə (Şərur-Dərələyəz qəzasında) 1 publ 40 qəpik (Naxçıvan qəzasında) arasında satılmışdır[768].

1913-cü ildə üzümdən əlavə digər meyvələrin miqdarında da artım müşahidə olunmuşdur. Həmin il meyvə yığımı 100000 puda çatmışdır. Yığılan ərik və şəftəlinin 20000 pudu kustar üsulla konservləşdirilmiş, yerli və Rusiya bazarlarında satılmışdır[769].

1914-cü ildə isə quberniyanın üzüm bağlarından daha az üzüm yığılmışdır. Həmin il 10537 desyatin 922 kv. sajen sahədən 690804 pud üzüm əldə edilmişdir. Buna səbəb 1914-cü il aprelin 18-də baş vermiş şaxtaların üzümə böyük ziyan vurması olmuşdur. Verilən məlumata görə, quberniyada 90-95 $^0/_0$ üzüm məhv olmuş, əsasən Üçmüəzzin qəzasında, İrəvan şəhərində (85-

---

766 Yenə orada, c.7.

767 Обзор Эриванской губернии за 1913, с.7.

768 Обзор Эриванской губернии за 1913, с.7.

769 Yenə orada, s.8.

90 $^{0}/_{0}$), İrəvan qəzasının böyük hissəsində (50-80 $^{0}/_{0}$) üzüm bağlarına ziyan dəymişdir. Yeganə Sürməli qəzasında üzüm bağlarına dəyən ziyan az olmuşdur (5-10 $^{0}/_{0}$). Aşağıdakı cədvəl 1914-cü ildə quberniya üzrə üzüm sahəsində olan vəziyyət haqqında əyani təsəvvür yaradır[770]:

| Qəzalar | Sahibkarların sayı | Sahəsi (desyatinlə) | Sahəsi (kv.sajen) | Məhsul $^{0}/_{0}$-lə |
|---|---|---|---|---|
| İrəvan | 7512 | 5384 | 1357 | 442973 |
| Üçmüəzzin | 4310 | 2849 | 65 | 84078 |
| Sürməli | 2192 | 627 | 1801 | 44650 |
| Şərur-Dərələyəz | 1255 | 635 | 62 | 8166 |
| Naxçıvan | 2997 | 1041 | 36 | 110957 |
| Yekun | 18266 | 10536 | 3322 | 690804 |

1914-cü ildə bazarlarda üzümün 1 pudu 70 qəpiklə (Sürməli qəzasında) 1 publ 60 (Üçmüəzzin qəzasında) qəpik arasında satılmışdır[771].

Digər meyvə yığımında da vəziyyət xeyli pis olmuşdur. 1914-cü ildə 73732 pud meyvə yığılmışdır ki, Rusiya bazarlarına ixrac olunan konservləşdirilmiş meyvələrin miqdarı azalmışdır[772].

Yuxarıda qeyd olunduğu kimi, İrəvan quberniyasında yığılan üzümün bir hissəsi şərab hazırlanmasına sərf edilmişdi. Verilən məlumata görə, 10 pud üzümdən 3 pud şərab alınmışdı. 1870-ci ilin məlumatına görə, quberniya üzrə 656114 pud üzümdən 479585 vedrə şərab əldə edilmişdir[773]. XIX yüzülliyin 80-ci illərin əvvəllərinə aid olan məlumata görə isə yalnız İrəvan şəhərində hər il 600 min vedrə şərab hazırlanmış, şərabın bir hissəsi yerli əhalinin tələbatına getmiş, digər hissəsi isə ixrac olunurdur. 1870-ci ildə bir batman şərabın qiyməti 40 qəpiklə 1 rubla qədər idi. XIX yüzülliyin 80-ci illərinin əvvəllərində isə bir şüşə şərabın qiyməti keyfiyyətindən asılı olaraq yerlərdə 12-25 qəpiyə sa-

[770] Обзор Эриванской губернии за 1914, с.7.
[771] Обзор Эриванской губернии за 1914, с.7.
[772] Yenə orada, c.8.
[773] Сборник сведений о Кавказе, 1872, т.II, с.183.

tılmışdı[774].

İrəvan quberniyasında ən yüksək keyfiyyətli şərab İrəvan qəzasında dəlmə, dyüqlü, əştərək, Naxçıvan qəzasında isə əylis şərabı hesab olunurdu[775].

Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan quberniyasında da bağlar şəxsi və dövlətə, yəni xəzinəyə məxsus idi. Qeyd etmək lazımdır ki, işğaldan sonra xəzinənin ixtiyarına keçən bağlardan gəlir azalmış, baxımsızlıq üzündən pis vəziyyətə düşmüşdü. Bundan əlavə, xəzinə bağlarına təyin olunan nəzarətçilərin vəzifələrindən sui-istifadə etməsi ilə əlaqədar olaraq bu sahədən gələn gəlir ildən-ilə azalmışdı. 1837-ci ildə çar I Nikolay İrəvanda olarkən vəziyyətlə tanış olduqdan sonra Zəngi çayının sağ tərəfində yerləşən, vaxtı ilə Hüseynqulu xana məxsus "Sərdar bağı"ndan başqa xəzinəyə məxsus bütün bağların xüsusi haqq müqabilində icarəyə verilməsi haqqında göstəriş vermişdi. Bundan sonra xəzinəyə məxsus bağlar icarə müqabilində şəxsi adamların nəzarətinə keçmişdi. 1843-cü ildən xəzinəyə məxsus doqquz bağ ayrı-ayrı şəxslərə müəyyən haqq müqabilində, 1867-ci ildə isə Sərdar və ingilis bağı adlanan digər iki bağ da 24 il müddətinə müəyyən şərtlərlə icarəyə verilmişdir[776].

1846-cı ildən Cənubi Qafqazın iri şəhərlərində, o cümlədən İrəvanda xəzinəyə məxsus bağlara baxmaq üçün xüsusi dövlət təsisatı yaradılmışdı. Hər bir bağa baxmaq üçün dövlət tərəfindən bağban, gözətçi və bağları səliqəyə salmaq üçün isə lazımi qədər işçi qüvvəsi yeri açılmışdı[777]. Bundan əlavə, 1852-ci ildə İrəvan şəhərində bağları şəhər gəlirləri hesabına saxlanması üçün xüsusi göstəriş verilmişdir[778].

İrəvan quberniyasına aid statistik məlumatlarda ayrı-ayrı qəzalar üzrə üzümün becərilməsində və yığılmasında işçilərin sa-

---

[774] Сборник материалов для описания местностей и племен Кавказа, 1881, выпуск 1, с.25.

[775] Сборник сведений о Кавказе, 1872, т.II, с.183.

[776] Сборник сведений о Кавказе, 1872, т.II, с.112-114.

[777] АКАК, т.XI, с.777-779.

[778] Yenə orada, s.778.

yı və onlara verilən əmək haqqı haqqında ətraflı məlumat verilmişdir. Bu məlumatlara görə, sayından asılı olaraq ayrı-ayrı qəzalar üzrə üzüm bağlarında işləmək, ona qulluq etmək və yığmaq üçün il boyu 10-40 arasında muzdlu işçi, gözətçilərin sayı isə 15-48 nəfər arasında lazım olurdu[779].

1870-ci il məlumatına görə, 1 desyatin üzüm sahəsinin becərilməsi il boyu sahibkara 80-100 rubla başa gəlmişdi. Günəmuzdla işləyən fəhləyə isə 50-70 qəpik ödənilmişdi[780].

1897-ci ildə isə bağbanla birlikdə 1 desyatin üzüm sahəsinin becərilməsi və yığılması 40, bağbansız isə 25 rubla başa gəlmişdir[781].

XX əsrin əvvəllərinə aid "İrəvan quberniyasının icmalları"nda 1 desyatin üzüm sahəsinin il boyu hazırlanmasında iştirak edən muzdlu işçilərin sayı və onların məvacibi haqqında ətraflı məlumatlar verilmişdır. Məsələn, aşağıdakı cədvəldə 1904-cü il hesabatına əsasən bunu əyani izləmək mümkündür[782]:

| Qəzalar | Yaz şumu Fəhlə sayı və məvacib | Tənəklərin hazırlanması və dəstələnməsi, fəhlə sayı və məvacib | Arakəsmə, fəhlə sayı və məvacib | Toxalamaq, fəhlə sayı və məvacib | Suvarmaq Fəhlə sayı və məvacib | Üzümün yığılması Fəhlə sayı və məvacib | Payız hazırlığı Fəhlə sayı və məvacib | Kəndirlərin təzələnməsi, Fəhlə sayı və məvacib | Mühafizə, Sayı |
|---|---|---|---|---|---|---|---|---|---|
| İrəvan | 20 fəhlə, 10 rubl | 15 fəhlə, 9 rubl | 20 fəhlə, 10 rubl | 30 fəhlə, 15 rubl | 8 fəhlə, 2,4 rubl | 40 fəhlə, 20 rubl | 40 fəhlə, 20 rubl | 10 fəhlə, 5 rubl | 15 |
| Sürməli | 15 fəhlə, 6 rubl | 10 fəhlə, 6 rubl | 15 fəhlə, 6 rubl | 15 fəhlə, 7,5 rubl | 6 fəhlə, 2,4 rubl | 15 fəhlə, 4,5 rubl | 20 fəhlə, 10 rubl | 3 fəhlə, 1,2 rubl | 22,5 |
| Üçmüəzzin | 12 fəhlə, 6 rubl | 31 fəhlə, 15,5 rubl | 25 fəhlə, 12,5 rubl | 10 fəhlə, 5 rubl | 1 fəhlə, 2,4 rubl | 10 fəhlə, 5 rubl | 48 fəhlə, 24 rubl | 3 fəhlə, 4 rubl | 24 |
| Ş-Dərələyəz | 20 fəhlə, 6 rubl | 10 fəhlə, 3 rubl | 15 fəhlə, 4,5 rubl | 30 fəhlə, 9 rubl | 4 fəhlə, 1,6 rubl | 20 fəhlə, 6 rubl | 30 fəhlə, 10,5 rubl | 10 fəhlə, 3 rubl | 20,3 |
| Naxçıvan | 10 fəhlə, 4,5 rubl | 9 fəhlə, 4,5 rubl | 32 fəhlə, 16 rubl | 12 fəhlə, 6 rubl | 6 fəhlə, 3,6 rubl | 15 fəhlə, 6 rubl | 20 fəhlə, 10 rubl | 4 fəhlə, 2,4 rubl | 40 |

Cədvəldən görünür ki, İrəvan qəzasında il boyu 1 desyatin üzümün becərilməsinə 106,4, Sürməli qəzasında 66,1, Üçmüəzzin qəzasında 98,4, Şərur-Dərələyəz qəzasında 63,9, Naxçıvan qəzasında isə 93 rubl sərf edilmişdir.

Sonrakı illərdə İrəvan quberniyasında 1 desyatin üzüm sa-

---

779 Обзор Эриванской губернии за 1909, с.6; Обзор Эриванской губернии за 1912, с.7; Обзор Эриванской губернии за 1913, с.8.

780 Сборник сведений о Кавказе, т.III, с.262.

781 Сборник статистических данных о землевладении и способах хозяйства пяти губерниях Закавказского края, с.94-95.

782 Обзор Эриванской губернии за1904, с.6.

həsinin becərilməsinə və yığılmasına sərf olunan məvacibdə bir o qədər də fərq olmamışdır. Bunu yalnız ayrı-ayrı qəzalarda hiss etmək mümkündür. Aşağıdakı cədvəldə 1909-cu il hesabatına əsasən əyani izləmək olar[783]:

| Qəzalar | Yaz şumu Fəhlə sayı və məvacib | Tənəklərin hazırlanması və dəstələnməsi, fəhlə sayı və məvacib | Arakəsmə, fəhlə sayı və məvacib | Toxalamaq, fəhlə sayı və məvacib | Suvarmaq Fəhlə sayı və məvacib | Üzümün yığılması Fəhlə sayı və məvacib | Payız hazırlığı Fəhlə sayı və məvacib | Kəndirlərin təzələnməsi, Fəhlə sayı və məvacib | Mühafizə, Sayı |
|---|---|---|---|---|---|---|---|---|---|
| İrəvan | 20 fəhlə, 10 rubl | 15 fəhlə, 9 rubl | 20 fəhlə,18 rubl | 30 fəhlə, 18 rubl | 8 fəhlə, 4 rubl | 40 fəhlə, 20 rubl | 40 fəhlə, 20 rubl | 10 fəhlə, 4 rubl | 15 |
| Sürməli | 10 fəhlə, 6 rubl | 8 fəhlə, 4,8 rubl | 20 fəhlə, 12 rubl | 6 fəhlə, 3,6 rubl | 4 fəhlə, 2,4 rubl | 20 fəhlə, 6 rubl | 20 fəhlə, 14 rubl | 2 fəhlə, 1,4 rubl | 18 |
| Üçmüəzzin | 12 fəhlə, 6 rubl | 31 fəhlə, 15,5 rubl | 25 fəhlə, 12,5 rubl | 10 fəhlə, 5 rubl | 1 fəhlə, 2,3 rubl | 10 fəhlə, 5 rubl | 48 fəhlə, 24 rubl | 3 fəhlə, 4 rubl | 24 |
| Ş-Dərələyəz | 20 fəhlə, 6 rubl | 10 fəhlə, 3 rubl | 15 fəhlə, 4,5 rubl | 10 fəhlə, 3 rubl | 4 fəhlə, 1 rubl | 20 fəhlə, 8 rubl | 20 fəhlə, 6 rubl | 10 fəhlə, 3 rubl | 20 |
| Naxçıvan | 10 fəhlə 5 rubl | 9 fəhlə, 4,5 rubl | 32 fəhlə, 16 rubl | 12 fəhlə, 6 rubl | 6 fəhlə, 3,9 rubl | 15 fəhlə, 6 rubl | 20 fəhlə, 12 rubl | 4 fəhlə, 2,4 rubl | 48 |

Cədvəldən görünür ki, İrəvan qəzasında il boyu 1 desyatin üzümün becərilməsinə 112, Sürməli qəzasında 68,2, Üçmüəzzin qəzasında 98,3, Şərur-Dərələyəz qəzasında 54,5, Naxçıvan qəzasında isə 103 rubl sərf edilmişdir.

1912-ci ildə bu sahədə vəziyyət belə olmuşdur[784]:

| Qəzalar | Yaz şumu Fəhlə sayı və məvacib | Tənəklərin hazırlanması və dəstələnməsi, fəhlə sayı və məvacib | Arakəsmə, fəhlə sayı və məvacib | Toxalamaq, fəhlə sayı və məvacib | Suvarmaq Fəhlə sayı və məvacib | Üzümün yığılması Fəhlə sayı və məvacib | Payız hazırlığı Fəhlə sayı və məvacib | Kəndirlərin təzələnməsi, Fəhlə sayı və məvacib | Mühafizə sayı |
|---|---|---|---|---|---|---|---|---|---|
| İrəvan | 20 fəhlə, 12 rubl | 15 fəhlə, 9 rubl | 20 fəhlə, 12 rubl | 30 fəhlə, 18 rubl | 8 fəhlə, 4 rubl | 40 fəhlə, 20 rubl | 40 fəhlə, 20 rubl | 10 fəhlə, 5 rubl | 15 |
| Sürməli | 15 fəhlə, 12 rubl | 20 fəhlə, 16 rubl | 40 fəhlə, 32 rubl | 5 fəhlə, 4 rubl | 4 fəhlə, 3 rubl | 15 fəhlə, 12 rubl | 15 fəhlə, 12 rubl | 3 fəhlə, 2 rubl | 30 |
| Üçmüəzzin | 15 fəhlə, 7,5 rubl | 30 fəhlə, 15 rubl | 40 fəhlə, 20 rubl | 20 fəhlə, 10 rubl | 5 fəhlə, 5 rubl | 40 fəhlə, 16 rubl | 40 fəhlə, 24 rubl | 3 fəhlə, 1,5 rubl | 30 |
| Ş-Dərələyəz | 30 fəhlə, 15 rubl | 10 fəhlə, 5 rubl | 45 fəhlə, 22,5 rubl | 10 fəhlə, 5 rubl | 4 fəhlə, 2 rubl | 20 fəhlə, 10 rubl | 30 fəhlə, 15 rubl | 6 fəhlə, 3 rubl | 27 |
| Naxçıvan | 10 fəhlə 5 rubl | 10 fəhlə, 5 rubl | 35 fəhlə, 21 rubl | 15 fəhlə, 9 rubl | 4 fəhlə, 3,2 rubl | 15 fəhlə, 9 rubl | 20 fəhlə, 14 rubl | 4 fəhlə, 2,4 rubl | 48 |

1912-ci ildə İrəvan quberniyasında 1 desyatin üzüm sahəsinin becərilməsi və yığılmasında sərf olunan məbləğ ayrı-ayrı qəzalar üzrə belə idi: İrəvan qəzasında-115 rubl; Sürməli qəzasın-

783 Обзор Эриванской губернии за1904, с.6.
784 Обзор Эриванской губернии за1912, с.7.

da-123 rubl; Üçmüəzzin qəzasında-129 rubl; Şərur-Dərələyəz qəzasında-104,5 rubl; Naxçıvan qəzasında-116,6 rubl[785].

1914-cü ildə İrəvan quberniyasının əksər qəzalarında 1 desyatin üzüm sahəsinin hazırlanmasına sərf olunan məvacibin miqdarında bir qədər artım olmuşdur. Bunu aşağıdakı cədvəldən əyani görmək mümkündür[786]:

| Qəzalar | Yaz şumu Fəhlə sayı və məvacib | Tənəklərin hazırlanması və dəstələnməsi, fəhlə sayı və məvacib | Arakəsmə, fəhlə sayı və məvacib | Toxalamaq, fəhlə sayı və məvacib | Suvarmaq Fəhlə sayı və məvacib | Üzümün yığılması Fəhlə sayı və məvacib | Payız hazırlığı Fəhlə sayı və məvacib | Kəndir-lərin təzələn-məsi, Fəhlə sayı və məvacib | Müha-fizə sayı |
|---|---|---|---|---|---|---|---|---|---|
| İrəvan | 20 fəhlə, 13 rubl | 12 fəhlə, 10 rubl | 22 fəhlə, 16 rubl | 25 fəhlə, 16 rubl | 7 fəhlə, 4 rubl | 36 fəhlə, 22 rubl | 36 fəhlə, 22 rubl | 8 fəhlə, 6 rubl | 15 |
| Sürməli | 15 fəhlə, 12 rubl | 20 fəhlə, 16 rubl | 40 fəhlə, 32 rubl | 5 fəhlə, 4 rubl | 4 fəhlə, 3 rubl | 15 fəhlə, 12 rubl | 15 fəhlə, 12 rubl | 3 fəhlə, 2 rubl | 30 |
| Üçmüəzzin | 16 fəhlə, 9 rubl | 16 fəhlə, 12 rubl | 37 fəhlə, 22 rubl | 12 fəhlə, 8 rubl | 4 fəhlə, 3 rubl | 20 fəhlə, 7,5 rubl | 35 fəhlə, 20,5 rubl | 5 fəhlə, 3 rubl | 26 |
| Ş-Dərələyəz | 30 fəhlə, 14 rubl | 16 fəhlə, 9 rubl | 35 fəhlə, 19 rubl | 13 fəhlə, 7 rubl | 12 fəhlə, 5 rubl | 30 fəhlə, 10 rubl | 28 fəhlə, 17 rubl | 17 fəhlə, 8 rubl | 26 |
| Naxçıvan | 8 fəhlə 4,5 rubl | 20 fəhlə, 11 rubl | 40 fəhlə, 32 rubl | 16 fəhlə, 9 rubl | 7 fəhlə, 5 rubl | 27 fəhlə, 13,5 rubl | 25 fəhlə, 15 rubl | 4 fəhlə, 2,2 rubl | 37 |

Beləliklə 1914-cü ildə ayrı-ayrı qəzalar üzrə 1 desyatin üzüm sahəsinə çəkilən xərc belə olmuşdur: İrəvan qəzasında-124 rubl; Sürməli qəzasında-123 rubl; Üçmüəzzin qəzasında-112,5 rubl; Şərur-Dərləләyəz qəzasında-115 rubl; Naxçıvan qəzasında-129,2 rubl. İrəvan üzümündən əla keyfiyyətli konyak hazırlanırdı. Həmin konyaklar Odessaya, Riqaya, Varşavaya və Rusiyanın digər şəhərlərinə ixrac olunurdu[787].

İrəvan quberniyasında **bostançılıq** da güclü inkişaf etmişdi. Yerli əhali yeməklərin hazırlanmasında müxtəlif bostan bitkilərindən və göylərdən geniş istifadə edirdilər. Tərəvəz bitkiləri həm dağlıq, həm də düzənlik ərazilərdə yetişdirilirdi. İrəvan quberniyada bostan sahələri 3 qismə bölünmüşdü. **Birinci qismə** daxil olan daha böyük təsərrüfat sahəsi idi. Bostan adlanan bu sa-

---

[785] Обзор Эриванской губернии за 1912, с.7.
[786] Обзор Эриванской губернии за1912, с.7.
[787] Обзор Эриванской губернии за 1905, с.3.

hə kənddən və yaşayış yerlərindən 3, 5 və yaxud 10 verst aralıda yerləşirdi. Bostanlarda qarpız, yemiş, xiyar və s. əkilirdi və bu bostan bitkiləri satılıq üçün nəzərdə tutulmuşdu. **İkinci qismə** daxil olan bostan daha kiçik idi və kəndlərin kənarında yerləşirdi. Burada əkilən tərəvəz yerli əhalinin öz tələbatına sərf edilirdi. Bu sahələrdə çuğundur, kələm, xiyar, pomidor, yerkökü, şalğam, turp, paxla, badımcan, noxud, mərci, qarğıdalı, istiot və s. əkilirdi. **Üçüncü qism** bostan isə yaşayış evlərinin yaxınlığında yerləşirdi. Bu bostanlar çox xırda idi. Burada müxtəlif göylərə-soğana, sarımsağa, tərxuna, keşnişə, nanəyə, kahıya, vəzəriyə və s. rast gəlmək olardı[788].

İrəvan quberniyasında bostan bitkilərindən bəzilərinin müxtəlif növləri olmuşdur. Məsələn, yemiş-şallax, dostucan, carcar və tutma, qarpız-xuni, ağabəy, qurbanağası, həsənbəy, abiax və s. növləri ilə məşhur idi[789]. Yemişin ilk üç növü bir o qədər də zəhmət tələb etmirdi və tez yetişirdi. Bu növlər bir o qədər də gəlir gətirmirdi. Lakin yemişin tutma növü yerli əhali tərəfindən daha yüksək qiymətləndirilirdi. Tutma özü bir neçə növdən ibarət idi ki, bu növ digər növlərdən daha keyfiyyətli hesab olunurdu. Tutmanın nadirxan, mianbab, isfahan, xameyar, ağcanabat, göycənabat, yaycı və kalamqaş növləri vardı. Yemişin bu növünün yetişdirilməsi daha çətin başa gəlirdi və daha gəlirli sayılırdı. Hətta məlumata görə, müstəqil xanlıq dövründə üzüm oğurluğuna nisbətən yemişin tutma növünün oğurluğu hakimiyyət orqanları tərəfində daha sərt qayda ilə cəzalandırılırdı[790].

İrəvan quberniyası üzrə əkilən bostanların sahəsi və yığılan bostan bitkiləri haqqında mənbələrdə müxtəlif məlumatlara rast gəlmək mümkündür. Məsələn, 1870-ci ildə İrəvan qəzasında düzənlik ərazilərdə 1922 desyatin, dağlıq ərazilərdə 158 desyatin, Naxçıvan quberniyasında düzənlik ərazilərdə 946 desyatin, dağ-

---

[788] Сборник сведений о Кавказе, 1872, т.II, с.185.

[789] Сборник материалов для описания местностей и племен Кавказа, 1881. выпуск 1, с.28-30.

[790] Yenə orada, c.28-29.

lıq ərazilərdə 350 desyatin, Üçmüəzzin qəzasının düzənlik ərazilərində 1187 desyatin, dağlıq ərazilərdə 400 desyatin, Aleksandropol qəzasında düzənlikdə 227 desyatin, dağlıq ərazilərdə 222 desyatin, Yenibəyazid qəzasında bütünlüklə 364 desyatin bostan bitkiləri əkilmişdir. Quberniya üzrə isə ümumi bostanların tutduğu sahə 5776 desyatinə bərabər olmuş və həmin il təxminən 1000000 puddan çox müxtəlif bostan bitkiləri yığılmışdır[791].

İrəvan quberniyasının "icmal"larında XIX yüzilliyin 80-90-cı illərində əkilən və tədarük edilən bostan bitkilərinin miqdarı haqqında konkret rəqəmlər olmasa da, yığılan tərəvəz bitkilərinin zəif olması və yalnız yerli tələbata sərf olunması qeyd edilmişdir[792]. Yalnız 1899-cu il məlumatında quberniya üzrə təxminən 130000 rubl miqdarında müxtəlif növ tərəvəz bitkilərinin yığıldığı göstərilmişdir[793].

XX yüzilliyin əvvəllərindən başlayaraq İrəvan quberniyasında yığılan bostan bitkilərindən, xüsusən də tərəvəzdən əldə edilmiş gəlir haqqında ətraflı məlumatlara rast gəlmək mümkündür. Məsələn, 1900-cü ildə 140000 rubl, 1901-ci ildə 178000 rubl, 1902-ci ildə 250000 rubl, 1903-cü ildə 300000 rubl, 1904-cü ildə 300000 rubl, 1907-ci ildə 400000 rubl, 1908-ci ildə 800000 rubla yaxın gəlir əldə edilmişdir. 1912-ci il məlumatında qeyd edilir ki, bit basdığına görə bostan bitkilərinin böyük hissəsi məhv olmuşdur. Həmin il İrəvan qəzasında 984, Üçmüəzzində 607,5, Sürməlidə 228, Aleksandropolda 109, Yenibəyaziddə 45,5, Şərur-Dərələyəzdə 97, Naxçıvanda isə 322,5 desyatin sahəyə bostan bitkiləri əkilmişdir. Ümumiyyətlə quberniya üzrə bostan tarlalarının ümumi sahəsi 2393,5 desyatinə bərabər idi. Bu

---

[791] Сборник сведений о Кавказе, 1872, т.II, с.185.

[792] Обзор Эриванской губернии за 1888 г., с.25-26; Обзор Эриванской губернии за 1891 г., с.9; Обзор Эриванской губернии за 1892 г., с.6; Обзор Эриванской губернии за 1893 г., с.3; Обзор Эриванской губернии за 1894 г., с.3; Обзор Эриванской губернии за 1895 г., с.3; Обзор Эриванской губернии за 1897 г., с.6; Обзор Эриванской губернии за 1898 г., с.4.

[793] Обзор Эриванской губернии за 1899 г., с.4.

sahələrdən isə ümumi məbləği 212836 rubl olan 642277 pud məhsul yığılmışdır. Pomidordan başqa yığılan bostan bitkiləri yalnız yerli əhalinin tələbatına getmiş, pomidor isə konservləşdirilmiş şəkildə ixrac olunmuşdur[794].

1913-cü ildə bostan bitkilərinin əkin sahələrində azalma müşahidə olunmuş, hesabat ilində 1884 desyatin bostan bitkiləri əkilmişdir. Həmin sahələrdən 238385 rubl dəyərində 518712 pud bostan bitkisi yığılmışdır. 1912-ci ildə olduğu kimi, 1913-cü ildə də pomidordan başqa yığılan bostan bitkiləri yerli tələbatı ödəmiş, yalnız pomidor konservləşdirilmiş şəkildə ixrac olunmuşdur[795].

1914-cü ildə də xəstəlikdən xeyli bostan bitkisi tələf olmuşdur. Hətta məlumatda göstərilir ki, 1913-cü ilə nisbətən həmin il 92509 pud az məhsul yığılmışdır. 1914-cü ildə İrəvan qəzasında 639 desyatin sahədən 81627, Üçmüəzzində 479 desyatin sahədən 132623, Sürməlidə 198 desyatin sahədən 100468, Aleksandropolda 298 desyatin sahədən 37633, Yenibəyaziddə 56,5 desyatin sahədən 35537, Şərur-Dərələyəzdə 44 desyatin sahədən 7035, Naxçıvanda isə 690,3 desyatin sahədən 81280 pud, ümumilikdə isə qiyməti 194747 publ dəyərində 476203 pud məhsul əldə edilmişdir. Məhsul az olduğuna görə yalnız yerli əhalinin tələbatına sərf olunmuşdur[796].

Beləliklə, mənbələrdən görmək olar ki, İrəvan quberniyasında kənd təsərrüfatının bağçılıq və bostançılıq sahələri yerli əhalinin əsas məşğuliyyət sahələrindən biri olmuşdur. İrəvan quberniyası meyvəçilik üzrə Aərbaycanın ən çox inkişaf etmiş quberniyalarından biri olmuş, burada müxtəlif cür meyvələr əkilimiş, bu meyvələrdən əsasən ərik, şaftalı və üzüm və s. ixrac olunmuşdur. Lakin quberniyada bostançılıq zəif inkişaf etmiş, yalnız yerli əhalinin tələbatına sərf olunmuş, tərəvəz bitkilərindən isə pomidor konservləşdirilmiş şəkildə ixrac edilmişdir.

**Əhalinin qida təminatı.** XIX yüzilliyin 80-ci illərinin so-

---

[794] Обзор Эриванской губернии за 1912 г., с.7-8.
[795] Обзор Эриванской губернии за 1913 г., с.8.
[796] Обзор Эриванской губернии за 1914 г., с.8-9.

nu-XX yüzilliyin əvvəllərinə aid hesabatlarda İrəvan quberniyasında əhalinin qida təminatı ilə bağlı maraqlı məlumatlara rast gəlmək mümkündür. Bu hesabatlarda əhalinin, hərbi hissələrin qidalanmasına sərf olunan taxıl məhsullarının, əkin üçün sərf olunan toxumluğun miqdarı haqqında, taxıl məhsulları satan dükanların sayı, kənd icmalarının kapitalla borcu xüsusi qeyd edilmiş, idxal olunan taxılın miqdarı haqqında məlumat verilmişdir. Qeyd etmək lazımdır ki, hər il quberniyanın bəzi yerlərində təbii fəlakətlərdən, quraqlıqdan doludan, məhsula dəyən xəstəliklərdən və əkin sahələrinə ziyan verən gəmiricilərdən tez-tez məhsul qıtlığı yaranırdı. Əhalini taxıl və unla təmin etmək hökumət tərəfindən banklardan ehtiyat ərzaq pulu ayrılmışdı. Əhali üçün ayrılan ehtiyat ərzaq pulunun bir hissəsi yerli ssuda-əmanət kassalarında, bir hissəsi isə Dövlət bankının Tiflis və İrəvan filiallarında saxlanılırdı. Bu ssuda yalnız yerli hakimiyyət orqanlarının Qafqaz rəisliyinə məktubla xahişdən sonra buraxılırdı[797].

1891-ci ilin məlumatına görə, quberniya üzrə tədarük edilmiş 2054019 çetvert taxıl məhsullarından 1369765 çetverti əhalinin qidalanmasına, 387064 çetvert toxumluğa, qalan 297190 çetvertin 45000 çetverti qoşunun təminatına, 252190 çetverti isə müvəqqəti yaşayanlara sərf olumuşdur. Həmin il Naxçıvan, Aleksandropol və Yenibəyazid qəzalarında taxıl çatışmadığından, digər qəzalardan, Osmanlı Türkiyəsindən və Qacar dövlətindən taxıl alınmışdır. Hər iki dövlətdən 89531 pud 24 funt taxıl ixrac olunmuşdur[798].

İrəvan quberniyasında taxıl tədarükündə azalma olduqda, ehtiyat tədbirləri də görülmüşdür. Bunun üçün əlavə kapital ayrılmış və hər qəzada anbarlar fəaliyyət göstərmişdir. Məsələn, İrəvan qəzasında yalnız 6 dağ kəndində-Zar, Göykilsə, Kəmriz, Çatqıran, Göl-Aysor və Zəncirli kəndlərində taxıl anbarları olmuş, həmin anbarlarda 6112 pud buğda, 2680 pud arpa ehtiyatı toplanmışdır. İlin əvvəllərində bütün bu taxıl ehtiyatı əhaliyə

[797] Обзор Эриванской губернии за 1894 г., с.6.
[798] Обзор Эриванской губернии за 1891 г., с.10.

paylanmış, lakin onun vergisi alınmamışdır. Əhalidən alınacaq taxılın pulla dəyəri 63025 rubl 75 qəpik olmuşdur[799].

Naxçıvan qəzasında 76 anbar var idi. Lakin həmin vaxt anbarlarda taxıl yox idi. Əhalidən alınacaq ərzaq pulu isə 10205 rubl 59 qəpik idi[800].

Sürməli qəzasında yalnız Güllicə kəndində anbar var idi, taxıl isə əhaliyə paylanmışdı. Qəza üzrə 1892-ci ilin yanvarın 1-ə olan məlumata görə, əhalidən alınacaq ərzaq pulunun həcmi 14657 publ 95 qəpik idi. Bunun 3367 rubl 44 qəpiyi artıq yığılmışdı[801].

Şərur-Dərələyəz qəzasında 82 anbar olmuş, həmin anbarlarda 1470 pud buğda, 2664 pud 20 funt arpa toplanmışdır. Lakin əhalinin keçən ildən borcu da qalmışdır. Buğda borcunun miqdarı 36113 pud 37 funt, 7778 pud arpa, pulla ümumi dəyəri isə 7968 publ 65 qəpik idi[802].

Aleksandropol qəzasında yalnız 1-Dovşanqışlağı kənd cəmiyyətində anbar var idi, həmin anbarda 360 pud buğda ehtiyatı saxlanmışdı. Ərzaq pulunun miqdarı isə 21934 rubl 74 qəpik idi[803].

Yenibəyazid qəzasında 48 anbar olmuş, 1892-ci il yanvarın 1-ə olan məlumata görə, həmin anbarlarda 26471 pud 34 funt buğda, 13344 pud 39 funt arpa toplanmış, əhaliyə isə 132305 pud 19 funt buğda, 63075 pud 13,5 funt arpa paylanmışdır[804].

Üçmüəzzin qəzasında 58 taxıl anbarı olmuşdur. Həmin anbarlarda 54077 pud 22 funt ehtiyat buğda və 32525 pud 35 funt arpa olmuş, bütün bu ehtiyat əhaliyə paylanmışdır. Taxılın pulla dəyəri 6692 rubl 64 qəpik idi. Bunun 4538 publ 33 qəpiyi nağd, qalanı isə vergi borcu idi[805].

---

[799] Yenə orada.

[800] Yenə orada, s.11.

[801] Обзор Эриванской губернии за 1891 г. с.11.

[802] Yenə orada, c.10.

[803] Yenə orada.

[804] Yenə orada.

[805] Yenə orada.

Ümumilikdə, 1891-ci ildə İrəvan quberniyasında 272 ərzaq anbarı fəaliyyət göstərmiş, həmin anbarlarda 44311 pud 13 funt taxıl toplanmış, bunun 28301 pud 34 funtu buğda, 16009 pud 19 funtu isə arpa ehtiyatı olmuşdur. Bu ehtiyat 1890-cı ilə nisbətən 143959 pud 34 funt az idi (76,5 %). Lakin ərzaq pulu 122331 rubl 1 qəpik, keçən ilə nisbətən isə 45888 rubl 83 qəpik (yəni 60 %) çox idi. Həmin il əhaliyə taxıla görə pul ssudası verilməmiş, yalnız Yenibəyazid qəzasında verilən ssuda müqabilində anbarlardan əhaliyə 16003 pud buğda, 6608 pud 22 funt arpa satılmışdır. Sürməli qəzasında yalnız Güllicə kəndində anbar olmuş, taxıl isə əhaliyə paylanmışdır. Qəza üzrə 1892-ci ilin yanvarın 1-ə olan məlumata görə, əhalinin borcu 14657 publ 95 qəpik olmuş, bunun 3367 rubl 44 qəpiyi artıq yığılmışdır[806].

1892-ci ilin məlumatına görə, quberniya üzrə tədarük edilmiş 1596459 çetvert taxıl məhsullarından (bura arpa və yulaf daxil deyildi) 1369765 çetverti yerli əhalinin qidalanmasına, 45000 çetverti müvəqqəti yaşayanlara, 177414 çetverti isə toxumluğa sərf olumuşdur. Həmin ildə də taxıl məhsulu əhalinin təminatı üçün azlıq təşkil etmişdir. Hesabat ilində Osmanlı Türkiyəsindən və Qacar dövlətindən 93290 pud 30 funt taxıl idxal olunmuş, bunun 92373 pudu buğda, 917 pud 30 funtu isə un idi[807].

İrəvan quberniyasında hesabat ilində də ehtiyat tədbirləri görülmüş, bunun üçün ehtiyat kapitalı ayrılmışdır. Həmin il Sürməli qəzasında Aralıq-Sirboğan kənd cəmiyyətinə 340 rubl 66 qəpik, Diza kənd cəmiyyətinə isə 360 rubl 74 qəpik  pul ssudası verilmişdir. Digər qəzaların əhalisi isə özlərinin hesabına Türkiyə və Qacar dövlətlərindən taxıl almışdılar[808].

1893-ci ildə taxıl məhsulu zəif olduğundan çörək təminatında çatışmazlıq olmuş, bununla əlaqədar olaraq çörəyin qiymətində artım baş vermişdir. Lakin yerli hökumət orqanları qabaqlayıcı tədbir görərək, Rusiya və Qacar dövlətlərindən taxıl almış,

---

[806] Обзор Эриванской губернии за 1891 г, с.10.
[807] Обзор Эриванской губернии за 1892 г., с.7-8.
[808] Yenə orada, s.8.

bu da yenidən qiymətin aşağı düşməsinə səbəb olmuşdur. Digər tərəfdən, hesabat ilində İrəvan quberniyasının düzənlik ərazilərində pambığın, meyvəçiliyin və ipəyin bol olması nəticəsində əhali çörək tələbatını təmin etmək üçün lazımi vəsaiti əldə edə bilmişdilər. Lakin dağlıq ərazilərdə, xüsusən də Yenibəyazid və Aleksandropol qəzalarının dağlıq hissəsində taxıl tədarükü az olduğundan ssuda götürməyə məcbur olmuşdular. Həmin il İrəvan quberniyasında qəzalar üzrə ehtiyat ərzaq pulu belə bölüşdürülmüşdür:

İrəvan qəzası- 87777 rubl 96 qəpik;
Üçmüəzzin qəzası- 22028 rubl 42 qəpik;
Aleksandropol qəzası- 44787 rubl 78 qəpik;
Yenibəyazid qəzası-12575 rubl 11 qəpik;
Sürməli qəzası- 46508 rubl 79 qəpik;
Naxçıvan qəzası-61539 rubl 60 qəpik;
Şərur-Dərələyəz qəzası-31613 rubl 53 qəpik;
Yekun-306831 rubl 53 qəpik[809].

Yerlərdə əhalini ərzaqla təmin etmək üçün bütün qəza rəisləri (Naxçıvan qəza rəisindən başqa) ssuda üçün hökumətə ərizə ilə müraciət etmişdilər. Nəticədə taxıl çatışmazlığından ehtiyat puldan Aleksandropol qəzası üçün 23000 rubl, Yenibəyazid qəzası üçün 16000 rubl, İrəvan qəzası üçün isə 15263 rubl ssuda ayrılmışdır[810].

1894-cü ildə İrəvan quberniyasının ayrı-ayrı qəzalarında taxıl tədarükündə fərqli nəticə əldə olunmuş, quberniyanın bəzi yerlərində əhalini kifayət qədər təmin edəcək taxıl yığılmışdır. Lakin polis məlumatına görə, Şərur-Dərələyəz, Üçmüəzzin, Aleksandropol və Yenibəyazid qəzalarının 182 kəndində yayda havaların isti keçməsi və yağışın olmaması nəticəsində məhsul qıtlığı olmuşdur. Bu kəndlərdən 47-i Şərur-Dərələyəz, 80-i Üçmüəzzin, 34-ü Yenibəyazid, 21-i isə Aleksandropol qəzalarının

---

809 Обзор Эриванской губернии за 1893 г., с.7-8.
810 Обзор Эриванской губернии за 1891 г., с.8.

payına düşmüşdür[811]. Bu kəndləri çörəklə təmin etmək üçün quberniya rəisləri Qafqaz rəisliyinə məktub vasitəsilə müraciət edərək ehtiyat puldan 110000 rubl məbləğində ayrılmasını xahiş etmişdilər. Bunun 20 min rublu Şərur-Dərələyəz, 30 min rublu Üçmüəzzin, 45 min rublu Yenibəyazid, 15 min rublu isə Aleksandropol qəzalarının payına düşmüşdü[812].

Həmin il İrəvan quberniyasında bütün qəzalar üzrə ehtiyat ərzaq pulu belə bölüşdürülmüşdü:

İrəvan qəzası-112286 rubl 22 qəpik;
Üçmüəzzin qəzası-22028 rubl 42 qəpik;
Aleksandropol qəzası-82223 rubl 43 qəpik;
Yenibəyazid qəzası-18500 rubl 58 qəpik;
Sürməli qəzası-72010 rubl 58 qəpik;
Naxçıvan qəzası-102845 rubl 44 qəpik;
Şərur-Dərələyəz qəzası-54114 rubl 9 qəpik;
Yekun-486696 rubl 63 qəpik[813].

Bu ehtiyat ərzaq pulundan Şərur-Dərələyəz qəzasının əhalisinə 3133 rubl 81 qəpik, Aleksandropol qəzasının əhalisinə 5357 rubl 40 qəpik, Naxçıvan qəzası üçün 100 rubl, ümumilikdə 8591 rubl 21 qəpik, sonradan əlavə olaraq, 1089 rubl 26 qəpik Aleksandropol qəzası üçün, 2954 rubl 11 qəpik Şərur-Dərələyəz qəzası üçün ssuda ayrılmışdır[814].

1895-ci ildə də İrəvan quberniyasında əhalinin taxılla təminatında çatışmazlıq davam etmişdir. Xüsusilə quraqlıqların davam etməsi, süni suvarma ilə əkin sahələrinin suvarılmasının çatdırılmaması dağlıq ərazilərdə məhsul tədarükündə azalma baş vermişdir. Bu məhsulsuzluqdan Yenibəyazid qəzasının əhalisi çox əziyyət çəkmişdir. Hələ keçən ilin yazında tarlalara toxum səpmək üçün Yenibəyazid qəzasının əhalisinə 50000 rubl ssuda ayrılmışdı. Buna baxmayaraq, hesabat ilində Yenibəyazid qəzası-

---

811 Обзор Эриванской губернии за 1894 г., с.4.
812 Yenə orada, s.5.
813 Обзор Эриванской губернии за 1894 г., с.7-8.
814 Yenə orada, с.6.

nın 49 dağ kəndində, Üçmüəzzin qəzasının Abaram dairəsinin 25 kəndində məhsul az olmuşdur. Quberniya rəisləri məhsuldan əziyyət çəkən kəndləri toxumla və taxılla təmin etmək üçün yenidən Qafqaz rəisliyinə müraciət etmiş və 125000 rubl ayrılmasını xahiş etmişdilər. Ayrılmış 125000 rubl ssudadan Yenibəyazid şəhərinin və eyniadlı qəzanın 53 kəndi üçün 41831 rubl 12 qəpik ayrılmış, qalanları isə yenidən geri qaytarılmışdır[815].

Qeyd etmək lazımdır ki, məhsul qıtlığı üçün 1895-ci ildə qəzalar üzrə ehtiyat ərzaq pulu ayrılmışdır. Qəzalar üzrə həmin pul belə bölünmüşdü:

İrəvan qəzası-125599 rubl 30 qəpik;
Üçmüəzzin qəzası-57054 rubl 16 qəpik;
Aleksandropol qəzası-90717 rubl 42 qəpik;
Yenibəyazid qəzası-22031 rubl 12 qəpik;
Sürməli qəzası-93449 rubl 93 qəpik;
Naxçıvan qəzası-116734 rubl 77 qəpik;
Şərur-Dərələyəz qəzası-74871 rubl 70 qəpik;
Yekun-580458 rubl 40 qəpik[816].

Ehtiyat ərzaq kapitalından adambaşına 85 qəpik, hər evbaşına (hər iki cinsdən 7 nəfər olan ailə üçün) isə 5 rubl 95 qəpik düşürdü. Ərzaq üçün ayrılmış bu pulun 576090 rubl 26 qəpiyi qəza xəzinədarlığının ssuda-əmanət kassalarında və Dövlət bankının İrəvan və Tiflis filiallarında saxlanılırdı. Ümumi puldan 4268 rubl 14 qəpiyi Aleksandropol qəzasının əhalisinin və 100 rublu isə Naxçıvan qəzasının bir kənd cəmiyyətinin əvvəlki illərdən qalma borcu olmuşdur[817].

1896-cı ildə İrəvan quberniyasında taxıl tədarükü bol olmuşdur. Nəticədə əhali nəinki taxılla özünü təmin etmiş, eyni zamanda onun bir hissəsi toxuma sərf olunmuş, bir hissəsi isə ixrac olunmuşdur. Lakin bəzi ərazilər-Üçmüəzzin qəzasının Qarğabazar və Səfiabad kəndləri, Abaran dairəsinin dağlıq kəndləri və

---

815 Обзор Эриванской губернии за 1895 г., с.5-6.
816 Обзор Эриванской губернии за 1895 г., с.6.
817 Yenə orada.

Yenibəyazid qəzasının 35 kəndi dolu düşməsi nəticəsində məhsulsuzluqdan əziyyət çəkmişdir[818].

Hesabat ilində ayrı-ayrı qəzalar üçün ərzaq pulu ayrılmış və həmin məbləğ belə bölünmüşdü:

İrəvan qəzası-1550231 rubl 7 qəpik;
Aleksandropol qəzası-121000 rubl 51qəpik;
Yenibəyazid qəzası-24977 rubl 13 qəpik;
Sürməli qəzası-123741 rubl 61 qəpik;
Naxçıvan qəzası-123340 rubl 35 qəpik;
Üçmüəzzin qəzası-72092 rubl 83 qəpik
Şərur-Dərələyəz qəzası-92660 rubl 87 qəpik;
Yekun-708044 rubl 37 qəpik[819].

Qeyd etmək lazımdır ki, qəzalar üzrə ayrılmış ehtiyat puldan yalnız məhsuldan əziyyət çəkən bəzi qəzalara verilmişdir: İrəvan qəzası üçün 1960 rubl; Sürməli qəzası üçün 300 rubl; Naxçıvan qəzası üçün 719 rubl 96 qəpik; ümumilikdə 2979 rubl 96 qəpik. Verilmiş ssudadan 719 rubl 23 qəpiyi əhalinin borcunun ödənilməsinə (İrəvan qəzası üzrə 580 rubl, Sürməli qəzası üzrə 719 rubl 23 qəpik) sərf olunmuşdur[820].

1897-ci ildə İrəvan quberniyasında yığılan taxıl yerli əhalini təmin etməmişdi. Xüsusilə, Yenibəyazid qəzasında taxıl qıtlığı olmuşdur. Hesabat ilində quberniya üzrə hər bir nəfərə 1,46 çetvert taxıl məhsulu düşmüşdür. Əvvəlki illərdə olduğu kimi, Qacar dövlətindən taxıl idxal olunmuşdur. Lakin əhalinin məşğul olduğu başqa sahələrdən yaxşı gəlir əldə olunduğuna görə, bu qazanc çörək təminatını təmin etmiş, qəzalar üzrə ayrılmış ehtiyat ərzaq pulu xərclənməmişdir[821] [Obzor za 1897, s.8].

1897-ci ildə İrəvan quberniyasında qəzalar üzrə ayrılan ehtiyat ərzaq pulu belə bölüşdürülmüşdür:

İrəvan qəzası-178221 rubl 37 qəpik;

---

[818] Обзор Эриванской губернии за 1896 г., с.4.
[819] Обзор Эриванской губернии за 1896 г., s.4-5.
[820] Обзор Эриванской губернии за 1896 г., с.4.
[821] Обзор Эриванской губернии за 1897 г., с.8.

Aleksandropol qəzası-153715 rubl 69 qəpik;
Yenibəyazid qəzası-25934 rubl 22 qəpik;
Sürməli qəzası-155676 rubl 41 qəpik;
Naxçıvan qəzası-140695 rubl 84 qəpik;
Üçmüəzzin qəzası-84582 rubl 68 qəpik
Şərur-Dərələyəz qəzası-114963 rubl 87 qəpik;
Yekun-853790 rubl 08 qəpik[822].

1898-ci ildə İrəvan quberniyasında taxıl tədarükündə artım olduğuna görə yerli əhali taxılla bol təmin olunmuşdur. Mənbənin verdiyi məlumata görə, hesabat ilində 991040 çetvert artıq taxıl yığılmış, quberniya üzrə hər bir nəfərə 2,69 çetvert taxıl düşmüşdür. Məhz buna görə, həmin ildə ayrılmış ehtiyat ərzaq pulundan xərclənməmişdir[823].

1898-ci ildə İrəvan quberniyasında qəzalar üzrə ayrılan ehtiyat ərzaq pulu belə bölüşdürülmüşdür:

İrəvan qəzası-191506 rubl 89 qəpik;
Aleksandropol qəzası-183558 rubl 93 qəpik;
Yenibəyazid qəzası-26474 rubl 27 qəpik;
Sürməli qəzası-170880 rubl 77 qəpik;
Naxçıvan qəzası-147743 rubl 30 qəpik;
Üçmüəzzin qəzası-94269 rubl 23 qəpik
Şərur-Dərələyəz qəzası-136265 rubl 47 qəpik;
Yekun-950698 rubl 86 qəpik[824].

1899-cu ildə Mərkəzi Stastistika Komitəsinin verdiyi məlumata görə, İrəvan quberniyasında yaşayan bütün əhalinin təminatı üçün 1264550 çetvert taxıl tələb olunmuşdu. Quberniyada yaşayan hər bir adama 1,5 çetvert taxıl düşürdü. Lakin həmin il daha çox-1765672 çetvert taxıl yığılmış, bu da əhalini tam təmin etmişdi. Artıq qalmış taxılın 400000 çetverti toxuma sərf olunmuş, 40000 çetverti isə gələn il üçün ehtiyat saxlanmışdır[825] [Ob-

---

822 Yenə orada.
823 Обзор Эриванской губернии за 1898 г., с.6.
824 Yenə orada.
825 Обзор Эриванской губернии за 1899 г., с.6.

zor za 1899, s.6].

Hesabat ilində də yığılan taxıl əhalini təmin etdiyinə görə, ayrılmış ehtiyat ərzaq pulundan xərclənməmişdir. 1899-cu ildə İrəvan quberniyasında qəzalar üzrə ayrılan ehtiyat ərzaq pulu belə bölüşdürülmüşdür:

İrəvan qəzası-191506 rubl 89 qəpik;
Aleksandropol qəzası-199372 rubl 37 qəpik;
Yenibəyazid qəzası-32733 rubl 80 qəpik;
Sürməli qəzası-211050 rubl 32 qəpik;
Naxçıvan qəzası-154359 rubl 74 qəpik;
Üçmüəzzin qəzası-119599 rubl 55 qəpik
Şərur-Dərələyəz qəzası-148231 rubl 98 qəpik;
Yekun-950698 rubl 86 qəpik[826].

1900-cu ildə Mərkəzi Statistika Komitəsinin verdiyi məlumata görə, İrəvan quberniyasında yaşayan bütün əhalinin qida təminatı üçün 1821504 çetvert taxıl tələb olunmuş, hər bir adama 1,5 çetvert taxıl düşmüşdür. Lakin həmin il daha çox-2645881 çetvert taxıl yığılmış, bu da əhalini tam təmin etmişdi. Artıq qalmış 824377 çetvert taxılın bir hissəsi vergilərin ödənilməsinə və digər təsərrüfat ehtiyaclarına sərf olunmuşdur[827].

Hesabat ilində yığılan taxıl əhalini təmin etdiyinə görə, ayrılmış ehtiyat ərzaq pulundan xərclənməmişdir. 1900-cü ildə İrəvan quberniyasında qəzalar üzrə ayrılan ehtiyat ərzaq pulu belə bölüşdürülmüşdür:

İrəvan qəzası-232016 rubl 85 qəpik;
Aleksandropol qəzası-229088 rubl 1 qəpik;
Yenibəyazid qəzası-28207 rubl 17 qəpik;
Sürməli qəzası-249434 rubl 11 qəpik;
Naxçıvan qəzası-167622 rubl 90 qəpik;
Üçmüəzzin qəzası-125453 rubl 26 qəpik
Şərur-Dərələyəz qəzası-136807 rubl 66 qəpik;

---

[826] Обзор Эриванской губернии за 1899 г., с.6.
[827] Yenə orada.

Yekun-1168629 rubl 96 qəpik[828].

1901-ci ildə Mərkəzi Statistika Komitəsinin verdiyi məlumata görə, İrəvan quberniyasında yaşayan bütün əhalinin təminatı üçün 1299397 çetvert taxıl tələb olunmuş, hər bir adama isə 1,5 çetvert taxıl düşürdü. Lakin həmin il daha çox-2284844 çetvert taxıl yığılmış, bu da əhalini tam təmin etmişdi. Artıq qalmış 505447 çetvert taxılın 480000 çetverti toxuma, qalan hissəsi isə vergilərin ödənilməsinə və digər təsərrüfat ehtiyaclarına sərf olunmuşdur[829].

Hesabat ilində də yığılan taxıl əhalini təmin etdiyinə görə, ayrılmış ehtiyat ərzaq pulundan xərclənməmişdir. 1901-ci ildə İrəvan quberniyasında qəzalar üzrə ayrılan ehtiyat ərzaq pulu belə bölüşdürülmüşdür:

İrəvan qəzası-251822 rubl 57 qəpik;
Aleksandropol qəzası-232267 rubl 80 qəpik;
Yenibəyazid qəzası-39294 rubl 13 qəpik;
Sürməli qəzası-260621 rubl 45 qəpik;
Naxçıvan qəzası-172192 rubl 80 qəpik;
Üçmüəzzin qəzası-135529 rubl 54 qəpik
Şərur-Dərələyəz qəzası-155420 rubl 31 qəpik;
Yekun-1247148 rubl 60 qəpik[830].

1903-cü ildə yığılan taxıl nəinki əhalini təmin etməmiş, eyni zamanda toxuma və mal-qaranın yeminə belə çatmamışdır. Gömrük idarəsinin verdiyi məlumata görə, bu çatışmazlığı həll etmək üçün Qacar dövlətindən və Türkiyədən 200000 pud taxıl idxal edilmişdir. Hesabat ilində kənd təsərrüfatı məhsullarından pambıq bol olduğundan, ondan gələn gəlir əhalinin taxıl təminatını ödəmişdir. İrəvan quberniyası üçün ayrılmış 1372942 rubl 52 qəpik ehtiyat ərzaq pulunun 184434 rubl 86 qəpiyi yalnız İrəvan, Sürməli, Yenibəyazid və Naxçıvan qəzalarında kənd cəmiyyətlə-

---

[828] Обзор Эриванской губернии за 1900 г., с.6.
[829] Обзор Эриванской губернии за 1901 г., с.8.
[830] Обзор Эриванской губернии за 1901 г., с.8.

rinin borcuna sərf olunmuşdur[831].

1904-cü ildə tədarük edilən taxılın hamısı əhalinin təminatına, toxuma və mal-qaranın yeminə sərf olunmuşdur. Bu ildə də pambıq bol yığıldığından, ondan gələn gəlir əhalinin vergilərinin ödənilməsinə və digər təsərrüfat işlərinə xərclənmişdir[832].

Hesabat ilində İrəvan quberniyası üçün ayrılmış 149466 rubl 29 qəpik ehtiyat ərzaq pulunun 257701 rubl 98 qəpiyi yalnız ayrı-ayrı qəzalar üzrə kənd cəmiyyətlərinin borcuna sərf olunmuşdur[833].

1906-cı ildə güclü şaxtaların, dolunun düşməsi, daşqınların olması nəticəsində İrəvan quberniyasının dağlıq və qismən də düzənlik ərzailərində taxıl qıtlığı yaranmışdır. Quberniya üzrə taxıl itkisi 366945 rubl 97 qəpik miqdarında olmuşdur. Bu çatışmazlığın yerini doldurmaq üçün əhali ehtiyat ərzaq pulundan ssuda götürmək məcburiyyətində qalmış, xüsusilə, hökumət Aleksandropol və Naxçıvan qəzalarına daha çox ssuda ayırmışdır. Lakin düzənlik ərazilərdə taxıl çatışmazlığının qarşısını pambıqdan gələn bol gəlir təmin etmişdir. Əhali pambıqdan əldə etdiyi gəlir hesabına lazımi təminatını ödəyə bilmişdir[834].

Hesabat ilində İrəvan quberniyası üçün ayrılmış 1290509 rubl 62 qəpik ehtiyat ərzaq pulunun 422082 rubl 67 qəpiyi kənd cəmiyyətlərinin borcuna sərf olunmuşdur[835].

1907-ci ildə də İrəvan quberniyasında taxıl yığımında geriləmə davam etmişdir. Xüsusilə, Şərur-Dərələyəz, Üçmüəzzin və Naxçıvan qəzalarının dağlıq ərazilərində quraqlığın, Yenibəyazid və Aleksandropol qəzalarında şaxtaların, dolunun düşməsi və sellərin olması, İrəvan qəzasında tarlalara siçanların ziyan vurması nəticəsində taxıla böyük ziyan dəymişdir. Bundan əlavə, taxıl bol olan yerlərdə əldə olunan buğdanın keyfiyyətinin aşağı olması əhalinin ümidlərini puç etmiş, İrəvan quberniyası üzrə təbii

---

[831] Обзор Эриванской губернии за 1903 г., с.4.
[832] Обзор Эриванской губернии за 1904 г, с.7.
[833] Yenə orada, s.7.
[834] Обзор Эриванской губернии за 1906 г., с.8.
[835] Yenə orada, s.9.

fəlakətin vurduğu ziyanın ümumi dəyəri 802166 rubl 10 qəpik müəyyən olunmuşdur. Əhali taxıl çatışmazlığını aradan qaldırmaq və əkin sahələrini toxumla təyin etmək üçün ehtiyat ərzaq pulundan ssuda götürmək məcburiyyətində qalmışdı. Yalnız Sürməli qəzası hökumətin köməyi olmadan bu çətinliyin öhdəsindən gəlmişdir[836].

1907-ci ildə İrəvan quberniyası üçün ayrılmış 1286194 rubl 94 qəpik ehtiyat ərzaq pulunun 563505 rubl 74 qəpiyi kənd cəmiyyətlərinin borcuna sərf olunmuşdur[837].

1908-ci ildə də İrəvan quberniyasında taxıl yığımında geriləmə davam etmişdir. Yalnız Sürməli qəzası heç bir kömək olmadan bu çətinliyin öhdəsindən gəlmişdir. Qalan qəzaların böyük əksəriyyəti hökumətin maddi yardımı olmadan keçinə bilmədilər. Quberniya Ərzaq komissiyası vaxtında tədbir görərək Şimali Qafqazdan toxumluq buğda gətirmiş, yazlıq əkin əla vəziyyətdə həyata keçmişdir. Bundan əlavə, Yenibəyazid əhalisi üçün ayrılmış 11606 rubl 68 qəpik ehtiyat ərzaq pulundan yazlıq əkin üçün 64263 pud 17 funt toxum, 6924 pud 31,75 funt un, İrəvan qəzası əhalisi üçün ayrılmış 14783 rubl 25 qəpik ehtiyat ərzaq pulundan yazlıq əkin üçün 21475 pud 10 funt buğda toxumu, 8960 pud arpa toxumu, 45367 pud 20 funt un, Şərur-Dərələyəz əhalisi üçün ayrılmış 228 rubl ehtiyat ərzaq pulundan yazlıq əkin üçün 17993 pud 15 funt buğda toxumu, 50799 pud 14 funt un, Üçmüəzzin əhalisinə yazlıq əkin üçün 8224 pud 32 funt buğda toxumu, 12055 pud un, Aleksandropol əhalisi üçün ayrılmış 1997 rubl 20 qəpik ehtiyat ərzaq pulundan yazlıq əkin üçün 15752 pud buğda toxumu, 3013 pud 38 funt un, Naxçıvan əhalisinə yazlıq əkin üçün 6421 pud 7 funt buğda toxumu, 7994 pud un verilmişdir. Sürməli qəzasının əhalisi bu çətinlikdən çıxsa da, lakin onun bəzi kəndlərinə ehtiyat ərzaq pulundan 18840 rubl ssuda ayrılmışdır[838].

---

[836] Обзор Эриванской губернии за 1907 г., с.8.
[837] Обзор Эриванской губернии за 1907 г., с.8.
[838] Обзор Эриванской губернии за 1908 г., с.8.

1908-ci ildə İrəvan quberniyası üçün ayrılmış 1307459 rubl 4 qəpik ehtiyat ərzaq pulunun 583312 rubl 47 qəpiyi kənd cəmiyyətlərinin borcuna sərf olunmuşdur[839].

1909-cu ildə İrəvan quberniyasında bol taxıl tədarük edilmişdir. Digər tərəfdən, pambığın yaxşı qiymətə satılması əhalinin iqtisadi imkanlarını artırmışdır. Hesabat ilində məhsul bolluğu və pambıqdan gələn gəlir əhaliyə xəzinə vergilərini və digər borclarını ödəməyə imkan vermişdir. Buna baxmayaraq, quberniyanın bəzi ərazilərinə təbii fəlakət ziyan vurmuş, ziyanın ümumi dəyəri isə 104588 rubl 27 qəpik dəyərində qiymətləndirilmişdir[840].

Hesabat ilində İrəvan quberniyası üçün ayrılmış 1338686 rubl 44 qəpik ehtiyat ərzaq pulunun 559990 rubl 58 qəpiyi kənd cəmiyyətlərinin borcuna sərf olunmuşdur[841].

1910-cu ildə İrəvan quberniyasının əhalisi bol taxıl tədarük etdiklərindən, hökumətin köməyi olmadan vaxtında xəzinə borclarını və digər ictimai mükəlləfiyyətləri müvəffəqiyyətlə yerinə yetirmişdilər. Yalnız Naxçıvan qəzasının əhalisinə 1950 rubl 70 qəpik, Şərur-Dərələyəz qəzasının əhalisinə isə 450 rubl ehtiyat ərzaq pulundan ssuda ayrılmışdır[842].

Hesabat ilində məhsul bolluğuna baxmayaraq, quberniyanın bəzi ərazilərinə təbii fəlakətdən ziyan dəymişdir. Dəyən ziyanın ümumi dəyəri 557022 rubl 55 qəpik məbləğində qiymətləndirilmişdir. 1910-cu ildə İrəvan quberniyası üçün ayrılmış 1471285 rubl 61 qəpik ehtiyat ərzaq pulunun 481872 rubl 44 qəpiyi kənd cəmiyyətlərinin borcuna sərf olunmuşdur[843].

1912-ci ildə İrəvan quberniyasında şaxtaların, dolunun düşməsi və güclü sellərin olması nəticəsində məhsul tədarükünə ziyan dəymişdir. Ziyanın dəyəri 290 min rubl həcmində olmuşdur. Hesabat ilində ehtiyat ərzaq pulunun ümumi miqdarı 1634808

---

[839] Yenə orada.

[840] Обзор Эриванской губернии за 1909 г., с.8.

[841] Yenə orada.

[842] Обзор Эриванской губернии за 1910 г., с.8.

[843] Yenə orada.

publ 27 qəpik təşkil etmiş, kənd icmasının borcu isə 408777 rubl 24 qəpik olmuşdur. Əhaliyə bu ümumi kapitaldan 23180 rubl 48 qəpik ssuda verilmişdir[844].

1913-ci ildə İrəvan quberniyasında dolunun düşməsi, güclü sellərin, yayda quraqlığın və yanğınların olması nəticəsində məhsul tədarükünə ziyan dəymişdir. Ziyanın dəyəri 349624 rubl 45 qəpik həcmində olmuşdur. Hesabat ilində ehtiyat ərzaq pulunun ümumi miqdarı 1947173 rubl 44 qəpik təşkil etmiş, bu puldan 261040 rubl 15 qəpik ssuda verilmişdir[845].

1914-cü ildə də dolunun düşməsi, güclü sellərin, yayda quraqlığın və yanğınların olması nəticəsində İrəvan quberniyasının məhsul tədarükünə ziyan dəymiş, ziyanın ümumi dəyəri 3 milyon rubl həcmində olmuşdur. Hesabat ilində ehtiyat ərzaq pulunun ümumi miqdarı 2007586 publ 28 qəpik təşkil etmiş, bu puldan dəymiş ziyana görə kənd icmalarına 344133 rubl 50 qəpik ssuda verilmişdir[846].

Beləliklə, taxıl və digər ərzaq əkinçiliyi ilə məşğul olan İrəvan əhalisi təbii fəlakətlər, məhsullara düşən xəstəliklərdən asılı olaraq ildən-ilə qəzalarda məhsul qıtlığı ilə üzləşməli olmuşdular. Hökumət orqanları hər il qabaqlayıcı tədbir görərək qəzalar üzrə ehtiyat ərzaq pulu ayırmış, bu pullar ssuda şəklində dəymiş ziyanın yerini doldurmaq üçün əhaliyə verilmişdir. Digər tərəfdən, taxıl çatışmazlığının qarşısını almaq üçün qonşu dövlətlərdən taxıl ixrac olunmuşdur.

**Maldarlıq.** Mardarlıq İrəvan quberniyasında kənd təsərrüfatının tarixən inkişaf etmiş sahələrindən biri idi. Geniş otlaq sahələrinin bol olması quberniyada maldarlığın inkişafına təkan verən amillərdən biri olmuşdur. İrəvan quberniyasının hər bir qəzasında geniş yaylaq və qışlaq yerləri var idi. Bu örüş yerləri o qədər geniş idi ki, onlardan həm xəzinə, həm də mülkədar kəndlərinin kəndliləri istifadə etmişdilər. İrəvan quberniyasında ayrı-ayrı

---

[844] Обзор Эриванской губернии за 1912 г., с.10.
[845] Обзор Эриванской губернии за 1913 г., с.10.
[846] Обзор Эриванской губернии за 1914 г., с.11.

illərdə mal-qaranın sayına toxunmazdan əvvəl, mənbələrdə qəzalar üzrə öz əksini tapmış yaylaq və qışlaqlar haqqında ətraflı məlumat vermək istərdik. İrəvan qəzasının əhalisi mal-qaranı otarmaq üçün İrəvan, Yenibəyazid və Üçmüəzzin qəzalarında yerləşən xəzinə yaylaqlarından istifadə edirdilər. İrəvan qəzasında bu yaylaqlar Ağdağ dağının yamaclarında və Yenibəyazid qəzasının sərhədinə qədər uzanan yerlərdə, Yenibəyazid qəzasında Ağdağ, Ağmanqan və digər dağların yamaclarında, Ayrıc dağının ətəklərində yerləşmişdi. Göstərilən bu yaylaqlar yaz zamanı sıx otlarla örtüldüyündən otlaqlarda müxtəlif növ mal-qara otarılırdı. Bu yerlər başdan-başa İrəvan qəzasına məxsus əhalinin alaçıqları ilə dolu olardı. Qəzanın 23 aran, 40 dağ kəndinin kəndliləri öz sürülərini bu yerlərdə otarırdı. Aşağıdakı cədvəldə yaylaqlar, onların sahəsi, bu yaylaqlardan istifadə edən kəndlər, mal-qaranın sayı və yaylaqlardan istifadə məbləği haqqında məlumatı əyani izləmək mümkündür[847]:

[847] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, т.III, с.60-65.

| Kəndlər | Yaylaqlardan istifadə edilən yerlər | Yurd yerləri | Yurd yerlərinin sahəsi (desyatinlə) | İstifa-də vaxtı | Hər desyatindən istifadə məbləği (rubulla) |
|---|---|---|---|---|---|
| **Aran rayonlarında** | | | | | |
| Əbilkənd və Uluxanlı kəndinin 15 təssərrüfatı | Yenibəyazid q-da Ağdağda | Çınqılyurd (Ellicə) | 222 | Keçmiş zamandan | 33 rub. 20 qəp. |
| Uluxanlı | Yenibəyazid q-da Ağdağda | Çınqılyurd (Ellicə) | 222 | | 33 rub,20 qəp. |
| Avşar | Yenibəyazid qəzasında Ayrıcda | Tityanıyurd, Çarhouzyurd, Çökəkyurd, Duzyurd və Dikyurd | 861 | | 129 rub.15 |
| Ağamzalı | İrəvan q-da Ağdağda | Daşlıyurd | 100 | | 15 rub. |
| Əliməmməd qışlağı | Yenibəyazid qəzasında Ayrıcda | Dibəkdaşı yurd | 220 | | 33 rub. |
| Böyük Vedi | Yenibəyazid qəzasında Ayrıcda | Yalyurd, Qaragölyurd, Daşlıgüneyyurd, Güneyyurd, Aylıyurd, Alagözdağ yurd, Qariçiyurd (Topaş), Təpəyurd və Duzyurd | 1240 | Keçmiş zamandan | 186 rub.. |
| Buğamlı | Oyuxluda | Oyuxluyurd | 18 | | 2 rub. 70 qəp. |
| Gerovan (mülkədar torpağında yaşayan həmkəndlilərlə birlikdə istifadə | Ayrıcda | Gölyurd, Kəmərriyurd, Yalyurd | 587 | | 88 rub. 05 qəp.. |
| Dəvəli | Ayrıcda | Uzunyurd, Əmirxanov-yurd, Yuxarı İkiciləryurd, Aşağı İkicilətyurd | 1940 | Keçmiş zamandan | 291 rub. |

| Kəndlər | Yaylaqlardan istifadə edilən yerlər | Yurd yerləri | Yurd yerlərinin sahəsi (desyatinlə) | İstifa-də vaxtı | Hər desyatindən istifadə məbləği (rubulla) |
|---|---|---|---|---|---|
| Canatlı | Üçtəpələrdə | Tikmədaşyurd və Üçtəpəyurd | 185 | | 27 rub. 75 qəp. |
| 2-ci Çatqıran (Vedibasar dairəsin-də) | İrəvan və Yenibəyazid q-Arxaçində | Arxaşinyurd | 290 | | 43 rub. 50 qəp. |
| Yuxarı və Aşağı Kəmərli | Yenibəyazid q-da Qızıldağda | Qızıldağyurd | 275 | | 41 rub. 25 qəp. |
| Qaralar | Yenibəyazid qəzasında Ayrıcda | Qaralaryurd | 650 | Keçmiş zamanda | 97 rub. 50 qəp. |
| Qafarlı | Yenibəyazid qəzasında Ağdağda | Gölyurd, Ağbulaqyurd, Duzyurd | 203 | | 30 rub. 45 qəp. |
| Aşağı Qalahasar | İrəvan q-da Keqvart kilsəsindən yuxarıda | Üçtəpəyurd | 65 | | 9 rub. 75 qəp. |
| Məsimli | İrəvan qəzasında Qarıburunda | Dibəkliyurd | 275 | | 41 rub. 25 qəp. |
| Novruzlu | Yenibəyazid q-da Ayrıcda | Ağbulaqyurd və Dərəyurd Parevı axıpyurd | 251 | | 37 rub. 65 qəp. |
| Reyhanlı | Yenibəyazid qəzasında Ayrıcda | Pareviaxıyurd yurdu | 290 | | 43 rub. 50 qəp. |
| Sabunçu | Yenibəyazid qəzasında Ağdağda | Grndərəyurd, | 292 | | |
| Sədərək | Yenibəyazid qəzasında Ayrıcda | Yalyurd, Daşlıbulaqyurd, Sarıyarğanyurd, Ayrıbul-caqyurd, Ağbulaqyurd, Quzeydərəyurd, Dibəhdə- | 4055 | | 605 rub 25 qəp. |

| Kəndlər | Yaylaqlardan istifadə edilən yerlər | Yurd yerləri | Yurd yerlərinin sahəsi (desyatinlə) | İstifa-də vaxtı | Hər desyatindən istifadə məbləği (rubulla) |
|---|---|---|---|---|---|
| | | rəsiyurd, Gödəkburunyurd, Tikanlıyurd, Tikanyurd,Yazyurd, Diktyurd, Muncuqlubulaqyurd, Hacıəli Ələsgəryurd, Xaratıqyurd, Güneyyurd, Dikyurd, Ağbulaqyurd, Küllücəyurd, Quzeyyurd, Qaragölyurd, Çınqıllıdərəyurd, Ayrıbucaqyurd, Gödəkburunyurd, Güneyyurd, Quzeyyurd, Taxtayurd, Yalyurd və Ağbulaqyurd | | | |
| | | | | | |
| Sarvanlar-ulya | Yenibəyazid qəzasında Ağmanqanda | Bulaqlıyurd | 125 | Keçmiş | 18 rub. 75.qəp. |
| Xəlisə | Yenibəyazid qəzasında Ayrıcda | Güneyyurd | 509 | zaman | 76 rub. 35 qəp. |
| Şorlu Mehmandar | Üçmüəzzin q-da Alagözdə | Təhnəliyurd, Gölyurd, Dərəyurd, Taxçayurd, Lilparbulaqyurd, Qaraçınqılyurd, Altuntaxtyurd, Qalaqlıyurd Qaşyurd | 2167 | dan | 325 rub. 05 qəp |

| Kəndlər | Yaylaqlardan istifadə edilən yerlər | Yurd yerləri | Yurd yerlərinin sahəsi (desyatinlə) | İstifa-də vaxtı | Hər desyatindən istifadə məbləği (rubulla) |
|---|---|---|---|---|---|
| Yekun | | | 14800 | -- | 2220 rub. |
| **Dağlıq rayonlarda** | | | | | |
| Ağasıbəyli | İrəvan qəzasında | Aralepinbalı yurd | 215 | | 32 rub. 25 qəp. |
| And və Kotanlı | Yenibəyazid qəzasında Ağmanqanda | Hacıməcid yurd | | | |
| Ərzni (17 Az.türk ailəsi istifadə edir) | Yenibəyazid qəzasında Ağmanqanda | Çınqıllı yurd | 50 | | 7 rub. 50 qəpik |
| | | Şahbulaq yurd | | | |
| Yeni salınınış Armık kəndi, Ağbulaq və Təzəkənd | İrəvan qəzası | Dibəkliyurd | 122 | 3 il müddətinə | 18 rub. 30 qəp. |
| Yeni salınmış Axis kəndi və İnqala | İrəvan qəzasında | Qozma yurd və Məciddərəsi yurd | 150 | Keç miş zamandan | 22 rub. 50 qəp. |
| Bayburd | İrəvan qəzasında | Tikanlı yurd | 250 | | 37 rub.50 qəp. |
| Baxçacıq | İrəvan qəzasında | Qırxbulaq yurd | 206 | Keçmiş zamandan | 30 rub. 90 qəp. |
| Başgərni | İrəvan quberniyasında | Çatmabulaq yurd | 612 | 5 ilə yaxın | 91 rub. 80 qəp. |
| Böyük Gilanar | İrəvan qəzasında | Cilli yurd | 372 | Keçmiş zamndann | 55 rub. 80 qəp. |
| Birəlyu | İrəvan qəzasında | Alyauçan yurd | 200 | Keçmiş zamandan | 30 rub. |
| Göl aysor (35 Az. Türk ailəsi istifadə edir) | Yenibəyazid q-da Ağmanqanda | Dəvəgözübaş yurd | 66 | Keçmiş zamandan | 9 rub. 09 qəp. |

| Kəndlər | Yaylaqlardan istifadə edilən yerlər | Yurd yerləri | Yurd yerlərinin sahəsi (desyatinlə) | İstifa-də vaxtı | Hər desyatindən istifadə məbləği (rubulla) |
|---|---|---|---|---|---|
| Gölgiqin | İrəvan qəzasında | Bədo yurd və Daşlıbulaq yurd | 495 | Keçmiş zamandan | 74 rub 25 qəp. |
| Künnütcəfərli | İrəvan qəzada | Samra yurd | 150 | 20 illiyə | 22 rub. 50 qəp. |
| Camışbasan | İrəvan qəzasında Başaxyar | Tikanlı yurd | 175 | Keçmiş zamandan | 18 rub. 75 qəp. |
| 1-ci Çatqıran (Qırxbulaq məntəqəsində) | Yenibəzaziddə Oyuxluda | Oyuxlu | 402 | 20 illiyə | 60 rub. 30 qəp. |
| Cəfərli Künnüt | Yenibəyazid qəzasında Dıdvəng | Qazma yurd | 66 | 22 illiyə | 9 rub. 90 qəp. |
| Cirmanis (Kolanlı) | İrəvan qəzasında | Ellncə yurd və Məmmədabad yurd | 325 | Keçmiş zamandan | 48 rub. 75 qəp. |
| Ellncə | İrəvan qəzasında | Məsudi yurd | 375 | Keçmiş zamandan | 56 rub. 25 qəp. |
| Zəncirli | İrəvan qəzasında | Dərə yurd | 65 | Keçmiş zamandan | 9. rub. 75 qəp. |
| Zimmi | İrəvan qəzasında | Ahulu yurd | 310 | Keçmiş zamandan | 46 rub. 50 qəp. |
| Qaladibi | İrəvan qəzasında | Qalabaşı yurd | 175 | Keçmiş zamandan | 26 rub. 25 qəp. |
| Yuxarı Qarabağlar | Yenibəyazid qəzasında Ayrıcda | Şahbulaq yurd | 250 | 20 illiyə | 37 rub.50 qəp. |
| Aşağı Qarabağlar (Çimənkənd) | Yenibəyazid qəzasında Ayrıcda | Xaç yurd, Qoturbulaq yurd, Daşqaya yurd | 1155 | Keçmiş zamandan | 173 rub. 25 qəp. |
| Qaraxaç | İrəvan qəzasında | Yal yurd | 100 | Keçmiş | 15 rub. |

| Kəndlər | Yaylaqlardan istifadə edilən yerlər | Yurd yerləri | Yurd yerlərinin sahəsi (desyatinlə) | İstifa-də vaxtı | Hər desyatindən istifadə məbləği (rubulla) |
|---|---|---|---|---|---|
| | | | | zamandan | |
| Göydüz kəndi | İrəvan qəzasında Hacı Məcidli | Çuxur yurd | 160 | Keçmiş zamandan | 24 rub. |
| Keşişverən | İrəvan qəzasında Qaşqa kənd ətrafında | Göl yurd və Çınqıldibəkdaşı yurdu | 180 | Keçmiş zamandan | 27 rub. |
| Kiçik Gilənar | İrəvan qəzasında | Çatmabulaq yurd | 347 | Keçmiş zamandan | 52 rub. 02 qəp. |
| Qurbağalı | Yenibəyazid qəzasında Ağdağda | Çuxur yurd və Qazan yurd | 304 | Keçmiş zamandan | 45 rub. 80 qəp. |
| Mənyük | İrəvan qəzasında | Arxaşin yurd | 200 | Keçmiş zamandan | 30 rub. |
| Mollaəhməd | Yenibəyazid qəzasında Çatmabulaqda | Elli yurd | 207 | Keçmiş zamandan | 31 rub. 05 qəp. |
| Nurnus | Yenibəyazid qəzasında Axmanqanda | Duz yurd, Əvəlik yurd və Qəbristanlıq yurd | 300 | 57 illiyə | 45 rub. |
| Xarabakotanlı | Yenibəyazid qəzasında Ağdağ | Göl yurd | 105 | Keçmiş zamandan | 15 rub. 75 qəp. |
| Xosrov | İrəvan qəzasında Qanlıcada | Tikanlı yurd | 192 | Keçmiş zamandan | 28 rub. 80 qəp. |
| Yuxarı Çanaxçı (Qortun) | İrəvan qəzasında Qanlıcada | Çiban yurd, Zeynibilon yurd, Çirbağart yurd | 181 | Keçmiş zamandan | 27 rub. 15 qəp. |
| Çanqlı | İrəvan qəzasında Hacıməcidlidə | Dərə yurd | 135 | Keçmiş zamandan | 20 rub. 25 qəp. |

| Kəndlər | Yaylaqlardan istifadə edilən yerlər | Yurd yerləri | Yurd yerlərinin sahəsi (desyatinlə) | İstifa-də vaxtı | Hər desyatindən istifadə məbləği (rubulla) |
|---|---|---|---|---|---|
| Şahablı | İrəvan qəzasında Dəhnə dağı yaxınlığında | Dib\əkli yurd və Dərə yurd | 67 | Keçmiş zamandan | 10 rub. 05 qəp. |
| | | | | | |
| Suqaib | Yenibəyazid qəzasında Ağdağda | Ayrıkor | 168 | Keçmiş zamandan | 25 rub. 20 qəp. |
| Yeranos | Yenibəyazid qəzasında Ağdağda | Göl yurd | 170 | Keçmiş zamandan | 25 rub. 50 qəp. |
| Yekun | | | 9637 | - | 1445 rub. 55 qəp. |
| Bütünlüklə | | | 24437 | - | 3665 rub. 55 qəp. |

Cədvəldən göründüyü kimi, qeyd edilən dövrdə İrəvan qəzasında ümumi sahəsi 24437 desyatin olan 63 yaylaq qeydə alınmış, bu yaylaqlarda 27087 baş iribuynuzlu, 63651 xırdabuynuzlu mal-qara otarılmışdır.

İrəvan qəzasında qışlaqlar isə əkin və biçin üçün yararlı olmayan yerlərdə, dağların yamaclarında, təpəliklərdə və dağ vadilərində yerləşmişdi. Qışlaqlar adətən yaz və payızda göy otla bol olardı. Yayda isə bu otlar günün istisindən yararsız hala düşürdi. XIX yüzilliyin 80-ci illərinin ortalarına olan məlumata görə, İrəvan qəzasında 54 qışlaq qeydə alınmış, bu qışlaqlardan aran yerlərinin 13 kəndi, dağ rayonlarının isə 19 kəndinin kəndliləri (bunlardan ikisi mülkədar kəndi, dördü isə kürd kəndi) istifadə etmişdilər. Aşağıdakı cədvəldə bunu əyani izləmək mümkündür[848]:

| № | Kəndlərin sayı | Yaylaqların adı | Sahəsi (desyatin) | Qışda istifadə məbləği (rubl |
|---|---|---|---|---|
| | **Xəzinə kəndləri** | | | |
| | Aran rayonları | | | |
| 1. | Avşar | Ax xaraba ağıl | 500 | 30 |
| 2. | Ərdaşar | Şutyur ağıl | 1000 | 60 |
| 3. | Bəyciqazlı | Abbas ağıl | 1437 | 86,62 |
| 4. | Böyük Vedi | Ağsu ağıl | 750 | 45 |
| | | Talesevən ağıl, | 350 | 21 |
| | | Qoşa ağıl (Qara quzey) | 425 | 25,50 |
| | | Abbas ağıl, | 700 | 42 |
| | | Qızıl ağıl | 600 | 36 |
| 5. | Dəvəli | 1-ci Cillər ağıl | 300 | 18 |
| | | 2-ci Cillər ağıl | 300 | 18 |
| 6. | Dvin Aysor | Hacı Cəfər ağı | 420 | 25,20 |
| | | Şor dərə ağıl | 150 | 8,94 |
| | | Ağqoyun ağıl, | 900 | 54 |

[848] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, т.III, с.68-71.

| | | | | |
|---|---|---|---|---|
| 7. | Divin (Düyün) | Bitticə ağıl və | 300 | 18 |
| 8. | Canatlı | Kələfə ağıl | | |
| | | Şirab ağıl, | 50 | 3 |
| 9. | Yuxarı və Aşağı | Qazma ağıl və | 625 | 37,50 |
| | Kəmərli | Yapma ağıl | 850 | 43,74 |
| 10. | Qafarlı | Qızqalası ağıl | 220 | 12,48 |
| | | Qaraçoban ağıl, | 300 | 18 |
| | | Kaha ağıl, | 770 | 46,20 |
| 11. | Qırx Buzovand | Qazma ağıl, | 552 | 31,20 |
| 12. | Sədərək | Kürdbaba ağıl, | 625 | 37,50 |
| | | Palangir ağıl, | 720 | 43,74 |
| 13. | Xəlisə | Arıxlar ağıl, | 416 | 24,96 |
| | | Axveys ağıl və | 400 | 24,50 |
| | | Arçəkən ağıl | 376 | 22,50 |
| | | Ryakrestar ağıl | 520 | 22,50 |
| | | | 300 | Vergi ödəmirdilər |
| | **Yekun** | | 14851 | 855,88 |
| | **Dağlıq rayon** | | | |
| 14. | Batburt | Şəhriyar ağıl | 100 | 60 |
| 15. | Birəlyu | Köhnə Kərki ağıl | 1000 | 45 |
| 16. | Göl Aysor | Gül Dərviş ağıl | 700 | 2,50 |
| 17. | Cəfərli künnüt | Xaraba Cəfərli | 70 | 12,84 |
| 18. | Dəhnəz | ağıl | 414 | 15 |
| 19. | Zəncirli | Levarok ağıl | 250 | 7,50 |
| 20. | Yuxarı Qarabağlar | Nabatbulaq ağıl | 130 | 10 |
| 21 | Aşağı Qarabağlar | Küt-Küt ağıl | 170 | 33 |
| | (Çimənkənd) | Quzey ağıl | 550 | 21 |
| | | Yarım ağıl | 350 | 45 |
| | | Kütüz ağıl | 750 | 54 |
| | | Mustafa zağası | 900 | 18,60 |
| | | ağıl | 310 | 14,40 |
| 22. | Göyüz | Aralıq ağıl | 207 | 10,20 |
| 23. | Qaşqa | Düyüdaş ağıl | 200 | 11,82 |
| 24. | Aşağı çanaxçı | Qara ağıl | 197 | 14,10 |
| 25. | Keşişverən | Caqanam | 197 | 28,08 |
| 26. | Şahaplı | dərəsi ağıl | 240 | 44,22 |
| | | Ballıqata ağıl | 468 | |
| | | Varşaq ağıl | | |
| | | Arşaq ağıl | | |

| | | | | |
|---|---|---|---|---|
| **Yekun** | | | 22264 | 1303,14 |
| | **Kürd köçərilərinin qışlaqları** | | | |
| 27. | Aşağı Kürd-ömər (Şarıki) | Pirli (Hacı Mirzə ağıl) | 500 | 21,90 |
| | | Peqaçağıl | 170 | 31,20 |
| 28 | Kültəpə (Piriki) | Bozo ağıl | 416 | 24,96 |
| | | Kül ağıl | 468 | 28,48 |
| 29. | Sütökülən (Şavlik) | Axdağ duz ağıl | 130 | 7,80 |
| 30. | Reyhanlı | | | |
| | **Yekun** | | 1684 | 114,34 |
| | **Mülkədar kəndləri** | | | |
| 31. | Yuxarı Ağbaş | Şor ağıl | 330 | 19,80 |
| 32. | Daşlı | Çapa ağıl | 200 | 12 |
| | **Yekun** | | 395 | 23,70 |
| | Şərur-Dərələyəz q-nın əhalisi | Vəli dağ (Vəli ağıl) | 395 | 23,70 |
| | **İrəvan qəzasında** | | 24873 | 1472,98 |

Mənbələrdə digər qəzaların da yaylaq və qışlaqları haqqında məlumatlar qeydə alınmışdır. Qeyd etmək lazımdır ki, bir qəzaya məxsus olan örüş yerlərindən İrəvan quberniyasının digər qəzalarının və Azərbaycanın digər quberniyalarının kəndliləri də istifadə etmişdilər[849]. XIX yüzilliyin 80-ci illərin ortalarına aid məlumatda, Üçmüəzzin qəzasına məxsus qışlaqlar, həmin qışlaqlardan istifadə edən kəndlərin adı və hər desyatinə görə istifadə edilən məbləğin miqdarı göstərilmişdir. Həmin illərdə Üçmüəzzin qəzasında 30 qışlaq qeydə alınmışdır. Aşağıdakı cədvəldə bu-

[849] Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.113.

nu əyani izləmək mümkündür[850]:

| Qışlaqların adı | Sahəsi (desyatinlə) | Kimin istifadəsində | İstifadə məbləği (rubl) | İstifadə məbləği (qəpik) |
|---|---|---|---|---|
| Ağ elqırağı | 75,00 | Uşi kəndinin əhlisi | 7 | 50 |
| Ərdəbil ağıl | 200 | Həmçinin | | |
| Ağavnatun | 87,50 | Ağaxatun k-nin əhalisi | 20 | 75 |
| 1-ci Baş ağıl, | | | 8 | |
| Mehdiqan, Tək | 375 | Mehriban k-nin əhalisi | | 50 |
| ağıl və Söyütlü | | | 37 | |
| ağıl | | Uşi kəndinin əhalisi | | |
| 2-ci Baş ağıl | 200 | Həmçinin | | |
| 1-ci Boz təpə | 350 | Çobanqara k-nin | | |
| 2-ci Boz təpə | 350 | əhalisi | 20 | |
| | | | 35 | |
| Bostançı göl | 160 | Kiçikkənd k-nin | 35 | |
| | | əhalisi | | |
| Böyük Qartal | 200 | | 16 | |
| | | Xarabaəkərək k-nin | | |
| Dağdağan və | 135 | əh-si | | |
| yaxud El keçən | | | 20 | |
| | | Dədəli k-nin əhalisi | | 50 |
| Hacı Həsən dalaq | 116,50 | | 13 | |
| 1-ci Zəng ağıl | 110 | | | |
| 2-ci Zəng ağıl | 100 | Hiznəüz k-nin əhalisi | | 65 |
| İspir ağıl | 160 | Körpəli k-nin əhalisi | 11 | |
| Qara Güney | 100 | Zeyvə k-nin əhalisi | 11 | |
| 1-ci Keçi ağıl | 157,50 | (Az. T) | | |
| 2-ci keçi ağıl | 157,50 | Kiçikkənd k-nin | 10 | |
| Qızıl ağıl | 100 | əhalisi | | 75 |
| Quru ayğır göl | 56 | Uşi kəndinin əhalisi | 16 | 75 |
| Qır yaxud Kir | 4500 | Grməzli və Dədəli k- | | |
| (12 qoyun | | nin əhalisi | 10 | 60 |
| ağılı) | 1125 | Aralıq k-nin və | 15 | |
| Qır və yaxud | | Milanlı icmasının ə-si | | |
| Kir (30 qoyun | 375 | Aşağı Ağcaqala k-nin | 15 | 50 |
| ağılı) | | əhalisi | | |
| Qır və yaxud | 200 | Az-lı Zeyfə k-nin | 10 | 50 |
| Kir (1 qoyun | 150 | əhalisi | | |
| ağılı) | 90 | Çobanqara k-nin | 5 | |

[850] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, т.III, с.283-285.

| | | | | |
|---|---|---|---|---|
| Mail ağıl<br>(Daşaltı)<br>Salman Əli<br>ağılı<br>Talış ağılı<br>Tayçarıq<br>Ustazaqa<br>Xəzinə daş<br>(Burun ağılı)<br>Xan Əhməd<br>Tülkü təpə<br>Çuxur ağıl | 479<br>135<br>292,50<br><br>100<br>200 | əhalisi<br><br>İrəvan qəzasının<br>İlxıqoruq k-nin əhalisi<br><br>İrəvan qəzasının<br>Mehmandar k-nin<br>əhalisi<br>Eşnək k-nin əhalisi<br>Babakişi k-nin əhalisi<br>Talış k-nin əhalisi<br>Qaraqovmaz k-nin<br>əhalisi<br>Dədəli k-nin əhalisi<br>Xarabaəkərək k-nin<br>əhalisi<br><br>Babakişi k-nin əhalisi<br>Küraxanlı k-nin əhalisi | <br><br>450<br><br><br>112<br><br><br>37<br><br>20<br>15<br>9<br>47<br>13<br>29<br><br>10<br>20 | <br><br>90<br>50<br>25 |

Cədvəldən göründüyü kimi, Üçmüəzzin qəzasının 30 qışlağının ümumi sahəsi 10836,50 desyatin olmuş, bunun 1500 desyatinindən İrəvan qəzasının İlxıqoruq və Şorlu Mehmandar kənd icmaları, qalan 9336,50 desyatinindən isə İrəvan qəzasının müxtəlif icmaları istifadə etmişdilər.

1885-ci ildə Üçmüəzzin qəzasında 74 yaylaq qeydə alınmış, həmin yaylaqları aşağıdakı cədvəldə əyani izləmək mümükündür[851]:

| Yaylaqların adı | Sahəsi (desyatinlə) | Kimin istifadəsində | İstifadə məbləği (rubl) | İstifadə məbləği (qəpik) |
|---|---|---|---|---|

[851] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, т.III, с.285-289.

| | | | | |
|---|---|---|---|---|
| Yuxarı Sultan yurd | 217 | | 32 | 55 |
| Dəvəçi yurd | 42 | № 1-cidən başlayaraq | 6 | 30 |
| Qızıl yurd | 172 | № 19-cuya qədər yay- | 25 | 30 |
| Qızıldağ yurd | 216 | laqlar Çobanqara kən- | 32 | 40 |
| Cim-cimə yurd | 324 | dinin əhalisi tərəfindən | 48 | 60 |
| Ərxaşan yurd | 198 | istifadə edilmişdir | 29 | 70 |
| Topanlı yurd | 194 | | 29 | 10 |
| Azma yurd | 174 | | 26 | 10 |
| 1-ci Qaradağ | 306 | | 45 | 90 |
| Kiçik Gözəldərə | 412 | | 61 | 80 |
| Aşağı Salam Mələk | 124 | | 18 | 60 |
| Dərə yurd | 87 | | 13 | 5 |
| Keçi Qırılan yurd | 240 | | 36 | - |
| 2-ci Qaradağ | 42 | | 6 | 30 |
| 3-cü Qaradağ | 54 | | 8 | 10 |
| Göl yurd | 194 | | 29 | 10 |
| Qanlı yurd | 234 | | 35 | 10 |
| Aşağı Sultan yurd | 54 | | 8 | 10 |
| Yuxarı Salam Mələk | 103 | | 15 | 45 |
| Azma yurd | 173 | | 25 | 95 |
| Valiolan | 388 | | 58 | 20 |
| Çətin dərə | 135 | Yuxarı Qolubəyli k-nin | 20 | 25 |
| Çöpdaşlı bulaq | 118 | əhalisi | | |
| 1-ci Elkeçən yurd | 161 | Həmçinin | 17 | 70 |
| 2-ci Elkeçən yurd | 69 | İ Yuxarı Qolubəyli k- | 39 | 15 |
| Göl yurd | 234 | nin əhalisi | | |
| Püşkyan yurd | 112 | Həmçinin | 10 | 35 |
| Çuxuryurd | 157 | Aşağı Qolubəyli k-nin | 35 | 10 |
| Xaçazor | 200 | əhalisi | | |
| Dəliçay və Şor- | 563 | Həmçinin | 16 | 80 |
| şor bulaq | | Həmçinin | 23 | 55 |
| Dəli çay | 88 | Həmçinin | 30 | - |
| Duz yurd | 587 | Hiznauz k-nin əhalisi | 84 | 45 |
| El yurd | 232 | Piaağan k-nin əhalisi | 13 | 20 |
| Sutökən | 265 | Qazanfar k-nin əhalisi | 88 | 5 |
| Təkərli | 25 | Blxer k-nin əhalisi | 34 | 80 |
| Yeni Böyük yurd | 80 | Uşi k-nin əhalisi | 39 | 75 |
| Aşağı Sarıbudaq | 310 | Uşi k-nin əhalisi | 3 | 75 |
| Eldağ | 190 | Uşi k-nin əhalisi | 12 | - |
| Sital dağ | 230 | Uşi k-nin əhalisi | 46 | 50 |
| Mustafa yurd və | 240 | Uşi k-nin əhalisi | 28 | 50 |
| Dərə yurd | | Qarakilsə k-nin əhalisi | 34 | 50 |
| Qıraq yurd | 75 | Kirəşli k-nin əhalisi | 36 | - |
| Tikmədaş yurd | 435 | Saçlı k-nin əhalisi | 11 | 25 |
| Siptak axpur | 40 | Babakişi, Saçlı və | 65 | 25 |
| Stepan bənd | 50 | Kirəşli k-nin əhalisi | | |
| Petoi Çayırbəndi | 40 | Zeyvə k-nin əhalisi | 6 | - |

| | | | | |
|---|---|---|---|---|
| qulluq | | (Az.türk) | | |
| Karoi Axnuri Göl | 50 | Kolanı Aralıq k-nin | 7 | 50 |
| Karoikom duz | 50 | əhalisi | 6 | - |
| Qaradağ | 465 | Hacı Bağır k-nin əhalisi | 7 | 50 |
| Qara ağıl yurd | 84 | İmirli k-nin əhalisi | | |
| Boğazturd | 271 | Səmədəgiriş k-nin | 7 | 50 |
| Quymaqlı | 312 | əhalisi | 69 | 75 |
| Göl yurd | 305 | Gülablı k-nin əhalisi | 72 | 60 |
| Sol Ağmanqan | 235 | Qaranlıq. k-nin əhalisi | 40 | 65 |
| Yuxarı Sarıbulaq | 250 | Kürəkənli k-nin əhalisi | | |
| Hakim bulaq | 264 | Saqmosavanq k-nin | 46 | 80 |
| Qırx Çınqıl, | 360 | əhalisi | 45 | 75 |
| Çınqıllıq və | | Kiçikkənd k-nin əhalisi | 35 | 25 |
| Qarabulaq | | Axıs k-nin əhalisi | 37 | 50 |
| Uzunoba yurd | 98 | Qarxun k-nin əhalisi | 39 | 60 |
| 1-ci Ağmanqan | 73 | Çatqıran k-nin əhalisi | 54 | - |
| Qaracalar yurd | 206 | Quşi k-nin əhalisi | 14 | 70 |
| Tağnalı yurd | 226 | Əkərək k-nin əhalisi | 10 | 95 |
| Taxta yurd | 100 | Kərimarx k-nin əhalisi | 30 | 90 |
| Qalaqlı yurd | 147 | Aramlı k-nin əhalisi | 33 | 90 |
| Altun taxt | 133 | Çatqıran k-nin əhalisi | 15 | - |
| Dəliçay yurd | 100 | Vəng xaraba | 22 | 5 |
| Taxtayurd | 110 | Şorlu Mehmandar k- | 19 | 95 |
| Göl yurd | 204 | nin əhalisi | | |
| Qaşqa yurd | 276 | Həmçinin k-nin əhalisi | 15 | - |
| Sol Gözəldərə | 262 | Həmçinin k-nin əhalisi | 16 | 50 |
| Sağ Gözəldərə | 387 | Həmçinin k-nin əhalisi | 30 | 60 |
| 1-ci Dərəyurd | 118 | Şorlu-Dəmirçi k-nin | 41 | 40 |
| Qaş yurd | 562 | əhalisi | | |
| Lyulyu | 277 | Şorlu-Dəmirçi k-nin | 39 | 30 |
| Parbulaq | 116 | əhalisi | | |
| Çınqıl dərə | 74 | Həmçinin | 58 | 5 |
| Dərə yurd | 14799 | İlxıqoruq k-nin əhalisi | 17 | 70 |
| Yekun | | Həmçinin | 84 | 30 |
| | | Həmçinin | 41 | 55 |
| | | Şorlu-Dəmirçi k-nin | 17 | 40 |
| | | əhalisi | | |
| | | Həmçinin | 11 | 10 |
| | | Həmçinin | | |
| | | Həmçinin | 2219 | 85 |
| | | Həmçinin | | |

Cədvəldən göründüyü kimi, Üçmüəzzin qəzasında 14799 desyatin yaylaq sahəsindən 3092 desyatinindən İrəvan qəzasının

Şorlu Mehmandar, Şorlu Dəmirçi və İlxıqoruq kəndinin əhalisi, 11707 desyatindən isə Üçmüəzzin qəzasının kəndliləri istifadə etmişdilər.

Naxçıvan qəzasında yaylaqlar əsasən Qara dəniz səviyyəsindən 4 mindən 8 min futa (1 fut -30,479 sm uzunluq vahidi) bərabər yüksəkliklərdə, Şərur-Dərələyəz qəzasına bitişik yerlərdə yerləşmişdi. Naxçıvana məxsus yaylaqlar böyük əraziləri əhatə etdiyindən, Dövlət Əmlak İdarəsinin müvəkkilləri tərəfindən əhali arasında gözəyarı bölünürdü[852]. XIX yüzilliyin 80-ci illərinin ortalarında Naxçıvan qəzasında tədqiq olunmuş 28 yaylaq qeydə alınmış, bu yaylaqların 10-dan çoxunu xəzinə kəndləri istifadə etmişdilər. Həmin yaylaqlar və onların tutduğu sahələr bunlar idi:

1. Dolar-Nigar yaylağı-uzunluğu 3 verst, eni 1,5 verst;
2. Yazı-yurd-uzunluğu 4 verst, eni 2 verst;
3. Səfərxan Saxlar-uzunluğu 10 verst, eni 5 verst;
4. Qanl göl-uzunluğu 4 verst, eni 4 verst;
5. Təkəlik-uzunluğu 4 verst, eni 4 verst;
6. Keçəl dağ-uzunluğu 4 verst, eni 3 verst;
7. Sərb dərə-uzunluğu 2 verst, eni 1 verst;
8. Qonaq Görməz-uzunluğu 2 verst, eni 2 verst;
9. Salvartı-uzunluğu 6 verst, eni 2 verst;
10. Qoyunlu Babayurd-uzunluğu 5 verst, eni 1,5 verst;
11. Köksü gözəl-uzunluğu 7 verst, eni 3 verst;
12. Dibəkli-uzunluğu 3 verst, eni 1 verst;
13. Qovuk-uzunluğu 5 verst, eni 2 verst;
14. Kölə-uzunluğu 3 verst, eni 1 verst;
15. Dəmirli-uzunluğu 7 verst, eni 3 verst;
16. Yal yurd-uzunluğu 4 verst, eni 1 verst;
17. Göy dağ-uzunluğu 4 verst, eni 4 verst;
18. Soyuq Bulaq-uzunluğu 2 verst, eni 2 verst;
19. Güney Gözəl-uzunluğu 7 verst, eni 5 verst;

---

[852] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, т.I, выпуск 5, с.550.

20. Ağ dağ-uzunluğu 12 verst, eni 2 verst;
21. Qapıcur-uzunluğu 4 verst, eni 1 verst;
22. Çınqıllı dərə-uzunluğu 10 verst, eni 5 verst;
23. Yağlı dərə-uzunluğu 4 verst, eni 1 verst;
24. Baş yurd-uzunluğu 3 verst, eni 2 verst;
25. Qaplan çay-uzunluğu 7 verst, eni 2 verst;
26. Kequl duz-uzunluğu 15 verst, eni 2 verst;
27. Alagöz-uzunluğu 15 verst, eni 2 verst;
28. Zoraslı-uzunluğu 15 verst, eni 2 verst[853].

Xəzinə kəndlərinin istifadə etdikləri yaylaqlar isə bunlar idi: 1. Dolar-Nigar qışlağından Horadiz və Ağbin kəndlərinin kəndliləri; 2. Səfər xan Saxlar qışlağından Ağ xaç, Çağrı-tatar, İrqıran, Gərməçatax, Qaraboya və Yuxarı-irameşin kəndlərinin kəndliləri; 3. Qanlıgöl qışlağından Arınc, İrameşin, Daylaxlu, Qarababa, Maralıq və Suçançuk kəndlərinin kəndliləri; 4. Təkəlik yaylağından Əliməmməd qışlağı, Kolanı qışlağı, Mağara qışlağı və Xınzırək kəndlərinin kəndliləri; 5. Salvartı qışlağından Zernatun kəndlərinin kəndliləri; 6. Köksü gözəl yaylağından Kulus kəndlinin kəndliləri; 7. Dibəkli yaylağından Zernatun kəndinin kəndliləri; 8. Qovuk yaylağından Milax kəndinin kəndliləri; 9. Dəmirli yaylağından Noraşen və Lakadağ kəndlərinin kəndliləri; 10. Göydağ yaylağından Şurut kəndinin kəndliləri istifadə etmişdilər[854].

Naxçıvan qəzasının digər yaylaqlardan isə qəzanın sahibkar kəndlərinin kəndliləri, Ordubad dairəsinin kəndliləri, Şərur-Dərələyəzə məxsus Yazıyurd, Zəngəzura məxsus Salvartı və Yelizavetpol quberniyasına məxsus Cəbrayıl qəzasının Sarbdərə, Qonaqgirməz kəndlərinin kəndliləri istifadə edirdilər[855].

Buzqov və Çağrı-tatar kəndlərinin örüş yerləri isə Naxçıvan qəzası ilə Şərur-Dərələyəz qəzasının sərhədində yerləşən Qa-

---

[853] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, т.I, выпуск 5, с.550.
[854] Yenə orada, s.552.
[855] Yenə orada.

zan yaylağı idi. Bu yaylağın uzunluğu 6, eni isə 3 verst olmuşdur[856].

Yerli əhali yaylaqlara mayın əvvəllərində gedir və orada sentyabrın ortalarına qədər qalırdı. Köçmə maldarlıqla yalnız mal-qarası çox olan əhali məşğul olurdu. Digər sakinlər isə sağılan malın müəyyən hissəsinin südü müqabilində öz mal-qarasını qonşularına tapşırırdılar[857].

Naxçıvan qəzasında 22 xəzinəyə məxsus qışlaq qeydə alınmışdır. Qeyd etmək lazımdır ki, XIX yüzilliyin 80-ci illərinin ortalarında Naxçıvan qəzasında tədqiq olunmuş 47 kəndin sakinləri aşağıdakı qışlaqlardan istifadə etmişdilər: 1) Çağrı tatar və Məzrə-paus kəndlilərinin sakinləri hər desyatin sahəyə görə ildə 28 rubl ödəməklə Çolxan ağıl qışlağından istifadə edirdilər; 2) Buzqov kəndinin sakinləri ildə hər desyatinə görə 7 rubl 40 qəpik vergi verməklə Keşişqaya qışlağından istifadə edirdilər: 3) Ağxaç, İtqıran və Deyin Almalı kəndinin sakinləri 15 rubl (hər kənd 5 rubl) ödəməklə Ballıqaya qışlağından istifadə edirdilər; 4) Culfa kəndinin sakinləri isə ildə 33 rubl 30 qəpik vergi ödəməklə Duz ağıl, Qum ağıl, Xaçik-bandı və Çardivar qışlaqlarından istifadə edirdilər[858].

Qeyd etmək lazımdır ki, Naxçıvan qəzasına məxsus qışlaqların müəyyən hissəsi əhali tərəfindən əkin-biçin üçün istifadə edilmiş, yaxud digər kəndlərə icarəyə verilmişdi. Məsələn, Keşişqaya və Ballıqaya qışlaqlarının böyük hissəsi sakinlər tərəfindən əkilmiş, digər qışlaqlar isə hər desyatinə görə 6 qəpik vergi müqabilində Aşağı Uzunoba, Aznabürt, Bist və digər sahibkar kəndlərinin kəndlilərinə icarəyə verilmişdi[859].

Lakin yuxarıda qeyd edilən yaylaq və qışlaqların sayı haqqında verilən məlumatlar tam reallığı əks etdirmir. Burada göstərilən rəqəmlər XIX yüzilliyin 80-ci illərinin əvvəllərində tədqiq edilən kəndlərin örüş yerləri haqqında idi. Lakin bu məlumatların

[856] Yenə orada.
[857] Yenə orada.
[858] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, т.I, выпуск 5, с.554-555.
[859] Yenə orada, s.555.

əhəmiyyəti ondadır ki, qəzalarda olan yaylaq və qışlaqların adı və sahəsi haqqında ətraflı məlumatlar verilmişdir. 1890-cı il məlumatına görə, İrəvan quberniyasında xəzinəyə məxsus örüş yerlərinin ümumi sahəsi 422000 desyatin, 1900-cü il məlumatında isə 597000 desyatin göstərilmişdir. Sonuncu məlumata görə, ümumi sahənin 325000 desyatini yaylaq, 272000 desyatini isə qışlaq sahələrinin payına düşmüşdü. 1890-cü ilin məlumatında örüş sahələri keyfiyyətindən asılı olaraq xəzinə tərəfindən hər desyatinə görə 8-30 qəpik arasında haqq müqabilində kəndlilərin istifadəsinə verilmişdi[860].

İrəvan quberniyasında mal-qara həm ev şəraitində saxlanılırdı, həm də köçmə mardarlıq mövcud idi. Kənd təsərrüfatının bu sahəsi düzənlik əraziyə nisbətən əsasən dağlıq, dağətəyi ərazilərdə daha geniş yayılmışdı. 1870-ci ilin məlumatına görə, İrəvan quberniyasında iribuynuzlu mal-qaranın və atın $^3/_4$ hissəsi, xırdabuynuzlu mal-qaranın $^5/_6$ hissəsi dağlıq ərazilərinin, qalanları isə düzənlik ərazilərinin payına düşmüşdü. Digər heyvanlar isə belə bölünmüşdü: qatır və ulaq əhalinin sayından asılı olaraq hər iki ərazidə, donuzun əksəriyyəti və 154 dəvədən başqa qalanı yalnız düzənlik ərazidə saxlanılırdı[861].

Mənbələrdə İrəvan quberniyası üzrə istər xırdabuynuzlu, istər iribuynuzlu mal-qara, istərsə də əhalinin təsərrüfat həyatında böyük rol oynayan digər heyvanların sayı haqqında məlumatlara rast gəlmək mümkündür. 1858-ci ilin rəsmi məlumatına görə, İrəvan quberniyasında kənd təsərrüfatı heyvanlarının sayı belə idi: iribuynuzlu mal-qara-153300; xırdabuynuzlu mal-qara-289075; at-31618; qatır və ulaq-25340; dəvə-70094 donuz-3860; 1863-cü il məlumatında belə idi: iribuynuzlu-128187; xırdabuynuzlu 41363; at-34432; dəvə-1990; qatır və ulaq-15654; donuz-1965. Cəmi 595691 min; 1866-cı il məlumatında belə idi: iribuynuzlu mal-qara-252117; xırdabuynuzlu mal-qara-575142; at-33041; də-

[860] Памятная книжка Эриванской губернии на 1902, с.113; Энциклопедический словар Брокгауз и Ефрона, т.XLI (81), с.13.
[861] Сборник сведений о Кавказе, 1872, т.II, с.187.

və-10940; qatır və ulaq-17018; donuz-1663. Cəmi 889921 min; 1868-cu il məlumatı belə idi: iri və xırdabuynuzlu-778009; at-35385; qatır və ulaq-14406; dəvə 9450; donuz-1900. Cəmi 839150 min. Bu ilə olan məlumatda göstərilir ki, 1867-ci ilə nisbətən 1868-ci ildə mal-qaranın sayı 34615 baş azalmışdı.1869-cu il məlumatı isə belə idi: iri və xırdabuynuzlu mal-qara-773456; at-35242; dəvə 9525; qatır və ulaq-11545; donuz-2408. Cəmi 832176 min. Bu il də keçənilkinə nisbətən mal-qaranın sayı 6974 baş azalmışdı. Buna səbəb Cənubi Qafqazda keçirilən inzibati-ərazi islahatına görə İrəvana məxsus Mehri dairəsinin Yelizavetpol quberniyasının tərkibinə keçməsi idi. 1881-ci ildə yalnız İrəvan şəhərində ev heyvanlarının sayı 1285 baş olmuşdur[862]. Bunlardan 250-si iribuynizlu malqaranın, 400-ü atın, 350-i ulağın, 200-ü qatırın, 85-i isə dəvənin payına düşmüşdü[863].

XIX yüzilliyin 80-ci illərinin sonundan başlayaraq İrəvan quberniyasında xırda və iribuynuzlu və digər kənd təsərrüfatı heyvanları haqqında mənbələrdə geniş məlumatlar vardır. Məsələn, 1888-ci ilin məlumatına görə, İrəvan quberniyasında müxtəlif növ kənd təsərrüfatı hevanlarının sayı belə idi: qoyun-500000; keçi-100000; iribuynuzlu mal-qara-200000; camış-50000; at-40000; eşşək və qatır-20000; dəvə-12000; donuz-4000. Ümumilikdə, İrəvan quberniyasında 926000 müxtəlif növ kənd təsərrüfatı heyvanları olmuşdur[864].

İrəvan quberniyasında 1890-cü il məlumatına görə, iri və xırdabuynuzlu mal-qaranın ümumi sayı 1056520 olmuşdur. Ayrı-ayrı kənd təsərrüfatı heyvanlarının sayı isə belə idi: qoyun-530702 baş; keçi-107642 baş; inək və öküz-243903 baş; camış-84320 baş; dəvə-5379 baş; at-28530 baş; eşşək-24984 baş; qatır-30746 baş; donuz-313 baş. Quberniyada hər bir adama 0,8 baş iribuynuzlu mal-qara düşürdü[865].

---

[862] Гугушвили П., Сельское хозяство и аграрные отношение, с.664-676.

[863] Сборник материалов для описания местностей и племен Кавказа, 1881, выпуск 1, с.33.

[864] Обзор Эриванской губернии за 1888 г., с.39.

[865] Памятная книжка Эриванской губернии на 1902, отдел IV, с.104.

1891-ci ilin məlumatına görə, İrəvan quberniyasında ümumi kənd təsərrüfatı heyvanlarının sayı 1072574 baş olmuşdur. Bu da 1890-cı ilə nisbətən 16054 baş çox mal-qara idi. Ümumi mal-qaranın sayı isə belə idi:

1. At-35636 baş;
2. Eşşək-26157baş;
3. Qatır-78 baş;
4. İnək və öküz-314528 baş;
5. Camış-21606;
6. Qoyun-584465 baş;
7. Keçi-83570 baş;
8. Dəvə-5633 baş;
9. Donuz-601 baş[866].

Həmin il mal-qaranın satış qiyməti isə belə idi: 1 baş öküz-45 rubl; 1 baş camış-80 rubl; 1 baş camış balası 45 rubl; 1 baş inək-15 rubl; 1 baş qoyun və keçi-3 rubl; 1 baş at-60 rubl; 1 baş eşşək-10 rubl; 1 baş qatır-15 rubl; 1 baş dəvə-100 rubl; 1 baş donuz-8 rubl. Ümumiyyətlə, İrəvan quberniyasında adı çəkilən heyvanların dəyəri 14256403 rubl olmuşdur[867].

1898-cu ilin məlumatında İrəvan quberniyasında xırdabuynuzlu mal-qaranın ümumi sayı 1150000 baş, iribuynuzlu mal-qara 612500 baş, at 41500 baş, dəvə 6950 baş göstərilmişdir. Həmin il mal-qaranın satış qiyməti belə idi: 1 baş xırdabuynuzlu mal-qara-3 rubl; 1 iribuynuzlu mal-qara-30 rubl; 1 baş at-60 rubl; 1 baş dəvə-100 rubl. Quberniya üzrə bütün kənd təsərrüfatı heyvanlarının ümumi dəyəri 24500000 rubl məbləğində hesablanmışdır. Mal-qaradan gələn təmiz gəlir isə 3000000 rubl və yaxud ümumi dəyərin 12,2 %-i olmuşdur[868].

1899-cu ilin məlumatında İrəvan quberniyasında xırdabuynuzlu mal-qaranın ümumi sayı 966900 baş, iribuynuzlu mal-qara 448000 baş, at 38000 baş, dəvə 5700 baş göstərilmişdir. Nəticədə

---

[866] Обзор Эриванской губернии за 1891 г., с.12.
[867] Yenə orada.
[868] Обзор Эриванской губернии за 1898 г., с.6-7.

keçən ilkinə nisbətən mal-qaranın ümumi sayında 352350 baş azalma müşahidə olmuşdur. Buna səbəb həmin il mal-qara yeminin qıtlığı və bununla əlaqədar olaraq əhali mal-qaranı kütləvi surətdə satması idi. Həmin il mal-qaranın satış qiyməti belə olmuşdur: 1 baş xırdabuynuzlu mal-qara-3 rubl; 1 iribuynuzlu mal-qara-30 rubl; 1 baş at-60 rubl; 1 baş dəvə-100 rubl. Quberniya üzrə bütün kənd təsərrüfatı heyvanlarının ümumi dəyəri 19200000 rubl məbləğində hesablanmışdı. Mal-qaradan gələn təmiz gəlir isə 2300000 rubl və yaxud ümumi dəyərin 12 %-i idi[869].

Baxmayaraq ki, 1899-cu ildə İrəvan quberniyasında kənd təsərrüfatı heyvanlarının sayında xeyli azalma qeydə alınmışdı, 1900-cü ildə də bu azalma davam etmişdir. Həmin ilin məlumatında xırdabuynuzlu mal-qaranın sayı 605840 baş (ümumi mal-qaranın sayının 52,4 %), iribuynuzlu mal-qara 479250 baş (41,4 %), at və qatır 38720 baş (3,3 %), dəvə 5610 baş (0,5 %), eşşək 27580 baş (2,4 %), ümumi sayı isə 1157000 baş göstərilmişdir. Bu da keçən ilkinə nisbətən 300000 baş az idi. Buna səbəb həmin il bəzi qəzalarda mal-qara üçün yem qıtlığının olması idi. Hər bir mal-qaranın satış qiyməti belə dəyəndirilmişdi: 1 baş xırdabuynuzlu mal-qara-3 rubl; 1 iribuynuzlu mal-qara-30 rubl; 1 baş at və qatır-50 rubl; 1 baş dəvə-100 rubl, 1 baş eşşək-14 rubl. Quberniya üzrə bütün kənd təsərrüfatı heyvanlarının ümumi dəyəri 18032900 rubl məbləğində hesablanmışdı. Mal-qaradan gələn təmiz gəlir isə 2593410 rubl və yaxud ümumi dəyərin 14,38 % -i idi[870].

İki illik azalmadan sonra 1901-ci ilin statistik məlumatında İrəvan quberniyasında kənd təsərrüfatı heyvanlarının sayında artım müşahidə olunmuşdur. Həmin il ayrı-ayrı mal-qaranın sayı belə idi: xırdabuynuzlu mal-qara-755191 baş (həmçinin 22723 baş buzov); iribuynuzlu mal-qara-424366 baş; at-38414 baş (həmçinin 510 ayğır); qatır-1191 baş; dəvə-56085 baş; eşşək-27730. Mal-qaranın ümumi sayı isə 1252577 baş olmuşdur. Bu da keçən ilkinə nisbətən 88577 baş və yaxud 7,6 % çox idi. Mal-

---

[869] Обзор Эриванской губернии за 1899 г., с.6-7.

[870] Обзор Эриванской губернии за 1900 г., с.6.

qaranın satış qiyməti isə belə idi: 1 baş xırdabuynuzlu mal-qara-5 rubl; 1 iribuynuzlu mal-qara-30 rubl; 1 baş at və qatır-50 rubl; 1 baş ayğır-12 rubl; 1 baş dəvə-100 rubl, 1 baş eşşək-14 rubl. Quberniya üzrə bütün kənd təsərrüfatı heyvanlarının ümumi dəyəri 19424525 rubl məbləğində dəyərləndirilmiş, mal-qaradan gələn təmiz gəlir isə 2581245 rubl olmuşdur[871].

1902-ci ildə İrəvan quberniyasında xırda və iribuynuzlu mal-qaranın sayı 1372976 baş olmuşdur. Bu, 1901-ci ilə nisbətən 120399 baş, yaxud 9 % çox idi[872].

1903-cü ildə mal-qaranın sayında daha çox artım olmuşdur. Həmin il 1163534 baş xırdabuynuzlu, 521918 baş iribuynuzlu mal-qara, 49684 baş at, 32558 baş yük heyvanları (qatır, dəvə və eşşək) qeydə alınmışdır. Bütün bu heyvanların ümumi dəyəri 25 milyon rubl dəyərində idi[873].

1904-cü ildə İrəvan quberniyasında iribuynuzlu mal-qaranın sayı 633784 baş, xırdabuynuzlu mal-qaranın sayı 1288586 baş, atın sayı 48926 baş, qatırın sayı 1051 baş, dəvənin sayı 3755 baş, eşşəyin sayı 27548 baş, ümumiyyətlə 2003650 baş olmuşdur[874].

1907-ci ilin statistik məlumatında İrəvan quberniyasında 561747 baş iribuynuzlu, 957283 baş xırdabuynuzlu mal-qara, 42169 baş at, 695 baş qatır, 3698 baş dəvə, 28971 baş eşşək, ümumilikdə isə 1594563 baş göstərilmişdir[875].

1908-ci ildə İrəvan quberniyasında mal-qaranın sayında yenidən azalma müşahidə olunmuşdur. Buna səbəb, əhalinin məhsulsuzluq nəticəsində xəzinə vergilərinin vaxtı-vaxtında ödəməmələri idi. Nəticədə onlar bu vergiləri ödəmək üçün mal-qaranı satışa çıxarmışdılar. Satışdan əldə olunan gəlir xəzinə vergisinin ödənilməsinə xərclənmişdir. Həmin il İrəvan quberniyasında 442935 baş iribuynuzlu, 835028 baş xırdabuynuzlu mal-qara, 39889 baş at, 894 baş qatır, 5123 baş dəvə, 27913 baş eşşək, ümu-

---

[871] Обзор Эриванской губернии за 1901 г., с.9.
[872] Обзор Эриванской губернии за 1902 г., с.2.
[873] Обзор Эриванской губернии за 1903 г., с.4.
[874] Обзор Эриванской губернии за 1904 г., с.7.
[875] Обзор Эриванской губернии за 1907 г., с.26.

milikdə isə 1351782 baş kənd təsərrüfatı heyvanı olmuşdur. Bu da keçən ilkinə nisbətən mal-qaranın sayı 242781 baş az idi[876].

1909-cu ildə keçən ilkinə nisbətən mal-qaranın sayında çoxalma müşahidə olunmuşdur. Həmin il İrəvan quberniyasında 486201 baş iribuynuzlu, 854744 baş xırdabuynuzlu mal-qara, 41052 baş at, 938 baş qatır, 5523 baş dəvə, 29740 baş eşşək, ümumilikdə isə 1418198 baş kənd təsərrüfatı heyvanı olmuşdur. Nəticədə keçənilkinə nisbətən mal-qaranın sayı 66416 baş çox idi[877].

1910-cu ildə İrəvan quberniyasında 464030 baş iribuynuzlu, 821383 baş xırdabuynuzlu mal-qara, 42675 baş at, 866 baş qatır, 5929 baş dəvə, 29623 baş eşşək, ümumilikdə isə 1364509 baş kənd təsərrüfatı heyvanı qeydə alınmış, bu da, keçənilkinə nisbətən 53689 baş az idi[878].

1914-cü ildə mal-qaranın və digər kənd təsərrüfatı heyvanlarının sayı isə belə idi: iribuynuzlu mal-qara-444575 baş; xırdabuynuzlu mal-qara-1007456 baş; at-29006 baş; dəvə-6263 baş; qatır və ulaq-24175 baş; donuz-2132 baş. Cəmi 1515606 baş mal-qara[879].

İrəvan quberniyasında əhali iri və xırdabuynuzlu mal-qaraya görə xəzinəyə vergi də ödəyirdilər. Bu vergi növü ilk dövrdə “sabalaxa” adlanmışdı. Sabalaxa vergisinə əsasən yerli sakinlər örüş yerlərindən istifadəyə görə hər baş iri mal-qaraya görə 10 qəpik, xırdabuynuzlu mal-qaraya görə isə 1 qəpik vergi ödəmişdilər. Lakin 1884-cü il 29 iyun qanununa əsasən, Cənubi Qafqazda mal-qaraya görə vergi sistemində dəyişiklik baş vermişdi. Həmin qanuna görə, mal-qaranın otladığı örüş yerlərinin hər desyatininə görə əhali 15 qəpik vergi ödəməli idi[880].

---

[876] Обзор Эриванской губернии за 1908 г., с.9, с.26.
[877] Обзор Эриванской губернии за 1909 г., с.26.
[878] Памятная книжка Эриванской губернии на 1912, отдел IV, с.28.
[879] Обзор Эриванской губернии за 1914 г., с.39.
[880]Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, 1887, т.1, часть 1, с.80-83; Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, 1889, т.III, часть1, с.66-67.

Mal-qara və kənd təsərrüfatı heyvanları əhalinin müxtəlif tələbatını təmin edirdi. İri və xırdabuynuzlu heyvanlar əhalinin həm sudə, pendirə, yağa, həm də ətə olan tələbatını ödəməklə bərabər, yerli əhali iribuynuzlu heyvanlardan qoşqu aləti kimi yüklərin daşınmasında, torpağın şumlanmasında geniş istifadə edirdilər. Onların dərisi də əhaliyə xeyli gəlir gətirirdi. Xırdabuynuzlu heyvanların yunundan məişətdə iplik hazırlanmasında, müxtəlif parçaların, xalçaların və s. toxunmasında geniş istifadə edilidi[881].

Yerli əhali at, qatır və ulaqlardan məişətdə müxtəlif işlərdə istifadə edirdilər. İrəvanda Qarabağ və ərəb at cinsləri daha məşhur olmuşdu. Atdan minik, ağır yüklərin daşınmasında, poçt işində geniş istifadə edilmişdi[882]. Hətta İrəvan quberniyasının Şərur-Dərələyəz və Aleksandropol qəzalarında at zavodları olmuşdur. Şərur-Dərələyəz qəzasının Soylan kənd sakini Canpoladova məxsus zavodda 126 cins at, bunlardan 2-si iş ayğırı, 62-si dişi at idi. Aleksandropol qəzasında bir at zavodu Böyük Qarakilsə kəndində və iki at zavodu isə Bozukənd kəndində fəaliyyət göstərmişdir. Hər üç zavodda 299 cins at olmuşdur[883].

Quberniya əhalisi yüklərin daşınmasında ulaq, at, qatır və dəvələrə çox üstünlük vermişdilər. Həm də onların saxlanması ucuz başa gəlirdi. Ən ağır yüklərin daşınmasında bu heyvanlardan daha geniş istifadə edilirdi. Dəvələrdən isə uzaq yerlərə-əcnəbi ölkələrə ticarət malı aparmaq və oradan gətirmək üçün karvan kimi istifadə edilirdi[884]. Aşağıda əhalinin müxtəlif yerlərə yük daşınması ilə bağlı məşğulluq sahəsi haqqında ətraflı bəhs olunacaqdır.

İrəvan quberniyasında əhalinin məşğulluq sahələrindən biri də **arıçılıq** idi. Bu sahə böyük zəhmət tələb etdiyindən quberniyada əvvəllər zəif inkişaf etmişdi. Xüsusilə, arı şanları yazda, yayda və

---

881 Сборник сведений о Кавказе, 1872, т.II, с.169; Обзор Эриванской губернии за 1909 г., с.8, с.13; Обзор Эриванской губернии за 1912 г., с.10, с.14, с.17; Обзор Эриванской губернии за 1914 г., с.12, с.16, с.21.

882 Сборник сведений о Кавказе, 1872, т.II, с.187-188; Сборник материалов для описания местностей и племен Кавказа, выпуск 1, с.33.

883 Обзор Эриванской губернии за 1891 г., с.12.

884 Сборник сведений о Кавказе, 1872, т.II, с.188.

payızda daha çox güllü-çiçəkli yerlərə daşınmalı, arılara güclü qayğı göstərilməli idi. XIX yüzilliyin 70-ci illərin əvvəllərinə aid olan məlumata görə, İrəvan quberniyasında hər 100 evdən 5 nəfərinin 2-6 arı şanısı vardı. Arıçılıq əsasən quberniyanın dağlıq və meşə olan ərazilərində bir qədər güclü inkişaf etmişdi. Belə yerlərdən Naxçıvan qəzasında Dərələyəzi (həmin vaxtı Dərələyəz Naxçıvan qəzasının tərkibində idi-E.Q.), Aleksandropol qəzasında isə Pəmbəyi qeyd etmək lazımdır. Ümumiyyətlə, İrəvan quberniyasının İrəvan, Naxçıvan, Şərur-Dərələyəz, Yenibəyazid, Aleksandropol və Üçmüəzzin qəzalarında arıçılıq nisbətən geniş yayılmışdı[885].

1870-ci ildən başlayaraq İrəvan quberniyasında mənbələrdə arıçılıq haqqında məlumatlara rast gəlmək mümkündür. Həmin ilin məlumatına görə, arı şanılarının sayı ayrı-ayrı qəzalar üzrə belə idi: İrəvan qəzasında 561; Naxçıvan qəzasında 1215; Üçmüəzzin qəzasında 1395; Aleksandropol qəzasında 1551; Yenibəyazid qəzasında 2310. Cəmi 7032 arı şanı. Hər bir arı şanından təxminən 15 funt təmiz bal, 3 funt mumiya, bütün quberniya üzrə isə 2637 pud təmiz bal, 527 pud isə mumiya alınmışdı. Təmiz bal orta qiymətlə 5 publ 50 qəpiyə, mumiya isə 10 rubla satılmışdı. Baldan gələn illik gəlir 19773 rubla bərabər olmuşdur[886].

Sonrakı illərdə də əhalinin məşğulluq sahələrindən biri olan arıçılıq haqqında məlumatlara rast gəlmək mümkündür. 1890-cı il məlumatına görə, İrəvan quberniyasında 15000 arı şanı qeydə alınmışdı. Hətta təqaüddə olan general-leytenant Proskuryakovun Aleksandropol qəzasının Böyük Qarakilsə kəndində arıxanası var idi[887].

1898-ci il məlumatına görə, İrəvan quberniyasında 2417 pud bal, 2809 pud isə mum əldə edilmişdir. Həmin il bal satışından 50000 rubl təmiz gəlir götürülmüşdür[888].

---

885 Сборник сведений о Кавказе, 1872, т.II, с.190; Памятная книжка Эриванской губернии на 1892, с.115-116; Обзор Эриванской губернии за 1891 г., с.13; Обзор Эриванской губернии за 1901 г., с.10.

886 Сборник сведений о Кавказе, 1872, т.II, с.190.

887 Памятная книжка Эриванской губернии на 1892, с.115-116.

888 Обзор Эриванской губернии за 1898 г., с.8.

1899-cu ildə arıçılıqdan əldə olunan gəlir xeyli azalmışdı. Həmin il quberniya üzrə 3230 pud bal, 1130 pud mum əldə edilmişdir. Bu təsərrüfatdan gələn təmiz gəlir isə 41200 rubl olmuşdur[889].

XX yüzilliyin əvvəllərində İrəvan quberniyasında arıçılıq təsərrüfatına böyük diqqət yetirilməyə başlandı. Ayrı-ayrı illərdə əldə edilmiş statistik məlumatlar bunu deməyə əsas verir. Məsələn, 1900-cü ildə İrəvan quberniyasında 15450 ədəd arı şanı qeydə alınmış, həmin şanılardan 6080 pud bal, 1278 pud mum yığılmışdır. Həmin il 1 pud bal 8 rubl 50 qəpiyə, 1 pud mum isə 20 rubla satılmışdır. Arıçılqdan əldə edilən təmiz gəlir isə 77240 rubl olmuşdur[890].

1901-ci ildə arıçılıqdan gələn gəlir bir qədər də artmışdır. Həmin il Sürməli qəzasından başqa digər qəzalarda əhalinin arıçılıqla məşğul olması haqqında məlumat verilmişdir. 1901-ci ildə bütün qəza üzrə 15920 (keçən ilkindən 470 ədəd çox) ədəd arı şanı qeydə alınmış, bu şanılardan 7960 pud bal, 1194 pud mum əldə edilmişdir. Hər bir arı şanı təxminən 7-40 funt arasında bal, 1-10 funt arasında mum vermişdir. Qeyd edilən ili 1 pud bal 9 rubla, 1 pud mum isə 20 rubla satılmış, təmiz gəlir isə 95520 rubl olmuşdur[891].

1902-ci ildə təxminən eyni miqdarda arı şanı qeydə alınmışdı. Həmin il 15000 ədəd arı şanından 7990 pud bal (hər şanıdan 1-7 fint arasında bal əldə edilmişdir), 1153 pud mum (hər şanıdan 1-10 funt arası mum) toplanmışdır. Balın 1 pudu 8-14 rubl arasında, mum isə 20 rubla satılmışdır[892].

1903-cü ildə arı şanlarının sayında artım olsa da, keçənilkinə nisbətən az bal toplanmışdır. Həmin il 20000 ədəd arı şanından 7330 pud bal, çox az miqdarda mum yığılmışdır. Bu da 1902-ci ilə nisbətən 660 pud az bal əldə edilmişdir. Balın 1 pudu 7-15 rubl arasında satılmışdır[893].

---

889 Обзор Эриванской губернии за 1899 г., с.7.
890 Обзор Эриванской губернии за 1900 г., с.7.
891 Обзор Эриванской губернии за 1901 г., с.10.
892 Обзор Эриванской губернии за 1902 г., с.3.
893 Обзор Эриванской губернии за 1903 г., с.5.

1904-cü il məlumatında İrəvan quberniyasında 18230 arı şanı qeydə alınmışdı. Hər bir arı şanından 5 funtdan 20 funta qədər təmiz bal, 0,25 funtdan 6 funta qədər mumiya əldə edilmişdir. Qeyd edilən ildə təmiz balın bir pudu 8-15 rubla, mumiya isə 15-20 rubl arasında satılmışdır[894].

1907-1908-ci və 1909-cu illərdə İrəvan quberniyasında arıçılıq təsərrüfatında demək olar ki, eyni nəticə əldə edilmişdir. Həmin illər İrəvan quberniyasında 20 min arı şanı qeydə alınmışdır. Məlumata görə, bu arı şanılarının 1000-dən artığı çərçivəyə alınmışdı, yəni müasir tələblərə uyğun, qalanları isə ibtidai qaydada idi. Hər bir arı şanı 5-10 funt, çox nadir hallarda 20 funta qədər təmiz bal vermiş, təmiz bal, mumiya ilə birlikdə 8-12 rubl arasında satılmışdır[895].

1910-cu il məlumatında İrəvan quberniyasında qəza və şəhərlərdə arı şanları haqqında daha ətraflı məlumat verilmişdir. Aşağıdakı cədvəldə bunu əyani izləmək mümkündür[896]:

| Şəhər və qəzalar | Arıxanaların sayı | Çərçivəyə salınmış şanıların sayı | Qəlbə salınmış şanıların sayı | Əldə edilmiş bal və mum (pudla) |
|---|---|---|---|---|
| İrəvan şəhəri | 6 | 30 | - | 18 |
| İrəvan qəzası | 273 | 53 | 2706 | 796 |
| Üçmüəzzin qəzası | 316 | 798 | 2842 | 1176 |
| Yenibəyazid şəhəri | 8 | 67 | 63 | 39 |
| Yenibəyazid qəzası | 414 | 239 | 1518 | 398 |
| Aleksandropol şəhəri | 7 | 370 | 5 | 305 |
| Aleksandropol qəzası | 481 | 3547 | 2527 | 4433 |
| Şərur-Dərələyəz qəzası | 367 | 642 | 6123 | 1841 |
| Naxçıvan şəhəri | 1 | 50 | - | 25 |
| Ordubad şəhəri | 7 | 2 | 134 | 21 |
| Naxçıvan qəzası | 500 | 166 | 4799 | 1060 |

---

[894] Обзор Эриванской губернии за 1904 г., с.8.
[895] Обзор Эриванской губернии за 1907 г., с.9; Обзор Эриванской губернии за 1908 г., с.9-10; Обзор Эриванской губернии за 1909 г., с.9.
[896] Обзор Эриванской губернии за 1910 г., с.10.

| Yekun | 2380 | 5964 | 20726 | 10112 |
|---|---|---|---|---|

Həmin il bal ilə mumiya bir yerdə 8-12 rubl arasında satılmışdır.

1912-ci il məlumatında da İrəvan quberniyasında qəzalar və kəndlər üzrə arı təsərrüfatları haqqında da geniş məlumat öz əksini tapmışdır. Hətta bu ilki məlumatda Sürməli qəzasında arıçılıq təsərrüfatı haqqında da məlumat verilmişdir. Aşağıdakı cədvəldə bunu əyani izləmək mümkündür[897]:

| Qəzalar | Arıçılıqla məşğul olan kəndlərin sayı | Arıxana-ların sayı | Sadə arı şanıları-nın sayı | Çərçivəyə salınmış arı şanılarının sayı | Bal (pud və funt) | Mum (pud və funt) |
|---|---|---|---|---|---|---|
| İrəvan qəzası | 45 | 223 | 1540 | 113 | 343 p, 25 f | 36 p.8 f. |
| Üçmüəzzin qəzası | 56 | 328 | 1666 | 578 | 1063 p, 20 f. | 85 p.11 f. |
| Sürməli qəzası | 5 | 5 | 1 | 100 | 75 p. | 2 p. |
| Yenibəyazid qəzası | 32 | 120 | 887 | 176 | 1343 p. 35 f. | 34 p. 17 f. |
| Aleksandropol qəzası | 92 | 918 | 1769 | 4444 | 3485 p. | 173 p. 8 f. |
| Şərur-Dərələyəz qəzası | 61 | 413 | 3401 | 606 | 1159 p. 20 f. | 17 p. 20 f. |
| Naxçıvan qəzası | 59 | 407 | 3726 | 71 | 1061 p. 25 f. | 17 p 30 f. |
| Yekun | 350 | 2423 | 12990 | 6088 | 7094 p. 20 f. | 358 p. 34 f |

Bu ilin məlumatında göstərilmişdi ki, quberniya üzrə ayrı-ayrı qəzalarda 350 kənd arıçılıqla məşğul olmuş, 2423 arıxana, həmin arıxanalarda 19078 ədəd arı şanıları qeydə alınmışdır. Bu arı şanılarından isə 7694 pud 20 funt təmiz bal, 358 pud 34 funt mumiya hasil olunmuşdur. Həmin il təmiz bal 7-16 rubla, mumiya isə 16-32 rubla satılmışdır[898].

---

[897] Обзор Эриванской губернии за 1912 г., с.12.
[898] Обзор Эриванской губернии за 1912 г., с.12.

1913-cü il məlumatına görə, İrəvan quberniyasında şəhərlərlə birlikdə arıçılıqla məşğul olan 338 kənd (İrəvan qəzasında İrəvan şəhəri ilə birlikdə 41 kənd, Üçmüəzzin qəzasında 47 kənd, Sürməlidə 5 kənd, Yenibəyaziddə 32 kənd, Aleksandropolda 92 kənd, Şərur-Dərələyəzdə 61 kənd, Naxçıvanda 60 kənd), bu kəndlərdə 2365 arıxana, 7631 çərçivəyə alınmış, 13234 sadə üsulla qurulmuş, ümumilikdə isə 23230 arı şanları qeydə alınmışdır. Həmin il təmiz bal 8-16 rubl, mumiya isə 16-32 rubl arasında satılmışdır[899].

1914-cü ildə isə arıçılıqla məşğul olan kəndlərin sayı keçən ilkinə nisbətən 4 % aşağı düşmüş, arıxanaların və arı şanılarının sayında azalma müşahidə olunmuşdur. Aşağıdakı cədvəldə bunu əyani izləmək mümkündür[900]:

| Qəzalar | Kəndlərin sayı | Arıxanaların sayı | Sadə arıxanaların sayı | Çərçivəyə salınmış arıxanaların sayı |
|---|---|---|---|---|
| İrəvan qəzası İrəvan şəhəri ilə birlikdə | 38 | 147 | 1655 | 36 |
| Üçmüəzzin | 38 | 360 | 657 | 891 |
| Sürməli | 5 | 5 | - | 112 |
| Yenibəyazid | 29 | 104 | 375 | 274 |
| Aleksandropol qəzası şəhərlə birlikdə | 93 | 830 | 848 | 4470 |
| Şərur-Dərələyəz | 60 | 371 | 3234 | 1067 |
| Naxşıvan | 62 | 454 | 4561 | 212 |
| Yekun | 325 | 2271 | 11330 | 7026 |

Cədvəldən göründüyü kimi, 1914-cü ildə İrəvan quberniyasında 325 kənd bu sahə ilə məşğul olmuş, həmin kəndlərdə

---

899 Обзор Эриванской губернии за 1913 г., с.13.
900 Обзор Эриванской губернии за 1914 г., с.14.

2271 arıxana, arıxanalarda isə 18356 arı şanı qeydə alınmışdır. Təəssüf ki, bu ildə arı şanlarından əldə edilən balın miqdarı haqqında heç bir rəqəm göstərilməmişdir. Lakin bir pud təmiz bal 8-16 rubla, mumiya isə 16-32 rubla satılmışdır[901]. Son illərin statistikasına baxdıqda görmək olar ki, bir pud arı balının və mumiyanın satışında ildən-ilə artım baş vermişdir.

Beləliklə, qeyd etmək lazımdır ki, İrəvan quberniyasında əlverişli coğrafi şərait, bol sulu çayların və geniş otlaqların olması kənd təsərrüfatının ayrı-ayrı sahələrinin inkişafına təkan vermiş, əkinçilik, maldarlıq, bağçılıq və bostançılıq, texniki bitkilərdən pambıqçılıq və s. sahələr güclü inkişaf etmişdir.

## 5.2. Torpaq sahibliyi və torpaqdan istifadə

Bəhs etdiyimiz dövrdə İrəvan quberniyasının əsas torpaq fondu dövlət mülkiyyəti olan xəzinə torpaqlarından və xüsusi mülkiyyət kimi bəylərin-mülkədarların, məliklərin, tiyul sahiblərinin ixtiyarında olan xüsusi sahibkar torpaqlarından ibarət idi. Lakin az da olsa kəndlilərin ixtiyarında olan icma torpaqları və dini idarələrə məxsus vəqf torpaqları da olmuşdur. Bundan əlavə, ümumi torpaq fonduna əkin sahələrindən əlavə meşələr, örüş yerləri, meyvə bağları da daxil olmuşdur.

XIX yüzilliyin 60-cı illərin məlumatına görə, İrəvan quberniyasında xəzinə torpaqlarının ümumi sahəsi 2000000 desyatinə bərabər olmuş, bu da ümumi torpaq fondunun 85 $^{0}/_{0}$-dən çoxunu təşkil etmişdir[902]. Xəzinə torpaqlarına kəndlər, əkin sahələri, örüş yerləri, müxtəlif faydalı qazıntı mədənləri, meşələr və hətta boş, yararsız torpaqlar daxil idi. Bu torpaqların böyük bir hissəsi xüsusi şəxslərə və elatlara istismar üçün paylanmışdı. Sonradan bu torpaqlar xüsusi mülkiyyətçilərin istifadəsinə keçdiyindən, xəzinə torpaqlarının sahəsi azalmışdır. XIX yüzilliyin 80-ci illərinin ortalarına olan məlumatlarda İrəvan quberniyasında xəzinə

---

901 Обзор Эриванской губернии за 1914 г., с.14.
902 АКАК, т.10, с.105.

və mülkədarlara məxsus torpaq fondunun faizi bir qədər fərli rəqəmlə göstərilmişdir. Məsələn, ümumi xəzinə torpaqları 777143,57 desyatin (yəni 94,92 $^{0}/_{0}$), mülkədar torpaqları 41568,05 desyatin (yəni 5,08 $^{0}/_{0}$), elatlara məxsus xəzinə torpaqları 71932,84 desyatin (yəni 99,94 $^{0}/_{0}$), mülkədarlara məxsus örüş yerləri isə 44,33 desyatin (0,06 $^{0}/_{0}$) olmuşdur. Bütünlükdə xəzinə torpaqlarının ümumi sahəsi 890692,79 desyatinə bərabər olmuş, bunlardan 6263,23 desyatini (0,70 $^{0}/_{0}$) həyətyanı malikanə torpaqlarına, 6790,17 (0,76 $^{0}/_{0}$) desyatini bağlara, 808,00 (0,09 $^{0}/_{0}$) desyatini meşə sahəsinə, 115516,16, (12,9 $^{0}/_{0}$) desyatin suvarılan əkin sahələrinə, 263342,45 (29,57 $^{0}/_{0}$) desyatini dəmyə əkin sahələrinə, 40943 desyatini (4,60 0 $^{0}/_{0}$) biçənək yerlərinə, 457029,39 (51,31 $^{0}/_{0}$) desyatin örüş və yararsız torpaqların payına düşmüşdü. Lakin bu məlumat bütün quberniyanın torpaq fondunu əhatə etmirdi[903].

1892-ci ilin məlumatında İrəvan quberniyasında bütün torpaq sahəsinin 2449792 desyatin olduğu bildirilmişdir. Ayrı-ayrı qəzalarda torpaq fondunun sahəsi isə belə idi: İrəvan qəzası-288854 desyatin; Naxçıvan qəzası-412292 desyatin; Sürməli qəzası-332604 desyatin; Şərur-Dərələyəz-277917 desyatin; Yenibəyazid qəzası-441562 desyatin; Aleksandropol qəzası-356771 desyatin; Üçmüəzzin qəzası-339792 desyatin[904].

XIX yüzilliyin ortalarında İrəvan quberniyasında 2388425 desyatin ümumi torpaq fondu qeydə alınmış, bunlardan yalnız 727590 (30 $^{0}/_{0}$) desyatin torpaq mərzlənmişdir. Bu torpaq fondunun əsas hissəsi xəzinə torpaqları hesab olunurdu. Bu torpaqlarda 51120 ev, 227956 kişi, 203167 qadın (63,74 %) məskunlaşmışdı[905].

İrəvan quberniyasında xəzinə torpaqlarından sonra ikinci yeri sahibkar torpaqları tutmuşdu. XIX yüzilliyin 90-cı illərinin

---

[903]Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, 1888, т.II, с.240-244.

[904] Обзор Эриванской губернии за 1892 г., с.4.

[905] Сборник статистических данных о зеьлевладений и способах хозяйства в пяти губерниях Кавказского края, с.324.

ortalarına aid olan məlumata görə, İrəvan quberniyanın 4 qəzasında (İrəvan, Sürməli, Şərur-Dərələyəz və Üçmüəzzin) sahibkarların sayı, onlara məxsus və icarəyə verdikləri torpaqların ümumi sahəsi aşağıdakı cədvəldə belə bölünmüşdü[906]:

| Qəzalar | Sahibkarlar | Torpaqların ümumi sahəsi (desyatinlə) | Şəxsi torpaqları (desyatinlə) | İcarə verdikləri torpaqlar (desyatinlə) | əkin sahəsi (desyatinlə) | Əkilməyən sahə (desyatinlə |
|---|---|---|---|---|---|---|
| İrəvan qəzası | 153 | 10971 | 380 | 10591 | 1530 | 9441 |
| Şərur-Dərələyəz qəzası | 144 | 9362 | 4080 | 5282 | 1969 | 7393 |
| Sürməli qəzası | 88 | 3845 | 861 | 2984 | 1470 | 2375 |
| Üçmüəzzin | 114 | 4016 | 349 | 3667 | 867 | 3149 |
| Yekun | 499 | 28194 | 6570 | 22524 | 5836 | 22358 |

İrəvan quberniyasında iri torpaq sahibkarları çox az idi. Bu 499 sahibkardan 7-nin 1000 desyatindən çox, 114-nün 100 desyatindən 1000 desyatinə, 105-in 10 desyatindən 100 desyatinə qədər və 276-ın isə 10 desyatindən az torpağı olmuşdur[907].

XX yüzilliyin əvvəllərində isə İrəvan quberniyasında ümumi torpaq fondu 2546088 desyatinə bərabər olmuşdur. Bunun 1655945 desyatini xəzinənin, 890143 desyatini isə sahibkar torpaqlarının payına düşürdü. Ümumi torpaq fondundan xəzinə kəndlilərinin ixtiyarında 777147 desyatin, sahibkar torpaqlarında sakin olan kəndlilərin ixtiyarında 98264 desyatin, elatların istifadəsində isə 71932 desyatin torpaq vardı. Ümumilikdə kənd əhalisinin sərəncamında 947343 desyatin, sahibkarların ixtiyarında isə 60268 desyatin torpaq sahəsi olmuş, onlardan 60126 desyatini ali təbəqənin, 142 desyatin isə xüsusi mülkiyyət sahibi olan

---

[906] Сборник статистических данных о зеьлевладений и способах хозяйства в пяти губерниях Кавказского края, с.324.

[907] Сборник статистических данных о землевладений и способах хозяйства в пяти губерниях Кавказского края, с.31.

kəndlilərin şəxsi istifadəsində olmuşdur[908].

1902-ci ilin məlumatına görə, İrəvan quberniyasında əhalinin sərəncamında olan ümumi torpaq fondunun ümumi sahəsi 1280094, 1906-cı uldə isə 1331951 desyatin olmuşdur. Bu torpaq fonduna əkin sahələri, meşələr, yaylaq və qışlaqlar, bağlar və bostanlar, mülklər daxil idi[909].

Lakin İrəvan quberniyasında torpaqsız kəndlər də vardı. İrəvan qəzasında kəndlərin $^{1}/_{3}$-ə pay torpağı verilməmişdi. Naxçıvanda belə kəndlərdə 400 ailənin, Üçmüəzzində 800 ailənin torpaq sahəsi yox idi. Yalnız Yenibəyazid qəzasında torpaqsız ailə yox idi[910]. XX yüzilliyin əvvəllərində İrəvan quberniyasında torpaqsız 1209 ev və yaxud 5211 kişi cinsi qeydə alınmışdı[911]. Torpaqsız kəndlilər heç bir sahibkardan asılı deyildi və onlarla heç bir əlaqəsi yox idi. Belə kəndlilər vergi vermir və mükəlləfiyyət yerinə yetirmirdilər.

Bəylərlə yanaşı xüsusi torpaq mülkiyyətçiləri içərisində varlı kəndlilər də var idi. Onlara məxsus mülkiyyətdə həyətyanı bağ, bostan, əkin və örüş yerləri vardı. İslahat ərəfəsində İrəvan quberniyasında varlı kəndlilərin xüsusi çəkisi belə idi: İrəvan qəzasında 23 ailə, Naxçıvanda 1 ailə, Üçmüəzzində 47 ailə. Ümumiyyətlə İrəvan quberniyasında varlı kəndlilərin sayı 102-ə çatırdı[912]. Lakin 1870-ci il islahatından sonra belə kəndlilərin sayı azalmışdı. Məlumata görə, XIX yüzilliyin 80-ci illərinin əvvəllərində İrəvan qəzasında müxtəlif kəndlərdə 6 xüsusi kəndli təsərrüfatı olan ailə qeydə alınmışdı. Onlardan beş ailənin birlikdə mərzlənmə qaydası ilə 16,21 desyatin torpaq sahəsi var idi.

---

[908] Материалы по вопросу о распространении действий крестьянского поземелного Банка на Закавказский край, 117-119.

[909] Памятная книжка Эриванской губернии на 1902, отдел III, с.98-99; Памятная книжка Эриванской губернии на 1906, отдел III, с.118-119.

[910] Историческая записка об управлении Кавказом [в 2 томах], Сос.С.Эсадзе, Тифлис, Типография Гуттенберг, 1907, т.1, с.559.

[911] Материалы по вопросу о распространении действий крестьянского поземелного Банка на Закавказский край, с.107.

[912] Историческая записка об управлении Кавказом, т.1, с.561.

Altıncı Xudabəy oğlunun isə əmisi oğlu Taytan kəndinin mülkədarı ilə birlikdə 150 desyatin pay torpağına malik idi. Qeyd edilən torpaq sahəsi Pnut kəndinin ərazisində yerləşirdi. Bu torpağın yarısı, yəni 75 desyatini kəndli Xudabəy oğluna məxsus idi. Beləliklə, İrəvan qəzası üzrə mülkiyyətçi kəndlilərə məxsus torpaq sahəsi 91,21 desyatin olmuşdur[913].

Şərur-Dərələyəz qəzasında Muğanlı, Çomxatur, Korqalı və Arbatan kəndlərinin düzənlik ərazilərində 9 xüsusi mülkiyyəti olan kəndli qeydə alınmışdır. Onların torpaq sahəsinin ümumi ərazisi 48,33 desyatinə bərabər olmuşdur[914].

Yenibəyazid qəzasında yalnız Tezxarab kəndində iki xüsusi mülkiyyəti olan kəndli olmuşdur. Onlar birlikdə İrəvan qəzasının Göykümbəz kəndi ərazisində yerləşən, ümumi sahəsi 2,50 desyatin olan torpaq sahəsinə malik idi[915].

İrəvan quberniyasının Naxçıvan, Sürməli, Üçmüəzzin və Aleksandropol qəzalarında xüsusi mülkiyyəti olan kəndli qeydə alınmamışdı. Beləliklə, İrəvan, Şərur-Dərələyəz və Yenibəyazid qəzalarında xüsusi mülkiyyətə malik 17 kəndlinin birlikdə ümumi torpaq sahəsi 142,04 desyatinə bərabər olmuş, bu da quberniya üzrə ümumi torpaq sahəsinin 0,02 ⁰/₀-i demək idi[916].

XX yüzilliyin əvvəllərində İrəvan quberniyasında xüsusi mülkiyyəti olan kəndlilərin ixtiyarında 142 desyatin torpaq sahəsi olmuşdur[917].

Qeyd etmək lazımdır ki, İrəvan quberniyasında islahatqabağı ümumi mülkədar kəndlərinin sayı 302 idi. Quberniya üzrə İrəvan qəzasında 69, Üçmüəzzin qəzasında 103, Naxçıvan qəzasında 119, Yenibəyazid qəzasında isə 11 kənd yerləşmişdi. Mülkədar ailələrinin ümumi sayı isə 385-ə çatırdı. Mülkədar kəndlə-

---

913 Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, 1888, т.II, с.254.
914Yenə orada.
915 Yenə orada.
916 Yenə orada.
917 Материалы по вопросу о распространении действий крестьянского поземелного Банка на Закавказский край, с.107.

rində yaşayan kəndli ailələrin sayı 12310, kişilərin sayı isə 45241 idi[918]; Quberniya üzrə sahibkar kəndliləri ümumi kəndli təbəqəsinin 14 $^0/_0$-ni təşkil etmişdi[919].

XIX yüzilliyin 80-ci illərinin axırlarına olan məlumata görə, İrəvan quberniyasında 955 kənd vardı. Onlardan xəzinəyə məxsus 800 kənd (732-i xəzinənin, 68-i həm xəzinənin, həm də mülkədarların), 155 elat cəmiyyəti (1-i isə xəzinə-mülkədar) qeydə alınmışdı[920].

XIX yüzilliyin 90-cı illərinin axırlarında xəzinə torpaqlarında yaşayan dövlət kəndliləri İrəvan quberniyasında bütün kəndli təbəqəsinin 63,78 $^0/_0$-i təşkil etmişdi. Hər qəza üzrə dövlət kəndlilərinin faizi belə idi: İrəvan qəzasında 62,76 $^0/_0$, Naxçıvan qəzasında 30,35 $^0/_0$, Sürməli qəzasında 49,66 $^0/_0$, Şərur-Dərələyəz qəzasında 62,47 $^0/_0$, Yenibəyazid qəzasında 72,87 $^0/_0$, Üçmüəzzin qəzasında 60,96 $^0/_0$, Aleksandropol qəzasında 92,23 $^0/_0$[921].

İrəvan quberniyasında kəndlilər torpağı həyətyanı sahələr üzrə və icmalıqla becərmişdilər. Dövlət kəndliləri torpaqdan icmalıqla istifadə edirdilər və hər dörd ildən bir torpaqların bölgüsü həyata keçirilməli idi. Lakin torpaqların bölgüsü vaxtaşırı keçirilmir, bölgü icra olunduqda isə düzgün keçirilmirdı. Belə ki, torpağın yeni bölgüsü zamanı hər kəs əvvəlcə istifadə etdiyi əkinlərin sahibi olaraq qalırdı. Torpaq bölgüsünün keçirilməməsi üzündən kəndli pay torpaqları icma torpaqlarından həyətyanı torpaqlara çevrilir, yuxarı təbəqələrin icma torpaqlarını qəti surətdə bölüşdürmək cəhdi güclənirdi. Xüsusi çəpərlənmiş həyətyanı-malikanə torpaqlarına bağlar, üzümlüklər, süni surətdə əkilmiş meşələr, bostan və yonca sahələri daxil idi. İrəvan quberni-

---

918 Материалы по крестьянскому делу в Закавказском крае, Тифлис, 1876, отдел II, с.38; Историческая записка об управлении Кавказом, т.1, с.559.

919 Акопян Т.Х., Очерк истории Еревана, с.40.

920 Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, 1888, т.II, с.106.

921 Сборник статистических данных о землевладении и способах хозяйства в пяти губерниях Закавказского края, с.324.

yasında həyətyanı-malikanə torpaqlarının sahəsi zonalar üzrə bir-birindən fərqlənirdi. Araz çayının vadisini və onun axarlarını əhatə edən birinci isti zonada həyətyanı malikanələr kəndlilərin istifadə etdiyi torpaqların yarısını təşkil edirdi. İkinci dağətəyi zonada həyətyanı sahələr bir qədər azalır, icma torpaqları üstünlük təşkil edirdi. Dağlıq zonda isə havanın soyuq olması ilə əlaqədar olaraq torpaqların icmalıqla istifadəsi əsas yeri tuturdu. Burada həyətyanı sahə yalnız evə yaxın sahələr və bostan torpaqları daxil idi[922].

Lakin quberniyanın bəzi ərazilərində icma torpaqlarının həyətyanı-malikanə torpaqlarına çevrilməsi daha üstünlük təşkil edirdi. Məsələn, Ordubad dairəsində, Şərur-Dərələyəz qəzasının dağlıq dərələrində örüş yerlərindən başqa bütün təsərrüfat yerləri kəndlilərin həyətyanı malikanələrinə çevrilmişdi[923].

Mənbədə həyətyanı-malikanə torpaqlarının artması kimi iqtisadi, yerin səthi və fiziki şərtləri səbəb göstərilmişdi. Bəzi təsərrüfat sahələri-üzümçülük, bağçılıq və ipəkçilik sahələri var idi ki, onlara uzun müddət qulluq etmək lazım gəlirdi və belə sahələri icmalıqla idarə etmək mümkün deyildi. Buna görə də bağlar və ümumiyyətlə çəpərlənmiş təsərrüfat yerləri ayrı-ayrı şəxslər tərəfindən icma torpaqlarından kəsilib götürülürdü. Belə sahələrin olduğu ərazilərdə həyətyanı-malikanə torpaqları çoxluq təşkil edirdi. Lakin dağlıq ərazilərdə havanın sərt olması, əhalinin əsasən əkinçilik və maldarlıqla məşğul olması üzündən burada torpaqlar əsasən icmalıqla idarə olunurdu. Dağlıq ərazilərdə həyətyanı sahəni əhatə edən torpaqlar çox az idi və ikinci dərəcəli torpaq sahəsi hesab olunurdu[924].

İrəvan quberniyasının bəzi yerlərində yerin səthindən asılı olaraq torpaq sahəsi ayrıca həyətyanı-malikanə sahəsi kimi idarə olunurdu. Dağlıq qəzalarda və dərələrdə-Ciqin, Milli və Arpaçay

---

[922]Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.1, часть1, с.37.

[923]Yenə orada, c.38.

[924] Yenə orada.

dərələrində ümumiyyətlə nadir hallarda geniş torpaq sahələrinə rast gəlinirdi. Ona görə də ayrı-ayrı icma üzvünə torpaqdan xüsusi mülkiyyət kimi istifadə edilməsinə qadağa qoyulmuşdu[925].

Pambıqçılığın və üzümçülüyün inkişafı da həyətyanı-malikanə torpaqların artmasına səbəb olmuşdu. Belə ki, XIX yüzilliyin 60-cı illərində Amerikada vətəndaş müharibəsinin başlaması ilə əlaqədar olaraq Avropa bazarlarında pambığın bahalaşması və qıtlaşması ilə əlaqədar olaraq rus firmalarının Azərbaycan və eləcə də onun tərkib hissəsi olan İrəvan pambığına marağın artmasına səbəb oldu. Bu bitki yaxşı gəlir gətirdiyinə görə İrəvan quberniyasında Zəngibasar, Gərnibasar və Şərurda kəndlilər dənli bitkilərin əkildiyi torpaqlar hesabına pambıq sahələrini genişləndirirdilər. Nəticədə kəndlilər öz pay torpaqlarını hasarlayır və özünə sərf edən qaydada becərirdilər[926].

Üzümçülük də həyətyanı malikanələrin genişlənməsinə səbəb olurdu. Cənubi Qafqazda aksiz sisteminin tətbiq olunmasına qədər aztorpaqlı icmalarda kəndlilər üzümçülüyün inkişafına geniş fikir verirdilər. Belə yerlərdə taxıl bitkilərinin əkildiyi sahələrdə üzüm bağları salınır və üzümdən gələn gəlir kəndliləri təmin edirdi. Lakin aksiz sisteminin tətbiqi üzümçülüklə məşğul olan kəndliləri çətin vəziyyətə saldı. Bu sistem üzümçülüklə məşğul olan iri sahibkarların daha da varlanmasına səbəb oldu. Kəndlilər şərabçılıqla məşğul olan zavodlara aşağı qiymətə üzüm satmağa başladılar. Lakin bu qiymət kəndliyə sərf etmədiyindən üzüm ağaclarını kütləvi surətdə doğramağa başladılar[927].

Beləliklə, həyətyanı torpaq sahələri hər bir kəndlinin xüsusi mülkiyyəti hesab olunurdu. Kəndli onu sata, bağışlaya, hətta öz varislərinə vəsiyyət edə bilərdi.

İrəvan quberniyasında əsas torpaq sahələrindən biri də icma torpaqları hesab olunurdu. Bu torpaqlara əkin sahələri, örüş

---

[925] Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, 1887, т.1, часть1, s.39.
[926] Yenə orada, c.39-40.
[927] Yenə orada, s.40.

yerləri, meşəliklər və boş çöl sahələri daxil idi. İcma torpaqları əsasən ərazilərdən və ayrı-ayrı qəzaların vəziyyətindən asılı olaraq üstünlük təşkil edirdi. Məsələn, isti aran yerlərində əsas torpaq sahəsi olan icma torpaqlarından kəsib götürülmüş həyətyanı sahə əsas rol oynayırdı. Dağlıq ərazilərdə isə kiçik həyətyanı və bostan sahələrindən başqa bütün torpaqlar icmalıqla istifadə olunurdu. Bundan əlavə, dağlıq ərazilərdə əsas yeri maldarlıq tutduğundan, burada icma torpaqları əsas yeri tuturdu. İrəvan quberniyasında icma torpaqlarının olduğu ərazilərdə ayrı-ayrı icma üzvü icmaya məxsus sahələrdən mülk kimi istifadə edə bilərdi. Məsələn, mal-qaraların otarıldığı örüşlər müəyyən dərəcədə kəndlilərin müəyən dərəcədə mülkiyyəti sayılırdı. Bu hüquqlar İrəvan quberniyasına xas olan hüquqlar idi və əvvəllər də geniş yayılmışdı[928].

İrəvan quberniyasında icarəyə götürülmüş torpaq sahələri də vardı. Torpaqları nəinki aztorpaqlı dövlət kəndliləri, eyni zamanda varlı sahibkarlar, həmçinin örüş yerləri az olan maldarlar icarəyə götürürdülər. Lakin icarədarların əksəriyyətini aztorpaqlı kəndlilər təşkil edirdilər. Ümumiyyətlə, kəndliləri torpaqları icarə götürməyə məcbur edən əsas səbəb aztorpaqlılıq və suyun az olması idi. Əksəriyyət kəndlərdə pay torpaqları o qədər az idi ki, əldə olunmuş məhsul kəndli ailələrini təmin etmirdi. Ona görə də, kəndlilər torpaq icarə götürmək məcburiyyətində idi. Cənubi Qafqazda keyfiyyətindən asılı olaraq icarəyə götürülmüş torpaq sahələri üç qrupa bölünmüşdü. Birinci qrupa xəzinə kəndlilərinin kifayət qədər icarəyə götürdüyü torpaq sahələri daxil idi. İrəvan quberniyasında birinci qrupa Naxçıvan qəzasının qərb hissəsi, Şərur-Dərələyəz qəzasının şimal-şərq hissəsi, Yenibəyazid, Aleksandropol və Üçmüəzzin qəzaları daxil idi. İkinci qrupa dövlət kəndlilərinin məhdud qaydada icarəyə götürdüyü torpaq sahələri daxil idi. İrəvan qəzası bu sahəyə daxil idi. Üçüncü qrupa isə Şərur-Dərələyəz qəzasının qalan hissəsi daxil idi. Qeyd

---

[928]Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, 1887, т.1, часть1, с.843-49.

edilən məlumatlara birinci qrupa kəndlərin yalnız 33 $^{0}/_{0}$-i, ikinci qrupa daxil olan kəndlərin 58 $^{0}/_{0}$-i, üçüncü qrupa 9 $^{0}/_{0}$-i tədqiq olunan kəndlər daxil idi[929].

İrəvan quberniyasında qəzaların bəzi hissəsində icarəyə götürülmüş torpaq sahəsi yox idi. Məsələn, belə yerlərə Şərur qəzasının şimal-qərb və şərq hissəsi, Şərur-Dərələyəz qəzasının qərb hissəsi və Dərələyəzin özü daxil idi[930].

Əldə olunmuş məlumatlarda qəzalar üzrə icarəyə götürülmüş torpaq sahələri bunlar idi: İrəvan qəzası-icarə kəndlərinin sayı 17, icarəyə götürülmüş torpaq sahəsi 549,94 desyatin; Sürməli qəzası-icarə kəndlərinin sayı-5, icarəyə götürülmüş torpaq sahəsi 220 desyatin; Yenibəyazid qəzasının cənub-qərb hissəsində yerləşən icarə kəndlərinin sayı 5, icarəyə götürülmüş torpaq sahəsi 300 desyatin; Aleksandropol qəzasının Pəmbək dairəsinin və Şörəyel dairəsinin şimal hissəsinə daxil olan kəndlərin sayı 4, icarəyə götürülmüş torpaq sahəsi 404,23 desyatin; Üçmüəzzin qəzasının icarə kəndlərinin sayı 6, icarəyə götürülmüş torpaq sahəsi isə 552,5 desyatin[931].

İcarədar kəndlilər torpağın yarısını icarəyə götürür, yaxud məhsulun $^{19}/_{30}$-na və yaxud 63 $^{1}/_{3}$-ə sahib olurdu. Elə kəndlər var idi ki, kəsib götürülmüş torpaqlar kifayət qədər idi. Lakin susuzluqdan əziyyət çəkirdilər[932].

Torpaqların böyük əksəriyyəti ayrı-ayrı varlı ailələr, bir qrup kəndlilər tərəfindən və yaxud az da olsa bütöv icma tərəfindən icarəyə götürülürdü. Muzdlu fəhlə işlədə bilməyən, iş heyvanı və əmək alətləri olmayan təsərrüfat sahibi onu adətən müxtəlif şərtlər daxilində öz həmkəndlisinə icarəyə verirdi[933].

İcarə torpaqları müxtəlif şərtlər-pul və natural vergi əsasın-

---

[929] Аренда владельческой земли государственными крестянами в Закавказье, AMEA TİEA, iş.4027, v.11-12.
[930] Yenə orada, v.13.
[931] Yenə orada.
[932] Yenə orada, v.53-54.
[933] Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.1, часть1, с.55.

da götürülürdü. İcarə haqqı isə əsasən torpaq sahibinin və icarədarın razılığı əsasında təyin olunurdu. Bəhs etdiyimiz dövr ərzində müxtəlif illərdə İrəvan quberniyasında torpaqdan alınan icarə haqqında məlumatlar mənbələrdə öz əksini tapmışdı. Məlumata görə, XIX yüzilliyin 80-ci illərinin axırlarında İrəvan quberniyasında ayrı-ayrı qəzalar üzrə müxtəlif torpaq sahələrindən pulla icarə haqqının məbləği belə idi: İrəvan qəzasında 1 desyatin şumlanmış əkin sahəsinin icarə haqqı 42 rubl 37 qəpik, örüş yeri 22 qəpik, digər icarə edilmiş mülklərin orta icarə haqqı 21 rubl 30 qəpik; Sürməli qəzasında 5 rubl 33 qəpik, 1 desyatin biçənək 8 rubl, digər icarə edilmiş mülklərin orta icarə haqqı 6 rubl 67 qəpik; Üçmüəzzin qəzasında 41 rubl 67 qəpik, 1 desyatin biçənək 10 rubl 64 qəpik, digər icarə edilmiş mülklərin orta icarə haqqı 26 rubl 16 qəpik; Aleksandropol qəzasında 1 desyatin şumlanmış əkin sahəsi 4 rubl 84 qəpik, digər icarə edilmiş mülklərin orta icarə haqqı 4 rubl 84 qəpik; Naxçıvan qəzasında 1 desyatin əkin sahəsi 10-12 rubl, bostandan 30-40 rubl, Yenibəyazid qəzasında əkin sahəsi 11 rubl 50 qəpik, digər məlumata görə 1 desyatin 10 rubl, bostandan 20-25 rubl; Şərur-Dərələyəz qəzasında isə o məlumdur ki, yalnız örüş yerlərindən hər desyatinə görə 52 qəpik, digər məlumata görə isə 23 qəpik icarə haqqı alınırdı[934].

Rəqəmlərdən göründüyü kimi icarə haqqı dövlət kəndliləri üçün baha idi. Xüsusilə əkin sahələri və çəltik sahələrinin icarə haqqı daha yüksək idi. Bu sahələrdən alınan icarə haqqı 5-72 rubl arasında idi. Sonrakı yerin icarə haqqı 10 rubl 64 qəpik olan biçənək yerləri, daha sonra icarə haqqı 20-52 qəpik arasında olan örüş yerləri tuturdu[935].

1902-ci ildə İrəvan quberniyasında icarəyə götürülmüş torpağın qiyməti isə mövsümə görə dəyişmişdi. Məsələn, həmin

---

[934] Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.1, часть1, с.56; Материалы по вопросу о распространении действий крестьянского поземелного Банка на Закавказский край, с.278.

[935]Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.1, часть 2, с.56-57.

ildə quberniyada icarə haqqı belə idi: Payızlıq suvarma torpağının qiyməti-22,4 rubl, suvarılmamış torpaqın qiyməti 9 rubl; yazlıq suvarılmış torpağın qiyməti 23,7 rubl, suvarılmamış torpağın qiyməti isə 9,2 rubl[936].

1912-ci ildə isə icarə haqqı daha da çoxalmışdı. Həmin ildə quberniyada icarə haqqı belə idi: payızlıq suvarma torpağının qiyməti-37,0 rubl, suvarılmamış torpağın qiyməti 16,1 rubl; yazlıq suvarılmış torpağın qiyməti 42,5 rubl, suvarılmamış torpağın qiyməti isə 16,2 rubl[937]. 1902-ci və 1912-ci illər stastistik məlumatlardan görünür ki, torpağın icarə haqqı ildən-ilə çoxalmışdı.

Haqqı natural şəkildə ödənilən icarəyə götürülmüş torpaq sahələri də var idi. Belə torpaq sahələrinin bütün işini icarədar özü axıra qədər görürdü. O, əvvəldən başlayaraq torpağı özü şumlayır, əkir, sulayır və yetişmiş məhsulu yığırdı. Burada torpağın əsl sahibi heç bir iş görmür və yalnız icarə haqqı alırdı. Natural şəklində alınan haqq quberniya üzrə müxtəlif idi. İrəvan quberniyasında torpağın keyfiyyətindən asılı olaraq icarə haqqı məhsulun $^{4}/_{30}$, $^{5}/_{30}$ və yaxud $^{19}/_{30}$ qədərində idi[938].

İcarə adətən qısa müddətli olurdu, lakin nadir hallarda uzunmüddətli icarəyə də rast gəlmək olardı. Qısa müddətli icarə müqaviləsi adətən 1-3, uzunmüddətli isə 9 ilə bağlanırdı[939].

Mənbələrdə elatlar arasında da mal-qaranın otarılması üçün icarə haqqının məbləği barəsində məlumatlar öz əksini tapmışdı. XX yüzilliyin əvvəllərində iribuynuzlu mal-qaranın yaylaqda hər birinin icarə haqqı 5 qəpiklə 60 qəpik, qışlaqda isə 5 qəpiklə 2 rubl, xırdabuynuzlu mal-qaranın isə qışlaqda icarə haqqı 2 qəpiklə 20 qəpik, yaylaqda isə 1,5 qəpiklə 20 qəpik arasında olmuşdu[940].

---

936 Авелиани С.А., Крестьянский вопрос в Закавказье, т.4, с.8.
937 Yenə orada.
938 Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.1, часть II, с.57; Авелиани С.А., Крестьянский вопрос в Закавказье, т.4, с.9.
939 Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.1, часть 2, с.57.
940 Авелиани С.А., Крестьянский вопрос в Закавказье, т.4, с.10.

İrəvan quberniyasında bir neçə ailənin, həmkəndlinin öz istəkləri ilə əkin sahələrini birləşdirməsi əsasında istifadə olunan təsərrüfat sahələri də vardi. Buna Azərbaycan türkcəsində **şərikli idarəetmə** deyilirdi. Belə təsərrüfatlar ciddi səbəblərdən yaranırdı. Onun yaranmasının əsas səbəbi hər hansı bir ailənin ayrılqda təsərrüfatı idarə edə bilməməsi, aztorpaqlılıq və yaxud torpaqsız olması, suvarmanın gecikməsində və s. idi. Şərikli idarəetmə bir tərəfdən torpaq sahibinin və su sahibinin maraqlarına, yaxud kəndlilər arasında bölüşdürülmüş vergi və mükəlləfiyyətlərə əsaslanırdı. Belə ki, hər hansı bir ailə heç kimin köməyi olmadan keçinirdisə o, öz təsərrüfatını müstəqil idarə edə bilirdi. Yox əgər ailələrin maraqları üst-üstə düşürdüsə, müəyyən işlərdə çətinliklər yaranırdısa, yaxud görülən işlər hər bir ailənin imkanından üstün idisə kəndlilər kiçik icmada-şərik adlanan cəmiyyətdə birləşirdilər. Məsələn, kiçik cəmiyyət və yaxud süni suvarma qrupu təşkil edənlər təsərrüfatlarını genişləndirir, sudan düzgün istifadə etmək qaydasını tənzimləyir, vergi və mükəlləfiyyətləri öz aralarında bölüşdürürdülər. Sonra onlar torpaq və örüş yerləri icarəyə götürüdülər. Şərikili idarəetmə əsasən mövcümü xarakter daşıyırdı, hər il payızda, yazda və yaxud suvarma vaxtı yaranırdı. Bəzi şəriklərin birləşməsi daha güclü səbəbə əsaslanırdısa, bu cür təsərrüfat sahələri uzunmüddətli də ola bilərdi[941].

Könülü yaranan təsərrüfat kəndli üçün çox əlverişli idi. Belə ki, kəndli hər cür məhsul əkə bilirdi. Məsələn, bura daxil olan kəndlinin biri buğda, digəri arpa və digərləri isə pambıq və bostan bitkiləri əkirdi. Beləliklə könüllü birləşdirilmis belə təsərrüfatda yoxsul kəndli lazım olan məhsulu əldə edə bilirdi.

Şərikli təsərrüfat sahəsinə 2, 3 və bəzi hallarda 4 ailə daxil olurdu. Bu təsərrüfata daxil olan hər ailənin hüquq və vəzifəsi eyni idi. Onlar çöl işlərini bir-birinə xəbər verərək görürdülər[942].

---

[941] Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.1, часть 2, с.50-52.
[942] Yenə orada, s.53.

## 5.3. Vergi və mükəlləfiyyətlər

XIX yüzilliyin ikinci yarısı-XX yüzilliyin əvvəllərində Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan quberniyasında da həm xəzinə, həm də sahibkar kəndliləri vergi vermiş və müxtəlif mükəlləfiyyətlər yerinə yetirmişdilər. Bu vergilər hər evdən, adambaşına, məhsuldan, torpaqdan, şəhərlərdə daşınmaz əmlakdan, fabrik və zavodların yerləşdiyi sahələrdən, hərbi mükəlləfiyyətə görə müsəlmanlardan, ayrı-ayrı nazirliklərin idarələrindən, aksizdən və s. sahələrdən alınmışdı. Ümumilikdə bu vergilər smetada qabaqcadan nəzərdə tutulmuş və nəzərdə tutulmamış vergilərə bölünmüşdür. Eyni zamanda İrəvan quberniyasının əhalisi müxtəlif mükəlləfiyyətlər yerinə yetirmişdilər. Bu sahəyə mənzil, yol, at-araba və hərbi mükəlləfiyyətlər daxil olmuşdur.

Əvvəllər xəzinəyə vergilər məhsulla ödənilmiş və sonradan isə pul vergisi ilə əvəz olunmuşdur. Vergi sistemini nizama salmaq üçün çar icra orqanları dəfələrlə islahat keçirmək məcburiyyətində qalmışdı.

İrəvan quberniyasında mövcud olmuş vergi sistemini təsvir etməzdən əvvəl çar Rusiyasının işğaldan sonra bu sahədə həyata keçirdiyi islahatlara nəzər yetirmək lazımdır. Qeyd etmək lazımdır ki, işğaldan 1836-cı ilə qədər dövr ərzində İrəvan və Naxçıvan xanlıqları ərazisində yaranmış "Erməni vilayəti"ndə vəziyyətin ağırlığı ilə əlaqədar olaraq vergi sistemi xanlıqlar dövründə olduğu kimi saxlanmışdı. Lakin köhnə gəlir sisteminin saxlanması çar hakimiyyət orqanlarını narahat edirdi. Məhz bu səbəbdən xəzinənin gəlirini artırmaq üçün "Erməni vilayəti"nin rəisi vergi sistemində dəyişiklik üçün yeni layihə irəli sürmüşdü. Bu layihə 1836-cı il iyunun 5-də çar tərəfindən təsdiq olundu[943]. Vilayətin yeni vergi sistemi 6 illik (1836-1842) bir dövrü əhatə etmişdi. Bu qanuna əsasən, yeni vergi sistemi həm pulla, həm də natural şəkildə ödənilməli idi. Hər evə pulla 7 rubl müəyyənləş-

---

[943] Колониальная политика Российского империи царизма в Азербайджане в 20-60-х гг. XIX в., т.1, с.100-101; АКАК, т.IX, с.13.

dirilmişdi. Bu vergi 3 hissədən ibarət olmalı idi: a) tüstü pulu (yəni hər evdən)-2 rubl; b) töycü pulu-3 rubl 50 qəpik; v) zemski vergisi-1 rubl 50 qəpik[944].

Yeni vergi qanununa əsasən, "Erməni əyaləti"ndə xəzinəyə həm məhsulla, həm də pulla daxil olan verginin miqdarı belə olmuşdur:

İrəvan qəzası üzrə:

1. Hər evdən alınan vergi (tüstü pulu): a) 11386 ailənin hər birindən 2 rubl 50 qəpik alınmaqla 28465 rubl; b) 3776 ailənin hər birindən 2 rubl alınmaqla 7552 rubl; v) 8 xəzinə- mülkədar ailəsinin hər birindən 10 rubl; q) 3289 ailənin hər birindən 5 rubl alınmaqla 16445 rubl. Ümumilikdə, xəzinəyə bu vergidən 52472 rubl gəlir daxil olmuşdur; 2. Məhsulla birlikdə torpaqdan pulla alınan vergi: a) xəzinə kəndlərindən 7368 rubl 50 qəpik; b) mülkədar kəndlərindən 962 rubl 50 qəpik; Türkiyədən köçürülən ermənilərdən alınan 13705 rubl 75 qəpik. Ümumilikdə bu vergidən xəzinəyə 22036 rubl 75 qəpik vergi daxil olmuşdur; 3. a) Məhsuldan pulla alınan vergi 90017 rubl 29 qəpik; b) əkinçiliklə məşğul olan köçərilərdən 2582 rubl 82 qəpik; v) müxtəlif xırda məhsuldan alınan 2340 rubl 32 qəpik. Ümumilikdə bu vergidən xəzinəyə 169449 rubl 18 qəpik vergi daxil olmuşdur[945].

Naxçıvan qəzası üzrə:

1. Hər evdən alınan vergi: a) 858 ailədən 2 rubl 50 qəpik alınmaqla 2145 rubl; b) 3389 ailədən 2 rubl alınmaqla 6778 rubl; v) 233 ailədən 5 rubl alınmaqla 1165 rubl; q) 343 ailədən 5 rubl alınmaqla 1165 rubl; d) məhsuldan pulla alınan verginin miqdarı 20938 rubl 88 qəpik; e) əkinçiliklə məşğul olan 233 köçəri ailəsindən alınan 523 rubl 76 qəpik; j) xırda məhsuldan alınan 345 rubl 81 qəpik. Ümumilikdə, yeni vergi qanununa görə, Naxçıvan qəzasından xəzinənin xeyrinə 33515 rubl 45 qəpik vergi toplanmışdır[946].

---

[944] Заваров С., Опыт исследования сельского хозяйства хлебородного района Эриванской и Карсской области, с.356.

[945]Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.1, часть 3, с.90.

[946] Свод материалов по изучению экономического быта государственных

Beləliklə, 1836-1842-ci illərdə "Erməni əyaləti"ndə tətbiq olunan yeni vergi qanununa görə, xəzinə və yaxud mülkədar torpaqlarında məskunlaşmış 20 minə yaxın ailədən xəzinəyə 202964 rubl 63 qəpik gəlir daxil olmuşdur.

Yeni qanunla xəzinəyə daxil olan verginin miqdarı çar hakimiyyət orqanlarını təmin etmirdi. İrəvan quberniyasından alınan vergini daha da çoxaltmaq üçün 1851-ci il 8 iyunda yeni qanun verildi[947]. Bu qanun əsasən torpaq sahibləri ilə kəndlilər arasında qarşılıqlı münasibətləri tənzimləmək üçün qəbul edilmişdi. Qanunda həm də pul və natural verginin miqdarı da göstərilmişdir. Bu qanun haqqında yuxarıdakı yarımfəsildə ətraflı bəhs edilmişdir. Lakin bu qanun Krım müharibəsi ilə əlaqədar olaraq həyata keçmədi.

Əvəzində dövlət kəndlilərinin xəzinəyə ödəyəcəkləri vergilər haqqında 1851-ci il oktyabrın 23-də yeni qanun verildi. Bu qanun 1852-ci ildən İrəvan quberniyasına da şamil edilmişdi. Qanuna görə, İrəvan quberniyasında dövlət kəndliləri xəzinəyə ayrı-ayrılıqda tüstü pulu və əkin, biçənək, otlaq sahələrindən, dəyirmandan və xırda gəlir yerlərindən istifadəyə görə isə töycü verməli idilər. Vergilər həm şəhər, həm də kənd əhalisindən alınırdı. Alınan töycünün sayı 50-ə çatırdı. Xəzinəyə daxil olan gəlirin və məxaricin miqdarı haqqında Zaqafqaziya diyarının (Cənubi Qafqaz-E.Q.) Dövlət Əmlak İdarəsinin 1856-cı ildə verdiyi məlumatında İrəvan quberniyasında dövlət kəndlilərinin hər evə görə (tüstü pulu) xəzinəyə ödədikləri verginin miqdarı qəzalar üzrə belə göstərilmişdir: İrəvan qəzasından 119659 rubl 68,5 qəpik; Yenibəyazid qəzasından 29795 rubl 23,5 qəpik; Naxçıvan qəzasından 23350 rubl 62,5 qəpik; Ordubad qəzasından 20321 rubl 14,75 qəpik; Aleksandropol qəzasından 21229 rubl 50 qəpik. Ümumilikdə həmin ildə xəzinəyə gələn tüstü pulunun miqdarı 213356 rubl 21,25 qəpik olmuşdur. Burada töycünün miqdarı da müəyyənləşdirilmişdi. Töycüdən  xəzinəyə hər əkin, biçə-

---

крестьян Закавказского края, т.1, часть 3, с.90.

[947] АКАК, т.XII, с.200-204.

nək, otlaq sahələrindən istifadəyə görə 127 rubl 20 qəpik, hər dəyirman və xırda gəlir sahələrindən isə 202 rubl 20 qəpik gəlir daxil olmuşdur[948].

Lakin İrəvan quberniyasında vergilərin ağırlığından xəzinəyə daxil olan müxtəlif vergilərdə hər il kəsir olurdu. Məsələn, 1882-ci il məlumatına görə, həmin il quberniya üzrə xəzinəyə çatacaq tüstü pulunun miqdarı 362589 rubl 87 qəpik müəyyənləşdirilmiş, 1881-ci ildən isə 53198 rubl 24 qəpik tüstü pulu vergisinin qalığı qalmışdır. Lakin hesabat ilində 343445 rubl 64 qəpik, keçən ildən qalan vergi kəsirindən isə 17624 rubl 78 qəpik vergi yığılmışdır. Nəticədə, 1882-ci ildə nəzərdə tutulmuş tüstü pulundan 19144 rubl 54 qəpik, köhnə vergi qalığından isə 35500 rubl 11 qəpik az vergi toplanmışdır[949].

1882-ci ildə xəzinəyə çatacaq zemstvo vergisindən də bir xeyli kəsir qalmışdır. Həmin ildə zemstvo vergisindən xəzinəyə ümumilikdə 441896 rubl 85 qəpik vergi daxil olmalı idi. Bu vergiyə quberniya üzrə 1881-ci ildən qalmış 96886 rubl 53 qəpik vergi də daxil idi. Nəticədə, 1882-ci ildə zemstvo vergisindən 420007 rubl 1 qəpik, keçən ilki qalıqdan isə 86515 rubl 70 qəpik vergi yığılmışdır. Beləliklə, 1883-cü il yanvarın 1-ə olan məlumata görə, keçən ilki vergidən 10847 rubl 16 qəpik, ondan əvvəlki illərdən isə 11061 rubl 33 qəpik kəsir qalmışdır[950].

Yuxarıda qeyd edilən vergilərdən əlavə, xəzinəyə müxtəlif adda vergilər də daxil olmuşdur. Həmin il vergi qalığı ilə birlikdə xəzinəyə 267006 rubl 31 qəpik çatmalı idi. Nəticədə, müxtəlif adlı vergilərdən 59244 rubl 43 qəpik, qalıqdan isə 38042 rubl 43 qəpik vergi yığılmışdır. 1883-cü il yanvarın 1-ə olan məlumata görə, hesabat ili vergisindən 57660 rubl 62 qəpik, vergi qalığından isə 112058 rubl 54 qəpik qalq qalmışdır[951].

1882-ci ilin statistik məlumatında şəhərlərin gəliri və mə-

---

948 АКАК, т.XI, с.846-847.
949 Кавказский календарь на 1884, отдел III, с.292.
950 Yenə orada.
951 Yenə orada.

xarici haqqında da məlumatlar öz əksini tapmışdır. Şəhərlərdən xəzinəyə az miqdarda gəlir daxil olmuşdur. Həmin məlumatda İrəvan şəhərinin gəliri 2960 rubl 80 qəpik, Ordubad şəhərinin gəliri 1887 rubl 84 qəpik, Aleksandropol şəhərinin isə gəliri 4127 rubl 56 qəpik göstərilmişdir[952].

Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan İrəvan quberniyasında xalqın vəziyyətinin ağırlığından vergilərin kəsirlə yığılması çar hakimiyyət orqanlarını yeni-yeni vergi sistemi tətbiq etməyə məcbur edirdi. Nəticədə, 1883-cü il aprelin 26-da "Qafqaz və Zaqafqaziya diyarında tüstü pulu vergisi və digər vergilər haqqında" yeni qanun qəbul edildi. Bu qanunla da xəzinəyə çatacaq vergi 3 hissədən – tüstü pulu, torpaq və zemski vergisindən ibarət olmalı idi. İrəvan quberniyasında 49 adda müxtəlif tüstü pulu sayı müəyyənləşdirilmiş, hər evdən alınan tüstü pulunun miqdarı isə 1 rubl 75 qəpiklə 10 rubl arasında olmalı idi. Lakin XIX yüzilliyin sonlarına yaxın Yenibəyazid və Aleksandropol qəzalarında bəzi tüstü pulunun miqdarı 8 rubl 80 qəpik təyin edilmişdir[953].

İrəvan quberniyasında zemstva vergisinin sayı 8, hər evdən alınan verginin miqdarı isə 1 rubl 25 qəpiklə 7 rubl 80 qəpik arasında olmuşdur[954].

Yeni qanunla xəzinəyə çatacaq vergilərin ümumi miqdarı göstərilsə də, kəndlilərin dərəcələrinə görə xəzinəyə ödəyəcəkləri vergilər müxtəlif olmuşdur. Məsələn, 44825 evdən ibarət olan, xəzinə torpaqlarında yaşayan kəndlilərin xəzinəyə ödəyəcəkləri vergi 1 rubl 50 qəpiklə 10 rubl arasında, 12964 evdən ibarət olan, sahibkar torpaqlarında yaşayan kəndlilər xəzinəyə 1 rubl 75 qəpiklə 8 rubl arasında, 628 evdən ibarət Kəngərli tayfası isə 2

---

[952] Кавказский календарь на 1884, отдел III, с.292.

[953] Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.1, часть 3, с.129; Заваров С., Опыт исследования сельского хозяйства хлебородного района Эриванской и Карсской области, с.356.

[954] Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.1, часть 3, с.129.

rublla 2 rubl 50 qəpik arasında müəyyənləşdirilmişdir[955].

1883-cü ildə İrəvan quberniyasında xəzinəyə çatan ayrı-ayrı vergilərin məbləği belə idi: tüstüpulu (evbaşına alınan) vergisi-321033 rubl 35 qəpik (bunun 316210 rubl 58 qəpiyi bu ilin vergisi, 4822 rubl 77 qəpiyi keçən ildən qalma vergi qalığı idi); zemski vergisi- 421299 rubl (bunun 409159 rubl 76 qəpiyi bu ilin vergisi, 12139 rubl 75 qəpiyi keçən ildən qalma vergi qalığı idi); quberniya rəisinin cavabdehliyində olan digər vergilər - 62867 rubl 3 qəpik (bunun 31395 rubl 17 qəpiyi bu ilin vergisi, 31471 rubl 86 qəpiyi keçən ildən qalma vergi qalığı idi)[956].

Hesabat ilində xəzinəyə aksiz vergisindən də gəlir daxil olmuşdur. Bu tütünə, içkilərə və duza tətbiq olunmuş əlavə vergilər idi. İrəvan quberniyasında xəzinəyə tütündən 9147 rubl 97,5 qəpik (keçən ilkindən 899 rubl 40 qəpik az), içkilərdən 81901 rubl 24 qəpik (keçən ilkindən 4343 rubl 5 qəpik az) və duzdan 41045 rubl 51 qəpik (keçən ilkindən 59699 rubl 36 qəpik az) vergi daxil olmuşdur[957].

Həmin qayda ilə 1884-cü ildə də İrəvan quberniyası üzrə vergi yığılmışdır. Hesabat ilində İrəvan quberniyasında xəzinəyə çatan ayrı-ayrı vergilərin məbləği belə idi: tüstüpulu (evbaşına alınan) vergisi-383452 rubl 21 qəpik (bunun 345104 rubl 61 qəpiyi bu ilin vergisi, 38347 rubl 60 qəpiyi keçən ildən qalma vergi qalığı idi); zemski vergisi - 468965 rubl 80 qəpik (bunun 435533 rubl 97 qəpiyi bu ilin vergisi, 33431 rubl 83 qəpiyi keçən ildən qalma vergi qalığı idi); quberniya rəisinin cavabdehliyində olan digər vergilər - 23501 rubl 84 qəpik (bunun 24705 rubl 61 qəpiyi bu ilin vergisi, 8796 rubl 23 qəpiyi keçən ildən qalma vergi qalığı idi)[958].

Hesabat ilində xəzinəyə aksiz vergisindən də gəlir daxil olmuşdur. Bu tütünə, içkilərə və duza tətbiq olunmuş əlavə vergilər

---

955 Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.1, часть 3, с.130-131.
956 Обзор Эриванской губернии за 1883 г., с.35.
957 Yenə orada, s.35-36.
958 Обзор Эриванской губернии за 1884 г., с.17-20.

idi. İrəvan quberniyasında xəzinəyə tütündən 7056 rubl 57 qəpik (keçən ilkindən 2091 rubl 40,5 qəpik az), içkilərdən 77947 rubl (keçən ilkindən 3954 rubl 24 qəpik az) və duzdan 37433 rubl 91 qəpik (keçən ilkindən 2429 rubl 79 qəpik az) vergi daxil olmuşdur[959].

İrəvan quberniyasında tiyul torpaqlarında yaşayan kəndlilər də vergi ödəməli idilər. Lakin onlar vergini xəzinəyə deyil, tiyul sahibinə verməli idilər. XIX yüzilliyin 80-ci illərin ortalarında quberniyada tiyul torpaqlarında yaşayan 2587 ev qeydə alınmış, bunlardan 1424 ev sahibkar kəndlərində, 1163 ev isə Üçmüəzzin kilsəsinə məxsus kəndlərdə yerləşmişdi. Onlar öz sahibkarlarına məhsulun $^{3}/_{10}$-ü və 2 rubl 50 qəpik pul vergisi verməli idilər[960]. Beləliklə, yeni vergi qanunu ilə kəndlilərin kateqoriyasından asılı olaraq hər evə görə aşağı verginin ümumi miqdarı 3 rubl, yuxarı verginin miqdarı isə 17 rubl 80 qəpik təyin olunmuşdur[961].

Yeni qanuna görə, XIX yüzilliyin 80-ci illərinin ortalarında İrəvan quberniyasınada hər evdən alınan pul verginin ümumi miqdarı 20035362 rubl olmuşdur. Bu ümumi verginin miqdarı ayrı-ayrı qəzalar üzrə belə idi[962]:

| Qəzalar | Verginin rublla miqdarı | $^{0}/_{0}$-lə |
|---|---|---|
| İrəvan | 27420, 32 | 13,69 |
| Naxçıvan | 6798 | 3,39 |
| Sürməli | 22589,83 | 11,28 |
| Şərur-Dərələyəz | 17478,1 | 8,72 |
| Aleksandropol | 42758,50 | 21,34 |
| Yenibəyazid | 51820,18 | 25,86 |
| Üçmüəzzin | 31488,64 | 15,72 |
| Yekun | 200353,62 | 100 |

İrəvan quberniyasında qeydə alınan bu vergiyə elatlardan

---

959 Yenə orada, s.20-21.

960 Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.1, часть 3, с.132.

961 Yenə orada, s.129-130.

962 Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.1, часть 3, с.143-144.

alınan pul vergisi də daxil idi. Elatlar Sürməli, Üçmüəzzin, İrəvan və Şərur-Dərələyəz qəzalarında qeydə alınmışdı. Quberniya üzrə elat ailələrindən alınan verginin miqdarı 14108 rubl 50 qəpik olmuşdur. Qəzalar üzrə isə alınan vergi belə idi: Sürməli qəzasında-7776 rubl; İrəvan qəzasında-2726 rubl 50 qəpik; Şərur-Dərələyəz qəzasında-196 rubl; Üçmüəzzin qəzasında-3410 rubl[963].

Göstərilən bu statistik məlumatda quberniyanın qəzaları üzrə ayrı-ayrılıqda hər evə, hər kişiyə və yaxud hər qadın və kişiyə birlikdə nə qədər vergi düşdüyü də göstərilmişdir. İrəvan quberniyasında göstərilən vergi belə idi[964]:

| Qəzalar | Hər evə (rublla) | Hər kişiyə (rublla) | Hər iki cinsə (rublla) |
|---|---|---|---|
| İrəvan | 5,96 | 1, 45 | 0,78 |
| Naxşıvan | 5,32 | 1,28 | 0,70 |
| Aleksandropol | 3,50 | 0,80 | 0,42 |
| Yenibəyazid | 5,96 | 1,20 | 0,62 |
| Üçmüəzzin | 5,06 | 1,15 | 0,61 |
| Sürməli | 4,66 | 1,07 | 0,56 |
| Şərur-Dərələyəz | 5,69 | 1,20 | 0,65 |

İrəvan quberniyasında tüstü pulundan əlavə, torpaq vergisi də həmin ilin statistikasında öz əksini tapmışdır. XIX yüzilliyin 80-ci illərinin ortalarında İrəvan quberniyasından xəzinəyə 68075 rubl 7 qəpik torpaq vergisi daxil olmuşdur. Hər qəzaya görə alınan verginin miqdarı isə belə idi[965]:

| Qəzalar | Torpaq vergisinin rublla miqdarı | $^{0}/_{0}$-lə |
|---|---|---|

[963]Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.1, часть 3, с.144.

[964] Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.1, часть 3, с.145-146.

[965] Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.1, часть 3, с.149.

| | | |
|---|---|---|
| İrəvan | 24567,77 | 36,09 |
| Naxçıvan | 9210,34 | 13,53 |
| Sürməli | 7903,19 | 11,61 |
| Şərur-Dərələyəz | 12598,53 | 18,51 |
| Yenibəyazid | 202,20 | 0,29 |
| Üçmüəzzin | 13596,04 | 19,97 |
| Yekun | 68075,07 | 100 |

Cədvəldən göründüyü kimi, torpaq vergisinə elatlardan alınmış 208 rubl 95 qəpik də daxil idi. Bundan əlavə, həmin il hesabatına görə, Aleksandropol qəzasından torpaq vergisi alınmamışdır.

Vergilər ildən-ilə artırılırdı. Mənbədə XIX yüzilliyin 80-ci illərinin ikinci yarısında İrəvan quberniyasında bütün vergi növlərində artım müşahidə olunmuş, burada həm şəhər, həm də kənd əhalisinin ödədikləri vergilər göstərilmişdir. Məsələn, kəndlərdə məskunlaşan 59721 evdən 236205 rubl tüstü pulu, 429450 rubl zemski vergisi, 99014 rubl torpaq vergisi, şəhərlərdə məskunlaşan 8874 evdən 27998 rubl tüstüpulu, 11867 zemski vergisi, ümumilikdə isə quberniya üzrə hər üç vergi növündən 754669 rubl vergi alınmışdır[966].

Arxiv materiallarında İrəvan quberniyasında olan şəhərlərin gəliri və məxarici, ehtiyat kapitalı, vergi börcu haqqında maraqlı məlumatlar vardır. Aşağıdakı cədvəldə bunu əyani müşahidə etmək olar[967]:

| Şəhərlər | Ehtiyat kapital (rubl və qəpiklə) | Vergi borcu (rubl və qəpiklə | Mədaxil (rubl və qəpiklə | Məxaric (rubl və qəpiklə) | az verginin 1884-cü il məxarici ilə ödənilməsi (rubl və qəpiklə) |
|---|---|---|---|---|---|
| İrəvan | - | 32292 rub., 69 | 62812 rub., 13 q. | 71008 rub., 33 q. | 8496 rub., 20 q. |

---

[966] Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.1, часть 3, с.133.

[967] Развитие Еревана после присоединения Восточной Армении к России. Сборник документов 1801-1917, с.125.

| | | | | | |
|---|---|---|---|---|---|
| | | q. | | | |
| Naxçıvan | 2666 rub., 4 q. | 1710 rub., 26 q. | 7998 rub., 7 qəp. | 7862 rub., 8 q. | 135 rub., 99 q. |
| Ordubad | 1779 rub., 86 q. | 3159 rub., 64 q. | 5919 rub., 14 q. | 9227 rub., 33 q. | 3308 rub., 19 q. |
| Aleksandropol | 10145 rub., 66 q. | 19333 rub., 74 q. | 38036 rub., 46 q. | 34942 rub., 64 q. | 3093 rub., 82 q. |
| Yenibəyazid | 17793 rub., 15 q. | 423 rub., 32 q. | 3009 rub., 23 q. | 3513 rub., 44 q. | 504 rub., 21 q. |
| Yekun | 32384 rub., 71 q. | 56919 rub., 65 q. | 117775 rub., 3 q. | 126553 rub., 24 q. | 12008 rub., 60 q. |

Cədvəldən göründüyü kimi, Naxçıvan və Aleksandropol şəhərlərindən başqa, digər şəhərlərin məxarici mədaxildən çox, qeyd edilən həmin iki şəhərin də məxarici və mədaxili arasında cüzi fərq olmuşdur.

Mənbələrdə XIX yüzilliyin 80-ci illərinin sonlarından başlayaraq İrəvan quberniyasında xəzinəyə daxil olan hərbi mükəlləfiyyət əvəzinə müsəlmanlardan alınan vergilər haqqında da ətraflı məlumatlar verilmişdir. Çar tərəfindən təsdiq olunmuş 1887-ci il 9 iyun (26 may 1886-cı il qanununa əlavə olaraq) qanununa görə, müsəlmanlardan hərbi mükəlləfiyyətin əvəzinə alınan vergi də daxil olunmuşdur. Həmin qanuna görə, İrəvan quberniyasında yaşayan müsəlmanlardan hərbi mükəlləfiyyətin əvəzinə alınan verginin miqdarı 69000 rubl həcmində müəyyənləşdirilmişdir[968].

1888-ci ildə xəzinəyə daxil olan ayrı-ayrı vergilərin miqdarı belə idi: xəzinə kəndlilərindən və şəhər əhalisindən alınan tüstü pulu və torpaq vergisi- 444151 rubl 32 qəpik (bunun 348317 rubl 17 qəpiyi bu ilin vergisi, 95834 rubl 15 qəpiyi keçən ilin vergi qalığı idi); dövlət mükəlləfiyyətinə aid zemski vergisi- 397959 rubl 88 qəpik (bunun 299227 rubl 78 qəpiyi bu ilin vergisi, 98732 rubl 10 qəpiyi keçən ildən qalma vergi qalığı idi); quberniya mükəlləfiyyətinə aid zemski vergisi - 68883 rubl (bunun 53308 rubl 71 qəpiyi bu ilin vergisi, 14775 rubl keçən ildən qalma vergi qalığı idi), ümumilikdə zemski vergisi 466043 rubl 59

[968] Обзор Эриванской губернии за 1888 г., с.61.

qəpik; **müsəlmanlardan ordu üçün müvəqqəti alınan vergi** - 86142 rubl 16 qəpik ( bunun 56486 rubl 4 qəpiyi bu ilin vergisi, 29656 rubl 12 qəpiyi keçən ildən qalma vergi qalığı idi); **fabrik və zavod yerlərindən alınan 2 % vergi** - 21534 rubl 55 qəpik (bunun 11052 qəpiyi bu ilin vergisi, 10482 rubl 26 qəpiyi keçən ilin vergi qalığı idi); **şəhərlərdə daşınmaz əmlaklardan alınan vergi**-13782 rubl; **digər müxtəlif vergilər**-60385 rubl 90 qəpk (bunun 25666 rubl 29 qəpiyi bu ilin vergisi, 34719 rubl 61 qəpiyi keçən ilin vergi qalığı idi); **quberniya rəisliyinin cavabdehliyində olan digər müxtəlif vergilər**: 41418 rubl 4 qəpk (bunun 22341 rubl 18 qəpiyi bu ilin vergisi, 19076 rubl 86 qəpiyi keçən ilin vergi qalığı idi). Ümumilikdə, İrəvan quberniyası üzrə müxtəlif vergi növlərindən xəzinəyə 1078942 rubl 52 qəpik vergi daxil olmuşdur[969].

Həmin il yuxarıda qeyd edilən vergilərlə bərabər, xəzinəyə aksiz vergisi də daxil olmuşdur. Gəlir içkilərdən, tütündən və kibritdən idi. 1888-ci ildə ümumi aksiz vergisindən xəzinəyə 178216 rubl 94 qəpik daxil olmuşdur. Bunun 168631 rubl 71 qəpiyi içkilərdən, 6930 rubl 28 qəpiyi tütündən, 2654 rubl 85 qəpiyi isə kibritdən gələn gəlirin payına düşmüşdü[970].

1890-cı ildə İrəvan quberniyasında əhalinin ödədiyi verginin miqdarı belə olmuşdur: 1) tüstü və torpaq vergisi-440102 rubl; zemski vergisi-457663,22 rubl (bunun 358511 rublu dövlət mükəlləfiyyətinə, 99151,26 rublu zemski vergisinə aid idi); müsəlmanlardan ordu üçün müvəqqəti alınan vergi-68988,49 rubl; fabrik və zavod yerlərindən alınan 2 % vergi-16458,33 rubl; şəhərlərdə daşınmaz əmlaklardan alınan vergi-14572,07 rubl; torpaq vergisi-10670 rubl; müxtəlif idarə və departamentlərdən alınan vergi-108735,12 rubl. Ümumilikdə, həmin il İrəvan quberniyasında verginin miqdarı 1117199,93 rubl olmuş, keçən illərdən isə 1011713,81 rubl vergi qalığı qalmışdır. Nəticədə, 1890-cı ildə quberniya əhalisi ümumilikdə 2128903,74 rubl vergi ödəməli idi.

---

[969] Обзор Эриванской губернии за 1888 г., с.61.
[970] Yenə orada, c.73.

Lakin hesabat ilində xəzinəyə 1217366,36 rubl vergi təhvil verilmişdir. 1891-ci il yanvarın 1-ə olan məlumata görə, 911537,96 rubl, digər vergilərlə birlikdə 914150,96 rubl qalmış, bu da quberniyada hər bir nəfərə orta hesabla 1,32, hər bir evə isə 9,34 rubl vergi qalığı düşmüşdü[971].

1890-cı ildə aksiz vergisindən də xəzinəyə vergi daxil olmuşdur. Hesabat ilində ümumi aksiz vergisinin məbləği 82617 rubl 3 qəpik olmuşdur. Ümumi aksiz vergisindən 75253 rubl 89 qəpik içkilərdən, 7358 rubl 48 qəpik tütündən və 4 rubl 93 qəpik isə kibritdən gələn vergilərin payına düşmüşdü[972].

XIX yüzilliyin 80-90-cı illərin əvvəllərindən başlayaraq İrəvan quberniyasında vergi sistemində ildən-ilə vergi borcu yığılmağa başlamışdır. Bunun əsas səbəbi XIX yüzilliyin 80-ci illərindən başlayaraq İrəvan quberniyasında iqtisadi baxımdan əhali arasında ayrı-ayrı şəxslərin və bir çox kənd cəmiyyətlərinin içərisində iqtisadi çətinliklərin, məhsul qıtlığına səbəb olan daşqınların olması və dolunun düşməsi, Cənubi Qafqazda tətbiq edilən yeni-yeni vergi qanunlarının tərbiq edilməsi (məsələn, torpaq vergisi, müsəlmanlardan hərbi mükəlləfiyyətə görə alınan vergi, fabrik və zavod ərazilərindən alınan vergilər) idi. Bundan əlavə, vergilərin müxtəlif səbəblərdən düzgün yığılmaması, vergi ödəyənlərin vaxtında yerində olmaması da vergi qalığına səbəb olmuşdu.

İrəvan quberniyasında 1891-ci ildə müxtəlif sahələrdən xəzinəyə çatacaq vergilərdə bir qədər azalma müşahidə olunmuşdur. Həmin il xəzinəyə 1095689,84 rubl daxil olmuş, bunlardan 145357,16 rublu keçən illərdən qalmış, 950331,68 rublu isə bu ilin vergisi idi. Bu vergilərə xəzinə kəndlilərinin, şəhər əhalisinin payına düşən müxtəlif vergilər (smetada nəzərdə tutulan və tutulmayan vergilər) daxil olmuşdur.  Xəzinə kəndlilərindən və şəhər əhalisindən konkret ayrı-ayrı sahələr üzrə smetada nəzərdə tutulan verginin miqdarı belə bölünmüşdü: **Xəzinə kəndlilərinin tüstü və torpaq vergisi** - 401834,30 rubl (bunun 360875,94 rub-

[971] Обзор Эриванской губернии за 1884 г., с.17-20.
[972] Памятная книжка Эриванской губернии на 1892, с.121.

lu bu ilin vergisi, 40958,36 rubl keçən illərin qalığı, bütün verginin 88,1 %-i), **şəhər əhalisinin tüstü və torpaq vergisi**-30756,70 rubl (bunun 20212,65 rublu bu ilin, 10544,5 rublu keçən illərin qalığı, bütün verginin 57,5 %-i). Ümumilikdə bu verginin miqdarı 432591 rubl, yəni ümumi verginin 83,8 %-ni təşkil etmişdir; **Zemski vergisi**: 457082,90 rubl (bunun 425707,14 rublu bu ilin, 31371,76 rublu keçən illərin qalığı, bütün verginin 89,9 %-i); **Müsəlman əhalisindən hərbi mükəlləfiyyətə görə müvəqqəti alınan vergi** - 68460,89 rubl (bunun 60968,25 rublu bu ilin, 7492,64 rublu keçən illərin qalığı, bütün verginin 85,2 %-i); **Fabrik və zavod sahələrindən alınan 2 %-li vergi** - 10759,87 rubl (bunun 5422,94 rublu bu ilin, 5336,93 rublu keçən illərin qalığı, bütün verginin 35,5 %-i); **Daşınmaz şəhər əmlakından alınan vergi** - 12946,90 rubl (bunun 6736,8 rublu bu ilin, 6210,82 rublu keçən illərin qalığı, bütün verginin 64,2 %-i); **Torpaq vergisi** - 8117,63 rubl (bunun 2028,66 rublu bu ilin, 6088,97 rublu keçən illərin qalığı, bütün verginin 19,8 %-i); **Digər müxtəlif vergilər (Bu vergilər smetada qabağcadan nəzərdə tutulmamışdı).** Bura daxildir: Baş İntendant idarəsi, Dövlət Əmlakı idarəsi, Dövlət Xəzinə Departamenti, Vergi departamenti, Ticarət və Manufaktura departamenti, Gömrük Vergisi departamenti, Kredit üzrə Xüsusi dəftərxana, Mədən üzrə Departament, Daxili işlər Nazirliyi üzrə, Ədliyyə Nazirliyi üzrə, Dövlət Nəzarəti üzrə alınan vergilər - 1095689,84 rubl (bunun 950331,68 rublu bu ilin, 145357,16 rublu keçən illərin qalığı, bütün verginin 54 %-i)[973].

1891-ci ildə qeyd olunan vergilərdən əlavə, mülkədarların xeyrinə məhsul vergisi olan töycü vergisi də alınmışdı. Bu məhsulun $^{4}/_{30}$ qədərində idi. Bundan əlavə, xəzinəyə içkilərə, tütünə və kibritə tətbiq olunmuş aksiz vergisi (geniş surətdə işlənən mallar üzərinə qoyulan əlavə dəyər vergisi) də daxil olmuşdur. Həmin il içkilərə tətbiq olunan aksiz vergisindən 113415 rubl 41

[973] Обзор Эриванской губернии за 1891 г., с.37-52.

qəpik (bunun 106449 rubl 29 qəpiyi bu ilin vergisi, 1319 rubl 36 qəpiyi keçən ildən qalma vergi qalığı, 5646 rubl 76 qəpiyi artıq ödənişdən idi), tütündən 9682 rubl 51 qəpik (bu 1890-cı ildən 2324 rubl, yaxud 31,6 % çox idi), kibritdən 2 rubl 72 qəpik, ümumikdə isə İrəvan quberniyasında aksiz vergisindən xəzinəyə 123100 rubl 62 qəpik (keçən ildən 40483 rubl 34 qəpik, yaxud 49 % çox) vergi daxil olmuşdur[974].

İrəvan quberniyasında 1892-ci ildə müxtəlif sahələrdən xəzinəyə çatacaq verginin miqdarında bir qədər çoxalma müşahidə olunmuşdur. Həmin il xəzinəyə 1959512 rubl 10 qəpik daxil olmuş, bunlardan 1027701 rubl 29 qəpiyi bu ilin, 931810 rubl 81 qəpiyi isə keçən illərdən qalma vergi qalığı idi. Xəzinə kəndlilərindən və şəhər əhalisindən konkret ayrı-ayrı sahələr üzrə yığılan verginin miqdarı belə bölünmüşdü: **Xəzinə kəndlilərinin tüstü və torpaq vergisi** - 449640 rubl 47 qəpik (bunun 393428 rubl 98 qəpikyi bu ilin vergisi, 56211 rubl 49 qəpiyi keçən illərin qalığı, bütün verginin 85,4,1 %-i); **Zemski vergisi**: 433310 rubl 26 qəpik (bunun 285678 rubl 89 qəpiyi bu ilin, 147931 rubl 37 qəpiyi keçən illərin qalığı, bütün verginin 93,3 %-i); **Müsəlman əhalisindən hərbi mükəlləfiyyətə görə müvəqqəti alınan vergi-** 71990  rubl 88 qəpik (bunun 63370 rubl 1 qəpiyi bu ilin, 8620 rubl 87 qəpiyi keçən illərin qalığı, bütün verginin 89,1 %-i); **Fabrik və zavod sahələrindən alınan 2 %-li vergi** - 10199 rubl 86 qəpik (bunun 4087 rubl 70 qəpiyi bu ilin, 6112 rubl 16 qəpiyi keçən illərin qalığı, bütün verginin 23 %-i); **Daşınmaz şəhər əmlakından alınan vergi -** 7009 rubl 38 qəpik (bunun 3165 rubl 15 qəpiyi bu ilin, 3844 rubl 23 qəpiyi keçən illərin qalığı, bütün verginin 38,9 %-i); **Torpaq vergisi** - 8490 rubl 84 qəpik (bunun 1496 rubl 99 qəpiyi bu ilin, 6993 rubl 84 qəpiyi keçən illərin qalığı, bütün verginin 28,9 %-i); **Digər müxtəlif vergilər (bura daxildir Baş İntendant idarəsi, Dövlət Əmlakı idarəsi, Dövlət Xəzinə Departamenti, Vergi departamenti, Ticarət və Manufaktura Departamenti, Gömrük Vergisi departamenti, Kre-**

[974] Yenə orada, s.56-57.

**dit üzrə Xüsusi dəftərxana, Mədən üzrə departament, Daxili işlər Nazirliyi üzrə, Ədliyyə Nazirliyi üzrə, Dövlət Nəzarəti üzrə alınan vergilər)** - 76008 rubl 68 qəpik (bunun 39899 rubl 75 qəpiyi bu ilin, 36108 rubl 93 qəpiyi keçən illərin qalığı, bütün verginin 9,2 %-i)[975].

1892-ci ildə içkilərdən, tütündən, kibritdən gələn gəlirə və neftə tətbiq edilən **aksiz vergisindən** də xəzinəyə vergi ödənmişdir. Həmin il **içkilərdən** xəzinəyə 139403 rubl 22 qəpik (bunun 137158 rubl 39 qəpiyi bu ilin vergisi, 2244 rubl 83 qəpiyi isə keçən ildən qalma vergi qalığı idi. Bu da keçən ildən 25987 rubl 81 qəpik, yaxud 22,9 % çoxdur), **tütündən** 10492 rubl 36 qəpik (1891-ci ilə nisbətən 809 rubl 85 qəpik çox idi), **kibritdən** 258 rubl 17 qəpik, küçə fənərlərinin işıqlandırılması üçün istifadə edilən **neftdən** 961 rubl 69 qəpik, ümumilikdə isə 151115 rubl 44 qəpik (1891-ci ilə nisbətən 28014 rubl 82 qəpik, yaxud 22,8 % çox) aksiz vergisi daxil olmuşdur[976].

İrəvan quberniyasında 1893-cü ildə müxtəlif sahələrdən xəzinəyə 1020679 rubl 64 qəpik daxil olmuş, bunlardan 878721 rubl 71 qəpiyi bu ilin vergisi, 141967 rubl 93 qəpiyi isə keçən illərdən qalma vergi qalığı idi. Xəzinə kəndlilərindən və şəhər əhalisindən konkret ayrı-ayrı sahələr üzrə yığılan verginin miqdarı belə bölünmüşdü: **Xəzinə kəndlilərinin tüstü və torpaq vergisi**- 422045 rubl 48 qəpik (bunun 376329 rubl 8 qəpiyi bu ilin vergisi, 45716 rubl 40 qəpiyi keçən illərin qalığı, bütün verginin 82,2 %-i); **Zemski vergisi**: 391040 rubl 62 qəpik (bunun 371721 rubl 4 qəpiyi bu ilin vergisi, 19319 rubl 58 qəpiyi keçən illərin qalığı, bütün verginin 90,1 %-i); **Müsəlman əhalisindən hərbi mükəlləfiyyətə görə müvəqqəti alınan vergi** - 69209 rubl 41 qəpik (bunun 63527 rubl 14 qəpiyi bu ilin vergisi, 5682 rubl 27 qəpiyi keçən illərin qalığı, bütün verginin 89,1 %-i); **Fabrik və zavod sahələrindən alınan 2 %-li vergi** - 28081 rubl 29 qəpik (bunun 8967 rubl 51 qəpiyi bu ilin vergisi, 19113 rubl 78 qəpiyi keçən

---

975 Обзор Эриванской губернии за 1892 г., с.14-16.
976 Yenə orada, c.20-21.

illərin qalığı, bütün verginin 55,6 %-i); **Daşınmaz şəhər əmlakından alınan vergi -** 10768 rubl 86 qəpik (bunun 4891 rubl 8 qəpiyi bu ilin vergisi, 5877 rubl 78 qəpiyi keçən illərin qalığı, bütün verginin 48,8 %-i); **Torpaq vergisi** - 7288 rubl 72 qəpik (bunun 888 rubl 82 qəpiyi bu ilin, 6399 rubl 90 qəpiyi keçən illərin qalığı, bütün verginin 29,1 %-i); **Smetada qabağcadan nəzərdə tutulmayan rüsum vergiləri** - 928436 rubl 94 qəpik (bunun 826324 rubl 67 qəpiyi bu ilin, 102112 rubl 27 qəpiyi keçən illərin qalığı, bütün verginin 82,9 %-i)[977].

1893-cü ildə **aksiz vergisindən** də xəzinəyə vergi ödənmişdir. Həmin il **içkilərdən** xəzinəyə 145836 rubl 22 qəpik (bunun 143290 rubl 87 qəpiyi bu ilin vergisi, 2545 rubl 38 qəpiyi keçən ildən qalma vergi qalığı, 8825 rubl 30 qəpiyi artıq ödənişdən idi. Bu da keçən ildən 6433 rubl 3 qəpik çoxdur), **tütündən** 16893 rubl 93 qəpik (1891-ci ilə nisbətən 6401 rubl 57 qəpik çox idi), **kibritdən** 1246 rubl 3 qəpik, bu da keçən ildən 987 rubl 86 qəpik çox idi), küçə fənərlərinin işıqlandırılması üçün istifadə edilən **neftdən** 884 rubl 60 qəpik, ümumilikdə isə 164860 rubl 81 qəpik (1892-ci ilə nisbətən 13745 rubl 37 qəpik, yaxud 9,1 % çox) aks iz vergisi daxil olmuşdur[978].

İrəvan quberniyasında 1894-cü ildə müxtəlif sahələrdən xəzinəyə keçən ilə nisbətən az vergi daxil olmuşdur. Digər tərəfdən, 1893-cü il dekabrın 27-də verilən çar fərmanına əsasən, 1894-cü il yanvarın 1-dən Cənubi Qafqazda dövlət zemski xərci ümumi xəzinə xərci ilə birləşdirilmiş, nəticədə zemski mükəlləfiyyəti smetasından götürülmüş borc quberniya üzrə mükəlləfiyyət smetasına keçirilmişdir. Həmin qanunla İrəvan quberniyasında zemski vergisi 1894-1896-cı illər üçün 485330 rubl 16 qəpik təyin edilmişdir[979]. 1894-cü ildə ayrı-ayrı sahələrdən xəzinəyə 919340 rubl 38 qəpik toplanmış, bunlardan 798425 rubl 78 qəpiyi bu ilin vergisi, 120914 rubl 60 qəpiyi isə keçən illərdən qalma

---

[977] Обзор Эриванской губернии за 1893 г., с.11-15.
[978] Yenə orada, c.17-18.
[979] Обзор Эриванской губернии за 1894 г., с.11.

vergi qalığı idi. Xəzinə kəndlilərindən və şəhər əhalisindən konkret ayrı-ayrı sahələr üzrə yığılan verginin miqdarı belə bölünmüşdü: **Xəzinə kəndlilərinin tüstü və torpaq vergisi**- 366747 rubl 32 qəpik (bunun 329294 rubl 23 qəpiyi bu ilin vergisi, 37453 rubl 9 qəpiyi keçən illərin qalığı, bütün verginin 69,8 %-i); **Smetada nəzərdə tutulmayan  Zemski vergisi**: 12348 rubl 5 qəpik (47 %); **Smetada nəzərdə tutulan Zemski vergisi**: 351009 rubl 70 qəpik (bunun 344978 rubl 7 qəpiyi bu ilin vergisi, 6031 rubl 63 qəpiyi keçən illərin qalığı, bütün verginin 70,7 %-i. Ümumilikdə zemski vergisindən xəzinəyə 363357 rubl 75 qəpik (69,5 %) daxil olmuşdur); **Müsəlman əhalisindən hərbi mükəlləfiyyətə görə müvəqqəti alınan vergi** - 62460  rubl 55 qəpik (bunun 58992 rubl 20 qəpiyi bu ilin vergisi, 3468 rubl 35 qəpiyi keçən illərin vergi qalığı, bütün verginin 80,9 %-i); **Fabrik və zavod sahələrindən alınan 2 %-li vergi**- 20927 rubl 27 qəpik (bunun 9156 rubl 86 qəpiyi bu ilin vergisi, 11770 rubl 41 qəpiyi keçən illərin vergi qalığı, bütün verginin 52,7 %-i); **Daşınmaz şəhər əmlakından alınan vergi -** 9507 rubl 5 qəpik (bunun 4399 rubl 94 qəpiyi bu ilin vergisi, 5007 rubl 64 qəpiyi keçən illərin vergi qalığı, bütün verginin 41 %-i); **Torpaq vergisi** - 14239 rubl 58 qəpik (bunun 1703 rubl 36 qəpiyi bu ilin, 12536 rubl 22 qəpiyi keçən illərin vergi qalığı, bütün verginin 68,1 %-i); **Smetada qabağcadan nəzərdə tutulmayan rüsum vergiləri** - 82200 rubl 33 qəpik (bunun 49901 rubl 12 qəpiyi bu ilin, 32299 rubl 21 qəpiyi keçən illərin vergi qalığı)[980].

1894-cü ildə **aksiz vergisindən** də xəzinəyə vergi ödənmişdir. Həmin il **içkilərdən** xəzinəyə 181936 rubl 6 qəpik (bunun 6287 rubl 14,5 qəpiyi artıq ödənişdən idi. İşkidən keçən ilə nisbətən gəlir 36099 rubl 81 qəpik, yaxud 24,8 % çoxdur), **tütündən** 16009 rubl 80 qəpik (1891-ci ilə nisbətən 884 rubl 13 qəpik az idi), **kibritdən** 9 rubl (bu da keçən ilə nisbətən 1237 rubl 3 qəpik az idi), ümumilikdə isə 197954 rubl 86 qəpik (1893-cü ilə

---

[980] Обзор Эриванской губернии за 1894 г., с.10-13.

nisbətən 33094 rubl 5 qəpik, yaxud 20 % çox) aksiz vergisi daxil olmuşdur[981]. Bu ilki hesabatda küçə fənərlərinin işıqlandırılması üçün istifadə edilən neftdən alınan aksiz vergisi göstərilməmişdir.

1895-ci ildə ayrı-ayrı sahələrdən xəzinəyə 1336602 rubl 35 qəpik toplanmış, bundan 1019036 rubl 90 qəpiyi bu ilin vergisi, 317565 rubl 45 qəpiyi isə keçən illərdən qalma vergi qalığı idi. Xəzinə kəndlilərindən və şəhər əhalisindən konkret ayrı-ayrı sahələr üzrə yığılan verginin miqdarı belə bölünmüşdü: **Xəzinə kəndlilərinin tüstü və torpaq vergisi** - 521879 rubl 46 qəpik (bunun 406940 rubl 62 qəpiyi bu ilin vergisi, 114938 rubl 62 qəpiyi keçən illərin qalığı, bütün verginin 88,2 %-i); **Zemski vergisi**: 574778 rubl 34 qəpik (bunun 447972 rubl 52 qəpiyi bu ilin vergisi, 126805 rubl 82 qəpiyi keçən illərin qalığı, bütün verginin 93,3 %-i). Ümumilikdə zemski vergisindən xəzinəyə 363357 rubl 75 qəpik (69,5 %) daxil olmuşdur); **Müsəlman əhalisindən hərbi mükəlləfiyyətə görə müvəqqəti alınan vergi**- 76008 rubl 66 qəpik (bunun 67221 rubl 28 qəpiyi bu ilin vergisi, 9587 rubl 38 qəpiyi keçən illərin vergi qalığı, bütün verginin 90,9 %-i); **Fabrik və zavod sahələrindən alınan 2 %-li vergi** - 28706 rubl 89 qəpik (bunun 13922 rubl 43 qəpiyi bu ilin vergisi, 14784 rubl 46 qəpiyi keçən illərin vergi qalığı, bütün verginin 66 %-i); **Daşınmaz şəhər əmlakından alınan vergi -** 15224 rubl 97 qəpik (bunun 4355 rubl 54 qəpiyi bu ilin vergisi, 10869 rubl 43 qəpiyi keçən illərin vergi qalığı, bütün verginin 60,2 %-i); **Torpaq vergisi** - 4542 rubl 6 qəpik (bunun 1862 rubl 76 qəpiyi bu ilin, 2679 rubl 30 qəpiyi keçən illərin vergi qalığı, bütün verginin 50 %-i); **Smetada qabağcadan nəzərdə tutulmayan vergilər** - 114661 rubl 97 qəpik (bunun 76761 rubl 75 qəpiyi bu ilin, 37900 rubl 22 qəpiyi keçən illərin vergi qalığı[982].

1895-ci ildə xəzinəyə yalnız içkilərdən və tütündən gələn gəlir hesabına **aksiz vergisi** ödənilmişdir. Həmin il **içkilərdən** xəzinəyə 146665 rubl 22 qəpik (bunun 143456 rublu bu ilin ver-

---

[981] Yenə orada, s.16-17.

[982] Обзор Эриванской губернии за 1895 г., с.10-13.

gisi, 3209 rubl 2 qəpiyi keçən ildən qalma vergi qalığı, 2655 rubl 71,5 qəpiyi artıq ödənişdən idi), **tütündən** 15115 rubl 54 qəpik (1894-ci ilə nisbətən 894 rubl 26 qəpik az idi), ümumilikdə isə 161780 rubl 76 qəpik (1894-ci ilə nisbətən 36174 rubl 10 qəpik az) aksiz vergisi daxil olmuşdur[983].

1896-cı ildə ayrı-ayrı sahələrdən xəzinəyə 1101560 rubl 65 qəpik toplanmış, bundan 1019649 rubl 75 qəpiyi bu ilin vergisi, 81910 rubl 90 qəpiyi isə keçən illərdən qalma vergi qalığı olmuşdur. Xəzinə kəndlilərindən və şəhər əhalisindən konkret ayrı-ayrı sahələr üzrə yığılan verginin miqdarı belə bölünmüşdü: **Xəzinə kəndlilərinin tüstü və torpaq vergisi** - 428388 rubl 95 qəpik (bunun 410780 rubl 24 qəpiyi bu ilin vergisi, 17608 rubl 71 qəpiyi keçən illərin qalığı, bütün verginin 84,4 %-i); **Zemski vergisi**: 474645 rubl 9 qəpik (bunun 453371 rubl 30 qəpiyi bu ilin vergisi, 21273 rubl 79 qəpiyi keçən illərin qalığı, bütün verginin 93,3 %-i); **Müsəlman əhalisindən hərbi mükəlləfiyyətə görə müvəqqəti alınan vergi** - 65389 rubl 89 qəpik (bunun 664322 rubl 58 qəpiyi bu ilin vergisi, 1067 rubl 31 qəpiyi keçən illərin vergi qalığı, bütün verginin 94,69 %-i); **Fabrik və zavod sahələrindən alınan 2 %-li vergi** - 22712 rubl 77 qəpik (bunun 14869 rubl 63 qəpiyi bu ilin vergisi, 7843 rubl 14 qəpiyi keçən illərin vergi qalığı, bütün verginin 48,8 %-i); **Daşınmaz şəhər əmlakından alınan vergi -** 10478 rubl 52 qəpik (bunun 2940 rubl 14 qəpiyi bu ilin vergisi, 7536 rubl 38 qəpiyi keçən illərin vergi qalığı, bütün verginin 48,4 %-i); **Torpaq vergisi** - 3492 rubl 99 qəpik (bunun 1556 rubl 39 qəpiyi bu ilin, 1936 rubl 60 qəpiyi keçən illərin vergi qalığı, bütün verginin 41,3 %-i); **Smetada qabaqcadan nəzərdə tutulmayan vergilər** - 95734 rubl 65 qəpik (bunun 71809 rubl 47 qəpiyi bu ilin, 23925 rubl 18 qəpiyi keçən illərin vergi qalığı, bütün verginin 13,1 %-i)[984].

Bu il də içki və tütündən xəzinəyə aksiz vergisi ödənilmişdir. 1896-cı ildə **içkilərdən** xəzinəyə 179640 rubl 43 qəpik (bu-

---

983 Yenə orada, s.15-16.
984 Обзор Эриванской губернии за 1896 г., с.8-11.

nun 177162 rubl 72,2 qəpiyi bu ilin vergisi, 2477 rubl 70,3 qəpiyi keçən ildən qalma vergi qalığı, 67593 rubl 82 qəpiyi artıq ödənişdən idi. Bu da keçən ilə nisbətən 32971 rubl 21 qəpik çox idi), **tütündən** 17781 rubl 45 qəpik (1895-ci ilə nisbətən 2665 rubl 91 qəpik çox idi), ümumilikdə isə 197421 rubl 88 qəpik (1895-ci ilə nisbətən 35641 rubl 12 qəpik çox) aksiz vergisi daxil olmuşdur[985].

1897-ci ildə İrəvan quberniya idarəsinin və Tiflis Xəzinə palatasının verdiyi məlumata görə ayrı-ayrı sahələrdən xəzinəyə 1130627 rubl 07 qəpik toplanmış, bundan 1027782 rubl 99 qəpiyi bu ilin vergisi, 102844 rubl 08 qəpiyi isə keçən illərdən qalma vergi qalığı idi. Həmin il xəzinə kəndlilərindən və şəhər əhalisindən konkret ayrı-ayrı sahələr üzrə yığılan verginin miqdarı belə bölünmüşdü: **Xəzinə kəndlilərinin tüstü və torpaq vergisi**-415474 rubl 50 qəpik (bunun 390454 rubl 4 qəpiyi bu ilin vergisi, 25020 rubl 46 qəpiyi keçən illərin qalığı); **Zemski vergisi -** 483766 rubl 16 qəpik (bunun 456480 rubl 86 qəpiyi bu ilin vergisi, 27285 rubl 30 qəpiyi keçən illərin vergi qalığı); **Fabrik və zavod sahələrindən alınan 2 %-li vergi** - 23946 rubl 37 qəpik (bunun 15956 rubl 54 qəpiyi bu ilin vergisi, 7989 rubl 83 qəpiyi keçən illərin vergi qalığı); **Daşınmaz şəhər əmlakından alınan vergi -** 11194 rubl 37 qəpik (bunun 3428 rubl 45 qəpiyi bu ilin vergisi, 7765 rubl 92 qəpiyi keçən illərin vergi qalığı); **Torpaq vergisi** - 3646 rubl 96 qəpik (bunun 1072 rubl 47 qəpiyi bu ilin, 1955 rubl 43 qəpiyi keçən illərin vergi qalığı); **Smetada qabağcadan nəzərdə tutulmayan vergilər** - 118465 rubl 10 qəpik (bunun 90746 rubl 2 qəpiyi bu ilin, 27719 rubl 8 qəpiyi keçən illərin vergi qalığı)[986].

Bu il də içki və tütündən xəzinəyə aksiz vergisi ödənilmişdir. 1897-ci ildə **içkilərdən** xəzinəyə 211694 rubl (bu da keçən ilə nisbətən 32053 rubl 57 qəpik çox idi), **tütündən** 17957 rubl 53 qəpik (1896-cı ilə nisbətən 176 rubl 8 qəpik çox idi), ümumi-

---

985 Yenə orada, s.13-14.

986 Обзор Эриванской губернии за 1897 г., с.11-16.

likdə isə 229651 rubl 53 qəpik (1896-cı ilə nisbətən 32713 rubl 34 qəpik, yaxud 16, % çox) aksiz vergisi daxil olmuşdur[987].

1898-ci ildə İrəvan quberniya idarəsinin və Tiflis Xəzinə palatasının verdiyi məlumata görə ayrı-ayrı sahələrdən xəzinəyə 1288387 rubl 82 qəpik vergi daxil olmuşdur. Həmin il xəzinə kəndlilərindən və şəhər əhalisindən konkret ayrı-ayrı sahələr üzrə yığılan verginin miqdarı belə bölünmüşdü: **Xəzinə kəndlilərinin tüstü və torpaq vergisi** - 390625 rubl 90 qəpik (bunun 362910 rubl 53 qəpiyi bu ilin vergisi, 27742 rubl 37 qəpiyi keçən illərin qalığı); **Zemski vergisi** - 451327 rubl 48 qəpik (bunun 434322 rubl 55 qəpiyi bu ilin vergisi, 17004 rubl 93 qəpiyi keçən illərin vergi qalığı); **Müsəlman əhalisindən hərbi mükəlləfiyyətə görə müvəqqəti alınan vergi** - 66392 rubl 86 qəpik (bunun 63832 rubl 45 qəpiyi bu ilin vergisi, 2560 rubl 41 qəpiyi keçən illərin vergi qalığı); **Fabrik və zavod sahələrindən alınan 2 %-li vergi** - 20415 rubl 13 qəpik (bunun 15457 rubl 23 qəpiyi bu ilin vergisi, 4957 rubl 90 qəpiyi keçən illərin vergi qalığı); **Daşınmaz şəhər əmlakından alınan vergi -** 38946 rubl 38 qəpik (bunun 26768 rubl 38 qəpiyi bu ilin vergisi, 12178 rubl keçən illərin vergi qalığı); **Torpaq vergisi** - 3287 rubl 19 qəpik (bunun 1786 rubl 93 qəpiyi bu ilin, 1500 rubl 26 qəpiyi keçən illərin vergi qalığı); **Digər müxtəlif vergilər** - 164505 rubl 16 qəpik (bunun 97738 rubl 83 qəpiyi bu ilin, 66766 rubl 33 qəpiyi keçən illərin vergi qalığı); **Quberniya rəisliyinin cavabdehliyində olan müxtəlif vergilər** - 152860 rubl 72 qəpik (bunun 97738 rubl 83 qəpiyi bu ilin vergisi, 55121 rubl 96 qəpiyi keçən illərin vergi qalığı)[988].

Bu il də içki və tütündən xəzinəyə aksiz vergisi ödənilmişdir. 1898-ci ildə **içkilərdən** xəzinəyə 223448 rubl 18 qəpik (bu da keçən ilə nisbətən 11754 rubl çox idi), **tütündən** 31676 rubl 13 qəpik (1897-ci ilə nisbətən 13718 rubl 60 qəpik çox idi), ümumilikdə isə 255124 rubl 31 qəpik (1897-ci ilə nisbətən 25472

---

[987] Yenə orada, s.18-19.

[988] Обзор Эриванской губернии за 1898 г., с.11-12.

rubl 78 qəpik çox) aksiz vergisi daxil olmuşdur[989].

1899-cu ildə İrəvan Xəzinə Palatasının verdiyi məlumata görə ayrı-ayrı sahələrdən xəzinəyə 1407595 rubl 93 qəpik vergi daxil olmuşdur. Həmin il xəzinə kəndlilərindən və şəhər əhalisindən konkret ayrı-ayrı sahələr üzrə yığılan verginin miqdarı belə bölünmüşdü: **Xəzinə kəndlilərinin tüstü və torpaq vergisi** - 399287 rubl 38 qəpik (bunun 369230 rubl 13 qəpiyi bu ilin vergisi, 30057 rubl 25 qəpiyi keçən illərin qalığı); **Zemski vergisi** - 457253 rubl 24 qəpik (bunun 408650 rubl 42 qəpiyi bu ilin vergisi, 48602 rubl 82 qəpiyi keçən illərin vergi qalığı); **Müsəlman əhalisindən hərbi mükəlləfiyyətə görə müvəqqəti alınan vergi** - 69542 rubl 85 qəpik (bunun 65318 rubl 35 qəpiyi bu ilin vergisi, 4224 rubl 50 qəpiyi keçən illərin vergi qalığı); **Fabrik və zavod sahələrindən alınan 2 %-li vergi** - 27301 rubl 84 qəpik (bunun 18456 rubl 21 qəpiyi bu ilin vergisi, 8845 rubl 63 qəpiyi keçən illərin vergi qalığı); **Daşınmaz şəhər əmlakından alınan vergi -** 56830 rubl 26 qəpik (bunun 38360 rubl 8 qəpiyi bu ilin vergisi, 18470 rubl 18 qəpiyi keçən illərin vergi qalığı); **Torpaq vergisi** - 8032 rubl 29 qəpik (bunun 3149 rubl 3 qəpiyi bu ilin, 4883 rubl 26 qəpiyi keçən illərin vergi qalığı); **Digər müxtəlif vergilər** - 205544 rubl 58 qəpik (bunun 115165 rubl 58 qəpiyi bu ilin, 90379 rubl 38 qəpiyi keçən illərin vergi qalığı); **Quberniya rəisliyinin cavabdehliyində olan müxtəlif vergilər** -183803 rubl 49 qəpik (bunun 103435 rubl 25 qəpiyi bu ilin vergisi, 80368 rubl 24 qəpiyi keçən illərin vergi qalığı)[990].

1899-cu ildə İrəvan quberniyası üzrə aksiz vergisindən xəzinəyə 205213 rubl 91 qəpik vergi (bu da keçən ilə nisbətən 18234 rubl 27 qəpik az idi) daxil olmuşdur. Bunun 151482 rubl 13 qəpiyi içkilərin, 53731 rubl 78 qəpiyi tütünün payına düşmüşdür[991].

İldən-ilə vergilərin lazımi səviyyədə yığılmaması, vergi qa-

---

[989] Обзор Эриванской губернии за 1896 г., с.13-14.
[990] Обзор Эриванской губернии за 1899 г., с.10-11.
[991] Yenə orada, c.113.

lıqlarının qalması çar hakimiyyət orqanlarını yeni-yeni vergi islahatları keçirməyə məcbur edirdi. Uzun müzakirələrdən sonra 1900-cü il iyunun 12-də II Nikolay “Zaqafqaziya diyarında əhalidən yığılan torpaq vergisinin güzəştləri haqqında” qanunu təsdiq etdi. Bu qanun 1901-ci il yanvarın 1-dən qüvvəyə minirdi. Qanuna görə, dövlət kəndlilərindən alınan tüstü pulu və müxtəlif növ torpaq vergisi töycü vergisi ilə əvəz edilirdi. Bundan başqa qanuna əsasən dövlət kəndliləri üzərinə zemski vergisi də qoyulmuş, qanun qəbul edilməzdən əvvəl kəndlilərin xəzinəyə qalan borcları ləğv edilmişdir[992].

1900-cü ildə İrəvan Xəzinə Palatasının verdiyi məlumata görə ayrı-ayrı sahələrdən xəzinəyə 1457747 rubl 34 qəpik vergi daxil olmuşdur. Həmin il xəzinə kəndlilərindən və şəhər əhalisindən konkret ayrı-ayrı sahələr üzrə yığılan verginin miqdarı belə bölünmüşdü: **Xəzinə kəndlilərindən evbaşına alınan vergi və torpaq vergisi** - 389327 rubl 4 qəpik (bunun 367457 rubl 57 qəpiyi bu ilin vergisi, 21869 rubl 77 qəpiyi keçən illərin qalığı); **Zemski vergisi** - 453843 rubl 52 qəpik (bunun 435848 rubl 80 qəpiyi bu ilin vergisi, 17994 rubl 72 qəpiyi keçən illərin vergi qalığı); **Müsəlman əhalisindən hərbi mükəlləfiyyətə görə müvəqqəti alınan vergi** - 68861 rubl 97 qəpik (bunun 65897 rubl 44 qəpiyi bu ilin vergisi, 2964 rubl 53 qəpiyi keçən illərin vergi qalığı); **Fabrik və zavod sahələrindən alınan 2 %-li vergi** - 23240 rubl 94 qəpik (bunun 18624 rubl 39 qəpiyi bu ilin vergisi, 4616 rubl 55 qəpiyi keçən illərin vergi qalığı); **Daşınmaz şəhər əmlakından alınan vergi -** 41481 rubl 91 qəpik (bunun 33520 rubl 62 qəpiyi bu ilin vergisi, 5961 rubl 29 qəpiyi keçən illərin vergi qalığı); **Torpaq vergisi** - 7909 rubl 14 qəpik (bunun 5033 rubl 8 qəpiyi bu ilin, 2876 rubl 6 qəpiyi keçən illərin vergi qalığı); **Digər müxtəlif vergilər** - 240752 rubl 59 qəpik (bunun 125655 rubl 88 qəpiyi bu ilin, 115096 rubl 71 qəpiyi keçən illərin vergi qalığı); **Quberniya rəisliyinin cavabdehliyində olan**

---

[992] Полное собрание законов Российской империи, отделение 1, 1900 г., №18840, с.758.

**müxtəlif vergilər** - 232330 rubl 23 qəpik (bunun 125655 rubl 88 qəpiyi bu ilin vergisi, 106674 rubl 35 qəpiyi keçən illərin vergi qalığı)[993].

Yuxarıda xəzinəyə daxil olan vergilərdən əlavə, 1900-cü ildə xəzinəyə 212754 rubl 47 qəpik (keçən ilə nisbətən 7540 rubl 56 qəpik, yaxud 3,67 % çox) aksiz vergisi daxil olmuşdur. Bu da içkilərdən və tütündən gələn vergidən ibarət idi. Həmin il içkilərdən xəzinəyə 194043 rubl 71 qəpik (bu da keçən ilə nisbətən 8179 rubl 9 qəpik, yaxud 4,4 % çox), tütündən isə 18710 rubl 76 qəpik (bu da keçən ilə nisbətən 638 rubl 53 qəpik, yaxud 3,3 % az) aksiz vergisi ödənilmişdir[994].

1901-ci ildə İrəvan quberniyasında vergilərin sayında artım müşahidə olunmuşdur. Hesabat ilində İrəvan Xəzinə Palatasının verdiyi məlumata görə ayrı-ayrı sahələrdən xəzinəyə 1634507 rubl 4 qəpik vergi daxil olmuşdur. Həmin il xəzinə kəndlilərindən və şəhər əhalisindən konkret ayrı-ayrı sahələr üzrə yığılan verginin miqdarı belə bölünmüşdü: **Dövlət torpaq vergisi** - 20914 rubl 93 qəpik (bunun 20883 rubl 63 qəpiyi bu ilin vergisi, 31 rubl 30 qəpiyi keçən illərin qalığı); **Dövlət töycü vergisi** - 546370 rubl 48 qəpik (bunun hamısı bu ilin vergisi idi); **Mənzil vergisi** - 5324 rubl 61 qəpik (bunun 5232 rubl 32 qəpiyi bu ilin vergisi, 92 rubl 29 qəpiyi keçən illərin vergi qalığı); **Zemski torpaq vergisi**: 410585 rubl 55 qəpik (bunun 410438 rubl 62 qəpiyi bu ilin vergisi, 146 rubl 93 qəpiyi keçən illərin vergi qalığı); **Kəndlilərdən pay torpaqlarına görə xüsusi qanunla alınan vergi** - 355 rubl 52 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); T**üstü və torpaq vergisi** - 6538 rubl 96 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); **Müsəlman əhalisindən hərbi mükəlləfiyyətə görə müvəqqəti alınan vergi** - 68702 rubl 61 qəpik (bunun 66842 rubl 27 qəpiyi bu ilin vergisi, 1860 rubl 34 qəpiyi keçən illərin vergi qalığı); **Fabrik və zavod sahələrindən alınan**

[993] Обзор Эриванской губернии за 1900 г., с.10-11.
[994] Yenə orada, s.13-14.

**2 %-li vergi** - 22233 rubl 99 qəpik (bunun 19024 rubl 67 qəpiyi bu ilin vergisi, 3209 rubl 32 qəpiyi keçən illərin vergi qalığı); **Daşınmaz şəhər əmlakından alınan vergi -** 54493 rubl 89 qəpik (bunun 45838 rubl 65 qəpiyi bu ilin vergisi, 8655 rubl 24 qəpiyi keçən illərin vergi qalığı); **Tüstü pulu ödəməyən şəxslərdən alınan torpaq vergisi** - 429 rubl 3 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); **Keçmiş dövlət zemski vergisi** - 367 rubl 74 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); **Evbaşına alınan quberniya zemski vergisi** - 8971 rubl 51 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); **Digər müxtəlif vergilər** - 248105 rubl 95 qəpik (bunun 126500 rubl 59 qəpiyi bu ilin, 121605 rubl 36 qəpiyi keçən illərin vergi qalığı); **Quberniya rəisliyinin cavabdehliyində olan müxtəlif vergilər** - 241112 rubl 63 qəpik (bunun 126500 rubl 59 qəpiyi bu ilin vergisi, 114612 rubl 4 qəpiyi keçən illərin vergi qalığı idi)[995].

1901-ci ildə İrəvan quberniyasında aksiz vergisində çoxalmanın şahidi oluruq. Buna səbəb spirt və pivə satışında aksiz vergisinin artırılması olmuşdur. Həmin il xəzinəyə ümumilikdə 247963 rubl 69 qəpik (keçən ilə nisbətən 35209 rubl 22 qəpik, yaxud 16,55 % çox) aksiz vergisi daxil olmuşdur. İçki və tütündən xəzinəyə daxil olan verginin ayrı-ayrılıqda məbləği belə idi: içkidən 228109 rubl 8 qəpik (bu da keçən ilə nisbətən 34065 rubl 37 qəpik, yaxud 17,55 % çox); tütündən 19854 rubl 61 qəpik (bu da keçən ilə nisbətən 1143 rubl 85 qəpik, yaxud 6,11 % az)[996].

İrəvan quberniyası üzrə 1902-ci ildə müxtəlif sahələrdən xəzinəyə ödənilən verginin ümumi miqdarı 1452974 rubl 67 qəpik olmuşdur (bunun 1165711 rubl 42 qəpiyi əvvəcədən smetada nəzərdə tutulmuş vergilərin (bunun 1124647 rublu bu ilin vergisi, 41063 rubl 56 qəpiyi keçən illərdən qalma vergi qalığı idi)), 287263 rubl 25 qəpiyi isə smetada nəzərdə tutulmamış vergilərin (bunun 138265 rubl 26 qəpiyi bu ilin vergisi, 148997 rubl 99 qə-

---

[995] Обзор Эриванской губернии за 1901 г., с.13-14.
[996] Обзор Эриванской губернии за 1901 г., с.17-18.

piyi keçən illərdən qalma vergi qalığı idi) payına düşmüşdü. Hesabat ilində xəzinə kəndlilərindən və şəhər əhalisindən konkret ayrı-ayrı sahələr üzrə yığılan verginin miqdarı belə bölünmüşdü: **Kəndlilərdən pay torpaqlarına görə alınan vergi** - 18654 rubl 15 qəpik (bunun 18499 rubl 18 qəpiyi bu ilin vergisi, 154 rubl 97 qəpiyi keçən illərin qalığı); **Digər torpaqlardan alınan vergi** - 3351 rubl 62 qəpik (bunun 2728 rubl 40 qəpiyi bu ilin vergisi, 623 rubl 22 qəpiyi keçən illərin qalığı); **Dövlət töycü vergisi** - 552465 rubl 95 qəpik (bunun 550246 rubl 61 qəpiyi bu ilin vergisi, 2219 rubl 34 qəpiyi keçən ilin vergi qalığı idi); **Mənzil vergisi** - 5577 rubl 29 qəpik (bunun 5351 rubl 12 qəpiyi bu ilin vergisi, 226 rubl 17 qəpiyi keçən illərin vergi qalığı); **Daşınmaz şəhər əmlakından alınan vergi -** 60982 rubl 94 qəpik (bunun 447734 rubl 19 qəpiyi bu ilin vergisi, 13248 rubl 75 qəpiyi keçən illərin vergi qalığı); **Müsəlman əhalisindən hərbi mükəlləfiyyətə görə müvəqqəti alınan vergi -** 71289 rubl 15 qəpik (bunun 67795 rubl 47 qəpiyi bu ilin vergisi, 3493 rubl 68 qəpiyi keçən illərin vergi qalığı); **Fabrik və zavod sahələrindən alınan 2 %-li vergi** - 23546 rubl 75 qəpik (bunun 18883 rubl 84 qəpiyi bu ilin vergisi, 4662 rubl 91 qəpiyi keçən illərin vergi qalığı); **Kəndlilərdən pay torpaqlarına görə xüsusi qanunla alınan vergi**: 355 rubl 52 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); **Zemski torpaq vergisi**: a) Pay torpaqlarına görə kəndlilərdən alınan vergi - 404889 rubl 47 qəpik (bunun 400896 rubl 37 qəpiyi bu ilin vergisi, 3993 rubl 10 qəpiyi keçən illərin vergi qalığı); b) Digər torpaq vergiləri - 15961 rubl 15 qəpik (bunun 12512 rubl 68 qəpiyi bu ilin vergisi, 3448 rubl 47 qəpiyi keçən ilin vergi qalığı idi); **Şəhər əhalisindən alınan torpaq vergisi -** 9 rubl (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Evbaşına vergi ödəməyən şəxslərdən alınan torpaq vergisi** - 31 rubl 83 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); **Keçmiş dövlət zemski vergisi** - a) Xəzinə kəndlilərdən alınan vergi-8586 rubl 65 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); **Xəzinə kəndlilərindən** evbaşına **alınan quberniya zemski vergisi** - 8971 rubl 51 qəpik (bunun hamısı keçən illərin vergi qalığı

idi); **Hərbi mükəlləfiyyətdən qurtarmaq üçün Qafqaz və Zaqafqaziyanın yerli əhalisindən alınan vergi -** 3 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Digər müxtəlif vergilər** - 287263 rubl 25 qəpik (bunun 138265 rubl 26 qəpiyi bu ilin, 148997 rubl 99 qəpiyi keçən illərin vergi qalığı); **Quberniya rəisliyinin cavabdehliyində olan müxtəlif vergilər** - 277119 rubl 70 qəpik (bunun 138265 rubl 26 qəpiyi bu ilin vergisi, 138854 rubl 70 qəpiyi keçən illərin vergi qalığı idi)[997].

Qeyd etmək lazımdır ki, 1902-ci ildən başlayaraq İrəvan quberniyasında aksiz vergisindən xəzinəyə daxil olan vergilər haqqında məlumata rast gəlmədik.

İrəvan quberniyası üzrə 1903-cü ildə müxtəlif sahələrdən xəzinəyə ödənilən verginin ümumi miqdarı 1423415 rubl 43 qəpik olmuşdur (bunun 1153924 rubl 10 qəpiyi əvvəcədən smetada nəzərdə tutulmuş vergilərin (bunun 1124647 rublu bu ilin vergisi, 41063 rubl 56 qəpiyi keçən illərdən qalma vergi qalığı idi)), 269493 rubl 4 qəpiyi isə smetada nəzərdə tutulmamış vergilərin (bunun 138265 rubl 26 qəpiyi bu ilin vergisi, 148997 rubl 99 qəpiyi keçən illərdən qalma vergi qalığı idi) payına düşmüşdü. Həmin il xəzinə kəndlilərindən və şəhər əhalisindən konkret ayrı-ayrı sahələr üzrə yığılan verginin miqdarı belə bölünmüşdü: **Kəndlilərdən pay torpaqlarına görə alınan vergi** - 18815 rubl 68 qəpik (bunun 18790 rubl 44 qəpiyi bu ilin vergisi, 25 rubl 24 qəpiyi keçən illərin qalığı); **Digər torpaqlardan alınan vergi** - 32439 rubl 93 qəpik (bunun 2788 rubl 17 qəpiyi bu ilin vergisi, 455 rubl 76 qəpiyi keçən illərin qalığı); **Dövlət töycü vergisi -** 553780 rubl 8 qəpik (bunun 552112 rubl 51 qəpiyi bu ilin vergisi, 1667 rubl 57 qəpiyi keçən ilin vergi qalığı idi); **Mənzil vergisi** - 5496 rubl 78 qəpik (bunun 5212 rubl 15 qəpiyi bu ilin vergisi, 274 rubl 63 qəpiyi keçən illərin vergi qalığı); **Daşınmaz şəhər əmlakından alınan vergi -** 57757 rubl 45 qəpik (bunun 46570 rubl 778 qəpiyi bu ilin vergisi, 11186 rubl 67 qəpiyi keçən illərin vergi qalığı); **Müsəlman əhalisindən hərbi mükəlləfiyyətə**

---

[997] Обзор Эриванской губернии за 1902 г., с.4, с.19-20.

**görə müvəqqəti alınan vergi -** 69013 rubl 92 qəpik (bunun 67863 rubl 59 qəpiyi bu ilin vergisi, 1150 rubl 33 qəpiyi keçən illərin vergi qalığı); **Fabrik və zavod sahələrindən alınan 2 %-li vergi** - 20947 rubl 68 qəpik (bunun 18920 rubl 54 qəpiyi bu ilin vergisi, 2027 rubl 14 qəpiyi keçən illərin vergi qalığı); **Kəndlilərdən pay torpaqlarına görə xüsusi qanunla alınan vergi** - 355 rubl 52 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); **Zemski torpaq vergisi**: a) Pay torpaqlarına görə kəndlilərdən alınan vergi - 404301 rubl 36 qəpik (bunun 401622 rubl 45 qəpiyi bu ilin vergisi, 2678 rubl 91 qəpiyi keçən illərin vergi qalığı); b) Digər torpaq vergiləri - 15073 rubl 3 qəpik (bunun 12771 rubl 47 qəpiyi bu ilin vergisi, 2303 rubl 56 qəpiyi keçən ilin vergi qalığı idi); **Şəhər əhalisindən alınan torpaq vergisi -** 58 rubl (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Evbaşına vergi ödəməyən şəxslərdən alınan torpaq vergisi** - 514 rubl 18 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); **Keçmiş dövlət zemski vergisi:** a) Xəzinə kəndlilərdən alınan vergi - 155 rubl 74 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); **Xəzinə kəndlilərindən** e**vbaşına alınan quberniya zemski vergisi** - 4419 rubl 4 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); **Digər müxtəlif vergilər** - 269493 rubl 4 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); **Quberniya rəisliyinin cavabdehliyində olan müxtəlif vergilər** - 260234 rubl 76 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi)[998].

1904-cü ildə İrəvan Xəzinə Palatasının verdiyi məlumata görə, bu il quberniya üzrə xəzinəyə əvvəlcədən təyin edilmiş 1176935 rubl 33 qəpik, keçənildən qalma 48313 rubl 4 qəpik borc vergisi ödənilməli idi. Lakin əvəzində xəzinəyə 1154366 rubl 10 qəpik (bu 1903-cü il vergisindən 441 rubl 71 qəpik çox idi) vergi yığılmışdır. Yığılan verginin 1129383 rubl 58 qəpiyi hesabat ilinin, 24982 rubl 52 qəpiyi isə keçən ildən qalmış vergi qalığının payına düşürdü[999].

---

[998] Обзор Эриванской губернии за 1903 г., с.6; с.18-19.
[999] Обзор Эриванской губернии за 1904 г., с.12.

1904-cü ilin məlumatında əvvəlcədən müəyyən edilməmiş müxtəlif növ vergilərdən də bəhs edilmişdir. Həmin vergilərdən xəzinəyə 1285349 rubl 77 qəpik (bu 1903-cü ildən 62745 rubl 60 qəpik az idi) daxil olmalı idi. Əvəzində xəzinəyə 245834 rubl 24,5 qəpik ödənilmişdir. Verginin tam yığılmaması nəticəsində 1030515 rubl 52,5 qəpik vergi qalığı qalmışdır. 1904-cü ildə vergi qalıqlarının 1903-cü ilə nisbətən daha da çoxalması pambığın qiymətinin aşağı düşməsi ilə əlaqədar idi[1000]. Ümumilikdə, 1904-cü ildə İrəvan quberniyasında həm smetada nəzərdə tutulmuş və tutulmamış vergilərdən xəzinəyə 1400200 rubl 34 qəpik daxil olmuşdur.

1906-cı ildə İrəvan quberniyasından xəzinəyə 1647347 rubl 47 qəpik daxil olmuşdur. Həmin il xəzinə kəndlilərindən və şəhər əhalisindən konkret ayrı-ayrı sahələr üzrə yığılan verginin miqdarı belə bölünmüşdü: K**əndlilərdən pay torpaqlarına görə alınan vergi** - 21192 rubl 96 qəpik (bunun 17303 rubl 29 qəpiyi bu ilin vergisi, 3889 rubl 66 qəpiyi keçən illərin qalığı idi); **Digər torpaqlardan alınan vergi** - 2086 rubl 54 qəpik (bunun 1336 rubl 34 qəpiyi bu ilin vergisi, 750 rubl 20 qəpiyi keçən illərin qalığı idi), **şikayətlə alınan vergilər -** 103 rubl 85 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Tüstü pulu əvəzinə** d**aşınmaz şəhər əmlakından alınan vergi -** 35919 rubl 23 qəpik (bunun 21087 rubl 58 qəpiyi bu ilin vergisi, 14831 rubl 65 qəpiyi keçən illərin vergi qalığı idi), ş**ikayətlə alınan vergi** - 1353 rubl 26 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Dövlət töycü vergisi -** 605796 rubl 54 qəpik (bunun 521984 rubl 16 qəpiyi bu ilin vergisi, 83812 rubl 38 qəpiyi keçən ilin vergi qalığı idi); **Hərbi mükəlləfiyyətdən qurtarmaq üçün Qafqazda yerli əhalidən alınan vergi** - a) **Kəndlilərdən alınan vergi -** 74999 rubl 96 qəpik (bunun 61373 rubl 16 qəpiyi bu ilin vergisi, 13626 rubl 80 qəpiyi isə keçən ilin vergi qalığı idi), **b) şəhərlilərdən alınan vergi -** 2045 rubl 33 qəpik (bunun 956 rubl 3 qəpiyi bu ilin, 1089 rubl 30 qəpiyi isə keçən ilin vergi qalığı idi); **Dövlət**

---

[1000] Yenə orada, s.12.

**mənzil vergisi** - 6548 rubl 44 qəpik (bunun 5178 rubl 20 qəpiyi bu ilin vergisi, 1370 rubl 24 qəpiyi keçən illərin vergi qalığı), **şikayətə görə alınan vergi -** 311 rubl 71 qəpik (bunun hamısı keçən ilin vergi qalığı idi); **İrəvan qəzasının kəndlilərindən pay torpaqlarına görə xüsusi qanunla alınan vergi** - 711 rubl 4 qəpik (bunun 355 rubl 52 qəpik bu ilin vergisi, 355 rubl 52 qəpiyi isə keçən ilin qalığı idi); **Şəhər əhalisindən daşınmaz əmlaka görə alınan zemski vergisi -** 36032 rubl 87 qəpik (bunun 21089 rubl 70 qəpiyi bu ilin, 14943 rubl 17 qəpiyi isə keçən ildən qalma vergi qalığı idi), **şikayətə görə alınan vergi -** 1316 rubl 61 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi; **Kəndlilərdən pay torpaqlarına görə alınan zemski torpaq vergisi** - 445881 rubl 57 qəpik (bunun 368562 rubl 7 qəpiyi bu ilin vergisi, 77319 rubl 50 qəpiyi keçən illərin vergi qalığı idi); **Digər torpaq vergiləri** - 9539 rubl 34 qəpik (bunun 5869 rubl 4 qəpiyi bu ilin vergisi, 3670 rubl 30 qəpiyi keçən ilin vergi qalığı idi), **şikayətə görə alınan vergilər** - 568 rubl 1 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Fabrik və sənaye sahələrindən alınan 2 %-li zemski vergisi** - 20992 rubl 81 qəpik (bunun 14573 rubl 2 qəpiyi bu ilin vergisi, 6419 rubl 79 qəpiyi keçən illərin vergi qalığı idi), **şikayətə görə alınan vergi -** 901 rubl 93 qəpik (bunun hamısı keçən ilin vergi qalığı idi); **Evbaşına alınan quberniya zemski vergisi** - 1208 rubl 10 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); **Digər müxtəlif vergilər** - 216299 rubl 23 qəpik (22189 rubl 67 qəpiyi bu ilin vergisi, 194109 rubl 56 qəpiyi keçən illərin vergi qalığı idi); **Quberniya rəisliyinin cavabdehliyində olan müxtəlif vergilər** - 163538 rubl 17 qəpik (bunun 22189 rubl 67 qəpiyi bu ilin, 141348 rubl 50 qəpiyi isə keçən illərin vergi qalığı idi)[1001].

1907-ci ildə İrəvan quberniyası üzrə xəzinəyə daxil olan vergilərin sayı xeyli aşağı düşmüşdür. İrəvan Xəzinə Palatasının verdiyi məlumata görə, həmin il vergilərdən xəzinəyə 1193768 rubl 43 qəpik, keçən ildən qalma 255227 rubl 47 qəpik vergi bor-

[1001] Памятная книжка Эриванской губернии на 1908, с.38-43.

cu, ümumilikdə isə 1448995 rubl 90 qəpik (1906-cı ildən 67907 rubl 58 qəpik az) vergi daxil olmalı idi. Lakin əvəzində xəzinəyə 920845 rubl 49 qəpik bu ilin vergidən, 91832 rubl 33 qəpik keçən ildən qalan vergidən, ümumilikdə isə 1012677 rubl 82 qəpik (1906-cı ildən 254832 rubl 25 qəpik az) vergi daxil olmuşdur. 1908-ci il yanvarın 1-ə olan məlumata görə, əsas vergidən 272922 rubl 94 qəpik, keçən ildən qalan vergidən 163395 rubl 14 qəpik, ümumilikdə isə 436318 rubl 8 qəpik (1906-cı ildən 186924 rubl çox) borc qalmışdır[1002].

İrəvan Xəzinə Palatasının verdiyi məlumatda əvvəlcədən müəyyən edilməmiş vergilərdən də bəhs edilmişdir. Məlumatda göstərilir ki, xəzinəyə bu vergilərdən 1277890 rubl 72 qəpik (1906-cı ildən 16355 rubl 63 qəpik çox) vergi daxil olmalı idi. Lakin əvəzində xəzinəyə 210397 rubl 20 qəpik (1906-cı ildən 5902 rubl 3 qəpik) vergi ödənilmişdir[1003]. Əvvəlki illərə nisbətən 1907-ci ildə xəzinəyə daxil olan vergilərin azalmasının səbəbi erməni-Azərbaycan türkləri arasında baş verən dava və təbii fəlakətlə əlaqədar olaraq məhsula dəyən ziyan olmuşdur. Bundan əlavə, vergilərin yığılmasında narazılıq və şikayətlər də qeydə alınmışdır[1004].

1907-ci il xəzinə kəndlilərindən və şəhər əhalisindən konkret ayrı-ayrı sahələr üzrə yığılan verginin miqdarı belə bölünmüşdü: K**əndlilərdən pay torpaqlarına görə alınan vergi** - 18127 rubl 62 qəpik (bunun 17260 rubl 60 qəpiyi bu ilin vergisi, 867 rubl 2 qəpiyi keçən illərin qalığı idi); **Digər torpaqlardan alınan vergi** - 3010 rubl 34 qəpik (bunun 1399 rubl 89 qəpiyi bu ilin vergisi, 1610 rubl 45 qəpiyi keçən illərin qalığı), **şikayətlə alınan vergilər -** 233 rubl 24 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Dövlət töycü vergisi -** 450262 rubl 82 qəpik (bunun 435350 rubl 42 qəpiyi bu ilin vergisi, 14912 rubl 40 qəpiyi keçən ilin vergi qalığı idi); **Dövlət mənzil vergisi** -

---

1002 Обзор Эриванской губернии за 1907 г., с.14, с.33.
1003 Yenə orada, s.14.
1004 Yenə orada, c..33-34.

6297 rubl 36 qəpik (bunun 4837 rubl 75 qəpiyi bu ilin vergisi, 1459 rubl 61 qəpiyi keçən illərin vergi qalığı), ş**ikayətə görə alınan vergi -** 338 rubl 57 qəpik (bunun hamısı keçən ilin vergi qalığı idi); **Tüstü pulu əvəzinə** d**aşınmaz şəhər əmlakından alınan vergi -** 35199 rubl 2 qəpik (bunun 15765 rubl 50 qəpiyi bu ilin vergisi, 19433 rubl 52 qəpiyi  keçən illərin vergi qalığı idi); **Şikayətlə alınan vergi** - 1460 rubl 38 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Hərbi mükəlləfiyyətdən qurtarmaq üçün Qafqazın yerli əhalisidən alınan vergi** - a) **Kəndlilərdən alınan vergi -** 57176 rubl 28 qəpik (bunun 54622 rubl 61 qəpiyi bu ilin vergisi, 2543 rubl 67 qəpiyi isə keçən ilin vergi qalığı idi), **b) şəhərlilərdən alınan vergi -** 1998 rubl 27 qəpik (bunun 744 rubl 25 qəpiyi bu ilin, 1254 rubl 2 qəpiyi isə keçən ilin vergi qalığı idi); **Müsəlman əhalisindən hərbi mükəlləfiyyətə görə müvəqqəti alınan vergi -** 69013 rubl 92 qəpik (bunun 67863 rubl 59 qəpiyi bu ilin vergisi, 1150 rubl 33 qəpiyi keçən illərin vergi qalığı); **Fabrik və zavod sahələrindən alınan 2 %-li vergi** - 16274 rubl 57 qəpik (bunun 12113 rubl 93 qəpiyi bu ilin vergisi, 4160 rubl 64 qəpiyi keçən illərin vergi qalığı idi), **şikayətə görə alınan vergi -** 604 rubl 39 qəpik (bunun hamısı keçən ilin vergi qalığı idi); **İrəvan qəzasının** k**əndlilərindən pay torpaqlarına görə xüsusi qanunla alınan vergi -** 285 rubl 52 qəpik (bunun hamısı bu ilin vergisi idi); **Şəhər əhalisindən daşınmaz əmlaka görə alınan zemski vergisi -** 35206 rubl 73 qəpik (bunun 15721 rubl 97 qəpiyi bu ilin, 19484 rubl 73 qəpiyi isə keçən ildən qalma vergi qalığı idi), şikayətlə alınan vergi - 1460 rubl 46 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Kəndlilərdən pay torpaqlarına görə alınan zemski  vergisi** - 339440 rubl 49 qəpik (bunun 326558 rubl 45 qəpiyi bu ilin vergisi, 12882 rubl 4 qəpiyi keçən illərin vergi qalığı idi); **Digər torpaq vergiləri** - 12914 rubl 39 qəpik (bunun 6184 rubl 60 qəpiyi bu ilin vergisi, 6729 rubl 79 qəpiyi keçən ilin vergi qalığı idi), **şikayətə görə alınan vergilər** - 981 rubl 71 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi; **Evbaşına alınan quberniya zemski vergisi** - 1414 rubl 66 qəpik (bunun hamısı ke-

çən illərin vergi qalığı idi); **Digər müxtəlif vergilər** - 210398 rubl (bunun 29105 rubl 17 qəpiyi bu ilin, 181292 rubl 3 qəpiyi keçən illərin vergi qalığı idi); **Quberniya rəisliyinin cavabdehliyində olan müxtəlif vergilər** - 159020 rubl 29 qəpik (bunun 29105 rubl 17 qəpiyi bu ilin, 129915 rubl 29 qəpiyi isə keçən illərin vergi qalığı idi)[1005].

1908-ci il statistik məlumatında xəzinəyə ödənilən vergilərin miqdarında bir qədər artım müşahidə olunmuşdu. Belə ki, İrəvan Xəzinə Palatasının məlumatına görə, İrəvan quberniyasında müxtəlif növ vergilərdən xəzinəyə 1202316 rubl 03 qəpik, keçən ildən qalma vergidən isə 338793 rubl 14 qəpik, ümumilikdə isə 1541109 manat 17 qəpik (1907-ci ildən 92113 rubl 27 qəpik çox və yaxud 6,3 $^{0}/_{0}$ çox) vergi daxil olmalı idi. Əvəzində xəzinəyə əsas vergidən 1092842 rubl 51 qəpik, vergi qalığından isə 26684 rubl 7 qəpik, ümumilikdə 1359684 rubl 51 qəpik (1907-ci ilə nisbətən 34 $^{0}/_{0}$ çox) vergi ödənilmişdir. 1909-cu il yanvarın 1-ə olan məlumatda hesabat ilinin vergisindən 109473 rubl 52 qəpik, vergi qalığından 71951 rubl 44 qəpik, ümumilikdə isə 181424 rubl 96 qəpik borc qalmışdı[1006].

1908-ci ildə xəzinəyə əvvəlcədən müəyyən edilməmiş vergilər də ödənilmişdi. Həmin il bu vergilərdən 1245277 rubl 76 qəpik (1907-ci ildən 32612 rubl 96 qəpik yaxud 2,5 $^{0}/_{0}$ az) xəzinəyə vergi daxil olmalı idi. Əvəzində xəzinəyə ödənilən verginin miqdarı 230623 rubl 85 qəpik (1907-ci ildən 20226 rubl 65 qəpik yaxud 9,6 $^{0}/_{0}$ çox) olmuşdur[1007].

1908-ci il xəzinə kəndlilərindən və şəhər əhalisindən konkret ayrı-ayrı sahələr üzrə yığılan verginin miqdarı belə bölünmüşdü: K**əndlilərdən pay torpaqlarına görə alınan vergi**- 21832 rubl 72 qəpik (bunun 19212 rubl 76 qəpiyi bu ilin vergisi, 2619 rubl 96 qəpiyi keçən illərin qalığı idi); **Digər torpaqlardan alınan vergi** - 4155 rubl 4 qəpik (bunun 1923 rubl 80 qəpiyi bu ilin

[1005] Обзор Эриванской губернии за 1907 г., с.33-35.
[1006] Обзор Эриванской губернии за 1908 г., с.14.
[1007] Обзор Эриванской губернии за 1908 г., с.14.

vergisi, 2231 rubl 24 qəpiyi keçən illərin qalığı idi), **şikayətlə alınan vergilər -** 377 rubl 80 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Tüstü pulu əvəzinə** d**aşınmaz şəhər əmlakından alınan vergi -** 35893 rubl 44 qəpik (bunun 18478 rubl 68 qəpiyi bu ilin vergisi, 17414 rubl 76 qəpiyi keçən illərin vergi qalığı idi), ş**ikayətlə alınan vergi** - 1337 rubl 14 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi);; **Dövlət töycü vergisi -** 652634 rubl 53 qəpik (bunun 548944 rubl 94 qəpiyi bu ilin vergisi, 102689 rubl 59 qəpiyi keçən ilin vergi qalığı idi); **Hərbi mükəlləfiyyətdən qurtarmaq üçün Qafqazda yerli əhalidən alınan vergi** - a) **Kəndlilərdən alınan vergi -** 74832 rubl 24 qəpik (bunun 63593 rubl 41 qəpiyi bu ilin vergisi, 11238 rubl 83 qəpiyi isə keçən ilin vergi qalığı idi), **b) şəhərlilərdən alınan vergi -** 3196 rubl 80 qəpik (bunun 1065 rubl 74 qəpiyi bu ilin, 2131 rubl 6 qəpiyi isə keçən ilin vergi qalığı idi); **Dövlət mənzil vergisi** - 8214 rubl 70 qəpik (bunun 5678 rubl 7 qəpiyi bu ilin vergisi, 2536 rubl 63 qəpiyi keçən illərin vergi qalığı), ş**ikayətə görə alınan vergi -** 576 rubl 5 qəpik (bunun hamısı keçən ilin vergi qalığı idi); **İrəvan qəzasının** k**əndlilərindən pay torpaqlarına görə xüsusi qanunla alınan vergi**: 285 rubl 52 qəpik (bunun 345 rubl 36 qəpik bu ilin vergisi, 70 rublu isə keçən ilin qalıq borcu idi); **Şəhər əhalisindən daşınmaz əmlaka görə alınan zemski vergisi -** 35892 rubl 38 qəpik (bunun 18478 rubl 66 qəpiyi bu ilin, 17413 rubl 72 qəpiyi isə keçən ildən qalma vergi qalığı idi), şikayətlə alınan vergi - 1460 rubl 46 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi), **şikayətə görə alınan vergi -** 1336 rubl 76 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Kəndlilərdən pay torpaqlarına görə alınan zemski torpaq vergisi** - 475801 rubl 52 qəpik (bunun 392177 rubl 91 qəpiyi bu ilin vergisi, 83623 rubl 61 qəpiyi keçən illərin vergi qalığı idi); **Digər torpaq vergiləri** - 18030 rubl 32 qəpik (bunun 8292 rubl 12 qəpiyi bu ilin vergisi, 9738 rubl 20 qəpiyi keçən ilin vergi qalığı idi), **şikayətə görə alınan vergilər** - 1928

rubl (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Fabrik və zavod sahələrindən alınan 2 %-li zemski vergisi** - 16274 rubl 57 qəpik (bunun 14651 rubl 6 qəpiyi bu ilin vergisi, 7296 rubl 59 qəpiyi keçən illərin vergi qalığı idi), **şikayətə görə alınan vergi -** 1442 rubl 48 qəpik (bunun hamısı keçən ilin vergi qalığı idi); **Evbaşına alınan quberniya zemski vergisi** - 838 rubl 70 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); **Digər müxtəlif vergilər** - 230623 rubl 85 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); **Quberniya rəisliyinin cavabdehliyində olan müxtəlif vergilər** - 180833 rubl 47 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi)[1008].

1909-cu il İrəvan Xəzinə Palatasının məlumatında İrəvan quberniyasında smetada nəzərdə tutulan müxtəlif növ vergilərdən xəzinəyə 1307491 rubl 66 qəpik, keçən ildən qalma vergidən isə 556565 rubl 30 qəpik, ümumilikdə isə 1864056 rubl 96 qəpik (1908-ci ildən 322947 rubl 29 qəpik, yaxud 6,6 $^0/_0$ çox vergi) vergi daxil olmalı idi. Əvəzində xəzinəyə həmin ilin vergisindən 1166556 rubl 57 qəpik, keçən illərin vergi qalığından isə 102679 rubl 27 qəpik, ümumilikdə 1269235 rubl 84 qəpik (1908-ci ilə nisbətən 90448 rubl 67 qəpik, yaxud 6,6 $^0/_0$ az) vergi ödənilmişdi. 1909-cu il yanvarın 1-ə olan məlumata görə, əhali hesabat ilində 109473 rubl 52 qəpik, vergi qalığından 71951 rubl 44 qəpik, ümumilikdə isə 181424 rubl 96 qəpik xəzinəyə borclu qalmışdı[1009].

1908-ci ildə xəzinəyə smetada nəzərdə tutulmayan vergilər də ödənilmişdir. Həmin il xəzinəyə 841370 rubl 9 qəpik (1908-ci ildən 403907 rubl 67 qəpik, yaxud 32,4 % az) daxil olmalı idi. Lakin bu vergilərdən 264418 rubl 99 qəpik (1908-ci ildən 33795 rubl 14 qəpik yaxud 14,6 $^0/_0$ çox) xəzinəyə vergi daxil olmuşdur [1010]. Beləliklə, 1909-cu ildə hər iki vergidən xəzinəyə

[1008] Обзор Эриванской губернии за 1908 г., с.33-35.
[1009] Обзор Эриванской губернии за 1908 г., с.14.
[1010] Обзор Эриванской губернии за 1909 г., с.14.

2128475 rubl 95 qəpik vergi ödənilmişdir.

1909-cu il xəzinə kəndlilərindən və şəhər əhalisindən konkret ayrı-ayrı sahələr üzrə yığılan verginin miqdarı belə bölünmüşdü: K**əndlilərdən pay torpaqlarına görə alınan vergi** - 65996 rubl 36 qəpik (bunun 65773 rubl 46 qəpiyi bu ilin vergisi, 222 rubl 90 qəpiyi keçən illərin qalığı idi); **Digər torpaqlardan alınan vergi** - 6771 rubl 54 qəpik (bunun 5509 rubl 91 qəpiyi bu ilin vergisi, 1261 rubl 63 qəpiyi keçən illərin qalığı idi), **şikayətlə alınan vergilər -** 294 rubl 70 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Tüstü pulu əvəzinə** d**aşınmaz şəhər əmlakından alınan vergi -** 32873 rubl 11 qəpik (bunun 17950 rubl 51 qəpiyi bu ilin vergisi, 14922 rubl 60 qəpiyi  keçən illərin vergi qalığı idi), ş**ikayətlə alınan vergi** - 1652 rubl 68 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Dövlət töycü vergisi -** 546461 rubl 19 qəpik (bunun 527308 rubl 7 qəpiyi bu ilin vergisi, 19153 rubl 12 qəpiyi keçən ilin vergi qalığı idi); **Hərbi mükəlləfiyyətdən qurtarmaq üçün Qafqazda yerli əhalidən alınan vergi** - a) **Kəndlilərdən alınan vergi -**  66261 rubl 78 qəpik (bunun 63922 rubl 90 qəpiyi bu ilin vergisi, 2338 rubl 88 qəpiyi isə keçən ilin vergi qalığı idi), **b) şəhərlilərdən alınan vergi -** 2504 rubl 37 qəpik (bunun 927 rubl 91 qəpiyi bu ilin, 1576 rubl 46 qəpiyi isə keçən ilin vergi qalığı idi); **Dövlət mənzil vergisi** - 7560 rubl 67 qəpik (bunun 5694 rubl 74 qəpiyi bu ilin vergisi, 1865 rubl 93 qəpiyi keçən illərin vergi qalığı), ş**ikayətə görə alınan vergi -** 449 rubl 2 qəpik (bunun hamısı keçən ilin vergi qalığı idi); **İrəvan qəzasının** k**əndlilərindən pay torpaqlarına görə xüsusi qanunla alınan vergi**: 10 rubl 17 qəpik (bunun hamısı keçən ilin vergi qalığı idi); **Şəhər əhalisindən daşınmaz əmlaka görə alınan zemski vergisi -** 32871 rubl 1 qəpik (bunun 17950 rubl 51 qəpiyi bu ilin, 14920 rubl 50 qəpiyi isə keçən ildən qalma vergi qalığı idi), **şikayətə görə alınan vergi -** 1651 rubl 88 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi; **Kəndlilərdən pay torpaqlarına görə alınan zemski torpaq vergisi** - 458413 rubl 31 qəpik (bunun 436295 rubl 70 qəpiyi bu ilin vergisi, 22117 rubl 61 qəpiyi keçən illərin vergi qalığı idi); **Digər torpaq**

**vergiləri** - 15926 rubl 4 qəpik (bunun 10132 rubl 27 qəpiyi bu ilin vergisi, 5793 rubl 77 qəpiyi keçən ilin vergi qalığı idi), **şikayətə görə alınan vergilər** - 1597 rubl 11 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Fabrik və zavod sahələrindən alınan 2 %-li zemski vergisi** - 20785 rubl 30 qəpik (bunun 15090 rubl 59 qəpiyi bu ilin vergisi, 5694 rubl 71 qəpiyi keçən illərin vergi qalığı idi), **şikayətə görə alınan vergi -** 1319 rubl 10 qəpik (bunun hamısı keçən ilin vergi qalığı idi); **Evbaşına alınan quberniya zemski vergisi** - 847 rubl 16 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); **Mərzləşməyə çəkilən xərclərin qaytarılması -** 4689 rubl 79 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi; **Digər müxtəlif vergilər** - 264418 rubl 99 qəpik (31093 rubl 18 qəpiyi bu ilin vergisi, 233325 rubl 81 qəpiyi keçən illərin vergi qalığı idi); **Quberniya rəisliyinin cavabdehliyində olan müxtəlif vergilər** - 220550 rubl 32 qəpik (29093 rubl 18 qəpiyi bu ilin vergi qalığı, 191457 rubl 15 qəpiyi keçən illərin vergi qalığı idi)[1011].

İrəvan quberniya əhalisinin 1910-cu ildə xəzinəyə ödədikləri vergilər haqqında da İrəvan Xəzinə Palatası maraqlı məlumatlar vermişdir. Bu məlumata görə, həmin il İrəvan quberniyasından xəzinəyə 1318066 rubl 71 qəpik, keçən ildən qalma vergi qalığından 534105 rubl 37 qəpik, ümumilikdə isə 1852172 rubl 08 qəpik (1909-cu ildən 0,6 $^0/_0$ az) vergi daxil olmalı idi. Əvəzində 1231636 rubl 46 qəpik əsas vergidən, 154160 rubl 29 qəpik keçən ildən qalma vergidən, ümumilikdə 1385796 rubl 75 qəpik (1909-cu ildən 9,1 $^0/_0$ çox) vergi ödənilmişdir. 1911-ci il yanvarın 1-ə olan məlumata əsasən 1910-cu ildən 86430 rubl 25 qəpik, keçən illərin qalıq borcundan isə 379945 rubl 08 qəpik, ümumilikdə isə 466375 rubl 33 qəpik (1909-cu ildən 21,6 $^0/_0$ az) vergi borcu qalmışdır[1012].

1910-cu ilə aid əvvəlcədən təyin olunmayan vergilərdən xəzinəyə 861260 rubl 01 qəpik (1909-cu ildən 2,3 $^0/_0$ çox) gəlir

---

[1011] Обзор Эриванской губернии за 1908 г., с.33-35.
[1012] Обзор Эриванской губернии за 1910 г., с.16.

daxil olmalı idi. Lakin əvəzində xəzinəyə 281112 rubl 24 qəpik (1909-cu ildən 6,3 $^{0}/_{0}$ çox) ödənilmişdir. 1911-ci il yanvarın 1-ə bu vergilərdən 580147 rubl 77 qəpik (1909-cu ildən 0,5 $^{0}/_{0}$ çox) borc qalmışdır. Bu borcun 438264 rubl 38 qəpiyinə quberniya rəisləri cavabdeh idi. Umumilikdə, 1910-cu ildə smetada nəzərdə tutulan və nəzərdə tutulmayan vergilərdən xəzinəyə 1666908 rubl 99 qəpik vergi daxil olmuşdur. Həmim il xəzinə kəndlilərindən və şəhər əhalisindən konkret ayrı-ayrı sahələr üzrə yığılan verginin miqdarı belə bölünmüşdü: K**əndlilərdən pay torpaqlarına görə alınan vergi** - 75754 rubl 88 qəpik (bunun 70120 rubl 68 qəpiyi bu ilin vergisi, 5634 rubl 20 qəpiyi keçən illərin qalığı idi); **Digər torpaqlardan alınan vergi** - 14510 rubl 32 qəpik (bunun 8993 rubl 17 qəpiyi bu ilin vergisi, 5517 rubl 15 qəpiyi keçən illərin qalığı idi), **şikayətlə alınan vergilər -** 419 rubl 28 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Tüstü pulu əvəzinə** d**aşınmaz şəhər əmlakından alınan vergi -** 44276 rubl 28 qəpik (bunun 23849 rubl 88 qəpiyi bu ilin vergisi, 20426 rubl 40 qəpiyi  keçən illərin vergi qalığı idi), ş**ikayətlə alınan vergi** - 2388 rubl 79 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Dövlət töycü vergisi -** 567498 rubl 43 qəpik (bunun 540218 rubl 10 qəpiyi bu ilin vergisi, 27280 rubl 33 qəpiyi keçən ilin vergi qalığı idi); **Hərbi mükəlləfiyyətdən qurtarmaq üçün Qafqazda yerli əhalisindən alınan vergi** - a) **Kəndlilərdən alınan vergi -**  68753 rubl 76 qəpik (bunun 64804 rubl 33 qəpiyi bu ilin vergisi, 3949 rubl 43 qəpiyi isə keçən ilin vergi qalığı idi), **b) şəhərlilərdən alınan vergi -** 2250 rubl 91 qəpik (bunun 680 rubl 25 qəpiyi bu ilin vergisi, 1570 rubl 66 qəpiyi isə keçən ilin vergi qalığı idi); **Dövlət mənzil vergisi** - 10560 rubl 14 qəpik (bunun 7263 rubl 75 qəpiyi bu ilin vergisi, 3296 rubl 39 qəpiyi keçən illərin vergi qalığı), **mənzil  vergisinə görə tətbiq olunan cərimə -** 653 rubl 10 qəpik (bunun hamısı keçən ilin vergi qalığı idi); **İrəvan qəzasının** k**əndlilərindən pay torpaqlarına görə xüsusi qanunla alınan vergi**: 707 rubl 63 qəpik (bunun 352 rubl 10 qəpiyi bu ilin vergisi, 355 rubl 53 qəpiyi isə  keçən ilin vergi qalığı idi);  **Şəhər əhalisindən daşınmaz əmlaka görə**

**alınan zemski vergisi -** 41724 rubl 42 qəpik (bunun 21281 rubl 97 qəpiyi bu ilin vergisi, 20442 rubl 45 qəpiyi isə keçən ildən qalma vergi qalığı idi), **şikayətə görə alınan vergi -** 2366 rubl 26 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi; **Kəndlilərdən pay torpaqlarına görə alınan zemski torpaq vergisi** - 496643 rubl 39 qəpik (bunun 459402 rubl 89 qəpiyi bu ilin vergisi, 37240 rubl 50 qəpiyi keçən illərin vergi qalığı idi); **Digər torpaqlardan alınan zemski vergisi** - 29324 rubl 27 qəpik (bunun 16784 rubl 70 qəpiyi bu ilin vergisi, 12539 rubl 57 qəpiyi keçən ilin vergi qalığı idi), **şikayətə görə alınan zemski vergisi** - 1606 rubl 79 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Fabrik və zavod sahələrindən alınan 2 %-li zemski vergisi** - 22317 rubl 76 qəpik (bunun 17884 rubl 64 qəpiyi bu ilin vergisi, 4433 rubl 12 qəpiyi keçən illərin vergi qalığı idi), **şikayətə görə alınan vergi -** 917 rubl 89 qəpik (bunun hamısı keçən ilin vergi qalığı idi); **Evbaşına alınan quberniya zemski vergisi** - 516 rubl 42 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); **Mərzləməyə çəkilən xərclərin qaytarılması -** 3606 rubl 53 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi; **Digər müxtəlif vergilər** - 1496055 rubl 45 qəpik (1231636 rubl 46 qəpiyi bu ilin vergisi, 435272 rubl 53 qəpiyi keçən illərin vergi qalığı idi); **Quberniya rəisliyinin cavabdehliyində olan müxtəlif vergilər** - 233441 rubl 79 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi)[1013].

1912-ci ildə əvvəlcədən təyin olunmuş 1463575 rubl 83 qəpik, keçən ildən qalma borc vergisindən 438630 rubl 98 qəpik, ümumilikdə isə 1902206 rubl 81 qəpik (1911-cu ildən 172036 rubl 47 qəpik, yaxud 9,3 $^0/_0$ çox) xəzinəyə vergi daxil olmalı idi. Əvəzində xəzinəyə 1249455 rubl 80 qəpik bu ilki, 85269 rubl 86 qəpik keçən ilki borc vergisindən, ümumilikdə isə 1334725 rubl 66 qəpik (1911-ci ildən 9141 rubl 47 qəpik, yaxud 0,7 $^0/_0$ çox) miqdarında vergi ödənilmişdi. 1913-cü il yanvarın 1-ə olan məlumata görə, əsas vergidən 214120 rubl 3 qəpik, qalıqdan isə 353361 rubl

---

[1013] Памятная книжка Эриванской губернии на 1912, с.35-37.

12 qəpik, ümumilikdə 567481 rubl 15 qəpik (1911-ci ildən 162258 rubl 90 qəpik, yaxud 40 % çox) borc qalmışdır[1014].

İrəvan quberniyası üzrə 1912-ci ildə əvvəlcədən təyin olunmamış vergidən xəzinəyə 801260 rubl 74 qəpik (1911-cu ildən 10 % çox az) daxil olmalı idi. Əvəzində xəzinəyə bu vergidən 296052 rubl 50 qəpik (1911-ci ildən 1,3 % az) ödənilmişdir. 1913-cü il yanvarın 1-ə olan məlumata görə, əvvəlcədən təyin olunmamış vergidən 505208 rubl 24 qəpik (1911-ci ildən 14,5 % az) qalıq qalmışdır. Qalan verginin 367031 rubl 17 qəpiyinə (1911-cu ildən 16,6 % az) quberniya rəisləri cavabdeh idi[1015]. Ümumilikdə, 1912-ci ildə hər iki vergidən xəzinəyə 1630782 rubl 16 qəpik vergi daxil olmuşdur.

1912-ci ildə 1906-1908-ci illər kampaniyası zamanı dövlət tərəfindən əhaliyə pulla verilmiş maddi yardımdan xəzinəyə əlavə olaraq 80395 rubl 38 qəpik borc da ödənilmişdir[1016].

1913-cü ildə İrəvan quberniyasında xəzinəyə daxil olan müxtəlif növ vergilərin miqdarında xeyli artım olmuşdur. Həmin il xəzinəyə 1572553 rubl 22 qəpik əvvəldən təyin olunmuş vergi, keçən ildən qalma 506735 rubl 21 qəpik borc vergisi, ümumilikdə isə 2079088 rubl 43 qəpik (1911-cu ildən 176881 rubl 62 qəpik, yaxud 9,3 % çox) daxil olmalı idi. Əvəzində 1386082 rubl 90 qəpik əsas vergidən, 139069 rubl 03 qəpik borcdan, ümumilikdə 1525151 rubl 93 qəpik (1912-cu ildən 190426 rubl 27 qəpik, yaxud 14,4 % çox) xəzinəyə ödənilmişdi. 1914-cü il yanvarın 1-ə olan məlumata görə, əhalinin əsas vergidən 186270 rubl 32 qəpik, borc vergisindən 367666 rubl 18 qəpik, ümumilikdə isə 553936 rubl 50 qəpik (1912-ci ildən 13544 rubl 65 qəpik, yaxud 2,4 % az) xəzinəyə borcu qalmışdır[1017].

1913-cü ildə təyin olunmamış vergilərdən xəzinəyə 584149 rubl 44 qəpik (1912-ci ildən 217111 rubl 30 qəpik, yaxud 27 %

---

[1014] Обзор Эриванской губернии за 1912 г., с.18.
[1015] Yenə orada, s.19.
[1016] Yenə orada.
[1017] Обзор Эриванской губернии за 1912 г., с.19.

az) daxil olmalı idi. Əvəzində xəzinəyə 165948 rubl 99 qəpik ödənilmişdir (1912-ci ildən 130103 rubl 51 qəpik, yaxud 43 % az). 1914-cü il yanvarın 1-nə olan məlumata görə, bu vergilərdən 418200 rubl 45 qəpik (1912-ci ildən 87007 rubl 79 qəpik, yaxud 17,2 % az) qalıq qalmışdır. Onun 288989 rubl 83 qəpiyinə (1912-cu ildən 18041 rubl 34 qəpik, yaxud 21,2 % az) quberniya başçıları cavabdeh idi[1018]. Ümumilikdə, 1913-cü ildə hər iki vergidən xəzinəyə 1691100 rubl 92 qəpik vergi daxil olmuşdur.

1913-cü ildə xəzinə kəndlilərindən və şəhər əhalisindən konkret ayrı-ayrı sahələr üzrə yığılan verginin miqdarı belə bölünmüşdü: K**əndlilərdən pay torpaqlarına görə alınan vergi -** 72095 rubl 55 qəpik (bunun 71618 rubl 8 qəpiyi bu ilin vergisi, 477 rubl 47 qəpiyi keçən illərin qalığı idi); **Digər torpaqlardan alınan vergi** - 12608 rubl 63 qəpik (bunun 8797 rubl 76 qəpiyi bu ilin vergisi, 3810 rubl 87 qəpiyi keçən illərin qalığı idi), **şikayətlə alınan vergilər -** 324 rubl 43 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **1912-ci ilədək şəhərlilərdən, qəsəbələrdən** d**aşınmaz şəhər əmlakından alınan vergi -** 2779 rubl 51 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi), ş**ikayətlə alınan vergi** - 505 rubl 37 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **1910-cu il iyulun 6-sı qanununa əsasən alınan vergi -** 54096 rubl 54 qəpik (bunun 37978 rubl 15 qəpiyi bu ilin vergisi, 16118 rubl 39 qəpiyi keçən ildən qalma vergi qalığı idi), şikayətə görə alınan vergi - 1195 rubl 76 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Dövlət töycü vergisi -** 548433 rubl 1 qəpik (bunun 540412 rubl 57 qəpiyi bu ilin vergisi, 8120 rubl 44 qəpiyi keçən ilin vergi qalığı idi); **Hərbi mükəlləfiyyətdən qurtarmaq üçün Qafqaz və Cənubi Qafqazda yerli əhalidən alınan vergi** - a) **Kəndlilərdən alınan vergi -** 64617 rubl 4 qəpik (bunun 64518 rubl 96 qəpiyi bu ilin vergisi, 98 rubl 8 qəpiyi isə keçən ilin vergi qalığı idi), b) **şəhərlilərdən alınan vergi -** 760 rubl 33 qəpik (bunun 667 rubl 10 qəpiyi bu ilin vergisi, 93 rubl 23 qəpiyi isə keçən ilin vergi qalığı idi);

---

[1018] Yenə orada.

**Dövlət mənzil vergisi** - 10379 rubl 11 qəpik (bunun 9255 rubl 45 qəpiyi bu ilin vergisi, 1123 rubl 66 qəpiyi keçən illərin vergi qalığı), **mənzil vergisinə görə tətbiq olunan cərimə -** 298 rubl 50 qəpik (bunun hamısı keçən ilin vergi qalığı idi), **şikayətə görə alınan vergi** - 414 rubl 79 qəpik (bunun hamısı keçən ilin vergi qalığı idi); **İrəvan qəzasının** k**əndlilərindən pay torpaqlarına görə alınan vergi**: 106 rubl 54 qəpik (bunun hamısı keçən ilin vergi qalığı idi); **1912-ci il 20 dekabr qanununa görə pay torpaqlarının satın alınmasına görə alınan vergi:** 140935 rubl (bunun hamısı bu ilin vergisi idi); **1912-ci ilə qədər şəhər əhalisindən daşınmaz əmlaka görə alınan zemski vergisi -** 1606 rubl 59 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi), **şikayətə görə alınan zemski vergisi -** 35828 rubl 80 qəpik (bunun 18783 rubl 98 qəpiyi bu ilin vergisi, 17044 rubl 82 qəpiyi keçən ildən qalma vergi qalığı idi); **1910-cu il iyulun 6-sı qanununa əsasən alınan vergi -** 825 rubl 68 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Kəndlilərdən pay torpaqlarına görə alınan zemski torpaq vergisi** - 514645 rubl 67 qəpik (bunun 453986 rubl 31 qəpiyi bu ilin vergisi, 60658 rubl 84 qəpiyi keçən illərin vergi qalığı idi); **Digər torpaqlardan alınan zemski vergisi** - 30167 rubl 67 qəpik (bunun 19447 rubl 71 qəpiyi bu ilin vergisi, 10719 rubl 96 qəpiyi keçən ilin vergi qalığı idi), **şikayətə görə alınan zemski vergi** - 1002 rubl 68 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Fabrik və zavod sahələrindən alınan 2 %-li zemski vergisi** - 22960 rubl 6 qəpik (bunun 19681 rubl 83 qəpiyi bu ilin vergisi, 3278 rubl 23 qəpiyi keçən illərin vergi qalığı idi), **şikayətə görə alınan vergi -** 758 rubl 80 qəpik (bunun hamısı keçən ilin vergi qalığı idi); **Evbaşına alınan quberniya zemski vergisi** - 1380 rubl 12 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); **Mərzləməyə çəkilən xərclərin qaytarılması -** 2812 rubl 21 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Digər müxtəlif vergilər** - 164948 rubl 99 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); **Quberniya rəisliyinin cavabdehliyində olan müxtəlif vergilər** - 159850 rubl 18 qəpik (bunun hamısı keçən illərin vergi

qalığı idi)[1019].

İrəvan Xəzinə Palatasının verdiyi məlumata görə, İrəvan quberniyasında 1914-cü ildə xəzinəyə daxil olan əvvəlcədən təyin edilmiş vergilərin miqdarı 1584557 rubl 22 qəpik, keçən ildən qalma vergi borcu 513836 rubl 18 qəpik, ümumilikdə isə 2098393 rubl 40 qəpik (1913-cü ildən 19303 rubl 97 qəpik, yaxud 0,9 % çox) olmalı idi. Əvəzində əsas vergidən xəzinəyə 1321796 rubl 8 qəpik, keçən ildən qalan vergidən isə 160567 rubl 87 qəpik, ümumilikdə isə 1482363 rubl 95 qəpik (1913-cü ildən 42787 rubl 98 qəpik, yaxud 2,7 % az) ödənilmişdi. 1915-ci il yanvarın 1-ə olan məlumata görə, əsas vergidən 262761 rubl 14 qəpik, vergi qalığından 353268 rubl 31 qəpik, ümumilikdə isə 616029 rubl 95 qəpik (1913-cü ildən 62092 rubl 95 qəpik, yaxud 11,1 % çox) borc qalmışdır[1020].

1914-cü ildə əvvəlcədən təyin olunmamış vergilərdən xəzinəyə 776760 rubl 60 qəpik (1913-cü ildən 192611 rubl 22 qəpik, yaxud 28,4 % çox) daxil olmalı idi. Lakin həmin vergilərdən xəzinəyə 313321 rubl 13 qəpik (1913-cü ildən 147372 rubl 14 qəpik, yaxud 32,9 % çox) ödənilmişdi. 1915-ci il yanvarın 1-ə olan məlumata görə, ödəniləcək vergilərdən 463439 rubl 53 qəpik (1913-cü ildən 45239 rubl 8 qəpik, yaxud 10,8 % çox) borc qalmışdır. Bu borcların 335835 rubl 38 qəpiyinə (1913-cü ildən 46845 rubl 55 qəpik, yaxud 16 % çox) quberniya rəisləri cavabdeh idi[1021]. Ümumilikdə, 1914-cü ildə İrəvan quberniyasında hər iki vergidən xəzinəyə 1795685 rubl 8 qəpik daxil olmuşdur.

1914-cü ildə xəzinə kəndlilərindən və şəhər əhalisindən konkret ayrı-ayrı sahələr üzrə yığılan verginin miqdarı belə bölünmüşdü: K**əndlilərdən pay torpaqlarına görə alınan vergi** - 71229 rubl 35 qəpik (bunun 67522 rubl 27 qəpiyi bu ilin vergisi, 3707 rubl 8 qəpiyi keçən illərin qalığı idi); **Digər torpaqlardan alınan vergi** - 12155 rubl 89 qəpik (bunun 6827 rubl 34 qəpiyi

---

[1019] Обзор Эриванской губернии за 1912 г., с.48-53.
[1020] Обзор Эриванской губернии за 1914 г., с.22.
[1021] Обзор Эриванской губернии за 1914 г., с.22.

bu ilin vergisi, 5328 rubl 55 qəpiyi keçən illərin qalığı idi), **şikayətlə alınan torpaq vergisi - 5**47 rubl 22 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **1912-ci ilədək şəhərlilərdən, qəsəbələrdən** d**aşınmaz şəhər əmlakından alınan vergi -** 420 rubl 18 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi), ş**ikayətlə alınan vergi** - 69 rubl 38 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **1910-cu il iyulun 6-sı qanununa əsasən alınan vergi -** 54096 rubl 54 qəpik (bunun 29394 rubl 80 qəpiyi bu ilin vergisi, 22551 rubl 20 qəpiyi keçən ildən qalma vergi qalığı idi), şikayətə görə alınan vergi - 2094 rubl 64 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Dövlət töycü vergisi -** 534428 rubl 74 qəpik (bunun 520944 rubl 79 qəpiyi bu ilin vergisi, 13478 rubl 95 qəpiyi keçən ilin vergi qalığı idi); **Hərbi mükəlləfiyyətdən qurtarmaq üçün Qafqaz və Cənubi Qafqazda yerli əhalidən alınan vergi** - a) **Kəndlilərdən alınan vergi -** 63140 rubl 34 qəpik (bunun 62026 rubl 55 qəpiyi bu ilin vergisi, 1113 rubl 79 qəpiyi isə keçən ilin vergi qalığı idi), b) **şəhərlilərdən alınan vergi -** 881 rubl 8 qəpik (bunun 258 rubl 38 qəpiyi bu ilin vergisi, 622 rubl 70 qəpiyi isə keçən ilin vergi qalığı idi); **Dövlət mənzil vergisi** - 8544 rubl 6 qəpik (bunun 7338 rubl 72 qəpiyi bu ilin vergisi, 1205 rubl 34 qəpiyi keçən illərin vergi qalığı), **mənzil vergisinə görə tətbiq olunan cərimə -** 530 rubl 45 qəpik (bunun hamısı keçən ilin vergi qalığı idi), **şikayətə görə alınan vergi** - 328 rubl 49 qəpik (bunun hamısı keçən ilin vergi qalığı idi); **İrəvan qəzasının** k**əndlilərindən pay torpaqlarına görə alınan vergi**: 272 rubl 56 qəpik (bunun hamısı keçən ilin vergi qalığı idi); **1912-ci il 20 dekabr qanununa görə pay torpaqlarının satın alınmasına görə alınan vergi:** 186443 rubl (bunun 139199 rubl 9 qəpiyi bu ilin vergisi, 47244 rubl 19 qəpiyi keçən ildən qalma vergi qalığı idi); **1912-ci ilə qədər şəhər əhalisindən daşınmaz əmlaka görə alınan zemski vergisi -** 930 rubl 35 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi), **şikayətə görə alınan zemski vergisi -** 565 rubl 24 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **1910-cu il iyulun 6-sı qanununa əsasən alınan vergi -** 26674 rubl 69 qəpik (bunun

14368 rubl 50 qəpiyi bu ilin vergisi, 12306 rubl 19 qəpiyi keçən ildən qalma vergi qalığı idi), şikayətə görə alınan vergi - 1503 rubl 49 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Kəndlilərdən pay torpaqlarına görə alınan zemski torpaq vergisi** - 458748 rubl 36 qəpik (bunun 439796 rubl 29 qəpiyi bu ilin vergisi, 18952 rubl 7 qəpiyi keçən illərin vergi qalığı idi); **Digər torpaqlardan alınan zemski vergisi** - 30373 rubl 62 qəpik (bunun 15660 rubl 69 qəpiyi bu ilin vergisi, 14712 rubl 93 qəpiyi keçən ilin vergi qalığı idi), **şikayətə görə alınan zemski vergilər** - 3820 rubl 28 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Fabrik və zavod sahələrindən alınan 2 %-li zemski vergisi** - 23477 rubl 13 qəpik (bunun 18448 rubl 66 qəpiyi bu ilin vergisi, 5028 rubl qəpiyi keçən illərin vergi qalığı idi), **şikayətə görə alınan vergi -** 906 rubl 57 qəpik (bunun hamısı keçən ilin vergi qalığı idi); **Evbaşına alınan quberniya zemski vergisi** - 1254 rubl 67 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); **Dağınıq vergilər və azad olmaq üçün alınan vergi -** 1272 rubl 39 qəpik (bunun hamısı keçən ildən qalma vergi qalığı idi); **Digər müxtəlif vergilər** - 313321 rubl 13 qəpik (bunun hamısı keçən illərin vergi qalığı idi); **Quberniya rəisliyinin cavabdehliyində olan müxtəlif vergilər** - 159850 rubl 18 qəpik (bunun 3750 rubl 86 qəpiyi bu ilin vergisi, 305128 rubl 58 qəpiyi keçən illərin vergi qalığı idi)[1022].

1917-ci il məlumatında İrəvan quberniyası üzrə müxtəlif sahələrdən xəzinəyə gələn ümumi gəlir, vergilərin növü və vergiverənlərin sayı haqqında ümumi məlumat verilmişdir. Həmin məlumata görə vergi verənlərin sayı belə göstərilmişdir: kənd cəmiyyətləri-410; sahibkarların bir hissəsi-4078; töycü vergisi verənlər-914. Bu ümumi vergidən xəzinəyə kənd cəmiyyətlərindən 3215539 rubl, sahibkardan 643812 rubl və töycüdən isə 4239836 rubl vergi daxil olmuşdur. Vergilər özü iki sahədən - dövlət torpaq vergisindən və zemski vergisindən yığılmışdı. **Dövlət torpaq vergisindən** xəzinəyə kənd cəmiyyətlərindən 115064 rubl,

---

[1022] Обзор Эриванской губернии за 1914 г., с.50-55.

sahibkarlardan 30368 rubl, töycüdən 622170 rubl, **zemski vergisindən** xəzinəyə kənd cəmiyyətlərindən 204391 rubl, sahibkarlardan 28376 rubl, töycüdən isə 322929 rubl, ümumilikdə isə İrəvan quberniyasında hər iki vergi sahəsindən xəzinəyə 8099187 rubl vergi daxil olmuşdur olmuşdur[1023].

İrəvan quberniyasında əhali vergi verməklə bərabər, **müxtəlif mükəlləfiyyətlər** də yerinə yetirmişdilər. Bu mükəlləfiyyətləri həm xəzinə, həm sahibkar kəndliləri, həm də şəhər əhalisi yerinə yetirmişdilər. Əhalinin yerinə yetirdikləri mükəlləfiyyətlər müxtəlif qanunlarla tənzimlənmişdir. Məsələn, yuxarıda göstərildiyi kimi, İrəvan quberniyasında kəndli-mülkədar münasibətlərini tənzimləmək, vergi və mükəlləfiyyətləri müəyyənləşdirmək üçün 1851-ci il iyunun 8-də fərman verilmiş, bu fərmanda vergilərdən əlavə, sahibkar kəndlilərin yerinə yetirəcəkləri mükəlləfiyyətlərə də aydınlıq gətirilmişdir. Fərmana əsasən, biyar və əvrəz əvvəlki kimi saxlanılırdı. Biyara görə İrəvan quberniyasında hər bir kəndli ailəsi ildə sahibkara 8 gün işləməyə məcbur idi. Kəndli qeyd edilən biyarın üç gününü əkmək, becərmək, qulluq etmək və məhsul yığmaq, iki günü odun, ot-ələfi daşımaq, başqa iki günü sahibkarın əmlakını bir yerdən başqa yerə aparmaq, bir günü isə ev tikmək və digər təsərrüfat işlərinə sərf etməli idi. Biyar sahibkarın istəyi əsasında yerinə yetirilməli idi.

Kəndlilər sahibkar üçün ildə iki gün əvrəz adlanan mükəlləfiyyət də yerinə yetirməli idilər. Onlar arxların çəkilməsi, körpü və yolların təmir edilməsi işləri ilə məşğul olmalı idilər[1024].

Qeyd edilən mükəlləfiyyətlərdən əlavə digərləri də mövcud olmuşdur. Qanuna görə, hər bir ailə ildə 18 gün öz heyvanları ilə bərabər işləmək üçün bir işçi verməyə məcbur idi. Kəndli yeri şumlayıb əkməli, odun, məhsul və mülkədarın köçünü daşımalı, ev tikməli, biçin biçməli və s. işləri yerinə yetirməli idi. Mülkədar biyarı pulla da əvəz edə bilərdi. Onun ixtiyarı vardı ki, hər iş-

---

[1023] Кавказский календарь на 1917 г., отдел стастический, с.338-339.
[1024] АКАК, т.XII, №130, с.202.

çi qüvvəsi yerinə hər iş günündən ötrü 20 qəpik alsın[1025].

Bundan əlavə, hər 10 ailə sahibkara bir kişi, hər 15 ailə bir qadın xidmətçisi verməli idi. Bu qanunun mənfi cəhəti ondan ibarət idi ki, əvvəllər kəndlilər heç vaxt qadın nökərlər vermirdilər. Çar hökumətinin yerli adət-ənənəni nəzərə almadan verdiyi bu qanun Azərbaycan türklərinin hiddətinə səbəb olmuşdu. Ona görə də tezliklə, bu qayda ləğv olundu[1026]. Bu qanun məlum səbəblərdən həyata keçməsə də, sahibkar kəndlilərinin müxtəlif mükəlləfiyyətləri yerinə yetirdiyini təsdiq edən qaydaların qaldığını bir daha göstərdi.

Mənbələrdə İrəvan quberniyasında əhalinin müxtəlif natural mükəlləfiyyətlərin yerinə yetirməsi haqqında məlumatlar mövcuddur. Əhali mənzil, yol, at-araba və hərbi mükəlləfiyyətlərə cəlb olunurdular. Mənzil mükəlləfiyyəti sırf hərbi qoşunların yerləşdiyi şəhər və kəndlə əlaqəli idi. Bu mükəlləfiyyətlər **pulla və natural şəkildə** olmaqla ikili xarakter daşımışdı. Məsələn, 1883-cü ilin hesabatına əsasən, İrəvan quberniyasının 5 şəhərində - İrəvan, Naxçıvan, Ordubad, Yenibəyazid və Aleksandropol şəhərlərində yerləşən qoşunların mənzili üçün əhalidən 33944 rubl 42 qəpik pul yığılmışdır. Həmin il **at-araba mükəlləfiyyəti üçün** əhalidən 3293 araba, 814 at, **yol mükəlləfiyyəti üçün** rabitə yollarının təmirinə 60535 nəfər cəlb olunmuşdur[1027].

1884-cü ildə əhalidən **mənzil mükəlləfiyyətinə görə**, hərbi hissələr və hərbi məmurlar üçün mənzillərin kirayəsinə 5 şəhərdə illik 20763 rubl 89 qəpik pul yığılmışdır. Bundan əlavə, şəhərlərdən kənarda yerləşən yerli hərbi komandanlar və hərbi məmurlar üçün zemski gəlirindən 5860 rubl ayrılmışdır.

---

[1025] Vəlili M., Azərbaycan (coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat), c.72.

[1026] АКАК, т.XII, №130, с.200-203; Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.1, часть1, с.72-76; Барон Николаи, Воспоминания из моей жизни, «Русский архив» 1892, №28, с.454; Vəlili M., Azərbaycan (coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat), c.72.

[1027] Обзор Эриванской губернии за 1883 г., с.37-40.

Həmin il **at-araba mükəlləfiyyəti üçün** əhalidən 3750 araba, 1050 at və yük heyvanı, **yol mükəlləfiyyəti üçün** rabitə yollarının təmirinə 40693 nəfər cəlb olunmuş, körpü, yolların, küçələrin və meydanların təmiri üçün 1120 rubl ayrılmışdır[1028].

1888-ci ildə əhalidən **mənzil mükəlləfiyyətinə görə**, hərbi hissələr və hərbi məmurlar üçün mənzillərin kirayəsinə 5 şəhərdə və İğdır, Başnoraşen, Vaqarşapat və Böyük Qarakilsə kəndlərində illik 28397 rubl pul yığılmışdır.

Həmin il **at-araba mükəlləfiyyəti üçün** əhalidən 5875 araba, 2016 at və yük heyvanı cəlb olunmuş, körpü, yolların, küçələrin və meydanların təmiri üçün 1120 rubl ayrılmışdır[1029]. **Hərbi mükəlləfiyyətə** yalnız xristianlar cəlb olunurdu.

1890-cı ildə əhalidən **mənzil mükəlləfiyyətinə görə**, şəhər büdcəsindən mənzillərin kirayəsinə illik 33617 rubl (bu da hər bir şəhər sakininə 4,9 qəpik düşmüşdü) rubl xərclənmişdir. Bundan əlavə, əhalidən 2400 aşağı rütbəli hərbiçiləri istilik, işıq və yataq dəstləri ilə təchiz edən mənzillər ayrılmışdı[1030].

Həmin il **at-araba mükəlləfiyyəti üçün İrəvan quberniyasının** əhalisi 2875 araba, 15712 at və yük heyvanı vermiş, **yol mükəlləfiyyəti üçün** rabitə yollarının təmirinə 72441 nəfər, 9599 at-araba cəlb olunmuşdur. **Hərbi mükəlləfiyyətə** (1886-cı il mayın 28-i qanununa görə yerli xristianlar orduya cəlb olunmağa başlamışdılar-E.Q.) hesabat ilində 503 nəfər xristian gənc orduya çağrılmışdır. Hər bir çağrışçıya xəzinədən 12 rubl 74 qəpik, ümumilikdə isə 6409 rubl 81 qəpik xərclənmişdir[1031].

1891-ci ildə əhalidən **mənzil mükəlləfiyyətinə görə**, hərbi hissələr və hərbi məmurlar üçün 5 şəhərdə və İğdır, Başnoraşen, Vaqarşapat, Böyük Qarakilsə, Karvansaray, Van kordon xəttində mənzillərin kirayəsinə illik 27068 rubl 13 qəpik pul yığılmışdır. 1890-cı ilin məbləğinə nisbətən 6548 rubl 87 qəpik çox idi. Bun-

---

[1028] Обзор Эриванской губернии за 1884 г., с.23-28.
[1029] Обзор Эриванской губернии за 1888 г., с.79-90.
[1030] Памятная книжка Эриванской губернии на 1892, с.121.
[1031] Памятная книжка Эриванской губернии на 1892, с.122.

dan əlavə, hesabat ilində əhali ordu üçün **natural mükəlləfiyyət** də yerinə yetirmişdir. Məsələn, əhali İrəvan qəzasının Kəmərli kəndində yerləşən 1-ci Umansk kazak alayının 2-ci bölüyünün binasının yaxınlığında məktəb, mətbəx, çörəkbişirən yer, təchizat anbarı, zabit və aşağı məmurlar üçün evin, yem üçün anbarın, Başnoraşen, İğdır, Dəvəlidə və Naxçıvan şəhərinin bir hissəsində hərbi qüvvələr üçün evlərin tikintisinə, həmçinin quberniyada yerləşən müxtəlif hərbi hissələri tez-tez yoxlayan kiçik məmurlar üçün evlərin tikintisinə cəlb olunmuşdular[1032].

Həmin il **at-araba mükəlləfiyyəti üçün İrəvan quberniyasının** əhalisi 3049 araba, 1643 at və yük heyvanı vermiş, **yol mükəlləfiyyəti üçün** rabitə yollarının təmirinə 184245 nəfər cəlb olunmuş, şəhərlərdə körpü, yolların, küçələrin və meydanların təmiri üçün 5877 rubl 40 qəpik xərclənmişdir. **Hərbi mükəlləfiyyətə** hesabat ilində 502 nəfər xristian cəlb olunmuş, hərbi qulluğa çağırılmadıqlarına görə müsəlmanlardan 69000 rubl vergi alınmışdır[1033].

1892-ci ildə də İrəvan quberniyasında əhalinin yerinə yetirdiyi **mənzil mükəlləfiyyəti də** ikili - pullu və natural mükəlləfiyyət olmuşdur. Hesabat ilində şəhərlərdə və bəzi kəndlərdə yerləşən hərbi hissələr üçün kirayə binaların tutulması, onların istiliklə təmin olunması və işıqlandırılmsı üçün əhalidən pul toplanmışdı. Həmin məqsəd üçün şəhər və zemski büdcəsindən 30430 rubl 92 qəpik (bu da keçən ilkindən 3362 rubl 79 qəpik çox idi) xərclənmişdir. Bundan əlavə, əhali hərbi hissələr üçün mənzil tikintisinə də cəlb olunmuşdu. Bu **natural mükəlləfiyyət** idi. 1891-ci hesabat ilində olduğu kimi, bu il də əhali qeyd edilən yerlərdə hərbi hissələr üçün müxtlif binaların tikintisinə cəlb olunmuşdular[1034].

Həmin il **at-araba mükəlləfiyyəti üçün İrəvan quberniyasının** əhalisi yük heyvanı ilə birlikdə 5140 min araba, əlavə yük heyvanı olmayan 237 araba vermiş, **yol mükəlləfiyyəti üçün**

---

1032 Обзор Эриванской губернии за 1891 г., с.57-58.
1033 Yenə orada, s.59-64.
1034 Обзор Эриванской губернии за 1891 г., с.57-58.

rabitə yollarının təmirinə 397245 nəfər cəlb olunmuşdur. **Hərbi mükəlləfiyyətə** hesabat ilində 608 nəfər xristian gənc çağırılmışdır. Həmin il hərbi qulluğa yeni heyətin çağərılması üçün quberniyada 16 çağırış məntəqəsi vardı[1035].

1892-ci ildə əkin sahələrini çəyirtkə basdığna görə, əhali həmin ili çəyirtkələri məhv etmək mükəlləfiyyətinə cəlb olunmuşdu. May-iyun aylarında davam edən çəyirtkəni məhv etmək kampaniyasına İrəvan qəzasından 744, Naxçıvan qəzasından 60000, Şərur-Dərələyəz qəzasından 86407 adam cəlb olunmuşdur. Bundan əlavə, İrəvan quberniyasında çəyirtkəyə qarşı mübarizəyə 17850 rubl ayrılmışdır. Bu puldan Naxçıvan qəzası üzrə 1102 rubl 37 qəpik, Şərur-Dərələyəz qəzası üzrə 2147 rubl 37 qəpik xərclənmiş, İrəvan qəzası üzrə isə ayrılan pulu xərcləməyə ehtiyac olmamışdır[1036].

1893-cü ildə də əhalinin yerinə yetirdiyi **mənzil mükəlləfiyyəti** üzrə **natural mükəlləfiyyət** İrəvan quberniyasının bir çox yerlərində yerinə yetirilmişdir. Məsələn, əhali Sürməli qəzasının Qulp kəndində 1-ci Ecki alayının 6-cı bölüyünün yerləşməsi üçün binanın, Naxçıvan şəhərində, Başnoraşen, İğdır və Böyük Qarakilsə kəndlərində kazaklar üçün binaların tikintisinə cəlb olunmuşdular. Mənzil mükəlləfiyyətinin ikinci tərəfi əhalidən toplanan pul vergisi idi. Hesabat ilində şəhər və zemski büdcəsindən hərbi mükəlləfiyyət üçün 36492 rubl 88 qəpik (bu da keçən ilkindən 6061 rubl 96 qəpik çox idi) xərclənmişdir[1037].

Həmin il **at-araba mükəlləfiyyəti üçün İrəvan quberniyasının** əhalisi poçt yollarından kənarda yerləşən məmurlara və digər hərbi qulluqçulara 1427 yük atı, hərbi hissələrin yerdəyişməsi üçün 2207 araba kirayə, 564 ədəd araba kirayəsiz vermişdir. Y**ol mükəlləfiyyəti üçün** şəhərlərdən kənarlarda yerləşən yeni yolların çəkilməsinə, köhnə rabitə yollarının təmirinə və həmçinin zemski mühafizə dəstələri üçün gözətçi məntəqələrinin tikin-

---

[1035] Обзор Эриванской губернии за 1892 г., с.22-25.
[1036] Yenə orada, s.22.
[1037] Обзор Эриванской губернии за 1893 г., с.18.

tisinə 72057 nəfər və 11202 yük arabası cəlb olunmuşdur. Şəhərlərdə körpülərin, küçə və meydanların təmirinə isə 7726 rubl 73 qəpik xərclənmişdir. Hesabat ilində hərbiyə çağırışın 7-ci ili tamam olurdu. Bu il **hərbi mükəlləfiyyətə** 444 nəfər xristian gənc cəlb olunmuşdur. Bu da keçən ilkinə nisbətən 164 nəfər az idi. Hərbi qulluğa çağırılan yeni heyətin saxlanması üçün 5949 rubl 8 qəpik xərclənmişdir. Bu da keçən ilkindən 324 rubl 30 qəpik az idi[1038].

1893-cü ildə çəyirtkəni məhv etmək mükəlləfiyyəti qalırdı. Həmin il Naxçıvan və Şərur-Dərələyəz qəzalarnda əkin sahələrini çəyirtkələrdən qorumaq üçün 143778 nəfər cəlb olunmuşdur. Cəlb olunan əhalidən 3856 nəfərinə ərzaq üçün pul verilmiş, digərləri isə öz əkin sahələrini bu bəladan qoruduğu üçün heç bir pul almamışdılar. Mənbənin verdiyi məlumata görə, bu kampaniyada bir nəfərdə olsun sahibkar və icradarlar iştirak etməmişdilər[1039].

1894-cü ildə quberniyanın bir çox yerlərində **mənzil mükəlləfiyyətinin** əhali tərəfindən natural şəkildə yerinə yetirilməsi haqqında məlumat verilmişdir. Hesabat ilində əhali qoşunların hərəkət istiqamətləri boyunca yerləşən kəndlərdəki hərbi hissələr üçün lazım olduqda, yataq dəsti, içmək və yemək bişirmək üçün suyu olan mənzillər ayırırdılar[1040]. Y**ol mükəlləfiyyətinə** görə, rabitə yollarının təmirinə və yeni yolların çəkilməsi üçün 184245 adam, 15879 at-araba cəlb olunmuşdur. Bundan əlavə, yerli əhali hərbi hissələrin quberniya üzrə yerdəyişməsi zamanı və məmurların səyahəti üçün 1868 at-araba və 800 yük heyvanı və at vermişdilər[1041].

Hesabat ilində h**ərbi mükəlləfiyyəti yerinə yetirmək üçün** 469 nəfər xristian gənc cəlb olunmuşdu. Bu il 8-ci çağırış ili idi. Hərbi qulluğa çağırılan yeni heyətin saxlanması üçün xəzinədən

---

1038 Обзор Эриванской губернии за 1893 г., с.18-19.
1039 Yenə orada, s.19.
1040 Обзор Эриванской губернии за 1894 г., с.18.
1041 Yenə orada, s.18-19.

6025 rubl 40 qəpik xərclənmişdir. Bu da keçən ilkindən 76 rubl 32 qəpik çox idi[1042].

1895-ci ildə də İrəvan quberniyasının bir çox yerlərində **mənzil mükəlləfiyyətinin** əhali tərəfindən natural şəkildə yerinə yetirilməsi haqqında məlumat verilmişdir. Hesabat ilində əhali qoşunların hərəkət istiqamətləri boyunca yerləşən kəndlərdəki hərbi hissələr üçün lazım olduqda, yataq dəsti, içmək və yemək bişirmək üçün suyu olan mənzillər ayırırdılar. Y**ol mükəlləfiyyətinə** görə, rabitə yollarının təmirinə və yeni yolların çəkilməsi üçün 236044 adam, 15040 at-araba cəlb olunmuşdur. Bundan əlavə, yerli əhali hərbi hissələrin quberniya üzrə yerdəyişməsi zamanı və məmurların səyahəti üçün 3402 at-araba və 759 yük heyvanı və at vermişdilər[1043].

Hesabat ilində h**ərbi mükəlləfiyyəti** yerinə yetirmək üçün 548 nəfər xristian gənc (bu da keçən ilkinə nisbətən 79 nəfər çox idi) cəlb olunmuşdur. Bu il 9-cu çağırış ili idi. Ayrı-ayrı qəzalar üzrə çağırılanların sayı belə idi: İrəvan qəzası-60; Üçmüəzzin və Sürməli qəzaları-119; Naxçıvan və Şərur-Dərələyəz qəzaları-88; Yenibəyazid qəzası-106; Aleksandropol qəzası-174. Hərbi qulluğa çağırılan yeni heyətin saxlanması üçün xəzinədən 6158 rubl 58 qəpik xərclənmişdir. Bu da keçən ilkindən 133 rubl 18 qəpik çox idi[1044].

1896-cı ildə də İrəvan quberniyasında bir çox yerlərində **mənzil mükəlləfiyyətinin** əhali tərəfindən natural şəkildə yerinə yetirməsi davam etmişdir. Həmin ildə də əvvəlki illərdə olduğu kimi, əhali qoşunların hərəkət istiqamətləri boyunca yerləşən kəndlərdəki hərbi hissələr üçün mənzillər ayırmışdılar. Y**ol mükəlləfiyyətinə** görə, rabitə yollarının təmirinə və yeni yolların çəkilməsi üçün 322381 adam və 24762 at-araba cəlb olunmuşdur. Bundan əlavə, yerli əhali hərbi hissələrin quberniya üzrə yerdəyişməsi zamanı və məmurların səyahəti üçün 6483 at-araba və

---

[1042] Yenə orada, c.17-18.
[1043] Обзор Эриванской губернии за 1895 г., с.16.
[1044] Обзор Эриванской губернии за 1895 г., с.16-18.

1027 yük heyvanı və at vermişdilər[1045].

Hesabat ilində h**ərbi mükəlləfiyyəti** yerinə yetirmək üçün 757 nəfər xristian gənc (bu da keçən ilkinə nisbətən 209 nəfər çox idi) cəlb olunmuşdur. Bu il 10-cu çağırış ili idi. İrəvan quberniyası üzrə ayrı-ayrı qəzalar üzrə çağırışçıların sayı isə belə idi: İrəvan qəzası-151; Üçmüəzzin və Sürməli qəzaları-134; Naxçıvan və Şərur-Dərələyəz qəzaları-87; Yenibəyazid qəzası-113; Aleksandropol qəzası-232. Hesabat ilində hərbi qulluğa çağırılan yeni heyətin saxlanması üçün xəzinədən 6176 rubl 76 qəpik xərclənmişdir. Bu da keçən ilkindən 18 rubl 18 qəpik çox idi[1046].

1897 ci ildə də İrəvan quberniyasında mənzil mükəlləfiyyəti natural şəkildə yerinə yetirilmişdir. Hesabat ilində mənzil mükəlləfiyyəti belə göstərilmişdir: a) qoşunların hərəkət istiqaməti boyunca yerləşən kəndlərdəki hərbi hissələrin keçməsi üçün şərait yaratmaq; b) İl boyu quberniyanın bəzi bölgələrində az sayda qoşun üçün mənzil ayırmaq[1047].

Y**ol mükəlləfiyyətinə** görə, rabitə yollarının təmirinə və yeni yolların çəkilməsi üçün 101812 adam, 11911 araba və 964 ədəd yük heyvanı cəlb olunmuşdur. Bundan əlavə, yerli əhali hərbi hissələrin quberniya üzrə yerdəyişməsi zamanı və məmurların səyahəti üçün 2857 at-araba və 1101 at vermişdi[1048].

Hesabat ilində h**ərbi mükəlləfiyyəti** yerinə yetirmək üçün 982 nəfər xristian gənc (bu da keçən ilkinə nisbətən 197 nəfər çox idi) cəlb olunmuşdur. Bu il 11-ci çağırış ili idi. İrəvan quberniyasının ayrı-ayrı qəzaları üzrə çağırışçıların sayı isə belə idi: İrəvan qəzası-104; Üçmüəzzin və Sürməli qəzaları-207; Naxçıvan və Şərur-Dərələyəz qəzaları-127; Yenibəyazid qəzası-194; Aleksandropol qəzası-328[1049].

Bir neçə illlik fasilədən sonra 1898-ci ildə əhalinin yerinə yetirdiyi **mənzil mükəlləfiyyəti** yenidən ikili-pullu və natural xa-

---

[1045] Обзор Эриванской губернии за 1896 г., с.14.
[1046] Yenə orada, s.14-16.
[1047] Обзор Эриванской губернии за 1897 г., с.19.
[1048] Обзор Эриванской губернии за 1897 г., с.19.
[1049] Yenə orada, s.19-20.

rakter almışdır: a) p**ullu** - şəhərlərdə qoşunların yerləşdiyi mənzillərin kirayəsi üçün 37250 rubl, bəzi kəndlərdə yerləşən qoşunların mənzillərinin kirayəsi üçün isə 3884 rubl 96 qəpik toplanmışdır, b) **natural -** qoşunların keçdiyi yollar üzərində yerləşən kəndlər hərbi hissələrin dincəlməsi üçün mənzil ayırmalı və bir çox kəndlər əhalini quldurlardan qorumaq üçün qoşunla birlikdə fəaliyyət göstərməli idi[1050].

Y**ol mükəlləfiyyətinə görə,** rabitə yollarının təmirinə və yeni yolların çəkilməsi üçün 101760 adam, 6509 araba və 3803 ədəd yük heyvanı cəlb olunmuşdur. Bundan əlavə, yerli əhali hərbi hissələrin quberniya üzrə yerdəyişməsi zamanı və məmurların səyahəti üçün 2837 at-araba, 1203 yük heyvanı və 1722 at vermişdi[1051].

Hesabat ilində h**ərbi mükəlləfiyyəti** yerinə yetirmək üçün 1206 nəfər xristian gənc (bu da keçən ilkinə nisbətən 252 nəfər çox idi) cəlb olunmuşdur. Bu il 12-ci çağırış ili idi. İrəvan quberniyası üzrə ayrı-ayrı qəzalar üzrə çağırışçıların sayı isə belə idi: İrəvan qəzası-236; Üçmüəzzin və Sürməli qəzaları-237; Naxçıvan və Şərur-Dərələyəz qəzaları-157; Yenibəyazid qəzası-205; Aleksandropol qəzası-371. Həmin il yeni çağırışçıların xidmətə qəbulu və şəhər və qəzalarda hərbi divanxanaların saxlanması üçün xəzinədən 5579 rubl 33 qəpik (bu da keçən ilkinə nisbətən 19 rubl 48,3 qəpik az idi) pul buraxılmışdır[1052].

1899-cu ilin **mənzil mükəlləfiyyəti** keçən ildə olduğu kimi ikili-pullu və natural xarakter almışdır: a) **pullu** - şəhərlərdə qoşunların yerləşdiyi mənzillərinin kirayəsi üçün 34658 rubl 85 qəpik, bəzi kəndlərdə yerləşən qoşunların mənzillərinin kirayəsi üçün isə 1066 rubl 96 toplanmışdır, b) **natural -** qoşunların keçdiyi yollar üzərində yerləşən kəndlərdə hərbi hissələrin dincəlməsi üçün mənzillər ayrılmalı və bir çox kəndlər əhalini quldurlar-

---

[1050] Обзор Эриванской губернии за 1898 г., с.14.
[1051] Yenə orada, s.14-15.
[1052] Обзор Эриванской губернии за 1898 г., с.15-16.

dan qorumaq üçün qoşunla birlikdə fəaliyyət göstərməli idi[1053].

İrəvan quberniyasında hesabat ilində **yol mükəlləfiyyətinə** görə, rabitə yollarının təmirinə və yeni yolların çəkilməsi üçün 49404 adam, 1782 at-araba cəlb olunmuşdur. Bundan əlavə, yerli əhali hərbi hissələrin quberniya üzrə yerdəyişməsi zamanı və məmurların səyahəti üçün 6524 at-araba, 3294 yük heyvanı və 1928 at vermişdi[1054].

Hesabat ilində h**ərbi mükəlləfiyyəti** yerinə yetirmək üçün 1603 nəfər xristian gənc (bu da keçən ilkinə nisbətən 397 nəfər çox idi) cəlb olunmuşdur. Bu il 13-cü çağırış ili idi. İrəvan quberniyası üzrə ayrı-ayrı qəzalar üzrə çağırışçıların sayı isə belə olmuşdur: İrəvan qəzası-169; Üçmüəzzin və Sürməli qəzaları-335; Naxçıvan və Şərur-Dərələyəz qəzaları-258; Yenibəyazid qəzası-329; Aleksandropol qəzası-512. Həmin il yeni çağırışçıların xidmətə qəbulu və şəhər və qəzalarda hərbi idarələrin saxlanması üçün xəzinədən 6419 rubl 21,5 qəpik (bu da keçən ilkinə nisbətən 839 rubl 91,3 qəpik çox idi) pul buraxılmış, bir yeni çağırışçının saxlanması üçün 4 rubl 44,9 qəpiyə başa gəlmişdir[1055].

1900-cu ildə də əhalinin **mənzil mükəlləfiyyəti ikili xarakter daşımışdı;** a) əhalidən alınan pul mükəlləfiyyəti - şəhərlərdə qoşunların yerləşdiyi mənzillər üçün 32307 rubl 58 qəpik, kəndlərdə qoşunların yerləşdiyi mənzillər üçün 620 rubl, b) natural mükəlləfiyyət - qoşunların yerləşdiyi və sərhəd məntəqələrində yerləşən kəndlərin əhalisi yay aylarında qoşunla birlikdə sərhədin mühafizəsinə cəlb edilirdi.

Hesabat ilində **yol və at-araba mükəlləfiyyətinə** yerli əhali aşağıdakı sayda cəlb olunmuşdu: rabitə yollarının təmiri üçün 65901 nəfər; yüklərin daşınması üçün at-araba-4896 ədəd. Bundan əlavə, quberniya hərbi hissələrinin və iş üçün ezam olunan məmurların daşınması üçün 5373 araba, 2449 at və 660 yük heyvanı cəlb olunmuşdur.

---

[1053] Обзор Эриванской губернии за 1899 г., с.13.
[1054] Yenə orada.
[1055] Yenə orada, s.14-15.

Əhainin yerinə yetirdiyi dördüncü mükəlləfiyyət **hərbi mükəlləfiyyət** idi. Bu mükəlləfiyyətə yalnız xristianlar cəlb olunmuşdu. Həmin il ayrı-ayrı qəzalar üzrə əsgərliyə çağırılanların sayı belə idi: İrəvan qəzasında-163 nəfər; Üçmüəzzin və Sürməli qəzalarında-295 nəfər; Naxçıvan və Şərur-Dərələyəz qəzalarında-242 nəfər; Yenibəyazid qəzasında-341 nəfər; Aleksandropol qəzasında-471nəfər. Ümumilikdə, İrəvan quberniyası üzrə hərbi xidmətə 1512 nəfər çağırılmışdır. Həmin il yeni çağırılanlara və İrəvan quberniyasında yerləşən hərbi hissələrə 9767 rubl 99 qəpik (keçən ilkindən 3348 rubl 78 qəpik çox) xərclənmişdir[1056].

Əvvəlki illərdə olduğu kimi, 1901-ci ildə də əhalinin **mənzil mükəlləfiyyəti ikili** olaraq qalmışdı; a) əhalidən alınan pul mükəlləfiyyəti - şəhərlərdə qoşunların yerləşdiyi mənzillər üçün 30488 rubl 43 qəpik, Aramus və Kənəkir kənd cəmiyyətlərinin Eylar kəndində qoşunların yerləşdiyi mənzilin kirayəsi üçün 120 rubl, b) natural mükəlləfiyyət-qoşunların yerləşdiyi xətt boyunca və sərhəd məntəqələrində yerləşən kəndlər yay aylarında qoşunla birlikdə sərhədin mühafizəsinə cəlb edilirdi[1057].

Hesabat ilində **yol və at-araba mükəlləfiyyətinə** yerli əhali aşağıdakı sayda cəlb olunmuşdur: rabitə yollarının çəkilişinə və təmirinə 66604 nəfər; yüklərin daşınması üçün at-araba-1578, yük heyvanı-75. Bundan əlavə, quberniya hərbi hissələrinin və iş üçün ezam olunan məmurların daşınması üçün 2817 at-araba, 1566 at və 877 yük heyvanı toplanmışdır[1058].

Əhainin yerinə yetirdiyi dördüncü mükəlləfiyyət 13-cü çağırış ili olan **hərbi mükəlləfiyyət** idi. Həmin il 1502 nəfər orduya çağırılmış və ayrı-ayrı qəzalar üzrə əsgərliyə çağırılanların sayı belə olmuşdur: İrəvan qəzasında-160 nəfər; Üçmüəzzin qəzasında-230; Sürməli qəzasında-97 nəfər; Naxçıvan qəzasında-165 nəfər, Şərur-Dərələyəz qəzasında-84 nəfər; Yenibəyazid qəzasında-307 nəfər; Aleksandropol qəzasında-459 nəfər. Həmin il yeni çağırı-

---

[1056] Обзор Эриванской губернии за 1900 г., с.14-15.
[1057] Обзор Эриванской губернии за 1901 г., с.18.
[1058] Обзор Эриванской губернии за 1901 г., с.18.

lanlara və İrəvan quberniyasında yerləşən hərbi hissələrə 8779 rubl (keçən ilkindən 595 rubl 84 qəpik çox) xərclənmişdir[1059].

1902-ci ildən sonra əhalinin yerinə yetirdikləri mükəlləfiyyətlər haqqında məlumat əldə etmək mümkün olmadı. Bu, XX yüzilliyin əvvəllərindən mükəlləfiyyətlərin pulla əvəz olunması ilə əlaqədar idi.

Beləliklə, İrəvan quberniyasında şəhər və kənd əhalisi xəzinəyə müxtlif növ vergi ödəmiş və mükəlləfiyyətlər yerinə yetirmiş, bu vergi və mükəlləfiyyətlər islahatlar nəticəsində ildən-ilə dəyişmişdir. Əvvəllər vergilərdən məhsul vergisi əsas yeri tuturdusa, sonralar pul vergisi daha üstünlük təşkil etmişdir. Vergilər hər evdən, torpaqdan, ticarətdən, şəhər əhalisinin daşınmaz əmlakından, fabrik və zavodlardan, müxtəlif nazirliklərin şöbələrindən və s. alınmışdır.

---

[1059] Yenə orada, c.18-19.

## 5.4. Su sahibliyi və sudan istifadə

İrəvan quberniyasında kənd təsərrüfatında süni suvarma sistemindən geniş istifadə edilmişdir. Bol sulu çayların olması burada kənd təsərrüfatının inkişafına təsir göstərən əsas amillərdən biri olmuşdur. Dağlıq ərazilərdə əsasən dəmyə üsulundan istifadə edilsə də, aran yerlərində süni suvarmadan geniş istifadə edilmişdir. Quberniyanın şəhər və kəndləri müxtəlif iri çaylardan və bu çaylardan çəkilmiş arxlarla suvarılırdı. Rusiya işğalından sonra Azərbaycanda, o cümlədən keçmiş İrəvan və Naxçıvan xanlıqlarında süni suvarma təsərrüfat sistemində uzun müddət tənəzzül baş vermişdi. Çarizm bu sahədə irəliləyişə nail olmaq üçün dəfələrlə komissiyalar yaratmış və ayrı-ayrı mütəxəssislər yerlərə ezam olunmuşdur. Çar hakimiyyət orqanları Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan İrəvan quberniyasında suvarma sistemində çətinliklərlə üzləşmiş və bu sahədə uzun müddət irəliləyişə nail olmamışdılar. Belə ki, işğaldan sonra Rusiya hakimiyyət orqanları kənd təsərrüfatının inkişafı üçün vacib amillərdən biri olan suvarma sistemlərini, suya nəzarət edən mirabların seçilməsini yerli əhalinin öz öhdəsinə buraxmışdı. Nəticədə yerli əhali dövlətin köməyi olmadan əvvəlki sudan istifadə qaydalarını saxlaya bilmədilər. Beləliklə, suvarma sistemində tam özbaşınalıq və qarışıqlıq yarandı. Sudan istifadədə nüfuzlu şəxslər arasında çoxsaylı sui-istifadə halları başladı. Onlar vəziyyətdən istifadə edərək öz xeyirləri üçün cinayət etməkdən belə çəkinmirdilər. Yay aylarında mübahisələr o həddə çatırdı ki, bu işə polis qarışmalı olurdu. Xalq tərəfindən seçilmiş mirablar da bu halların qarşısını almaqda aciz idilər. Onlar nəinki özləri vəzifələrindən sui-istifadə edirdilər, hətta yeni arxların çəkilməsi və köhnələrin işlək qaydada olmasına nəzarət edə bilmirdilər. Suvarma zamanı çoxlu mübahisələrin, toqquşmaların olması üzündən mirab vəzifəsi qüvvədən düşürdü[1060].

---

[1060] Писарева М.П., Очерк орошения в Закавказском крае // Свод материалов по изучению экономического быта государственных крестьян

Ən acınacaqlı hal ondan ibarət idi ki, sudan istifadəyə görə tarixən mövcud olmuş qaydalar aradan çıxır, suvarma arxları tamamilə yararsız hala düşürdü. Bütöv kəndlərə çəkilmiş iri arxlar mübahisə üzündən kiçik hissələrə parçalanmışdı. Bundan əlavə, ayrı-ayrı kəndlərin əhalisi mübahisə və toqquşmalardan qaçmaq üçün özlərinə ayrı suvarma arxları çəkməyə cəhd edirdilər. Lakin bu işə bir kəndin gücü çatmadığından arxlar düzgün çəkilmir, su itkisinə səbəb olurdu. Əhalinin sayının artması da suya tələbatı artırır və yeni arxların çəkilməsini zəruri edirdi[1061].

Suvarma sisteminin tənəzzülə uğradığını görən yerli hakimiyyət orqanları XIX yüzilliyin 30-cu illərində bu sahədə bir çox cəhdlər etsələr də, heç bir irəliləyişə nail olmadılar. Nəhayət, Azərbaycanı öz xammal bazasına çevirmək istəyən Rusiya daha çox gəlir əldə etmək üçün XIX yüzilliyin 40-cı illərindən başlayaraq kənd təsərrüfatının inkişafı üçün vacib olan su məsələsinə ciddi yanaşmağa məcbur oldu. 1840-cı ildə Rusiya Dövlət Əmlak Nazirliyinin rəisi, gizli müşavir Qamalıy Cənubi Qafqazda suvarma sisteminin vəziyyəti haqqında məlumat toplanması üçün Gürcüstandakı rus qoşunlarının komandanı, general Qolovinə xahişlə müraciət etmişdi. Bu mürəkkəb iş yerli qəza rəislərinə tapşırıldı. Lakin qəza rəisləri yerli şəraitə, adət-ənənəyə, suvarma sistemlərinə bələd olmadıqlarından məlumatların toplanması uzun çəkdi. Nəhayət, onlar tərəfindən toplanmış məlumatlar 1844-cü ildə Cənubi Qafqaz diyarının Baş İdarəsində müzakirə edildi. Müzakirənin yekunundan belə qərara gəlindi ki, bu məlumatlar yarımçıq və lazımi səviyyədə deyildir[1062].

Həmin dövrdə İrəvan qəzasının suvarma sisteminin tədqiq edilməsinə cavabdeh olan Baş İdarə Şurasının üzvü, mülki müşavir Bezak tənəzzülə uğramış arxların, suvarma qurğularının, ayrı-ayrı suvarma sahələrinin ölçüsünün layihəsinin ətraflı

---

Закавказского края, Тифлис, 1888, т.V, с.7.

[1061] Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1888, т.V, с.7.

[1062]Yenə orada, s.8-9.

hazırlanmasının vacibliyini bildirdi. Bu iş Gürcüstanda Baş İdarə rəisi, general Neyqardın, İrəvan qəza rəisi Balavatskinin və ezam olunmuş praporşik Qarnovskinin öhdəsinə tapşırıldı. 1845-ci ildən isə suvarma qurğularının öyrənilməsi məsələsi İrəvana yeni ezam olunmuş mühəndis Çerniyavskinin rəhbərliyi altında həyata keçirilməyə başladı[1063].

İrəvan quberniyasında suyun növbə ilə bölüşdürülməsi bir neçə mərhələdən keçirdi. İlk mərhələdə su kənd cəmiyyətləri, sonra hər cəmiyyətə daxil olan kəndlər arasında və sonda isə kənd daxilində əvvəlcə kənd qrupları və hər qruplara daxil olan həyətlər arasında bölünürdü[1064]. Ona görə də suyu bölüşdürmək üçün inzibati orqan fəaliyyət göstərmişdi. Buraya arxların çəkilməsi və təmirinə məsul olan inzibati şəxslər, məhkəmə-kənd məhkəmələri və bu sahədə pozulmuş qanunların bərpasını təmin edən vəkillər və nəhayət suyun oğurlanmasının qarşısının alınması üçün polis vəzifələri daxil idi. Lakin su sistemində yaradılmış bu mürəkkəb qayda-qanun XIX yüzilliyin 70-ci illərin ikinci yarısından sonra yaradılmışdı.

İlk dövrlərdə verilmiş qanun mirab və cuvarların fəaliyyətini tənzimləmək məqsədi güdmüşdür. Belə ki, 1847-ci ildə suvarma idarə sistemini "yaxşılaşdırmaq" məqdədi ilə "mirablar haqqında" qanun (bu qanun haqqında yuxarıda bəhs edilmişdir-E.Q) qəbul edildi. Ənənəvi olaraq quberniyada suya mirablar rəhbərlik edirdilər. Mirablar tarixən Azərbaycanda, o cümlədən İrəvan quberniyasında su işinə baxanlar olmuşdular. İşğala qədər İrəvan və Naxçıvan xanlıqlarında mirab dövlət tərəfindən təyin edilirdi. Lakin işğaldan sonra bu iş xalqın öz öhdəsinə buraxıldı. Mirabların seçilməsində din xadimlərindən başqa kəndlilər əsas rol oynamış və bu işdə qayda-qanun mövcud olmuşdur. Belə ki,

---

[1063] Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1888, т.V, с.9.

[1064] Егизаров С.А., Адмнистративно экономисеский строй сельской общины в Эриванской губернии // Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1887, т.1, с.37.

yazın əvvəllərində, yəni suvarma vaxtı bütün qəzalarda hər bir icma beş evdən bir öz namizədini seçirdi. Sonra qəza rəislərinin və yaxud onların köməkçilərinin iştirakı ilə bu namizədlər içindən səs vermə yolu ilə bir mirab seçilirdi. Əvvəllər mirab bir illiyə seçilirdisə, sonradan 3 illiyə seçilməyə başladı. Mirab xəzinədən deyil xalqın hesabına məvacib alırdı. Lakin bu məvaciblər mahallar üzrə fərqlənirdi. Məsələn, Naxçıvan qəzasında il ərzində mirab hər evdən 20 qəpik, Naxçıvan şəhər əhalisindən isə 305 rubl, Zəngibasar və Gərnibasar mahallarında hər evdən 15 qəpik, Vedibasar mahalında 22 qəpik məvacib alırdı[1065]. Lakin XIX yüzilliyin 80-ci illərinin ortalarına aid digər məlumatda İrəvan qəzasında mirabların aldığı məvacib müxtəlif məbləğdə göstərilmişdir. Məsələn, mirablar xidmətinə görə, İrəvan qəzasında Zəngibasar (2050 ev) və Gərnibasar (3400 ev) dairələrindən su ölçüsü olan "bel"dən (1 bel-30 litr) 10 qəpik, Vedibasar (1500 ev) dairəsindən 22 qəpik və Qırxbulaq dairələrindən isə 1 rubl 50 qəpik məvacib alırdılar[1066].

Mirab su işində həm inzibati, həm də məhkəmə hüququna malik idi. O, mahalları gəzir, ona tabe olan cuvarların işinə nəzarət edir, icmalar və yaxud icma qrupları arasında suyun bölüşdürülməsinə nəzarət edir, arxlarda su bölgüsünün işarələrini qoyur və qanun pozuntularının qarşısını alırdı. Bundan əlavə, mirablar müxtəlif kəndlər arasında həm xüsusi, həm də ümumi arx və kanallardan istifadə qaydalarını müəyyən edir və bu qaydaların pozulmasına imkan vermirdilər. Sudan istifadə qaydalarına görə bir sıra kəndlər arasında baş verən mübahisələr, su növbəsinin pozulması və özbaşınalıq kimi məsələləri mirablar

---

[1065] Материалы для изучения экономического быта государственных крестьян Закавказскаго края [в 7 томах], Тифлис, Типография А.А.Михельсона, 1885, т.1, выпуск V, с.546; Материалы для изучения экономического быта государственных крестьян Закавказскаго края, Тифлис, 1886, т.III, с.31; Егизаров С.А., Адмнистративно экономисеский строй сельской общины в Эриванской губернии, с.144.

[1066] Материалы для изучения экономического быта государственных крестьян Закавказскаго края, Тифлис, 1886, т.III, с.32.

həll edirdi. Onlar hər il suvarma arx və kanalları icarəyə götürürdü və onların işlək qaydada olmasına cavabdeh idi. Qeyd edildiyi kimi, mirablar yerli xalqın hesabına dolanırdı. Bundan başqa mirablar torpaq və bağ sahiblərindən xüsusi pul və digər hədiyyələr də alırdılar. Lakin mirabların fəaliyyəti ideal deyildi, onlar tərəfindən sui-istifadə hallarına və qanun pozuntusuna rast gəlinirdi. Tam sərbəst və nəzarətsiz olan mirab bir tərəfdən su alveri edir, digər tərəfdən vaxtilə onun seçilməsinə mane olan icmalardan qisas alırdı. Bununla belə suvarma üstündə həmişə mübahisələr, narazılıqlar yaranırdı. Bəzən bu mübahisələrin yaranmasında mirabların özlərinin günahı olurdu. Onların vəzifəsindən sui-istifadə etmələri suyun ədalətlə bölünməsinə mane olurdu. Mirablar daha çox rüşvət verən adamı su ilə təmin edirdilər. Mirab artıq sudan külli miqdarda qazanc əldə edirdi. Kəndlilər suya görə öz məhsullarını mirabla bölməyə belə hazır idi. Ona görə də, mirab bir icmada bostana, digər icmada pambıq sahəsinə, başqa icmada isə çəltik sahəsinə malik idi. Onların özbaşınalığı ona səs verməyən icmaların dağılmasına səbəb olurdu[1067].

Mirabların sui-istifadə hallarına yol verməsinin bir səbəbi də hakimiyyət orqanlarının günahı üzündən yaranırdı. Onlar vaxtı-vaxtında məvacib almır və beləliklə qanun-qaydanı biləbilə pozurdular. Məsələn, Qafqazdakı su inspektorunun 1902-ci il iyulun 4-də İrəvan qubernatoruna yazdığı məlumatda göstərilirdi ki, Şərur-Dərələyəz su dairəsinin keçmiş mirabı Kərbəlayı Məhəmməd Şahhüseyn bəy oğlu və həmin dairənin yeni seçilmiş mərhum mirabın varisləri həmin ildə onlara çatacaq məvacibin verilməməsindən şikayət etmişdilər. Məlumatda daha sonra bildirilirdi ki, nəinki mirablar hətta iki cuvar, şuranın üzvləri və mirzələr belə məvacib almamışdılar. Onların hamısına çatacaq

[1067] Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1881, выпуск 1, с.23; Егизаров С.А., Адмнистративно экономисеский строй сельской общины в Эриванской губернии // Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1887, т.1, с.144-146.

məvacibin miqdarı ümümilikdə 2626 rubl idi[1068].

Qanuna əsasən mirablara tam sərbəstlik verilməsi çar hakimiyyət orqanları tərəfindən məyusluqla qarşılamışdı. Onlar belə hesab edirdi ki, qanun köhnə adət-ənənəni-mirab, cuvar vəzifələrini saxlayırdı. Hətta İrəvan quberniyasının qubernatoru general İ.İ.Nazarov (1849-1859) bu qanunu qeyri-qənaətbəxş hesab edir, xahiş edirdi ki, suvarma işinə nəzarət etmək üçün mərkəzdən bir mütəxəssis təyin edilsin[1069].

1872-ci ildə İrəvan qubernatoru olmuş general-leytenat Karmalin su üstündə kəndlər arasında şikayətlərin çoxalmasını və mirabların öz vəzifəsindən sui-istifadə etmələrini nəzərə alaraq mirabları qəza rəislərinə tabe olmaları haqqında göstəriş vermişdi[1070]. Lakin bu da mirabların özbaşınalığının qarşısını ala bilmədi.

XX yüzilliyin əvvəllərində də belə hallara rast gəlinmişdi. Qafqazdakı su inspektorunun Qafqaz canişinliyinə göndərdiyi məlumata əsasən, 1907-ci ilin mart-aprel aylarında Azərbaycan türklərinin yaşadığı Daşarx, ermənilərin yaşadığı Daşarx, Püsyan, Təzəkənd, Sərdərabad Yalquzağaç və digər kəndlərin kəndliləri təsərrüfatlarının suvarılmasında su bölgüsündə qanunun pozulması haqqında şikayət etmişdilər. Onlar bu qanunsuzluğun yaranmasında mirab Səfiyevi günahkar hesab etmiş və onun vəzifədən kənarlaşdırılmasını xahiş etmişdilər Nəticədə, mirabın su bölgüsünü təftiş etmək üçün İrəvan qubernatoru tərəfindən komissiya təşkil edilmiş və bu komissiyaya 8-ci su sahəsinin su mühəndisi, qəza rəisi və barışdırıcı münsüf daxil olmuşdur. Komissiyanın tədqiqatının nəticələri İrəvan qubernatoruna təqdim olunmuş və mirabın günahsız olduğu məlum olmuşdur. Lakin adı çəkilən kəndlərin əhalisi Səfiyevin vəzifədən götürülməsini təkid etdiklərindən, onun yerinə Şahhüseynbəyov mirab təyin olunmuşdur. Bundan sonra Məsləhət Şurasının qərarına əsasən, kəndlilərin tələb etdiyi işçilərə və digər materiallara sahənin su

---

1068 ARMDTA, f.21, siyahı 1, iş 315, v.29 və arxası.
1069 Дингильштедт В.А., Водовладение и ирригация, с.71.
1070 Yenə orada, s.75-76.

mühəndisi cavabdeh olmalı idi. Lakin su mühəndisi yerində olmadıqda mirab qəza rəisinə tabe olmalı idi. Əgər kəndlərin ağsaqqalları və onların köməkçiləri mirabın göstərişlərini yerinə yetirməsə, mirab hər gün gəlib qəza rəisinə və yaxud pristava şikayət etməli idi. Qəza rəisinin işə qarışması nəticəsində ağsaqqallar mirabın göstərişlərinə əməl etmək məcburiyyətində qalmalı olurdular. Qəza rəisinin və pristavların işə qarışması şikayətlərin sayını azaldırdı[1071].

1910-cu il avqustun 31-də 8-ci su dairəsinin su inspektoru İrəvan qubernatoruna məktubla müraciət edərək bildirmişdi ki, Abrakunis, Kuznüt və Arazin kəndliləri Əlincəcay su dairəsinin mirabı Kərbəlayı Hətəmxan Kərbalayı Heydər oğlundan su bölüşdürülməsi işində qanunsuzluğa yol verməsindən, rüşvət almasından işkayət edərək onun başqası ilə əvəz edilməsini xahiş etmişdilər[1072].

Bu iş böyük səs-küyə səbəb olmuş və İrəvan qubernatorluğunda müzakirə olunmuşdu. Həmin kəndlərin kəndlilərinin şikayətləri nəzərə alınaraq Kərbəlayı Hətəmxan Heydər oğlu günahkar hesab olunmuş və onun vəzifəsindən uzaqlaşdırılması məqsədə uyğun bilinmişdi[1073].

Su işində ikinci inzibati orqan **cuvarlar** idi. Cuvarlar mirablara tabe idi və sırf polis rolunu oynayırdı. Mirablara tabe olmalarına baxmayaraq, cuvarlar ayrı-ayrı icmalar və yaxud kənd əhalisi tərəfindən seçilirdi. Hər bir icmanın öz cuvarı vardı. Cuvarın vəzifəsi öz icma üzvləri arasında suyu bölüşdürmək, arxlarda suyu qorumaq idi. Əgər hər hansı icma və yaxud ayrıca bir şəxs su işində qanunu pozardısa, cuvar onu bərpa etməli, bu haqda miraba xəbər verməli idi[1074].

---

[1071] ARMDTA, f.21, siyahı 1, iş 489, v. 84-89.

[1072] ARMDTA, f.21, siyahı 1, iş 628, v.1, 1 arxası.

[1073] ARMDTA, f. 21, siyahı 1, iş. 625, vərəq 8, 8 arxası.

[1074] Егизаров С.А., Адмнистративно экономисеский строй сельской общины в Эриванской губернии // Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1887, т.1, с.146.

Suyun bölüşdürülməsində icmaların daxilində seçilmiş daha bir orqan - **vəkillər və yaxud onbaşı** də fəaliyyət göstərmişdi. Onlara bəzən "dağbaşı" deyilirdi. Belə ki, yayda suyun az olduğu vaxtlarda hər bir kəndin əhalisi qruplara bölünürdü. Qruplar arasında suyun bərabər bölüşdürülməsi üçün icma daxilində vəkillər seçilirdi. Vəkillər hər bir icma daxilində qruplar arasında suyun bölüşdürülməsinə nəzarət edir və qanun pozuntusunun qarşısını alırdı. Məsələn, Naxçıvan qəzasında Alagöz-Məzrə kəndində su iki qrup arasında, Noraşendə isə 10 qrup arasında bölünmüşdü[1075]. Bu məqsəd üçün vəkillər özünə iki köməkçi fəhlə götürürdülər. Bu köməkçilərin biri suvarma sahələrini hazırlayır, digəri isə suyun fasiləsiz axmasına nəzarət edirdi[1076].

Su qruplar arasında saatla bölünür və bir neçə ailə birlikdə bundan istifadə edirdi. Belə bir şəraitdə vəkil arxlara və suyun oğurlanmasına tam nəzarət edə bilmirdi. Əgər vəkil müəyyən səbəblərdən qanun pozuntusu olan yerdə olmasa, onda qanunu bərpa etmək üçün zərərçəkən kənd məhkəməsinə müraciət edirdi. Nəticədə məhkəmə yolu ilə zərərçəkən öz itkisini bərpa edirdi[1077].

Lakin çar hakimiyyət orqanları yerlərdə mirabların azad fəliyyətinə və onların vəzifəsindən sui-istifadə hallarına çox da dözmədi. Çar hakimiyyət orqanları süni-suvarmanı nəzarətdə saxlamaq və bu sahədə idarə sistemini daha da yaxşılaşdırmaq üçün 1890-cı il dekabrın 3-də Cənubi Qafqaz bölgəsi üçün yeni qanun vermək məcburiyyətində qaldı. Bu qanun sudan istifadə qaydalarının rəsmiləşdirilməsində böyük rol oynamış, Cənubi Qafqazın ayrı-ayrı quberniyalarında su sahələri və onlara tabe

---

[1075] Материалы для изучения экономического быта государственных крестьян Закавказскаго края, Тифлис: 1885, т.1, выпуск V, с.546.

[1076] Материалы для изучения экономического быта государственных крестьян Закавказскаго края, Тифлис, 1885, т.1, выпуск V, с.546; Егизаров С.А., Адмнистративно экономисеский строй сельской общины в Эриванской губернии, с.147-148.

[1077] Егизаров С.А., Адмнистративно экономисеский строй сельской общины в Эриванской губернии, с.148.

olan su dairələri yaradılmışdı. Həmin qanuna əsasən, su müfəttişliyi və su mühəndisliyi vəzifələri təsis edilmiş, onların vəzifəsi mirab və cuvarların işinə nəzarət etmək idi. "Əsasnamə"yə görə, Qafqazda yaradılmış vahid idarə orqanı olan su müfəttişliyi, 1911-ci ildən etibarən Qafqaz su idarəsi adı ilə fəaliyyət göstərməyə başlamışdı[1078]. Bu su idarəsinin iqamətgahı Tiflisdə yerləşirdi. Su müfəttişi bütün Qafqazın suvarma sistemini Tiflisdən idarə edirdi və yerlərdə fəaliyyət göstərən su mühəndisləri ilə vasitəsiz əlaqə saxlayırdı. Onun yanında hüquq məsləhətçisi və dəftərxana da fəaliyyət göstərmişdi. Su müfəttişinin əsas vəzifəsinə bunlar aid idi: yerlərdə su mühəndisinin işinə nəzarət etmək; qüvvədə olan qanunlar yarımçıq və aydın olmadıqda, su məsələsində sual yarandıqda həqiqəti üzə çıxarmaq; su dairəsini hissələrə bölmək; suvarma sistemindən istifadə etmək hüququ haqqında vəsiqə vermək. Su müfəttisi eyni zamanda ona aid olan məsələlərin müzakirəsində Qafqazda Baş Rəisliyin yanında Mülki hissə Şurasının üzvi idi[1079].

Bu qanunda yerlərdə su işinə nəzarət edən hər bir məsul şəxsin vəzifələri və görəcəkləri işlər ətraflı təsvir edilmişdir. Cənubi Qafqazda su sahələrinə və yaxud mahallara bölünmüş bütün su məntəqələri su mühəndisinin nəzarətində idi. Hər bir mahalın isə öz inzibati şöbəsi var idi. Bu şöbəyə mirab başçılıq etmiş, ona cuvar və su nümayəndələri tabe olmuşdu. Lakin yeni qanuna görə süni suvarmanın yerlərdə əsəs başçısı su mühəndisi idı. Hər bir su mühəndisinin yanında konduktor fəaliyyət göstərmişdi. Su mühəndislərinin vəzifəsinə aid idi: a) hər hansı dairədə sudan istifadə etmək hüququ idarəsinin sədri; b) su idarəsində iştirak edən şəxslərə nəzarət etmək; v) çaydan çəkilmiş kanalların planını tərtib etmək; q) çayda, arxlarda və suvarılan sahədə suyun miqdarını təyin etmək; d) suvarma qurğularının layihəsini tərtib

---

[1078] Полное собрание законов Российской империи, Собр. Второе (1825-1881), СПб, 1867, т.42, с.762; Talıblı İ.A., XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə, Bakı, "Elm", 1980, s.85-86, s.91.

[1079] Полное собрание законов Российской империи, Собр. Второе (1825-1881), СПб, 1867, т.42, с.762.

etmək; e) sərbəst qalmış suyun miqdarını həmçinin xüsusi yerlərin qurudulması, daşqından qorumaq haqqında xəbər toplamaq; j) belə işlərin görülməsinin layihəsini, xərcini tərtib etmək; z) təsdiq edilmiş layihələrin icrasını yerinə yetirmək[1080].

Su mühəndisinə yerlərdə mirab, cuvar və su nümayəndəsi tabe idi. Bu qanunda onların hər birinin özünəməxsus vəzifələri təsvir edilmişdir. Dairə mirabı əhali tərəfindən üç illiyə seçilirdi. Onun vəzifəsinə daxil idi: a) əsas mənbədən çəkilmiş suyun kanallar üzrə bölüşdürülməsi; b) cuvarların işinə nəzarət etmək; v) su nümayəndəsinin nəzarət etdiyi kənd və şəhərlərin daxilində su bölüşdürülməsində qaydaların pozulması istisna olmaqla su bölgüsündə pozulmuş qaydanı bərpa etmək; q) iştirakçıları cuvarların tələblərinə uyğun sudan istifadə qaydasına məcbur etmək; d) sudan istifadə qaydasının gözlənməsinə ciddi nəzarət etmək[1081].

Cuvar əhali tərəfindən bir illiyə seçilirdi. Onun vəzifəsinə daxil idi; a) arxların işlək qaydada olması, suyun miqdarına nəzarət etmək, arxlar vasitəsilə kəndlərə və xüsusilə mülklərə suyun bölüşdürülməsi; b) suyu oğurlanmaqdan qorumaq. Su sistemində sonuncu cavabdeh şəxs su nümayəndəsi idi. Nümayəndənin vəzifəsinə daxil idi: a) sahibkarlar arasında suyun bölüşdürülməsinə, kənd və şəhərləri təmin edən arxların işlək qaydada olmasına nəzarət etmək; b) suyu oğurlamaqdan qorumaq; v) sudan istifadə qaydalarını pozulmasını xəbərdar etmək; q) qayda pozuntusunu bərpa etmək[1082].

Su dairə sistemində çalışan hər bir nümayəndə öz vəzifəsinə və hərəkətinə cavabdeh idi. Onlar vəzifələrindən sui-istifadə etdikdə və qaydaları pozduqda pulla cərimələnirdilər. Bu cərimənin miqdarı su mühəndisinin qərarından asılı olaraq 1 rubldan 50 rubla qədər idi. Şikayət birbaşa su müfəttişinə göndərilirdi[1083].

---

[1080] Полное собрание законов Российской империи, Собр. Второе (1825-1881), СПб, 1867, т.42, с.762.

[1081] Yenə orada.

[1082] Yenə orada, s.762-763.

[1083] Полное собрание законов Российской империи, Собр. Второе (1825-1881), СПб, 1867, т.42, s.762-763.

3 dekabr 1890-cı il qanunu 1891-ci il aprelin 1-dən qüvvəyə mindi. Qanun qüvvəyə mindikdən sonra Cənubi Qafqazda su idarələri-su sahələri və onlara tabe olan su məntəqələri yaradıldı. Nəticədə 1891-ci ildə Cənubi Qafqazda 6, 1893-cü ildə daha 2 su sahəsi və 1904-cü ildə isə yeni 1 su sahəsi yaradıldı. Beləliklə, XX yüzilliyin əvvəllərində Cənubi Qafqazda 9 su sahəsi yaradıldı[1084]. Bu bölgü 1917-ci ilə qədər davam etmişdi. Yaradılan hər bir ümumi su sahəsinə ayrı-ayrı quberniyalar üzrə bir neçə su dairəsi daxil idi. Yaradılan hər bir su dairəsi müəyyən çay hövzəsini və ya inzibati ərazini əhatə edirdi[1085]. Bu su sahələrinin yaradılmasının əsas səbəbi suvarma sistemində nizam-intizam yaratmaq, kəndlər arasında mübahisəli məsələləri və bu sahədə olan problemləri tez bir zamanda aradan qaldırmaq idi.

Verilən qanun Azərbaycanın ayrılmaz tərkib hissəsi olan İrəvan quberniyasına da şamil edilmişdi. 1893-cü ildə İrəvan quberniyası iki su - 2-ci və 8-ci su sahələrinə bölünmüş, 1904-cü ildə isə burada daha bir-7-ci su sahəsi yaradılmışdı. 1895-ci il məlumatına görə, İrəvan quberniyasında 2-ci və 8-ci su sahələrinə 15-ə qədər su dairəsi daxil idi. Hər bir qəza bir neçə su dairəsinə bölünmüşdü. Həmin dairələr qəzalar üzrə bunlar idi: İrəvan qəzasında 4 su dairəsi – Qırxbulaq, Zəngibasar, Gərnibasar və Vedibasar; Naxçıvan qəzasında 4 su dairəsi – Xok, Naxçıvan, Əlincəçay və Dostu; Sürməli qəzasında 2 su dairəsi – Sürməli və Parçin; Üçmüəzzin qəzasında 3 su dairəsi – Abaran, Sərdarabad və Talın; Şərur-Dərələyəz qəzasında 1 su dairəsi; Aleksandropol qəzasında 1 su dairəsi. Mənbənin verdiyi məlumata görə, bu siyahıda Yenibəyazid qəzası göstərilməsə də, lakin bu qəzada iki su dairəsinin açılması nəzərdə tutulmuşdu[1086].

Su sahələri yaradıldıqdan sonra İrəvan quberniyasında sudan istifadə qaydasında müəyyən işlər görülmüşdur. Quberni-

---

[1084] ARTA, f.429, siyahı 1, iş 579, v.7.
[1085] Talıblı İ.A., XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə, s.89.
[1086] Обзор Эриванской губернии за 1995 год, с.4.

yada açılan su dairələrində xüsusi tədqiqat işi aparılmış, bu dairələrdə suyun, suvarılan torpaqların miqdarı, əkilən kənd təsərrüfatı bitkilərinin növü, həmçinin su arxlarının sayı və çəkiləcək arxların layihələri haqqında məlumat toplanmışdır. Bundan əlavə, su dairələri açılan vaxtdan 1896-cı il yanvarın 1-ə qədər quberniyada suvarma sistemində müəyyən işlər görülmüş, kəndlər arasında su üstündə mübahisəli məsələlərə aydınlıq gətirilmiş, əlavə arxlar çəkilmiş və qazılacaq arxların layihələri hazırlanmışdır. Həmin məsələlər bunlardır; 1. İrəvan qəzasında Ərdəşar və Məsumlu kəndləri, Dvin və Dvin-Kürdkənd kəndləri arasında çoxdan mövcud olmuş su mübahisələrinə son qoymaq üçün əlavə arxlar qazılmış, Dvin və Ərdaşar arxlarına xüsusi şülüzlər qoyulmuşdur; 2. Yeni ümumi arxın çəkilməsi nəticəsində Aytaq, Samaqar və Zeyvə kəndləri arasında iyrimi illik mübahisəyə son qoyulmuş, həmin kəndlər və Üçmüəzzin qəzasında Tos kəndi arasında sudan istifadədə qayda-qanun yaradılmışdır; 3. Üçmüəzzin qəzasında Azərbaycan türk kəndi olan Zeyvə və Körpəli kəndləri arasında sudan istifadəni düzgün təmin etmək üçün Körpəli arxında şülüz qoyulmuş və üç verst uzunluğunda əlavə arx çəkilmişdir; 4. İrəvan qəzasında Uluxanlı arxından istifadəyə görə, Uluxanlı, Hacı İlyas və Ağcaqışlağı kəndləri arasında uzunmüddətli mübahisələrə son qoyulmuşdur; 5. Həmçinin əlavə ümumi arxın çəkilməsinə görə, Kolanı-Aralıx və Üçmüəzzin qəzasının Xatunarx kənd cəmiyyətinin digər kəndləri arasında mübahisələrə son qoyulmuşdur; 6. Sürməli qəzasında dağ sürüşməsi nəticəsində xarab olmuş Pirli arxı bərpa olunumuşdur; 7. Üçmüəzzin qəzasının Aşağı Aylanlı kəndinin əkin sahələrini daşqınlardan qorumaq üçün Karpinka çayının məcrası təmizlənmişdir; 8. Üçmüəzzin qəzasının Körpəli, Aytaq, Samaqar və digər kəndlərinin Araz çayından sudan təchizat qaydası tədqiq edilmiş, 7000 desyatin torpağı suvarmaq üçün ümumi 170 verst uzunluğunda arx çəkilməsi planlaşdırılmışdır; 9. Vedibasar su dairəsində suyun miqdarını artırmaq və 2000 desyatinə qədər yeni torpaq sahələrini suvarmaq üçün Yenibəyazid qəzasında Ağrıçay çayından İrəvan qəzasının Vediçay çayına qədər 20

verst uzunluğunda çəkilən arxda tədqiqatlar aparılmışdır; 10. Sürməli qəzasının Şıxbezanlı, Saraqlı-Prço və digər kəndlərini daşqından qorumaq üçün Xanaqov arxından əlavə suvarma arxı çəkilməsi üçün layihə tərtib edilmişdir; 11. Şərur-Dərələyəz su dairəsində Yuxarı Arpaçayın suyu ilə dağılan Pusian, Dördkənd və Lökba-basar bəndləri yenilənmişdir; 12. Naxçıvançay çayında suyun səviyyəsini artırmaq üçün bulaqların təmizlənməsi üçün əlavə tədqiqat işləri aparılmış, bunun üçün 15000 rubl vəsait ayrılmışdır. Həm icmalar, həm də özəl tədbirlər əsasında görülən bu tədbirlər nəticəsində suyun bölüşdürülməsində qayda-qanun yaradılmasına və bununla mirabların özbaşınalığının qarşısının alınmasına cəhd göstərilmişdir[1087].

XX yüzilliyin əvvəllərində ayrı-ayrı su sahələrinə tabe olan su dairələri, onlara tabe olan qəza və kəndlər və su mühəndisləri haqqında ətraflı məlumat verilmişdir. 1902-ci il və 1906-cı il məlumatlarına görə, İrəvan quberniyasında 2-ci su sahəsinə 10 su dairəsi daxil olmuşdur. 2-ci su sahəsinə İrəvan şəhərinin şimal hissəsi, Göyçə gölü hövzəsi və Pəmbək çayının yuxarı axarlarından başqa Aleksandropol qəzası daxil idi. Bu su məntəqəsinin rabitə yollarının mühəndisi V.Kaşkin, sonradan isə Mixail Qriqorieviç Sanaov olmuş və onlar İrəvan şəhərində yerləşmişdilər. Bu mühəndislərin yanında konduktor da fəaliyyət göstərmiş və 1914-cü ilin məlumatına görə 2-ci su məntəqəsinin konduktoru Heydərqulu bəy Əlibəyov olmuşdur[1088]. 2-ci su sahəsinə müxtəlif dairə, qəza, kəndlər və hətta burada fəaliyyət göstərən mirablar daxil idi. Həmin su dairələri, onlara tabe olan inzibati ərazilər və mirabların adları bunlar idi: 1. Qırxbulaq su dairəsi - ona İrəvan qəzasında İrəvan şəhərinin bir hissəsi, Göykilsə, Yeni Nikolayevka, Nurnus, Qaya-Xaraba kəndlərindən başqa Kənəkir kənd cəmiyyəti, Aramus kənd cəmiyyətindən Aramus, Ağazor, Başkənd, Qəmriz, Kaşal, Çatqıran, Tacirabad

[1087] Обзор Эриванской губернии за 1995 год, с.5.
[1088] Памятная книжка Эриванской губернии на 1912, с.24; Памятная книжка Эриванской губернии на 1914, с.50.

və Tutiya kəndləri daxil idi. Həmin kəndin mirabı Muşeqov olmuşdur; 2. Zəngibasar su dairəsi (bura İrəvan qəzasının bir hissəsi və Yenibəyazid qəzasının kəndləri daxil idi) - ona İrəvan qəzasında İrəvan şəhərinin digər hissəsi, Rəhimabad kəndindən başqa Şirabad kənd cəmiyyəti, Muxtarabad, Qulucan kəndlərindən başqa Noraqovit kənd cəmiyyəti, Reyhanlı, Seyidkənd kəndlərindən başqa İmamşalı kənd cəmiyyəti, Yenibəyazid qəzasında Quru Fantan, Makranank kəndlərindən başqa Aşağı Axtı kənd cəmiyyəti, Farux kəndindən başqa Randamanlı kənd cəmiyyəti, Qorux-Güney, Yeni Mixaylovski və Soyuq Bulaq kəndlərindən başqa Tayçarıx kənd cəmiyyəti, Ərsəkənd kənd cəmiyyəti və Çırçır kənd cəmiyyətindən Şəhriz və Tutmakənd kəndləri daxil idi. Bu su dairəsinin mirabı Ter-Matevosov olmuşdur: 3. Gərnibasar su dairəsi (bura yalnız İrəvan qəzasının bir hissəsi daxil idi) - ona Aramus kənd cəmiyyətindən Əkərək kəndi, Kaş-Abdallar, Çanqlı, Keotuz, And, Xosrov, Pirli, Abdallar kəndlərindən başqa Başgərni kənd cəmiyyəti, İmamşalı kənd cəmiyyətindən Cabaçalı, Qaradağlı, Alpava, Xaratlı, Buqamlu, İmamşalı və Ağamzalı kəndləri, Qafarlı kəndindən başqa Uğurbəyli kənd cəmiyyəti, Koylasar kənd cəmiyyəti, Yaypa kəndindən başqa Divin Aysor kənd cəmiyyəti və Azərbaycan türk kəndi olan Qəmərli, Bəycanqanlı, Yuxarı və Aşağı Darğalı kəndlərindən başqa Qəmərli kənd cəmiyyəti daxil idi. Bu kəndin mirabı Bədəlov olmuşdur; 4. Abaran su dairəsi (bura yalnız Üçmüəzzin qəzası daxil idi) - ona Əştərək kənd cəmiyyətindən Aytaq, Vaqarşapat, Xatun-arx, Qızılteymur, Yeqvard kənd cəmiyyətindən Yeqvart və Dövrü-xarab kəndləri, Başabaran kənd cəmiyyətindən Əliqoçaq və Təkərli kəndləri, Kuşi, Noraşen, Tacirli və Astvanantel kəndlərindən başqa Qarakilsə kənd cəmiyyəti, Parpi kənd cəmiyyətindən Şərəfabad, Türkmənli, Qarhun, Xaraba-Kolanı, Rəncbər və Yuxarı və Aşağı Qulubəyli kəndləri, Talın kənd cəmiyyətindən Talın, Dian, Mağli və Aşağı Ağçali kəndləri və Talış və Qadirabad kəndlərindən başqa Qoş kənd cəmiyyəti daxil idi. Bu su dairəsinin mirabı Aslanov olmuşdur; 5. Sərdarabad su dairəsi (bura Üçmüəzzin qəzasının bəzi kəndləri

daxil idi) - ona Qurdulu, Sərdarabad və Şəhriyar kənd cəmiyyətləri, Yaycılar, Çubuxlu, Markara, Molla Bədəl kəndləri, Ərdaşar-Qarxun kənd cəmiyyəti, Mirzəxan kəndi və Əyrisifət-Buqutlu kənd cəmiyyəti daxil idi. Bu dairənin mirabı Novruzəlibəyov olmuşdur; 6. Talın su dairəsi (bura Üçmüəzzin qəzasının bəzi kəndləri daxil idi) - ona Abaran dairəsində yerləşən Talın kəndindən başqa Talın kənd cəmiyyəti, Abaran dairəsində yerləşən Dian və Madqa kəndlərindən başqa Aşağı Ağçaqala kənd cəmiyyəti daxil idi. Bu dairənin mirabı Ələşrəf bəy Ələsgər ağa oğlu olmuşdur; 7. Sürməli su dairəsi (bura Sürməli qəzasının bəzi kəndləri daxil idi) - ona Yaycı kənd cəmiyyətindən İğdır, Yaycı kəndləri, Əliqoçaq kənd cəmiyyətindən Əliqoçaq, Xaraba Məzrə, Yuxarı Bəndəmurad, Gündə, Muça, Zor, Dibəkli, Bəndəmurad, Örüşmüş, Siçanlı, Daşlıca, Qaraqasar kəndləri, Aralıx-Başkənd kənd cəmiyyəti, Həsənxan, Qaraqoyunlu, Qraçbağ və Riza kəndlərindən başqa Daşburun kənd cəmiyyəti, Randaman kənd cəmiyyətindən Həsən xan, Diza, Qobı, Yuxarı və Aşağı Qraçbağ kəndləri daxil idi. Bu dairənin mirabı Əlibəy Rəhimbəy oğlu olmuşdur; 8. Porçin su dairəsi (bura Sürməli qəzası daxil idi) - ona Qulp, Yağlı, Gül Əhməd və Axundabad kəndlərindən başqa Güllücə kənd cəmiyyəti, Yezid Həsənli kənd cəmiyyətindən Aşıq Hüseyn kəndi, Mirzəxan, Şəmi, Almalıx, Yeni və Köhnə Ağdaş, Kiliçi, Təkaltı və Əlixanlı kəndlərindən başqa Oğrucin kənd cəmiyyəti və Radik Sinakski kənd cəmiyyətindən Qaranlıq, Cavanlı, Badıqlı, və Qazıqoparan kəndləri daxil idi. Bu dairənin mirabı Həsənov olmuşdur; 9. Aleksandropol su dairəsi (bura Aleksandropol qəzasının kəndləri daxil idi) - ona 3-cü Arıqvəli kəndindən başqa Cacur kənd cəmiyyəti, Xınalı və Çıraxlı kəndlərindən başqa Böyük Kəpənək kənd cəmiyyəti, Kaftarı kənd cəmiyyətindən Ağqulaq, Qırxdayırman, Azərbaycan türklərinin və ermənilərin birlikdə yaşadığı Gözəldərə kəndləri, Hacı Xəlil kənd cəmiyyətindən Qızılqoç, Bozyoxuş, Güllübulaq kəndləri, Qızılqoç kənd cəmiyyəti, Yuxarı və Aşağı Qalaca, Elli Qarakilsə və Kiçik Qarakilsə kəndlərindən başqa Ortakilsə kənd cəmiyyəti, Çırpılı, Qızılkilsə, Baburlu, Yengiköy,

Balul, Xrom, Artik, Söyüdlü kəndlərindən başqa Dovşanqışlağı kənd cəmiyyəti və Kiçik Qırıq kəndlərindən başqa Molla Göyçə kənd cəmiyyəti daxil idi. Bu su dairəsinin mirabı Günəşov olmuşdur; 10. Yenibəyazid su dairəsi (bura Yenibəyazid qəzasının kəndləri daxil idi) - ona Ağzıbir kənd cəmiyyətindən Kosaməmməd, Kərimkənd və Paşakənd kəndləri, Dəliqardaş kənd cəmiyyəti, Çaqkar kəndindən başqa Göl kənd cəmiyyəti, Karvansaray kəndindən başqa Qaranlıq kənd cəmiyyəti, Qızılvəng, Oğuzlu kəndlərindən başqa Gözəldərə kənd cəmiyyəti, Yenicə Qaraqoyunlu, Kiçik Yenicə Qaraqoyunlu kəndlərindən başqa Basarkeçər kənd cəmiyyəti və Məzrə kənd cəmiyyəti daxil idi. Burada yerli su idarəsi yaradılmamışdı[1089] [10, s.14-16; 11, s.34-36].

İrəvan quberniyasında fəaliyyət göstərən 8-ci su sahəsinə isə 6 su dairəsi daxil olmuşdur. Bu su sahəsi özündə İrəvan, Şərur-Dərələyəz və Naxçıvan qəzalarının kəndlərini birləşdirmişdi. 8-ci su sahəsinin su mühəndisi V.A.Zuyev olmuş və o, Naxçıvan şəhərində otururdu. Onun yanında konduktor S.K.Ter-Astvaçaturov fəaliyyət göstərmişdi[1090]. 8-ci su sahəsinə daxil olan ayrı-ayrı su dairələri və bu dairələrdə birləşən kənd cəmiyyətləri və onlara başçılıq edən mirablar bunlar idi: 1. Vedibasar su dairəsi (bura İrəvan qəzasının kənd cəmiyyətləri daxil idi) - ona Armik, Qaraxaç, Vedibasar, Dəvəli və Sədərək kənd cəmiyyətləri daxil idi. Buranın mirabı Dəvəli kənd sakini Teymur bəy Yelizarov olmuşdur; 2. Şərur-Dərələyəz su dairəsi - ona bütün Şərur-Dərələyəz qəzasının kəndləri daxil idi. Bu dairənin mirabı Başnoraşen kənd sakini Xəlil ağa Sofiyev olmuşdur; 3. Xok su dairəsi - ona Naxçıvan qəzasının Qıvraq kənd cəmiyyəti və Çağrı kənd cəmiyyətindən Ağcayurd kəndi daxil idi. Bu dairənin su idarəsi yox idi; 4. Naxçıvan su dairəsi - ona Naxçıvan şəhəri, Tunbul, Şıxmahmud, Qarababa, Diqin

---

[1089] Памятная книжка Эриванской губернии на 1902, с.14-16; Памятная книжка Эриванской губернии на 1906, с.34-36.
[1090] Памятная книжка Эриванской губернии на 1912, с.24; Памятная книжка Эриванской губернии на 1914, с.50.

Əlincə kənd cəmiyyətləri, Kərimәli kəndi, Aznayurd kəndindən başqa Çağrı kənd cəmiyyəti, Nehrəm kənd cəmiyyətindən Nehrəm kəndi, Qazança kənd cəmiyyətindən Surab, Kahab, Şahmiranşah, Kərbalayı Oruc, Diza, Zeynəddin, Naxşi-Nərciz, Nəzərəlibəy, Göymuk, Nağacir və Sürməli kəndləri daxil idi. Bu dairənin mirabı Naxçıvan şəhər sakini Məşədi Qədim Qədimov olmuşdur; 5. Əlincəçay su dairəsi-ona Nehrəm kənd cəmiyyətindən Küznüt və Culfa kəndləri, Abrakunis kənd cəmiyyəti, Qazança kənd cəmiyyətinin digər kəndləri, Çinçinab kənd cəmiyyətindən Biləv kəndi, Əzin kənd cəmiyyətindən Kərimqulu-diza kəndi daxil idi. Bu dairənin mirabı Əzin kəndinin sakini Kərbəlayi İsmayıl Məmmədəli oğlu olmuşdur; 6. Dostu su dairəsi - ona Ordubad şəhəri, Yuxarı Əylis, Əzin, Vənənd və Çinabab kənd cəmiyyətləri daxil idi. Bu dairənin mirabı Ordubad kənd sakini Hacı İskəndər Hacıyev olmuşdu[1091].

Lakin 1912-ci və 1914-cü illər məlumatına görə isə İrəvan quberniyasına daxil olan su sahələrində artım baş vermiş, 2-ci su sahəsinə daha bir su dairəsi əlavə edilmiş və həmin su dairəsi Yenibəyazid qəzasında yaradılmış Göyçə su dairəsi idi. Bu su dairəsinə Yenibəyazid şəhəri, Ağzıbir kənd cəmiyyətindən Kosaməmməd, Kərimkənd və Paşakənd kəndləri, Çakkar kəndindən başqa Göl kənd cəmiyyəti, Qaranlıq kənd cəmiyyəti, Oğuzlu kəndindən başqa Gözəldərə kənd cəmiyyəti, Basarkeçər, Məzrin və Dəliqardaş kənd cəmiyyətləri daxil olmuşdu[1092].

Bundan əlavə, 1912-ci ildən başlayaraq İrəvan quberniyasının Aleksandropol qəzasının bir hissəsi yeni 7-ci su sahəsinə daxil olmuşdu. Yuxarıda göstərildiyi kimi, qəzanın müəyyən hissəsi 2-ci su sahəsinə tabe idi. 7-ci su sahəsinin su mühəndisi Sergey Feodoroviç Zavalişin təyin olunmuş, o, Tiflis şəhərində yerləşmişdi. Ona tabe olan konduktor isə Aleksandr Feodoroviç

---

[1091] Памятная книжка Эриванской губернии на 1902, с.17; Памятная книжка Эриванской губернии на 1906, с.37.

[1092] Памятная книжка Эриванской губернии на 1912, с.30; Памятная книжка Эриванской губернии на 1914, с.34.

Pleşkov idi[1093].

Beləliklə, İrəvan quberniyasında XX yüzilliyin əvvəllərində 3 su sahəsi fəaliyyət göstərmiş, həmin su sahələri özlüyündə 18 su dairəsini birləşdirmişdi.

Hakimiyyət orqanları qanun və sərəncamlar verməklə bərabər arxların təmir olunmasına da cəhd edirdi. Belə ki, 1846-cı ilin baharında İrəvan və Üçmüəzzin qəzalarında suvarma arxlarının yenidən təmir olunmasına başlandı. İrəvan qəza rəisinin və mühəndis Çerniyavskinin rəhbərliyi ilə həyata keçirilən təmir işi 1848-ci ilə kimi davam etmişdi. Təmir işinə yerli əhalidən 19 min adam və 1000-dən çox at-araba cəlb edilmiş və 7 min rubl xərclənmişdi[1094]. İki il ərzində bir neçə arx təmir edilmişdir. Həmin təmir olunan arxlar bunlar idi: İrəvan qəzasında Qırxbulaq, Horavit, Çorbax arxları; Üçmüəzzin qəzasında Sərdarabad, Mollabəyazid, Cəfərabad arxları; Şərur dairəsində Xarabadaşar arxı. Xeyli güc və pul sərf olunmasına baxmayaraq, arxların təmiri gözlənilən nəticəni verməmişdi. Məsələn, Qırxbulaq, Noravit, Sərdarabad, Cəfərabad və Xarabadaşar arxları istifadəyə verilməsinin elə birinci ili tamamilə yararsız hala düşdü. 1849-cu ildə yalnız iki arx salamat qalmışdı. 1857-ci ildə Sərdarabad arxı yenidən təmir olunmağa başladı. Lakin 1858-ci ildə Araz çayında baş verən daşqınla əlaqədar olaraq görülən işlər tamamilə məhv oldu[1095].

Dövlət Əmlak Nazirliyinin mühəndisi Yanuşevski İrəvan qəzasında görülən təmir işlərinin boşa çıxmasının səbəbini lazımı vəsaitin və daimi texniki nəzarətin olmamasında görürdü. O, İrəvan quberniyasında süni suvarma arxlarının diqqətlə öyrənilməsini su mühəndisinə tapşırıldığını bildirmişdi[1096]. Lakin su işinə başçılıq

---

[1093] Памятная книжка Эриванской губернии на 1912, с.30; Памятная книжка Эриванской губернии на 1914, с.50.

[1094] Писарева М.П., Очерк орошения в Закавказском крае // Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1888, т.V, с.10.

[1095] Yenə orada.

[1096] Yenə orada, s.10.

edən mühəndislər belə yerlərdə olan vəziyyətdən şikayət edirdilər. İrəvanın ilk su mühəndisi Frolov deyirdi ki, qubernatorun sərancamında olan mühəndis onun sərəncamlarını yerinə yetirməli, susuz ərazilərə yeni arxların çəkilməsi işi ilə məşğul olmalıdır. Lakin yeni layihələrin yerinə yetirilməsi üçün vəsait yox idi. Hətta qubernatorun sərəncamında belə vəsait çatışmırdı. Baş İdarənin də imkanı olmadığından bu işlərin görülməməsinə təəssüflənmişdi[1097].

Lakin buna baxmayarq, Azərbaycanda su mənbələrinin vəziyyətinin yoxlanılması davam edirdi. 1847-ci ildə Qafqaz canişini knyaz Vorontsov Cənubi Qafqazda suvarma sistemlərini yenidən yoxlamaq üçün mülki müşavir Qaqameysterə və su mühəndisi podporuçik Bekmana xüsusi tapşırıq vermişdi. Onlar bu işə 8 ay vaxt sərf etdilər və nəticədə 14 layihə tərtib edildi. Beşinci və on dördüncü layihə İrəvan quberniyasına aid idi. Beşinci layihədə Naxçıvan qəzasında Yazıyurd arxının, Qanlıgöl su anbarının yenidən təmir olunması, on dördüncü layihəyə isə Quru-fontan adlanan torpaqlara Göycə gölündən və yaxud Zəngi çayından yeni arxlar çəkmək daxil idi. İrəvan qubernatorunun razılığı ilə Qanlıgöl su anbarı yerli əhalinin, yarı xəzinənin, yarı da yerli mülkədarların xərci ilə Kəlbəli xan Haxçıvanlının başçılığı ilə 1859-1860-cı illərdə yenidən təmir olundu. Lakin anbarın ətrafına çəkilmiş daş bənd tezliklə yenidən sıradan çıxmışdı. Naxçıvan qəzasının rəisi Şahgirey onu yenidən təmir etməyə məcbur olmuşdu. XIX yüzilliyin 80-ci illərinin əvvəllərində bu su anbarı tamamilə yararsız hala düşdü, hal-hazırda ondan istifadə olunmur[1098].

Göyçə gölündən Zəngi çayının sol sahilində Axtı və Quru fontan stansiyaları arasında olan torpaqlara yeni arxın çəkilməsi layihəsi 10 il təxirə salınmışdı. Lakin su mühəndisi Frolovun yeni yoxlamasından sonra bu arxın bir qədər istiqaməti dəyişmiş,

---

[1097] Дингильштедт В.А., Водовладение и ирригация, с.71-72.

[1098] Писарева М.П., Очерк орошения в Закавказском крае // Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1888, т.V, с.12.

yuxarıdan çəkilməsi qərara alınmışdı. Bu arxın çəkilməsi 1859-cu ildə başlamış və iki il yarıma çəkilmişdi. Arxın uzunluğu 56 verst olmalı idi. Arxın çəkilməsində 75 min işçi iştirak etmiş və 5 min rubl xərc çəkilmişdi. Lakin işçilərin ağır, məşəqqətli işdən şikayətlənmələri, arxda güclü sızma nəticəsində suyun məcradan çıxması, sonrakı işlərin mənasız olduğunu üzə çıxarmışdı. Tiflisdən göndərilmiş xüsusi komissiya belə nəticəyə gəldi ki, arxın layihəsi bir çox hallarda müvəffəqiyyətsiz tərtib olinub. Ona görə də, arxın tikintisi dayandırıldı. Bununla belə 8 verstə yaxın arx qazılmışdı[1099].

Görülən işlərə baxmayaraq, İrəvan quberniyasında suvarma sistemində vəziyyət bərbad olaraq qalırdı. Baryatinski Qafqazda canişin vəzifəsinə başlayan kimi ilk dəfə suvarma məsələsində texniki imkanların öyrənilməsi üçün cəhd etdi. Onun göstərişi ilə ingilis mühəndisləri Bell və Qab Cənubi Qafqazda suvarmada texniki vəziyyəti öyrənmək üçün fəaliyyətə başladılar. Bu iş 2,5 il davam etdi (1860-cı ildən 1863-cü ilin ortalarına qədər). Daha üç il (1863-cü ildən 1866-cı ilin mayın axırına qədər) isə Tiflis yaxınlığında Kür çayının səviyyəsi ölçüldü[1100]. Hər iki mühəndis böyük iş görsə də, bu qənaətbəxş olmadı.

1873-cü ildə Qafqaz canişinin olmadığı illərdə müvəqqəti bu vəzifəni aparan Baş İdarənin rəisi, mülki müşavir baron Nikolay Qafqazda su sistemində qanun və qaydaları öyrənmək üçün xüsusi komissiya yaratdı. Komissiya 1880-ci ilə qədər fəaliyyət göstərdi və yerli əhalinin sudan istifadə qaydaları haqqında məlumat topladı. Lakin bu komissiyanın gəldiyi nəticə də heç nəyi həll etmədi. Yenə də yerlərdə bu sahədə vəziyyət gərgin olaraq qalır, narazılıq baş alıb gedirdi[1101].

1883-cü ildə Cənubi Qafqaza səfər edən Dövlət Əmlak Naziri, mülkü müşavir Ostrovskiy bölgədə suvarma sistemində vəziyyəti yaxşılaşdırmaq üçün sonuncu dəfə komissiya təşkil

---

[1099] Писарева М.П., Очерк орошения в Закавказском крае, с.12
[1100] Yenə orada, s.16.
[1101] Yenə orada, s.20.

etdi. Komissiyaya 16 texnik, hüquqşünas və yerli inzibati idarələrdən olan mütəxəssislər daxil oldu. Bu məqsədlə iclaslar keçirilirdi. Hətta iclaslarda İrəvan, Bakı və Yelizavetpol quberniyalarından mirablar da iştirak edirdilər. Nəhayət, həmin ildə komissiya öz işinə yekun vuraraq, "Zaqafqaziyada torpağı suvarmaq üçün su işində qanun və qaydanın vəziyyəti haqqında" layihə tərtib etdi. Qafqaz baş komandanlığının mülki hissəsinin müşavirəsində bəyənilən layihə 1884-cü ilin yanvarında Dövlət Əmlak Nazirliyinə təqdim edildi. Bu layihə uzun müddət müzakirə obyektinə çevrildi[1102].

Bu komissiyanın əhəmiyyətli fəliyyətlərindən biri də ondan ibarət idi ki, ilk dəfə suvarma xəritəsi tərtib olundu. Onu 1883-cü ildə qraf fon Veysenqof tərtib etmişdi[1103].

Beləliklə, Rusiya işğalından sonra hakimiyyət orqanları Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan İrəvan quberniyasında su işindən düzgün istifadə etmək və bu sahədə qayda-qanun yaratmaq üçün uzun müddət çalışmalı olmuşdular.

İrəvan quberniyasında müxtəlif suvarma sistemləri mövcud olmuşdu. Bunlardan çayları, bulaqları, kəhrizləri və süni yaradılmış su anbarlarını göstərmək olar. Geniş taxıl zəmilərini, pambıq və çəltik sahələrini, bağları, bostanları suvarmaq üçün çaylar əsas rol oynayırdı. İrəvan quberniyasında əsas suvarma sistemi Araz çayı və ondan çəkilən arxlar, Göyçə gölünə tökülən çaylar, göldən müxtəlif istiqamətlərə çəkilən arxlar, Vediçay, Gərinçay, Arpaçay, Zəngi, Qırxbulaq, Naxçıvan çayları və digər çay və arxlar əhəmiyyətli rol oynamışdır. Araz çayından müxtəlif kəndləri suvaran arxlar çəkilmişdi. Bu çaydan əsasən İrəvan quberniyasının beş - Sürməli, Üçmüəzzin, İrəvan, Şərur-Dərələyəz, Naxçıvan qəzalarının Arazın hövzəsində yerləşən torpaqları suvarılırdı[1104].

---

[1102] Писарева М.П., Очерк орошения в Закавказском крае, с.21.
[1103] Yenə orada, s.23.
[1104]Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1887, т.II, с.48-51.

İrəvan qəzasında əkin sahələrini suvarmaq üçün əsas su mənbələri Araz, Zəngi, Qırxbulaq, Gərni, Vedi, Dəvəgözü, Ciqin, Çanax, Aşağı və Yuxarı Qarasu çayları və bulaqlar idi. Bu çaylardan qəzanın ayrı-ayrı kəndlərinə arxlar çəkilmişdi. Zəngi çayı Göyçə gölündən axaraq 12 kəndi - xəzinə və xəzinə mülkədar kəndləri olan Varmazyar, Hacıilyaz, Göykümbəz, Cəfərabad, Çalalay, Norakovit, 1-ci Təzəkənd, Uluxanlı, Hacıhəsənəf, Orucadası, Şarlimehmandar, Aşağı Şinqovit, Şirabad (Parakər) və bir mülkədar kəndi oan Kolanı kəndini suvarırdı[1105]. Zəngi çayından 8 arx çəkilmişdi. Onun sol tərəfindən çəkilən birinci arx saniyədə 55 bel su verirdi ki, bu su ilə İrəvan şəhərinin aşağı hissəsi (1 kürək), mülkədar kəndi Yuxarı Şinqovit (10 kürək), Zəngibasar dairəsinə məxsus 1-ci Təzəkənd (9 kürək), Aşağı Şinqovid (12 kürək) və Noraqovit (14 kürək), 2-ci arx (20 kürək) Çalallay (10 kürək), mülkədar kəndi Carbax (10 kürək), çayın sağ tərəfindən çəkilən 3-cü arx (50 kürək) Cəfərabad (10 kürək), həm xəzinə, həm də xüsusi şəxsə məxsus Göykümbəz (4 kürək), Şirabad (Parakər) (20 kürək), mülkədar kəndi Nəsirabad (6 kürək) və Varmazar (10 kürək), çayın sol sahilindən başlanğıcını götürən, 20 kürək su tutumu olan 4-cü arx Göykümbəz, çayın sol sahilindən başlayan, su tutumu 37 kürək olan 5-ci arx mülkədar kəndi olan Ağcaqışlaq və Uluxanlı (8 kürək), Hacıhəsənəf və Orucadası (29 kürək), çayın sol sahilindən başlayan, 15 kürək su tutumu olan 6-cı arx mülkədar kəndi olan Xaçaparax (3 kürək), mülkədar kəndi Qarakilsə (5 kürək), Şarlimehmandar (7 kürək), başlanğıcını çayın sol tərəfindən götürən, 22 kürək su tutumu olan 7-ci arx yalnız Hacıilyaz, başlanğıcını çayın sol tərəfindən götürən, su tutumu 20 kürək olan 8-ci arx isə Hacıilyaz (7 kürək) və mülkədar kəndi olan Kolanı (13 kürək) kəndlərini suvarırdı[1106].

---

[1105]Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1888, т.III, с.34.
[1106]Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1888, т.III, с.35.

İrəvan qəzasının ikinci suvarma mənbəyi Gərni çayı idi. Gərni çayı öz başlanğıcını Yenibəyazid qəzasının sərhədində yerləşən “Paltəpə” dağından götürərək, Doqquz kəndinin yuxarı hissəsində iki qola ayrılırdı. Sağ tərəfə ayrılan hissə “Çarpara”, sol tərəfə ayrılan hissə isə “Piqaç” adlanırdı. Piqaçdan 3, Çarparadan isə 16 arx ayrılırdı. Bu çay və ondan ayrılan həmin arxlar 29 xəzinə və xəzinə-mülkədar kəndləri olan Ağamzalı, Alpava, Aşağı Ağbaş, 2-ci Ağcaqışlaq, Qirdaşar, Bəyçiqazlı, Böyük Dəlili, Buqamlu, Gedəkli (Kiçik Dəlili), Dvinaysor, Dvin (Düyün), Dvin kürd kəndi, Canatlı, Doqquz, Zöhrablı, İpəkli, İmanşalu, Yuxarı Kəmərli, Aşağı Kəmərli, Qaraqoyunlu, Qafarlı, Qırxbuzovand, Qulaməlibuzovand, Yuxarı Qalahasar, aşağı Qalahasar, Məsimli, Novruzlu, Uğurbəyli, Sabunçu və 19 sahibkar kəndlərini suvarırdı[1107].

Vedi çayının suyundan isə 13 xəzinə və xəzinə-mülkədar kəndləri olan Avşar, Ağasıbəyli, Əliməmmədqışlağı, Böyük Vedi, Gerovan, Dəvəli, 2-ci Çatqıran (Vedibasar dairəsində), Aşağı Qarabağlar (Çimənkənd), Qaralar, Keşişdağ, Reyhanlı, Xəlisə və 7 sahibkar kəndi suvarılırdı. Vedi çayından 5 arx çəkilmişdi. Çayın sağ tərəfindən çəkilmiş, su tutumu 2,5 kürək olan 1-ci arx xəzinə-mülkədar kəndi olan Gerovanı, çayın sağ tərəfindən çəkilmiş 2-ci arx (30 kürək) xəzinə kəndi olan Böyük Vedini (15,5 kürək), Qaraları (4,5 kürək), mülkədar kəndləri olan Yenicəni (1,5 kürək), Kiçik Vedini (7 kürək), Şıxları (6 kürək), Taytanı (13 kürək), Şirazlını (2,3 kürək), yenə çayın sağ tərəfindən başlanğıcını götürən 3-cü arx (11,5 kürək) Reyhanlını (3 kürək), 2-ci Çatqıranı (Vedibasar dairəsi) (2,5 kürək) və Əliməmmədqışlağını (6 kürək), başlanğıcını çayın sol tərəfindən götürən 4-cü arx (29 kürək) Dəvəlini (19 kürək) və Xəlisəni (10 kürək), çayın sol tərəfindən çəkilmiş 5-ci arx (8,5 kürək) Avşarı suvarırdı[1108].

---

[1107]Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края. Тифлис: 1888, т.III, с.35.
[1108] Yenə orada, s.38.

Öz başlanğıcını Tapdağ dağının yaxınlığında yerləşən Sulyurd bulaqdan götürən Çanax çayı (20 litr) Sədərək kəndinin əkin sahələrini suvarırdı[1109].

Araz və Aşağı Qarasu çaylarından iki arx çəkilmişdi. Aşağı Qarasudan çəkilən arx Boralan (2 kürək) adlanırdı. Arazdan çəkilən arxın tutumu isə 10 kürək idi. Bu arxların suyundan yalnız Sərxanlı kəndləri istifadə edirdi[1110]. Yuxarı Qarasu çayından da iki arx çəkilmişdi. Birinci arx Sürməli qəzasının Zeyvə kəndinin, ikinci arx isə Kolanı kəndinin yaxınlığından çəkilmişdi. Birinci arxın suyundan Sarvanlar-ulya (2 kürək), Həsənli (1 kürək) və Sürməli qəzasının daha 4 kəndi, ikinci arxdan (5 kürək) isə yalnız Sarvanlar-ulya istifadə edirdi[1111].

İrəvanın əsas çaylarından olan Qırxbulaq çayının suyundan 5 xəzinə-Avan, Ərzni, Kənəkir, 1-ci Təzəkənd (Qırxbulaq dairəsində), Şahab və 7 sahibkar kəndləri istifadə edirdi. Bu çay öz başlanğıcını Başkənd kəndinin yaxınlığında Gədis dağının ətəyindən axan 28 bulağın suyundan götürmüşdü. Qırxbulaq çayından 9 arx çəkilmişdi. Çayın sağ və sol sahillərindən çəkilmiş birinci (1 kürək) və ikinci (1 kürək) arxlar Şahab arxları adlanırdı və onların suyundan yalnız Şahab kəndinin əhalisi istifadə edirdi. Çayın sol tərəfindən çəkilmiş 3-cü arx da Şahab adlanırdı və arxın suyundan xəzinə kəndi olan Şahab (1 kürək), mülkədar kəndləri olan Möhüb (0,5 kürək), Zak (1 kürək), Göyarkel (1 kürək), çayın sağ sahilindən çəkilmiş, 4-cü Ketran-Arzin arxı (3,5 kürək) xəzinə kəndi Arzini (2,5 kürək), mülkədar kəndi Ketranı, çayın sağ sahilindən çəkilmiş Kənəkir arxı (9 kürək) xəzinə kəndi Kənəkiri (6 kürək), mülkədar kəndi Piqnini (1 kürək), Ərinc kəndini (2 kürək), Avan adı almış 6-cı, 7-ci, 8-ci (3,5 kürək) və 9-cü (0,5 kürək) arxlar Aban kəndinin əkin sahələrini suvarırdı[1112].

---

[1109] Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1888, т.III, с.38.
[1110] Yenə orada, s.39.
[1111]Yenə orada.
[1112] Yenə orada, s..40.

Kiçik çay olan Qarabəy çayından 2 arx çəkilmiş, bu arxlardan birincisi Körpüqulaq kəndinin, ikincisi isə Tərəkəmələr kəndinin, Dəvəgözü çayı isə Bayburd və Böyük Gilanar kəndlərinin, Ciqin çayı isə Camışbasan və Doxnaz kəndinin əkin sahələrini suvarırdı[1113].

XIX yüzilliyin 80-ci illərin əvvəllərinə aid olan məlumata görə, İrəvan şəhəri və onun çoxsaylı bağları Zəngiçay çayından çəkilmiş dörd-Mamırlı, Abuhəyat, Dəlmə, Yeniköy arxları və Qırxbulaq çayı vasitəsilə suvarılırdı[1114].

Naxçıvan qəzasında əkin sahələrinin suvarılması üçün əsas su mənbələri Naxçıvan, Əlincə və Çağrı çayları idi. Bu çaylardan müxtəlif kəndlərə arxlar çəkilmişdi. Naxçıvan çayından sol tərəfdən Türyan və Köpran, sağ tərəfdən isə Dəlmə və Naxçıvan arxları çəkilmişdi. Sol tərəfdəki arxlar bu istiqamətdə yerləşən kəndləri, sağ tərəfdə yerləşənlər isə həmin istiqamətdə yerləşən kəndləri və Naxçıvan şəhərini su ilə təmin edirdi. Suyun kəndlər üzrə bölüşdürülməsində bir qayda mövcud idi: 1. Türyan arxından 9 gün Alagözməzrə kəndliləri, 8 gün isə mülkədar kəndləri olan Xalxal, Şıxmiranşah, Kəlbalayı-Oruc, Surab, Mamirzə-diza, Kültəpə və Zeynəddin kəndinin kəndliləri istifadə edirdilər; 2. Köpran arxının suyundan 16 gün ərzində 4 saat Alagöz-məzrə kəndliləri, 6,5 gün ərzində Yarımcı kəndliləri, 2 gün Şəkərabad kəndliləri, qalan digər günlərdə mülkədar kəndləri Kültəpə, Kərimbəy-diza, Qulubəy-diza, Badaşxana və Hacıvara kəndliləri istifadə edirdilər; 3. Dəlmə arxından 18 gün ərzində 3 gün Xəlilli kəndliləri, digər 15 gün isə mülkədar kəndləri olan Didivar, Yuxarı Uzunoba, Aşağı Uzunoba, Şıxmahmud kəndliləri və yerli mülkədar Əli Qulubəyov istifadə edirdi; Naxçıvan arxından isə 17 gün ərzində 12 saat Xəlilli kəndinin kəndliləri, 1 gün Qaraxanbəy kəndliləri, digər günlər isə

---

[1113] Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1888, т.III, с.40.

[1114] Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1881, выпуск 1, с.22-23.

mülkədar kəndləri olan Yuxarı Uzunoba, Aşağı Uzunoba, Şıxmahmud kəndliləri və Naxçıvan şəhər əhalisi istifadə edirdi. Naxçıvan əhalisi suyu ayda 13 gün istifadə edirdi. Bunun 4 günü xanların, bəylərin və ağaların, 5 günü şəhərin Azərbaycan türklərinin, 4 günü isə erməni əhalisinin istifadəsinə gedirdi[1115]. Lakin Naxçıvan çaydan istifadə bu kəndlərlə bitməmişdi. Naxçıvan çayın aşağı axarlarında mülkədar kəndi olan Nehrəm kəndini suvaran Nehrəm arxı çəkilmişdi. Bu arxdan daha bir neçə xəzinə kəndləri Tumbul, Yarıxana, bir də mülkədar kəndi Təzəkənd kəndi suvarılırdı[1116].

Əlincə çaydan Xoşxeşin, Paradaşt, Noraşen, Qazançı, Lakatax və yeni köçüb gələnlər üçün salınmış Milax, Küncüt, Abrakunis və Culfa kəndləri suvarılırdı. Bu çaydan Xoşxeşin kəndinə 3 suvarma arxı çəkilmişdi ki, kəndlilər hər 14 gündən bir bu arxlardan, Paradaşt kəndinə də 3 suvarma arxı çəkilmişdi ki, bu kəndin əhalisi bu arxlardan istifadə edirdilər. Noraşen kəndinə bir arx çəkilmiş, kəndin sakinləri hər 8 gündən bir 36 saat, Lakatax kəndinə 4 arx çəkilmiş, hər 15 gündən bir 24 saat, Küncüt kəndinə bir arx çəkilmiş, kənd sakinləri hər 18 günün 4 gününü, Abrakunis kəndinə 3 arx çəkilmiş, kənd sakinləri hər 18 gündən bir 30 saat sudan, Kazançi və Milax kəndliləri bir arx, Culfa kəndinə isə iki arx çəkilmiş və onlar bu arxların suyundan istifadə edirdilər. Bundan əlavə, Culfa əhalisi ildə 3 gün Əlincə çayının suyundan istifadə etmək iqtidarına malik idilər[1117].

Naxçıvan qəzasında Cağrı çaydan isə Azərbaycan türklərinə məxsus Çağrı kənd sakinləri, ermənilərə məxsus Cağrı kənd sakinləri, Şeytanabad kənd sakinləri, Məzrə pais və Nəzərabad kənd sakinləri suvarma işində istifadə edirdilər. Bu kəndlər ara-

---

[1115] Никофорова Н.К., Экономический быть государственных крестьян заподной части Нахичеванского уезда Эриванской губернии // Материалы для изучения экономического быта государственных крестьян Закавказскаго края, Тифлис, 1885, т.1, с.544-545.
[1116] Никофорова Н.К., Экономический быть государственных крестьян заподной части Нахичеванского уезда Эриванской губернии, с. 545.
[1117] Yenə orada, s.545-546.

sında da bir qayda-qanun vardı. Məsələn, Cağrı çayının suyundan hər 14 günün 8 gününü Azərbaycan türklərinə məxsus Cağrı kəndi, Şeytanabad və Məzrə pais, 4 gününü erməni Cağrı kəndi, 2 gününü isə mülkədar kəndi olan Nəzərabad kəndi istifadə edirdi[1118].

Naxçıvan qəzasında kənd sakinləri suyun miqdarını qədimdən qalma ölçü saatı ilə təyin edirdilər. Suyun qədəri "kürəklə" ölçülür, "kürək" 1 kub. futa və yaxud 30 litrə bərabər idi. Bundan əlavə, sakinlərin suyun saatla axma vaxtını təyin etməsi də çox maraqlıdır. XIX yüzilliyin 80-ci illərinin əvvəllərinə görə bu saat su ilə doldurulmuş çəndən və camdan ibarət idi. Vaxtı təyin etmək üçün cam çəndəki suya doğru enir, nəticədə cam su ilə dolur, vaxt başa çatır. Bu cam saatı adlanır. Hər dəfə cam çənə doğru enəndə 6 dəqiqə vaxt keçir. Kəndlilər saatı bununla ölçürdülər[1119] .

Naxçıvan qəzasına daxil olan Ordubad sahəsində torpaqları suvarmaq üçün Dərələyəz sıldırımlarından Araz çayı istiqamətində axan xeyli çay və kiçik çaylar mövcud olmuşdur. Əsas böyük çaylar bunlardır: Gilançay, Dyuqlun (Çinanab çay), Vənənd çay və Ordubad çaylarıdır. Bu çaylar Ordubad sahəsinə daxil olan kəndləri suvarırdı[1120].

Yenibəyazid qəzasında əkin sahələri əsasən dağ bulaqlarından və çaylardan çəkilmiş ayrı-ayrı arxlar vasitəsilə suvarılırdı. Hər bir arx ayrıca bir icmaya məxsus idi. Qəzada əsasən suvarma arxları bunlar idi: 1. Şah dağından axan bulaqlardan çəkilmiş birinci arx Ardaniç kəndinin əkin sahələrini suvarırdı; 2. Ağbulaq bulağından çəkilmiş 2-ci və 3-cü arxlar Cil əkin sahələrini suvarırdı; 3. Babacan dərəsi və Şumpur bulaqlarından çəkilmiş 4-cü və 5-ci arxlardan isə Babacan dərəsi kəndinin kəndliləri istifadə edirdilər; 4. Quşdərəsi kəndinin yaxınlığında yerləşən dağın bulağından çəkilmiş 8-ci arxın suyunu Quşdərəsi

---

1118 Никофорова Н.К., Экономический быть государственных крестьян заподной части Нахичеванского уезда Эриванской губернии, с. 545.
1119 Yenə orada, c.546.
1120 Yenə orada, s.610-627.

icmasının kəndliləri istifadə edirdilər; 5. Keytçay çayından çəkilmiş 9-cu və 10-cu arxın suyundan Böyük Məzrə kəndliləri fasiləsiz istifadə edirdilər; 6. Yarıtmaz bulağından çəkilmiş 13-cü və 14-cü arxlar Zərzibil kəndinin əkin sahələrini suvarırdı; 7. Qoşabulaq bulağından çəkilmiş 15-ci və 16-cı arxalrın suyundan Qoşabulaq kəndinin tarlaları suvarılırdı; 8. Keytçay çayından çəkilmiş 17-ci arxın suyundan Qayabaşı kəndinin kəndliləri istifadə edirdilər; 9. Gedəkgüney bulağından çəkilmiş 18 və 19-cu arxlar Qaraqoyunlu kəndinin əkin sahələrini suvarırdı; 10. Keytçay çayından çəkilmiş 20-ci arxın suyundan Daşkənd və Basarkeçər kəndləri birlikdə istifadə edirdilər; 11. Tərsəçay çayından və Keytçayın qolundan çəkilmiş 21 və 22-ci arxların suyundan Sarıyaqub kəndinin kəndliləri istifadə edirdilər; 12. Qırğıdaş bulağından çəkilmiş 23, 24 və 25-ci arxların suyundan Ağverən kəndilin əhalisi istifadə edirdi; 13. Alapars kəndinin yaxınlığında yerləşən bulaqdan çəkilmiş 26 və 27-ci arxların suyundan Alapars icması istifadə edirdi; 14. Zəngi çayından çəkilmiş 28-ci arxın suyundan Gümüş kəndi istifadə edirdi; 15. Bayramdərəsi bulağından çəkilmiş 29-cu arxın suyundan Tayçarıq kəndinin əkin sahələri suvarılırdı; 16. Misxana bulağından çəkilmiş 30 və 31-ci arxların suyundan Randamalı kəndinin kəndliləri istifadə edirdilər[1121].

Bundan əlavə, Yenibəyazid qəzasında Şişqaya, Oğruca, Sultanəli qışlağı, Zod və İnaqdağ kəndlərinin bağları dağ çaylarından çəkilmiş arxlar vasitəsilə suvarılırdı[1122].

Şərur-Dərələyəz qəzasının əsas suvarma mənbəyi Arpaçay çayı idi. Arpaçay çayı Şərur düzənliyində yerləşən bütün kəndlərin əkin sahələrini suvarırdı. Bu çaydan 4 - Kuşibasar, Lökbabasar, Yenicəbasar və Ələddinbasar arxları çəkilmişdi. Eyni zamanda hər bir arxdan müxtəlif kəndlərin əkin sahələrini suvarmaq üçün kiçik arxlar çəkilmiş və bu arxların müxtəlif su tutu-

---

[1121] Материалы для изучения экономического быта государственных крестьян Закавказскаго края, Тифлис, 1886, т.IV, част II, с.17-18.
[1122] Yenə orada, s.18.

mu vardı. Məsələn, Quşibasar arxı saniyədə mirabın su bölgüsünə görə 35 kürəyə (1 kürə-30 litr) qədər su tuturdu və onun suyundan aşağıdakı kəndlər istifadə edirdi. Həmin kəndlər bunlar idi: 1. Maxta kənddinə bu arxdan saniyədə 4,75 kürə susyu olan iki - Maxta və Qaragöl arxları ayrılırdı; 2. Dəmirçiquşu kəndinə tutumu 4,75 kürə olan iki -Quşarxı və Dəmirçiquşu arxları ayrılırdı[1123].

Saniyədə 30 kürək suyu axan Lyukba arxından da müxtəlif kəndlərə arxlar da çəkilmişdi. Həmin arxdan çəkilmiş Qarabürc arxı (3 kürək) Qarabürc kəndini, daha iki arx (4 kürə) Ağəhməd kəndini, digər iki arx (3 kürək) Örtülü Təzəkənd kəndini, bir arx (3 kürə) Qurdkənd kəndini, Şəhriyar arxından çəkilmiş 5 arx (hər biri 5 kürə) Şəhriyar kəndini, Şəhriyar arxı beş gündən bir növbə ilə Muğanlı və Şəhriyar kəndlərini, Arpaçayın daşqınından yaranmış 2 arx (2 kürə) Əlişar kəndinin əkin sahələrini suvarırdı[1124].

Qırx kürə su tutan Yenicəbasar arxından da müxtəlif kəndlər suvarılırdı. Məsələn, Karxun kəndini 4,5 kürə su tutumu olan Yaqub arxı və Karxun arxı, Çamaxtur kəndini qarışıq kəndlə birlikdə hər 7 gündən bir 6 gün suyundan istifadə edilən Çamaxtur arxı (3,5 kürə), Çarçıboğan kəndini hər 11 gündən bir 5 gün suyundan istifadə edilən Qayaxan və Çarçiboğan arxları, Arbatan kəndini Qarxun və Çarçiboğan kəndlərlə birlikdə 3 kürə su tutumu olan Çaylaq və Qazıxan arxları (hər 6 gündən bir arbatanlılar, 1 gün Qarxunlular, 2 gün Çarçiboğanlar), Xalac kəndini Çamaxtur və Yengi arxlarından çəkilmiş iki arx və kəhriz suyu suvarırdı[1125].

Dərələyəz kəndləri öz əkin sahələrini əsasən dağ çaylarından və bulaqlardan gələn su ilə suvarırdı. Dağlıq ərazi olduğuna görə bu yerin əhalisi əsasən əkin sahələrində Arpa çayının daşqınından əmələ gəlmiş qollarından istifadə edirdilər[1126].

Digər suvarma vasitələrindən biri də bulaqlar idi. İrəvan

---

[1123] Материалы для изучения экономического быта государственных крестьян Закавказскаго края, Тифлис, 1886, т.IV, част II, s.113.
[1124] Yenə orada, c.113-114.
[1125] Yenə orada, s.114.
[1126] Yenə orada, s.116.

quberniyası başdan-başa bulaqlarla zəngin bölgə idi. Bulaqlara adətən dağlıq ərazilərdə rast gəlinirdi. Bəzi bulaqların suyu bol olduğuna görə, onlardan müxtəlif kəndlərin əkin sahələrini suvarmaq üçün arxlar çəkilmişdi. Mənbələrdə ayrı-ayrı qəzalar üzrə bulaqlar haqqında, onlardan istifadə qaydaları barədə xeyli məlumatlar öz əksini tapmışdır. İrəvan qəzası bulaqların bolluğuna görə daha məşhur idi.  Məsələn, İrəvan qəzasında Gədis dağının ətəyində yerləşən Qırxbulaq bulağı 11 kəndi (bunlardan 6-sı xəzinə, 5 isə mülkədarlara məxsus idi) və İrəvan şəhərini su ilə təmin edirdi. Onun suyu həm məişətdə, həm içmək, həm də suvarma üçün istifadə edilirdi[1127]. Bundan əlavə, mülkədar kəndi olan Cabaçalı kəndinin yaxınlığında yerləşən Üçkörpü Qarasu bulağından (5 kürək) arx çəkilmişdi ki, suyundan Cabaçalı kəndi (1 kürək), Ağamzalı kəndi (1,5 kürək) və Buqamlu (2,5 kürək) kəndləri istifadə edirdilər[1128].

Bundan əlavə, İrəvan qəzasında əkin sahələrini suvarmaq üçün bulaqlar çox idi. Başkənd kəndinin yaxınlığında Gədis dağının ətəklərindən başlanğıcını götürən Başkənd bulağından iki-Başkənd arxı və bir Yelqovan arxı çəkilmişdi. Birinci Başkənd arxından (1 kürək) xəzinə kəndi olan Başkənd kəndi həftədə 1 gün, mülkədar kəndi olan Yelqovan isə 2 gün, ikinci Başkənd arxı (1 kürək) hər biri iki gündən bir suyundan istifadə etdiyi Başkənd və 2-ci Təzəkənd (Qırxbulaq dairəsi) kəndlərini, Yelqovan arxı (1 kürək) isə hər iki gündən bir bir gün suyundan istifadə etdiyi Başkənd, 2-ci Təzəkənd və Yelqovan kəndlərini suvarırdı. Yenə də Başkənd kəndinin yaxınlığında Gədis dağının ətəklərindən axan Ocaqbulaq bulağından Aramus arxı (4 kürək) çəkilmişdi ki, onun suyundan xəzinə kəndi olan Aramus (3 kürək), mülkədar kəndi olan Ağazor (1 kürək) əkin sahələrində, Gəmriz bulaqından çəkilmiş arxdan (2 kürək) Gəmriz kəndinin

---

[1127] Писарева М.П., Очерк орошения в Закавказском крае // Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1888, т.V, с.37.

[1128]Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1888, т.III, с.37.

əkin sahələrində istifadə edilirdi. Bezaklı kəndinin yaxınlığında yerləşən eyniadlı bulaqdan Çatqıran arxı (2 kürək) çəkilmişdi ki, onun suyundan xəzinə kəndi olan Çatqıran (Qırxbulaq dairəsində) və mülkədar kəndləri olan Bezaklı, Kamal və 1-ci Çatqıran kəndləri hər 18 gündən bir 1 gün istifadə edirdilər. Təcirabad kəndindən başlanğıcını götürən Yuxarı Yataq bulağından çəkilmiş arxın (2 kürək), Tacirabad kəndinin qərb hissəsində yerləşən Aşağı Kox bulağından çəkilmiş arxın (4 kürək) suyundan 3 gün xəzinə kəndi olan Tacirabad kəndi, 4 gün isə mülkədar kəndi olan Dərviş kəndinin əkin sahələri suvarılırdı. Daşabdallar kəndinin əhalisi Üçdənəbulaq adlı bulaqdan, Qaladibi kənd sakinləri Qaladibi bulağı adlı bulaqdan, Əlimərdan kəndinin sakinləri Daşlıbulaq adlı bulaqdan, Artiz kəndinin sakinləri Şahbulağı adlı bulaqdan, Başgərni kəndinin sakinləri Məmmədəli bulağı və Əli bulağından çəkilmiş 1-ci arxdan, Maçaköpüklü bulaqdan çəkilmiş 2-ci arxdan, Armık, Ağbulaq və Təzəkənd kəndinin sakinləri Ağbulaq bulağından, Qaraqoyunlu və Aşağı Qaraqoyunlu kəndinin sakinləri Ağbulaq bulağından, Cirmanis (Kolanlı) kəndinin sakinləri üç bulaqdan-Qızılverən bulağı, Çınqıllı bulağı və Böyük bulaqdan, Axis və İnqala kəndləri Teşbulağından və Qozmabulaqdan, Xnut kəndi Gözəlqaçan bulağından, Ağkilsə kəndi onun yaxınlığında yerləşən bulaqdan, Mənqyuk kəndi Şahinbulaqdan, Bağcacıq kəndi Qırxbulaq bulağından, Zəncirli kəndi Qaraxaç bulağından və Qaraxaç kəndi yaxınlıqda yerləşən üç bulaqdan, Kaşxa kəndi Qılxıağpyur bulağından, Keşişverən kəndi Alçalı ağköpüklü bulağından, Şahablu kəndi Süleyman bulaqdan, növbə ilə Aşağı Çanaqçı (5 gün) və Yuxarı Çanaxçı (Qartun) (2 gün) kəndləri Sulyurd bulağından və Kərki kəndi Kərki bulağı adlanan 3 bulaqdan istifadə edirdilər[1129].

Naxçıvan qəzasında da əkin sahələrini suvarmaq üçün müxtəlif bulaqlar mövcud olmuşdur. Belə bulaqlar Şurut, Qaraboya, Cec, Ağxaç (Sona bulağı), Oqbin (Bilbulaq bulağı),

---

[1129]Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1888, т.III, с.40-42.

İtqıran, Horadiz (Çra bulağı) kəndlərində var idi[1130]. Yenibəyazid qəzasında da xeyli bulaqlar var idi ki, bu bulaqlar vasitəsilə ayrı-ayrı kəndlərə məxsus əkin sahələri suvarılırdı. Bu haqda yuxarıda göstərilmişdir[1131].

Süni suvarma vasitələrindən biri də kəhrizlər idi. Kəhrizlər adətən yeraltı sulardan istifadə etmək üçün əhalinin qazdığı quyuların hesabına yaranırdı. Quyuları adətən bir-birindən 10-15 sajen aralı qazırdılar. Onun eni 1, hündürlüyü isə 1,5 arşın olurdu. Belə quyular uzunluğuna torpağın su saxlayan təbəqəsi üzə çıxana qədər qazılırdı. Bəzi kəhrizlərin uzunluğu bir o qədər də uzun olmasa da, digərlərinin uzunluğu 2 verst və daha çox olurdu. Bu quyularda yeraltı qrunt suları toplanırdı və yerli əhali bu sulardan müxtəlif məqsədlər üçün istifadə edirdilər. Kəhrizlərdə suyun miqdarı müxtəlif cür olurdu. Məsələn, fon-Veysenqofun məlumatına görə, Naxçıvan qəzasının Qıvrax kəndində iki kəhriz hər saniyədə 30 litr su verirdi[1132]. Bundan əlavə, Ordubad dairəsinə daxil olan Yaycı kəndinin kəndliləri bəzən əkin sahələrində kəhriz suyundan istifadə edirdilər[1133]. XIX yüzilliyin ortalarında yalnız İrəvan şəhərində 196 su quyusu qeydə alınmışdı[1134].

Süni yaradılmış su anbarları da suvarma sistemində əsas rol oynayan vasitələrdən biri idi. Anbarlarda əsasən ehtiyat yığılmış sular və yağış suları toplanırdı. Quraqlıq olanda və yaxud çay suları az olanda bu anbarlardan istifadə edilirdi. Belə anbarların yaradılması qədim dövrlərdən məlum idi. İrəvan quberniyasının dağlıq ərazilərində xeyli anbar qalıqlarına rast gəlmək olardı. Məsələn, Sürməli qəzasında Ağrıdağ sıldırım dağ-

---

1130 Никофорова Н.К., Экономический быть государственных крестьян заподной части Нахичеванского уезда Эриванской губернии, Материалы для изучения экономического быта государственных крестьян Закавказскаго края, Тифлис, 1885, т.1, с.544.

1131 Материалы для изучения экономического быта государственных крестьян Закавказскаго края, Тифлис, 1886, т.IV, част II, с.17-18.

1132 Yenə orada, c.37.

1133 Yenə orada, c.625.

1134 Кавказский календарь на 1852 г., с.437.

larının suayrıcında təpələrdə, həmçinin Acıçay çayının mənbəsində süni anbarların izi qalmışdı. Belə anbarlar qar əriməsindən yaranan sular nəticəsində dolurdu. İrəvan qəzasında isə Qırxbulaq bulağının yaxınlığında xüsusi torpaq sədlə əhatə olunmuş iki süni göl yaradılmışdı ki, hal-hazırdı əla vəziyyətdə idi. Bəzi su anbarları və yaxud süni göllər yüksəklikdə yerləşirdi. Bunlardan biri Yenibəyazid qəzasının 9000 fut yüksəkliyində yerləşən dağ gölü olan Qanlıgöl gölü idi. Bu göldən su xüsusi kanallarla çəkilmişdi. Onun izləri Ağmanqan dağlarının yamacları ilə Solak kəndinin əkin sahələrinə qədər çəkilmiş yerlərdə qalmışdı[1135].

Naxçıvan qəzasının dağlıq ərazilərində yararlı olan Qanlıgöl su anbarı yerləşmişdi. Bundan əlavə, 1863-cü ildə Naxçıvan qəza rəisi Şangireyin göstərişi ilə Naxçıvan şəhərində "Gölzami" adlanan su anbarı yaradılmışdı. Bu su anbarı yazda Naxşıvan çaydan çəkilmiş eyni adlı arxla doldurulurdu. Yayda isə xüsusi ağac şülüzlərlə su əkin sahələrinə buraxılırdı. Lakin 1882-ci ildə bu su anbarına baxış keçirilərkən onun yararsız olduğu üzə çıxmışdı[1136].

Ümumiyyətlə, Sürməli qəzasında yerləşən kiçik Abbasgöl və Oruşmuş göllərindən başqa İrəvan quberniyasının bütün dağ su anbarları öz əhəmiyyətini itirmişdi. Yararlı olan su anbarlarında isə yayda əkin sahələrini suvarmaq üçün ehtiyat su saxlanılırdı[1137].

İrəvan quberniyasında düzənlik ərazilərdə çay vadilərində suvarma martın sonlarından başlayırdı. Bu vaxtlar əsasən bağlar, taxıl zəmiləri suvarılırdı. İlk suvarmada çox da su tələb olunmurdu. Aprelin sonlarından başlayaraq suvarma daha da güclənirdi. Suvarmanın müddəti məhsulların növünə görə davam edirdi. Məsələn, mayın axırı, iyunun əvvəllərində buğda və arpanın, avqustun sonu, sentyabrın əvvəllərində isə pambığın, çəltiyin və bağların suvarılması kəsilirdi[1138].

Suvarmanın müddəti də məhsuldan asılı idi. Belə ki, payızda

---

[1135]Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1888, т.5, с.38.
[1136] Yenə orada, c.39.
[1137] Yenə orada.
[1138] Yenə orada, s.29.

əkilən dənli bitkilər səpindən sonra bir və yaxud nadir hallarda iki dəfə, yazdan başlayaraq məhsul yetişənə qədər isə yerindən, yağışlı havadan asılı olaraq 2-5 dəfə suvarılırdı. Pambıqda isə vəziyyət bir qədər fərqlənirdi. Bu məhsulun suvarılması mövsüm ərzində 4-5, yalnız rütubətli yerlərdə isə 2-3 dəfəyə başa gəlirdi. Çəltik isə daima su tələb edirdi. Bu məhsul yığılana qədər suyun içində olurdu. Bağlar isə yaz və yay aylarında 3-6 dəfə suvarılırdı[1139].

XIX yüzilliyin ikinci yarısı-XX yüzilliyin əvvəlində də su üstündə daima toqquşmalar və narazılıqlar davam etmişdi. Bu işdə mirab və onlara tabe olan cuvarlar dəstəsinin də böyük günahları olmuşdu. Onların vəzifəsindən sui-istifadə etmələri suyun ədalətlə bölünməsinə mane olurdu. Mirablar daha çox rüşvət verən adamı su ilə təmin edirdilər. Bu da narazılıq yaradırdı[1140].

Lakin hökumət orqanlarının bütün cəhdlərinə baxmayaraq su üstündə daima narazılıqlar baş alıb gedirdi. Arxiv materiallarında belə hallar haqqında xeyli faktlara rast gəlmək mümkündür. Bu məlumatlarda ayrı-ayrı qəzalara məxsus kənd əhalisinin su üstündə toqquşmaları, mirabların vəzifəsindən sui-istifadəsi, özbaşınalığı haqqında məlumatlar ətraflı təsvir edilmişdi. Məlumatlarda kəndlərin sudan istifadə qayda-qanunları haqqında da maraqlı məlumatlara rast gəlmək mümkündür. Belə ki, 1902-ci il martın 31-də İrəvan qubernatorunun, vitse-qubernatorun, müşavirin və kargüzarın imzası ilə yazılan məktubdan görünür ki, İrəvan qəzasının Xəlisə, Şirazlı, Çatqıran, Şıxlar, Kiçik Vedi, Avşar kəndlərinin əhalisi 1901-ci il avqustun 4 və 13-də suyu düzgün bölüşdürməməsinə görə Vedibasar mirabından qubernatora beş şikayət məktubu yazmışdılar. Qubernator bu məsələni araşdırmaq üçün su mühəndisi Zuyevə məktub göndərmişdi[1141].

Belə hadisələrdən biri Naxçıvan qəzasında baş vermişdi. Qafqazda 8-ci su dairəsi olan Əlincəçay dairəsinin mühəndisi

---

[1139]Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1888, т.5, с.29.

[1140] Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1881. выпуск 1, с.23.

[1141] ARMDTA, f,21, siyahı 1, iş.322, vərəq 18-19, 19 arxası.

V.Zuyevin 1906-cı il oktyabrın 17-də İrəvan qubernatoruna yazdığı məlumatdan məlum olur ki, Vənənd çayından suvarılan Pazmar, Unus, Kələki, Dernis, Danagird, Əlisultan, Sal, Xanaça, Ağrı, Vənənd, Valavr, Deksar kəndləri ilə Dostu kəndi arasında su üstündə mübahisələr olmuşdu. Su mühəndisi yazırdı ki, birinci yeddi kənd həftənin birinci, ikinci, üçüncü və altıncı günü, qalan beş kənd gündüzlər, Dostu kənd sakinləri isə gecələr Vənənd çayından öz təsərrüfatlarını suvarırdılar. Lakin adı çəkilən kəndlərin sakinləri Dostu kənd sakinlərinin bütün gecə suya sahib olmaları ilə razılaşmırdılar. Onlar iddia edirdilər ki, Dostu kəndliləri bütün gecəni yox, yalnız bir neçə saat sudan istifadə etməlidirlər. Buna görə də sudan istifadə qaydasında dəyişiklik edilməsini xahiş edirdilər. Bununla razılaşmayan Dostu kəndliləri 1906-cı il sentyabrın 4-də və oktyabrın 2-də əvvəlki qaydanın qalması xahişi ilə su mühəndisinə ərizə ilə müraciət etmişdilər. Bu mübahisə o qədər böyümüşdü ki, işə Ordubad pristavı və mirab qarışmalı olmuşdu[1142].

Su üstündə mübahisə və toqquşmalar o qədər böyümüşdü ki, Dostu kənd icması tərəfindən vəkil edilmiş Məşhədi Həbib Hacı Talıb oğlu və İbrahim Məşədi İsmayıl oğlu tərəfindən Qafqaz su müfəttişinə ərizə ilə müraciət olunmuşdu. Bu ərizədən məlum olur ki, Dostu kənd icmasının sudan istifadə saatlarında adı çəkilən kəndlər tərəfindən oğurluq olurdu. Bu oğurluğun qarşısını almaq üçün kənd sakinlərindən 20-30 nəfər keşik çəkmək məcburiyyətində qalırdı. Lakin bu da itkisiz başa gəlmirdi. Belə ki, Dostuların keşik çəkən sakinləri Danagird erməniləri tərəfindən öldürülürdü. Ona görə də, İrəvan birqadasının IV bölməsinin komandiri Dostulara gecələr suya nəzarət etmək üçün yuxarı kəndlərə getmələrinə icazə vermirdi. Bu da Dostu kənd sakinlərini çətin vəziyyətə salmışdı[1143].

Qafqazda 8-ci su dairəsinin su mühəndisi P.Zuyevin İrəvan qubernatoruna 1906-cı il iyulun 3-də yazdığı məlumatda Əlincə-

---

1142 ARMDTA, f.21, siyahı 1, iş.466, vərəq 15-16, 16 arxası.
1143 ARMDTA, f.21, siyahı 1, iş.466, vərəq 17, 17 arxası.

çay su dairəsinin mirabının özbaşınalığından şikayət etmişdi. Məlumatda Kuznut kəndinin əhalisinin mirabdan və onun kəndlər arasında sudan istifadədə heç bir qaya-qanun yaratmadığından və özbaşınalığından şikayəti öz əksini tapmışdı. Məlum olur ki, Kuznut arxından növbə ilə Camaldin kəndi 22, Azərbaycan türklərinin yaşadığı Arazin kənd sakinləri 24, ermənilərin yaşadığı Arazin kəndinin sakinləri 24, Çeşməbasar mülkü 36 saat, Kuznut kəndi isə 4 gün istifadə edirdilər. Lakin mirabın günahı üzündən bu qaydalar tez-tez pozulurdu. Belə ki, şikayətdən görünür ki, mayın 20-də növbəsi çatan Kuznüt əhalisi yalnız 3 gün sudan istifadə etmiş, dördüncü günü arx məlum olmayan səbəbdən yararsız hala düşmüşdü. Yalnız iki gündən sonra arxı bərpa etmək mümkün olmuşdu. Bundan sonra su digər kəndlərə paylanmışdı. Mirabın günahı üzündən sudan istifadə qaydasında kəndlər arasında pozuntu əmələ gəlmişdi. Belə olduqda mirab Akop Krikorov vəzifəsindən kənarlaşdırılmış, əvəzində İrəvan qubernatorunun sərəncamına qədər müvəqqəti olaraq Hacı Əli mirab təyin edilmişdi[1144].

Belə narazılıqlar İrəvan quberniyasında çox idi. 8-ci su sahəsinin mühəndisi V.Zuyevin Cənubi Qafqazdakı su inspektoruna 1910-cu il iyulun 5-də göndərdiyi məlumatda yazırdı ki, həmin ilin iyunun 30-da Dərəçiçəkdə Şangir çayının suyundan istifadədə və Naxçıvan çayı ətrafında yerləşən kəndlərdə su üstündə qayda-qanunun pozulması böyük səs-küyə səbəb olmuş, hətta iş məhkəməyə gəlib çatmışdı. Bundan əlavə, işə Naxçıvan qəza rəisi və xüsusi keşikçi dəstələri qarışmalı olmuşdu. Nəticədə mirab günahkar hesab olunmuş, Naxçıvan qəza rəisinin xahişi ilə vəzifəsindən kənarlaşdırılmışdı[1145].

Beləliklə, süni suvarma İrəvan quberniyasının kənd təsərrüfatında böyük rol oynamış, bu sahənin inkişaf etdirilməsi dövlət orqanlarının diqqətində olmuşdu. Lakin arxiv materiallarından məlum olur ki, çar hakimiyyət orqanlarının ciddi səyinə

---

[1144] ARMDTA, f.21, siyahı 1, iş.466, vərəq 29-30, 30 arxası.
[1145] ARMDTA, f. 21, siyahı 1, iş. 625, vərəq 8, 8 arxası.

baxmayaraq, su üstündə əhali arasında həmişə mübahisələr, narazılıqlar və şikayətlər mövcud olmuşdur.

## 5.5. Sənətkarlıq, sənaye, ticarət və digər məşğulluq sahələri

İrəvan quberniyasında tarixən inkişaf etmiş sənətkarlıq sahələri fəaliyyət göstərmişdi. Bu sənətkarlıq sahələrindən toxuculuq, dülgərlik, misgərlik, sabunbişirən, rəngsaz, dabbaq, bənna, tütünçü, daşyonan, dəyirmançı, qəssab, dəmirçi, ayaqqabı tikən, yükdaşıyan, xalçaçılıq, ipəksarıma və s. peşələrini qeyd etmək lazımdır. Sənətkarlar əsasən İrəvan quberniyasının iri şəhərlərində emalatxanalarda, sənətkarlıq emalarxanaları isə bazar ətrafında cəmləşmişdi. Çünki bazarda hazır məhsullarını satış üçün reallaşdırmaq sənətkarlara çox vacib idi. Lakin sənətkarların heç də hamısının emalatxanaya ehtiyacı yox idi. Bəzi sənətkarlar-daşyonanlar, bənna, kəsiçilər, darayıcılar və s. sifarişlə işlədiklərindən onlar işlərini evlərdə görürdülər. Qeyd etmək lazımdır ki, bu sənətkarlıq sahələri kustar xarakter daşıyırdı.

XIX yüzilliyin 50-ci illərinin ortalarından başlayaraq mənbələrdə İrəvan quberniyasında sənətkarlıq haqqında xeyli məlumatlara rast gəlmək mümkündür. Belə ki, 1855-ci ildə İrəvan şəhərində 320, Şərur dairəsində 371, Sürməli dairəsində 60, Sərdarabad dairəsində 100, Aleksandropol şəhərində 400, Pəmbək dairəsində 269, Naxçıvan şəhərində 265, Naxçıvan dairəsində 47, Dərələyəz dairəsində 43, Ordubad şəhərində 780, Yenibəyazid şəhərində isə 35 sənətkar qeydə alınmışdı[1146].

1857-ci il arxiv məlumatında İrəvan quberniyası üzrə sənətkarlıq sahələrinin siyahısı verilməklə bərabər, burada işləyən ustaların, işçilərin və əldə olunan qazancın miqdarı haqqında ətraflı məlumat verilmişdir. Bu aşağıdakı cədvəldə öz əksini

[1146] Кавказский календарь на 1853 г., с.280-413.

tapmışdır[1147]:

| Sənətkarlıq sahələri | Ustaların sayı | İşçilərin sayı | Məhsul hansı məbləğdə alınıb (gümüş rubl) |
|---|---|---|---|
| Gümüş və qızıl işi | 50 | 45 | 11874 |
| Silah düzəldənlər | 68 | 95 | 9705 |
| Dərzi | 317 | 421 | 19745 |
| Çəkməçi | 281 | 428 | 23012 |
| Papakçı | 147 | 131 | 10334 |
| Dülgər | 287 | 283 | 14601 |
| Daşyonan | 654 | 272 | 33975 |
| Baftaçı | 24 | 29 | 4831 |
| Dəmirçi | 578 | 854 | 38614 |
| Qalayçı | 129 | 40 | 1293 |
| Misgər | 70 | 137 | 16274 |
| Dabbaqçı | 83 | 137 | 21872 |
| Rəngsaz | 22 | 44 | 1100 |
| Çörəkçi | 50 | 93 | 62482 |
| Bərbər | 746 | 190 | 16541 |
| Mafraşnikov | 189 | 185 | 5111 |
| Keçəçi | 184 | 388 | 11645 |
| Müxtəlif növ kiçik sənaye sahələri | 1965 | 735 | 115564 |
| Yekun | 5854 | 4542 | 420741 |

1862-ci il arxiv məlumatında isə İrəvan quberniyasında 39 sənətkarlıq sahəsinin növü, ustaların və işçilərin sayı göstərilmişdir. Aşağıdakı cədvəldə bunu əyani izləmək mümkündür[1148]:

| Sənətkarlıq növləri | Ustaların sayı | Işçilərin sayı |
|---|---|---|
| Çörəkçi | 57 | 96 |
| Bulku bişirən | 17 | 8 |

[1147] Гугушвили В. Развитие промышленности в Грузии и Закавказье в XIX-XX вв., Тифлис, Изд-во Академии наук Грузинский ССР, 1957, с.325.

[1148] Гугушвили В. Развитие промышленности в Грузии и Закавказье в XIX-XX вв., Тифлис, 1957, с.325.

| | | |
|---|---|---|
| Qəssab | 107 | 94 |
| Xırda ərzaq məhsulları paylayan | 41 | 5 |
| Dərzi | 114 | 130 |
| Papaqçı | 124 | 106 |
| Çəkməçi | 168 | 157 |
| Baftaçı | 26 | 31 |
| Toxucu | 224 | 19 |
| Mafraçiki | 26 | 10 |
| Çarvadar | 1365 | - |
| Keçəçi | 38 | 18 |
| Başmaqçı | 59 | 88 |
| Dülgər | 96 | 89 |
| Soba düzəldənlər | 13 | 22 |
| Daşyonanlar | 133 | 174 |
| Dəzgahçı | 61 | 38 |
| Dəmirçi | 179 | 177 |
| Misgər | 49 | 56 |
| Qalayçı | 39 | 42 |
| Buxarıdüzəldən | 15 | - |
| Sərrac | 13 | 23 |
| Rəngsaz | 112 | 56 |
| Dabbaqçı | 70 | 106 |
| Faytonçu | 53 | 4 |
| Baytar | 4 | - |
| Saatsaz | 9 | 4 |
| Gümüş və qızıl işləri ustası | 72 | 61 |
| Bərbər | 241 | 62 |
| Kəndirçi | 10 | 15 |
| Nalbənd | 25 | 20 |
| Yəhərçi | 17 | 10 |
| Boyaqlı | 38 | 12 |
| Kərpiç bişirən | 9 | 8 |
| Dulusçu | 9 | 11 |
| Sabun bişirən | 25 | 30 |
| Şamçı | 5 | 6 |
| Silah düzəldən | 22 | 26 |
| Yunçırpan | 83 | 3 |
| Yekun | 3768 | 1831 |

Cədvəldən görmək olar ki, 1957-ci il məlumatı ilə müqayisə etdikdə görmək olar ki, sənətkarlıqda həm ustaların, həm də

işçilərin sayında xeyli azalma olmuşdur. Bundan əlavə, İrəvan sənətkarlığında yeni sənət sahələri də yaranmışdı. Bunlardan bulku-karamel bişirmə işini, faytonçu, baytar və s. qeyd etmək lazımdır.

1865-ci ildən İrəvan quberniyasında sənətkarlıqda çiçəklənmə başlamışdı. Arxiv materiallarında həmin ildən başlayaraq sənətkarlıq və sənaye sahələrində xeyli canlanmanın olmasını müşahidə etmək mümkündür. 1865-ci ildə İrəvan quberniyasında bu sahələr üzrə 10723 usta, 3394 işçi və 3539 şagird qeydə alınmışdı[1149]. Həmin ilin məlumatında yalnız İrəvan şəhərində 65 sənət növü və bu sahədə çalışan 1710 usta, 979 şagird və 655 fəhlə göstərilmişdir[1150].

Artıq 1868-ci ildən başlayaraq arxiv materiallarında bütün şəhər və ayrı-ayrı qəzalar üzrə kustar sənətkarlığı ilə bərabər, zavod və fabriklər haqqında da maraqlı məlumatlara rast gəlmək olar. Burada fabrik və zavodlar hazırlandığı məhsul üzrə növlərə bölünmüşdü. 1868-ci il məlumatında birinci növə heyvandarlıq məhsulları istehsal edən fabrik və zavodlar (5 növ) daxil idi. Bütün qəza və şəhərlərdə bu sahə üzrə 190 fabrik və zavod, 1140 usta və işçi qeydə alınmış, həmin zavodların istehsal etdikləri məhsuldan alınan qazanc 172 min rubl, yağ məhsulları istehsal edən ikinci növ sahədə (7 növ) 270 fabrik və zavod, 1133 usta və işçi qeydə alınmış və qazanc 1580 rubl, qazıntı məhsullarından istehsal olunan üçüncü növ sahədə 106 fabrik və zavod, 847 usta və işçi qeydə alınmış, 324 min qazanc, umumilikdə isə bütün quberniyada qeyd edilən zavodlar üzrə 567 fabrik və zavod, həmin zavodlarda 3128 usta və işçi, qazanc isə 68674 rubl olmuşdur[1151].

Bundan əlavə, kustar üsulla çörək, bulku və şirniyyat hazırlayanlar (4 növdə) haqqında da məlumat verilmişdir. İrəvan quberniyasında bütün şəhərlər üzrə (İrəvan, Naxçıvan, Ordubad,

---

[1149] Гугушвили В., Развитие промышленности в Грузии и Закавказье в XIX-XX вв., Тифлис, 1957, с.328.

[1150] Развитие Еревана после присоединения Восточной Армении к России, Сборник документов 1801-1917, с.434-435.

[1151] ЦГИА СПб, д. №153, л.л. 339-340.

Aleksandropol və Yenibəyazid) bu növ sahələrdə 171 usta və 228 işçi, paltar hazırlayan peşə (14 növ) üzrə bütün şəhərlərdə 852 usta və 871 işçi, ev əşyaları hazırlayan peşə üzrə (9 növ) bütün şəhərlərdə 640 usta, 351 işçi, digər sənətkarlıq və sənaye sahələrində (39 növ) bütün şəhərlər üzrə 1785 usta və 1253 işçi, ümumilikdə isə bütün şəhərlərdə 3342 usta, 3087 işçi və 782 şagird qeydə alınmışdı[1152].

1880-ci ilin statistik məlumatında isə İrəvan şəhərində hansı millətin sənətkarlıq sahəsində daha üstün mövqe tutması haqqında məlumat öz əksini tapmışdı. Həmin il İrəvan şəhərində 46 sənətkarlıqla məşğul olan sənət növü qeydə alınmışdı. Bunlardan 525 usta, 542 usta köməkçisi və şagirdi olan 293 emalatxana Azərbaycan türklərinə, 415 usta, 359 usta köməkçisi və şagirdi olan 262 emalatxana isə ermənilərə məxsus idi. Həmin ilin məlumatına görə, İrəvan şəhərində cəmi 555 emalatxana, 944 usta, 901 usta köməkçisi və şagirdi olmuşdu. Bu sahələrdə Azərbaycan türkləri böyük üstünlük təşkil etmişdilər[1153].

1888-ci ilin məlumatında İrəvan quberniyasında bəzi sənətkarlıq sahələri haqqında çox maraqlı məlumat verilmişdi. Kustar sənətkarlıqdan bəhs edən həmin məlumata görə, İrəvan quberniyasında 19 dulusçu, 6 çilingər, 48 yunçu, 18 tikməçi, 4 dəmirçi, 4 qalayçı, 5 kəndirçi, kətənə lifi düzəldən, 8 çəkməçi, 17 xarrat, 2 papaqçı, 2 çalğı aləti düzəldən, 3 ipəkdən bafta, güləbətinli qaytan düzəldən qeydə alınmışdı[1154]

Səyyah məlumatında da İrəvanda sənətkarlıqla məşğul olan Azərbaycan türkləri haqqında xeyli məlumatlara rast gəlmək mümkündür. XIX yüzilliyin 90-cı illərinin əvvəllərində İrəvanda olan səyyah H.F.B.Linç yazırdı ki, “xırda çərçi (səyyar satıcı-E.Q.) və meyvə satıcıları arasında həmçinin böyük faizlə tatarlar (Azərbaycan türkləri-E.Q.) var idi. Bunu həmçinin müxtəlif yer

---

[1152] Yenə orada.

[1153] Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1881, выпуск 1, с.37.

[1154] Кавказский календарь на 1890, с.57.

işi-yerqazan, rəngsaz, su kəməri çəkən və s. haqqında da demək olar. Bağbanlar və yükdaşıyanlar arasında həmçinin çoxlu tatarlar (Azərbaycan türkləri-E.Q) vardır..."[1155].

1882-ci ildə İrəvan quberniyasında illik gəliri 386543 rubl, 2518 işçisi olan 589 zavod fəaliyyət göstərmişdi. Zavodlardan gələn gəlir 1881-ci illə müqayisədə 108136 rubl çox olmuşdir. Bu zavodlardan 135-i illik gəliri 176700 rubl olan araq çəkmə, 202-i illik gəliri 59060 rub olan yağ və 16-sı isə illik gəliri 115000 rubl olan ipəksarıma zavodlarına məxsus idi. İpəksarıma müəssisələrindən başqa digər zavodlar texniki cəhətdən zəif təchiz olunmuşdu[1156].

1882-ci ildə İrəvan quberniyasında digər zavodlar da qeydə alınmşdı. Həmin ildə quberniyada gön-dəri istehsal edən 41 zavod fəaliyyət göstərmişdir ki, bu müəssisələrin illik gəliri 6755 rubl olmuşdur. Lakin 1888-ci ildə bu sahədə geriləmə baş vermişdir. Həmin ilin məlumatına əsasən, 17 zavod qeydə alınmış, onların illik gəliri 5500 rubl göstərilmişdir. İrəvan quberniyasında kustar üsulu ilə hazırlanmış gön-dəri keyfiyyətcə aşağı hesab olunurdu, hətta Rusiyadan ixrac olunmuş məhsullardan geri qalırdı[1157].

1888-ci ildə İrəvan quberniyasında 137 kustar üsülla işləyən müəssisələr qeydə alınmışdı. Bu müəssisələrə 19-u dulusçu, 6-ı çilingər, 48-i mahud hasil edən, 18-i paltar tikənlər, 4-ü dəmirçi, 4-ü mis-qalay düzəldənlər, pambıq və kətan lifi hazırlayanlar, 8-i dəri ayaqqabı tikən, 17-i xarrat, 2-si qoyun dərisindən papaq tikənlər, 2-si çalğı aləti düzəldənlər, 1-i ipək paltar tikən və 3-ü bafta düzəldənlər daxil idi[1158].

İrəvan quberniyasında istehsal yalnız kustar sənətkarlıqla məhdudlaşmırdı. Artıq XIX yüzilliyin sonlarına yaxın quberni-

---

[1155] Линч Х.Ф.Б., Армения. Путевые очерки этюды, Тифлис, 1910, т.1, с.293.

[1156] Кавказский календарь на 1884 г., отдел III, с.291.

[1157] Обзор фабрик и заводов Закавказского края, Составиь Гулишамбаров С., Тифлис, 1894, с.209.

[1158] Кавказский календарь на 1890 г., отдел 3, с.57.

yada zavod adlanan istehsal sahələri geniş fəaliyyət göstərməyə başlamışdı. Lakin onlar texniki vəziyyətinə və istehsal məhsullarının həcminə görə əsl iri sənaye müəssisələri deyildilər. Hətta mənbələrdə bəzi sənətkarlıq sahələri də zavod növündə qeyd olunmuşdur. Bu zavodlar 4 qrupa bölünmüşdü. Həmin qruplar bunlar idi: I qrup - heyvan məhsulları emal edən (piybişirmə, piy çıraqları hazırlayan, sabunbişirmə və gön-dəri emalı-dabbaqçı); II qrup-bitki məhsulları emal edən (ipəksarıma, üzüm-meyvə arağı istehsalı, su və buxarla işləyən dəyirman, yağ zavodu, pambıq təmizləyən, düyü təmizləyən zavodlar); III qrup-qazıntı məhsulları emal edən (misəridən, kərpic, dulusçu, kübrə, dəyirmandaşı hazırlayanlar), IV qrup-qarışıq mallar istehsal edən (rəng, təbii mineral su). Qruplardan görünür ki, bu zavodların xammalı mal-qaradan, bitki və meyvələrdən, qazıntı zamanı əldə edilmiş məhsullardan alınmışdır.

1891-ci ildə İrəvan quberniyasında 3213 zavod qeydə alınmışdı. Bu zavodlar şəhər və qəzalar üzrə belə bölünmüşdür[1159]:

| Zavodlar | Şəhərlərdə | Qəzalarda | Yekun |
|---|---|---|---|
| Piybişirən | 5 | - | 5 |
| Piy çıraqları hazırlayan | 2 | - | 2 |
| Sabunbişirən | 9 | - | 9 |
| Dabbaqxana | 32 | 3 | 35 |
| İpəksarıyan | 6 | 16 | 22 |
| Araq çəkən | 53 | 182 | 235 |
| Pivə bişirən | 3 | - | 3 |
| Su dəyirmanları | 49 | 2167 | 2216 |
| Buxar dəyirmanları | - | 1 | 1 |
| Yağ zavodu | 6 | 194 | 200 |
| Pambıq təmizləyən | 7 | 311 | 318 |
| Çəltik təmizləyən | 6 | 9 | 15 |
| Misəridən | - | 1 | 1 |
| Kərpic | 12 | 3 | 15 |
| Dulus | 7 | 51 | 58 |
| Kübrə | 17 | 2 | 19 |

[1159] Обзор Эриванской губернии за 1891 год, с.14-15.

| | | | |
|---|---|---|---|
| Dəyirmandaşı | - | 2 | 2 |
| Rəng istehsal edən | 23 | 31 | 54 |
| Təbii meneral su istehsalı | 5 | - | 5 |

Hesabat ilində zavod adlandırılan bu müəssisələrin 242-si şəhərlərdə (7,5 %-i), 2971-i isə qəzalarda (92,5 %-i) cəmləşmişdi. Keçən ilə nisbətən şəhərlərdə zavodların sayı 25, qəzalarda isə 407 ədəd artmışdır. Bütün zavodlarda 5660 işçi işləmiş, müəssisələrin ümumi gəliri isə 895440 rubl (1890-cı ildən 107699 rubl çox) olmuşdur[1160].

1892-ci ildə İrəvan quberniyasında ümumi gəliri 827208 rubl, 5089 fəhləsi olan 3067 zavod fəaliyyət göstərmişdi. Hesabat ilində keçən ilə nisbətən zavodların sayı 146 ədəd, ümumi gəliri 68232 rubl (7,4 %) və fəhlələrin sayı isə 571 (10,1 %) nəfər az olmuşdur. Məhsulsuzluq üzündən 156 un dəyirmanı və 37 yağçəkən zavod öz fəaliyyətini dayandırmışdı. Lakin həmin il ümumi gəliri 55000 rubl olan spirt təmizləyən zavod fəaliyyət göstərdiyindən İrəvan şəhərində istehsaldan gələn gəlir 53,3 % artmışdır. Hətta növbəti ildə pivə bişirən və konyak zavodlarının açılması nəzərdə tutulmuşdu[1161].

İrəvan quberniyasında fəaliyyət göstərən zavodların əksəriyyəti kustar xarakter daşıyırdı, əl əməyindən istifadə edilirdi. Bu zavodlardan yalnız quberniya üzrə 12 zavodu əsl zavod hesab etmək olardı. Bunlara 3 araq, 1 spirt təmizləyən, 1 konyak, 3 pivə bişirən, 1 ipək sarıyan, 1 mis əridən, 1 mineral su emal edən zavodlar və 1 un dəyirmanı daxil idi[1162].

1893-cü ildə İrəvan quberniyasında zavodların sayında azalma baş versə də, ümumi gəlirdə xeyli irəliləyiş baş vermişdir. Hesabat ilində ümumi gəliri 1430235 rubl, 5399 fəhləsi olan 3005 zavod fəaliyyət göstərmişdi. Həmin il istehsal gücünə görə birinci yeri ümumi gəliri 759320 rubl olan 344 üzüm-meyvə araq

---

1160 Обзор Эриванской губернии за 1891 год, с.15-17.
1161 Обзор Эриванской губернии за 1892 год, с.8-9.
1162 Yenə orada, s.10.

zavodları (bu da ümumi zavodların 53,1 % idi), sonrakı yerləri isə ümumi gəliri 322920 rubl olan 1920 un dəyirmanları (22,6 %), ümumi gəliri 89320 rubl olan pambıqtəmizləmə zavodları, ümumi gəliri 74000 rubl olan ipəkaçan zavodlar, ümumi gəliri 73160 rubl olan spirttəmizləyən zavodlar, ümumi gəliri 28630 rubl olan yağ zavodları tutmuşdu. Digər zavodların isə ümumi gəliri 20 min rubldan aşağı olmuşdur[1163].

1893-cü ilin stastistik məlumatına qədər İrəvan quberniyasında yalnız zavodların olduğu göstərilsə də, hesabat ilində fabrik də qeydə alınmışdı. Həmin il İrəvan quberniyasında Ordubad şəhərində bir ipəkaçan fabrikin olduğu göstərilmişdir[1164].

1894-cü ildə İrəvan quberniyasında ümumi gəliri 1752578 rubl, 8480 fəhləsi olan 4117 zavod fəaliyyət göstərmişdi. Həmin il yenə də istehsal gücünə görə birinci yeri ümumi gəliri 896671 rubl olan üzüm-meyvə araq zavodları, sonrakı yerləri isə ümumi gəliri 381108 rubl olan un dəyirmanları, ümumi gəliri 168154 rubl olan spirttəmizləmə zavodları, ümumi gəliri 100950 rubl olan ipəkaçan zavodlar, ümumi gəliri 72480 rubl olan pambıqtəmizləyən zavodlar tutmuşdu. Digər zavodların isə ümumi gəliri 3504-19500 rubl arasında olmuşdur. Yalnız yağçəkən zavodların gəliri 29960 rubla çatmışdı. Hesabat ilində hər bir zavoda ümumi gəlirə görə 426 rubl, fəhlələrin sayına görə isə 2 fəhlə düşürdü[1165].

Hər il əsl zavod statusuna isə ümumi gəliri 84077 rubl olan 2 spirttəmizləmə, ümumi gəliri 12205 rubl olan 1 misəritmə, gəliri 4038 rubl olan 25 ipəksarıma (onlardan 3-ü Ordubadda yerləşmişdi), gəliri 1200 rubl olan 1 meyvəqurudan, gəliri 3746 rubl olan 4 pivəbişirən, 2 araq, 3 təbii mineral sudoldurma, ümumilikdə 38 müəssisə malik olmuşdu[1166].

1895-ci ildə İrəvan quberniyasında ümumi gəliri 1593153 rubl, 7492 fəhləsi olan 3673 zavod fəaliyyət göstərmişdi. Bu

---

[1163] Обзор Эриванской губернии за 1883 год, с.8.
[1164] Yenə orada.
[1165] Обзор Эриванской губернии за 1894 год, с.6-7.
[1166] Обзор Эриванской губернии за 1894 год, с.7.

zavodlardan gəlirinə görə birinci yeri üzüm-meyvə çəkən araq zavodları (gəliri 761592 rubl), sonrakı yerləri un dəyirmanları (gəliri 408660 rubl), ipəksarıyan zavodlar (gəliri 124950 rubl), spirttəmizləyən zavodlar (gəliri 110000) tutmuşdu. Bundan əlavə, quberniyada əhəmiyyətli gəlir gətirən pambıqtəmizləyən (gəliri 65330 rubl) və yağ zavodlarını (gəliri 33193 rubl) qeyd etmək lazımdır. Digər zavodların gəliri 20 min rubldan artıq deyildi. Orta hesabla hər bir zavodun orta ümumi gəliri 434 rubl olmuş, hər bir zavoda 2 fəhlə düşmüşdü[1167].

İrəvan quberniyasında fəaliyyət göstərən zavodların əksəriyyəti kustar xarakter daşıyırdı, əl əməyindən istifadə edilirdi. Bu zavodlardan 31 ipəksarıyan, 4 spirttəmizləyən, 5 pivəbişirən, 5 misəridən və 4 təbii mineral su emal edən, ümumilikdə 45 müəssisəni əsl zavod adlandırmaq olar. Zavodların əksəriyyəti yerli tələbatı ödəmək üçün məhsullar istehsal edirdi. Yalnız yerli istehsaldan ipək, araq, çaxır, konyak, pambıq və mis xaricə ixrac edilirdi[1168].

1896-cı ildə İrəvan quberniyasında fabrik və zavodların sayı belə idi: Birinci qrupa piybişirmə, sabunbişirmə, dabbaqlıq və ipəksarıma sahələri daxil idi. Lakin bu sahələr bütün qəzaları əhatə etmirdi. Aşağıdakı məlumatdan bunu görmək mümkündür. İrəvan şəhərində - 2 piybişirmə fabriki (4 fəhlə, ümumi gəliri 400 rubl), 2 sabunbişirmə fabriki (5 fəhlə, ümumi gəliri 600 rubl), 18 dabbaqxana (65 fəhlə, ümumi gəliri 6700 rubl); Aleksandropol şəhərində - 3 sabunbişirmə (8 fəhlə, ümumi gəliri 1000 rubl), 3 dabbaqxana (23 fəhlə, ümumi gəliri 1900 rubl); Yenibəyazid şəhərində 5 dabbaqxana (15 fəhlə, ümumi gəliri 4500); Yenibəyazid qəzasında 2 dabbaqxana (4 fəhlə, ümumi gəliri 200 rubl); Naxçıvan şəhərində 2 dabbaqxana (32 fəhlə, ümumi gəliri 3500 rubl)[1169].

Zavodların ikinci qrupuna spirtli içkilər istehsal edən fabrik,

---

[1167] Обзор Эриванской губернии за 1895 год, с.7.
[1168] Yenə orada.
[1169] Развитие Еревана после присоединения Восточной Армении к России. Сборник документов 1801-1917, с.456-457.

zavodlar və dənli bitkilər üyüdən dəyirmanlar daxil idi. Bu fabrik və zavodlarda işləyən fəhlələrin sayı və ümumi gəliri belə idi: İrəvan şəhərində - üzüm-meyvə-araqçəkmə müəssisəsi - 61 (127 fəhlə, ümumi gəlir 22200 rubl); Spirttəmizləmə-2 (40 fəhlə, gəliri 96000 rubl); Pivəçəkən-2 (8 fəhlə, gəliri 8170 rubl); Dəyirman-9 (27 fəhlə, gəliri 5700), Çəltiktəmizləyən-8 (32 fəhlə, gəliri 11760 rubl); İrəvan qəzasında-üzüm-meyvə araqçəkən müəssisəsi-232 (928 fəhlə, ümumi gəliri 464000 rubl), Naxçıvan qəzasında-13 üzüm-meyvə araqçəkmə müəssisəsi (28 fəhlə, gəliri 3250 rubl); Aleksandropol şəhərində pivəçəkən-1 (5 fəhlə, ümumi gəliri 2500 rubl); İrəvan qəzasında dəyirman 316 (340 fəhlə, 31600 rubl gəliri); Aleksandropol şəhərində dəyirman-7 (20 fəhlə, gəliri 6650 rubl); Aleksandropol qəzasında dəyirman-448 (493 fəhlə, gəliri 36735 rubl); Yenibəyazid şəhərində dəyirman-7 (14 fəhlə, gəliri 5000 rubl), Yenibəyazid qəzasında dəyirman-477 (958 fəhlə, gəliri 50000 rubl); Naxçıvan şəhərində dəyirman-14 (30 fəhlə, gəliri 5500 rubl); İrəvan qəzasında yağ zavodu-5 (15 fəhlə, gəliri 1200 rubl), Aleksandropol şəhərində-5 (26 fəhlə, gəliri 370 rubl), Aleksandropol qəzasında-61 (286 fəhlə, gəliri 4519 rubl), Yenibəyazid şəhərində-1 (2 fəhlə, gəliri 300 rubl), Yenibəyazid qəzasında-55 (120 fəhlə, gəliri 5700 rubl); İrəvan qəzasında pambıqtəmizləyən zavod-73 (146 fəhlə, gəliri 10950 rubl, Naxçıvan şəhərində-7 (20 fəhlə, gəliri 3000 rubl); İrəvan şəhərində çəltiktəmizləyən-8 zavod (32 fəhlə, gəliri 11760 rubl)[1170].

Üçüncü qrupa qazıntı məhsulları emal edən zavodlar daxil idi. Burada vəziyyət belə idi: Aleksandropol qəzasında mis istehsal edən zavod-1 (12 fəhlə); Kərpic zavodu-İrəvan şəhərində-5 (fəhlə 32, illik gəliri 635 rubl), Aleksandropol şəhərində-5 (14 fəhlə, gəliri 1300 rubl), Naxçıvan şəhərində 3 (20 fəhlə, gəliri 2000 rubl); Dulusçu emalatxanası İrəvan şəhərində -3 (16 fəhlə, gəliri 2500 rubl), İrəvan qəzasında-40 (80 fəhlə, gəliri 5200 rubl), Aleksandropol şəhərində-5 (6 fəhlə, gəliri 1100 rubl), Yenibəyazid qəzasında-4 (10 fəhlə, gəliri 350 rubl).

---

[1170] Yenə orada.

Dördüncü qrupa isə qarışıq məhsullar istehsal edən zavodlar daxil idi. Bunlardan boyaqçılığı qeyd etmək lazımdır. Boyaqxana İrəvan şəhərində 10 (18 fəhlə, illik gəliri 710 rubl), Yenibəyazid şəhərində-8 (8 fəhlə, 2000 rubl), Yenibəyazid qəzasında-6 (6 fəhlə, gəliri 1200); Mineral su doldurma zavodu- İrəvan şəhərində 3 (11 fəhlə, illik gəliri 2790 rubl), Aleksandropol şəhərində 1 (2 fəhlə, illik gəliri 800 rubl). Ümumiyyətlə, hər qrup üzrə İrəvan şəhərində 129 (403 fəhlə, illik gəliri 161385 rubl), İrəvan qəzasında 666 (1509 fəhlə, 512950 rubl), Aleksandropol şəhərində 35 (116 fəhlə, illik gəliri 17290 rubl), Aleksandropol qəzasında 510 (791 fəhlə, illik gəliri 41254 rubl), Yenibəyazid şəhərində 21 (39 fəhlə, illik gəliri 11800 rubl), Yenibəyazid qəzasında 544 (1098 fəhlə, illik gəliri 57450 rubl), Naxçıvan şəhərində 39 (130 fəhlə, illik gəliri 17250 rubl) zavod və fabrik qeydə alınmışdı[1171].

1896-cı ildə İrəvan qubreniyasında zavodların və burada işləyən fəhlələrin sayı xeyli artmışdı. Lakin zavodların gəlirində azalma müşahidə olunmuşdu. Hesabat ilində ümumi gəliri 1506489 rubl, 8707 fəhləsi olan 4220 zavod fəaliyyət göstərmişdi. Bu zavodlardan gəlirinə görə birinci yeri üzüm-meyvə çəkən araq zavodları (gəliri 682850 rubl), sonrakı yerləri un dəyirmanları (gəliri 422855 rubl), ipəksarıyan (gəliri 121000 rubl), spirt təmizləyən (gəliri 96000), yağçəkən (34724 rubl), pambıqtəmizləyən (gəliri 58915 rubl), çəltiktəmizləyən (gəliri 17940 rubl), pivəbişirən (gəliri 10670 rubl) zavodlar, dabbaqxana (gəliri 17800 rubl) və dulusçuluq (gəliri13830 rubl) tutmuşdu. Digər zavodların gəliri 10 min rubldan artıq deyildi. Orta hesabla hər bir zavodun orta ümumi gəliri 357 rubl olmuş, hər bir zavodda 2,1 fəhlə düşmüşdü[1172].

İrəvan quberniyasında fəaliyyət göstərən zavodların əksəriyyəti kustar xarakter daşıyırdı, əl əməyindən istifadə edilirdi.

---

[1171] Развитие Еревана после присоединения Восточной Армении к России. Сборник документов, 1801-1917, с.456-457.
[1172] Обзор Эриванской губернии за 1896 год, с.5.

Bu zavodlardan 26 ipəksarıyan, 2 spirttəmizləyən, 3 pivəbişirən, 3 misəridən və 4 təbii mineral su emal edən, ümumilikdə 36 müəssisəni əsl zavod adlandırmaq olar. Bu zavodlarda müxtəlif maşınlardan-buxar maşınlardan və neftlə işləyən mühərriklərdən istifadə edilmişdi.

1897-ci ildə İrəvan quberniyasında zavodların sayında xeyli ixtisar müşahidə olunmuşdu. Bu da onlardan gələn gəlirin sayına təsir göstərmişdi. Hesabat ilində ümumi gəliri 1217840 rubl, 7541 fəhləsi olan 3485 zavod fəaliyyət göstərmişdi. Bu zavodlardan gəlirinə görə birinci yeri sayı 329 olan üzüm-meyvə çəkən araq zavodları (gəliri 433670 rubl, 35,6 %), sonrakı yerləri sayı 2333 olan un dəyirmanları (gəliri 333801 rubl), ipəksarıyan (gəliri 137500 rubl), spirttəmizləyən (gəliri 107000), yağçəkən (gəliri 12259 rubl), pambıqtəmizləyən (39204 rubl), çəltiktəmizləyən (gəliri 17580 rubl), pivəbişirən (gəliri 24800 rubl) zavodları, dabbaqxana (gəliri 18800 rubl) və dulusçuluq emalatxanaları (gəliri 12259 rubl) tutmuşdu. Digər zavodların gəliri 10 min rubldan artıq deyildi. Orta hesabla hər bir zavodun orta ümumi gəliri 357 rubl olmuş, hər bir zavoda 2,1 fəhlə düşmüşdü[1173].

1897-ci ilin statistikasına əsasən, üzüm-meyvə çəkən araq zavodlarında və un dəyirmanlarının sayında ixtisar müşahidə olunmuşdur. Bunun əsas səbəbi meyvə arağına tətbiq olunan aksiz vergisinin artması və son iki ildə taxıl məhsullarının az tədarük olması idi[1174].

1898-ci ildə İrəvan quberniyasında ümumi gəliri 1249118 rubl, 9095 fəhləsi olan 3386 zavod fəaliyyət göstərmişdir. Bu zavodlardan gəlirinə görə birinci yeri un dəyirmanları tutmuşdu. Hesabat ilində sayı 2214 olan un dəyirmanlarının gəliri 368910 rubl (zavodların ümumi gəlirinin 29,5 %), sayı 344 ədəd olan üzüm-meyvə çəkən araq zavodlarının ümumi gəliri 274289 rubl (21,9 %), ipəksarıyan zavodların ümumi gəliri 156000 rubl, sayı bir olan misəridən zavodun ümumi gəliri 126000 rubl, 2 spirt

---

[1173] Обзор Эриванской губернии за 1897 год, с.9.
[1174] Обзор Эриванской губернии за 1897 год, с.9.

təmizləyən zavodun ümumi gəliri 95000 rubl, yağçəkən zavodların ümumi gəliri 34004 rubl, pambıqtəmizləyən zavodların ümumi gəliri 75589 rubl, pivəbişirən zavodların ümumi gəliri 43000 rubl, dabbaqxanaların ümumi gəliri 19900 rubl, dulusxanaların ümumi gəliri 10656 rubl, kərpic zavodlarının ümumi gəliri 12200 rubl, digər zavodların gəliri isə 1500-10000 rubl arasında olmuşdur[1175].

Bu zavodların əksəriyyəti kustar xarakteri daşımışdı. Yalnız 9000 pud misəridən, 60 fəhləsi, ümumi gəliri 126000 rubl olan misəridən zavodu, 35 fəhləsi, gəliri 95000 rubl olan iki spirttəmizləyən zavodu istisna təşkil etmişdi[1176].

1899-cu ildə İrəvan quberniyasında ümumi gəliri 979171 rubl, 8122 fəhləsi olan 3448 zavod fəaliyyət göstərmişdi. Bu zavodlardan gəlirinə görə birinci yeri un dəyirmanları tutmuşdu. Hesabat ilində un dəyirmanlarının gəliri 308930 rubl (zavodların ümumi gəlirinin 30,1 %), çaxır zavodların ümumi gəliri 262327 rubl (26,8 %), pambıqtəmizləyən zavodların ümumi gəliri 52194 rubl, spirttəmizləyən zavodların ümumi gəliri 95000 rubl, ipəksarıyan zavodların ümumi gəliri 89210 rubl, pivəbişirən zavodların ümumi gəliri 44500 rubl, yağçəkən zavodların ümumi gəliri 27991 rubl, çəltiktəmizləyən zavodların ümumi gəliri 20930 rubl, dabbaqxanaların ümumi gəliri 20050 rubl, digər zavodların gəliri isə 600-16005 rubl arasında olmuşdur[1177].

Keçən ilə nisbətən 1899-cu ildə zavodların sayı 62 ədəd artsa da, istehsal məbləği 269947 rubl, yəni 21,06 %, fəhlələrin sayı isə 973 nəfər azalmışdır. Bunun əsas səbəbi zavodların kustar xarakteri daşıması, taxıl bitkilərinin və ot tədarükünün zəif olmasında idi[1178].

1900-cü ilin məlumatına görə, İrəvan quberniyasında ümumi gəliri 1336640 rubl olan 3469 irili-xırdalı fabrik-zavod qeydə alınmış, həmin zavodlarda 8290 nəfər fəhlə işləmişdir.

---

[1175] Обзор Эриванской губернии за 1898 год, с.8-9.
[1176] Yenə orada, s.9.
[1177] Обзор Эриванской губернии за 1899 год, с.8.
[1178] Обзор Эриванской губернии за 1899 год, с.8.

Quberniyada yeganə İrəvan şəhərində ümumi gəliri 1800 rubl olan bir fabrik-kauçuk ştempel fabriki fəaliyyət göstərmişdir. Keçən illə müqayisədə fabrik və zavodların sayında 22 ədəd, fəhlələrin sayında 169 nəfər, ümumi gəlirdə isə 359258 rubl (36,69 %) artım olmuşdur[1179].

Hesabat ilində də zavodlardan birinci yeri ümumi gəliri 409315 rubl (30,62 %) olan 2204 ədəd olan dəyirmanlar, ikinci yeri ümumi gəliri 390451 rubl (29,21 %) olan 437 ədəd araq, çaxır zavodları tutmuşdu. Sonrakı yerlərdə ümumi gəliri 117690 rubl olan ipəksarıma, gəliri 98000 rubl olan spirtçəkmə, gəliri 75060 rubl olan yağçəkmə, gəliri 52000 rubl olan pivəbişirən, gəliri 43380 rubl olan bir misəridən, gəliri 35329 rubl olan pambıqtəmizləyən, gəliri 23150 rubl olan çəltiktəmizləyən zavodları, gəliri 19200 rubl olan dabbaqxana, gəliri 16800 rubl olan dulusxana, gəliri 12000 rubl olan dəyirmandaşı düzəldən müəssisə, gəliri 11560 rubl olan təbii mineral su emal edən müəssisələr, gəliri 11195 rubl olan şüşə emal edən müəssisə, gəliri 9305 rubl olan kərpic müəssisələri, gəliri 8334 rubl olan boyaqxana, gəliri 3160 rubl olan sabunbişirən müəssisələri, gəliri 700 rubl olan piybişirən müəssisələr gəlirdi[1180].

1901-ci il məlumatına görə, İrəvan quberniyasında ümumi gəliri 1163953 rubl olan 3494 zavod qeydə alınmış, həmin zavodlarda 6744 nəfər fəhlə işləmişdir. Hesabat ilində bəzi araqçəkmə zavodlarının bağlanması nəticəsində zavodların ümumi gəliri 174476 rubl (13 %) azalmışdır[1181].

1901-ci ildə də zavodlardan birinci yeri ümumi gəliri 401081 rubl (34,46 %) olan 2331 dəyirman, ikinci yeri ümumi gəliri 281332 rubl olan (24,17 %) 361 ədəd araq, çaxır zavodları, üçüncü yeri ümumi gəliri 130038 rubl (11,17 %) olan 22 ipəksarıma fabriki tutmuşdu. Sonrakı yerləri gəliri 90000 rubl olan

---

[1179] Обзор Эриванской губернии за 1900 год, с.8; Энциклопедический словар Брокгауз и Ефрона, т.XLI (81), с.13.

[1180] Yenə orada.

[1181] Обзор Эриванской губернии за 1901 год, с.11.

spirtçəkmə, gəliri 53200 rubl olan pivəbişirən, gəliri 40375 rubl olan pambıqtəmizləyən, gəliri 33485 rubl olan yağçəkən, gəliri 24370 rubl olan dabbaqxana, gəliri 22060 rubl olan çəltiktəmizləyən, gəliri 17790 rubl olan dulusxana, gəliri 13200 rubl olan təbii mineral su, gəliri 12600 rubl olan dəyirmandaşı düzəldən, gəliri 12180 rubl olan şüşə emal edən, 12150 rubl olan sabunbişirən, gəliri 11322 rubl olan kərpic, gəliri 8070 rubl olan boyaqxana, gəliri 700 rubl olan piybişirən zavodları tutmuşdu[1182].

1902-ci il məlumatına görə, İrəvan quberniyasında ümumi gəliri 1118557 rubl olan 3530 zavod və fabrik qeydə alınmış, həmin müəssisələrdə 7104 nəfər fəhlə işləmişdir. Həmin il İrəvan quberniyasında mis hasilatı qeydə alınmamışdı[1183].

1903-cü ilin məlumatına görə, İrəvan quberniyasında ümumi gəliri 1542585 rubl olan 3505 zavod və fabrik qeydə alınmış, həmin müəssisələrdə 6777 nəfər fəhlə işləmişdir[1184].

1907-ci ildə İrəvan quberniyasında ümumi gəliri 1790359 rubl olan 3255 zavod və fabrik qeydə alınmış və həmin müəssisələrdə 6623 nəfər fəhlə çalışmışdır[1185].

1912-ci ildə quberniyada ümumi gəliri 3289195 rubl olan 3576 zavod və fabrik qeydə alınmış və həmin müəssisələrdə 9261 nəfər fəhlə çalışmışdır[1186]. Həmin ildə yalnız İrəvan şəhərində müxtəlif istehsal sahəsini əhatə edən 67 zavod qeydə alınmışdı. Bunlardan 1 pivəçəkən (10 fəhlə), 12 araqçəkən (50 fəhlə, onlardan birində 6 fəhlə, qalanlarında 4 fəhlə işləmişdi), 6 konyak istehsal edən (146 fəhlə, onlardan birində 120 fəhlə, digərində 10, qalanlarında isə 4 fəhlə işləmişdi), mineral su istehsal edən (12 fəhlə, hər birində 4 fəhlə), 20 dabbaqxana (121 fəhlə, onlardan 2-də 12, 7-də 6, qalanlarında isə 5 fəhlə işləmişdir), 2 qaynaqçı mexanik (16 fəhlə (birində 11, digərində 5 fəhlə), 1 küncüt yağ zavodu (10 fəhlə), 11 çəltiktəmizləyən (50 fəhlə), 8 dəyirman (20

---

[1182] Обзор Эриванской губернии за 1901 год, с.11.
[1183] Обзор Эриванской губернии за 1902 год, с.12-13.
[1184] Обзор Эриванской губернии за 1903 год, с.18-19.
[1185] Обзор Эриванской губернии за 1907 год, с.20-30.
[1186] Обзор Эриванской губернии за 1912 год, с.43.

fəhlə), 3 kübrə (15 fəhlə) zavodlarını göstərmək olar[1187].

1913-cü ildə isə bütün quberniyada ümumi gəliri 3347510 rubl, işçilərinin sayı 7759 olan 3622, 1914-cü ildə isə ümumi gəliri 3901058 rubl, işçilərinin sayı 7091 olan 3649 fabrik və zavod qeydə alınmışdır[1188].

**Xalçaçılıq**. İrəvan quberniyasının iqtisadi həyatında kustar üsulu ilə xalça toxuculuğu əsas yerlərdən birini tutmuşdu. Maldarlıqla məşğul olduqlarına görə Azərbaycan türkləri quberniyanın xalça toxuculuğunda əsas rol oynamışdır. Bu iş qədimdən Azərbaycan türklərinin əsas sənətkarlıq sahələrindən biri olmuş, bu sahə ilə yalnız qadınlar məşğul olmuşdur. Gəlir gətirdiyindən əhali bu sahənin inkişafına xüsusi diqqət yetirmişdir. İrəvan quberniyasının bütün qəzalarında əhali bu sahə ilə məşğul olmuşdur. Qeyd etmək lazımdır ki, xalça toxuyanlar təkcə xalça toxumur, həm də palaz, ip istehsalı, çul, çadır üçün materiallar, xurcun və cecim toxuyurdular[1189].

Qeyd edildiyi kimi xalça toxuculuğu ilə yalnız qadınlar məşğul olmuşdu. Mənbənin verdiyi məlumata görə, qadınlar yaz və yayda iplikləri hazırlayır, onları rəngləyir, payız və qışda isə toxuyurdular. Xalçaların uzunluğu 5 arşın, eni 2,25 arşın olurdu. Əhali toxunmuş xalçaların bir hissəsini evləri bəzəmək üçün özlərinə saxlayır, qalan hissəsini isə satırdılar. Toxunmuş xalça, palaz, cecim yaxşı gəlir gətirdiyinə görə Tiflisə və xaricə ixrac edilirdi. İrəvan quberniyasında ən keyfiyyətli və ən çox xalça Naxçıvan qəzasında toxunurdu. Hətta 5 min rubl məbləğində 200 pud Naxçıvan xalçası yerli və Şuşa möhtəkirləri tərəfindən Fransanın Marsel şəhərinə ixrac edilmişdi. Bir ədəd xalça növündən asılı olaraq daxili bazarlarda 16-30 rubl arasında

---

[1187] Развитие Еревана после присоединения Восточной Армении к России. Сборник документов 1801-1917, с.458.

[1188] Обзор Эриванской губернии за 1913 год, с.40-45; Обзор Эриванской губернии за 1914 год, с.42-47.

[1189] Обзор Эриванской губернии за 1891 год, с.14; Обзор Эриванской губернии за 1902 год, с.129.

satılmışdı[1190].

XX yüzilliyin əvvəllərinə aid məlumatına görə, möhtəkirlər toxunmuş xalça və palazı ucuz qiymətə alır, baha qiymətə satırdılar. Məsələn, Yenibəyazid şəhərindən olan üç möhtəkir 2,5 min rubl, Basarkeçər kəndindən üç möhtəkir 800-1000 rubl arasında, ümumilikdə isə Yenibəyazid qəzasında 15-17 min rubl məbləğində, Şuşadan olan bir möhtəkir isə 3000-4000 rubl məbləğində xalça və palaz almışdılar. Bundan əlavə, İrəvan və Aleksandropol şəhərindən olan möhtəkirlər 2,5 min rubl məbləğində xalça və palaz almışdılar. Alınmış xalça və palaz baha qiymətə satılmışdı[1191].

Xalçaçılıq gəlir gətirdiyinə görə bu sənətə maraq ildən-ilə artmış, hətta məktəblərdə bu sənətin sirlərini şagirdlərə öyrədirdilər. 1901-ci ildə Yenibəyazid şəhərində iki sinifli şəhər məktəbinin nəzdində imtiyazlı adamların təşəbbüsü ilə xalçaçılıq emalatxanası açılmış, emalatxanada qadın xalça ustası dərs demişdir[1192].

Sonrakı illərdə xalçaçılıqdan gələn gəlirin miqdarı iki dəfə artdığından hökumət xalçaçılığa diqqət yetirməyə başladı. Qafqaz Baş Rəisinin icazəsi ilə 1910-cu ildə Sürməli qəzasının İğdır kəndində, 1912-ci ildə isə Naxçıvan şəhərində xalça-palaz toxuculuğunun sirlərini öyrədən xüsusi peşə məktəbləri açılmışdır. Bu peşə məktəblərində kəndli qızlar təhsil alırdılar[1193].

XX yüzilliyin əvvəllərində İrəvan quberniyası üzrə tərtib olunan "icmal"larda xalçaçılıq və ondan gələn gəlir haqqında məlumatlara rast gəlmək mümkündür. 1900-cü ildə İrəvan quberniyasında xalçaçılıq məhsullarından gələn illik gəlir 30000 rubl, 1902-ci ildə 50.000 rubl olmuşdur[1194].

İrəvan quberniyasında 1903-cü ilin hesabatında xalçaçılıqla məşğul olan 1775 ev qeydə alınmış, həmin ildə müxtəlif növ

---

1190 Обзор Эриванской губернии за 1902 год, с.129-135.
1191 Yenə orada, s.136.
1192 Yenə orada.
1193 Обзор Эриванской губернии за 1912 год, с.13.
1194 Энциклопедический словар Брокгауз и Ефрона, т.XLI (81), с.13; Обзор Эриванской губернии за 1902 год, с.3.

xalça, palaz, cecim və s. məhsullardan 60000 rubla yaxın qazanc əldə edilmişdir. Hesabat ilində İrəvan xalçaları xaricə də ixrac olunmuşdu[1195].

1904-cü ilin məlumatında göstərilmişdi ki, İrəvan quberniyasının bütün qəzalarında 2650 ev bu işlə məşğul olmuş və xalça, palaz və cecimdən həmin ildə gələn qazancın miqdarı 56000 rubla bərabər olmuşdur[1196].

1908-ci ildə quberniyada xalçaçılıqdan 50 min rubl və 1909-cu ildə də eyni miqdarda qazanc əldə edilmişdir[1197].

1912-ci ilin hesabatında ayrı-ayrı qəzalar üzrə xalçaçılıq məhsullarının toxunması ilə məşğul olan kəndlərin, evlərin sayı və əldə olunan qazancın miqdarı haqqında ətraflı məlumat verilmişdir. Həmin ilin məlumatına görə, İrəvan qəzasında 66 kənd, 647 ev, Üçmüəzzində 80 kənd, 410 ev, Sürməlidə 66 kənd, 442 ev, Yenibəyaziddə 42 kənd, 537 ev, Aleksandropolda 156 kənd, 2937 ev, Şərur-Dərələyəzdə 82 kənd, 789 ev, Naxçıvanda 82 kənd, 912 ev, ümumiyyətlə isə quberniya üzrə 574 kənd, 6674 ev bu sahə ilə məşğul olmuşdur. Xalçaçılıqdan gələn gəlirin miqdarı isə belə idi: İrəvan qəzasında-12855 rubl; Üçmiəzzində-7183 rubl; Sürməlidə-8761,5 rubl; Yenibəyaziddə-12886 rubl; Aleksandropolda-64176 rubl; Şərur-Dərələyəzdə-17143 rubl; Naxçıvanda-114394,2 rubl. Ümumiyyətlə İrəvan quberniyasında xalçaçılıq məhsullarından gələn gəlirin ümumi miqdarı 134394,2 rubl təşkil etmişdir[1198].

Eyni artıma 1913-cü il məlumatında da rast gəlmək mümkündür. Həmin ilin məlumatına görə, İrəvan qəzasında 12 kənd, 545 ev, Üçmüəzzin qəzasında 80 kənd, 405 ev, Sürməli qəzasında 61 kənd, 468 ev, Yenibəyazid qəzasında 52 kənd 710 ev, Aleksandropol qəzasında 151 kənd, 4117 ev, Şərur-Dərələyəz qəzasında 82 kənd, 661 ev, Naxçıvan qəzasında isə 79 kənd,

---

1195 Обзор Эриванской губернии за 1903 год, с.5.

1196 Обзор Эриванской губернии за 1904 год, с.9.

1197 Обзор Эриванской губернии за 1908 год, с.10; Обзор Эриванской губернии за 1909 год, с.9.

1198 Обзор Эриванской губернии за 1912 год, с.13.

1284 ev, ümumilikdə isə quberniya üzrə 567 kənd, 8190 ev xalçaçılıqla məşğul olmuşdur. Xalçaçılıqdan gələn gəlirin miqdarı isə belə idi: İrəvan qəzasında 11613 rubl; Üçmüəzzin qəzasında 8600 rubl; Sürməli qəzasında 11005 rubl; Yenibəyazid qəzasında 14132 rubl; Aleksandropol qəzasında 55144 rubl: Şərur-Dərələyəz qəzasında 24652 rubl; Naxçıvan qəzasında 16698 rubl. Ümumilikdə, İrəvan qəzasında həmin ildə əldə olunan qazancının ümumi məbləği 141844 rubl olmuşdur[1199].

1914-cü ildə isə xalçaçılıqdan gələn gəlir xeyli azalmışdı. Həmin ildə qəzalar üzrə vəziyyət belə idi: İrəvan qəzasında-18 kənd, 305 ev, Üçmiəzzində-31 kənd, 279 ev, Sürməlidə 44 kənd, 378 ev, Yenibəyaziddə 47 kənd, 1057 ev, Aleksandropolda 151 kənd, 1235 ev, Şərur-Dərələyəzdə 82 kənd, 630 ev, Naxçıvanda 74 kənd, 791 ev. Bu ildə gələn gəlir isə belə idi: İrəvan qəzasında-13335 rubl; Üçmüəzzində-24047 rubl; Sürməlidə-8570 rubl; Yenibəyaziddə-19901 rubl; Aleksandropolda-2326; Şərur-Dərələyəzdə-16645 rubl; Naxçıvanda-11610 rubl. Ümumiyyətlə xalçaçılıqdan gələn gəlir 1914-cü ildə 96434 rubl olmuşdur[1200].

İllik məlumatlardan görünür ki, xalçaçılıq ildən-ilə İrəvan əhalisinin iqtisadi həyatında böyük rol oynamağa başlamışdır. Buna səbəb bir tərəfdən bu sənət sahəsinin qədim tarixə malik olması, digər tərəfdən isə hakimiyyət orqanlarının xalçaçılığa diqqəti və hətta onun sirlərini öyrənmək üçün məktəblərin açılmasına önəm verməsi idi.

İrəvan quberniyasında sənət sahələrindən biri də müxtəlif heyvanların-at, eşşək, qatır, kəl və dəvənin qoşulduğu arabalarla **yük daşımaq** idi. Qeyd etmək lazımdır ki, XIX yüzilliyin 60-cı illərinə qədər yük daşıma əvvəlki kimi dəvə, at, qatır, ulaq və araba ilə daşınırdı. Lakin yüzilliyin sonlarında bu qədim yükdaşıma sənətinə molokan furqonları da əlavə olundu. Bu furqonların yük daşıma tutumu 80-120 pud, illik gəlirləri isə 100 rubla yaxın idi[1201].

---

[1199] Обзор Эриванской губернии за 1913 год, с.14.
[1200] Обзор Эриванской губернии за 1914 год, с.15.
[1201] Линч Х.Ф.Б., Армения. Путевые очерки этюды, с.159-160.

Yükdaşıma sənət növü ilə ayrı-ayrı qəzalarda bir qrup ailələr məşğul olmuşdu. İrəvan quberniyasına dəmiryolu çəkilənə qədər insanlar yükdaşımadan əhəmiyyətli dərəcədə gəlir əldə edirdilər. Lakin dəmir yolu çəkildikdən sonra bu sahədə bir qədər azalma müşahidə olunmuşdir. XIX yüzilliyin ikinci yarısında yükdaşıyanların istifadə etdiyi əsas magistral yol Ağstafa stansiyasından başlayaraq Semyonovka aşırımı boyu keçərək, sonra Göyçə gölünün yaxınlığından dolanaraq İrəvan şəhəri istiqamətində uzanan yol olmuşdur[1202]. Yerli əhali furqonla, dəvə ilə Qafqazın müxtəif şəhərlərinə, Qacar dövlətinə və Osmanlı Türkiyəsinə müxtəlif növdə yük daşıyırdılar[1203].

Yükdaşıma sənəti Cənubi Qafqazda yalnız dəmir yolunun çəkilməsi ilə deyil, eyni zamanda bahalıqla, məhsul qıtlığı və gəlirin aşağı düşməsi ilə əlaqədar olaraq əhəmiyyətini itirirdi. 1898-ci ilin məlumatında qeyd olunmuşdu ki, tək Yenibəyazid qəzasında yükdaşıma ilə 380 furqon və 3000 araba məşğul olmuşdu. Bir furqonun orta hesabla gəliri 200, araba ilə 55 rubla, nəticədə furqondan gələn illik gəlir 76000, arabadan gələn gəlir isə 165000 rubla başa gəlmişdi. Lakin dəmir yolu çəkildikdən sonra bu sənətdən gələn gəlir xeyli azalmışdı. Digər altı qəzada yükdaşıma ilə 1075 araba, 162 furqon, 2150 yükdaşıyan, 6650 dəvə məşğul olmuşdur. Hesabat ilində heyvanlar üçün yemin baha olması və yol xərcinin azalması nəticəsində İrəvan quberniyasında yükdaşımadan 650000 rubl gəlir əldə edilmişdir. Lakin daha əlverişli illərdə bu sənətdən gələn gəlir 1000000 rubla çatmışdı[1204].

1899-cu ilin hesabatında Tiflis-Qars dəmir yolunun açılması, yüklərin dəmir yolu ilə daşınması nəticəsində Ağstafa-Dilican-Qars poçt yolunun əhəmiyyəti tamamilə azalmışdı. Nəticədə İrəvan quberniyasında yükdaşımadan gələn gəlir 400000 rubl (keçən ilə nisbətən 250000 rubl az) olmuşdur. Hesabat ilində İrəvan quberniyasında yükdaşıma ilə ən çox

---

[1202] Обзор Эриванской губернии за 1898 год, с.7; Энциклопедический словарь Брокгауз и Ефрона, т.XLI (81), с.14.

[1203] Обзор Эриванской губернии за 1891 год, с.14.

[1204] Обзор Эриванской губернии за 1898 год, с.7-8.

məşğul olan Yenibəyazid qəzasında 405 furqon, 1700 araba, 800 yük arabası və 5000-ə yaxın dəvə fəaliyyət göstərmiş, bir furqonla yük daşıma 200, araba ilə 60, yük arabası ilə 20 və dəvə ilə isə 40 rubla başa gəlmişdir[1205].

1900-cü il məlumatına görə, İrəvan quberniyasında 5144 ev arabaçılıqla, bunlardan 1735 ev araba, 1044 ev dəvə, 1944 ev kəl qoşulmuş araba və 421 ev furqon ilə məşğul olmuşdur. Hesabat ilində bu sənətdən gələn təmiz ümumi gəlir 451000 rubl (keçən ilə nisbətən 51000 rubl çox) olmuşdur[1206]. Qeyd etmək lazımdır ki, XX yüzülliyin əvvəllərində İrəvan quberniyasının qərb və şimal hissəsini tutan, Tiflisdən İrəvana çəkilən 250 verstlik dəmir yolunun çəkilməsi nəticəsində yuxarıda göstərilən tranzit yolu yükdaşıma üçün öz əhəmiyyətini itirmişdir. Bundan sonra yükdaşıyanların əsas qazanc yolu İrəvan şəhərindən Naxçıvana və oradan Araz çayı sahilində yerləşən sərhəd kəndi Culfaya və buradan Cənubi Qafqazı Təbriz və Tehranla birləşdirən cənub istiqamətində uzanan torpaq yolu olmuşdur[1207].

1901-ci ildə arabaçılıqdan gələn gəlir xeyli aşağı düşmüşdü. Hesabat ilində bir furqonla daşınan yük 150, dəvə ilə 45 rubla başa gəlmiş, ümumi gəlir isə 323100 rubl (keçən ilə nisbətən 127900 rubl az, 28,3%) olmuşdur. Gəlir aşağı düşdüyünə görə, xeyli dəvə sahibi Türkiyəyə, əsasən də Ərzurum və Trabzona getmək məcburiyyətində qalmışdı[1208].

Sonrakı illərdə arabaçılqdan gələn gəlirin tamamilə aşağı düşdüyünün şahidi oluruq. 1902-ci ildə bu sahədən gələn gəlir 207000 rubl, 1903-cü ildə isə bunun yarısına qədər gəliri olmuşdur[1209].

Dəmir yolu çəkilməsinə, qazancın aşağı düşməsinə baxmayaraq insanlar müxtəlif yüklərin daşınmasında arabaçılarsız keçinə

---

1205 Обзор Эриванской губернии за 1899 год, с.7.

1206 Обзор Эриванской губернии за 1900 год, с.14.

1207 Энциклопедический словар Брокгауз и Ефрона, т.XLI (81), с.14.

1208 Обзор Эриванской губернии за 1901 год, с.9.

1209 Обзор Эриванской губернии за 1902 год, с.3; Обзор Эриванской губернии за 1903 год, с.4.

bilməmişdilər. Əldə olunan mənbələr bunu deməyə əsas verir. 1904-cü ilin məlumatında İrəvan quberniyasında qəzalar üzrə yükdaşıma ilə məşğul olan ailələr və müxtəlif heyvanlardan istifadə olunan arabalar haqqında məlumat göstərilmişdir. İrəvan qəzasında 134 ailə kəllərin və atların idarə etdiyi arabaçılıqla, 115 ailə dəvə ilə yük daşımaqla, 45 ailə yük daşıyan heyvanla, 18 ailə furqonla, Sürməli qəzasında 6 ailə kəllərin və atların idarə etdiyi arabaçılıqla, 295 ailə dəvə ilə yük daşımaqla, 376 ailə heyvanla yük daşımaqla, 26 ailə furqonla, Üçmüəzzin qəzasında 537 ailə arabaçılıqla, Yenibəyazid qəzasında 365 ailə kəllərin və atların idarə etdiyi arabaçılıqla, 290 ailə yük daşıyan heyvanla, 55 ailə furqonla, Şərur-Dərələyəz qəzasında 265 ailə arabaçılıqla, Naxçıvan qəzasında 69 ailə kəllərin və atların idarə etdiyi arabaçılıqla, 39 ailə dəvə ilə yük daşımaqla, 923 ailə heyvanla yük daşımaqla, 10 ailə furqonla, ümumilikdə isə İrəvan quberniyasında bu sənət növü ilə 3565 ailə məşğul olmuşdur. Həmin ildə bu sənət növündən əldə olunan illik qazanc 100 min rubla bərabər olmuşdur[1210].

1907-1908-ci illərdə İrəvan quberniyasında arabaçılıqla üç minə qədər ev məşğul olmuş, ümumi gəlir isə 100000 rubla bərabər olmuşdur. Onlar əsasən kəllə, atla, eşşəklə, dəvə ilə və furqonla Culfa-Təbriz istiqamətində uzanan yolla Qacar dövlətinə müxtəlif növ yük daşımışdılar[1211].

1909-cu ildə isə İrəvan quberniyasında yük daşımadan arabaçılar 100 min rubldan da aşağı gəlir əldə etmişdilər[1212].

1912-ci il hesabatında arabaçılar haqqında daha geniş məlumat verilmişdir. Bu məlumatlarda ayrı-ayrı qəzalarda və kəndlərdə yükdaşıyanlar və onların gəlirləri haqqında ətraflı məlumatlar öz əksini tapmışdır. Göstərilən cədvəldə 1912-ci ildə yükdaşıyanların vəziyyəti belə olmuşdur[1213]:

---

[1210] Обзор Эриванской губернии за 1904 год, с.8.

[1211] Обзор Эриванской губернии за 1907 год, с.10; Обзор Эриванской губернии за 1908 год, с.10.

[1212] Обзор Эриванской губернии за 1909 год, с.10.

[1213] Обзор Эриванской губернии за 1912 год, с.14.

| Qəzalar | Kənd-lərin sayı | Ailə-lərin sayı | Heyvanların sayı | | | | | İllik gəlir |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Atla | Kəllə | Eşşəklə | Qatırla | Dəvə ilə | |
| İrəvan | 95 | 1438 | 647 | 1000 | 116 | - | 1030 | Atla 80-100 rubl<br>Kəllə 50-60 rubl<br>Eşşəklə 30-40 rubl<br>Dəvə ilə 200 rubl |
| Üş-müəzzin | 75 | 918 | 466 | 308 | 89 | - | 1951 | Atla 30-97 rubl<br>Kəllə 20-87 rubl<br>Eşşəklə 15-34 rubl<br>Dəvə ilə 87-120 rubl |
| Sürməli | 51 | 722 | 273 | 846 | 328 | - | | Atla 90-100 rubl<br>Kəllə 40-45 rubl<br>Eşşəklə 30-45 rubl<br>Dəvə ilə 70-180 rubl |
| Yeni-bəyazid | 38 | 473 | 1084 | 202 | 9 | - | 1438 | Atla 35-150 rubl<br>Kəllə 40-100 rubl<br>Eşşəklə 20-30 rubl |
| Aleksandropol | 90 | 1848 | 942 | 3356 | 161 | | - | Atla 30-50 rubl<br>Kəllə 25-30 rubl<br>Eşşəklə 10 rubl |
| Şərur-Dərələyəz | 24 | 215 | 110 | - | 59 | 12 | 1059 | Atla 100 rubl<br>Eşşəklə 40 rubl<br>qatırla 90 rubl<br>Dəvə ilə 150 rubl |
| Nax-çıvan | 66 | 781 | 180 | 322 | 1559 | 65 | 254 | Atla 60-100 rubl<br>Kəllə 50-60 rubl<br>Eşşəklə 30-60 rubl<br>Qatırla 60-80 rubl<br>Dəvə ilə 120 rubl |
| Yekun | 439 | 6395 | 3702 | 6943 | 2321 | 77 | 5732 | |

1913-cü il məlumatında qəzalar üzrə yükdaşıma və ondan

gələn gəlirin vəziyyəti belə idi[1214]:

| Qəzalar | Kəndlərin sayı | Ailələrin sayı | Heyvanların sayı | | | | | İllik gəlir |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Atla | Kəllə | Eşşəklə | Qatırla | Dəvə ilə | |
| İrəvan şəhərlə birlikdə | 84 | 1292 | 939 | 1665 | 2053 | 130- | 1184 | Atla 100 rubl<br>Kəllə 60-80 rubl<br>Eşşəklə 30-60 rubl<br>Dəvə ilə 200 rubl<br>Qatırla 60 |
| Üşmüəzzin | 80 | 1153 | 639 | 590 | 63 | - | 2122 | Atla 50-60 rubl<br>Kəllə 30-50 rubl<br>Eşşəklə 15-30 rubl<br>Dəvə ilə 150-200 rubl |
| Sürməli | 36 | 878 | 300 | 863 | 276 | - | 1523 | Atla 90-100 rubl<br>Kəllə 40 rubl<br>Eşşəklə 30-40 rubl<br>Dəvə ilə 180 rubl |
| Yenibə-yazid şəhərlə birlikdə | 34 | 540 | 1340 | 270 | 144 | - | - | Atla 100 rubl<br>Kəllə 60 rubl<br>Eşşəklə 40 rubl |
| Aleksandropol şəhərlə birlikdə | 124 | 2013 | 852 | 3525 | 6 | | -- | Atla 40-70 rubl<br>Kəllə 25-50 rubl<br>Eşşəklə 10-20 rubl |

1214 Обзор Эриванской губернии за 1913 год, с.15.

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Şərur-Dərələyəz | 30 | 242 | 111 | -- | 173 | 42 | 1369 | Atla 100 rubl Eşşəklə 40 rubl qatırla 90-120 rubl Dəvə ilə 150 rubl |
| Naxçıvan şəhərlə birlikdə | 67 | 948 | -287 | 448 | 2337 | 220 | 187 | Atla 100 rubl Kəllə 60 rubl Eşşəklə 20-60 rubl Qatırla 80 rubl Dəvə ilə 120 rubl |
| Yekun | 455 | 7066 | 4468 | 7761 | 5052 | 392 | 6385 | |

Hər iki cədvəli müqayisə etdikdə görmək olar ki, quberniya üzrə yükdaşımada əvvəlki ilə nisbətən 1913-cü ildə həm kəndlərin, həm ailələrin, həm də heyvanların sayında artım olmuşdur.

1914-cü ildə yükdaşımada və ondan gələn gəlirdə xeyli geriləmə baş vermişdir. Bunu aşağıdakı cədvəldə əyani izləmək mümkündür[1215]:

| Qəzalar | Kəndlərin sayı | Ailələrin sayı | Heyvanların sayı | | | | | İllik gəlir |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Atla | Kəllə | Eşşəklə | Qatırla | Dəvə ilə | |
| İrəvan şəhərlə birlikdə | 34 | 873 | 563 | 894 | 293 | 80- | 1177 | Atla 120 rubl Kəllə 60-10 rubl Eşşəklə 25-50 rubl Dəvə ilə 220 rubl Qatırla 60 |
| Üş-müəzzin | 80 | 867 | 420 | 714 | - | - | 801 | Atla 50-170 rubl Kəllə 30-50 rubl Dəvə ilə 100-300 rubl |
| Sürməli | 36 | 836 | 288 | 779 | 326 | - | 1378 | Atla 90-100 rubl |

1215 Обзор Эриванской губернии за 1914 год, с.16.

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | Kəllə 40 rubl Eşşəklə 30-40 rubl Dəvə ilə 70-180 rubl |
| Yenibə-yazid şəhərlə birlikdə | 37 | 813 | 572 | 847 | 123 | - | -- | Atla 45-300 rubl Kəllə 60-250 rubl Eşşəklə 20-60 rubl |
| Aleksand ropol şəhərlə birlikdə | 124 | 10407 | 660 | 3648 | 5 | | -- | Atla 50-70 rubl Kəllə 25-35 rubl Eşşəklə 7-10 rubl |
| Şərur-Dərələyəz | 30 | 139 | 21 | --- | - | - | 1382 | Atla 50 rubl Eşşəklə - qatırla - Dəvə ilə 200 rubl |
| Naxçıvan şəhərlə birlikdə | 67 | 1082 | -228 | 729 | 2110 | 74 | 147 | Atla 72-100 rubl Kəllə 60-72 rubl Eşşəklə 30-60 rubl Qatırla 80 rubl Dəvə ilə 100 - 13+2 rubl |
| Yekun | 408 | 6012 | 2952 | 7611 | 5052 | 154 | 4835 | |

Beləliklə, Azərbaycanın digər quberniyalarında olduğu kimi, İrəvan quberniyasında da arabaçılıq əhalinin əsas məşğulluq sahələrindən biri olmuş, əhali bu sahədən xeyli gəlir əldə etmişdir. Tiflis-Qars, Tiflis-İrəvan dəmiryolu çəkilənə qədər arabaçılıq sənəti İrəvan iqtisadiyyatında digər sahələr kimi böyük rol oynamışdır. Lakin XX yüzilliyin əvvəllərindən bu sənət sahəsi tənəzzül etməyə başlamış, lakin bu sənət sahəsi aradan çıxmamış, əhali yüklərin daşınmasında arabaçılarsız keçinə bilməmişdilər.

İrəvan quberniyasında əhalinin məşğulluq sahələrindən biri də **balıqçılıq** idi. Bu sahə hələ qədimdən irəvanlıların məşğuliyyət sahələrindən biri olmuşdur. Ümumiyyətlə İrəvan quberniyasının bütün çay və göllərində balıq bol olmuşdu. Lakin Yenibəyazid

qəzasında yerləşən Göyçə gölü qədimdən bu sahədə ixtisaslaşmışdı. Göyçə gölündən 5 növdə balıq tutulurdu ki, bunlardan dadlı alabalıq balığı Cənubi Qafqazda daha məşhur idi[1216]. Tutulan bu balıq növü Yelizavetpol, Tiflis quberniyalarına və Cənubi Qafqazın müxtəlif yerlərinə satılmaq üçün ixrac edilirdi[1217].

Göyçə balıq vətəgələri ildən ilə icarəyə verilirdi. Bir məlumata görə, 1879-cu ildə icarənin vaxtı qurtarana qədər icarə illərində Göyçə gölündən əldə olunan illik gəlirdən 23121 rubl xəzinəyə vergi verilmişdi. Bu verginin 18600 rublu icarədar, 4521 rublu isə 27 kəndin əhalisi tərəfindən xəzinəyə ödənilmişdi[1218].

Mənbələrdə XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəllərində balıq ticarətindən gələn ümumi gəlir haqqında məlumatlara rast gəlmək mümkündür. 1898-1903-cü illərin məlumatlarına əsasən, balıq ovu ilə Yenibəyazid qəzasının Göyçə gölü ətrafında yerləşən 18 kəndin sakinləri məşğul olmuş, bu ticarətdən birinci ili 10000, ikinci ili 12000, üçüncü ili 15000, dördüncü ili 18000, beşinci ili 15000 və altıncı ili isə 18000 rubl təmiz gəlir əldə etmişdilər[1219]. Məlumatlardan görünür ki, balıq ovundan gələn gəlir bir o qədər də yüksək deyildi. Göyçə gölündən həmin illərdə əsasən balıq növündən alabalıq daha çox ovlanmışdır.

Lakin sonrakı illərdə balıq ovundan daha çox gəlir əldə edilmişdir. Məsələn, 1904-cü il məlumatına görə, Göyçə gölündən 28000, 1907-i ildə isə 25000 rubl dəyərində balıq ovlanmışdır[1220].

---

[1216] Обзор производительных сил Кавказского наместничество за 1879 г., с.396; Линч Х.Ф.Б., Армения. Путевые очерки этюды, Тифлис, 1910. т.1, с.272; Анисимов С., Кавказ, Петроград, 1916, с.103.

[1217] Словар Российский империи, Составил П.Семенов. СПб, 1885, т.V, с.867; Анисимов С., Кавказ, с.103.

[1218] Обзор производительных сил Кавказского наместничество за 1879 г., с.396.

[1219] Обзор Эриванской губернии за 1898 год, с.8; Обзор Эриванской губернии за 1899 год, с.7; Обзор Эриванской губернии за 1900 год, с.7; Обзор Эриванской губернии за 1901 год, с.10; Обзор Эриванской губернии за 1902 год, с.3.

[1220] Обзор Эриванской губернии за 1904 год, с.9; Обзор Эриванской

1908-1909-cu illərdə olan statistik məlumatlarda Göyçə ətrafında yerləşən 18 kəndin əhalisinin balıq tutmaqla məşğul olduğu göstərilmiş, göldə 50 böyük, 500 kiçik balıq tutan tor qeydə alınmışdır. Lakin 1908-ci ildə balıqdan 20000 rubl, 1909-cu ildə isə 25000 rubl gəlir götürülmüşdür[1221]

Sonrakı illərdə balıq ticarətində həm təsərrüfatların, həm də gəlirin artdığının şahidi oluruq. 1912-ci illin illik hesabatında bu sahə ilə məşğul olan 160 təsərrüfat, 60 iri, 10 kiçik balıq toru qeydə alınmış, 50 min rubl dəyərində 12500 pud balıq ovlanmışdır. Bu balıqlar əsasən Yelizavetpol və Tiflis quberniyalarında satılmışdı[1222]

1913-cü il hesabatında həm şəhər, həm də kənd əhalisinin balıq ovu ilə məşğul olması haqqında məlumat göstərilmişdir. Hesabatda qeyd olunur ki, Yenibəyazid şəhərindən 22 təsərrüfat və qəzadan isə 160 təsərrüfat bu sahə ilə məşğul olmuşdur. Həmin il ümumi dəyəri 55600 rubl olan 13900 pud balıq ovlanmışdır[1223].

1914-cü ilin illik hesabatında da balıq ovunda artım qeydə alınmışdı. Həmin il balıq ovu ilə 184 təsərrüfat (bunlardan 25 təsərrüfat Yenibəyazid şəhərinə, 159-u isə qəzaya aid idi) məşğul olmuş, 62500 rubl dəyərində 12500 pud balıq tutulmuşdur[1224].

1916-cı ilə olan məlumatda isə Göyçə gölü sahilinin 40 sahəsinin icarəyə verilməsi və 30000 rublluq balığın ovlanması göstərilmişdir. Qeyd olunurdu ki, balıq o qədər bol idi ki, nəinki yerli tələbatı ödəyirdi, eyni zamanda satılmaq üçün Cənubi Qafqazın müxtəlif şəhərlərinə ixrac olunurdu[1225].

Göyçə gölündən başqa çaylardan da balıq tutulurdu. Məsələn, XIX yüzilliyin 50-ci illərin əvvəllərində irəvanlılar Zəngi

---

губернии за 1907 год, с.10.

1221 Обзор Эриванской губернии за 1908 год, с.10; Обзор Эриванской губернии за 1909 год, с.9-10.

1222 Обзор Эриванской губернии за 1912 год, с.13.

1223 Обзор Эриванской губернии за 1913 год, с.15.

1224 Обзор Эриванской губернии за 1914 год, с.15.

1225 Анисимов С., Кавказ, с.103.

çayından alabalıq, şirbit və digər növ balıq ovlamışdılar[1226].

Beləliklə, İrəvan quberniyasının iqtisadiyyatında Göyçə gölündən və digər çaylardan tutulan balıq ticarəti də böyük rol oynamışdır. Göyçə balıq vətəgələri tez-tez icarəyə verilirdi. Bu sahə ilə əsasən Göyçə gölü ətrafında yerləşən kəndlər məşğul olmuş, ovlanan balıqlar isə nəinki yerli tələbatı ödəmiş, eyni zamanda Cənubi Qafqazın və Azərbaycanın digər quberniyalarına ixrac olunmuşdur.

**Dağ-mədən sənayesi**. İrəvan quberniyasının iqtisadiyyatında duz hasilatı əsas yerlərdən birini tutmuşdu. İrəvan bölgəsinin duzu tarixən məşhur olmuş və quberniyanın ixracatının əsaslarından birini təşkil etmişdir. Bəhs etdiyimiz tarixi dövr ərzində İrəvan quberniyasında üç yerdə - Sürməli qəzasının Qulp kəndində, Naxçıvan qəzasında Naxçıvan şəhərindən 14 verst aralıda xəzinəyə məxsus duz mədənində və həmin qəzada Cənubi Qafqaz dəmir yolunun Şaxtaxtı stansiyasından 25 verst aralıda yerləşən Sustin adlı şəxsi duz mədənində duz hasil edilmişdi. Qulp duz mədəni tarixən İrəvan iqtisadiyyatında böyük rol oynamış, onun ticarətindən xəzinəyə böyük gəlir daxil olmuşdur. Rusiya işğalından sonra Qulp duz mədəni bəzi istisnalarla 1851-ci ilə qədər xəzinənin ixtiyarında olmuşdur. Qulp duz mədəni 1832-1836-cı illərdə 24600 rubla icarəyə verilmişdi. 1840-1850-ci illərdə Qulp mədəninin ümumi gəliri 24 min rubldan 50 min rubl arasında, bir dəfə isə 72 min rubl, təmiz gəliri isə 14 mindən 28 min rubl arasında, iki dəfə isə 53-54 min rubl arasında olmuşdur. Axırıncı üç ildə isə gəlir 20 və 19 min rubla düşmüşdü. Ümumiyyətlə on il ərzində Qulp mədəninin ümumi gəliri 440234 rubl, məxarici 151351 rubl, təmiz gəliri isə 288885 rubl olmuşdur. Əldə olunan gəlirdən xəzinəyə yalnız 29000 rubl daxil olmuş, qalanları isə Tiflis quberniyasının, İrəvan və Aleksandropol qəzalarının ərzaq dükanlarında satılmışdı. Dükanlarda satılan duzdan xəzinəyə heç bir gəlir gəlməmişdir[1227].

---

[1226] Кавказский календарь на 1852, с.446.

[1227] Кавказский календарь на 1852, с.498.

İrəvan duzu İrəvan və Aleksandropol qəzalarında, Tiflis quberniyasının Kutaisi, Quriya və Minqreliya qəzalarında və Bəyazid paşalığında satılırdı. 1845-1850-ci illər arasında Qulp duz mədənindən orta hesabla daş formasında 345190 pud, xırda duz 128970 pud, bütünlüklə 474160 pud duz hasil edilmişdi. Hasil olunan 4960 pud daş duz, 4880 pud xırda duz, ümumilikdə 9840 pud Tiflis quberniyasında, 6780 pud daş duz, 7550 pud xırda duz, ümumilikdə 14330 pud İrəvan qəzasında, 300 pud daş duz, 3840 pud xırda duz, ümumilikdə 4140 pud duz isə Aleksandropol qəzasında satılmışdır. Bundan əlavə hər il Üçmüəzzin kilsəsinə 1800 pud pulsuz duz verilirdi[1228].

Qafqaz canişinliyinin göstərişinə əsasən Qulp duz mədəni 1850-ci ildən başlayaraq icarəyə verilməyə başladı. İcarə şərti ondan ibarət idi ki, mədənin özündə, dükanlarda yalnız duzun özünün satışı icarəyə verilə bilərdi. Duzun hasilatı isə əvvəlki kimi xəzinənin ixtiyarında qalırdı. Bu şərtlər daxilində 1851-ci ilin martından 1855-ci ilə qədər dörd illiyə mədən icarəyə verilmişdi. Nəticədə bir il ərzində duzdan xəzinəyə 54120 rubl təmiz gəlir daxil olmuşdu. Bu da gözlənildiyindən də əla nəticə idi[1229].

Birbaşa duzun qiyməti bir o qədər də baha deyildi. Bu illərdə mədənin özündə 1,5 puddan 3 pud arasında olan daş duz 15 qəpiyə, xırda duz isə 8 qəpiyə satılmışdı. Lakin duz ixrac edilərkən onun daşınma haqqı üstünə gəldiyindən qiyməti daha da bahalaşmışdı. Məsələn, Tiflis dükanlarında daş duz 53, xırda duz 42, İrəvan qəzasının dükanlarında daş duz 23, xırda duz 16, Aleksandropol qəzasında isə daş duz 28, xırda duz isə 22 qəpiyə satılmışdı[1230]. Bundan əlavə, 1885-ci il mayın 25-dən 1888-ci il mayın 25-ə qədər Qulp duz mədəni Georgi Canpoladova üç illiyə 36000 rubla icarəyə verilmişdi. Bu illər ərzində o, iki milyon iri, bir milyon xırda olmaqla üç milyon duz hasil etmişdir. Hasil

[1228] Кавказский календарь на 1852, с.499.
[1229] Кавказский календарь на 1852, s.501.
[1230] Yenə orada.

olunan duzun satışından onun özünə 40000 rubl, xəzinəyə isə 108000 rubl çatmışdır[1231].

İrəvan quberniyasının Naxçıvan qəzasında da duz hasil edilirdi. Bu duz mədəni Naxçıvandan 14 verst aralı yerləşirdi. Burada demək olar ki, heç bir yaşayış məntəqəsi yox idi. Mədəndə işləyən adamlar qazmalarda yaşayırdılar. Burada iki duz çıxarılan mağara vardı. Onlardan biri düz yolun üstündə yerləşdiyindən və bir tərəfi dağıldığından bağlı idi. Əsas duz hasil olunan mağara isə dağın ortasında yerləşirdi[1232]. Bu duz mədənində işləməyə yaxınlıqda yerləşən Şıxmahmud kəndinin sakinləri təhkim edilmişdir. Onlar 1868-ci il qanununa əsasən, buna görə vergidən azad olunmuşdular [1233].

Naxçıvan duz mədəni 1841-ci ildə xəzinənin ixtiyarına keçmişdi. 1841-1850-ci illər arasında hər il bu mədəndən gələn ümumi gəlir 10-16 min rubl, təmiz gəlir isə 6600-10700 rubl arasında olmuşdur. Doqquz il ərzində mədəndən 114380 pud daş duz, 12030 pud xırda duz, ümumilikdə isə 126410 pud duz hasil edilmişdir. Hasil olunan duzdan hər il ümumi gəliri 13520 rubl, təmiz gəliri isə 8674 rubl olmuşdur[1234].

Naxçıvan duzu əsasən Naxçıvan, Ordubad, Yenibəyazid qəzalarında və Şuşa qəzasının bir hissəsində satılırdı və həmçinin Qacar dövlətinə ixrac edilirdi [1235]. Naxçıvan duzu mədənin özündə bir yerdən bir pud daş duz 15 qəpiyə, bir pud xırda duz isə 8 qəpiyə satılırdı[1236].

1851-ci il martın 22-də qəbul olunmuş fərmana əsasən Naxşıvan duz mədəni Qulp duz mədəni ilə birlikdə eyni heyətdə birləşmişdi[1237]. Sonralar Naxçıvanda iki duz mədəni fəaliyyət göstərmişdir. Onlardan biri xəzinənin ixtiyarında, digəri isə şəxsi

---

1231 Обзор фабрик и заводов Закавказскаго края, с.95.
1232 Кавказский календарь на 1850, с.502.
1233 Обзор фабрик и заводов Закавказскаго края, с.95.
1234 Кавказский календарь на 1850, с.503.
1235 Yenə orada.
1236 Yenə orada.
1237 Yenə orada.

adamların ixtiyarında olan Sustin mədəni idi. Lakin xəzinə mədənləri də şəxsi adamlara icarəyə verilirdi[1238].

Sonrakı illərdə də Naxçıvan duz mədənində hasil edilən duzun miqdarı və gəliri haqqında məlumatlara rast gəlmək mümkündür. Məsələn, 1851-1856-cı illərdə bu duz mədənindən 236445 pud iri, 42017 pud isə xırda duz, orta illik gəlir isə 15000 rubl, 1856-1864-cü illərdə 202323 pud iri, 29839 pud xırda duz, orta illik gəlir 22765 rubl, 1864-1867-ci illərdə 147553 pud iri, 41689 pud xırda duz, orta ilik gəlir 22765 rubl, 1867-1872-ci illərdə 230753 pud iri, 33800 pud xırda, orta ilik gəlir isə 24965 rubl əldə edilmişdir[1239].

Naxçıvan duz mədəni 1885-ci il mayın 17-dən 1888-ci il mayın 17-ə qədər illik icarə haqqı 12000 rubl olan Kələntərova və Oqanova icarəyə verilmişdi. İcarədarlar iri duzu 10 qəpikdən, xırda duzu isə 5 qəpikdən artıq olmayaraq satacaqlarını öhdələrinə götürmüşdülər. Beş il ərzində Naxçıvan duz mədənindən - 1885-ci ildə 162055 pud, 1886-cı ildə 295661 pud, 1887-ci ildə 309224 pud, 1888-ci ldə 241685 pud, 1889-cu ildə isə 28031 pud duz hasil edilmişdir[1240].

Naxçıvan duz mədənindən hasil edilən duz az olduğuna görə, tez-tez icarəyə verilirdi. 1898-ci il iyunun 24-dən mədən 9 illiyə, xəzinəyə illik 7600 rubl ödəməklə Kağızman sakini tacir İsa Canpoladova icarəyə verilmişdi[1241].

İrəvan quberniyasında üçüncü duz mədəni Sust duz mədəni idi. Bu duz mədəni Kiçik xan Kəlbəlixanovun şəxsi mülkündə, Sust kəndinin yaxınlığında yerləşirdi. Əvvəllər xəzinənin ixtiyarında olan bu duz mədəni XIX yüzilliyin sonlarında İsa Canpoladov tərəfindən 9 min rubl müqabilində icarəyə götürülmüşdü. Mədəndə 6-7 nəfər işləyirdi. Onlar əmək haqqı olaraq hər duz parçasından dəyəri 15 rubldan 18 rubl arasında olan 1000 pud iri

---

[1238] Обзор Эриванской губернии за 1895 год, с.15.
[1239] Обзор фабрик и заводов Закавказскаго края, с.95.
[1240] Обзор фабрик и заводов Закавказскаго края, с.96.
[1241] Yenə orada.

duz alırdılar. Lakin 1886-cı il məlumatına görə, Sust duz mədənində 18 adam çalışmışdı[1242]. Fəhlələr hər gün orta hesabla 100 puda qədər iri duz hasil edirdilər. Hasil olunan duz Haxçıvan şəhərinə daşınmış, onun daşınması 1,5 qəpikdən 2 qəpiyə başa gəlmişdi. Ümumiyyətlə icarədar iri duzun daşınmasına 4 qəpik, kiçik duzun daşınmasına isə 2 qəpik xərcləyirdi[1243].

1881-ci ildə Sust duz mədənində 147870 pud iri, 71965 pud xırda duz hasil edilmişdi[1244]. 1885-1889-cu illərdə Sust duz mədənindən hasil edilən duzun miqdarı isə belə idi: 1885-ci ildə 460000 pud; 1886-cı ildə 140657 pud; 1887-ci ilin məlumatı yoxdur; 1888-ci ildə 83160 pud; 1889-cu ildə 194816 pud[1245].

Qeyd etmək lazımdır ki, Sust duz mədənində hasil edilən duz Naxçıvan duzuna nisbətən azad qiymətə satılırdı. Ona görə də icarədara burada işləmək sərf edirdi[1246].

1873-cü il yanvarın 1-dən 1881-ci ilə qədər bütün İrəvan quberniyasında duzdan aksiz vergisi alınmağa başladı. Bu duz hasilatına mənfi təsir göstərməyə başladı. Bu illərdə hasil edilən duzun miqdarını müqayisə etməklə bunun şahidi olmaq mümkündür. Məsələn, bütün İrəvan quberniyasında 1872-ci ildə 1173822 pud duz hasil edilmişdi. Sonrakı illərdə hasilat belə idi: 1873-cü ildə 812213, 1874-cü ildə 1036904, 1875-ci ildə 972829, 1876-cı ildə 745475, 1877-ci ildə 637514, 1878-ci ildə 1296220, 1879-cu ildə 1776976, 1880-ci ildə 458092, 1881-ci ildə isə 500410 pud[1247]. 1878-1879-cu illərdə duz hasilatının çoxalması isə Qarsda rus qoşunlarının yerləşdirilməsi ilə bağlı idi.

1881-ci ildə İrəvan duzundan aksiz vergisi götürüldü. Lakin buna baxmayaraq bəzi illər istisna olmaqla duz hasilatı əvvəlki illərə nisbətən aşağı idi. Məsələn, 1882-ci ildə 533557,

---

1242 Обзор фабрик и заводов Закавказскаго края, s.97.
1243 Yenə orada, c.97-98.
1244 Кавказский календарь на 1881, c.78.
1245 Обзор фабрик и заводов Закавказскаго края, c.98; Кавказский календарь на 1890, c.66.
1246 Обзор фабрик и заводов Закавказскаго края, c.98.
1247 Yenə orada.

1883-cü ildə 566916, 1884-cü ildə 88042, 1885-ci ildə 942496, 1886-cı ildə 1061052, 1887-ci ildə 1248832, 1888-ci ildə 294201, 1889-cu ildə 194929 pud duz hasil edilmişdir[1248].

Ümumiyyətlə, İrəvan quberniyasının iqtisadiyyatında və ixracatında duz hasilatı böyük rol oynamışdır. XIX yüzilliyin 90-cı illəri-XX yüzilliyin əvvəllərində də İrəvan quberniyasında duz hasilatı haqqında mənbələrdə məlumatlara rast gəlmək mümkündür. 1891-ci il məlumatına görə, Qulp mədənindən 323204 pud (keçən ilə nisbətən 123968 pud az), Naxçıvan duz mədənindən 246622 pud (keçən ilə nisbətən 67760 pud çox) duz hasil olunmuş, bu duzdan xəzinəyə icarə haqqı kimi 27600 pud (keçən ilə nisbətən 600 pud çox) vergi daxil olmuşdur. Sust duz mədəni şəxsi mülkiyyət olduğu üçün burada hasil olunan duz haqqında məlumat verilməmişdir[1249].

1898-ci ildə duz hasilatında daha çox nəticə əldə edilmişdir. Hesabat ilində Qafqaz dağ-mədən idarəsinin verdiyi məlumata görə, Qulp duz mədənindən 1112549, Naxçıvan duz mədənindən 165527, Sust duz mədənindən isə 156881 pud duz hasil edilmiş, xəzinəyə isə duzdan 43507 rubl 38 qəpik gəlir daxil olmuşdur[1250].

1899-cu ilin məlumatında qeyd edilir ki, Qulp və Naxçıvan duz mədənlərindən ümumilikdə 1067450 pud duz hasil edilmiş, xəzinəyə onun satışından 43606 rubl vergi, 1900-cu ildə isə Qulp duz mədənindən 808610 pud, Naxçıvan duz mədənindən isə 195984 pud, ümumilikdə isə hər iki duz mədənindən 1004594 pud duz hasil olunmuş, xəzinəyə isə onun satışından 44386 rubl vergi daxil olmuşdur. Hər iki duz mədənində 61 nəfər işləmişdir[1251].

1901-ci ilin məlumatında duz hasilatında xeyli artım müşahidə olunmuşdur. Həmin il xəzinəyə məxsus Qulp mədənindən 1754500, Naxçıvan duz mədənindən 82659, xüsusi şəxsə məxsus

---

[1248] Обзор фабрик и заводов Закавказскаго края, с.98.

[1249] Обзор Эриванской губернии за 1891 год, с.13.

[1250] Обзор Эриванской губернии за 1898 год, с.8.

[1251] Обзор Эриванской губернии за 1899 год, с.8; Обзор Эриванской губернии за 1900 год, с.7.

Sust duz mədənindən isə 27125 pud, ümumilikdə isə 1864284 pud (keçən ilə nisbətən 859690 pud çox) duz hasil edilmişdir. Hər üç mədəndə ümumilikdə 94 nəfər işləmiş, Qulp və Naxçıvan duz mədənlərindən xəzinəyə 44356 rubl vergi daxil olmuşdur[1252].

1902-ci ildə Qulp və Naxçıvan duz mədənləri də icarəyə verilmişdi. Hər üç duz mədənindən 1877967 pud duz hasil edilmiş, xəzinəyə isə 44356 rubl daxil olmuşdur[1253].

1903-cü ildə duz hasilatında bir qədər artım müşahidə olunmuşdu. Hesabat ilində hər üç duz mədənindən 1980145 pud (keçən ilə nisbətən 6 % çox) duz hasil edilmiş, bunun 1680915 pudu iri, 299230 pudu xırda duz, 1904-cü ildə isə hər üç duz mədənindən 516407 pud duz hasil edilmiş, bunun 55169 pudu xırda, 491238 pudu isə iri duz olmuşdur[1254]. 1904-cü il hesabatından görmək olar ki, duz hasilatında xeyli geriləmə olmuşdur. Bunun səbəbi 1903-cü ildə başlayan dünya böhranı ilə əlaqədar ola bilər.

1907-ci ilə aid İrəvan quberniyasının icmalından görünür ki, Naxçıvan və Qulp duz mədənləri xəzinəyə, Sust duz mədəni isə şəxsi adama məxsus olmuşdur. Qulp duz mədəni illik 34750, Naxçıvan duz mədəni 1600 rubl şərti ilə icarəyə verilmişdir. Həmin ilin statistik məlumatına görə, xəzinəyə məxsus Qulp mədənindən 714948 pud, Naxçıvan duz mədənindən 84045 pud və xüsusi sahibkara məxsus Sustin duz mədənindən isə 37000 pud duz hasil edilmişdir. Qulp duzu əsasən İrəvan, Tiflis quberniyalarında və Qarsda, Naxçıvan duzu isə Naxçıvan, Şərur-Dərələyəz qəzalarında və Yelizavetpol quberniyasının Zəngəzur quberniyasında satılmışdı[1255].

1908-ci il məlumatına görə, Naxçıvan duz mədəni 4800

---

[1252] Обзор Эриванской губернии за 1901 год, с.19; Энциклопедический словар Брокгауз и Ефрона, т.XLI (81), с.13.
[1253] Обзор Эриванской губернии за 1902 год, с.3.
[1254] Обзор Эриванской губернии за 1903 год, с.5; Обзор Эриванской губернии за 1904 год, с.9.
[1255] AMEA TİEA, iş.2929, v.66; Обзор Эриванской губернии за 1907 год, с.9.

rubla icarəyə verilmiş və həmin il bu duz mədənindən 205937 pud duz hasil olunmuşdur. Qulp duz mədənində isə hasil olunan hər pud duza görə 4 rubl 74 qəpik icarə haqqı alınmış, həmin il bu mədəndən 1010000 pud duz hasil edilmişdir. Xəzinə ilə icarədar arasında bağlanmış şərtə görə, hər iki duz mədənindən hasil olunan iri duzun 1 pudu 10 qəpiyə, xırda duz isə 5 qəpiyə satılmalı idi. Bu şərtlə həmin il hər iki duz mədənindən xəzinəyə 49995 rubl vergi ödənilmişdi. Şəxsi müəssisə olan Sust mədənindən isə həmin il 79000 pud duz hasil olunmuşdur. Qulp duz mədənindən hasil olunmuş duz Aleksandropol şəhərində Araz stansiyasına göndərilmiş və buradan Tiflis quberniyasına, Qars vilayətinə və İrəvan quberniyasının ayrı-ayrı şəhər və qəzalarına, Naxçıvan və Sustin duzu isə Naxçıvana, Şərur-Dərələyəz və Zəngəzur qəzalarına ixrac edilmişdir[1256].

1909-cu il məlumatına görə, Naxçıvan duz mədəninin icarə müddəti 1909-cu il iyunun 22-də qurtarmışdı. Həmin il Naxçıvan duz mədənindən 250000 pud duz hasil olunmuş, satılan hər 1 pud duzdan 5,1 qəpik xəzinəyə çatmışdı. 1908-ci ildə olduğu kimi Qulp mədənindən 1010000 pud duz hasil olunmuş, satılmış hər 1 pud duzdan gələn 4,95 qəpik xəzinəyə ödənilmişdi. Qulp duz mədənindən birinci yarımillikdə 321415, ikinci yarımillikdə isə 912630 pud duz hasil edilmişdir. Sust mədəninin sahibləri hər pudu 5 qəpik olmaqla 106000 pud duz hasil etmişdilər. Müqaviləyə əsasən 1909-cu ildə də 1 pud iri duz 10, xırda duz isə 5 qəpiyə satılmışdı[1257].

1910-cu il hesabatına görə, Naxçıvan duz mədənindən 210450, Qulp mədənindən isə 650849 pud duz hasil edilmişdir. Sust duz mədənundə isə 136210 pud duz hasil edilmiş, ümumi dəyəri 12130 rubl olan 132810 pud duz satılmışdır. Xəzinə ilə razılaşdırılmış müqaviləyə əsasən hər üç duz mədənində hasil edilən iri duzun bir pudu 10, xırda duzun bir pudu isə 5 qəpiyə

---

[1256] Обзор Эриванской губернии за 1908 год, с.11.
[1257] Обзор Эриванской губернии за 1909 год, с.10.

satılmışdı[1258].

1912-ci ilin məlumatına görə, xəzinənin ixtiyarında olan Naxçıvan duz mədəni ayrı-ayrı adamlara 10 ilə icarəyə verilmişdi. İcarədar hər pudu 5,1 qəpik xəzinəyə ödəməklə, 5 il ərzində hər il 250 min pud, sonrakı illərdə isə 300 min pud duz hasil etməli, 1909-cu il iyunun 22-dən 1919-cu ilin 22 iyununa qədər isə ümumilikdə iri duzun 1 pudu 10 qəpiyə, xırdada duz isə 5 qəpiyə satılmaqla xəzinəyə 211352 pud duz çatmalı idi. Qulp duz mədənində icarədarlar 888411 pud duz, Sust mədənində isə 249474 pud, ümumilikdə isə hər üç mədəndən 1349237 pud duz hasil edilmişdir[1259].

1913-cü il illik hesabatına görə, Qulp duz mədənindən 234057 pud, Naxçıvan duz mədənindən 298122 pud, Sustindən isə 51765 pud duz hasil edilmişdi[1260]. Naxçıvan duz mədənindən hasil olunan hər duzun 1 pudundan gələn gəlir 5,1 qəpiyə, Qulp və Sustin duz mədənindən hasil olunan 1 pud duzun gəlirindən isə 4,95 qəpik xəzinəyə çatmışdı[1261].

1914-cü il illik hesabatına görə, Qulp mədənindən 664266 pud, Naxçıvan duz mədənindən 456162 pud, Sustin mədənindən isə 4690 pud, bütün quberniya üzrə isə 1125118 pud duz hasil olunmuşdu. Qulp duz mədənindən satılan hər bir pud duzdan gələn gəlirin 4,95 qəpiyi, Naxçıvan və Sustindən hasil olunan 1 pud duzdan gələn gəlirin 5,1 qəpiyi xəzinəyə çatmışdı. Qulp duz mədənindən həmin ildə xəzinəyə 25500, Naxçıvan duz mədənindən isə 9750 rubl vergi daxil olmuşdur[1262].

İrəvan quberniyasının iqtisadiyyatında dağ-mədən sənaye sahələrindən biri olan mis istehsalı əsas yerlərdən birini tutmuşdu. Burada iki yerdə-Aleksandropol qəzasında "V.Qrielski və K$^0$" şirkətinə məxsus Şişmədən misəritmə zavodu və Şərur-Dərə-

---

[1258] Обзор Эриванской губернии за 1910 год, с.12.
[1259] Обзор Эриванской губернии за 1912 год, с.15.
[1260] AMEA TİEA, iş.2929, v.66.
[1261] Обзор Эриванской губернии за 1914 год, с.6.
[1262] Обзор Эриванской губернии за 1914 год, с.6; AMEA TİEA, iş.2929, v.66; Кавказский календарь на 1916, с.93.

ləyəz qəzasında “V.Ustimoviç və K$^{0}$” şirkətinə məxsus” “Alagöz” qurğuşun əridən və gümüş-qurğuşun hasil edən “Gümüşlük” mədənləri fəaliyyət göstərmişdir. Qeyd etmək lazımdır ki, gümüş-qurğuşun mədəni yalnız 1909-cu ildən fəaliyyətə başlamışdır[1263].

1901-ci ildə Şişmədən mədənindən 49650 pud mis hasil edilmişdir[1264].

1908-ci il məlumatına görə, Şişmədən mis zavodunda 33942 pud mis filizi hasil olunmuş, ondan 3026 pud 37 funt təmiz mis əldə olunmuşdu. Həmin il misdən xəzinəyə 75675 rubl gəlir daxil olmuşdur[1265].

1909-cu il hesabatında Şişmədən mis zavodu ilə bərabər, gümüş-qurğuşun hasil edən “Alagöz” mədənindən də bəhs edilmişdir. Həmin il Şişmədən mis zavodunda 49162 pud mis filizi hasil edilmiş, ondan 2119 pud 35 funt təmiz əridilmiş mis alınmış, əldə edilmiş təmiz misin bir pudu 12 rubla satılmışdır. Hesabat ilində “Alagöz” mədənindən 12700 pud gümüş-qurğuşun filizi hasil edilmişdi. Onun əridilməsi nəticəsində 608 pud təmiz qurğuşun əldə edilmiş, hər pudu 3 rubla satılmışdı[1266].

1912-ci ildən Aleksandropol qəzasında Şişmədən mədənindən əlavə Antonevski mədəni də fəaliyyət göstərməyə başlamışdı. Bu ildə Şişmədən mədəni icarəyə verilmişdir. Bu mədənlərdən həmin ildə 11824 pud mis filizi hasil edilmiş, 1911-ci ildən qalma filizlə bərabər 20235 pud mis əridilmiş, 1081 pud 3 funt təmiz mis alınmışdır. Təmiz mis 11351 rubl 23 qəpiyə satılmış, əldə edilmiş gəlirdən 270 rubl 27 qəpik xəzinəyə vergi ödənilmişdir. 1912-ci il hesabatında Şərur-Dərələyəz qəzasında yerləşən “Alagöz” gümüş-qurğuşun mədəni və gümüş istehsal edən “Gümüşlü” haqqında məlumat verilməmişdir[1267].

---

1263 Обзор Эриванской губернии за 1909 год, с.11.
1264 Энциклопедический словар Брокгауз и Ефрона, т.XLI (81), с.13-14.
1265 Обзор Эриванской губернии за 1908 год, с.11.
1266 Обзор Эриванской губернии за 1909 год, с.10.
1267 Обзор Эриванской губернии за 1912 год, с.15.

İrəvan quberniyasında mis hasil edilən mədənlər ildən-ilə artırdı. Məsələn, “M.Marufa və K$^{0}$” məxsus xüsusi mülkiyyət hesab olunan Teymur mağara adlanan mis mədənindən 1914-cü ildə 38100 pud, Şişmədəndən 9563 pud, Antonevskidən 3877 pud və Çamluqskidən isə 1868 pud mis, ümumilikdə isə hər üç mədəndən 15308 pud 20 funt mis hasil edilmişdir[1268].

Qeyd etmək lazımdırki, çar Rusiyası İrəvan quberniyasında hasil olunan mis, qurğuşundan hərbi sənayedə istifadə olunmuşdu. Bu mədənlərdən əldə edilən xammallar top və digər silah-sursatın hazırlanmasına sərf edilmişdi.

**Ticarət.** Əlverişli coğrafi vəziyyətinə görə İrəvan quberniyasında ticarət güclü inkişaf etmişdi. Xüsusilə İrəvan şəhəri bu regionda Qacar dövləti və Türkiyə ilə tranzit ticarətinin mərkəzi idi. İrəvan quberniyasında həm daxili ticarət, həm də xarici ticarət lazımı səviyyədə inkişaf etmişdi. Ticarət mallarının əsas mərkəzi şəhərlərdə cəmləşmişdi. Mallar buradan Rusiyaya, Tiflisə, Türkiyəyə, Qacar dövlətinə və hətta Avropaya ixrac edilirdi. Eyni zamanda İrəvan quberniyası qonşu dövlətlərdən və qonşu quberniyalardan idxal olunan ticarət mallarının vasitəçisi idi. Çünki bu ticarət malları onun gömrük məntəqələrindən ixrac və idxal olunmuş, bu sahədə Naxçıvan, Şərur, Ordubad və İğdır gömrük məntəqələri əsas rol oynamışdır. Əvvəllər bu gömrük məntəqələrinə Aleksandropol və Qulp da daxil idi. Lakin 1877-1878-ci illərdə olmuş Rusiya-Türkiyə müharibəsi zamanı bu gömrük məntəqələri ləğv olunmuşdur[1269].

Qeyd etmək lazımdır ki, XIX yüzilliyin ortalarına qədər Azərbaycanda və eyni zamanda onun tərkib hissəsi olan İrəvan quberniyasında ticarətdə inkişaf baş versə də, ticarətin təşkilində heç bir dəyişiklik baş verməmişdi. 1876-cı il mart ayından etibarən Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan İrə-

---

[1268] Обзор Эриванской губернии за 1914 год, с.17-18.

[1269] Словар Российский империи, Составил П.Семенов. СПб, 1885, т.V, с.868; Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1881, выпуск 1, с.35.

van quberniyasında gildia-tacirlərin dərəcələrə bölünməsi qaydası tətbiq olunmağa başladı. Belə ki, tacirlər malik olduqları kapitalın həcmindən və fəaliyyət dairəsindən asılı olaraq gildiyanın hər hansı bir dərəcəsinə yazılmalı və bilet, yaxud şahadətnamə almalı idilər[1270]. Beləliklə, ticarət adamları bir neçə dərəcəyə bölünmüşdü. Birinci dərəcəli tacirə böyük hüquqlar verilmişdi. O, Rusiya və başqa dövlətlərin mallarını satmaq üçün imperiyanın hər yerində kontor və anbar açmaq hüququna malik idi. İkinci dərəcəli tacirlər qəza və kəndlərdə istənilən qədər dükan açıb həm daxili, həm də əcnəbi ticarət mallarını sata bilərdilər. Xırda alış-veriş edən tacirlər isə qəzalarda dükan açmağa ixtiyarı var idi. Lakin o, bu dükanlarda Qafqaz canişinliyi tərəfindən tərtib edilmiş siyahıda göstərilən malları sata bilərdi[1271].

Daxili ticarətdə bazarlar böyük rol oynamışdı. İrəvan bazarlarında həm yerli, həm də müxtəlif mallarla ticarət edən ayrı-ayrı millətlərə mənsub olan ticarət adamları cəmləşmişdi. Mənbələrdən görünür ki, bazarlarda ticarət edən satıcılara ticarət şahədətnaməsi verilirdi. Ticarət edənlər 4 dərəcəyə bölünmüşdü və bunların arasında əcnəbi tacirlər də var idi. 1885-ci ilin məlumatına görə, şəhadətnamə alanların sayı 508 nəfər olmuş, bunların 369 nəfəri şəhərlərdə, 139 nəfəri isə kəndlərdə cəmləşmişdi[1272].

Sonralar bazarlarda ticarətçilərin sayı daha da artmışdı. XIX yüzilliyin 80-ci illərinə aid digər məlumata görə, böyük İrəvan bazarı karvansara, dükanlar və heyvan tövlələri ilə əhatə olunmuşdu. Ticarət bazarının ətrafında 984 dükan və digər sənaye emalatxanaları, 20 karvansaray, 8 anbar və 32 heyvanlar üçün tövlə yerləşmişdi. Bazarlara ətrafında kiçik dükanların yerləşdiyi, çəki daşlarının qoyulduğu meydanlar da daxil idi. Bundan əlavə, bazarlar ayrı-ayrı hissələrə bölünmüşdü[1273]. Bazarlarda meyvə, cürbəcür bostan bitkiləri, göylər, qənd,

---

[1270] Azərbaycan tarixi, c.4, s.249.
[1271] Yenə orada, s.249.`
[1272] ЦГИА СПб, фонд Кавказский Комитет, д №153, 1869, л.л. 341-342.
[1273] Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1881, выпуск 1, с.34-35.

müxtəlif saxsı qablar, xalça, palaz, müxtəlif növ parçalar, ayaqqabılar, tütün, xırda və iribuynuzlu heyvan dərisi və s. məmulatlar bol olardı[1274].

XIX yüzilliyin 80-ci illərin əvvəllərinə aid məlumata görə, İrəvan şəhərində yerləşən bazarda Azərbaycan türkləri çoxluq təşkil etmişdir. Həmin bazarda müxtəlif mallarla ticarət edən satıcıların sayı və mənsub olduqları millətlər belə göstərilmişdi:

1. Allaf (dənli bitki, düyü, duz və s. satan). Bu dərəcədə İrəvan bazarında 60 Azərbaycan türkü, 17 erməni satıcılıq edirdi ;
2. Attar (rəngsazlıq malları satanlar) – 56 Azərbaycan türkü;
3. Bakkal (meyvəsatanlar) – 58 Azərbaycan türkü, 4 erməni;
4. Bəzzaz (qırmızı mallar satanlar) – 69 Azərbaycan türkü, 66 erməni;
5. Dükandar – 36 erməni;
6. Dəllal (köhnə mallar satan) – 8 Azərbaycan türkü;
7. Meyxanaçı – 36 erməni;
8. Pul xırdalayan – 8 Azərbaycan türkü; 2 erməni;
9. Dəri satıcısı – 1 Azərbaycan türkü, 1 erməni
10. Göyərti satıcısı – 4 Azərbaycan türkü.

Bu satıcılardan əlavə, İrəvan bazarında paltar, xalça, palaz, ip, dəmir məmulatları, gil və mis qablar, ayaqqabı, tütün, ipək iplər, qənd, neft və s. satan ticarətçilər də mövcud olmuşdur. Ümumiyyətlə, həmin ildə İrəvan bazarında 307 Azərbaycan türkü, 256 erməni satıcısı olmaqla 563 ticarət edən qeydə alınmışdı[1275].

İrəvan bazarından əlavə digər qəzalarda da bazarların fəaliyyəti haqqında məlumatlar vardır. Naxçıvan qəzasında ticarət

---

[1274] Словар Российский империи, Составил П.Семенов. СПб, 1885, т.V, с.868; Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1881, выпуск 1, с.35.

[1275] Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1881, выпуск 1, с.16.

edənlər əsasən Naxçıvan və Ordubad şəhərlərində yerləşən bazarlarda cəmləşmişdi. XIX yüzilliyin 80-ci illərində Naxçıvan qəzasında 1012 ticarətçi, bunlardan 358-i Naxçıvan şəhərində, 148-i Ordubad şəhərində, 506-cı isə kəndlərdə qeydə alınmışdır. Bu ticarətçilərdən etnik tərkibinə görə 798-i Azərbaycan türkləri, 214-ü isə erməni olmuşdur. Qeyd etmək lazımdır ki, kəndlərdə qeydə alınan satıcılar müxtəlif mallarla ticarət edən səyyar satıcılar idi[1276].

1899-cu il məlumatına görə, İrəvan quberniyasının daxili ticarətində böyük rol oynamış 2789 ticarət dükanı qeydə alınmış, bunlardan 2313-nün gəliri 5000, 28-in isə 50000, ümumi gəlir isə 14035120 rubl olmuşdur[1277].

Yuxarıda göstərildiyi kimi, İrəvan quberniyasında ticarətlə məşğul olmaq üçün əhali hökumətdən pulla xüsusi bilet-sənəd almalı idi. Bu həm daxili ticarət, həm də xarici ticarətlə məşğul olan ticarət adamlarına aid edilmişdi. Sənədlər müxtəlif ticarətlə məşğul olan tacir dərəcələri üzrə verilirdi. 1898-ci ilin məlumatında sənəd verilmiş ticarətçilər dərəcələr üzrə belə bölünmüşdü: 1. Birinci dərəcəli ticarətçi üçün sertifikat və yaxud bilet; 2. İkinci dərəcəli ticarətçi üçün sertifikat və bilet; 3. Xırda ticarətçi üçün sertifikat və bilet; 4. Sənətkarlıq sertifikatı; 5. Satıcı sertifikatı; 6. Səyyar ticarət üçün sertifikat; 7. Çatdırma ticarəti üçün verilmiş sertifikat[1278]. Lakin sonrakı illərdə sənəd verilmiş ticarət adamlarının dərəcələri fərqli göstərilmişdir. Həmin kateqoriyalar bunlar idi:

1. Tacir təbəqəsi üçün verilmiş sertifikat. Bu təbəqə I və II dərəcələrə bölünmüşdü;
2. Ticarət müəssisələri üçün verilmiş sertifikat. Bu ticarət müəssisələri I, II, III, IV və V dərəcələrə bölünmüşdü;
3. Sənaye müəssisələri üçün verilmiş sertifikat. Bu müəssisələr IV, V, VI, VII, VIII dərəcələrə bölünmüşdü;

---

[1276] Сборник свидений о Кавказе, т. VII, с.238.
[1277] Энциклопедический словар Брокгауз и Ефрона, т.XLI (81), с.14.
[1278] Обзор Эриванский губернии за 1898, с.9.

4. Şəxsi sənətkarlıqla məşğul olanlar üçün verilmiş sertifikat. Bu sənədlər II, IV, V (I dərəcəli satıcı), VII (II dərəcəli satıcı) dərəcəyə bölünmüşdü;
5. Pulsuz bilet və müxtəlif adlı setifikat[1279].

Xarici ticarət İrəvan quberniyasında güclü inkişaf etmişdi. Xüsusilə, XIX yüzilliyin 60-cı illərinin ortalarında xarici ticarətdə əsas rol oynayan İrəvan quberniyasının gömrükxanalarına böyük diqqət verilməyə başlanmışdı. 1865-ci il yanvarın 29-da verilmiş "Avropa mallarının İrana (Qacar dövlətinə-E.Q.) və Asiya mallarının İrandan Avropaya Zaqafqaziya diyarı vasitəsilə tranzit qaydasının ən yüksək təsdiqi" fərmanına görə [1280], Mərkəzi Rusiya malları və Qafqazın yerli malları Cənubi Qafqaz diyarından keçməklə Qacar dövlətinə tranzit yolu ilə rüsumsuz göndərilə bilərdi. Ticarət mallarının Cənubi Qafqaz vasitəsilə Qacar sərhədinə daşınması yollarının təyin edilməsi Qafqaz Canişinliyinin ixtiyarına verilmişdi. Nəticədə, İrəvan quberniyasının İrəvan, Naxçıvan, Culfa və Aleksandropol gömrük məntəqələrinin nüfuzu daha da artdı.

Qeyd edildiyi kimi, Cənubi Qafqaz vasitəsilə aparılan xarici ticarətin bir hissəsi İrəvan quberniyasına məxsus gömrükxanalar vasitəsilə həyata keçirilirdi. Mənbələrdə çar hakimiyyət orqanlarının XIX yüzilliyin 40-80-ci illərdə tərtib etdiyi statistik məlumatlarda İrəvan quberniyasına hər il gömrük məntəqələrindən idxal və ixrac edilən malların dəyəri göstərilmiş, malların çeşidləri açıqlanmışdır. Bu ticarət malları arasında pambıq, müxtəlif növ meyvə, düyü, xırda və iribuynuzlu mal-qara, mal-qara dəriləri, qənd, taxıl məhsulları, xam ipək və ipək parçalar, xam pambıq və pambıq parçalar, balıq əsas rol oynamışdır. Çar məmurlarının 1840-1879-cu illərdəki məlumatlarında İrəvan quberniyasının Qacar və Türkiyə dövlətləri ilə əyani olaraq ticarətdən,

---

[1279] Обзор Эриванский губернии за 1899, с.9; Эриванский губернии за 1900, с.8-9.
[1280] Полное собрание законов Российской империи, собрание 1-е, т.XL, 1870 / СПб, 1867, док. №41735, с.124.

ixrac və idxal olunan malların pulla dəyəri haqqında statistik məlumatlar öz əksini tapmışdır. Həmin illərdə Qacar dövlətindən İrəvan quberniyasına idxal və quberniyadan ixrac olununan ticarət mallarının rublla ümumi dəyəri belə göstərilmişdir:

1840-1844-cü illər-ixrac-47984 rubl; idxal-2856015 rubl;
1845-1849-cu illər-ixrac-273735 rubl; idxal-4082690 rubl;
1850-1854-cü illər-ixrac-347577 rubl; idxal-5285954 rubl;
1855-1859-cu illər-ixrac-429227 rubl; idxal-6817461 rubl;
1860-1864-cü illər-ixrac-504987 rubl; idxal-5845230 rubl;
1865-1869-cu illər-ixrac-770937 rubl; idxal-6140968 rubl;
1870-1874-cü illər-ixrac-782264 rubl; idxal-5833925 rubl;
1875-1879-cu illər-ixrac-901905 rubl; idxal-7567832 rubl.

Eyni zamanda bu məlumatda Türkiyə ilə İrəvan quberniyası arasında ticarətin miqdarı da göstərilmişdir. Onlar arasında idxal-ixracın dəyəri belə olmuşdur:

1840-1844-cü illər-ixrac-872373 rubl; idxal-561581 rubl;
1845-1849-cu illər-ixrac-676676 rubl; idxal-710682 rubl;
1850-1854-cü illər-ixrac-591783 rubl; idxal-650510 rubl;
1855-1859-cu illər-ixrac-682463 rubl; idxal-647546 rubl;
1860-1864-cü illər-ixrac-1123143 rubl; idxal-1297136 rubl;
1865-1869-cu illər-ixrac-1456018 rubl; idxal-1822864 rubl;
1870-1874-cü illər-ixrac-1664566 rubl; idxal-1984693 rubl;
1875-1879-cu illər-ixrac-483691 rubl; idxal-833401 rubl[1281].

Rəqəmləri müqayisə etdikdə görmək olar ki, Qacar və Türkiyə dövlətlərindən İrəvan quberniyası vasitəsilə ticarət mallarının idxalı daha çox olmuşdur.

1840-1879-cu illər məlumatında eyni zamanda ayrı-ayrı gömrük məntəqəsinin adları və hər bir gömrük məntəqəsindən ixrac və idxal olunan malların rublla dəyəri də göstərilmişdir. Gömrük məntəqələrinin adları, ixrac və idxal olunan malların dəyəri belə idi:

Naxçıvan gömrük məntəqəsi-ixrac-2342345 rubl; idxal-32692386 rubl;

---

[1281] Словар Российский империи , СПб, 1885, т.V, с.869.

Şərur gömrük məntəqəsi-ixrac-909082 rubl; idxal-9121844 rubl;

Ordubad gömrük məntəqəsi-ixrac-1230189 rubl; idxal-2615845 rubl;

Aleksandropol gömrük məntəqəsi-ixrac-6285493 rubl; idxal- 7226210 rubl;

Qulp gömrük məntəqəsi-ixrac-427421 rubl; idxal-78326 rubl;

İğdır gömrük məntəqəsi-ixrac-1137799 rubl; idxal-1203877 rubl[1282].

Beləliklə, qeyd edilən illərdə İrəvan quberniyasının Qacar dövləti ilə xarici ticarətində ildən-ilə artım olduğunun, Türkiyə ilə ticarətdə isə tez-tez dəyişmələrin baş verdiyini görmək mümkündür. Buna səbəb, 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsi dövründə hər iki dövlət arasında ticarətin zəifləməsi və Aleksandropol və Qulp gömrük məntəqələrinin bağlanması idi.

Yuxarıdakı məlumatda İrəvan quberniyasının hər iki dövlətlə mal mübadiləsinin rublla dəyəri göstərilmişdir. Lakin 1878-1879-cu illərdə İrəvan gömrük məntəqələrindən idxal və ixrac olunan malların çəkisi haqqında da məlumatlar mənbədə öz əksini tapmışdır. Həmin ticarət mallarının çəkisi belə idi:

İğdır gömrük məntəqəsi-1878-ci ildə idxal-21285 pud; ixrac-5546 pud; 1879-cu ildə idxal-44639 pud; ixrac-37033 pud;

Naxçıvan gömrük məntəqəsi-1878-ci ildə idxal-1607526 pud; ixrac-141988 pud; 1879-cu ildə idxal-1367615 pud; ixrac-143876 pud;

Ordubad gömrük məntəqəsi-1878-ci ildə idxal-35864 pud; ixrac-9090 pud; 1879-cu ildə idxal-64316 pud; ixrac-20567 pud;

Şərur gömrük məntəqəsi-1878-ci ildə idxal-587075 pud; ixrac-72384 pud; 1879-cu ildə idxal-357038 pud; ixrac-26287 pud[1283].

İrəvan şəhəri ticarətin əsas mərkəzi idi. 1865-ci ildə İrəvan şəhərinin xarici ticarətdən gələn gəliri 2 milyon gümüş rubl təşkil

---

[1282] Словар Российский империи, СПб,1885, т.V, с.869.

[1283] Кавказский календарь на 1881, с.51.

etmiş, bunun 800 min gümüş rublu pambıq ticarətindən əldə edilmişdir[1284]. 1878-ci ildə isə yalnız İrəvan şəhərinə 600 min rubl həcmində mal idxal olunmuşdur. Öz növbəsində İrəvan tacirləri yerli mallar da ixrac edirdilər. Hər il onlar 250 min rubl həcmində yerli ticarət mallarını satmaq üçün müxtəlif dövlətlərə aparırdılar. Bu mallar arasında əsasən pambıq və düyü əsas rol oynamışdı. Hər il 700000 rubl məbləğində 95000 puda yaxın pambıq parça, 300000 rubl məbləğində 150000 puda yaxın düyü ixrac olunurdu[1285].

İrəvan quberniyasının gömrük məntəqələrinin ildən-ilə əhəmiyyəti daha da artmışdı. 1886-cı ildə Naxçıvan gömrük məntəqəsindən 283431 rubl dəyərində müxtəlif ticarət malları (xam ipək, dəmir məmulatlar, ipək parçalar, kağız və s.) ixrac edilmiş, 1044251 rubl dəyərində mal idxal edilmiş, Şərur məntəqəsindən 225760 rubl mal ixrac, 737394 rubl idxal edilmiş, İğdır məntəqəsindən isə 150123 rubl mal ixrac, 23974 rubl mal idxal edilmişdir[1286].

İdxal və ixrac olunan mallardan xəzinənin xeyrinə vergi də alınırdı. 1888-ci ilə aid mənbədə nəinki idxal və ixrac olunan malların dəyəri, həmçinin bu mallardan xəzinənin xeyrinə daxil olunan vergi haqqında da məlumatlar göstərilmişdir. Aşağıdakı cədvəldə bunu əyani görmək mümkündür[1287]:

| Gömrük məntəqəsi | İxrac | İdxal | Xəzinəyə daxil olan vergilər |
|---|---|---|---|
| İğdır | 92525 rubl | 26100 rubl | 4419 rubl |
| Şərur | 191114 rubl | 600616 rubl | 54177 rubl |
| Culfa | 605107 rubl | 1205076 rubl | 109036 rubl |
| Ordubad | 20869 rubl | 37032 rubl | 4427 rubl |

1284 Развитие Еревана после присоединения Восточной Армении к России. Сборник документов 1801-1917, с.425.
1285 Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1881, выпуск 1, с.35-36.
1286 Кавказский календарь на 1888, с.25-27.
1287 Обзор фабрик и заводов Закавказского края, с.19.

XIX yüzilliyin 90-cı illərinin əvvəllərində isə 4000000 rubl həcmində Rusiyanın sənaye mərkəzlərinə pambıq, Türkiyə bazarlarına isə əhəmiyyətli miqdarda düyü ixrac olunmuşdur[1288].

XIX yüzilliyin 80-ci illərinin sonlarından başlayaraq XX yüzilliyin əvvəllərinə qədər İrəvan quberniyasına aid statistk məlumatları özündə əks etdirən "İcmallar"da ticarətlə bağlı daha geniş məlumatlar verilmişdir. Burada ticarət adamlarının qrupları, müxtəlif ticarət adamlarına verilən sənədlərin sayı, bu sənədlərdən gələn gəlirlər və eyni zamanda xarici ticarət haqqında statistik məlumatlar toplanmışdır. Qeyd etmək lazımdır ki, bu sənədlər hər il təzələnir, sənəd alanların sayında gah azalma, gah da çoxalma baş verirdi. Məsələn, 1888-ci ildə ticarət adamlarına 4474 sənəd verilmiş, həmin sənədlərdən xəzinəyə 64846 rubl 80 qəpik, əlavə olaraq ticarət və sənəd qaydalarını pozduğuna görə 1575 rubl 61 qəpik cərimə də daxil olmuşdur[1289]. Hesabat ilində İrəvan quberniyasına Türkiyədən 33117 rubl 24 qəpik məbləğində müxtəlif ticarət malları idxal, 95733 rubl məbləğində isə ticarət malları ixrac, Qacar dövlətinə İrəvan quberniyasından 401948 rubl 40 qəpik məbləğində ticarət malı ixrac, 1882630 rubl ticarət malları idxal edilmişdir. İxrac və idxal malları arasında əsas yeri düyü, pambıq parça, meyvə, ipək və ipək parçalar, xırda və iribuynuzlu mal-qara tutmuşdu. Bundan əlavə, Qacar dövlətinə 507551 rubl 90 qəpik məbləğində rus və əcnəbi qızıl və gümüş sikkələr, 18761 rubl məbləğində kredit biletləri ixrac, 42999 rubl məbləğində sikkə, 1677948 rubl məbləğində kredit biletləri idxal olunmuşdur[1290].

1891-ci ildə ticarətçilərə müxtəlif növ ticarət üçün 72255, 35 rubl məbləğində (keçən ilə nisbətən 10241 rubl çox) 5146 ticarət sənədi (keçən ilə nisbətən 654 sənəd çox) verilmişdi. Hesabat ilində həmin sənədlərdən xəzinəyə cərimə ilə birlikdə İrəvan qəzası üzrə 1982 (keçən ilə nisbətən 1572,15 rubl çox), Naxçıvan

---

[1288] Линч Х.Ф.Б., Армения. Путевые очерки этюды, Тифлис, 1910, т.1, с.295.
[1289] Обзор Эриванский губернии за 1888, с.54-55.
[1290] Обзор Эриванский губернии за 1888, с.56-57.

qəzası üzrə 239,60 (keçən ilə nisbətən 60,55 rubl az), Sürməli qəzası üzrə 21 (keçən ilə nisbətən 44 rubl az), Şərur-Dərələyəz qəzası üzrə 170 (keçən ilə nisbətən 47 rubl çox), Yenibəyazid qəzası üzrə 123,20 (keçən ilə nisbətən 190,63 rubl az), Aleksandropol qəzası üzrə 884,35 (keçən ilə nisbətən 269,55 rubl çox) və Üçmüəzzin qəzası üzrə isə 984,42 rubl (keçən ilə nisbətən 933,17 rubl çox) vergi daxil olmuşdur. Nəticədə hər ticarətçi xəzinəyə cərimə ilə birlikdə 10,9 qəpik (keçən ilə nisbətən 9,2 qəpik az) ödəmişdir. Qeyd etmək lazımdır ki, həmin il daxili ticarət dövriyyəsi haqqında heç bir məlumat verilməmişdir[1291].

Lakin hesabat ilində Qacar dövləti və Osmanlı Türkiyəsi ilə xarici ticarət dövriyyəsi haqqında geniş məlumatlar vardır. Bu dövriyyəyə idxal və ixrac olunan müxtəlif ticarət malları daxil idi. İrəvan quberniyasına **idxal olunan ticarət malları** həyati azuqə (buğda, un, müxtəlif növ göylər, meyvələr, ət, yağ, pendir, müxtəlif növ balıqlar, çay, tütün, meyvə şirələri və s.), xammal və yarım istehsal olunmuş materiallar (meşə malları, ot, xam pambıq, mal-qara piyi, xam ipək, yun, heyvan məhsulları və s.), mal-qara (iribuynuzlu və xırdabuynuzlu mal-qara, at və s.), fabrik, zavod və sənətkarlıq məmulatları (mərmər, dulusçuluq məmulatları, kağız, ayaqqabı dülgər məmulatları və s.) və sikkə (Rusiya qızılı və əcnəbi qızılı) daxil olmaqla beş hissəyə bölünmüşdü. 1891-ci ildə İrəvan quberniyasına həyati azuqədən 723135 rubl 23 qəpik məbləğində 312152 pud 8 funt 33 zolotnik, xammal və yarım istehsal olunmuş materiallardan 373546 rubl 56 qəpik məbləğində 56954 pud 18 funt 72 zolotnik, mal-qaradan 73587 rubl 90 qəpik məbləğində 11300 baş, fabrik, zavod və sənətkarlıq məmulatlarından 457359 rubl 88 qəpik məbləğində 22183 pud 31 funt 24 zolotnik, sikkələrdən isə 95888 rubl 50 qəpik məbləğində 4 pud 14 funt 48 zolotnik ticarət malları idxal olunmuşdu. Ümumilikdə idxal olunan ticarət mallarının məbləği 1723518 rubl 7 qəpik, 11300 baş mal-qara və çəkisi isə 389294 pud 32 funt 81 zolotnik idi. İdxal olunan ticarət malları arasında əsas yeri müxtlif növ meyvələr (58633 rubl

[1291] Обзор Эриванский губернии за 1891, с.21.

məbləğində), xam ipək və ipək parçalar (227650 rubl 13 qəpik məbləğində), dəri və yumşaq köhnə cır-cındır (225548 rubl məbləğində), xam pambıq və ondan hazırlanmış parçalar (175354 rubl məbləğində), yun və yun parçalar (109471,09 rubl məbləğində), mal-qara (73587,90 rubl məbləğində), buğda (47100,33 rubl məbləğində), rəng və rəng məmulatları (20989,50 rubl məbləğində), bəhməz (18018,60 rubl məbləğində), inək və qoyun yağı (17069,05 rubl məbləğində), konfet və mürəbbə (14394,09 rubl məbləğində) tutmuşdu[1292].

İrəvan quberniyasına qonşu dövlətlərdən müxtəlif ticarət malları idxal edilməklə bərabər, özü də Qacar dövlətinə və Osmanlı Türkiyəsinə müxtəlif növ ticarət malları ixrac etmişdi. 1891-ci ildə İrəvan quberniyasından həyati azuqədən hər iki dövlətə 88029 rubl 20 qəpik məbləğində 37799 pud 35 funt, 1100 ədəd və 86 butulka, xammal və yarım istehsal olunmuş materilallardan 109429 rubl 70 qəpik məbləğində 36555 pud 30 funt 3 zolotnik və 1180 ədəd, mal-qaradan 10380 rubl məbləğində 507 baş, fabrik, zavod və sənətkarlıq məmulatlarından 593257 rubl 15 qəpik məbləğində 15995 pud 24 funt 4 zolotnik və 53 ədəd və sikkələrdən 138779 rubl məbləğində 7 pud 24 funt 5 zolotnik, ümumilikdə isə 939875 rubl 5 qəpik məbləğində 90358 pud 33 funt 12 zolotnik, 507 baş mal-qara, 1153 ədəd digər mallar və 86 butulka ixrac edilmişdir. İrəvan quberniyasından ixrac olunan ticarət mallarından əsas yeri kağız məmulatları (325030 rubl məbləğində), metal və ondan hazırlanmış məmulatlar (215076,25 rubl məbləğində), mis (189936,75 rubl məbləğində), neft (52735 rubl məbləğində), düyü (42508 rubl məbləğində), yun və yun məmulatları (20317 rubl məbləğində), dəri və yumşaq cır-cındır (19101 rubl məbləğində), araba təkəri (18200 rubl məbləğində), tərəvəz və meyvə (11511,60 rubl məbləğində), ipək və ipək məmulatları (11496,50 rubl məbləğində), mal-qara (10380 rubl məbləğində) və şüşə məmulatları (8297 rubl məbləğində) tutmuşdu[1293].

---

[1292] Обзор Эриванский губернии за 1891, с.21-24.
[1293] Yenə orada, c.25-27.

1892-ci il statistik məlumatına görə İrəvan quberniyasında ticarət adamlarına 5538 sənəd verilmişdi ki, bu da keçən ilə nisbətən 392 sənəd (7,6 %) çox idi. Verilmiş sənədlərdən xəzinəyə 74434 rubl 30 qəpik daxil olmuşdur. Hər bir sənədin ümumi dəyəri 13 rubl 44 qəpik idi. Hesabat ilində İrəvan quberniyasına Qacar dövlətindən və Osmanlı Türkiyəsindən 1844028 rubl 59 qəpik məbləğində müxtəlif növ ticarət malları, 393523 rubl məbləğində sikkə idxal edilmiş, 741432 rubl 55 qəpik məbləğində müxtəlif növ ticarət malları və 98083 rubl sikkə ixrac olunmuşdur. Qeyd etmək lazımdır ki, hesabat ilində vəba xəstəliyi üzündən İrəvanda ticarət dövriyyəsi xeyli aşağı düşmüşdü. İrəvan quberniyası eyni zamanda müxtəlif quberniya və qonşu dövlətlərin ixracatında da böyük rol oynamışdı. Həmin il Bakıdan Qacar dövlətinə ixrac edilən 600 min rubl dəyərində neft və Qacar dövlətindən ixrac olunan kişmiş və quru meyvələr İrəvan quberniyasının ərazisindən keçməklə ixrac edilmiş, İrəvan bazarında idxal mallarının dövriyyəsi 7000000, ixrac isə 13000000 rubl olunmuşdur[1294].

1893-cü il statistik məlumatına görə, İrəvan quberniyasında ticarət adamlarına 5963 sənəd verilmişdi ki, bu da keçən ilə nisbətən 424 sənəd (7,7 %) çox idi. Verilmiş sənədlərdən xəzinəyə 77234 rubl 45 qəpik daxil olmuşdur. Hər bir sənədin ümumi dəyəri 12 rubl 95 qəpik idi. Bundan əlavə, cərimə və vergidən əlavə olaraq  xəzinəyə 5229 rubl 75 qəpik, ümumilikdə isə ticarətdən 82464 rubl 20 qəpik daxil olmuşdur. Hesabat ilində İrəvan quberniyasına Qacar dövlətindən və Osmanlı Türkiyəsindən 2130367 rubl 4 qəpik məbləğində müxtəlif növ ticarət malları (bu keçən ilkindən 286338 rubl 45 qəpik və yaxud 15,5 % çox idi) idxal, 925975 rubl 25 qəpik (keçən ilə nisbətən 184546 rubl 70 qəpik və yaxud 25 % çox idi) məbləğində müxtəlif növ ticarət malları ixrac, 421294 rubl (keçən ilə nisbətən 27771 rubl çox) qızıl və gümüş sikkə idxal, 200300 rubl 48 qəpik (keçən ilə nisbətən 102217 rubl 48 qəpik, yaxud 105,1 % çox) sikkə və kredit bileti ixrac olunmuşdur. Qeyd etmək

---

[1294] Обзор Эриванский губернии за 1892, с.10-12.

lazımdır ki, 1893-cü ildə həm idxalda, həm də ixracda xeyli artım baş vermişdir[1295].

1894-cü il statistik məlumatına görə, İrəvan quberniyasında ticarət adamlarına 6507 sənəd verilmişdi ki, bu da keçən ilə nisbətən 544 sənəd (9,1 %) çox idi. Verilmiş sənədlərdən xəzinəyə 82755 rubl 50 qəpik (keçən ilə nisbətən 5521 rubl və yaxud 7,1 % çox) daxil olmuşdur. Bundan əlavə xəzinəyə cərimə və vergidən də 5495 rubl 71 qəpik (keçən ilə nisbətən 265 rubl 96 qəpik çox) ödənilmişdir. Ümumilikdə xəzinəyə ticarət sənədlərindən ödənilən verginin miqdarı 88251 rubl 21 qəpik (keçən ilə nisbətən 5787 rubl 1 qəpik və yaxud 7 % çox) idi.

Hesabat ilində İrəvan quberniyasına Qacar dövlətindən və Osmanlı Türkiyəsindən 1902848 rubl 85 qəpik məbləğində müxtəlif növ ticarət malları (bu keçən ilkindən 227518 rubl 19 qəpik az idi) idxal, 624126 rubl (keçən ilə nisbətən 301849 rubl 25 qəpik az idi) məbləğində müxtəlif növ ticarət malları ixrac olmuşdur. İrəvan quberniyasının ixracatında əsas yeri pambıq, çaxır, araq, iribuynuzlu mal-qara dərisi və qoyun dərisi tutmuşdu[1296].

1895-ci il məlumatında ticarət adamlarına verilmiş sənədlərin sayında azalma müşahidə olunsa da, sənədlərdən xəzinəyə daha çox vergi daxil olmuşdur. Hesabat ilində İrəvan quberniyasında ticarət adamlarına 6037 sənəd verilmiş, bu da keçən ilə nisbətən 470 sənəd az idi. Verilmiş sənədlərdən xəzinəyə 85860 rubl 50 qəpik (keçən ilə nisbətən 3105 rubl çox) daxil olmuşdur. Bundan əlavə xəzinəyə cərimə və vergidən 2632 rubl 65 qəpik ödənilmişdir. Ümumilikdə xəzinəyə ticarət sənədlərindən ödənilən verginin miqdarı 88393 rubl 15 qəpik (keçən ilə nisbətən 141 rubl 94 qəpik) idi.

Hesabat ilində bol məhsul olduğundan həm daxili, həm də xarici ticarətdə xeyli canlanma olmuşdur. Bundan əlavə bu canlanmanın bir səbəbi də, İrəvan şəhərində 1893-cü ildə Dövlət Bankının xüsusi şöbəsinin və 1895-ci ildə isə Tiflis Kommersiya Bankının şöbəsinin açılması idi. Bu şöbələrin açılması uzun illər

---

[1295] Обзор Эриванский губернии за 1893, с.8-9.
[1296] Обзор Эриванский губернии за 1894, с.7-8.

İrəvan ticarətinin canlanmasında böyük rol oynamışdı. İrəvan quberniyası Qacar dövlətindən və Osmanlı Türkiyəsindən idxal olunan ticarət mallarının vasitəçisi idi. Həmin il İrəvan quberniyasına Qacar dövlətindən və Osmanlı Türkiyəsindən 2064975 rubl 69 qəpik məbləğində müxtəlif növ ticarət malları (bu keçən ilkindən 162126 rubl 84 qəpik çox idi) idxal, 898791 rubl 46 qəpik (keçən ilə nisbətən 274665 rubl 46 qəpik çox idi) məbləğində müxtəlif növ ticarət malları ixrac olmuşdur. Bundan əlavə, idxal olunmuş ticarət mallarından 77308 rubl 89 qəpik vergi alınmışdır. İrəvan quberniyasına qonşu dövlətlərdən olan ticarət mallarının idxalında əsas yeri cürbəcür meyvələr, dərilər, ipək parçalar, xalçalar, palazlar və pambıq, ixracatında isə müxtəlif cür parçalar, dəmir və şüşə məmulatları, neft və neft məhsulları əsas yeri tutmuşdu[1297].

1896-cı ildə həm ticarət adamlarına verilmiş sənədlərin sayında, həm də xəzinəyə daxil olan verginin miqdarında xeyli çoxalma müşahidə olunmuşdur. Hesabat ilində ticarət adamlarına 6442 sənəd (keçən ilkinə nisbətən 405 sənəd çox) verilmiş, bu sənədlərdən xəzinəyə 90274 rubl 80 qəpik (keçən ilkinə nisbətən 4414 rubl 30 qəpik çox), cərimə və əlavə vergilərdən 2895 rubl 94 qəpik (keçən ilkinə nisbətən 233 rubl 29 qəpik çox), ümumilikdə isə 93170 rubl 74 qəpik daxil olmuşdur[1298].

Hesabat ilində İrəvan quberniyasına Osmanlı Türkiyəsindən və Qacar dövlətindən idxal olunan malların məbləği 1976190 rubl 97 qəpik, ixrac olunan malların miqdarı isə 1257946 rubl 20 qəpik olmuşdur. İdxal olunan ticarət mallarından xəzinənin xeyrinə alınan verginin məbləği isə 76165 rubl 26 qəpik idi. İdxal və ixracatda əsas rol oynayan ticarət malları keçən ilki ticarət malları ilə üst-üstə düşürdü[1299].

1897-ci ildə İrəvan quberniyasında ticarət adamlarına 6788 sənəd (keçən ilkinə nisbətən 347 sənəd çox) verilmiş, bu sənədlərdən xəzinəyə 98237 rubl 80 qəpik (keçən ilkinə nisbətən

---

[1297] Обзор Эриванский губернии за 1895, с.7-8.
[1298] Обзор Эриванский губернии за 1896, с.5.
[1299] Yenə orada, с.6.

7963 rubl 8 qəpik və yaxud 8 % çox), cərimə və əlavə vergilərdən 3060 rubl 19 qəpik (keçən ilkinə nisbətən 265 rubl 25 qəpik çox), ümumilikdə isə 101297 rubl 99 qəpik daxil (keçən ilə nisbətən 8127 rubl 99 qəpik çox) olmuşdur. Bir sənədin ümumi dəyəri 14 rubl 47 qəpik idi[1300].

1898-ci ildə İrəvan quberniyasında ticarət adamlarına 7288 sənəd (keçən ilkinə nisbətən 500 sənəd yaxud 7,3 % çox) verilmiş, bu sənədlərdən xəzinəyə 104870 rubl 60 qəpik (keçən ilkinə nisbətən 6632 rubl 80 qəpik və yaxud 6,7 % çox) daxil olmuşdur. Bir sənədin ümumi dəyəri 14 rubl 38 qəpik idi. Hər il olduğu kimi ticarətdə əsas yeri xırda ticarət tutmuşdu[1301].

Hesabat ilində İrəvan quberniyasına Türkiyə və Qacar dövlətlərindən 2687381 rubl 88 qəpik məbləğində müxtəlif növ ticarət malları və mal-qara idxal, 1482503 rubl 26 qəpik ticarət malları ixrac olunmuşdur. İdxaldan xəzinəyə 108091 rubl 23 qəpik, ixracdan isə gömrük qanunlarını pozduğuna görə 2185 rubl 23 qəpik vergi ödənilmişdir[1302].

1899-cu ildə ticarət adamlarına 7192 sənəd verilmiş (keçən ilkindən 96 sənəd az), həmin sənədlərdən xəzinəyə 129180 rubl (keçən ilə nisbətən 24309 rubl 40 qəpik çox) vergi daxil olmuş, bir sənədin orta qiyməti isə 17 rubl 96 qəpik idi[1303].

Hesabat ilində İrəvan quberniyasının xarici ticarəti də xeyli yüksək olmuşdur. Xarici ticarətdə əvvəlki kimi Qacar dövləti və Türkiyə ilə ticarət əsas yeri tutmuşdu. 1899-cu ildə İrəvan quberniyasından 1216590 rubl müxtəlif növ ticarət malları ixrac, 2597754 rubl isə idxal edilmişdir. İdxal olunmuş ticarət mallarından gömrük qaydalarını pozduğuna görə alınan cərimə ilə birlikdə xəzinəyə 137116 rubl 45 qəpik vergi daxil olmuşdur[1304].

1900-cü ilin məlumatına görə, ticarət adamlarına 9599 sənəd (keçən ilkinə nisbətən 2407 sənəd yaxud 33,46 % çox)

---

[1300] Обзор Эриванский губернии за 1897, с.9-10.
[1301] Обзор Эриванский губернии за 1898, с.9-10.
[1302] Yenə orada, s.10.
[1303] Обзор Эриванский губернии за 1899, с.8-9.
[1304] Yenə orada, s.10.

verilmiş, həmin ticarət sənədlərindən xəzinəyə 143944 rubl 19 qəpik (keçən ilə nisbətən 14764 rubl 19 qəpik və yaxud 11,42 % çox) daxil olmuşdur. Verilmiş bir sənədin qiyməti 17 rubl 96 qəpiyə başa gəlmişdir[1305].

Hesabat ilində İrəvan quberniyasının karantin-gömrük məntəqəsindən 2504411 rubl 28 qəpik (keçən ilə nisbətən 93342 rubl 72 qəpik az) ticarət malları idxal, 2211541 rubl (keçən ilə nisbətən 994951 rubl çox) isə ixrac, idxaldan xəzinəyə 120558 rubl 42 qəpik vergi, gömrük qaydalarını pozduğuna görə 918 rubl 16 qəpik cərimə və müsadirə edilmiş mallardan isə 136 rubl 44 qəpik daxil olmuşdur[1306]. Əgər ixracla idxalı müqayisə etsək görmək olar ki, İrəvan quberniyasında ildən ilə ixracın həcmi artmış, hətta idxala yaxınlaşmışdır.

1901-ci ildə ticarət adamlarına 7231 ədəd (keçən ilə nisbətən 2368 ədəd yaxud 24,67 % az) sənəd verilmiş, həmin sənədlərdən xəzinəyə 129581 rubl 31 qəpik daxil (keçən ilə nisbətən 14362 rubl 88 qəpik yaxud 9,99% az) olmuşdur[1307] .

Hesabat ilində İrəvan quberniyasına gömrük məntəqələrindən 2963858 rubl 62 qəpik (keçən ilə nisbətən 459447 rubl 34 qəpik yaxud 18,34 % çox) məbləğində 514547 pud, 69071 baş mal-qara idxal, 3683834 rubl 42 qəpik (keçən ilə nisbətən 1472293 rubl 42 qəpik yaxud 66,57 % çox) məbləğində 436779 pud müxtəlif ticarət malları, 1300 baş mal-qara ixrac olunmuşdur. İdxaldan xəzinəyə 150380 rubl 9 qəpik vergi daxil olmuşdur. İdxalla ixracı göstərən rəqəmləri müqayisə etdikdə görmək olar ki, artıq İrəvan quberniyasından istehsal olunan malların ixracı idxalı üstələmişdi[1308].

1902-ci ildə ticarət adamlarına 7638 ədəd sənəd verilmiş, həmin sənədlərdən xəzinəyə 121721 rubl daxil olmuşdur[1309]. Hesabat ilində İrəvan quberniyasına gömrük məntəqələrindən

---

[1305] Yenə orada, c.8-9.
[1306] Обзор Эриванский губернии за 1900, с.9-10.
[1307] Yenə orada, c.11-12.
[1308] Обзор Эриванский губернии за 1901, с.13.
[1309] Обзор Эриванский губернии за 1902, с.3.

344855 rubl 20 qəpik məbləğində müxtəif cür ticarət malları, əsasən üzüm, badam, meyvə, xam pambıq idxal (bu idxaldan xəzinəyə 175536 rubl 66 qəpik gömrük vergisi daxil olmuşdu), 3824095 rubl məbləğində isə müxtəlif cür ticarət malları, əsasən şəkər, şəkər tozu, neft və müxtlif növdə pambıq-parça ixrac olunmuşdur. Ticarət əməliyyatları nəticəsində gömrük məntəqələrindən hər iki tərəfə 3669 karvan, 66591 adam keçmişdir[1310].

1903-cü ildə ticarət adamlarına 126550 rubl məbləğində 7548 ədəd sənəd, 539 ədəd pulsuz bilet və sertifikat verilmişdir. Bundan əlavə, sənətkarlıqdan cərimə və vergi əsasında xəzinəyə 2148 rubl 99 qəpik daxil olmuşdur[1311]. Hesabat ilində İrəvan quberniyasına gömrük məntəqələrindən 4377649 rubl məbləğində 1061394 pud müxtəlif növ ticarət malları (413 min puddan çox üzüm və badam, 257 min pud müxtəlif növdə meyvə, 200 min pud buğda və arpa, 65 min puddan çox xam pambıq), 19331 baş xırda və iri buynuzlu mal-qara idxal (bu idxaldan xəzinəyə 300013 rubl yaxud 41,4 % gömrük vergisi daxil olmuşdur), 5903695 rubl məbləğində 812142 pud müxtəlif cür ticarət malları (551 min puddan çox şəkər, 73 min pud müxtlif növdə pambıq-parça, 64 min pud neft) ixrac olunmuşdur. Ticarət əməliyyatları nəticəsində gömrük məntəqələrindən hər iki tərəfə 3755 karvan, 68939 adam keçmişdir[1312].

İrəvan Xəzinə Palatasının verdiyi məlumata görə, 1904-cü ildə ticarət adamlarına 7837 sənəd verilmiş, bu sənədlərdən xəzinəyə 131290 rubl vergi daxil olmuşdur. Bundan əlavə, 468 nəfərə pulsuz bilet və sertifikat verilmiş, sənətkarlıqdan xəzinəyə 214 rubl qanuni, 2112 rubl 79 qəpik cərimə ilə birlikdə vergi daxil olmuşdur[1313].

Hesabat ilində İrəvan quberniyasına gömrük məntəqələrindən 3442328 rubl məbləğində 747202,5 pud müxtəlif növ ticarət malları (388233 pud üzüm və badam, 153471 pud müxtə-

---

[1310] Обзор Эриванский губернии за 1902, с.3.
[1311] Обзор Эриванский губернии за 1903, с.5.
[1312] Обзор Эриванский губернии за 1903, с.5-6.
[1313] Обзор Эриванский губернии за 1904, с.9.

lif növdə meyvə, 58308 pud xam pambıq və s.), 10202 baş xırda və iri buynuzlu mal-qara idxal (bu idxaldan xəzinəyə 257709,5 rubl gömrük vergisi daxil olmuşdur), 5008918 rubl məbləğində 544556 pud müxtəlif cür ticarət malları, 123 baş mal-qara ixrac olunmuşdur. Ticarət əməliyyatları nəticəsində gömrük məntəqələrindən hər iki tərəfə 968 karvan, 29923 adam keçmişdir[1314].

1907-ci ildə ticarət adamlarına 5694 ədəd (keçən ilə nisbətən 1103 ədəd çox) sənəd verilmiş, həmin sənədlərdən xəzinəyə 108860 rubl 50 qəpik daxil (keçən ilə nisbətən 13968 rubl 50 qəpik çox), bundan əlavə, xəzinəyə sənətkarlıq üçün verilmiş sənədlərdən 322 rubl 15 qəpik, cərimədə görə isə 2436 rubl 4 qəpik daxil olmuşdur[1315].

Hesabat ilində İrəvan quberniyasına gömrük məntəqələrindən 2410625 rubl 13 qəpik məbləğində 558605 pud müxtəlif ticarət malları, 10675 baş mal-qara idxal (idxalda əsas yeri taxıl, üzüm və badam, müxtəlif cür meyvə, xırda və iribuynuzlu mal-qara, pambıq, çörək, ət və digər ərzaq məhsulları əsas yeri tutmuşdu), 5665237 rubl məbləğində 1022949 pud müxtəlif cür ticarət malları, 3339 baş mal-qara ixrac olunmuşdur. İdxal nəticəsində gömrük məntəqələrindən hər iki tərəfə 562 karvan, 29210 ticarətçi, ixracda isə 790 karvan 23712 ticarətçi iştirak etmişdir. İdxaldan xəzinəyə 200848 rubl gömrük vergisi daxil olmuşdur[1316].

1908-ci ildə ticarət adamlarına 5521 ədəd (keçən ilə nisbətən 173 ədəd az) sənəd verilmiş, həmin sənədlərdən xəzinəyə 109982 rubl 50 qəpik (keçən ilə nisbətən 1122 rubl çox), bundan əlavə, xəzinəyə sənətkarlıq üçün verilmiş sənədlərdən 471 rubl 55 qəpik qanuni, cərimədə görə isə 1309 rubl 93 qəpik daxil olmuşdur[1317].

Hesabat ilində İrəvan quberniyasına gömrük məntəqələrindən 5108707 rubl məbləğində 773212 pud 22 funt müxtəlif ticarət malları, 16310 baş mal-qara idxal (idxalda əsas yeri taxıl,

---

[1314] Обзор Эриванский губернии за 1903, с.5-6.
[1315] Обзор Эриванский губернии за 1907, с.11.
[1316] Yenə orada, c.12-13.
[1317] Обзор Эриванский губернии за 1908, с.11.

üzüm və badam, müxtəlif cür meyvə, xalça və palaz, düyü, şəkər, yun, rəng, dəri, xırda və iribuynuzlu mal-qara, pambıq, çörək, ət və digər ərzaq məhsulları əsas yeri tutmuşdu), 7955737 rubl məbləğində 1250236 pud 38 funt müxtəlif cür ticarət malları, 7841 baş mal-qara ixrac olunmuşdur. İdxal nəticəsində gömrük məntəqəsindən hər iki tərəfə 2477 karvan, 23056 ticarətçi, ixracda isə 3668 karvan 21794 ticarətçi keçmişdir. İdxaldan xəzinəyə 230424,65 rubl gömrük vergisi daxil olmuşdur[1318].

İrəvan Xəzinə Palatasının 1909-cu ildə verdiyi məlumata görə, 6802 nəfərə ticarət sənədi verilmiş (keçən ilkindən 429 ədəd çox), həmin sənədlərdən xəzinənin xeyrinə 116125 rubl 50 qəpik (keçən ilkindən 6143 rubl çox) vergi daxil olmuşdur. Bundan əlavə, həmin il 151 nəfərə pulsuz bilet və setfikat verilmiş, sənətkarlıqdan xəzinənin xeyrinə 514 rubl 35 qəpik qanuni, 2859 rubl 68 qəpik isə cərimə və cəza əsasında vergi alınmışdır[1319].

Hesabat ilində İrəvan quberniyasına gömrük məntəqələrindən 979201 rubl 10 qəpik məbləğində müxtəif ticarət malları idxal, 10203041 rubl məbləğində isə ixrac olunmuşdur. İdxaldan xəzinənin xeyrinə 116991 rubl 90 qəpik gömrük vergisi daxil olmuşdur. İdxal nəticəsində gömrük məntəqələrindən hər iki tərəfə 1747 karvan, 6795 ticarətçi keçmişdir. Qeyd etmək lazımdır ki, bu statistik məlumatlar İrəvan quberniyasının özünün xarici ticarəti ilə bağlıdır[1320].

1910-cu il məlumatına görə, ticarət adamlarına 7825 sənəd verilmiş (bu 1909-cu ilə nisbətən 1023 nəfər çox idi) və onlardan xəzinənin xeyrinə 127469 rubl (1909-cu illə müqayisədə 11343 rubl 50 qəpik çox idi) vergi daxil olmuşdur. Həmin il 124 pulsuz bilet və sertifikat verilmiş, sənətkarlıqdan 306 rubl 50 qəpik qanuni, cərimə və qanun pozuntusundan isə 3610 rubl 12 qəpik vergi alınmışdır[1321].

1912-ci ildə İrəvan Xəzinə Palatasının ticarət adamlarına

---

[1318] Обзор Эриванский губернии за 1908, с.12-13.
[1319] Обзор Эриванский губернии за 1909, с.11.
[1320] Yenə orada, с.11.
[1321] Обзор Эриванский губернии за 1910, с.13.

verdiyi müxtəlif növ 9108 sənəddən xəzinəyə 139866 rubl 50 qəpik vergi daxil olmuşdur. Bu 1911-ci ilə nisbətən 8 faiz çox idi. Əlavə olaraq pulsuz sənəd verilmiş 166 nəfərdən isə xəzinəyə 323 rubl 61 qəpik qanuni, 3040 rubl 15 qəpik isə cərimə və qayda pozuntusuna görə vergi daxil olmuşdur[1322].

Hesabat ilində İrəvan quberniyasına gömrük məntəqələrindən 4963886 rubl məbləğində 1005760 pud, 24077 ədəd müxtəlif ticarət malları, 22112 baş mal-qara idxal, 17021032 rubl məbləğində 2416125 pud, 8044 vedrə şərab, 5472 baş mal-qara ixrac olmuş, idxaldan xəzinənin xeyrinə 326733 rubl 53 qəpik gömrük vergisi daxil olmuşdur. İdxal nəticəsində gömrük məntəqələrindən hər iki tərəfə 2931 karvan, 76531 ticarətçi, ixrac nəticəsində isə 6084 karvan, 77211 ticarətçi keçmişdir[1323].

1913-cü il məlumatına görə ticarətçilərə verilmiş 9216 müxtəlif növ sənədə görə xəzinəyə daxil olan gəlir 142585 rubl 50 qəpik təşkil etmişdir. 1912-ci ilə nisbətən bu gəlir 2 faiz çox idi. Eyni zamanda 157 nəfərə pulsuz ticarət vəsiqəsi verilmiş, onlardan xəzinənin xeyrinə 607 rubl 04 qəpik qanini vergi, 2199 rubl 51 qəpik isə ticarət qaydalarını pozduğuna görə cərimə alınmışdır[1324].

1913-cü il məlumatında idxal və ixracda nisbətən çoxalmanın şahidi oluruq. Həmin il İrəvan quberniyasına ümumi dəyəri 6639484 rubl olan 25875 ədəd müxtəlif ticarət malları, 21289 baş xırda-iribuynuzlu mal-qara və 1836965 pud digər ticarət malları idxal, 22292257 rubl dəyərində 2414383 pud mal ixrac olunmuşdur. İdxaldan xəzinəyə 512255 rubl vergi daxil olmuş, idxal nəticəsində sərhəddən hər iki tərəfə 4968 karvan, 104369 adam, ixrac zamanı isə 5219 karvan, 100082 adam keçmişdir[1325].

1914-cü il statistik məlumatına görə isə 8299 nəfərə verilmiş ticarət sənədinə əsasən (bu 1913-cü ilə nisbətən 917 nəfər və yaxud 8,2 % az idi) xəzinəyə daxil olan illik gəlir 142520 rubl

---

[1322] Обзор Эриванский губернии за 1912, с.15.
[1323] Yenə orada, s.16-17.
[1324] Обзор Эриванский губернии за 1913, с.18.
[1325] Yenə orada, s.18-19.

(keçən ilki vergidən 65 rubl az idi) olmuşdur. Bundan əlavə, pulsuz 128 nəfərə sənəd verilmiş, həmin ticarətçilərdən xəzinənin xeyrinə 1201 rubl 10 qəpik qanuni, 2015 rubl 80 qəpik isə cərimə və qayda pozuntusuna görə vergi alınmışdır[1326].

1914-cü ildə gömrük məntəqələrindən İrəvana 4124613 rubl dəyərində 18054 ədəd müxtəlif növ ticarət malları, 33273 baş iri və xırdabuynuzlu mal-qara, 1084515 pud digər ticarət malları idxal, 15006797 rubl dəyərində isə 164 baş mal-qara, 2706026 pud ticarət malları ixrac olunmuşdur. İdxal olunan mallardan xəzinənin xeyrinə 349153 rubl gömrük haqqı alınmış, idxal nəticəsində hər iki tərəfə 3606 karvan və əməliyyatda 96088 adam, ixracda isə 4058 karvan, 101186 adam iştirak etmişdir[1327].

Əgər 1913-cü illə müqayisə etsək görmək olar ki, 1914-cü ildə İrəvan quberniyasına 41% az mal idxal olunmuş, ixrac isə əksinə 12,8 % çoxalmışdır. Ticarət dövriyyəsinin belə azalması I Dünya müharibəsinin başlaması və hərbi əməliyyatların qızışması idi.

İrəvan quberniyasında qanuni idxaldan əlavə qacaqçılıq yolu ilə gətirilən mallara da rast gəlmək olardı. Bu işlə əsasən sərhəd kəndlərinin əhalisi məşğul olurdu. Qacaq mal əsasən Türkiyədən gəlirdi. Qacaq yolu ilə gətirilən mal-qara, yağ, çay və s. ticarət malları bazarlarda satılırdı[1328].

Beləliklə, İrəvan quberniyasının iqtisadi həyatında ticarət böyük rol oynamış, burada həm daxili, həm də xarici ticarət inkişaf etmişdir. Daxili ticarətdə daxili bazarlar əsas rol oynamış, bazarlarda müxtəlif mallarla ticarət edən ticarətçilər cəmləşmişdir. Həmin adamlar ticarətlə məşğul olmaq üçün mütləq sənəd almalı və əvəzində xəzinəyə vergi ödəməli idilər. Xarici ticarətdə isə Qacar, Türkiyə və Avropanın bəzi dövlətləri ilə aparılan ticarət əsas rol oynamış, xarici ticarət ildən-ilə daha da

---

[1326] Обзор Эриванский губернии за 1914, с.18.
[1327] Yenə orada, s.20-21.
[1328] Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1896, с.97-98.

inkişaf etmişdi. İrəvan quberniyasının ixracatında əsasən pambıq, meyvə, düyü və digər ticarət malları əsas yeri tutmuşdu.

**Çəki və uzunluq vahidləri**. İrəvan quberniyasının kənd təsərrüfatında, ticarət əməliyyatlarında müxtəlif çəki, uzunluq ölçü vahidlərindən və puldan istifadə edilmişdir. Qeyd etmək lazımdır ki, işğaldan sonra uzun illər yerli əhali qədimdən istifadə etdikləri müxtəlif çəki və uzunluq ölçü vahidlərini qoruyub saxlaya bilmişdi. Lakin Rusiya işğalından sonra aparılmış müxtəlif islahatlardan sonra Azərbaycan iqtisadiyyatı Ümumrusiya iqtisadiyyatına qovuşmuş, istər-istəməz hakim təbəqənin, çəki və uzunluq ölçü vahidlərindən istifadə edilməyə başlamış, XIX yüzilliyin ikinci yarısından bu vahidlər tamamilə əsas vahidlər olmuşdur. Eyni zamanda Azərbaycanın, o cümlədən onun tərkib hissəsi olan İrəvan quberniyasının iqtisadi həyatına Avropa çəki və uzunluq vahidləri də daxil olmağa başladı. XIX yüzilliyin 60-70-ci illərində İrəvan quberniyasında istifadə edilən uzunluq və çəki vahidləri belə olmuşdur: **Uzunluq ölçü vahidləri**: 1. xan arşını və yaxud rus arşını=1 xan arşını=96,6 sm., yaxud 22 verşok (1 verşok-4,4 sm); **məsafə uzunluq ölçüsü** ağaç = 7 km və yaxud 7 verst, 300 sajen; aləbi=1 arşın; qaz 10 verşok=44 sm; 1 mil=2 km və yaxud 5 verst 8 sajen; çərək=5 verst=5,25 km; 2. **Çəki vahidləri (tərəzi)**-Noxud=3 dolya (1 dolya 4,4 milliqram)=13,2 milliqram; miskal=4,6 qram, yaxud 24 noxud və 88 dolya; Girvənkə=82 misqal=404,8 qram, yaxud 1,968 noxud; stil=800 qram və yaxud 52 misqal, 1,248 noxud; Batman=İrəvanda 4 kq. 500 qram, yaxud 22 stil; Xarvar=450 kq. yaxud 25 batman; pud=16 kq.; tilani=1,5 batman; Kantar=45 batman; Dəngə=22 dolya; 3. **Maye ölçüsü**-tunqa=8 funt=307,2 qram; 1 funt= 3 lot (1 lot=12,8 qram)=38,4 qram; batman=20 funt və yaxud 4,5 kq; pud= 16 kq; 4. **Məhsul səpilən sahənin ölçüsü-** Xarvar=1,5 desyatin yaxud 32-36 funt; Taçkir= 10 batman dənli bitkinin əkildiyi sahə; tunqa= 8 funt; 5. **Yer səthinin ölçü vahidi-**Somar=7,02 kvadrat sajen (somar Dərələyəz və Ordubad mahallarında istifadə edilir və 10, 12 və 18 funt ölçüyə

bərabərdir); tanab= 228, 31 kv. sajen[1329].

Lakin çar Rusiyası istər mərkəzi, istərsə də ucqar quberniyalarda çəki və ölçü vahidlərində sabitlik yaratmaq üçün 1899-cu il iyunun 4-də "Çəki və ölçülərin vəziyyəti haqqında ən yüksək təsdiq edilmiş tənzimləmə" qanununu vermişdi[1330]. Bu qanun 1900-cü il yanvarın 1-dən tətbiq edilmişdi. 4 paraqrafdan və 51 maddədən ibarət olan qanunda əsas ölçü və çəki vahidləri göstərilmişdir. Qanuna görə, birinci paraqrafın I və III maddəsinə əsas rus çəki vahidi kimi funt, uzunluq ölçü vahidi isə arşın qəbul edilmişdir. Qəbul edilmiş çəki vahidi funt 1835-ci il platin nümunəsinə uyğunlaşdırılmış, 1747-ci ilin bürünc zərli sikkə funtundan hazırlanmış, funt isə 0,40951241 kiloqrama bərabər qəbul edilmişdir. Rus funtu 96 zolotnik və ya 32 lota, zolotnik 96 doleyə, 40 funt isə 1 puda bərabər olmuşdur. Uzunluq vahidi kimi təsdiq edilən rus arşını 27 ingilis dyümünə və yaxud 0,711200 metrə bərabər qəbul edilmişdir. Rus arşını başqa cür 16 verşok yaxud 28 düym, 3 arşın 1 verşoka bərabər götürülmüşdür [1331].

Bu ölçü vahidlərindən əlavə, digər çəki və uzunluq ölçü vahidləri də qəbul edilmişdir. Bunları bir neçə qrupa bölmək olar:

**1. Çəki vahidləri (kütləvi)**

Pud=10 funt=16 kq; funt=32 lot və yaxud 90 zolotnik; lot=3 zolotnik=12,8 qram; zolotnik=96 dolya=4,6 qram; dolya=0,00010850694 funt=44 milliqram;

**2. Uzunluq ölçüsü**

Verst=500 sajen=1,06 km; Sajen=3 arşın və yaxud 7 fut=2,134 metr; Arşın=16 verşok və yaxud 28 düym; Verşok=1,75 düym=4,4 sm; Funt=12 düym; Düym=10 xətt=23

---

[1329] Кавказский календарь на 1868, с.230-244; Сборник сведений о Кавказе, 1872, т.II, с.238-239.

[1330] Польное собрание законов Российской имприи, собрание третие, т.19, 1899, отдел 1, СПб, 1902, №17056, с.620-628.

[1331] Yenə orada, с.622; Кавказский календарь на 1915, отдель справочный, с.128.

millimetr; Xətt=10 nöqtə=2,5 millimetr; Xətt= $^{1}/_{1200}$ və yaxud 0,000833333 fut;

3. **Sahə ölçüsü yaxud kvadrat şəkilli**

Kvadrat verst=250000 kvadrat sajen; Desyatin=2400 kvadrat sajen=1,092 hektar; Kvadrat arşın=256 kvadrat verşok və yaxud 784 kvadrat düym; Kvadrat fut=144 kvadrat düym; Kvadrat düym=100 kvadrat xətt;

4. **Cisim ölçüsü yaxud kub ölçüsü**

Kub sajen=27 kub arşın və yaxud 343 kub fut; Kub arşın=4096 kub verşok və yaxud 21952 kub düym; Kub fut=1728 kub düym; Kub düym=1000 kub xətt;

5. **Dənəli maddələrin həcminin ölçüsü**

Çetvert=2 osmina və yaxud 8 dördlük; Osmina=4 dördlüyə=105 litr; Dördlük=8 qarneç=26,24 litr; Qarneç= $^{1}/_{8}$ yaxud 0,125 çetvrikə=3,28 litr;

**6. Maye həcmi ölçüləri**

Vedrə=10 ştof=100 qədəh; Ştof və yaxud parç=10 qədəh yaxud piyalə; Çaxır butılkası= $^{1}/_{16}$ vedrə; Araq və yaxud piyvə butılkası= $^{1}/_{20}$ vedrə yaxud 5 piyalə; Piyalə= $^{1}/_{100}$ vedrə yaxud 5 şkalik (çiraq)=0,025 vedrə; Şkalik (çiraq)= $^{1}/_{200}$ yaxud 0,005 vedrə[1332]

Qeyd etmək lzaımdır ki, Azərbaycanda, o cümlədən İrəvan quberniyasında 1900-cü il yanvarın 1-də çar Rusiyasının ölçü və çəki vahidləri ilə bərabər, razılaşmaya əsasən beynəlxalq çəki və ölçü vahidləri (Fransada, Almaniyada, Avstriya-Macarıstanda, Belçikada, Hollandiyada, İtaliyada, İspaniyada, Portuqaliyada, Rumıniyada, İsveçdə, Norveçdə, Yunanstanda və Cənubi Afrika respublikalarında qəbul edilmiş) də qəbul edilmişdi. Burada əsas ölçü və çəki vahidi metr və kiloqram idi. Həmin beynəlxalq çəki və ölçü vahidləri bunlardır:

**1. Çəki vahidləri (kütləvi)**

1 ton=1000 kiloqram; 1 sentner=100 kiloqram;

[1332] Польное собрание законов Российской имприи, собрание третие, т.19, 1899, отдел 1, СПб, 1902, №17056, с.620-628; Кавказский kалендарь на 1915 г, отдель справочный, с.128.

kiloqram=1000 qram;

**2. Uzunluq ölçüsü**

Kilometr=1000 metr; Metr=10 destimetr; Destimetr=10 santimetr; Millimetr=1000 mikron (metrin milyonda bir hissəsi);

**3. Sahə ölçüsü yaxud kvadrat şəkilli**

Kvadrat kilometr=1000000 kvadrat metr yaxud 100 hektar; Hektar=10000 kvadrat metr yaxud 100 aram; Ar=100 kvadrat metr; Kvadrat metr=10000 kvadrat santimetr; Kvadrat santimetr=100 kvadrat millimetr; Kvadrat millimetr=0,000001 kvadrat metr;

**4. Cisim ölçüsü və yaxud kub ölçüsü**

Kub metr=1000000 kub santimetr; Kub santimetr=1000 kub millimetr; Kub millimetr=0,000000,1 kub metr;

**5. Dənəli maddələrin və maye həcminin ölçüsü**

Burada əsas ölçü vahidi litr olmuşdur. 1 litr=0,08 vedrə[1333].

Beləliklə, XIX yüzilliyin ikinci yarısı-XX yüzilliyin əvvəllərində İrəvan quberniyasında iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafı ilə əlaqədar olaraq istər kənd təsərrüfatında, istərsə də digər sənaye sahələrində kapitalist münasibətləri inkişaf etmiş, onun ticarət malları istər Ümumrusiya bazarlarına, istərsə də Avropa bazarlarına ixrac edilmişdir. İrəvan quberniyasının iqtisadiyyatında, ticarət əməliyyatlarında çar Rusiyasının və Avropa ölkələrində qəbul edilmiş müxtəif cəki və ölçü vahidlərindən istifadə edilmişdir.

---

[1333] Кавказский календарь на 1915 г, отдель справочный, с.128-133.

# VI FƏSİL

# İRƏVAN QUBERNİYASINDA MÜLKƏDAR-KƏNDLİ, AYRI-AYRI KƏNDLƏR ARASINDA TORPAQ, SU VƏ VERGİ ALMAQ UĞRUNDA MÜBARİZƏ *(XIX YÜZİLLİYİN İKİNCİ YARISI-XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ)*

## 6.1. XIX yüzilliyin 50-60-cı illərində kəndlilərin mülkədarlara qarşı mübarizəsi

Rusiya işğaldan sonra Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan İrəvan quberniyasında torpaq və su uğrunda bəylərlə kəndlilər, ayrı-ayrı kəndlər arasında mübahisələr, narazılıqlar geniş vüsət almışdı. Bu mübahisələr və narazılıqlar o həddə çatmışdı ki, onların həll olunmasına yerli quberniya hakimiyyət orqanları, hətta Qafqaz Canişinliyi qarışmalı olmuşdu. Lakin bu məsələlər istər 1870-ci il mayın 14-də həyata keçirilən islahata qədər, istərsə də islahatdan sonra həll olunmamış qalmışdı. Arxiv materiallarında torpaq, su üstündə mülkədarlarla kəndlilər, ayrı-ayrı kəndlər arasında saysız-hesabsız torpaq mübarizələri, mülkədar və bəylərin özbaşınalığı haqqında çoxlu sayda şikayətlərə və açıq çıxışlara rast gəlmək mümkündür.

Qeyd emək lazımdır ki, XIX yüzilliyin ortalarından başlayaraq torpaq mübahisələri İrəvan quberniyasının bütün qəzalarında qeydə alınmışdı. Məsələn, 1850-ci il martın 21-də Zəngibasar dairəsinin Şorlu-Mehmandar kəndinin xəzinə kəndliləri İrəvan qubernatoruna yazdıqları məktubda Süleyman xanın onlara məxsus iki axça torpaq sahəsinin zəbt edilməsindən şikayət edərək, həmin torpaqların geri qaytarılmasını xahiş etmişdilər[1334].

---

[1334] Крестьянское движение в Армении в XIX веке, Ереван, 1948, с.77.

1857-ci il oktyabrın 10-da İrəvan qubernatoruna edilən məruzədə Naxçıvan qəzasının Dərələyəz dairəsinin 5 kəndinin-Həmzəli-Diza, Arpa, Aşağı və Yuxarı Danzik və Çiva kəndlərinin kəndliləri Naxçıvan qəza rəisinə göndərdikləri şikayət ərizəsində onların yaşayışı üçün əsas mənbə olan torpaqların yerli bəylər tərəfindən qeyri-qanuni zəbt edilərək əkildiyini bildirmişdilər. Onlar yazırdılar ki, "kənd mülkədarları özbaşınalıq edərək böyük həcmdə torpaq sahələri əkdiklərindən, kəndlilərin yeganə yaşamaq, xəzinəyə vergi ödəmək və mükəlləfiyyət yerinə yetirməyin mənbəyi olan torpaq azlığından əziyyət çəkirlər". Kəndlilər bu hadisədən əziyyət çəkmələrinə və şikayətlərinə baxmayaraq, qubernator bəylərin hüquqlarını qorumağı üstün tutmuşdu. Belə ki, bu məktub əsasında çıxarılan qərarda bildirilmişdi ki, hökumətin çıxardığı qanuna əsasən bəylərin hüquqlarına toxunmaq olmaz, yalnız diqqət etmək lazımdır ki, bəylər öz torpaqlarını kəndlilərin hesabına genişləndirməsinlər[1335].

Belə şikayətlər hər kənddə qeydə alınmışdı. Narazılıqların, şikayətlərin çoxluğu hökuməti narahat etməyə bilməzdı. Vəziyyətlə tanış olmaq üçün yerlərə səlahiyyətli nümayəndələr ezam olunmağa başladı. Nəticədə, Zaqafqaziya diyarının Baş İdarə şurasının üzvü Kotsebu İrəvana göndərilmişdi. O, İrəvan quberniyasında olarkən yerli əhali ilə birbaşa görüşmüş, söhbətlər aparmış və ona torpaqsızlıqdan, sussuzluqdan və mülkədarlar tərəfindən sıxışdırılmaları haqqında xeyli şikayət ərizələri vermişdilər[1336].

Lakin buna baxmayaraq, kəndlilərin mülkədarlar tərəfindən sıxışdırılmaları davam etmişdi. Hətta haqsızlığa dözməyən bəzi ailələr yer-yurdlarını tərk edərək qonşu məntəqələrə, kəndlərə köçmək məcburiyyətində qalmışdılar. Naxçıvan məntəqəsinin Aznaburd kəndinin sakinləri buranı təftiş edən Naxçıvan qəzasının məmuruna verdikləri ərizədə mülkədar Kiçik xanın onların torpaq və bulaqlarını zəbt etməsi barədə şikayət etmişdilər. Kəndlilər yazırdılar: "O, bizim torpağımızı və iki bulağımızı zəbt

---

[1335] Крестьянское движение в Армении в XIX веке, Ереван, 1948, с.78-81.
[1336] Yenə orada, s.110.

etsə də, bununla kifayətlənməyərək zorla digər qalan 3 bulaqdan səkkiz gündən bir suvarma üçün su götürürdü. Nəticədə sıxışdırılan beş ailə Dərələyəz məntəqəsinə köçmüşdülər"[1337]. Kiçik xan özünün hərəkəti ilə əhalini yoxsul vəziyyətə salmışdı. Kənd əhalisi vergi haqqını ödəmək üçün başqa yerlərdə iş axtarmaq məcburiyyətində qalmalı olmuşdular[1338].

Bir-biri ilə qonşu olan kəndlər arasında da torpaq üstündə mübahisələr olurdu. Hətta bu mübahisə böyüyərək polislərə qarşı çıxışla nəticələnmişdi. Məsələn, İrəvan qəza rəisinin 1861-ci il sentyabrın 4-də qubernatora ünvanladığı məlumatda xəzinə-mülkədar kəndi olan Örtülu-Təzəkənd kənd sakinləri iyunun 9-da yazdıqları ərizədə qonşu Kuşi-Dəmirçi kəndinin sakinlərinin qəza rəisinin sabiq köməkçisi Çıqankov tərəfindən hər iki kənd arasında mərzlənən torpaqları zəbt etdiklərini bildirmişdilər. Bu məsələni həll etmək üçün qəza rəisi yeni köməkçisi Deyqarxanovu polis dəstəsilə oraya göndərmişdi. Lakin Kuşi-Dəmirçi sakinləri başda Seyid Abdulla Məmməd oğlu, Məşədi İsmayıl Mustafa oğlu, Qəmbər Məmmədqulu oğlu və Məhəmmədbağırın başçılığı ilə 100 nəfər dəyənəklə silahlanaraq Deyqaraxanovun dəstəsinə hücum etmişdilər. Hücuma məruz qalan polislər mübahisə yerindən qaçmış, Deyqaraxanov girov götürülmüş, polislərdən Cəlil bəy Sofiyev və Maxta kəndinin kəndxudası zədələnmişdi. Bu hadisədən bərk qorxan, belə hadisələrin başqa kəndlərə keçməsinin qarşısını almaq üçün qəza rəisinin göstərişi ilə yuxarıda adı çəkilən dörd nəfər həbs edilmişdi[1339].

Mülkədarlarla xəzinə kəndliləri arasında mübahisələr quberniyanın müxtəlif kəndlərində olmuşdu. 1862-ci il yanvarın 31-də İrəvan qubernatoru yerölçənlərə Başnalı kəndinin mülkədarı Kələntərovla Çinəxanlı kənd sakinləri arasında mübahisəyə səbəb olan torpaq sahəsini ləğv etmək göstərişi vermişdi[1340].

---

[1337] Агаян Ц.П., Крестьянская реформа в Азербайджане в 1870 году, Баку, Изд-во Акад.Наук Азерб. ССР, 1956, с.115.

[1338] Yenə orada, s.116.

[1339] Крестьянское движение в Армении в XIX веке, Ереван, 1948, с.111.

[1340] Крестьянское движение в Армении в XIX веке, с.77, с.112.

Lakin Başnalı kənd sakinlərinin şikayəti bununla qurtarmırdı. Belə ki, İrəvan qəza rəisinin quberniya yerölçənlərinə 1865-ci il aprelin 14-də ünvanladığı məktubda torpaqlarının mülkədarlar tərəfindən qeyri-qanuni zəbt edilməsi haqqında Başnalı kənd sakinlərinin şikayətlərini çatdırmışdı[1341].

Dərələyəz məntəqəsinin Arpa kəndinin sakinlərinin öz mülkədarları Həsənəli Sultana qarşı mübarizəsi daha geniş və kəskin xarakter almışdı. Kəndlilərin şikayətindən belə bəlli olur ki, Həsənəli Sultan kənd sakinlərinə məxsus olan otlaqların bir hissəsini kənar şəxslərə icarə vermiş, digər hissəsini isə onlardan zorla alaraq özü əkmişdi. Nəticədə sakinlər yaşamaq üçün yeganə vasitə olan torpaqdan məhrum olmuşdular. Bundan əlavə, qonşu kəndin adamları qeyri-qanuni olaraq onların torpaqlarının bir hissəsini zəbt etmişdilər[1342]. Nəticədə qubernatorun verdiyi sərəncama görə, qəza rəisi bu şikayətə baxmalı, əgər kəndlilər haqlı olarsa onların tələbləri yerinə yetirilməli idi. Bu məsələnin həll edilməsi Naxçıvan qəza rəisinə tapşırılmışdı. O, isə kənd sakinlərinin şikayətini araşdırmaq üçün Dərələyəz məntəqəsinin rəisinə göstəriş vermişdi. Dərələyəz rəisi Xanaqovun Naxçıvan qəza rəisinə 1862-ci il noyabrın 6-da ünvanladığı məlumatda göstərilirdi ki, həqiqətən də, Həsənəli Sultan əkin üçün 8 xalvar yerə sahib idi. Rəisin xahişindən sonra o, 2 xalvar əkin sahəsini və bir qoyun ağılını kəndlilərə güzəştə getmişdi. Lakin kəndlilər bununla razılaşmamışdılar. Bu hadisədən sonra Naxçıvan qəza rəisinin qubernatora yazdığı məktubda Arpa kənd sakinlərinin şikayətinin əsassız olması bildirilmişdi[1343].

Lakin Arpa kənd sakinləri şikayətlərini davam etdirmişdilər. 1864-cü il martın 21-də Arpa kənd sakinlərindən 20 nəfərin imzası ilə İrəvan qubernatoruna yazılan şikayət məktubunda öz narazılıqlarını daha ətraflı bildirmişdilər. Məktubun məzmunundan belə məlum olur ki, Arpa kəndi 30 evdən ibarət olmuş və

[1341] Крестьянское движение в Армении в XIX веке, с.77, с.112.
[1342] Yenə orada, s.113.
[1343] Yenə orada, s.113-114.

kənd ümumilikdə 50 xalvar torpağa malik idi. Bunlardan 30 xalvar əkinə yararlı, 20 xalvar isə keyfiyyətsiz torpaqlar olmuşdu. Mülkədar Həsənəli Sultan 30 xalvardan ən keyfiyyətli 8 xalvar ələ keçirmiş, 22 xalvar isə 30 ailə arasında bölünmüşdü. Digər tərəfdən onların yazdığına görə, Həsənəli Sultan onlara məxsus iki qoyun ağılını ələ keçirmişdi. Kəndlilər bildirirdilər ki, onlar bu az torpaqla nəinki ailələrini saxlamalı, eyni zamanda illik vergi ödəməli idilər. Onları narahat edən məsələlərdən biri də, 25 vert aralıda olan qonşu Yaycı kəndində yaşayan Həsənəli Sultanın evinə məhsulun $^{4}/_{30}$ hissəsini təşkil edən bəhrə vergisi olan buğda, arpa, ot, saman və digər məhsullar daşımağa məcbur olmaları idi. Yollar yararsız olduğuna görə bu məhsulların daşınması kəndlilərə baha başa gəlirdi. Kəndlilərin tələbi ondan ibarət idi ki, Həsənəli Sultanın zəbt etdiyi 8 xalvar və 2 qoyun ağılı ondan alınıb sakinlərin istifadəsinə verilsin, digər tərəfdən bəhrə vergisi onların hesabına Yaycı kəndinə daşınmasın[1344].

Bütün bu şikayətlərə baxmayaraq Arpa kənd sakinlərinin narazılıqları qəbul olunmamışdı. 1864-cü il noyabrın 18-də Dərələyəz məntəqə rəisinin Naxçıvan qəza rəisinə yazdığı məktubun və İrəvan qubernatorunun Naxçıvan qəza rəisinə göndərdiyi bildirişin məzmunundan görünür ki, Arpa kənd sakinlərinin şikayətlərinin əsassız olduğu bildirilmişdi[1345].

Yenibəyazid qəzasının kəndlilərinin mülkədarlara qarşı mübarizəsi də kəskin xarakter almışdı. Qəzanın Qızılbulaq yaxud Çaxırlı kənd sakinləri İrəvan qubernatoruna 1862-ci il aprelin 24-də yazdıqları şikayət ərizəsində göstərirdilər ki, onların kəndi xəzinə kəndi olmasına baxmayaraq, kəndin mülkədarı praporşik Mustafa ağa onlardan vergi verməyi və mükəlləfiyyət yerinə yetirmələrini, hər il üç kişi və bir qadın olmaqla qulluqçu tələb edirdi. Qəza rəisinin göstərişi ilə kəndlilər hər il torpağın şumlanmasında Mustafa ağaya 6 kotan verməli idilər. Lakin Mustafa ağa mülkədar hüququndan sui-istifadə edərək yeni-yeni

---

[1344] Крестьянское движение в Армении в XIX веке, с.115-116.
[1345] Yenə orada, s.117-118.

tələblər irəli sürməklə kəndliləri təngə gətirmişdi. Bundan əlavə, kəndlilər xəzinəyə də vergi ödəməli idilər. Yeni vergi sisteminə görə hər bir kənd sakini ildə xəzinəyə 7 rubl 30 qəpik vergi ödəməli idilər. Lakin kəndlilər canişin knyaz Vorontsovun göstərşi ilə xəzinəyə 11 rubl vergi ödəyirdilər[1346].

Yuxarıda göstərilmiş XIX yüzilliyin 60-cı illərinin əvvəllərində Qızılbulaq kənd sakinləri ilə sahibkar Mustafa ağa arasında vergi almaq üstündə mübahisə illərlə davam etmişdi. Belə ki, Mustafa ağa vəfat etdikdən sonra onun yerini oğlu Şıxəli ağa tutmuş və bu dəfə mübarizə onunla davam etmişdir. Mübarizə o qədər şiddətlənmişdi ki, kəndlilər Qafqaz canişininə şikayət etmək məcburiyyətində qalmışdılar. Məsələdən xəbər tutan Qafqaz canişininin Baş İdarə rəisi 1862-ci il sentyabrın 30-da İrəvan qubernatoruna yazdığı bildirişdə göstərirdi ki, Mustafa ağanın yerini tutan oğlu Şıxəli ağa daha irəli gedərək kəndlilərdən əlavə gəlirlər tələb etmiş, hətta barışıq münsifinin vasitəsilə onlardan əlavə 140 rubl vergi almışdır. Kəndlilər Şıxəli ağanın bu qanunsuz hərəkətlərindən onları xilas etmələrini tələb edir, əks halda boş torpaqları zəbt edəcəkləri ilə hədələyirdilər. Lakin hökumət bu dəfə də kəndlilərə güzəşdə getmədi. Bildirişdə göstərilirdi ki, kəndlilər öz ağalarına vergi verməyə borcludurlar[1347]. Beləliklə, bu qarşıdurmada Sıxəli ağanın xeyrinə qərar çıxarılmışdır.

Qızılbulaq kəndlilərinin şikayətinə baxmayaraq, onların şikayəti qəbul olunmamışdı. 1863-cü il iyunun 5-də Qafqaz canişininin İrəvan qubernatoruna ünvanladığı bildirişdə Sıxəli ağanın hüquqları bərpa edilmişdi. Burada aydın göstərilmişdi ki, kənd həm xəzinə, həm də mülkədar kəndi olduğuna görə yeni vergi qanununa baxmayaraq, verginin miqdarı hər ev üçün 11 rubl saxlanılır, digər tərəfdən hər 15 ev mülkədara bir qulluqçu verməyə borcludurlur[1348]. Beləliklə, Qızılbulaq kənd sakinlərinin şikayəti əsassız hesab olunmuşdu.

---

[1346] Крестьянское движение в Армении в XIX веке, с.118-119.
[1347] Yenə orada, s.120-121.
[1348] Крестьянское движение в Армении в XIX веке, с. 119.

Bəzi hallarda kəndlilərlə ağalar, mülkədarlar arasında narazılıq o dərəcəyə çatmışdı ki, kəndlilər mükəlləfiyyətlərin yerinə yetirilməsindən boyun qaçırırdılar. Sahibkarların hakimiyyət orqanlarına ünvanladıqları şikayət məktublarından bunu görmək mümkündür. İrəvan şəhərində yaşayan bu ağalar kənd sakinlərinin onların yaşadığı yerə ot, yonca və saman daşımamalarından narahat idilər. Məsələn, 1863-cü il sentyabrın 15-də və 1864-cü il oktyabrın 29-da Üçmüəzzin qəza rəisinin İrəvan qubernatoruna yazdığı rəsmi məktublarında göstərilirdi ki, İrəvan şəhər sakini Şükür ağa mülkədar mülkü olan Tos kənd sakinlərinin ona çataçaq ot, yonca və samanın kəndlilər tərəfindən lazımi yerə daşınmamasından şikayət etmişdi. Kəndlilərin bu mükəlləfiyyətin yerinə yetirilməməsinin səbəbi kimi, 1860-cı il mayın 16-da sabiq hərbi qubernator Kolyubakinin fərmanına əsasən, kəndlilərin yalnız 25 verstə qədər məsafəyə dənli bitkiləri daşıya bilmələri göstərilirdi. Burada ot və ələfdən söhbət getmirdi. Məktublarda qəza rəisi Şükür ağanın tələbinin yerinə yetirilməsi məsələsini qubernatordan xahiş etmişdi[1349].

İrəvan quberniyasının əksər kəndlərində mülkədarlar vəzifələrindən sui-istifadə edərək kəndli torpaqlarını zorla mənimsəyirdilər. Üçmüəzzin qəzasının Ağcaarx kənd sakinlərinin şikayəti də belə mülkədarlardan idi. Ağcaarx kənd sakinləri İrəvan quberniyasını təftiş edən gizli müşavir general Xaritonova 1863-cü il oktyabrın 24-də 30 ailənin imzası ilə yazdıqları şikayət ərizəsində göstərirdilər ki, onların kəndi mülkədar kəndidir. Kəndə məxsus olan torpaqların 3,5 axçası İrəvan şəhər sakinləri olan Hacı Əli, Hacı Qurban və Ağa qardaşlarına, digər hissəsi Cavad, Əsəd qardaşlarına və 2,5 axça isə Cəlil xana, onun ölümündən sonra isə oğlu Paşa xana məxsus olmuşdur. Paşa xan vəziyyətdən istifadə edərək kəndlilərin torpaqlarını mənimsəyərək 25 xalvara çatdırmışdı. Halbuki, qanunla onun torpaqlarının sahəsi 12 xalvardan yüksək olmamalı idi. Bundan əlavə, Paşa xan hər il torpaqların şumlanması və məhsulun yığılması üçün

---

[1349] Yenə orada, s.121-123.

kəndlilərdən işçilər tələb edirdi. Şikayət məktubunda kəndlilər generala bildirirdilər ki, kənd mülkədarları ümumilikdə 50 xalvar torpaq sahəsi əkmişdilər. Lakin 37 kənd sakininin torpağa ehtiyacı vardır. Onlar xahiş edirdilər ki, qanuna əsasən mülkədarlar yalnız 12 xalvar torpağa sahib olmalı idi, qalan hissələr isə kəndlilərə qaytarılmalıdır. Paşa xanın onları sıxışdırmasından təngə gələn kəndlilər xəzinə kəndi olan Saatlı kəndinə köçürülmələrini xahiş edirdilər[1350].

Mülkədarların təqiblərindən və sıxışdırmalarından təngə gələn əksər kəndlilər xəzinə torpaqlarına köçməyi üstün tutur və bəzi hallarda buna nail olurdular. 1864-cü il martın 29-da Dərələyəz dairəsinin Ağkənd kəndinin 17 ailəsinin şikayət məktubunda mülkədar Cəlil xanın kəndlilərin torpaqlarını əllərindən almasından şikayət edərək, İrəvan qubernatorundan Yenibəyazid qəzasına məxsus olan Xartluq kəndinə köçmələrinə icazə verməsini xahiş etmişdilər. Nəticədə, 1865-ci il sentyabrın 6-da İrəvan qubernatorunun Naxçıvan qəza rəisinə yazdığı məktubda 17 ailənin Xartluq kəndinə köçmələrinə icazə verilmişdi[1351].

1866-cı ilin mayında İrəvan qubernatoru quberniyanın ayrı-ayrı qəzalarında yerləşən 5 kəndin sakinlərinin mülkədarlar tərəfindən sıxışdırılmaları barəsində olan ərizələr haqqında qərar çıxarmışdı. Qərardan görünür ki, İrəvan qəzasında Reyhanlı, Arxalıq-Kəlbəli xan kəndlərinin sakinləri, aşağı və yuxarı Neçli kəndinin 136 sakini, Naxçıvan qəzasında Xəlilli kəndinin kəndliləri, Üçmüəzzin qəzasında isə Səfiabad kəndinin 10 sakini mülkədarlar tərəfindən sıxışdırıldıqlarını, torpağın və suyun çatışmamasından şikayət edirdilər. Şikayətin miqyasından ehtiyat edən İrəvan qubernatoru general-mayor Astafyev kəndlilərin şikayətlərinə baxmış, mülkədarların hüquqlarını məhdudlaşdıran qərar çıxarmışdır. Qərara görə, mülkədar torpağında məskunlaşmış kəndlilər qanunla nəzərdə tutulmuş məhsulun müəyyən hissəsini mülkədara vergi verməli, həmin vergi yalnız 25 verstə

[1350] Крестьянское движение в Армении в XIX веке, с.123-126.
[1351] Yenə orada, s.126-128.

qədər olan məsafəyə daşınmalı, mülkədar kəndində sakin olan kəndlilərə 6 axça (yəni 6 torpaq sahəsi) torpaq bölünməli, hər axçadan məhsul artıq qalarsa mülkədarın xeyrinə 2 xalvar (hər biri 30 pud) vergi ayırmalı, digər tərəfdən sakinlər öz torpaqlarında azad olmalı, mülkədara tabe olmamalı və sahibkarın onlar üzərində polis nəzarəti olmamalı idi[1352].

İrəvan qəzasında Novruzlu kənd sakinləri bir neçə dəfə qubernatora şikayət etmələrinə baxmayaraq, onların şikayətinə heç bir cavab verilmədiyinə görə birbaşa Qafqaz canişininə şikayət məktubu ünvanlamışdılar. Kənd sakinlərinin yazdıqlarına görə, Novruzlu kəndi xəzinəyə məxsus olmasına baxmayaraq, İrəvan şəhər sakini mülkədar Rzaqulu bəy Kərim bəy oğlu tərəfindən onların torpaqları əllərindən alınmışdır[1353].

İrəvan qəzasının digər bir kəndi olan Çikdamlı kənd sakinləri 1866-cı il mayın 2-də Qafqaz canişininə ünvanladıqları məktubda onlara məxsus torpaqların mülkədarlar tərəfindən zəbt olunduğunu bildirmiş, həmin torpaqların geri alınmasını xahiş etmişdilər. Məktubu 22 Azərbaycan türkü, 24 erməni imzalamışdı. Məktubda kənd sakinləri göstərirdilər ki, kəndin mülkədarı İrəvan kənd sakini Ağamalı Yeqizarov yüksək müsəlman silkinə məxsus deyil və o, qeyri-qanuni olaraq onlara məxsus torpaqları zəbt etmişdir. O, qanunla kameral təsvirdə vergi verənlər təbəqəsinə məxsusdur. Yeqizarov sabiq qubernator Kolyubakinə rüşvət verərək Çikdamlı kəndinin sahibi olması haqqında fərman əldə etmişdir[1354].

Şikayət edənlər arasında Yuxarı və Aşağı Neçli kəndinin 136 sakini də vardı. Onlar 1866-cı il mayın 5-də Qafqaz canişininə yazdıqları məktubda göstərirdilər ki, onların mülkədarı Gevorq Yelizarov nəinki onları sıxışdırır, eyni zamanda dinini və inamını təhqir edirdi. Məktubun məzmunundan görünür ki, kəndin mülkədarı əkin sahələrini qeyri-qanuni zəbt etməklə bərabər,

---

[1352] Крестьянское движение в Армении в XIX веке, с.142-143.
[1353] Yenə orada, s.143-144.
[1354] Yenə orada, s.144-145.

onlardan zorla 3 batman təmizlənməmiş xam pambıq alır, pul tələb edirdi. Hətta mülkədarın qulluqçusu Cabbar kəndlilərdən rüşvət almamış onların yığdığı çəltiyin və pambığın miqdarını çəkmirdi. Sakinlər bu biabırçılığın qarşısını almağı canişindən xahiş edirdilər[1355].

İrəvan qəzasının Ağamzalı kəndinin həm Azərbaycan türklərindən, həm də ermənilərdən ibarət sakinləri 1866-cı il mayın 6-da Qafqaz canişininə ünvanladıqları məktubda vəziyyətlərini belə təsvir etmişdilər: 1. Kənd sakinləri at-araba mükəlləfiyyəti yerinə yetirirdilər. Bu mükəllifiyyət onlar üçün çətin olduğundan bu işdən azad olunmalarını xahiş edirdilər; 2. Ağamzalı kəndinə məxsus örüş yerləri az olmasına baxmayaraq, həmin kəndə məxsus poçt stansiyasının atlarını yemləmək üçün onların 8 xalvar örüş yeri zəbt edilmişdi; 3. Xəzinəyə məxsus qonşu Cabaçalı kəndinin sakini Məşədi Məmməd Cəfər Fərzəli oğlu Ağamzalı kəndinə məxsus 10 xalvar əkin sahəsini qeyri-qanuni zəbt etmişdir. Bu işə İrəvan quberniya məhkəməsində baxılmış və Ağamzalı kənd sakinlərinin xeyrinə qərar çıxarılmışdır. Lakin indiyə qədər hökm icra olunmamışdır; 4. Ağamzalı kəndinin dörd mülkədarı kənd sakinlərindən qədərindən artıq məhsul vergisi tələb etməklə bərabər, bu verginin İrəvan şəhərinə daşınmasını tələb etmişdilər. Kənd sakinlərinin şikayətlərinə baxılmış və İrəvan qubernatorunun qəza rəisinə 1867-ci il avqustun 19-da yazdığı məktubda belə qərar çıxarılmışdı: 1. Kənd sakinləri at-araba mükəlləfiyyətindən azad edilsin; 2. Bu bənddə göstərilən vəziyyəti yerinə yetirmək üçün yerli rəisə müraciət edilsin; 3. Mərzlənmə həyata keçirilənə qədər bu məsələ dayandırılsın; 4. Kənd sakinləri məhsulun daşınması mükəlləfiyyətindən azad edilsin[1356].

Yenibəyazid qəzasının Kamal kəndinin sakinləri öz mülkədarlarına qarşı mübarizəsi daha kəskin xarakter almışdı. 1868-ci il fevralın 26-da kənd sakinləri İrəvan qubernatoruna ünvanla-

---

[1355] Крестьянское движение в Армении в XIX веке, с.146-147.
[1356] Yenə orada, с.148-151.

dıqları məktubda mülkədarların daha çox vergi almalarından şikayətlənirdilər. Məktubda göstərilirdi ki, bu kəndi idarə etmək hüququ 1822-ci ildə Hüseynqulu xan tərəfindən Hacı Məhəmmədə vermiş, ondan sonra onun oğlu Molla Hüseyn Qulama çatmışdır. Molla Hüseyn Qulamın ölümündən sonra isə bu kəndin sakinləri onun oğlanları İbrahim bəyə, Abbasqulu bəyə və digər bir oğluna (adı göstərilməmişdir-E.Q.) vergi vermək məcburiyyətində qalmışdı. Əvvəllər kənd sakinləri bəylərə yığılan məhsulun $^{1}/_{40}$ hissəsini vergi verirdilər. Lakin oğulları atasının yerini tutduqdan və bəy komissiyaları onların bəy hüququnu təsdiq etdikdən sonra kəndlilərdən məhsulun $^{4}/_{30}$ hissəsini tələb etməyə başladılar. Belə olduqda kənd sakinləri vergi verməyi dayandırmış və bu haqda hakimiyyət orqanlarına şikayət etmişdilər[1357]. Qəza rəisi bu mübahisədə mülkədarların tərəfində olmuşdu. Onun 1868-ci il fevralın 28-də İrəvan qubernatoruna ünvanladığı məlumatda bildirirdi ki, kənd sakinlərinin narazılığı əsassızdır, mülkədar hüququna görə onların məhsuldan aldığı vergi faizi düzgündür[1358]. Qəza rəisi həmin ilin avqust ayının 14-də qubernatora göndərdiyi digər məlumatında yazırdı ki, Abbasqulu bəyin şikayətinə görə kənd sakinləri vergi verməyi dayandırmışdılar[1359].

Kamal kəndində gərginliyin daha da dərinləşməsinin qarşısını almaq üçün İrəvan qubernatoru bu işə ciddi müdaxilə etmək qərarına gəlmişdi. Onun 1869-cu il mayın 20-də qəza rəisinə ünvanladığı məlumatda belə qərar çıxarmışdı ki, mülkədarların torpaq hüququ müəyyən edilənə qədər kənd sakinləri (kənd 38 evdən ibarət idi) yığılan məhsulun $^{4}/_{30}$ hissəsini verməlidirlər[1360]. Beləliklə, bu hadisədə də hakimiyyət orqanları mülkədarların hüquqlarını müdafiyə etmişdilər.

---

[1357] Крестьянское движение в Армении в XIX веке, с.159-161.
[1358] Yenə orada, s.161-162.
[1359] Yenə orada, s.162.
[1360] Yenə orada, s.162-163.

## 6.2. 1870-ci il mayın 14-də qəbul edilmiş islahatdan sonra İrəvan quberniyasında mülkədar-kəndli qarşıdurması

Çarizm Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan İrəvan quberniyasında torpaq uğrunda, ondan istifadə etmək, vergi məsələsində saysız-hesabsız narazılıqları nəzərə alaraq 1870-ci il mayın 14-də torpaq islahatı keçirmək məcburiyyətində qalmışdı. Bu islahat haqqında yuxarıda bəhs edilmişdir. Lakin keçirilən islahat gözlənilən nəticəni vermədi. Belə ki, torpaq uğrunda mübarizə daha da şiddətləndi. İslahata əsasən hüquqlarının müəyyən edildiyini görən mülkədarlar, bəylər qeyri-qanuni torpaqları zəbt edir, vergilərin faizini artırırdılar. Buna cavab olaraq əvəzində kəndlilər müxtəlif hakimiyyət orqanlarına şikayət edir, müqavimət göstərir və vergi verməkdən imtina edirdilər. Arxiv materiallarında mülkədarların özbaşınalığı, münbit torpaqların onlar tərəfindən qeyri-qanuni zəbt olunması, torpaq çatışmazlığı və s. haqqında xeyli məlumatlara rast gəlmək mümkündür.

1870-ci il yanvarın 9-da Yenibəyazid qəzasının Quşdərəsi kəndinin sakinləri İrəvan qubernatoruna ünvanladıqları məktubda yazırdılar ki, vaxtilə Aleksandropol qəzasının Vartanlı kəndindən 21 ailə 1858-ci ildə Yenibəyazid qəzasının Quşdərəsi kəndinə köçərək burada məskən salmışdılar. Bu kənd yarandıqdan sonra qonşu Zod kəndinin ağaları onların əkin sahələrində Karvansaray dərəsi adlı qoyun ağılı yaratmışdılar. Kənd sakinləri ya həmin torpaqların geri qaytarılmasını, ya da Vartanlı kəndinə qaytarılmalarını xahiş edirdilər. Məktub Azərbaycan türkcəsində yazılmışdır[1361].

Onların bu şikayətini polis rəisi Keqamov araşdıraraq Yenibəyazid qəza rəisinə məlumat vermişdir. Məlumatda bildirirdi ki, Quşdərəsi kəndi ilə Karvansaray dərəsi arasında sərhəd hələ 1959-cu ildə torpaq ölçən Novitski tərəfindən mərzlənmişdi. Mərzlənmə nişanı yerində qaldığından heç bir torpaq zəbtindən

[1361] Крестьянское движение в Армении в XIX веке, с.167.

söhbət gedə bilməzdi[1362]. Beləliklə, Zod ağalarının hüquqları müəyyən edilmişdi.

Kəndlilərin narazılıqları o həddə çatmışdı ki, onlar vergi verməkdən boyun qaçırırdılar. Bəzi mülkədarlar kəndlilərin bu hərəkəti qarşısında aciz qalaraq hakimiyyət orqanlarına şikayət etmək məcburiyyətində qalırdılar. Məsələn, İrəvan qəzasının Buğamlu kəndinin mülkədarı Məhəmməd ağa Abdulla Sultan oğlunun islahat nəticəsində yaradılmış barışdırıcı münsifinə 1871-ci il aprelin 14-də yazdığı məktubunda qeyd edirdi ki, İrəvan qubernatorunun bir neçə dəfə yazılı göstərişinə baxmayaraq, kənd sakinləri keçən ildən qalma 4,5 axçanın vergisini verməkdən imtina etmişdilər. Hətta məktubda mülkədar əsas günahkarların adını da çəkmişdi. Onlar Məşədi Budaq Quyan oğlu, Ələsgər İmiraz oğlu, Kərbalayı Hüseynabbas Əli oğlu və Məhəmmədhəsən Əli oğlu idi[1363].

Onlar arasında mübahisəni həll etmək üçün barışdırıcı münsif hər iki tərəfin şikayətini dinləmək məcburiyyətində qalmışdı. Barışdırıcı münsif 1871-ci il oktyabrın 2-də İrəvan qubernatoruna ünvanladığı məlumatda göstərmişdi ki, 1870-ci il dekabrın 12-də Buqamlu kəndinin mülkədarının şikayətinə əsasən bu hadisəyə müdaxilə edərək hər iki tərəfi dinləmişdir. Sakinlər mülkədar Məhəmməd ağanın onların kəndində yalnız 2,5 axça mülkə sahib olduğunu bildirərək, onun tələbinin çox olduğunu vurğulamışdılar. Nəticədə barışdırıcı münsif mülkədarın xeyrinə belə qərar çıxarmışdı: Kənd sakinləri 4,5 axçanın vergisini verməli; bu vergini pula çevirəndə 600 rubl, cəriməsi isə 100 rubl edirdi. Nəticədə çıxarılan qərara əsasən kənd sakinləri mülkədara 700 rubl məbləğində vergi ödəməli idilər[1364].

Lakin bu qərardan sonra da kənd sakinləri vergi verməkdən imtina etmişdilər. Məhəmməd ağa 1871-ci il noyabrın 11-də yazdığı ikinci şikayət ərizəsində çıxarılan qərara baxmayaraq

---

[1362] Крестьянское движение в Армении в XIX веке, с.168.
[1363] Yenə orada.
[1364] Yenə orada, s.169.

kənd sakinlərinin vergi verməkdən imtina etdiklərini, artıq ona dəyən ziyanın 1100 rubla çatdığını bildirmişdi[1365].

Bəzi hallarda hakimiyyət orqanları vəzifəsindən sui-istifadə edərək əhali arasında bilə-bilə narazılıqlar yaradırdılar. Qubernatorun haqsız qərarları kəndliləri çıxılmaz vəziyyətə salırdı. Nəticədə şikayətlərə jandarm idarəsi qarışmalı olurdu. İrəvan quberniyasına məxsus qəzaların ayrı-ayrı kənd sakinləri İrəvan jandarm idarəsinin III bölməsinin rəisi kapitan Zolotovskiyə müxtəlif şikayətlərlə müraciət edirdilər. Zolotovskinin 1871-ci il noyabrın 25-də yazdığı məlumatından bəlli olur ki, Şorlu-Dəmirçi kəndinin sakinlərinin həmin ilin aprelin 24-də ona ünvanlanan şikayətlərində göstərirdilər ki, İrəvan qubernatoru kənd sakinlərinin əkib-becərdiyi münbit Nəsirabad torpaq sahəsini mülkədar Yelizarova vermək istəyirdi. Kənd sakinləri qubernatorun qəbulunda olmuş, onlara bu torpağın əvəzində 500 desyatin digər torpaq sahəsi təklif olunmuşdu. Lakin təklif olunmuş torpaq sahəsi daşlı, suvarma üçün yararsız olduğundan kəndlilər bu təkliflə razılaşmamışdılar. Onlar bildirmişdilər ki, Yelizarova təklif olunan torpaq sahəsini əkirlər, həm də bu əraziyə suvarmaq üçün arx çəkmişdilər. Qubernator onların təklifini rədd edərək bildirmişdi ki, "istəmirsiniz, özünüz bilərsiniz". Əvəzində kəndlilər İrəvan jandarm idarəsinin III bölməsinin rəisi kapitan Zolotovskiyə müraciət edərək, ondan məsləhət almaq istəmişdilər. Zolotovski onların xahişini qubernatora çatdırsa da, heç bir nəticə hasil olmamışdı[1366].

Torpaq azlığından əziyyət çəkən və sıxışdırılan bəzi ailələr istifadə olunmamış torpaqlarda məskunlaşmaq məcburiyyətində qalırdılar. Məsələn, Yenibəyazid qəzasının tiyul kəndi olan Bicni kəndinin 12 Azərbaycan türk ailəsinin 1872-ci il yanvarın 14-də İrəvan qubernatoruna yazdıqları məktubdan aydın olur ki, bu ailələr torpaq azlığından əziyyət çəkdikləri üçün Dərəçiçək sahə-

---

[1365] Крестьянское движение в Армении в XIX веке, с.169-170.
[1366] Yenə orada, s.171-172.

sində yerləşən dağılmış Mehramdərəsi adlı yerə köçmək istədiklərini bildirmişdilər[1367].

Onların bu xahişinə əvvəlcə İrəvan qubernatoru müsbət cavab vermişdi. Lakin Bicni kəndinin tiyul sahibi İrəvan şəhər sakini poruçik Arsen Sultan Keqamov onların köçməsinə mane olmuşdu. O, hər il bu ailələrin hər birindən 2 rubl 50 qəpik tiyul haqqı alırdı. Arsen Keqamov Qafqaz canişini böyük knyaz Nikolaya ünvanladığı məktubda İrəvan qubernotorundan və yerli hakimiyyət orqanlarından şikayət etmişdir[1368]. Qafqaz canişininin işə qarışması nəticəsində sakinlərin məskunlaşması dayandırılmışdır. Belə ki, İrəvan qubernatorunun Yenibəyazid qəzasının rəisinə göndərdiyi rəsmi məlumatda bildirilmişdi ki, tiyul məsələsi həll edilənə qədər kənd sakinlərinin digər yerdə məskunlaşdırılması dayandırılsın[1369].

Bəzi kəndlərdə yerli əhali mülkədarlara vergi verməkdən imtina edirdi. İrəvan qəzasının Pnut kəndinin mülkədarı İsmayıl bəy Sultanbəyovun 1872-ci il iyulun 26-da və 1873-cü il yanvarın 26-da barışdırıcı münsifə ünvanladığı şikayət məktubunda yazırdı ki, Pnut kəndinin bəzi sakinləri ona vergi verməkdən imtina edir. O, bildirirdi ki, yanvar ayında Pnut kənd sakinləri ona çatacaq 12 xalvar 25 batman buğda, 8 xalvar 11 batman arpa, 3655 bağ yonca, 106 yük saman vergisini ödəməmişdilər. Mülkədar xahiş edirdi ki, bu vergini ödəmək üçün barışdırıcı münsif onlara təsir göstərsin[1370].

Üçmüəzzin qəzasının Canfid qəzasının kəndliləri isə daha irəli gedərək nəinki yerli mülkədara vergi verməkdən imtina etmiş, hətta hakimiyyət orqanlarına qarşı çıxmışdılar. Canifild kəndinin mülkədarı Ağabəy Məhəmmədbəyovun İrəvan qubernatoruna ünvanladığı şikayət ərizəsində bildirmişdi ki, kənd sakinləri yeni vergi sisteminə etiraz edərək barışdırıcı münsifin

---

[1367] Крестьянское движение в Армении в XIX веке, с.173-174.
[1368] Yenə orada, s.176.
[1369] Yenə orada, s.177.
[1370] Yenə orada, s.178.

fərmanına qarşı çıxaraq qiyam qaldırmış, hətta kəndin kəndxudasını döymüşdülər. Bundan sonra onlar xırmandan məhsulu yığaraq öz tələbatlarını təmin etmiş, mülkədara çatacaq vergini verməkdən imtina etmişdilər. Onların bu narazılığını görən münsif polisə şikayət etmişdir. Lakin bu da heç bir nəticə verməmişdir. Belə ki, Ağabəy Məhəmmədbəyov öz adamı Cəfərəlini İrəvan qubernatorunun yanına göndərmiş, o da qəza rəisinə göstəriş vermişdir. Qəza rəisi isə polis idarəsinə müraciət etmiş, nəticədə Canifild kəndinə bir neçə kazak və süvari göndərmişdir. Buna baxmayaraq 200 nəfər kənd sakini əlində dəyənək kazakları kənddən qovmuşdular. Məktubdan bəlli olur ki, mülkədara dəyən ziyanın məbləği 5000 rubl olmuşdur[1371].

İrəvan qəzasının Dəlilər kənd sakinləri də öz mülkədarlarına yeni qaydada vergi verməkdən imtina etmişdilər. Bu kəndin mülkədarı İrəvan şəhər sakini Ağa Seyid Əliağa Seyidrza oğlu barışdırıcı münsifə 1873-cü il yanvarın 15-də ünvanladığı məktubda yazırdı ki, Dəlilər kəndinin sakinləri 1871-1872-ci illər üçün ona çatacaq 7 stil vergini ödəməkdən imtina etmişdilər. Lakin barışdırıcı münsif kənd sakinlərinə mülkədarın xeyrinə çatacaq iki illik verginin mülkədara ödənilməsi haqqında əmr göndərmişdi[1372].

Üçmüəzzin qəzasının tiyul kəndi olan Qarxun kəndinin sakinləri ilə mülkədarlar arsında mübarizə bir neçə il davam etmişdi. Tərtib edilən protokollarda, yazılan şikayət məktublarından bəlli olur ki, kənd sakinləri ilə mülkədarlar arasında olan narazılıqlar hakimiyyət orqanlarının müdaxiləsinə baxmayaraq daha sərt xarakter almışdır. 1873-cü il dekabrın 7-də Üçmüəzzin qəza bölməsinin barışdırıcı münsifinin tərtib etdiyi protokolda kəndlilər arasında baş verən narazılıqların səbəbi ətraflı göstərilmişdir. Protokolda qeyd edilirdi ki, 1873-cü il oktyabrın 17-də həm kənd sakinlərinin, həm də mülkədarların

---

[1371] Крестьянское движение в Армении в XIX веке, с.179-180.
[1372] Yenə orada, s.185.

şikayəti əsasında birinci Üçmüəzzin bölməsinin barışdırıcı münsifinin çıxardığı qərarına İrəvan quberniyası kəndli məsələləri üzrə idarəsi baxmışdı. Çıxarılan qərar mülkədarların xeyrinə idi. Qərarda göstərilirdi ki, 1) barışdırıcı münsif Mamaçevin fərmanında Qarxun kəndinin mülkədarları üçün göstərdiyi torpağın miqdarı dəyişməz qalsın, 2) kəndlilərin torpaqların yerölçən tərəfindən yenidən ölçülməsi xahişi rədd edilsin, 3) yeni qanun tətbiq edilənədək mülkədarlara 46 xalvar 9 somar 1 batman torpaq sahəsi verilsin. Qərar kəndlilər arasında oxunmuşdu. O, böyük narazılıqla qarşılanmış, hətta hökm oxunarkən kəndlilər oxuyanın sözünü kəsmişdilər. Protokolda kəndxuda başda olmaqla narazılıq edənlərin adları da göstərilmişdir. Bu qərara əsas müqavimət göstərənlər kəndxuda Kərbalayı Mustafa İsmayıl oğlu, Kərbalayı Məhəmmədməşədi Orucqulu oğlu, Hacı Qurban Hüseynəli oğlu, Məşhədi İsmayıl Hacı Qasım oğlu, Kərbalayı Ələsgər Məhəmməd oğlu idi. Onlar həbsxanaya düşməkdən və yaxud Sibirə sürgün edilməkdən qorxmayaraq açıq-açığına quberniya idarəsinin bu qərarına qarşı çıxmışdılar. Xüsusən kəndxuda Kərbalayı Mustafa bu qərarın qəti əleyhinə idi. Mülkədar İsgəndər bəy Makulunun kollec assesoru Bojevskiyə kəndlilərin vergi verməkdən imtina etməsi haqqında şikayəti heç bir nəticə verməmişdi. Kəndxuda başda olmaqla kənd sakinləri mülkədarlara vergi verməkdən imtina etmidilər[1373].

Qarxun kəndində narazılıq o dərəcəyə çatmışdı ki, bu işə qəza rəisi qarışmalı olmuşdu. Onun 1873-cü il dekabrın 21-də İrəvan qubernatoruna yazdığı məlumatda çıxarılan qərararın yerinə yetirilməsi məsələsi təsvir edilmişdir[1374].

Qarxun kəndinin kəndxudası Kərbalayı Mustafa İsmayıl oğlu qərarın yerinə yetirilməsində əsas maneə olduğuna görə

---

[1373] Крестьянское движение в Армении в XIX веке, с.187-189.
[1374] Yenə orada, s.187-189.

barışdırıcı münsif ondan qəza rəisinə şikayət etmişdi. Onun 1873-cü il dekabrın 12-də qəza rəisinə yazdığı məlumatda kəndxudanın vəzifəsindən azad edilməsi və bu vəzifəni digər namizəd Ələsgər İbrahim oğluna tapşırılmasını xahiş etmişdir[1375].

Qarxun kəndində vəziyyətin daha da gərginləşdiyini görən İrəvan qubernatoru tərəflər arasında mübahisəyə son qoymaq üçün qərar çıxarmışdı. Onun 1886-cı il aprelin 30-da yazdığı məlumatda Qarxun kəndinin mülkədarlarının-İsgəndər xan, Cəfər xan və Musa xan Makulunun şikayətləri əsasında kəndli məsələləri üzrə quberniya idarəsinin çıxardığı hökm göstərilmişdi. Məlumatdan görünür ki, mülkədarlar kəndlilərdən məhsul vergisini xırmandan dərzlə, yəni topa almaq istəyirdilər. Quberniya idarəsinin çıxardığı qərara əsasən kəndlilər mülkədarlara çatacaq $^{7}/_{30}$ məhsul vergisini xırmanda dərz formasında ödəməli idilər. Tərəflər narazı olduqda hökm tətbiq ediləndən sonra 30 gün ərzində şikayət edə bilərdilər[1376].

Lakin çıxarılan hökmə baxmayaraq narazılıq davam etmişdi. Belə ki, Qarxun kəndinin mülkədarları Cəfər xan Makulunun və Musa xan Makulunun 1887-ci il sentyabrın 7-də yazdıqları şikayət məktubunda kənd sakinlərinin evbaşına, bağ və bostandan gələn gəlirdən vergi verməyə məcbur etmələrini barışdırıcı münsifdən xahiş edirdilər[1377].

Kənd sakinləri də şikayətlərindən geri çəkilmirdilər. Mülkədarların onlardan qanunsuz olaraq ot və yoncadan vergi aldıqları haqqında İrəvan qubernatoruna 1888-ci il aprelin 28-də şikayət məktubları ünvanlamışdılar[1378].

Qarxun kəndinin həm mülkədarlarının, həm də sakinlərinin bir-birindən hakimiyyət orqanlarına şikayətləri davam etmişdir. Kənd mülkədarları Cəfər xan Makulu, İsgəndər xan Makulu və Musa xan Makulun şoran və bataqlıq yerlərin də onların xüsusi

---

[1375] Крестьянское движение в Армении в XIX веке, с.191.
[1376] Yenə orada, s.189-197.
[1377] Yenə orada, s.198.
[1378] Yenə orada, s.198-199.

mülkiyyəti olduğunu bildirmiş və bu yararsız torpaqlardan kəndlilərə pay torpağı ayırmaq istəmişdilər. Lakin kənd sakinləri bu yararsız torpaqlardan imtina etmiş, narazılıq yaranmışdır. Belə olduqda mülkədarlar kəndli məsələləri üzrə İrəvan quberniya idarəsinə şikayət etmişdilər. Şikayət dövlət senatında baxılaraq qərar çıxarılmışdır. 1894-cü il fevralın 24-də senat mülkədarların şikayətini əsassız hesab etmiş, bu torpaqların hər iki tərəf üçün ümumi istifadəyə verilməsi haqqında qərar çıxarmışdır[1379].

İrəvan quberniyasının Cabaçalı kəndinin mülkədarları ilə kənd sakinlərinin arasında olan narazılıq da illərlə davam etmişdir. Əsas narazılıqlardan biri mülkədarlara çatacaq taxıl vergisinin xırmandan birbaşa dərz, yəni topa formasında verilməsi məsələsi və məhsulun İrəvan şəhərinə daşınması idi. 1882-ci il oktyabrın 8-də Cabaçalı kəndinin mülkədarları Həsən ağa və Məhəmməd ağa Sultanov qardaşlarının barışdırıcı münsifə kənd sakinlərinin xırmandan birbaşa taxıl vergisinin dərz formasında verilməsi xahişi dekabrın 22-də kəndli məsələsi üzrə quberniya idarəsində müzakirə edilmişdir. Sultanov qardaşlarının xahişini nəzərə almaq üçün barışdırıcı münsif hər iki tərəfi yanına dəvət etmiş və kəndlilərə taxıl vergisinin dərzlə və yaxud dəstə ilə ödənilməsi göstərişini etmişdir. Lakin kəndlilər bununla razılaşmamışdılar. Belə olduqda Cabaçalı kəndinin mülkədarı Məhəmməd ağa Sultanov 1883-cü il aprelin 25-də quberniya idarəsinə şikayət edərək verginin dərzlə alınmasını tələb etmişdir. Kəndli məsələləri üzrə quberniya idarəsi mülkədarların xeyrinə qərar çıxarmışdır[1380].

Yenə də kənd sakinləri bu qərarla razılaşmamış, kənd sakinləri adından Hacı Əli Məşədi Cabbar oğlu qubernatora şikayət etmişdir. İrəvan qubernatoru 1884-cü il martın 15-də senata ünvanladığı raportda bu narazılıq haqqında ətraflı bəhs etmişdir. Senat bu məsələyə baxmış, kənd sakinlərinin şikayətini əsassız

---

[1379] Крестьянское движение в Армении в XIX веке, с. 206-208.
[1380] Yenə orada, s. 209-211.

hesab etmiş və mülkədarların şikayətini qəbul etmişdir[1381].

Cabaçalı kənd sakinlərinin narazılıqlarından biri də mülkədarlara çatacaq verginin İrəvan şəhərinə daşımaqdan imtina etməsi idi. Kəndin mülkədarları bu şəhərdə məskunlaşmışdı. Tərəflərin şikayəti əsasında 1872-ci il dekabrın 5-də kəndli məsələləri üzrə quberniya idarəsində bu məsələyə baxılaraq qərar çıxarılmışdır. Dekabrın 10-da çıxarılan qərara əsasən, Cabaçalı kənd sakinləri ot, yonca və samandan başqa digər məhsul vergisini İrəvan şəhərində sakin olan mülkədarlar Həsən ağa və Məhəmməd ağa Sultanovun evinə daşımalı idilər. 1872-ci il dekabrın 14-də Cabaçalı kənd sakinlərinin yazdıqları məktubda çıxarılan qərarın onlara göndərilməsini xahiş etmişdilər. Qərarla tanış olan kəndlilər buna etiraz edərək, bu mükəlləfiyyəti yerinə yetirməkdən imtina etmişdilər[1382].

İrəvan qəzasının Arbat kəndində də mülkədarlarla kənd sakinləri arasında əsas narazılıq məhsul vergisinin İrəvan şəhərinə daşınması məsələsi idi. Kəndin mülkədarı Abbasqulu xan İrəvanlı İrəvan şəhərində məskunlaşmışdı. 1875-ci il avqustun 14-də kəndli məsələləri üzrə İrəvan quberniya idarəsinin çıxardığı qərardan belə məlum olur ki, Abbasqulu xan İrəvanlı 1872-ci il oktyabrın 25-də barışdırıcı münsifə kəndlilərin məhsul vergisinin şəhərə daşınmasından imtina etməsi haqqında şikayət etmişdir. Şikayət əsasında mülkədarın istəyinə etiraz edilmişdir. Belə olduqda Abbasqulu xan kəndli məsələləri üzrə quberniya idarəsinə şikayət etmişdir. Bu iş ətraflı araşdırılmış və barışdırıcı münsifin qərarı ləğv edilmişdir[1383].

Lakin bu qərarla razılaşmayan kənd icması 1875-ci il noyabrın 18-də Qafqaz canişininə şikayət məktubu ünvanlamışdılar. Onların şikayətini Qafqaz Canişininin Baş İdarəsinin dəftərxanası əsassız hesab etmiş, onların bu mükəlləfiyyəti

[1381] Yenə orada, s.211-212.
[1382] Крестьянское движение в Армении в XIX веке, с.208-209.
[1383] Yenə orada, s.216-217.

yerinə yetirməyə məcbur olmaları bildirilmişdir[1384].

Abbasqulu xanın xeyrinə çıxarılan qərara etiraz edən kənd camaatı məhsulun pulsuz daşınması mükəlləfiyyətinin yerinə yetirilməsinə etiraz etmişdilər. Belə olduqda İrəvan bölməsinin barışdırıcı münsifi İrəvan qəza polis idarəsinə kənd camaatını bu mükəlləfiyyəti yerinə yetirməyə məcbur etmək üçün xahiş etmişdi. Onun 1876-cı il sentyabrın 25-də çıxardığı qərarı polis idarəsinə ünvanlamışdı[1385].

Yenibəyazid qəzasının Bicni kəndinin sakinlərinin mülkədarlarla münaqişələri illərlə davam etmişdir. Yuxarıda göstərildiyi kimi, bu kəndin sakinlərinin tiyul sahibi olan Arsen Kaqamovla mübarizəsi hələ XIX yüzilliyin 40-cı illərinin ikinci yarısından başlamışdır. 1875-ci il sentyabrın 3-də İrəvan bölməsinin barışdırıcı münsifinin çıxardığı qərarında göstərilirdi ki, hər iki tərəf kəndin ot biçmək üçün "Kötüklü" adlanan sahəsindən istifadə etmək üçün mübarizə aparırdılar. Kənd sakinləri iddia edirdi ki, kəndli "Əsasnaməsi" elan edilənə qədər bu sahədən onlar istifadə etmişdilər. Mülkədar isə bu sahənin ona verilməsini xahiş edirdi. Arsen Keqamov bu sahənin kəndin ətrafında yerləşdiyini nəzərə alaraq bu sahənin kəndlilərə heç bir aidiyyatı olmadığını bildirmişdi. Barışdırıcı münsif bu sahənin pay torpağına aid olmadığını nəzərə alaraq "Kötüklü" sahəsinin mülkədarın istifadəsinə verilməsi haqqında qərar çıxarmışdı[1386].

Lakin bununla razılaşmayan kənd sakinləri 1875-ci il noyabrın 4-də kəndli məsələləri üzrə İrəvan idarəsinə şikayət məktubu ünvanlamışdılar. Onlar şikayətlərində barışdırıcı münsifin çıxardığı qərarın əsassız olduğunu bildirərək, bu qərarın ləğv olunmasını xahiş edirdilər[1387].

Uzun tədqiqatdan sonra məlum olmuşdur ki, "Kötüklü" ot sahəsinə Üçmüəzzin kilsəsi də iddia etmişdi. Belə olduqda İrə-

---

[1384] Yenə orada, s. 218.
[1385] Крестьянское движение в Армении в XIX веке, с.219.
[1386] Yenə orada, s.219-220.
[1387] Yenə orada, s.221-222.

van bölməsinin barışdırıcı münsifi Çıqanov belə qərara çıxarmışdı ki, kənd sakinlərinin "Kötüklü" sahəsini mülk kimi istifadə etmək istəyi ləğv olunsun, əgər onlar bu sahədən istifadə etmək istəsələr müstəqil surətdə Üçmüəzzin kilsəsi ilə danışıqlara girmək səlahiyyətinə malikdirlər[1388].

Üçmüəzzin qəzasının Təkiyə kəndinin sakinləri ilə mülkədarları arasında narazılıq da bir neçə il davam etmişdi. Kəndin mülkədarı Pənah xan Makulunun 1878-ci il dekabrın 3-də Üçmüəzzin qəza bölməsinin barışdırıcı münsifinə yazdığı şikayət ərizəsində Təkiyə camaatının 1877-1878-ci illərin ot vergisini və bağdan gələn vergini vermədiklərini bildirmişdi[1389].

Lakin barışdırıcı münsif mülkədarın xeyrinə qərara çıxarsa da, kənd sakinləri bu vergini ödəməmişdilər. Belə olduqda barışdırıcı münsif 1880-ci il sentyabrın 4-də Üçmüəzzin qəza rəisinə kəndlilərin onun çıxardığı qərara məhəl verməmələri haqqında məlumat vermişdir. O, qəza rəisindən çıxarılan bu qərarın icra olunmasına köməklik göstərməsini xahiş etmişdir[1390].

Üçmüəzzin qəzasının Xeyirbəyli və Hacıbayramlı kəndlərində də eyni hadisə baş vermişdir. Bu kəndin sakinləri də mülkədarlara məhsul, bağ və bostan vergisi ödəmirdilər. 1878-ci il sentyabrın 11-də hər iki kəndin mülkədarı Əliəşrəf bəy Hacı Ağa bəy oğlu barışdırıcı münsifə ünvanladığı məktubda kənd əhalisinin ona çatacaq bağ və bostandan gələn gəliri ödəmədikləri haqqında şikayət etmişdi[1391]. Barışdırıcı münsif 1879-cu il sentyabrın 15-də çıxardığı qərarda Xeyirbəyli kəndxudasına Hacıbayramlı kənd camaatı ilə birlikdə mülkədarlara çatacaq verginin ödənilməsini tələb etmişdi. Nəticədə Xeyirbəyli sakinləri vergini tamamilə ödəsə də, Hacıbayramlı kəndi bundan imtina etmişdi. Kənd mülkədarı İsgəndər bəy Sultanovun yazdığı şikayət məktubunda bu xüsusi vurğulanmışdı[1392].

---

[1388] Крестьянское движение в Армении в XIX веке, s.222-226.
[1389] Yenə orada, c.260.
[1390] Yenə orada, s.260-261.
[1391] Yenə orada, s.262.
[1392] Yenə orada, s.262-263.

İrəvan qəzasının Taytan kəndinin əhalisi də öz mülkədarlarına vergi verməkdən imtina etmişdilər. 1879-cu il avqustun 14-də mülkədar İsmayıl bəy Sultanbəyov barışdırıcı münsifə kənd camaatının ona çatacaq vergini ödəmədikləri haqqında şikayət məktubu ünvanlamışdı[1393].

Həmin kəndin mülkədarı ştabs-kapitan Əmirxanov isə öz şikayətində konkret şəxslərin nə qədər vergini ödəməməsi haqqında yazmışdır. O, 1880-ci il oktyabrın 21-də İrəvan bölməsinin barışdırıcı münsifinə ünvanladığı məktubda kənd sakinlərindən Məhəmməd Məhəmmədəli oğlunun 1 xalvar 80 batman buğda, 40 batman darı, Mamopir Murad oğlunun 15 batman arpa, Həsən Qasım oğlunun isə 40 batman darı ödəmədikləri haqqında məlumat vermişdi[1394].

Digər mülkədar İsgəndər bəy Sultanbəyov da eyni məzmunda barışdırıcı münsifə məktub ünvanlamışdı. Onun barışdırıcı münsifə göndərdiyi məktubda kənd sakinlərindən Kərbalayı Məhəmmədhüseynin 1879-cu il üçün 1 xalvar buğda, 50 batman arpa, Kərbalayı Zeynalabdin Kazım oğlunun 80 batman buğda, 30 batman arpa, Cəfərqulu İbrahim oğlunun 1 xalvar buğda, Əliqulu Kazım oğlunun 1 xalvar buğda, 20 batman arpa ödəmədiklərini bildirmişdi[1395].

Taytan kəndinin digər mülkədarı Balasultan Fətixan oğlu barışdırıcı münsifə göndərdiyi şikayət məktubunda kənddə onun bir axça mülkə malik olduğunu və kənd sakinlərinin bu mülkdən gələn gəlirdən ona vergi ödəmədikləri haqqında yazmışdı[1396].

İrəvan quberniyasının bəzi kəndlərində sakinlərlə mülkədarlar arasında verginin birbaşa xırmandan dərz formasında alınması üstündə mübarizə davam edirdi. İrəvan qəzasının Canifild və Xocayaralı kəndinin mülkədarı Ağa bəy Məmmədbəyov 1880-ci il mayın 6-da barışdırıcı münsifə ünvanladığı şikayət

---

[1393] Крестьянское движение в Армении в XIX веке, с.265.
[1394] Крестьянское движение в Армении в XIX веке, с.266.
[1395] Yenə orada, s.266.
[1396] Yenə orada, s.266-267.

məktubunda bildirirdi ki, o, kəndlilərdən verginin xırmandan dərz, yəni topa şəklində olmasını və alınan vergini isə öz hesabına üyütmək istəyir[1397].

Mülkədarın barışdırıcı münsifə həmin ilin avqustun 9-da yazdığı məktubda yazırdı ki, kəndlilər vergini dərz şəklində vermək istəmirlər və onlar qəti surətdə bildirmişdilər ki, "vergini dərzlə verməyəcəklər". O, barışdırıcı münsifdən xahiş edirdi ki, bu işdə ona yardım etsin[1398].

İrəvan qəzasının Toxanşalı kəndinin sakinləri isə mülkədarlardan artıq torpağın alınmasını və bu torpaqların onlara pay torpağı kimi paylanmasını xahiş edirdilər. Həmin kəndin sakinləri tərəfindən vəkil edilmiş bəzi şəxslərin barışdırıcı münsifə ünvanladıqları məktubda qeyd edirdilər ki, onların cəmiyyətinin ixtiyarında bağ, mülk və əkin sahəsindən ibarət 133 desyatin 800 sajen sahibkar torpağı, 52 desyatin 400 sajen örüş yeri, Sabunçu kəndi ilə mübahisəli olan 31 desyatin 600 sajen ot çalmaq üçün sahə, ümuilikdə 216 desyatin 1800 sajen sahələri vardır. Kəndin 15 yaşından yuxarı olan kişi cinsinin sayı isə 128 nəfər idi. Sakinlərin bildirdiyinə görə hər kişiyə 2 desyatindən də az sahə düşürdü. Onlar xahiş edirdilər ki, mülkədar Hacı Nəcəfqulu bəyin istifadəsində olan 12,5 desyatin axça torpağın ondan alınıb kəndlilərə verilməsini və bununla da hər kişiyə heç olmasa 2 desyatin torpaq sahəsi düşməsini istəyirdilər[1399].

Bununla əlaqədar olaraq kənd camaatı vergi verməyi dayandırmışdılar. Kəndin digər mülkədarı Firuddin bəy Allahverən bəy oğlu barışdırıcı münsifə 1881-ci il oktyabrın 21-də ünvanladığı məktubda kənd sakinlərinin onun payına düşən 8 xalvar miqdarında vergini verməməsindən şikayət edirdi. Lakin Firuddun bəyin şikayəti əsassız sayılmış, ona bu məlumatı kəndxudaya bildirməsi tövsiyyə edilmişdir[1400].

---

[1397] Крестьянское движение в Армении в XIX веке, s.267-268.
[1398] Yenə orada, c.268.
[1399] Yenə orada, s.269.
[1400] Yenə orada, s.270.

Çox keçmədi ki, Toxanşalı kəndinin digər mülkədarları Hacı İmamverdi Məşədi İbrahim oğlu və Hacı Molla Mustafa Həsənəli oğlu 1883-cü il mayın 18-də barışdırıcı münsifə yazdıqları məktubunda kənd sakinlərinin məhsul vergisini və sarımsağın $^{4}/_{30}$ miqdarında dərz formasında almaq istədiklərini yazmışdılar[1401].

İrəvan qəzasının Şidlu kəndində də vergi verməmək üstündə mülkədarlarla kəndlilər arasında narazılıq davam etmişdi. Şidlu kəndinin mülkədarı Hacı Nəcəf Qulubəy Məhəmmədbəyovun 1882-ci il yanvarın 26-da barışdırıcı münsifə ünvanladığı məktubda kəndin bəzi sakinlərinin 1881-ci il üçün ona çatacaq vergini ödəmədiklərindən şikayət edirdi[1402].

Bu şikayətə baxan barışdırıcı münsifin 1882-ci il yanvarın 28-də çıxardığı qərarda göstərilirdi ki, indiki vəziyyətdə kənd camaatı məhsulu üyütmədiklərinə görə mülkədarın şikayəti hələlik rədd edilmişdi. Lakin kəndxudaya tapşırılırdı ki, onun ciddi nəzarətilə dənli bitkilər üyüdüldükdən sonra mülkədarın vergisi dərhal ödənilməli idi[1403].

Çox keçmədən bu kənddə sakinlərlə mülkədarlar arasında yeni mübahisə qalxdı. Şidlu və Toxanşalu kəndinin mülkədarı olan Hacı Nəcəfqulu bəy Məhəmmədbəyov 1882-ci il noyabrın 16-da İrəvan bölməsinin barışdırıcı münsifinə göndərdiyi məktubunda kənd sakinlərindən vergini məhsul formasında deyil, dərz formasında almaq istədiyini bildirmişdi[1404].

Kəndin digər mülkədarı Cəlil bəy Əliqulubəy oğlu da 1883-cü il oktyabrın 5-də barışdırıcı münsifə yazdığı məktubda da məhsul vergisini sakinlərdən dərz formasında almaq istədiyini bildirmişdi[1405].

Məhsulun kənd sakinlərindən dərz formasında alınması uğrunda mübarizə İrəvan quberniyasının müxtəlif kəndlərində

---

[1401] Крестьянское движение в Армении в XIX веке, с.271.
[1402] Yenə orada, s.304.
[1403] Yenə orada, s.304-305.
[1404] Крестьянское движение в Армении в XIX веке, с.305-306.
[1405] Yenə orada, s.306.

davam etmişdi. Mülkədarlar məhsulun üyüdülmüş vəziyyətdə deyil, birbaşa xırmandan topa şəklində verilməsini tələb edirdilər. İrəvan qəzasının Reyhanlı kəndinin mülkədarları Qazıyev qardaşları (Talıb bəy, Lütvəli bəy, Axund Xəlil bəy, Şeyx Mehdi bəy və Mirzə Cabbar bəy) 1883-cü il yanvarın 24-də barışdırıcı münsifə yazdıqları ərizədə kənd sakinlərinin taxıldan onlara çatacaq $^{4}/_{30}$ vergini üyüdülmüş formada yox, dərz formasında verilməsini istədiklərini bildirmişdilər. Şikayətdən görünür ki, kənd sakinləri ilə mülkədarlar arasında bu məsələdə narazılıq daha da dərinləşmişdi[1406].

Bu məsələyə İrəvan quberniyası kəndli məsələləri üzrə idarəsində baxılmışdı. Keçirilən məhkəmədə həm kəndin mülkədarları, həm də kənd sakinlərinin xüsusi seçilmiş nümayəndələrindən Məhəmmədbağır Məşədi İsmayıl oğlu, Məşədi Müstafa Əli oğlu, Kərbalayı İbrahim Əli oğlu və Cəfər Məşədi Hüseyn oğlu iştirak etmişdilər. Məhkəmədə mülkədarların istəyi təmin olunmuş, bu da sakinlərin narazılığına səbəb olmuşdu. Lakin narazı tərəfin qanuna əsasən Baş rəisə şikayət etmək hüququ saxlanılmışdır[1407].

İrəvan qəzasının Necli kəndində vergi məsələsi üstündə davam edən narazılıq daha da dərinləşərək sakinlərin böyük qiyamına səbəb olmuşdu. İrəvan bölməsinin barışdırıcı münsifinin 1883-cü il iyunun 14-də çıxardığı qərarda göstərilirdi ki, kənd sakinləri 1882-ci il üçün mülkədarların xeyrinə olan 53 xalvar 55 batman buğda, 200 topa yonca və 24581 topa ot vergisini verməkdən imtina etmişdilər. Qərara əsasən vergi verməyən kənd sakinləri bir batman və yaxud 12 funt buğdaya görə 24 qəpik, 100 dəstə ota görə 5 rubl 50 qəpik, yoncaya görə 6 rubl 50 qəpik, hər bir kənd sakini isə eyni zamanda 50 qəpik əlavə cərimə ödəməli idilər[1408].

Lakin bu qərara baxmayaraq, kənd sakinləri vergi verməyi dayandırmışdılar. Onlar hətta kəndxudanın göstərişlərini yerinə

---

[1406] Крестьянское движение в Армении в XIX веке, с.323.
[1407] Yenə orada, s.323-325.
[1408] Yenə orada, s.330.

yetirməkdən imtina etmişdilər. Belə ki, barışdırıcı münsifdən göstəriş alan kəndxuda Kərbalayı Zeyalabdin Süleyman oğlu Necili kənd sakinlərini yığaraq mülkədarlara vergi verməyi tələb etmişdir. Lakin kənd camaatı bundan imtina etmiş, Necili kəndinin xəzinəyə məxsus olduğunu bildirmişdilər. Necili kəndində baş verən bu qarışıqlığın əsas səbəbkarları Məhəmmədəli Cəfərbəy oğlu, Hacı Bayram Abbas oğlu, Abuzər Əliqulu oğlu, Hüseynəli Ramazan oğlu, Mehdi Qasım oğlu, İmran Həsənəli oğlu, Mehdi Məmmədhəsən oğlu, Qasım Kazım oğlu, Əsgər Abdulla oğlu, Əliqulu Abuzər oğlu göstərilmişdir. Onlar kənd sakinlərini vergi verməməyə çağırırdılar. Hətta onlar ot bölgüsü zamanı kəndxudaya hücum etmiş və onu döymüşdülər. Sakinlərdən Ələsgər Abdulla oğlu, Hüseyn molla Məhərrəm oğlu, Əli Bayramqulu oğlu və Tağı Qasım oğlu kəndxudanı ölümlə hədələmişdilər[1409].

Uzun mübahisələrdən sonra İrəvan bölməsinin barışdırıcı münsifi 1885-ci il mayın 11-də belə qərar çıxarmışdı: kənd sakinlərinin 1882-1883-cü illərin ödəmədikləri məhsul vergisi pulla əvəz edilsin; bu məhsul 5400 rubl həcmində qiymətləndirilsin; bu vergi 1885-ci il noyabrın 1-dən alınsın[1410].

İrəvan quberniyasında bəzi mülkədarlar vəziyyətdən sui-istifadə edərək onlara məxsus olmayan kəndlərdən vergi yığmaq istəyirdilər. Belə bir vəziyyət İrəvan qəzasına məxsus olan Qoravan kəndində yaranmışdı. Kənd sakini Fətulla Rza oğlu şikayət məktubunda bildirirdi ki, onların kəndi xəzinəyə məxsus olsa da, Böyük Vedi kəndinin sakini Bəşir bəy Abo bəy oğlu ozünü Qoravan kəndinin sakini sayaraq kənd camaatından vergi tələb etmişdi. Lakin sadə xalq bu vergini ödəməkdən imtina etmişdilər, hətta onlar Dövlət Əmlakı idarəsinə arayış göndərmişdilər. Arayış təftiş edilmiş və qərara alınmışdı ki, Bəşir bəyin Qoravan kəndinə olan iddiası əsassız sayılsın[1411].

---

[1409] Крестьянское движение в Армении в XIX веке, с.330-333.
[1410] Yenə orada, s.334.
[1411] Yenə orada, s. 335-336.

İrəvan qəzasının Gedəkli və Dəlilər kəndlərində də eyni hadisələr baş vermişdi. Bu kəndin əhalisi də öz mülkədarlarına vergi verməkdən imtina etmişdilər. 1883-cü il sentyabrın 1-də Gedəkli kəndinin mülkədarının barışdırıcı münsifə ünvanladığı məktubda bildirilirdi ki, kənd əhalisi yoncadan, bağ və bostandan ona çatacaq vergini ödəməkdən imtina etmişdilər. Bu narazılığa Dəlilər kəndinin sakinləri də qoşulmuşdular[1412].

Narazılıq o qədər böyümüşdü ki, bu işə barışdırıcı münsif qarışmalı olmuşdu. O, hər iki kənddə olmuş, kəndlilərlə söhbətlər aparmışdı. Söhbət əsnasında kənd sakinləri hər iki kəndin xəzinəyə məxsus olduğunu bildirmiş və heç bir mülkədara vergi verməyəcəklərini bəyan etmişdilər. Əvəzində barışdırıcı münsif kəndlilərin səhv etdiklərini, Gedəkli kəndində yalnız 5 stil, Dəlilərdə isə 4 stil xəzinəyə məxsus mülk olduğunu bildirmişdi. Lakin kəndlilər bu dəlili əsassız sayaraq heç bir mülkədar tanımadıqlarını bildirmişdilər. Barışdırıcı münsifin çıxardığı qərarda göstərilirdi ki, bu kəndlərdə başlanan qiyamın təsiri Necilər, Qəmərli, Zöhrablı, Dvin və s. kəndlərə də keçmişdir. Ona görə də, o, hələlik kəndlilərin vergi verməsinin müvəqqəti olaraq başqa vaxta keçirilməsini, kəndliləri sakitləşdirmək üçün qəza rəisinin köməyindən istifadə edilməsini xahiş edirdi[1413].

Nəhayət uzun mübahisələrdən sonra kənd əhalisi barışdırıcı münsifin işə qarışması nəticəsində vergini verməyə məcbur olmuşdular. Barışdırıcı münsifin 1884-cü il oktyabrın 8-də çıxardığı qərara əsasən kənd sakinləri mülkədarlara, sahibkar Ağa Seyid Aliyəyə məxsus bağlar və xəzinə torpaqları istisna olmaqla bağ və bostanlardan pul vergisi ödəməli, əgər bağların ölçüsü haqqında mübahisə baş verdikdə həmin bağlar iki həftə ərzində yenidən ölçülməli, bağın ölçüsü çox olarsa artıq pul sahibkara qaytarılmalı, az olarsa isə kəndlilər onu ödəməli idilər. Digər məhsullardan alınan vergi mükəlləfiyyəti yığımdan asılı olaraq ödənilməli idi. Bu qərara hər iki tərəfə bildirilmişdir. Nəti-

---

[1412] Крестьянское движение в Армении в XIX веке, с.338-339.
[1413] Yenə orada, s.340-341.

cədə mülkədar Deykarxanov 136 rubl, A.Əmirxanov 160 rubl, Məhəmmədhüseyn bəy İsmixanov isə 27 rubl vergi almışdı[1414].

XIX yüzilliyin 80-ci illərinin ortalarında İrəvan quberniyasına məxsus qəzalarda torpaq uğrunda mübahisələr geniş miqyas almışdı. Torpaq mübahisələrini üç qismə bölmək olar: birincisi, xəzinə kəndliləri ilə xüsusi sahibkarlar arasında, ikincisi, kəndlilərlə xəzinə arasında və üçüncüsü isə kənd cəmiyyətləri arasında[1415]. XIX yüzilliyin 80-ci illərinin ortalarında İrəvan qəzasında xüsusi torpaq sahibləri ilə dövlət kəndlilərinə məxsus 20 kəndin torpaqları arasında mübahisə düşmüşdü. Hər kəndin mübahisəli torpaq sahəsi 1,08862 desyatinlə 7,55 desyatin arasında idi. Ümumiyyətlə qəza üzrə mübahisəli ümumi torpaq sahəsi 4990,12 desyatinə bərabər olmuşdur. Bu torpaq sahəsindən 4155,25 desyatin dövlət kəndliləri, 834,87 desyatin isə xüsusi səxslər istifadə etməsinə baxmayaraq narazılıqlar və qarşılıqlı ittihamlar geniş vüsət almışdı[1416]. Ayrı-ayrı kəndlər arasında konkret torpaq mübahisələri belə idi: 1. İrəvan qəzasında Əfşar kəndi ilə Dəvəli və Geravan mülkədarları arasında bir sahəsi 294 desyatin, digər sahəsi 10 desyatin olan torpaqlar uğrunda mübahisə düşmüşdü. Birinci sahə Dəvəli kəndlilərinin, ikinci sahə isə Gerovan mülkədarlarının istifadəsində idi; 2. Ağamzalı kəndinin kəndliləri ilə mülkədarlar arasında ümumi sahəsi 8,40 desyatin olan torpaq sahəsi uğrunda mübahisə düşmüşdü ki, bu torpaq mülkədarların istifadəsində idi; 3. Ağasıbəyli kəndinin kəndliləri ilə Xanlar xan, Rza xan Mərəndli və Bağırxan Mərəndli arasında ümumi sahəsi 42,50 desyatin olan torpaq üstündə mübahisə olmuşdu ki, bu torpaqlar kəndlilərin istifadəsində idi; 4. Mülkədarların istifadəsində olan, ümumi sahəsi 45,33 desyatindən ibarət torpaq üstündə Ağcaqışlaq kəndliləri ilə Yamancalı mülkədarları arasında mübahisə; 5.

---

[1414] Крестьянское движение в Армении в XIX веке, s.341-342.

[1415] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1886, т.III, с.27.

[1416] Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1887. т.II, с.299.

Əliməmmədqışlağı kəndliləri ilə Şıxlar kəndinin sahibkarları arasında sahəsi 45,60 desyatin olan torpaq mübahisəsi vardı ki, bu torpaqlardan Əliməmmədqışlağının kəndliləri istifadə edirdilər; 6. Ərdəşir kəndliləri ilə Torpaqqala mülkədarları arasında ümumi sahəsi 48,06 desyatin olan torpaq üstündə mübahisə olmuşdu ki, bu torpaqlar Ərdəşir kəndlilərinin istifadəsində idi; 7. Böyük Vedi kəndinin camaatı üç ayrı-ayrı kəndlə torpaq sahəsi uğrunda mübarizə aparırdı: 1) Birincisi, bu kəndin camaatı Gerovan sahibkarları ilə mübarizə aparırdı. Hər iki kəndin sərhədində yerləşən birinci sahə 200,00 desyatin, ikinci sahə 136,50 desyatin, üçüncü sahə 339 desyatin olan, ölçüsü 12,80 olan əlavə torpaq sahələri uğrunda mübarizə gedirdi; 2) İkincisi, Böyük Vedi kəndinin sakinləri eyni zamanda Yenicə kəndinin sahibkarları ilə ümumi sahəsi 556,80 desyatin olan, birinci torpaq sahəsi 97,60 desyatin, ikinci torpaq sahəsi 64,00 desyatin, üçüncü torpaq sahəsi isə 395,20 desyatin torpaq uğrunda mübarizə aparırdılar 3) Üçüncüsü, Vedi kəndinin kəndliləri Taytan kəndinin sahibkarları ilə ümumi sahəsi 180,08 desyatin olan torpaq, ümumiyyətlə isə 1088,68 desyatin torpaq sahəsi uğrunda mübarizə aparırdılar. Bu torpaq sahəsindən 180,08 desyatin Taytan kəndinin sahibkarları, qalan 908,60 desyatin torpağı isə Böyük Vedi kəndliləri istifadə edirdilər; 8. Hacı İlyas kəndinin kəndliləri qonşu Şorl-Dəmirçi və Necili kəndlərinin sahibkarları ilə ümumi sahəsi 75,34 desyatin olan beş torpaq sahəsi üstündə mübahisədə idi ki, bu torpaqlar Hacı İlyas kəndlilərinin istifadəsində idi; 9. Doqnaz kəndinin sakinləri qonşu Keşişkənd kəndinin sahibkarları ilə ümumi sahəsi 16,25 desyatin olan torpaq sahəsi üstündə mübahisədə idi, bundan əlavə, Keşişkəndin 542,50 desyatin xəzinə torpaq sahəsinə mülkədarlardan Xanlar xan, Rza və Bağır xan Mərədlilər iddia edirdilər; 10. Zöhrablı kəndi Yamancalı kəndinin mülkədarları ilə sahəsi 0,37 desyatin olan torpaq sahəsi üstündə mübahisədə idilər, bu torpaqlar mülkədarların istifadəsində idi; 11. Germanis (Kolanı) kəndinin kəndliləri qonşu Pnut kəndinin sahibkarları ilə sahəsi 287,50 desyatin olan torpaq sahəsi uğrunda mübarizə

aparırdılar, bu torpaqlar Germanis (Kolanı) kəndlilərinin istifadəsində idi; 12. İmanşalı kəndinin kəndliləri Alpava kəndinin mülkədarları ilə üç torpaq sahəsi uğrunda - birinci sahə 3,40 desyatin (bu sahə İmanşalı kəndlilərinin istifadəsində idi), ikinci sahə 3,10 desyatin (bu sahə Alpava mülkədarlarının istifadəsində idi), sahəsi 40,50 desyatin digər torpaq uğrunda (bu torpaq sahəsi İmanşalı kəndlilərinin istifadəsində idi) Buqamlı mülkədarları ilə mübarizə aparırdılar; 13. Yuxarı Qarabağlar kəndinin kəndliləri 102,50 desyatin torpaq uğrunda Rza xan və Bağırxan Mərədlilərlə mübarizə aparırdılar; 14. Aşağı Qarabağlar kəndinin kəndliləri sahəsi 5 axça 8 stil (770,40 desyatin) torpaq uğrunda (bu torpaqlar kəndlilərin istifadəsində idi) Rza xan və Bağırxan Mərədlilərlə mübarizə aparırdılar; 15. Keşişdağ kəndinə məxsus ümumi sahəsi 557,50 desyatin bağ sahəsinə Rza xan və Bədirxan Mərəndlilər xəzinədən iddia edirdilər; 16. Sahəsi 37,15 desyatin torpaq uğrunda (bu torpaq kəndlilərin istifadəsində idi) Yuxarı Qalahasar kəndliləri ilə bu kəndin mülkədarı Yelizarov və keşiş Krikor Avetisov arasında mübarizə gedirdi; 17. Sahəsi 173,75 desyatin olan torpaq uğrunda (torpaqlar kəndlilərin istifadəsində idi) Quyusuz kəndliləri ilə Rza xan və Bağırxan Mərəndlilər arasında mübarizə gedirdi; 18. Sahəsi 7,55 desyatin torpaq uğrunda (torpaq kəndlilərin istifadəsində idi) Sarvanlar-ulya kəndliləri ilə Necili mülkədarları arasında mübarizə gedirdi; 19. Uluxanlı, Hacı Həsən Əfəndi və Oruc adası kəndliləri 4 torpaq sahəsi uğrunda - birincisi 197,40 desyatin torpaq uğrunda Neceli sahibkarları ilə, ikincisi 218,40 desyatin torpaq uğrunda Reyhanlı sahibkarları ilə, üçüncüsü 1 desyatin torpaq uğrunda Xaratlı sahibkarları ilə və dördüncüsü 154,75 desyatin uğrunda Kuxucalı kəndliləri ilə mübarizə aparırdılar. İkinci torpaq sahəsi Uluxanlı kəndlilərinin, birinci və axırıncı torpaqlar isə mübahisə edən şəxsi adamların istifadəsində idi; 20. Sahəsi 142,34 desyatin torpaq uğrunda (torpaq Şidli sahibkarların istifadəsində idi) Xəlisə kəndinin kəndliləri Şidli kəndinin

sahibkarları ilə mübarizədə idilər[1417].

Beləliklə, məlumata görə, İrəvan qəzasında ümumi sahəsi 4990,12 desyatin torpaq uğrunda xəzinə kəndliləri ilə sahibkarlar arasında mübarizə getmişdir ki, bu torpaqların 4155,25 desyatini xəzinə kəndlilərinin, 834,87 desyatini isə sahibkarların istifadəsində olmuşdur.

Lakin XIX yüzilliyin 80-ci illərin ortalarında İrəvan qəzasında torpaq uğrunda dövlət kəndlilərinin öz aralarında və kənd cəmiyyətləri arasında da mübarizə getmişdir. Məsələn, Qyusuz kəndinin kəndliləri sahəsi 497,50 desyatin, Camışbasan kəndinin kəndliləri sahəsi 30 desyatin, Geranis və Doqnaz kəndinin kəndliləri sahəsi 312,50 desyatin, Ağasıbəyli kəndinin kəndliləri sahəsi 22,50 desyatin, ümumilikdə isə 862,50 desyatin torpaq sahəsi uğrunda tez-tez mübahisələr aparmışdılar[1418].

Ayrı-ayrı kənd cəmiyyətləri arasında da torpaq uğrunda mübarizə getmişdir. Bu haqda mənbələrdə XIX yüzilliyin 80-ci illərinin ortalarında doqquz hadisə qeydə alınmışdır. Kənd cəmiyyətləri arasında torpaq mübahisələri bunlar idi: 1. Ümumi sahəsi 150,40 desyatin olan torpaq uğrunda Əlimərdan kəndi ilə Yellincə kəndi arasında mübarizə getmişdir; 2. Hər iki kəndin istifadəsində olan 1,33 desyatin torpaq uğrunda Alpava kəndi ilə İpəkli kəndi arasında mübarizə getmişdir; 3. Seyidli kəndinin istifadəsində olan 28 desyatin torpaq uğrunda Əbilkənd kəndi ilə Seyid kənd arasında mübarizə getmişdir; 4. Arnamus kəndinin istifadəsində olan, sahəsi 898,40 desyatin torpaq uğrunda mübarizə getmişdir; 5. Artiz kəndinin istifadəsində olan, sahəsi 44 desyatin torpaq uğrunda Bozkosa kəndi ilə Artik kəndi arasında mübarizə getmişdir; 6. Başgərni kəndinin istifadəsində olan, sahəsi 259,97 desyatin torpaq uğrunda Koxt kəndi ilə Başgərni arasında mübarizə getmişdir; 7. Armik kəndi ilə Ağbulaq və

---

[1417] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1886, т.III, с.28.

[1418] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1886, т.III, с.29.

Təzəkənd kəndlərinin istifadəsində olan, sahəsi 122,50 desyatin uğrunda Geranis, Armik, Ağbulaq və Təzəkənd kəndləri arasında mübarizə getmişdir; 8. Böyük Vedi kəndi 26,40 desyatin torpaq uğrinda 2-ci Çatqran kəndi ilə, Reyhanlı kəndi 72 desyatin torpaq uğrunda Gerovan kəndi ilə (bu iki sahə Böyük Vedi kəndinin istifadəsində idi), 32 desyatin torpaq uğrunda (bu torpaq isə Gerovan və Əfşar kəndlərinin istifadəsində idi) Əfşar kəndləri ilə mübahisədə idi; 9. Xəlisə kəndinin kəndlilərinin istifadəsində olan, sahəsi 42,41 desyatin torpaq uğrunda Dəvəli kəndi ilə Xəlisə kəndləri arasında mübarizə gedirdi. Ümumiyyətlə, kəndli cəmiyyətləri arasında ümumi sahəsi 1678,41 desyatin olan torpaq uğrunda mübarizə getmişdir. Həm xəzinə kəndliləri, həm də kənd cəmiyyətləri arasında baş verən narazılıqların həlli Dövlət Əmlak Nazirliyinə həvalə olunmuşdur[1419].

Naxçıvan qəzasında mülkədar və dövlət kəndliləri arasında olan ayrı-ayrı sahələr üzrə mübahisəli pay torpaqlarının sahəsi 1 desyatinlə 10 desyatin arasında olmuşdur. Bəzi ərazilərdə zəbt edilmiş xəzinə torpaqlarının sahəsi 27,5 desyatindən 400 desyatinə, zəbt edilmiş yeddi kəndin ümumilikdə pay torpağının sahəsi isə 1174,50 desyatinə bərabər idi. Bundan əlavə, yerli mülkədarlardan biri Yaycı kəndinə məxsus 750 desyatin torpağa iddia edirdi[1420].

Naxçıvan qəzasının Şadı və Qaraboy dövlət kəndlərinin kəndliləri arasında 45 desyatin pay torpağı, Korçevan, Naxçıvan, Akaryak kəndləri və Zəngəzur qəzası arsında 100 desyatin pay torpağı uğrunda mübahisələr qeydə alınmışdır[1421].

Şərur-Dərələyəz qəzasında xəzinə və sahibkar kəndliləri arasında hər bir sahəsi 14,14 desyatinlə 621,25 desyatin arasında

---

[1419] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1886, т.III, с.28; Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1887, т. II., с.299.

[1420] Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1887, т. II., с.299.

[1421] Yenə orada, s.300.

olan, ümumi sahəsi isə 2812,58 desyatin olan 14 kəndin bağ sahələri üstündə mübahisə olmuşdur. Bundan əlavə, dövlət kəndlilərinə məxsus ümumi sahəsi 6202,51 desyatin olan 32 bağ mübahisə obyekti olaraq qalırdı. Bu mübahisəli bağların ümumi sahəsi bir o qədər də böyük deyildi, əksəriyyəti 6 desyatindən 343,32 desyatinə bərabər idi. Yalnız Ağdərə kəndində sahəsi 1,705,84, Başkənd kəndində isə 1,800,00 desyatin bağ qeydə alınmışdır[1422].

Sürməli və Üçmüəzzin qəzalarında bəzi kəndlər arasında pay torpaqları üstündə mübahisə olmuşdur. Xüsusilə mərzləşmə zamanı bu mübahisələr tez-tez baş verirdi. Sürməli qəzasında mərzləmə zamanı Bəhərli kəndinin kəndlilərinin istifadəsində olan dörd torpaq sahəsi üstündə bu kənlə mülkədar kəndi olan Mələkli kəndi arasında mübahisə düşmüşdü. Birinci sahə 19 desyatin 1500 kvadrat sajen, ikinci sahə 5 desyatin, üçüncü sahə 1200 kvadrat sajen, dördüncü sahə isə 15 desyatin olmuşdur. Mərzləmə zamanı xəzinə kəndi olan İğdır-mova kəndinin seçilmiş nümayəndələri ilə xəzinənin səlahiyyətli nümayəndələri və xəzinə-mülkədar kəndli olan Arhacı kəndinin seçilmiş nümayəndələri arasında mübahisə baş vermişdir[1423].

Üçmüəzzin qəzasında da mərzləmə zamanı bir neçə kənd arasında torpaq uğrunda mübarizə getmişdir. Mübarizələr bu kəndlər arasında olmuşdur: 1. Xəzinə-mülkədar kəndi olan Qaracalarda 30 desyatin 480 kvadrat sajen birinci torpaq sahəsi uğrunda kənd cəmiyyəti tərəfindən seçilmiş xəzinənin səlahiyyətli nümayəndəsi ilə həmin kəndin mülkədarı Mələk xanım Ağamalı arasında, 321 desyatin ikinci torpaq sahəsi uğrunda isə həmin şəxslərlə Maqdı kəndinin sahibkarları arasında mübahisə olmuşdur. Hər iki torpaq sahəsi Qaracalar kəndlilərinin istifadəsində idi; 2. Yerqov kəndlilərinin istifadəsində olan ümumi

---

[1422]Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1887, т. II с.300-301.

[1423] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, т.III, Тифлис, 1886, с.276.

sahəsi 76 desyatin 1440 sajen torpaq uğrinda xəzinənin səlahiyyətli nümayəndəsi və Dqir kəndinin seçilmiş adamları ilə Yerqov kəndinin sahibkarları arasında mübahisə olmuşdur; 3. Sahəsi 83 desyatin 600 kvadrat sajen torpaq uğrunda mülkədar kəndi olan Qarxun kəndliləri ilə xəzinə tərəfindən vəkil edilmiş həmin kəndin mülkədarı Musa xan Makulu arasında mübarizə olmuşdur. Həmin sahə xəzinənin ixtiyarında idi və xəzinə bu sahəni ildə 30 rubl məbləğində 24 il müddətinə Mirzə Mahmud Yaqub Əli bəy oğluna icarəyə vermişdi[1424].

Hər iki qəzada baş verən torpaq mübahisələri haqqında iddia 1885-ci ilin mayında İrəvan dairə məhkəməsinə müraciət edilmiş, lakin məhkəmə bu məsələlərə hələ ki, baxmamışdır.

Məlumata görə, Yenibəyazid qəzasında olan 124 bağ sahəsindən 6-da mübahisə qeydə alınmışdı. Mübahisəli bağların ümumi sahəsi 790,25 desyatin idi. Bu bağlardan ümumi sahəsi 348, 90 desyatin olan 4 sahə dövlət kəndlilərinə və Yenibəyazid şəhərinin sakinlərinə, ümumi sahəsi 441,5 desyatin olan iki sahə isə şəxsi adamlara məxsus idi[1425].

Yenibəyazid qəzasında kənd cəmiyyətləri arasında pay torpaqları üstündə mübahisələr bununla tamamlanmamışdı. Məlumata görə, 51 kəndin kəndliləri arasında ümumi sahəsi 8118,78 desyatin olan 94 sahədə mübahisəli torpaq qeydə alınmışdır[1426].

Aleksandropol qəzasında yalnız dövlət kəndliləri arasında xeyli torpaq mübahisələri olmuşdur. Lakin XIX yüzilliyin 80-ci illərinin ortalarında qəzalar üzrə bu barədə tədqiqatlar aparılarkən bu mübahisələr haqqında heç bir qeyd aparılmamış, şəxsi torpaq sahələrində isə heç bir torpaq mübahisələri olmamışdır[1427].

---

[1424] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1886, т.III, с.276-277; Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1885, т.I, с.301.

[1425] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1885, т.I, с.300.

[1426] Yenə orada, s.300.

[1427] Материалы для изучения экономического быта государственных

Tezliklə, İrəvan qəzasının Novruzlu, Dəlilər, Gedəkli, Uğurbəyli və Çiləxanlı kəndlərində sakinlərlə mülkədarlar arasında pambıq vergisi üstündə mübahisə başlamışdı. Həmin kəndlərin mülkədarları 1886-cı il avqustun 29-da İrəvan bölməsinin barışdırıcı münsifinə ünvanladıqları məktubda kəndlilərin pambığı oğurladıqlarını, pambıq vergisini vermədən yığıb evə daşıdıqlarını, birbaşa xırmandan onlara çatacaq vergini vermədiklərini qeyd etmişdilər. Onlar bildirirdilər ki, kəndlilər pambığı evə daşımalı deyil, birbaşa xırmandan onlara çatacaq pambıq vergisini ödəməyə məcburdular[1428].

Barşdırıcı münsif mülkədarların şikayətinə baxaraq, Uğurbəyli kənd cəmiyyətinin kəndxudasına 1886-cı il noyabrın 7-də fərman göndərmişdir. Fərmanda göstərilirdi ki, qeyd edilən kəndin sakinləri pambığı yığdıqdan sonra birbaşa xırmandan mülkədarlara çatacaq vergini ödəməli, ondan sonra özlərinə çatacaq hissəni evə daşımalıdırlar. O, bu işin yerinə yetirilməsi üçün kəndxudaya bir ay vaxt vermiş, əks təqdirdə onu işdən qovacağı ilə hədələmişdi[1429].

İrəvan quberniyasında bəzi kəndlərdə torpağın azlığından əziyyət çəkən sakinlər pay torpaqlarının yenidən ölçülməsi haqqında icma qərarı çıxarmışdılar. Sabunçu kənd cəmiyyətinin vəkil edilmiş sakinləri Bayraməli Əmiraslan oğlunun, Əhməd Məşədi Cəfər oğlunun və digərlərinin mərhum barışdırıcı münsif Məlik Ağamalova 1885-ci il martın 14-də göndərdikləri məktubda sakinlərin istifadə etdikləri əkin və örüş sahələrininin yenidən ölçülməsini və Sabunçu kəndində olan digər əkin sahələri ilə birlikdə yenidən bölgü keçirmək istədiklərini icmalıqla qərar çıxardıqlarını bildirmişdilər. Lakin yeni barışdırıcı münsif 1885-ci il aprelin 4-də çıxardığı qərarda qanunla icma qərarının əsassız

---

крестьян Закавказского края, Тифлис, 1886, т.III, с.461-465; Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, Тифлис, 1885, т.I, с.299.

[1428] Крестьянское движение в Армении в XIX века, Ереван, 1948, с.342-343.

[1429] Yenə orada, s.343-344.

olduğunu bildirmiş, onu təsdiq etməmişdi[1430].

Ağcaqala kənd sakinləri də onlara məxsus pay torpaqlarının az olmasından şikayət etmişdilər. Bu kənd sakinlərinin 1887-ci il sentyabrın 7-də keçirdiyi icma yığıncağında pay torpaqlarının az olması və mülkədarlara məxsus artıq torpağın kəsilərək onlara verilməsi haqqında qərara çıxarmışdılar. Qərarda göstərilmişdi ki, kəndin mülkədarları Hüseyn ağa Hacı Məhəmməd ağa oğlu və Avram Navasardov bilavasitə hər biri 1 xalvar 5 somar torpağa malikdirlər. İcma qərarına görə, Hüseyn ağa ona məxsus torpağı özü əkib-biçdiyinə və onlarla bərabər dövlətə vergi verdiyinə görə ona məxsus torpaqlar onda qalsın, lakin Avram Navasardovun torpaqları kənd sakinləri arasında bölüşdürülsün. İcma qərarını 44 nəfər imzalamışdı[1431].

İrəvan quberniyasında torpaq üstündə narazılıqda polis idarəsinin də günahı olurdu. Məsələn, Yenibəyazid qəzasının Zarzibil kəndinin sakinlərinin 1892-ci il iyunun 30-da İrəvan quberniyası Dövlət Əmlakı idarəsinə yazdıqları şikayət ərizəsində 4-cü sahəsinin polis pristavı Levitskinin heç bir səbəb olmadan onlara məxsus "Quzey" torpaq sahəsini əllərindən alaraq qonşu Ağkilsə kəndinin sakinlərinə verdiklərini bildirmişdilər. Zarzibil sakinləri tezliklə səlahiyyətli torpaqölçən göndərilməsini xahiş edir, əks təqdirdə böyük qarşıdurma, bədbəxt hadisələr olacağı ilə hədələyirdilər[1432].

İrəvan qəzasının Əliməhəmməd kəndinin sakinləri də öz mülkədarlarına vergi ödəməkdən imtina etmişdilər. Onlar arasında narazılıq bir neçə il davam etmişdi. Həmin kəndin mülkədarının şikayətinə baxan barışdırıcı münsifin 1895-ci il noyabrın 14-də Dəvəli kənd cəmiyyətinin kəndxudasına göndərdiyi bildirişdə Əliməhəmməd Qışlaq kəndinin sakinlərinin öz mülkədarlarına vergi vermədiklərini bildirmiş və bu işin icrası üçün göstəriş vermişdir[1433].

---

[1430] Yenə orada, s.355-356.
[1431] Крестьянское движение в Армении в XIX века, с.356-357.
[1432] Yenə orada, s.362.
[1433] Yenə orada, s.370.

Dəvəli kənd cəmiyyətinin kəndxudasının barışdırıcı münsifə göndərdiyi raportda Əliməhəmməd kənd sakinlərinin mülkədar Məhəmmədqulu bəy Makuluya məxsus 35 xalvar torpaq sahəsini tanımaqdan imtina etdiklərini, bu torpaqları istifadə etdiklərini və buna görə də vergi verməyəcəklərini bildirmişdilər[1434].

Kəndlilərin narazılığını görən barışdırıcı münsif bu məsələni həll etmək üçün İrəvan qəzasının IV polis bölməsinin pristavına məktub göndərmək məcburiyyətində qalmışdı. O, 1896-cı il fevralın 29-da göndərdiyi məktubda pristavdan xahiş edirdi ki, vergini ödəmək üçün kənd sakinlərini məcbur etsin[1435].

Lakin pristavın işə qarışması da heç bir nəticə verməmişdi. Ona görə də, barışdırıcı münsif bu məsələni yoluna qoymaq üçün İrəvan qəza rəisinə məktub göndərməyə məcbur olmuşdu. Məktubda o, Dəvəli kənd idarəsinin və IV sahənin pristavının və İrəvan qəzası rəisinin baş köməkçisinin iştirakı ilə kənd sakinlərinə mülkədarlara könüllü olaraq vergi vermək tələb olunsa da, sakinlər bundan imtina etmişdilər.

Kənd sakinlərinin inadkarlığını görən barışdırıcı münsif torpaqların yenidən ölçülməsi üçün yerölçən çağırmağa məcbur olmuşdu. Nəticədə, yerölçən Domaşevin iştirakı ilə Əliməhəmməd Qışlağı kəndinin torpaq sahələri yenidən ölçülərək sərhədləri müəyyən olunmuş, akt və protokol tərtib edilmişdir. Ölçülən torpaq sahəsi 73 desyatin olmuşdur[1436].

Yeni torpaq bölgüsü aparıldıqdan sonra qardaşları və öz adından mülkədar Əli bəy Makulu, vəkil edilmiş kənd sakinlərindən Ağacan Kərbalayı Əli oğlu, Niftəli Kərbalayı Əli oğlu, Abdulla Əli Kərbalayı Məhəmmədhəsən oğlu və Məşədi Ələkbər Məşədi Cəfər oğlu arasında müqavilə bağlanmışdır. Müqaviləyə əsasən 35 xalvar torpaq sahəsi bölünmüş, onun 23 xalvar 96 kv. sajeni mülkədar Ağa Makulunun və onun qardaşlarının, qalan hissəsi isə kəndlilərin payına düşmüşdü. Bundan əlavə, mülkə-

---

[1434] Крестьянское движение в Армении в XIX века, с.370.
[1435] Yenə orada, c.370-371.
[1436] Yenə orada, s.371-372.

darlar bu torpaqları Araz çayından və kəndlilər isə torpaqlarını ümumi kanaldan suvarmalı idilər[1437].

İrəvan quberniyasının bəzi kəndlərində kəndlilərə məxsus pay torpaqları mülkədarlar tərəfindən zəbt edilmişdi. İrəvan qəzasının Qaladibi kənd sakinlərinin vəkil edilmiş nümayəndələrinin 1896-cı il martın 12-də İrəvan quberniyası Dövlət Əmlakı idarəsinə ünvanladıqları məktubda kənddə məskunlaşmış mülkədarlar Qulaməli bəy Əhməd bəy oğlu və Kərbalayı Əlibəy Əlibəy oğlu kəndlilərə məxsus ən yaxşı 5 xalvar torpağı zəbt etmələri haqqında şikayət etmişdilər[1438].

Digər kəndlərdə də eyni hadisələr baş vermişdi. İrəvan quberniyasının Bəyburt sakinlərinin 1896-cı il avqustun 19-da İrəvan quberniyası Dövlət Əmlakı idarəsinə göndərdikləri şikayət ərizəsində kənd mülkədarlarının sadə camaata məxsus 12 xalvar pay torpağını zəbt etdiklərini və sıxışdırıldıqlarını bildirmişdilər. Kənd sakinləri aztorpaqlılıqdan əziyyət çəkdiklərini və bu 12 xalvar pay torpağının geri qaytarılmasını, bundan əlavə kəndlilərə dəyən ziyanı doldurmaq üçün mülkədarlara çatacaq həmin ilin vergisinin ödənilməməsini xahiş edirdilər[1439].

Bu haqda İrəvan quberniyası Dövlət Əmlakı idarəsi qərar çıxarmış, həmin qərar icra olunmaq üçün İrəvan qəza rəisinə göndərilmişdir. Qərarda kəndlilərin iddiası rədd edilmiş, lakin örüş yerindən yalnız kəndlilərin istifadə etməsi haqqında qərar çıxarılmışdır[1440].

İrəvan qəzasının Ağamzalı kəndində sakinlərlə bəylər arasında torpaq üstündə mübarizə isə ciddi nəticələrə səbəb olmuşdur. Həmin kəndin mülkədarları 1897-ci il aprelin 29-da barışdırıcı münsifə yazdıqları məktubda sadə camaatın onların razılığı olmadan "Qorux" adlanan 9 desyatin 360 kv. sajen örüş sahəsini əkin üçün şumladıqları haqqında şikayət etmişdilər[1441].

---

[1437] Крестьянское движение в Армении в XIX века, с.372-373.
[1438] Yenə orada, c.375.
[1439] Yenə orada, s.376-377.
[1440] Yenə orada, s.377-378.
[1441] Yenə orada, s.378.

Barışdırıcı münsif isə İmanşalın kənd cəmiyyətinin kəndxudasına bu məsələni araşdırmaq üçün göstəriş vermişdi. Kəndxudanın araşdırması nəticəsində məlum olmuşdur ki, hər iki tərəfin mübahisə yeri olan həmin torpaqlar hələ 1896-cı ildən kənd sakinləri tərəfindən şumlanaraq əkilmiş, məhsuldan götürülən gəlirdən isə Abbasqulu bəy Hacıbəyova icradar Məşədi Səfər Əli Hacı Şərif oğlu tərəfindən vergi verilmişdir[1442].

Ağamzalı kəndinin mülkədarlarından biri Baxşəli bəy Nəsir bəy oğlu isə sakinlərin əkdiyi sahədən ona da pay ayrılmasını və eyni zamanda gələn gəlirdən ona da vergi verilməsini 1899-cu il avqustun 31-də yazdığı şikayət məktubunda barışdırıcı münsifdən xahiş etmişdir[1443].

İrəvan quberniyasında müxtəlif kəndlərdə vergi məsələsində mülkədarlarla kəndlilər arasında mübahisə daha ciddi xarakter almışdı. Məsələn, İrəvan erməni-qriqoryan yeparxiyasının ruhani idarəsinin 1898-ci il sentyabrın 18-də İrəvan bölməsinin barışdırıcı münsifinə yazdığı müraciətdə Mehrab-Kürkənd, Mehrab-Təpəbaşı və Mehrablı sakinlərinin əkin sahələrini meyvə-üzüm bağlarına çevirdiklərini və nəticədə onlara çatacaq vergidən məhrum olduqlarını bildirmişdilər. Ruhani idarəsi barışdırıcı münsifdən meyvə bağlarından gələn gəlirdən vergi ödənilməsində köməklik göstərilməsini xahiş edirdi[1444].

Eyni hal İrəvan qəzasının Doqquz kəndində də baş vermişdi. Kəndin mülkədarının vəkil edilmiş adamının barışdırıcı münsifə 1898-ci il oktyabrın 7-də yazdığı məktubda bildirilirdi ki, 1879-cu ildən sonra kənd sakinləri ona məxsus meyvə bağlarını zəbt etmiş və heç bir vergi ödəmirlər. Barışdırıcı münsifə həmin meyvə bağlarını zəbt etmiş sakinlərin siyahısı göndərilmiş, ondan həmin şəxslərdən gələn gəlirdən $^{1}/_{30}$ hissə ayrılmsına

---

[1442] Крестьянское движение в Армении в XIX века, с.378-379.

[1443] Yenə orada, s.379

[1444] Yenə orada, s.380.

sərəncam verilməsini xahiş etmişdir[1445].

İrəvan qəzasının Çiləxanlı və Uğurbəyli kəndlərinin mülkədarı Baxşəli bəy Əhməd Xanbəyov da eyni məsələ ilə barışdırıcı münsifə şikayət etmişdi. O, 1899-cu il iyunun 15-də barışdırıcı münsifə yazdığı məktubda 1879-cu ildən sonra ona məxsus bağların, bağları zəbt edənlərin siyahısını göndərilmiş, ondan bağlardan gələn gəlirdən onun payına düşən verginin $^{4}/_{30}$ hissəsinin verilməsi haqqında sərəncam verilməsi xahiş olunmuşdur. Lakin barışdırıcı münsif Baxşəli bəyin şikayətini rədd etmiş, şikayəti əsassız saymışdır[1446].

Yenibəyazid qəzasının Quzılbulaq kəndinin sakinləri ilə mülkədrlar arasında torpaq və örüş sahələri üstündə toqquşma da böyük əks-səda doğurmuşdu. 1900-cü il martın 2-də Qızılbulaq kənd sakinlərinin vəkil edilmiş nümayəndələrinin İrəvan quberniyası Dövlət Əmlak idarəsinə ünvanladıqları məktubda bildirilmişdi ki, 1886-cı il siyahıyaalınmaya görə, Qızılbulaq kəndi 61 evdən ibarət olmuş, əsrin əvvəllərində isə bu evlərin sayı 146-ya çatmışdır. Ona görə də, kənd sakinləri aztorpaqlılıqdan əziyyət çəkdiklərini, bunun səbəbinin kəndin mülkədarları Şıxəli bəy Mustafa ağa oğlunda və onun oğlu Böyükağa Şıxəli oğlunda gördüklərini bildirmişdilər. Onların yazdığına görə, dövlətin göstərişi ilə vaxtilə mülkədarlara kənd torpaqlarından 500 desyatin münbit torpaq ayrımışdır. Lakin mülkədarlar bununla kifayətlənməyərək kənd sakinlərinin ümumi istifadəsində olan torpaqları da mənimsəməyə başlamışdılar. Onlar ən münbit yerləri mənimsəyərək sadə kənd camaatını gələn gəlirdən məhrum etmişdilər. Bundan əlavə, mülkədarların özlərinin örüş sahələri olsa da, onlar kəndlilərin istifadəsində olan, buna görə xəzinəyə hər il 328 rubl 94 qəpik vergi ödədikləri, sahəsi 1912 desyatin olan "Göydağ" və "Təpədağ" adlanan örüş yerlərindən də istifadə edirdilər. Bu azmış kimi mülkədarlar özbaşınalıq edərək həmin

---

[1445] Yenə orada.

[1446] Крестьянское движение в Армении в XIX века, с.381.

örüş yerlərini Cavanşir və Şuşa qəzalarından gəlmiş adamlara icarəyə verirdilər. Əkin sahələrinin suvarılması məsələsində də narazılıq yaranmışdı. Mülkədarlar 3000 rubl artıq xərc çəkməklə tez-tez arxları kəsərək öz sahələrini suvarır, kəndlilərin əkin sahələri isə susuzluqdan məhv olmuşdu. Kəndlilər mülkədarların özbaşınalığına son qoyulmasını, zəbt edilmiş torpaqların geri qaytarılmasını və kəndə yerölçənin göndərilməsini Əmlak idarəsindən xahiş etmişdilər[1447].

İrəvan quberniyası Dövlət Əmlakı idarəsinin 1900-cü il iyunun 6-da Yenibəyazid qəza rəisinə göndərdiyi məktubunda bildirilmişdi ki, mülkədarların örüş yerlərinə iddiası əsassız sayılsın, bu yerlər kənd cəmiyyətinin pay torpağı kimi camaatın istifadəsində qalsın[1448].

İrəvan qəzasının Qaratorpaq kəndində sakinlərlə mülkədarlar arasında vergi üstündə dava bir neçə il davam etmişdi. Kənd camaatı 1900-cü il iyunun 10-da barışdırıcı münsifə ünvanladıqları məktubda yazırdılar ki, onlar yığılan məhsulun $^{4}/_{30}$ hissəsini mülkədarlara vergi ödəyirlər. Qaratorpaq kəndi dağlıq zonada yerləşdiyindən burada məhsul zəif olurdu. Ona görə də kənd sakinləri barışdırıcı münsifdən yeni torpaqölçən göndərilməsini, mülkədarlara məxsus torpaqların bölünərək $^{4}/_{30}$ hissəsini onlara verilməsini xahiş etmişdilər. Lakin mülkədarlar buna etiraz etdiklərinə görə, barışdırıcı münsif kəndlilərin bu xahişini rədd etmişdi[1449].

İrəvan quberniyasında kəndlər arasında da torpaq üzərində mübarizə davam etmişdi. Məsələn, İrəvan qəzasının Kyalalay kənd sakinləri 1901-ci il martın 10-da İrəvan quberniyası dövlət Əmlak İdarəsinə yazdıqları məktubda qonşu xəzinə kəndi olan Hacıilyas, mülkədar kəndləri olan Xaçaparax və Hacıqışlaq kəndlərinin sakinlərinin onlara məxsus torpaqlarda mərzləmə

[1447] Крестьянское движение в Армении в XIX века, s.382-384.
[1448] Yenə orada, c.385.
[1449] Yenə orada, s.386-387.

nişanlarını ləğv edərək, kəndə məxsus torpaqların bir hissəsini ələ keçirmələrindən şikayət etmişdilər. Nəticədə bu kəndlər arasında toqquşma baş vermişdi. Məktubda Kyalalay kənd sakinləri torpaqölçən göndərilməsini, yenidən mərzləmə aparılmasını, mərzləmə nişanlarının bərpa edilməsini və bununla da kəndlilər arasında anlaşılmazlığın aradan götürülməsini xahiş edirdilər. Hətta kənd sakinləri yerölçənin bütün xərcini öz üzərinə götürmüşdü[1450].

Üçmüəzzin qəzasının Ağcaqala kəndində də eyni hadisə baş vermişdi. Bu kənd sakinlərinin 1901-ci il aprelin 24-də İrəvan quberniyası Dövlət Əmlak idarəsinə ünvanladıqları məktubda qonşu Karçaqovmaz kənd sakinlərinin onlara məxsus pay torpaqlarının bir hissəsini, kürd elatlarının isə örüş yeri olan Kələqul otlaqlarını zəbt etmələrindən şikayət edirdilər. Onlar pristava şikayət etmiş, əvəzində pristav onlara söyləmişdir ki, kənd sakinləri Dövlət Əmlak idarəsinə müraciət etsin, idarə isə qəza rəisinə göstəriş versin[1451].

Torpaqların zəbt edilməsi digər qəzalarda da baş vermişdi. Yenibəyazid qəzasında Ellicə və Dəlləkli kənd sakinlərindən Molla İbrahim Kərbalayı Tağı oğlu, Allahverdi Kərbalayı Məhəmməd oğlu və Kərbalayı Vəli Hüseyn oğlu Makaşevə məxsus mülk və bağı əhatə edən təpəlikləri ləğv edərək onun torpaqlarını zəbt etmişdilər. O, 1901-ci il iyunun 30-da İrəvan quberniyası Dövlət Əmlakı idarəsinə ünvanladığı məktubda yerli hakimiyyət orqanlarına bu özbaşınalığın qarşısını almaq barəsində göstəriş verilməsini xahiş etmişdir[1452].

İrəvan qəzasının Bağçacaq kəndində mülkədar Sultanbəyov kəndlilərə məxsus pay torpaqlarının bir hissəsini zəbt edərək, qanunsuz bu torpaqları əkib-becərirdi. Kəndin sakinləri

---

1450 Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, Ереван, 1951, с.179.
1451 Yenə orada, s.183.
1452 Yenə orada.

Vəli Salman oğlu və Əli Kərbalayı Tağı oğlu 1901-ci il sentyabrın 13-də yazdıqları məktubda Dövlət Əmlakı idarəsindən tezliklə yerölçən göndərilməsini xahiş etmişdilər[1453].

İrəvan qəzasının Buğamlu kəndində sakinlərlə mülkədar arasında vergi üstündə mübarizə kəskin xarakter almışdı. Kənd sakinlərinin 1901-ci il avqustun 28-də yazdıqları məktubda mülkədar Məhəmmədağa Sultanovun onlardan həddən çox vergi tələb etməsi barədə şikayət etmişdilər. Onlar Dövlət Əmlak idarəsindən kəndə yerölçən və nəzarətçi göndərilməsini xahiş etmişdilər[1454].

Bəzi kəndlərdə mülkədarlar vəziyyətdən sui-istifadə edərək kəndliləri məskunlaşdıqları torpaqlardan qovmağa çalışırdılar. İrəvan qəzasının Kötük kəndinin 15 ailəsinin 1904-cü il martın 30-da Dövlət Əmlakı idarəsinə ünvanladıqları şikayət məktubunda göstərirdilər ki, biz 15 ailə 11 il bundan əvvəl general Şeremetiyevin razılığı ilə Arazdəyən mülkündə məskunlaşmış, burada torpaq almış, ev tikmiş, əkinçiliklə məşğul olmuş, hətta sahibkara vaxtı-vaxtında vergi ödəmişik. Lakin indi həmin mülkün müdiri Qyabaev və Dövlət Əmlakı idarəsindən təyin edilmiş Əmir bəy bu ailələri sıxışdıraraq, bu mülkdən köçməyə məcbur edir, hətta onlara zor tətbiq edirdilər. Kənd sakinləri bu özbaşınalığın qarşısını almağı Dövlət Əmlakı komitəsindən xahiş edirdilər[1455].

İrəvan qəzasının Zar kəndində də vergi üstündə mübarizə bir neçə il davam etmişdi. İrəvan qəzasının Zar kəndi həm Azərbaycan türklərinin, həm də ermənilərin birgə yaşadıqları yaşayış məntəqəsidir. Bu kənd iki mülkədara-Karapet Muşeqova və Alerksandr Korqanova məxsus idi. Lakin A.Korqanov sonradan öz hüququnu İrəvan şəhər sakini Əli bəy Hacı Ələkbər oğluna vermişdi. Beləliklə, bu kəndin yarısı Əli bəyə vergi

---

[1453] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, с.184.
[1454]Yenə orada.
[1455] Yenə orada, c.196-197.

verməli idi. Əli bəy Hacı Ələkbər oğlu 1907-ci il iyunun 18-də barışdırıcı münsifə yazdığı məktubda göstərirdi ki, kəndin yarısını icarəyə götürməsinə baxmayaraq, dörd kəndli ailəsi özbaşına taxılı yığaraq, ona çatacaq vergini ödəməkdən imtina etmişdilər. İcradar onun və sərkərlərinin razılığı olmadan xırmandan ona çatacaq vergini ödəmədən kəndlilərin özbaşına məhsulu yığmamaları haqqında göstəriş verilməsini barışdırıcı münsifdən xahiş etmişdi[1456].

Lakin bu hadisə daha da dərinə gedərək böyük narazılığa səbəb olmuşdu. Əli bəyin 1907-ci il iyulun 24-də İrəvan qubernatoruna yazdığı ərizədə həyəcanla bildirmişdi ki, kəndlilər nəinki ona vergi verməkdən imtina etmişdilər, eyni zamanda onu hakimiyyət orqanlarına şikayət etdiyinə görə hədələmişdilər. Onun yazdığına görə, barışdırıcı münsif bu məsələni həll etmək üçün kəndin kəndxudasına kömək üçün müraciət etmişdi. Kəndə gələn kəndxuda əhalidən vergi verilməsini tələb etdikdə 7 nəfər - Kərbəlayı Molla Salman Habil oğlu, Abbas Kərbalayı Şirin oğlu, Kərbəlayı Rəhim Kərbəlayı Ramazan oğlu, Hüseyn Kərbəlayı Əli oğlu, Mikayıl İsaxanov, Karapet İsgəndərov və Yelizar Kostandov qiyam qaldırmış, digər kəndlilər də onlara qoşulmuşdular. Kəndlilər hakimiyyət orqanlarından kömək istəyəcəyi təqdirdə mülkədarı hədələyərək heç bir vergi verməyəcəklərini, Rusiyada olduğu kimi, mülkədarı döyəcəklərini və onun mülkünü yandıracaqlarını bildirmişdilər. İcarədar qubernatordan bu qiyamın qarşısını almaq, kənddə sakitlik yaradılmasını qubernatordan xahiş etmişdi[1457].

Hakimiyyət orqanlarının təzyiqini görən Zar kənd sakinləri mülkədarlarla olan vergi məsələsini həll etmək üçün İrəvan qəza rəisinə məktub göndərmək məcburiyyətində qalmışdılar. Onların 1907-ci il avqustun 6-da qəza rəisinə ünvanladıqları məktubda bildirmişdilər ki, bizim iki mülkədara vergi verməyə gücümüz

---

[1456] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, s.233-234.
[1457] Yenə orada, c.234-235.

çatmır. Əli bəy bizim cəmiyyətimizin razılığı olmadan bütün sakinlərin adından 45 xalvar vergi verilməsini 4 nəfərlə-Kərbalayı Salman Habil oğlu, Abbas Kərbalayı Şirin oğlu, Mukel İsaxanov və Sarkiz Petrosovla müqavilə bağlamışdır. Onlar bildirirdilər ki, hər iki mülkədara ayrı-ayrılıqda məhsuldan $^{4}/_{30}$ hissə vergi verməkdə çətinlik çəkirlər. Ona görə də, kəndlilər bu verginin $^{2}/_{30}$ hissəsinin Əli bəy, digər $^{2}/_{30}$ hissəsinin isə Muşeqov arasında bölüşdürülməsini qəza rəisindən xahiş edirdilər[1458].

Bütün görülən tədbirlərə baxmayaraq, Zar kəndində tərəflər arasında narazılığı yatırmaq mümkün olmamışdı. Belə ki, həmin kəndin mülkədarlarının 1909-cu il martın 9-da yazdıqları ərizədə bildirirdilər ki, bəzi kənd sakinləri icazə olmadan evlərini buraxaraq xırmanda məskunlaşır, burada ev tikir və gizli surətdə məhsulu yığıb üyüdürdülər. Digər kənd sakinləri də onlardan ibrət götürmüşdülər. Onlar bu hadisənin qarşısını almaqda aciz qaldıqlarını, bunun qarşısını almaqda onlara kömək göstərilməsini barışdırıcı münsifdən xahiş edirdilər[1459].

İrəvan qəzasının Zöhrablı kəndində bağ vergisi üsündə mübarizə böyük narazılıq yaratmışdı. Kəndin mülkədarı Həsən Cəlalov özünün və yaxınlarının adından 1909-cu il iyunun 25-də barışdırıcı münsifə yazdığı ərizədə yeni yaradılmış bağlardan sakinlərin ona çatacaq vergini ödəmədiklərindən şikayət edirdi. O, bildirirdi ki, artıq meyvə yığılmışdır. Ona görə də, bu meyvələrin pula çevilməsini və onlara çatacaq verginin pulla ödənilməsi haqqında göstəriş verilməsini barışdırıcı münsifdən xahiş etmişdi[1460].

Bu şikayətə baxan barışdırıcı münsif hər iki tərəfi razı salacaq qərar qəbul etmişdi. Qeyd etmək lazımdır ki, hər iki tərəfin vergi ödəmək məsələsində öz baxışı vardı. Mülkədarlar hər pudu 45 qəpik olmaqla bir somar sahədən 54 pud, kəndlilər

---

[1458] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, s.235-236.
[1459] Yenə orada, c.236-237.
[1460] Yenə orada, s.238.

isə 30 pud vergi ödənilməsini istəyirdilər. Lakin barışdırıcı münsif 1909-cu il noyabrın 14-də çıxardığı qərarda hər somar sahədən 40 pud vergi ödənilməsini təyin etmişdi. Qərar kəndlilərin narazılığına səbəb olmuş və onlar qərarı imzalamaqdan imtina etmişdilər[1461].

İrəvan qəzasının Kitran kənd sakinləri torpaqlarının qanunsuz kənar şəxslərə icarə verilməsindən şikayət etmişdilər. Belə ki, kəndin sakinlərinin 1910-cu ildə barışdırıcı münsifə ünvanladıqları məktubda bildirmişdilər ki, Kitran kəndinin mülkədarının yetim qalmış övladlarının və mülkünün qəyyumu Bağır Hacı Ələsgər oğlu iki il kəndin torpaqlarını hər il 500 rubl vergi verməklə icarəyə götürdükdən sonra onu kənar şəxsə icarəyə vermişdi. Yeni icarədar kəndliləri sıxışdıraraq onlardan vergi tələb edirdi. Lakin kəndlilər bununla razılaşmayaraq həmin torpaqların onların özünə icarə verilməsinə və əvəzində 50 rubl artıq vergi ödəməklə illik vergini 550 rubla çatdırmağa hazır olduqlarını bildirmişdilər[1462].

Yeni icarədar ildə kəndlilərin ona çatacaq vergini ödəməmələrindən şikayət edirdi. Onun 1910-cu il iyunun 4-də barışdırıcı münsifə yazdığı məktubda Kitran kəndini 1910-cu ildə icarəyə götürdüyünü və sakinlərin ona vergi ödəməməsindən şikayət edirdi[1463].

Yenibəyazid qəzasının Zod kəndində sakinlərlə mülkədarlar arasında örüş yeri üstündə mübarizə bir neçə il davam etmiş, bu məsələni həll etmək üçün qubernator başda olmaqla salahiyyətli dövlət orqanları qarışmalı olmuşdu. 1910-cu il mayın 7-də İrəvan qubernatorunun Əkinçilik və Dövlət Əmlak idarəsinin rəisinə göndərdiyi məktubda bildirmişdi ki, Zod sakinlərinin şikayətinə görə xəzinəyə məxsus "Səngər-Qatar-

---

[1461] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, s.239.
[1462]Yenə orada, c.241-242.
[1463] Yenə orada, s.242.

Qaya" örüş yeri üstündə kəndin mülkədarları Kəsəmənlilər ilə onlar arasında mübarizə başlamışdır. Qubernator bu məsələnin yoxlanılmasını Dövlət Əmlak idarəsindən xahiş etmişdi[1464].

İrəvan quberniyası Əkinçilik və Dövlət Əmlak idarəsinin II dərəcəli rayon xəzinə torpaqları və töycü sahəsinin nəzarətçisinin 1910-cu il iyulun 3-də yazdığı raportdan bəlli olur ki, "Səngər-Qatar-Qaya" örüş sahəsi 3662 desyatindən ibarətdir. Həmin örüş sahəsi kəndlilərin istifadəsində idi. Onlar bu örüş sahəsinin yarısını əkin, yarısını isə ot tədarükü üçün istifadə edirdilər. Ağaların bildirdiklərinə görə, 1909-cu ildə kəndlilər ot biçinindən 2000 araba ot satmışdılar. Lakin kəndlilər bu örüş yerinin onlara məxsus olmasını əsas gətirərək ağaların mal-qarasını bura buraxmaq fikrində deyildilər. Hətta mülkədarlar öz mal-qarasını bu örüş yerinə buraxmaq istədikdə sakinlərlə onların çobanları arasında atışma başlamışdı. Yoxlama nəticəsində məlum olmuşdur ki, 1910-cu il üçün İrəvan quberniyasının yaddaş kitabında Zod kəndinin mal-qarasının ümumi sayı 3040 baş olduğu göstərilmişdir. Lakin II İrəvan rayon dəftərxanasının apardığı yoxlamaya əsasən Zod mülkədarlarının 1500 baş, kəndlilərin isə 6000 baş mal-qarası olmuşdur[1465].

Mülkədarların vəzifələrindən sui-istifadə etmələrinə baxmayaraq, kəndlilər də özlərini müdafiə etmək məcburiyyətində qalmışdılar. Belə ki, Zod kənd sakinlərinin 1910-cu il iyulun 28-də İrəvan quberniyasının Dövlət Əmlak idarəsinə yazdıqları məktubda "Səngər-Qatar-Qaya" örüş sahəsinin 50 il ərzidə onların istifadəsində olduğunu, hər il bu örüş yerindən xəzinəyə 367 rubl 44 qəpik vergi verdiklərini, mülkədar Kəsəmənlilərin isə özlərinin geniş "Karvansaray Dərəsi" adlı örüş sahəsinə malik olduqlarını bildirmişdilər. Zod sakinləri daha sonra yazırdılar ki, Kəsəmənlilər bu örüş yerlərinin yarısını böyük pula sataraq

---

[1464] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, s.242-243.
[1465] Yenə orada, c.243-244.

ondan külli miqdarda gəlir götürmüş, 3000 evdən ibarət kəndin sakinlərinə isə "Səngər-Qaya-Dərəsi" örüş yeri həm qışlaq, həm də yaylaq kimi zorla çatırdı[1466].

Zod kəndində olan bu narazılıq Qafqaz canişinliyinə də çatmışdı. Məhz canişinin razılığı ilə "Səngər-Qatar-Qaya" örüş sahəsi tərəflər arasında bölünmüşdü. Hər iki tərəfin şikayətinə baxan İrəvan quberniyası Əkinçilk və Dövlət Əmlak idarəsinin rəisinin 1914-cü il martın 10-da Yenibəyazid qəza rəisinə göndərdiyi məktubda bölgü əsasında mülkədar Kəsəmənlilərə hər il 747 rubl vergi ödəməklə 830 desyatin yararlı, 36 desyatin yararsız, kəndlilərə isə 2008 rubl 80 qəpik vergi müqabilində 2232 desyatin yararlı, 57 desyatin isə yararsız torpaq sahələri düşmüşdür[1467].

İrəvan quberniyasında ayrı-ayrı kəndlərdə kəndlilərin mülkədarlara qarşı açıq üsyanları da baş vermişdi. İrəvan quberniya Jandarm idarəsinin rəisinin köməkçisinin 1910-cu il iyulun 12-də verdiyi gizli casus məlumata görə, Üçmüəzzin qəzasının Əxis, Əkərək, Nazirvan və Talın kəndləri mülkədarların torpaqlarını əllərindən almaq üçün inqilabi mübarizəyə başlamışdılar. Hətta bu gizli məlumatda kəndli hərəkatına başçılıq edən şəxslərin adları belə çəkilmişdi. Əxis kəndində hərəkatın başçıları Sadıq Əli oğlu, Məşədi Məhəmmədqulu oğlu, Əkərək kəndində Ələşrəf Cəfər oğlu, Paşa Budaq oğlu, Nazirvan kəndində Kərbəlayı Məhəmməd Məşədi İmanqulu oğlu, Məşədi Məhəmməd Məmiş oğlu, Məşədi Əziz Ərəb oğlu, Molla Abdulla Allahqulu oğlu, Talın kəndində isə İbrahim Paşa Talınlı idi. Bu casus məlumatında göstərilmişdi ki, Əxis kəndində kəndlilər and içmişdilər ki, mülkədar İsgəndər bəy Sultanovu öldürsünlər, onun mülkünü və torpaqlarını ələ keçirsinlər. Nəzirvan kəndində mülkədar torpaqlarını ələ keçirmək üstündə kəndlilərlə mülkədarlar arasında atışma baş vermişdi. Əkərək kəndinin kəndxudasının kö-

---

[1466] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, s.244-245.
[1467] Yenə orada, с.245-247.

məkçisi Əliəşrəf Cəfərov kəndliləri mülkədarlara qarşı silahlı müqavimət göstərmək üçün təbliğat aparır, hətta kəndin vergi yığanı İsmayıl Abbas oğlu, həmçinin kənd sakini Hüseyn Əli oğlu da bu təbliğata qoşulmuşdular. Əxis kəndində də Molla Canqulun başçılığı ilə kənd sakinləri Məşədi Məhəmməd qulu oğlu, Sadıq Qara oğlu və Kərbalayı Cabbar oğlu mülkədarlara qarşı kəndliləri inqilabi hərəkata çağırırdılar[1468].

Bəzi kəndlərdə kəndlilər torpaqlarının azlığından əziyyət çəkdiklərini, onlara əlavə torpaq bölünməsi haqqında hakimiyyət orqanlarına şikayət etmişdilər. Yenibəyazid qəzasının Ağzıbar kəndinin sakinlərinin İrəvan quberniyası Torpaq və Dövlət Əmlakı idarəsinə 1910-cu il iyulun 21-də göndərdikləri məktubda torpaqsızlıqdan əziyyət çəkmələri haqqında şikayət edir, onların mülklərinə yaxın yerləşən "Qırmızı dağ" və "Boyaqçı" torpaq sahələrindən istifadə etməyə icazə verilməsini xahiş etmişdilər. Kəndlilər bildirirdilər ki, bu torpaq sahələrindən istifadə etməsələr də, bir neçə ildir ki, bu yerlərə görə vergi verirlər. Onlar torpaqsızlıqdan şikayət edir, bunun günahını quberniyaya ezam edilmiş yerölçən Q.Nekrasovda görürdülər. Kənd sakinləri idarədən yeni yerölçən göndərilməsini, adı çəkilən torpaqların onlar arasında bölüşdürülməsini xahiş edirdilər[1469].

Eyni vəziyyət Yenibəyazid qəzasının Paşakənd kəndində də yaranmışdı. Bu kəndin sakinlərinin 1911-ci il martın 25-də İrəvan quberniyası Torpaq və Dövlət Əmlakı idarəsinə yazdıqları məktubda bildirmişdilər ki, onların kəndinin yaxınlığında xəzinəyə məxsus "Paşakənd çəmənliyi" adlanan töycü sahəsi yerləşir. Bu torpaq sahəsi vaxtilə torpaq komissiyası tərəfindən bizim pay torpaqlarımıza əlavə edilmişdir. Lakin keçən il Karvansaray sakini İsabəy Xaçaturov bu sahəni icarəyə götürərək bizim burada əkin əkməyimizə əngəl törətmişdir. Bu azmış kimi o, bizdən 200 rubl artıq vergi tələb edir. Kəndlilər xahiş edirdilər ki, onun icarə

[1468] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, с.247-248.
[1469]Yenə orada, c.248-249.

müqaviləsi ləğv edilsin, bu torpaq sahəsi onlara verilsin[1470].

İrəvan qəzasının Axundbuzovand kəndliləri də torpaq azlığından əziyyət çəkirdilər. Bu kənd sakinlərinin İrəvan quberniyası Torpaq və Dövlət Əmlakı idarəsinə 1911-ci il martın 21-də ünvanladıqları məktubda bildirmişdilər ki, onların kəndi 45 ev, 250 nəfərdən, münbit torpaqları isə cəmi 27 xalvardan ibarətdir. Onların payına düşən torpaq az olduğundan sakinlər kasıbçılıq həddinə çatmışdılar. Daha sonra məktubda göstərilirdi ki, kəndin yanında "Çatma" adlı torpaq sahəsi yerləşir. Bu sahədə su olmasa da, kənd sakinləri onu illik 480 rubl 40 qəpiyə icarəyə götürmüşdülər. Lakin qonşu kəndin sakinləri Məşədi Məhəmməd Həsən oğlu və İsabəy Şirəlibəy oğlu, qonşu "Ağdamlar" mülkünün sahibi "Çatma" torpaq sahəsinin böyük hissəsini ələ keçirmişdilər. Ona görə də, kənd sakinləri götürdükləri icarə torpaqlarından istifadə edə bilmirdilər. Sakinlər idarədən onlara məxsus torpaqların dəqiq sərhədlərinin təyin edilməsini xahiş edirdilər[1471].

Qubernator kəndlilərlə mülkədarlar arasında vergi məsələsini həll etmək, narazılığın qarşısını almaq üçün barışdırıcı münsifə göstəriş vermişdi. İrəvan qubernatorunun 1911-ci il iyulun 11-də barışdırıcı münsifə ünvanladığı məktunda yazırdı ki, sakinlər məhsulu yığılıb mülkədarlara vergi verərkən narazılığın qarşısını almaq üçün yerlərdə olmalı, hər iki tərəfin razılığını həll etməlidir. Qubernator bu məsələdə şəxsən barışdırıcı münsifin cavabdeh olduğunu bildirmişdi[1472].

Verginin ağırlığından bəzi kəndlər hətta hakimiyyət nümayəndələrinə hücumlar edirdilər. Belə ki, Üçmüəzzin kilsəsinin sinodunun üzvü, Bicni kilsə meşəsinin müdirinin 1911-ci il iyulun 13-də İrəvan qubernatoruna yazdığı məktubda Bicni kənd əhalisinin kilsəyə vergi verməməsindən şikayət etmişdi[1473].

---

[1470] Yenə orada, s.250-51.

[1471] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, с.251-252.

[1472] Yenə orada, c.252-253.

[1473] Yenə orada, s.253.

Məktubu alan qubernator bu məsələni həll etmək üçün barışdırıcı münsifə göstəriş vermişdi. Lakin kənd sakinləri nəinki vergi verməkdən imtina etmiş, hətta barışdırıcı münsifin adamlarına hücum çəkmişdilər. Barışdırıcı münsifin 1911-ci il iyulun 19-də İrəvan qubernatoruna yazdığı raportda göstərirdi ki, o, iyulun 17-də Bicni kəndinə gələrək Arzakənd cəmiyyətinin kəndxudasını yanına çağırmış, ondan Üçmüəzzin kilsəsinin xeyrinə əhalidən ot və digər ərzaq vergisi yığmağı tələb etmişdir. Bir nəfərdən bu vergini tələb etdikdə kənd sakinlərindən 50 nəfər hücum çəkərək barışdırıcı münsiflə gəlmiş tərcüməçini, üç nəfər mühafizəçini, Arzakənd cəmiyyətinin kəndxudasını döyərək həmin yerdən qovmuşdular. Barışdırıcı münsif şikayət edirdi ki, kənd sakinləri dağıldığından o, qanuni akt tərtib edə bilməmişdi. Hətta barışdırıcı münsif Üçmüəzzin kilsəsinə vergi verməyə müqavimət göstərən kənd sakinlərindən ən fəallarının adını da yazmışdı. Həmin adlar içərisində Azərbaycan türkləri ilə bərabər ermənilər də olmuşdur[1474].

Bu hadisə böyük səs-küyə səbəb olmuşdu. Bicni əhalisi öz hərəkətlərini izah etmək üçün 1912-ci il fevralın 21-də İrəvan qubernatoruna yazdıqları məktubda bildirmişdilər ki, 5 ildir ki, Bicni kənd cəmiyyətinin Üçmüəzzin kilsəsinə çatacaq 120 stil (1 stil-800 qram) verginin icarəsi onlara məxsusdur. Hətta 1906-cı ildə onlar kilsəyə 1400 rubl icarə pulu vermişdilər. Ona görə də, kilsənin bizdən inciməyə heç bir səbəbi yoxdur. İcarə vaxtı qurtardığına görə kənd icmasının qərarına əsasən, Üçmüəzzin kilsəsinin icarə hüququ kənd sakinlərinə keçmişdir. Bicni sakinləri xahiş edirdilər ki, kilsənin keçmişdən yığdığı vergi hüququ kənd cəmiyyətinin ixtiyarına keçsin[1475].

Üçmüəzzin sinodu kəndlilərin bu tələbi ilə razılaşmayaraq, 1912-ci il aprelin 13-də İrəvan qubernatoruna yazdığı məktubda bildirmişdi ki, müqaviləyə əsasən 1907-1911-ci illərdə kilsənin

---

[1474] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, s.254-255.
[1475] Yenə orada, c.255-256.

bu kənddən aldığı icarə haqqı düzgün deyildir. Kənd cəmiyyəti vaxtlı-vaxtında bu icarə haqqını ödəməmişdir. Ona görə də, kilsə sinodu icarə haqqının kənd sakinləri tərəfindən yığılmasına etiraz etmişdir. Sinod qərara almışdır ki, 1911-ci il yanvarın 1-dən 1915-ci il yanvarın 1-nə qədər icarə haqqının yığılması iki nəfərə-Yenibəyazid şəhər sakini Karapet Karapetyana və Bicni kənd sakini Aleksandr Mitoyansuya tapşırılsın[1476].

Üçmüəzzin qəzasının Şəfiabad (başqa cür Aşağı Qarxun) kəndinin sakinləri torpaqsızlıqdan əziyyət çəkdikləri üçün narazılıq etmək məcburiyyətində qalmışdılar. Şəfiabad kəndinin kasıb sakinlərinin İrəvan qubernatoruna 1911-ci il dekabrın 8-də ünvanladıqları məktubda torpaqsızlıqdan əziyyət çəkdiklərini bildirmişdilər. Onlar bunun səbəbini 18 il ərzində heç bir torpaq bölgüsünün keçirilməməsində, torpaqların sərhədinin olmamasında və varlı təbəqənin torpaqları özbaşına zəbt etməsində görürdülər. Kəndlilər qeyd edirdilər ki, 3-4 adamdan ibarət ailə 10-12 adamın, 8-10 adamdan ibarət ailə isə 2-3 adamın malik olduğu torpağa sahibdirlər. Şəfiabad kəndinin kasıb kəndliləri qubernatordan tezliklə bu uyğunsuzluğu aradan götürülməsini, onlara da əlavə torpaqlar verilməsini xahiş etmişdilər[1477].

Şikayətlərinin baxılmadığını görən kənd sakinləri yenidən qubernatora şikayət ərizəsi yazmağa məcbur oldular. İrəvan qubernatoruna 1911-ci il dekabrın 30-da yazılan bu şikayət ərizəsindən məlum olur ki, Şəfiabad kəndinin münbit torpaqlarının bir hissəsi İrəvan quberniyasından çəkilən dəmiryolunun ərazisinə düşmüşdür. Onlar xahiş edirdilər ki, torpaqsızlığı aradan qaldırmaq üçün hökumət kəndə məxsus icma torpaqlarının sərhədində yerləşən ümumi icma torpaqlarından onlara da pay torpağı versin[1478].

---

[1476] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, s.256-257.
[1477]Yenə orada, c.257.
[1478] Yenə orada, s.258.

## 6.3. 1912-ci il islahatından sonra İrəvan quberniyasında mülkədar-kəndli qarşıdurması

Yuxarıda göstərildiyi kimi, çar Rusiyası Azərbaycanda və onun tərkib hissəsi olan İrəvan quberniyasında kəndli-mülkədar qarşıdurmasını həll etmək üçün bir neçə dəfə aqrar qanun islahatı həyata keçirmək məcburiyyətində qalmışdı. Lakin bu qanunlar qeyd edilən ziddiyyətləri nəinki həll etmədi, əksinə onu daha da kəskinləşdirdi. Nəhayət, 1912-ci il dekabrın 20-də mülkədar-kəndli arasında müvəqqəti mükəlləfiyyətlərin və asılılıq münasibətlərinin ləğvi üçün yeni aqrar islahat həyata keçirildi. Bu aqrar islahat haqqında yuxarıdakı fəsildə ətraflı bəhs edilmişdir. Həyata keçirilən bu qanun da gözlənilən nəticəni vermədi və torpaq, su üstündə və s. mülkədar-kəndli qarşıdurması davam etdi. Arxiv materiallarında bu qanunun acı nəticəsini sübut edən xeyli sənədlərə rast gəlmək mümkündür. Məsələn, bu qanun verilməmişdən əvvəl İrəvan qəzasının mülkədar kəndi olan Şorlu-Dəmirçi kəndinin əhalisi torpaq azlığından əziyyət çəkirdilər. Onlar 1912-ci il yanvarın 17-də İrəvan qubernatoruna ünvanladıqları məktubda bildirmişdilər ki, Şorlu-Dəmirçi kəndi 151 evdən ibarətdir. Lakin bu evlərdən 50 ailə yaxşı, qalan ailələr isə yoxsulluq içərisində yaşayır, sərgərdan həyat keçirirdilər. Bunun səbəbi varlı kəndlilərin müxtəlif vasitələrlə-satın almaqla, icarə götürməklə torpaqları qeyri-qanuni zəbt etmələri idi. Varlı kəndlilər hətta İrəvan dairə məhkəməsini rüşvətlə ələ alaraq onun vasitəsilə torpaqları ələ keçirirdilər. Şorlu-Dəmirçi kəndliləri şikayət məktublarında varlı həmkəndliləri-Hacı Abbas Hacı Zeynal oğlu, Hacı Rzaqulu Hacı Ələkbər oğlu, Kərbalayı Nasir Hacı Rza oğlu, Əsgər Hacı Məhəmməd oğlunun adlarını çəkərək, həmin şəxslərin ailələrinin 5-6 nəfərdən ibarət olmasına baxmayaraq hər biri 5-7 xalvar (1 xalvar-1,5 desyatin) torpaq sahəsinə, lakin 10-12 üzvi olan ailələr isə cəmi 20 batman (4,5 kq taxılın əkildiyi sahənin həcmi), yəni adları çəkilənlərdən 50 dəfə az torpağa malik idilər. Kəndlilər

qubernatordan yeni torpaq bölgüsünün keçirilməsini, bu özbaşınalığın qarşısının alınmasını xahiş edirdilər[1479].

Şorlu-Dəmirçi kəndlilərinin bütün səyinə baxmayaraq onların şikayəti nəzərə alınmamışdı. Qubernatorun İrəvan qəzasının I bölməsinin barışdırıcı münsifinə 1913-cü il yanvarın 23-də ünvanladığı məktubda göstərirdi ki, Şorlu-Dəmirçi kəndi mülkədar kəndi olduğundan qanuna görə yanvarın 1-dən kəndlilərlə mülkədarlar arasında müvəqqəti mükəlləfiyyət aradan qalxmışdır. Ona görə də, pay torpaqları onların şəxsi mülkiyyətinə keçmişdir. Bundan əlavə, mülkədar kəndində torpaqlar həyətbaşına bölünmüşdür. Bu baxımdan torpaqların yenidən bölünməsi qanuna ziddir[1480].

İrəvan qəzasının Çivandərə kəndinin sakinləri də torpaqların yenidən bölünməsi uğrunda mübarizə aparırdılar. Çivandərə kəndi cəmi 12 evdən ibarət olmuş, lakin dörd ev boş qaldığından kənddə cəmi 8 ailə yaşamışdır. Bu kənd sakinlərinin 1912-ci il yanvarın 24-də və 1913-cü il mayın 13-də İrəvan qubernatoruna ünvanladıqları məktublardan bəlli olur ki, Çivandərə kəndi 8 evdən ibarətdir. Bu ailələrdən üçü daha çox torpağa malikdir, daha yaxşı yaşayırlar. Lakin beş ailənin tərkibi çox olsa da az əkin sahəsinə malikdirlər. Varlı üç ailədən yüzbaşı Abduləlinin ailəsi 14 nəfər olmasına baxmayaraq, 10 xalvar torpaq sahəsinə malikdir və hər il 3 xalvar (çəki vahidi kimi 100 batman, 1 batman-450 kq) vergi, Mail Aylo oğlunun ailəsi 10 nəfərdən ibarət, 15 xalvar əkin sahəsinə malik idi və hər il 5 xalvar vergi, Sabo Maqe oğlunun ailəsi 24 nəfərdən ibarət, 20 xalvar əkin sahəsinə malik idi və hər il 6 xalvar vergi, kasıb kəndlilərdən birinin ailəsi 22 nəfərdən, 3 xalvar əkin sahəsinə malik idi və hər il 3 xalvar vergi, ikincisinin ailəsi 8 nəfərə, 1 xalvar əkin sahəsinə malik idi, hər il 1 xalvar vergi, üçüncüsünün ailəsi 22 nəfərdən, əkin sahəsi 2 xalvar 6 somardan

---

[1479] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, с.258-261.

[1480] Yenə orada, с.261.

(sahə ölçüsü kimi 3 pud taxılın səpildiyi əkin sahəsi) ibarət idi və hər il 2 xalvar 6 somar vergi (1 somar 3 puda bərabərdir), dördüncü ailə 9 nəfərdən, əkin sahəsi 2 xalvardan ibarət idi və hər il 2 xalvar vergi, beşinci ailə isə 22 nəfərə, əkin sahəsi 1 xalvar 3 somardan ibarət idi, hər il 1 xalvar 3 somar vergi ödəyirdilər. Kəndlilər bildirirdilər ki, üç varlı ailə torpaqların $^{2}/_{3}$ hissəsini zəbt etmişdir. Qalan kəndlilərin ailə üzvləri çox olsa da, torpaqsızlıqdan əziyyət çəkirdilər. Kasıb kəndlilər torpaqların yenidən ölçülməsini qubernatordan xahiş edirdilər[1481].

Kənd sakinləri hətta torpağı yenidən bölüşdürmək üçün iclas keçirərək icma qərarı çıxarmışdılar. 1913-cü il sentyabrın 30-da Qaraxaç cəmiyyətinin kəndxudası Qələndar Hacı İsmayıl oğlunun başçılığı və İrəvan qəzasının III məntəqəsinin barışdırıcı münsifinin iştirakı ilə keçirilən, 7 ailənin iştirak etdiyi iclasda qərar çıxarılmışdır ki, 12 il müddətinə ailə tərkibi nəzərə alınmaqla yenidən torpaq bölgüsü keçirilsin, bütün xərcləri kənd sakinləri üzərinə götürməklə bu bölgünü yerli yerölçən həyata keçirməli, 9 batmandan artıq torpaq sahəsi kəsilib ehtiyacı olanlara verilməli və bölgünü başa çatdırmaq üçün həmkəndliləri Mahmud Əhməd oğlu və Məhəmməd Hacı oğlu vəkil edilməlidır. 1913-cü il dekabrın 4-də İrəvan qubernatoru V.O.Tizenqauzenin sədrliyi ilə keçirilən kəndli məsələləri üzrə quberniya iclasında icma qərarına baxılmış və onun qanunsuz olması haqqında qərar çıxarılmışdır. Lakin sonda bu qərarla razılaşmayan tərəflərə 30 gün ərzində 2-ci Dövlət Senat Departamentinə şikayət etmək hüququ verilmişdir[1482].

Lakin kasıb kəndlilər bu qərarla razılaşmayaraq 1914-cü il yanvarın 22-də yenidən İrəvan qubernatoruna şikayət ərizəsi ünvanlamışdılar. Ərizədə onlar vəziyyəti yoxlamağı qubernatordan xahiş etmişdilər. Hətta İrəvan qəzasının III məntəqəsinin ba-

[1481] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, с.263.
[1482]Yenə orada, c.263-265.

rışdırıcı münsifinin yazdığı raportda da çıxarılan qərarın kəndlilər tərəfindən etirazla qarşılandığını bildirmişdi[1483].

Mülkədarlarla kənd sakinləri arasında torpaq uğrunda mübarizə Yenibəyazid qəzasının Böyük Məzrə kəndində də baş vermişdi. Kəndin mülkədarı Ağayevlər nəslindən olan Hüseyn ağa Allahyar ağa oğlu öz qardaşı uşaqları Babur Allahyar ağa oğlu və Xasay Ağakişi oğlu ilə birlikdə xəzinəyə məxsus ümumi sahəsi 78 desyatin olan 22 torpaq sahəsini illik 50 rubla icarəyə götürmək üçün İrəvan quberniyasının Torpaq və Dövlət əmlak idarəsinə ərizə vermişdilər. Onların bu ərizəsinə müsbət cavab verilsə də, kənd sakinlərinin böyük narazılığına səbəb olmuşdur. Çünki bu torpaq sahəsini kəndlilər istifadə edirdilər. Lakin Torpaq və Əmlak idarəsi bu torpaqların kəndlilər tərəfindən qeyri-qanuni zəbt etdiyini əsas gətirərək iddia irəli sürmüşdü. Bu iddianı yer quruluşu komissiyası əsaslı saymış və 1912-ci il aprelin 18-də kənd sakinlərinin vəkil edilmiş nümayəndələri İrəvan quberniyası kəndli məsələləri üzrə idarəyə çağrılmışdılar. Yer quruluşu komissiyasının qərarı ilə razılaşmayan kənd sakinləri Cenata şikayət ərizəsi göndərmişdilər. Kənd sakinlərinin 1912-ci il aprelin 16-da İrəvan quberniyası Torpaq və Dövlət Əmlakı idarəsinin rəisinə ünvanladıqları ərizədə göstərirdilər ki, kənd sakinləri neçə ildir ki, xəzinə palatasına vaxtlı-vaxtında vergi ödəyirlər. Onlar xahiş edirdilər ki, Senatın qərarı gecikdiyindən bu torpaqlar kənd sakinlərinin özlərinə icarə verilsin, əvəzində onlar ildə 50 rubldan da çox vergi ödəməyə hazırdılar[1484].

İrəvan qubernatoru vəziyyəti yoxlamaq üçün barışdırıcı münsifi, xəzinə torpaqlarının nəzarətçisini, polis pristavını işə cəlb etmişdir. Onun 1915-ci il mayın 3-də Torpaq və Dövlət Əmlakı İdarəsinin rəisinə ünvanladığı məktubda göstərilirdi ki, hələ 1910-cu ildə torpaq quruluşu komissiyasının işindən məlum olur ki,

---

[1483] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, s.265-166.

[1484]Yenə orada, c.277-279.

Böyük Məzrə kəndinin pay torpaqlarının sərhədində mərzlənməmiş Hüseynəli Ağayevə və onun qardaşı oğlu Babura məxsus torpaq sahəsi olmuşdur. Lakin kənd sakinlərinin səlahiyyətli nümayəndəsinin iddia etdiyinə görə, onların pay torpaqlarının sərhədində ağalara məxsus heç bir torpaq sahəsi olmamışdır. Uzun yoxlamadan sonra məlum olmuşdur ki, ümumi sahəsi 78,35 desyatin olan 22 torpaq sahəsi ağaların istifadəsində olmuş, bu torpaq sahəsindən biri sahəsi 1,2 desyatin olan malikanəyə, ikincisi sahəsi 11,8 desyatin olan ot çalımı sahəsinə, 20-si isə ümumi sahəsi 65,35 desyatin olan əkin sahəsinə məxsus olmuşdur. İrəvan qubernatoru bu torpaqların icarə formasında mülkədarların istifadəsində qalmasına razılıq vermiş, kəndlilərin şikayətini əsassız saymışdır[1485].

İrəvan quberniyasının Baxçacıq kəndində mülkədarlarla kəndlilər arasında da torpaq üstündə böyük narazılıq olmuşdur. Kənd sakinləri 1912-ci il sentyabrın 29-da İrəvan qubernatoruna ünvanladıqları şikayət ərizəsində yazırdılar ki, ildə 435 rubl 88 qəpik müqabilində onlara "Palçıqlı" adlanan 516 desyatin pay torpağı verilmişdir. Lakin mülkədarlardan Ağamirzə bəy Əli bəy oğlu, Həsən bəy İsmayıl bəy oğlu və Mahmud bəy İsmayıl bəy oğlu bizim əkin sahələrini ələ keçirərək iddia edirlər ki, bu torpaqların 62 xalvarı onlara məxsusdur. Hətta məhkəmə pristavı onlarla əlbir olaraq 2700 rubl məbləğində rüşvət əsasında Ağamirzə bəyə öz borcuna görə kənd sakinlərinin mal-qarasını mülkədarın xeyrinə siyahıya alır, mülkədarlar isə məhsulu onlardan zorla alırdılar. Belə hadisələrin birində həmkəndlilərdən Məhəmməd Abdulla oğlu bəylər tərəfindən başından yaralanmışdır. Kənd sakinləri ərizədə xahiş edirdilər ki, belə işlərin həlli İrəvan qəzasının III məntəqə pristavına tapşırılmasın. Kəndlilər bu hadisələrin daha da gərginləşməsində günahı pristavda görürdülər[1486].

---

[1485] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, с.282-283.
[1486]Yenə orada, c.294.

Bu şikayət ərizəsinə baxan qubernator İrəvan qəza rəisinə 1912-ci il oktyabrın 3-də xüsusi məktub göndərmişdi. O, məktubda qəza rəisinə mübahisəli torpaqların barışdırıcı münsif tərəfindən yoxlanılması, Məhəmməd Abdulla oğlunun yaralanmasının istintaq edilməsi barədə göstəriş vermişdi. Hətta o, məktubda göstərmişdi ki, əgər məntəqə pristavı bu məsələnin həllində hər hansı bir xəta edərsə sakinlərə ondan şikayət etmək hüququ vermişdi[1487].

Lakin bu məsələ uzandığından Baxçacıq kənd sakinləri mübahisəli məsələni həll etmək üçün 1912-ci il oktyabrın 31-də İrəvan qubernatoruna yeni bir ərizə göndərmişdilər. Ərizədə mübahisəli ərazi olan "Palçıqlı" torpaq sahəsinin sərhədlərini təyin etməyi İrəvan qəzasının III məntəqəsinin barışdırıcı münsifinə həvalə etməyi xahiş edirdilər[1488].

Torpaqların düzgün bölünməməsi məsələsindən Aleksandropol qəzasının Vartanlı kəndinin sakinləri də narazılq edirdilər. Həm Azərbaycan türklərinin, həm də ermənilərin yaşadığı Vartanlı kəndi 224 evdən ibarət idi. Kəndin 152 evinin sakinlərinin imzası ilə 1913-cü il yanvarın 21-də və 1914-cü il fevralın 24-də İrəvan qubernatoruna yazdıqları məktublardan bəlli olur ki, 1911-ci ildə kənd sakinlərinin yığıncağında qərara alınmışdır ki, sakinlərə məxsus torpaqlar yenidən ölçülsün. Onlar hətta öz adlarından üç nəfəri-Ələkbər Əliqulu oğlunu, Allahverdi Qasımxan oğlunu və Sako Ağamalıyevi vəkil təyin etmişdilər. Vəkil təyin edilmiş bu şəxslər xüsusi yerölçən dəvət edərək, kəndlilərin əkin, ot çalınma sahələrini, örüş yerlərini və hətta əkilməyən yerləri belə yenidən ölçdürmüşdülər. Bu iş başa çatdıqdan sonra vəkil edilmiş şəxslərə xüsusi kağız da verilmişdi. Sonradan məlum olmuşdur ki, həmin şəxslər sakinlərin inamından sui-istifadə edərək torpaq sahələrinin yenidən bölünməsini düzgün aparmamışdılar. Belə ki, bu bölgüdə yalnız 72 ev iştirak etmiş,

---

[1487] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, s.294-295.
[1488] Yenə orada, s.296.

varlı adamlara və onların qohumlarına münbit torpaqlar bölünmüş, kasıblara isə yararsız torpaqlar paylanmışdır. Hətta bəzi kəndlilərə, məsələn, ailəsi 14 nəfərdən ibarət olan, vergi verən İsgəndər Əhməd oğluna bu bölgüdə pay düşməmişdir. Kənd sakinləri bu haqsızlıq haqqında Aleksandropol qəzasının I məntəqəsinin barışdırıcı münsifinə şikayət etdikdə, o, sakinlərin şikayətini qulaq ardına vurmuşdur. Ona görə də, kənd sakinləri qubernatordan bu bölgünün ləğv olunmasını xahiş edirdilər[1489].

Kənd sakinləri ilə mülkədarlar arasında bu narazılığı görən İrəvan qubernatoru barışdırıcı münsifə xüsusi məktub göndərmişdir. Məktubda o, belə narazılıqlar yarandıqda barışdırıcı münsifin yerlərə ezam olunması, həmin narazılıqların yerindəcə öyrənilməsi, ölçü götürülməsi göstərişini vermişdir. Bundan sonra görülən ölçü haqqında qubernatora məlumat verilməsi xahiş olunmuşdur[1490].

İrəvan qəzasının Oxçabert kəndində də mülkədarlarla kəndlilər arasında torpaq üstündə mübarizə davam etmiş, hətta tərəflər arasına silahlı münaqişə baş vermişdir. Belə ki, Oxçabert kəndi İrəvan şəhər sakini İvan Korqanova məxsus idi. Lakin Korqanov bu kəndi sərkər Hüseyn Abbas oğlu vasitəsilə idarə edirdi. 1913-cü il mayın 4 və 29-da kənd sakinlərinin İrəvan qubernatoruna ünvanladıqları məktublardan bəlli olur ki, 15 il əvvəl mülkədar İ.Korqanov kənd cəmiyyətinə aid əkin sahəsindən 9 desyatin torpaq sahəsini mərzləmə nəticəsində kəsib götürmüşdür. Hal-hazırda onun 24 desyatin torpaq sahəsi vardır və o, bu torpaq sahələrini icarəyə vermişdir. Bundan əlavə, mülkədar kənd sakinlərinə örüş yerlərində mal-qara otarmağı qadağan etmişdir. Bu azmış kimi mülkədarın sərkəri Hüseyn Abbas oğlu sakinlərin onlara məxsus 12 desyatin sahəsi olan "Yarım-Yaylaq" adlanan torpaq sahəsindən sıxışdırmış, hətta sakinlərə silahlı hücum təşkil etmişdir. Belə ki, 1913-cü il mayın 28-də sərkər mühafizə dəstəsinin köməyi ilə

---

[1489] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, с.297-299.
[1490] Yenə orada, s.300.

kənd sakinləri Hüseyn İsmayıl oğlunu, kəndxudanın köməkçisi Məşədi Hüseyn Namaz oğlunu və Allahverdi Kərbalayı Həsənəli oğlunu əkin sahəsindən qovmuş, öz qardaşı oğlanları ilə birlikdə onları kötəkləmişdir. Hətta o, mühafizə dəstəsini köməyə çağırmamışdan əvvəl kəndlilərə odlu silahdan atəş də açmışdır. Bundan əlavə, İrəvan qəzasının I məntəqəsinin pristavını da bu işə cəlb edərək adları çəkilən kəndliləri həbs etdirmişdir. Hal-hazırda sərkər Hüseyn Abbas oğlu öz adamları ilə birlikdə Tülkü-təpəsi adlanan torpaq sahəsini əkib-biçir. Kəndlilər qubernatordan üç həmkəndlilərinin həbsdən azad olunmasını və sərkərin hərəkətlərinin yoxlanılmasını xahiş edirdilər[1491].

Bu mübahisə uzandığından İrəvan qubernatoru I məntəqənin barışdırıcı münsifinə bu məsələni yoxlamaq üçün göstəriş vermişdir. Barışdırıcı münsif sakinlərin pay torpaqları ilə mülkədarların şəxsi torpaqları arasında yerləşən torpaq sahəsinin mərzlənməsi üçün 1913-cü il iyunun 27-də protokol tərtib etmişdir. Protokola görə, mərzlənmə işi 1914-cü il may ayında Tiflis məhkəmə palatasının yerölçəni Hacıbəyov tərəfindən həyata keçrilməli idi[1492].

Tiflis Məhkəmə palatasının Mərzləmə idarəsi yerölçən Hacıbəyovu Oxçabert kəndinə ezam etmişdi. İrəvan qubernatorunun I məntəqəsinin barışdırıcı münsifinə 1914-cü il iyunun 2-də ünvanladığı məktubda bildirirdi ki, mülkədar İ.Korqanovun həyat yoldaşının şəxsən Hacıbəyovun kəndə ezam olunmasında xüsusi rolu olmuşdur. Hər iki tərəfin torpaq sahəsində sərhədi mərzlənmiş, məlum olmuşdir ki, bu torpaqlar mülkədarın xüsusi mülkiyyətindədir[1493].

Hətta İrəvan quberniyasının kəndli məsələləri üzrə idarəsi də bu "Yarım-Yaylaq" torpaq sahəsinin mülkədara məxsus

---

[1491] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, с.303-304.
[1492] Yenə orada, s.305.
[1493] Yenə orada, с.304-305.

olması haqqında qərar çıxarmışdır. İdarənin 1914-cü il noyabrın 19-da çıxardığı qərara görə, 230 desyatin sahəsi olan "Yarım-Yaylaq" torpaq sahəsi 1912-ci il dekabrın 20-də həyata keçirilən aqrar qanununa görə, sakinlərlə mülkədar arasında mübahisə obyektinə çevrilmişdir. Barışdırıcı münsifin araşdırmasından sonra bu torpaq sahəsi 1914-cü il mayın 17-də mülkədarın şəxsi torpağı kimi qeydə alınmışdı. Lakin kənd sakinləri bununla razılaşmayaraq İrəvan quberniyası kəndli məsələləri üzrə idarəyə şikayət etmişdilər. Onların bu şikayətinə baxılmış və kəndlilərin bu torpaq sahəsi üçün şikayəti əsassız sayılmışdır[1494].

Bu qərarla da razılaşmayan kəndlilər İrəvan qubernatoruna yenidən şikayət məktubu ünvanlamışdılar. İrəvan qubernatorunun çıxardığı qərardan məlum olur ki, Oxçabert kəndinə məxsus iki ayrı-ayrı torpaq sahəsi-"Xırda göl" torpaq sahəsi və "Yarım-Yaylaq" torpaq sahəsi olmuşdur. Narazılığı aradan qaldırmaq üçün qubernator birinci torpaq sahəsinin kəndlilərdə, ikincinin isə mülkədarların şəxsi istifadəsində qalması haqqında göstəriş vermişdir[1495].

Torpaqların icarəyə götürülməsi ilə bağlı məsələlər də müxtəlif qüvvələr tərəfindən mübahisə obyekti olmuşdur. Belə ki, İrəvan qəzasının Arazdəyən mülkünün Yanıx və Yelqovan qəsəbələrinin həm Azərbaycan türklərindən, həm də ermənilərdən ibarət 20 nəfər sakini 1913-cü il dekabrın 28-də hakimiyyət orqanlarına ünvanladıqları ərizədən məlum olur ki, mərhum general-leytenant Kaxanov qırx il əvvəl susuz "Arazdəyən" mülkünə suvarma üçün kanal çəkmək fikrinə düşmüşdü. Sakinləri olmadığına görə, bu iş üçün həm Qafqazın müxtəlif yerlərindən, hətta İran və Bolqarıstandan adamlar cəlb etmişdir. Kaxanovun ölümündən sonra "Arazdəyən" mülkü general-adyutant Şeremetiyevə, sonra onun oğlanlarına, hal-hazırda isə ticarət-sənaye "Aksioner cəmiyyəti"nə keçmişdir. Bütün bu illər ərzində sakinlər xəzinə kəndliləri kimi

---

[1494] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, s.306-307.

[1495] Yenə orada, c.308.

fəaliyyət göstərmiş, xəzinəyə vergi ödəmiş və müxtəlif mükəlləfiyyətlər yerinə yetirmişdilər. Kənd sakinləri əziyyətləri bahasına mülkə kanal çəkmiş və onu təmizləmiş, bataqlıqları qurutmuş, göllər yaratmış, ağaclar əkmiş, üzüm bağları salmış, şoran torpaqları münbit torpaqlara çevirmiş və s. işlər görmüşdülər. Hətta kənd sakinləri Şeremetiyevin icarəçiləri tərəfindən böyük zülmlərə məruz qalmışdılar. Buna baxmayaraq, kənd sakinləri öz torpaqlarında möhkəm dayanmışdılar. Lakin mülk "Akseoner cəmiyyəti"nin əlinə keçdikdən sonra vəziyyət daha da gərginləşmişdir[1496].

Vəziyyəti gərginləşdirən yeni şərtlərin tətbiq edilməsi idi. Akseoner cəmiyyəti ilə mülk arasında icarəyə görə 26 şərtdən ibarət qayda tətbiq olunmuşdu. Bu qaydalar icarədarla olan şərtlər idi. Bağlanan qaydalardan bəzisi bunlar idi: 1. İşinin öhdəsindən gələn icarədarla icarə 12 ilə bağlanırdı. Əgər icarədar işinin öhdəsindən gəlməsə məhsul yığımından sonra "Cəmiyyət"in hüququ çatırdı ki, müqaviləni pozsun; 2. İcarədar icarəyə götürdüyü sahədə il ərzində $^{1}/_{10}$ desyatindən az olmayaraq pambıq, digər məhsullar isə mülk sahibinin razılığı əsasında əkilməli idi; 3. Mülk sahibi əkin ərəfəsində sahəni şumlayır, pulsuz toxum paylayırdı. Kredit ödəmə qabiliyyətinə malik olan icarədara isə əkin-biçinə görə faizsiz pul borcu (ssuda) verilir, əvəzində o, məhsulun yarısını vergi verirdi. Əgər icarədar öz alətləri ilə sahəni ikiqat şumlayır və malalayırdısa hər desyatinə görə cəmiyyətdən 18 rubl alırdı. Yox əgər icarədar ona məxsus sahəni əkməsə, məhsul götürməsə əvəzində o, "Akseoner cəmiyyəti"nə cibindən 18 publ ödəməli idi. Bu səhlənkarlığa görə cəmiyyət icarədarla müqaviləni poza bilərdi; 4. Bütün pambıq "Cəmiyyət"ə təhvil verilməli idi. Məhsulun yarısı "Cəmiyyət"ə, digər yarısı isə icarədara məxsus idi. İcarədar öz hissəsini məhsulun yığılmasına və qorunmasına görə aldığı $3^{0}/_{0}$ pul ssudasını çıxmaq şərtilə, Qəmərli və Naxçıvan arasında xammalı bazar qiymətinə görə

[1496] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, с.310-312.

alırdı. Avqustun 15-ə qədər icarədar “Cəmiyyət”lə pambığın müəyyən qiymətlə satışında razılığa gəlməli idi; 5. İcarədar meyvə, üzüm bağları, bağça sala bilərdi. Əvəzində 1 batman, yəni 50 kv. sajen sahənin məhsulundan 1 rubl 75 qəpik icarə haqqı verməli idi; 6. Mal-qara örüşünə görə icarədara müəyyən yer ayrılır, əvəzində o, hər ay hər xırdabuynuzlu mal-qaraya görə 10 qəpik, iribuynuzlu mal-qaraya görə isə 50 qəpik vergi ödəməli idi[1497]. Müqavilədə digər şərtlər də öz əksini tapmışdı.

Müqaviləyə əsasən icarədar mülkü icarəyə götürdükdən sonra sakinlərin torpaqlarının 20 desyatini əlinə keçmişdi. Mülk sakinləri “Cəmiyyət”in qoyduğu yeni şərtləri qəbul etmək istəmirdilər. “Cəmiyyət” isə onlar qarşısında qəti şərt qoymuşdi: ya yeni qaydaları qəbul etmək, ya da bu mülkü tərk etmək. Kənd sakinləri etiraz etdikdə “Akseoner Cəmiyyəti” onlardan bu torpaqları tərk etmək tələbi qoymuşdular[1498].

Sakinlər onların bu tələbinə qarşı çıxmış, iş böyümüş və işə İrəvan qubernatoru, hətta Oafqaz Canişini qarışmalı olmuşdur. İrəvan qubernatorunun Qafqaz Canişininin köməkçisinə 1913-cü il dekabrın 31-də ünvanladığı məlumatda bildirirdi ki, dekabrın 21-də vurulan teleqram əsasında İrəvan qubernatoru süvari və polis keşikçi dəstəsindən ibarət 16 nəfərlə dəmir yolla hadisə yerinə tələsmişdir. Hətta o, qonşu Şərur-Dərələyəz qəzasının rəisinə hadisə yerinə 20 süvari dəstə göndərməyi, bu dəstəni əlavə adamlarla gücləndirməyi tələb etmişdir. Lakin dekabrın 22-i axşamı qubernator İrəvan qəza rəisindən və mülkün sahibindən baş verən hadisənin yoluna qoyulduğu və tərəflər arasında razılıq əldə edildiyi haqqında məlumat almışdı. Məlum olmuşdur ki, dekabrın 21-də “Akseoner cəmiyyəti”nin icarədarı kəndlilərə məxsus 20 desyatin torpağı traktor vasitəsilə şumlamaq istədikdə “Yelqovan” və “Yanıx” kəndlərinin bir dəstə sakini əllərində bel və yaba onlara mane olmuşdular. Hətta kənd sakinlərindən bir

---

[1497] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, с.316-320.

[1498] Yenə orada, s.320-322.

qoca traktorun qarşısına yıxılaraq bildirmişdi ki, "gəlin üstümdən keçin...". Yeni icarədar və adamları işi dayandırmış və mülkün sahibinə şişirdilmiş şəkildə şikayət etmişdilər. İlk əvvəl sahə pristavı tərəfləri sakitləşdirmiş və hadisə haqqında hüquq orqanları üçün protokol tərtib edilmişdi. İrəvan qəza rəisi isə hadisə yerinə gələrək sakinlərlə şəxsən görüşmüş, onlara yeni qaydaları qəbul etməyi tövsiyyə etmişdir. Burada məlum olmuşdur ki, Yelqovan və Yanıx sakinləri yeni qaydaları səhv başa düşmüş, onları başa saldıqda məsələ aydın olmuşdur. Məlum olmuşdur ki, Şermetyevlərin dövründə kənd sakinləri öz alətləri ilə torpağı şumlamaq və öz toxumları ilə əkməklə mülkün müdirinə əldə edilən məhsulun $^{1}/_{3}$-i təhvil vermişdilər. "Akseoner Cəmiyyəti" isə özünün daha mükəmməl texnikası ilə torpağı şumlamaq şərti ilə mülkün sahibinə məhsulun yarısını və icarədarı isə pulsuz toxumla təmin etməyi sakinlərə təklif etmişdi. Yox əgər kim öz vasitəsi ilə torpağı şümlamaq və əkmək istəsə, mülk sahibinin göstərişinə əsasən, hər əkilmiş desyatin torpağın müqabilində icarədara 18 rubl ödəməli idi. Bundan əlavə, mal-qara otarmaq üçün şərtlər də sakinlərə təklif edilmişdi. Təklifə əsasən, "Arazdəyən" mülkündə icarə götürülmüş örüş yerlərinə görə, sakinlər hər ay otarılan hər xırdabuynuzlu mal-qara üçün 10 qəpik, iribuynuzlu mal-qara üçün isə 50 qəpik ödəməli idilər. Sonra hər desyatin əkilən pambığa görə üç baş iribuynuzlu mal-qara pulsuz otarıla bilərdi. Donuzun mülk sahəsində saxlanılması qadağan edilirdi.

Lakin mal-qara ilə bağlı olan bu şərt iri sahibkarların narazılığına səbəb olmuşdu. Hətta onlardan biri şikayət üçün Tiflisə getmişdi. Buna görə də, o, gələnə qədər sakinlər qeyd edilən şərtləri imzalamaqdan imtina etmişdilər. Vəziyyət isə gərgin olaraq qalırdı. Belə ki, "Arazdəyən" mülkünə yaxın olan polis keşikçiləri, hətta polis məntəqə pristavı tez-tez mülkə baş çəkirdilər[1499].

---

[1499] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, с.312-316.

Vəziyyət o qədər gərginləşmişdi ki, Arazdəyən mülkünün sakinlərinin 1914-cü il martın 13-də Qafqaz canişininə ünvanladıqları məktubda torpağı şümlamasına polisin mane olmasından şikayət edir, bu işdə onlara kömək göstərməyi xahiş edirdilər. Qafqaz canişini kəndlilərin bu məktubuna cavab vermişdir. Belə ki, Qafqaz Canişini dəftərxanasının direktoru Nikolskinin İrəvan qubernatoruna 1914-cü il aprelin 3-də ünvanladığı teleqramda göstərilirdi ki, canişinin əmrinə görə kəndlilərin bu şikayəti rədd edilir, sakinlərə mülkün sahibi ilə razılığa gəlməyi təklif edilirdi[1500].

Beləliklə, çar Rusiyası XIX yüzilliyin ortalarından XX yüzilliyin əvvəllərinə qədər müxtəlif illərdə torpaq, bəy-kəndli münasibətlərini tənzimləyən iqtisadi islahatlar keçirməsinə baxmayaraq, daim torpaq çatışmazlığı, vergi ödənilməsi ilə bağlı mübarizələr, mülkədarlarla kəndlilər, hətta ayrı-ayrı kəndlər arasında narazılıqlar, ixtişaşlar davam etmişdir. Hakimiyyət orqanları isə bu məsələləri həll etmək üçün müdaxilə etmək məcburiyyətində qalmış, əksər hallarda mülkədarların, ağaların xeyrinə qərar çıxarmışdılar.

---

[1500] Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века, s.324-325.

# VII FƏSİL

## 1905-1906-cı İLLƏRDƏ İRƏVAN QUBERNİYASINDA ERMƏNİLƏRİN AZƏRBAYCAN TÜRKLƏRİNƏ QARŞI HƏYATA KEÇİRDİYİ SOYQIRIM SİYASƏTİ

Çar Rusiyası İrəvan və Naxçıvan xanlıqlarını işğal etdikdən sonra zaman-zaman bu bölgəyə erməniləri, rusları və digər xalqları köçürməklə bu bölgəni "xristianlaşdırmaq", Türkiyə və Qacar dövlətləri sərhədində bufer zona yaratmaq, apardığı inzibat-ərazi islahatları nəticəsində onu Azərbaycandan ayırmaq siyasəti müstəmləkəçilik planının birinci mərhələsi idi. Bunun da məntiqi nəticəsi olaraq yerli Azərbaycan türkləri sıxşdırılmış və onların yaşadığı kənd və torpaqlarda ermənilər məskunlaşdırılaraq çoxluq təşkil etmişdilər. Məskunlaşdıqdan sonra Rusiyaya arxalanan ermənilər bütün hakimiyyət orqanlarında təmsil olunmuş, Azərbaycan türklərini hər sahədə sıxışdırmağa və alçatmağa çalışmışdılar. Dini ayrı-seçkilik də bu sahədə böyük rol oynamışdır. Yuxarıdakı fəsillərdə bu haqda ətraflı bəhs edilmişdir. Lakin butün bu siyasətə baxmayaraq, Azərbaycan türkləri İrəvan quberniyasının əksər qəzalarında, İrəvan şəhərinin özündə çoxluq təşkil etmiş, bu xalqın görkəmli xadim və ziyalıları hakimiyyət orqanlarında çalışmış, bölgənin iqtisadi-siyasi həyatında böyük rol oynamışdılar.

XX yüzilliyin əvvəllərində çar Rusiyası imperiyasında iqtisadi, ictimi-siyasi vəziyyətin gərgin olması onun bütün bölgələrinə, o cümlədən Cənubi Qafqaza da böyük təsir göstərmişdi. Bu özünü bütün sahələrdə - iqtisadi, siyasi, mədəni və millətlərarası münasibətlərdə göstərmişdi. Qeyd etmək lazımdır ki, 1900-1903-cü illərdə baş vermiş dünya iqtisadi böhranı xalqlar həbsxanası olan çar Rusiyasının heç də yaxşı olmayan

iqtisadiyyatına mənfi təsir göstərmişdi[1501]. Digər tərəfdən 1904-1905-ci illər Rusiya-Yaponiya müharibəsi Rusiyanın siyasi-iqtisadi vəziyyətini daha da pisləşdirmiş, imperiyanı böhranlı vəziyyətə gətirmişdi. Mərkəzi Rusiyada baş vermiş bu vəziyyət onun müstəmləkələrinə də böyük təsir göstərmişdi. Rusiyada baş vermiş bu iqtisadi və siyasi böhran 1905-1907-ci illər inqilabına səbəb olmuşdu. Hakimiyyətdən narazı olan xalq tətillər edir, açıq silahlı çıxışlar imperiyanı bürümüşdü. Bu inqilab Cənubi Qafqaza, o cümlədən Azərbaycana da böyük təsir göstərmişdi[1502].

Lakin Rusiyanın müstəmləkəsi olan Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan İrəvan quberniyasında vəziyyət bir qədər fərqli cərəyan etməyə başladı. Bunun bir neçə səbəbi var idi. Qeyd etmək lazımdır ki, bu zaman kəsiyində çar hakimiyyət orqanları Azərbaycanda inqilabi çıxışların qarşısını almaq, vəziyyətdən çıxmaq üçün əla fürsət əldə edə bildilər. Belə ki, bir tərəfdən erməni millətçi, şovinist təşkilatlarının, xüsusən də "Daşnaksütyun" terror təşkilatının separatist meylləri, erməni dövləti yaratmaq xülyası, digər tərəfdən bu təşkilatın hadisələri qızışdırmaqla günahı bir mənalı olaraq Azərbaycan türklərinin üstünə atmaq siyasəti hakimiyyət orqanları üçün əla fürsət olmuşdu. Belə bir vaxtda hakimiyyət orqanları bu iki xalq arasında münasibətlərin gərgin olmasından bəhrələnmək qərarına gəlmişdi. Beləliklə, çar hakimiyyət orqanları Azərbaycanda, o cümlədən İrəvan quberniyasında ictimai-siyasi gərginliklə əlaqədar olaraq hakimiyyətə qarşı olacaq hər bir çıxışların qarşısını almaq, vəziyyətdən çıxmaq, hadisələri daimi nəzarətdə saxlamaq üçün erməni-Azərbaycan türk qarşıdurması siyasətini həyata keçirmək planını işə salmağa başladı. Bu "parçala və hökm sür" siyasəti bu günə qədər davam etdirilir. Səməd Sərdariniya "İrəvan müsəlman sakinli vilayət olmuşdur" əsərində fransız Jan Mari Karzunun "Ermənistan 1915" adlı kitabına istinadən yazır

---

[1501] Azərbaycan tarixi, c.V, s.17-24.

[1502] Zeynaloğlu C., Müxtəsər Azərbaycan tarixi (elmi-publistik və tarixi kitab), Bakı, Azərbaycan Dövlət Kitab Palatası, 1992, s.106-107.

ki, “1905-ci ildə Bakıda ermənilərlə azərbaycanlılar arasında qanlı çarpışmalar oldu. Bu çarpışmaların kökünü Rusiya imperiyası üçün təhlükəli ola biləcək milli oyanışda axtarmalıyıq. Rusiya hakim dairələri Qafqazın oyanışında güclü millətçilik tendensiyasının olduğunu iddia edirdilər. Bu tendensiya böyük Rusiya imperiyasının planlarının ziyanına idi. Ona görə də çar hökuməti bu oyanışı hansı vasitə ilə olur olsun beşiyində boğmağa çalışırdı. 1894-cü ildə hakimiyyətə yiyələnmiş Rusiyanın sonuncu çarı II Nikolay Romanovlar sülaləsinin ömrünü uzatmaq üçün bütün hiylələrə əl atırdı. Rusiyada yaşayan xalqların arasında qırğın salmaq da bu fəndlərdən biri idi. Çarizmin fikrincə, daxili müharibələrə meydan verməklə, xalqları bir-birinə qarşı qoymaqla öz zəifliyini gizlədə və hakimiyyətdə qala bilər”[1503].

Xüsusilə, XIX yüzilliyin axırlarında erməni terror təşkilatları olan “Hnçaq” (1887-ci ildə təşkil olunub) və “Daşnaksütyun” (1890-cı ildə təşkil olunub) təşkilatları yarandıqdan sonra Azərbaycan türklərinə qarşı soyqırım siyasəti həyata keçirməyə başlamışdılar. Düzdür, bu terror təşkilatlarının əsas fəaliyyəti Osmanlı Türkiyəsi ərazisi olmuş, lakin onlar burada müvəffəqiyyət qazana bilməmişdilər. XX yüzilliyin əvvəllərində onlar, xüsusən də “Daşnaksütyun” terror təşkilatı öz fəaliyyətlərini Azərbaycan türklərinə qarşı çevirmiş, bu vaxtdan etibarən əsl soyqırım siyasəti həyata keçirmişdilər[1504].

Çar Rusiyası Qafqazda inqilabi hərəkatın qarşısını almaq, bu regionu ciddi nəzarətdə saxlamq üçün ilk növbədə 1905-ci il

---

[1503] Səməd Sərdariniya, İrəvan müsəlman sakinli vilayət olmuşdur, Bakı, “Zərdabi” nəşriyyatı, 2014, s.121-122.

[1504] Hüseyn Baykara, Azərbaycan istiqlal mübarizəsi tarixi, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, s.119-120; Ordubadi M.S., Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), Bakı, Qarabağa Xalq Yardımı Komitəsi, 1991, s.8; История Азербайджана по документам и публикациям, с.108-117; İ.Məmmədov, Tariximiz, torpağımız, taleyimiz, s.175-176; Mustafa N., Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906), Bakı, Elm və təhsil, 2022, s.69-74.

fevralın 26-da canişinlik sistemini bərpa etdi. Canişinə böyük səlahiyyətlər - həm mülki, həm də hərbi səlahiyyətlər verildi. Onun ən başlıca vəzifəsi Qafqazda dinclik yaratmaq idi[1505]. Qatı ermənipərəst İ.İ.Vorontsov-Daşkov canişin təyin olundu. Onun canişin təyin olunması ermənilərin əlinə böyük şanslar verdi. Məhz çar hakimiyyət orqanlarının dəstəyilə ermənilər bütün Cənubi Qafqazda Aərbaycan türklərinə qarşı qırğınlara, təxribatlara və terrora başladılar. İ.Kazımbəyli haqlı olaraq əsərində qeyd edirdi ki, "Rusiya hökumət məmurlarının ermənilərlə əlbir hərəkət etmələri və onlara açıq dəstək nümayiş etdirmələri Vorontsov-Daşkovun Cənubi Qafqaza hakim göndərilməsindən sonra rəsmi dövlət siyasətinə çevrildi"[1506].

Bu qırğınlar çar məmurlarının köməyi ilə həyata keçirilirdi. Bu haqda mənbə və tarixi ədəbiyyatda kifayət qədər məlumatlar vardır. Hətta Osmanlı mənbələri də ermənilərin müsəlman əhalisi üzərinə hücumlarının Rusiya hakimiyyət orqanları tərəfindən təşkil etdiyini təsdiq edirdi. Məsələn, Osmanlı dövlətinin Tiflis şəhbəndərliyindən (səfirlik-E.Q.) İstanbul hökumətinə göndərilən 18 iyul 1905-ci il tarixli məlumatında açıq şəkildə göstərirdi ki, Qafqazda ermənilərlə müsəlmanlar arasında nifaq salan, toqquşmaların baş verməsinə rəvac verən məhz Rusiya hökumətidir, hökumət bu yolla Cənubi Qafqazı inqilabi çıxışlardan kənarda saxlamaq istəyirdi[1507]. Bundan əlavə, 1905-ci il 10 iyunda Yelizavetpol, Bakı quberniyalarını, Tiflis quberniyasının Borçalı qəzasından, Dağıstan və Batumi dairələrindən olan 9 nəfər Azərbaycan türklərindən (A.M.Topçubaşov, Rəşid xan Şirvanlı, A.B.Cəlimxanov, M.R.Vəkilov, A.Ziyadxanov, Q.B.Zülqədarov, Q.B.İsqidarov, Q.B.Vəkilov, M.B.Sancanzadə Abaşidze) ibarət olan heyət Qafqaz canişini qraf İ.İ.Vorontsov-Daşkovun qəbu-

---

[1505] Полное собрание законов Российской империи, собрание третье, т.XXV, 1905, СПб, 1908, отделение I, с.149; Azərbaycan tarixi, 7 clddə, Bakı, Elm, 2008, V cild, s.105.

[1506] Kazımbəyli İ., Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri), s.247.

[1507] Yenə orada, s.244-245.

lunda olarkən, onlar baş verən hadisələrin səbəbkarının Azərbaycan türkləri olmadığını, bütün baş verən hadisələrin qəsdən onların üstünə atıldığını açıqca bildirmişdilər[1508].

C.Zeynaloğlu, R.İsmayılov və H.Baykara öz əsərlərində ermənilərin rus məmurları tərəfindən silahlandırılması və Azərbaycan türklərinə qarşı soyqırım həyata keçirməsi haqqında ətraflı məlumat vermişdilər. C.Zeynaloğlu erməni-Azərbaycan türk toqquşmalarının planı haqqında yazırdı ki, "Qafqazda da ermənilər qiyam edərək, öz kilsə və vəqflərini ələ aldılar, hətta ötədən bəri Osmanlı dövləti əleyhinə hərakat etmək üçün Rusiya tərəfindən təchiz və himayə edilən daşnak firqəsi bu fürsəti qaçırmayaraq, Rusiyadan ayrılmağa və müstəqil bir Ermənistan dövləti vücuda gətirməyə təşəbbüs eylədi... Yalnız Azəri türkləri hətta qəflətdə idilər və ixtişaşlarda çar tərəfini saxlayırdılar. Rusiya hökuməti müsəlmanların bu qəflətindən istifadə edib, Peterburqdan xüsusi surətdə yüz otuz xəfiyyə məmuru göndərərək, türklər ilə ermənilər arasında icra etdiyi propaqanda ilə biri digərinin əleyhinə silah işlətməyə təşviq edir və əsrlərcə yaxşı keçinən iki milləti birini digərinə qırdırdı...Bu toqquşmada yalnız iki millət vuruşdular və sairləri bitərəf qaldılar"[1509]. Rəşid bəy İsmayılov "Azərbaycan tarixi" əsərində erməni-Azərbaycan türkləri arasında baş verən hadisədə məhz çar hökumətinin günahı olduğunu təsdiq edərək yazırdı ki, "Çar hökuməti Qafqazda yaşayan millətlərin diqqətini və gücünü inqilab cəryanından kendi halına münhəsir etmək qəsdilə ermənilər ilə müsəlmanların arasında vuruşma və infaq salıb, "Ayır və hakimiyyət sür" şüarızalimanəni icra etdi və bu surətlə minlərcə nüfusun qətlinə, evlərin və kəndlərin inhidamına bais oldu"[1510]. H.Baykara isə "Azərbaycan istiqlal mübarizəsi tarixi" əsərində rus məmur-

---

[1508] Кавказ, 18-го июня 1905, №156.

[1509] Zeynaloğlu C., Müxtəsər Azərbaycan tarixi (elmi-publistik və tarixi kitab), s.106-107; Kazımbəyli İ., Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri), 244-246.

[1510] İsmayılov R., Azərbaycan tarixi, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1993, s.125.

larının erməniləri silahlandırılmasını və onlara gizli tapşırıqlar verilməsini belə qeyd etmişdi: "...Türkiyədəki məğlubiyyətlərindən dərs almayan, Qafqazda olan rus məmurları tərəfindən silahlandırılan və gizli tapşırıqlar alan ermənilər İrəvan, Naxçıvan, Ordubad, Qarabağ, Şuşa, Gəncə, Bakı və Şirvanda yaşayan silahsız türklərə, dinc əhaliyə qarşı hücum edib onları öldürməyə, qılıncdan keçirməyə başladılar. Beləliklə, onlar türkləri öldürərək bu ərazilərdə çoxluq əldə etmək istəyirdilər. Öldürə bilmədikləri türkləri isə nəyin bahasına olursa-olsun öz torpaqlarından qovurdular"[1511].

İlk belə qırğınlar Bakıda, Gəncədə, Qarabağda, İrəvanda, Naxçıvanda, Qazaxda, Tiflisdə və digər yerlərdə başladı[1512]. Mənbələrə əsasən bütün bu hadisələrin günahkarları erməni terror təşkilatları və onların qızışdırdığı ermənilər olmuşdur. Arxiv sənədlərində bunu sübut edən hadisələrə rast gəlmək mümkündür. Məsələn, bir arxiv sənədində qeyd edilirdi ki, İrəvan quberniyasında ermənilərlə Azərbaycan türkləri arasında baş vermiş toqquşmalarda hücum edən tərəf birmənalı olaraq Daşnaksütyun partiyasının üzvlərinin iştirakı ilə ermənilər olmuşdular[1513]. Gürcü sosialistlərindən olan Qaribi "Qızıl kitabı"nda bütün qanlı qırğınların səbabkarının və iştirakçısının məhz "Daşnaksütyun" terror təşkilatında olduğunu bildirərək yazırdı: "Erməni inqilabçılarının, xüsusilə Daşnaksütyun partiyasının yaradılmasına qədər Zaqafqaziyada (Cənubi Qafqazda-E.Q.) sülh və dostluq hökm sürürdü.... Daşnaklar gəldilər və sıfır ermənilərdən ibarət müstəqil Ermənistan dövləti yaratmaq istədilər. Patriarxal Qafqaz kəndlilərinə milli ədavət və qarşılıqlı nifrət hissləri doldu. Ermənilərin silah oynatmalarına türklər də qarşılı-

---

[1511] Hüseyn Baykara, Azərbaycan istiqlal mübarizəsi tarixi, s.120.
[1512] Zeyaloğlu C., Müxtəsər Azərbaycan tarixi (elmi-publistik və tarixi kitab), s.107.
[1513] Заведывающему полицей на правах помошника Наместника его императорского величества на Кавказе, 5-го ноября 1905 г., GDTA, ф.81, siy 1, sax.v. 55, v.140.

qlı cavab verdilər"[1514]. Əgər Azərbaycan türkləri ermənilərə qarşı bir hərəkət etmişdisə, bu ermənilərin qəsdən törətdikləri hər hansı bir hadisələrin qarşılığında baş vermişdir. Ermənilər hadisələri qızışdırmış, Azərbaycan türklərinə qarşı soyqırımı həyata keçirmiş, məhz bunun əvəzində cavablarını almışdılar.

Beləliklə, mənbə və tarixi ədəbiyyatdan göründüyü kimi, çar məmurlarının köməyi ilə silahlanan və gücləndirilən erməni komitələri artıq Azərbaycan türklərinə qarşı qırğın həyata keçirmək üçün bütün hazırlıqlarını görmüşdülər. Qırğının başlanması üçün bir hadisə kifayət idi. Bu hadisə Bakıda 1905-ci il fevralın 2-də Quba meydanında erməni komitəsi tərəfindən Sabunçu kəndinin sakini Ağarza Babayev adlı bir Azərbaycan türkünün öldürülməsi ilə başladı[1515]. Bu hadisədən sonra Azərbaycanın ayrı-ayrı quberniyalarında, o cümlədən onun tərkib hissəsi olan İrəvan quberniyasında türklərə qarşı qırğınlar başladı. Bu qırğınlar İrəvan şəhərini, İrəvan qəzasını, Naxçıvan şəhərini və qəzasını, Şərur-Dərələyəz, Sürməli, Yenibəyazid, Aleksandropol və Üçmüəzzin qəzalarını əhatə etmişdi. Tarixi ədəbiyyatda İrəvan quberniyasının ayrı-ayrı şəhər və qəzalarında baş vermiş erməni-Azərbaycan türkləri arasında qırğınlar haqqında məlumat verilmişdir[1516]. Burada biz həmin hadisələrin bəzi məqamlarına toxunmaq istərdik.

Qeyd etmək lazımdır ki, Bakıda baş vermiş qanlı toqquşmadan 20 gün sonra İrəvan quberniyasında ermənilərlə Azərbaycan türkləri arasında münasibətlər gərginləşmiş və çox keçmədən silahlı qarşıdurmaya səbəb olmuşdu. İrəvan quberniyasında 1905-ci ilin 20-22 fevralında İrəvan şəhərində, 5-12 may

---

[1514] Кариби, Красная книга. История Азербайджана по документам и публикациям, с.159.

[1515] Ordubadi M.S., Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), s.12.

[1516] Kazımbəyli İ., Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri), 243-282; Mustafa N., Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906), Bakı, Elm və təhsil, 2022.

arasında Naxçıvan şəhərində, 24 mayda İrəvan şəhərində, 29-31 may arasında Şərurda, may-iyunda Dərələyəzdə, 3-9 iyun arasında Üçmüəzzində, 18 sentyabrda yenidən İrəvanda, noyabrın 26-30-u arasında yenidən Naxçıvanda, 1906-cı il 27 may və 8-9 iyun arasında İrəvan şəhərində, 2-4 iyun arasında Sürməlidə baş vermişdi. Bir neçə dəfə fövqaladə vəziyyət və tərəflər arasında barışıq bağlansa da, erməni komitələrinin günahı üzündən qarşıdurma davam etdirilmişdir.

İrəvan quberniyasında ilk qarşıdurma İrəvan şəhərində fevralın 20-22-si arasında baş vermişdi. "Qafqaz" qəzetinin 1905-ci il 52-ci nömrəsində qarşıdurmanın səbəbkarları göstərilməsə də, bu hadisə haqqında belə yazılmışdı: "fevralın 20-21-də erməni və tatarlar (Azərbaycan türkləri-E.Q.) bir-birinə qarşı silahlı hücum etdilər. 40-a qədər ölən və yaralananlar oldu. Qubernatorun və qarnizon rəisinin işə qarışması qırğınların sayının daha da artmasının qarşısını almışdı. Onların, həmçinin müsəlman və erməni din xadimlərinin, yerli ziyalıların işə qarışması nəticəsində barışıq olmuşdu"[1517]. Lakin N.Mustafa əsərində bu hadisəni təhlil edərək ermənilərin günahı üzündən baş verdiyini, eyni zamanda erməni müəllifi A-Donun məlumatına əsaslanaraq İrəvan şəhərundə baş vermiş ilk toqquşmada 54 nəfər ölən və yaralanan olduğunu bildirmişdi[1518].

İrəvandakı qanlı hadisənin miqyasından qorxan və ehtiyat edən rus hakim dairələri 1905-ci il fevralın 27-də şəhərdə fövqalədə vəziyyət tətbiq etdi. Qəbul edilmiş fərmana görə, İrəvan şəhərində sakinlərə odlu və soyuq silah saxlanılması, eyni zamanda küçədə və ictimai yerlərdə, evlərdən odlu silahdan atəş açılması qadağan edilirdi. Əgər kiməsə silah gəzdirməyə icazə verilirdisə, qubernatordan yazılı icazə almalı idi. Qoyulan qaydanı kimsə pozsa idi, qanuna əsasən o şəxs 500 rubl məbləğində cərimə olunmalı və yaxud 3 ay müddətinə həbs

---

[1517] Газ.Кавказ, 24-го февраля, Тифлис, 1905 года, №52, с.1.

[1518] Mustafa N., Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906), s.111.

olunmalı idi. Bundan əlavə fərmana görə, şəhərə gələn və gedənlər üçün xüsusi qayda tətbiq edilmiş, evlər və digər daşınmaz əmlakların qorunması üçün yerli polis sahələrinə geniş səlahiyyətlər verilmişdi[1519].

Hakimiyyət orqanları tərəfindən İrəvan şəhərində nisbətən hadisələrin nəzarətdə saxlandığını görən ermənilər fəaliyyət dairələrini Naxçıvana yönləndirdilər. M.M.Nəvvab yazırdı ki, "Elə ki, İrəvanın fitnə-fasad törədən erməniləri Naxçıvana gəldilər, orada vəziyyət gərginləşdi. Naxçıvan erməniləri neçə illərdən bəri tədarük etdikləri vuruş sursatlarını-topları, bombaları, beşaçılan tüfəngləri və s. növbəti qırğın üçün hazırlamağa başladılar"[1520]. N.Mustafa bu faktı təsdiq edərək yazır ki, "1905-ci ilin fevral ayında Bakı və İrəvan şəhərlərində ermənilərin törətdikləri iğtişaşlar yatırıldıqdan sonra növbəti hədəf Naxçıvan qəzası seçilmişdi. Bu, bir tərəfdən Naxçıvanın strateji mövqeyi ilə bağlı idisə, digər tərəfdən,...İran (Qacar dövlətinin-E.Q.) hakimiyyət orqanlarının nəzarətindən çıxan ərazilərdə ermənilərin silah zavodları var idi və həmin silahlar Culfa keçid məntəqəsindən gizli yollarla Naxçıvan qəzasının ərazisinə daşınırdı[1521].

Beləliklə, bütün hazırlıqlar görüldükdən sonra, may ayının əvvəlində Naxçıvanda erməni-Azərbaycan türk qarşıdurması başladı. 1905-ci il may ayının 5-də gündüz saat üç radələrində üç nəfər Cəhri kəndinin sakini Şıxmahmud kəndindən (qarışıq kənd olun həm Azərbaycan türkləri, həm də ermənilər yaşayırdı) keçdikləri vaxt ermənilər tərəfindən yaralanırlar. Bu hadisə ilə bağlı xəbər Naxçıvan şəhərinə çatdıqda əhali arasında narahatçılıq və həyəcan başlayır. Ermənilər bu gündən başlayıb dükanları bağlayıb kilsəyə və evlərinə yığışırlar. Elə bu vaxt, mayın 7-də Tunbul kəndindən (Tunbul kəndi Azərbaycan türk-erməni kəndidir. Kəndin üçdə iki hissəsini Azərbaycan türkləri, üçdə bir

---

[1519] Газ.Кавказ, 1-го марта / Тифлис, 1905 года, №56, с.1.

[1520] Nəvvab Mir Möhsün, 1905-1906-cı illərdə erməni-müsəlman davası, Bakı, "Azərbaycan nəşriyyatı", 1993, s.21.

[1521] Mustafa N., Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906), s.157.

hissəsini ermənilər təşkil etmişdi) keçərkən bir Azərbaycan türkü ermənilər tərəfindən öldürülür. M.Ordubadi yazır ki, "bu yerdə müqayisə olunmalıdır ki, ermənilərdə nə qədər tədarük var imiş ki, bu azlıqda yenə müsəlmanlara (Azərbaycan türklərinə-E.Q.) qələbə xəyalında idilər. Müsəlmanlara gəldikdə qol-qanad aça bilməyərək heyrətdə qalmışdılar"[1522].

Naxçıvanda böhranlı vəziyyət yarandığından, mayın 8-də İrəvan quberniyasının vitse-qubernatoru Viktor Baranovski, İrəvan şəhər qalavası Ağamalov və Naxçıvan şəhər qalavası Cəfərqulu xan Naxçıvanlı ilə birlikdə Naxçıvan şəhərinə gəldilər. Hökumət nümayəndələrinin gəldiyini eşidən Azərbaycan türkləri, onların qəbuluna gələrək ermənilərdən şikayətlənməyə başldılar. Ermənilər günahkar olsalar da, Azərbaycan türkləri humanistlik edərək qeyd edirdilər ki, "Ermənilər bizə nə etdilər isə keçdi, fəqət yenə yığışıb bazara gəlsinlər"[1523]

Lakin ermənilər düşmənçilkdən əl çəkmək niyyətində deyildilər. Onlar Azərbaycan türk kəndlərində gediş-gəliş yollarını nəzarətə götürərək əhalini güllə-barana tutmaqda davam edirdilər. Mayın 9-da Cəhri əhalisi qubernatorun yanına gələrək bildirdilər ki, onların kəndinin yolları hər tərəfdən erməni əlindədir. Hökumətdən xahiş edirdilər ki, bu yolları mühafizəyə alsın. Digər kəndlərdən də, bu səpkidə şikayətlər gəlirdi. Lakin onların şikayətləri cavabsız qalırdı. Bu da erməniləri daha da açıq cinayətlərə sövq edirdi. Mayın 9-da Əliabad erməniləri tərəfindən çeşmə kənarında gecə vaxtı naxçıvanlı Əli Hacı Bayramzadə yeddi güllə yarası ilə qətlə yetirildi[1524].

---

[1522] Ordubadi M.S., Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), s.18-19; Kazımbəyli İ., Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri), s.255-256; Mustafa N., Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906), s.157.

[1523] Ordubadi M.S., Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), s.19.

[1524] Yenə orada; Kazımbəyli İ., Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri), s.256-257; Mustafa N., Ermənilərin

Ermənilər nəinki Azərbaycan türklərini qətlə yetirir, eyni zamanda böhtanla da məşğul olaraq günahı onların üstünə yıxmaq istəyirdilər. Məsələn, mayın 11-də Kültəpə kəndinin (bu kənddə həm Azərbaycan türkləri, həm də ermənilər yaşayırdılar-E.Q.) erməni varlısı Xaçatur ailəsi ilə birlikdə Daşnaksütyün terror təşkilatının üzvləri tərəfindən öldürülmüşdü. Qətlin günahını Azərbaycan türklərinin üstünə yığmaq istəsələr də, tədqiqat nəticəsində məlum olmuşdu ki, həmin erməni bu terror təşkilatı tərəfindən öldürülmüşdür[1525].

Həmin günün gecəsi vitse-qubernator özü yol ilə gedən ermənidən bomba zəbt etmişdi. Elə həmin gün ermənilər Naxçıvan şəhərini atəşə tutdular. Azərbaycan türkləri də qarşılığında onlara cavab verdilər. Atışmada Azərbaycan türkləri tələfat verməsələr də, ermənilərdən xeyli tələfat verən olmuşdu. Lakin onlar bunu gizlətdilər[1526].

Naxçıvan şəhərində olan bu qanunsuzluqdan və özbaşınalıqdan təngə gələn Azərbaycan türkləri mayın 12-də yenidən vitse-qubernatorun yanına gələrək tədbir görülməsini xahiş etdilər. Vitse-qubernator "mən bilmirəm" cavabını vermişdi.

Cəzasız qalacaqlarını görən bir dəstə erməni mayın 12-si saat 10-da bazarın girəcəyində duraraq Azərbaycan türklərini atəşə tutdular. Azərbaycan türkləri onlara cavab verməyə başladılar. Atışmanı eşidən hökumət nümayəndələri vitse-qubernatorun başçılığı ilə bazara gəldilər. Lakin vitse-qubernatorun özü və adamları ermənilərin gülləsinə tuş gəldilər. Atışma 2 saata yaxın davam etdi. Bu atışmada erməni tacirləri Adamov şagirdlərilə, Xalatov uşaqları ilə və başqa ermənilər qətlə yetirildilər. Azərbaycan türklərindən isə 5 nəfər ölmüş, 1 nəfər yaralanmışdı. Erməni dükanlarının böyük əksəriyyəti, Azərbaycan türklərindən isə 10 dükan qarət olunmuşdu. Qeyd etmək lazımdır ki, bu atış-

---

İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906), s.160.

[1525] Ordubadi M.S., Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), s.19.

[1526] Yenə orada.

manı polislər özü qızışdırırdı. "Müharibə vaxtı polis qulluqçusu naçalnik Angil qətlə mane olmayıb "tez vur oğlum! Tez ol oğlum! deməklə könüllü cavanları cinayətə təşviq edirdi. Talan vaxtı "Tez olunuz! Tez aparınız! deyib camaatı qızışdırırdı"[1527].

Bazarda iki saata yaxın atışma olduqdan sonra, hərə öz tərəfinə çəkildi. Lakin atışma gecə də davam etdirildi. Şiddətli atəş emənilərin ipək zavodundan açılırdı. Gecə atışmanı vitse-qubernator kəssə də, lakin səhərisi ətraf kəndlərdə qətl-qarət başladı. Ermənilər dayanmaq fikrində deyildilər. Əvvəlcə onlar Cəhri kəndində qətl-qarətə başladılar. Digər tərəfdən, dükanlarını kilsəyə yığıb, Azərbaycan türklərinə qarşı zülm və acı töhmətlərdən çəkinmədilər. Hər gün bir hiylə, hoqqa çıxarmağa başladılar. Lakin hökumət nümayəndələri heç bir tədbir görmək niyyətində deyildilər. Noyabrın 26-na qədər Azərbaycan türkləri ilə ermənilər arasında dəfələrlə sülh bağlanmasına baxmayaraq, ermənilərin günahı ucbatından bir səmərə vermədi[1528].

Mayın 12-də baş vermiş hadisədə ölənlərin və yaralanların sayı 100-dən çox olmuşdur[1529]. Naxçıvanda baş vermiş hadisəni yatırmaq üçün hakimiyyət nümayəndələri tədbir görmək məcburiyyətində qalmışdı. Tiflisdən general Əlixanov-Avarski Naxçıvana göndərildi. Həmin münaqişənin yatırılması üçün yenə Vorontsov-Daşkov tərəfindən Şeyxül-islam Uluxanlı vağzalına gəldi. İrəvan qazisi də ona qoşularaq Naxçıvana yola düşdülər. Nəticədə Naxçıvanda ermənilərlə Azərbaycan türkləri arasında müvəqqəti barışıq oldu[1530].

M.M.Nəvvab Naxçıvan şəhərində baş vermiş bu hadisəni bir qədər fərqli təsvir edərək yazırdı: "Ermənilər hərbi sursatları keçidlərdə və gizli mövqelərdə yerləşdirdikdən sonra dükan-

---

[1527] Ordubadi M.S., Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), s.20.
[1528] Yenə orada, s.20-21.
[1529] Mustafa N., Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906), s.164.
[1530] Ordubadi M.S., Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), s.24.

bazarları bağlayıb bütün icma ilə qalxıb mövqelərdə hazırladıqları silahdan qəflətən müsəlmanlar üzərinə gurhagur atəş açmağa başladılar. Əhvalatdan xəbərsiz və dükan-bazarda öz işləri ilə məşğul olan biçarə müsəlmanlar (Azərbaycan türkləri-E.Q.) çaşbaş qalıb, bilmədilər nə etsinlər. Kimisi fürsət tapıb dükanı bağladı, kimisi tapa bilməyib, açıq qoyub canını qurtarmaq üçün evlərinə qaçdılar. Yarım saata tüfəngi olan tüfəngini, tapançası olan tapançasını, olmayanlar isə xəncər, külüng, balta, dəhrə və ağac götürüb, ermənilərin müqabilinə gəldilər və onlarla davaya başladılar. Silahsız müsəlmanlar münasib fürsətlərdən istifadə edərək qəflətən erməni silahlılarının üzərinə hücum edib əllərindəki balta, dəhrə, ağacla vurub onları yerə yıxaraq tüfəng və patrondaşlarını əllərindən alıb, üz qoydular davaya. Müsəlmanlara kömək gələnə kimi hər iki tərəfdən ölənlər oldu. Bir parə yerlərdən gələn müsəlmanlar nərə çəkərək üz qoydular ermənilərin üstünə. Hər tərəfdə ermənilər böyük təlefata məruz qaldılar və vəziyyəti belə görüb üz qoydular qaçmağa"[1531].

Lakin bu barışıq müvəqqəti idi. Tərəflər arasında inamsızlıq və gərgin vəziyyət yaranmışdı. Hətta Naxçıvanda sakitlik yaratmaq üçün İrəvanın müvəqqəti general-qubernatoru prins Napoleon bura ezam olnmuşdu. "Həyat" qəzetinin 1905-ci il 6 iyul 22-ci nömrəsində göstərilmişdi ki, "Naxçıvan qəzetində hərbi vəziyyət qeyd edildikdən və İrəvan general-qubernatoru prins Napoleon bura ezam olunduqdan sonra da, qırğınlardan əvvəlki sakitlik bərpa olunmayıb, Dükan və bazarlar hələ də bağlıdır... Bu gün gündüz 2 radələrində şəhərin ortasında, poçt idarəsinin qarşısında ermənilər atəş açaraq, hay-küy qoparmış, günahı bir Azərbaycan türkünün üzərinə yıxmışdılar. Nəticədə günahsız Azərbaycan türkü kazaklar tərəfindən həbs edilmişdir[1532].

Lakin bütün cəhdlərinə baxmayaraq, 1905-ci il mayın 5-12-si arası baş verən hadisələrin günahkarı olan ermənilər nəinki

---

[1531] Nəvvab M.M., 1905-1906-cı illərdə erməni-müsəlman davası, s.21-22.
[1532] Hakim Qəmbərli, Yaddaşlarda yaşayan ömür, Bakı, Elm və Təhsil, 2020, s.74.

heç bir müvəffəqiyyət qazana bilmədi, əksinə biabırcasına məğlub oldular. “Həyat” qəzetinin 1905-ci il 6 iyul 22-ci nömrəsində qeyd edilmişdi ki, “Naxçıvanda baş verən qırğınların əsas səbəbkarlarının ermənilər olduğunu yerli dövlət mənsubları da etiraf etmək məcburiyyətində qalmışdı. Onlar Naxçıvan ermənilərindən külli miqdarda silah sursat aşkar olunduğunu bildirmişdilər”[1533]. M.Ordubadi isə yazırdı ki, “Naxçıvanda islamlar (Azərbaycan türkləri-E.Q.) say və nüfuzca ermənilərdən üstün olduqlarından qabaqca müharibə tələb etmiş ermənilər, nəhayət büsbütün məğlub olaraq milli səhifələrinə qara bir xətt çəkdirdilər”[1534].

Naxçıvanda acı məğlubiyyətə düçar olan olan ermənilər bunun heyfini İrəvan türklərindən almaq qərarına gəldilər. Yuxarıdakı hadisədə İrəvanda hər iki xalq arasında müvəqqəti barışıq, eyni zamanda hökumət tərəfindən ciddi rejim tətbiq edilmişdi. Ermənilər hər vasitə ilə bu barışığı pozmağa və ədavəti qızışdırmağa çalışırdılar. Onlar İrəvanda müharibə etmək üçün güclü tədarük görməyə başladılar. Hazırlıq görüləndən sonra hər hansı hadisədən fürsət kimi istifadə etmək qərarına gəldilər. Belə bir fürsət 1905-ci il mayın 23-də baş verdi. Beləliklə, İrəvan şəhərində ikinci erməni-Azərbaycan türk qarşıdurması baş verdi. Həmin gün üç nəfər Azərbaycan türk cavanı sərxoş halda polis idarəsinin qarşısında olan Qarcaçay bağçasına gələrək, burada əylənirlər. Bunu qənimət bilən ermənilər onları döyürlər. Özlərini xəncərlə müdafiə edən bu üç nəfər gənc qışqıra-qışqıra qaçıb bazara gəlirlər. Bu səsləri eşidən ermənilər və Azərbaycan türkləri bazarda bir-birinə qarışaraq, bir-birinə silah işlətməyə başlayırlar. Lakin bu hadisədə də Azərbaycan türkləri insanlıq nümayiş etdirərək, ermənilərin boş qalmış dükanlarını qorumuş, hətta bəziləri öz dükanlarında erməniləri gizlətmişdilər. Bununla belə, məhz Azərbaycan türk

---

[1533] Hakim Qəmbərli, Yaddaşlarda yaşayan ömür, Bakı, Elm və Təhsil, 2020, s.74.

[1534] Ordubadi M.S., Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), s.23.

ağsaqqallarının səyi nəticəsində axşam əhali bir təhər sakit olmuşdular. Gecə rahat və sakit keçmişdi[1535]. Həmin qarşıdurmada 30-a yaxın ölən və yaralanan olmuşdu[1536].

1905-ci il mayın 24-də saat 9-da dükanlarını açmağa gələn Azərbaycan türklərini ermənilər yenidən atəşə tutdular. Lakin bu atışmada ermənilərdən yaralalanlar olmuşdu. Bu zaman bazara gələn əsgərlər atəş açmaqla erməniləri sakitləşdirmiş, hadisənin daha da böyüməsinə imkan verməmişdilər. Günortaya qədər nisbətən sakit keçmişdi. Saat 2-də yenə erməni məhəllələrindən Azərbaycan türklərinə qarşı atəş açılmağa başlandı. Hündür yerlərdən, təpə üstündən, pəncərələrdən Azərbaycan türklərinə qarşı güllə yağdırılırdı. Bütün gecə səhərə qədər atəş açılmışdı. Evləri şəhərin erməni hissəsində olan və buna görə də ən təhlükəli vəziyyətdə qalan Azərbaycan türklərinin hər dəqiqə imdad diləyən səsləri eşidilirdisə də, Azərbaycan türklərində qüvvə olmadığına görə onları fəlakət burulğanından qurtarmaq iqtidarında deyildilər. Qırğından salamat çıxan bu Azərbaycan türk ailələrini bir təhər əsgərlərin mühafizəsilə şəhərin ermənilər yaşayan hissəsindən türklər yaşayan hissəsinə keçirmək mümkün olmuşdu. Bu atışmada sədaqət qurbanı olan və ermənilərə inanıb təhlükəli məhəllədə qalan Azərbaycan türklərindən 11 nəfər- 4 qadın, 2 uşaq və 5 kişi vəşicəsinə öldürülmüşdü[1537].

"Həyat" qəzeti bu iki gündə baş vermiş hadisəni belə təsvir etmişdi: "Əvvəlinci gün yüngülcə bir atış vuruşma oldu isə də bir iki saata qədər sakit olub hər kəs öz evinə-tərəfinə çəkildi. Ertəsi gün (mayın 24-də-E.Q.) bazar-dükan açılmadı, saat on birə qədər rahatlıqla keçdi. Saat on birdə bir kərə şəhərin şimal səmtindən ki, ermənilərin "Çölməkçi" məhəlləsidir, şəhərə güllə yağdırma-

---

[1535] Ordubadi M.S., Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), s.24; Kazımbəyli İ., Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri), s.262.

[1536] Kazımbəyli İ., Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri), s.262.

[1537] Ordubadi M.S., Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), s.25-26.

ğa başladılar. O gün axşama kimi, axşamdan isə sübhə qədər atılan güllələrin sayı-hesabı yox idi. Böyləcə gündüz olduqda şəhərin o tərəfində olan 80-ə qədər müsəlman evi ancaq fürsət tapıb coluq-cocuğun əlindən tutub müsəlman tərəfinə keçdilər isə də, əşya və əsnasları ermənilər tərəfindən qarətə getdi. Hətta bir xanədə yığışmış və firara macal tapmamış 5 arvad və 2 uşaq qəddaranə surətdə doğranıb və sonra həmin evə bir də bomba atmışdılar. Bir xanədə isə kişini arvadını və oğlunu xəncərlə doğramışdılar. Böyləcə hər tərəf çəkilib öz yerində müdafiə təriqiylə oturmuş isə də on beş gündür hələ bazar-dükan bağlıdır[1538].

M.M.Nəvvab da əsərində bu hadisəni təsvir etmişdi. O, yazırdı: "...İrəvan erməniləri çox xudpəsənd, kinli və cinayətkardırlar. İrəvan şəhərinin müsəlmanlar yaşayan 80 evdən ibarət məhəlləsinin ermənilərlə iğtişaşı baş verib. Bu iğtişaşın başlanmasına səbəb olan ermənilər həmin məhəllədə müsəlmanların imarətlərini gülləbaran etməyə başladılar. Ermənilərə nisbətən müsəlmanların bu məhəllədə az olmasına baxmayaraq, ermənilərə qarşı müqavimətdə mətanətlə dayandılar və onlara böyük zərbələr endirdilər. İki tərəfdən üç gecə-gündüz davam edən güllə yağışının altında qırx nəfər erməni və iki nəfər isə müsəlmanlardan öldürüldü. Üç gündən sonra güllələri tükəndiyinə görə gecə vaxtı müsəlmanlar həmin məhəllədən qaçmalı oldu. Əhvalatdan xəbərdar olan ermənilər müəlmanların evlərinə doluşub, onların mal-dövlətini qarət etməyə başladılar. Fürsət tapıb qaça bilməyən beş nəfər övrət və üç nəfər uşaq bir evin küncünə qısılaraq qorxudan titrəyə-titrəyə ağlayırdılar. Əllərinə düşən kitablara və Qurani-Kərimə od vurub yandırdılar. Ermənilərin qoca qadın və kişilərə, eləcə də uşaqlara etdikləri zülmü qələmə almaq çox çətindir[1539].

Bu hadisə Azərbaycan türklərinə bir dərs oldu. Çox keçmədən ətraf yerlərdən Azərbaycan türklərinə əlavə kömək gəldi. Onlar ermənilərə hücum etməyi planlaşdırmışdı. Lakin ağsaq-

---

[1538] Hakim Qəmbərli, Yaddaşlarda yaşayan ömür, s.30-31.

[1539] Nəvvab M.M., 1905-1906-cı illərdə erməni-müsəlman davası, s.20-21.

qallar araya girərək onları sakitləşdirdilər. İğtişaşın beşinci günü hökumətdən mühafizə qoşunu alıb, erməni məhəlləsində qalan 30-40 Azərbaycan türk ailələrini şəhərin türk hissəsinə köçürdülər. Bəzi yerlərdə sipərlər düzəldib, sipərlərdən erməni Azərbaycan türkünü, Azərbaycan türkü isə erməniləri hədəf seçirdi. Bu sipər atışmasında ermənilər çox tələf olurdu. Bu qarşıdurmada da ermənilər sonda məğlub oldular. Çünki İrəvan müharibəsinə yığışmış erməni əsgərlərinin əksəriyyəti Bakı döyüşlərindən, Naxçıvan məğlubiyyətindən can qurtarıb qaçan əsgərlərdən olduğuna görə mənən ruhdan düşmüşdülər[1540].

Sonda ermənilərin məğlubiyyətini görən hakimiyyət nümayəndələri hadisənin doqquzuncu günü tərəfləri sakitləşdirmək üçün tədbir görməyə başladılar. Mayın 31-də Şeyxül-islam, İrəvan qazisi, yepiskop şəhərə gəldi və ertəsi gün iyunun 1-də İrəvan bulvarında xalq qarşısında moizə və nəsihətlərdən sonra müvəqqəti barışıq oldu[1541].

Lakin buna baxmayaraq, İrəvan şəhərində vəziyyət gərgin olaraq qalırdı. "Həyat" qəzetinin 11 iyun 1905-ci il 5-ci nömrəsində İrəvan şəhərində Azərbaycan türkləri ilə ermənilər arasında bağlanmış müvəqqəti barışıq barədə yazılırdı: "Hətta vəziyyət o həddə çatmışdı ki, Qafqaz Şeyxül-islamının başçılığı altında müsəlmanlardan ibarət nümayəndə heyəti İrəvana gələrək erməni ruhani rəhbərliyi ilə görüşlər keçirmiş, şəhərdə sülh və əmin-amanlıq yaradılması istiqamətində səylər atılsa da, yenə də gərginlik aradan qalxmamış, dükan-bazarlar günlərlə bağlı qalmış, bu isə şəhər əhalisinin güzəranına son dərəcə mənfi təsir göstərmişdir"[1542].

İrəvan şəhərində müvəqqəti barışığı görən erməni terror təşkilatının nümayəndələri öz fəaliyyətlərini ətraf qəza və kəndlərə yönəltdilər. 1905-ci il iyunun 1-də erməni dəstələri Tirjabat kəndindən Qırxbulaq mahalının Gözəçik kəndinə hücum etdilər.

---

[1540] Nəvvab M.M., 1905-1906-cı illərdə erməni-müsəlman davası, s.26-27.
[1541] Yenə orada, s.27.
[1542] Hakim Qəmbərli, Yaddaşlarda yaşayan ömür, s.31.

Onlar 20 evdən ibarət olan kəndi hər tərəfdən mühasirəyə alaraq atəşə tuturlar. Qəflətən yaxalanan kənd sakinləri ailələrini götürərək yarım verst məsafədə olan Mənguz kəndinə sığınırlar. Ermənilər hətta bu kəndə də hücum etmək niyyətinə düşürlər. Lakin onların planını 50 yaşlı kənd ağsaqqalı Novruz Kazım oğlu pozmuşdu. Belə ki, kəndin ağası Hümmət bəy Hüseynzadə İrəvan şəhərinə köçdüyündən kənddə ağsaqqal Novruz Kazım oğlu qalmışdı. O, kənd camaatının ermənilərin qabağından qaçdığını görərək kənd kişilərinə üzünü tutub belə söyləmişdi: Oğlanlar, hara qaçırsınız? İstəyirsiniz bu qaçmaqla bizi Qafqaz müsəlmanlarını başqa millətlərin yanında başıaşağı edəsiniz?! Xeyr! Xeyr! Bunların qabağından qaçdıqca daha cürətli olub bizə və bizim ailəmizə heç bir əsrdə insanlara rəva görülməmiş hörmətsizliklər yetirəcəklər. Məgər bunlar həmin ermənilər deyil ki, bir il əvvəl mən barmağıma hərəkət verəndə az qalırdılar Qırxbulaq mahalından çıxıb qaçsınlar. İndi sizə nə olub ki, aciz arvadlara qoşulub qoyun sürüsü kimi bunların qabağından qaçırsınız...?. Lakin bütün cəhdlərinə baxmayaraq kənd ağsaqqalını heç kim eşitmədi, kənddə tək qaldı. O, əlində qoşalülə tüfəngi ilə ermənilərə müqavimət göstərdi. Onun açdığı atəşlə 2 ermənini öldürmüş, qalanlarını geri çəkilməyə məcbur etmişdi. Lakin ermənilər çox olduğundan tezliklə Novruz kişi ələ keçirilir və o, Tijrabat kəndinə gətirilir. Burada ona əziyyət verərək sonda başını kəsirlər. Onun başını kəsən kəndin keşişi Ayrapet olmuşdur. Novruz kişinin başını "min beş yüz müsəlman sərkərdəsinin başıdır" deyə əvvəlcə Aleksandropol, sonra isə Bakı şəhərinə göndərmişdilər[1543].

Boş qalmış Gözəcik kəndini ələ keçirib dağıdan erməni dəstələri Mənkus kəndinə hücum etdilər. Kəndə hücum edən erməni alayların sayı 10 minə çatırdı. Kənd əhalisinin çoxunun silahı olmadığından ailələrini götürərək qonşu kəndə qaçırlar. Tamam boşaldıqdan sonra kəndə girən ermənilər burada qalan yeganə 80 yaşlı əlil qocanı öldürürlər. Ermənilər bununla

[1543] Ordubadi M.S., Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), s.30-31.

kifayətlənməyib qaçan arvad-uçaqları təqib edirdilər. Qaladibi kəndinin ağası Cahanbəxş bəy beş nəfərlə arvad-uşağı təqib edən ermənilərə atəş açaraq onlardan iki nəfəri öldürmüşdülər. Beləliklə, Mənkus kəndini tərk edən ailələr 15 fərsəx (1 fərsəx-6-7 km) aralıda yerləşən Təzəkənd kəndinə pənah apardılar. Dağıdılmış ətraf 12 Azərbaycan türk kəndinin əhalisi Təzəkənd kəndində toplaşmışdı[1544].

1905-ci il iyunun 3-də 150 evdən ibarət olan Güllücə kəndi ermənilərin hücumuna məruz qaldı. Həmin gün 14 erməni kəndindən toplanmış erməni dəstələri səhər tezdən Azərbaycan türk kəndi olan Güllücə kəndinə hücum edirlər. Əhali silahsız olduqlarından kəndi tərk etmək məcburiyyətində qalmışdılar. Lakin kəndin varlıları olan Məşədi Qəmbər, Mahmud, Hacı Hüseynlə birlikdə 15 nəfər əli silahlı ermənilərə müqavimət göstərmişdilər. Onlar hücum edən ermənilərdən 8 nəfəri qətlə yetirmişdilər. Nəhayət, atışmada Mahmud və bir qadın öldürülmüşdü. Qalan ailələr Tutya, Damagirməz və Kamal adlı Azərbaycan türk kəndlərinə sığınmışdılar. Bu qaçaqaçda hamıdan arxada qalmış Mir Süleyman Seyid Mustafa oğlu at ilə qaçarkən ermənilər vurub atını öldürürlər, lakin o, bir ermənini öldürüb canını təhlükədən qurtara bilmişdi[1545].

Ermənilərin hücumundan ehtiyat edən Kamal və Damagirməz kəndlərinin əhalisi iyunun 4-də ailələrini götürərək Təzəkəndə pənah aparırlar. Ətraf kəndlərin əhalisi də buraya sığınmışdı. Bu kənddə 18 gün ağır ehtiyac içində gün keçirəndən sonra İrəvan şəhərində sülh edilib ətrafa qoşun göndərildiyi kimi Güllücə kəndində bir alay əsgər qoyuldu. Bundan sonra kənd əhalisi yerlərinə qayıtdı[1546].

Qırxbulaq nayihəsində ermənilər onlarla kəndi dağıtmışdı. Həyat qəzetinin 1905-ci il 11 iyun 5-ci nömrəsində bu haqda belə

---

[1544] Ordubadi M.S., Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), s.31.
[1545] Yenə orada, s.31-32.
[1546] Ordubadi M.S., Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), s.32.

yazılmışdı "İrəvandan şimal-şərqdə yerləşən Qırxbulaq nayihəsində 14 müsəlman (Azərbaycan türk kəndi-E.Q.) kəndi ermənilər tərəfindən talan olunub, iki kənd isə yandırılaraq xarabazara çevrilib. Hər gün binəva müsəlmanların dad-fəryadları şəhərə (İrəvan şəhərinə-E.Q.) gəlməkdədir"[1547].

Ermənilər Qırxbulaq mahalı ilə bərabər, Üçmüəzzin qəzasında da qırğınlar törətmişdilər. İyunun 3-də Şörəyel, Pəmbək və Aleksandropol erməniləri bir yerə yığışıb səhər saat 9-da Üşü adlı Azərbaycan türk kəndinə hücum etdilər. 8 saata qədər döyüş oldu. Kənd əhalisi ermənilərə güclü müqavimət göstərdi. Müqavimətə rast gələn ermənilər bir çox itkilərdən sonra geri çəkildilər. Lakin kənd hər təfəfdən mühasirəyə alındığından əhaliyə kömək yox idi. İyunun 5-də ermənilər yenidən kəndə hücum etdilər. Bu hücumda da onlar itki verərək geri çəkildilər. Lakin bu qarşıdurmada 2 Azərbaycan türkü öldürüldü, 1-i isə yaralandı. Yenə ermənilər qüvvə toplamağa başladılar[1548].

İyunun 8-də beşaçılan tüfənglərlə silahlanmış ermənilər yenidən hər tərəfdən kəndə hücum etdilər. Kənd əhalisi isə zəif berdanka tüfənglərlə silahlandığından gülləfləri düşmən mövqelərinə bir o qədər də təsir etmirdi. Digər tərəfdən onların gülləri və sursatları tükənmək üzrə idi. Azərbaycan türkləri istehkamları tərk edərək Üşü kəndinə geri çəkildilər. Onlar arvad-uşaqları məscidə yığıb özləri döyüşü davam etdirdilər. Qüvvələr nisbətinin qeyri-bərabərliyini görən kənd sakini Paşa Budaq oğlu məscidddən arvad-uşağı çıxıraraq keçidlər və dağlarla Sürməli yaylağına aparır. Ermənilər kəndə soxulduqlarından kənddə xəncər müharibəsi başlayır. Azərbaycan türkləri xəncərlə ermənilərlə vuruşurdular. Bu döyüşdə kənd əhalisindən 4 nəfər şəhid olmuş, ermənilərdən 180 nəfər erməni tələf olub bir o qədər də yaralanmışdı. Lakin ermənilər çox olduqlarından qüvvələr nisbəti onların xeyrinə idi. Ona görə də, əhali kənddə durmağı müna-

---

[1547] Hakim Qəmbərli, Yaddaşlarda yaşayan ömür, s.31.

[1548] Ordubadi M.S., Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), s.34.

sib bilməyib kəndi boşaltdılar. Boş kəndi ələ keçirən ermənilər kəndə od vurdular. Bir sıra müqəddəs əşyalar, Quran-kitab, başqa bu kimi əşyalar da yandırıldı. Azərbaycan türklərinin zərəri iki yüz min manat təxmin edilirdi[1549].

Ermənilər Üşü kəndini yandırdıqdan sonra iyunun 9-da digər kəndlərə də hücum etdilər. Həmin gün erməni dəstələri Azərbaycan kəndlərindən ibarət 7 kəndə-Pərsi (34 ev), Nazrəvan (58 ev), Kiçikkənd (36 ev), Kötüklü, Qoşabuaq, İrgü, və Əngirsək (20 ev) kəndlərinə hücum edərək dağıtdılar[1550].

İyunun 9-da ermənilər saat 12-də məşhur Təkyə kəndinə hücum etdilər. Kənd sakinləri silahsız olduqlarından ailələrini götürərək ətraf təpəliklərə sığındılar. Kəndə girən ermənilər Axund Məhəmməd Əli Mirzə Əbdülhüseyn Qazızadənin imarətinə od vurdular, nəticədə 200 cild Quran və digər müqəddəs kitablar yandırıldı. Kənd məscidi müqəddəs əşyaları ilə birlikdə erməni vəşhiləri tərəfindən yandırıldı[1551].

Erməni dəstələri daha sonra Qotur kəndinə hücum etdilər. Onlar bu kəndin əhalisindən 6 kişi, 6 uşaq və 4 qadını bir evə yığaraq neft töküb yandırdılar[1552].

Üçmüəzzin qəzasında da ermənilər onlarla Azərbaycan türk kəndini iyun ayının əvvəllərində yerlə-yeksan etdilər. M.Ordubadi yazır ki, iyun ayının 10-da Üçmüəzzində 9 Azərbaycan türk kəndi dağıdıldı. Hökumət isə heç bir tədbir görmədi[1553]. Ermənilər tərəfindən sıxışdırılan Azərbaycan türklərinin çoxu İrəvan şəhərinə pənah gətirmişdilər. "Həyat" qəzetinin 1905-ci il 11 iyun 5-ci nömrəsində bu haqda yazılmışdı: "İrəvanın qərbində yerləşən

---

1549 Ordubadi M.S., Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), s.34-35.

1550 Yenə orada, s.35; Kazımbəyli İ., Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri), s.271.

1551 Kazımbəyli İ., Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri), s.271.

1552 Hakim Qəmbərli, Yaddaşlarda yaşayan ömür, s.31.

1553 Ordubadi M.S. Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), s.35.

Üçmüəzzin qəzasında isə onlarla kənd talan edilib, bu ərazilərdən didərgin düşərək İrəvana gələn qaçqınların acınacaqlı halını qubernator özü belə "evinin balkonundan seyr etmişdir"[1554].

Bəzi erməni kəndləri qarət və talanla da məşğul olmaqla əhaliyə zülmlər edirdi. Belə kəndlərdən biri ermənilərin yaşadığı Təzəköy kəndi idi. "Həyat" qəzetinin 1905-ci il 22 iyun 1905-ci il nömrəsində qeyd edilmişdi ki, İrəvan şəhərinin 15 verstliyində yerləşən 510 evdən ibarət Badamlı kəndinin müsəlman əhalisi ilə 200 evi olan Təzəköy kəndinin erməniləri arasında baş verən atışmada 2 müsəlman qətlə yetirilib. "Mşaq" qəzeti toqquşmada Badamlının "nadinc müsəlman əhalisi"ni günahkar çıxarmağa çalışsa da, əslində rəsmi statistikada əks olunan məlumatlarda bildirilir ki, Təzəköy kəndinin erməniləri quldurluq fəaliyyətləri ilə həmişə diqqət mərkəzində olublar. Belə ki, onlar dəstələrlə İrəvan istiqamətində hərəkət edən qatarlara hücum çəkərək onları qarət və talan etmişdilər[1555].

İyun ayında İrəvan şəhərində və qəzalarda baş verən erməni-Azərbaycan türk qarşıdurması da müvəqqəti olaraq barışıqla nəticələndi. Bu məqsədlə Şeyxül-islam cənabları və Bakıdan səlahiyyətli nümayəndələr İrəvana gəldi, erməni və Azərbaycan türk nümayəndələri ilə görüş keçirildi və nəticədə müvəqqəti barışıq bağlandı[1556]. Müvəqqəti barışığa baxmayaraq, ermənilər quberniyanın müxtəlif yerlərində imkan düşdükcə Azərbaycan türklərini qətlə yetirir və maddi ziyana salırdılar. Bu haqda "Həyat" qəzeti yazırdı: "Lakin, çox təəssüflər olsun ki, bizim qonşularımız hər halda bizim xilafımıza gəlib bir an rahət deyildilər və hər gün olmur ki, ətraf müsəlmanların şikayətləri İrəvanda görünməsin"[1557]. İrəvan sakini İbrahim Fərəcov Azərbaycan türklərinin hər gün qətlə yetirilməsi haqqında məlumatında yazırdı: "...Cəmi qəzetlər İrəvanda olan erməni-müsəlman

---

[1554] Hakim Qəmbərli, Yaddaşlarda yaşayan ömür, s.31.
[1555] Yenə orada, s.74-75.
[1556] Yenə orada, s.147.
[1557] Yenə orada, s.147.

iğtişaşları ilə doludur. Qeyri bələdələrin ağıllı adamları hər iki tərəfə istehza edib güldülər. Bizə və qonşularımıza məlumat kağızları gəldisə də, lakin nəticə bəxş olmayıb, atəşi fəsad günbəgün şöləvar olmaqdadır. Fəsadçılar hər dəm, hər gün fəsad bərpa edirlər. Etdikləri sülhə, verdikləri iqrara baxmayaraq hər gün neçə nəfər müsəlman şəhid olsun, qətlə yetirib fəsad qaldırmaq fikrindədirlər[1558].

Bu barışıqdan sonra iyul və avqust aylarında ermənilərin Azərbaycan türklərinə hücumlar etməsi barədə xeyli məlumatlar mətbuatda yer almışdır. "Həyat" qəzetində belə hadisələrdən geniş bəhs edilmişdir. Məsələn, 1905-ci il iyulun 4-də İrəvanın qərbində yerləşən Uluxanlı kəndində ermənilər bir Azərbaycan türkünü tüfəng gülləsi ilə vurub öldürmüşdülər. Bu hadisə Uluxanlılara böyük təsir göstərmiş, onlar bunun əvəzini vermək istədikdə pristav araya girmiş, qatilləri tapmaq üçün üç gün möhlət istəmişdi. Həmin gün axşam İrəvan şəhərinin bir küçəsindən Azərbaycan türk qadını keçərkən Anabat adlanan kilsədən ermənilər güllə atmışdılar, lakin güllə qadına dəyməmişdi[1559].

İyulun 5-də İrəvan şəhərinə yaxın Çölməkçi kəndində ermənilər bir Azərbaycan türkünü öldürmək istəmişdilər. Hadisə belə olmuşdu: Günorta Çölməkçi kəndindən atla keçən Azərbaycan türkünə erməni hücum edərək, onu atdan salmış, daşla başını əzmək istəmişdi. Lakin xoşbəxtlikdən ikinci dəfə daşı vurmaq istədikdə zərərçəkənin həmyerliləri yetişdiyinə görə erməni qaçmışdı. Biçarə Azərbaycan türkü divanxanaya şikayət etsə də, onun şikayətinə baxan olmamışdı[1560].

Səhəri günü, iyulun 6-da İrəvanın qərbində yerləşən Uzannar kəndinə ermənilər hücum edərək, kəndi güllə-baran etmişdilər. Düzdür, adam tələfatı olmasa da, ermənilər xeyli xırdabuynuzlu mal-qara aparmışdılar. Bu hadisəni eşidən yerli

---

[1558] Hakim Qəmbərli, Yaddaşlarda yaşayan ömür, s.162-163.
[1559] Yenə orada, s.148.
[1560] Yenə orada.

hakimiyyət orqanları həmin kəndə kazak dəstəsi göndərmişdi[1561].

Ermənilər insanlıq simasını itirərək, hətta uşaqlara və heyvanlara əl qaldırırdılar. İyulun 7-də bir Azərbaycan türk uşağı İrəvan küçələrinin birindən ulağı ilə birlikdə yoldan keçərkən, meyxanaların birindən bir neçə erməni onun üstünə hücum etmişdi. Uşaq qorxusundan qaçsa da, ulaq ermənilərin əlinə keçmiş və yazıq heyvan onlar tərəfindən bir neçə yara almışdı[1562].

İyulun 15-də isə erməni məhəlləsində yerləşən Azərbaycan türk evlərindən biri ermənilər tərəfindən qarət olunaraq yandırılmışdır. Lakin bu hadisədən vaxtında xəbər tutan polis yanğını söndürə bilmişdi[1563].

Ətraf kəndlərdə də belə hadisələrə rast gəlinirdi. İyulun 13-də iki Azərbaycan türkü Üçkilsədə düyü satarkən bir erməni qadınının fitvası ilə hər ikisi qətlə yetirilmişdi[1564].

Nəinki erməni əhalisi, eyni zamanda rus qoşununda qulluq edən erməni əsgərləri və erməni polis işçiləri də bir bəhanə ilə sadə Azərbaycan türklərinə sataşır, onların evlərinə girərək qanunsuz axtarışlar edir, əllərindən olan-qalan silahlarını alır və hətta onları qarət edirdilər. İyulun 18-19-da İrəvanda erməni əsgərləri məhəllə-məhəllə gəzərək silah axtarmışdılar. "Həyat" qəzetində bu hadisə belə təsvir edilmişdi: "erməni əsgərləri və qaradavoyları müsəlmanlara çox-çox əziyyət verdilər və çox müsəlmanın silahını axtarıb aldılar. Qəsdən məst olan (sərxoş-E.Q.) erməni əsgərləri və qaradavoyları müsəlman məhəllələrini gəzib müsəlmanları gördükdə cəbrən axtarıb silahlarını, silahı olmayanların isə cibindən pullarını alırdılar və deyirdilər: Əgər bunt (qiyam-E.Q.) düşsə görün sizə nə edəcəyik. Məgər Bakının intiqamı yadınızdan çıxıb?[1565].

---

[1561] Hakim Qəmbərli, Yaddaşlarda yaşayan ömür, s.148.
[1562] Yenə orada.
[1563] Yenə orada.
[1564] Yenə orada.
[1565] Yenə orada, s.149.

1905-ci il iyulun 23-də üç Azərbaycan türkü şəhər kənarında yerləşən bağlardan meyvə dərərkən ermənilərin atəşinə məruz qalmışdı. Belə ki, onlardan biri ağacda meyvə yığarkən yaxınlıqdakı erməni bağlarından açılan atəş nəticədə öldürülmüşdü. Mərhumun sağ qalmış iki həmyerlisi qatil erməniləri tanımışdı[1566].

İyulun 29-da isə Qəmərli kəndinin kənarında yerləşən tarlada işləyərkən beş-on erməni onlara hücum edərək, onlardan birini öldürmüş, digəri isə yaralanmışdı. Lakin yaralı qaçarkən yolda ölmüşdü. Avqustun 7-də Qəmərli kəndindən İrəvana teleqram gəldi ki, İrəvanlı Əliqulu bəyi və onun əmisi Süleyman bəyi, Ərdəşir kəndində isə bir neçə Azərbaycan türkünü ermənilər qətlə yetirmişdi[1567].

Dərəçiçək mahalında da ermənilər qırğınlar törətmişdilər. Avqustun 6-da Qaraqala kəndindən olan beş nəfər Azərbaycan türkü buğda almaq üçün Gözəldərə kəndinə gedirlər. Onlar erməni kəndi Milikdən keçərkən bir neçə erməni onları izləməyə başlayır. Ermənilər Gözəldərənin qərbində yerləşən erməni kəndi Dirikdə onlara çataraq, beş nəfərin hamısını öldürürlər. Həmin yerin polis rəisi erməni Karqanov olduğuna görə, Azərbaycan türklərinin şikayətinə baxılmamışdı[1568].

Avqustun 12-də isə Üçmüəzzin qəzasında qarışıq kənd olan Tus kəndinin (burada həm Azərbaycan türkləri, həm də ermənilər yaşamışdılar-E.Q.) bir Azərbaycan türkü kəndin kənarında gəzərkən ermənilər tərəfindən öldürülmüşdür. Qardaşları bu haqda İrəvana şikayətə getsələr də, bir nəticə hasil olmamışdı[1569].

Həmin gün Basarkeçər mahalında daha bir hadisə olmuşdu. Həmin mahalın Ağbaş kənd sakinləri Tahir və iki yoldaşı tarlada işləyərkən ermənilərin hücumuna məruz qalmış, nəticədə tərəflər

---

[1566] Hakim Qəmbərli, Yaddaşlarda yaşayan ömür, s 149.
[1567] Yenə orada.
[1568] Yenə orada, s.150.
[1569] Yenə orada.

arasında atışma baş vermişdi. Qüvvələr nisbəti ermənilərin xeyrinə olduğuna görə, Tahir və yoldaşları bu atışmada öldürülmüşdü. Ağbaş kəndindən onlara kömək üçün bir neçə nəfər yollansa da, Tahir və yoldaşlarını tapmamışdılar. Məlum olmuşdur ki, cinayətlərini ört-basdır etmək üçün ermənilər onların meyidlərini aparmışdılar[1570].

Avqustun əvvəlində Sürməli qəzasında daha bir hadisə baş vermişdi. "Həyat" qəzetinin 1905-ci il sentyabrın 4-ü (№58) nömrəsində qeyd edilmişdi ki, İrəvan quberniyasının Sürməli qəzası 160 kənddən ibarət olmuş, onun 30 kəndində ermənilər yaşamışdılar. Az olmalarına baxmayaraq, ermənilər burada da qırğınlar törətmişdilər. Belə ki, Məlikli kəndinin dəyirmanına 50 nəfərdən ibarət erməni dəstəsi hücum edərək, dəyirmançını və burada olan daha iki gənci qətlə yetirmişdilər. Onlar hər meyidə yetmiş-səksən yara vurmuşdular. Ermənilər Azərbaycan türklərinin qorxaqlığını, məzlumluğunu və özlərinin güya qəhrəmanlığını nümayiş etdirmək məqsədilə meyidləri yol kənarına atmış, həmin meyidlər bir neçə gün burada qalmış, heç kimi onların meyidinə yaxın buraxmamışdılar. Nəhayət, Əliəşrəf bəy Şəmsəddinovun xahiş və minnətindən sonra meyidləri götürüb dəfn edilmişdir. Dəfndən iki gün sonra İrəvan qubernatoru prins Napolyon Sürməli qəzasına gəlmiş, hadisədən xəbər tutaraq Azərbaycan türklərinə səbrli olmağı tövsiyyə etmişdir[1571].

Avqustun 13-də 40-50 evdən ibarət Təzəkənd kəndinin erməniləri Uluxanlı kəndində bir nəfər gənci öldürmüşdülər. Cəzasız qalacaqlarını görən ermənilər örüşdən Uluxanlıların xeyli mal-qarasını aparmışdılar. Lakin Azərbaycan türkləri öz ağsaqqallarının və ruhanilərinin öyüd-nəsihətinə əməl edərək onlara toxunmamışdılar[1572].

İrəvan şəhərinin özündə də, ermənilər imkan düşdükcə

---

[1570] Hakim Qəmbərli, Yaddaşlarda yaşayan ömür, s.150.
[1571] Yenə orada, s.163.
[1572] Yenə orada.

Azərbaycan türklərini öldürürdülər. Ermənilər dostluq haqqına belə xəyanət edirdilər. Belə ki, poçt idarəsində qulluq edən Nağı Qədimov qonşusu və dostu olan ermənininin evinə getmiş, lakin bir daha geri qayıtmamışdı. O, üç gün yaxınları tərəfindən axtarılsa da, tapılmamışdı[1573].

Yuxarıdakı hadisələrdən görmək olar ki, barışığa baxmayaraq, ermənilər imkan düşdükcə bir-bir, iki-iki Azərbaycan türklərini öldürürdülər. Azərbaycan türkləri isə qanuna əməl edərək, bəzən də ehtiyat edərək gözləmə mövqeyində durmuşdular. “Həyat” qəzetinin 1905-ci il 2 sentyabr nömrəsində “İrəvan xəbərlərində” bu haqda ürəkağrısı ilə yazılmışdı: “Bu qədər təfsilat verməkdə məqsəd odur ki, bu qədər müddətdə müsəlmanlardan bir təqsir baş vermədiyi halda ermənilərdən bir qədər cinayət baş verib. Və o qədər bu nəhvilə rəftar edib orada burada müsəlmanlardan tələf edəcəklər ki, müsəlmanlar da (Azərbaycan türkləri-E.Q.) cana doyub vuruşa qalxacaqlar. Onda da bir tərəfdən ermənilər, bir tərəfdən də hökumət müsəlmanları qıracaqlar. Necə ki, keçən iğtişaşın xəbəri Bakıya 3 gündən sonra ancaq çatdı. Bu dəfə də 9 gündən sonra çatar. Çünki, İrəvan şəhərində hökmranlıq ümumən ermənilərin əlindədir. Hansı uyezdin naçalniki və qalavası ermənidir, o tərəflərdə iğtişaşlar gün-gündən artır. Belə ki, bu uezdlərdən birinin rəisi Arakelov, birinin rəisi Karqanov və bir neçəsinin rəisi də ermənidir. Onlar müsəlmanları hər tərəfdən sıxırlar ki, qorxutsunlar. 20 fevralda vaqe olmuş iğtişaşdan sonra İrəvanda 5-10 müsəlman əyanından ibarət komitet təşkil olunub. O vaxtan tabə hal bizim komitetimiz ya məclis şuramız millət uğrunda bir əhəmiyyətli bir iş görməyiblər”[1574]. Bu yazıları ürəkağrısı ilə yazan millət vəkili Azərbaycan türklərinin düşdüyü vəziyyəti real təsvir etmişdir.

İrəvan quberniyasının qəzalarında silahsız əhalini öldürən və onlarla kəndləri dağıdan ermənilər sentyabrın ortalarında

[1573] Hakim Qəmbərli, Yaddaşlarda yaşayan ömür, s.163.
[1574] Yenə orada, s.151.

yenidən fəaliyyətlərini İrəvan şəhərinə yönəltdilər. Bu İrəvan şəhərində üçüncü erməni-Azərbaycan türk qarşıdurması oldu. İrəvan quberniyası Jandarmeriya İdarəsi rəisinin verdiyi məlumata görə, 1905-ci il sentyabrın 18-də günorta saat 5-də Vaqarşapat kəndindən İrəvan şəhərinə hərəkət edən bir dəstə Azərbaycan türkləri, şəhərdən iki verst aralı yolun hər iki tərəfində olan üzüm bağlarından ermənilərin atəşinə məruz qalmış, nəticəsində bir türk öldürülmüş, digəri isə ölümcül yaralanmışdır. Yaralı Azərbaycan türkü ölməmişdən qabaq onlara atəş açan erməninin adını demişdi. Üzüm bağında bir dəstə əsgər tərəfindən axtarış aparılmış, burada dörd erməni silahlısı aşkar edilmiş, onlardan birinin silahından yenicə atəş açıldığı məlum olmuşdur. Öldürülmüş Azərbaycan türklərindən birinin qohumu İrəvan şəhərinə qaçaraq bazarda alver edən yerlilərini xəbərdarlıq etmiş, nəticədə hadisədən xəbərdar olan türklər erməni evlərinə atəş açmış, şəhərdə bərk atışma başlamışdır.

İrəvan general-qubernatoru qırğının qarşısını almaq üçün tədbir görməyə tələsdi. İlk növbədə yarım saat ərzində kazarmalardan qoşun çağırıldı, atlı patrulların sayı ikiqat artırıldı, sonra isə artilleriya gətirildi. Lakin buna baxmayaraq, atışma nəticəsində hər iki tərəfdən ölən və yaralanan olmuşdur. Bu qarşıdurmada 9 Azərbaycan türkü öldürülmüş, 7 erməni isə yaralanmışdır[1575]. Digər arxiv mənbəsində isə bu atışmada 8 Azərbaycan türkü, 2 erməni ölmüş, 3 Azərbaycan türkü və 8 erməni yaralanmışdır[1576].

İrəvanda baş vermiş bu qarşıdurmadan sonra qəzalarda da tərəflər arasında döyüşlər baş vermişdi. İrəvan qubernatorunun verdiyi məlumata görə, İrəvan və Şərur-Dərələyəz qəzalarında ermənilərlə Azərbaycan türkləri arasında güclü qarşıdurma ol-

---

[1575] Записка о происшествиях, Грузии ГА, f. 83, siy.1, saxl. vahidi 32, v.70-70 arxası.

[1576] Сведения о происшествиях политического характера на Кавказе и заслуживающих внимания является в общественной жизни края, ARDTA, f.1, siyahı 1, saxlanma vahidi 1, v.4 arx.

muşdu. O, bunun əsl günahının ermənilərdə olduğunu və onların türk kəndlərinə hücum etdiyini bildirmişdi. Şərur-Dərələyəz qəzasının II Polis sahəsinin Pristavının verdiyi məlumata görə, 1905-ci il oktyabrın 27-də Qaranlıq, Taratup, Ərdapin, Qasımkənd, Kaytul, Aynazur və Rinq kəndlərindən olan 700 adamlıq erməni dəstəsi Azərbaycan türk kəndi olan Qors kəndinə hücum edərək 53 nəfəri öldürmüş, 27 nəfəri yaralamış, hətta qadın və uşaqlara aman verməmişdilər. Bundan əlavə həmin kənddə 255 ev və əhalinin ərzaq ehtiyatı yandırılmış, çoxlu mal-qara və 3000 rubl məbləğində əmlak qarət olunmuşdur. Bu hadisə İrəvan və Yenibəyazid qəzalarında Azərbaycan türklərinə böyük təsir göstərmişdi. Lakin buna baxmayaraq, erməni daşnakları güclü dəstələr toplayarq kəndləri qorxu altında saxlayırdılar[1577].

Qors hadisəsi Azərbaycan türklərinə böyük təsir göstərmiş, onları həyacanlandırmış və əvəz çıxmağa məcbur etmişdi. Şərur-Dərələyəz qəzasının II Polis sahəsinin Pristavının verdiyi məlumata görə, Qurdqışlaq, Gendərə, Zeytaqar, Maqomax, Qurbankəsilən, Qabaqlı, Cağatay, Novlar və Argəz Azərbaycan türk kəndlərindən olan bir dəstə Ayar erməni kəndinə hücum edərək 62 baş iribuynuzlu mal-qaranı aparmışdılar. Hətta bu dəstə erməni kəndinə köməyə gələn yüzbaşı Şerbinin kazak dəstəsinə də silahlı müqavimət göstərmişdir[1578].

Yenə həmin pristavın verdiyi məlumata görə, noyabrın 14-də 250 nəfərlik Azərbaycan türk dəstəsi Həsənkənd kəndinin örüş yerlərinə hücum edərək ermənilərin 267 qoyununu və 28 öküzünü aparmışdılar. Noyabrın 17-də isə Gendərəgöz, Nozlun və Kotanlı kəndlərindən olan 300-ə yaxın dəstə Mamikin

[1577] Сведения о происшествиях политического характера на Кавказе и заслуживающих внимания является в общественной жизни края, ARDTA, f.1, siyahı 1, saxlanma vahidi 1, v.64; Записка о происшествиях, Грузии ГА, f. 83, siy.1, saxl. vahidi 32, v.221.

[1578] Из Башнорошена от уездного начальника Черкезова Шарура-Даралезского уезда, ARDTA, f.1, siyahı 1, saxlanma vahidi 1, v.50.

kəndinin çobanlarına hücum edərək 383 qoyun, 174 iribuynuzlu mal-qara aparmışdılar. Lakin çobanlara toxunmamışdılar[1579].

Polis rəisinin Qafqaz Canişininin köməkçisinə ünvanladığı məlumatda göstərilirdi ki, 1905-ci ildə noyabrın 1-dən 8-ə qədər İrəvan şəhərində, xüsusən də Şərur-Dərələyəz qəzasının Azərbaycan türklərinin yaşadığı Qoxt, Canatlı və Qors kəndlərinə ermənilərin hücumu quberniyada hər iki xalq arasında düşmənçiliyi daha da artırmış, əhali arasında qorxu yaratmışdı. Əhali qorxu içində polisə müraciət edərək, onları müdafiə etməyi xahiş etmişdilər. Hətta ordu da bu işə qarışmışdı. Lakin nə polis, nə də ordu bunun öhdəsindən gələ bilmirdi. Bundan istifadə edərək hər iki tərəf bir-birinin kəndlərinə, örüş yerlərinə hücumlar edərək qarətlə məşğul olur, mal-qara oğurlayırdılar. Xüsusilə Naxçıvan qəzasında bir neçə dəstə bu işlə məşğul olurdu[1580].

Ermənilər hər vasitədən istifadə edirdilər. Onlar bilə-bilə vəziyyəti gərginləşdirir, sakitləşmək istəmirdilər və imkan düşdükcə öz cinayətkarlarını ələ vermək istəmirdilər. İrəvan quberniyası Jandarm idarəsinin rəisinin köməkçisinin verdiyi məlumata görə, 1905-ci il sentyabrın 16-da 153 nömrəli Bakı piyada alayının sıravi əsgəri Çemaxman Aleksandropol küçəsi ilə hərəkət edərkən döngədən ona doğru qaçan bir şəxs tərəfindən iki bıçaq yarası almış və o, bu yaradan yerindəcə keçinmişdi. Qatil Çemaxmanla birlikdə hərəkət edən zabit Suxanov tərəfindən təqib edilsə də, yoldan keçən ermənilərin maneə törətməsi nəticəsində aradan çıxa bilmişdi[1581].

1905-ci il dekabr ayının əvvəllərindən başlayaraq İrəvan quberniyasının şəhər və kəndlərində ermənilərlə Azərbaycan

---

[1579] Из Башнорошена от уездного начальника Черкезова Шарура-Даралезского уезда, ARDTA, f.1, siyahı 1, saxlanma vahidi 1, v.50.

[1580] Помощнику Наместника его Императорского Величества на Кавказе Заведывающему Полицией, ГАГ, ф..83, siy. 1, sax. Vah. 341, v.239-239 arxası.

[1581] Записка о происшествиях, Грузии ГА, f.83, siy 1, sax vahidi 36, v.1.

türklərinin arasında qarşıdurma daha da qızışmışdı. Dekabrın 1-də həm ermənilərin, həm də Azərbaycan türklərinin qarışıq yaşadığı Qaraxaç kəndinin sakinləri İbrahim Allahverdi oğlu, Hümbət İbrahim oğlu, Salman Qafar oğlu və Məhərrəm Hümbət oğlu erməni həmkəndlilərini un dəyirmanında yaralamışdılar[1582].

Həmin il dekabrın 5-də Dəvəli kənd erməniləri ilə Avşar kəndinin Azərbaycan türkləri arasında atışma baş vermiş, həmin atışmada Cəlil İsmayıl oğlu öldürülmüşdü. Faktla bağlı araşdırmalar davam etsə də, günahkarlar tapılmamışdı[1583].

Dekabrın 6-da Seyidkənd və Məsimli kəndlərinin sakinləri Qəmərli kəndinə hərəkət edərkən Yuva (qarışıq kənd) kəndi ərazisində ermənilərin atəşinə məruz qalmışdılar. Atəş nəticəsində Azərbaycan türklərindən Ağacan Haqverdi Əli oğlu və Əziz Həsən oğlu yaralanmışdılar[1584].

İrəvanda baş verən hadisələr hakimiyyət orqanlarını narahat etməyə bilməzdi. Məhz bu səbəbdən İrəvan qubernatorunun başçılığı ilə 1906-cı il fevralın 13-də Azərbaycan türkləri ilə ermənilər arasında 9 maddədən ibarət müqavilə bağlandı. Müqaviləyə görə, İrəvan şəhərində sakitlik və qayda-qanun yaratmaq üçün hər iki xalqın nümayəndələrindən ibarət müvəqqəti komissiya yaradıldı. Komissiyanın sədri İrəvan şəhər dumasının başçısı İ.M.Ağamolov, üzvləri isə Azərbaycan türklərindən Qnan xan Makinski, K.Məmməd Əliyev, Ağa xan İrəvanlı, Mir Abbas Mir Babayev, Ələkbər İsmayılov, Abbasqulu bəy Hacıbəyli, ermənilərdən isə Gerasim Petroviç Kamsarakan, Qriqoriy Ter Xaçaturov, Avetis Nazaroviç Ter Avetisov, Vasiliy Yeqiazarov və A.Qavrilov idi[1585]. Komissiyanın işi əgər milli zəmində hər hansı hadisə baş

[1582] Краткая ведомость важнейшим событиям в Эриванской губернии за время с 1-го по 8-го декабря 1905 года, ГАГ, ф..83, siy. 1, sax. vah. 55, v.232.

[1583] Yenə orada.

[1584] Yenə orada.

[1585] Договор, ГАГ, ф..83, siy. 1, sax. Vah. 341, v.4, v.4 arx.; Развитие

versəydi, tərəflər öz millətindən olan günahkarların üç gün ərzində tutulmasına və hakimiyyət orqanları tərəfindən həbs olunmasına köməklik göstərməli idi. Eyni zamanda komissiya üzvlərinə səlahiyyət verilirdi ki, milli ədavət nəticəsində ziyan çəkmiş sakinlərə dəyən ziyanın miqdarını müəyyənləşdirsin və iki həftə ərzində həmin ziyanın qarşı tərəfdən ödənilməsi üçün şəhər orqanları qarşısında məsələ qaldırsın. Komissiyanın işini daha da müvəffəqiyyətlə davam etdirmək üçün yerlərdə seçkili komitələr yaradılmalı idi. Onların səlahiyyəti yerlərdə vəziyyətə nəzarət etməli idi.

İrəvan şəhərində bağlanmış barışığın ardınca 1906-cı il fevralın 20-də Qafqaz canişini Voronsov-Daşkovun təhriki və səyi ilə Tiflisdə ermənilərlə Azərbaycan türkləri arasında sülh danışıqları başladı. Əslində sülh danışıqları fevralın 15-də keçirilməli idi, lakin ermənilərin gəlməməsi səbəbindən qeyd edilən vaxta keçirilmişdi. Bu danışıqlar haqqında M.S.Ordubadi və Nazim Mustafa öz əsərlərində ətraflı bəhs etmişdilər[1586]. Lakin bəzi məsələləri dəqiqləşdirmək istərdik. Qeyd etmək lazımdır ki, "Qafqaz" qəzetinin 1906-cı il 21 fevral nömrəsindən başlayaraq martın 7-ə qədər çıxan nömrəsində Qafqaz canişininin yanında keçən bu iclaslar, burada iştirak edən hər iki millət nümayəndələrinin çıxışları və burada qəbul edilən qərarlar haqqında ətraflı məlumat verilmişdir. "Qafqaz" qəzetinin 1906-cı il fevralın 21-də çıxan nömrəsində yazılmışdı ki, fevralın 20-də canişin Voronsov-Daşkovun iştirakı ilə keçən iclas sarayın bütün uzunluğu boyunca qırmızı süfrə ilə örtülmüş bir masası olan böyük "Ağ zal"da və yaxud "Bəyaz zal"da keçirilirdi. İclasda

---

Еревана после присоединения Восточной Армении к России (сборник документов, 1801-1917 гг.), с.210-211; Mustafa N., Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906), 152-153.

[1586] Ordubadi M.S., Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), s.105-116; Mustafa N., Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906), s.251-271.

həm ermənilərdən, həm də Azərbaycan türklərindən ibarət olan nümayəndə heyətindən ayrı-ayrılıqda 28 nümayəndə, hökumət tərəfindən isə canişin Voronsov-Daşkovun özü, onun hərbi işlər üzrə köməkçisi general-leytenant Malama, mülki işlər üzrə köməkçisi N.A.Sultan-Girey, polis işləri üzrə köməkçisi general-leytenant Şirinkin, şura üzvləri Tiflis quberniyasının qubernatoru baron Rauş-fon-Traubenberq, İrəvan qubernatoru qraf Tizenqau-zen və Yelizavetpol qubernatoru Kalaçev iştirak etmişdilər. Qır-mızı stolun sağ tərəfində Azərbaycan türkləri, sol tərəfində isə ermənilər əyləşmişdi[1587].

Bu tarixi iclasda Azərbaycan türk nümayəndələri bunlar idi: Bakıdan Əhməd bəy Ağayev, Kərbalayı İsrafil Hacıyev, Əlimər-dan bəy Topçubaşov, Tiflisdən Məhəmməd ağa Vəkilov, Doktor Qarabəyov, Gəncədən Əliəkbər bəy Xacməmmədov, Ədil xan Ziyadxanov və başqaları, ermənilərdən isə bunlar idi: "Müşak" qəzetinin müdiri Kalantar, Tiflisdən Xatisov, Samson Artyunov, Bakıdan Xatisov, Müşeksyan, doktor Stepanov, Arakelyan, Taqi-yanusov, Ter-Avenesov, arximandrit Muradyan və başqaları[1588].

Günlərlə davam edən görüşdə hər iki millətdən olan nüma-yəndə heyətləri öz çıxışlarında bir-birini günahlandırır, ermənilər öz proqramında münaqişələrə səbəb kimi yerli hakimiyyət orqan-larının hərəkətsizliyi və baş verən hadisələrə biganə qalmasında, Azərbaycan türkləri isə müxtəlif erməni təşkilatlarını və komitələrini təqsirləndirirdilər[1589].

Uzun müzakirələrdən sonra martın 6-da iclas öz işini başa

---

[1587] Кавказ, 21-го февраля 1906, №42, с.4; Ordubadi M.S., Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), s.105; Mustafa N., Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906), s.252.
[1588] Ordubadi M.S., Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), s.105.
[1589] Yenə orada, s.106-110; Mustafa N., Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906), s.254-255.

vurmuşdu[1590]. Martın 7-də isə İrəvan qubernatoru Tizenqauzenin başçılığı ilə Komissiya yaradıldı. Bu komissiyanın tərkibinə həm Azərbaycan türk, həm də erməni nümayəndələri daxil idi[1591].

N.Mustafa qeyd edir ki, "Erməni-müsəlman qurultayının (rəsmi mətbuatda iclas-E.Q.) keçirilməsinin başlıca əhəmiyyəti ondan ibarət olmuşdur ki, keçirilən iclaslarda azərbaycanlı nümayəndələr ermənilərin iç üzünü açmış, Cənubi Qafqazda bütün qırğınların baiskarının "Daşnaksütyun" partiyasının olduğunu ermənilərin üzünə söyləmiş, rəsmi hakimiyyət dairələrinin erməni terroru qarşısında acizlik göstərdiklərini sübuta yetirmişdilər[1592].

Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan İrəvan quberniyasında ermənilərlə Azərbaycan türkləri arasında 1905-ci il fevralın əvvəlindən başlayan toqquşmanın qarşısını almaq üçün Tiflisdə iki həftəyə qədər davam edən iclasda tərəflər arasında qırğınların dayandırılması, bu qırğınların səbəblərinin aradan qaldırılması qərara alınmışdı. Yekunda bölgələrdə vəziyyətə nəzarət etmək üçün komissiya yaradılsa da, İrəvan şəhərində və qəzalarda ermənilərin günahı üzündən qırğınlar bir müddət davam etmişdir. İrəvan şəhərində baş verən bu hadisələr dördüncü erməni-Azərbaycan türk qarşıdurması idi. Belə ki, 1906-cı il mayın 2-də İrəvan şəhərində ermənilər Azərbaycan türklərinə qarşı yeni cinayət törətmişdilər. Həmin gün "Daşnaksütyun" terror təşkilatına məxsus ermənilər şəhərdə vəziyyəti gərginləşdirmək üçün xaincəsinə Azərbaycan türklərinin idarə etdikləri faytona atəş açmışdılar. Atəş nəticəsində 2 nəfər yerində ölmüş, iki nəfər isə yaralanmışdır. Yaralılardan biri ertəsi gün şəhər xəstəxanasında vəfat etmişdir. Barışdırıcı komissiyanın günahkarların təhvil verilməsi tələbinə ermənilər tərəfindən məhəl

---

[1590] Кавказ, 8-го марта 1906, №55, с.2.
[1591] Кавказ, 10-го марта 1906, №57, с.3.
[1592] Mustafa N., Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906), s.272-273.

verməədiklərindən, hadisəni törədənlər tapılmamışdı[1593].

Bu da Azərbaycan türklərinin böyük narazılığına səbəb olmuşdu. Mayın 27-də bazarda başlayan atışma, bütün şəhərə yayılmışdı. Nəticədə 11 erməni, 4 Azərbaycan türkü, 1 yəhudi, 1 malakan ölmüş, 7 Azərbaycan türkü, 9 erməni, 1 yəhudi, 1 gürcü, 1 Qacar dövlətindən olan şəxs yaralanmışdı. Lakin sonra yaralılardan 2 erməni və 3 Azərbaycan türkü ölmüşdür[1594].

1906-cı il iyunun 8-də gündüz saat 11-də İrəvan bazarında yenidən atışma baş vermişdi. Mənbənin verdiyi məlumata görə, bu hadisənin səbəbkarı ermənilər olmuşdu. Həmin gün bazarda canlanma baş vermiş, lakin günortaya yaxın şəhərin müxtəlif yerlərində - Məscid döngəsində, tərəzilərin olduğu bazar meydanında atışma baş vermişdir. Məlum olmuşdu ki, həmin yerdə yerləşən İrəvan sakini Akopova, Poqis Coqomonova, Vartan Abkaryansa, Arutyun Markaryansa, Ovanes Babayansa, Yefrem Frankova, Qevork Qevorkova, Qeqam Xalatova və Yelizar Yelzaryansa məxsus erməni dükanlarından Azərbaycan türklərinə qarşı atəş açılmağa başlamışdır. Azərbaycan türkləri də buna cavab vermək məcburiyyətində qalmışdılar. Bu atışmada 4 Azərbaycan türkü, 3 erməni ölmüş, 13 nəfərə yaxın Azərbaycan türkü, 6 erməni və 1 yəhudi isə yaralanmışdır[1595].

Vəziyyətin gərginliyini görən hökumət nümayəndələri hadisəyə qarışmağa məcbur olmuşdular. Atışma baş verən zaman polis, daha sonra işə I Poltava kazak alayının 4-cü bölük komandiri yasavul Belçanski və 5-ci Kazak atıcı batalyonunun podporuçiki Qorçakov vəziyyətə müdaxilə etməyə başladılar. Onlar İrəvan sakini Məşədi Məmməd Hacı Ələkbər oğlunun dükanına

---

[1593] Помощнику Наместника его Императорского Величества на Кавказе Заведывающему Полицией, ГАГ, ф..83, siy. 1, sax., vah. 341, v.55.
[1594] Петербург Министру Внутренних Дель, ГАГ, ф..83, siy. 1, sax., vah. 341, v.48.
[1595] Помощнику Наместника его Императорского Величества на Кавказе Заведывающему Полицией, ГАГ, ф..83, siy. 1, sax., vah. 341, v.56. v.56 arxa.

yaxınlaşarkən, həmin dükan tərəfdən atəş açıldığına görə, rus əsgərləri tərəfindən dükan atəşə tutulmuşdu. Nəticədə, dükanın sahibi ölümcül yaralanmışdı. Məlum olmuşdu ki, dükan sahibinin heç bir günahı yoxdur. Bu erməni təxribatının nəticəsi idi[1596].

Həmin gün şəhərin digər hissəsində də ölüm hadisəsi qeydə alınmışdı. İrəvan sakini Həsən Hacı Əli oğlu parkda gəzərkən ermənilər tərəfindən ağzından güllələnmişdi. Lakin buna baxmayaraq, o, şəhər Polis idarəsinə qədər qaçmış, onun yanında əldən düşərək ölmüşdür[1597].

İrəvan şəhərinin ətraf məhəllələrindən biri olan Şiləçi məhləsində rus kazakları tərəfindən Qacar dövlətindən gəlmiş erməni Muşek Şahnazarov öldürülmüşdü. O, Azərbaycan türklərinə atəş açdığına görə güllələnmişdi. Bundan əlavə, vəziyyətin qarışdığı vaxt İrəvan sakinləri Yeqor Ter Stepanova və Kaspar Qevorkova məxsus malikanələrdən Abbasqulu bəy Hacıbəylinin malikanəsi güllə atəşinə tutulmuş və ermənilər tərəfindən onun iki atı oğurlanmışdır[1598].

İyunun 9-da Təpəbaşı məhəlləsində tərəflər arasında atışma daha da qızışdı. Bu atışmada ölən və yaralanan olmasa da, ermənilər Astafyev küçəsində Azərbaycan türkü Mir İbrahim Seyid Məmməd oğlunun evini yandırmağa cəhd etmişdilər. Lakin polislərin vaxtında müdaxiləsi nəticəsində yanğın vaxtında söndürülmüşdü. Buna baxmayaraq, ermənilər evdən 1200 rubl məbləğində müxtəlif əşyalar oğurlamışdılar[1599].

İyunun 11-də axşam saat 6-da Dəlmi bağına gedən yolda başda erməni siyasətçisi Ayrapert Asaturov olmaqla üç erməni ilə birlikdə İrəvan şəhər sakini Hüseyn Kərbalayı oğlunu

---

[1596]Помощнику Наместника его Императорского Величества на Кавказе Заведывающему Полицией, ГАГ, ф..83, siy. 1, sax., vah. 341, v.57.
[1597]Yenə orada.
[1598]Yenə orada.
[1599] Yenə orada.

öldürmüşdülər. Lakin günahkarlar heç bir cəza almadılar[1600]

1906-ci il mayın 26-27-də Sürməli qəzasının I polis sahəsində Azərbaycan türkləri ilə ermənilər arasında gərgin vəziyyət yaranmışdı. Plyur erməni kənd sakinləri Ahməmmədli kənd sakinləri olan iki Azərbaycan türkünü ələ keçirərək qətlə yetirmişdilər. Əvəzində yerli hakimiyyət orqanları Plyur erməni sakinlərinə 2000 rubl həcmində cərimə müəyyən etmişdi. Lakin bu, Ahməmmədli kənd sakinlərini təmin etməmiş, iyunun əvvəllərində bunun qisasını almışdılar. Onlar öldürülmüş kəndlilərinin qisasını almaq üçün tarlada işləyən Plyur ermənilərinə hücum edərək 2 nəfəri girov götürmüş, 1 nəfəri öldürmüş, 2 nəfəri isə yaralamışdılar. Bunu eşidən plyurlular silahlanaraq, ətrafda yerləşən bağlarında pusqu dəstəsi yerləşdirərək Ahməmməd kəndinə hücuma başladılar. Həmin vaxt qəza rəisi bir polis dəstəsi ilə Ahməmməd kəndinə gəlmişdi. Kapitan İonin xahiş, hədə-qorxu ilə tərəflər arasında döyüşün qarşısını almağa müəffəq olmuşdu[1601].

Lakin bağlarda pusqu quran Plyur dəstəsi Araz kənarı kəndlərdən gələn Azərbaycan türk dəstəsinə atəş açmış, nəticədə 4 Mələkli, 1 Qaraqoyunlu kənd sakini öldürülmüş, 1 Mələkli kənd sakini yaralanmışdır. Bundan başqa, Panik və Plyur erməniləri hər iki əhalinin qarışıq yaşadığı Qızıl Zakir kəndinə hərəkət etməyə başladılar. Bunu eşidən 200 Mələkli Azərbaycan türk dəstəsi həmin kəndə doğru hərəkət etmişdi. Lakin bu dəfə də kütləvi qırğının qarşısı alınmışdı. I sahənin Polis pristavlığının strajniki Tkemaladze öz dəstəsi ilə tərəfləri sakitləşdirərək, dağılışmalarını tələb etmişdi. Tərəflər dağılışsa da, Qızıl Zakir kəndinin sakinləri öz əmlakları ilə birlikdə Mələkli kəndinə, həmin kəndin erməniləri isə Panik kəndinə köçmüşdülər[1602].

---

[1600] Помощнику Наместника его Императорского Величества на Кавказе Заведывающему Полицией, ГАГ, ф..83, siy. 1, sax., vah. 341, v.58. v.58 arxa.

[1601] Yenə orada, v.51, v.51 arxa.

[1602] Помощнику Наместника его Императорского Величества на Кавказе

Sürməli qəzasında kəndlərdə  hər iki əhali arasında gərgin vəziyyət yaransa da, müvəqqəti olaraq qırğından qaçmaq mümkün olmuşdu. Lakin Sürməli qəzasının mərkəzi İğdır kəndində bazarda baş vermiş hadisədə ölən və yaralanan qeydə alınmışdı. Bu hadisə 1906-cı il iyunun 2-də İğdır bazarında baş vermişdi. Bu hadisədə ermənilər tərəfindən 1 Azərbaycan türkü, 1 kürd yaralanmışdı[1603].

Həmin vaxt Oba kənd sakini Hüseyn Əsəd oğlu Əli Kəmərli erməniləri tərəfindən ələ keçirilmişdi. Belə ki, bir neçə Oba kənd sakini öz həmkəndlilərini dəfn etmək üçün (yeni qəbiristanlıq erməni bağlarının yanında salındığı üçün) ermənilərin hücumundan ehtiyat edərək, köhnə qəbiristanlıqda qəbir qazmağa başlamışdılar. Qəbir qazılıb qurtaran vaxtı erməni bağlarından onlara atəş açılmağa başladı. Bundan qorxan obalılar meyidləri qoyaraq oradan qaçırlar. Lakin onlardan biri Hüseyn Əsəd oğlu meyidlərlə birlikdə orada qalır. Nəticədə, Hüseyn Əsəd oğlu öldürülmüş, indiyə qədər onun meyidi tapılmamışdı[1604]. 1906-cı il iyunun 2-3-də Sürməli qəzasında baş vermiş bütün bu hadisələrdə hər iki tərəfdən 8 adam ölmüş, 11 adam yaralanmışdı.

Son dövrlərdə bölgədə baş vermiş hadisələr nəticəsində hər iki xalq arasında vəziyyət o qədər gərgin idi ki, hakimiyyət bölgədə qayda-qanun yaratmaq üçün yollar axtarmağa başladı. Nəticədə, 1906-cı il iyunun 10-da İrəvan general-qubernatorluğunun yanında müvəqqəti barışdırıcı komissiya yaradıldı. Komissiya İrəvanın vitse-qubernatoru Q.Kovalevin başçılığı ilə yaradılmışdı. İlk əvvəl komissiyanın tərkibinə daxil olan həm Azərbaycan türk nümayəndələri, həm də erməni nümayəndələri baş verən hadisələrə müstəqil münasibət bildirmək, öz sözlərini demək və bu səbəblərə qarşı mübarizə aparmaq üçün bir-birindən ayrı toplaşmaq qərarına gəlmişdilər. Lakin virse-qubernatorun başçı-

Заведывающему Полицией, ГАГ, f.83, siy 1, sav.,v, 341, v.52.
[1603] Yenə orada, v. 52 arxa.
[1604] Yenə orada.

lığı ilə olmuş bir neçə iclasdan sonra iyunun 19-da belə qərara gəlindi ki, tərəflər həm ayrıca, həm də birlikdə bütün heyətlə yığışa bilərdilər. Komissiyanın gələcək fəaliyyəti üçün xüsusi protokol qəbul edilmiş, həmin protokol 16 bənddən ibarət idi. Bu protokolda konkret görüləcək işlər haqqında ətraflı məlumat verilmişdir. Protokolun 10-cu bəndinə əsasən ərizələrin, şikayətlərin qeydə alınması üçün polis sahələrində və Polismeyster idarələrində şikayət və ərizələrin yazılması üçün xüsusi kitabçalar olmalı idi. Həmin protokolun 11-ci bəndinə əsasən Astafyev küçəsində Doktor bağçasından Surp-Sarkis bağçasına qədər, Ter-Quqasov küçəsində Pənahxan bağçasından İngilis bağçasına qədər, Nikolayevski kilsəsindən dəmiryol stansiyasına qədər, bütün Aptekar küçəsində, Şəriət küçəsində, Qəssabxanadan Hacı Budaq Süleyman oğlunun evinə qədər, Baqqalxanadan Gürcü karvansarasının meydanına qədər, çəki meydançasının qabaq tərəfindən Sərdar bağına qədər, Odunçu meydanında olan rayonlardakı çayxana, qəhvəxana, dükan, meyxana, pivəxana və mehmanxanalar bağlanmalı idi. Əgər həmin müəssisələrin sahibləri öz fəaliyyətlərini müvafiq qaydada müəyyən müddət ərzində davam etdirmək istəsələr, onlar icazə üçün komissiyaya ərizə ilə müraciət etməli və yaxud onlara iki etibarlı İrəvan şəhər sakini zəmanət verməli idilər[1605].

Bundan əlavə, protokolun 12-ci bəndinə əsasən, hərbi gözətçi məntəqələri yaradılmalı idi. Həmin gözətçi məntəqələri konkret yerlərdə yaradılmışdı. İlk növbədə xüsusi binası olan 10 nəfərlik gözətçi məntəqəsi salındı. Digər gözətçi dəstələri 4 nəfərdən ibarət şəhərin müxtəlif yerlərində yerləşdirilmişdi. Bunlar aşağıdakılardır: 1. Bulvarda; 2. Qəssabxanada; 3. Puşkin məktəbində; 4. Pənahxan bağçasında; 5. Ter-Quqasov küçəsinin axırında; 6. Təpəbaşı məhəlləsində Abbasqulu xanın evinin yaxınlığında; 7. Vağzal küçəsində Pənahxan bağında bulağın yanında;

---

[1605] Помощнику Наместника его Императорского Величества на Кавказе Заведывающему Полицией, ГАГ, f.83, siy 1, sav.,v, 341, v.67. v.67 arxa.

8. Təhmangöldə; 9. Sərdarabad bağının yaxınlığında; 10. Qasımbəyin evinin əks tərəfində Zəngi çayının yamacında; 11. Odunçu meydanında; 12. Molakan kilsəsində; 13. Dərəkənd məhəlləsində yerləşən dəyirmanda; 14. Dərviş yolunda yerləşən Çölməkçi bağında; 15. Erməni qəbiristanlığında. Bundan əlavə, Vağzal küçəsinə də nəzarət edilməli idi. Protokolun 13-cü bəndinə əsasən etnik zəmində işlərin araşdırılması üçün iki Azərbaycan türkü və iki erməni təyin edilirdi. Azərbaycan türklərindən Abbasqulu bəy Hacıbəyli, ona köməkçi Həsən bəy Ağayev, ermənilərdən Avetis Ter-Avetisov və ona köməkçi Elo Arutunyan idi. Protokolun 14-cü bəndinə əsasən İrəvan şəhəri kiçik rayonlara bölünməli və bu rayonlarda xalq tərəfindən seçilmiş qəyyumlar sülh təbliğatı aparmalı idi. Daha sonra hər iki tərəfdən 4 nəfər seçilməli, həmin adamlar bazarlarda əhalinin hal-əhvalına nəzarət etməli, mübahisə və dava haqqında məlumat verməli idilər[1606].

Lakin ermənilərin bütün cəhdlərinə, rus hakimiyyət orqanlarının onlara kömək etməsinə baxmayaraq, 1906-cı ilin sonlarından başlayaraq erməni Azərbaycan türkləri arasında olan bu qarşıdurmalar yavaş-yavaş səngiməyə başladı. Bunun bir neçə səbəbi vardı. Bu bir tərəfdən çar Rusiyasının siyasi həyatında baş vermiş dəyişikliklə əlaqədar idisə, digər tərəfdən Azərbaycan türklərinin cana gələrək sonda ermənilərə cavab verməsi və bütün istiqamətlərdə onların üzərində qələbə qazanması idi. İstər mənbələrdə, istərsə də tarixi ədəbiyyatda bu qırğınların əsl səbəbkarlarının ermənilər və onların gizli komitələrinin olması haqqında xeyli məlumata rast gəlmək olar. Ermənilər bu hadisəyə əvvəldən hazırlaşmış, təşkilatlanmış və hakimiyyət orqanlarının köməyi ilə illərlə silah-sursat tədarük etmişdilər. Onların niyyətindən xəbərdar olan rus hakimiyyət orqanları XX yüzilliyin əvvəllərində Cənubi Qafqazda milli oyanışın və inqilabi hərəkatın qarşısını almaq üçün ermənilərə məkrli siyasətini

---

[1606] Помощнику Наместника его Императорского Величества на Кавказе Заведывающему Полицией, ГАГ, f.83, siy 1, sav.,v, 341, v.67 arxa.

həyata keçirməyə imkan vermişdilər. Yüksək səviyyədə hazırlaşan erməni dəstələri Azərbaycanın ayrı-ayrı yerlərində-Bakıda, İrəvanda, Naxçıvanda, Qarabağda, Zəngəzurda, Gəncədə və Tiflisdə Azərbaycan türklərini qırmağa və elindən-obasından zorla qovmağa başladılar. Bu hadisələrdə Azərbycan tüklərinə məxsus kəndlər dağılmış və insanlar öldürülmüşdür. İlk dövrlərdə qanun-qaydaya əməl edən, ağsaqqalların sözünə qulaq asan və hakimiyyət orqanlarından ehtiyat edən Azərbaycan türkləri sonda ermənilərin azğınlığını görərək onlara cavab vermək məcburiyyətində qalmışdılar. Cahangir Zeynaloğlu öz əsərində bu hadisələrin yekunu haqqında belə qiymət vermişdi: "Buna baxmayaraq, türklər nəhayətdə qalib gəlib, erməniləri hər yerdə məğlub eylədilər. Bu qırğın təbii ki, tərəflər üçün lüzumsuz idi. Yalnız ruslar bundan çox istifadə edərək, millətləri biri digəri əleyhinə təhrik etməklə zəifliyə düçar və bu əsnada daxili ixtişaşı yatırmağa müvəffəq olduqdan sonra Qafqaz qitəsindəki keçmiş nüfuzunu əldə etdi. Fəqət bu qırğın ilə bir dərəcəyə qədər millət gözünü açıb dost və düşmənlərini tanıdı və Rusiya siyasətini də anladı. Maarif və tərəqqiyə əhəmiyyət verdi. Məktəblər, cəmiyyətlər və qəzetlər nəşrilə teatr, musiqi və sairə çox irəliləməyə başladı. Lakin ermənilər ilə türklərin arası çox açıq qaldı. 1914-cü il Cahan hərbində rus hökuməti erməni toqquşmasına yol verməmək üçün arxa cəbhədə tədbirlər görməyə məcbur oldu. Çünki bu dəfə daxildə iki millətin toqquşması rusların mənfəətinə müvafiq deyil idi. Zalım çarizmin siyasəti bu idi"[1607]. Müəllif bu fikirləri ilə hadisələrin siyasi mahiyyətini və hakimiyyət orqanlarının ikiüzlü siyasətini açıb göstərmişdir.

Beləliklə, ermənilərin və onların terror təşkilatlarının günahı üzündən 1905-1906-cı illərdə həyata keçirilən qırğınlar, soyqırım siyasəti Azərbaycan türklərini məhv etmək, bölgədə tamamilə etnik üstünlüyə nail olmaqla gələcəkdə dövlət yarat-

---

[1607] Zeynaloğlu C., Müxtəsər Azərbaycan tarixi (elmi-publistik və tarixi kitab), Bakı, Azərbaycan Dövlət Kitab Palatası, 1992, s.107.

maq planları ilə bağlı idi. Onların bu əməlləri Cənubi Qafqazda və o cümlədən Azərbaycanda inqilabi hərəkatın qarşısını almaq və bölgədə "parçala və hökm sür" siyasəti yeridən çar Rusiyasının siyasətinə uyğun gəldiyindən hakimiyyət orqanları Azərbaycan türklərinə qarşı yeridilən bu qırğınlarda ermənilərə dəstək vermiş, istər hərbi cəhətdən, istərsə də mənəvi cəhətdən onlara kömək etmişdilər. Nəticədə, Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən onun tərkib hissəsi olan İrəvan quberniyasında mükəmməl silahlanmış erməni dəstələrinin hücumları nəticəsində əsl soyqırım həyata keçirilmiş, kəndlər dağıdılmış, talan edilmiş və Azərbaycan türkləri öldürülmüşdür.

# VIII FƏSİL

# İRƏVAN QUBERNİYASININ MƏDƏNİ HƏYATINDAN
## *(XIX YÜZİLLİYİN İKİNCİ YARISI-XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ)*

## 8.1. Təhsil

Rusiya Şimali Azərbaycanı, o cümlədən onun tərkib hissəsi olan İrəvan quberniyasını işğal etdikdən sonra bir sıra iqtisadi-siyasi məsələlərlə bərabər təhsil sistemində də yenilik etmək zəruriyyəti ilə qarşılaşdı. Lakin bu zərurət heç də xalqın savadlanmasına deyil, sadəcə özünə sadiq məmurlar ordusu yaratmaq niyyəti güdmüşdü. Çünki yaranmış Avropa tipli məktəblərdə əsasən rus dili və mədəniyyəti tədris edilirdi. Qeyd etmək lazımdır ki, bəhs etdiyimiz dövrdə İrəvan quberniyasında çar hakimiyyət orqanları tərəfindən açılmış Avropa tipli xəzinə məktəbləri ilə paralel məscidlərin və erməni kilsəsinin nəzdində açılmış dini və xüsusi şəxslər tərəfindən maliyyələşdirilən şəxsi məktəblər fəaliyyət göstərmişdir.

Çar Rusiyası işğalından sonra Cənubi Qafqazda, o cümlədən İrəvan quberniyasında ənənəvi dini məktəblərlə bərabər, yeni Avropa tipli məktəblərin yaradılmasını qərara aldı. XIX əsrin ikinci yarısından Azərbaycanda və onun tərkib hissəsi olan İrəvan quberniyasında kənd və şəhərlərdə müxtəif cür dövlət məktəbləri-qəza, ibtidai sinif və seminariya tipli məktəblər fəaliyyət göstərmişdir. Sonralar istər oğlanlara, istərsə də qızlara məxsus məktəblərin tərkibində peşə və ticarəti öyrənmək üçün xüsusi bölmələr də yaradılmışdı. Bu məktəblərin əksəriyyəti dövlət və şəxsi adamlar tərəfindən maliyyələşdirilirdi. İrəvanda ilk dövlət məktəbi qəza məktəbi tipində olmuşdu. Yerlərdə yeni tipli-qəza məktəblərinin açılması barədə Maarif Nazirliyi qarşısında qaldırılmış məsələ ilə əlaqədar olaraq 1829-cu il avqustun

2-də çar tərəfindən Cənubi Qafqaz məktəblərinin vəziyyəti haqqında "Əsasnamə" təsdiq edilmişdi. Bu əsasnaməyə görə, qəzalarda açılan Avropa tipli məktəblərdə qəbul edilən dərs proqramında dini təhsil, rus və yerli dillər və hesab fənlərinin tədris edilməsi qərara alınmışdı[1608]. Qafqazda yeni tipli məktəblərin açılmasında "maraqlı olan" çar Rusiyası təhsili daimi və ciddi nəzarətdə saxlayırdı. İlk dövrlərdə konkret və xüsusi rəhbərliyi olmayan qəza məktəbləri Tiflis gimnaziyasının direktoru vasitəsilə Xalq Maarif Nazirliyi ilə yaxın təmasda olan Gürcüstan baş hakiminə tabe idi[1609]. 1840-cı ildən qəza məktəbləri Cənubi Qafqaz məktəbləri Baş müfəttişinin, 1846-cı il yanvarın 6-da çarın fərmanına görə isə bu diyarın təhsil sistemi Qafqaz canişinliyinin ixtiyarına verilmişdi. 1848-ci il dekabrın 18-də "Qafqaz təhsil dairəsi" yaradılması haqqında çar I Nikolayın imzası ilə sərəncam imzalandı[1610]. Maraqlı cəhət odur ki, bu sərəncama əsasən qəbul edilmiş əsasnamədə İrəvan qəza məktəbi Naxçıvan və Yelizavetpol qəza məktəbləri ilə birlikdə Cənubi Qafqazda müsəlman məktəblərinin yaradılmasının başa çatdırılmasına qədər Şamaxı-Dərbənd müdiriyyətinin tabeliyinə daxil edilmişdi[1611]. Həmin təlimatda eyni zamanda kəndlilərin dövlət məktəblərində təhsil almasına qadağa qoyulmuşdu. Təlimatın 5-ci fəsilinin 89-cu bölməsində xəzinə, mülkədar və vəqf torpaqlarında

---

[1608] Полное собрание законов Российской империи, СПб, Печатано в Типографии II отделения собственной его императорского величества Канцелярии, 1830, т.4, с.571-574; Отношение т.с Блудова, к.т.с. Уварову, от 8-го февраля 1834 года, №64, [АКАК в 13 томах], Под. ред. А.Берже, Тифлис: Типография Главного Управления Наместника Кавказского, 1878, т.7, с.97; Гараев Э., Из истории культуры Эриванского региона в конце XVII-в средине XIX века (оброзование, литература, музыка, танцы), Махачкала, Пятые Всероссийские (с международным участием) историко-этнографическое чтения, посвященные памяти профессора Магомедова Расула Магомедовича, Сборник статей, 2018, ч.1, с.203.

[1609] Azərbaycan tarixi [7 cilddə], Bakı, Elm., c.4, 2000, s.130.

[1610] Журнал Министерства народного просвещения [в 381 томах], СПб, Императорский Академии Наук, 1849, ч.LXI, отд.1, с. 22-23.

[1611] Yenə orada, s.25.

çalışan kəndlilər dövlət məktəblərində təhsil ala bilməzdi[1612].

Yerlərdə məmur kadrlarına ehtiyacı olan və onları Rusiyadan dəvət etməyin məqsədəuyğun olmadığını nəzərə alan çar hakimiyyət orqanları belə məktəbləri açmaqla üç məqsəd güdürdü. Birincisi, zadəgan və məmur uşaqlarını dövlət qulluğuna hazırlamaq; ikincisi, yeni hakimiyyətə sədaqətlə qulluq edən şəhər və digər imtiyazlı təbəqələrin uşaqlarını savadlandırmaq; üçüncüsü isə daha yüksək təhsil sistemi hesab edilən gimnaziyaya qəbul olunmaq üçün uşaq hazırlamaq. Bu məktəblərdə təhsil pulsuz idi. Yaş həddinə görə təhsil alan uşaqlar 9 yaşından kiçik, 15 yaşından böyük olmamalı idi. Qəza məktəblərində rus dili proqramı əsas fənn hesab edilirdi. Lakin yerli xalqdan rus dilini bilən sadiq məmurlara olan ehtiyacı nəzərə alan çar hakimiyyət orqanları qəza məktəblərində Azərbaycan türkcəsinin tədris edilməsinə razılıq vermək məcburiyyətində qalmışdı[1613].

1829-cu il avqustun 2-də qəbul edilmiş "Əsasnamə"yə görə, İrəvan quberniyasında qəza məktəbləri İrəvan, Naxçıvan və Ordubad şəhərlərində açılmalı idi. Lakin ilk əvvəl qəza məktəbi 1832-ci il yanvarın 14-də İrəvan şəhərində açıldı. İrəvan qəza məktəbi sonralar progimnaziya və tam gimnaziyaya qədər inkişaf etmişdi. Bu məktəb ilk dövrlərdə ikisinifli fəaliyyət göstərmişdi. Məktəbin ilk yaradıcısı və müfəttişi Moskva Universitetinin tələbəsi F.Zuboev olmuşdur. Əvvəlcə qəza məktəbi qala daxilində yerləşmiş, sonra isə Müqəddəs Sarkiz kilsəsinin həyətində münasib olmayan iki otaqdan ibarət mənzildə yerləşmişdi. O, 1835-ci ilə qədər burada, həmin ildə S.Vəkilovun icarəyə götürdüyü evdə, 1842-ci ildən isə zabitlər evinin yanında tikilmiş yeni binada fəaliyyət göstərmişdir[1614].

Qəza məktəbində əsasnaməyə görə, dini qanunlar, rus dilinin qrammatikası, yerli dillərdən Azərbaycan türk, erməni

---

[1612] Журнал Министерства народного просвещения [в 381 томах], СПб, Императорский Академии Наук, 1849, ч.LXI, отд.1, с.51.

[1613] Yenə orada, s.51-54.

[1614] Журнал Министерства народного просвещения, СПб, 1835, ч. VI, с.81.

dilləri, tarix, coğrafiya, həndəsə, hüsnüxət, rəsm və rəsm-xətt dərsləri keçirilməli idi. Lakin müəllim azlığından ilk dövrlərdə tarix, coğrafiya, rəsm-xətt və rəsm dərsləri keçirilmədi[1615].

İrəvan qəza məktəbində Azərbaycan türkləri ilə bərabər ruslar və ermənilər də təhsil almışdılar. Məktəbdə yalnız oğlanlar oxuyurdular. Təhsil alanların əksəriyyəti zadəganların və tacirlərin uşaqları idi. 1834-cü ilin fevral ayına olan məlumata görə, İrəvan qəza məktəbində 37 şagird, 1836-cı il məlumatına görə isə 60 şagird təhsil almışdı[1616].

İrəvan qəza məktəbi XIX yüzilliyin ortalarından üçsinifli məktəb kimi fəaliyyət göstərməyə başladı. Bunun nəticəsində oxuyan şagirdlərin sayı da artmışdı. Siniflərin sayı artdıqdan sonra qəza məktəbində kəndli uşaqlarının da oxumasına icazə verilmişdi. 1850-ci ildə bu qəza məktəbində 6 müəllim və 109 şagird qeydə alınmışdı. Bu şagirdlərdən 48-i imtiyazlı təbəqələrin və məmurların, 61-i isə kəndlilərin uşaqları idi. Məktəbin tərkibində 200 nüsxə kitabı olan kitabxana da fəaliyyət göstərmişdi[1617]. 1852-ci ilin məlumatında isə İrəvan qəza məktəblərində oxuyan şagirdlərin milli tərkibi göstərilmişdi. Bu qəza məktəblərində oxuyan şagirdlərindən 20-i Azərbaycan türkü, 11-i rus, 115-i isə erməni olmuşdur[1618]. 1865-ci il məlumatına görə isə İrəvan qəza məktəbində 8 müəllim fəaliyyət göstərmiş, 200 tələbə oxumuşdur[1619].

1864-cü il noyabrın 19-da "Gimnaziya və progimnaziyanın

---

[1615] Акопян Т.Х., Очерк истории Еревана, с.192.

[1616] Отношение т.с Блудова, к.т.с. Уварову, от 8-го февраля 1834 года, №64, [АКАК в 13 томах], Тифлис, 1878, т.7, с.97-99; Обозрение российских владений за Кавказом в статическом, этнографическом, топографическом, финансовом отношениях, СПб, 1836, с.275.

[1617] Кавказский календарь на 1852 г., с.445; Гараев Э., Из истории культуры Эриванского региона в конце XVII-в средине XIX века (оброзование, литература, музыка, танцы), с.203.

[1618] Məmmədov İ., Tariximiz, torpağımız, taleyimiz, Bakı, Adiloğlu, 2003, s.623.

[1619] Развитие Еревана после присоединения Восточной Армении к России, Сборник документов 1801-1917, с.431.

əsasnaməsi”[1620] təsdiq edildikdən sonra təhsil sistemində dəyişiklik baş vermişdi. Bu, əsasnamə İrəvan qəza məktəbində də dəyişiklik yaratdı. Belə ki, 1868-ci ilə qədər fəaliyyət göstərmiş İrəvan qəza məktəbi dördsinifli **progimnaziyaya** (natamam 4 və 6 sinifli gimnaziya-E.Q.) çevrildi. 1869-cu ildə progimnaziyanın tərkibində pansion (ümumi yataqxanası olan qapalı orta məktəb-E.Q.) yaradılmışdı[1621]. Progimnaziyanın tərkibində fəaliyyət göstərən pansion hökumət tərəfindən şəhərdən kənarda yaşayan kasıb məmurların və həm də xanların, ağaların və məliklərin uşaqlarını rus məktəblərinə hazırlanması üçün yaradılmışdı[1622]. XIX yüzilliyin 80-ci illərində progimnaziyanın binası kirayə tutulmuş evdə yerləşmiş və kirayə haqqı ilə 1420 rubl olmuşdur. Burada 2248 cilddə, 953 adda kitabı olan kitabxana da fəaliyyət göstərmişdi. Bundan əlavə, kitabxanada xəritə, atlas, şəkillər və digər dərs vəsaitləri də vardı[1623].

Progimnaziyanın maliyyələşməsində İrəvan şəhər cəmiyyəti böyük rol oynamışdır. Şəhər cəmiyyəti 1870-ci ildə progimnaziyanın hesabına 700 rubl keçirmiş, bu pullar 1873-cü ildə məktəbə verilmişdir. Həmin ildə progimnaziyanın nəzdində 1879-cu ilin iyununa qədər fəaliyyət göstərən əlavə ikinci hazırlıq sinifi də açılmışdır[1624].

İrəvan qəza məktəbində 1850-1879-cu illərdə (1868-1879-cu illərdə progimnaziya) 581 nəfər Azərbaycan türk uşaqları oxumuşdur[1625]. 1879-cu il yanvarın 1-ə olan məlumata görə, İrəvan progimnaziyasında 185 şagird oxumuş, onlardan 17-si isə pansionatda oxuyan şagirdlər idi. Onun müəllim heyəti 13 nəfərdən ibarət olmuş, sinif rəhbərinin köməkçisi islam

---

1620 Полное собрание законов Российской империи, СПб, 1867, т.39, отделение 2, с.167; Əmrahov Z., Göstərilən əsəri, s.144.

1621 Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1881, выпуск 1, с.46.

1622 Yenə orada.

1623 Yenə orada, s.46-47.

1624 Yenə orada, s.47.

1625 Yenə orada, s.48.

qanunundan dərs deyən Mirzə Ələkbər Elxanov olmuşdur[1626]. Lakin bir il sonra progimnaziyanın şagirdlərinin sayında azalma müşahidə olunmuşdur. Belə ki, 1880-ci ildə progimnaziyada 161 şagird oxumuş, onlardan 20-si pansionatın şagirdləri idi[1627].

XIX yüzilliyin 80-ci illərinin əvvəllərindən progimnaziyanın tam gimnaziyaya çevrilməsi haqqında məsələ qaldırıldı. 1881-ci il martın 31-də progimnaziya gimnaziyaya çevrildi. Burada yalnız oğlanlar oxuduğuna görə həmin tarixdən mənbələrdə gimnaziya İrəvan kişi giminaziyası adlandırılmağa başladı. Giminaziya fəaliyyətə başlayan vaxtı o, hazırlıq kursundan, pansiondan və altısinifdən ibarət olmuşdur. 1883-cü il yanvarın 1-ə olan məlumata görə, İrəvan gimnaziyasında 231 şagird oxumuşdur. Bunlardan 212-i gəlib-gedən, yəni müvəqqəti, 19-u isə gimnaziyada qalan idi. Hazırlıq sinifində 45, birinci sinifdə 49, ikinci sinifdə 54, üçüncü sinifdə 35, dördüncü sinifdə 23, beşinci sinifdə 12, altıncı sinifdə isə 13 şagird oxumuşdur. Milliyyətinə görə oxuyanlardan 37-i Azərbaycan türk, 33-ü rus, 7-si gürcü, 151-i erməni, 1-i yəhudu və 2-i isə alman uşaqları olmuşdur[1628].

Gimnaziyanın tərkibində iki-əsas və şagird kitabxanaları fəaliyyət göstərmişdi. İlin axırında əsaslı kitabxanada 1178 adda 4096 cilddə, şagird kitabxanasında isə 428 adda kitab olmuşdur[1629].

Gimnaziyanın ilk buraxılışı 1885-ci ildə olmuş və həmin ildə 6 şagird qızıl və gümüş medallarla məktəbi qurtarmışdır. Şagirdlərdən 2-si riyaziyyat, 2-si tibb və 2-si isə hüquq fakültələrinə qəbul olunmuşdur[1630].

---

[1626] Памятная книжка Кавказского учебного округа на 1879 год, Издание управления Кавказского учебнаго округа, Тифлис, Типография Главного Управления Наместника Кавказского в Михельсона, 1879, отдель, с.28.

[1627] Памятная книжка Кавказской учебного округа на 1880 год, Тифлис, 1880, с.38-39.

[1628] Развитие Еревана после присоединения Восточной Армении к России, Сборник документов 1801-1917, с.383.

[1629] Yenə orada, s.384.

[1630] Развитие Еревана после присоединения Восточной Армении к России, Сборник документов 1801-1917, с.385.

XIX yüzilliyin 80-ci illərinin sonundan İrəvan kişi gimnaziyası 8 sinifli olmuşdur. 1888-ci ildən başlayaraq XX yüzilliyin əvvəllərinə qədər gimnaziyanın müəllim, şagird heyəti və şagirdlərin etnik tərkibi haqqında mənbələrdə ətraflı məlumat verilmişdir. 1889-cu il yanvarın 1-ə olan məlumatına əsasən, İrəvan kişi gimnaziyasında 229 şagird oxumuş, həmin şagirdlər etnik və sosial təbəqəyə görə belə bölünmüşdü: Azərbaycan türkləri 23, rus 55, gürcü 3, erməni 142, polyak 3 digər xalqların nümayəndələri 3; sosial təbəqə-zadəgan uşağı 128, ruhani uşağı 16, şəhərli 60, kəndli 18, aşağı məmur təbəqəsi 4 və əcnəbi 9. Qeyd edilən ildə pansionda 26 nəfər, onlardan 3-ü Azərbaycan türkü, 10-u rus, 12-i erməni və 1-i isə polyak olmuşdur. Hazırlıq kursuna isə 35 nəfər qəbul olunmuş, gimnaziyanı isə 32 nəfər tərk etmişdir. 1891-ci ilin dərs mövsümündə 6 şagird kursu bitirmiş, 2 nəfər zəif oxuduğuna, 1 nəfər özünü yaxşı aparmadığına, 20 nəfər öz xahişinə, 2 nəfər xəstəliyinə və 1 nəfər isə vəfat etdiyinə görə, ümumilikdə 32 nəfər müxtəlif səbəblərdən gimnaziyanı tərk etmişdir. Gimnaziyanın saxlanmasına həmin ildə 7445 rubl 27 qəpik xərclənmişdir[1631]

1892-ci il yanvarın 1-ə olan məlumata görə, gimnaziyada 245 şagird oxumuş və onlar siniflərə, etnik tərkibinə görə belə bölünmüşdü: 1. Siniflər üzrə - hazırlıq kursunda 49 şagird; 1-ci sinifdə 48 şagird; ikinci sinifdə 44 şagird; 3-cü sinifdə 19 şagird; 4-cü sinifdə 25 şagird; 5-ci sinifdə 20 şagird; 6-cı sinifdə 20 şagird; 7-ci sinifdə 12 şagird; 8-ci sinifdə 11 şagird; 2. Etnik tərkibinə görə - Azərbaycan türkləri 18; rus 70; gürcü 7; erməni 145; digər xalqların nümayəndələri 5 şagird. Həmin ildə 6 şagird kursu bitirmiş, ümumilikdə giminaziya yarandığı vaxtdan 45 nəfər, eyni vaxtda 285 şagird hazırlıq sinfinə daxil olduğu halda, kursu bitirənlər gimnaziyada oxumağa başlayanların cəmi 15,8%-ni təşkil etmişdir. Şagirdlərdən həmin ildə 9 nəfər qovulmuş, 15 nəfər xahişlə məktəbi tərk etmiş və 1 nəfər vəfat etmişdir. Ümumilikdə 1891-ci ildə 31 nəfər müxtəlif səbəblərdən

---

[1631] Обзор Эриванской губернии за 1888, с.88-89.

gimnaziyanı tərk etmişdir. Gimnaziyada xidməti heyətin sayı 26 nəfər olmuş, onun saxlanmasına həmin ildə 51124 rubl 52 qəpik xərclənmişdir[1632].

1893-cü il yanvarın 1-ə olan məlumata görə, gimnaziyada oxuyan şagirdlər siniflər, etnik tərkibinə görə belə bölünmüşdür: 1. Siniflər üzrə - hazırlıq kursunda 40 şagird; 1-ci sinifdə 45 şagird; ikinci sinifdə 42 şagird; 3-cü sinifdə 30 şagird; 4-cü sinifdə 18 şagird; 5-ci sinifdə 22 şagird; 6-cı sinifdə 14 şagird; 7-ci sinifdə 18 şagird; 8-ci sinifdə 9 şagird; 2. Etnik tərkibinə görə - Azərbaycan türkləri 16, rus 69, gürcü 3, erməni 144, polyak 6. Həmin ildə 11 şagird kursu bitirmiş, 30 şagird isə gimnaziyadan müxtəlif səbəblərə görə xaric olunmuşdur. Şagirdlərdən həmin ildə 6 nəfər pis oxuduğuna, 1 nəfər təhsil haqqını vermədiyinə görə, 20 nəfər xahişlə və 3 nəfər vəfat etdiyinə görə gimnaziyanı tərk etmişdir. Hesabat ilində gimnaziyanın saxlanmasına 50188 rubl 68 qəpik xərclənmişdir[1633].

1894-cü il yanvarın 1-ə olan məlumata görə, İrəvan kişi gimnaziyasında ümumilikdə 253 şagird oxumuş və onlar etnik tərkibinə görə belə bölünmüşdü: Azərbaycan türkləri 18, rus 69, gürcü 6, erməni 152, digər xalqların nümayəndələri 8 şagird. Hesabat ilində gimnaziyanı 8 nəfər bitirmiş, 1 nəfər vəfat etmiş və 34 nəfər isə müxtəlif səbəblərdən seminariyanı tərk etmişdir. Hesabat ilində gimnaziyanın saxlanmasına 564400 rubl 45 qəpik pul sərf olunmuşdur[1634].

1895-ci il yanvarın 1-ə olan məlumata görə, gimnaziyada 265 şagird oxumuş və onlar siniflər, etnik tərkibinə görə belə bölünmüşdü: 1. Siniflər üzrə - hazırlıq kursunda 54 şagird; 1-ci sinifdə 42 şagird; ikinci sinifdə 38 şagird; 3-cü sinifdə 36 şagird; 4-cü sinifdə 28 şagird; 5-ci sinifdə 23 şagird; 6-cı sinifdə 16 şagird; 7-ci sinifdə 14 şagird; 8-ci sinifdə 14 şagird; 2. Etnik tərkibinə görə - Azərbaycan türkləri 22, rus 80, gürcü 7, erməni

---

1632 Обзор Эриванской губернии за 1891, с.129-130.
1633 Обзор Эриванской губернии за 1892, с.38.
1634 Обзор Эриванской губернии за 1893, с.29.

150, digər xalqların nümayəndələri 6 şagird. Hesabat ilində gimnaziyaya 50 şagird daxil olmuş, 13 şagird kursu bitirmiş, şagirdlərdən 18 nəfər müxtəlif səbəblərdən - 16 nəfər öz xahişi ilə, 1 nəfər özünü yaxşı aparmadığına, 1 nəfər təhsil pulunu ödəmədiyinə görə məktəbi tərk etmiş və 1 nəfər vəfat etmişdir. Ümumilikdə 1891-ci ildə 31 nəfər müxtəlif səbəblərdən gimnaziyanı tərk etmişdir. Gimnaziyanın saxlanmasına həmin ildə 54022 rubl 44 qəpik xərclənmişdir[1635].

1896-ci il yanvarın 1-ə olan məlumata görə, gimnaziyada 280 şagird oxumuş (bu keçən ilkindən 15 şagird çox idi), onlar siniflər üzrə və etnik tərkibinə görə belə bölünmüşdü: 1. Siniflər üzrə - hazırlıq kursunda 61 şagird; 1-ci sinifdə 47 şagird; ikinci sinifdə 38 şagird; 3-cü sinifdə 35 şagird; 4-cü sinifdə 34 şagird; 5-ci sinifdə 19 şagird; 6-cı sinifdə 16 şagird; 7-ci sinifdə 16 şagird; 8-ci sinifdə 14 şagird; 2. Etnik tərkibinə görə - Azərbaycan türkləri 24, rus 82, gürcü 9, erməni 160, digər xalqların nümayəndələri 5 şagird. Bunlardan 173-ü zadəgan, 4-ü ruhani, 98-i isə şəhər və kənd nümayəndələrinin uşaqları idi. Hesabat ilində gimnaziyaya 59 şagird daxil olmuş, 14 şagird kursu bitirmiş, şagirdlərdən 30-u müxtəlif səbəblərdən - 22 nəfər öz xahişi ilə, 7 nəfər yaxşı oxumadığına, 1 nəfər təhsil pulunu ödəmədiyinə görə məktəbi tərk etmişdir. Bu ilin məlumatında gimnaziyanın tərkibində olan pansionat haqqında bir qədər ətraflı məlumat verilmişdir. Məlumatda qeyd edilirdi ki, pansionatın tərkibində fizika otağı, özündə fundamental, dərslik kitablarını birləşdirən kitabxana mövcud olmuşdur. Həm fizika otağında olan qurğuların, həm də kitabxanada olan kitabların ümumi məbləği 29570 rubl 5 qəpik təşkil etmişdir. Ümumilikdə həmin ildə həm gimnaziyanın, həm də pansionatın saxlanmasına 54887 rubl 43 qəpik xərclənmişdir[1636].

1897-ci il yanvarın 1-ə olan məlumata görə, gimnaziyada 296 şagird oxumuş (bu keçən ilkindən 16 şagird çox idi), onlar

---

[1635] Обзор Эриванской губернии за 1894, с.31.
[1636] Обзор Эриванской губернии за 1895, с.29.

siniflərə və etnik tərkibinə görə belə bölünmüşdü: 1. Siniflər üzrə - hazırlıq kursunda 50 şagird; 1-ci sinifdə 54 şagird; ikinci sinifdə 47 şagird; 3-cü sinifdə 33 şagird; 4-cü sinifdə 37 şagird; 5-ci sinifdə 29 şagird; 6-cı sinifdə 16 şagird; 7-ci sinifdə 17 şagird; 8-ci sinifdə 13 şagird; 2. Etnik tərkibinə görə - Azərbaycan türkləri 29, rus 84, gürcü 11, erməni 166, digər xalqların nümayəndələri 6 şagird. Bunlardan 179-u zadəgan, 5-i ruhani, 88-i şəhərli, 22-i kəndli və 2-si aşağı rütbəli məmur uşağı idi. Hesabat ilində gimnaziyaya 44 şagird daxil olmuş, 14 şagird kursu bitirmiş, şagirdlərdən 27-i müxtəlif səbəblərdən - 21 nəfəri öz xahişi ilə, 6 nəfər yaxşı oxumadığına görə məktəbi tərk etmişdir. Gimnaziyada fəaliyyət göstərən fizika otağında olan qurğuların, həm də kitabxanada olan kitabların ümumi məbləği 30026 rubl 18 qəpik idi. Bu təhsil müəssisəsinin xidməti heyəti direktor, inspektor və həkim də daxil olmaqla 23 nəfərdən ibarət olmuşdur. Ümumilikdə həmin ildə həm gimnaziyanın, həm də pansionun saxlanmasına 59182 rubl 21 qəpik (bu da keçən ilkindən 4294 rubl 78 qəpik çox idi) xərclənmişdir[1637].

1898-ci il məlumatına görə, İrəvan gimnaziyasında 322 şagird (bəzi məlumata görə 304) oxumuş, bunlardan etnik tərkibinə görə 37-i Azərbaycan türk uşaqları, 88-i rus, 7-si gürcü, 179-u erməni, 2-i yəhudu və 9-u isə digər xalqların nümayəndələri idi. Gimnaziyada bütün sosial təbəqələri əhatə edən uşaqlar oxumuşdur. Sosial mənsubiyyətinə görə oxuyanlardan 181-i zadəgan, 4-ü din xadimlərinin, 23-ü kəndli, 6-sı aşağı vəzifəyə məxsus şəxslərin uşaqları olmuşdur[1638]. Həmin ildə qadın gimnaziyasında qeydə alınan uşaqların etnik tərkibində Azərbaycan türk qızları qeydə alınmamışdı[1639].

Lakin bir il sonrakı məlumatda kişi gimnaziyasında oxuyan tələbələrin sayında və etnik tərkibində xeyli çoxalma qeydə

---

[1637] Обзор Эриванской губернии за 1896, с.31.
[1638] Кавказский календарь на 1900, отдел III, с.64.
[1639] Кавказский календарь на 1900, отдел III, с.64; Обзор Эриванской губернии за 1897 г., с.73.

alınmışdır. Məsələn, 1899-cu ilin məlumatında gimnaziyasında 333 tələbə qeydə alınmış, bunlardan etnik tərkibinə görə, 42-si Azərbaycan türkü, 82-si rus, 9-u gürcü, 187-si erməni, 9-u yəhudi, 1-i dağlı, 16-sı isə digər xalqların uşaqlarına məxsus olmuşdur. Sosial tərkibinə görə tələbələrdən 166-sı zadəgan, 6-ı din xadimi, 150-i şəhər, 9-u kəndli, 2-si isə aşağı rütbəli məmurların uşaqları idi[1640].

Həmin ildə qadın gimnaziyasında 265 tələbə qeydə alınmışdır ki, bunlardan 1-i Azərbaycan türk qızı olmuşdur[1641].

Sonrakı illərdə də kişi gimnaziyasında oxuyan tələbələrin sayı haqqında mənbələrdə məlumatlara rast gəlmək mümkündür. Məsələn, 1900-cü ildə kişi gimnaziyasında 326, 1902-ci ildə 376, 1903-cü ildə 383, 1907-ci ildə isə 562 şagird oxumuşdur. Qeyd edilən hesabat illərində İrəvan kişi gimnaziyasında oxuyan şagird-lərin sayında ildən-ilə xeyli artım olduğunu görmək olar[1642]. Xüsusilə Azərbaycan türklərinə məxsus uşaqların sayında bu artım daha çox olmuşdur. Məsələn, 1908-ci ilin tədris ilində gimna-ziyada 568 şagird təhsil almışdı ki, bunlardan 118-i Azərbaycan türk uşaqları, 103-ü rus, 8-i gürcü, 304-ü erməni, 2-si dağlı, 33-ü isə digər xalqların nümayəndələrinin uşaqları idi[1643]. 1916-cı il yanvarın 1-ə olan məlumata görə isə İrəvan kişi gimnaziyasında 727 şagird təhsilini davam etdirmiş, bunlardan 141-i Azərbaycan türk, 94-ü rus, 14-ü gürcü, 437-si erməni, 41-i isə digər xalqların nümayəndələrinə məxsus uşaqlar olmuşdur[1644].

İrəvan quberniyasının digər şəhərlərində də qəza məktəb-ləri fəaliyyət göstərmişdir. Naxçıvanda qəza məktəbi 1837-ci il

---

[1640] Кавказский календарь на 1901, отдел III, с.84.

[1641] Кавказский календарь на 1901, отдел III, с.85; Обзор Эриванской губернии за 1898 г., с.67.

[1642] Обзор Эриванской губернии за 1900 г., с.67; Обзор Эриванской губернии за 1902 г., с.44; Обзор Эриванской губернии за 1903 г., с.49; Обзор Эриванской губернии за 1907 г., с.59.

[1643] Кавказский календарь на 1910, отдел III, с.594-595; Обзор Эриванской губернии за 1908 г., с.59.

[1644] Кавказский календарь на 1916, отдел III, с.284-285.

martın 15-də açılmışdı. XIX yüzilliyin 80-ci illərin məlumatına görə, məktəb kirayə götürülmüş xüsusi binada yerləşmişdi. Onun kirayə haqqı ildə 500 publ idi. Qəza məktəbi üç binadan ibarət olmuş, siniflər böyük dəhlizi olan dörd geniş otaqdan ibarət mərkəzi binada yerləşmişdi. Sağda ikinci bina üç otaqdan ibarət idi və bu otaqlarda kitabxana yerləşmişdi. Kitabxanada 355 cilddən ibarət 814 kitab vardı. Sol tərəfdə yerləşən üçüncü bina isə dörd otaqdan ibarət idi və ön otaqda məktəbin nəzarətçisi yaşayırdı. Məktəbin geniş həyəti və onun mərkəzində isə susuz geniş hovuzu vardı. Bundan əlavə, məktəbin bostan yeri də vardı, lakin burda heç bir bitki əkilmirdi[1645].

XIX yüzilliyin ortalarından etibarən Naxçıvan qəza məktəbinə Cənubi Qafqazın müxtəlif təhsil müəssisələrindən - Tiflis Aleksandrovski Müəllimlər İnstitutunun, İrəvan və Kutaisi gimnaziyalarının məzunları işləmək üçün ezam olunurdular. Onlar Naxçıvan qəza məktəbində rus dili, tarix, həndəsə, hesab, hüsnxət, şəriət və rəsmxət fənlərini tədris etmişdilər[1646].

Naxçıvan qəza məktəbi kimi 1868-ci ilə qədər fəaliyyət göstərmiş, həmin ildən üçsinifli məktəbə çevrilmişdi. Bu məktəbə 7-14 yaşlı uşaqlar qəbul edilir, onun tədris planına şəriət, ana dili, rus dili, hesab, rəsmxət, nəğmə, gimnastika, coğrafiya, tarix və təbiətşünaslıq fənləri daxil idi[1647].

Naxçıvan qəza məktəbində Azərbaycan türkləri, ruslar və ermənilər oxumuşdular. Məlumata görə, qəza məktəbində, sonra isə üçsinifli məktəbdə 1850-1873-cü illərdə 458 şagird oxumuşdu[1648].

1879-cu il martın 10-da Qafqaz Tiflis Dairəsinin verdiyi sərəncama əsasən Naxçıvan üçsinifli məktəbi şəhər məktəbinə çevrilmişdi[1649].

---

[1645] Сборник сведений о Кавказе, т.VII, с.253.

[1646] Naxçıvan tarixi, üç cilddə, II cild, Naxçıvan, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2014, s.176.

[1647] Naxçıvan tarixi, II cild, s.179-180.

[1648] Сборник сведений о Кавказе, т.VII, s.255.

[1649] Əhmədov N., XIX əsr Azərbaycan məktəbi, s.74.

Naxçıvanda qəza məktəbindən əlavə ibtidai siniflər də olmuşdu. Bu şəhər məktəblərində 224 şagird oxumuş, bunlardan 97-si Azərbaycan türkü, 14-ü rus, 109-u erməni, 1-i dağlı xalqının uşaqları idi[1650].

Ordubadda isə 1855-ci ildə ibtidai məktəb açılmışdı. Bu məktəbin də binası kirayə tutulmuş və ilə kirayə haqqı 200 rubl idi. Məktəb yeddi otaqdan ibarət olmuşdu. Beşi dərs otaqları idi, ikisində isə müəllim qalırdı. Bundan əlavə, ibtidai məktəbin tərkibində 298 kitabı olan kitabxana yerləşmişdi. Ordubad ibtidai məktəbində Azərbaycan türkləri, ruslar və ermənilər oxumuşdular. 1856-1873-cü illər arasında bu ibtidai məktəbdə 277 Azərbaycan türk şagirdi təhsil almışdır[1651].

Ordubadda şəhər məktəbi də fəaliyyət göstərmişdir. 1908-1909-cu illər tədris ilində Ordubad şəhər məktəbində 134 şagird oxumuş, bunlardan 110 nəfəri Azərbaycan türkü, 5-i rus və 19-u isə erməni uşaqları olmuşdur[1652].

**Qızlar məktəbi.** XIX yüzilliyin ortalarında çar hakimiyyət orqanları qızlar üçün də məktəb açmaq məcburiyyətində qalmışdı. Belə ki, 1850-ci il yanvarın 1-də İrəvanda qızlar üçün "Müqəddəs Ripsimi" məktəbi açıldı. İlk illərdə qızlar məktəbi iki hissədən-hazırlıq kurslarından və 3 sinifdən ibarət olmuşdur. Bu məktəb yetim uşaqlar üçün nəzərdə tutulsa da, əhalinin digər təbəqələrinin uşaqları da təhsil almışdı. "Müqəddəs Ripsimi"nin binası xüsusi evdə yerləşirdi. Onun kitabxanası yox idi[1653]. Lakin XIX yüzilliyin 70-80-ci illərinin əvvəllərindən "Müqəddəs Ripsimi"nin tərkibində pansion və 2 yarım pansion fəliyyət göstərmişdi[1654]. Məktəb əsasən Müqəddəs Nina Xeyriyyə cəmiyyətinin üzvlərinin və İrəvan, Naxçıvan, Ordubad, Yenibəyazid və Aleksandropol qəzasının könüllü ianələri hesabına açılmışdı. İdarə heyəti 4

---

1650 Кавказский календарь на 1910, отдел III, с.600-601.
1651 Сборник сведений о Кавказе, т.VII, с.255.
1652 Кавказский календарь на 1910, отдел III, с.600-601.
1653 Кавказ, 1850, с.11-12; Сборник материалов для описания местностей и племен Кавказа, 1881, выпуск 1, с.48-49.
1654 Yenə orada, s.49.

qadından ibarət olmuşdu. Xeyriyyəçilərin tərkibinə Azərbaycan türk qadınları da daxil idi. Onlardan kapitan Hüseyn Sultanın həyat yoldaşı Tovuz Bəyimi, kapitan İsmayıl xanın həyat yoldaşı xanım Canxanımı, Kərbalayı xanın həyat yoldaşı Harmud xanımı, praporşik Mahmud ağanın həyat yoldaşı Xırda xanımı, Nəcəf ağanın həyat yoldaşı Bəyim Canxanımı, Cavad ağanın həyat yoldaşı Xıdır xanımı, general-leytenant Ehsan xanın qızı Sona Bəyimi, Şeyxislamın həyat yoldaşı Xırda xanımı və general mayor Kəlbəli xanın qızı Zəhra Bəyimi qeyd etmək olar[1655].

Qızlar üçün nəzərdə tutulmuş "Müqəddəs Ripsimi" təhsil ocağı 1918-ci ilə qədər fəaliyyət göstərmişdi. O, adi məktəbdən gimnaziyaya qədər inkişaf etmişdir. Belə ki, 1874-cü il martın 14-də böyük knyaginiya Olqa Feodorovnanın göstərişi ilə "Müqəddəs Pipsimi" məktəbinin progimnaziyaya çevrilməsi məsələsi ortaya atılmışdı. Lakin maddi vəsaitin olmaması üzündən bu məsələ 10 il təxirə salınmışdı. Yalnız Xalq Təhsil Nazirliyinin fərmanı ilə 1884-cü il iyulun 9-da "Müqəddəs Ripsimi" təhsil ocağı üçsinifli, 1893-cü ilin iyununda İrəvan Müqəddəs Nina Xeyriyəçilk Cəmiyyətinin təşəbbüsü ilə dördsinifli, 1897-ci ilin payızından isə beşsinifli progimnaziyaya çevrilmişdi. Qızlar məktəbi olan "Müqəddəs Ripsimi" təhsil ocağı progimnaziya kimi 1898-ci ilə qədər fəaliyyət göstərmişdir. 1898-ci il may ayının 30-da Xalq Təhsil Nazirliyinin icazəsi ilə "Müqəddəs Ripsimi" progimnaziyası hazırlıq sinifindən ibarət yeddisinifli gimnaziyaya çevrilmişdi. Həmin ildən sonra bu təhsil ocağı "Qızlar gimnaziyası" adlandırılmışdır. Lakin qızlar gimnaziyasında dəyişiklik bununla qurtarmamışdı. Belə ki, 1903-cü ilin martında İrəvan qadınlar cəmiyyətinin xahişi ilə "Müqəddəs Ripsimi" gimnaziyasının tərkibində əlavə rus dili və riyaziyyat bölməsi daxil olan səkkizinci sinifin açılmasına icazə verilmişdi. Beləliklə, qızlar məktəbi olan "Müqəddəs Ripsimi" gimnaziyası

---

[1655] Кавказский календарь на 1854, с.641-642; Развитие Еревана после присоединения Восточной Армении к России, Сборник документов 1801-1917, с.412.

ayrıca öz müəlliməsi olan hazırlıq sinifindən, əsas yeddi sinifdən və əlavə rus dili və riyaziyyat bölmələrindən ibarət səkkizinci sinifdən ibarət fəaliyyət göstərmişdir[1656].

“Müqəddəs Ripsimi” qızlar məktəbində dərslər əsasən rus dilində keçirilsə də, yerli dillər də tədris edilmişdi. Məktəbdə yerli dillərdən Azərbaycan türk dili və islam dini keçirilmişdi. Hər iki fənni Seyid molla Mirmehdi tədris edirdi[1657]. Burada dərs deyən müəllimlər 1870-ci ilə qədər pulsuz təhsil vermişdilər. 1878-ci ilə qədər progimnaziyanın müəllimləri kənardan dəvət olunurdu, lakin həmin ildən sonra progimnaziyanı qurtarmış tələbələr müəllim kimi dərs deməyə başlamışdılar. Dərs deyən müəllimlərin illik məvacibi 280, növbətçinin 120, nəzarətçi qadının 400, sinif müəlliməsi və xidmətçi qadının 120 publ olmuşdur. Bura təhsil almağa gələnlərin təhsil haqqı ilə 36 (məktəbin özünün 9 şagirdi təhsil haqqından azad idi), pansion şagirdlərinin 150 və eyni zamanda əlavə hazırlıq üçün 30, yarımpansion şagirdlərinin isə 75 rubl idi[1658].

İlk dövrdə “Müqəddəs Pipsimi”də 21 şagird - 3 Azərbaycan türkü, 5 rus və 13 erməni təhsil alırdı[1659]. 1853-cü ildə isə məktəbdə 7 Azərbaycan türk qızı oxumuşdu[1660]. Lakin sonrakı illərdə Azərbaycan türk qızlarının sayının azaldığını görürük. Məsələn, 1871-1880-ci illər ərzində bu qızlar məktəbində 561

---

[1656] Развитие Еревана после присоединения Восточной Армении к России, Сборник документов 1801-1917, с.411-414; Обзор Эриванской губернии за 1897 г., с.32.

[1657] Кавказский календарь на 1853, с.565.

[1658] Сборник материалов для описания местностей и племен Кавказа, 1881, выпуск 1, с.49.

[1659] Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.445; Гараев Э., Из истории культуры Эриванского региона в конце XVII-в средине XIX века (оброзование, литература, музыка, танцы), Махачкала, Пятые Всероссийские (с международным участием) историко-этнографическое чтения, посвященные памяти профессора Магомедова Расула Магомедовича. Сборник статей, 2018, ч.1., с.206.

[1660] Кавказский календарь на 1853, с.563.

şagird təhsil almış, onlardan cəmi 7-si Azərbaycan türk qızları olmuşdur[1661].

XIX yüzilliyin sonlarında isə burada Azərbaycan türk qızlarının oxuması haqqında məlumata rast gəlmədik. 1897-ci il məlumatına görə, milli tərkibinə görə bu məktəbdə əsasən ruslar, ermənilər, gürcülər və polşalılar oxumuşdular[1662]. Lakin XX yüzilliyin əvvəllərinə aid olan məlumatda burada Azərbaycan türk qızlarının da oxuduğu göstərilmişdir. 1915-1918-ci illərdə "Müqəddəs Ripsimi" gimnaziyasında oxuyan şagirdlərin və onların milli tərkibi haqqında ətraflı məlumat verilmişdir. Bu məlumat aşağıdakı cədvəldə belə göstərilmişdir[1663]:

| Millətlər | 1915-1916-cı tədris illəri | 1916-1917-ci tədris illəri | 1917-1918-ci tədris illəri |
|---|---|---|---|
| Az.türk | 13 | 11 | 11 |
| Rus | 123 | 128 | 119 |
| Gürcü | 15 | 16 | 15 |
| Erməni | 256 | 310 | 352 |
| Aysor | 2 | 3 | 3 |
| Polyak | 4 | 8 | 8 |
| Osetin | 3 | 4 | 4 |
| Yəhudi | 6 | 5 | 5 |
| Alman | 3 | 3 | 3 |
| Çex | 1 | 1 | 1 |
| Yunan | 3 | 5 | 5 |
| Yekun | 429 | 494 | 526 |

Cədvəldən göründüyü kimi, az da olsa Azərbaycan türk qızları da "Müqəddəs Ripsimi" gimnaziyasında təhsil almışdılar.

Lakin "Qafqaz təqvimi"ndə 1916-cı il yanvarın 1-ə olan məlumatda gimnaziyada oxuyan şagirdlər haqqında fərqli rəqəm-

---

[1661] Сборник материалов для описания местностей и племен Кавказа, 1881, выпуск 1, с.49.

[1662] Развитие Еревана после присоединения Восточной Армении к России, Сборник документов 1801-1917, с.454.

[1663] Yenə orada, s.420.

lər göstərilmişdir. Həmin məlumata görə, “Müqəddəs Ripsimi” gimnaziyasında 115 rus, 245 gürcü, 14 Azərbaycan türkü, 13 erməni, 3 dağlı və 15 digər xalqların nümayəndələri oxumuşdur[1664].

İrəvan quberniyasında təhsil müəssisələrinə diqqət etdikdə görmək olar ki, Azərbaycan türk uşaqları həmişə azlıq təşkil etmişdilər. Bunun bir çox səbəbləri olmuşdu. Qeyd etmək lazımdır ki, digər sahələrdə olduğu kimi, təhsil sahəsində də çar orqanları Azərbaycan türklərinə qarşı ögey münasibət bəsləmişdi. Çar hakimiyyət orqanlarına arxalanan ermənilər də bu sahədə Azərbaycan türklərini sıxışdırırdılar. XIX yüzilliyin 90-cı illərinin əvvəllərində İrəvanda olan ingilis səyyahı H.F.B.Linç qəza məktəblərinə baş çəkmiş və burada Azərbaycan türklərinin az miqdarda təhsil aldığının şahidi olmuşdur. Bunun səbəbini göstərən səyyah yazırdı ki, “əgər yada salsaq ki, tatarlar (Azərbaycan türkləri-E.Q.) İrəvan şəhərinin yarısını təşkil edir, həmçinin onların sayı bütün quberniyada daha çoxdur, bu məktəblərdə onların böyük olmayan faizi əhəmiyyətli faktdır. Bu xalq bütünlüklə qərb təhsilindən üz döndərmiş və ona görə də yeni mühütlə ayaqlaşa bilməyən tayfa kimi ermənilər tərəfindən sıxışdırılmağa məhkum edilmişdir”[1665]. Əslində Azərbaycan türkləri təhsilə daima yüksək qiymət vermişdilər. Lakin səyyahın qeydində bir həqiqət var ki, çar hakimiyyət orqanlarına arxalanan və daima dəstək alan ermənilər təhsil sahəsində də Azərbaycan türklərinə qarşı qərəzli mövqe nümayiş etdirmişdilər. XX yüzilliyin əvvəllərində Azərbaycan milli azadlıq hərəkatında əvəzsiz rol oynamış Əhməd Ağaoğlu “Üç mədəniyyət” əsərində ermənilərin təhsil sahəsində Azərbaycan türk uşaqlarının savadlanmasına mane olması haqqında xatirəsini İrəvan quberniyasına da şamil etmək olar. Müəllif özünün Şuşa gimnaziyasında təhsil aldığı illəri xatırlayaraq yazırdı: “Bu beş nəfər illər boyu davam edən təhsil həyatında erməni cocuqlarından çəkdikləri zülmü təsvir etmək imkan xaricindədir. Tənəffüslərdə biz, beş türk

---

[1664] Кавказский календарь на 1917, с.288-289.

[1665] Линч Х.Ф.Б., Армения. Путевые очерки этюды, т.1, с.290.

cocuğu cəld tərpənib arxamızı divara dirəməyi qənimət bilirdik. Yüzlərlə erməni cocuğu qəflətən üstümüzə hücum edirdi. Biri başımızdan papağı alıb atırdı. Qalanları dörd-beş altun qiyməti olan Buxara dərisindən tikilmiş papaqları təpiklə kos kimi ora-bura vururdular. Bəziləri qiymətli, əksərən dəvə yunundan toxunmuş pencəklərimizin ətəklərindən yapışır, o yana bu yana çəkir, parçalayır, dartıb tikişlərini sökürdülər. Müqavimət göstərmək fikrinə düşəndə yumruq, qapaz, təpik altında bizi əzirdilər. Bəzən gizlində sözü bir yerə qoyub üstümüzə böhtan atır, hamısı üzümüzə şahid durur, bizə haqsız yerə cəza verirdilər. Dostlarımızın çoxu dözə bilmədi. Məktəbi tərk etdilər. Son saniyə qədər türklərdən yalnız mən tab gətirə bildim"[1666]. Ə.Ağaoğlunun bu qeydi bütün Azərbaycanda, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan İrəvan quberniyasının təhsil müəssisələrindəki vəziyyətin güzgüsüdür.

**İbtidai siniflər**. XIX yüzilliyin ikinci yarısında Azərbaycanda o cümlədən onun tərkib hissəsi olan İrəvan quberniyasında kapitalist münasibətlərinin inkişafı iqtisadiyyatda ixtisaslı fəhlələrə, təhsilli mütəxəssislərə tələbat ümumtəhsil və peşə məktəblərinin həm şəhərdə, həm də kənddə artmasına səbəb olmuşdu. Bu haqda əsasnamələr verilməyə başladı. 1864-cü il iyulun 14-də "İbtidai xalq məktəbləri"[1667] və 1867-ci il əsasnamələri Qafqazda, eyni zamanda İrəvan quberniyasında təhsil müəssisələrinin təkmilləşməsində və çar Rusiyası qanunlarına uyğunlaşdırılmasında böyük rol oynamışdı[1668].

Çarizmin köhnə təhsil sistemini yeniləşdirilməsi siyasəti 70-ci illərdən etibarən Azərbaycanda həyata keçirilməyə başladı[1669]. Əgər əvvəllər ümumtəhsil məktəblərində, gimnaziya-

---

1666 Əhməd Ağaoğlu, Üç mədəniyyət, Azərbaycan türkcəsinə çevrəni Ruhangiz Soltanova, Bakı, Kitab kulubu, 2017, s.184.

1667 Полное собрание законов Российской империи, СПб, Печатано в Типографии II отделения собственной его императорского величества Канцелярии, 1864, т.39, отделение 1, с.613.

1668 Əhmədov H., XIX əsr Azərbaycan məktəbi, s.61.

1669 Azərbaycan tarixi, c.4, s.321.

da və “Müqəddəs Ripsimi” qızlar məktəbində Azərbaycan türk dilinin tədris olunmasına icazə verilirdisə, artıq XIX yüzilliyin 60-70-ci illərindən etibarən ümumtəhsil sistemində aparıcı rolu böyük əksəriyyəti ibtidai məktəblərdən ibarət olan rus təhsil müəssisələri oynamağa başladı.

1872-ci il 13 may Əsasnaməsi ilə Azərbaycanda, o cümlədən İrəvan quberniyasında bütün qəza məktəbləri altı illik təhsil müddəti olan pullu şəhər məktəblərinə çevrildi. İbtidai məktəblər haqqında 1874-cü il 24 may əsasnaməsi isə iki məktəb tipini təsdiq etdi: 3 illik təhsil kurslu birsinifli və 5 illik təhsil kurslu ikisinifli ibtidai məktəblər. Əsasnaməyə görə, ibtidai dövlət məktəblərinə aşağıdakılar daxildir: 1. Dini siyahı üzrə: şəhərlərdə, qəsəbələrdə və kəndlərdə pravoslav ruhaniləri tərəfindən xəzinənin, yerli icmaların və ayrı-ayrı şəxslərin razılığı ilə yaxud razılığı olmadan açılan kilsə məktəbləri; 2. Xalq Təhsili Nazirliyinin siyahısı üzrə: a) yerli cəmiyyətlərin, bir hissəsi xəzinənin və ayrı-ayrı şəxslərin vəsaiti hesabına şəhərlərdə, qəsəbələrdə və kəndlərdə açılan məhəllə ibtidai məktəbləri; b) Müxtəlif rütbələr hesabına saxlanılan müxtəlif adlı xalq ibtidai məktəbləri; 3. Cəmiyyətin pulu hesabına saxlanılan müxtəlif adlı kənd ibtidai məktəbləri; 4. Hər gün oxumağa imkanı olan hər iki cinsdən sənətkar və fəhlə təbəqələrinin savadlanması üçün həm dövlət, həm şəhər və kənd cəmiyyətləri, xüsusi şəxslər təfəfindən yaradılan ümumi bazar günü məktəbləri. İbtidai sinif məktəblərində təhsil rus dilində olmalı idi[1670].

Əsasnamədə ibtidai xalq məktəblərinin tədris kursu predmetləri də müəyyən edilmişdi. Həmin predmetlər aşağıdakılardır: a) Şəriyyət dərsi; b) Mülki və kilsə mətbuatı kitablarını oxumaq; v) Məktub; q) Ariometikanın ilk dörd hərəkətini; kilsə mahnısını oxumaq[1671].

İbtidai məktəblərdə həm oğlanlar, həm də qızlar bir yerdə

---

[1670] Памятная книжка Кавказского учебного округа на 1879 год., с.422-423.

[1671] Памятная книжка Кавказского учебного округа на 1879 год., с.423.

oxuya bilərdilər. Qanunda göstərilir ki, əgər o yerdə ayrı-ayrılıqda oğlan və qız məktəbləri açmaq mümkün deyildisə, onda onların bir məktəbdə oxumasına icazə verilirdi. Belə olan halda qızların yaşı 12-dən yuxarı olmamalı idi. Lakin bazar günü məktəblərində yalnız bir cinsin nümayəndəsi oxuya bilərdi[1672].

İbtidai sinif məktəbləri qəza məktəbləri şurasının razılığı əsasında, xalq məktəbləri inspektorunun qabaqcadan razılığı ilə şəhər zemstvosının, kənd cəmiyyətlərinin və şəxsi vətəndaşların hesabına yaradılırdı. Əgər şura və inspektor ibtidai məktəbin açılmasına icazə verməsə, onda vətəndaşlar quberniya məktəbləri şurasına şikayət edə bilərdilər[1673].

İkisinifli və birsinifli ibtidai məktəblərdə aşağıdakı fənlər keçirilməli idi: a) Şəriyyət dərsi; b) rus dili xəttatlıqla bir yerdə; v) ariometika; q) tarix; d) coğrafiya və təbiətşünaslıq; e) kilsə mahnısı; j) yalnız ikisinifli ibtidai məktəblərdə rəsm[1674].

Hər iki "Əsasnamə"yə əsasən, İrəvan, Naxşıvan, Ordubad şəhərlərində şəhər məktəbləri, Şərur-Dərələyəz qəzasının Başnoraşen kəndində ikisinifli zemski məktəbi, Naxşıvan qəzasının Nehrəm kəndində ikisinifli zemski məktəbi, Üçmüəzzin qəzasının Qarxun kəndində birsinifli məktəb, İrəvan qəzasının Uluxanlı kəndində birsinifli ibtidai məktəblər açılmışdı[1675].

İrəvanda ilk şəhər ibtidai sinif məktəbinin əsası 1880-ci ildə qoyulmuşdu. İlk əvvəllər məktəbin saxlanması üçün vəsaitin bir hissəsi dövlət, müəyyən hissəsi isə şagirdlər tərəfindən ödənilirdi. 1885-ci ilin məlumatına görə, ibtidai məktəbin saxlanması hökumətə 1634 rubla başa gəlmişdi. 1880-1888-ci illərdə İrəvan şəhərində ibtidai məktəbdə ümumilikdə 498 şagird təhsil

---

[1672] Yenə orada; Полное собрание законов Российской империи, 1874, с.834-840; Azərbaycan tarixi, c.4, s.322.
[1673] Памятная книжка Кавказского учебного округа на 1879 год, Издание управления Кавказского учебнаго округа, с.423.
[1674] Yenə orada, s.432.
[1675] Məmmədli Q., Molla Nəsrəddin (Cəlil Məmmədzuluzadənin həyat və fəaliyyətinin salnaməsi), s.19-26.

almışdı[1676].

Sonralar şəhərlərdə və kəndlərdə açılmış ibtidai məktəblər mənbələrdə normal məktəblər adlanmağa başladı. Bu normal məktəblər 1, 2 və 3 sinifli olmaqla (3 sinifli şəhərlərdə idi) xəzinə, ictimaiyyət tərəfindən maliyyələşdirilən və zemski məktəblərinə bölünmüşdü. 1888-ci ilin məlumatına görə, İrəvan quberniyasında 27 ibtidai məktəb qeydə alınmış, bunlardan 8-i xəzinə normal ibtidai məktəbi, 9-u ictimai normal məktəbi, 9-u zemski normal məktəbi, 1-i isə xeyriyyə cəmiyyəti ibtidai məktəbi idi. Bu 8 xəzinə normal məktəbinin 5-i şəhərdə və 3-ü kənddə yerləşmiş, bunlardan 2-si üçsinifli, 3-ü ikisinifli və 3-ü isə birsinifli olmaqla, həmin məktəblərdə 720 şagird oxumuşdur. Digər ibtidai məktəblərdə vəziyyət belə idi: 9 ictimai normal məktəbin 1-i şəhər ibtidai birsinifli, 1-i kənd ibtidai birsinifli, 7-si kənd ibtidai ikisinifli olmaqla, həmin məktəblərdə 265 şagird oxuyurdu; 9 zemski normal məktəbin 7-si ikisinifli, 2-si birsinifli kənd məktəbi olmaqla, şagirdlərin sayı 424, bunlardan 13-ü isə qız idi; 1 xeyriyyə cəmiyyəti ibtidai məktəbində ümumi 39 şagird olmaqla, 24 oğlan və 15 qız təhsil almışdı[1677].

1891-ci ilin məlumatına görə, İrəvan quberniyasında **8 xəzinə normal məktəbi** (1-i İrəvan şəhərində, 1-i Naxçıvan şəhərində, 1-i Ordubad şəhərində, 1-i Yenibəyazid şəhərində və 1-i Aleksandropol şəhərində, digərləri 1-i İrəvan qəzasının Koylasar kəndində, 1-i Uluxanlı kəndində və 1-i isə Üçmüəzzin qəzasının Əştərək kəndində), **12 ictimai məktəb** (İrəvan qəzasında 1-1 İrəvan şəhərində, 1-i Kəmərli kəndində, 1-i Böyük Vedi kəndində, 1-i İmanşalı kəndində, 1-i Dvin kəndində, Üçmüəzzin qəzasında 1-i Çobanqara, 1-i Kürdqulu kəndində, Şərur-Dərələyəz qəzasında 1-i Başnoraşen kəndində, 1-i Keşişkənddə, Yenibəyazid qəzasında 1-i Basarkeçərdə, Naxçıvan qəzasında 1-i Qulubəydizidə, Sürməli qəzasında Aralıq Başkənddə), **9 zemski**

[1676] Развитие Еревана после присоединения Восточной Армении к России, Сборник документов 1801-1917, с.386-387.
[1677] Обзор Эриванской губернии за 1888 г., с.129-132.

**məktəbi** (1-i Naxçıvan qəzasının Çağrı kəndində, 1-i Nehrəm kəndində və 1-i Şahtaxtı kəndində, Yenibəyazid qəzasında 1-i Yelinovka kəndində, 1-i Gözəldərə kəndində, Üçmüəzzin qəzasında 1-i Tos kəndində, Sürməli qəzasında 1-i Güllücə kəndində, Aleksandropol qəzasında 1-i Bayandur kəndində və Şərur-Dərələyəz qəzaında 1-i Yenicə kəndində), ümumilikdə isə **29 ibtidai**, yəni normal məktəb olmuşdur. Bu şəhər və kəndlərdə olan ibtidai normal məktəblərdə 1814 şagird oxumuş, bunun 32-si qız idi. Etnik tərkibinə görə şagirdlərdən 375-i Azərbaycan türk, 106-ı rus, 5-i gürcü, 10-u aysor, 8-i yunan, 1214-ü erməni, 1-i kürd, 95-i isə digər xalqların, sosial tərkibinə görə isə 153-ü zadəgan, 122 ruhani, 360 şəhərli və 1779-u kəndli uşaqları idi. Hesabat ilində qeyd edilən məktəblərə 51107 rubl 64 qəpik məbləğində pul buraxılmışdır[1678].

1892-ci ilin məlumatında İrəvan quberniyasında keçən ilki kimi eyni miqdarda şəhər və qəzalarda ibtidai məktəblər fəaliyyət göstərmiş, lakin şagirdlərin sayında artım müşahidə olunmuşdur. Hesabat ilində qeyd edilən ibtidai normal məktəblərdə etnik tərkibinə görə, 400-ü Azərbaycan türk, 95-i rus, 6-ı gürcü, 30-u aysor, 4-ü yunan, 1258-i erməni, 2-i dağlı, 22-i digər xalqların uşaqları, sosial tərkibinə görə isə 146-ı zadəgan, 117-i ruhani, 357-i şəhərli, 1178-i kəndli və 22-i aşağı rütbəli məmurların uşaqları idi. Hesabat ilində qeyd edilən məktəblərə 51105 rubl 5 qəpik məbləğində pul xərclənmişdir[1679].

1893-cü ilin məlumatında İrəvan quberniyasında keçən ilki kimi eyni miqdarda şəhər və qəzalarda ibtidai məktəblər fəaliyyət göstərmiş, şagirdlərin sayı və etnik tərkibi belə olmuşdur: 426-ı Azərbaycan türkü, 111-i rus, 4-i gürcü, 1266-ı erməni, 60-ı digər xalqların uşaqları, sosial tərkibinə görə 143-ü zadəgan, 97-i ruhani, 380-i şəhərli, 1238-i kəndli, 9-u aşağı rütbəli məmurların uşaqları. Həmin il ibtidai məktəbləri 102 şagird bitirmiş, müxtəlif səbəblərdən 304 şagird məktəbləri tərk etmiş və 16 nəfər isə

---

[1678] Обзор Эриванской губернии за 1891 г., с.87, с.89.
[1679] Обзор Эриванской губернии за 1892 г., с.37, с.39.

vəfat etmişdir. Hesabat ilində qeyd edilən məktəblərə 51528 rubl 33 qəpik məbləğində pul xərclənmişdir[1680].

İrəvan quberniyasında 1894-cü ilin hesabatında 28 ibtidai məktəb, həmin məktəblərdə 1433 şagird, o cümlədən 42 qız şagird qeydə alınmışdır. Şagirdlər etnik tərkibinə görə belə bölünmüşdü: 344 Azərbaycan türkü, 103 rus, 934 erməni və 52 nəfər digər xalqların nümayəndələri. Sosial tərkibinə görə isə 84-ü zadəgan, 92-i ruhani, 108-i şəhərli, 1189-u kəndli uşağı idi. Həmin il ibtidai məktəbləri 67 şagird bitirmiş, 222 şagird isə müxtəlif səbəblərdən məktəbləri tərk etmişdir. İbtidai məktəblərin saxlanmasına 37911 rubl 94 qəpik pul buraxılmış, həmin məbləğin 6311 rubl 40 qəpiyi dövlət xəzinəsinin, 13203 rubl 44 qəpiyi kənd cəmiyyətlərinin, 1440 rublu şəhər cəmiyyətinin, 16169 rubl 85 qəpiyi zemski vergisinin, 131 rublu şəxsi ianənin, 1096 rubl 55 qəpiyi isə digər mənbələrdən gələn gəlirlərin payına düşmüşdür[1681].

Qeyd etmək lazımdır ki, ibtidai məktəblərdən 11-nin öz binası olmuş, qalan məktəblər kirayə tutulmuş bunada fəaliyyət göstərmişdir. Aleksandropol ibtidai məktəbindən başqa quberniyanın digər ibtidai məktəblərinin nəzdində ilin axırında müəllim və tələbələr üçün kitabxana fəaliyyət göstərmiş və dərs vəsaitləri toplanmışdır. Bütün kitabxanalarda dəyəri 17872 rubl qiymətləndirilən 19495 cild kitab olmuşdur. Hesabat ilində kitab və dərs vəsaitlərinin alınmasına 2256 rubl 41 qəpik xərclənmişdir[1682].

İrəvan quberniyasında 1895-ci ilin hesabatında ibtidai məktəblərin sayında artım baş vermiş, onların sayı 33-ə çatmışdır. Həmin il Naxçıvan şəhərində 1 ibtidai məktəb, Naxçıvan qəzasında Xalq Təhsili Nazirliyinə tabe olan 1-i Yamxana kəndində, 1-i Abrakunis kəndində ictimai məktəb və Sürməli qəzasında 1-i Qızıl Zakir kəndində olmaqla əlavə 5 ibtidai məktəb açılmışdır. Hesabat ilində İrəvan quberniyasının ayrı-ayrı

---

[1680] Обзор Эриванской губернии за 1893 г., с.28-29.
[1681] Обзор Эриванской губернии за 1894 г., с.32.
[1682] Yenə orada.

şəhər və kəndlərində olan ibtidai məktəblər bunlar idi:

1. 1872-ci il əsasnaməsi əsasında yaradılmış şəhər məktəbləri (1-i Naxçıvan şəhərində, 1-i Yenibəyazid şəhərində, 1-i Aleksandropol şəhərində);
2. İrəvan və Naxçıvan şəhərlərində 2 ibtidai ictimai şəhər məktəbi;
3. İrəvan şəhərində müəllimlər seminariyasının nəzdində və Ordubad şəhərində 2 xəzinə şəhər ibtidai məktəbi;
4. İrəvan qəzasının Uluxanlı və Koylasar kəndlərində, Üçmüəzzin qəzasının Əştərək kəndində 3 xəzinə kənd ibtidai məktəbi;
5. 9 zemski normal məktəbi (Naxçıvan qəzasında Cahraq, Nehrəm, Şahtaxtı kəndlərində, Şərur-Dərələyəz qəzasında Başnoraşen kəndində, Sürməli qəzasında Güllücə kəndində, Üçmüəzzin qəzasında Tos kəndində, Yenibəyazid qəzasında Gözəldərə və Yelinovka kəndlərində, Aleksandropol qəzasında Bayandur kəndində);
6. Xalq Təhsili Nazirliyinə tabe olan 12 ictimai kənd məktəbi (İrəvan qəzasında Kəmərli, İmanşalı, Dvin-Aysor və Böyük Vedi kəndlərində, Naxçıvan qəzasında Qulubəy dizi, Abrakunis və Yamxana kəndlərində, Şərur-Dərələyəz qəzasında Yenicə və Keşişkənd kəndlərində, Sürməli qəzasında Aralıq-Başkənd kəndində, Yenibəyazid qəzasında Basarkeçər kəndində, Üçmüəzzin qəzasında Kürdqulu kəndində)
7. Sürməli qəzasının Qızıl Zakir və Üçmüəzzin qəzasında Çobanqara kəndlərində 2 ibtidai kənd məktəbi[1683].

Beləliklə, hesabat ilində İrəvan quberniyasında 33 ibtidai məktəb olmuş, həmin məktəblərdə ilin sonunda 2301 şagird, o cümlədən 2246 oğlan və 55 qız qeydə alınmışdır. Bu keçən ilə nisbətən 378 şagird çox idi. Şagirdlər etnik tərkibinə görə belə bölünmüşdü: 528 Azərbaycan türkü, 134 rus, 3 gürcü, 1592 erməni və 43 digər xalqların nümayəndələri. Sosial tərkibinə

[1683] Обзор Эриванской губернии за 1895 г., с.27-28.

görə isə 149-u zadəgan, 105-i ruhani, 460-ı şəhərli, 1575-i kəndli, 8-i aşağı rütbəli məmur və 4-ü isə əcnəbi uşağı idi. Həmin il ibtidai məktəbləri 90 şagird bitirmiş, ibtidai məktəblərin saxlanmasına 54837 rubl pul buraxılmışdır[1684].

İbtidai məktəblərdə həmin il 123 müəllim və xidmətçi qeydə alınmış, onlardan 15-i nəzarətçi, 20-i məktəb müdiri, 40-ı şəriət müəllimi, 36-ı digər fənn müəllimi, 5-i müəllim köməkçisi və 7-i isə digər xidmətçilər idi. Bu müəllim və xidmətçilərin 28-i müsəlman, 44-ü pravoslav, 49-u erməni-qriqoryan, 1-i katalikos və 1-i isə prostetant dininə mənsub olmuşdur[1685].

1896-cı ilin hesabatında İrəvan quberniyasında ibtidai məktəblərin sayı daha da artaraq sayı 41-ə çatmışdır. Həmin il əlavə olaraq Sürməli qəzasının Qızıl Zakir kəndində 1 xəzinə normal məktəbi, Naxçıvan qəzasının Mahmudov, Milax, Yaycı kəndlərində 3 ictimai məktəbi və 4 kənd ibtidai məktəbi (2-i Naxçıvan qəzasının Vənənd və Talın erməni kəndlərində, 2-i Aleksandropol qəzasının Dövşanqışlaq və Xorom kəndlərində) açılmışdır[1686]. Hesabat ilində bu ibtidai məktəblərdə 2942 şagird oxumuş, onlardan 2865-i oğlan, 77-i isə qız olmuşdur[1687].

1897-ci il məlumatına görə, İrəvan quberniyasında 45 ibtidai məktəb qeydə alınmışdı. Həmin il 1896-cı il dekabrın 2-də verilmiş çar fərmanına əsasən 1897-ci il iyulun 1-dən Ordubad şəhərində “1972-ci il Əsasnaməsinə əsasən” birsinifli ibtidai məktəb açılmışdı. Bundan əlavə, kənd zemski normal məktəblərin sayında artım olmuşdur (2-i Sürməli qəzasının İğdır və Qulp kəndlərində, 1-i Aleksandropol qəzasının Böyük Qarakilsə kəndində). Hesabat ilində İrəvan quberniyasında ibtidai məktəblərdə 3132 şagird oxumuş, onlardan 65-i qız və 3067-i oğlan idi[1688].

1898-ci il məlumatına görə, İrəvan quberniyasında 64

---

[1684] Обзор Эриванской губернии за 1895 г., s.30.
[1685] Yenə orada, s.30-31.
[1686] Обзор Эриванской губернии за 1896 г., с.29-30.
[1687] Yenə orada, s.70.
[1688] Обзор Эриванской губернии за 1897 г., с.31, с.67.

ibtidai məktəb qeydə alınmış, həmin məktəblərdə 4429-u oğlan, 493-ü qız olmaqla, ümumilikdə 4922 şagird olmuşdur[1689].

Həmin hesabat ilində qeydə alınmış ibtidai məktəblərdən 31-in özünün binası olmuş, 29-u isə kirayə tutulmuş binada yerləşmişdir. Bundan əlavə, ibtidai məktəbləri bina ilə təmin etmək üçün 10 ikisinifli, 7 birsinifli binanın tikintisinə başlanmış, 2 ibtidai məktəbin nəzdində kənd-təsərrüfatı üçün lazım olan otaqlar, 1 məktəbdə əlavə siniflər artırılmış, bu tikintilər üçün 205400 rubl xərclənmişdir[1690].

Bu hesabat ilindən ibtidai məktəblərdə nəinki zehni biliklərlə əlaqədar, eyni zamanda praktiki dərslər də keçirilməyə başlamışdı. İbtidai məktəblərdə kənd təsərrüfatı şöbələrinin açılmasına 1897-ci ildə icazə verilmişdi[1691]. İbtidai məktəblərdə xarratlıq, tokarlıq, çəlləkçilik, dəmirçilik, çilingərlik, həmçinin kənd təsərrüfatı sahələrindən bağçılıq, bostançılıq, üzümçülük, ipəkçilik, pambıqçılıq və arıçılıq sənətləri öyrədilməyə başlandı. Hətta ibtidai məktəblərə kənd təsərrüfatı ilə əyani tanışlıq üçün bağlar, şitillik və pambıq sahələri ayrılmışdı. Bu məqsədlə 20 kənd ibtidai məktəbə 0,5 desyatindən 2 desyatinə qədər, 1 məktəbə dörd ondabir desyatin torpaq və 1 ailə, 2 ibtidai məktəbə isə xahişlə birinə 10 desyatin, digərinə 9 desyatin torpaq verilmişdir. Nəticədə 1898-ci il tədris ilində ibtidai məktəblərdə 57 oğlan xarratlıq və tokar, 11-i çəlləkçilik, 29-u çilingər sənətləri ilə, 160 şagird ipəkçiliklə, 220 şagird isə bağçılıq və bostançılıqla müvəffəqiyyətlə məşğul olmuşdular[1692].

Lakin digər mənbədə hesabat ilində İrəvan quberniyasında ümumilikdə 60 ibtidai məktəb olduğu göstərilmiş, bu məktəblərdə 4399 şagird təhsil almış, təhsil alanlardan 698-i Azərbaycan türkü, 88-i rus, 8-i gürcü, 3527-i erməni, 3-ü dağlı, 78-nin isə digər xalqların nümayəndələrinə məxsus olduğu bildiril-

---

[1689] Обзор Эриванской губернии за 1898 г., с.25, с.65.
[1690] Обзор Эриванской губернии за 1898 г., с.26-27.
[1691] Обзор Эриванской губернии за 1901 г., с.34.
[1692] Обзор Эриванской губернии за 1898 г., с.26-27.

mişdir[1693].

1899-cu il tədris ilində isə quberniya üzrə 77 ibtidai məktəb (keçən ilə nisbətən 13 məktəb çox) qeydə alınmış, həmin məktəblərdə 5491-i oğlan, 931-i qız olmaqla, ümumilikdə 6422 şagird oxumuşdu[1694]. Lakin digər mənbədə 73 ibtidai məktəb və bu məktəblərdə oxuyan 5918 şagird qeydə alınmışdır. Bunlardan etnik tərkibinə görə, 641-i Azərbaycan türkü, 103-ü rus, 5-i gürcü, 5091-i erməni, 78-i isə digər xalqların nümayəndələri, sosial tərkibinə görə isə 192-i zadəgan, 192-si din xadimi, 4381-i kəndli, 6-sı əcnəbi, 117-i isə şəhərli uşaqları idi[1695].

XX yüzilliyin əvvəllərində ibtidai məktəblərin sayında əhəmiyyətli irəlliləyiş baş vermişdi. Qeyd etmək lazımdır ki, bu artımın əsas səbəbi bəzi məktəblərdə şagirdlərin artması ilə əlaqədar siniflərin paralel olaraq sayının artırılması və ibtidai məktəblərdə kənd təsərrüfatı və sənətkarlıqla əlaqədar sənət sahələrinin öyrədilməsinin daha da genişləndirilməsi idi. Belə ki, ibtidai məktəblərin bəzisində bir sinifdən paralel olaraq ikinci sinif yaradılmış, üçüncü sinif kənd təsərrüfatına aid sənət kurslarının açılması sahəsində olmuşdur. Burada ipəkçiliklə, arıçılıqla, pambıqçılıqla və bağçılıqla bağlı dərslər keçilirdi. Bundan əlavə, quberniya üzrə ibtidai məktəblərdə ustaların şəxsən rəhbərliyi ilə xarrat-tokar, çilingər-dəmirçi, digər üçündə kənd təsərrüfatı üzrə sənət, digər üç qadın ibtidai məktəbində isə əl işi sənəti öyrədilirdi. Sənət öyrədən bu məktəblərdən rus əhalisinin yaşadığı Aleksandropol qəzasında Nikitino, Yenibəyazid qəzasında Konstantinovka və Aşağı Axtı kəndlərində, Aleksandropol qəzasında Qundaxsaz kəndində və 9 Azərbaycan türklərinin və ermənilərin yaşadığı ayrı-ayrı kəndlərdə olan ibtidai məktəbləri qeyd etmək lazımdır[1696].

1900-cü il hesabat ilində İrəvan quberniyasında 91 şəhər

---

[1693] Кавказский календарь на 1900 г., отдел III, с.68.
[1694] Обзор Эриванской губернии за 1899 г., с.22, с.64.
[1695] Кавказский календарь на 1901 г., отдел III, с.87.
[1696] Обзор Эриванской губернии за 1900 г., с.25-26.

və kənd ibtidai məktəbləri qeydə alınmış, bu məktəblərin 62-nin öz binası olmuş, 29-u isə kirayə tutulmuş binada yerləşmişdir. Həmin il 3 ibtidai məktəb rus əhalisinin yaşadığı Aleksandropol qəzasının Nikitino kəndində, Yenibəyazid qəzasında Konstantinovka və Aşağı Axtı kəndlərində, bir ibtidai məktəb Qundaxsaz kəndində, 9 digər ibtidai məktəb isə quberniyanın müxtəlif yerlərində Azərbaycan türklərinə və ermənilərə məxsus kəndlərdə açılmışdı. Quberniya üzrə həmin il ibtidai məktəblərdə 6636 oğlan, 1167 qız olmaqla ümumilikdə 7803 şagird oxumuşdu[1697].

Hesabat ilində şagirdlərin artması ilə əlaqədar olaraq bir ibtidai məktəb birsiniflidən ikisinifliyə keçmiş, bəzilərində paralel siniflər, digərlərində isə peşə şöbələri genişləndirilmişdi. 1900-cü ildə ustaların rəhbərliyi ilə 3 ibtidai məktəbdə xarrat-tokar, çilingər-dəmirçi, 3 ibtidai məktəbdə kənd təsərrüfatı üzrə, 3 qadın ibtidai məktəbində isə əl işləri sənətləri tədris edilmişdi[1698].

1901-ci ildə İrəvan quberniyasında 97 ibtidai məktəb qeydə alınmış, bu da keçən ilə nisbətən 6 məktəb çox idi. Qeyd etmək lazımdır ki, altı əlavə ibtidai məktəb açılmaqla bərabər, ibtidai məktəblərdə dörd ikinci sinif və on bir paralel sinif açılmışdır. Bundan əlavə, İrəvan şəhərində Puşkin adına məktəbdə böyüklər üçün bazar günü məktəbi açılmış, həmin məktəbə 80 adam yazılmışdı. Onlardan yaş həddinə görə 45-i 18-30 yaş arası, 25-i 30-40 yaş arası, 10-u idə 40-50 yaş arası, etnik tərkibinə görə isə 25-i Azərbaycan türkü, 5-i rus, 1-i gürcü, 47-i erməni və 2-i isə aysor olmuşdur[1699].

Hesabat ilində İrəvan quberniyasının bəzi kənd ibtidai məktəblərində şagirdləri öyrətmək üçün sənətkarlıq və kənd təsərrüfatı şöbələri açılmışdı. Qəzalar üzrə kəndlərdə yerləşmiş ibtidai məktəblərin tərkibində açılmış xüsusi şöbələr bunlar idi: **İrəvan qəzasında -** Dvin-Aysor ibtidai məktəbində açılmış çilingər-dəmirçi şöbəsi, 1-ci Kəmərli ibtidai məktəbində açılmış

---

1697 Yenə orada, s.26, s.64.
1698 Yenə orada, s.25-26.
1699 Обзор Эриванской губернии за 1901 г., с.32-33.

xarrat-tokar şöbəsi, Koylasar kənd ibtidai məktəbində açılmış kənd təsərrüfatı şöbəsi, Uluxanlı kənd ibtidai məktəbində açılmış kənd təsərrüfatı şöbəsi; **Naxçıvan qəzasında -** Naxçıvan 3 sinifli şəhər məktəbində açılmış xarrat-tokar, çilingər-dəmirçi və ipəkçilik şöbələri, Yuxarı Əylisli qız ibtidai məktəbində açılmış əl işləri şöbəsi; **Sürməli qəzasında** - İğdır qarışıq ibtidai məktəbində (həm oğlan və həm də qızlardan ibarət) açılmış əl işləri və hörmə şöbəsi; **Yenibəyazid qəzasında -** Yenibəyazid qadın ibtidai məktəbində açılmış xalça-parça toxuma şöbəsi; **Üçmüəzzin qəzasında -** Əştərək kənd ibtidai məktəbində açılmış kənd təsərrüfatı şöbəsi, Vaqarşapat qadın ibtidai məktəbində açılmış əl işləri və toxuma şöbəsi; **Aleksandropol qəzasında** – Aleksandropol qız ibtidai məktəbində açılmış əl işləri şöbəsi, Böyük Qarakilsə qız ibtidai məktəbində açılmış əl işləri şöbəsi[1700].

Yuxarıda qeyd edildiyi kimi, 1897-ci ildə ibtidai məktəblərin tərkibində kənd təsərrüfatı şöbələri açılmasına icazə verməklə bərabər, onlara torpaq sahəsi də ayrılmışdı. Məsələn, Uluxanlı ibtidai məktəbinə 3 desyatin, Əştərək məktəbinə 4 desyatin və Koylasar məktəbinə isə 10 desyatin torpaq verilmişdi[1701].

1902-ci il məlumatına görə İrəvan quberniyasında 105 ibtidai məktəb qeydə alınmış, bu keçən ilə nisbətən 8 məktəb çox idi. Bu məktəblərdə 7891 şagird oxumuş, onlardan 1423-ü qız, 6468-i isə oğlan olmuşdur[1702].

1903-cü ilin hesabatında ibtidai məktəblərin sayında xeyli artım baş vermiş, həmin il ilin əvvəllərində 99, ilin sonunda isə 133 məktəb qeydə alınmış, əlavə 34 məktəb açılmış, bu məktəblərdə ümumi siniflərin sayı 208-ə bərabər olmuşdur. İbtidai məktəblərdən 18-i kişi, 4-ü qadın, 21-i qarışıq olmaqla ikisinifli, 37-i kişi, 6-ı qadın və 47-i qarışıq olmaqla birsinifli idi. Həmin il ibtidai məktəblərdə 9005 oğlan, 1591 qız olmaqla 10596 şagird

---

[1700] Yenə orada, s.33-34.
[1701] Обзор Эриванской губернии за 1901 г., с.34.
[1702] Обзор Эриванской губернии за 1902 г., с.44.

oxumuşdu[1703].

Bundan əlavə, hesabat ilində 27 ibtidai məktəbdən 9-da kənd təsərrüfatından, 2-də xarrat-tokar, 1-də xarratlıq, 2-də çilingər-dəmirçi, 14-də əl işləri, 1-də isə xalça-parça toxumaq sənətlərindən dərslər keçirilmişdi[1704].

1904-cü il məlumatına görə, İrəvan quberniyasında ilin əvvəlində 133 ibtidai məktəb qeydə alınmış, ilin sonunda isə onların sayı 142-ə çatmışdır. Hesabat ilində Üçmüəzzin qəzasından başqa digər qəzalarda 9 əlavə məktəb açılmışdır. Ümumilikdə bunlardan 7-si xəzinə, qalanları xeyriyyə cəmiyyətləri tərəfindən maliyyələşdirilən məktəblər olmuşdur. Xəzinə məktəblərinin 2-i İrəvan, 2-si Sürməli və 1-i isə Üçmüəzzin qəzalarında, xeyriyyə məktəblərinin isə 2-si İrəvan, 3-ü Naxçıvan, 2-si Yenibəyazid, 5-i Aleksandropol qəzalarında, xeyriyyəçi zemstvo məktəblərin 3-ü Naxçıvan, 2-si Yenibəyazid, 2-si Aleksandropol, 3-ü Sürməli, 1-i Şərur-Dərələyəz, 1-i isə Üçmüəzzin qəzalarında, Maarif Nazirliyinə tabe olan xeyriyyəçi cəmiyyət tərəfindən maliyyələşdirilən ikisinifli məktəblərin 2-si İrəvan, 4-ü Naxçıvan, 2-si Aleksandropol, 1-i Sürməli, 3-ü Şərur-Dərələyəz, 6-ı Üçmüəzzin qəzalarında, birsinifli məktəbin 14-ü İrəvan, 13-ü Naxçıvan, 9-ü Yenibəyazid, 19-u Aleksandropol, 4-ü Sürməli, 3-ü Şərur-Dərələyəz, 13-ü isə Üçmüəzzin qəzalarında, xeyriyyə cəmiyyəti tərəfindən açılmış xristian məktəbinin 5-i Naxçıvan, 3-ü Aleksandropol, 1-i Şərur-Dərələyəz, 1-i isə Üçmüəzzin qəzalarında, xeyriyyə cəmiyyəti tərəfindən açılmış xristian olmayan məktəbin 1-i Naxçıvan, 1-i isə Üçmüəzzin qəzalarında yerləşmişdi. Bunlardan 13-ü kənd təsərrüfatı sahəsinə, 2-i xarratlığa, 1-i dülgərliyə, 1-i ipəkçiliyə, 1-i isə xalçaçılığa aid məktəblər idi. Həm ikisinifli, həm də birsinifli məktəblərin bəzisi oğlan, bəzisi qız və yaxud qarışıq məktəb kimi fəaliyyət göstərmişdi. Quberniya üzrə ikisinifli oğlan məktəblərinin 4-ü İrəvan, 9-u Naxçıvan, 4-ü Aleksandropol, 2-i Sürməli, 1-i Şərur-Dərələyəz, 2-i isə

---

[1703] Обзор Эриванской губернии за 1903 г., с.7, с.44.

[1704] Yenə orada, s.8.

Üçmüəzzin qəzalarında, qız məktəblərinin 1-i İrəvan, 2-i Naxçıvan, 1-i Şərur-Dərələyəz, 1-i isə Üçmüəzzin qəzalarında, qarışıq məktəblərin 1-i İrəvan, 1-i Naxçıvan, 2-i Yenibəyazid, 5-i Aleksandropol, 4-ü Sürməli, 3-ü Şərur-Dərələyəz, 5-i isə Üçmüəzzin qəzalarında, birsinifli qarışıq, qız-oğlan məktəblərinin 8-i İrəvan, 5-i Naxçıvan, 4-ü Yenibəyazid, 8-i Aleksandropol, 2-i Sürməli, 3-ü Şərur-Dərələyəz, 7-i isə Üçmüəzzin qəzalarının, qız məktəblərinin 3-ü İrəvan, 2-i Naxçıvan, 1-i Yenibəyazid, 3-ü Aleksandropol qəzalarının, qarışıq məktəblərin (həm oğlan, həm qız bir yerdə-E.Q.) isə 11-i İrəvan, 10-u Naxçıvan, 6-ı Yenibəyazid, 10-u Aleksandropol, 2-i Sürməli, 1-i Şərur-Dərələyəz və 8-i isə Üçmüəzzin qəzalarının payına düşmüşdü. Quberniya üzrə məktəblərdə bütün siniflərin sayı 227 olmuşdur[1705].

1907-ci ilin məlumatında İrəvan quberniyasında məktəblərin və şagirdlərin sayında xeyli azalma baş vermişdir. Bunun səbəbi ola bilsin ki, 1905-1907-ci illərdə quberniyanın müxtəlif şəhər və kəndlərində Azərbaycan türkləri ilə ermənilər arasında baş vermiş hadisələr, digər tərəfdən xəzinədən xalq təhsili üçün lazımi vəsaitin buraxılmaması və yeni məktəbin açılması üçün yerli əhalinin vəsait ödəməsinə güclərinin çatmaması idi. Həmin il İrəvan quberniyasında 129 ibtidai məktəb qeydə alınmış, həmin məktəblərdə 7912 şagird, bunlardan 6825-i oğlan, 1091-i isə qız oxumuşdur[1706]

1908-ci ilin məlumatına görə, İrəvan quberniyasında 130 ibtidai məktəb fəaliyyət göstərmiş, bu da keçən ilə nisbətən bir məktəb çox idi. Mənbədə az artımın səbəbi kimi, lazımi vəsaitin olmaması və son beş ildə xəzinənin vəsait buraxmaması üzündən yerlərdə məktəblərin açılmasına əhalinin gücünün çatmaması göstərilmişdir. Hesabat ilində ibtidai məktəblərdə 8057 oğlan, 1154 qız olmaqla, ümumilikdə 9211 şagird təhsil almışdır[1707].

1909-cu hesabat ilində İrəvan quberniyasında 141 ibtidai

---

[1705] Обзор Эриванской губернии за 1904 г., с.13.
[1706] Обзор Эриванской губернии за 1907 г., с.14-15, с.56.
[1707] Обзор Эриванской губернии за 1908 г., с.15, с.56.

məktəb qeydə alınmış (bu keçən ilə nisbətən 11 məktəb çox idi), bu ibtidai məktəblərdə 8167-i oğlan, 1420-i qız olmaqla, ümumilikdə 9587 şagird oxumuşdur. Həmin il İrəvan quberniyasında əlavə 11 ibtidai məktəb açılmış, bunun 2-i İrəvan qəzasında, 4-ü Naxçıvan qəzasında, 2-i Şərur-Dərələyəz qəzasında, 1-i Sürməli qəzasında, 1-i Yenibəyazid qəzasında və 1-i isə Üçmüəzzin qəzasında açılmışdı. Hesabat ilində 1908-ci ilə nisbətən "1872-ci il əsasnaməsi"nə əsasən şəhər məktəblərində 109, kənd məktəblərində isə 1275 şagird artımı olmuşdur. Quberniyanın bəzi ibtidai məktəblərində əvvəlki kimi sənət öyrədilməsi davam etmişdi. Məsələn, Naxçıvan şəhər məktəbində xarrat, çilingər və kənd təsərrüfatına aid, Üçmüəzzin qəzasının Əştərək və Sürməli qəzasının İğdır kəndlərinin ibtidai məktəblərində kənd təsərrüfatına aid, İrəvan qəzasının Koylasar kənd ibtidai məktəbində xarrat və kənd təsərrüfatına aid dərslər keçirilmiş, Şərur-Dərələyəz qəzasının Keşişkənd kəndinin ibtidai məktəbində arıçı xarrat sənətinin öyrənilməsinə hazırlıq başlamışdı[1708].

1910-cu il məlumatına görə, İrəvan quberniyasında 158 ibtidai məktəb qeydə alınmış, bu məktəblərdə 10720-i oğlan, 1765-i qız olmaqla, ümumilikdə 11485 şagird təhsil almışdır. Şagirdlərin sayında keçən ilə nisbətən 1896 nəfər artım olmuşdu. Bunlardan 96 nəfəri "1872-ci il əsasnaməsi"nə görə açılmış şəhər məktəblərinin, 1800 nəfəri isə kənd ibtidai məktəblərinin payına düşmüşdü. Qeyd etmək lazımdır ki, hesabat ilində Xalq Təhsili Nazirliyinin icazəsilə yeni 17 ibtidai məktəb açılmış, bu məktəblərdən 4-ü İrəvan qəzasında, 3-ü Şərur-Dərələyəz qəzasında, 2-i Naxçıvan qəzasında, 1-i Sürməli qəzasında, 1-i Üçmüəzzin qəzasında və 6-ı isə Aleksandropol qəzalarında fəaliyyət göstərmişdir. Etnik tərkibinə görə, şəhər məktəblərində oxuyan şagirdlərin 290-ı Azərbaycan türkləri, 92-i rus, 9-u gürcü, 12-i aysor, 12-i kürd və 676-ı erməni, kənd ibtidai məktəbində oxuyan şagirdlərdən isə 1832-i Azərbaycan türkü, 707-i rus, 34-ü gürcü, 72-i yunan, 123-ü aysor, 84-ü kürd, 8521-i erməni və 10-u

---

[1708] Обзор Эриванской губернии за 1909 г., с.15, с.56.

digər xalqların uşaqları olmuşdur. Həmin il ibtidai məktəblərdə ümumilikdə 660 şagird təhsilini başa vurmuş, bunlardan 76-ı 7 şəhər məktəbinin, 584-ü isə 151 kənd ibtidai məktəblərinin payına düşmüşdü[1709].

1912-ci il məlumatına görə İrəvan quberniyasında ibtidai məktəblərin sayında xeyli artım müşahidə olunmuşdu. Hesabat ilində ibtidai məktəblərin sayı 187-ə yüksəlmişdir. "1872-ci il əsasnaməsi" əsasında yaradılmış şəhər məktəblərindən 7-si İrəvan, Naxçıvan, Ordubad, Yenibəyazid, Aleksandropol şəhərlərində, Üçmüəzzin qəzasının Əştərək kəndində və Sürməli qəzasının İğdır kəndində, 12 ibtidai məktəb şəhərlərdə, 168-i isə kəndlərdə yerləşmişdi. Bunlardan 25 məktəb İrəvan qəzasında, 24 məktəb Üçmüəzzin qəzasında, 10 məktəb Sürməli qəzasında, 29 məktəb Naxçıvan qəzasında, 23 məktəb Şərur-Dərələyəz qəzasında, 16 məktəb Yenibəyazid qəzasında və 35 məktəb isə Aleksandropol qəzasında olmuşdur. Həmin məktəblərdə 10887-i oğlan, 2228-i qız olmaqla, ümumilikdə 13115 şagird təhsil almışdır. 1911-ci ilə nisbətən 1912-ci ildə şəhər məktəblərində şagirdlərin sayında 82 nəfər, kənd ibtidai məktəblərdə isə 1474 nəfər artım olmuşdur. Hesabat ilində şəhər məktəblərini 77 nəfər qurtarmış, 269 nəfər kursu qurtarmamış tərk etmiş, ibtidai sinifi isə 613 nəfər qurtarmış, 693 nəfər isə kursu qurtarmamış tərk etmişdir[1710].

İrəvan quberniyasında həm şəhər məktəblərində, həm də ibtidai məktəblərdə müxtəlif xalqların nümayəndələri oxumuşdur. Etnik tərkibinə görə, şəhər məktəblərində oxuyanlardan 303-ü Azərbaycan türkü, 124-ü rus, 8-i yunan, 10-u gürcü, 788-i erməni, 16-ı aysor, 6-ı kürd və digər xalqların nümayəndələrinin uşaqları, ibtidai sinifdə oxuyanlardan 1725-i Azərbaycan türkü, 800-ü rus, 55-i yunan, 30-u gürcü, 9914-ü erməni, 135-i aysor, 71-i kürd və 130-u digər xalqların nüməyəndələrinin uşaqları olmuşdur[1711].

---

1709 Обзор Эриванской губернии за 1910 г., с.16-17, с.56-57.
1710 Обзор Эриванской губернии за 1912 г., с.19, с.74-75.
1711 Yenə orada.

Məlumata görə, bu məktəblərin 79-nun özünün binası olmuş, 102-si isə kirayə tutulmuş binada yerləşmişdir. Lakin 1912-ci il ərzində quberniyanın bəzi qəzalarında məktəb binası da tikilmişdi. İl ərzində İrəvan qəzasında 1 bina, Aleksandropol qəzasında 4 bina, Sürməli və Aleksandropol qəzalarında isə ibtidai məktəbdə sinif üçün əlavə bir otaq yenidən tikilmişdir[1712].

İbtidai məktəblərdə şagirdlərə təhsillə bərabər fiziki, estetik hazırlıq və eyni zamanda peşə bilikləri də tədris edilirdi. Şagirdlərin fiziki hazırlığını yüksəltmək üçün gimnastikadan, 122 kənd məktəbində estetik biliyi artırmaq üçün rəsm və nəğmə dərsləri keçirilirdi. Bundan əlavə, peşə biliklərinin tədris edildiyi konkret məktəblərin adları da göstərilmiş və həmin məktəblər aşağıdakılardır: 1) İrəvan şəhərində Puşkin adına şəhər məktəbində heykəl düzəltmə; 2) İrəvan qəzasının Koylasar kənd məktəbində səbət toxuma və mebel hazırlanması; 3) Naxçıvan şəhər məktəbinin nəzdində toxuma və mebel hazırlanması; 4) Naxçıvan qəzasının Çağrı kişi məktəbində səbət toxuma və mebel hazırlanması; 5) İrəvan qəzasının Çikdamlı məktəbində parça toxuma; 6) Üçmüəzzin qəzasının Çobanqara ibtidai məktəbində süd məhsullarının rasional emalı şöbəsi; 7) İrəvan qəzasının Sədərək ibtidai məktəbində süd məhsullarının rasional emalı şöbəsi[1713].

1913-cü tədris ilində İrəvan quberniyasının şəhər və qəzalarında 194 ibtidai məktəb qeydə alınmış, bu məktəblərdə 12787 oğlan, 2555 qız olmaqla, ümumilikdə 15342 şagird təhsil almışdır. Bu şəhər və kənd ibtidai məktəblərinin bəzisi yalnız oğlan, bəzisi qız, digərlərində isə həm qız, həm də oğlanlardan ibarət olmuşdur. Məktəblərdən bəzisi xəzinə, bəzisi ictimai, bəzisi zemstvo, normal, əksəriyyəti isə Xalq Təhsil Nazirliyinə məxsus ibtidai məktəblər idi. Bunlardan İrəvan şəhərində 1 şəhər məktəbi (144 yalnız oğlan şagird), qəza mərkəzi olan şəhərlərdə 3 şəhər məktəbi (712 oğlan şagird), qəzalarda 3 şəhər məktəbi (oxuyanlardan 275-i oğlan, 42-i isə qız), ümumilikdə 7 şəhər məktəbi

---

[1712] Yenə orada, s.20.

[1713] Обзор Эриванской губернии за 1912 г., с.21.

(oxuyanlardan 1231-i oğlan, 42-i qız), ibtidai məktəbin 4-ü (oxuyanlardan 258-i oğlan, 157-i isə qız) İrəvan şəhərində, 4-ü qəza mərkəzi olan şəhərlərdə (oxuyanlardan 334-ü oğlan, 375-i qız), ümumilikdə 8 ümumi ibtidai məktəb (oxuyanlardan 582-i oğlan, 532-i qız), xəzinə məktəbin 3-ü İrəvan şəhərində (250 oğlan, 58 oxumuşdur), 4-ü qəza məktəbləri olan şəhərlərdə (305 oğlan, 101 qız oxumuşdur) fəaliyyət göstərmişdir. İbtidai məktəblərin əksəriyyəti kəndlərdə yerləşmişdi. Kəndlərdə 29 xəzinə məktəbi (oxuyanlardan 1191-i oğlan, 259-u qız), 3 kənd adi məktəbi (oxuyanlardan 295-i oğlan, 19-u qız), 10 zemstvo məktəbi (oxuyanlardan 882 oğlan, 224 qız), 130 Xalq Təhsil Nazirliyinin nəzdində olan ümumi kənd məktəbi (oxuyanlardan 7951-i oğlan, 1320-i isə qız), İrəvan şəhərində 2 ikinci dərəcəli özəl məktəbi (196 oğlan), yenə İrəvan şəhərində 6 üçüncü dərəcəli özəl məktəbi (122 oğlan, 6 qız), qəza mərkəzi olan digər şəhərdə 1 özəl məktəbi (oxuyanlardan 29-u oğlan, 2-si qız), qəzalarda 1 özəl ibtidai məktəb (oxuyanlardan 4-ü oğlan, 4-ü qız) olmuşdur[1714].

1915-ci il yanvarın 1-ə olan məlumata görə, İrəvan quberniyasında 187 ibtidai məktəb qeydə alınmış, bu məktəblərdən 13-ü şəhərdə, 174-ü isə kənddə fəaliyyət göstərmişdir. Qəzalar üzrə ibtidai məktəblər belə bölünürdü: 24-ü İrəvan, 30-u Naxçıvan, 21-i Şərur-Dərələyəz, 15-i Sürməli, 36-sı Aleksandropol, 26-sı Üçmüəzzin və 16-ı isə Yenibəyazid qəzalarında. Ümumilikdə, həmin ibtidai məktəblərdə 12786 şagird təhsil almışdı. Etnik tərkibinə görə oxuyan şagirdlərdən 1496-ı Azərbaycan türkü, 847-i rus, 57-si gürcü, 60-ı yunan, 10121-i erməni, 105-i aysor, 83-ü kürd və 17-i isə digər xalqların nümayəndələri olmuşdular[1715].

Hesabat ilində şəhər və kəndlər üzrə olan ibtidai məktəblər bunlar idi: İrəvan şəhərində 1 ali ibtidai məktəb (96 oğlan şagird), qəza mərkəzi olan şəhərlərdə 4 ali ibtidai məktəb (444 oğlan şagird), qəzalarda 2 ali ibtidai məktəb (oxuyanlardan 124-ü oğlan, 25-i isə qız), ümumilikdə şəhərlərdə 7 ali ibtidai məktəb

---

[1714] Обзор Эриванской губернии за 1913 г., с.76-77.

[1715] Обзор Эриванской губернии за 1913 г., с.23.

(679 şagird, 654 oğlan, 25 qız); ümumi ibtidai məktəb - 4-ü (oxuyanlardan 228-i oğlan, 130-u isə qız) İrəvan şəhərində, 4-ü qəza mərkəzi olan şəhərlərdə (oxuyanlardan 303-ü oğlan, 367-i qız), ümumilikdə şəhərlərdə 8 ümumi ibtidai məktəb (531 oğlan, 497 qız oxumuşdu); xəzinə məktəbi - 3-ü İrəvan şəhərində (232 oğlan oxumuşdur), 4-ü qəza məktəbləri olan şəhərlərdə (297 oğlan, 209 qız oxumuşdu); kəndlərdə 22 xəzinə məktəbi (oxuyanlardan 624-ü oğlan, 231-i qız), 5 kənd ibtidai məktəbi (oxuyanlardan 630-u oğlan, 31-i qız), 12 zemstvo məktəbi (oxuyanlardan 1275 oğlan, 274 qız), 133 Xalq Təhsil Nazirliyinin nəzdində olan ümumi ibtidai kənd məktəbi (oxuyanlardan 6914-ü oğlan, 1004-ü isə qız)[1716].

Yuxarıda qeyd edildiyi kimi, İrəvan quberniyasında ibtidai məktəblərin nəzdində əməli işlə məşğul olan kənd təsərrüfatı və ayrı-ayrı sənət növlərini öyrədən şöbələr də yaradılmışdir. Məsələn, Naxçıvan qəzasının şəhər və kənd ibtidai məktəblərində xarratlıq, çilingərlik, ipəkçilik, bağçılıq, səbət toxuma, mebel düzəltmə, Yenibəyaziddə cildxana şöbələri, İgdırda ibtidai məktəbdə kənd təsərrüfatı şöbəsi, Koylasarda xarratlıq, səbət düzəltmə, mebel düzəltmə, Keşişkənddə arıçılıq, Yelenovkada cildxana, İrəvanda rus-Azərbaycan kişi məktəbində və şəhər qız məktəbində çəkməçilik, Aleksandropolda kişi kartonaj (müxtəlif şeylər düzəldən-E.Q.) emalatxanası, rus-Azərbaycan qadın məktəbində əl işləri, biçim və tikmək üçün siniflər, həmçinin Naxçıvanda rus-Azərbaycan qadın məktəbində əl işləri, biçim və tikmək üçün siniflər fəaliyyət göstərmişdir[1717].

1916-cı ildə İrəvan quberniyasında ibtidai siniflərdə 7562 oğlan, 1820 qız şagird oxumuş, bu şagirdlərin 1090-ı oğlan, 96-ı qız olmaqla Azərbaycan türkləri olmuşdur[1718].

İrəvan quberniyasında müxtəlif tipli məktəblərin fəaliyyət göstərməsinə baxmayaraq, əhali arasında savadlılıq dərəcəsi

---

[1716] Обзор Эриванской губернии за 1914 г., с.78-79.
[1717] Обзор Эриванской губернии за 1914 г., с.23-24.
[1718] Кавказский календарь на 1917 г., отдел III, с.310.

aşağı olmuşdur. 1897-ci il siyahıyaalmaya görə, İrəvan quberniyasında savadlılar bütün əhalinin cəmi 6,4 $^0/_0$-i, kişilər 10,33 $^0/_0$-i, qadınlar isə 2 $^0/_0$ -i təşkil etmişdir. Savadlıların əksəriyyəti şəhərlərin payına düşürdü. Şəhərlərdə kişilərə məxsus savadlıların faizi 37,36, qadınlar isə 12,75-ə çatmışdı. Qəzalarda isə kişilərin faizi 6,55-ə, qadınların isə 0,62-ə çatmışdı [1719]. Siyahıyaalınmada əhalinin etnik tərkibinə görə də savadlıların tərkibi göstərilmişdir. Etnik tərkibinə görə savadlılar faizlə əhali arasında belə bölünmüşdü: Azərbaycan türkləri arasında kişilər-3,92 $^0/_0$, qadınlar 0,34 $^0/_0$;, ruslar arasında kişi 56,71 $^0/_0$, qadınlar 18,44 $^0/_0$; ermənilər arasında kişi 11,42 $^0/_0$, qadınlar 2,11 $^0/_0$, kürdlər arasında kişilər 0,57, qadınlar 0,04 $^0/_0$[1720].

**İrəvan Müəllimlər Seminariyası.** İrəvan şəhərində müəllimlər semnariyası da fəaliyyət göstərmişdir. Azərbaycan xalqının təhsil sistemində böyük rol oynamış İrəvan müəllimlər seminariyası Rusiya imperiyası Dövlət Şurasının 1880-ci il oktyabrın 20-də verdiyi qərara əsasən yaradılmışdır. Bu qərara əsasən, İrəvan müəllimlər seminariyasının ümumi xərci üçün illik 28350 rubl məbləğində pul ayrılmışdır [1721]. Fəaliyyət göstərdiyi illərdə İrəvan müəllimlər seminariyasına çəkilən illik xərclər haqqında mənbələrdə müxtəlif rəqəmlərə rast gəlmək mümkündür. Məsələn, bu təhsil müəssisəsinə illik 1887-ci ildə 28987 rubl, 1892-ci ildə 29336 rubl 75 qəpik, 1898-ci ildə 30614 rubl, 1899-cu ildə 31359 rubl, 1908-ci ildə 218339 rubl, 1909-cu ildə 246927 rubl, 1910-cu ildə 272231 rubl, 1911-ci ildə 317650 rubl 48 qəpik, 1912-ci ildə 339105 rubl 69 qəpik pul xərclənmişdir[1722]. Qeyd etmək lzaımdır ki, İrəvan Müəllimlər Seminari-

---

[1719] Первая всеобщая перепись населения Российской империи 1897, Эриванская губерния, с.25.

[1720] Yenə orada, s.25.

[1721] Полное собрание законов Российской империи, СПб, 1883, т.55, с.476.

[1722] Обзор Эриванской губернии за 1892-1909, Эривань, 1892-1909, с.39; Отчет попечителя Кавказскаго учебного округа о состоянии учебных заведений за 1887, Тифлис, 1888, с.75; Отчет попечителя Кавказскаго

yasının saxlanması üçün müxtəlif mənbələrdən də pul daxil olurdu. Bu mənbələrə dövlət xəzinəsindən, zemstvodan, şəhər cəmiyyətlərindən, Kuban və Terk qoşunlarından, təhsil üçün yığılan vergilər daxil idi[1723]. Ayrılan pullar seminariyada müxtəlif sahələrə xərclənirdi. Bu ümumi xərc başda seminariyanın direktoru olmaqla müəllim heyətinə, binanın kirayəsinə, onun təmirinə, dərs vəsaitlərinə, kitabxanaya, seminariyanın nəzdində fəaliyyət göstərəcək pansiona, ibtidai sinifinə, həkimə və müalicə dərmanlarına, xidmətçilərə sərf olunmalı idi. 1887-ci ilin məlumatına görə, ümumi məbləğdən binanın kirayəsinə 2600, binanın təmirinə 105, təsərrüfat xərclərinə 2550, dərs vəsaitlərinə 432, seminariyanın şəxsi heyətinin saxlanmasına 15092, əlavə maaşlara 719 rubl, 1898-ci ildə binanın kirayəsinə 3000, otaqların təmirinə 80, təsərrüfat xərclərinə 3978, dərs vəsaitlərinə 634, seminariyanın şəxsi heyətinin saxlanmasına 13525, pansionun saxlanmasına 6908, məvacibə əlavə 910, tələbələrə maddi yardım 175, xidmətçilərə maddi yardım 50 rubl xərclənmişdir[1724].

Uzun hazırlıqdan sonra müəllimlər seminariyası 1881-ci il noyabrın 3-də İrəvan şəhərində açılmışdır. Bu seminariya 1918-ci ilə qədər fəaliyyət göstərmiş, seminariyanın tərkibində pansionat və hazırlıq sinifi də olmuşdur. Birinci ili seminariya bir sinifdə, 1882-ci ildə iki sinifdə, 1883-cü ildən üç sinifdə və 1898-ci ildən isə dörd sinifdə fəaliyyət göstərmişdir[1725]. Bundan

---

учебного округа о состоянии учебных заведений за 1888, с.261; Отчет попечителя Кавказскаго учебного округа о состоянии учебных заведений за 1889, с.261; Обзор деятельности Кавказского учебного округа. 1908-1912г.г., с.184.

1723 Отчет попечителя Кавказскаго учебного округа о состоянии учебных заведений за 1887, с.75; Обзор деятельности Кавказского учебного округа. 1908-1912г.г., с.85.

1724 Отчет попечителя Кавказскаго учебного округа о состоянии учебных заведений за 1887, с.75-76.

1725 Полное собрание законов Российской империи, СПб, 1883, т.55, с.518; Отчет попечителя Кавказскаго учебного округа о состоянии учебных заведений за 1898, с.257; Развитие Еревана после присоединения Восточной Армении к России. Сборник документов

əlavə, İrəvan müəllimlər seminariyasının nəzdində tələbələrin pedaqoji fəaliyyəti üçün nümunəvi məktəb də olmuşdur. Eyni zamanda seminariyanın tələbələri üçün keçirilən bağçılıq və bostançılıq sahələri üzrə əyani təcrübə üçün Sərdar bağından xüsusi torpaq sahəsi də ayrılmışdır[1726].

İrəvan seminariyasının kitabxanasında fundamental kitablar və şagirdlərə məxsus dərs vəsaitləri, qurğular ilə təmin olunmuş fizika otağı da var idi. 1890-cı il məlumatına görə, seminariyanın kitabxanasında 4435 rubl dəyərində 1576 adda 2837 cilddə fundamental kitablar, 2482 rubl dəyərində 1705 adda 3954 cilddə şagirdlərə məxsus dərs vəsaitləri, fizika otağında isə 3579 rubl dəyərində 318 cihaz, ümumilikdə, kitabxanalarda, fizika otağında bütün dərs vəsaitlərinin və qurğuların ümumi dəyəri 13965 rubl, 1895-ci ildə ümumi dəyəri 8972 rubl, 8320 cilddə 3896 adda kitab, fizika otağında isə ümumi dəyəri 3674 rubl olan 319 qurğu, 1896-cı ildə 8389 rubl dəyərində 3901 adda həm fundamental kitablar, həm də şagirdlərə məxsus dərs vəsaitləri, fizika otağında olan qurğuların ümumi dəyəri 15530 rubl, 1898-ci ildə 6122 rubl dəyərində 2163 adda 4205 cilddə fundamental kitablar, 3458 rubl dəyərində 2263 adda 4556 şagirdlərə məxsus dərs vəsaitləri, ümumilikdə 9580 rubl dəyərində 4426 adda 8761 cilddə kitab, fizika otağında isə 4393 rubl dəyərində 403 cihaz, 1899-cu ildə isə 6325 rubl dəyərində 2208 adda 4323 cilddə fundamental kitablar, 3690 rubl dəyərində 2507 adda 4610 cilddə şagirdlərə məxsus dərs vəsaitləri, ümumilikdə həmin ildə 10015 rubl dəyərində 4715 adda 8933 cilddə kitab olmuşdur[1727].

Seminariyada müxtəlif fənlər keçirilmişdir. Burada müsəl-

---

1801-1917, с.390-391; Əmrahov Z. Göstərilən əsəri, s.169.

[1726] Отчет попечителя Кавказскаго учебного округа о состоянии учебных заведений за 1884, с.83, с.88.

[1727] Отчет попечителя Кавказскаго учебного округа о состоянии учебных заведений за 1898, с.259; Отчет попечителя Кавказскаго учебного округа о состоянии учебных заведений за 1899, с.259; Обзор Эриванской губернии за 1892-1909, с.29-30, с.32.

man, pravoslav, erməni-qriqoryan dini qanunları, rus dili, tarix, coğrafiya, riyaziyyat, həndəsə, hüsnü-xətt, rəsm, mahnı, tibb, Azərbaycan türk və erməni dilləri, bağçılıq və bostançılığa aid fənlər tədris edilmişdir. Tədrisdə ən çox rus dili proqramına diqqət yetirilmişdi[1728].

İrəvan Müəllimlər Seminariyasına qəbul, imtahan verməklə xüsusi qaydada keçirilmişdir. Hər il qəbul imtahanı vermək üçün ərizələr qəbul edilir və abituriyentlər imtahan verirdilər. 1881-ci ildə İrəvan Müəllimlər Seminariyasına 64, 1882-ci ildə 58, 1884-cü ildə 47, 1885-ci ildə 51, 1899-cu ildə 64, 1900-cü ildə 78 nəfər ərizə ilə müraciət etmişdir. Lakin ərizə verənlərin bəzisi imtahandan kəsilmişdir[1729].

İrəvan Müəllimlər Seminariyasında birinci ili seminariyada 34, ikinci ili 60, dördüncü ili 78, beşinci ili 82 tələbə oxumuşdur[1730].

Bundan əlavə, seminariyada dərs yükü ağır olduğuna görə, bəzi tələbələr rübdən-rübə keçəndə dərslərdən geri qalırdı. Məsələn, 1882-ci ildə birinci rübdə 50 tələbə oxuyurdusa, ikinci və üçüncü rüblərdə 37, axırıncı rübdə isə 41 tələbə bütün fənlərdən yaxşı çıxmışdır[1731].

İrəvan Müəllimlər Seminariyasının ilk tələbə buraxılışı 1884-cü ildə 5 nəfərdən ibarət olmuşdur. İkinci buraxılış 1885-ci ildə (9 tələbə), üçüncü 1886-cı ildə (14 tələbə), dördüncü 1887-ci

---

[1728] Циркуляр по управлению Кавказским учебным округом за 1882 год, Тифлис, 1882, с.518; Развитие Еревана после присоединения Восточной Армении к России, Сборник документов 1801-1917, с.391.

[1729] Циркуляр по управлению Кавказским учебным округом за 1882 г., с.497; Циркуляр по управлению Кавказским учебным округом за 1885 г., с.419; Циркуляр по управлению Кавказским учебным округом за 1900 г., с.1158-1159.

[1730] Циркуляр по управлению Кавказским учебным округом за 1882 г., с.497; Циркуляр по управлению Кавказским учебным округом за 1885 г., с.419; Циркуляр по управлению Кавказским учебным округом за 1900 г., с.1158-1159.

[1731] Циркуляр по управлению Кавказским учебным округом за 1882 г., с.497.

ildə (6 tələbə), beşinci 1888-ci ildə (10 tələbə), altıncı 1889-cu ildə (13 tələbə), yeddinci 1890-cı ildə (12 tələbə) qeydə alınmışdır. Ümumiyyətlə bu illər ərzində müəllimlər seminariyasını kənd ibtidai sinifləri üçün müəllim adını 69 nəfər bitirmişdir[1732].

İrəvan Müəllimlər Seminariyasında müxtəlif millətlərin nümayəndələri oxumuşdur. Burada oxuyan tələbələr arasında Azərbaycan türkləri də olmuşdur. Mənbələrdə seminariyada oxuyan tələbələrin sayı, milli tərkibi, sosial mənsubiyyəti haqqında ətraflı məlumat verilmişdir. Məsələn, 1884-cü ildə İrəvan müəllimlər seminariyasında ilin əvvəlində 67, ilin axırında 78 tələbə (bunlar siniflər üzrə belə bölünmüşdür: hazırlıq qrupunda 33, 1-i sinifdə 16, 2-ci sinifdə 8, 3-cü sinifdə 11 nəfər; bunlardan 30-u zadəgan, 8-i din xadimi, 16-ı şəhərli, 23-ü kəndli, 1-i kiçik məmur uşaqları idi. Milliyyətcə 13-ü Azərbaycan türkü, 7-i rus, 3-ü gürcü, 44-ü erməni, 8-i dağlı, 3-ü Avropadan gəlmə ailəyə məxsus olmuşdur), 1887-ci ildə İrəvan Müəllimlər Seminariyasında ilin əvvəlində 80, ilin axırında 81 tələbə (bunlar siniflər üzrə belə bölünmüşdü: hazırlıq qrupunda 30, 1-ci sinifdə 25, 2-ci sinifdə 15, 3-cü sinifdə 11 nəfər; bunlardan 22-i zadəgan, 7-i din xadimi, 19-u şəhərli, 32-i kəndli, 1-i kiçik məmur uşaqları idi. Milliyyətcə 14-ü Azərbaycan türkü, 9-u rus, 1-i gürcü, 48-i erməni, 4-ü dağlı, 5-i Avropadan gəlmə ailəyə məxsus olmuşdur), 1891-ci ildə 66 tələbə (bunlar siniflər üzrə belə bölünmüşdü: hazırlıq qrupunda 27, 1-ci sinifdə 19, 2-ci sinifdə 16, 3-cü sinifdə 4 tələbə. Milliyyətinə görə bunlardan 11-i Azərbaycan türkləri, 6-ı rus, 3 gürcü, 39 erməni, 2-i aysor, 3-ü yunan olmuşdur. Həmin il 12 nəfər kənd ibtidai sinif müəllimi adında kursu qurtarmışdır), 1892-ci ildə 54 tələbə (bunlar siniflər üzrə belə bölünmüşdür: hazırlıq qrupunda 6, 1-ci sinifdə 25, 2-ci sinifdə 8, 3-cü sinifdə 15 tələbə. Milliyyətinə görə bunlardan 10-u Azərbaycan türkü, 6-

---

[1732] Развитие Еревана после присоединения Восточной Армении к России, Сборник документов 1801-1917, с.396-397; Отчет попечителя Кавказскаго учебного округа о состоянии учебных заведений за 1884, с.336.

ı rus, 3 gürcü, 30 erməni, 2-i aysor, 3-ü yunan idi. Həmin il 4 tələbə kursu bitirmişdir), 1893-cü ildə 52 tələbə (milliyyətinə görə bunlardan 7-i Azərbaycan türkü, 10-u rus, 5 gürcü, 21 erməni, 9-u isə digər xalqların nümayəndələri idi. Həmin il 15 tələbə müəllim rütbəsində kursu bitirmişdır. 1994-cü ildə 52 tələbə (bunlar siniflər üzrə belə bölünmüşdü: hazırlıq qrupunda 14, 1-ci sinifdə 14, 2-ci sinifdə 8, 3-cü sinifdə 16 tələbə. Milliyyətinə görə bunlardan 7-i Azərbaycan türkü, 9-u rus, 4-ü gürcü, 21-i erməni, 3-ü aysor, 7-i yunan, 1-i osetin idi. Bunlardan 10-u zadəgan, 11-i din xadimi, 9-u şəhərli, 22-i isə kəndli uşaqları olmuşdur. Həmin il 9 nəfər kənd ibtidai sinif müəllimi rütbəsində kursu qurtarmış, 5 nəfər isə seminariyanı tərk etmişdir), 1895-ci ildə 49 tələbə (bunlar siniflər üzrə belə bölünmüşdü: hazırlıq qrupunda 16, 1-ci sinifdə 18, 2-ci sinifdə 8, 3-cü sinifdə 7 tələbə. Milliyyətinə görə bunlardan 7-i Azərbaycan türkü, 9-u rus, 1-i gürcü, 1-i dağıstanlı, 18-i erməni, 13-ü isə digər xalqların nümayəndələri idi. Bunlardan 9-u zadəgan, 5-i din xadimi, 7-i şəhərli, 26-ı kəndli, 1-i aşağı təbəqəyə məxsus məmur, 1-i isə əcnəbi uşağı olmuşdur. Həmin il 14 nəfər kənd ibtidai sinif müəllimi rütbəsində kursu qurtarmış, 3 nəfər isə seminariyanı tərk etmişdir), 1896-cı ildə 59 tələbə (bunlar siniflər üzrə belə bölünmüşdü: hazırlıq qrupunda 21, 1-ci sinifdə 16, 2-ci sinifdə 15, 3-cü sinifdə 7 tələbə. Milliyyətinə görə bunlardan 8-i Azərbaycan türkü, 13-ü rus, 2-i gürcü, 18-i erməni, 13-ü isə digər xalqların nümayəndələri idi. Bunlardan 8-i zadəgan, 5-i din xadimi, 8-i şəhərli, 35-i kəndli, 3-ü isə aşağı təbəqəyə məxsus məmur uşağı olmuşdur. Həmin il 7 nəfər kənd ibtidai sinif müəllimi rütbəsində kursu qurtarmış, 1 nəfər isə seminariyanı tərk etmişdir), 1897-ci ildə 62 tələbə, 1898-ci ildə 67 (bunlardan etnik tərkibinə görə 18-i Azərbaycan türkü, 22-i rus, 1-i gürcü, 20-si erməni, 6-sı isə digər xalqların nümayəndələri idi), 1899-cu ildə 73 tələbə (etnik tərkibinə görə tələbələrdən 13-ü Azərbaycan türklərinə, 28-i rus, 2-i gürcü, 22 erməni və 8-i isə digər xalqların nümayəndələrinə məxsus olmuşdur. Sosial tərkibinə nəzər yetirdikdə müəllimlər seminariyasında oxuyan tələbələrin sayında kəndli uşaqları

üsünlük təşkil etmişdilər. Belə ki, burada oxuyanlardan 7-i zadəgan, 4-ü din xadiminə məxsus, 14-ü şəhərli, 37-i kəndli, 11-i isə aşağı rütbəli məmurların uşaqları idi), 1900-cü ildə 76, 1902-ci ildə 78, 1903-cü ildə 70, 1907-ci ildə 71, 1908-ci ildə 85, 1909-cu ildə 85 (onlardan 20 nəfəri Azərbaycan türk tələbələri olmuşdur), 1910-cu ildə 85 (bunlardan 4-ü irsi zadəgan, 3-ü din xadiminin, 11-i şəhərli, 54-ü kəndli, 13-ü kazak uşaqları idi) tələbə oxumuşdur[1733].

İrəvan Müəllimlər Seminariyasının direktoru B.Dobrının 1915-1918-ci illər arasında seminariyada oxuyan tələbələr və onların etnik tərkibi haqqında maraqlı məlumat vermişdir. Onun verdiyi məlumata görə, 1915-1916-cı illər tədris ilində seminariyada 20 Azərbaycan türkü, 38 rus, 3 Abxaz, 38 erməni, 3 aysor, 4 yunan, 1 kürd, 1916-1917-ci illər tədris ilində 23 Azərbaycan türkü, 23 rus, 5 aysor, 46 erməni, 3 abxaz, 2 yunan, 1 kürd, 1917-1918-ci illərdə isə 23 Azərbaycan türkü, 20 rus, 8 aysor və 55 erməni uşaqları, ümumilikdə isə 341 nəfər təhsil almışdır[1734]. Lakin "Qafqaz təqvimi"nin 1916-cı il yanvarın 1-ə olan məlumatına görə isə İrəvan Müəllimlər Seminariyasında 117 tələbə oxumuş, etnik tərkibinə görə bunlardan 22-i Azərbaycan türklərinə, 36-sı ruslara, 3-ü gürcülərə, 35-i ermənilərə, 3-ü dağlı xalqlarına, 17-i isə digər xalqların nümayəndələrinə məxsus tələbələr, sosial tərkibinə görə isə 11-i irsi zadəganların, 2-si ruhani, 10-u şəhərli, 82-si kəndli, 12-i isə kazak uşaqları olmuşdur[1735].

İrəvan Müəllimlər Seminariyasında müsəlman-Azərbaycan şöbəsi də fəaliyyət göstərmiş, burada şəriət və Azərbaycan türk

---

[1733] Отчет попечителя Кавказскаго учебного округа о состоянии учебных заведений за 1884, с.336.; Отчет попечителя Кавказскаго учебного округа о состоянии учебных заведений за 1887, с.106, с.108; Обзор Эриванской губернии за 1892-1909, с.38-39, с.31, с.31-32, с.29; Кавказский календарь на 1900 г., с.66; Кавказский календарь на 1901 г., с.86; Кавказский календарь на 1910 г., с.597.

[1734] Развитие Еревана после присоединения Восточной Армении к России, Сборник документов 1801-1917, с.419.

[1735] Кавказский календарь на 1917 г., с.290-291.

dili tədris edilmişdir. Həmin şöbəyə Azərbaycan maarifinə töhfələr verən görkəmli xadimlər başçılıq etmiş və dərs demişdilər. Seminariyanın müsəlman şöbəsinə ilk illərdə İrəvan quberniyası ruhani məclisinin rəisi axund Məmmədbağır Qazızadə başçılıq etmiş və uzun illər seminariyada dərs demişdir (1881-1917). O, ilk dövrlərdə həm müsəlman dini qanununu, həm də Azərbaycan türk dilini tədris etmişdir. O, 1917-ci ilə qədər islam dinini tədris etsə də, Azərbaycan türk dilini 1898-ci ilə qədər demişdir. Bu din xadimi İrəvan ictimai mühitində, təhsil sahəsində nüfuzlu və tanınmış şəxs olmuşdur[1736]. Lakin 1898-ci ildən Azərbaycan türk dilini digər müəllimlər tədris etmişdilər. Azərbaycan maarifçiliyində xidmətləri olmuş şəxslərdən Rəhim Xəlilovu (1900-1903), Rəşid bəy Şaxtaxtinskini (1904-1907), Həmid bəy Şaxtaxtinskini (1908-1909), Mirzə Cabbar Məmmədovu (1909-1918) qeyd etmək lazımdır[1737].

İrəvan müəllimlər seminariyasına isə müxtəlif illərdə digər xalqlara məxsus adamlar başçılıq etmişdir. Bu tədris müəssisəsinə Y.S.Suşevskiy (1881-1896), M.A.Miropniev (1899-1903), İ.A.Pasyuteviç (1904), A.M.Zazuboviç (1905-1907), S.N.Streleçkiy (1908-1911), N.V.Fedotov (1911-1913), V.V.Dobrotin (1913-1918) başçılıq etmişdilər.

Beləliklə, İrəvan müəllimlər seminariyası Azərbaycanın təhsil sistemində və milli müəllim kadrlarının yetişdirilməsində böyük rol oynamışdır. Sonralar seminariyanın yetişdirdiyi tələbələr müəllim kimi Azərbaycan türk uşaqlarının savadlanmasında və tərbiyəsində öz töhfələrini vermişdilər.

**Dini məktəblər.** İrəvan quberniyasında ənənəvi təhsil sistemi məscidlərin nəzdində fəaliyyət göstərmişdir. Belə məscidlər

---

[1736] Кавказский календарь на 1885 г., с.90; Кавказский календарь на 1889 г., с.73; Кавказский календарь на 1897 г., с.286; Кавказский календарь на 1910 г., с.255; Кавказский календарь на 1885 г., с.; Кавказский календарь на 1912 г., с.273; Кавказский календарь на 1914 г., с.305; Кавказский календарь на 1917 г., с.396.

[1737] Кавказский календарь на 1907 г., с.270; Кавказский календарь на 1917 г., с.396.

əsasən şəhər və kəndlərdə yerləşmişdi. Azərbaycan türkləri belə təhsil ocaqlarını məktəb və yaxud mədrəsə adlandırmış, burada zümrə məhdudiyyəti olmadan müxtəlif yaşlı oğlan və bəzən qız uşaqları təhsil almışdılar[1738].

Qeyd etmək lazımdır ki, Rusiya işğalından sonra din xadimlərinin özləri olduğu kimi, məscidlərin nəzdində fəaliyyət göstərən məktəb və mədrəsələr də hökumət tərəfindən ciddi nəzarətə götürülmüşdü. Onların fəaliyyəti çar hakimiyyət orqanlarını təmin edirdi. Çünki mədrəsələr yerli əhalinin təhsil tələbatını ödəməklə bərabər, dövlət xəzinəsini tədris müəssisələrinə əlavə vəsait xərcləməkdən xilas edirdi[1739]. Digər tərəfdən, verilmiş qanunlarla Azərbaycanda məktəb və mədrəsələr nəzarətə götürülür və hökumətin icazəsi ilə fəaliyyət göstərə bilərdi. Belə ki, 1872-ci il 5 aprel əsasnaməsinə əsasən, Cənubi Qafqazda məscidlərin nəzdində yeni ruhani məktəbləri Quberniya "məclisləri"nin təqdimatı ilə qubernatorun razılığı əsasında açılırdı. Məscid mollalarına yerli qazilərin yaxından nəzarəti altında müsəlman uşaqlarına savad və şəriət öyrətməyə icazə verilirdi. Lakin qazilər məscid məktəblərində və dini mədrəsələrdə hökumətə zidd olan təlimlərin yayılmamasına nəzarət etməli idilər. Onların saxlanması üçün xərclər vəqf əmlakından gələn gəlirlər və müsəlmanların könüllü ödədikləri nəzir və ianələrdən yaranan vəsait hesabına ödənilirdi. Hər bir quberniya ərazisində məscid məktəblərinə və dini mədrəsələrə ümumi nəzarət Quberniya Dini "Məclisi"nin səlahiyyətində idi. Məclis real nəzarəti onun üzvlərindən biri olan müdərris rütbəsi daşıyan ruhaniyə həvalə edirdi. Müdərris dini məktəblərdə zərərli, hökumət üçün

---

[1738] Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1890, выпуск 9, отдел II с.1; Гараев Э., Из истории культуры Эриванского региона в конце XVII-в средине XIX века (оброзование, литература, музыка, танцы), Махачкала, Пятые Всероссийские (с международным участием) историко-этнографическое чтения, посвященные памяти профессора Магомедова Расула Магомедовича. Сборник статей, 2018, ч.1, с.199.

[1739] Azərbaycan tarixi, c.IV, s.130.

arzuolunmaz təlimlərin yayılmasına nəzarət etməli idi. Bundan əlavə, Quberniya Dini "məclisi" mədrəsənin və məscid məktəblərinin vəziyyəti haqqında müəyyən olunmuş qaydada Qubernatora və baş Qafqaz Ruhani İdarəsinə təcili arayışlar təqdim etməyə borclu idi[1740]. Bu qaydalar quberniyalarda həm şiə, həm də sünni təriqətlərinə aid idi. Bu qaydaları tətbiq etməklə hökumət nəinki bütün müsəlman dini təbəqəsini, eyni zamanda dini məktəbləri də nəzarətə götürmüşdü.

İrəvan quberniyasında müsəlman məktəbləri iki - ibtidai və ali təhsil pilləsindən ibarət olmuşdur. İbtidai təhsil 7 ilə qədər davam etmiş və burada oxuyan şagirdlərin yaşı 8-dən 15 yaşına qədər olmuşdur[1741]. İrəvan Müəllimlər Seminariyasının üçüncü kurs tələbəsi Mir Haşım bəy Vəzirov ibtidai məktəblər və burada keçirilən dərslər haqqında çox əhəmiyyətli məlumat vermişdir. Məscidlərin nəzdində fəaliyyət göstərən ibtidai məktəblər uşaqların sayından asılı olmayaraq 1 və 2 otaqdan ibarət idi. Buna Azərbaycan türkləri hücrə deyirdilər. Həmin hücrələr məscidin həyətində yerləşmişdi. Bu hücrələrdə ən azı 60 şagird təhsil alırdı. Şagirdlər adətən yerdə, özlərinin gətirdiyi həsir və palaz üzərində əyləşirdilər. Qışda otaqlar gildən düzəldilmiş kasalara və yaxud tənəkə qutulara tökülmüş kömürün yandırılması ilə qızdırılırdı. Hər 3 və yaxud 4 şagirdin qarşısında belə bir qızdırıcı qoyulurdu. Məktəb pəncərəsinin böyük hissəsini lövhə tuturdu[1742].

İbtidai məktəblərdə dərslər oxumaq və yazmaqla məhdudlaşırdı. Əvvəlcə tələbələrə ərəb, fars və türk əlifbası, sonra isə Quran öyrədilirdi. Quranın öyrənməsinə üç və ya dörd il vaxt sərf olunurdu. Qurandan sonra tələbələrə fars dilində olan "Gülüstan" öyrədilir, onun hər cümləsi Azərbaycan türkcəsinə

---

[1740] Полное собрание законов Российской империи, СПб, 1872, т.47, отдел 1, с.379-397.

[1741] Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1881 г., выпуск 1, с.44.

[1742] Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1890. выпуск 9, с.1-2; Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1881 г., выпуск 1, с.44.

tərcümə edilirdi. Ondan sonra uşaqlara əxlaqi keyfiyyətlərdən bəhs edilən “Nani-halva” (“Çörək və halva”) əsəri öyrədilirdi. Şagirdlərə hətta “Leyli və Məcnun” əsəri də keçirilirdi. Bir neçə il ərzində fars dilində olan kitablar şagirdlər tərəfindən oxunub yazılırdı. Əgər şagird tez oxuya və yaza, eyni zamanda qanun və müəyyən ədəbi əsərləri əzbər bilirdisə, ən əsası isə “Quran”ı oxuyub başa çıxırdısa onun təhsili sona çatmış hesab olunurdu. İrəvanda şagird və tələbələr şeirə böyük həvəs göstərirdilər. Onların əksəriyyəti Nizamini, Firdovsini, Rudəkini, Camini, Hafizi, Sədini və Şərqin digər böyük şairlərinin şeirlərini əzbərdən bilirdilər. Hətta bəziləri şeir də yazırdı[1743].

Dərslər fasilələrlə 10-12 saat davam edirdi. Şagirdlər yalnız günorta 1 saat evə buraxılırdı. Günün birinci hissəsində müəllim hər bir şagirdin dərsi ilə ayrıca məşğul olur, günortadan sonra isə iki saat hüsnxət-yazı yazdırırdı. Qalan saatlarda yuxarı sinif şagirdləri mollanın göstərişi ilə qiraətlə məşğul olurdular. Məşq zamanı buraxılmış səhvlər ayrıca kitaba qeyd edilirdi. Nəticədə molla çox səhv edən şagirdi cəzalandırırdı[1744].

Qiraət zamanı müəllim oxuduğunu sözbəsöz tərcümə edir və hər bir şagirdi həmin sözləri təkrar etməyə məcbur edirdi. Əgər şagird onun dediyini dəqiq təkrar etmirdisə, cəzalanırdı. Hüsnxət zamanı şagirdlər arasında rəqabət güclü olurdu. Müəllim yaxşı xəttlə yazan şagirdi pis xəttlə yazanı cəzalandırmağa məcbur edirdi[1745].

Dini ibtidai məktəblərdə hər hansı mövzunu diktə etmək yox idi. Sadəcə müəllim Azərbaycan türkcəsində hər hansı bir

---

[1743] Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.903-904; Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1890. выпуск 9, с.4; Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1881 г., выпуск 1, с.44.

[1744] Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1890, выпуск 9, отдел II, с.4.

[1745] Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1890, выпуск 9, отдел II, s.5.

mövzunu danışır, şagirdlər isə bu mövzunu yadda saxlayıb fars dilində yazmalı idi[1746].

Şagirdlərin və məllimlərin sayı adətən məscidlərin maliyyə vəziyyətindən asılı idi. Gəlirli vəqf mülkiyyəti olan məscidlər mədrəsələrə daha çox müdərris və vaiz cəlb edə bilirdi. Belə məscidlər hətta tanınmış hər hansı mücdəhidi dərs deməyə dəvət edirdi. Adlı-sanlı mücdəhidi dinləmək üçün diyarın hər yerindən adamlar gələrdi. Bu, mədrəsənin nüfuzunu daha da artırmaqla bərabər, tələbələrin sayına da böyük təsir göstərirdi[1747]. İrəvan bölgəsində baş verən hərbi-siyasi proseslər təhsilə də böyük təsir göstərmişdi. Belə ki, müstəqil xanlıq dövründə İrəvan şəhərinin baş məscidinin nəzdindəki mədrəsədə 200, 1836-cı il məlumatına görə, 100-ə qədər, 1850-ci il məlumatında isə 50 tələbə təhsil almışdı[1748].

Lakin sonrakı illərdə mədrəsələrin və şagirdlərin sayının artdığının şahidi oluruq. Məsələn, 1865-ci ildə yalnız İrəvan şəhərində məscidlərin nəzdində 9 mədrəsə fəaliyyət göstərmiş və bu mədrəsələrdə 223 şagird oxumuşdur[1749]. XIX yüzilliyin 80-ci illərində İrəvan quberniyasında məscidlərin tərkibində 35 məktəb fəaliyyət göstərmişdir. İrəvan şəhərində məscidin tərkibində 8 məktəb fəaliyyət göstərmiş, bu məktəblərdə 8 müəllim çalışmış və 153 tələbə oxumuş, Naxçıvan şəhərində 6 məktəb olmuş, bu məktəblərdə 7 müəllim fəaliyyət göstərmiş, 163 tələbə oxumuş, Ordubad şəhərində 10 məktəb olmuş, 11 müəllim fəaliyyət göstərmiş və 226 tələbə oxumuşdur. Bəzi kəndlərdə də mədrəsələr qeydə alınmışdır. Məsələn, Vənənd kəndində 1 mədrəsə, 1

---

1746 Yenə orada, s.6.

1747 Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.902.

1748 Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.902-903; Обозрение российских владений за Кавказом в статическом, этнографическом, топографическом, финансовом отношениях, СПб, 1836, ч.4, с. 275; Кавказский календарь на 1852 г., с.445.

1749 Развитие Еревана после присоединения Восточной Армении к России, Сборник документов 1801-1917, с.431.

müəllim fəaliyyət göstərmiş, 25 şagird oxumuş, Cağrı kəndində 2 mədrəsə, 2 müəllim fəaliyyət göstərmiş, 30 şagird oxumuş, Dostu kəndində 1 mədrəsə, 1 müəllim fəaliyyət göstərmiş, 6 şagird oxumuş, Dryas kəndində 1 mədrəsə, 1 müəllim fəaliyyət göstərmiş, 12 şagird oxumuş, Dyuqlun kəndində 1 mədrəsə, 1 müəllim fəaliyyət göstərmiş, 6 şagird oxumuş, Zeynəddin kəndində 1 mədrəsə və 1 müəllim fəaliyyət göstərmiş, 9 şagird oxumuş, Qoşadiza kəndində 1 mədrəsə, 1müəllim, 8 şagird oxumuş, Qrma kəndində 1 mədrəsə, 1 müəllim fəaliyyət göstərmiş, 4 şagird oxumuş, Nehrəm kəndində 2 mədrəsə, 2 müəllim fəaliyyət göstərmiş, 48 şagird oxumuş, Aşağı Uzunoba kəndində 2 mədrəsə, 3 müəllim fəaliyyət göstərmiş, 14 şagird oxumuş, Ustupi kəndində 1 mədrəsə, 1 müəllim fəaliyət göstərmiş, 15 şagird oxumuş, Xanağa kəndində 1 mədrəsə, 1 müəllim fəaliyyət göstərmiş, 2 şagird oxumuş, Çiva kəndində 1 mədrəsə, 2 müəllim, 9 şagird oxumuş, Ordubada məxsus Yaycı kəndində 2 mədrəsə, 2 müəllim fəaliyyət göstərmiş, 29 şagird oxumuş, Dərələyəzə məxsus Yaycıda isə 1 mədrəsə, 1 müəllim və 16 şagird oxumuşdur. Beləliklə, Naxçıvan qəzasının şəhər və kəndlərində məscidlərin nəzdində 35 mədrəsə olmuş, bu mədrəsələrdə 39 müəllim fəaliyyət göstərmiş, 698 şagird oxumuşdur[1750].

İrəvan quberniyasına aid olan "İcmal"larda XIX yüzilliyin 90-cı illəri-XX yüzilliyin əvvəllərində fəaliyyət göstərmiş məscidlərin nəzdində olan mədrəsələr haqqında statistik məlumatlar öz əksini tapmışdır. İrəvan quberniyasında illər üzrə mədrəsələrin və oxuyan tələbələrin sayı belə idi: 1891-ci ildə 28 mədrəsə, 637 şagird; 1892-ci ildə 27 mədrəsə, 683 şagird; 1893-cü ildə 26 mədrəsə, 676 şagird; 1894-cü ildə 28 mədrəsə, 474 şagird; 1895-ci ildə 27 mədrsə, 588 şagird; 1896-cı ildə 20 mədrəsə, 438 şagird (10-u İrəvan, 4-ü Naxçıvan, 4-ü Ordubad şəhərlərində, 1-i İrəvan qəzasının Hacı İlyas və 1-i isə Uluxanlı kəndlərində

---

[1750] Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1881 г., выпуск 1, с.44; Сборник сведений о Кавказе, т.VII, с.252.

fəaliyyət göstərmişdir); 1897-ci ildə 21 mədrəsə, 339 şagird, 336 oğlan, 3 qız; 1898-ci ildə 30 mədrəsə, 385 oğlan, 2 qız; 1899-cu ildə 21 mədrəsə, 261 şagird; 1900-cü ildə 32 mədrəsə, 437 şagird (yalnız oğlan); 1901-ci ildə 44 mədrəsə; 1902-ci ildə 34 mədrəsə, 416 şagird; 1903-cü ildə 18 mədrəsə, 304 şagird; 1907-ci ildə şiə mədrəsəsi 19, şagird 350, sünni mədrəsəsi 9, şagird 138; 1908-ci ildə şiə mədrəsəsi 36, şagird 624, sünni mədrəsəsi 9, şagird 137 (bunlardan İrəvan şəhərində şiə məscidlərinin tərkibində 4 mədrəsə (135 şagird oxumuş), qəza mərkəzi olan şəhərlərdə 5 mədrəsə (135 şagird), qəzalarda 27 mədrəsə (354 şagird), ümumilikdə 36 mədrəsə 624 şagird, sünni məscidlərində qəzalarda 9 mədrəsə 137 şagird olmuşdur); 1909-cu ildə şiə mədrəsəsi 33, şagird 503, sünni mədrəsəsi 9, şagird 160[1751]. Sonrakı illərdə İrəvan quberniyasında həm mədrəsələrin, həm də şagirdlərin sayında azalmanı görmək olar. 1913-cü il məlumatına görə İrəvan şəhərində 5 mədrəsə (195 şagird), digər şəhərlərdə 4 mədrəsə (149 şagird), qəzalarda 8 mədrəsə (112 şagird), ümumilikdə 17 mədrəsə (456 şagird), 1914-cü il məlumatında isə İrəvan şəhərində məscidlərin nəzdində 5 mədrəsə (173 şagird), quberniyanın digər şəhərlərində 3 mədrəsə (124 şagird), qəzalarda 6 mədrəsə (78 şagird), ümumilikdə 14 mədrəsə, 375 şagird olmuş, mədrəsələrdə yalnız oğlanlar oxumuşdur[1752].

---

[1751] Обзор Эриванской губернии за 1891 г., с.132-133; Обзор Эриванской губернии за 1892 г., с.75-76; Обзор Эриванской губернии за 1893 г., с.70-71; Обзор Эриванской губернии за 1894 г., с.70-71; Обзор Эриванской губернии за 1895 г., с.76-77; Обзор Эриванской губернии за 1896 г., с.70-71; Обзор Эриванской губернии за 1897 г., с.67-68; Обзор Эриванской губернии за 1898 г., с.62-63; Обзор Эриванской губернии за 1899 г., с.62-63; Обзор Эриванской губернии за 1900 г., с. 62-63 ; Обзор Эриванской губернии за 1901 г., с.32; Обзор Эриванской губернии за 1902 г., с.44-45; Обзор Эриванской губернии за 1903 г., с.49-50; Обзор Эриванской губернии за 1907 г., с.59; Обзор Эриванской губернии за 1908 г., с.59-60; Обзор Эриванской губернии за 1909 г., с.59-60; Развитие Еревана после присоединения Восточной Армении к России, Сборник документов 1801-1917, с.451.

[1752] Обзор Эриванской губернии за 1913 г., с.76-78; Обзор Эриванской

Müəllimlik fəaliyyəti ilə din xadimləri-molla, mirzə və axundlar məşğul olurdular. Dərs deyən mollaların cəmiyyətdə böyük hörməti var idi. Azərbaycanlı türkləri təhsilə ciddi fikir verirdilər. Bunun üçün valideynlər yaxşı təhsil alması üçün uşaqlarının müəllim tərəfindən cəzalandırılmasına təmkinlə yanaşırdılar. Hətta onlara o qədər inam var idi ki, valideyin uşaqlarını müəllimə tapşıranda "əti sənin, sümüyü mənim" atalar sözünü işlədirdilər. Bundan əlavə, yerli əhali hər hansı çətinliklə üzləşdikdə polisdən əvvəl müəllimlərə müraciət edirdilər[1753]. İrəvan müəllimlər seminariyasının üçüncü kurs tələbəsi Mir Haşım bəy Vəzirovun yazdığına görə, məktəblərdə müəllim üçün konkret təyin olunmuş məvacib yox idi. Onlar hər bir uşaqdan hədiyyələr qəbul edirdilər. Bu hədiyyələrin böyük hissəsi Quran oxunub başa çatdırıldıqda-yəni uşaq məktəbi bitirdikdə verilirdi. Müəllim dini bayramlarda, əsasən də Qurban bayramında müəyyən-hədiyyə mükafat alırdı[1754]. Lakin məvacib haqqında onun verdiyi bu məlumat digər mənbələrin verdiyi məlumatla üst-üstə düşmürdü. XIX yüzilliyin 70-80-ci illərinin əvvəllərində verilən məlumata görə, İrəvan şəhərində məscidlərin nəzdində olan ibtidai məktəblərdə dərs deyən müəllimlər hər bir uşaqdan hədiyyələr qəbul etməklə bərabər, hər ay 50 qəpikdən 60 qəpiyə qədər, İrəvan quberniyasının qəzalarında isə 15 qəpikdən 30 qəpiyə, digər məlumata görə isə 15 qəpikdən 20 qəpiyə qədər qədər təhsil haqqı alırdılar[1755].

İrəvan bölgəsində məktəb və mədrəsələrdən kənarda fərdi dərs deyən müəllimlər də olmuşdu. Onların, adətən, bir neçə

---

губернии за 1914 г., с.78-79.

[1753] Обзор Эриванской губернии за 1914 г., с.2-3; Сборник сведений о Кавказе, т.VII, с.252.

[1754] Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1890, выпуск 9, с.3.

[1755] Сборник материалов для описания местностей и племен Кавказа, т.1, с.44; Сборник сведений о Кавказе, т.7, с.3; Эриванского военного губернатора за 1872 год. Обзор губернии за отчетный год, ГИА, ф.5, оп.1, д.3077, лл. 38$^{об}$.

tələbəsi olurdu. İ.Şopenin yazdığına görə, belə müəllimlər hər ay 20 gümüş qəpik məvacib alırdılar[1756].

İrəvan quberniyasında ibtidai məktəblərdən əlavə, ali dini məktəblər də fəaliyyət göstərmişdi. Bu məktəblərə daxil olan uşaqlar tələbə adını daşımışdı. Ali dini məktəbdə oxumağa görə tələbə heç bir haqq vermirdi, əksinə yaxşı oxuyan tələbələrə məscid tərəfindən mükafat olaraq 3 rubldan 10 rubla qədər təqaüd verilirdi. İrəvanda tələbələrin sayı hər il 60-a çatırdı və bu tələbələr əsasən kəndlərdən toplanılırdı. Ali dini məktəbi oxuyub qurtaran tələbə axund adını daşıyırdı[1757].

Ali dini məktəbin özlərinin ənənəvi dərs proqramları vardı. Bu məktəblərdə də təhsil ərəb və fars dilində keçirilirdi. Lakin burada həm dini, həm də dünyəvi elmlər tədris edilirdi. İ.Şopen ali mədrəsələrdə keçirilən dərs proqramları haqqında ətraflı məlumat vermişdir. Onun yazdığına görə, keçirilən bütün elmlər üç əsas sahəyə bölünürdü. Hər bir sahə, tədris qaydasına görə özlüyündə müxtəlif qollara ayrılırdı. Birinci sahə "Əl-ərəbiət" adlanırdı. Bu sahə 12 bölmədən ibarət idi ki, 10 bölməyə ərəb dili qaydalarının, 1 bölməyə tarixin öyrənilməsi, 1 bölməyə isə Quranın oxunması daxil idi; ikinci sahə "Əl-şəriə" adlanırdı. Bu sahə 6 bölmədən ibarət olmuşdu. Bütün bu bölmələrdə Quranın təfsiri, hədislər, dini hüquqların və müxtəlif təriqətlərin əsasları öyrənilirdi. Üçüncü sahə "Əl-həkimə" hesab edilirdi. Bu sahə özlüyündə 5 hissəyə ayrılırdı. Burada məntiq, riyaziyyat, coğrafiya, münəccimlik, tibb və nəzəri fəlsəfə öyrənilirdi[1758].

İrəvanlıların dərs vəsaiti əsasən Quran, hədis və tarixi kitablardan ibarət idi. İ.Şopenin yazdığına görə, hər bir irəvanlının evində Quran və hədislərə aid kitablara rast gəlmək

[1756] Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.903.
[1757] Сборник материалов для описания местностей и племен Кавказа, Тифлис, 1881 г., выпуск 1, с.44-45.
[1758] Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.903-904.

olurdu[1759].

Beləliklə, İrəvan quberniyasında təhsil sistemində müxtəlif tipli məktəblər-dini, ibtidai, qəza məktəbləri, progimnaziya, gimnaziya (həm kişi, həm qadın), müəllimlər seminariyası fəaliyyət göstərmişdir. Bu məktəblərdə əsasən oğlan, bəzən də qız uşaqları təhsil alırdı. Təhsil alanlar bütün sosial təbəqələri əhatə edirdi. İrəvan quberniyasında fəaliyyət göstərən ali təhsil ocaqlarından tutmuş ibtidai sinifə qədər bütün məktəblər xəzinə, zemstvo vergisi tərəfindən və imtiyazlı şəxslər tərəfindən maliyyələşdirilmiş, hətta dini və özəl məktəblər də olmuşdur. Hökumət tərəfindən maliyyələşdirilən məktəblər Xalq Təhsil Nazirliyinə tabe idi və onun verdiyi qanun-qərarlar bütün təhsil sisteminə şamil edilmişdi.

**Özəl məktəblər.** Dövlət məktəblərindən əlavə, yerli Azərbaycan türklərinin imtiyazlı və ziyalı nümayəndələri də öz vəsaitləri hesabına məktəb açır, oğlan və qızların savadlanmasının qayğısına qalırdılar. XIX yüzilliyin 50-ci illərindən başlayaraq, müəllim heyəti qəza məktəblərinin ilk məzunları olan Azərbaycan türklərinin hesabına artmağa başladı. Məsələn, 1836-1856-cı illərdə Molla Tağı Mahmud oğlu, 1856-1885-ci illərdə Mirzə Ələkbər Elxanov qapı-qapı gəzərək uşaqları məktəblərə cəlb edir, dərs vəsaitinin olmamasına baxmayaraq onlara bilik verirdilər[1760]. Bundan başqa, məşhur yazıçı Cəlil Məmmədquluzadənin qaynı, keçmiş topçu zabiti Məhəmmədqulu bəy Kəngərli İrəvanda oğlan və qız internat məktəbləri açmış, qızlara dərs vermək üçün Peterburqdan institut bitirmiş, xüsusi müəllimə dəvət etmişdir[1761]. Məhəmmədquli Kəngərli öz vəsaiti hesabına 1901-ci il sentyabrın 15-də Qafqazda ilk dəfə gimnaziya statusunda olan "Leyli" adlı qız məktəbi açmış, sonralar həmin məktəb İrəvan şəhərinə köçürülmüşdü. Həmin

---

[1759] Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.917.

[1760] Məmmədov İ., Tariximiz, torpağımız, taleyimiz, s.540.

[1761] Məmmədquluzadə H., Mirzə Cəlil haqqında xatirələrim, Bakı, Gənclik, 1981, s.12; Məmmədov İ., Tariximiz, torpağımız, taleyimiz, s.540.

məktəb 1905-ci ilin ortalarına qədər fəaliyyət göstərmişdir[1762]. M.Ordubadi yazırdı ki, "... vəkillik işinin ağırlığına baxmayaraq Qafqazda birinci dəfə müsəlman leyli məktəbi-pansion açdı. Zabitliyi, vəkilliyi ilə bərabər pedaqoq silkinə də girdi. Ömürlərini müəllimlikdə çürüdüb Qafqazın bu qədər böyük şəhərlərində bir müsəlman pansionu aça bilməyən müəllimlərə ən ibrətbəxş bir nümunə, bir müəllim oldu"[1763]. Məhəmmədquli bəyin bu xeyriyyəçilik fəaliyyəti erməniləri qıcıqlandırmış və 1905-ci ildə Fransaya gedərkən Batumda erməni gizli təşkilatı tərəfindən qətlə yetirilmişdir [1764].

Naxçıvanda yeni üsulla fəaliyyət göstərən anadilli məktəbin açılmasında Məhəmməd Tağı Səfərovun (Sidqinin) böyük xidmətləri olmuşdur. Görkəmli pedaqoq və şair olan M.T.Sidqi 1854-cü ildə Ordubad şəhərində anadan olmuş, 1903-cü ildə Naxçıvan şəhərində vəfat etmişdir[1765]. O, bütün həyatını əsasən pedaqoji fəaliyyətə sərf etmiş və Azərbaycan türk uşaqlarının savadlanması üçün böyük işlər görmüşdür. M.T.Sidqi 1892-ci ildə Ordubad şəhərində "Əxtər" (Ulduz) adlı məktəb açmış, tezliklə bu məktəb şöhrət qazanmışdı. 1892-ci il İrəvan quberniyasının icmalında məktəb və onun təsisçisi M.T.Sidqi haqqında bəhs edilmiş və göstərilmişdir ki, yerli əhali öz uşaqlarını dini məktəblərdən çəkindirib "Əxtər"ə qoyurdular. "Əxtər" 1896-cı ilə qədər fəaliyyət göstərmiş və həmin ildə rus-Azərbaycan məktəbinə çevrilmidi[1766].

M.T.Sidqinin bu pedaqoji fəaliyyəti diqqətdən kənarda qalmamış və o, 1894-cü ildə Naxçıvan şəhərinə dəvət olunmuşdur. Naxçıvana gələn M.T.Sidqi "Əxtər" tipli "Məktəbi tərbiyyə" ad-

---

1762 Naxçıvan tarixi, c.II, s.315.
1763 Ordubadi M.S., Qanlı illər, s.73.
1764 Hakim Qəmbərli, Yaddaşlarda yaşayan ömür, Bakı, Elm və Təhsil, 2020, s.156-157; Ordubadi M.S., Qanlı illər, s.75-76.
1765 Şahverdiyev Z., Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində, s.170.
1766 Əhmədov H., XIX əsr Azərbaycan məktəbi, H.Əhmədov, Bakı, Maarif, 1885, s.286; Şahverdiyev Z., Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində, s.165-166.

landırılan yeni məktəb açmışdır[1767]. Bu məktəb yerli tanınmış ziyalıların və nüfuzlu adamların vəsaiti əsasında açılmışdı. Yeni açılan “Məktəbi tərbiyə” bütün Cənubi Qafqazda, eyni zamanda Azərbaycan ziyalıları arasında şöhrət qazanmışdı. “Məktəbi tərbiyə”nin təşkili və fəaliyyəti o dövr mətbuatında təsvir olunmuşdu. “Qafqaz qəzetində bu haqda “Qafqaz xəbərləri” başlıqlı məqalədə maraqlı məlumat verilmişdi: “Bu yeni tipli məktəbdir. Burada mədəni xalqların ibtidai məktəblərinə xas olan bütün adi fənlər keçirilir və bu məktəbin köhnə müsəlman məktəbləri ilə heç bir ümumi oxşarlığı yoxdur. Müsəlman pedaqoqu Məşədi Tağı Ordubadlı tərəfindən əsası qoyulmuş bu məktəb, onun rəhbərliyi altında olub, yerli müsəlman ictimaiyyətinin xərci ilə idarə olunur”[1768]. Cəlil Məmmədquluzadə də bu yeni açılmış məktəbə yüksək qiymət vermişdir. O, yazırdı: Həmin təzə türk məktəbin savabı onda idi ki, nə qədər türk balalarının təzə üsulla savad və bilik əxz etmələrinə səbəb olur, həmin məktəb biz yeniyetmə müəllim və ədiblər üçün də bir darülfünün hesab olunur”[1769].

M.T.Sidqi Naxçıvanda qız məktəbi də açmışdı. Bu qız məktəbi 1902-ci ilə qədər fəaliyyət göstərmişdi. 1912-ci ildə Nazlı xanım Tahirova Naxçıvan şəhərində qız məktəbinin açılmasına nail olmuş və həmin məktəbdə xeyli sayda qızlar oxumuşdur[1770].

Tanınmış pedaqoq və yazıçı Rəşid bəy Əfəndiyev XX yüzilliyin əvvəllərində Naxçıvan şəhərində uşaqların savadlanması üçün xüsusi kurslar açaraq orada dərs demiş, sonralar N.Nəcəfova həmin məktəbə müdir təyin edilmiş və 1920-ci ilə qədər orada işləmişdir[1771].

Keçmiş Naxçıvan xanı Kəlbəli xan da Azərbaycan türk uşaqlarının savandlanması üçün fəaliyyətini əsirgəməmişdir. Belə ki, Rusiyadan gəlmiş Sofiya Stasyuleviç 1877-ci ildə Azər-

---

[1767] Əhmədov H., XIX əsr Azərbaycan məktəbi, s.287.
[1768] Naxçıvan tarixi, II cild, s.179-180.
[1769] Yenə orada, s.179.
[1770] Yenə orada, s.315-316.
[1771] Naxçıvan tarixi, II cild, s.316.

baycan uşaqları üçün pansion açmış, uşaqların təhsili ilə məşğul olmuşdur. O, Naxçıvanlı Kəlbəli xanla Sank-Peterburqda tanış olmuş, onun uşaqlarına dərs demişdir. Uşaqların təhsilindən razı qalan Kəlbəli xan müəlliməni Azərbaycan türklərinə dərs demək üçün İrəvana və yaxud Naxçıvana dəvət etmişdi. Bu təklifə razılıq verən müəllimə İrəvana gəlir və pansion açmağa kömək etmək üçün yerli xan və bəylərə müraciət edir. İrəvan sakini Şəfi bəy müəlliməyə iki uşağına pulsuz dərs demək müqabilində ona uşaq tapacağına söz verir. Şəfi bəyin köməyi ilə tezliklə şagirdlərin sayı artır və ikinci ili 15-ə çatmışdı. Əvvəllər müəllimənin şagirdləri milli tərkibinə görə Azərbaycan türkləri olmuşdu. Lakin sonralar müəlliməyə erməni və ruslar da müraciət etmişdilər. 1877-ci ildə  S.Stasyuleviçin şagirdlərin sayı 107-ə çatmışdı. Milli tərkibinə görə, bunlardan 58-i Azərbaycan türkü, 4-ü rus, 43-ü erməni uşaqları idi. 1881-ci ildə isə onun pansionunda 43 oğlan uşağı təhsil almışdı[1772].

Məşhur yazıçı C.Məmmədquluzadənin də qızların təhsil almasında xüsusi xidməti olmuşdur. O, 1890-1897-ci illərdə Nehrəm kəndindəki iki sinifli məktəbin müdiri vəzifəsində işləyərkən, 1893-cü il yanvarın 15-ə qədər məktəbə 8 Azərbaycan türk qızını cəlb etmiş və onlara şəxsən özü dərs demişdir. C.Məmmədquluzadə bu haqda Xalq Məktəbləri Direktoruna yazmış və əvəzində qızların arasında savadı yaydığına görə təşəkkür almışdır[1773].

Xalqın savadlanması üçün İrəvanda tanınmış görkəmli ziyalılar öz vəsaitləri hesabına özəl məktəblərin açılması üçün dövlət orqanlarına tez-tez məktublar ünvanlayır, lakin hökumət Azərbaycan türklərinin savadlanmasından qorxaraq, buna icazə vermirdilər. İ.Məmmədov əsərində qeyd edir ki, buna baxmayaraq, 104 nəfərin tələbi, təklifi və vasaiti hesabına 1898-ci ildə

---

[1772] Сборник материалов для описания местностей и племен Кавказа, 1881, выпуск 1, с.53.

[1773] Məmmədli Qulam, Molla Nəsrəddin (Cəlil Məmmədquluzadənin həyat və fəaliyyətinin salnaməsi), Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1966, s.25-26; Şahverdiyev Z., Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində, s.166-167.

İrəvanda yeni özəl məktəb açılmışdı. Bunun üçün Əliqulu xan İrəvanlının başçılığı ilə 1898-ci ilin martın 29-da Göy məsciddə 24 nəfərdən ibarət xüsusi komissiya yaradılmış, onun qərarına əsasən komissiyanın hər bir üzvü həftədə azı üç saat şagirdlər arasında olmalı, gündəlik tutmalı, hökmən dərslərdə oturmalı, həmin gün və həmin saatlar haqqında qeydlər aparıb, həmin qeydləri Əliqulu xan İrəvanlıya çatdırmalı idilər. Hətta məktəbin maliyyə fondu yaratmaq üçün Eynəlibəy Sultanovun əli ilə smeta cədvəli də tərtib edilmişdi. Həmin cədvələ görə, İrəvanın tanınmış və görkəmli ziyalılarından Abbasqulu xan İrəvanlı 50 rubl, Pənah xan Makulu 50 rubl, 17 nəfərin hərəsi 25 rubl, 31 nəfərin hərəsi 15 rubl, sonra 51 nəfərin hər birisi 10 rubl verərək ayrıca məktəb fondu yaratmışdılar. Yeni açılmış məktəbin nəzarətçisi İrəvanın görkəmli ziyalısı Haşım bəy Nərimanbəyov təyin edilmişdi. O, 1917-ci ilə qədər bu məktəbin müdiri olmuş, irəvanlılar 1988-ci ilə qədər bu məktəbi "Haşım bəy məktəbi" adlandırmışdılar[1774].

İrəvan şəhərində Cənubi Azərbaycandan gəlmiş ziyalılar da mədəniyyətin inkişafı üçün öz töhfələrini vermişdilər. Onların bəzisi istər dini, istərsə də yeni üsullu özəl məktəblər açmışdılar. Belə ziyalılardan biri əslən Təbrizdən olan Mirzə Kazım Qazi Əsgərzadə idi. O, 1823-cü ildə Təbrizin "Alan Bərağüş" məhəlləsində dünyaya göz açmış, burada dini təhsil aldıqdan sonra İrəvan konsulluğunda katib işləmişdir. Onun sonrakı həyatı İrəvanla bağlı olmuş, 1892-ci ildə burada rəhmətə getmişdir. Mirzə Kazım uşaqlıqdan mədəniyyətə, elmə meyl etdiyindən tezliklə öz işindən uzaqlaşmış, İrəvan şəhərində bir mədrəsənin bünövrəsini qoymuşdur. Əsasını qoyduğu mədrəsədə tədrisə başlayan Mirzə Kazım Qazi Əsgərzadə bir neçə dərsliyin müəllifi olmuşdur. Bu dərslikdən "Hesab elmi", "Sərf və Nəhv", "Bəlağət elmi"ni göstərmək olar. Mirzə Kazım eyni zamanda şeirlər də yazmışdır[1775].

İrəvan şəhərində yeni üsullu mədrəsə, ibtidai məktəb açan

---

[1774] Məmmədov İ., Tariximiz, torpağımız, taleyimiz, s.540-541.
[1775] Sərdariniya Səməd, İrəvan müsəlman sakinli vilayət olmuşdur, s.110-111.

digər müəllim Təbrizli Mirzə Həsən Rüşdiyyə idi. O, İrəvan şəhərinə gələrək 1884-cü ildə ögey qardaşı Hacı Axundun köməyi ilə Qafqazın zadəgan müsəlmanları üçün yeni üsullu mədrədəni, ibtidai məktəbi təsis etdi. O, öz kəşfi olan yeni üsulla (fonetik əlifba) tədrisə başladı. "Vətən dili" kitabını türkcə öz üsulu ilə tədris edərək, 60 saat ərzində ibtidai sinif şagirdlərinə oxumağı və yazmağı öyrətməyə nail oldu. S.Sərdarinya yazır ki, "İrəvan müsəlmanları onu ləyaqətlə qəbul etdilər və mədrəsənin sagirdləri günbəgün artdı. Bu mədrəsə dörd il müddətində onun nəzarət və rəhbərliyi altında fəaliyyət göstərdi"[1776]. Nəsrəddin şah Qacar Avropadan qayıdarkən İrəvandakı bu mədrəsəyə baş çəkmiş və onu bəyənmişdi. Onun özünə məxsus olan "Vətən dili" kitabı 1917-1918-ci ilə qədər Qafqaz və Türküstanın məktəblərində ibtidai sinif vəsaiti kimi tədris olundu[1777].

Qeyd etmək lazımdır ki, Azərbaycan türk ziyalılarının öz vəsaitləri hesabına çox çətinliklə açdıqları özəl məktəblərdən əlavə, mənbələrdə İrəvan quberniyasının ayrı-ayrı şəhər və kəndlərində müxtəlif xalqların nümayəndələrinin açdıqları özəl məktəblər də fəaliyyət göstərmişdir. Bu məktəblər quberniya üzrə xalq təhsili müdiriyyətinin (direksiyasının) hesabatlarına daxil edilmişdi. Mənbənin verdiyi məlumata görə, 1888-1892-ci illərdə İrəvan quberniyasında 3-ü İrəvan şəhərində, 1-i Aleksandropol şəhərində olmaqla 4 özəl məktəb qeydə alınmışdı. 1888-ci ildə özəl məktəblərdə 179, 1891-ci ildə 152, 1892-ci ildə isə 153 oğlan şagird oxumuşdur[1778].

İlk dövrlərdə özəl məktəblərdə yalnız oğlanlar təhsil alsalar da, 1893-cü ildə qızlar da özəl məktəblərə daxil olmağa başladılar. Həmin il III dərəcəli 5 özəl məktəb fəaliyyət göstərmiş, bu məktəblərdə 148 oğlan, 2-si qız olmaqla, ümumilikdə 150 şagird oxumuşdur[1779].

---

[1776] Yenə orada, s.109.
[1777] Yenə orada, s.109-110.
[1778] Обзор Эриванской губернии за 1888 г., с.132; Обзор Эриванской губернии за 1891 г., с.87; Обзор Эриванской губернии за 1892 г., с.37, с.79.
[1779] Обзор Эриванской губернии за 1893 г., с.73.

1894-cü illərdə İrəvan quberniyasında 6 III dərəcəli özəl məktəb (5-i İrəvan şəhərində, 1-i Aleksandropol şəhərində) olmuş, bu məktəblərdə həmin il 209 oğlan 11 qız olmaqla, ümumilikdə 220 şagird, 1895-ci ildə isə 5 III dərəcəli özəl məktəb (4-ü İrəvan şəhərində, 1-i Aleksandropol şəhərində) qeydə alınmış, bu özəl məktəblərdə yalnız 184 oğlan oxumuşdur[1780].

1896-cı il məlumatında özəl məktəblərin sayında xeyli çoxalma olmuş, hətta onların yaradıcıları və hansı şəhər və kənddə fəaliyyət göstərməsi haqqında daha ətraflı məlumat verilmişdir. Hesabat ilində İrəvan quberniyasında 13 özəl məktəb qeydə alınmış, onlardan 6-ı İrəvan şəhərində (Bablyansın, Papovun, Səfərovanınn, Stasyuleviçin, Ter-Zaxarovun və Ter-İsakyansın məktəbləri), 4-ü Aleksandropol şəhərində (Arabacevin, İsakovun, Ovanesovun, xanım Babayansın məktəbləri), 1-i Yenibəyazid şəhərində (Xaçaturovun məktəbi), 1-i Naxçıvan şəhərində (Bıstrovanın məktəbi) və 1-i isə Naxçıvan qəzasının Yuxarı Əylis kəndində (Məlik Adamovun məktəbi) yerləşmiş, həmin özəl məktəblərdə 402 oğlan, 111 qız olmaqla, ümumilikdə 513 şagird oxumuşdur[1781].

1897-ci il hesabatında Naxçıvan qəzasının Yuxarı Əylis kəndində fəaliyyət göstərən özəl məktəb göstərilməmiş, bu özəl məktəb özünü doğrultmadığı üçün bağlanmışdır. Həmin il İrəvan quberniyasında 12 özəl məktəb (6-ı İrəvan şəhərində, 4-ü Aleksandropol şəhərində, 1-i Yenibəyazid şəhərində, 1-i isə Naxçıvan şəhərində) qeydə alınmış, həmin məktəblərdə 371-i oğlan, 124-ü qız olmaqla, ümumilikdə 494 şagird oxumuşdur. Əgər keçən ilki statistik rəqəmlə müqayisə etsək görmək olar ki, oğlanların sayında xeyli azalma, qızların sayında isə artım baş vermişdir[1782].

1898-ci il hesabatında İrəvan quberniyasında III dərəcəli 9 (keçən ilkinə nisbətən 3 məktəb az, bu məktəblərin 5-i İrəvan şəhərində, 4-ü isə Aleksandropol şəhərində idi), 1899-cu ildə 1-i II

---

[1780] Обзор Эриванской губернии за 1894 г., с.30, с.73; Обзор Эриванской губернии за 1895 г., с.27, с.73.

[1781] Обзор Эриванской губернии за 1896 г., с.29, с.73.

[1782] Обзор Эриванской губернии за 1897 г., с.31-32, с.70.

dərəcəli, 7-si isə III dərəcəli olmaqla 8 özəl məktəb (keçən ilkinə nisbətən 1 məktəb az, 6-ı İrəvan şəhərində, 2-si Aleksandropol şəhərində), 1900-cü ildə 9 özəl məktəb (1-i II dərəcəli, 8-i III dərəcəli, 8-i İrəvan şəhərində, 1-i Aleksandropol şəhərində) göstərilmişdir. Birinci ili özəl məktəblərdə 264 oğlan, 38 qız olmaqla 302 şagird, ikinci ili 238 oğlan, 22 qız olmaqla 260 şagird, üçüncü ili isə 220 oğlan, 42 qız olmaqla, 262 şagird oxumuşdur[1783].

1901-ci il hesabatında özəl məktəblərin sayında çoxalma baş vermiş, həmin il III dərəcəli 11 özəl məktəb (keçən ilə nisbətən 3 məktəb çox, 10-u İrəvan şəhərində, 1-i Aleksandropol şəhərində), 1902-1903-cü illərdə 12 özəl məktəb (əvvəlki ilə nisbətən 1 məktəb çox, 11-i İrəvan şəhərində, 1-i Aleksandropol şəhərində) qeydə alınmışdı. 1902-ci ildə həmin özəl məktəblərdə 259 oğlan, 76 qız olmaqla 335 şagird, 1903-cü ildə isə 224 oğlan, 71 qız olmaqla 295 şagird oxumuşdur[1784].

1907-ci ildə özəl məktəblərin sayında heç bir dəyişiklik baş verməmiş, həmin illər 1-i II dərəcəli, 11-i isə III dərəcəli olmaqla 12 özəl məktəb (bunlardan 10-u İrəvan şəhərində, 2-i isə Aleksandropol şəhərində), 1908-ci ildə isə 14 özəl məktəb qeydə alınmışdı. Həmin məktəblərdə 1907-ci ildə 497 oğlan, 9 qız olmaqla 506 şagird, 1908-ci ildə isə 578 oğlan, 38 qız olmaqla 616 şagird təhsil almışdır[1785]. Əvvəlki illərlə müqayisədə özəl məktəblərdə qız şagirdlərinin sayında kəskin azalma baş vermişdir. Bu, çox güman ki, bölgədə baş vermiş siyasi hadisələrlə əlaqədar olmuşdur.

1909-cu il hesabatında quberniyada 10 özəl məktəb (bunlardan 2-si II dərəcəli, 8-i III dərəcəli məktəb, bunlardan 8-i İrəvan

[1783] Обзор Эриванской губернии за 1898 г., с.26, с.60; Обзор Эриванской губернии за 1899 г., с.25, с.60; Обзор Эриванской губернии за 1900 г., с.25, с.62.

[1784] Обзор Эриванской губернии за 1901 г., с.31; Обзор Эриванской губернии за 1902 г., с.25, с.40; Обзор Эриванской губернии за 1903 г., с.45.

[1785] Обзор Эриванской губернии за 1907 г., с.60; Обзор Эриванской губернии за 1908 г., с.60.

şəhərində, 2-si isə Aleksandropol şəhərində idi) qeydiyyata alınmışdı ki, bu da keçən ilə nisbətən 3 məktəb az idi. Bu məktəblərdə 469 oğlan, 8-i qız olmaqla 477 şagird təhsil almışdı[1786].

1912-ci ildə İrəvan quberniyasında 11 özəl məktəb (1-i II dərəcəli, 10-u isə III dərəcəli məktəb, bunlardan 9-u İrəvan şəhərində, 1-i Aleksandropol şəhərində, 1-i isə Naxçıvan şəhərində idi) qeydə alınmış, həmin məktəblərdə 465 oğlan, 12 qız olmaqla 477 şagird oxumuşdur[1787].

1913-cü ildə İrəvan quberniyasında 10 özəl məktəb (2-i II dərəcəli, 8-i isə III dərəcəli məktəb, bunlardan 8-i İrəvan şəhərində, 1-i Aleksandropol şəhərində, 1-i isə Naxçıvan şəhərində idi) qeydə alınmış, həmin məktəblərdə 351 oğlan, 12 qız olmaqla 363 şagird oxumuşdur[1788].

Beləliklə, İrəvan quberniyasında dini, Avropa tipli təhsillə bərabər, özəl məktəblər də fəaliyyət göstərmişdir. Bu özəl məktəblər təhsilin keyfiyyətinə görə, I, II və III dərəcələrə bölünmüşdü. Bunlardan III dərəcəli özəl məktəblər quberniyada çoxluq təşkil etsə də, tam təhsil vermir, bir növ hazırlıq kursu idi. Mənbədə göstərilir ki, III dərəcəli özəl məktəblər fəaliyyətlərində təsdiq edilmiş proqramları rəhbər tutsalar da, əslində onlar tam başa çatdırılmış təhsil vermir, lakin şagirdləri müxtəlif orta və ibtidai dövlət təhsil müəssisələrinə qəbula hazırlayırdılar[1789].

## 8.2. Ədəbiyyat. Şifahi xalq ədəbiyyatı. Mətbuat. Teatr

İrəvan bölgəsinin ədəbi həyatında mühüm yerlərdən birini poeziya tuturdu. Şairlər şeirlərində məhəbbət mövzusu ilə bərabər dövrdən, zəmanədən şikayəti özündə əks etdirən ictimai-siyasi mövzulara da toxunurdular. İrəvan bölgəsi şairlərindən şair Məmmədsoyu (1800-1884), Alməmmədi (1800-1868), Aydını

---

[1786] Обзор Эриванской губернии за 1909 г., с.60.
[1787] Обзор Эриванской губернии за 1912 г., с.74-75.
[1788] Обзор Эриванской губернии за 1913 г., с.76-77.
[1789] Обзор Эриванской губернии за 1898 г., с.25.

(1825-1915) göstərmək olar[1790]. Bu şairlər öz şeirlərini xalqın başa düşəcəyi canlı, səlis və aydın tərzdə yazmaqla xalq şeiri üslubu ənənələrinin zənginləşdirilməsində xüsusi xidmətlər göstərmişdilər.

Azərbaycan şifahi xalq ədəbiyyatının növlərindən biri olan aşıq şeiri İrəvan quberniyasında geniş yayılmış, bu sahədə mədəniyyətimizdə böyük simalar yetişmişdir. Orta əsrlərdən İrəvan bölgəsində bir sıra aşıq məktəbləri formalaşmışdı. Bunlardan Göyçə, İrəvan və Gümrü aşıq məktəblərini qeyd etmək olar. Göyçə aşıq məktəbinin bəzi nəhəng simaları Azərbaycan mədəniyyətində dərin və əvəzedilməz iz buraxmışdır. Zəmanənin bütün ağrı-acısını öz yaradıcılıqlarında əks etdirən bu el aşıqlarının xalq arasında böyük hörməti olmuş, onların aşıq sənətində özünəməxsus yeri vardır. Bu aşıqlar el şənliklərinin gözü idi. Onların yaradıcılığının məhsulu olan qoşma, gəraylı, müxəmməs, dodaqdəyməz, təcnis, bayatı və s. nümunələr Azərbaycan aşıq sənətinin ən gözəl nümunələri kimi diqqəti cəlb etmişdir. Göyçə məktəbinin ən parlaq simalarından Ağ Aşıq adı ilə tanınan Aşıq Allahverdini (1754-1860), onun şagirdi olmuş ustad Aşıq Alını (1800-1911), onun şagirdi olmuş ustad aşıq Ələsgəri (1852-1926), Aşıq Məhərrəmi (1825-1910), Aşıq Əzizi (1825-1918) və Aşıq Musanı (1853-1912) qeyd etmək olar[1791]. Bu aşıqlar içərisində Aşıq Ələsgəri xüsusilə qeyd etmək lazımdır. Qoşma, bənzətmə, nəzirə, təcnis, cığalı təcnis, bayatı, oxşama, dodaqdəyməz kimi janrlar ustası olan Aşıq Ələsgər nəinki İrəvanda, o cümlədən Türkiyədə, İranda, İraqda, Gürcüstanda, Orta Asiyada və Dağıstanda çox məşhur olmuşdur. Aşıq Ələsgərin şeri, qəzəli, qoşması Azərbaycan türklərinin deyil, hətta neçə-neçə erməni aşıqlarının da dillərinin əzbərinə çevrilmişdir[1792].

Gümrü aşıq məktəbinin tanınmış simalarından biri Aşıq

---

[1790] Sazlı-sözlü Göyçə, tər. ed. İ.Ələsgər, Bakı, Azərnəşr, 1999, s.28-62.

[1791] Sazlı-sözlü Göyçə, s.16-86; Əhmədli Nazir, Göyçə mahalının kameral təsviri, Bakı, “Elm və təhsil”, 2017, 292 s., s.38-39.

[1792] Məmmədov İ., Tariximiz, torpağımız, taleyimiz, s.550.

Tüccar (1780-1860) idi. İstedadı ilə xalq arasında böyük hörmət qazanmış bu aşığın çoxlu şagirdləri olmuşdu. Bundan başqa, Gümrü aşıq məktəbinin tanınmış nümayəndələrindən Aşıq Beymuraz, Şirəkli Həsəni qeyd etmək olar. Hələ XIX yüzillikdə Şirəkli Həsənin Gəncədə kitabı çap olunmuşdu[1793].

İrəvan aşıq məktəbinin görkəmli simalarından Basarkeçərli Aşıq Musanı da (1795-1840) qeyd etmək olar. O da aşıq poeziyası ənənələri əsasında ədəbi irs yaradan aşıqlardan biri olmuşdur[1794].

İrəvan aşıq məktəbinin fərqli cəhətlərindən biri də o idi ki, onlar erməni aşıqlarına böyük təsir göstərə bilmişdilər. Təsir o dərəcə özünü büruzə vermişdi ki, erməni aşıqları Azərbaycan türkcəsində yazıb-yaratmışdılar. İrəvanda Aşıq Şirinin və Gümrüdə Aşıq Bavenin başçılığı ilə Azərbaycan türkcəsində yazıb-yaradan erməni aşıq məktəbləri olmuşdur. XVIII yüzillikdə Azərbaycan türkcəsində nəğmələr qoşmuş aşıqlardan Miranın, Bağıroğlunun, Əmiroğlunun, Qul Yeqazın, Turab Dədənin, Şamçı Melekonun, Kiçik Novanı, Qul Hovanesi və digərlərinin adları məlumdur[1795].

Bəhs etdiyimiz dövrdə Naxçıvan da öz aşıqları ilə məşhur olmuşdur. Bunlardan XIX-XX yüzilliyin əvvəllərində yaşayıb-yaratmış əslən Sisyan bölgəsinin Ulu kəndindən olan, ancaq həyatının əsas hissəsini Şahbuz rayonunda keçirən Ululu Kərimi, Aşıq Məmmədcəfəri, Ordubad rayonunun Dəstə kəndində anadan olan Aşıq Abbas Dəhrini (1818-1932), əslən Dərələyəzin Sallı kəndindən olan, ancaq həyatının bir hissəsini Naxçıvanda keçirən Aşıq Cəlili, Aşıq Həsənalını, Aşıq Nəcəfalını, Aşıq İsmini və Aşıq Molla İsmayılı qeyd etmək olar. Naxçıvan aşıqları da yaradıcılıqlarında zəmanədən şikayət, əxlaqi və tərbiyəvi mahiyyət daşıyan, ictimai-tənqidi mövzulara daha çox yer

---

[1793] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s.205.

[1794] Azərbaycan tarixi, Bakı, Elm, c.3, 1999, c.149.

[1795] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s.208.

vermişdilər[1796].

XIX yüzilliyin ikinci yarısında Azərbaycanın digər bölgələrində olduğu kimi İrəvan bölgəsində də ziyalılar ana dilində bədii əsərlər yazmağa, müxtəlif səpkili maarifçilik ideyalarını təbliğ edən kitablar çap etməyə, dünya ədəbiyyatından tərcümələr edərək xalqa çatdırmağa başladılar. Qeyd etmək lazımdır ki, həmin dövrdə İrəvan quberniyasında müxtəlif mətbəə fəaliyyət göstərməyə başlamışdı. Bu mətbəələrdə İrəvan ziyalılarının da Azərbaycan türkcəsində əsərləri çıxmağa başladı. Məsələn, 1899-cu ildə İrəvan məktəbi islamiyyəsinin türk dili müəllimi Məhəmməd Vəli Qəmərlinin "Atalar sözü" Edilson mətbəəsində çapdan çıxdı. Digər müəlliflərdən Vasaq Mədətovun (Nəzmi) 1900-cu ildə "Gözə görünməyən şal" əsəri, yenə onun "Tamahkarlıq düşmən qazanır" əsəri həmin ildə Edison mətbəəsi tərəfindən çap olunmuşdur[1797].

İrəvan ziyalılarının bir çox əsərləri İrəvandan kənarda çap olunaraq, məşhurluq qazanmışdır. Belələrindən bir Fazil İrəvanlıdır. Bu şəxs İrəvanın dini və ədəbi mühitində böyük rol oynamış və yaşadığı dövrdə xalqın, ziyalıların sevimlisi olmuşdur. O, 1782-ci ildə İrəvan şəhərində anadan olmuş, ilk təhsilini molla məktəbində almışdır. F.İrəvanlı 20 yaşında Misirin paytaxtı Qahirə şəhərində "Əl-Əzhər" universitetinə göndərilmiş, burada təhsil aldıqdan sonra 45 yaşında Qacar dövlətinə qayıtmışdır. Uzun müddət İsfahan və Təbriz şəhərlərində axundluq etmiş, Şərq tarixi və dini elmlərə aid bir neçə risalənin müəllifi kimi şöhrət qazanmışdır. Uzun müddət yad şəhərlərdə fəaliyyət göstərən F.İrəvanlı doğma şəhərinə qayıtmış, İrəvan Göy Cami məscidinin baş axundu kimi fəaliyyət göstərmişdi. Fazil İrəvanlı 1846-1862-ci illərdə Şeyx-ül-islam seçilərək Qafqazın Şeyxülislamı olmuşdu. 1862-ci ildə İrəvana qayıdan Şeyx burada dini mədrəsə açmış, islam fəlsəfəsini öyrətməklə çoxlu sayda din xadimləri yetişdirmişdir. Şeyx-ül-islam Fazil İrəvanlı 1885-ci

---

[1796] Naxçıvan tarixi, c.II, s.204-205.
[1797] Məmmədov İ., Tariximiz, torpağımız, taleyimiz, s.546-548.

ildə 103 yaşında İrəvanda vəfat etmişdir[1798].

F.İrəvanlı İsfahan və Təbriz şəhərlərində axundluq etdiyi dövrlərdə bədii yaradıcılıqla da məşğul olmuşdur. O, bir neçə ədəbi, tarixi və dini səciyyəli əsərlərin müəllifidir. Onun gənc yaşlarında yazdığı "Qızıl gül və bülbül" haqqında povesti İrəvanda Azərbaycan türkcəsində yazıya alınmış, bu əsər 1832-1833-cü illərdə fransız dilində, 1892-ci ildə alman dilində erməni "ədibi" X.M.Geğamyanın adından çap olunmuşdur. Lakin sonradan fransalı tədqiqatçı bu əsərin F.İrəvanlıya məxsus olduğunu bildirmişdir. Fazil İrəvanlının digər əsəri - 190 səhifəlik "Kitabüttəharət" (Paklıq kitabı) adlı əsəri Cənubi Azərbaycanın məşhur din xadimi Molla Əhməd Kuzakunaidin tapşırığı ilə 1883-cü ildə farsca Təbrizdə Xəttat Məhəmməd Təbrizi tərəfindən çap olunmuşdur. Onun "Tarixi-İrəvan" əsəri də olmuşdur. Lakin bu əsərin hansı arxivlərdə olması bəlli deyil[1799]

Digər müəlliflərdən Molla Hüseyn İrəvanlının "Müseyibnamə" əsəri 1889-cu ildə fars dilində, Mirzə Ağa Əli Hakimi İrəvanlının "Divan"ı 1889-cu ildə fars və Azərbaycan türkcəsində, Ləli Mirzə Ağa Hakimi İrəvanlının "Ləli Divan"ı fars və Azərbaycan türkcəsində 1898-ci ildə Təbrizdə nəşr olunmuşdur[1800].

İrəvandan kənarda əsəri çap olunmuş ziyalılardan biri də Mirzə Abbas Məhəmmədzadədir. O, 1846-cı ildə İsfahanda əslən İrəvanlı olan tacir Məhəmmədin ailəsində anadan olmuşdur. Atası əslən İrəvanlı idi. Abbas 10-11 yaşlarında olarkən atası İrəvana qayıdır. Abbas İrəvan mədrəsəsində təhsil almış və ciddi mütaliə ilə məşğul olmuşdur. Bu gənc istedad gənc yaşlarından dini məktəblərdə fars dilindən dərs demiş, 1881-ci il noyabrın 3-də açılmış İrəvan müəllimlər seminariyası və sonra isə gimnaziyada uzun illər ərəb, fars və rus dillərdə dərs demişdir. 1918-ci ildə İrəvanda siyasi vəziyyətin kəskinləşməsi ilə

---

[1798] Yenə orada, s.593-594; A.İsgəndərov, A.Mövlayi, Şeyxülislamlığın tarixi, Bakı, "Elm və Təhsil", 2016, s.153-160.

[1799] A.İsgəndərov, A.Mövlayi, Şeyxülislamlığın tarixi, s.156-157; Məmmədov İ., Tariximiz, torpağımız, taleyimiz, s.544.

[1800] Məmmədov İ., Tariximiz, torpağımız, taleyimiz, s.548-549.

əlaqədar olaraq Mirzə Abbas Təbrizə köçmək məcburiyyətində qalmış  və 1919-cu ildə orada vəfat edir. O, Təbrizin "Gülüstan" bağında dəfn olunmuşdur[1801].

Mirzə Abbas bir neçə dərsliyin müəllifidir, eyni zamanda "Razi" təxəllüsü ilə şerlər yazmışdı. Onun 1912-ci ildə Bakıda Orucov qardaşlarının mətbəəsində "Güldəstə" kitabı nəşr olunmuşdu. Mirzə Abbas Məhmmədzadə bu dərslik kitabında Sədinin, Qaaninin, Caminin tərbiyyəvi əhəmiyyət kəsb edən nəsihətamiz şeirlərindən, eyni zamanda kitabında öz şeirlərindən də istifadə etmişdir. Şeirlərində xalqı maarifə, elmə çağıraraq, maarifçilik ideyalarını təbliğ etmişdir[1802].

Mirzə Abbas Məhəmmədzadə digər dərslik kitablarının da müəllifidir. Onun 1913-cü ildə "Bədrağatül-Ətfal (Balalara hədiyyə") kitabı Bakı, Tiflis və eyni zamanda İrəvanda "Budaqov" mətbəəsində nəşr olunmuşdur. Həmin ildə onun digər dərslik kitabı olan "Fars dilini öyrənən ruslar üçün dərs kitabı" kitabı Bakıda Orucov qardaşlarının mətbəəsində işıq üzü görmüşdür[1803].

İrəvan quberniyasının tərkib hissəsi olan Naxçıvan qəzasında da bəhs etdiyimiz dövrdə ədəbiyyat güclü inkişaf etmişdi. Naxçıvan ədəbi mühitində Heyran xanım böyük rol oynamışdır. O, yaradıcılığında qəzəl janrına üstünlük vermişdi. Heyran xanımın qəzəllərində kədər motivləri üstünlük təşkil etmişdir[1804].

Naxçıvanda ədəbi məclislər fəaliyyət göstərmiş, onlar yerli ədəbiyyatın inkişafında böyük rol oynamışdılar. Belə ədəbi məclislərdən Naxçıvanda "Qönçeyi-ülfət", Ordubadda "Əncümənü-Şüəra"nı qeyd etmək olar. Bu ədəbi məclislərin ətrafına güclü şair və ziyalılar toplaşmışdı. "Qönçeyi Ülfət" ədəbi məclisi yerli hakim Ehsan xan Naxçıvanlının qızı Qönçəbəyimin şərəfinə təşkil olunmuşdu. Onun az da olsa dövrümüzə gəlib çatmış şeirlərindən görmək olar ki, Qönçəbəyim istedadlı şairə olmuş, şeir-

---

[1801] Ə.Zeynalov, İrəvan ziyalıları, Bakı, Oğuz eli, 1999, s.43-45.
[1802] Yenə orada, s.44-45.
[1803] Yenə orada, s.45.
[1804] Yenə orada, s.187-188.

lərində dövrandan şikayət, xalqına sevgi öz əksini tapmışdır[1805]

Qrdubadda yaradılmış "Əncüməü-Şüəarə" ədəbi məclisi 1831-ci ildə yerli hakim Şeyxəli bəy Kəngərli tərəfindən yaradılmışdır. Bu ədəbi məclisin üzvləri ilk dövrlərdə şeirləri oxuyub müzakirə etmiş, şeir müsabiqələri keçirmişdilər. Lakin Məhəmməd Tağı Sidqinin iştirakı sayəsində bu ədəbi məclisdə ara-sıra qəzetlər də oxunmuş, müəyyən ədəbi məclislər, səfər təəssüratları barədə söhbətlər də aparılmışdır[1806].

"Əncümənü Şüəra" ədəbi məclisinə XIX yüzilliyin 60-70-ci illərində Hacıağa Fəqir Ordubadi (1836-1886) başçılıq etmişdir. H.F.Ordubadi bir divanlıq şeirlər yazmış, bu şeirlərdə dövrandan, həyatından şikayət, realist meyllər öz əksini tapmışdı. Dövrün bir çox tanınmış nümayəndələri, o cümlədən Cəlil Məmmədquluzadə Fəqir Ordubadlının yaradıcılığına, xüsusən onun "Kürdün gül satması" mənzum satirasına yüksək qiymət vermişdi[1807].

Ordubad "Əncümənü Şüəra" ədəbi məclisində işitirak edən Qüdsi Vənəndli, Məhəmmədqulu Salik Ordubadlı, Mirzə Hüseyn Bikəs, Zeynəlabdin Nəqqaç, Məşədi Həsən Dəbbağ böyük şöhrət qazanmışdılar. Onlardan Fəqir Ordubadlının, Qütsü Vənədlinin və Məhəmmədqulu Salik Ordubadlının divanları dövrümüzə gəlib çatmışdır[1808].

"Əncümənü Şüəra" ədəbi məclisi Azərbaycanın digər bölgələrində-Şamaxıda fəaliyyət göstərən "Beytül Səfa", Qarabağdakı "Məclisi-üns" ədəbi məclisləri ilə əlaqələr qurmuş, dövrün məşhur şairləri Seyid Əzim Şirvani, Baba bəy Zakir, Xurşudbanu Natəvan, Əndəlib Qaracadaği, Məhəmməd Aciz, Mir Möhsün Nəvvabla məktublaşırdılar[1809]

Bəhs etdiyimiz dövrdə Naxçıvan ədəbi bədii yaradıcılığında "Tərbiyə" məktəbinin banisi Məhəmməd Tağı Sidqi,

---

[1805] Naxçıvan tarixi, II cild, s.188.
[1806] Yenə orada, s.189.
[1807] Yenə orada, s.189-190.
[1808] Yenə orada, s.190.
[1809] Naxçıvan tarixi, II cild, s.192.

Məhəmmədqulu Salik Ordubadlı, Cəlil Məmmədquluzadə (1869-1932), Eynəli bəy Sultanov (1865-1935), Mirzə Cəlil Şürbi, “Fani” təxəllüsü ilə yazan Məhəmmədhüseyn Hacı Nəcəf oğlu məşhur olmuşdular.

**Təsviri sənət.** İrəvan bölgəsində təsviri sənət də inkişaf etmişdi. Xan sarayının divarlarında əks etdirilən rəsmlərdən görünür ki, bu sahə İrəvanda hansı səviyyədə olmuşdur. İrəvan təsviri sənətinin çox görkəmli nümayəndələrindən biri Azərbaycanın böyük rəssamı Mirzə Qədim İrəvanidir (1825-1879). Bu böyük rəssam ömrünün qısa olmasına baxmayaraq, Azərbaycan təsviri sənətinə böyük tövhələr vermişdir. O, 1825-ci ildə İrəvanda dülgər ailəsində anadan olmuşdu. M.Q.İrəvani ilk təhsilini yerli məktəbdə almış və sonra təhsilini Tiflisdə progimnaziyada davam etdirərək, oranı bitirmişdir. Təhsilini başa vuran rəssam doğma İrəvana qayıdaraq, ömrü boyu poçtda teleqrafçı vəzifəsində çalışmışdı. O, hələ progimnaziyada oxuyarkən rus, fars və fransız dillərini öyrənmiş, musiqiyə həvəs göstərmişdi. M.Q.İrəvani rəssamlıq sənətini ağac üzərində bədii oyma ustası olan atasından öyrənmişdi. Yaradıcılığının ilk dövrlərində dekorativ sənətlə məşğul olan rəssam bir sıra portretlər çəkmişdi. Mirzə Qədimin yaradıcılığında portiret janrı əsas yer tutmuşdu. Belə portiretlərdən “Süvari”, “Rəqqasə”, “Dərviş” əsərlərini qeyd etmək lazımdır.

M.Q.İrəvaninin yaratdığı rəsmlərin bir hissəsini İrəvan sərdar sarayı üçün çəkdiyi rəsmlər təşkil etmişdi. O, XIX yüzilliyin 50-ci illərində sərdar sarayındakı süjetli kompazisiyaları bərpa etmiş, sarayın güzgülü zalında bir sıra portretlər - “Fətəli şah”, “Abbas Mirzə”, “Hüseynqulu xan”, “Sərkərdə” və s. çəkmişdir. M.Q.İrəvaninin yaradıcılığı rəngarəng idi. Onun 100-dən çox rəsm əsəri məlumdur. Bunlardan 25-i hazırda Bakıda İncəsənət Muzeyində, Tbilisidə və Sankt-Peterburqda saxlanılır[1810].

---

[1810] Azərbaycan incəsənəti, Bakı, Maarif nəşriyyatı, 1977, s.122-123; Azərbaycan Sovet Ensiklopediyası [10 cilddə], Bakı, Azərbaycan Sovet Ensiklopediyası, c.4, 1980, s.517-518; Zeynalov Ə., İrəvan ziyalıları, Bakı,

İrəvan bölgəsində təsviri sənətin inkişafını bildirən maddi mədəniyyət abidələrindən qəbir daşlarını göstərmək olar. Qəbir üstündə düz vəziyyətdə qoyulmuş bu daşlar mərhumun anadan olmasını və ölməsini bildirən yazılarla, müxtəlif fiqur və naxışlarla bəzədilirdi. Azərbaycan türklərinin qəbir daşlarındakı təsvirlər rəmzi məna daşıyaraq, mərhumun həyatda həvəs göstərdiyi işinə bir işarə idi. İ.Şopen XIX yüzilliyin 30-cu illərinin əvvəllərində Göyçə mahalında Azərbaycan türklərinə məxsus qəbiristanlıqda müxtəlif təsvirlərlə bəzədilmiş qəbir daşlarına rast gəldiyini bildirmişdi. Onun yazdığına görə, qəbir daşındakı at, qılınc, silah hərbiçiyə, qaban, maral, vəhşi keçi ovçuluğa, qoyun, keçi çobanlığa işarə idi. Bəzi qəbir daşlarında içkiyə, kefə meylli adamı bildirən üstündə yeməklər, boşqablar və digər əşyalar olan stol, digərlərində şərab olan küp və piyalə təsvir edilmişdi[1811]. Bütün bunlar sübut edir ki, İrəvan bölgəsində belə təsviri sənətlə məşğul olan xüsusi rəssamlar dəstəsi fəaliyyət göstərmişdir.

İrəvan quberniyasına daxil olan Naxçıvan qəzasında da XX yüzilliyin əvvəllərində istedadlı rəssamlar yetişmişdir ki, onlardan biri də boyakarlıq və qrafika sahəsində məşhur olan Bəhruz Kəngərli idi. B.Kəngərli 1910-cu ildə C.Məmmədquluzadənin yardımı ilə Cənubi Qafqazda yeganə olan Tiflisdə Qafqaz İncəsənəti Təşviq Cəmiyyətinin nəzdindəki Boyakarlıq və Heykəltaraşlıq məktəbinə daxil olmuşdur. 1915-ci ildə həmin məktəbin məzunu olan Bəhruz Kəngərlinin yaradıcılığı çoxcəhətli olmuşdur. Yağlı və sulu boyalarla şəkillər çəkən B.Kəngərlinin yaradıcılığında mənzərə janrı xüsusi yeri tutmuşdur. Bununla yanaşı, onun müasirlərinin portretləri, qədim tariximizə aid yaradıcılıq məhsulları, Naxçıvan teatrında tamaşaların bədii tərtibatını verən, teatr-dekorasiya sənəti sahəsinin ilkinlərindən biri sayılan rəssamın səhnə sahəsində fəaliyyəti diqqəti cəlb etmişdir. Onun 1912-1918-ci illərdə "Hacı Qara", "Ölülər", "Pəri cadu" əsər-

---

Oğuz eli, 1999, s.21-24; Azərbaycan tarixi, c.IV, 2000, c.156-157.

[1811] Шопен И., Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.718.

lərinə verdiyi səhnə tərtibatı çox uğurlu olmuşdur[1812].

**Mətbuat**. İrəvan quberniyasında mətbuat tarixi XX yüzilliyin əvvəllərindən başlayır. Buna qədər həmin bölgədə Azərbaycan türk dilində qəzet və məcmuə çap olunmamışdı. Bunun bir sıra səbəbləri vardı. Belə ki, çar Rusiyası Azərbaycanı işğal etdikdən sonra uzun müddət Azərbaycan türkcəsində qəzet və məcmuələrin nəşr olunmasına icazə verməmişdi. Digər tərəfdən, Azərbaycan türklərinin həyatı və qismən də mədəniyyəti haqqında məlumatlar müxtəlif dillərdə və yerlərdə nəşr olunan mətbuat orqanları tərəfindən işıqlandırılırdı. İrəvan ziyalıları buna qədər nəşr olunmuş "Əkinçi" (1875-1877), "Kəşkül" (1883-1891), "Ziya" (1879-1880), "Ziyayi Qafqaziyyə" (1880-1884), "Dəvət-Qoç", "Təkamül", "Hümmət", "İrşad" qəzet və məcmuələri və eyni zamanda "Molla Nəsrəddin" satirik jurnallarını alır və maraqla oxuyurdular. Bu qeyd edilən qəzet, məcmuə və jurnallar İrəvan bölgəsində geniş yayılmış, eyni zamanda bu mətbuat səhifələrində bölgənin ictimai həyatı da işıqlandırılmışdır.

Lakin Azərbaycanın görkəmli ziyalıları doğma dildə qəzet və jurnalların nəşr olunması uğrunda daima mübarizə aparmışdılar. Məhz bunun nəticəsində İrəvanda türk dilində ilk məcmuə olan "Lək-Lək"yin (Leylək) ilk sayı 1914-cü il fevralın 22-də çapdan çıxmışdı. Onun nəşrinə Qafqaz Canişinliyi baş idarəsinin 14 saylı fərmanı ilə icazə verilmişdi[1813]. Həmin fərmanda İrəvanın tanınmış ziyalıları Mir Məhəmməd Mir Fətullayevə və Cabbar Ələsgərzadəyə "Lək-Lək" məzhəkə məcmuəsinin səhifələrində siyasi səciyyəli yazılar dərc etmək üçün də icazə vermişdi. "Lək-Lək" üç - "Nəsimi mədəniyyət", "İstiqlaliyyət, azadlıq çağrışı" və "Elanlar şöbəsi" bölməsindən ibarət olmuşdur. "Lək-Lək" məcmuəsinin səhifələrində çap olunan yazılarda xurafata, fanatikliyə qarşı mübarizə, təhsil və tərbiyə, ana dilinin saflığı, yeni əlifba uğrunda və ədalətsizliyə qarşı mübarizə əsas mövzu-

---

[1812] Naxçıvan tarixi, c.II, s.325, s.330.

[1813] Кавказский календарь на 1915, отдел статистический, c.366; Məmmədov İ., Tariximiz, torpağımız, taleyimiz, s.554.

lar idi. “Nəsimi mədəniyyət” epiqrafı altında çıxan haqq-ədalətə çağıran “Lək-Lək”in axırıncı sayı olan 12-ci nömrəsi 1914-cü il iyulun 30-da çıxdı. Bu nömrədən sonra məcmuə bağlandı[1814]. “Lək-Lək” məcmuəsi qısa müddətdə fəaliyyət göstərməsinə baxmayaraq, onun Naxçıvanda, Culfada, Ordubadda, Gəncədə, Bakıda, Tiflisdə, Mərvdə, Təbrizdə, Daşkənddə və İstanbulda oxucuları olmuşdur.

“Lək-Lək” məcmuəsi bağlansa da, İrəvan ziyalıları ruhdan düşmədilər. Belə ki, şair və publisist Əli Hacı Zeynalabdinzadə Rəhimov (Məhzun) hələ 1914-cü il iyun ayından həmyerlisi Cabbar Əsgərzadə (Aciz) ilə birlikdə ana dilində “Çınqı” adlı bir məcmuə nəşr etməyə cəhd etmişdi. Çox uzun mübarizədən sonra nəhayət, 1916-cı ildə “Bürhani-həqiqət” adlı məcmuənin nəşrinə icazə verilmişdi. Bu məcmuənin ilk nömrəsi 1917-ci il yanvarın 1-də çapdan çıxdı. Məcmuənin müdiri və mühərriri “Molla Nəsrəddin” satirik jurnalının müxbiri, şair və publisist Əli Hacı Zeynalabdinzadə Rəhimov (Məhzun), naşiri tanınmış maarifçi Həsən Mirzəzadə Əliyev olmuşdu. “Bürhani-həqiqət” məcmuəsi “Lyus” (İşıq) mətbəəsində ayda iki dəfə, 32 sm. ölçüdə səkkiz səhifədən ibarət, şəkilli-bəzəkli çıxırdı. İrəvanın qabaqcıl ziyalılarından Mirzə Cabbar Məmmədov, Cabbar Ələskərzadə (Aciz), müəllimlərdən Rəhim Nağı, Təhvil İrəvani, Vahid Muğanlı və İrəvan Müəllimlər Seminariyasının tələbələri bu məcmuənin ətrafında birləşmişdi. Məcmuə səhifələrində siyasi-ictimai hadisələrdən, tərbiyədən, təhsil və elmdən bəhs edən mövzular əsas yeri tutmuşdu. “Bürhani-həqiqət” məcmuəsinə Azərbaycanın ayrı-ayrı bölgələrindən şeirlər, hekayələr göndərilmiş, məcmuə Azərbaycanda və Orta Asiyada yayılmışdır. Naşirləri məcmuəni daha da genişləndirmək, sayını çoxaltmaq ümidində idilər. Lakin 1918-ci ilin yayında Cənibi Qafqazda siyasi-ictimai vəziyyətin dəyişməsi, İrəvanda erməni daşnaklarının fəallaşması ilə əlaqədar olaraq, həmin il iyunun 29-da məcmuənin sonuncu-9-cu nömrəsi çapdan çıxdı. Bu “Bürhani-həqiqətin” sonuncu nömrəsi

[1814] Məmmədov İ., Tariximiz, torpağımız, taleyimiz, s.556-560.

olmuşdu[1815].

**Teatr.** Azərbaycan milli teatrının əsası 1873-ci il martın 10-da (23-də) Bakıda M.F.Axundovun "Lənkəran xanın vəziri" pyesinin tamaşasının göstərilməsi ilə qoyulmuşdur. Tamaşanın əsas təşəbbüskarları Bakı realnı məktəbinin müəllimləri H.B.Məlikov-Zərdabi və onun şagirdi Nəcəf bəy Vəzirov olmuş, tamaşanı isə həmin məktəbin şagirdləri ifa etmişdilər[1816].

Tezliklə, bu mühüm hadisə Azərbaycanın ayrı-ayrı bölgələrinə yayıldı. Bakı həvəskarlar qrupu 1883-cü ildə peşakar qrupa çevrildi. Həmin qrupun fəaliyyətinin canlanması Azərbaycanda teatr sənətinin inkişafına güclü təkan verdi. Qubada (1875), Nuxada (1879), Şuşada (1882), İrəvanda (1882), Naxçıvanda (1883) və Gəncədə (1899) teatr tamaşalarının əsası qoyuldu.

Bəhs etdiyimiz dövrdə İrəvan quberniyasında teatr XIX yüzilliyin 80-ci illərinin əvvəllərindən fəaliyyət göstərməyə başlamışdı. Qeyd etmək lazımdır ki, işğaldan əvvəl İrəvan xan sarayında keçirilən məclislərdə tamaşalara da xüsusi yer verilmişdi. Bu tamaşalar adətən məhəbbət mövzusunda olmuş və üç hissədən ibarət idi[1817].

Lakin İrəvanda peşəkar teatr tamaşalarının əsası 1882-ci il aprelin 2-də müqəddəs Qayanyan qızlar məktəbinin geniş salonunda kasıb Azərbaycan türk uşaqlarının şərəfinə "Tamahkarlıq düşmən qazanır" pyesi əsasında qoyulmuşdur. Pyes üç pərdədən ibarət olmuş, tamaşanı həvəskarlardan ibarət qrup ifa etmişdilər. Məşədi Fərəc rolunda Nəzmi, Məmmədqulu rolunda Mirzə Xəlil Hacıyev, Fətəli rolunda Rüstəmxan Abbasquluxanov, Həsən rolunda Məhəmməd adlı birisi çıxış etmişdir[1818]. 1890-cı ildə İrəvanda M.F.Axundovun "Müsyö Jordan və Məstəli şah" komediyası, ondan sonra "Könülsüz nigah" adlı vodevil tamaşaya qoyulmuşdu[1819].

---

[1815] Məmmədov İ., Tariximiz, torpağımız, taleyimiz, s.561-568.
[1816] Azərbaycan tarixi, c.IV, s.368.
[1817] Şarden J., Səyahətnamə, Bakı, Elm, 1994, s.28.
[1818] Məmmədov İ., Tariximiz, torpağımız, taleyimiz, s.554-575.
[1819] Yenə orada, s.573.

XIX yüzilliyin 80-ci illərinin əvvəllərində Naxçıvanda da teatrın əsası qoyuldu. Bu məqsədlə 1883-cü ildə "Naxçıvan Müsəlman İncəsənəti və Dram Cəmiyyəti" yaradıldı və onun banisi E.Sultanov idi. E.Sultanovun Naxçıvan teatrının inkişafında böyük xidmətləri olmuşdur. O, ilk növbədə tamaşa üçün yaxşı əsər əldə etmək üçün Tiflisə gedir, burada yaxın tanışlarının köməyi ilə M.F.Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah" əsərini əldə edir. Bundan sonra "Dram Cəmiyyəti"nin üzvləri Eynəli bəyin rəhbərliyi altında bu tamaşanı hazırlayır və tamaşa 1883-cü il martın 11-də (24) Naxçıvan şəhər sakini Hacı Nəcəf Zeynalovun evinin böyük salonunda göstərilir. Beləliklə, bu tamaşa ilə Naxçıvan teatrının əsası qoyulur[1820].

1884-1899-cu illərdə E.Sultanovun "Tatarka" ("Azərbaycan qızı") əsəri, 1887-ci ildə M.F.Axundovun "Molla İbrahim Xəlil kimyagər" komediyası, 1890-cı ildə C.Məmmədquluzadənin "Çay dəstgahı", 1894-1898-ci illərdə M.F.Axundovun "Molla İbrahim Xəlil kimyagər", "Sərgüzəşti-vəziri-xani Lənkəran" və "Müsyo Jordan" komediyaları, 1899-cu ildə M.F.Axundovun "Hacı Qara" və "Sərgüzəşti-vəziri-xani Lənkəran" komediyaları tamaşaya qoyulmuşdu. Bu tamaşalardan toplanan pullar xeyriyyəçilik işinə sərf olunur, Naxçıvan şəhərində fəaliyyət göstərən "Tərbiyə" və qəza məktəblərində təhsil alan şagirdlərin təhsil haqqına sərf olunurdu [1821].

1905-1920-ci illərdə Naxçıvanda teatr sənəti güclü inkişaf etmiş, "Müsəlman İncəsənəti və Dram Cəmiyyəti" yeni həvəskarlar hesabına genişlənmişdi. Ümumiyyətlə, Naxçıvan teatrının inkişafında M.T.Sidqinin, C.Məmmədquluzadənin, Ələkbər Molla Bayəli oğlunun, U.Ə.Şərifovun, Məmmədəli Sidqi Səfərovun, Rza Təhmasibin, Fərəc Kəngərlinin, Əliqulu Sultanın, Xəlil Hacılarovun, Əbdüləzim Rüstəmovun böyük xidmətləri olmuşdur[1822]

---

[1820] Yenə orada, c.196.
[1821] Yenə orada, s.197-198.
[1822] Azərbaycan tarixi, c.IV, s.369; Naxçıvan tarixi, c.II, s.197, s.323.

Beləliklə, bəhs etdiyimiz dövrdə İrəvan quberniyasında mədəniyyətin müxtəlif sahələri-təhsil, ədəbiyyat, təsviri incəsənət, mətbuat və teatr inkişaf etmişdi. Çar Rusiyasının təhsil sahəsində apardığı islahatlar nəticəsində quberniyanın şəhər və kəndlərində dini təhsillə bərabər Avropa təhsil sistemi də inkişaf etməyə başladı. Bu təhsil sisteminin yaradılmasında əsas məqsəd rus dilini yaymaq və hakimiyyətə sadiq məmurlar ordusunu yaratmaq olsa da, ənənəvi təhsil sistemi ilə bərabər Azərbaycan türklərinin savadlanmasında böyük rol oynamış, güclü ziyalılar nəsli yetişmiş və həmin ziyalılar Azərbaycan mədəniyyətinin inkişafında öz sözlərini demişdilər. İrəvan quberniyası ədəbiyyat, şifahi xalq ədəbiyyatı sahəsində Azərbaycan mədəniyyətinə görkəmli simalar bəxş etmişdir. Xüsusilə aşıq sənəti bu sahədə xüsusi yeri tutmuşdu. İrəvan quberniyasında mədəniyyətin digər sahələri-təsviri sənət, mətbuat və teatr da inkişaf etmiş, həmin sahələr üzrə görkəmli simalar yetişmişdir.

# NƏTİCƏ

İrəvan quberniyası Azərbaycanın əzəli və əbədi torpaqları olan İrəvan və Naxçıvan xanlıqlarnın ərazisində, 1849-cu il iyunun 9-da Rusiya çarının verdiyi fərmana əsasən yaranmışdır. O, quberniya kimi 1850-ci il yanvarın 1-dən fəaliyyətə başlamışdı. Bir mənbəyə görə İrəvan quberniyasının ərazisi Göyçə gölü də daxil olmaqla 26450 kv. verstə, digər mənbəyə görə 24758,3 kv. verst, gölsüz 23518 kv. verstə, başqa bir mənbəyə görə 24454,4 kv. verstə (1 verst-1,05 km), yaxud 27830 kv.km., bəzi məlumata görə 23194,79 verstə, bir məlumata görə isə 24758 kv. verstə (2578959 desyatin) bərabər olmuşdur. İrəvan quberniyası şimaldan 256 verst uzunluqda Tiflis quberniyasının Axalsıx və Borçalı qəzaları ilə, həmçinin Yelizavetpol quberniyasının Qazax və Yelizavetpol qəzaları ilə, şərqdən 238 verst uzunluqda Cavanşir və Zəngəzur qəzaları ilə, qərbdən 182 verst uzunluqda Qars vilayətinin Qars və Kağızman dairələri ilə, cənubdan isə 376,5 verst uzunluğunda Türkiyənin Bəyazid sancağı və Qacar dövlətinin Azərbaycan vilayəti ilə (Maku, Qaradağ və Mərənd) həmsərhəd olmuşdur.

İrəvan quberniyası Kiçik Qafqazın cənub hissəsini, Ağrıdağ yüksəkliyinin şərq hissəsini tutmuşdu. Quberniya səthinə görə dağlıq, dağətəyi və düzənlik zonalarına bölünmüşdü. O, vulkanik dağlar, yaylaqlar, geniş çöllərlə əhatələnmiş dağlıq bir ərazi olmuşdur. Quberniya ərazisindən müxtəlif dağlar - Ağrıdağ, Alagöz, Pəmbək, Göyçə və s. dağ silsilələri keçmişdir. Eyni zamanda quberniyanın ərazisi qərbdən şərqə, şimaldan cənuba uzanan nisbətən geniş və təpəli düzənliklərlə müşahidə olunmuşdur. Onun əsas düzənlikləri Araz, Göyçə və Şörəyel idi. Hər bir düzənlik özünün ərazisinə, münbitliyinə və əhalinin məskunlaşmasına görə fərqlənmişdir.

İrəvan quberniyasında torpaq keyfiyyətinə görə müxtəlif olmuşdur. Quberniya torpaqları gilli-qumlu, qaratorpaq və şoran olmaqla üç yerə bölünmüşdü. Gil torpaqlar təmiz gil, gilli daşlı

və gilli qumlu olmaqla bir-birindən fərqlənirdi. Gil torpaqlar Araz çayının sağ sahilində, xüsusən Qulp kəndinə yaxın yerlərdə, gilli daşlı torpaqlar əsasən Ağrıdağın, Alagözün ətəklərində, Çobanqıran düzənliyində daha çox idi. Qara torpaq əsasən quberniyanın düzənlik ərazilərində, yüksək dağlıq ərazilərdə daha çox olurdu. Ona Arazətrafı, Abaran, Ellidərə düzənliklərində, Şörəyeldə, Sınağ dağının bir hissəsində və Göyçə gölü çökəkliyində rast gəlinirdi. Bu qara torpaq bəzən gil və vulkanik suxurlarla qarışıq olurdu. Quberniyanın bəzi torpaqları şoran idi. Bu şoran torpaqların tərkibində üç cür duz olurdu ki, torpağı şuvardıqda müxtəlif məqsədlər üçün istifadə edilirdi. Xüsusən düzənlik ərazilərdə tərkibi üç növ duzla zəngin olan torpaqlar mövcud idi. Belə torpaqlara Arazətrafı düzənlikdə, Sürməli qəzasında, Naxçıvan qəzasında Xok kəndi ilə Naxçıvan şəhəri arasında tranzit yolunun və Ordubad yolunun hər iki tərəfində rast gəlmək olardı. Şoran torpaqlarda yalnız xüsusi şoran otlar bitirdi ki, bununla dəvələri və mal-qaranı yemləyirdilər. Sürməli qəzasında su bol olduğuna görə şoran torpaqlarının yuyulması nəticəsində duz və şora hasil edilirdi və şoran bitkilərindən potaş (ağ qələvi maddə) hazırlanırdı. Duz və potaş Aleksandropol və Qarsda olan sabunbişirmə zavodlarına satılırdı, emal edildikdən sonra sabunbişirmədə, şoradan isə barıt hazırlanmasında istifadə olunurdu.

İrəvan quberniyası iqliminə görə də fərqlənmişdi. Onun illik orta temperaturu yanvarda -6,4$^0$, iyulda isə +26,1$^0$-ə çatırdı. Bəzi vaxtlarda İrəvan şəhərində istilər yayda +40$^0$-yə, Naxçıvan və Ordubadda +45$^0$-50$^0$- yə qalxır, qışda isə -26,5$^0$-yə düşürdü. İrəvan quberniyasında dağlıq ərazi özünün çox soyuq iqlimi ilə seçilmişdi. Dağlarda qar noyabrda yağırdı, qış 6-7 ay davam edirdi və soyuq –30$^0$-yə (Yenibəyaziddə -32,3$^0$-yə) düşürdü.

İrəvan quberniyası meşə sahəsi cəhətdən bir o qədər də, zəngin olmamışdı. Meşələrin böyük qismi əsasən dağ yamaclarında yerləşmişdi. Azərbaycanın bütün quberniyalarında olduğu kimi, İrəvan quberniyasında da meşələr həm xəzinənin, həm də xüsusi şəxslərin mülkiyyətində olmuşdur. Bütün sahələrdə olduğu kimi, çar idarə orqanları XIX yüzilliyin ikinci yarısı-XX

yüzilliyin əvvəllərində İrəvan quberniyasında da meşələrin idarə olunması üçün dövlət nəzarəti yaratmışdı. Quberniyada xəzinə meşələri sahələrə bölünmüş, sahələr isə ayrı-ayrı meşəbəyliyinə tabe olmuşdur. Meşələr qəzalar üzrə bir məlumata görə 25, digər məlumata görə isə 24 ayrı-ayrı sahədən və sahələrin tabe olduğu 4 meşəbəyliyindən ibarət idi. Həmin meşəbəyliyi İrəvan, Naxçıvan, Dərəçiçək və Aleksandropol olmuşdur. Meşələrdə əsasən, palıd, fıstıq, ağcaqayın, qara ağac, vələs, tozağacı, alma, armud, ağcaqovaq, itburnu, zoğal, qovaq, qızılağac, cökə, söyüd və s. ağaclar bitirdi. İrəvan quberniyasında meşə materialları əhalinin əsasən odun, kömür ehtiyaclarına sərf olunmuşdur.

İrəvan mal-qaranın otarılması üçün geniş otlaq sahələri-yaylaq və qışlaqlarla zəngin olan bir quberniya olmuşdur. Yaylaqlar əsasən 7000-8300 fut yüksəklikdən başlayaraq dağların başına qədər, qışlaqlar isə 3000 futdan yüksək olmayan, yağışların az olduğu, əhalinin əkinçiliklə məşğul olmadığı düzənlik ərazilərdə yerləşmişdi. Yaylaqlar rayonlara və onlar da sahələrə bölünmüşdü. Yaylaq rayonlarının müxtəlif dağ silsilələrinin vəziyyəti ilə bağlı olaraq sayı 21, sahələrin sayı 1075, ümumi ərazisi isə 325051 desyatin, qışlaqlar isə 42 sahəni özündə birləşdirən 69899 desyatinə bərabər olmuşdur. İrəvan quberniyasının yaylaq və qışlaqlarından həm quberniya, həm də Tiflis, Yelizavetpol quberniyalarının əhalisinin mal-qarası istifadə etmişdilər.

İrəvan bol sulu çayları və bu çaylardan çəkilmiş arxları ilə zəngin olan bir quberniya olmuşdur. İrəvanda Araz, Arpaçay, Qarasu, Naxçıvançay, Zəngi, Qırxbulaq, Pəmbək, Gərniçay, Vediçay, Kəvərçay, Acıçay, Cənubi Qarasu və s. çaylar var idi. Bu çayların və onlardan çəkilən arxların suyundan əhali əkin sahələrinin suvarılmasında və içməli su tələbatını ödəmək üçün istifadə etmişdilər.

İrəvan quberniyasında irili-xırdalı xeyli göllər də mövcud olmuşdur. Quberniyanın əsas gölü Göyçə idi. Göyçə gölü Yenibəyazid qəzasında $40^0$ $9^/$ və $40^0$ $38^/$ şimal enliyində, $62^0$ $41^/$ $68^0$ $22^/$ şərq uzunluğunda, dəniz səviyyəsindən 6340 fut yüksəklikdə yerləşmişdi. Onun tutduğu sahə 1213, 44 kv. verst, yaxud

1380,90 kv. km, 126400 desyatin idi. Gölün suyu göy və şəffaf idi. Göyçə gölü İrəvan quberniyasının iqtisadi həyatında böyük rol oynamışdı. Burada müxtəlif növ balıqlar, xüsusən alabalıq növü çoxluq təşkil edirdi. Göldən alabalığın beş növü tutulurdu. Göyçədə balıq ovu tez-tez icarəyə verilirdi. Bundan əlavə, İrəvan quberniyasında Ayğır, Qaragöl, Gilli yaxud Məzrə və Zod, Qanlı, Batabat, Şor və Balıq adlı göllər mövcud olmuşdur.

İrəvan quberniyası müxtəlif yeraltı qazıntı materialları ilə zəngin olan bölgə idi. Burada mis, dəmir, qızıl, qurğuşun, gümüş, sink kimi dəmir filizlərinə, duz və tikinti materiallarına rast gəlmək olardı. Lakin Rusiya hakim dairələri İrəvan misinin, duzunun emalına daha böyük diqqət vermişdi. İrəvan quberniyasında fəaliyyət göstərən əsas mis emal zavodu Aleksandropol qəzasının Şişmədən kəndində yerləşirdi və kəndin adı ilə Şişmədən zavodu adlanmışdı. Buradan hasil edilən mis əsasən hərbi məqsədlər üçün istifadə edilmişdir. İrəvan quberniyası öz duzu ilə daha məşhur idi. Qədimdən Araz çayının sağ sahilində, Sürməli qəzasının Qulp kəndində, Naxçıvan qəzasında Duzdağda, Sust kəndindən 4 verst şərqdə Sust duz mədəni yerləşirdi. Hər üç mədən öz duz hasilatı ilə nəinki İrəvan quberniyasında, eyni zamanda Cənubi Qafqazda və qonşu dövlətlərdə də məşhur idi. Çünki bu mədənlərdən hasil olunan duz yerli tələbatı ödəməklə bərabər, qonşu quberniyalara və dövlətlərə ixrac edilirdi.

İrəvan quberniyası müalicə əhəmiyyətli müxtəlif mineral suya malik bulaqlarla zəngin idi. Bu bulaqlara İrəvan şəhərinin yaxınlığında, İrəvan, Sürməli, Naxçıvan, Şərur-Dərələyəz, Üçmüəzzin, Yenibəyazid və Aleksandropol qəzalarında rast gəlmək olardı. Yerli əhali bulaqlardan müxtəlif müalicə əhəmiyyətli xəstəliklərdə - dəri və mədə-bağırsaq xəstəliklərində istifadə etmişdilər.

İrəvan quberniyası müxtəlif növ quş və heyvan növləri ilə zəngin olan bir bölgə idi. Quberniyanın müxtəlif yerlərində qu quşlarına, qaza, cüllütə, qarabatdağa, müxtəlif rəngli ördəyə, durnalara, vağa, dağlıq yerlərdə kəkliyə, dağ fərəsinə, qırqovula və s. quşlarla, dağ və meşələrdə vəhşi qoyuna, keçi və qabana, marala, dovşana, kaftara, tülküyə, canavara, ayıya və digər

heyvanlara rast gəlmək mümkündür.

İrəvan quberniyası inzibati-ərazi bölgüsünə görə qəzalara, qəzalar polis sahəsinə, sahələr kənd cəmiyyətlərinə və onlar da kəndlərə bölünmüşdü. İrəvan quberniyası 7 - İrəvan, Naxçıvan, Şərur-Dərələyəz, Sürməli, Yenibəyazid, Üçmüəzzin və Aleksandropol qəzalarından, qəzalar 25 polis sahəsindən, polis sahələri 140 kənd cəmiyyətindən və kənd cəmiyyətləri 1252 kənddən ibarət olmuşdur. Bundan əlavə İrəvan quberniyasının inzibati-ərazi bölgüsünə qəza mərkəzləri olan şəhərlər də daxil idi. Quberniyada İrəvan, Naxçıvan, Ordubad, Aleksandropol və Yenibəyazid şəhərləri olmuşdur. Bu şəhərlərin hər biri sənatkarlıq və ticarət mərkəzləri idi. Şəhərlər arasında Azərbaycanın qədim mədəniyyət, ticarət və sənətkarlıq mərkəzi olan İrəvan şəhəri əsas yeri tutmuşdu. Quberniya mərkəzi olan İrəvan şəhərində bütün dövlət idarələri, idarə rəhbərləri, sənətkarlıq və ticarət sahələri, mədəniyyət ocaqları və s. cəmləşmişdi.

Quberniyanın başında hərbi və mülki işlərə rəhbərlik edən qubernator, onun yanında müxtəlif idarəçilik bölmələrinə başçılıq edən quberniya idarəsi durmuş, vitse-qubernatorun başçılıq etdiyi bu idarəyə zemstvo, tikinti, tibbi, baytarlıq və statistik bölmələri daxil olmuşdur. Bundan əlavə, İrəvan quberniyasında müxtəlif məsələlərə baxan məhkəmə və hüquq mühafizə orqanları, prokurorluq, kəndli məsələlərinə baxan barışdırıcı münsif şöbələri, şəhər məsələləri üzrə idarə orqanları, polis idarəsi, Torpaq və Dövlət Əmlakı idarəsi, ayrı-ayrı maliyyə bölmələri, gömrükxanalar da var idi.

İrəvan quberniyasının əhalisinin etnik tərkibi əsasən Azərbaycan türklərindən, ermənilərdən, ruslardan, kürdlərdən, aysorlardan və digər xalqlardan ibarət olmuşdur. Qeyd etmək lazımdır ki, Rusiya işğalına qədər İrəvan bölgəsinin əhalisinin etnik tərkibinin böyük əksəriyyətini (80 %-dən çoxu) yerli Azərbaycan türkləri təşkil etmiş və dövlət idarələrində həmin xalqın nümayəndələri təmsil olunmuşdular. Lakin Rusiya işğalından sonra qonşu dövlətlərdən bölgəyə erməniləri, rusları, aysorları və digər xalqların nümayəndələrinin köçürülməsi ilə

onun etnik mənzərəsini tamamilə dəyişməyə cəhd göstərilmişdir. Çar Rusiyası İrəvan bölgəsini Azərbaycandan ayırmaq, Osmalı Türkiyəsi və Qacar səltənəti sərhədlərində bufer zona yaratmaq və burada xristian çoxluğuna nail olmaq üçün əhalinin etnik mənzərəsini dəyişmək siyasəti yeritmişdir. Çar Rusiyası XIX yüzilliyin 30-cu illərindən başlayaraq XX yüzilliyin əvvəllərinə qədər olan dövr ərzində mərhələ-mərhələ erməniləri Azərbaycanın İrəvan quberniyasına və digər ərazilərinə köçürmüşdür. 1829-1832-ci illərdə Qacar səltənətindən və Osmanlı Türkiyəsindən 10633 ailə, 57226 nəfər erməni, 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsində erməni və yezidi kürdlərindən ibarət 8613 nəfər, 1893-1894-cü illərdə Türkiyənin şərqində baş vermiş hadisələrlə əlaqədar olaraq 10000, 1897-ci ildə isə 90000 nəfər, 1917-ci ildə isə 17505 nəfər erməni İrəvan quberniyasına köçürülmüşdür. Lakin ermənilərdən əlavə quberniyaya digər xalqların nümayəndələri də yerləşdirilmişdir. 1832-ci ildən 1873-cü ilə qədər keçmiş İrəvan xanlığının ərazisinə ermənilərdən əlavə 6710 nəfər yad əhali (bunlardan 4339 nəfəri rus, bu siyahıda rus təriqətçilərindən başqa digər ruslar da nəzərdə tutulmuşdu), 1250 nəfəri aysor, 1090 nəfər yunan və 39 nəfər digər xalqların nümayəndələri köçürülmüşdür. Bundan əlavə, müxtəlif illərdə keçirilən siyahıyaalınmalarda bilə-bilə, qəsdən saxtakarlıqlara yol verilmiş, Azərbaycan türklərinin sayı azadılmışdı. Bu da quberniyanın etnik mənzərəsinə təsir göstərmiş, ermənilər say üstünlüyünə görə cuzi üstünlük təşkil etmişdilər. Lakin Rusiya hakim dairələrinin bütün cəhdlərinə baxmayaraq, İrəvan quberniyasının əksər qəzalarında - İrəvan, Naxçıvan, Şərur-Dərələyəz və Sürməli qəzalarında əhalinin etnik tərkibində Azərbaycan türkləri böyük üstünlüyə malik olmuşdular. Azərbaycan türklərinin nümayəndələri quberniyanın siyasi, iqtisadi və mədəni həyatında böyük rol oynamışdılar.

İrəvan quberniyasının iqtisadi həyatında kənd təsərrüfatının müxtəlif sahələri-taxılçılıq, meyvəçilik, maldarlıq, sənətkarlıq, ticarət, sənaye sahələrindən zavod və fabriklər, balıqçılıq böyük rol oynamış, əhali müxtəlif vergi vermiş və mükəlləfiyyətlər

yerinə yetirmişdilər. Kənd təsərrüfatında taxıl əkinçiliyi, pambıqçılıq, tütünçülük, ipəkçilik, meyvəçilik, maldarlıq əsas yeri tutmuşdur. XIX yüzilliyin ikinci yarısında Rusiya imperiyasında kapitalist münasibətlərinin inkişafı kənd təsərrüfatı mallarının ixracının genişlənməsinə səbəb olmuşdur. Məhz bu səbəbdən İrəvan quberniyasından müxtəlif dövlətlərə -Qacar səltənətinə, Osmanlı Türkiyəsinə, Rusiyanın müxtəlif şəhərlərinə, Avropa dövlətlərinə pambıq, ipək, mal-qara və taxıl məhsulları ixrac edilmişdir.

İrəvan quberniyası meyvəçiliyi və üzümü ilə Azərbaycanın məşhur bölgələrindən biri olmuşdur. İrəvan quberniyasında bağlar üç qrupa bölünmüşdü. Birinci qrup həyətyanı bağ, yaxud bağça adlanırdı. Adətən sahəsi az olan, meyvə bağları adlandırılan bu sahələr hər bir evin ətrafında yerləşirdi. İkinci qrupa şəhərətrafı iri bağlar daxil idi ki, əhalinin məskunlaşmadığı yerlərdə salınmışdı. Üçüncü qrupa üzüm bağları daxil idi. Quberniya bağlarında alma, şaftalı, ərik, gavalı, alça, gilas, xurma, heyva, əngir, qoz, nar, tut, albalı, iydə, zoğal, zirinc, ceviz və digər yerli meyvələr yetişdirilirdi. Bəzi meyvələr müxtəlif növləri ilə məşhur idi. Məsələn, şaftalının 4 - şafran, yarma, kərdi, şirəli; alçanın 7 - isfahan, təbriz, qırmızı, sulatan, xarci, çəyirdəkdən çıxma, göyçə; gavalının 6 - vəziri, xatun barmağı, sarı yaxud albuxara, daş və yaxud qara, göy, cancur; əriyin 12 - badamı, tez yetişən, ağca nabat, göyçə nabat, xosrof şah, təbərzə, ağ, Ordubad, xarci, acı; almanın 14 - cənnət, girdə-şirin, hacı Hüseynəli, vahab, uzun sap, akska, kərbalayı cəfər, qara, kalata, kalamfir, halal, söyüt, eşşək, uzunnuz; gilasın 4 -sarı, tezyetişən, qara, qırmızı; armudun 5 - malaça, bildirçin budu, hacımehdi, quş, rus; heyvanın 3 - ordubad, çuvaklı, turş; tutun 5 - badana, çardaqlı, şahtut, xartut, cır tut; cevizin 3 - kətanköynək, sucuq cövüz, girgit; iydənin isə innabi, təbriz və yaxud barmaq iydə növləri vardı. İrəvan üzümü keyfiyyət və kəmiyyətinə görə digər meyvələri geridə qoymuşdu. İrəvan quberniyası öz üzümü ilə daha çox məşhur idi. Burada 40 növdə üzüm yetişdirilirdi. Bunlardan ağagörməz, xəlilli (tez yetişən, ağ və uzunömürlü), dayı yeyən, rişi-baba (uzun ömürlü,

ağ və böyük), təbərzə (göyümtül, yumru), kərim (nabat) xarci, ət xərci, əsgəri (ağ və kiçik), kişmişi, kişmişi-badana (ağ və kiçik), qırmızı kişmişi, çəyirdəkli kişmişi, balaca kişmişi, misqalı (çox böyük, yumru və ağ, xanım göbəyi, keçiməməsi, hüseyni, haçabaşı (üzünömürlü, solğun göyümtül), əlvan-qara, anbarı, şirşirə, uzundərə və digər növlərini xüsusi qeyd etmək lazımdır.

İrəvan quberniyasında bostançılıq da güclü inkişaf etmişdi. Yerli əhali yeməklərin hazırlanmasında müxtəlif bostan bitkilərindən və göylərdən geniş istifadə etmişdilər. Tərəvəz bitkiləri həm dağlıq, həm də düzənlik ərazilərdə yetişdirilirdi. İrəvan quberniyasında bostan sahələri 3 qismə bölünmüşdü. Birinci qismə daxil olan daha böyük təsərrüfat sahəsi idi. Bostan adlanan bu sahə kənddən və yaşayış yerlərindən 3, 5 və yaxud 10 verst aralıda yerləşirdi. Bostanlarda qarpız, yemiş, xiyar və s. əkilirdi və bu bostan bitkiləri satılıq üçün nəzərdə tutulmuşdu. İkinci qismə daxil olan bostan daha kiçik idi və kəndlərin kənarında yerləşirdi. Burada əkilən tərəvəz yerli əhalinin öz tələbatına sərf edilirdi. Bu sahələrdə çuğundur, kələm, xiyar, pomidor, yerkökü, şalğam, turp, paxla, badımcan, noxud, mərci, qarğıdalı, istiot və s. əkilirdi. Üçüncü qism bostan yaşayış evlərinin yaxınlığında yerləşirdi. Bu bostanlar çox xırda idi. Burada müxtəlif göylərə-soğan, sarımsaq, tərxun, keşniş, nanə, gahı, vəzəri və s. rast gəlmək olardı.

İrəvan quberniyasında bostan bitkilərindən bəzilərinin müxtəlif növləri vardı. Məsələn, yemiş-şallax, dostucan, carcar və tutma, qarpız-xuni, ağabəy, qurbanağası, həsənbəy, abiax və s. növləri ilə məşhur idi. Yemişin ilk üç növü bir o qədər də zəhmət tələb etmirdi və tez yetişirdi. Bu növlər bir o qədər də gəlir gətirmirdi. Lakin yemişin tutma növü yerli əhali tərəfindən daha yüksək qiymətləndirilirdi. Tutma özü bir neçə növdən ibarət idi ki, bu növ digər növlərdən daha keyfiyyətli hesab olunurdu. Tutmanın nadirxan, mianbab, isfahan, xameyar, ağcanabat, göycənabat, yaycı və kalamqaş növləri vardı. Yemişin tutma növünün yetişdirilməsi daha çətin başa gəlirdi və daha gəlirli sayılırdı. Hətta məlumata görə, müstəqil xanlıq dövründə üzüm oğurluğuna nisbətən yemişin tutma növünün oğurluğu hakimiy-

yət orqanları tərəfindən daha sərt qayda ilə cəzalandırılırdı.

İrəvan quberniyasının əhalisi müxtəlif adda-tüstü pulu, torpaq və zemski vergisi vermişdilər. İrəvan quberniyasında zemski vergisinin sayı 8, hər evdən alınan verginin miqdarı isə 1 rubl 25 qəpiklə 7 rubl 80 qəpik arasında olmuşdur. Eyni zamanda əhali müxtəlif mükəlləfiyyətlər - yolların və körpülərin təmiri, at-araba, mənzil və hərbi mükəlləfiyyətlər yerinə yetirmişdilər. Bu mükəlləfiyyətlərdən hərbi mükəlləfiyyətə yalnız xristianlar cəlb olunmuşdular. Yerli müsəlmanlar isə hərbi mükəlləfiyyətə görə əlavə vergi ödəyirdilər.

İrəvan quberniyasında əhalinin məşğulluq sahələrindən biri də balıqçılıq idi. Bu sahə hələ qədimdən irəvanlıların məşğuliyyət sahələrindən biri olmuşdur. Ümumiyyətlə, İrəvan quberniyasının bütün çay və göllərində balıq bol olmuşdu. Lakin Yenibəyazid qəzasında yerləşən Göyçə gölü qədimdən bu sahədə ixtisaslaşmışdı. Göyçə gölündən 5 növdə balıq tutulurdu ki, bunlardan dadlı alabalıq balığı Cənubi Qafqazda daha məşhur idi. Tutulan bu balıq növü Yelizavetpol, Tiflis quberniyalarına və Cənubi Qafqazın müxtəlif yerlərinə ixrac edilirdi.

Bəhs etdiyimiz dövrdə İrəvan quberniyasının əsas torpaq fondu dövlət mülkiyyəti olan xəzinə torpaqlarından və bəylərin-mülkədarların, məliklərin, tiyul sahiblərinin ixtiyarında olan xüsusi sahibkar torpaqlarından ibarət idi. Lakin az da olsa kəndlilərin ixtiyarında olan icma torpaqları və dini idarələrə məxsus vəqf torpaqları da olmuşdur. Bundan əlavə, ümumi torpaq fonduna əkin sahələrindən əlavə meşələr, örüş yerləri, meyvə bağları da daxil olmuşdur. XX yüzilliyin əvvəllərində İrəvan quberniyasında ümumi torpaq fondu 2546088 desyatinə bərabər olmuş, bunun 1655945 desyatini xəzinənin, 890143 desyatini isə sahibkar torpaqlarının payına düşmüşdü. Ümumi torpaq fondundan xəzinə kəndlilərinin ixtiyarında 777147 desyatin, sahibkar torpaqlarında sakin olan kəndlilərin ixtiyarında 98264 desyatin, elatların istifadəsində isə 71932 desyatin torpaq vardı. Ümumilikdə kənd əhalisinin sərəncamında 947343 desyatin torpaq sahəsi, sahibkarların ixtiyarında isə 60268 desyatin torpaq sahəsi olmuş, onlardan

60126 desyatini ali təbəqənin, 142 desyatin isə xüsusi mülkiyyət sahibi olan kəndlilərin şəxsi istifadəsində olmuşdur.

İrəvan quberniyasında kəndlilər torpağı həyətyanı sahələr üzrə və icmalıqla becərmişdilər. Dövlət kəndliləri torpaqdan icmalıqla istifadə edirdilər və hər dörd ildən bir torpaqların bölgüsü həyata keçirilməli idi. Lakin torpaqların bölgüsü vaxtaşırı keçirilmir, bölgü icra olunduqda isə düzgün keçirilmirdı. Torpaq bölgülərinin keçirilməməsi üzündən kəndli pay torpaqları icma torpaqlarından həyatyanı torpaqlara çevrilir, yuxarı təbəqələrin icma torpaqlarını qəti surətdə bölüşdürmək cəhdi güclənirdi. Xüsusi çəpərlənmiş həyətyanı-malikanə torpaqlarına bağlar, üzümlüklər, süni surətdə əkilmiş meşələr, bostan və yonca sahələri daxil idi.

İrəvan quberniyasında əsas torpaq sahələrindən biri də icma torpaqları hesab olunurdu. Bu torpaqlara əkin sahələri, örüş yerləri, meşəliklər və boş çöl sahələri daxil idi. İcma torpaqları əsasən ərazilərdən və ayrı-ayrı qəzaların vəziyyətindən asılı olaraq üstünlük təşkil etmişdi.

İrəvan quberniyasında icarəyə götürülmüş torpaq sahələri də vardı. Torpaqları nəinki aztorpaqlı dövlət kəndliləri, eyni zamanda varlı sahibkarlar, həmçinin örüş yerləri az olan maldarlar icarəyə götürürdülər. Lakin icarədarların əksəriyyətini aztorpaqlı kəndlilər təşkil edirdilər. Ümumiyyətlə, kəndliləri torpaq icarəyə götürməyə məcbur edən əsas səbəb aztorpaqlılıq və suyun az olması idi. İcarə haqqı isə müxtəlif məbləğdə olmuşdur.

İrəvan quberniyasında bir neçə ailənin, həmkəndlinin öz istəkləri ilə əkin sahələrini birləşdirməsi əsasında istifadə olunan təsərrüfat sahələri də vardi. Buna Azərbaycan türkcəsində şərikli idarəetmə deyilirdi. Belə təsərrüfatlar ciddi səbəblərdən yaranırdı. Onun yaranmasının əsas səbəbi hər hansı bir ailənin ayrılqda təsərrüfatı idarə edə bilməməsi, aztorpaqlılıq və yaxud torpaqsız olması, suvarmanın gecikməsində və s. idi.

İrəvan quberniyasında kənd təsərrüfatında süni suvarma sistemindən geniş istifadə edilmişdir. Bol sulu çayların olması burada kənd təsərrüfatının inkişafına təsir göstərən əsas amillərdən biri idi. Dağlıq ərazilərdə əsasən dəmyə üsulundan istifadə

edilsə də, aran yerlərində süni-suvarmadan geniş istifadə edilmişdir. Quberniyanın şəhər və kəndləri müxtəlif iri çaylardan və bu çaylardan çəkilmiş arxlarla suvarılırdı. Rusiya işğalından sonra uzun müddət suvarma işində tənəzzül olmuşdur. Lakin XIX yüzilliyin ikinci yarısından başlayaraq çar hakimiyyət orqanları bu sahəyə diqqət yetirməyə başladı. Suyun bölüşdürülməsində xüsusi idarə orqanları fəaliyyət göstərmişdi. Bu idarə orqanı mirab və cuvarlardan ibarət olmuşdur. Mirab su işində həm inzibati, həm də məhkəmə hüququna malik idi. O, kəndləri gəzir, ona tabe olan cuvarların işinə nəzarət edir, icmalar və yaxud icma qrupları arasında suyun bölüşdürülməsinə nəzarət edir, arxlarda su bölgüsünün işarələrini qoyur və qanun pozuntularının qarşısını alırdı. Bununla belə suvarma üstündə həmişə mübahisələr, narazılıqlar yaranırdı. Bəzən bu mübahisələrin yaranmasında mirabların özlərinin günahı olurdu. Onların vəzifəsindən sui-istifadə etmələri suyun ədalətlə bölünməsinə mane olurdu. Mirablar daha çox rüşvət verən adamı su ilə təmin edirdilər. Mirab artıq sudan külli miqdarda qazanc əldə edirdi. Kəndlilər suya görə öz məhsullarını mirabla bölməyə belə hazır idi. Ona görə də, mirab bir icmada bostana, digər icmada pambıq sahəsinə, başqa icmada isə çəltik sahəsinə malik idi. Onların özbaşınalığı ona səs verməyən icmaların dağılmasına səbəb olurdu.

Su işində ikinci inzibati orqan cuvarlar idi. Cuvarlar mirablara tabe idi və sırf polis rolunu oynayırdı. Hər bir icmanın öz cuvarı vardı. Cuvarın vəzifəsi öz icma üzvləri arasında suyu bölüşdürmək, arxlarda suyu qorumaq idi. Suyun bölüşdürülməsində icmaların daxilində seçilmiş daha bir orqan- vəkillər və yaxud onbaşı də fəaliyyət göstərmişdi. Onlara bəzən "dağbaşı" deyilirdi. Belə ki, yayda suyun az olduğu vaxtlarda hər bir kəndin əhalisi qruplara bölünürdü. Qruplar arasında suyun bərabər bölüşdürülməsi üçün icma daxilində vəkillər seçilirdi. Vəkillər hər bir icma daxilində qruplar arasında suyun bölüşdürülməsinə nəzarət edir və qanun pozuntusunun qarşısını alırdı.

Çar hakimiyyət orqanları süni-suvarmanı nəzarətdə saxlamaq və bu sahədə idarə sistemini daha da yaxşılaşdırmaq üçün

1890-cı il dekabrın 3-də Cənubi Qafqaz bölgəsi üçün yeni qanun vermək məcburiyyətində qaldı. Həmin qanuna əsasən, su müfəttişliyi və su mühəndisliyi vəzifələri təsis edilmiş, onların vəzifəsi mirab və cuvarların işinə nəzarət etmək olmuşdur. "Əsasnamə"-yə görə, Qafqazda yaradılmış vahid idarə orqanı olan su müfəttişliyi 1911-ci ildən etibarən Qafqaz su idarəsi adı ilə fəaliyyət göstərməyə başlamışdı. Bu qanun 1891-ci il aprelin 1-dən qüvvəyə mindi. Qanun qüvvəyə mindikdən sonra Cənubi Qafqazda su idarələri-su sahələri və onlara tabe olan su məntəqələri yaradıldı. 1893-cü ildə İrəvan quberniyası iki su sahəsi - 2-ci, və 8-ci su sahələrinə bölünmüşdü. Sonradan daha bir-7-ci su sahəsi yaradıldı. Beləliklə, XX yüzilliyin əvvəllərində İrəvan quberniyasında 3 su sahəsi fəaliyyət göstərmiş, həmin su sahələrinə 18 su dairəsi daxil olmuşdur.

Çar hakimiyyət orqanları torpaqdan və sudan istifadə qaydaları yaratmaq üçün qanun və qərarlar versə də, lakin torpaq, su üstündə mülkədarlarla kəndlilər, ayrı-ayrı kəndlər arasında saysız-hesabsız torpaq mübarizələri, mülkədar və bəylərin özbaşınalığı haqqında çoxlu sayda şikayətlərə və açıq çıxışlara rast gəlmək mümkündür. Arxiv materiallarında İrəvan quberniyasının ayrı-ayrı qəzalarında torpaq üstündə mülkədar-kəndli qarşıdurması haqqında ətraflı məlumatlar vardır. Torpaq və su azlığından əziyyət çəkən kəndlilər onları sıxışdıran mülkədarlardan şikayət etsələr də, çar hakimiyyət orqanları əksər hallarda imtiyazlı təbəqənin xeyrinə qərar vermişdilər.

İrəvan quberniyasında eyni zamanda sənətkarlığın müxtəlif sahələri - toxuculuq, dülgərlik, misgərlik, sabunbişirən, rəngsaz, dabbaq, bənna, tütünçü, daşyonan, dəyirmançı, qəssab, dəmirçi, ayaqqabı tikən yaxud başmaqçı, arabaçı, papaqçı, yükdaşıyan, xalçaçılıq, ipəksarıma və s. sahələr inkişaf etmişdi. Sənətkarlar əsasən İrəvan quberniyasının iri şəhərlərində, sənətkarlıq emalatxanaları isə bazar ətrafında cəmləşmişdi. Bu sənətkarlıq sahələrinin əksəriyyəti əl əməyinə əsaslanmışdı. İrəvan quberniyasında istehsal yalnız kustar sənətkarlıqla məhdudlaşmırdı. Artıq XIX yüzilliyin sonlarına yaxın quberniyada zavod və fabrik adlanan

istehsal sahələri geniş fəaliyyət göstərməyə başlamışdı. Lakin onlar texniki vəziyyətinə və istehsal məhsullarının həcminə görə əsl iri sənaye müəssisələri deyildilər. Bu müəssisələrdə əsasən buxar mühərriklərdən və neftlə işləyən dəzgahlardan istifadə edilirdi. Bu zavodlar 4 qrupa bölünmüşdü; I qrup - heyvan məhsulları emalı (piybişirmə, piy çıraqları hazırlayan, sabunbişirmə və gön-dəri emalı-dabbaqçı); II qrup -bitki məhsulları emalı (ipəksarıma, üzüm-meyvə arağı istehsalı, su və buxarla işləyən dəyirman, yağ zavodu, pambıqtəmizləyən, düyütəmizləyən zavodlar); III qrup - qazıntı məhsulları emalı (mis əridən, kərpic, dulusçu, kübrə, dəyirmandaşı hazırlayanlar), IV qrup - qarışıq istehsal (rəng, təbii mineral su). Qruplardan görünür ki, bu zavodların xammalı mal-qaradan, bitki və meyvələrdən, qazıntı zamanı əldə edilmiş məhsullardan alınmışdır.

Çar Rusiyası İrəvan və Naxçıvan xanlıqlarını işğal etdikdən sonra zaman-zaman bu bölgəyə erməniləri köçürmək, bu bölgəni "xristianlaşdırmaq", Türkiyə və Qacar dövlətləri sərhədində bufer zona yaratmaq, apardığı inzibat-ərazi islahatları nəticəsində onu Azərbaycandan ayırmaq siyasəti müstəmləkəçilik planının birinci mərhələsi idi. Bunun da məntiqi nəticəsi olaraq yerli Azərbaycan türkləri sıxşdırılmış və onların yaşadığı kənd və torpaqlarda ermənilər məskunlaşdırılaraq çoxluq təşkil etmişdilər. Məskunlaşdıqdan sonra Rusiyaya arxalanan ermənilər bütün hakimiyyət orqanlarında təmsil olunmuş, Azərbaycan türklərini hər sahədə sıxışdırmağa və alçatmağa çalışmışdılar. Ermənilərdən başqa İrəvan quberniyasına ruslar, kürdlər, aysorlar, yunanlar və s. xalqlar da köçürülmüşdür. Bu istər-istəməz bölgənin etnik mənzərəsinə böyük təsir etmişdir.

XX yüzilliyin əvvəllərində Rusiya imperiyasında başlanmış böhran 1905-1907-ci illər inqilabına səbəb oldu. Mərkəzi Rusiyada baş vermiş bu vəziyyət onun müstəmləkələrinə də böyük təsir göstərmişdi. Hakimiyyətdən narazı olan xalq tətillər edirdi, açıq silahlı çıxışlar imperiyanı bürümüşdü. Bu inqilab Cənubi Qafqaza, o cümlədən Azərbaycana da böyük təsir göstərmişdi. Digər tərəfdən, erməni terror təşkilatları olan "Hnçaq" və

“Daşnaksütyun” təşkilatlarının bölgədə qızışdırıcı fəaliyyəti, ermənilər Azərbaycan türklərinə qarşı soyqırım həyata keçirməyə təhrik etməsi bölgədə vəziyyəti daha da gərginləşdirmişdi. Belə bir vaxtda hakimiyyət orqanları bu iki xalq arasında münasibətlərin gərgin olmasından bəhrələnmək qərarına gəlmişdi. Beləliklə, çar hakimiyyət orqanları Azərbaycanda, o cümlədən İrəvan quberniyasında ictimai-siyasi gərginliklə əlaqədar olaraq hakimiyyətə qarşı olacaq hər bir çıxışların qarşısını almaq, vəziyyətdən çıxmaq, hadisələri daimi nəzarətdə saxlamaq üçün erməni-Azərbaycan türk qarşıdurması siyasətini həyata keçirmək planını işə salmağa başladı. 1905-ci il fevralın 2-dən başlayaraq Azərbaycanın müxtəlif yerlərində-Bakıda, İrəvanda, Naxçıvanda, Qarabağda Gəncədə və digər yerlərdə ermənilərlə Azərbaycan türkləri arasında qarşıdurma başladı. Həmin hadisələr zamanı İrəvan qubeniyasının ayrı-ayrı şəhər və qəzalarında ermənilərlə Azərbaycan türkləri arasında qarşıdurma geniş miqyas almışdı. Azərbaycan türklərinin soyqırımında ermənilərə çar hakimiyyət orqanları da kömək etmişdilər. Hakimiyyətə arxalanan erməni daşnak dəstələri qəsdən, bilə-bilə vəziyyəti qızışdırır, şəhər və kəndlərdə Azərbaycan türklərinə qarşı qırğınlar törədirdilər. Belə qırğınlar İrəvan şəhərində və qəzasında, Naxçıvan şəhərində və qəzasında, Sürməli, Şərur-Dərələyəz, Yenibəyazid, Üçmüəzzin və Aleksandropol qəzalarında həyata keçmişdi. Ermənilərin fasiləsiz hücumları nəticəsində onlarla Azərbaycan kəndi dağıdılmış və əhalisi yurd-yuvalarından didərgin düşmüşdü. İrəvan şəhərində bir neçə dəfə barışıq müqaviləsi bağlanmasına, tərəfləri barışdırmaq üçün komissiya yaradılmasına baxmayaraq, erməni daşnaklarının günahı üzündən qırğınlar davam etmişdir. Hakimiyyət orqanları da bu işdə daimi erməniləri qızışdırmışdılar.

Bəhs etdiyimiz dövr ərzində İrəvan quberniyasında mədəniyyətin müxtəlif sahələri - təhsil, ədəbiyyat, şifahi xalq ədəbiyyatı, təsviri-incəsənət, mətbuat, teatr və s. sahələr də inkişaf etmişdi. Burada dini təhsil ocaqları ilə bərabər, müxtəlif tipli Avropa təhsil müəssisələri də fəaliyyət göstərmişdir. İrəvan quberniyasında orta məktəblərdən 1832-ci il yanvarın 14-dən açıl-

mış qəza məktəbini, sonra progimnaziyanı, kişi və qadın gimnaziyalarını, "Müqəddəs Ripsimi" qızlar məktəbini, İrəvan Müəllimlər Seminariyasını, ibtidai sinifləri, özəl məktəbləri, həm müsəlman, həm də xristian dini məktəblərini qeyd etmək olar. Bu məktəblərin əksəriyyəti dövlət və bəziləri şəxsi adamlar tərəfindən maliyyələşdirilmişdi. Yerlərdə məmur kadrlarına ehtiyacı olan və onları Rusiyadan dəvət etməyin məqsədəuyğun olmadığını nəzərə alan çar hakimiyyət orqanları dövlət məktəblərini açmaqla zadəgan və məmur uşaqlarını dövlət qulluğuna hazırlamaq və yeni hakimiyyətə sədaqətlə qulluq edən şəhər və digər imtiyazlı təbəqələrin uşaqlarını savadlandırmaq və əsasən də rus dilini yaymaq məqsədi güdmüşdür. Dövlət məktəbləri əsasən xəzinədən maliyyələşdirilirdi. Burada müxtəlif xalqların - Azərbaycan türklərinin, rusların, ermənilərin, aysorların, gürcülərin və digərinin uşaqları təhsil almışdılar. Sonralar bu məktəbləri bitirmiş Azərbaycan türk uşaqlarının bəzisi mədəniyyətimizin müxtəlif sahələrində öz sözlərini deyə bilmişdir.

Azərbaycan xalqının təhsil sistemində İrəvan Müəllimlər Seminariyası da böyük rol oynamışdır. 1881-ci il noyabrın 3-də İrəvan şəhərində açılmış bu təhsil müəssisəsi 1918-ci ilə qədər quberniyada fəaliyyət göstərmişdir. Seminariyada müxtəlif fənlər keçirilmişdir. Burada müsəlman, pravoslav, erməni-qriqoryan dini qanunları, rus dili, tarix, coğrafiya, riyaziyyat, həndəsə, hüsnü-xətt, rəsm, mahnı, tibb, Azərbaycan türk və erməni dilləri, bağçılıq və bostançılığa aid fənlər tədris edilmişdir. Tədrisdə ən çox rus dili proqramına diqqət yetirilmişdir. İrəvan Müəllimlər Seminariyasının Azərbaycan türk gənclərinin savadlanmasında xidməti əvəzsiz olmuşdur. Sonralar bu seminariyanı bitirmiş tələbələr quberniyanın müxtəlif məktəblərində müəllim kimi çalışmışdılar.

XIX yüzilliyin ortalarında çar hakimiyyət orqanları qızlar üçün də məktəb açmaq məcburiyyətində qaldı. Belə ki, 1850-ci il yanvarın 1-də İrəvanda qızlar üçün "Müqəddəs Ripsimi" məktəbi açılmışdı. İlk illərdə qızlar məktəbi iki hissədən-hazırlıq kurslarından və 3 sinifdən ibarət idi. XIX yüzilliyin 70-80-ci illərinin

əvvəllərindən “Müqəddəs Ripsimi”nin tərkibində pansion və 2 yarım pansion fəaliyyət göstərmişdi. Məktəb əsasən Müqəddəs Nina Xeyriyyə cəmiyyətinin üzvlərinin, İrəvan, Naxçıvan, Ordubad, Yenibəyazid və Aleksandropol qəzasının könüllü ianələri hesabına açılmışdı. İdarə heyəti 4 qadından ibarət olmuşdu. Xeyriyyəçilərin tərkibinə Azərbaycan türk qadınları da daxil idi. Onlardan kapitan Hüseyn Sultanın həyat yoldaşı Tovuz Bəyimi, kapitan İsmayıl xanın həyat yoldaşı xanım Canxanımı, Kərbalayı xanın həyat yoldaşı Harmud xanımı, praporşik Mahmud ağanın həyat yoldaşı Xırda xanımı, Nəcəf ağanın həyat yoldaşı Bəyim Canxanımı, Cavad ağanın həyat yoldaşı Xıdır xanımı, general-leytenant Ehsan xanımın qızı Sona Bəyimi, Şeyxislamın həyat yoldaşı Xırda xanımı və general mayor Kəlbəli xanın qızı Zəhra Bəyimi qeyd etmək olar. Qızlar üçün nəzərdə tutulmuş “Müqəddəs Ripsimi” təhsil ocağı 1918-ci ilə qədər fəaliyyət göstərmişdir. O, adi məktəbdən gimnaziyaya qədər inkişaf etmişdir.

İrəvan quberniyasında ənənəvi təhsil sistemi məscidlərin nəzdində fəaliyyət göstərmişdir. Belə məscidlər əsasən şəhər və kəndlərdə yerləşmişdi. Azərbaycan türkləri belə təhsil ocaqlarını məktəb və yaxud mədrəsə adlandırmış, burada zümrə məhdudiyyəti olmadan müxtəlif yaşlı oğlan və bəzən qız uşaqları təhsil almışdılar. Dini məktəb və mədrəsələr əsasən iri məscidlərin tərkibində fəaliyyət göstərmişdir. İrəvan quberniyasında müsəlman məktəbləri iki - ibtidai və ali təhsil pilləsindən ibarət olmuşdur. İbtidai təhsil 7 ilə qədər davam etmiş və burada oxuyan şagirdlərin yaşı 8-dən 15 yaşına qədər olmuşdur. Müəllimlk fəaliyyəti ilə din xadimləri - molla, mirzə və axundlar məşğul olmuşdular. İbtidai məktəblərdə dərslər oxumaq və yazmaqla məhdudlaşırdı. Dərslər fasilələrlə 10-12 saat davam edirdi. Əvvəlcə tələbələrə ərəb, fars və türk əlifbası, sonra isə Quran öyrədilirdi. Quranın öyrənilməsinə üç və ya dörd il vaxt sərf olunurdu. Qurandan sonra tələbələrə fars dilində olan “Gülüstan” öyrədilir, onun hər cümləsi Azərbaycan türkcəsinə tərcümə edilirdi. Ondan sonra uşaqlara əxlaqi keyfiyyətdən bəhs edilən “Nani-halva” (“Çörək və halva”) əsəri öyrədilirdi. Şagirdlərə hətta “Leyli və Məcnun”

əsəri də keçirilirdi. Bir neçə il ərzində fars dilində olan kitablar şagirdlər tərəfindən oxunub yazılırdı.

Dövlət məktəblərindən əlavə, yerli Azərbaycan türklərinin imtiyazlı və ziyalı nümayəndələri də öz vəsaitləri hesabına məktəb açır, oğlan və qızların savadlanmasının qayğısına qalırdılar. XIX əsrin 50-ci illərindən başlayaraq, müəllim heyəti qəza məktəblərinin ilk məzunları olan Azərbaycan türklərinin hesabına artmağa başladı. Məsələn, 1836-1856-cı illərdə Molla Tağı Mahmud oğlu, 1856-1885-ci illərdə Mirzə Ələkbər Elxanov qapı-qapı gəzərək uşaqları məktəblərə cəlb edir, dərs vəsaitinin olmamasına baxmayaraq onlara bilik verirdilər. Bundan başqa, məşhur yazıçı Cəlil Məmmədquluzadənin qaynı, keçmiş topçu zabiti Məhəmmədqulu bəy Kəngərli İrəvanda oğlan və qız internat məktəbləri açmış, qızlara dərs vermək üçün Peterburqdan institut bitirmiş, xüsusi müəllimə dəvət etmişdir.

Məşhur yazıçı C.Məmmədquluzadə də qızların təhsil almasında xüsusi xidməti olmuşdur. O, 1890-1897-ci illərdə Nehrəm kəndindəki iki sinifli məktəbin müdiri vəzifəsində işləyərkən, 1893-cü il yanvarın 15-ə qədər məktəbə 8 Azərbaycan türk qızını cəlb etmiş və onlara şəxsən özü dərs demişdir.

Naxçıvanda yeni üsulla fəaliyyət göstərən anadilli məktəbin açılmasında Məhəmməd Tağı Səfərovun (Sidqinin) böyük xidmətləri olmuşdur. M.T.Sidqi 1892-ci ildə Ordubad şəhərində “Əxtər” (Ulduz) adlı məktəb açmışdır. Tezliklə bu məktəb şöhrət qazanmışdır. 1892-ci il İrəvan quberniyasının icmalında məktəb və onun təsisçisi M.T.Sidqi haqqında bəhs edilmiş və göstərilmişdir ki, yerli əhali öz uşaqlarını dini məktəblərdən çəkindirib “Əxtər”ə qoyurdular. “Əxtər” 1896-cı ilə qədər fəaliyyət göstərmiş və həmin ildə rus-Azərbaycan türk məktəbinə çevrilmişdi. M.T.Sidqinin bu pedaqoji fəaliyyəti diqqətdən kənar qalmamış və o, 1894-cü ildə Naxçıvan şəhərinə dəvət olunmuşdur. Naxçıvana gələn M.T.Sidqi “Əxbər” tipli “Məktəbi tərbiyyə” adlandırılan yeni məktəb açmışdır. Yeni açılan “Məktəbi tərbiyə” bütün Cənubi Qafqazda, eyni zamanda Azərbaycan ziyalıları arasında şöhrət qazanmışdı.

İrəvan bölgəsinin ədəbi həyatında mühüm yerlərdən birini poeziya tuturdu. Şairlər şeirlərində məhəbbət mövzusu ilə bərabər dövrdən, zəmanədən şikayəti özündə əks etdirən ictimai-siyasi mövzulara da toxunurdular. İrəvan bölgəsi şairlərindən şair Məmmədsoyu (1800-1884), Alməmmədi (1800-1868), Aydını (1825-1915) göstərmək olar. Bu şairlər öz şeirlərini xalqın başa düşəcəyi canlı, səlis və aydın tərzdə yazmaqla xalq şeiri üslubu ənənələrinin zənginləşdirilməsində xüsusi xidmətlər göstərmişdilər.

Azərbaycan şifahi xalq ədəbiyyatının növlərindən biri olan aşıq şeiri İrəvanda da geniş yayılmış, bu sahədə mədəniyyətimizə böyük simalar bəxş etmişdir. Orta əsrlərdən İrəvan bölgəsində bir sıra aşıq məktəbləri formalaşmışdı. Bunlardan Göyçə, Gümrü və İrəvan aşıq məktəblərini qeyd etmək olar. Onların yaradıcılığının məhsulu olan qoşma, gəraylı, müxəmməs, dodaqdəyməz, təcnis bayatı və s. nümunələr Azərbaycan aşıq sənətinin ən gözəl nümunələri kimi diqqəti cəlb etmişdi. Göyçə məktəbinin ən parlaq simalarından Ağ Aşıq adı ilə tanınan Aşıq Allahverdini (1754-1860), onun şagirdi olmuş ustad Aşıq Alını (1800-1911), onun şagirdi olmuş ustad aşıq Ələsgəri (1821-1926), Aşıq Məhərrəmi (1825-1910), Aşıq Əzizi (1825-1918) və Aşıq Musanı (1830-1912) qeyd etmək olar. Gümrü aşıq məktəbinin tanınmış simalarından biri də Aşıq Tüccar (1780-1860) idi. İstedadı ilə xalq arasında böyük hörmət qazanmış bu aşığın çoxlu şagirdi olmuşdu. Bundan başqa, Gümrü aşıq məktəbinin tanınmış nümayəndələrindən Aşıq Beymuraz, Şirəkli Həsəni qeyd etmək olar. Hələ XIX yüzillikdə Şirəkli Həsənin Gəncədə kitabı çap olunmuşdu. İrəvan aşıq məktəbinin görkəmli simalarından Basarkeçərli Aşıq Musanı da (1795-1840) qeyd etmək olar. O da aşıq poeziyası ənənələri əsasında ədəbi irs yaradan aşıqlardan biri olmuşdur.

Bəhs etdiyimiz dövrdə Naxçıvan da öz aşıqları ilə məşhur olmuşdur. Bunlardan XIX-XX yüzilliyin əvvəllərində yaşayıb-yaratmış əslən Sisyan bölgəsinin Ulu kəndindən olan, ancaq həyatının əsas hissəsini Şahbuz rayonunda keçirən Ululu Kərimi, Aşıq Məmmədcəfəri, Ordubad rayonunun Dəstə kəndində anadan olan Aşıq Abbas Dəhrini (1818-1932), əslən Dərələyəzin Sallı

kəndindən olan, ancaq həyatının bir hissəsini Naxçıvanda keçirən Aşıq Cəlili, Aşıq Həsənalını, Aşıq Nəcəfalını, Aşıq İsmini və Aşıq Molla İsmayılı qeyd etmək olar. Naxçıvan aşıqları da yaradıcılıqlarında zəmanədən şikayət, əxlaqi və tərbiyəvi mahiyyət daşıyan, ictimai-tənqidi mövzulara daha çox yer vermişdilər.

İrəvan bölgəsində təsviri sənət də inkişaf etmişdi**.** Xan sarayının divarlarında əks etdirilən rəsmlərdən görünür ki, bu sahə İrəvanda hansı səviyyədə olmuşdur. İrəvan təsviri sənətinin çox görkəmli nümayəndələrindən biri Azərbaycanın böyük rəssamı Mirzə Qədim İrəvanidir (1825-1879). M.Q.İrəvani rəssamlıq sənətini ağac üzərində bədii oyma ustası olan atasından öyrənmişdi. Yaradıcılığının ilk dövrlərində dekorativ sənətlə məşğul olan rəssam bir sıra portretlər çəkmişdi. Mirzə Qədimin yaradıcılığında portiret janrı əsas yer tutmuşdu. Belə portretlərdən "Süvari", "Rəqqasə", "Dərviş" əsərlərini qeyd etmək lazımdır. M.Q.İrəvaninin yaratdığı rəsmlərin bir hissəsini İrəvan Sərdar sarayı üçün çəkdiyi rəsmlər təşkil edir. O, XIX yüzilliyin 50-ci illərində Sərdar sarayındakı süjetli kompazisiyaları bərpa etmiş, sarayın Güzgülü zalında bir sıra portretlər - "Fətəli şah", "Abbas Mirzə", "Hüseynqulu xan", "Sərkərdə" və s. çəkmişdir. M.Q.İrəvaninin yaradıcılığı rəngarəng olmuşdur. Onun 100-dən çox rəsm əsəri olmuş, bunlardan 25-i hazırda Bakıda İncəsənət Muzeyində, Tbilisidə və Sankt-Peterburqda saxlanılır.

İrəvan quberniyasına daxil olan Naxçıvan qəzasında da XX yüzilliyin əvvəllərində istedadlı rəssamlar yetişmişdir ki, onlardan biri də boyakarlıq və qrafika sahəsində məşhur olan Bəhruz Kəngərli idi. B.Kəngərli 1910-cu ildə C.Məmmədquluzadənin yardımı ilə Cənubi Qafqazda yeganə olan Tiflisdə Qafqaz İncəsənəti Təşviq Cəmiyyətinin nəzdindəki Boyakarlıq və Heykəltaraşlıq məktəbinə daxil olmuşdur. 1915-ci ildə həmin məktəbin məzunu olan Bəhruz Kəngərlinin yaradıcılığı çoxcəhətli olmuşdur. Yağlı və sulu boyalarla şəkillər çəkən B.Kəngərli yaradıcılığında mənzərə janrı xüsusi yeri tutmuşdur. Bununla yanaşı, onun müasirlərinin portretləri, qədim tariximizə aid yaradıcılıq məhsulları, Naxçıvan teatrında tamaşaların bədii tərtibatını verən, teatr-dekorasiya sənəti sahəsinin ilkinlərindən biri sayılan

rəssamın səhnə sahəsində fəaliyyəti diqqəti cəlb etmişdir. Onun 1912-1918-ci illərdə "Hacı Qara", "Ölülər", "Pəri cadu" əsərlərinə verdiyi səhnə tərtibatı çox uğurlu olmuşdur.

İrəvan quberniyasında mətbuat tarixi XX yüzilliyin əvvəllərindən başlayır. Buna qədər həmin bölgədə Azərbaycan türk dilində qəzet və məcmuə çap olunmamışdı. İrəvanda türk dilində ilk məcmuə olan "Lək-Lək"in (Leylək) ilk sayı 1914-cü il fevralın 22-də çapdan çıxmışdı. "Lək-Lək" qəzetinin "Nəsimi mədəniyyət", "İstiqlaliyyət, azadlıq çağrışı" və "Elanlar" şöbəsi vardı. "Lək-Lək" məcmuəsinin səhifələrində çap olunan yazılarda xurafata, fanatikliyə qarşı mübarizə, təhsil və tərbiyə, ana dilinin saflığı, yeni əlifba uğrunda və ədalətsizliyə qarşı mübarizə əsas mövzular olmuşdur. "Nəsimi mədəniyyət" epiqrafı altında çıxan haqq-ədalətə çağıran "Lək-Lək"in axırıncı sayı olan 12-ci nömrəsi 1914-cü il iyulun 30-da çıxmışdı. Bu nömrədən sonra məcmuə bağlandı.

"Lək-Lək" məcmuəsi bağlansa da, İrəvan ziyalıları ruhdan düşmədilər. Çox uzun mübarizədən sonra nəhayət, 1916-cı ildə "Bürhani-həqiqət" adlı məcmuənin nəşrinə icazə verildi. Bu məcmuənin ilk nömrəsi 1917-ci il yanvarın 1-də çapdan çıxmışdı. Məcmuənin müdiri və mühərriri "Molla Nəsrəddin" satirik jurnalının müxbiri, şair və publisist Əli Hacı Zeynalabdinzadə Rəhimov (Məhzun), naşiri tanınmış maarifçi Həsən Mirzəzadə Əliyev oldu. "Bürhani-həqiqət" məcmuəsinə Azərbaycanın ayrı-ayrı bölgələrindən şerlər, hekayələr göndərilmiş, məcmuə Azərbaycanda və Orta Asiyada yayılmışdır. Naşirləri məcmuəni daha da genişləndirmək, sayını çoxaltmaq ümidində idilər. Lakin 1918-ci ilin yayında Cənibi Qafqazda siyasi-ictimai vəziyyətin dəyişməsi, İrəvanda erməni daşnaklarının fəallaşması ilə əlaqədar olaraq, həmin il iyunun 29-da məcmuənin sonuncu-9-cu nömrəsi çapdan çıxdı. Bu "Bürhani-həqiqətin" sonuncu nömrəsi oldu.

İrəvanda peşəkar teatr tamaşalarının əsası 1882-ci il aprelin 2-də müqəddəs Qayanyan qızlar məktəbinin geniş salonunda kasıb Azərbaycan türk uşaqlarının şərəfinə "Tamahkarlıq düşmən qazanır" pyesi əsasında qoyulmuşdur. Pyes üç pərdədən ibarət olmuş,

tamaşanı həvəskarlardan ibarət qrup ifa etmişdi. Məşədi Fərəc rolunda Nəzmi, Məmmədqulu rolunda Mirzə Xəlil Hacıyev, Fətəli rolunda Rüstəmxan Abbasquluxanov, Həsən rolunda Məhəmməd adlı birisi çıxış etmişdir. 1890-cı ildə İrəvanda M.F.Axundovun "Müsyö Jordan və Məstəli şah" komediyası, ondan sonra "Könülsüz nigah" adlı vodevil tamaşaya qoyuldu.

XIX yüzilliyin 80-ci illərinin əvvəllərində Naxçıvanda da teatrın əsası qoyuldu. Bu məqsədlə 1883-cü ildə "Naxçıvan Müsəlman İncəsənəti və Dram Cəmiyyəti" yaradıldı və onun banisi E.Sultanov idi. E.Sultanovun Naxçıvan teatrının inkişafında böyük xidmətləri olmuşdur.

Beləliklə, bəhs etdiyimiz dövrdə İrəvan quberniyasında mədəniyyətin müxtəlif sahələri-təhsil, ədəbiyyat, təsviri incəsənət, mətbuat və teatr inkişaf etmişdi. Çar Rusiyasının təhsil sahəsində apardığı islahatlar quberniyanın şəhər və kəndlərində dini təhsillə bərabər Avropa təhsil sistemi də inkişaf etməyə başladı. Bu təhsil sisteminin yaradılmasında əsas məqsəd rus dilini yaymaq və hakimiyyətə sadiq məmurlar ordusunu yaratmaq olsa da, ənənəvi təhsil sistemi ilə bərabər Azərbaycan türklərinin savadlanmasında böyük rol oynamış, güclü ziyalılar nəsli yetişmiş və həmin ziyalılar Azərbaycan mədəniyyətinin inkişafında öz sözlərini demişdilər.

Garayev Elchin Teymur oglu

# WESTERN AZERBAIJAN IN THE SECOND HALF OF THE 19th -EARLY 20th CENTURIES (BASED ON MATERIALS OF IRAVAN GUBERNIA)

Under the decree issued by the Russian Tsar, the Iravan gubernia was established on the territory of the Iravan and Nakhchivan khanates, which are the ancient and primordial lands of Azerbaijan, on June 9, 1849. It started functioning as a gubernia on January 1, 1850. According to one source, the territory of Iravan gubernia was 26.450 square versts (1 verst=1.05 km), including Goycha Lake, according to another source, 24.758.3 square versts, without the lake 23.518 sq. verts, according to another source 24.454.4 square versts, or 27.830 square km, according to some information, 23.194.79 square versts, and according to another information, 24.758 square versts (2.578.959 desyatins). The Iravan gubernia bordered 256 versts with Akhalsikh and Borchaly uyezds of Tiflis gubernia from the north, 238 versts with Gazakh and Elizavetpol uyezds of Elizavetpol gubernia from the east, 182 versts with Javanshir and Zangazur uyezds from the west, Kars and Kaghizman districts of Kars province on from the west, and 376.5 with Bayazid sanjak of Turkey and Azerbaijan province of Qajar state (Maku, Garadagh and Marand) from the south.

The Iravan gubernia occupied the southern part of the Lesser Caucasus and the eastern part of the Agridagh plateau. According to the surface, the gubernia was divided into mountainous, foothill and plain zones. It was a highland area surrounded by volcanic mountains, plains, and vast steppes. Various mountains - mountain ranges passed from the territory of the gubernia - Agridagh, Alagez, Pembak, Goycha, etc. At the same time, the territory of the gubernia was surrounded with relatively wide and hilly plains stretching from west to east and

from north to south. Its main plains were Araz, Goycha and Shoreyel. Each plain was distinguished by its territory, fertility and settling.

The quality of soil in Iravan gubernia varied. The gubernia lands were divided into three parts: clayey-sandy, black soil and saline soils. Clayey soils were distinguished from each other by pure clayey, clayey-stony and clayey-sandy. Clayey soils were more abundant on the right bank of the Araz River, especially near the village of Gulp, and clayey and stony soils were mainly in the foothills of Agridagh, Alagez, and the Chobangiran plain. Black soil was mainly in the plain areas of the gubernia, and mostly in the highlands. It was found in the surroundings of Araz, Abaran, Ellidere plains, Shoreyel, a part of Sinag Mountain and Goycha Lake depression. This black soil was sometimes mixed with clay and volcanic rocks. Some of the lands of the gubernia were saline. These saline soils contained three types of salt that were used for different purposes when the soil was irrigated. Especially in plain areas, there were soils rich in three types of salts. Such lands could be found in the plain areas around Araz, Surmeli district, on both sides of the transit road between the village of Khok and the Nakhchivan city and the Ordubad road in Nakhchivan uyezd. In saline lands, only special saline grasses grew, which was used to feed camels and cattle. Due to the abundance of water in Surmeli uyezd, salt and saltpeter were produced by washing saline soils, and potash (a white alkaline substance) was prepared from saline plants. Salt and potash were sold to soap factories in Alexandropol and Kars, and after processing, they were used in soap making, and saltpeter was used in the preparation of gunpowder.

The Iravan gubernia also differed due to its climate. Its annual average temperature reached -6.40 in January and +26.10 in July. At some times, temperatures in Iravan city rose to $+40^0$ in summer, $++45^0$-$50^0$ in Nakhchivan and Ordubad, and dropped to $-26{,}5^0$ in winter. The mountainous area in Iravan gubernia distinguished for its very cold climate. Snow fell in the

mountains in Novembe; winter lasted 6-7 months, and the temperature dropped to -30$^0$ (-32,3$^0$ in Yenibeyazid).

The Iravan gubernia was not so rich in terms of forest area. Most of the forests were mainly on the mountain slopes. As in all gubernias of Azerbaijan, forests in Iravan gubernia were owned both by the treasury and private individuals. As in all areas, the tsarist authorities established state control for the management of forests in the Iravan gubernia in the second half of the 19th - the beginning of the 20th centuries. In the gubernia, the treasure forests were divided into plots, and the plots were subjected to separate forest districts. Forests consisted of 25 separate areas according to one report, and 24 according to another reports, and 4 forest districts to which the areas were subordinated. These forest districts were Iravan, Nakhchivan, Deraechichek and Alexandropol. Mainly oak, beech, elm, ebony, hornbeam, birch, apple, pear, aspen, cranberry, dog-rose, cornel, poplar, alder, linden, willow and other trees grew in the forests. Forest materials in Iravan gubernia were used mainly for firewood and coal needs of the population. Forest materials in Iravan gubernia were used mainly for firewood and coal needs of the population.

Iravan was a gubernia rich in vast summer and winter pastures for cattle grazing. Summer pastures were mainly located beginning from 7.000-8.300 feet to the top of the mountains, and winter pastures were located in low-rainfall, non-agricultural plains not higher than 3.000 feet. The summer pastures were divided into districts and they were divided into areas. Due to the condition of various mountain ranges, the number of grassland districts was 21, the number of areas was 1075, and the total area was 325.051 dessiatina (= approx. 2 3/4 acres), while the winter pastures were equal to 69ю899 dessiatina including 42 areas. The summer and winter pastures of the Iravan gubernia were used for the cattle of the gubernia and of Tiflis and Elizavetpol gubernias.

Iravan was a gubernia rich with abundant watery rivers and canals drawn from these rivers. There were Araz, Arpachay,

Qarasu, Nakhchivanchay, Zangi, Qirkhbulag, Pembak, Garni-chay, Vedichay, Keverchay, Ajichay, Janub (South) Qarasu and other rivers in Iravan. The population used the water of these rivers and the canals drawn from them to irrigate the fields and meet their demand for drinking water.

There were many large and small lakes in Iravan gubernia. The main lake of the gubernia was Goycha. Goycha Lake was located in Yenibeyazid uyezd at $40^0$ $9^/$ and $40^0$ $38^/$ north latitude, $62^0$ $41^/$ $68^0$ $22^/$ east longitude, at an altitude of 6340 feet above sea level. The area occupied by it was 1213, 44 square versts, or 1380.90 square km, it was 126.400 dessiatinas. The water of the lake was blue and limpid. Goycha Lake played a major role in the economic life of Iravan gubernia. Various species of fish, especially trout, were abundant here. Five species of trout were fished in the lake. Fishing in Goycha was often leased. Along with this, Aygir, Qaragel, Gilli or Mazra and Zod, Qanli, Batabat, Shor and Baliq lakes existed in Iravan gubernia.

The Iravan gubernia was a region rich in various underground minerals. Iron ores such as copper, iron, gold, lead, silver, zinc, salt and building materials could be found here. However, Russian ruling circles paid more attention to the processing of Iravan copper and salt. The main copper processing plant operating in the Iravan gubernia was located in the village of Shishmedan of Alexandropol uyezd, and was called the Shishmedan plant after the village. The copper produced here was mainly used for military purposes. The Iravan gubernia was more famous for its salt. From ancient times, there were salt mines on the right bank of the Araz River, in Gulp village of Surmeli uyezd, in Duzdag in Nakhchivan uyezd, and 4 versts east of the Sust village. All three mines were famous for their salt production not only in Iravan gubernia, but also in the South Caucasus and neighboring states. Because along with meeting the local demand, the salt produced from these mines was exported to neighboring gubernias and states.

The Iravan gubernia was rich in springs with various mineral waters important for treatment. These springs could be found near the city of Iravan, in Iravan, Surmeli, Nakhchivan, Sharur-Dereleyez, Uchmuazzin, Yenibeyazid and Alexandropol uyezds. The local population used these springs for various medically important diseases - dermatoses and gastrointestinal diseases.

The Iravan gubernia was a region rich in various species of birds and animals. In different parts of gubernia, one could see swans, geese, cormorants, different colored ducks, cranes, herons, in mountainous areas partridges, mountain sparrows, pheasants, etc., wild sheep, goats and boars, deer, hares, foxes, wolves, bears and other animals could be found in the mountains and forests.

According to administrative-territorial division, the Iravan gubernia was divided into uyezds, uyezds into police areas, police areas into village communities, and they were divided into villages. The Iravan gubernia consisted of 7 uyezds - Iravan, Nakhchivan, Sharur-Dereleyez, Surmeli, Yenibeyazid, Uchmuazzin and Alexandropol, uyezds consisted of 25 police areas, police areas consisted of 140 village communities, and village communities consisted of 1252 villages. Along with them, cities that were uyezd centers were included in the administrative-territorial division of the Iravan gubernia. The cities of Iravan, Nakhchivan, Ordubad, Alexandropol and Yenibeyazid were in the gubernia. Each of these cities was centers of handicraft and trade. Among the cities, the city of Iravan, the ancient center of culture, trade and crafts of Azerbaijan, took the main place. All state offices, heads of departments, handicraft and trade areas, cultural centers, etc. concentrated in the city of Iravan, which was the center of the gubernia.

At the head of the gubernia was the governor, who was in charge of military and civil affairs, and next to him was the gubernia administration, which headed various administrative divisions. Headed by the vice-governor, this department included

the zemstvo (zemstvo is one of a system of elected councils established in tsarist Russia to administer local affairs after the abolition of serfdom), construction, medical, veterinary and statistical departments. Along with it, the Iravan gubernia had judicial and law enforcement agencies dealing with various issues, prosecutor's office, conciliatory jury departments dealing with peasant issues, administrative bodies for urban issues, police department, Land and State Property department, separate financial departments, and customs offices.

The ethnic composition of the population of Iravan gubernia mainly consisted of Azerbaijani Turks, Armenians, Russians, Kurds, Aysorians and other peoples. It should be noted that before the Russian occupation, the majority (more than 80%) of the ethnic composition of the population of the Iravan region was made up of local Azerbaijani Turks, and representatives of this nation were represented in state offices. However, after the Russian invasion, an attempt was made to completely change its ethnic landscape by transferring representatives of Armenians, Russians, Aysorians and other peoples from neighboring countries to the region. Tsarist Russia implemented a policy of separating the Iravan region from Azerbaijan, creating a buffer zone on the borders of Ottoman Turkey and the Qajar state, and changing the ethnic landscape of the population in order to achieve a Christian majority here. During the period from the 30s of the 19th century to the beginning of the 20th century, Tsarist Russia gradually transferred Armenians to the Iravan gubernia and other territories of Azerbaijan. In 1829-1832, 10.633 families, 57.226 Armenians from the Qajar state and Ottoman Turkey, 8.613 Armenians and Yezidi Kurds in the Russo-Turkish war of 1877-1878, 10.000 in connection with the events in eastern Turkey in 1893-1894, in 1897, 90.000 people, and in 1917, 17.505 Armenians were transferred to the Iravan gubernia. However, in addition to Armenians, representatives of other nations were also resettled in the gubernia. From 1832 to 1873, in addition to Armenians, 6.710 foreigners (4.339 of them were

Russians, and this list also included other Russians besides Russian sectarians), 1.250 Aysorians, 1.090 Greeks, and 39 representatives of other nations had been moved to the territory of the former Iravan Khanate. Moreover, in the censuses held in different years, deliberate frauds were allowed, and the number of Azerbaijani Turks was reduced. This also affected the ethnic landscape of the gubernia, and Armenians had a slight advantage due to their numerical superiority. However, despite all the efforts of the Russian ruling circles, Azerbaijani Turks had a great advantage in the ethnic composition of the population in most districts of the Iravan gubernia – in Iravan, Nakhchivan, Sharur-Dereleyez and Surmeli uyezds. Representatives of Azerbaijani Turks played a major role in the political, economic and cultural life of the gubernia.

In the economic life of Iravan gubernia, various fields of agriculture - grain growing, fruit growing, cattle breeding, crafts, trade, plants and factories from the industrial fields, fishing played a grear role, the population paid various taxes and fulfilled obligations.

Grain farming, cotton growing, tobacco growing, silkworm breeding, fruit growing, cattle breeding took the main place in agriculture. In the second half of the 19th century, the development of capitalist relations in the Russian Empire led to the expansion of the export of agricultural goods. It is for this reason that cotton, silk, cattle and grain products were exported from the Iravan gubernia to various countries - Oajar state, Ottoman Turkey, various cities of Russia, and European countries.

The Iravan gubernia was one of the famous regions of Azerbaijan for its fruit growing and grapes. Gardens in Iravan gubernia were divided into three groups. The first group was called a personal garden or a front garden. These areas, usually small in size, called orchards, were around each house. The second group included large suburban gardens that were planted in uninhabited areas. The third group included vineyards.

Apples, peaches, apricots, plums, sweet cherries, date-pulms, quinces, grapes, walnuts, pomegranates, mulberries, cherries, cranberries, cranberries, cornel and other local fruits were grown in gubernia orchards. Some fruits were famous for their different types. For example, 4 sorts of peach – saffron, yarma, kerdi, juicy; 7 sorts of cherry – isfahan, tabriz, red, sulatan, kharji, cheyirdekden chikhma, goycha; 6 sorts of plum – veziri, khatun's finger, yellow or albukhara, stone or black, blue, janjur; 12 sorts of apricot – badami, quick-ripening, agca nabat, goycha nabat, khosrof shah, tabarza, white, Ordubad, kharji, bitter; 14 sorts of apple – jennat, girda-shirin, haji Huseynali, vahab, long stem, akska, kerbalayi jafar, black, kalata, kalamfir, halal, soyut, eshshek, uzunnuz; 4 sorts of cherry – yellow, early ripening, black, red; 5 sorts of pear – malacha, bildirchin budu (quail's leg), hajimehdi, bird, russian; 3 sorts of quince – ordubad, chuvakli, sour; 5 mulberry – badana, chardaqli, shahtut, khartut, jir tut (wild mulberry); 3 sorts of walnut – ketan koynek (linen shirt), sujuq walnut, girgit; innabi, tabriz, or finger elaeagnus types of elaeagnus grew there. The quality and quantity of Iravan grapes surpassed other fruits. The Iravan gubernia was more famous for its grapes. 40 types of grapes were grown here. Among them, agagormez, khalilli (quickly ripening, white and longeval), dayi yeyen, rishi-baba (longeval, white and big), tabarza (bluish, round), kerim (nabat) kharji, et kharji, askeri (white and small), kishmishi, kishmishi -badana (white and small), red kishmishi, stone-kishmishi, small kishmishi, misqali (very large, round and white, khanim gobeyi (lady's navel), kechimemesi, huseyni, hachabashi (longeval, pale bluish), bright black, anbari, shirsire, uzundere and other types should be specially mentioned.

Horticulture was also strongly developed in Iravan gubernia. The local population widely used various vegetables and greens in cooking. Vegetable crops were grown in both mountainous and plain areas. Watermelon fields in Iravan gubernia were divided into 3 groups. Included in the first group

was a larger farm area. This field, called bostan (watermelon fields), was located 3, 5 or 10 versts from the village and settlements. Watermelon, melon, cucumber, etc. was planted and these melon plants were intended for sale. The melon field included in the second group was smaller and located on the outskirts of the villages. The vegetables grown here were consumed by the local population. Beets, cabbage, cucumbers, tomatoes, carrots, turnips, radishes, beans, eggplants, peas, lentils, corn, peppers, etc. were grown in these fields. The third group was located near the dwellings. These watermelon fields were very small. Here one can find different types of onions, garlic, tarragon, coriander, mint, lettuce, garden-cress, etc.

There were different types of some of the melon plants in Iravan gubernia. For example, yemish-shallakh, dostujan, jarjar and tutma, karpiz-khuni, agabey, qurbanagasi, hasanbey, abiakh, etc. was famous for its varieties. The first three sorts of melon did not require much effort and ripened quickly. These sorts were not very profitable. However, the local population appreciated the tutma sort of melon more highly. The tutma itself consisted of several species, which were considered to be of better quality than others. Tutma had nadirkhan, mianbab, isfahan, khameyar, aghjanabat, goyjanabat, yayji and kelemgash varieties. Cultivation of the tutma type of melon was more difficult and considered more profitable. Even according to the information, during the independent khanate, the theft of tutma sort of melon was punished by the authorities with a stricter rule than the theft of grapes.

The people of Iravan gubernia paid various sums of money – tustu pulu, land and zemsky tax. The number of zemsky taxes in the Iravan gubernia was 8, and the amount of tax collected from each house was between 1 ruble 25 copecks and 7 rubles 80 copecks. At the same time, the population fulfilled various duties - repair of roads and bridges, horses and carts, housing and military obligations. Only Christians were involved in military duty. Local Muslims paid additional taxes for military duties.

Fishing was one of the occupations of the population in Iravan gubernia. This area had been one of the areas of occupation of the people of Iravan since ancient times. In general, there were plenty of fish in all the rivers and lakes of Iravan gubernia. However, Lake Goycha, located in Yenibeyazid uyezd, had been specialized in this field since ancient times. 5 types of fish were caught from Lake Goycha, of which the delicious trout fish was more popular in the South Caucasus. This type of fish caught was exported to Elizavetpol, Tiflis gubernias and various places of the South Caucasus.

In the period we are talking about, the main land fund of the Iravan gubernia consisted of state-owned treasury lands and private lands in the possession of beys-landlords, meliks, tiyul owners. However, there were community lands owned by the villagers and waqf lands owned by religious authorities. Along with these, forests, pastures, and orchards were included in the general land fund in addition to agricultural lands. At the beginning of the 20th century, the total land fund in the Iravan gubernia was equal to 2.546.088 dessiatinas, of which 1.655.945 dessiatinas belonged to the treasury, and 890.143 dessiatinas were owned by land possessors.

From the general land fund, the treasury peasants had 777.147 dessiatinas, the peasants living in the owner's lands had 98.264 dessiatinas, and the elats (a group of related people) had 71.932 dessiatinas. On the whole, 947.343 dessiatinas of land were at the disposal of the rural population, and 60.268 dessiatinas of land were owned by possessors, of which 60.126 dessiatinas were owned by the upper class, and 142 dessiatinas were privately owned by the peasants.

In the Iravan gubernia, the peasants cultivated the land in plots adjoining the house and communally. The state peasants used the land communally, and every four years the distribution of the land had to be carried out. However, the distribution of lands was not carried out periodically, and when the distribution was carried out, it was not carried out properly. Due to the lack

of land distribution, the peasant share lands were transformed from community lands to house lands, and the attempt of the upper classes to decisively distribute community lands intensified. Privately fenced manor lands included gardens, vineyards, man-made forests, and fields of melons and alfalfa.

One of the main plots of land in Iravan gubernia was community lands. These lands included croplands, pastures, woodlands, and wasteland. Communal lands prevailed mainly depending on the territories and the situation of individual uyezds.

There were also leased plots of land in Iravan gubernia. Land was leased not only by state peasants with small plots, but also by wealthy landowners, as well as cattle-breeders with little grazing land. However, the majority of leaseholders were peasants with little land. In general, the main reason that forced the peasants to rent land was the lack of soil and water. The rent was in different amounts.

There were farms in Iravan gubernia that were used by several families and fellow villagers on the basis of their desire to combine agricultural fields. This was called participatory management in Azerbaijani Turkish. Such farms were created for serious reasons. The main reason for its creation was the inability of any family to manage the farm separately, small plots or lack of land, delay in irrigation, etc.

Artificial irrigation system was widely used in agriculture in Iravan gubernia. The presence of abundant rivers was one of the main factors influencing the development of agriculture here. Although in the mountainous areas, the method of
not requiring irrigation was mainly used, artificial irrigation was widely used in the lowlands. The cities and villages of the gubernia were irrigated by various large rivers and canals drawn from these rivers. After the Russian occupation, there was a decline in irrigation for a long time. However, starting from the second half of the 19th century, the tsarist authorities began to pay attention to this area. Special management bodies acted in the distribution of water. This administrative body consisted of

mirab (distributor of water) and juvars (water controllers). Mirab had both administrative and judicial rights in water affairs. He visited the villages, supervised the work of the juvars under him, supervised the distribution of water between communities or community groups, marked the distribution of water in ditches, and prevented violations of the law. However, there were always disputes and dissatisfaction over irrigation. Sometimes the mirabs themselves were to blame for these disputes. Their abuse of duties prevented the equitable distribution of water. Mirabs mostly provided water to the person who gave the bribe. Mirab was already making huge profits from water. The peasants were even ready to share their crops with mirab for water. Therefore, a mirab had a melon field in one community, a cotton field in the other, and a rice field in another community. Their arbitrariness led to the disintegration of communities that did not vote for him.

Juvars were the second administrative body in water affairs. The juvars were subordinate to the mirabs and only played the role of police. Each community had its own juvar. Juvar's duty was to distribute water among his community members and conserve water in ditches. Another body elected within the communities - representatives or foreman - was also involved in the distribution of water. They were sometimes called "daghbashi". So, when there was little water in the summer, the population of each village was divided into groups. Advocates or representatives were elected within the community to distribute water equally among the groups. Advocates monitored the distribution of water among groups within each community and prevented the violation of law.

The tsarist authorities had to issue a new law for the South Caucasus region on December 3, 1890, in order to control artificial irrigation and improve the management system in this area. According to that law, the positions of water inspector and water engineer were established, and their duty was to control the work of mirab and juvars. According to the "Regulations", the water inspectorate, which was a unified management body established

in the Caucasus, began to operate under the name of the Caucasus Water Administration since 1911. This law came into force on April 1, 1891. After the law entered into force, water administrations-water areas and water points subordinated to them were created in the South Caucasus. In 1893, the Iravan gubernia was divided into two water areas - 2nd and 8th water areas. Afterwards, another – 7th water area was created. Thus, at the beginning of the 20th century, 3 water areas operated in Iravan gubernia, and 18 water districts were included in those water areas.

Although the tsarist authorities issued laws and decrees to establish rules for the use of land and water, one can find a great number of complaints and open acts about land and water between landlords and peasants, individual villages, and the arbitrariness of landlords and beys. The archival materials contain detailed information about the landowner-peasant conflict over land in separate uyezds of Iravan gubernia. Although the peasants, who suffered from lack of land and water, complained about the landlords who oppressed them, in most cases the tsarist authorities decided in favor of the privileged class.

At the same time, various fields of crafts - weaving, carpentry, coppersmithing, soap making, house-painter, tanner, bricklayer, tobacconist, stonemason, miller, butcher, blacksmith, shoe maker or cobbler, cart man, hatter, porter, carpet weaving, silk spinner, and other fields were developed in Iravan gubernia. Artisans were mainly concentrated in the big cities of Iravan gubernia, and craft workshops were concentrated around the bazaar. Most of these craft areas were based on manual labor. Production in Iravan gubernia was not limited to handicrafts. Already by the end of the 19th century, production areas called plant and factories began to operate widely in the gubernia. However, they were not real large industrial enterprises for their technical condition and volume of production products. Steam engines and oil-powered machines were mainly used in these enterprises. These factories were divided into 4 groups; Group I - processing of animal products (fat cooking, preparation of fat

lamps, soap making and leather processing-tanner); Group II - plant products processing (sericulture, production of grape-fruit vodka, water and steam mill, oil factory, cotton-cleaning, rice-cleaning factories); Group III - processing of mining products (copper smelter, brick, potter, fertilizer, millstone makers), Group IV - mixed production (paint, natural mineral water). It can be seen from the groups that the raw materials of these factories were obtained from livestock, plants and fruits, and products obtained during excavation.

After occupying the Iravan and Nakhchivan khanates, Tsarist Russia's policy of relocating Armenians to this region from time to time, "Christianizing" this region, creating a buffer zone on the border of Turkey and the Qajar states, and separating it from Azerbaijan as a result of the administrative-territorial reforms it carried out was the first stage of the colonial plan. As a logical result of this, local Azerbaijani Turks were oppressed and Armenians settled in the villages and lands where they lived and formed a majority. After settlement, Armenians who relied on Russia were represented in all authorities and tried to oppress and humiliate Azerbaijani Turks in every area. Apart from Armenians, Russians, Kurds, Aysorians, Greeks, and other peoples were moved to Iravan gubernia. This inevitably had a great impact on the ethnic landscape of the region.

The crisis in the Russian Empire at the beginning of the 20th century led to the revolution of 1905-1907. This situation in Central Russia had a great impact on its colonies. Dissatisfied with the government, the people went on strikes, open armed demonstrations enveloped the empire. This revolution had had a great impact on the South Caucasus, including Azerbaijan. On the other hand, the incendiary activities of the Armenian terror organizations "Hnchag" and "Dashnaksutyun" in the region, inciting Armenians to commit genocide against Azerbaijani Turks, made the situation in the region even more tense. At such a time, the authorities decided to take advantage of the strained relations between these two peoples. Thus, the tsarist authorities

began to implement the policy of Armenian-Azerbaijani Turkish confrontation in order to prevent any acts against the authorities, to get out of the situation, and to keep the events under constant control due to the socio-political tension in Azerbaijan, including the Iravan gubernia. Starting from February 2, 1905, conflict began between Armenians and Azerbaijani Turks in different parts of Azerbaijan - Baku, Iravan, Nakhchivan, Ganja, Karabakh and other places. During those events, the conflict between Armenians and Azerbaijani Turks in separate cities and uyezds of Iravan gubernia became widespread. Tsarist authorities also helped Armenians in the genocide of Azerbaijani Turks. The Armenian Dashnak gangs, relying on the authorities, intentionally and knowingly stirred up the situation and committed massacres against Azerbaijani Turks in cities and villages. Such massacres were committed in Iravan city and uyezd, Nakhchivan city and uyezd, Surmeli, Sharur-Dereleyez, Yenibeyazid, Uchmuazzin and Alexandropol uyezds. As a result of continuous attacks by Armenians, dozens of Azerbaijani villages were destroyed and their inhabitants were displaced from their homes. Despite the fact that a reconciliation agreement was signed several times in the city of Iravan, and a commission was established to reconcile the parties, the massacres continued due to the guilt of the Armenian Dashnaks. The authorities also incited Armenians in this case.

During the period we are talking about, various fields of culture - education, literature, oral folk literature, fine arts, press, theater, and other fields were also developed in Iravan gubernia. Along with religious educational institutions, various types of European educational institutions also operated here. Among the secondary schools in the Iravan gubernia, the uyezd school opened on January 14, 1832, the pro-gymnasium, gymnasiums for men and women, “Holy Ripsimi” girls’ school, the Iravan Teachers’Seminary, elementary classes, private schools, both Muslim and Christian religious schools can be stated. Most of these schools were funded by the government and some by

private individuals. The tsarist authorities, which needed civil servants in places and considered that it was not appropriate to invite them from Russia, aimed to prepare the children of nobles and civil servants for public service by opening public schools, to educate the children of the urban and other privileged classes who would loyally serve the new government, and mainly to spread the Russian language. Public schools were mainly financed from the treasury. Children of different nations - Azerbaijani Turks, Russians, Armenians, Aysorians, Georgians, and others - were educated here. Later, some of the Azerbaijani Turkish children, who graduated from these schools, were able to express themselves in various fields of our culture.

Iravan Teachers' Seminary also played a great role in the education system of the Azerbaijani people. This educational institution, opened in Iravan on November 3, 1881, operated in the gubernia until 1918. Various subjects were taught at the seminary. Muslim, Orthodox, Armenian-Gregorian religious laws, Russian language, history, geography, mathematics, geometry, calligraphy, painting, singing, medicine, Azerbaijani Turkish and Armenian languages, horticulture and truck farming were taught here. Most of the attention was paid to the Russian language program. The service of the Iravan Teachers' Seminary in the education of Azerbaijani Turkish youth had been irreplaceable. Later, students who graduated from this seminary worked as teachers in various schools of the gubernia.

In the mid of the 19th century, the tsarist authorities were forced to open a school for girls as well. Thus, on January 1, 1850, the "Holy Ripsimi" school for girls was opened in Iravan. In the first years, the girls' school consisted of two parts - preparatory courses and 3 classes. From the beginning of the 70s - 80s of the 19th century, a boarding house and 2 half-boarding houses operated as part of "Holy Ripsimi". The school was opened mainly due to the voluntary donations of the members of Saint Nina Charitable Society, Iravan, Nakhchivan, Ordubad, Yenibeyazid and Alexandropol uyezds. The board consisted of 4

women. Among the benefactors were Azerbaijani Turkish women as well. Among them we can mention Tovuz Beyim, the wife of Captain Huseyn Sultan, Jankhanim khanim, the wife of Captain Ismayil Khan, Harmud khanim, the wife of Karbalai Khan, Khirda khanim, the wife of Ensign Mahmud Agha, Beyim Jankhanim, the wife of Najaf Agha, Khidir khanim, the wife of Javad Agha, Sona Beyim the daughter of the Lieutenant General Ehsan khan, Khirda khanim, the wife of Sheikhislam, and Zahra Beyim, the daughter of Major General Kalbali Khan. The "Holy Ripsimi" school for girls operated until 1918. It had progressed from regular school to gymnasium.

The traditional education system in the Iravan gubernia operated under the mosques. Such mosques were mainly located in cities and villages. Azerbaijani Turks called such educational institutions schools or madrasahs, where boys and sometimes girls of different ages were educated without class restrictions. Religious schools and madrasahs mainly functioned as part of large mosques. Muslim schools in Iravan gubernia consisted of two levels - primary and higher education. Primary education lasted up to 7 years and the age of the students studying here was from 8 to 15 years. Religious figures - mullahs, mirzas and akhunds were engaged in teaching activities. In primary schools, lessons were limited to reading and writing. Classes lasted 10-12 hours with breaks. First, the students were taught the Arabic, Persian and Turkish alphabets, and then the Koran. It used to take three or four years to study the Qur'an. After the Qur'an, the students were taught "Gulistan" in Persian, each sentence of which was translated into Azerbaijani Turkish. After that, the children were taught the work "Nani-halwa" ("Bread and Halwa"), which is about moral quality. Even "Leyli and Majnun" was ptaught to the students. For several years, books in Persian language were read and written by students.

Along with public schools, privileged and intelligent representatives of the local Azerbaijani Turks opened schools at their own expense and took care of the education of boys and

girls. Starting from the 50s of the 19th century, the teaching staff began to increase at the expense of Azerbaijani Turks, who were the first graduates of uyezd schools. For example, in 1836-1856, Molla Taghi Mahmud oglu, and in 1856-1885, Mirza Alakbar Elkhanov went from door to door, attracting children to schools and imparting knowledge to them despite the lack of textbooks. Along with them, the brother-in-law of the famous writer Jalil Mammadguluzadeh, ex-artillery officer Muhammadgulu bey Kengerli opened boarding schools for boys and girls in Iravan, and invited a special teacher graduated from an institute in Petersburg to teach girls.

The famous writer J. Mammadguluzadeh also made a special contribution to the education of girls. In 1890-1897, while working as the director of a two-class school in the village of Nehram, until January 15, 1893, he attracted 8 Azerbaijani Turkish girls to the school and taught them personally.

Muhammad Taghi Safarov (Sidqi) made great contributions to the opening of the mother-tongue school operating in a new way in Nakhchivan. In 1892, M.T. Sidqi opened a school called “Akhtar” (Star) in Ordubad city. Soon this school gained fame. In the 1892 overview of the Iravan gubernia, it was mentioned about the school and its founder M.T. Sidqi, and it was shown that the local population kept their children away from religious schools and sent them to “Akhbar”. “Akhbar” operated until 1896, and in that year it became a Russian-Azerbaijani Turkish school. This pedagogical activity of M.T. Sidqi did not go unnoticed and he was invited to the city of Nakhchivan in 1894. M.T. Sidqi, who came to Nakhchivan, opened a new “Akhbar” type school called “Mektebi terbiyye” (School of Education). The newly opened “Mektebi terbiyye” gained fame throughout the South Caucasus, as well as among Azerbaijani intellectuals.

Poetry occupied one of the important places in the literary life of the Iravan region. In their poems, along with the theme of love, the poets touched upon social and political issues, which

included complaints about the time. Among the poets of the Iravan region, we can mention the poet Mammadsoy (1800-1884), Almammad (1800-1868), Aydin (1825-1915). By writing their poems in a lively, fluent and clear manner that the people could understand, these poets rendered special services in enriching the traditions of folk poetry style.

Ashiq poetry, which is one of the types of oral folk literature of Azerbaijan, was widespread in Iravan and had given great figures to our culture in this field. Since the Middle Ages, a number of Ashiq schools were formed in the Iravan region. Among them, Goycha, Gyumri and Iravan ashiq schools can be mentioned. The product of their creativity – qoshma, garayli, mukhammas, dodaqdeimez, tajnis bayat (forms of Azerbaijani poem), and other examples attracted attention as the most beautiful samples of Azerbaijani Ashiq art. Ashiq Allahverdi (1754-1860), also known as White Ashiq, was one of the brightest figures of the Goycha school, his student Ashiq Aly (1800-1911), his student Ashiq Alasgar (1821-1926), Ashiq Muharram (1825-1910), Ashiq Aziz (1825-1918) and Ashiq Musa (1830-1912) can be mentioned. Ashiq Tujjar (1780-1860) was one of the well-known figures of Gyumri ashiq school. This ashiq, who gained great respect among the people with his talent, had many students. Besides him, Ashiq Beymuraz and Hasan of Shirak can be mentioned as well-known representatives of the Gyumri ashiq school. Still in the 19th century, Hasan of Shirak's book was published in Ganja. Ashiq Musa of Basarkechar (1795-1840) can be mentioned as one of the prominent figures of the Iravan ashiq school. He was one of the ashiqs who created a literary heritage based on the traditions of ashiq poetry.

In the period we are talking about, Nakhchivan was also famous for its ashiqs. Among them we can mention Ululu Kerim, who lived and created in the beginning of the 19th-20th centuries, originally from Ulu village of Sisian region, but spent the main part of his life in Shahbuz district, Ashiq Mammadjafar, Ashiq Abbas Dahri (1818-1932), who was born in Daste village

of Ordubad district; Ashiq Jalil, originally from Salli village of Dereleyez, who spent part of his life in Nakhchivan, Ashiq Hasanaly, Ashiq Najafaly, Ashiq Ismi and Ashiq Molla Ismayil,. The ashiqs of Nakhchivan also gave more space to social and critical topics, which have a moral and educational nature, complaining about the times, in their works.

Fine arts also developed in the Iravan region. The level of this area in Iravan can be seen from the paintings reflected on the walls of the Khan's palace. One of the most prominent representatives of Iravan fine art is Mirza Gadim Iravani (1825-1879), the great artist of Azerbaijan. M.G. Iravani learned the art of painting from his father, who was a master of wood engraving. In the early periods of his creativity, the artist, who was engaged in decorative arts, painted a number of portraits. The genre of portraiture played a major role in Mirza Gadim's creativity. Among such portraits, it should be mentioned the works "Horseman", "Dancer", "Dervish". Part of the paintings created by M.G. Iravani are the those he painted for the Sardar palace in Iravan. In the 50s of the 19th century, he restored the plot compositions in the Sardar palace, and in the Guzgulu hall of the palace, he painted a number of portraits – "Fathali Shah", "Abbas Mirza", "Huseyngulu Khan", "Sarkarda"(Commander) etc. M.G. Iravani's creativity was colorful. He had more than 100 paintings, 25 of which are currently kept in Baku Art Museum, Tbilisi and St. Retherburg.

At the beginning of the 20th century, talented artists grew up in Nakhchivan uyezd, included in the Iravan gubernia, and one of them was Bahruz Kengerli, famous in the field of painting and graphics. In 1910, with the help of J. Mammadguluzadeh, B. Kengerli entered the Painting and Sculpture school of the Caucasian Art Promotion Society in Tiflis, the only one in the South Caucasus. The creativity of Bahruz Kengerli, who graduated from that school in 1915, was multifaceted. The landscape genre has a special place in the creativity of B. Kengerli, who painted pictures with oil and water colors. At the

same time, the portraits of his contemporaries, creative products related to our ancient history, and the stage activity of the artist, who is considered one of the pioneers of theater-decoration art, who provided the artistic arrangement of performances in the Nakhchivan theater, attracted attention. his stage designs for "Haji Qara", "Oluler" (The dead), "Peari Jadu" in 1912-1918, were very successful.

The history of the press in Iravan gubernia begins from the early 20th century. Before that, there were no newspapers and magazines published in the Azerbaijani Turkish language in that region. The first issue of "Lek-Lek" (Stork), the first magazine in Turkish in Iravan, was published on February 22, 1914. "Lek-Lek" magazine had such sections as – "Nasimi culture", "Call for independence and freedom" and "Announcements". In the articles published on the pages of the "Lek-Lek" magazine, the main topics were the fight against superstition, fanaticism, education and upbringing, the purity of the mother tongue, the fight for a new alphabet and the fight against injustice. The 12$^{th}$ - the last issue of "Lek-Lek", which appeared under the epigraph "Nasimi culture", was published on July 30, 1914. After this issue, the magazine was closed.

Although the "Lek-Lek" magazine was closed, the intellectuals of Iravan did not lose heart. After a long struggle, finally in 1916 permission was given to publish the magazine "Burhani-haqiqat". The first issue of this magazine was published on January 1, 1917. The manager and editor of the magazine was Ali Haji Zeynalabdinzadeh Rahimov (Mahzun), the correspondent of the satirical magazine "Molla Nasreddin", poet and publicist, and the publisher was the well-known educator Hasan Mirzazadeh Aliyev. Poems and stories from different regions of Azerbaijan were sent to the magazine "Burhani-haqiqat", and the magazine was spread in Azerbaijan and Central Asia. Publishers hoped to further expand the magazine and increase its number. However, due to the change of the political and social situation in the South Caucasus in the summer of

1918, and the activation of the Armenian Dashnaks in Iravan, on June 29 of that year, the last - 9th issue of the magazine was published. This was the last issue of "Burhani-haqiqat".

The foundation of professional theater performances in Iravan was laid on April 2, 1882, in the spacious hall of the holy Gayanyan girls' school, based on the play "Greed wins the enemy" in honor of poor Azerbaijani Turkish children. The play consisted of three acts, performed by a group of amateurs. Nazmi played the role of Mashadi Faraj, Mirza Khalil Hajiyev played the role of Mammadgulu, Rustamkhan Abbasgulukhanov played the role of Fathali, and a certain Muhammad played the role of Hasan. In 1890, M.F. Akhundov's comedy "Monsieur Jordan and dervish Mastali Shah" was staged in Iravan, followed by a vaudeville performance called "Unwilling Marriage".

In the early 80s of the 19th century, the theater was founded in Nakhchivan. For this purpose, "Nakhchivan Muslim Art and Drama Society" was established in 1883 and its founder was E. Sultanov. E. Sultanov made great contributions to the development of Nakhchivan theater.

Thus, in the period we are talking about, various fields of culture - education, literature, fine arts, press and theater – developed in Iravan gubernia. The reforms carried out in the field of education by Tsarist Russia led to the development of the European education system along with religious one in the cities and villages of the gubernia. Although the main goal of this education system was to spread the Russian language and create an army of officials loyal to the government, along with the traditional education system, it played a major role in the education of Azerbaijani Turks, a generation of strong intellectuals grew up, and those intellectuals had given their contribution to the development of Azerbaijani culture.

# ƏLAVƏLƏR

**İrəvan quberniyasının qubernatorları:**

1. General-mayor Lev Lvoviç Albrant - (21 iyun 1849-13 dekabr 1849)
2. General-mayor İvan İvanoviç Nazarov - (15 fevral 1850-17 aprel 1858)
3. General-leytenant N.Kolyubakin - (17 aprel 1858-6 aprel 1861)
4. General-mayor Pavel Osipoviç Şerbov-Nefedoviç-(1 dekabr 1861-7 yanvar 1864)
5. General-mayor Mixail İvanoviç Astafyev - (24 mart 1864-8 may 1869)
6. General-leytenant Nikolay Nikolayeviç Karmalin - (8 may 1869-26 iyun 1873)
7. General-leytenant Roslavlev Mixail İvanoviç - (30 iyun 1873-11 mart 1880)
8. General-leytenant Mixail Şalikov - (22 mart 1880-22 dekabr 1890)
9. General-leytenant Freze Aleksandr Aleksandroviç - (2 fevral 1891-16 noyabr 1895)
10. Qraf, həqiqi mülki müşavir (gizli müşavir) Vladimir Fyodroviç Tizenqauzen - (20 fevral 1896- 23 aprel 1906, dekabr 1906-1914)
11. General-leytenant Napoleon Bonapart Lui (Lyudovik) - (aprel 1906-dekabr 1906)
12. Saray müşaviri (mülki müşavir) Arkadiy Yevgeneviç Strelbiçskiy - (1914-1917)
13. V.A.Xarlamov - (mart 1917-noyabr 1917)
14. A.Aqaryan - (noyabr 1917)

**İrəvan quberniyasının vitse-qubernatorları:**

1. Saray müşaviri (mülki müşavir) Blavatskiy Nikifor Vasilyeviç-(1849-1861)
2. Həqiqi mülki müşavir Düzyubenko Vasiliy Afanasiyeviç-(1861-1865)
3. Həqiqi mülki müşavir Buçen Karl İqnatyeviç-(1865-1873)
4. Həqiqi mülki müşavir Çexovskiy Valeriy Afanasiyeviç- (30 dekabr 1873-9 fevral 1890
5. Qraf, həqiqi mülki müşavir (gizli müşavir) Tizenqauzen Vladimir Fyodroviç (29 noyabr 1890- 29 oktyabr 1892)
6. Knyaz, həqiqi mülki müşavir Nakaşidze Mixayıl Aleksandroviç-(19 noyabr 1892-15 mart 1904)
7. Podpolkovnik Tarnovskiy Viktor Petroviç-(6 sentyabr 1904-13 avqust 1905)
8. Knyaz, mülki müşavir Çeqodayev Aleksey Pavloviç-(1913-1914)
9. Saray müşaviri (mülki müşavir)-Strelbiçskiy Arkadiy Yevgeneviç (1914-1916)




**İrəvan quberniyasının xəritəsi**




**1882-ci ildə İrəvan quberniyasının atlası (Edinburq)**




**İrəvan şəhəri. Rəssam J.Şarden (1673-cü il)**

На подлинномъ Собственною ЕГО ИМПЕРАТОРСКАГО ВЕЛИЧЕСТВА рукою написано:

*„Утверждаю.“*

*5-го Іюля 1878 г. въ Царскомъ Селѣ.*



Гербъ

ЭРИВАНСКОЙ ГУБЕРНІИ.

Въ лазуревомъ щитѣ, серебряная скала, увѣнчанная золотымъ Русскимъ крестомъ. Щитъ увѣнчанъ Императорскою короною и окруженъ золотыми дубовыми листьями, соединенными Андреевскою лентою.

Картографическое Заведеніе А. Ильина, на углу Екатерингофскаго просп. и Б. Мастерской, № 11/43.

67

**1878-ci il iyulun 5-də çar II Aleksandr (1851-1881) tərəfindən təsdiq olunmuş İrəvan quberniyasının gerbi**



**İrəvan qalasının maketi. İrəvan şəhər tarix muzeyi**




**İrəvan şəhərinin ümumi görünüşü**



**Erməni vandalları tərəfindən dağıdılan İrəvan qalası. XX əsrin əvvəlləri**



**İrəvan qalasının divarlarının qalığı, XX əsrin 30-cu illəri**




**Zəngi çayı və Sərdar sarayı**



FIG. 46. ERIVAN: INTERIOR OF THE KIOSQUE OF THE SIRDARS.

**Xan sarayının "Şüşəbənd" adlanan Güzgülü zalı**




**Sərdar bağının görünüşü**



**Zəngi çayı üzərindəki körpü**



**İrəvanda dağıdılan azərbaycanlı məhəlləsi.**
**XX əsrin sonu**



**Göy məscid (1764-1768) (qədimi görünüşü)**



**Göy məscid.**
**XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəllərində**



**Göy məscid**




**Zalxan məscidi**




**1876-cı ildə İrəvan-Yelizavetpol Xalq Təhsili Direksiyasının vəziyyəti**



**İrəvan rus-müsəlman qızlar məktəbinin müəllim və şagirdləri (1902-ci il)**




**İrəvan azərbaycanlıları. XX əsrin əvvəli**




**Şəhər Dumasının binası və meydan**



№ 1 и 22 Февраля 1914 г.   (۹) ۱۳۳۲ شنبه برنجی ایل

ترك دیلنده هفته لیك مضحکه لی مجموعه در

Цѣна 7 коп.   Лекъ-Лекъ   هر نسخه سی (۷) قپیکدر

آبونه

مندرجات

اعلان قیمتی . — ایکینجی صحیفه . هر سطری ۳۰ قپیك سکزنجی صحیفه ده ۲۰ قپیك در

آدرس — ایروان «لك . لك» اداره سی م — میر فتح الله یوف تلفون نمره سی (۱۱۷)

Адресъ: Эривань, редакція журнала «лекъ-лекъ» М. Миръ-фатуллаеву телефонъ №117

**Azərbaycan türkcəsində çıxan "Lək-Lək" jurnalının ilk səhifəsi (1914-cü il 22 fevral)**



**Kotan, cüt və digər əkin üçün qurğu alətləri**



**İrəvan bazar meydanı (1914)**



**Daşdan su kəməri**



**Ev bəzək əşyaları**

# MÜNDƏRİCAT

**GİRİŞ** ............................................................................... 3

**I FƏSİL. İRƏVAN QUBERNİYASININ TƏBİİ-COĞRAFİ ŞƏRAİTİ VƏ TƏBİİ SƏRVƏTLƏRİ** ............................................................. 9

**II FƏSİL. İRƏVAN QUBERNİYASININ YARANMASI:** ƏRAZİSİ, SƏRHƏDLƏRİ VƏ İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜ, İDARƏ SİSTEMİ

2.1. İrəvan quberniyasının ərazisi, sərhədləri və inzibati-ərazi bölgüsü............................................................ 55

2.2. İrəvan quberniyasının idarəçilik sistemi ............................ 94

**III FƏSİL. İRƏVAN QUBERNİYASI ƏHALİSİNİN SAY VƏ ETNİK TƏRKİBİ**

3.1. Əhalinin say və etnik tərkibi ............................................ 175

3.2. Əhalinin sosial-silki tərkibi-Ali imtiyazlı təbəqə............. 209

**IV FƏSİL. İRƏVAN QUBERNİYASINDA HƏYATA KEÇİRİLƏN AQRAR İSLAHATLAR VƏ ONLARIN NƏTİCƏSİ** ............................................................................. 219

**V FƏSİL. İRƏVAN QUBERNİYASININ İQTİSADİ HƏYATI (XIX YÜZİLLİYİN SONU-XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ)**

5.1. İrəvan quberniyasının kənd təsərrüfatı (XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəllərində) ............................................ 247

5.2. Torpaq sahibliyi və torpaqdan istifadə............................. 390

5.3. Vergi və mükəlləfiyyətlər ................................................ 403

5.4. Su sahibliyi və sudan istifadə........................................... 460

5.5. Sənətkarlıq, sənaye, ticarət və digər məşğulluq sahələri ......................................................................... 496

**VI FƏSİL. İRƏVAN QUBERNİYASINDA MÜLKƏDAR-KƏNDLİ, AYRI-AYRI KƏNDLƏR ARASINDA TORPAQ, SU VƏ VERGİ ALMAQ UĞRUNDA MÜBARİZƏ (XIX YÜZİLLİYİN İKİNCİ YARISI-XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ)**
6.1. XIX yüzilliyin 50-60-cı illərində kəndlilərin mülkədarlara qarşı mübarizəsi ................................................ 560
6.2. 1870-ci il mayın 14-də qəbul edilmiş islahatdan sonra İrəvan quberniyasında mülkədar-kəndli qarşıdurması ....571
6.3. 1912-ci il islahatından sonra İrəvan quberniyasında mülkədar-kəndli qarşıdurması..................................................613

**VII FƏSİL. 1905-1906-CI İLLƏRDƏ İRƏVAN QUBERNİYASINDA ERMƏNİLƏRİN AZƏRBAYCAN TÜRKLƏRİNƏ QARŞI HƏYATA KEÇİRDİYİ SOYQIRIM SİYASƏTİ** ................................ 626

**VIII FƏSİL. İRƏVAN QUBERNİYASININ MƏDƏNİ HƏYATINDAN (XIX YÜZİLLİYİN İKİNCİ YARISI - XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ)**
8.1. Təhsil.......................................................................... 668
8.2. Ədəbiyyat. Şifahi xalq ədəbiyyatı. Mətbuat. Teatr.......... 728

**NƏTİCƏ**......................................................................... 742
**REZUME (ingilis dilində)** .................................................... 763
**ƏLAVƏLƏR**.................................................................... 785
**MÜNDƏRİCAT** ................................................................. 803

# ELÇİN TEYMUR OĞLU QARAYEV


# QƏRBİ AZƏRBAYCAN XIX YÜZİLLİYİN İKİNCİ YARISI-XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ

***(İRƏVAN QUBERNİYASININ MATERİALLARI ƏSASINDA)***

Formatı: 60*84 1/16.
Buraxılışa məsul: **Aliyə Ələsgərova**
Kompüter dizaynı və bədii tərtibat: **Rəvanə Mirzalıyeva**